MİLLİ MÜDAFİƏ UNİVERSİTETİ
HƏRBİ ELMİ TƏDQİQAT İNSTİTUTU

MEHMAH SÜLEYMANOV

SƏFƏVİLƏR

IX

I Şah Abbas
Şah Səfi

Milli Müdafiə Universiteti Hərbi Elmi Tədqiqat İnstitutunun Elmi şurasının qərarı ilə çapa tövsiyə olunub

MAARİF
nəşriyyatı

BAKI – 2024

Elmi redaktorlar: **Eynulla Mədətli**,
tarix üzrə elmlər doktoru

Səməd Bayramzadə,
tarix üzrə fəlsəfə doktoru

Mehman Suleymanov. Səfəvilər IX. I Şah Abbas. Şah Səfi
Bakı, Maarif, 2024, 832 səh.

Kitab Azərbaycan xalqının dovlətcilik tarixində yeni bir səhifə acmış Səfəvilər dövlətinin qüdrətli hökmdarı I Şah Abbasın xarivi siyasətinə və onun hakimiyyəti illərində ədəbiyyat və mədəniyyətin inkişafına, habelə Şah Abbasın varisi qısa müddət ərzində Səfəvi dövlətinin hökmdarı olan Şah Səfinin həyatı və fəaliyyətlərinə həsr edilmişdir. İlkin mənbələrin araşdırılmasına geniş yer verilməklə kitabda Şah Səfinin hakimiyyəti illərində Səfəvi dövlətinin hərbi-siyasi tarixi də əhatəli şəkildə araşdırılaraq oxucuların diqqətinə təqdim olunmuşdur.

ISBN: 978-9952-447-22-03

© Mehman Süleyman 2024

GİRİŞ

Oxucuların diqqətinə təqdim olunan bu kitabda Səfəvilər dövlətinin qüdrətini ən yüksək zirvəyə çatdıran I Şah Abbasın dövlətçilik fəaliyyətinin iki istiqaməti – onun xarici siyasəti və ədəbiyyat və mədəniyyətin inkişafındakı rolu, habelə onun varisi olmuş Şah Səfinin hakimiyyətinin müxtəsər tarixi öz əksini tapmışdır. Azərbaycan xalqının dünya tarixinin dahiləri sırasına bəxş etdiyi Şah Abbasın dövlətçilik fəaliyyəti o qədər zəngindir ki, onun araşdırılmasını cild-cild kitablara sığışdırmaq mümkün deyildir. Müəllifin Şah Abbasla bağlı öncə işıq üzü görmüş araşdırmalarında (Süleymanov M. Səfəvilər VII. I Şah Abbas. Bakı, 2023; Süleymanov M. Səfəvilər VIII. I Şah Abbas. Bakı, 2023) bu böyük dövlət adamının bütün həyatını və fəaliyyətini əhatə etmək mümkün olmamışdı. Şah Abbasın izlədiyi xarici siyasət, habelə ədəbiyyat və mədəniyyətə göstərdiyi qayğı onun dövlətçilik fəaliyyətinin çox sanballı bir istiqamətini təşkil edir. Həmin məsələləri araşdırmadan Şah Abbasın şəxsiyyətinin və dövlət adamı kimi fəaliyyətinin bütöv mənzərəsini yaratmaq da mümkün deyildir. Çünki istər xarici siyasət, istərsə də ədəbiyyat və mədəniyyət sahəsində izlədiyi siyasət Şah Abbasın dövlətçilik fəaliyyətini tamamlayan məsələlər idi. Hazırkı kitabda Şah Abbasın dövlətçilik fəaliyyətinin bu istiqamətləri geniş şəkildə tədqiqata cəlb edilmişdir.

Şah Abbasın adları çəkilən istiqamətlərdəki fəaliyyətinin və Şah Səfinin bütövlükdə dövlətçilik fəaliyyətinin araşdırılması hər şeydən əvvəl Səfəvilər dövlətinin tarixinin öyrənilməsi baxımından əhəmiyyət kəsb edir. Səfəvilər dövləti Azərbaycan dövlətçiliyinin mühüm mərhələlərindən biri sayıla bilər. Bu mənada Şah Abbasın və Şah Səfinin şəxsində Səfəvi dövlətinin müəyyən bir dövrünün araşdırılması həm də Azərbaycan tarixinin detallı şəkildə öyrənilməsi baxımından elmi-tarixi əhəmiyyət kəsb edir.

Şah Abbasın xarici siyasətinin və Şah Səfi hakimiyyətinin öyrənilməsi onların dövründə Səfəvi dövlətinin, eləcə də bölgə və Avropa dövlətlərinin qarşılıqlı əlaqələrinin öyrənilməsi baxımın-

dan maraq doğurur. Xüsusilə, qərb dövlətlərinin Osmanlı və Səfəvi dövlətlərinə münasibətinin mahiyyətinin aydınlaşdırılması Şah Abbasın xarici siyasətinin öyrənilməsi ilə tamamlana bilər. Qərb dövlətlərinin Səfəvi dövləti ilə münasibətlərin genişləndirilməsində hansı maraqları izləyirdi, Səfəvi və Osmanlı dövlətlərinin mövcudluğuna qarşı nə dərəcədə səmimi idi və digər məsələlərə aydınlıq gətirilməsi də Şah Abbasın, eləcə də Şah Səfinin xarici siyasətinin gedişini və nəticələrini tədqiq etməyə ehtiyac vardır.

Şah Abbasın apardığı xarici siyasətlə Şah Səfinin apardığı xarici siyasət nə dərəcədə bir-birini tamamlayırdı və ya bir-birindən nə ilə fərlənirdi. Səfəvi şahlarının izlədiyi məqsəd nə idi və öz siyasətlərinin həyata keçirilməsi üçün hansı tədbirləri həyata keçirirdilər.

Adları çəkilən şahların hakimiyyəti illərində izlənilən xarici siyasət həm də iqtisadi əhəmiyyət kəsb edirdi. Bu dövrdə qarşılıqlı mal dövriyyəsi kifayət qədər artdı. Şah Abbas və Şah Səfi dövründə xarici ticarətin strukturunun dəqiqləşdirilməsi baxımından da bu tarixin geniş öyrənilməsi maraq doğura bilər.

Şah Abbas dövründən fərqli olaraq Şah Səfi dövründə ədəbiyyat və mədəniyyət sahəsində vəziyyət kifayət qədər öyrənilməmişdir. Bunun bir səbəb onunla bağlıdır ki, Şah Səfi dövrü tarixi mənbələrdə ətraflı şəkildə əks olunmamışdır. Elmi dövriyyədə olan qaynaqlar isə bu mövzu ilə bağlı yetərli məlumat əldə etməyə imkan vermir. Bütünlükdə, dünya səfəvişünslığında Şah Səfinin hakimiyyət dövrü yetərincə araşdırılmamışdır. Ona görə hazırkı kitabda Şah Səfi dövründə ədəbiyyat və mədəniyyətin vəziyyətinə toxunulmamışdır. Bu mövzu çox ciddi və əhatəli bir tədqiqatı tələb edir.

Şah Abbas dövründə ədəbiyyat və mədəniyyətin vəziyyətinin öyrənilməsi isə yalnız mədəni-tarixi deyil, həm də siyasi-etnik əhəmiyyət kəsb edir. Çünki Səfəvi tarixini saxtalaşdırmağa çalışanlar hər vasitə ilə Şah Səfinin etnik mənsubiyyətini arxa plana keçirməyə və bu etnik mənsubiyyətin onun və hökmdarı olduğu

dövlətin həyatında ciddi rol oynamadığını qabartmağa çalışırlar. Bu yanaşmanın elmi-tarixi əsaslara dayaqlanmadığını ortaya qoymaq üçün Şah Abbas və Azərbaycan dili, Şah Abbas və Azərbaycan ədəbi yaradıcılığı, Azərbaycan türkcəsinin saray həyatında, diplomatik ünsiyyətdə, bədii yaradıcılıqda hansı yer tutduğunu öyrənmək üçün həmin məsələlərin tədqiqinə ehtiyac vardır. Obyektiv və tərəfsiz araşdırma aparmaqla Şah Abbasın Azərbaycan tarixi və Azərbaycan həyatı üçün kim olduğunu ortaya qoymaq mümkündür.

Şah Abbas və Şah Səfi tarixinin öyrənilməsi bütünlükdə Səfəvi dövlətinin tarixinin saxtalaşdırılması, onun Azərbaycan həyatından qoparılması üçün bölgə və dünya tarixşünaslığında narahatlıq doğuracaq qədər kütləviləşmiş, bir çox hallarda adi məntiqi aşan təhriflərin qarşısının alınması üçün də ciddi bir əsas ola bilər.

Şah Abbasın hakimiyyət dövrü ilə Şah Səfinin hakimiyyət dövrü bir-birindən xeyli fərqlənirlər və ona görə də onların hər birinin Səfəvi dövləti tarixində öz yeri vardır. Şah Abbasın hakimiyyət təcrübəsi və ənənəsinin Şah Səfinin dövründə davam etməməsinin nə ilə bağlı olması, həmin təcrübənin olmamasının bütünlükdə Səfəvi dövlətinin qüdrətinə necə təsir göstərməsinin əhatəli və təfərrüatlı şəkildə öyrənilməsinə də ehtiyac vardır. Bütünlükdə Şah Abbasın övlad və siyasi hakimiyyət məsələsinə öz münasibəti var idi. Bu münasibətin mahiyyəti Şah Abbasın fərdi hakimlik maraqlarından daha çox Səfəvi hakimiyyətinə sədaqət və bağlılıqdan irəli gəlməsi haqqında fikirlər də mövcuddur. Şah Səfinin hakimiyyətə gətirilməsinin bu fikirlə nə dərəcədə əlaqəli olduğunun aydınlaşdırılması həm də Şah Abbasın Səfəvi dövlətçiliyinə münasibətinin aydınlaşdırılması baxımından əhəmiyyətli bir məqamdır.

Şah Səfinin hakimiyyət dövrü Səfəvi tarixinin qırılmaz bir həlqəsidir. Bu tarixin yaşadılmasında onun da özünəməxsus rolu vardır. Tarixdən bəllidir ki, Şah Səfi dövlətin özündən əvvəlki qüdrətini bütünlüklə qoruyub saxlaya bilmədi. Sözsüz ki, bunun həm obyektiv, həm də subyektiv tərəfləri vardır. Şah Səfi hakimiyyəti

illərinə obyektiv tarixi qiymət verilməsi üçün onların da araşdırılmasına ehtiyac vardır.

Şah Səfinin hakimiyyəti dövrünün tədqiq edilməsi Azərbaycanın və konkret olaraq Səfəvi dövlətinin hərb tarixinin detallı öyrənilməsi baxımından da elmi-tarixi əhəmiyyət kəsb edir. Bu dövrün böyük bir hissəsini Şah Səfi müharibələrdə keçirdi. Doğrudur, Şah Abbas dövrü sərhədlərini bütünlüklə qorumaq mümkün olmadı. Səltənətin həm şərqində, həm də qərbində bəzi strateji məntəqələr əldən verildi. Bununla belə, özbək qoşunlarına qarşı döyüşlərdə, Osmanlı qoşunlarının ilk hücumlarının qarşısının alınmasında Şah Səfinin təşkilatçılıq işi və qoşunların döyüş hazırlığı vəziyyəti lazım olan tələblərə cavab verdi. Bu baxımdan Şah Səfi dövründə hərb işinin vəziyyəti və ona təsir edən amillərin tədqiq olunması da elmi aktuallığını saxlamaqdadır.

Şah Səfəvinin hakimiyəti illərində Səfəvi dövlətçilik ənənələrinin necə davam etməsi və bu dövlətçiliyin inkişaf xüsusiyyətlərinin aydınlaşdırılması da həmin mövzuda araşdırma aparılmasını tələb edir. Bu dövrdə Səfəvi dövlətinin xarakterində dəyişiklik baş verməsi və onun türkçülük həyatından uzaqlaşması haqqında ortyaya qoyulacaq əsaslı faktlar yoxdur. Doğrudur, Şah Səfi də hakimiyyətin saxlanması üçün ifrat qərarlardan çəkinmirdi. Bu qərarların məntiqli olub-olmamasının üzə çıxarılması da ciddi araşdırmalarla ortaya qoyula bilər.

Şah Abbasdan fərqli olaraq Şah Səfi haqqında yetərli sayda mənbə və elmi ədəbiyyat mövcud deyil. Doğrudur, Azərbaycan tarixşünaslığına aid ötəri olaraq bəzi elmi-tarixi araşdırmalarda Şah Səfinin hakimiyyət illərinə toxunulduğunu görmək mümkündür. Şah Səfinin hakimiyyət illəri Osmanlı və İran tarixşünaslığında nisbətən daha çox tədqiq edilmişdir. Bu araşdırmalar da daha çox mövzu kontekstində aparılmışdır. Həmin araşdırmalardan və hazırda elmi-tarixi dövriyyədə olan farsdilli və türkdilli mənbələrdən geniş şəkildə istifadə edilmişdir. Bütünlükdə, istər Şah Abbasın, istərsə də Şah Səfinin hakimiyyət dövrü Azərbaycan tarixşünaslığında ilk dəfədir ki, geniş tədqiqatın mövzusu olmuşdur.

Buna görə sözsüz ki, mövzu ilə bağlı maraq doğuracaq bütün məsələlərin hazırkı tədqiqatda əhatə edildiyini iddia etmək doğru olmazdı. Şübhəsiz ki, gələcək tədqiqatlar, habelə elmi dövriyyəyə gətirilə biləcək yeni mənbələr bu mövzuların yeni təfərrüatlarının üzə çıxarılmasına imkan verəcəkdir.

I FƏSİL
ŞAH ABBASIN XARİCİ SİYASƏTİ

1.Rusiya ilə münasibətlər

Rusiya ilə Səfəvi dövləti arasında münasibətlərin formalaşması I Şah İsmayılın hakimiyyəti illərinə təsadüf edir. Səfəvi dövlətini təşəkkül tapdığı illərdə Rusiya dövləti də işğalçılıq siyasətini genişləndirməklə hüdudlarının böyüməsinə nail olmuşdu. Bu dövlət üçün cənubda mövcud olan Səfəvi dövləti kimi böyük bir dövlətlə əlaqələr yaradılması həm siyasi, həm hərbi, həm iqtisadi maraqlardan irəli gəlirdi. Elmi-tarixi ədəbiyyatda mövcud olan məlumatlara görə, iki dövlət arasında əlaqələrin qurulmasına ilk cəhd I Şah İsmayıl tərəfindən göstərilmiş və onun adı mənbələrdə xatırlanmayan elçisi Rusiya sarayına göndərilmişdi. Həmin elçinin 1521-ci ildə Moskvaya gəldiyi bildirilir. Osmanlı mənbələrində bu haqda məlumat vardır. Bu məlumatın Osmanlı mənbələrində xatırlanması və bu elçiliyin səfərindən sonra Moskva knyazlığından xeyli sayda top və təchizat alınması onu deməyə imkan verir ki, Səfəvi elçisinin Moskvaya göndərilməsində əsas məqsəd də Rusiya ilə hərbi-texniki əməkdaşlığın yaradılamsı idi. Bundan başqa Şah İsmayıl tərəfindən Osmanlı təhlükəsinə qarşı Rusiyadan kömək alınması imkanlarının aranması da istisna deyildir (1).

Şah İsmayılın hakimiyyəti illərində başqa bir elçiliyin Moskvaya göndərilməsi və ya Rusiyadan qəbul edilməsi haqqında hələlik hər hansı bir məlumat elmi-tarixi dövriyyədə yoxdur. Şah Təhmasibin hakimiyyəti illərində Rusiya ilə əlaqələr daha da genişlənməyə başladı. 1552-ci ildə Kazan xanlığını və 1556-cı ildə Həştərxan xanlığını işğal edəndən sonra Rusiya dövləti Xəzər dənizinə çıxışı təmin etdi. Bu da Rusiyaya imkan verdi ki, bu bölgədəki ticarət yollarına nəzarəti öz əlinə keçirsin. Çünki Osmanlı dövləti də bu bölgəni öz nəzarəti altına almaq istəyirdi. Bölgədən keçən ticarət yollarının nəzarət altında saxlanması üçün Osmanlı dövləti hətta Volqa və Don çayları arasında kanal da yaratmaq istəyirdi.

Həştərxanın işğal altına alınması da bu planların tərkib hissəsi idi. Lakin Sultan Süleymanın hakimiyyəti illərində bu planları həyata keçirmək mümkün olmadı. Rusiya dövləti isə İvan Qroznının hakimiyyəti dövründə Xəzər dənizinin şimal hövzəsində öz mövqeyini xeyli möhkəmləndirə bildi (2).

1553-cü ildə Seyid Hüseyn adlı qızılbaş əyanının rəhbərliyi altında Səfəvi elçiliyi Moskvaya göndərildi (3). Bu elçilik Şah Təhmasibin hakimiyyəti illərində iki dövlət arasında ilk elçilik idi. Hazırda elmi dövriyyədə olan mənbələrdə bu elçiliyin qarşısına qoyulan vəzifələr, elçiliyin əldə etdiyi nəticələr barəsində hər hansı bir məlumat yoxdur. Güman edilir ki, bu elçiliyi göndərməkdə Şah Təhmasibin məqsədi Osmanlı təhlükəsinə qarşı Rusiyadan kömək alınması idi. Çünki Osmanlı təzyiqlərinin qarşısının alınması hər iki dövlətin maraqları daxilində idi.

1554-cü ildə isə Şirvan hakimi olan Abdulla xan Ustaclının rəhbərliyi altında növbəti Səfəvi elçiliyi Moskvaya yollandı. Şirvan vilayəti Rusiya ilə həmsərhəd olan vilayətə çevrildikdən sonra qarşılıqlı ticarətin genişlənməsi üçün daha böyük imkanlar əldə etdi. Bu elçilik Rusiya çarı ilə görüşərək ikitərəfli ticarətin genişləndirilməsi ətrafında müzakirələr aparmalı idi (4). Rusiyanın tacirləri də Səfəvi dövləti ilə əlaqələr qurulmasına böyük maraq göstərirdilər. Çünki Səfəvi dövləti ərazisində alınan şərq mallarını Rusiya tacirləri asanlıqla Şimali Avropa ölkələrinə çıxarda və orada satmaqla böyük faydalar əldə edə bilirdilər. Səfəvi dövləti ilə ticarət əlaqələri qurulmasının üstünlükləri arasında məsafə yaxınlığı, Xəzər dənizi vasitələri ilə əlaqələr qurulması imkanları, Xəzər dənizinin cənub sahilləri boyunca rus tacirlərini maraqlandıracaq məhsulların istehsal edilməsi, daşınmaların asanlıqla həyata keçirilməsinin mümkünlüyü və s. məqamlar var idi (5). Hər iki dövlətin tacirləri başqa bir dövlətin ərazisindən keçmədən birbaşa öz fəaliyyətlərini qura bilərdilər ki, bu da onlara həm də əlavə xərclərdən qurtarmaq üstünlüyü verirdi. Bu ticarət əlaqələrinin genişlənməsi həm də iki dövlət arasıdakı münasibətlərin ümumi ruhuna müsbət təsir göstərirdi.

Həştərxan xanlığı Rusiyaya birləşdiriləndən sonra 1556-cı ildə bu dövlətin də elçisi Səfəvi sarayına gəldi (6). Bu səfər Rusiya ilə Səfəvi dövləti arasında ticarət əlaqələrinin genişlənməsinə yeni bir təkan verdi. Çox qısa müddətdən sonra Səfəvi dövləti ilə Rusiya arasında fəal ticarət əlaqələrinin əsası qoyuldu. Bu əlaqələr qarşılıqlı şəkildə həyata keçirilirdi. Yəni rus tacirləri Səfəvi şəhərlərinə, Səfəvi tacirləri isə Rusiya ərazisinə səfərlər edir, öz mallarını satır və ya yeni mallar alırdılar.

Avropa ölkələrindən və Rusiyanın şimalından Xəzər hövzəsinə gələn tacirlər üçün nəqliyyat yolları Moskvadan başlayırdı. Buradan yüklər Moskva çayı vasitəsilə Volqa çayına çıxarılır və sonra da Həştərxana daşınırdı. Cənubdan gələn yüklər üçün də əsas dayanacaq nöqtələrindən biri məhz Həştərxan idi. Burada yüklər ya satılır, ya da buradan şimala və ya da cənuba daşınırdı. Yəni Həştərxan, həm Səfəvi tacirləri üçün, həm də Səfəvi hüdudlarına mal daşıyan tacirlər üçün mühüm tranzit qovşağı idi. Tacirlərin fəaliyyətinin təşviqləndirilməsi və onların səfər əziyyətlərinin yüngülləşdirilməsi üçün Həştərxanda iki böyük mehmanxana - karvansara tikilmişdi. Bu mehmanxanaların biri Buxara istiqamətində ticarət edən tacirlər üçün, digəri isə Xəzərin cənubu ilə ticarətdə olan tacirlər üçün nəzərdə tutulmuşdu. Tacirlər bu mehmanxanalarda gecələməkdən əlavə, anbarlarda öz yüklərini də saxlaya bilərdilər. Bu mehmanxanalar həm də qarşılıqlı mal mübadiləsinin həyata keçirildiyi məkan idi. Şərq və qərb tacirləri burada öz mallarını mübadilə edirdilər. Rusiya ərazisində Səfəvi dövlətinin maraqları çərçivəsində şərqlə qərb arasında aparılan ticarətin mühüm qovşaqlarından biri də Kazan şəhəri idi. Mənbələrdə Azərbaycandan və Səfəvi dövlətinin digər məntəqələrindən bu şəhərə də çoxlu sayda tacirlərin gəlməsi haqqında məlumatlar mövcuddur (7).

Ticarətin genişlənməsi iki dövlət arasında dəniz nəqliyyatının inkişafına və dəniz marşrutlarının mənimsənilməsinə şərait yaratdı. Digər ölkələrlə olduğu kimi Rusiya ilə ticarət işlərində də Səfəvi hüdudlarında istehsal olunan ipək əsas yeri tuturdu. Məlumdur ki, Səfəvi hüdudları daxilində ipəyin istehsal mərkəzləri Azər-

baycan şəhərlərində və Xəzərin cənub hövzəsində yerləşirdi. Şamaxıda, Ərəşdə və Təbrizdə istehsal olunan ipək səltənət daxilində də, səltənət xaricində də çoxlu sayda alıcılara malik idi. Xarici ticarət nümayəndələri də həm Azərbaycan hüdudlarında, həm də Səfəvi dövlətinin digər şəhərlərində istehsal olunan ipəyə böyük maraq göstərirdilər və ipək ticarəti qərb tacirlərinə böyük qazanc gətirirdi. Amma Azərbaycan ərazisindən ixrac olunan mal yalnız ipəkdən ibarət deyildi. İpəkdən başqa müxtəlif heyvanlara məxsus xəz və dərilər, müxtəlif silah əşyaları, metal məmulatlar, baqqaliyyə və ədviyyat malları da Rusiyaya ixrac olunurdu (8).

İngilis tacirlərinin Rusiya ərazisindən keçərək Səfəvi dövləti ilə ticarət əlaqələri qurmağa çalışması Səfəvi dövləti ilə Rusiya arasında olan münasibətlərin daha da yaxınlaşmasına əlavə imkanlar açdı. İngiltərə dövləti də Rusiya ərazisindən keçməklə Səfəvi dövləti ilə ticarət əlaqələrinin genişlənməsi istiqamətində ciddi bir siyasət izləyirdi. Bununla, İngiltərə çalışırdı ki, Səfəvi dövləti ərazisində istehsal olunan ipəyin Avropa bazarına daşınmasında Rusiyadan keçən marşrutun üstün mövqe qazanmasına nail olsun. Bu, İngiltərəyə imkan verərdi ki, Səfəvi dövləti ərazisində istehsal olunan ipəyin Avropa bazarına daşınmasında Osmanlı dövlətinin və Portuqaliyanın üstün imkanlarının qarşısı alınsın və ingilis tacirləri üçün daha münasib fəaliyyət imkanları yaradılsın. Məlumdur ki, bu məqsədlə ingilis ticarət heyətləri Səfəvi dövlətinə səfərlər etdilər və hətta Şah Təhmasiblə də görüşə bildilər (9).

Doğrudur, Osmanlı qoşunlarının davamlı hücumları və bu hücumların qarşısının alınması üçün Şah Təhmasib sarayının gərgin fəaliyyəti Rusiya ilə ticarət əlaqələrinin genişləndirilməsi üçün xüsusi diqqət ayrılmasına imkan vermirdi. Lakin bu əlaqələrin qurulması Səfəvi sarayının maraq sahəsindən də kənar deyildi.

1563-cü ildə Şah Təhmasib tərəfindən yeni bir elçilik heyəti Rusiyaya göndərildi. Bu elçilik heyəti Şirvandan və Dağıstandan keçməklə Rusiya dövlətinin paytaxtına yollandı. Elçilik heyətinə tapşırıq verilmişdi ki, iki dövlət arasında ticarət əlaqələrinin daha

da genişləndirilməsi haqqında Rusiya paytaxtında müzakirələr aparsın (10).

Elmi-tarixi ədəbiyyatda bu heyətin fəaliyyəti haqqında əlavə məlumatla rastlaşmaq çətindir. Lakin bir-neçə ildən sonra Rusiyadan gələn elçilik heyətinin özü ilə bəzi silahları da gətirməsi belə bir ehtimal etməyə imkan verir ki, 1563-cü ildə Rusiyaya yollanmış elçilik heyəti həm də Rusiyadan silah alınması məsələlərini müzakirə etmişdi. Rusiya elçilik heyətinin Səfəvi dövlətinə gəlməsi 1568-ci ilə təsadüf edir. Həmin il Aleksey Xoznikovun rəhbərliyi altında olan elçilik heyəti Səfəvi dövlətinə səfər etdi. Bu elçilik heyəti özü ilə 100 ədəd top və 500 ədəd tüfəng gətirdi (11).

Mövcud olan bəzi məlumatlara görə, 1568-ci ildə Rusiyadan iki elçilik heyəti gəlmişdi. Bu heyətlərdən biri Qəzvinə, digəri isə Hörmüzə yollanmışdı. Nümayəndə heyətləri Rusiyada istehsal olunan dəmir, xəz, silahlar, mum və başqa əşyalar üçün satış bazarı tapmalı idilər. 1569-cu ildə Səfəvi sarayına yeni bir elçilik heyəti göndərildi. Bu elçilik heyətinə D.Karpoviç adlı birisinin rəhbərlik etdiyi bildirilir. Ehtimal edilir ki, bu elçilik heyəti ilk növbədə Rusiya ilə Səfəvi dövləti arasında hərbi-siyasi münasibətlərin genişlənməsinə çalışmalı idi. Bundan başqa elçilik heyəti həm də tərəflər arasında ticarət əlaqələrinin fəallaşmasına çalışmalı idi. Rusiya çarı bu elçilik heyəti vasitəsilə Şah Təhmasibə qiymətli hədiyyələr də göndərmişdi. Onların arasında 30 ədəd top, 4 min ədəd tüfəng də var idi. Rusiya çarı eyni zamanda 500 nəfər təcrübəli tüfəngçi də göndərmişdi ki, onlar qızılbaş döyüşçülərinə tüfəngdən istifadə edilməsi qaydalarını öyrətsinlər. Rusiya elçisi Şah Təhmasibə onu da çatdırdı ki, əgər gətirilən tüfəng və toplar şahın xoşuna gələrsə, Rusiya çarı həmin silahlardan istənilən sayda Almaniyadan alaraq Səfəvi dövlətinin ixtiyarına çatdıra bilər. Şah Təhmasib bu xəbəri məmnunluqla qarşıladı və vəd etdi ki, bu məsələ ən yaxın bir zamanda nəzərdən keçiriləcəkdir. Amma məlumdur ki, sonradan Şah Təhmasib Rusiya dövləti ilə hərbi-texniki sahədə əlaqələrin genişləndirilməsinə xüsusi bir meyl göstərmədi. Bunun da öz səbəbləri var idi. Bir tərəfdən Səfəvi dövləti ilə Os-

manlı dövləti arasında sülh razılaşması əldə edildi və Şah Təhmasib Osmanlı təhlükəsini aradan qaldırdığı üçün yenidən silahlanmağa da əlavə bir lüzum görmədi. Şah Təhmasib Osmanlı dövləti ilə əldə edilmiş sülhün pozulmasını istəmirdi və ona görə də yeni hərbi hazırlıqların aparılmasını da lazım bilmirdi. Digər tərəfdən isə Rusiyanın gürcü çarları ilə Səfəvi maraqlarının ziddinə olan əlaqələrin qurulmasına çalışması Şah Təhmasibin Rusiyaya yönələn diqqətini bir qədər zəiflətdi (12).

Şah Təhmasibdən sonra Səfəvi taxtına çıxan II Şah İsmayılın çox da uzun sürməyən hakimiyyəti illərində Rusiya sarayı ilə elçilik mübadiləsi haqqında məlumat yoxdur. Bu iki dövlət arasında növbəti elçilik mübadiləsi Şah Abbasın atası Şah Məhəmməd Xudabəndənin hakimiyyəti illərinə təsadüf edir. Şah Məhəmməd Xudabəndənin hakimiyyəti dövründə Səfəvi dövləti kifayət qədər zəiflədi və bunun nəticəsi kimi bu dövlətin böyük bir hissəsi Osmanlı dövlətinin işğalı altına düşdü. Bu işğalın, habelə Osmanlı və özbək qoşunları təhlükəsinin qarşısının alınması üçün Şah Məhəmməd Xudabəndə Rusiya çarı I Fyodora müraciət etmək qərarına gəldi. Şah tərəfindən göndərilən elçilik heyətinə Hadi bəy adlı qızılbaş əyanı rəhbərlik edirdi. Bəzi məlumatlara görə, Hadi bəyin rəhbərlik etdiyi elçilik heyətindən əvvəl də Şah Məhəmməd Xudabəndə tərəfindən Rusiya sarayına elçilik heyəti göndərilmişdi. Bu elçilik heyətinin səfəri haqqında da hazırda elmi dövriyyədə olan mənbələrdə kifayət qədər məlumat yoxdur. Yalnız Türkiyə araşdırmaçılarının əsərlərində yalnız belə bir heyətin göndərilməsi xatırlanır. Bu məlumatlara görə, Rusiya çarı Fyodor Osmanlı sultanına göndərdiyi məktubunda belə bir heyətin gəlməsi və Rusiya dövlətindən Osmanlı təhlükəsinə qarşı kömək almaq istədiyini bildirmişdi. Rusiya çarının yazdığına görə, o, Osmanlı dövlətinə qarşı Səfəvi sarayı ilə əməkdaşlıq etməkdən imtina etmişdi (13).

Hadi bəyin rəhbərliyi altında olan elçilik heyəti 1587-ci ilin əvvəlində Rusiyaya yola düşdü. Bu elçilik heyəti Rusiya paytaxtında olarkən iki dövlət arasında hərbi-siyasi əməkdaşlıq imkanlarının

araşdırılması ilə məşğul olmalı idi. Şah Məhəmməd Xudabəndə tərəfindən imzalanmış olan məktubda Rusiya çarından Osmanlı hücumlarının qarşısının alınması üçün kömək istənildi. Şah Məhəmməd Xudabəndə vəd edirdi ki, belə bir köməyin əvəzində Səfəvi sarayı Dərbənd və Bakı qalalarını, habelə bu qalalar arasındakı Xəzərboyu əraziləri Rusiya dövlətinə güzəştə getməyə hazırdır. Rusiya çarı Fyodor sonralar Şah Abbasa göndərdiyi məktubunda yazırdı ki, Hadi bəy onun tərəfindən çox böyük mehribanlıqla qarşılanmışdır. Bu məktubda Rusiya çarı Şah Məhəmməd Xudabəndəni hətta öz qardaşı adlandırırdı (14).

Hadi bəyin rəhbərlik etdiyi elçilik heyətinin səfəri Şah Məhəmməd Xudabəndənin hakimiyyətinin sonuncu ilinə təsadüf edirdi. Bu zaman onun tərəfindən Osmanlı qoşunlarına qarşı göstəriləcək kömək əvəzində Rusiyaya vəd edilən Dərbənd və Bakı qalaları Osmanlı qoşunlarının nəzarəti altında idi. Əgər Rusiyanın göstərəcəyi hərbi kömək bu şəhərlərin azad edilməsi ilə nəticələnəcəkdisə, onda onlar Rusiyaya güzəştə gedilməli idi.

Rusiya çarı Fyodor İvanoviç bu təklifi rəğbətlə qarşıladı. Lakin onun Səfəvi şahına hərbi kömək göstərmək imkanları elə də böyük deyildi. Çünki Rusiya Avropa cəbhəsində apardığı müharibədən yenicə çıxmışdı və öz qüvvələrini bərpa etmək üçün Rusiyaya xeyli vaxt lazım idi. Bununla belə, Rusiya çarı bu cəlbedici təklifdən imtina da etmək istəmirdi. Digər tərəfdən də Rusiya ilə sərhəddə yerləşən Dərbənd şəhərinin Osmanlı nəzarəti altında olması Rusiya maraqlarına cavab vermirdi və Rusiya sarayı Dərbənd şəhərinin ələ keçirilməsinə böyük əhəmiyyət verirdi. Ona görə də 1588-ci ilin əvvəlində Rusiya çarı da öz elçilik heyətini Səfəvi sarayına yola saldı. Bu elçilik heyətinə Qriqori Vasilçikov rəhbərlik edirdi. Qriqori Vasilçikov Rusiya çarının məktubunu çatdırmaqla bərabər, Şah Məhəmməd Xudabəndənin etdiyi təkliflər ətrafında müzakirə aparmalı idi. Bu elçilik heyəti Həştərxana çatanda Şah Məhəmməd Xudabəndənin hakimiyyətdən uzaqlaşdırılması və onun yerinə oğlu Şah Abbasın hakimiyyətə gəlməsi haqqında məlumat alındı. Bu məlumatdan sonra Q.Vasilçikov heç də səfərini

ləğv etmədi. Ona tapşırılan vəzifəni sona çatdırmaq üçün Rusiya çarı tərəfindən yazılmış məktubda Şah Məhəmməd Xudabəndənin adının yerinə Şah Abbasın adını yazdı. Sonra da Rusiya elçilik heyəti Səfəvi elçilik heyəti ilə birlikdə dəniz yolu ilə Səfəvi dövlətinə tərəf yoluna davam etdi (15).

Elçilik heyətlərinin Xəzər dənizi ilə Gilan istiqamətində səfəri beş həftə davam etdi və bu heyət 1588-ci ilin sentyabr ayında Gilan vilayətinə aid olan Ləngərud limanında sahilə çıxdı. Elmi-tarixi ədəbiyyatda mövcud olan bəzi məlumata görə, həm Hadi bəy, həm də Q.Vasilçikov məhz Gilanda olarkən Şah Abbasın taxta çıxması haqqında məlumat aldılar (16). Şah Abbasın hakimiyyətinin ilk illərində Gilana Xan Əhməd Karkiya hakimlik edirdi. Xan Əhməd irsi olaraq vilayət hakimliyinə sahib olmuşdu və Şah Məhəmməd Xudabəndənin bacısını da özünə nikah etdirmişdi. Yəni Xan Əhməd şahla nikah qohumluğuna malik idi. Səfəvi sarayı bu qohumluğu yaratmaqla Xan Əhmədin şah hakimiyyətinə bağlılığını daha da artırmaq istəyirdi. Lakin Xan Əhməd dövlətin zəifləməsindən istifadə edərək müstəqilləşmək fikrinə düşdü. Yəni Xan Əhməd şah hakimiyyətinə tabe olmaqdan imtina etdi. Ona görə idi ki, Rusiya elçilik heyətinə qarşı Gilan vilayətində lazım olan ehtiram və qayğı göstərilmədi. Q.Vasilçikov hətta onu qarşılayan vilayət məmurlarının kobud rəftarı ilə də qarşılaşdı. Bununla bağlı Rusiya elçisi Xan Əhmədin vəziri olan Xacə Hüsaməddin Ləngərudiyə də öz şikayətlərini çatdırdı (17).

Bir məlumata görə isə Q.Vasilçikov Rusiya çarından Gilan hakimi Xan Əhmədə də məktub gətirmişdi. O da iddia olunur ki,, Xan Əhmədə gətirilən məktub heç də Rusiya çarı tərəfindən imzalanmamışdıı. Bu isə Xan Əhmədin narazılığı ilə qarşılaşmışdı. Q.Vasilçikov da öz növbəsində Gilan hakiminin hərəkətini narazılıqla qarşıladı. Belə ki, Rusiya çarı tərəfindən Səfəvi şahına göndərilən hədiyyələrin yerləşdirildiyi sandıqları yerli məmurlar açmaq istəyirdilər. Q.Vasilçikov da buna razılıq verməyərək Xan Əhmədin vəzirinə öz şikayətini çatdırdı. Məlumatlardan aydın olur ki, Q.Vasilçikovun gətirdiyi hədiyyələrin bir hissəsini yerli

məmurlar onun əlindən aldılar. Məmurlar bildirirdilər ki, Q.Vasilçikov özü ilə çoxlu əşya gətirib və bir nəfərin gömrüksüz bu qədər əşyanı Səfəvi dövləti daxilinə aparmasına icazə verilmir. Q. Vasilçikov da ona qarşı göstərilən davranışı Rusiya kimi böyük bir dövlətə hörmətsizlik kimi qəbul edirdi və Xan Əhmədin vəziri ilə görüşündə də tələb etdi ki, ona qarşı lazımi ehtiram nümayiş etdirilsin. Rusiya səfiri ondan da narazılıq edirdi ki, çar tərəfindən Səfəvi şahına hədiyyə kimi göndərilmiş bəzi əşyalar da Gilan məmurları tərəfindən onun əlindən alınmışdı. Bildirilir ki, Hadi bəy ovda olan Xan Əhmədin yanına yollanaraq onunla görüşmüş və Rusiya səfirinin gəlməsi barəsində ona məlumat vermişdi. Ancaq Xan Əhməd Rusiyanın səfiri ilə görüşməyə elə də tələsmədi. Çünki Rusiya çarı tərəfindən ona hədiyyə göndərilməməsindən xəbər tutmuşdu və ona görə də səfirə qarşı biganə münasibət nümayiş etdirirdi. Hadi bəy Xan Əhmədlə görüşdən geri qayıtdıqdan sonra Q.Vasilçikov öz giley-güzarını ona da bildirdi. Hadi bəy Moskvaya yollanarkən kazaklar ona hücum etmiş və onun əşyalarının bir hissəsini talan etmişdilər. Rusiya sarayı bu hadisədən xəbər tutanda Səfəvi şahının səfiri üzərinə hücum etmiş 400 nəfər kazakı taparaq qətlə yetirdi və sonra da Hadi bəyə dəymiş ziyanın iyirmi bərabərini ona qaytardı. Q.Vasilçikov bunları Hadi bəyə xatırladaraq Səfəvi dövləti ərazisində ona da oxşar ehtiram göstərilməsini istədi (18).

Görünür, Rusiya səfirinin giley-güzarı Xan Əhmədə çatanda o tapşırıq verdi ki, Q.Vasilçikovu Lahicana gətirsinlər. Rusiya sarayının əyanı Boris Qodunov tərəfindən Xan Əhmədə bəzi hədiyyələr göndərilmişdi. Q.Vasilçikovu müşayiət edən Gilan əyanlarından biri ona məsləhət gördü ki, B.Qodunovun göndərdiyi hədiyyələr Rusiya çarı adından Xan Əhmədə təqdim olunsun və bununla Xan Əhmədin könlünü almağa çalışsın. Q.Vasilçikov isə bu məsləhəti qəbul etmədi. Görüş zamanı Xan Əhməd rus qoşunlarının Dərbənd və Bakını tutmaq planları barəsində yayılmış söhbətlərə cavab istəsə də, Q.Vasilçikov bu sualı cavabsız qoydu. Çünki o, Xan Əhmədin Osmanlı sarayı ilə yaxın münasibətlər

qurmaq istəyindən xəbəri var idi və ehtiyat edirdi ki, onun Xan Əhmədə verdiyi cavab gələcəkdə Rusiya-Səfəvi münasibətlərinin qurulmasına əks təsir göstərə bilər. Lahican şəhərində iki həftə qaldıqdan sonra Rusiya səfiri yenidən Ləngəruda qayıtdı və 1588-ci ilin oktyabr ayında oradan Qəzvinə yola düşdü. Bu heyət Səfəvi dövlətinin paytaxtına yetişəndə Şah Abbas qoşunlarla Xorasan ətrafında idi. Səfəvi şahı özbək qoşunlarının Xorasan üzərinə hücumunun qarşısını almaq üçün bu vilayətə yollanmışdı. Ona görə də, Rusiya səfiri bir müddət Qəzvində gözləmək məcburiyyətində qaldı. Onun Qəzvində olduğu günlərdə Osmanlı sarayının da 20 nəfərlik bir elçilik heyəti bu şəhərə gəldi. Q.Vasilçikova bəlli oldu ki, Osmanlı elçilik heyətinin üzvlərinə şah xəzinəsindən cari xərclər üçün hər gün üç tümən pul ödənilir. Rusiya elçilik heyətinin üzvlərinə isə gündəlik xərclər üçün daha az vəsait ayrılırdı. Q.Vasilçikov bu məsələni də Rusiya elçilərinə hörmətsizlik kimi qəbul etdi (19).

Rusiya səfiri altı həftə Qəzvində gözləməli oldu. Mövcud olan məlumata görə, Qəzvində olduğu günlərdə Rusiya səfiri Gürcüstandan gəlmiş nümayəndə ilə görüşdü. Vasilçikov onunla görüşərək şah qəbulunda olmağın protokolu ilə maraqlandı. Gürcüstan nümayəndəsi isə bildirdi ki, yerli protokola görə şah hüzurunda olan qonaqlar onun ayağını öpməlidirlər. Rusiyada belə bir protokol norması olmadığı üçün Vasilçikov bu məlumatı təəccüblə qarşıladı (20).

Rusiya səfirinin gəlməsi xəbəri Şah Abbasa çatdırılanda o əmr etdi ki, elçilik heyəti Hadi bəyin müşayiəti ilə İsfahana yollansın və orada gözləsin. Bu əmrdən sonra Rusiya elçilik heyəti, Hadi bəy və onları müşayiət edən on nəfər Savə-Qum-Kaşan yolu ilə İsfahana yola düşdülər. Vasilçikova deyilmişdi ki, özü ilə elçilik heyətindən yalnız bir nəfəri apara bilər. O bu təkliflə razılaşmadı və göstərdiyi təkiddən sonra elçilik heyətindən üç nəfərin onunla İsfahana yollanmasına razılıq ala bildi. Bu heyət təxminən bir ay İsfahanda Şah Abbasın Xorasandan geri qayıtmasını gözlədi. Buna baxmayaraq elçilik heyəti İsfahanda da Səfəvi şahı ilə görüşə

bilmədi. Məlumat alındı ki, Şah Abbas Xorasandan İsfahana deyil, Qəzvinə yollanmaqdadır. Belə olanda elçilik heyəti də yenidən Qəzvinə dönmək qərarına gəldi. Bu heyət Qum şəhərinə yaxınlaşanda Hadi bəy elçilik heyətindən ayrılıb irəli hərəkət etdi ki, özünü daha tez Qəzvinə çatdırsın və Rusiya səfəri, habelə Rusiya elçisinin gəlişinin səbəbləri barəsində Şah Abbasa məlumat versin. Şah Abbas da Vasilçikovun Qəzvinə qayıtması xəbərini alanda onun qarşılanmasına 30 nəfərlik bir atlı dəstəsi göndərdi. Bu atlı dəstəsinə qızılbaş əmiri olan Hüseynqulu bəy rəhbərlik edirdi. Vasilçikovun nəzərinə çatdırıldı ki, Şah Abbas tərəfindən onun elə at belində qarşılanması gözlənilir. Vasilçikov bu təklifə də öz narazılığını bildirdi və səltənət sarayında şah tərəfindən qəbul olunması arzusunu açıqladı (21).

Məlumdur ki, Rusiya səfiri 1589-cu il aprel ayının 9-da Şah Abbas tərəfindən Çehelsütun sarayında qarşılandı. Buradan belə bir qənaətə gəlmək olar ki, Rusiya səfirinin bu istəyi şah məurları tərəfindən nəzərə alındı. Mövcud olan məlumata görə, saray qarşısında Rusiya elçisinin qarşılanması üçün hər hansı bir protokol icra edilmədi. Elçilik heyəti Şah Abbas tərəfindən sarayın eyvanında qarşılandı. Rusiya elçisi təzim edib Şah Abbasın əlindən öpməli oldu. Elçinin tərcüməçisi və münşisi də şahın əlini öpdükdən sonra onlar üçün ayrılmış yeri tutdular. Sonra Rusiya çarı tərəfindən göndərilmiş hədiyyələr Şah Abbasa təqdim olundu. Şah Abbas bu hədiyyələrə görə Rusiya çarına və elçilik heyətinə öz təşəkkürünü bildirdi. Elçilik heyətinin üzvləri onlar üçün müəyyənləşdirilmiş yeri tutdular. Vasilçikova Şah Abbasla üzbəüz yerdə oturmaq təklif olundu (22).

Bu qəbul zamanı Rusiya çarı Fyodorun məktubu da Şah Abbasa təqdim olundu. Məktubda Şah Abbasa ünvanlanmış xeyli sayda xoş sözlər var idi. Rusiya çarı onu öz qardaşı, Persiya və Şirvanın şahı adlandırıdı. Öz atası ilə Şah Abbasın atası arasında yaranmış xoş münasibətlərə toxunaraq Rusiya çarı iki dövlət arasında qarşılıqlı əlaqələrin saxlanması arzusunda olduğunu bildirirdi. Fyodorun məktubunda iki dövlət arasında əlaqələrin möh-

kəmləndirilməsi məqsədi ilə Hadi bəyin rəhbərliyi altında Səfəvi elçiliyinin Moskvaya gəlməsi, səfər zamanı onun əşyalarının kazaklar tərəfindən əlindən alınması və bu kazakların ciddi cəzalandırılması haqqında da məlumat var idi. Yəni Fyodor bu sözlərlə göstərmək istəyirdi ki, onun Səfəvi sarayı ilə münasibətlərin yaxşılaşdırılması haqqında fikirləri ciddi və səmimidir. Çar Fyodor ona da işarə edirdi ki, Osmanlı qoşunları ilə Krım qoşunlarının Terek çayına çıxmaq və sonra da Səfəvi dövləti ərazisinə soxulmaq planları vardır və Rusiya dövləti isə bu planların qarşısını almağa çalışırdı. Rusiya çarı öz məktubunda Şah Məhəmməd Xudabəndə tərəfindən Bakı və Dərbəndin Rusiyaya vəd edildiyini xatırladır və təklif edirdi ki, Q.Vasilçikov geri qayıdanda Şah Abbasın yeni elçisi də onunla birlikdə Rusiya paytaxtına göndərilsin (23).

Bu fikirlər Rusiya çarının məktubunda belə ifadə olunmuşdu: "Böyük və şövkətli padşahlar olan bizim atamız və əcdadlarımız və sizin atanız və əcdadlarınız arasında möhkəm dostluq münasibətləri və əlaqələr var idi. Mənim qardaşım olan atanızla dost idik və dövlət işləri ilə bağlı gediş-gəlişimiz mövcud idi. ...Hadi bəy şifahi olaraq bizə çatdırdı ki, sizin atanız Dərbənd və Bakını bizə güzəştə getməyə hazırdır. ...Biz də Qriqori Vasilçikovu siz əlahəzrətin hüzuruna göndəririk. Siz qardaşım da öz elçinizi onunla mənim yanıma göndərəsiniz. Biz gərək öz düşmənlərimizə qarşı ittifaq əhdnaməsi bağlayaq" (24).

Görüş başa çatanda Şah Abbas tərəfindən də Rusiya elçisinə hədiyyə verildi. Q.Vasilçikova qiymətli daşlarla bəzədilmiş bir ədəd xəncər və bir baş at bağışlandı. Elçilik heyətinin digər üzvlərinə də müxtəlif hədiyyələr təqdim olundu (25).

Görüş zamanı Şah Abbas atası Şah Məhəmməd Xudabəndə tərəfindən vəd olunmuş Dərbənd və Bakı şəhərlərinin Rusiyaya güzəştə gedilməsi məsələsinə də münasibətini bildirdi. Səfəvi şahı bildirdi ki, bu şəhərlərin Rusiyaya güzəştə gedilməsinə razıdır. Amma bir şərtlə ki, Rusiya qoşunları bu şəhərlərin Osmanlı qoşunlarından geri alınmasında iştirak etsinlər. Rusiya elçiliyinin

Səfəvi sarayında olduğu vaxt təxminən 60 min nəfərlik rus qoşunu Həştərxan yaxınlıqlarında düşərgə salmışdı. Şah Abbas ona işarə etdi ki, həmin qoşunlar adları çəkilən şəhərlərin azad edilməsində iştirak edə bilərlər.

Bununla, Şah Abbas Rusiya sarayı qarşısında öz şərtini qoydu. Yəni Rusiya qoşunlarının köməyi ilə Dərbənd və Bakı şəhərləri azad ediləcəyi təqdirdə həmin şəhərlər güzəştə gedilə bilərdi. Əks təqdirdə isə, yəni adları çəkilən şəhərlər qızılbaş qoşunları tərəfindən azad ediləcəyi halda onların Rusiyaya güzəştə gediləcəyi mümkün deyildi.

Şah Abbasda belə bir güman var idi ki, Rusiya qoşunları Dərbənd və Bakının Osmanlı qoşunlarından azad edilməsində iştirak edə bilərlər. Ona görə də Q.Vasilçikov geri dönəndə Şah Abbas öz elçiliyini də onunla birlikdə Rusiya sarayına göndərdi. Bu elçilik heyəti 17 nəfərdən ibarət idi. Elçilik heyətinə Hadi bəylə Budaq bəy rəhbərlik edirdilər. Budaq bəyin qardaşı Uluğ bəy də heç bir statusa malik olmadan öz qardaşını müşayiət etmək üçün bu heyətə qoşulmuşdu. Heyətin tərkibində olanlardan üç nəfər Rusiya çarına göndərilən şah hədiyyələrinin daşınmasına və mühafizəsinə məsuliyyət daşıyırdılar. Yerdə qalanlar isə heyətin xidmət personalı idi. Elçilik heyətinin tərkibində bir nəfər tərcüməçi də var idi. Elçilik heyətləri 1589-cu il may ayının əvvəllərində Qəzvindən yola düşdülər. Gilanda olarkən bu elçilik heyətinə Xan Əhmədin də elçiləri qoşuldular. Elmi-tarixi ədəbiyyatda olan məlumata görə, bu elçilik heyəti Gilan hakimi ilə Rusiya dövləti arasında ittifaq münasibətlərinin yaranması imkanlarını aramalı idi. Xan Əhməd mərkəzi Səfəvi hakimiyyətinə qarşı başladığı separatçılıq hərəkatında Rusiyanın köməyini almaq istəyirdi (27).

Elçilik heyətləri dəniz yolu ilə Həştərxana doğru üz tutdular və bu heyətlər adı çəkilən şəhərə bir də səkkiz həftədən sonra yetişə bildilər. Bir tərəfdən qayıqların hərəkət sürətinin az olması, digər tərəfdən də Bakı yaxınlığında olarkən Osmanlı qüvvələrinin onların hərəkətindən xəbər tutması və onları hücuma məruz qoyması elçilik heyətlərinin səfərinin belə uzun çəkməsinə səbəb oldu. Bu

hücumda dörd ədəd Osmanlı qayığının iştirak etməsi haqqında məlumat vardır. Osmanlı döyüşçüləri hətta elçilik heyətlərinin yanındakı hədiyyələrin bir hissəsini də talan edərək özləri ilə apardılar (28). Çox güman ki, elçilik heyətlərinin mühafizə adamları da var idi Çünki çətinliklə də olsa Osmanlı hücumundan qurtulmaq mümkün oldu. Həştərxandan isə elçilik heyətləri Nijni Novqorod şəhərinə yollandılar.

Rusiya dövlətinin Həştərxandakı nümayəndələri bu elçilik heyətlərini xüsusi bir mərasimlə yola saldılar. Həmin heyətlərin sentyabr ayının 14-də Həştərxandan hərəkətə başladığı bildirilirdi. Elçilik heyətini Rusiya dövlətinin nümayəndələri kimi İvan Bolobanov və Aqya Kaftıryov adlı rus əyanları müşayiət edirdilər. Elçiləri bu yolçuluqda bir min nəfərdən artıq tüfəngli mühafizə etməli idi. Onlardan əlavə elçilik dəstəsinə yüz nəfər Kazan atıcısı da verilmişdi. Elçilik heyətinin səfər boyunca qidalanma xərcləri Rusiya dövləti hesabına ödənməli idi. Mövcud olan hesabat sənədlərinə görə, Kazana qədər olan yolçuluq zamanı bu elçilik heyətlərinin istifadəsi üçün üç vedrə çaxır, üç pud sıxlaşdırılmış bal, üç vedrə turş bal, qırx baş qoyun, iki çetvert buğda unu, on ədəd ördək, iyirmi ədəd toyuq, bir pud inək yağı və s. ərzaq əşyaları buraxılmışdı. Həştərxanda olarkən Q.Vasilçikov Səfəvi sarayına elçilikdən geri qayıtması və özü ilə Səfəvi elçiliyini gətirməsi haqqında yerli hakimiyyət nümayəndələrinə məlumat təqdim etdi. Yerli hakimiyyət nümayəndələri bu barədə Rusiya çarına məlumat göndərdikdən sonra, elçilik heyətinin qayğı ilə əhatə olunmasına çalışdılar. Həştərxanda olarkən Qriqori Vasilçikov Səfəvi sarayına səfəri ilə bağlı hazırladığı yazılı məlumat Rusiya çarına göndərdi. O bu məlumatında başına gələnləri, Səfəvi dövləti ərazisində səfər edərkən qarşılaşdığı şəhər və kəndlərin əhalisi tərəfindən mehribanlıqla qarşılanması, Səfəvi şahı ilə görüş üçün İsfahana yollanması və sonradan Qəzvinə qayıtması, Qəzvində şahla görüşməsi və Səfəvi elçilik heyəti və Gilan hakimi Xan Əhmədin nümayəndələri ilə birlikdə geri qayıtması haqqında öz təəssüratını yazırdı. Onun tərəfindən yazılmış məktubda Səfəvi və Gilan elçilik hey-

ətinin tərkibi, Xəzər dənizi ilə səfər çətinlikləri, Bakı yaxınlığında türklərin hücumuna məruz qalmaları haqqında ətraflı məlumat var idi. Q.Vasilçikov Şah Abbas tərəfindən yüksək mehribanlıqla qarşılandığını, Şah Abbasın Rusiya çarı ilə yaxın münasibətlər qurmağa çalışdığını və düşmənlərə qarşı birgə mübarizə aparmaq istəyində olduğunu da çatdırırdı (29).

Elçilik heyətləri 1589-cu il noyabr ayının 1-də Kazan şəhərinə yetişdi. Heyətlər bir müddət burada ləngiməli oldular. Noyabr ayının 20-də Q.Vasilçikov Rusiya çarına yeni bir məktub göndərərək Kazan şəhərində olduqlarını çatdırdı. Elə həmin günlərdə də elçilik heyəti Kazandan Nijni Novqorod şəhərinə doğru yola düşdü. Bu şəhərdə də bir neçə gün gözləmək lazım gəldi. Rusiya çarının tapşırığı ilə Dimitri Turgenev adlı bir boyar elçilik heyətini qarşılamaq üçün Nijni Novqorod şəhərinə yollandı. D.Turgenev Nijni Novqorod şəhərinə gələrək Budaq bəy və Hadi bəylə görüşdü, onlara Rusiya çarının şimalda İsveç dövləti ilə müharibədə olduğunu bildirdi. D.Turgenev elçilik heyətinin üzvlərinə bildirdi ki, Rusiya çarının Moskvada olmadığı halda həmin şəhərə getməyin mənası yoxdur və ona görə də Nijni Novqorod şəhərində çarın geri dönüşünü gözləməli olduqlarını bildirdi. D.Turgenev onu da çatdırdı ki, elçilik heyətinin Nijni Novqorodda olması haqqında Rusiya çarına məktub göndərilib. Yəni Rusiya çarı elçilik heyətinin Nijni Novqorodda gözləməsindən xəbərdar idi və Moskvaya qayıdacağı təqdirdə elçilik heyəti hərəkətə başlayacaqdı. D.Turgenev xüsusi bir təlimatla Səfəvi elçilik heyətinin yanına göndərilmişdi. Şah elçiliyin rəhbərləri Rusiya ilə Krım və Rusiya-Osmanlı münasibətləri haqqında soruşardısa D.Turgenev doğru cavab verməkdən çəkinməli və bu münasibətlər haqqında yetərli məlumata malik olmadığını Səfəvi nümayəndələrinin nəzərinə çatdırmalı idi. Elçilik heyətləri ilə bağlı görülən işlər barəsində D.Turgenev vaxtlı-vaxtında Rusiya çarına məlumat göndərməli idi(30).

Nəhayət ki, 1590-cı ilin mart ayında elçilik heyətlərinə Nijni Novqoroddan hərəkət etmək icazəsi verildi. Elçilik heyəti təxminən bir ay da Yaroslav şəhərində gözləməli oldu. Elçilik heyətləri

hələ Yaroslavda olarkən Rusiya çarı tərəfindən qonaqların qarşılanmasına xüsusi bir heyət göndərildi. Həmin heyətə Semyon Romanov adlı birisi rəhbərlik edirdi. S.Romanov həm qonaqları müşayiət etməli, onlara qayğı göstərməli və həm də verdiyi məlumatlarla qonaqlarda Rusiyanın çox güclü bir dövlət olması haqqında təsəvvür formalaşdırmalı idi. Həmin ilin may ayında, yəni Qəzvindən hərəkətə başlanmasından təxminən bir il sonra, 1590-cı il may ayının 7-də elçilik heyətləri Moskva şəhərinə yetişdilər. Moskvaya daxil olanda Səfəvi dövlətindən gələn elçilik heyətlərini Rusiya çarının tapşırığı ilə Andrey Klobukov adlı bir boyar qarşıladı və bu heyətləri onlar üçün ayrılmış iqamətgaha müşayiət etdi (31).

Moskvaya yetişdikdən üç gün sonra, may ayının 10-da Gilan hakiminin elçiləri ilə Səfəvi şahının elçiləri Rusiya çarı tərəfindən çar iqamətgahının yerləşdiyi Kremldə qəbul edildi. Gilan hakiminin elçisi Xacə Hüssam xəstələndiyi üçün çar qəbuluna onun qardaşı Murad xan yollandı. Çar hüzurunda qəbulun əsasını isə Səfəvi elçiləri ilə görüş təşkil edirdi. Bu elçiləri çar sarayına müşayiət etmək üçün onların ardınca Stepan Stepanov adlı bir boyar göndərildi. O həm də tərcüməçi idi. Tərcüməçidən başqa Andrey Klobukov, Dmitri Turgenev və taxt-tac şahzadəsi də Səfəvi elçilərini çar sarayına qədər müşayiət etdilər. Onlar Kremlin həyətinə daxil olaraq çar iqamətgahı qarşısında atdan düşdülər və sonra da orta pilləkənlə çarın yanına qalxdılar. Sarayın bir neçə nüfuzlu boyarı çar iqamətgahının girişində Şah Abbas elçilərini qarşılayıb ehtiramını bildirdilər. Bu qəbul çox təntənəli şəkildə keçirildi. Çar sarayında xüsusi bir görüntü təşkil edilmişdi ki, Səfəvi elçilərində Rusiyanın əzəməti haqqında fikir yaratmaq mümkün olsun. Bir tərəfdən çar iqamətgahının ətrafında yaxşı təchiz olunmuş Rusiya qoşun dəstələri nizamlı sıra ilə irəli-geri hərəkət edirdilər. Digər tərəfdən isə elçilik heyəti ilə görüşə dəvət edilmiş rus boyarları son dərəcə zəngin və qiymətli libaslarla göz oxşayırdılar. Qəbul otağının girəcəyində saray xidmətçilərindən biri hündür səslə Səfəvi şahının elçiləri olan Hadi bəylə Budaq bəyin təşrif gətirdi-

klərini elan etdilər. Rusiya çarı çox bahalı libas geyinmiş və başına çar papağı qoymuşdu. Onun taxtının sağ və solunda şahzadələr qərar tutmuşdular. Onlardan sonra isə dövlət ərkanı öz vəzifələrinə görə yerləşdirilmişdilər. Budaq bəylə Hadi bəy qəbul salonuna daxil olandan sonra Rusiya çarı onları yanına dəvət etdi və sonra da əlini irəli uzatdı ki, elçilər onu öpsünlər. Rus xronikalarında olan məlumata görə, qarşılanmadan sonra Budaq bəy Rusiya çarına müraciət etdi və bildirdi ki, Şah Abbas ona öz qardaşı kimi böyük ehtiramını bildirir. Budaq bəy sonra əlavə etdi ki, Şah Abbas Rusiya çarını sağ-salamat görmək istəyir və ona öz salamını yetirir. Rusiya çarı da öz növbəsində Şah Abbasın səhhəti ilə maraqlandı və belə bir cavab aldı ki, elçilik heyəti yola çıxanda Şah Abbas da sağlam bir durumda idi. Bundan sonra elçilər Şah Abbasın məktubunu çara təqdim etdilər. Məktubu qəbul edən Rusiya çarı tərcüməçi vasitəsilə elçilərdən soruşdu ki, Şah Abbasın məktubdan əlavə hər hansı bir şifahi ismarıcı varmı? Məsləhət bilindi ki, Səfəvi elçiləri sonradan Rusiya saray mənsubları ilə birlikdə Səfəvi şahı tərəfindən göndərilmiş təklifləri birlikdə müzakirə etsinlər. Qəbul zamanı Hadi bəy Rusiya çarına məlumat verdi ki, Gilan hakimi Xan Əhməd tərəfindən də onun yanına elçi göndərilibdir. Lakin elçi xəstələndiyi üçün Xan Əhmədin yazdığı məktubu və göndərdiyi hədiyyələri çar sarayına onun qardaşı gətirmişdir. Bu məlumatdan sonra Xan Əhməd elçisinin qardaşı salona dəvət edildi və gətirdiyi məktub ondan qəbul olundu (32).

Şah Abbasın yazdığı məktub Rusiya çarına oxundu. Bu məktub Rusiya çarının şəninə həsr olunmuş ifadələlərlə başlayırdı. Şah Abbas Rusiya çarını ədalətli, əzəmətli, cah-cəlallı bir padşah kimi vəsf edirdi. Məktubda Şah Abbas haqqında da tərifli ifadələr mövcud idi. Sonra deyilirdi ki, Rusiya çarının hörmətli elçisi çarın məzmunlu məktubu ilə Səfəvi sarayına gəlib onu təqdim etdi. Şah Abbas bu məktubda Rusiya çarını öz qardaşı adlandırırdı və onun göndərdiyi məktubu da böyük maraqla oxuduğunu bildirirdi. Səfəvi şahı ona da məmnunluğunu ifadə edirdi ki, Rusiya çarı ilə oxşar düşüncədə idilər. Məktubda əvvəllər də Rusiya çarı ilə Sə-

fəvi şahı arasında xoş münasibətlərin olduğu xatırlanırdı. Şah Abbas yazırdı ki, son zamanlar Səfəvi dövləti ilə Osmanlı dövləti arasında baş vermiş müharibəyə görə qarşılıqlı əlaqələr təxirə salınmışdı. Amma Şah Abbasın fikrinə görə, onun taxta çıxmasından sonra iki dövlət arasında əlaqələr yenidən bərpa olunmuşdur. Əlavə olunurdu ki, Səfəvi dövləti ilə Rusiya dövləti arasında yenidən yaranmış xoş münasibətlərə indi yer üzünün bütün padşahları qibtə edə bilərlər. Şah Abbas bu xoş münasibətlərin nişanəsi kimi Budaq bəylə Hadi bəyin elçi kimi Rusiya sarayına göndərildiyini bəyan edirdi. Məktubda Budaq bəy Səfəvi sarayının nüfuzlu və sədaqətli əmirlərindən biri kimi xarakterizə edilirdi. Hadi bəyə gəlincə isə, Şah Abbas bildirirdi ki, bu adam əvvəlcə də Rusiya sarayında olmuşdur və onun elçilik heyətinə daxil edilməsi dostluq və ehtiramın əlavə nümayişidir. Məktubda Dərbənd və Bakı şəhərlərinin Rusiyaya güzəştə gedilməsi məsələsinə də toxunulmuşdu. Rus xronikalarında göstərilir ki, Şah Abbas heç bir şərt irəli sürmədən bu şəhərlərin Rusiyaya güzəştə gediləcəyini bildirirdi. Məktubunun sonunda isə Şah Abbas Rusiya çarından hədiyyə olaraq ona samur və sincab dərisi, ov etmək üçün istifadə olunan quşlar göndərilməsini xahiş edirdi (33).

Sonra Gilan hakimi Xan Əhmədin göndərdiyi məktub da çar hüzurunda oxundu. Məktubda Xan Əhmədin Rusiya çarına xoş münasibəti öz əksini tapmışdı və orada Rusiya çarı qarşısında hər hansı bir xahiş və ya təklif qoyulmamşdı.

Məktubların oxunmasından sonra Səfəvi şahının göndərdiyi hədiyyələr Rusiya çarına təqdim olundu. Hədiyyələr arasında bir ədəd qiymətli daşlarla bəzədilmiş yəhər, Səfəvi istehsalı olan məxmər parça, qiymətli ipək parçalar, Xorasanda düzəldilmiş və qiymətli daşlarla bəzədilmiş kaman, digər qiymətli parçalar, atın yəhərlənməsi üçün istifadə edilən təchizat, qızıl və gümüş saplarla bəzədilmiş Səfəvi xalçası, bir cüt böyük həcmdə ləl, Səfəvi ustalarının hazırladığı düşərgə çadırı və s. əşyalar var idi. Mənbə və elmi-tarixi ədəbiyyatda bu əşyaların manatla dəyəri də göstərilmişdir və bildirilir ki, Şah Abbas tərəfindən göndərilən hədiyyələr

çox böyük qiymətə malik idi. Şahın hədiyyələrindən başqa Budaq bəylə Hadi bəy də Rusiya çarına öz hədiyyələrini təqdim etdilər. Mənbələrdə və elmi-tarixi ədəbiyyatda bu hədiyyələrin də siyahısı verilmişdir. Həmin hədiyyələr həm nadir, həm də çox qiymətli hədiyyələr idilər. Gilan hakimi Xan Əhmədin göndərdiyi hədiyyələr də bu qəbul zamanı Rusiya çarına təqdim olundu. Bunlardan başqa Rusiya sarayının nüfuzlu əyanlarına və boyarlarına da Səfəvi hədiyyələri verildi. Mövcud olan məlumata görə, qəbuldan sonra çar yanında ziyafət təşkil olundu. Səfəvi elçiləri də bu ziyafətdə iştirak edirdilər. Səfəvi elçilərinə olan ehtiramı nümayiş etdirmək üçün ziyafətə Rusiya sarayının nüfuzlu boyarları və knyazları dəvət edilmişdilər. Qonaqlar üçün zəngin bir süfrə açıldı. Rusiya çarının oturduğu stul və qarşısındakı miz qızıldan düzəldilmişdi. Süfrə üzərinə düzülmüş bütün qablar gümüşdən idi. Ziyafət başa çatandan sonra Rusiya çarı elçilərə rüsxət verdi və onlar öz iqamətgahlarına qayıtdılar (34).

May ayının 13-də Səfəvi elçilərini knyaz Boris Qodunov da qəbul etdi və qonaqların şərəfinə böyük bir ziyafət verdi. Ziyafətdə Budaq bəylə birlikdə 13 nəfərlik Səfəvi elçilik heyəti iştirak edirdi. Budaq bəy və bütün elçilik heyəti Boris Qodunovun iqamətgahı qarşısında atdan yerə düşdü və iqamətgah həyətinə yollandı. Budaq bəy isə şah elçisi kimi at belində iqamətgahın həyətinə müşayiət olundu. Boris Qodunov qonaqları mehribanlıqla qarşıladı və sonra onlar arasında söhbət baş tutdu. Görünür, Səfəvi elçiləri və eləcə də Səfəvi sarayı Boris Qodunovun Rusiyanın dövlət idarəçiliyində xüsusi rolu olduğunu bilirdilər. Ona görə də Səfəvi elçiləri Şah Abbası maraqlandıran məsələlər ətrafında məhz Boris Qodunovla müzakirələr apardılar. İlk qarşılaşmada Rusiya dövlətinin daxili və xarici siyasətində aparıcı rola malik olan Boris Qodunov Səfəvi dövlətinin vəziyyəti ilə bağlı suallar səsləndirdi. Elçilər bildirdilər ki, Boris Qodunova təzim edilməsini Şah Persiya, İran və Turan padşahı Şah Abbas özü tapşırmışdıar. Rus xronikalarında əksini tapmış məlumata görə, Şah Abbasın adı çəkiləndə Boris Qodunov ehtiram əlaməti olaraq ayağa qalxdı, Şah

Abbasın sağlığı üçün dualar etdi. Sonra Boris Qodunov Xan Əhmədin elçisi ilə salamlaşdı, Xan Əhmədin hal-əhvalı ilə maraqlandı. Boris Qodunov bildirdi ki, Gilan hakimi Xan Əhmədin işləri haqqında onun da müəyyən məlumatlara malikdir. Boris Qodunova da şah hədiyyələri, habelə Xan Əhməd adından gətirilmiş hədiyyələr təqdim olundu. Bundan sonra süfrə açıldı və qonaqların şərəfinə ziyafət verildi. Qonaqlara şərab və ləzzətli yeməklə təklif olundu. Ziyafətin bitməsi ilə elçilik heyətinin üzvləri, Rusiya tərəfindən ziyafətdə iştirak edən adamlar salonu tərk etdilər. Boris Qodunov təklikdə elçilərlə söhbəti davam etdirdi. Budaq bəylə Hadi bəydən əlavə otaqda yalnız tərcüməçilər və bir də Boris Qodunovun yaxın adamları qaldılar. Boris Qodunov elçilərdən xahiş etdi ki, Şah Abbasın şifahi şəkildə göndərmiş olduğu ismarıcları ona söyləsinlər. Səfəvi elçiləri də Şah Abbasın fikir və təkliflərini ona çatdırdılar. Elçilər ilk növbədə Boris Qodunovun Rusiya dövlət idarəçiliyində aparıcı rola malik olmasından xəbərdar olduqlarını bildirdilər. Onların sözlərinə görə, məhz buna görə də ona müraciət etməyi lazım bildilər ki, irəli sürülən təkliflərlə bağlı daha mötəbər cavab ala bilsinlər. Səfəvi elçiləri bir daha Şah Abbas adından iki dövlət arasında münasibətlərin daha da möhkəm olması arzusunu ifadə etdilər. Elçilər bildirdilər ki, Səfəvi sarayı bu iki dövlətin həmsərhəd olması marağındadır. Sonra da bir daha Səfəvi dövləti tərəfindən Dərbənd və Bakı şəhərlərinin Rusiyaya güzəştə gedilməsinin mümkünlüyü dilə gətirildi. Elçilər söylədilər ki, hazırda adları çəkilən şəhərlər Osmanlı qoşunlarının nəzarəti altındadır. Onlar təklif elədilər ki, Rusiya qoşunları tərəfindən həmin şəhərlər Osmanlı nəzarətindən çıxarılsın və bu şəhərlər Rusiyanın nəzarəti altına alınsın. Elçilər vəd edirdilər ki, Rusiya qoşunları Dərbənd və Bakı şəhərləri istiqamətində hücuma başlayanda Səfəvi qoşunları da Şirvan üzərinə hərəkətə başlayacaqlar. Bununla Osmanlı qoşunlarının iki istiqamətdən güclü zərbə altına düşməsi təhlükəsi yarana bilərdi. Şübhə edilmirdi ki, Rusiya və Səfəvi qoşunlarının iki istiqamətdən hü-

cuma başlaması Osmanlı qoşunlarının bölgədən sıxışdırılmasına gətirib çıxara bilər (35).

Budaq bəy onu da bildirdi ki, elçilik heyəti Rusiyaya yola düşəndə şah sarayına Osmanlı elçilik heyəti gəlmişdi. Bu heyət Osmanlı sarayı adından Səfəvi şahına barışıq təklifi gətirmişdi. Osmanlı sarayı tərəfindən təklif olunurdu ki, Təbriz şəhəri Səfəvi nəzarəti altına qaytarılsın. Rus xronikalarında olan məlumata görə, Osmanlı sarayı eyni zamanda Şah Abbasın oğluna Osmanlı sultanının qızının nikah edilməsi təklifini irəli sürmüşdü. Osmanlı sultanı ilə nikah qohumluğuna gətirilmiş şah oğlunun sonradan Şirvan hakimi təyin edilməsi məsələsi də var idi. Bununla, Osmanlı sultanı Şirvanı hələlik öz nəzarəti altında saxlamaq istəyirdi. Şah Abbas bu təkliflərlə razı deyildi. Çünki Osmanlı sultanının təklifləri qəbul ediləcəyi halda yalnız Təbriz şəhəri Səfəvi nəzarəti altına gətirilmiş olurdu. Ona görə də Osmanlı elçilərinə dərhal cavab verilmədi və Qəzvində ləngidildi. Belə bir ehtimal var idi ki, Rusiyaya göndərilmiş elçilik heyəti tez bir zamanda müsbət cavabla geri qayıdacaq və iki dövlətin birgə hücuma başlaması ilə Osmanlı qoşunlarını Şirvandan sıxışdırmaq mümkün olacaqdı. Şah Abbas tərəfindən hətta Osmanlı elçilərinin bir neçə üzvünün həbs edildiyi, bir neçəsinin isə Qum və Kaşana göndərildiyi bildirilirdi. Bundan xəbər tutanda Osmanlı sultanı Səfəvi sarayına yeni elçilik heyəti göndərdi. Bununla belə, Şah Abbas Osmanlı təklifləri ilə razı olmadı. Boris Qodunov da Osmanlı dövlətinin təkliflərinə təəccüblə yanaşdı və bu dövlət tərəfindən böyük Səfəvi ərazilərini necə qoparması ilə maraqlandı. Budaq bəy də Şah Təhmasibin dünyasını dəyişməsindən sonra onun varisləri arasında qarşıdurma və hakimiyyət uğrunda mübarizənin kəskinləşməsindən, bu parçalanma dövründə ərazilərin böyük bir hissəsinin Osmanlı dövləti tərəfindən tutulmasından danışdı. Sonda Budaq bəy bəyan etdi ki, Səfəvi şahı Rusiya dövləti ilə münasibətlərin möhkəmlənməsinə böyük qiymət verir. Çünki iki dövlət arasında olan xoş münasibətlər Osmanlı qoşunlarının Səfəvi ərazilərindən çıxarılmasına kömək edə bilər (36).

Boris Qodunov irəli sürülən təkliflərlə bağlı Səfəvi elçilərinə aydın bir cavab vermədi. O bildirdi ki, şah elçilərinin söylədiklərini Rusiya çarına çatdıracaqdır. Bununla Səfəvi elçilərinin Boris Qodunovla görüşü də başa çatdı.

Bununla belə, Budaq bəylə Hadi bəy Səfəvi şahının istəyini Boris Qodunova çatdırdı. Aparılan danışıqlardan da göründüyü kimi, Şah Abbas Osmanlı dövlətinə qarşı Rusiya ilə ittifaq yaratmaq niyyətində idi. Ehtimal edilirdi ki, Rusiya ilə eyni vaxtda Cənubi Qafqaza Səfəvi qoşunlarının çıxarılması bu bölgədə Osmanlı nəzarətinə son qoya bilər. Belə bir ittifaqın əldə edilməsi üçün Şah Abbas çox böyük güzəştə gedirdi. Osmanlı dövlətinin əvəzində Rusiyanın Səfəvi hüdudlarına buraxılması ilə Şah Abbas ola bilsin ki, ciddi planlara da malik idi. Yoxsa bir dövlətin qoşunlarının əvəzinə başqa bir dövlətin qoşunlarının Səfəvi ərazilərinə daxil olması bütünlükdə Səfəvi maraqlarına uyğun deyildi. Bir məlumata görə, Rusiya qoşunları doğrudan da Şimali Qafqaza tərəf gəlmişdi. Lakin bu kampaniya bəzi Qafqaz Şamxallarına qarşı döyüşlərlə başa çatdı (37).

Tarixdən məlumdur ki 1590-cı ilin mart ayında Osmanlı dövləti ilə Səfəvi dövləti arasında İstanbul sülh anlaşması əldə edildi. Belə bir qənaətə gəlmək olar ki, Səfəvi elçilik heyətinin Moskvaya gedib-gəlməsi xeyli uzandı. Bu heyətdən və heyətin apardığı müzakirələrin nəticələrindən bir xəbər olmayanda Şah Abbas vaxt itirməyi mənasız saydı və Osmanlı dövləti ilə sülh anlaşmasına getdi. Şah Abbas bu anlaşmanın əldə edilməsi ilə, əslində, qarşısına qoyduğu məqsədə nail oldu və ona gərəkli olan vaxtı əldə etdi.

Budaq bəylə Hadi bəyin elçilik heyətinə gəlincə isə 1590-cı il may ayının 22-də Rusiya çarı Fyodor İvanoviç şah qonaqlarını bir daha qəbul etdi. Bu qəbul zamanı da heyət üzvlərinə qonaqpərvərlik və ehtiram nümayiş etdirildi. Budaq bəylə Hadi bəyə bildirildi ki, bu qəbul zamanı Şah Abbasdan gətirilmiş məktuba, Boris Qodunova edilmiş təkliflərə cavab veriləcəkdir. Görüş zamanı şah elçiləri ilə Rusiya boyarları arasında Bakı və Dərbənd məsələsi

ətrafında bir daha müzakirələr oldu. Rusiya sarayının boyarları bəyan etdilər ki, Hadi bəy əvvəlki səfəri zamanı da Dərbənd və Bakı şəhərinin Rusiyaya güzəştə gedilməsi haqqında təklifini ortaya qoymuşdu və o zaman bu şəhərlərin güzəştə gedilməsi üçün rus qoşunlarının bölgəyə göndərilməsi zərurəti haqqında heç nə deyilməmişdi. Yəni Rusiya sarayı Səfəvi dövləti ilə xoş münasibətlərin qarşılığında Dərbənd və Bakının təmənnasız olaraq Rusiyaya güzəştə gedilməsini istədi. Budaq bəy cavabında bildirdi ki, əgər Hadi bəy belə bir təklifi ortaya qoyubsa, bu fikir onun şəxsi fikridir və şah sarayı tərəfindən ona bu barədə hər hansı bir göstəriş verilməmişdir. Söhbət zamanı məlum oldu ki, Hadi bəyin məhz həmin vədindən sonra rus qoşunları Şimalı Qafqaza çıxarılmışdı. Rusiya boyarlarının izahatlarından belə məlum oldu ki, Rus qoşun dəstəsinin Terek çayına çıxarılması ilə onlar öz vəzifələrini bitmiş hesab edirdilər. Onlar bildirirdilər ki, rus qoşununun Terek hövzəsində yerləşdirilməsi ilə Osmanlı və Krım qoşunlarının bu bölgədən keçərək şimal sərhədlərindən Səfəvi dövləti ərazisinə keçməsinin qarşısı alınmışdır. Bu məsələ Dərbəndlə Bakının güzəştə gedilməsi üçün Rusiyanın Səfəvi dövlətinə göstərə biləcəyi kömək kimi qiymətləndirlirdi. Budaq bəy də öz növbəsində Rusiya sarayının boyarlarından soruşdu ki, əgər Səfəvi dövləti ilə Osmanlı dövləti arasında sülh anlaşması əldə edilməsi ilə Rusiya dövləti əməkdaşlıq etməyə hazırdırmı və bu əməkdaşlıq hansı formada özünün göstərə bilər? Rusiya dövlətinin mənsubları tərəfindən cavab verildi ki, bu suallara Şah Abbasa göndərilən məktubda aydınlıq gətiriləcəkdir. Həmin məktub isə Rusiya sarayının elçisi tərəfindən Şah Abbasa çatdırılmalı idi. Səfəvi elçilərinin nəzərinə çatdırıldı ki, Rusiya elçisinin səfərə başlaması üçün müəyyən hazırlıq işlərinin görülməsinə ehtiyac vardır. Ona görə vaxt itirmədən Səfəvi elçiliyi yola salınacaq. Sonradan yola düşəcək Rusiya elçilik heyəti isə sürətlə hərəkət etməklə Həştərxanda Səfəvi elçiliyinə çatacaqdır. Görüş zamanı məlum oldu ki, Rusiya elçilik heyətinə İvan Vasilyeviç Qodunov,

İvan Vasilyevin Sitski, Andrey və Basili Şelkalovlar, Drujina Petelin daxil olacaqlar (38).

Səfəvi sarayına göndərilməli olan elçilik heyətinin hər birinin qaldırılan məsələ ilə bağlı rus xronikalarında fikirləri saxlanılmışdır. Onlar bu fikirlərini Səfəvi elçilərinə də çatdırdılar. Hadi bəyin guya heç bir qarşılıq olmadan Dərbənd və Bakı şəhərlərinin Rusiyaya güzəştə gediləcəyi fikrinin Budaq bəy tərəfindən qəbul edilməməsi ilə rus boyarlar razılaşmadılar. Müzakirələr zamanı rus boyarlarına çatdırıldı ki, Hadi bəy Şah Abbas tərəfindən deyil, Şah Məhəmməd Xudabəndə tərəfindən Rusiya sarayına göndərilmişdi və əgər Hadi bəy belə bir fikir ortaya qoymuşdusa da, artıq Şah Məhəmməd Xudabəndə hakimiyyətdə deyil. İndi onun yerini Şah Abbas tutmuşur. Şah Abbas isə elçilik heyətinə belə bir səlahiyyət verməmişdi. Rus boyarları təkid etdilər ki, hakimiyyətdə Şah Abbas olsa da, Hadi bəy onun atası adından belə bir vəd vermişdir və həmin vəd qüvvəsində qalmalıdır (39).

1590-cı il iyun ayının 21-də Səfəvi elçiləri ilə Xan Əhmədin elçiləri son dəfə Rusiya çarının qəbulunda oldular. Bu qəbul elçilik heyətlərinin Moskvanı tərk etməsi ilə bağlı idi. Görüş zamanı əvvəllər həyata keçirilmiş protokola bu dəfə də riayət olundu və elçilik heyətləri xüsusi bir ehtiramla qarşılandı. Qəbul salonuna daxil olandan sonra elçilik heyətləri onlar üçün ayrılmış yerdə əyləşdilər. Rusiya çarının izni ilə Xan Əhmədin elçisi də Şah Abbasın elçiləri ilə bir sırada əyləşdi. Çar Fyodor elçilik heyətləri ilə görüşdükdən sonra Şah Abbasın elçilərini başqa bir otağa göndərdi və bildirdi ki, saray əyanları onların yanına gələrək Rusiya çarının cavabını ona çatdıracaqlar. Xan Əhmədin elçisini isə Rusiya çarı öz yanında saxladı, onun üçün çaxır gətirilməsini əmr etdi. Elçinin özünə və Xan Əhmədə çar adından qiymətli hədiyyələr bağışlandı. Rusiya çarı Gilan vilayəti ilə münasibətlərin yaxşılaşdırılmasına, bu vilayətlə ticarət əlaqələrinin genişləndirilməsinə xüsusi əhəmiyyət verirdi. Xəzər dənizinin kənarında yerləşdiyi üçün Gilan vilayəti ilə nəqliyyat əlaqələrinin qurulması da kifayət qədər asan idi. Rusiya çarı tərəfindən Xan Əhmədə məktub

da yazıldı. Həmin məktubda Rusiya çarı Xan Əhmədlə xoş münasibətlər qurulmasına tərəfdar olduğunu və bütünlükdə Xan Əhmədi Rusiyanın "qanadı" altına almaq niyyətində olduğunu bəyan etdi. Rusiya çarı xan Əhmədi əmin etdi ki, o, hər zaman Rusiyanın köməyinə bel bağlaya bilər. Eyni zamanda Şah Abbasa da məktub yazıldı. Bundan başqa Şah Abbas və onun elçiləri üçün də hədiyyələr ayrıldı. Bu hədiyyələrin hazırlanması zamanı Şah Abbasın istəyi nəzərə alındı və onun üçün qiymətli xəzlər, ov etmək üçün ov quşları və s. göndərildi (40).

Rusiya çarından başqa böyük knyaz Boris Qodunov da öz tərəfindən həm Şah Abbasa, həm də Xan Əhmədə məktub yazdı, onlara qiymətli hədiyyələr göndərdi. Səfəvi şahının elçilərinə əlavə olaraq bildirildi ki, Rusiya çarının elçisinin bir qədər gec yola düşməsi Polşa və İspaniya saraylarına göndərilmiş elçilərin geri dönməsinin ləngiməsi ilə bağlı idi. Saray mənsubları bildirdilər ki, bu elçilər geri qayıdandan sonra Rusiyanın Şah Abbas tərəfindən verilən təkliflə bağlı necə qərar qəbul edəcəyi tam aydın olacaqdır və Rusiya elçiləri də daha aydın cavabla Səfəvi sarayına yollana biləcəklər. Şah elçiləri Rusiya sarayının elçilərinin gec hərəkət etməsini rəğbətlə qarşılamasalar bu qərarla razılaşmalı oldular. Səfəvi elçiləri Həştərxana yetişəndə kimi rus heyəti gəlib çıxmazdısa, onda qonaqlar Həştərxandan yola salınmalı idilər. Bu məqsədlə Səfəvi elçilərinə Həştərxanda qayıqlar da ayrılmalı idi (41).

Elçilik heyətləri böyük hörmətlə Moskvadan yola salındılar. Rusiya çarının əmri ilə Qriqori Mikulin və Fyodor Ryabinin adlı boyarlar da elçilik heyətlərini Kolumna şəhərinə kimi müşayiət etməli idilər. Əmr edilmişdi ki, bu boyarların yanında knyazların və boyarların övladlarından ibarət 50 nəfərlik bir dəstə və əlavə olaraq yüz nəfərlik atlı mühafizə dəstəsi qonaqları Kolumna şəhərinə qədər müşayiət etsinlər. Nəzərdə tutulmuşdu ki, elçilik heyətləri Kolumna şəhərinə çatandan sonra knyaz və boyar övladlarının dəstəsi geri qayıtsınlar. Elçiləri isə həmin şəhərdən Nijni Novqorod şəhərinə qədər başqa bir dəstə müşayiət etməli idi. Oradan isə elçilik heyəti gəmi ilə Həştərxana doğru yollarını davam

etdirməli idilər. Elçilik heyətlərinin yol boyu səfər xərcləri də Rusiya xəzinəsi hesabına ödənməli idi (42).

Çarın əmrinə əsasən, elçilik heyətlərinə xüsusi bir gəmi ayrılmalı idi. Bu gəmi üçün iyirmi nəfər avar çəkən, habelə 20 nəfər də silahlı verilməli idi. Eyni zamanda Həştərxan hakiminə göstəriş göndərilmişdi ki, qonaqları yüksək səviyyədə qarşılasın. Həştərxanda Gilan vilayətinə məxsus gəmilər olduğu təqdirdə elçilik heyətləri həmin gəmilərlə yol salınmalı idi. Əks təqdirdə, elçilik heyətləri üçün Həştərxandan rus gəmisi ayrılmalı və bu gəminin mühafizəsinə silahlı adamlar təyin edilməli idi. Bununla, Səfəvi elçilik heyətlərinin Moskvaya səfəri başa çatdı. Budaq bəylə Hadi bəy Qəzvinə yetişəndə xəbər tutdular ki, onların elçilik heyətinin gec qayıtmasına görə Şah Abbas Rusiyadan kömək ala biləcəyinə naümid olubdur. Ona görə də o, Osmanlı dövləti ilə İstanbul anlaşmasına getmişdir (43).

Elçilik heyətlərinin geri qayıtmasından sonra Gilan hakimi Xan Əhməd dərhal Moskvaya yeni bir elçilik heyəti göndərdi. Tarixdən bəllidir ki, Xan Əhməd separatçılıq yolunu tutmuşdu və çalışırdı ki, Səfəvi tabeçiliyindən birdəfəlik çıxsın. Bu məqsədinə nail olmaq üçün Xan Əhməd Osmanlı sarayı ilə münasibətlərini və əməkdaşlığını gücləndirməyə çalışırdı. Onun tərəfindən göstərilən bu cəhdlər Osmanlı sarayı tərəfindən də rəğbətlə qarşılanırdı. Amma Xan Əhməd görəndə ki, Rusiya çarı da onunla xoş münasibətlər qurmağa çalışır, onda Xan Əhməd bu imkandan da yararlanmağı faydalı bildi. Ona görə də Xan Əhməd vaxt itirmədən öz elçisini yenidən Moskvaya yolladı. O, 1591-ci ilin aprelində Rusiya çarına məktub da yazdı və bu məktubun çatdırılmasını elçiyə tapşırdı. Rus xronikasında bu elçini adı Türkomil (?) kimi göstərilmişdir. Bu elçi dəniz yolu ilə Həştərxana gəldi və burada yerli hakimlər tərəfindən qarşılandı. Həştərxan hakimi onun gəlişi barəsində Rusiya sarayına da məlumat göndərdi. Bu elçi də Rusiya sarayında mehribanlıqla qarşılandı.

Rus xronikasına görə həmin ilin may ayında Gilan elçisi Rusiya çarının qəbulunda ola bildi. Elçi Rusiya çarına çatdırdı ki, Xan

Əhməd Rusiya çarının himayəsi altında olmağı arzulayır və istəyir ki, Rusiya çarı Buxara xanına göstərdiyi əməli köməyi ona da göstərsin. Xan Əhməd tərəfindən eyni zamanda Boris Qodunova da məktub göndərilmişdi. Rusiya sarayı Xan Əhmədin xahişlərinə diqqətlə yanaşdı və ona əməli kömək göstəriləcəyinə söz verdi. Gilan elçisi çoxlu qiymətli hədiyyələrlə geri yola salındı (44).

Rusiya çarı adından Xan Əhmədə yazılmış məktubda Gilan hakiminin elçisinin sevinclə qarşılanması, onun diqqətlə dinlənilməsi, iki tərəf arasında münasibətlərin möhkəmləndirilməsinə müsbət yanaşılması öz ifadəsini tapmışdı. Bu məktubda daha çox Gilanla ticarət əlaqələrinin genişləndirilməsi məsələsi öz əksini tapmışdı. Rusiya çarı bildirirdi ki, Gilan hakiminin və tacirlərinin marağında olan əşyaları Rusiya ərazisindən məhdudiyyətsiz əldə edə bilərlər. Bundan başqa Terek ətrafında Gilan tacirlərinin sərbəst ticarət etmələrinə də icazə verilirdi. Gilan elçisinə eyni zamanda Boris Qodunovun yazdığı məktub təqdim edildi. Boris Qodunov da Gilan hakimi ilə iki tərəfli münasibətlərin gücləndirilməsinə rəğbətlə yanaşdığını bəyan etdi. Bundan başqa onun da məktubunda Gilan tacirlərinə Rusiya ərazisində azad ticarət etmələri, onları maraqlandıran əşyaları, xüsusilə xəz dərilərlə məhdudiyyətsiz ticarət edilməsi haqqında icazə verildiyini bildirdi. Gilan elçisi böyük vədlərlə geri yola salındı. Bu elçi Həştərxana yetişəndə Gilan hakimi Xan Əhmədin vilayəti tərk edib Osmanlı dövlətinə pənah aparması haqqında məlumat aldı. Belə bir məlumatı alandan sonra Xan Əhmədin elçisi Gilana qayıtmaqdan imtina etdi və Həştərxanda qaldı (45).

Budaq bəylə Hadi bəyin rəhbərlik etdiyi elçilik heyəti gəlib hələ Qəzvinə yetişməmiş Şah Abbas Rusiya sarayına yeni bir elçilik heyəti göndərdi. Bu barədə rus xronikasında məlumat qalmaqdadır və həmin xronikada bu elçilik heyətinə rəhbərlik edən qızılbaş əyanının adı Kay kimi göstərilmişdir. Səfəvi mənbələrində bu barədə məlumat olmadığı üçün elçinin adını dəqiqləşdirmək də çətinlik yaradır.

Mövcud olan məlumatlardan belə bir qənaətə gəlmək mümkündür ki, Şah Abbas Rusiya dövləti ilə ittifaq münasibətlərinin yaradılmasına böyük ümidlərlə yanaşırdı. Onun tərəfindən yeni elçilik heyətinin göndərilməsi Budaq bəylə Hadi bəy elçiliyinin ləngiməsi ilə bağlı idi. Həmin elçilərin geri qayıtması ləngiyəndə Şah Abbas daha bir elçilik göndərməklə Rusiya sarayının əməkdaşlıq imkanlarını dəqiqləşdirmək istəyirdi. O da məlumdur ki, Budaq bəylə Hadi bəyin elçilik heyəti Həştərxandan gəmi ilə Gilana gələndə Xan Əhməd onların tezliklə Qəzvinə yollanmasını bir xeyli ləngitdi. Elə bu hadisənin özü də Şah Abbas tərəfindən yeni bir elçilik heyətinin Moskvaya göndərilməsinə təkan verdi.

Yeni elçilik heyəti 1591-ci ilin yayında Moskvaya yetişdi. Dərhal da Səfəvi elçisi Moskva sarayına aparıldı. Burada Səfəvi elçisi Moskva sarayının boyarları ilə görüşdü və nə məqsədlə gəlməsi haqqında soruşanda şah elçisi ona tapşırılanları ərz etməyə başladı. Elçi bildirdi ki, o bir il əvvəl Moskvaya doğru hərəkətə başlamışdır və özü ilə Şah Abbasın məktubun gətirmişdir. Eyni zamanda elçi gəlişinin məqsədi haqqında, Şah Abbasdan aldığı ismarıclar haqqında boyarlara şifahi məlumat verdi. Səfəvi elçisi bildirdi ki, Şah Abbas qoşun çəkərək Təbriz şəhərini azad etmiş və sonra da Şamaxı yaxınlıqlarına qədər irəliləmişdir. Şah Abbasın Osmanlılara qarşı müharibəyə başlamasının səbəbləri haqqında da elçi Rusiya mənsublarına məlumat verdi. Onun sözlərinə görə, iki tərəf arasında əldə edilmiş anlaşmaya sədaqət nümayiş etdirmək üçün Şah Abbas qardaşı oğlunu girov kimi İstanbul sarayına göndərmişdi. Rus xronikasında olan məlumata görə, Şah Abbasın qardaşı oğlu İstanbul sarayında qətlə yetirildi. Bu hadisədən sonra Şah Abbas da Osmanlı dövləti tərəfindən işğal edilmiş ərazilərin geri qaytarılmasına başlamağı məqsədəuyğun saydı. Elçinin Moskvada verdiyi məlumata görə, Şah Abbas Osmanlı dövlətinə qarşı müharibəyə başlayanda Osmanlı qoşunları Avropa cəbhəsində idi. Bunu da Şah Abbas münasib fürsət kimi qiymətləndirdi. Elçinin verdiyi məlumata görə, Şah Abbas Təbriz şəhərini asanlıqla geri almış və Şamaxıya doğru irəliləməsini davam

etdirmişdi. Rusiya sarayına təklif olunurdu ki, rus qoşunları da Dərbənd istiqamətindən hücuma başlasın. Şah Abbasın elçisi özbək qoşunlarının Xorasan istiqamətində hücum etməsi, Məşhəd və Herat şəhərlərinin onlar tərəfindən ələ keçirilməsi, Şah Abbas tərəfindən Fərhad xanın rəhbərliyi altında qoşun dəstəsi göndərməsi haqqında da məlumat verdi (46).

Rus xronikasında Şah Abbas tərəfindən Rusiya çarına göndərilmiş məktubun tərcüməsi də verilmişdir. Orta əsrlər rus dilində verilmiş bu tərcümədən görünür ki, Şah Abbasın göndərdiyi məktubun əvvəlində ənənəvi olaraq Rusiya çarının şəninə tərif dolu cümlələr yazılmışdı. Sonra isə Şah Abbas iki dövlət arasında xoş münasibətlər qurulmasına tərəfdar olduğunu bəyan edirdi. O yazırdı ki, bəzi müsəlman dövlətləri Səfəvi dövlətinə qarşı düşmənçiliyə başlayanda Budaq bəyin rəhbərliyi altında Rusiyaya elçilik heyəti göndərdi ki, bu elçilik vasitəsilə Rusiyadan müəyyən kömək ala bilsin. Şah Abbas yazırdı ki, ona əvvəlcə verilmiş məlumata görə, Budaq bəy Xəzər dənizi ilə geri qayıdan zaman tufana düşmüş və həyatını itirmişdi. Yalnız xeyli müddətdən sonra ona xəbər çatdırılmışdı ki, Budaq bəy salamatdır və Gilan vilayətindədir. Şah Abbas onun gəlib çıxmasını gözləmədən Rusiya sarayına yeni bir elçiliyin göndərilməsi qərarına gəlmişdi. Bu yeni elçi vasitəsilə Şah Abbas Rusiya çarı ilə xoş münasibətlərin davam etdirilməsinə tərəfdar olduğunu çatdırmaq istəyirdi. Məktubunda Şah Abbas onu da yazırdı ki, yeni elçinin Rusiya ərazisində ticarət etməsinə icazə verilsin və həm də o, Gilandan deyil, başqa istiqamətdən Səfəvi dövlətinə yola salınsın (47).

Moskvanı tərk etməzdən əvvəl Səfəvi elçisi Rusiya çarının qəbulunda oldu. Səfəvi elçisi Şah Abbasın salamların və ehtiramını bir daha Rusiya çarına yetirdi və gəlməsinin səbəbləri ilə bağlı Rusiya çarına məlumat verdi. O dedi ki, Budaq bəy Gilana yetişəndə Şah Abbas onun yanında Rusiya elçisinin olmadığı haqqında məlumat aldı. Yəni onda belə bir təsəvvür yarandı ki, Rusiya sarayı Səfəvi dövləti ilə münasibətlərin möhkəmləndirilməsində maraqlı deyil və ona görə də Rusiya çarı öz elçisini şah yanına

göndərməmişdi. Bu qəbul zamanı şah elçisinə xeyli sayda qiymətli hədiyyələr təqdim olundu. Bu hədiyyələr həm Şah Abbas üçün, həm də elçi üçün nəzərdə tutulmuşdu. İki gün sonra şah elçisi Rusiyanın saray əyanları tərəfindən qəbul olundu və onun Rusiya çarı hüzurunda səsləndirdiyi fikrə cavab verildi. Rusiya saray mənsubları şah sarayına elçi göndərməməsinin səbəblərini elçiyə açıqladılar. Elçiyə çatdırıldı ki, Budaq bəyin və Hadi bəyin ardınca rus elçisinin də göndərilməsi planlaşdırılmışdı. Saray mənsublarının məlumatına görə, hətta Dərbəndə rus qoşun dəstəsinin göndərilməsinin mümkünlüyü də nəzərdən keçirilmişdi. Rusiya sarayında belə fikirləşirdilər ki, Dərbənddə dayanan qoşunların sayı elə də çox deyildir və həmin qüvvəyə üstün gəlmək mümkündür. Rusiya sarayı Osmanlı dövlətinə qarşı Səfəvi dövləti ilə ittifaq yaratmaq məsələsinə də rəğbətlə yanaşırdı. Lakin belə bir vaxtda Rusiya sarayında xəbər alındı ki, Səfəvi dövləti ilə Osmanlı dövləti arasında sülh anlaşması əldə edilib. Rusiya saray mənsubları bildirirdilər ki, Səfəvi sarayı Rusiyanın cavabını almadan Osmanlı dövləti ilə anlaşmaya getdi və ona görə də Rusiya çarı Səfəvi sarayına elçi göndərməyi mənasız saydı. Rusiya sarayına elçi göndərilməməsi bununla izah olundu. Rus xronikasında bildirilirdi ki, Şah Abbasın Rusiya çarına göndərdiyi məktub tatarca (türkcə) yazılmışdır (48).

Rus xronikasında Səfəvi elçisinin 1591-ci ilin avqustunda Moskvanı tərk etdiyi bildirilir. Onun Həştərxana çatması üçün lazım olan hazırlıqlar görüldü və tapşırıqları verildi. Rusiya sarayı tərəfindən Həştərxan hakimi Fyodor Mixayloviç Troyekurova da məktub göndərildi və Səfəvi elçisinə öz Vətəninə dönməyə kömək göstərilməsi tapşırıldı. Həştərxan hakimi həmin tapşırığa əsasən, Səfəvi elçisini Gilan gəmiləri ilə yola salmalı idi. Gilan gəmilərinin artıq yola düşdüyü halda Səfəvi elçisinə icazə verilməli idi ki, Həştərxanda Gilana yollanması üçün gəmi alsın. Gəmi növünün seçilməsində Səfəvi elçisi azad idi. Havaların soyuması üzündən dənizlə hərəkət etmək çətinləşəcəyi halda Səfəvi elçisi Türkiyə, oradan da öz ölkəsinə gedə bilərdi. Bununla bağlı, Rusiya

sarayı tərəfindən Tərki hakiminə də məktub göndərildi ki, Səfəvi elçisinin yolçuluğuna mümkün köməyi göstərsin. Tərkidən Səfəvi elçisi Gürcüstan ərazisinə keçə bilərdi. Tərki istiqamətindən təhlükəsiz hərəkət üçün Səfəvi elçisinin mühafizəsinə adamlar verilməli idi. Bu elçi istədiyi halda qışı Həştərxanda da qala bilərdi. Noyabr ayında Həştərxan hakimindən Moskva sarayına məktub daxil oldu ki, Səfəvi elçisi qışı orada keçirməyi və yazın gəlməsi ilə öz yoluna davam etməyi qərara almışdır (49). Səfəvi sarayından Kay adlı elçinin Moskvaya göndərilməsi haqqında rus xronikasına istinadən bəzi farsdilli tarixi ədəbiyyatda da bu məsələyə toxunulmuşdur (50).

Kay adlanan elçinin istər xronikada, istərsə də farsdilli tarixi ədəbiyyatda Moskvaya səfər etməsi 1591-ci ilə aid edilir. Elçinin Rusiya çarına apardığı məktubda Şah Abbas tərəfindən Təbrizin artıq azad edildiyi və qoşunların Şamaxı istiqamətində irəlilədiyi bildirilirdi. Amma tarixdən məlumdur ki, Şah Abbas tərəfindən Təbriz şəhəri Osmanlı qoşunlarından 1603-cü ildə azad edildi. Şah Abbasın Şamaxı istiqamətində qoşun çəkməsi isə 1606-cı ildə baş vermişdi. Çox güman ki, bu xətaya rus xronikasında yol verilmiş və elmi-tarixi ədəbiyyatda da təkrar olunmuşdu.

1591-ci ilin sonunda Gilanın keçmiş hakimi Xan Əhmədin daha bir elçisi Rusiya ərazisinə gəldi. Bu barədə Həştərxan hakimi tərəfindən Moskva sarayına xəbər verildi. Nemət adlanan həmin elçi Xan Əhmədin Rusiya çarına və böyük knyaz Boris Qodunova ünvanlanmış məktublarını gətirmişdi. Bundan başqa elçi özü ilə gürcü hakimi Aleksandrın da Rusiya çarına ünvanlanmış məktubunu gətirmişdi. Məktublar yazılan vaxt Xan Əhməd Şamaxıda idi. O, Gilandan sıxışdırılandan sonra Osmanlı nəzarəti altında olan bu şəhərə gəlmişdi. Xan Əhməd belə bir fikirdə idi ki, onun təqib olunması davam etdirilərsə, Şamaxıdan Gürcüstana, oradan da Osmanlı ərazisinə yollansın. Amma onun Rusiya çarına göndərdiyi məktubun məzmunundan hiss edilirdi ki, Xan Əhmədin yenidən Gilana qayıtmaq və bu vilayətin hakimliyini öz əlinə almaq ümidləri var. O, Rusiya çarına yazırdı ki, qızı Şah Abbasın

oğluna nişanlıdır. Tarixdən də məlumdur ki, Şah Abbas Gilandakı separatçılığa son qoymaq üçün Xan Əhmədin yeganə və kiçik yaşlı qızını böyük oğluna nişanlamışdı. O da məlumdur ki, sonralar Şah Abbasın oğlu Xan Əhmədin qızı ilə evlənməkdən imtina edəndə, Şah Abbas onu özünə nikah etdirdi. Xan Əhməd Rusiya çarına məktubunda hələ də Gilana qayıtmaq ümidində olduğunu bildirirdi. Ona görə də o, Rusiya çarından xahiş edirdi ki, onun Rusiya sularında üzən gəmilərinin geri qayıtmasına icazə versin. Xan Əhmədin böyük knyaz Boris Qodunova yazdığı məktub da həmin məzmunda idi (51).

Xan Əhmədin məktubunu aparan elçinin Rusiya çarı ilə görüşməsi, onun məktubunda toxunduğu məsələ ilə bağlı hansısa bir qərarın qəbul edilməsi haqqında rus xronikasında məlumat qalmamışdır. Amma bu xronikada Şah Abbasın başqa bir elçisinin Rusiyaya yollanması haqqında məlumat mövcuddur. Həmin elçilik heyətinə Hacı Xosrov adlı bir əyan rəhbərlik edirdi. Verilən məlumata görə, elçilik heyəti yeddi nəfərdən ibarət idi. Bu heyətin də 43 nəfərlik xidmət dəstəsi var idi. Rus xronikasında Kay adlanan elçi havaların soyuması üzündən Həştərxanda gözlədiyi vaxt Hacı Xosrovun elçilik heyəti Səfəvi dövləti ərazisindən gəmi ilə Həştərxana doğru hərəkətə başlamışdı. Amma bu heyətin dənizlə səfəri havaların soyuq olduğu günlərdə keçdiyi üçün Həştərxana çatmamış heyətin mindiyi gəmi buzların məngənəsində qaldı və irəli hərəkət edə bilmədi. Bu barədə Həştərxan hakiminə məlumat çatdırıldı. Həştərxan hakimi biləndə ki, buzların məngənəsində qalmış gəmidə Şah Abbasın Moskvaya yollanan elçilik heyəti qalıb, dərhal bu heyətin köməyinə qüvvə göndərdi. Həmin qüvvə tüfəngçilər bölüyünün komandiri Şestokun rəhbərliyi altında 50 nəfər tüfəngçidən ibarət idi. Bu silahlılarla eyni zamanda heyət üzvlərinə ərzaq da göndərildi. Köməyə göndərilən adamlar elçilik heyətini quruya çıxardılar və sonra da onlara at verdilər. Xidmət adamlarının daşınması üçün isə xizək hazırlandı. Bu heyət quru yolla Həştərxana yola salındı və heyət üzvləri 1592-ci il dekabr ayının 14-də Həştərxana gəlib yetişdilər (52).

Elmi-tarixi ədəbiyyatda olan bir məlumata görə, Hacı Xosrovun rəhbərlik etdiyi heyət ticarət heyəti idi və bu heyətin Rusiyaya səfər etməkdə məqsədi bu dövlətlə Səfəvi dövləti arasında ticarət əlaqələrinin genişləndirilməsi idi (53).

Hacı Xosrovun rəhbərliyi altında olan elçilik heyətinin Moskva səfəri Səfəvi dövləti üçün yeni bir tarixi şəraitdə həyata keçirdi. Şah Abbasın izlədiyi siyasət nəticəsində Gilandakı separatçılıq hərəkatı aradan qalxmış, Gilanın keçmiş hakimi olan Xan Əhməd vilayəti tərk etmiş və vilayətin hakimliyi Mehdiqulu xana tapşırılmışdı. Hacı Xosrov özü ilə Gilan hakimi Mehdiqulu xanın da məktubunu aparırdı. Amma Mehdiqulu xan Xan Əhməddən fərqli olaraq Şah Abbas tərəfindən təyin edilmiş və mərkəzi hakimiyyətin tabeliyində olan bir hakim idi.

Hacı Xosrovun elçilik heyəti Həştərxanda da yüksək səviyyədə qarşılandı. Əvvəlcə Həştərxan hakimi öz nümayəndələrini Hacı Xosrovun yanına göndərdi, ondan Həştərxana gəlməsinin səbəbini soruşdu. Biləndə ki, Hacı Xosrov Rusiya çarına Şah Abbasın və çariçaya onun bibisi Zeynəb bəyimin məktubunu aparır, onda Həştərxan hakimi bu heyətin Moskvaya səfər hazırlıqlarını da öz boynuna götürdü. Həştərxan hakimi məsələdən xəbərdar olandan sonra Rusiya çarına məktub yazdı, ona Şah Abbasın yeni elçiliyinin gəlməsi, bu elçiliyin özü ilə gətirdiyi hədiyyələr barəsində məlumat verdi. Rusiya çarının icazəsi alınandan sonra Hacı Xosrovun elçilik heyəti Həştərxandan yola salındı. Rusiya çarı eyni zamanda Nijni Novqorod hakiminə fərman göndərdi ki, Səfəvi elçili heyəti bu şəhərə yetişəndə onu qarşılasın və sonra da Yaroslav şəhərinə yola salsın. Çarın fərmanına əsasən, Yaroslav şəhərində də Səfəvi elçiliyinin qarşılanması, yerləşdirilməsi və sonra da yola salınması yüksək səviyyədə təşkil olunmalı idi. Yaroslav şəhərində Rusiya sarayının nümayəndələri Hacı Xosrovla görüşməli, onun Rusiyaya hansı məqsədlə gəlməsi barəsində məlumat almalı və sonra da bu barədə Rusiya çarına məktub göndərilməli idi. Rusiya sarayının nümayəndəsi həm də Səfəvi dövlətinin beynəlxalq vəziyyəti ilə, xüsusilə Osmanlı və özbək qoşunlarının Sə-

fəvi ərazisinə hücumları ilə maraqlanmalı, hansı şəhərlərin Osmanlı nəzarəti altında olması və hansı şəhərlərin də Osmanlı nəzarətindən azad edilməsi haqqında məlumat alıb Rusiya çarına çatdırmalı idi. Saray nümayəndəsinə icazə verilmişdi ki, Səfəvi elçisinin maraqlanacağı halda ona Rusiyanın beynəlxalq vəziyyəti haqqında məlumat versin. İstisna edilmirdi ki, Səfəvi elçisi Rusiya ilə Osmanlı münasibətləri haqqında soruşa bilər. Belə olduğu təqdirdə, Səfəvi elçisinə cavab verilməli idi ki, Rusiya ilə Osmanlı dövləti arasında münasibətlər gərgin olaraq qalmaqdadır, İstanbula göndərilmiş rus elçisi hazırda geri qayıtmaqdadır və onunla birlikdə Osmanlı elçisi də Moskvaya gəlməkdədir. Onların gəlməsindən sonra iki dövlət arasındakı münasibətlər bir qədər aydınlaşa bilər. Səfəvi elçisi başqa məsələlər haqqında maraqlandığı təqdirdə saray nümayəndəsi bildirməli idi ki, o, xidmət adamıdır və digər işlərdən onun xəbəri yoxdur. Səfəvi elçisi ilə olan söhbətin məzmunu barəsində də Rusiya çarına məlumat çatdırılmalı idi (54).

Rus xronikasında əksini tapmış məlumatlardan göründüyü kimi, Hacı Xosrovun rəhbərlik etdiyi elçilik heyətinin Moskvaya doğru kifayət qədər ləng gedirdi. Bu heyət 1593-cü ilin iyul ayının ilk günlərində Nijni Novqorod şəhərinə çatmışdı. Yəni Həştərxandan Nijni Novqorod şəhərinə yetişmək üçün yarım ildən də artıq vaxt lazım olmuşdu. Elçilik heyətinin səfərinin belə ləng getməsinin nə ilə bağı olması haqqında xronikada hər hansı bir məlumat mövcud deyil. İstisna etmək olmaz ki, elçilik heyətinin qarşısında dayanan başlıca vəzifə iki dövlət arasında ticarət əlaqələrinin inkişaf etdirilməsi olduğundan, yol boyu Səfəvi elçiləri yerli istehsalla və bu istehsal məhsullarının Səfəvi dövlətinə daşınması imkanları ilə maraqlanmışdı.

Hacı Xosrovun elçilik heyəti 1593-cü ilin avqust ayında Moskvaya yetişdi. Həmin il sentyabr ayının 13-də bu elçilik heyətini böyük knyaz Boris Qodunov qəbul etdi. Boris Qodunov hörmət əlaməti olaraq elçilik heyətini iqamətgahının həyətində qarşıladı və sonra da bu heyəti qəbul salonuna müşayiət etdi. Hacı Xosrov

bu qəbulda Şah Abbasın məktubunu Boris Qodunova təqdim etdi. Əlavə olaraq, Hacı Xosrov Səfəvi şahının salamlarını, habelə iki dövlət arasında münasibətlərin daha da yaxşılaşdırılması istəyini B.Qodunova çatdırdı. Eyni zamanda şah adından gətirilmiş hədiyyələr böyük knyaza təqdim edildi. B.Qodunova Fərhad xan və Gilan hakimi Mehdiqulu xan adından da qiymətli hədiyyələr təqdim olundu. Hədiyyələri qəbul etdikdən sonra B.Qodunov şah elçisini özünün sağ tərəfində əyləşdirdi, elçini müşayiət edən heyət üzvlərindən və B.Qodunovun yanında olan xidmət adamlarından xahiş olundu ki, salonu tərk etsinlər. B.Qodunovla Hacı Xosrov təklikdə, yalnız tərcüməçinin iştirakı ilə söhbət etdilər (55).

Bu söhbət zamanı əvvəlcə B.Qodunov Səfəvi sarayının Rusiyaya olan münasibətini aydınlaşdırmağa çalışdı. O, Budaq bəylə Hadi bəyin elçilik heyətinin Moskvada yüksək səviyyədə qarşılanmasından, bu heyətin gəlişinin iki dövlət arasında münasibətlərin yaxşılaşdırılması üçün yeni imkanlar açа biləcəyindən, həmin heyətin geri qayıtmasından sonra Rusiya elçilik heyətinin Səfəvi dövlətinə göndərilməsi planlarından danışdı. Böyük knyaz onu da bildirdi ki, sonradan Səfəvi dövləti ilə Osmanlı Türkiyəsi arasında sülh anlaşmasının əldə edilməsi və bu anlaşmaya sədaqət əlaməti olaraq Şah Abbasın qardaşı oğlunun Osmanlı sarayına göndərilməsi haqqında məlumat alındı. B.Qodunova görə, bu məlumatın alınması Moskva sarayında belə bir ehtimal yaratdı ki, Səfəvi dövləti artıq Osmanlı dövləti ilə qarşılıqlı anlaşmaya gəliblər, bu dövlətlər arasında münasibətlər sahmana salınıb və Səfəvi dövlətinin daha Rusiya ilə münasibətlər qurmasına ehtiyac qalmamışdır. B.Qodunov söhbət zamanı aydınlaşdırmağa çalışırdı ki, doğrudanmı Səfəvi sarayı Rusiya ilə münasibətlərin möhkəmlənməsini istəmir? Hacı Xosrov isə bu söhbəti dinlədikdən sonra birmənalı şəkildə məsələnin heç də Boris Qodunovun fikirləşdiyi kimi olmadığını bildirdi. O bəyan etdi ki, Səfəvi dövlətinin Osmanlı Türkiyəsi ilə sülh anlaşmasına getməsi mövcud şəraitdə məcburiyyət üzündən baş vermişdir. Bunun səbəbi haqqında da o, bəzi məsələlərə aydınlıq gətirdi. O cümlədən, o bildirdi ki, özbək qoşunla-

rının Səfəvi hüdudlarına hücumu zamanı şah qoşunlarının iki istiqamətdə müharibə aparmaq imkanı yox idi. Ona görə də, Şah Abbas Osmanlı qoşunları ilə sülh anlaşmasına getməyə məcbur oldu ki, özbək qoşunlarına qarşı daha arxayın şəkildə müharibə apara bilsin. Hacı Xosrov onu da əlavə etdi ki, Şah Abbas Rusiya elçisinin gəlməsini intizarla gözləyirdi. Şah Abbas da istisna etmirdi ki, Rusiya elçilik heyətinin gəlməməsi Səfəvi dövləti ilə Osmanlı dövləti arasında sülh anlaşmasının düzgün qiymətləndirilməməsi ilə bağlı ola bilər (56).

Hacı Xosrov söhbət zamanı B.Qodunovu inandıra bildi ki, Şah Abbas Rusiya ilə münasibətlərin möhkəmləndirilməsinin tərəfdarıdır. O hətta Şah Abbasın Boris Qodunov haqqında olan fikrini də ona çatdırdı. Şah Abbas bildirirdi ki, Boris Qodunov təcrübəli bir dövlət adamı kimi bir əli ilə Rusiyanın idarə etsin, digər əli ilə Rusiya ilə Səfəvi dövləti arasında münasibətləri möhkəmləndirsin. Bu söhbətdən sonra B.Qodunov da əmin oldu ki, Şah Abbas doğrudan da Rusiya ilə münasibətlərin möhkəmləndirilməsi arzusundadır. Ona görə də o, şah elçisinə bildirdi ki, bütün gücü ilə iki dövlət arasında münasibətlərin möhkəmləndirilməsinə, bu barədə Rusiya çarına yetərli məlumat çatdırılmasına çalışacaqdır. B.Qodunov ona da söz verdi ki, bu istəyinin təsdiqi kimi Rusiyanın elçilik heyəti də Səfəvi dövlətinə göndəriləcəkdir (57).

Yuxarıda yazılanlardan bəllidir ki, Rusiya sarayı ilə Gilan vilayətinin keçmiş hakimi Xan Əhməd arasında qarşılıqlı münasibətlər formalaşmışdı. Ona görə B.Qodunov Səfəvi şahının elçisi ilə söhbət zamanı Gilanda baş verən hadisələr və Gilan hakiminin vəzifəsindən uzaqlaşdırılması ilə maraqlandı. Hacı Xosrov da bu barədə ona geniş məlumat verdi. O bildirdi ki, Gilan hakimi Xan Əhməd mərkəzi hakimiyyətdən qopmaq yolunu tutmaqla osmanlı sarayı ilə yaxşı münasibətlər qurmuşdu və hətta vilayətin müəyyən ərazilərini də Osmanlı dövlətinə təslim etmək istəyirdi. Ona görə də Xan Əhmədə qarşı ciddi tədbirlər görüldü, Şah Abbas tərəfindən məsələnin dinc yolla həll edilməsi üçün dəfələrlə təşəbbüs göstəriləndən sonra, bu vilayətə şah qoşunları çıxarıldı. Vi-

layətdən uzaqlaşdırılan Xan Əhmədin yerinə şah fərmanı ilə ona yaxın olan əmirlərdən biri təyin edildi. Sonra Hacı Xosrov böyük knyaza Şah Abbasın xahişini də çatdırdı. Şah Abbas B.Qodunovdan xahiş edirdi ki, Xan Əhmədin vilayət hakimliyi zamanı Həştərxana gəlmiş olan gəmilər və onların xidmət heyəti geri qaytarılsın. Xan Əhməd tərəfindən Rusiya sarayına göndərilmiş elçilik heyətinin üzvləri də Həştəxanda qalmaqda idi. Hacı Xosrov bu heyət üzvlərinin ona təhvil verilməsini istədi. O, xahiş etdi ki, B.Qodunov bu məsələni Rusiya çarına da çatdırsın. Bundan başqa, B.Qodunova çatdırıldı ki, Şah Abbas onun vasitəsilə Rusiya çarından hərbi təchizat almaq istəyindədir. Xahiş olundu ki, Şah Abbasın bu istəyi də Rusiya çarının diqqətinə çatdırılsın (58).

Görüş zamanı Şah Abbas tərəfindən həm Rusiya çarına, həm də B.Qodunova ünvanlanmış məktublar böyük knyaza təqdim olundu. Şah Abbasın Rusiya çarına yazdığı məktub ənənəvi olaraq Allaha dualarla, sonra da Rusiya çarının tərifi ilə başlayırdı. Ardınca da Şah Abbas bəyan edirdi ki, onun inandığı və ona yaxın olan Hacı Xosrovu elçi kimi Rusiya çarının hüzuruna göndərir. Şah Abbas hər zaman Rusiya ilə yaxşı münasibətlərin qurulması arzusunda olduğunu və bunun üçün Rusiyadan gələ biləcək elçilik heyətini böyük intizarla gözlədiyini bildirirdi. Rusiyadan elçilik heyəti gəlmədikdə isə o, yenidən öz elçisini, yəni Hacı Xosrovu Rusiya sarayına göndərmək qərarına gəldiyini yazırdı. Şah Abbas qeyd edirdi ki, Xorasan yürüşündə olduğu bir vaxtda Hacı Xosrovu Rusiya sarayına göndərməyi məsədəuyğun saydı və ümid edirdi ki, bu elçi Rusiya sarayında Səfəvi dövlətinə çar elçisinin göndərilməməsinin səbəbini aydınlaşdıra biləcəkdir. Sonra məktubunda Şah Abbas xahiş edirdi ki, Rusiya ərazisində Hacı Xosrova şah sarayı üçün lazım olan əşyaların alınmasına icazə verilsin. Xüsusilə, Rusiya ərazisində zirehli geyimlərin alınmasına ehtiyac olduğu məktubda öz əksini tapmışdı. Şah Abbas tərəfindən Boris Qodunova yazılmış məktub da təxminən həmin məzmunda idi. Amma bu məktubda iki dövlət arasında münasibətlərin möhkəmləndirilməsi arzusu ifadə olunduqdan sonra ticarət əlaqələrinin

genişləndirilməsinə daha geniş yer ayrılmışdı. Bildirildi ki, Hacı Xosrovun Rusiya səfərinin əsas məqsədlərindən biri də məhz ticarət əlaqələrinin genişləndirilməsi, Rusiya ərazisində istehsal olunmuş məhsulların, xüsusilə də xəz məhsullarının ticarətə cəlb edilməsidir (59).

Eyni zamanda Gilan hakimi Mehdiqulu xanın məktubu da Boris Qodunova təqdim olundu. Bu məktubunda Mehdiqulu xan uzun-uzadı Rusiya çarını tərifləmiş və onun barəsində xoş sözlər yazmışdı. Əsas diqqətini isə o, yeni şəraitdə Rusiya ilə qarşılıqlı ticarət əlaqələrinin qurulmasına yönəltmişdi. Mehdiqulu xanın yazdığından aydın olur ki, Xan Əhmədin vilayətə hakimliyi zamanı Rusiyadan gələn ticarət gəmilərinə böyük gömrük rüsumları müəyyən edilirdi. Bu da ticarətin inkişafını ləngidirdi. Onun yazdığına görə, bu vəziyyət tərəflərin heç biri üçün faydalı deyildi. Mehdiqulu xan vəd edirdi ki, yeni şəraitdə ticarətin daha sərbəst və azad şəkildə qurulması, ticarət xərclərinin azaldılması üçün lazım olan hər şeyi edəcəkdir. Yəni o, Rusiya sarayını əmin edirdi ki, Rusiya ticarətinin Gilandan keçməklə Səfəvi dövləti ərazisində rövnəq tapması üçün öz səylərini əsirgəməyəcəkdir (60).

Rus xronikasında Şah Abbas tərəfindən Rusiya çarına və Boris Qodunova, Şah Abbasın bibisi tərəfindən isə Rusiya çarıçasına göndərdiyi hədiyyələrin siyahısı verilmişdir. Bu siyahı çox böyük bir siyahı idi. Yəni Şah Abbas tərəfindən Rusiya çarına böyük sayda hədiyyələr göndərilmişdi. 1593-cü il sentyabr ayının 10-da Boris Qodunov şah elçisinə xəbər göndərdi ki, onun gəlişi barəsində Rusiya çarına məruzə edəcəkdir və çarın iradəsi olacağı təqdirdə Hacı Xosrov onun qəbulunda olmağa hazırlaşmalıdır. Sentyabr ayının 15-də isə Hacı Xosrov Rusiya çarı tərəfindən qəbul edildi. Rus xronikasında yazılanlara görə, Hacı Xosrovun Boris Qodunovun yanında olan söhbətləri Rusiya çarının yanında da təkrarlandı. Bu qəbul zamanı Səfəvi dövləti ilə Osmanlı dövləti arasında mövcud olan münasibətlər, Səfəvi dövləti ilə Rusiya arasında münasibətlərin möhkəmləndirilməsi istəyi, Gilan hakimi Xan Əhmədin taleyi, Səfəvi gəmilərinin Həştərxanda saxlanması,

ticarət əlaqələrinin genişləndirilməsi kimi məsələlər müzakirə olundu. Sentyabr ayının 16-da Hacı Xosrov yenidən Rusiya çarının qəbulunda oldu. Bu qəbul Hacı Xosrovun son qəbulu idi və bu qəbuldan sonra o, çarın icazəsi ilə geri hərəkətə başlamalı idi. Hacı Xosrov əvvəlcə Rusiya sarayının boyarları tərəfindən qəbul edildi. Ona bildirildi ki, Şah Abbas tərəfindən elçilik heyətinin gəlməsi Rusiya sarayı tərəfindən məmnunluqla qarşılanmışdır və Rusiya tərəfi Səfəvi dövləti ilə yaxşı münasibətlər qurulmasına tərəfdardır. Eyni zamanda Hacı Xosrovun nəzərinə çatdırıldı ki, qarşılıqlı münasibətlərin inkişafına nail olunması üçün artıq Rusiya tərəfindən də Səfəvi dövlətinə elçilik heyətinin göndərilməsi qərara alınmışdır. Rusiya sarayının mövqeyi Hacı Xosrova çatdırılandan sonra o, Rusiya çarının hüzuruna dəvət edildi. Rusiya çarı protokol qaydasında Hacı Xosrovu qəbul etdi. Onun əyləşdiyi taxtın sağ və solunda sarayın nüfuzlu boyarları və əyanları yer almışdılar. Sarayın vəzifəli boyarlarından biri çar qəbulunda Rusiya dövləti adından Hacı Xosrova müraciət edərək iki dövlət arasında münasibətlərin möhkəmləndirilməsi istəyini, habelə Səfəvi elçilik heyəti ilə birlikdə Rusiya elçilik heyətinin də Səfəvi dövləti ərazisinə göndəriləcəyini bəyan etdi (61).

Hacı Xosrova, onun rəhbərlik etdiyi elçilik heyətinin üzvlərinə və nəhayət Şah Abbasa qiymətli hədiyyələr ayrıldı və həmin hədiyyələr Səfəvi elçisinə təqdim olundu. 1593-cü il oktyabr ayının 15-də Hacı Xosrov gəldiyi marşrutla da Həştərxana doğru istiqamət götürdü. Onun bu yolçuluqda müşayiət edilməsi üçün həm saray mənsubları, həm də xidmət və mühafizə qüvvələri ayrıldı. Hacı Xosrov tərəfindən Rusiyadan zirehli geyim alınması və Həştərxanda saxlanılmış olan 4 ədəd gəminin geri buraxılması haqqında qaldırılan məsələlərə hansı cavab verilməsi haqqında rus xronikasında aydın bir məlumat yoxdur. Araşdırmaçıların fikrincə, bu məsələlərlə bağlı Hacı Xosrov ona tapşırılmış vəzifənin həllinə nail ola bilmədi (62).

Hacı Xosrovun rəhbərlik etdiyi elçilik heyəti hələ Qəzvinə çatmamış Şah Abbas tərəfindən yeni bir elçilik heyəti Rusiyaya gön-

dərildi. 1593-cü il noyabr ayının 15-də Həştərxan hakimi Rusiya çarına göndərdiyi məktubda yazırdı ki, Səfəvi dövlətindən Hacı İsgəndər adlı elçi Həştərxana gəlib və Moskvaya yollanmaq istəyir. O qeyd edirdi ki, Hacı İsgəndər özü ilə Rusiya çarına Şah Abbasın məktubunu gətirmişdir. Heç bir maneçilik törədilmədən Hacı İsgəndərin rəhbərlik etdiyi elçilik heyəti Moskvaya yola salındı. Onun Moskvaya yetişməsi 1594-cü ilin yanvar ayının əvvəllərinə təsadüf edirdi. Hacı İsgəndər də Moskva sarayında protokol ənənələrinə uyğun olaraq hörmət və ehtiramla qarşılandı. Amma Rusiya çarının qəbuluna düşmək Hacı İsgəndərə qismət olmadı. Boris Qodunovun tapşırığına əsasən, Hacı İsgəndər fevral ayının 11-də Rusiya sarayına dəvət edildi. Burada onu Andrey Şelkalov adlı bir boyar qəbul etdi. Hacı İsgəndərin nəzərinə çatdırıldı ki, çarın Feodosiya adlı qızı dünyasını yenicə dəyişdiyi üçün Fyodor İvanoviç yas içərisindədir və ona görə qonaqları qəbul etmir. Buna baxmayaraq, Hacı İsgəndər saray protokoluna uyun olaraq qəbul edildi. Andrey Şelkalov Rusiya çarı adından Hacı Xosrovu salamlayaraq onun gəlişinin məqsədi ilə maraqlandı və soruşdu ki, əgər Şah Abbas tərəfindən hər hansı bir məktub gətirilibsə Rusiya çarına çatdırmaq üçün ona təqdim olunsun. Hacı İsgəndər bəyan etdi ki, Şah Abbasın göstərişi ilə o, məktubu şəxsən Rusiya çarına təqdim etməlidir. Çarın kimsəni qəbul etmədiyini eşidəndə onda şah məktubunu Andrey Şelkalova təqdim etməyə razı oldu. Sonra da o, şifahi olaraq iki dövlət arasında münasibətlərin yaxşılaşması, ticarət əlaqələrinin genişlənməsi ilə bağlı şah arzularını səsləndirdi. Şah Abbasın Rusiya çarına göndərdiyi uzun məktubu ənənəvi olaraq təriflə başlayırdı və bu tərifdə Rusiya çarı Bəhram, Nuşirəvan, Cümşüd kimi Şərq hökmdarları ilə müqayisə edilirdi. Sonra isə şah Abbas yazırdı ki, Hacı İsgəndəri və onunla birlikdə Hacı Məmməd Hüseyni göndərməkdə məqsəd Rusiyada istehsal olan malların Səfəvi dövlətinə gətirilməsidir. Şah Abbas iki dövlət arasında münasibətlərin möhkəmləndirilməsi arzusunda olduğunu bir daha arzu edirdi. Səfəvi şahı xahiş edirdi ki, onun tərəfindən göndərilən elçilərin Rusiya ərazisində sərbəst ticarət edilməsinə və

sonra da onların geri dönməsinə icazə verilsin. Məktubda həm də Səfəvi dövlətinə Rusiya elçisinin göndərilməsi istəyi öz əksini tapmışdı (63).

Saray mənsubları ilə görüşdən sonra Hacı İsgəndər özü ilə gətirdiyi malları boyarların qarşısına çıxardı. Bu mallar Səfəvi hüdudlarında istehsal olunan və qərbdə çoxlu alıcısı olan mallar idi. Saray nümayəndələri bu mallara baxdıqdan sonra onların arasında bir çoxlarını seçdilər və saray xəzinəsi üçün almaq istədiklərini bildirdilər. Hacı İsgəndər bildirdi ki, bu mallar satılmaq üçün deyil və şahın göstərişi belədir ki, Rusiya sarayının nümayəndələri bu mallardan seçib götürə bilərlər. Əvəzində isə Hacı İsgəndər Rusiyada istehsal olunan mallardan seçib şah sarayına aparmalı idi. Bu barədə Rusiya çarına xəbər çatdırılanda o, elçinin gətirdiyi malların pulsuz götürülməsinə razılıq vermədi. Rusiya çarı mal mübadiləsini alış-satış üzərində qurmağı tələb etdi. Hacı İsgəndər bu tələblə razılaşmadı və bildirdi ki, onun gətirdiyi mallar ilə ticarət etməsi haqqında şah fərmanı yoxdur. O, bir daha saray əyanlarının nəzərinə çatdırdı ki, seçdikləri malları əvəzsiz olaraq götürmək istəmirlərsə, onda onları geri qaytarsınlar və geri qayıtmaq üçün icazə versinlər. Rusiya çarı da fərman verdi ki, Səfəvi elçisindən dövlət xəzinəsi üçün götürülmüş bütün mallar geri qaytarılsın və səfirin geri dönməsinə icazə verilsin. Bu fərmandan sonra Hacı İsgəndərdən alınmış bütün mallar geri qaytarıldı və o, may ayının 2-də yola salındı. Amma elçidən xahiş olundu ki, Rusiya çarının və Boris Qodunovun Şah Abbasa yazdığı məktubları da özü ilə aparsın. Elçilik heyətinin müşayiət edilməsi üçün saray boyarlarının rəhbərliyi altında xüsusi bir heyət təşkil edildi və bu heyət də elçilik heyəti ilə birgə yola salındı (64).

Hacı İsgəndərin elçilik heyətinin nəticəsiz geri qayıtması iki dövlət arasındakı münasibətləri heç də gərginləşdirmədi. Rusiya sarayı Hacı Xosrova artıq Rusiya elçilik heyətinin Səfəvi dövlətinə göndəriləcəyi barəsində vəd vermişdi. Bu vədin nəticəsi kimi 1594-cü ilin may ayında knyaz Andrey Dimitriyeviç Zveniqorodskinin rəhbərliyi altında elçilik heyətinin Səfəvi dövlətinə göndə-

rilməsi qərara alındı. Bu elçilik heyətinin tərkibinə 63 nəfər daxil edilmişdi (65). Rus xronikasında elçilik heyətinin yanına mühafizə üçün 30 nəfər tüfəngçinin də verildiyi öz əksini tapmışdır (66). Bu heyət may ayının 30-da Moskvadan yola düşdü. Andrey Zveniqorodski özü ilə Rusiya çarının iki məktubunu aparırdı. Bu məktublardan biri Hacı Xosrovun Şah Abbasdan gətirdiyi məktuba cavab idi. Digər məktub isə Hacı İsgəndərin rəhbərlik etdiyi elçilik heyətinin Moskvaya səfəri barəsində idi. Bunlardan başqa Rusiya elçisi böyük knyaz Boris Qodunovun Şah Abbasa, Fərhad xana və Gilan hakimi Mehdiqulu xana yazdığı məktubları da ünvanlarına çatdırmalı idi.

Səfəvi dövlətinə yollanacaq elçi ilə bağlı Rusiya sarayında xüsusi bir seçim edilmişdi. A.Zveniqorodski dövrünün tanınmış, nüfuzlu və zəkalı boyarlarından biri idi və şübhə edilmirdi ki, bu elçi ona tapşırılan vəzifəni icra edə biləcəkdir.

Rus xronikasında çarın Şah Abbasa yazdığı məktubun mətni qalmaqdadır. Köhnə rus dilində yazılmış bu məktubun əvvəlində uzun-uzadı həm Rusiya çarı, həm də məktubun göndərildiyi Şah Abbas vəsf olunurdu. Bu hökmdarların şəninə sonsuz sayda dəbdəbəli ibarələr işlədimişdi. Tərifli cümlələrdən sonra Rusiya çarı Hacı Xosrovun Moskvaya gəlməsi və Şah Abbasdan məktub gətirməsinə toxunurdu. Bildirilirdi ki, bu məktub böyük sevinclə qarşılandı və onunla tanışlıq Moskva sarayında məmnunluq yaratdı. Şah Abbas tərəfindən qarşılıqlı dostluq münasibətlərinin yaradılması istəyinə toxunan Rusiya çarı bu fikri dəstəkləyirdi və Səfəvi dövləti ilə möhkəm dostluq münasibətlərinin qurulmasına tərəfdar olduğunu bəyan edirdi. (Məktubda Səfəvi dövləti Persiya adlandırılmışdır). Sonra da məktubda rus çarının arzuları ifadə olunmuşdu. O, Şah Abbas dövlətinin möhkəmlənməsini, onun əcdadlarının dövründə mövcud olmuş əzəmətin geri qaytarılmasını arzu edirdi. Sonra da Rusiya çarı bu dövlətin elçilərinin nə üçün Səfəvi dövlətinə gəlməməsi ilə bağlı Şah Abbasın sualına bir aydınlıq gətirilirdi. Rusiya çarı bildirirdi ki, hələ Budaq bəylə Hadi bəyin elçilik səfərindən sonra Səfəvi dövlətinə Rusiya elçilik hey-

ətinin göndərilməsi barəsində niyyət mövcud idi. Lakin Səfəvi-Osmanlı münasibətləri haqqında alınan xəbərlər Rusiya sarayında məsələyə yenidən baxılmasına yol açdı. Rusiya çarı Səfəvi-Osmanlı münasibətləri haqqında mənsub olduğu dövlətin münasibətini bir daha Şah Abbasa açıqladı və Səfəvi şahına çatdırdı ki, Rusiya elçiliyinin səfərinin təxirə salınması əslində, məcburiyyət üzündən baş vermişdir. Məktubda sonra Hacı Xosrovun elçilik heyətinin Moskvaya səfərindən və onun gətirdiyi xəbərlərdən də söz açılırdı. Rusiya çarı bildirirdi ki, Hacı Xosrovun gəlişindən və onun verdiyi məlumatdan sonra Səfəvi-Osmanlı dövlətləri arasındakı münasibətlərin əsil mahiyyətindən xəbərdar oldu. Onun yazdığına görə, Səfəvi dövləti ilə möhkəm əlaqələrin qurulması və bu əlaqələrin möhkəmləndirilməsi məsələsi Boris Qodunov tərəfindən lazımi şəkildə qiymətləndirildi. Onun təklifi ilə də Səfəvi sarayına Rusiyanın elçisinin göndərilməsi haqqında qərar qəbul edildi. Rusiya çarı A.Zveniqorodskinin Rusiya elçisi kimi Səfəvi sarayına göndərildiyini bəyan edirdi. Çar əminliyini bildirirdi ki, bu elçiliyin Səfəvi sarayına getməsi ilə iki dövlət arasındakı münasibətlər daha da möhkəmlənəcəkdir. Eyni zamanda Səfəvi şahından xahiş olunurdu ki, Rusiya elçiliyinin azad hərəkəti, azad ticarət etməsi haqqında səltənət daxilində şərait yaradılsın və sonra da onun geri qayıtmasına icazə verilsin (67).

Rusiya çarının Şah Abbasa ünvanladığı ikinci məktub isə Hacı İsgəndərin elçilik səfəri ilə bağlı idi. Bu məktubunda Rusiya çarı Şah Abbası Persiya və Şirvan torpaqlarının hakimi adlandırmışdır. Rusiya çarı bu elçilik heyətinin gəlməsini də məmnunluqla qarşıladığını bəyan edirdi. Eyni zamanda o, Hacı İsgəndəri qəbul edə bilməməsinin səbəblərini, habelə Hacı İsgəndərin gətirdiyi malların alınmamasının səbəblərini də açıqlayırdı. Rusiya bildirirdi ki, başqa dövlətlərdən gəlmiş tacirlərinin mallarının havayı olaraq götürülməsi adətini qəbul etmir. Ona görə də Hacı İsgəndərin gətirdiyi mallar havayı olaraq qəbul edilmədi. Bununla belə, Rusiya çarının yazdığına görə, gətirilən malların sərbəst şəkildə Rusiya ərazisində satılmasına icazə verildi. Amma Hacı İsgəndər gətirdiyi

malları qiymətindən az qala on qat baha satmaq istəyirdi. Ona görə də o öz mallarını sata bilmədi və gəldiyi kimi də geri qayıtmalı oldu. Çar Fyodor Səfəvi elçisi olan Hacı İsgəndəri ticarət təcrübəsizliyində günahlandırırdı. Yəni Hacı İsgəndər öz təcrübəsizliyinə görə gətirdiyi malları sata bilmədən özü ilə geri qaytarmalı olmuşdu. Ona görə Rusiya çarı xahiş edirdi ki, gələcəkdə Səfəvi dövləti tərəfindən Rusiya ərazisinə təcrübəli adamlar göndərilsin. Məktubun sonunda Rusiya çarı yazırdı ki, Avropa və digər uzaq dövlətlərin tacirləri Rusiyaya gəlirlər, burada azad ticarət edilər, gətirdiklərini satmaqla istədikləri malları da buradan alıb aparırlar. Yəni Səfəvi dövlətinin tacirləri də Rusiya ərazisinə gəldikləri halda gətirdikləri malları real qiymətinə azad şəkildə sata bilərlər (68). Bununla, Rusiya çarı Səfəvi dövləti ilə ticarət əlaqələrinin qurulmasında maraqlı olduğunu Şah Abbasın nəzərinə çatdırırdı.

Qeyd edildiyi kimi, böyük knyaz Boris Qodunov tərəfindən də Şah Abbasa məktub yazılmışdı. Bu məktub kifayət qədər böyük bir məktub idi. Məktub müəllifi Şah Abbası Persiya və Şirvan torpaqlarının hakimi, İran və Turanın şahı adlandırırdı. B. Qodunov da məktubunda Şah Abbas tərəfindən göndərilmiş elçilik heyətlərinin Rusiyaya səfəri haqqında məlumat verir və uzun-uzadı ibarələrlə iki dövlət arasında münasibətlərin möhkəmlənməsinə, ticarət əlaqələrinin genişlənməsinə tərəfdar olduğunu yazırdı (69).

Rus xronikasında B.Qodunovun Fərhad xana və Mehdiqulu xana yazdıqları məktubların da mətni verilmişdir. Həmin məktublar da kifayət qədər uzun məktublardır və məzmununu da iki dövlət arasında münasibətlərin qurulması, ticarət əlaqələrinin genişlənməsi kimi məsələlər təşkil edirdi. A.Zveniqorodskinin elçilik heyəti Həştərxandan gəmi ilə Gilana tərəf hərəkət etdi və 1594-cü il sentyabr ayının sonlarına yaxın Gilana yetişdilər. Rus xronikasında olan məlumata görə, A. Zveniqorodski əvvəlcə tərcüməçisini Gilan hakimi Mehdiqulu xanın yanına göndərdi ki, elçilik heyətinin gəlişi barəsində ona xəbər çatdırsın. Görünür, bu heyətin gəlməsindən artıq Şah Abbasın da məlumatı var idi. Çünki

elmi-tarixi ədəbiyyatda olan məlumata görə, Şah Abbas 20 nəfər dövlət adamını Gilana göndərmişdi ki, Rusiya elçiliyini qarşılasın. Rus xronikasındakı məlumata görə, dövlət adamlarına Əmirgünə xan rəhbərlik edirdi. Onun yanında 20 nəfərlik əmir və əyanlardan başqa, 30 nəfərlik bir dəstənin olması da bildirilirdi. Bu dəstə yəqin ki, mühafizə və xidmət adamları idi. Əmirgünə xan Rusiyanın elçisi ilə görüşəndə Şah Abbasın ona ünvanlanmış məktubunu təqdim etdi. Əmirgünə xan Səfəvi şahının fərmanı ilə gəldiyini və Rusiya elçiliyini Şah Abbasın yanına müşayiət etməli olduğunu bildirdi. Şah Abbas məktubunda Rusiyanın şərəfinə xoş sözlər yazdıqdan sonra bildirirdi ki, səltənət paytaxtını tərk etmişdir və Əmirgünə xan onu və elçilik heyətini şahın yanına müşayiət edəcəkdir. Şah Abbas Əmirgünə xanı sədaqətli bir insan kimi Rusiya elçisinə təqdim edirdi (70).

Rusiya elçisinin Səfəvi dövlətinə gəlməsi haqqında İsgəndər bəy Münşinin "Dünyanı bəzəyən Abbasın tarixi" əsərində də müxtəsər məlumat vardır. İsgəndər bəy əsərində bu barədə belə yazırdı: "Bu ildə baş verən hadisələrdən biri də rus elçilərinin gəlişidir. Onlar rus padşahı tərəfindən şahın yanına gələrək, layiqli töhfə və hədiyyələr gətirdilər. Elçi bir mötəbər rus əmiri idi. [Rus dövləti] məhəbbətamiz bir məktub yazaraq çoxlu məsələlərdən söhbət açmışdı" (71).

Əmirgünə xanın Rusiya elçisi ilə söhbətindən bəlli oldu ki, onun səfəri haqqında Həştərxandan gəlmiş tacirlər beş gün əvvəl Şah Abbasa məlumat çatdırmışdılar. Həmin məlumata əsasən, şah elçisi Hacı Xosrov da A.Zveniqorodski ilə birlikdə gəlməli idi. Şah Abbas bu məlumatdan çox xoşlandı və məmnun oldu ki, nəhayət Rusiya çarı da Səfəvi dövləti ilə yaxşı münasibətlər qurulmasına meyl edir. Əmirgünə xanın dediyinə görə, Rusiya elçisinin gəlməsi haqqında xəbər gətirən tacir Şah Abbas tərəfindən səxavətlə mükafatlandırıldı. Söhbət zamanı Hacı Xosrovun harada olması haqqında da sual ortaya çıxdı. Andrey Zveniqorodski də bildirdi ki, onlar Həştərxandan ayrı-ayrı gəmilərdə Gilana doğru hərəkətə başlamışdılar. Dənizdə əsən güclü külək onları ayrı saldı.

Ona görə Hacı Xosrovun sağ olmasından, onun Gilana gəlib çıxmasından xəbəri yoxdur. Əmirgünə xan isə ona bildirdi ki, Hacı Xosrov kimiləri şahın tabeliyində çoxdurlar. Şahı isə daha çox maraqlandıran Rusiya elçisidir ki, o da sağ-salamat Gilana gəlib çata bilmişdir (71).

Rusiya səfiri bir neçə gündən sonra Lahicana gətirildi və təxminən iki həftəyə yaxın orada qaldı. Oktyabr ayının 10-da dənizdə itkin düşən Hacı Xosrov da Lahicana gəldi və Rusiya səfiri ilə görüşəndə dənizdə başına gələnləri ona danışdı. Məlum oldu ki, Hacı Xosrovun yanında olan adamların bəzisi dənizdə həyatlarını itirmiş, bəziləri isə çətinliklə də olsa canlarını qurtara bilmişdilər. Oktyabrın 14-də isə Rusiyanın elçilik heyəti, bu heyəti müşayiət edən adamlar Lahicandan Qəzvinə doğru hərəkətə başladılar. Həmin ayın 21-də elçilik heyəti Qəzvin ətrafına yetişdi və şəhərdən kənarda onun üçün iqamətgah müəyyənləşdirildi. Bir gün sonra qorçubaşı Allahqulu bəy, gürcü şahzadəsi Konstantin və digər əmir və əyanlar Rusiya elçisinin görüşünə gəldilər. Bu əmirlər Rusiya elçilik heyətinin təntənəli şəkildə qarşılanması üçün tapşırıq almışdılar. Qarşılanma tədbirinə 700 nəfərlik atlı dəstə, təxminən iki min nəfərlik piyada silahlı cəlb edilmişdi. Dəstənin önündə kərənay və təbillər çalışırdı və dəstə böyük bir coşqu ilə Qəzvinin mərkəzi meydanına gəldi. Dəstənin keçdiyi yol boyu çoxlu sayda insanları düzülmüşdülər. Qəzvin meydanında da çoxlu sayda adam toplaşmışdı. Oradan isə Rusiya elçisi onun üçün ayrılmış olan iqamətgaha müşayiət olundu. Rusiya elçisi bir neçə gün həmin iqamətgahda gözləməli oldu (72).

Oktyabr ayının 26-da Hacı Xosrov Rusiya elçisinin yanına gəldi və ona çatdırdı ki, Şah Abbas Kaşanda onu qəbul etmək istəyir. Amma bu şərtlə ki, Rusiya elçisi yalnız 15 nəfərlik heyətlə Kaşana yollanmalı, heyət üzvlərinin digərləri isə Qəzvində qalıb onun geri qayıtmasını gözləməli idi. Qəzvində qalan heyət üzvlərinin ehtiyacları xəzinə hesabına ödənilməli idi. A.Zveniqorodki bu şərti qəbul etmədi və Kaşana bütün elçilik heyəti ilə getmək istədiyini bildirdi. Səhəri gün, yəni oktyabr ayının 27-də Hacı Xosrov və

Allahqulu bəy yenidən Rusiya elçisinin yanına gəldilər və ona yalnız 15 nəfərlik heyətlə şahın görüşünə gedə biləcəyini dedilər. Rusiya elçisi bütün heyətlə yola düşmək istədiyini təkid etsə də, Allahqulu bəy qəbul etmədi və bildirdi ki, Rusiya elçisinin Kaşana getməkdən imtina edəcəyi təqdirdə Şah Abbasa bu barədə məktub yazmalı olacaqdır. Bu xəbərdarlıqdan sonra A.Zveniqorodski Kaşana yollanmaq qərarına gəldi. Noyabr ayının 3-də Rusiya elçisinin dəstəsi Kaşan ətrafına yetişdi. Şah Abbas eşidəndə ki, Rusiya elçisi yaxınlaşmaqdadır, onda onun qarşılanması üçün 50 nəfərlik bir atlı dəstə göndərdi. Noyabr ayının 5-də A.Zveniqorodskiyə şah qəbuluna yollanmaq üçün hazırlıq işarəsi verildi. Şah Abbas istəyirdi ki, Rusiya elçisini böyük meydanda, çoxlu sayda insanların qarşısında qarşılasın. O hətta göstəriş vermişdi ki, onunla Kaşanda olan Osmanlı və özbək elçiləri də bu qarşılanmaya dəvət edilsin, həmin elçilər Rusiya elçisinin gətirdiyi qiymətli hədiyyələri görüncə Səfəvi dövləti ilə Rusiya dövləti arasında çox ciddi münasibətlərin yarandığını görsünlər. Amma A.Zvenqorodski bu təklifi qəbul etmədi və xahiş etdi ki, Şah Abbas onu ayrılıqda, saray daxilində, digər dövlətlərin elçiləri olmadan qəbul etsin (73).

Hacı Xosrov Rusiya elçisinin xahişini Şah Abbasa çatdırdı. Şah Abbas bu xahişi qəbul etdi və tapşırıq verdi ki, Rusiya elçisinin şah iqamətgahında, digər dövlətlərin nümayəndələrinin iştirakı olmadan qəbul edilməsinə hazırlıq aparılsın. Elə həmin gün də Şah Abbas Rusiya elçisini qəbul etdi. Hacı Xosrov və beş nəfər saray əyanı A.Zveniqorodskini Şah Abbasın yanına müşayiət etməli idilər. Həm onlar, həm də Rusiya elçisi zənginliklə bəzədilmiş atları mindilər. Onların hərəkət etdiyi yol botu şamlar yandırılmışdı. Şah iqamətgahına çatanda rusiyalı qonağı sarayın eşikağasıbaşı qarşıladı. Eşikağasıbaşı qısaca olaraq rusiyalı elçiyə məlumat verdi ki, qəbul olunmuş protokola görə digər ölkələrin nümayəndələri şahla görüşəndə əyilib onun ayağını öpürlər. A.Zveniqorodskiyə də təklif olundu şah qəbulunda olanda onun ayağını öpsün. A.Zveniqodrodski isə öz dövlətində xarici qonaqların, o

cümlədən Moskvaya gəlmiş Səfəvi elçilərinin Rusiya çarının əlini öpdüklərini bildirdi. Ona görə onun özünün də Şah Abbasın yalnız əlini öpməyə hazır olduğunu bildirdi. Bu məsələ Şah Abbasa çatdırıldıqda o, Rusiya elçisinin bu xahişini də qəbul etdi. Rus xronikasındakı məlumata görə, Rusiya elçisinin şah tərəfindən qəbulu zamanı daha çox cari mövzular, yəni Rusiya çarının sağlıq durumu, B.Qodunuvon sağlıq durumu, Rusiya çarı tərəfindən salam-dua göndərilməsi və s. mövzular ətrafında söhbətlər oldu. Qəbul zamanı Rusiya çarı tərəfindən Şah Abbas, onun oğlu Səfi Mirzəyə göndərdiyi qiymətli hədiyyələr də təqdim olundu (74).

Bir gün sonra, yəni noyabr ayının 6-da Şah Abbas Rusiya elçisinə dəvət göndərdi. Şah Abbas istəyirdi ki, Rusiya elçisi Kaşanın mərkəzi meydanında şəhər sakinlərinin təşkil etdiyi atəşfəşanlıq bayramında iştirak etsin. Şah üçün ayrılmış məkanda Rusiya elçisinə yer verildi. Orada şah onu mehribanlıqla qarşıladı. Mərasimin keçirildi meydan başdan başa şamlarla bəzədilmişdi, meydanın mərkəzində böyük bir atəşfəşanlıq qurulmuşdu. Mövcud olan məlumata görə, Şah Abbas 1595-ci il fevral ayının sonlarına qədər Kaşanda oldu və həmin vaxtadək o, Rusiya elçisini altı dəfə yanına dəvət etdi. Şah Abbas Qəzvinə qayıdanda Rusiya elçisini də özü ilə gətirdi. Məlumdur ki Qəzvində də Şah Abbas bir neçə dəfə Rusiya elçisi ilə görüşdü. Şah Abbas Rusiya elçisini Qəzvin bazarına çıxardı və onu bazarla tanış etdi, onu müşayiət edən adamlarla birlikdə bir dəfə bazardakı qəhvəxanalardan birinə apardı, orada oturub əylənməklə bərabər, Rusiya elçisi ilə söhbətlər etdi. Şah Abbas Rusiya elçisini bir dəfə hətta iki pələngin nümayişinə aparıldı. Bu pələnglər zəncirlənərək şəhər əhalisinin qarşısına çıxarılmışdı. Başqa bir dəfə isə Şah Abbas Rusiya elçisini Novruz bayramı şənliklərinə dəvət etdi. Rusiya elçisi bir dəfə də Şah Abbasla birlikdə ovda oldu. Geri qayıdarkən Rusiya elçisi Şah Abbası öz iqamətgahına dəvət etdi ki, onunla rus şərabı içsin. Şah Abbas əvvəlcə bu dəvəti qəbul etmədi və şah sarayın yollandı. Amma bir qədərdən sonra geri qayıtdı və xəbərsiz olaraq Rusiya elçisinin mənzilinə gəldi. Rus şərabını içib bir

xeyli söhbət etdikdən sonra Şah Abbas yenidən öz sarayına qayıtdı (75).

Mövcud olan məlumatlara görə, A.Zveniqorodski yalnız dostluq münasibətlərinin formalaşdırılması üçün Səfəvi dövlətinə gəlməmişdi. Şah Abbasla olan söhbətlərində o, Dərbənd və Bakı şəhərlərinin də Rusiyaya güzəştə gedilməsi məsələsini qaldırdı. Bu dəfə də Rusiya tərəfinə əvvəlki cavab verildi. Şah Abbas bəyan etdi ki, əgər rus qoşunları Cənubi Qafqaza çıxaraq Dərbənd və Bakı şəhərlərini Osmanlı qoşunlarının əlindən ala bilsə, onda həmin şəhərlərin Rusiya nəzarəti altında qalmasına etiraz etməyəcəkdir (76).

Rusiya elçisi bir ildən də artıq müddətdə Səfəvi dövlət ərazisində qaldı. Bir də 1596-cı ilin mart ayında Rusiya elçisinin geri qayıtmasına icazə verildi. Həmin gün A.Zveniqorodski Şah Abbas tərəfindən qəbul edildi. Şah Abbas elçi ilə sonuncu dəfə görüşərək iki dövlət arasında münasibətlərin daha da möhkəmləndirilməsi üçün özünün yeni bir elçilik heyətini də onunla birlikdə Moskvaya göndərmək qərarına gəldiyini bildirdi. Şah Abbasın fərmanına əsasən, İmamqulu bəy Pakizə yeni şah elçisi təyin edildi və ona Moskvaya yollanmaq göstərişi verildi. Şahın icazəsindən sonra Rusiya elçisi Qəzvini tərk edib Gilana gəldi. Burada o, üç həftə İmamqulu bəyin heyətinin gəlib ona yetişməsini gözlədi. A.Zvenoqorodski güman edirdi ki, elçilik heyətləri birlikdə yola düşəcəklər. Amma İmamqulu bəy Gilana yetişdikdən sonra bildirdi ki, Rusiya elçisi ilə birlikdə deyil, ayrıca Həştərxana doğru hərəkət edəcəkdir. Belə olanda Rusiya elçisi Gilanı tərk edib Həştərxana doğru hərəkətə başladı və bir də yeddi həftəlik dəniz yolçuluğundan sonra Həştərxana yetişdi (77).

A.Zveniqorodski yola düşəndən bir müddət sonra İmamqulu bəy Pakizənin rəhbərliyi altında olan elçilik heyəti də Rusiyaya doğru istiqamət götürdü. Bu elçilik heyətinin səfəri haqqında istər rus xronikasında, istərsə də Səfəvi mənbələrində geniş məlumat qalmamışdır. Məlum olan odur ki, bu heyət 1596-cı ilin sonlarında Həştərxana yetişdi. Onun Moskvaya çatması isə 1597-ci ilin əv-

vəllərində baş verdi. İmamqulu bəy Rusiya çarının qəbulunda oldu, ona Şah Abbas tərəfindən göndərilmiş hədiyyələr təqdim edildi. İmamqulu bəyin elçilik heyətinin Rusiya səfəri bir neçə ay davam etdi və bu heyət hələ Rusiyada ikən Şah Abbas tərəfindən Rusiyaya yeni bir elçilik heyəti göndərildi. Bu elçilik heyətinə yenə də Hadi bəy rəhbərlik edirdi (78).

1596-cı il dekabr ayının əvvəllərində Həştərxan hakimi tərəfindən Rusiya çarına məktub göndərildi və ona ərz olundu ki, Hadi bəyin rəhbərliyi ilə Səfəvi dövlətinin yeni bir elçilik heyəti Rusiyaya gəlmişdir. Həmin heyətə Hadi bəylə tacir Əli Xosrov bəyin rəhbərlik etdiyi və onlardan başqa bu heyətə əlavə 23 nəfərin daxil olduğu bildirilirdi. Məktubda yazılmışdı ki, Səfəvi dövlətindən gəlmiş elçilik heyəti gəmi ilə Kazana yola salındı. Hadi bəyin elçilik heyəti Kazan-Nijni Novqorod-Yaroslavl-Moskva marşrutu üzrə yolunu davam etdirməli idi. Heyət Yaroslavl şəhərinə yaxınlaşanda Rusiya çarının fərmanı ilə xüsusi bir dəstə təşkil edildi və elçilik heyətinin qarşılanması üçün Yaroslavla göndərildi. Çarın göndərdiyi dəstə Səfəvi elçilik heyətini Yaroslavlda qarşılamalı, bu heyətin Rusiya çarı tərəfindən göndərilməsi Hadi bəyə ərz olunmalı və sonra da Səfəvi elçilik heyəti Moskvaya müşayiət olunmalı idi. Çar tərəfindən göndərilən heyətə rəhbərlik edən boyar fürsət tapıb Hadi bəylə söhbət etməli, onun gəlişinin məqsədini öyrənməli, Səfəvi dövlətinin daxili vəziyyəti, Səfəvi-Osmanlı münasibətlərinin yeni durumu haqqında məlumat toplamalı və sonra da bu məlumatları Rusiya çarına göndərməli idi (79).

1597-ci il yanvar ayının 27-də Hadi bəyin elçilik heyəti Moskvaya yetişdi. Moskva ətrafında da bu heyətin təntənəli qarşılanması keçirildi. Heyətin qarşılanması üçün Rusiyanın nüfuzlu boyarlarının uşaqlarından ibarət 80 nəfərlik dəstə ayrıldı. Hadi bəyin heyəti Moskvanın mərkəzi küçəsi olan Tver küçəsindəki iqamətgahlardan birində yerləşdirildi. Fevral ayının 16-da Hadi bəy Rusiya sarayının Elçi palatasına dəvət olundu və ondan bir daha gəlişinin məqsədi soruşuldu. Hadi bəy də bildirdi ki, o, Şah Abbasın Rusiya çarına və Boris Qodunova yazdığı məktubları gətirmişdir.

Bundan başqa Fərhad xan da Boris Qodunova məktub göndərmişdi (80).

Söhbət zamanı bəlli oldu ki, Şah Abbasın Rusiya çarına yazdığı məktubu tacir Əli Xosrov gətirmişdir. Hadi bəy isə Fərhad xanın Boris Qodunova yazdığı məktubu gətirmişdi. Rus boyarları bunun səbəbini soruşdular. Hadi bəy cavab verdi ki, Şah Abbasın yazdığı məktub iki dövlət arasında ticarət əlaqələrinin genişləndirilməsi ilə bağlıdır. Ona görə bu məktub Əli Xosrova verilmişdir. Hadi bəy Fərhad xanın məktubunu daşısa da, Şah Abbas tərəfindən Rusiya çarına çatdırılmalı olan ismarıcı da ünvanına yetirməli idi. Hadi bəy bunu təhlükəsizlik məsələləri ilə əlaqələndirirdi. Onun sözlərinə görə, Gilandan Həştərxana kimi uzun bir yoldur və gəmilərin qəza nəticəsində sahilə yan alması da mümkün idi. Bu zaman şahın məktubu başqalarının əlinə keçə bilərdi. May ayının 18-də Səfəvi elçiləri Rusiya çarı tərəfindən qəbul edildilər. Məktublar təqdim olunandan sonra Hadi bəy şah tərəfindən verilmiş ismarıcları gizli şəkildə çarın nəzərinə çatdırdı. Şah Abbas iki dövlət arasında münasibətlərin yüksək səviyyədə olduğunu təsdiqləyərək qarşılıqlı şəkildə daimi elçiliklərin təsis edilməsini, Osmanlı dövlətinə qarşı Səfəvi-Rusiya tərəfindən müştərək əməli addımlar atılmasını təklif edirdi. Yəni Səfəvi və Rusiya qoşunları eyni zamanda Osmanlı qoşunları üzərinə hücuma keçsin. Rusiya çarı Şah Abbasdan gələn təkliflərə rəğbətlə yanaşdı. İkitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi üçün Səfəvi sarayına yeni bir elçilik heyətinin göndərilməsi barəsində fərman verildi. Bu elçilik heyəti Şah Abbasa çatdırmalı idi ki, Dərbənd, Şamaxı və Bakı şəhərlərinin Osmanlı qoşunlarından təmizlənməsi üçün Rusiya da hərbi qüvvə ilə kömək etməyə hazırdır (81).

İyul ayının 27-də Səfəvi elçiləri xudahafizləşmək üçün Rusiya çarı tərəfindən qəbul edildi. Qonaqlar ənənəvi olaraq yenə də saray protokoluna uyğun ehtiramla qəbul olundular. Çarın qəbulunda qonaqlara qiymətli hədiyyələr təqdim olundu. Bu hədiyyələr həm elçilər üçün nəzərdə tutulmuşdu, həm də Şah Abbas və Fərhad xan üçün. Sonra isə saray boyarlarından olan Vasili Şelkalov

çar adından nitq söylədi. Vasili Şelkalov bir daha çar adından Səfəvi elçiliyinin gəlişi ilə bağlı məmnunluq ifadə etdi və bildirdi ki, Şah Abbasın yazılı və şifahi şəkildə göndərdiyi təkliflərə qarşı Rusiya sarayında razılıq vardır. Elə burada elan olundu ki, qarşılıqlı münasibətlərin möhkəmləndirilməsi naminə Rusiya çarı da öz elçisini Səfəvi sarayına göndərir. Bəlli oldu ki, bu elçilik heyətinə knyaz Vasili Vasilyeviç Tyufyakin rəhbərlik edəcəkdir (82).

Tyufyakinin rəhbərlik etdiyi elçilik heyəti 75 nəfərdən ibarət idi. Elmi-tarixi ədəbiyyatda bu rəqəmi xüsusi olaraq qabardırlar. Çünki elçilik heyətinin qarşılaşdığı sınaqlardan sonra bu heyət üzvlərindən çox az sayda Rusiyaya geri dönə bildi. Belə ki, heyət üzvləri arasında vəba xəstəliyi yayıldı. Vasili Tyufyakinin rəhbərlik etdiyi elçilik heyəti Həştərxandan gəmilərlə Gilana doğru istiqamət götürdü. Heyət hələ dənizdə ikən vəba xəstəliyi özünü göstərməyə başladı. Heyət üzvləri arasında dünyasını ilk dəyişənlərdən biri elçi Vasili Tyufyakin oldu. Onun dünyasını dəyişməsindən sonra elçilik heyətinə rəhbərliyi elçiliyin katibi Cemyon Yemelyanov öz üzərinə götürdü. Ancaq o da xəstəlikdən canını qurtara bilmədi və Qəzvinə çatmamış dünyasını dəyişdi. Belə olanda elçilik heyətinin tərcüməçisi bu heyətə rəhbərliyi öz üzərinə götürməli oldu. 1598-ci ilin oktyabr ayının ilk günlərində Rusiyanın səfirlik heyəti Qəzvinə yetişdi. Bir müddətdən sonra Şah Abbas bu elçilik heyətini qəbul etdi. Həmin vaxt elçilik heyəti üzvlərinin təxminən yarısı artıq dünyasını dəyişmiş və onlardan yalnız 35 nəfəri sağ qalmışdı. Dekabr ayında Şah Abbas Qəzvindən İsfahana yolandı və fərman verdi ki, Rusiya elçilik heyəti də İsfahana gəlsin. İsfahanda bəlli oldu ki, elçilik heyətinin arasında vəba xəstəliyi hələ də qalmaqdadır. Şah Abbasda bir narahatçılıq yarandı ki, Rusiya elçilik heyət üzvlərinin hamısı yoluxduğu xəstəlikdən dünyasını dəyişərsə, bu heç də iki dövlət arasındakı münasibətlərin ruhuna uyğun olmaz. Ona görə Rusiya elçilik heyəti üzvlərinə icazə verildi ki, geri qayıtsınlar. Bu elçilik heyəti Həştərxana çatanda onun üzvlərindən cəmi üç nəfər sağ qalmışdı (82).

Rusiya elçilik heyətinin geri yola salınması ilə bir vaxtda Hadi bəyin rəhbərliyi altında yeni bir Səfəvi elçiliyi Moskvaya göndərildi. Bu elçilik heyəti Şah Abbas adından Rusiya çarı Fyodora həm məktub, həm də qiymətli hədiyyələr aparmalı idi. Lakin bu heyət yolda ikən, 1598-ci ilin yanvarında Rusiya çarı Fyodor dünyasını dəyişdi. Onun yerinə Rusiya taxt-tacına xanımının qardaşı, böyük knyaz Boris Qodunov çıxdı. Rusiya çarı Fyodorun dünyasını dəyişməsi Hadi bəyin rəhbərliyi altında olan elçilik heyətinin səfərinin başa çatmasına müəyyən çətinlik yaratdı. Hadi bəy hələ dənizdə ikən güclü fırtınaya düşdü, onun mindiyi gəminin çevrilməsi nəticəsində Şah Abbas adından aparılan qiymətli hədiyyələr dənizə töküldü. Rusiya ərazisində Hadi bəyi dayandırdılar, onun kim olması, haraya getməsi ilə maraqlandılar. Hadi bəyin özünü Səfəvi elçisi kimi təqdim etməsi Rusiya məmurların qane etmədi. Hadi bəy bildirdi ki, Rusiya çarına apardığı hədiyyələr dənizdə qərq olubdur və yeni hədiyyələr göndərilməsini Səfəvi sarayından xahiş etmişdir. Şah Abbas tərəfindən yazılmış məktub isə çar Fyodorun adına idi. Hadi bəy onun artıq dünyasını dəyişməsi xəbərini eşidəndə bildirdi ki, Şah Abbas tərəfindən təsliyyət məktubu aparır. Məmurlar bu hadisə ilə bağlı Moskvaya məlumat göndərdilər. Oradan əmr gəldi ki, Hadi bəy Nijni Novqoroddan geri qaytarılsın (83). Bununla Hadi bəyin elçilik heyətinin Rusiyaya səfəri də başa çatdı. Hadi bəy və hələ də Rusiya ərazisində olan Pirqulu bəy Səfəvi sarayına göndərilən növbəti Rusiya elçilik heyəti ilə geri qayıtdı.

Pirqulu bəyin rəhbərliyi altında olan elçilik heyəti Boris Qodunovun taxta çıxmasından dərhal sonra Rusiya sarayına göndərilmişdi. Bu elçilik heyəti hava şəraitinin mürəkkəbləşməsi üzündən su yolu ilə hərəkətini dayandırmaq və quru yolla irəliləmək məcburiyyətində qaldı. Pirqulu bəyin heyətinin ardınca Şah Abbas tərəfindən Antoni Şerlinin rəhbərliyi altında Avropa dövlətlərinə də elçilik heyəti göndərildi. Bu elçilik heyəti Rusiyadan keçməklə Avropaya tərəf istiqamət götürməli idi. Antoni Şerlinin rəhbərlik etdiyi heyət Rusiyada olarkən Pirqulu bəyin elçilik heyəti ilə qar-

şılaşdı və bir müddət bu elçilik heyətləri birlikdə irəliləməli oldular. Pirqulu xanın elçilik heyəti 1600-cü ilin noyabr ayında Moskvaya yetişdi. Pirqulu bəy yeni Rusiya çarı tərəfindən qəbul edildi. Şah Abbasın bu elçilik heyətini göndərməkdə məqsədi əvvəlki çarın hakimiyyəti illərində mövcud olan xoş münasibətlərin davam etdirilməsi idi. Səfəvi şahı istəyirdi ki, Osmanlı qoşunlarına qarşı mübarizədə Rusiyanın imkanlarından istifadə etsin. Ona görə də Şah Abbas məktubunda yazdı ki, yeni Rusiya çarı qarşılıqlı münasibətlərin davam etdirilməsinə tərəfdardırsa, onda öz elçisini Səfəvi sarayına göndərsin (84).

Şah Abbasın yanında xidmətə başlamış ingilis Antoni Şerlinin rəhbərliyi altında Avropaya yollanan elçilik heyətinin tərkibinə Hüseynəli bəy Bayat da daxil idi və o, Şah Abbasın Rusiya çarına yazdığı digər bir məktubu özü ilə aparırdı. A.Şerlinin elçilik heyəti Osmanlı dövlətinə qarşı Səfəvi dövləti ilə Avropa dövlətləri arasında qarşılıqlı münasibətlərin yaradılması üçün səfərə göndərilmişdi. Bu səfərin təşəbbüskarı əslində, Şerli qardaşları olmuşdu və şübhə edilmirdi ki, Avropa dövlətlərinin başçıları da öz maraqları üçün Səfəvi dövləti ilə ittifaqa girməyə etiraz etməyəcəkdilər. Elçilik heyətinin Rusiyadan keçməsi Rusiya çarı ilə də əlavə danışıqların aparılmasına imkan verə bilərdi. A.Şerlinin rəhbərlik etdiyi elçilik heyəti kifayət qədər böyük idi və bu heyət özü ilə çoxu sayda qiymətli hədiyyələr aparırdı.

Antoni Şerlinin elçilik heyətinin üzvü olmuş Oruc bəy Bayat öz xatirələrində Moskvaya yetişmələrini və qarşılanmalarını belə təsvir edirdi: "Noyabr ayının cümə günlərinin birində səhər saat 10-da biz paytaxta yetişdik. Bizi qarşılamağa çoxlu adam çıxmışdı. Moskvalılar mərasimlərə bağlı adamlardır. Çarın sarayına bir şahzadə və ya xarici səfir gələndə, ictimai fərmanla bayram günü elan edilir və həmin gün kimsə işləmir. Qonağın qarşılanması üçün şəhərin girişinə gəlmək üçün hamı ən gözəl və yaxşı paltarını geyinməlidir. Bu həqiqətən də çox yaxşıdır ki, belə xüsusi günlərdə heç kəs heç bir işlə məşğul olmur. Lakin başqa müqəddəs bayram günləri onlar bütün günü işləyirlər – səhərdən axşama

qədər. Bütün başqa məsələlərdə mənsub olduqları məzhəb daxilində yunan kilsəsinin buyuruqlarına əməl edirlər. Çarın fərmanına əsasən bizi qarşılamağa çıxmış saray əyanlarının hamısı tanınmış zadəganlar, titullu adamlar, qraflar və yüksək mənsəb cənablarıdır. Mənə belə göründü ki, onların sayı 6 min nəfəri ötmüşdü. Bizi gətirmək üçün çar tərəfindən iki yüz kiçik fayton göndərilmişdi. Bu faytonlara çox gözəl, yaraşıqlı atlar qoşulmuşdu. Faytonlarda soyuqdan qorunmaq mümkün idi, faytonçular yaxşı geyinmişdi, atların belinə şir və pələng dəriləri salınmışdı. Bütün bunlar adamları və atları soyuqdan qorumaq üçün edilmişdi. Burada ilin bu vaxtında soyuqlar çox sərt olur. Biz şəhərin girişinə yetişəndə bildik ki, bizi qarşılamaq üçün çarın mühafizə dəstəsindən adamlar göndərilib. Onlar bizim keçdiyimiz yolun sağında və solunda düzülmüşdülər. Bütün mühafizəçilər piyadalar və tüfəngçilər idilər. Orada ox və kamanla silahlanmış başqa əsgərlər də var idi. Onların ümumi say 10 min nəfər olardı. Biz sıranın arasından keçdik və hər bir əsgər farağat komandasında dayanmışdı" (85).

Oruc bəy Bayat öz xatirələrinin başqa bir yerində elçilik heyətinin Rusiya çarı Boris Qodunov tərəfindən qəbul edilməsi haqqında belə yazırdı: "Biz onun qarşısında dayananda təzim etdik. Persiyanın Moskvaya göndərilmiş olan xüsusi elçisi irəli çıxdı. Onu Pirqulu bəy adlandırırdılar və ən yüksək səviyyəli Səfəvi əyanlarından biri idi. O özünü təqdim etməzdən əvvəl gətirdiyi məktubu öpdü. Sonra onu Əlahəzrətə təqdim etdi. Bu zaman böyük Knyaz ayağa qalxdı, məktubu qəbul etdi və o da məktubu öpdü. Sonra da onu tərcüməçiyə verdi. O da dərhal məktubu oxuyub rus dilinə tərcümə etdi. Sonra bizim İspaniyaya yollanan elçimiz öz məktubunu təqdim etdi. Həmin məktubda Böyük Knyazdan xahiş olunurdu ki, bizim səfərimizin yaxşı keçməsinə öz himayəsini göstərsin. O dərhal buna söz verdi. Əlahəzrət bizim əyləşməyimizə icazə verdi. Biz məxmərlə örtülmüş və lələklərlə bəzədilmiş uzun oturacaqlarda əyləşdik" (86).

Bu ilkin qəbuldan sonra elçilik heyətlərinə ziyafət verildi. Hər iki elçilik heyəti bir neçə ay Moskvada qalmalı oldu.

Həm rus xronikasında, həm də elmi-tarixi ədəbiyyatda Pirqulu bəyin Rusiya çarına yazdığı şikayət məktubu vardır. Pirqulu bəy bu məktubunda Rusiya ərazisində azad şəkildə ticarət edə bilməməsindən şikayətlənirdi (87).

Mövcud olan məlumata görə, istər Pirqulu bəyin, istərsə də Antoni Şerlinin Rusiyaya səfəri ciddi bir nəticə vermədi. Bu da onunla bağlı idi ki, Səfəvi ərazisində Avropa tacirlərinə Rusiya tacirlərinə nisbətən daha yaxşı şərait yaradılmışdı. Rusiya sarayında da bu barədə məlumat mövcud idi və ona görə də haqqında danışılan elçilik heyətlərinin səfərlərinə kifayət qədər təmkinlə yanaşıldı (88).

Bununla belə, Rusiya çarı Səfəvi dövləti ilə yaxşı münasibətlərin qurulmasına tərəfdar idi. Belə münasibətlər həm Osmanlı təhlükəsini önləmək üçün, həm də iki tərəfli ticarət əlaqələrinin genişləndirilməsi üçün lazım idi. Osmanlı dövlətinə qarşı ittifaq bağlanması təklifinin daha yaxşı araşdırılması və yeni şəraitdə Səfəvi dövlətinə qarşı münasibətlərin dəyişməyəcəyini çatdırmaq üçün Rusiya sarayı tərəfindən Aleksey Zasekinin rəhbərliyi altında yeni bir elçilik heyətinin Səfəvi dövlətinə göndərilməsi qərara alındı. Bu qərar 1600-cü ilin martında qəbul edildi. Bu elçilik heyətini göndərməklə Rusiya sarayı eyni zamanda Almaniyanı da Osmanlı dövlətinə qarşı Rusiya-Səfəvi ittifaqına cəlb etmək istəyirdi. Aleksey Zasekin özü ilə Rusiya çarı Boris Qodunovun Şah Abbasa yazdığı məktubu da aparırdı. Bu məktub kifayət qədər uzun bir məktub idi və onun əsas məzmunu Rusiya sarayının Səfəvi dövləti ilə xoş münasibətlər qurulmasına tərəfdar olmasını ifadə etməkdən ibarət idi. Rusiya çarı Şah Abbası ən xoş sözlərlə vəsf edirdi, onu öz qardaşı adlandırırdı. O, ilk növbədə iki dövlət arasında ticarət əlaqələrinin genişlənməsinə, bunun üçün ticarət vergilərinin ləğv edilməsinə tərəfdar olduğunu bildirirdi. Rusiya çarı onu da vəd edirdi ki, Səfəvi tacirləri məhdudiyyətsiz şəkildə Rusiya ərazisinə gələ və bu ərazilərdən keçməklə başqa dövlətlərə yollana bilərlər. Boris Qodunov hətta Rusiya ərazisində dünyasını dəyişmiş Səfəvi tacirlərinin də mallarına toxunulmayacağını və

belələrinin mallarının vərəsəlik üzrə ötürüləcəyini bəyan edirdi. Səfəvi dövlətinin düşmənlərinə qarşı mübarizədə Rusiya tərəfindən canlı köməyin göstərilməsi də Rusiya dövləti üçün mümkün sayılırdı. Rusiya çarının yazdığına görə, Dərbənd, Şamaxı və Bakı şəhərlərinin Osmanlı qoşunlarından azad edilməsi üçün də Rusiya sarayı hərbi qüvvə ilə kömək göstərməyi vəd edirdi. Məktubunun sonunda Boris Qodunov göndərdiyi elçilik heyətinin tərkibini açıqlayır və öz vəzifəsini başa vurduqdan sonra bu heyət üzvlərinin geri qayıtmasına icazə verilməsini Şah Abbasdan xahiş edirdi (89).

Mövcud olan məlumatlardan bəlli olur ki, Rusiya elçisi həm də Səfəvi dövləti ilə Almaniya dövləti arasında münasibətlərin qurulmasına çalışmalı idi. Almaniya imperatoru II Rudolf bu məsələ ilə əlaqədar həm Şah Abbasa, həm də Rusiya sarayına məktub göndərmişdi. Almaniya ilə Səfəvi dövləti arasında ittifaqın yaranması Rusiya dövlətinin də maraqlarına cavab verirdi və ona görə Rusiya çarı bu işdə yardımçı olmaqdan çəkinmirdi. Boris Qodunov tərəfindən elçi göndərilməsində başlıca məqsəd isə iki dövlət arasında ittifaqın qurulması idi. Bununla bağlı elçi Zasekinə də tapşırıq verilmişdi ki, ittifaq münasibətlərinin rəsmiləşdirilməsi məsələsi üzərində işləsin. Rusiya tərəfi öz elçisi ilə şah sarayını əmin edirdi ki, Səfəvi dövləti ilə Osmanlı dövləti arasında müharibə başlasa, onda Rusiya da Osmanlı qoşunlarına qarşı cəbhə açacaqdır. Zasekin özü ilə Şah Abbasa Rusiya çarının qiymətli hədiyyələrini də aparırdı. Rusiya elçilik heyəti yola düşmək haqqında göstəriş alsa da, pis hava şəraiti üzündən müəyyən qədər ləngiməli oldu. Elçilik heyəti qışı Saratovda keçirdi. Havaların qızması ilə heyət yoluna davam etdi və Xəzər dənizindən keçməklə Səfəvi dövləti sərhədlərinə doğru irəlilədi. Zasekinin rəhbərlik etdiyi heyətin Səfəvi dövlətinə səfərinin nəticələri haqqında istər rus xronikasında, istərsə də Səfəvi mənbələrində geniş məlumat qalmamışdır. Ona görə bu barədə geniş məlumat vermək mümkün deyil. Məlum olan odur ki, Zasekinin elçilik heyəti, habelə onunla birlikdə geri qayıtmış Pirqulu bəy 1600-cü ilin sentyabrında Ka-

şanda Şah Abbas tərəfindən qəbul edildi. Amma elə bu qəbuldan az sonra Pirqulu bəy Şah Abbasın qəzəbinə gəldi. Onun bəzi əməllərinin yarıtmazlığı haqqında verilən məlumatlardan sonra Şah Abbas onun ciddi cəzalandırılması qərarını verdi. Əvvəlcə onun gözləri çıxarıldı, dili kəsildi, sonra isə bütün var-dövləti əlindən alındı (90).

Hadisələrin sonrakı gedişin əsasən belə bir qənaətə gəlmək olar ki, Rusiya dövləti ilə Səfəvi dövləti arasında ciddi ittifaq münasibəti yaranmadı. Bunun nəticəsi idi ki, Şah Abbas Osmanlı qoşunlarına qarşı təklikdə mübarizə aparmalı oldu.

Rusiya ilə Səfəvi dövləti arasında növbəti diplomatik əlaqə Almaniyanın şah sarayına göndərdiyi elçi vasitəsi ilə icra edildi. Belə ki, 1602-ci ildə Almaniya imperatoru II Rudolf tərəfindən şah sarayına Zalonkameni adlı birisinin rəhbərliyi altında elçilik heyəti göndərildi. Bu elçilik heyət Osmanlı dövlətinə qarşı Səfəvi dövləti ilə Almaniya arasında ittifaq münasibətlərinin yaradılmasına cəhd göstərməli idi. Elçi tərəfindən Səfəvi şahına məktub da aparılırdı. Həmin elçilik heyəti yolunu Moskvadan salmalı və bu şəhərdə olarkən Rusiya çarı ilə Rusiya-Almaniya-Səfəvi ittifaqının yaradılması ətrafında müzakirələr aparmalı idi. Bu ittifaq da Osmanlı dövləti əleyhinə qurulmalı idi. Alman imperatorunun elçisi Moskvada olarkən Rusiya çarı ilə görüşdü, Almaniya imperatorunun məktubunu və onun istəklərini Rusiya çarına çatdırdı. Rusiya çarı belə bir ittifaqın yaradılmasına tərəfdar oldu. Bir məlumata görə, Rusiya çarı alman elçisi vasitəsi ilə Şah Abbasa məktub göndərdi. Başqa bir məlumata görə isə, Rusiya çarı alman elçisinin yanın Yaroslavski adlı öz elçisini də qoşdu və onun vasitəsilə məktubunu Şah Abbasa göndərdi. Bu heyətlər Səfəvi ərazisinə yetişəndə Şah Abbas Osmanlı qoşunlarına qarşı yeni müharibə başlamaq ərəfəsində idi. Ona görə də onun yanında xidmətdə olan Robert Şerlini elçilik heyətlərinin qarşılanmasına və onlarla müzakirə aparılmasına vəzifələndirdi. Amma alman elçisi və onu müşayiət edən əlavə üç nəfər Lahicanda olarkən dünyalarını dəyişdilər. Onların ölümündən sonra alman elçiliyinə rəhbərliyi bu elçiliyin

münşisi Yabel adlı birisi öz üzərinə götürdü. Alman elçilik heyəti əvvəlcə Qəzvinə gəlib orada Robert Şerli ilə görüşdü. Sonra isə elçilik heyətləri Robert Şerlinin müşayiəti ilə Təbriz ətrafına yola düşdülər ki, orada Şah Abbasla görüşə bilsinlər. Şah Abbas bu şəhərin Osmanlı qoşunlarından təmizlənməsində iştirak edirdi. Təbriz ətrafında Şah Abbasla görüşmək mümkün oldu və alman imperatoru ilə Rusiya çarının məktubları orada ona təqdim olundu. Şah Abbas elçilərin gətirdiyi məktublarla tanış olsa da, onların dərhal geri qayıtmasına icazə vermədi. İrəvan qalası üzərinə hücum zamanı da elçilik üzvləri Şah Abbasın düşərgəsində idilər. Yalnız İrəvan qalası Osmanlı qoşunlarından geri alındıqdan sonra Şah Abbas elçilik heyətlərinin geri qayıtmasına razılıq verdi. Şah Abbas Rusiya çarına yazdığı cavab məktubunu Laçın bəy adlı birisi ilə, Almaniya imperatoruna yazdığı cavab məktubunu isə Mehdiqulu bəy adlı birisi ilə yola saldı. Onlar alman heyəti ilə birlikdə Rusiya yolu ilə hərəkət etməli idilər (91).

Elçilik heyətləri Qafqazdan keçməklə quru yolla Moskvaya doğru istiqamət götürdülər. Səkkiz aydan sonra həmin heyətlər Moskvaya yetişdilər. Boris Qodunovun qəbulunda olarkən elçilik heyətləri tərəfindən ona Səfəvi qoşunlarının Osmanlı qoşunları üzərindəki qələbələri haqqında məlumat verildi. Bu məlumat Rusiya çarının məmnunluğu ilə qarşılandı. Boris Qodunov eşitdiyi məlumatdan sonra Dərbənd istiqamətinə 5 min nəfərlik bir qoşun dəstəsini göndərməyi qərara aldı. Eyni zamanda Rusiya çarı Almaniya imperatoruna da məktub göndərdi və Səfəvi-Almaniya-Rusiya ittifaqının bağlanmasına təkid etdi. Bir məlumata görə, Rusiya çarı tərəfindən Şimali Qafqaza 10 min nəfərlik qoşun dəstəsi göndərildi və həmin qoşun dəstəsinə voyevoda Butirlin ilə general Pleşeyev rəhbərlik edirdilər. Bu qoşun dəstəsi Şimalı Qafqaza nəzarəti ələ keçirməklə Osmanlı qoşunlarının bu istiqamətdən Səfəvi dövləti hüdudlarına yaxınlaşmasının, habelə Dağıstan əmirlərinin Osmanlı qoşunlarına kömək göstərməsinin qarşısını almalı idi. Doğrudur, rus qoşunları Göysu və Tarku qalalarını öz nəzarətləri altına ala bildilər. Lakin onu qoruyub saxlaya bilmədilər. Belə

ki, bir tərəfdən Şamaxının Osmanlı bəylərbəyinin göndərdiyi qoşun dəstəsi, digər tərəfdən də Dağıstan hakimlərinin topladığı qoşun dəstəsi rus qoşun dəstəsi üzərinə hücum etdi və bu qoşun dəstəsini ağır məğlubiyyətə uğratdı. Rus qoşunları sadəcə olaraq uğursuzluğa düçar olmadılar, eyni zamanda Şimali Dağıstan istiqamətində, habelə Xəzər dənizinin yuxarı hövzəsində xeyli əlverişli mövqeləri itirdilər (92).

Haqqında danışılan elçilik heyətlərinin Rusiyada olmasından az sonra, 1605-ci ili aprel ayında Boris Qodunov dünyasını dəyişdi. Onun ölümündən sonra bir müddət Rusiya daxilində qarışıqlıqlar, hakimiyyət davası baş verdi. Buna görə Rusiya-Səfəvi diplomatik əlaqələrində də bir fasilə yarandı. Boris Qodunovun dünyasını dəyişdiyi və ondan sonrakı illər Səfəvi-Osmanlı müharibəsinin gərgin dövrü idi və bəlli olduğu kimi həmin illər ərzində Şah Abbas vaxtilə Osmanlı qoşunları tərəfindən işğal edilmiş Səfəvi ərazilərini geri qaytardı. Vasili Şuyski Rusiya taxt-tacına sahib olandan sonra Şah Abbas tərəfindən Seyid Əzim bəy adlı birisinin rəhbərliyi altında Moskvaya yeni bir elçilik heyəti göndərildi. Bu heyətin göndərilməsində əsas məqsəd Rusiya daxilində nələrin baş verməsi, bu dövlətlə münasibətlərin gələcəyi haqqında məlumat əldə edilməsi və Şah Abbasa çatdırılması idi (93). Heyətin səfərinin gedişi və nəticələri haqqında mənbələrdə yetərli məlumat qalmamışdır.

1607-ci ilin yayında Şamaxı şəhəri Osmanlı qoşunlarından geri alındıqdan sonra Şah Abbas yaranmış vəziyyət haqqında məlumat çatdırmaq üçün Mucib bəyin rəhbərliyi altında başqa bir elçilik heyətini Moskvaya göndərdi. Bu heyət vasitəsilə Şah Abbas Rusiya çarına çatdırdı ki, Şamaxı şəhəri və Şirvan vilayəti bütünlüklə Osmanlı qüvvələrindən azad edilmişdir. Rusiya çarının nəzərinə o da çatdırırdı ki, əgər istəyərsə Şamaxı şəhəri təmənnasız olaraq Rusiyaya bağışlana bilər. Bununla Şah Abbas iki dövlət arasında mövcud olan dostluq münasibətlərinə sədaqətli qaldığını göstərməyə çalışırdı (94). Səfəvi şahı tərəfindən Rusiyaya qarşı belə bir səxavətlilik göstərilməsinin səbəbləri haqqında mənbə və elmi-

tarixi ədəbiyyatda ciddi bir məlumatla rastlaşmaq mümkün deyildi. İşğal altında olan ərazilərin Osmanlı qoşunlarından geri alınmasından sonra Şah Abbasın Rusiyaya elə də böyük bir ehtiyacı qalmırdı. Mümkündür ki, Şah Abbas Osmanlı qoşunlarının yeni hücum təhlükəsini ehtimal edirdi və ona görə də həmin təhlükənin qarşısının alınması üçün Rusiyaya müəyyən güzəştlərə getməyə də razı olurdu.

1608-ci ildə Şah Abbas tərəfindən Robert Şerlinin rəhbərliyi altında yeni bir elçilik heyəti Avropaya göndərildi. Həmin heyət Osmanlı təhlükəsinə qarşı Səfəvi dövləti ilə Avropa dövlətləri arasında ittifaq münasibətlərinin qurulmasına çalışmalı idi. Robert Şerlinin elçilik heyəti Xəzər dənizindən keçməklə Rusiya ərazisinə çıxmalı və Moskvada Rusiya çarı ilə görüşdükdən sonra yoluna davam etməli idi. Şah sarayının elçilik heyəti Moskvada çox böyük mehribanlıqla qarşılandı və elçilik heyətinin üzvlərinə xüsusi bir qonaqpərvərlik göstərildi. Çar Vasili Şuyskinin qəbulunda olarkən Robert Şerli Səfəvi şahının məktubunu və qiymətli hədiyyələrini ona təqdim etdi. Rusiya çarı tərəfindən də həm elçilik heyətinin üzvlərinə, həm də Şah Abbasa qiymətli hədiyyələr təqdim olundu. Əlavə olaraq Rusiya çarı vəd etdi ki, ən yaxın zamanlarda Səfəvi dövlətinə elçilik heyəti göndəriləcək və bu elçilik heyəti iki dövlət arasında münasibətlərin gələcəyi haqqında müzakirə aparacaqdır (95).

1608-ci ildə knyaz İvan Petroviç Romodanovskinin rəhbərliyi altında elçilik heyətini şah sarayına göndərildi. Rusiya çarının məktubunu, qiymətli hədiyyələrini aparan İ.Romodanovski şah sarayında iki dövlət arasında münasibətlərin möhkəmləndirilməsi yolları haqqında müzakirələr aparmalı idi. Bununla bağlı Rusiya çarı tərəfindən İ.Romodanovskiyə xüsusi tapşırıqlar da verilmişdi. Həmin tapşırıqlara əsasən, Rusiya elçisi Gilan hakimi ilə və sonra da Şah Abbasla görüşündə Səfəvi dövləti ilə xoş münasibətlərin davam etdirilməsi istəyi çatdırılmalı idi.

Şuyskinin taxt-taca yiyələnməsi ərəfəsində Rusiya daxilində bir qarışıqlıq yaranmışdı. Bu qarışıqlıqdan istifadə edən bəzi daxili

qüvvələr Volqa boyu əraziləri öz nəzarəti altına alaraq bu ərazilərdən keçən karvanları, heyətləri soyub-talayırdılar. Həmin vəziyyət Səfəvi elçilərinin və təbəələrinin də Rusiyanın daxili bölgələrinə hərəkətini çətinləşdirmişdi. Çar Vasili Şuyski hakimiyyətə gələndən sonra Volqa boyu ərazilərdə qayda-qanun yaratmağa müvəffəq oldu. Elçilik heyəti bu məqamı Şah Abbasın da nəzərinə çatdırmalı idi. Yəni artıq şah elçilərinin və Səfəvidən gələn ticarət karvanlarının Rusiya daxilində hərəkəti üçün hər hansı bir maneə qalmamışdır. İ.Romodanovskiyə tapşırıq verilmişdi ki, Səfəvi ərazisində olarkən bu dövlətin Osmanlı dövləti və özbək hakimləri ilə münasibətləri haqqında da məlumatlar toplasın. Elçi öyrənməli idi ki, Şah Abbasın adları çəkilən dövlətlərlə elçilik mübadiləsi varmı, bu dövlətlər arasında hansı məsələlər müzakirə olunur? Şah Abbas isə Rusiya dövlətinin Osmanlı dövləti və Krım xanlığı ilə qarşılıqlı münasibətləri haqqında soruşacağı halda İ.Romodanovski ehtiyatlı olmalı və şaha əlavə məlumatlar verməli deyildi. Rusiya elçisinə tapşırılmışdı ki, Şimali Qafqazdakı vəziyyət, bu bölgədə yaşayan xalqlarla münasibətlər haqqında da şah sarayına yetərli məlumat çatdırılmalı idi. Yeni Rusiya çarı Səfəvi dövləti ilə ticarət əlaqələrinin əvvəlki kimi canlandırılmasına tərəfdar olduğunu və bunun üçün artıq lazımi şəraitin də yaradıldığını bəyan edirdi. Rusiya çarı əvvəlki hökmdarların vaxtında qarşılıqlı əlaqələrin daha fəal olmasını xatırlayır və həmin münasibətin bərpa edilməsinə tərəfdar olduğunu bildirirdi (96).

İvan Romodanovskinin rəhbərliyi altında olan elçilik heyətinin də Səfəvi dövlətinə səfərinin təfərrüatları haqqında mənbələrdə yetərli məlumat qalmamışdır. Bəlli olan odur ki, bu elçilik heyəti Şah Abbas tərəfindən qəbul edilmiş, elçilik heyətinə statusuna uyğun olan ehtiram göstərilmiş və sonra da geri qayıtmasına icazə verilmişdi. Bəzi məlumatlara görə, Şah Abbas da öz adından iki məktub yazdıraraq Rusiya elçisinə təqdim etmişdi ki, onları çara çatdırsın. Şah Abbas iki dövlət arasında münasibətlərin genişlənməsinə tərəfdar olduğunu bildirməklə, Osmanlı təhlükəsinə qarşı bir daha ittifaq yaradılmasına təkid etmişdi (97).

Bir daha qeyd edilməlidir ki, aparılan bu yazışmalar Səfəvi dövləti ilə Rusiya arasında hərbi ittifaqın yaradılmasına yol açmadı. Bununla belə, Şah Abbas Rusiya ilə münasibətlərin möhkəmləndirilməsi istəyindən də əl çəkmədi. 1610-cu ildə onun tərəfindən növbəti elçilik heyəti Rusiyaya göndərildi. Bu elçilik heyəti göndəriləndə artıq Osmanlı nəzarəti altında olan Səfəvi ərazilərinin hamısı geri qaytarılmışdı. Elçilik heyəti bu xəbəri də Rusiya sarayına çatdırmalı idi. Elçilik heyətinə Şah Abbasın tapşırığı ilə Səfəvi ərazisində missionerlik fəaliyyəti ilə məşğul olan Karmelit keşişlərinin rəhbəri Pyer Jan Taddeus başçılıq edirdi. Mövcud olan məlumatlardan aydın olur ki, Pyer Jan Taddeus Dərbəndə qədər quru yolla getmiş və sonra da dəniz yolu ilə Həştərxana tərəf səfərini davam etmişdi. Belə ki, bu səfərin təşkili ilə bağlı Şah Abbasın Dərbəndin o zamankı hakimi Məhəmməd Hüseyn sultan Rumluya məktubu vardır. Həmin məktubda yazılmışdı ki, avropalı keşiş onun tərəfindən Avropaya göndərilmişdir və həmin keşiş yolunu Dərbənddən salacaqdır. Dərbənd hakimindən tələb olunurdu ki, Pyer Jan Taddeus Dərbəndə çatanda onun qarşılanması, ehtiyaclarının təmin olunması və sonra da onun dəniz yolu ilə yola salınması təmin edilsin (98).

Pyer Jan Taddeusun səfərinin təşkili ilə bağlı Şah Abbas tərəfindən Həştərxan hakiminə də məktub göndərilmişdi. Ənənəvi xeyir-dua sözlərindən sonra Şah Abbas Həştərxan hakiminin nəzərinə çatdırırdı ki, onunla Rusiya padşahı arasında dostluq və birlik yaranmışdır. Şah Abbas yazırdı ki, əvvəllər Səfəvi dövləti ilə Rusiya arasındakı ərazilər türklərin nəzarəti altında idi. Həmin ərazilər artıq Rusiyanın nəzarəti altına keçmişdi. Şah Abbas lazım bilirdi ki, həmin ərazilərdə dağıdılmış qalaların yerinə yeniləri tikilsin və bölgənin təhlükəsizliyi bununla təmin edilsin. Şah Abbas sonra əlavə edirdi ki, onun tərəfindən cavan keşiş Avropaya göndərilməkdədir və xahiş edilirdi ki, bu keşişin Şah Abbasın xüsusi himayəsi altında olması nəzərə alınsın, onun səfərinin rahat keçməsi üçün lazımi qayğı göstərilsin (99).

Bir məlumata görə isə Pyer Jan Taddeus Gilandan dəniz yolu ilə Həştərxana yollandı və Dərbənddən keçməyə ehtiyac qalmadı (100). Oradan isə Pyer Jan Taddeus Moskvaya doğru yolunu davam etdirə bilmədi. Çünki Rusiyada baş qaldıran qarışıqlıq üzündən Moskva ilə Həştərxan arasındakı yol ilə hərəkət etmək mümkün deyildi. Hərəkət etməyin mümkünsüzlüyünü görəndə Jan Taddeus Şah Abbasın məktublarını yaxın adamları vasitəsilə Rusiya sarayına göndərdi. Verilən tapşırığın icrasının qeyri-mümkünlüyü barəsində isə Jan Taddeus Şah Abbasa yazdığı məktubunda məlumat verdi. Jan Taddeus bir müddət Həştərxanda dayanıb yolların açılacağını gözlədi. Bir nəticə olmadığı üçün o, Şah Abbasa məktub yazmalı odu. Jan Taddeus bildirirdi ki, Moskva səfərini davam etdirə bilmədiyi üçün məktubu etibarlı adamlardan birinin vasitəsi ilə Rusiya sarayına göndərmişdir. Sonra da Jan Taddeus bildirirdi ki, Avropaya doğru səfərin davam etdirilməsi üçün münasib anın yetişməsini gözləyir. Şah Abbasın Rusiya çarına yazdığı məktubda iki dövlət arasında münasibətlərin yaxşılaşdırılması bir daha diqqət mərkəzinə gətirilmişdi. Səfəvi şahı iki dövlət arasında xoş münasibətlərin olmasına toxunur və Osmanlı qoşunlarının nəzarəti altında olan ərazilərin artıq geri qaytarıldığını yazırdı. Bununla Şah Abbas bildirirdi ki, əgər əvvəllər Səfəvi dövləti ilə Rusiya dövləti arasındakı ərazilər Osmanlı qüvvələrinin nəzarəti altında idisə, artıq həmin ərazilər Osmanlı nəzarətindən çıxarılmışdı. Şah Abbas bir daha qeyd edirdi ki, həmin ərazilərdə yeni qalaların tikilməsi ilə iki dövlət arasında tacirlərin gediş-gəlişini asanlaşdırmaq olardı. Şah Abbas Rusiya çarına Jan Taddeus haqqında da müxtəsər məlumat verir və onu özünün səlahiyyətli nümayəndəsi olduğunu bildirirdi. Ona görə də Rusiya çarından xahiş olunurdu ki, Jan Taddeusun söylədikləri mötəbər məlumatlar kimi qəbul olunsun (101).

Jan Taddeus 1613-cü ilə qədər Həştərxanda gözləməli oldu. Bu müddət ərzində onun Moskvaya doğru yolunu davam etdirək üçün münasib bir şərait yaranmadı. Həştərxanda olduğu zaman Rusiya mələkəsi Marinadan Jan Taddeusa məktub gəldi. Həmin mək-

tubda deyilirdi ki, Rusiya sarayının nümayəndəsi Jan Taddeusun yanına göndərilir. Jan Taddeus gəlişinin məqsədi haqqında bu nümayəndəyə məlumat verməli və həmçinin həmin nümayəndədən eşitdiyi məlumatları da şah sarayına çatdırmalı idi. Jan Taddeus da Rusiya mələkəsindən aldığı məktubun məzmunu haqqında Şah Abbasa məlumat göndərdi. Rusiya mələkəsi təkid edirdi ki, Moskvaya göndərilməli olan Səfəvi elçisini 300 atlı müşayiət etsin. Mövcud olan vəziyyətin mürəkkəbliyinə toxunmaqla Rusiya mələkəsi iki dövlət arasında xoş münasibətlərin gücləndirilməsinə də tərəfdar olduğunu bildirirdi (102).

Pyer Jan Taddeus Avropaya doğru səfərini davam etdirə bilmədiyi üçün 1613-cü ildə geri qayıtdı və Rusiya mələkəsinin ona yazdığı məktubu da Şah Abbasa çatdırdı.

Rusiya ilə Səfəvi dövləti arasında elçilik mübadiləsi 1613-cü ildə bərpa olundu. Həmin il Rusiyada hakimiyyət başına Mixayıl Romanov gəldi. Onun hakimiyyətə gəlişi ərəfəsində Rusiya daxilində baş verən üsyanlar və qiyamlar qonşu dövlətlərlə, o cümlədən Səfəvi dövləti ilə olan ticarət əlaqələrinə mənfi zərbə vurmuşdu. Mixayil Romanov bu əlaqələri yenidən bərpa etmək fikrinə düşdü və ona görə də Səfəvi sarayına Mixayil Tixanovun rəhbərliyi altında elçilik heyəti göndərdi. Həmin elçilik heyətinə rus əyanlarından olan Aleksey Buxarov da daxil edildi. Rus elçilik heyəti ilə birlikdə Moskvada olan Səfəvi elçisi Əmir Əli bəyin də geri qayıtmasına icazə verildi. Əmir Əli bəy 1608-ci ilin fevral ayında Rusiyaya göndərilmişdi. Həmin heyətin tərkibi 16 nəfərdən ibarət idi. Bu heyət düz altı il Rusiya ərazisində qaldı və Rusiya daxilində davam edən qarışıqlıqlar üzündən heyət geri dönmək fürsəti tapa bilmədi. Əmir Əli bəyin rəhbərlik etdiyi elçilik heyətinin qarşısına da digər heyətlərə xas olan vəzifələr qoyulmuşdu. Heyət üzvləri Rusiya daxilində baş verən hadisələrin mahiyyətindən xəbər tutmalı, iki dövlət arasında mövcud olmuş xoş münasibətlərin yenidən bərpa edilməsi yollarını aramalı, Rusiya dövlətinin gücündən Osmanlı qoşunlarına qarşı mübarizədə istifadə edilməsi imkanları barədə fikir mübadiləsi aparmalı idi. Şah

Abbas Osmanlı qoşunlarına qarşı Rusiyanın fəal iştirakına olan ümidlərini hələ də kəsməmişdi. Xüsusilə, Şimali Qafqaz istiqamətində Osmanlı təsirinin aradan qaldırılması məsələsində Rusiyanın fəal iştirakına böyük ümidlər bağlanılırdı. Əslində, bu məsələ Rusiyanın da maraqlarına cavab verməli idi. Ona görə də Şah Abbas istəyirdi ki, Rusiya qoşunları Terek, Sunca və Göysu istiqamətlərindən Osmanlı qoşunlarının sıxışdırılması üçün öz qüvvələrini hərəkətə gətirsin. Əmir Əli bəy 1613-cü ildə Mixayil Romanov tərəfindən qəbul edildi və Şah Abbasın göndərdiyi məktubla tanış oldu. Mixayil Romanov bu məktuba və məktubda toxunulan məsələlərə məmnunluqla yanaşdı. Bunun nəticəsi kimi, M.Tixanovun rəhbərliyi altında Rusiya elçilik heyəti Səfəvi sarayına göndəriləndə Əmir Əli bəyin heyətinə də həmin heyətlə geri qayıtmaq icazəsi verildi (103).

Əmir Əli bəyin heyət üzvləri Rusiya çarı tərəfindən qiymətli hədiyyələrlə mükafatlandırıldı, bu heyət üzvlərinin səfər xərcləri xəzinə hesabına ödənildi və hərəkət etmək üçün lazım olan ehtiyaclar aradan qaldırıldı. Hər iki elçilik heyətinin təhlükəsiz hərəkəti üçün mühafizə dəstəsi ayrıldı. Amma bu səfirlik heyətinin ənənəvi marşrutla irəliləməsi üçün müəyyən çətinliklər yaranmışdı. Belə ki, 1612-1613-cü illərdə Volqa çayının aşağı hövzəsində və Həştərxan bölgəsində Zarutski adlı bir kazakın rəhbərliyi altında mərkəzi hakimiyyətə qarşı üsyan baş vermiş və bu bölgə onun nəzarəti altına düşmüşdü. Ona görə də çarın elçilik heyətinin Həştərxandan keçib getməsi qeyri-mümkün oldu. Belə olanda elçilik heyətləri Samaradan Xəzər dənizinin şərq sahillərinə doğru istiqamət götürdülər. Elçilik heyəti qərara adı ki, Türküstandan keçməklə Səfəvi hüdudlarına daxil olsunlar və Qəzvinə üz tutsunlar. M.Tixanovun elçilik heyəti 1614-cü ilin əvvəllərində Moskvadan hərəkətə başladı. Hərəkətə başlamazdan əvvəl elçilik heyətlərinə çatdırılmışdı ki, yolçuluq zamanı Volqa boyu ərazilərdə üsyan qaldırmış Zarutskinin adamlarının əlinə düşsələr, onda Şah Abbasa xəbər göndərilsin və ondan elçilik heyətlərinin azad edilməsi üçün kömək istənilsin (104).

Elçilik heyətləri 1614-cü ilin ortalarında Samaraya yetişdilər və orada qərarlaşdırıldı ki, məhz Xəzər dənizinin şərq hövzəsindən keçməklə Səfəvi ərazisinə hərəkət edilsin. M.Tixanova tapşırılmışdı ki, həm Mixayil Romanovun taxta çıxması, həm də Rusiya çarının ikitərəfli münasibətlərin inkişaf etdirilməsinə maraqlı olduğunu Şah Abbasa çatdırsın. Rusiya elçisi eyni zamanda Həştərxan vilayətində yaranmış vəziyyət və Zarutski qüvvələrinin bu vilayətdən təmizlənməsi məsələsi ətrafında Şah Abbasla müzakirə aparılmalı idi. Çünki Həştərxan vilayətinin Zarutskinin nəzarəti altına düşməsi ilə ikitərəfli əlaqələrin davam etdirilməsi xeyli çətinləşmişdi. Rusiya sarayı hətta onun da marağında idi ki, Həştərxan bölgəsini nəzarət altına almış qüvvələrə qarşı Şah Abbas tərəfindən əməli kömək göstərilsin.

M.Tixanovun və Əmir Əli bəyin rəhbərlik etdikləri elçilik heyətləri uzun və yorucu yolçuluqdan sonra 1614-cü il oktyabr ayının ilk günlərində gəlib Qəzvin şəhərinə yetişdilər. Bu zaman Şah Abbas qoşunlarla birlikdə Gürcüstan istiqamətində idi. Ona görə də Rusiya elçiləri dərhal Şah Abbasla görüşə bilmədilər. Amma Rusiya elçiliyinin Səfəvi dövləti ərazisinə daxil olması haqqında məlumat alınmış və bu barədə Şah Abbasa da xəbər çatdırılmışdı. Qəzvin hakimi Salman xan Ustaclı elçilik heyətini hörmətlə qarşılayıb şəhərdə

yerləşdirdi. Şah Abbasın harada olması haqqında da o, elçilik heyətinin üzvlərinə məlumat verdi. Elçilik heyəti bir müddət Qəzvində gözləməli oldu. 1614-cü il noyabr ayının 10-da elçilik heyətinə xəbər çatdırıldı ki, Şah Abbas Gürcüstan yürüşündən geri dönməkdədir və o, Ərdəbildən keçməklə Gilana yollanmaq niyyətindədir. Elçilik heyətinə təklif olundu ki, Qəzvini tərk edib Ərdəbilə doğru hərəkət etsin və Şah Abbasla Gilana doğru hərəkət zamanı görüşmək imkanı əldə etsin. Rusiya elçiləri bu təklifi qəbul etdilər və noyabr ayının 11-də Ərdəbilə doğru hərəkətə başladılar. Noyabr ayının 19-da heyət Ərdəbil şəhərinə yetişdi. Heyət üzvləri bir neçə gün də burada gözləməli oldu. Sonra heyət üzvləri Muğana doğru hərəkəti davam etdirdilər. Cavad ətrafında heyət

üzvlərinə bəlli oldu ki, Şah Abbas Gürcüstanda olarkən onun yanına Rusiyadan İvan Brexov adlı bir nümayəndə gəlmiş və həmin nümayəndə də Rusiya elçilik heyətinin Türküstandan keçməklə Səfəvi paytaxtına doğru irəliləməkdə olduğunu çatdırmışdı. Şah Abbas qərara gəlmişdi ki, həm İvan Brexovu, həm də M.Tixonovun rəhbərliyi altında olan elçilik heyətini Qızılağacda qəbul etsin (105).

Dekabr ayının 18-də M.Tixonov Qızılağaca yetişdi. Ondan əvvəl isə İvan Brexov bu məntəqəyə gəlib çıxmışdı. Onunla görüş zamanı bəlli oldu ki, Rusiya çarı Şah Abbasa çatdırılması üçün başqa bir məktub da yazmış və onu İvan Brexova vermişdi ki, təqdim edilməsi üçün M.Tixonova çatdırsın. İvan Brexov isə Şah Abbas Tiflis yaxınlığında olarkən onunla görüşmüş və Rusiya çarının məktubunu da ona təqdim etmişdi. İvan Brexovdan əvvəl Həştərxandan da bir nümayəndə Şah Abbasın görüşünə gəlmişdi. M.Tixonov belə güman edirdi ki, həmin nümayəndə Həştərxanı nəzarət altına almış qüvvələrin nümayəndəsidir. Ona görə M.Tixonov istəmirdi ki, həmin nümayəndə ilə birlikdə Şah Abbasın qəbulunda olsun. Bu barədə M.Tixonov qəbuldan əvvəl onun görüşünə gəlmiş Polad bəy qarşısında məsələ qaldırdı. Polad bəy də Rusiya elçilərinin istəyinə əməl ediləcəyini bildirdi (106).

Dekabr ayının 19-da qonaqlar Şah Abbasla görüşmək fürsəti əldə etdilər. Əvvəlcə Əmir Əli bəy şahın hüzurunda oldu və altı illik səfəri haqqında ona ərzini çatdırdı. Rus xronikasında olan məlumatlardan aydın olur ki, Əmir Əli bəy xüsusi elçi statusuna malik deyildi. Onun Rusiyaya səfəri də iki ölkə arasında mövcud olmuş diplomatik əlaqələrin bərpası üçün idi. Ancaq Rusiya ərazisində baş verən qarışıqlıqlar üzündən Əmir Əli bəy Rusiya çarı ilə görüşü xeyli müddət gözləməli olmuşdu. Əmir Əli bəyin Rusiya səfərinin detalları haqqında geniş məlumat olmadığı kimi, onun Şah Abbas tərəfindən necə qarşılanması haqqında da mənbə və xronikalarda ətraflı məlumat qalmamışdır. Ancaq bəlli olan odur ki, Əmir Əli bəyin Rusiyaya səfəri Rusiya elçisinin Səfəvi dövlətinə göndərilməsinə müsbət təkan vermişdi (107).

Rus xronikasında olan məlumatlara görə, Rusiya elçilik heyətinin üzvləri şah qəbulu ərəfəsində onlara göstərilən qonaqpərvərlikdən narazı qaldılar. Belə ki, əvvəlcə şah çadırına xeyli qalmış onları atdan düşməyə və piyada hərəkət etməyə məcbur etdilər. Rusiya elçiləri uzun məsafəni piyada getmək istəmirdilər. Sonra isə elçilik heyətinin üzvləri günortadan hava qaralana qədər şah çadırının qarşısında gözləməli oldular. Rus tədqiqatçılarının fikrincə, elçilərə qarşı diqqətsizlik qəsdən edilmişdi. Səbəb kimi isə Rusiyanın Gürcüstan ərazisində öz nüfuzunu möhkəmləndirməyə çalışmasının Şah Abbası razı salmaması göstərilirdi. Çox güman ki, Rusiya dövləti ilə uzun müddət aparılan yazışmalar və onların Şah Abbasın arzusunda olduğu nəticələri tam şəkildə verməməsi Şah Abbasda müəyyən nigarançılıq yaratmışdı. Daha sonra isə Şah Abbas Rusiya elçilik heyətinin üzvləri ilə birlikdə Həştərxan nümayəndələrini də qəbul etdi. M.Tixonov bunun əleyhinə idi. Rusiya elçilik heyətinin üzvləri Həştərxan nümayəndələrinin adi iştirakını belə öz statuslarına uyğun hesab etmirdilər. Onların nəzərində Həştərxan nümayəndələri Rusiya dövlətinə düşmən olan qüvvələrin nümayəndələri idi və Rusiya elçilərinin onlarla bir yerdə olması arzuedilməz idi. M.Tixonovun əldə etdiyi məlumata görə, Həştərxan artıq üsyançı Zarutski qüvvələrindən təmizlənmişdi və ona görə onun nümayəndələrinin şah qəbulunda olmasının bir faydası da yox idi (108).

Qəbul zamanı isə Şah Abbas tərəfindən qonaqlara statuslarına uyğun olan ehtiram göstərildi. Rusiya elçisi tərəfindən təqdim olunan məktubu Şah Abbas özü şəxsən qəbul etdi. Digər elçilərə qarşı belə münasibət heç də hər zaman nümayiş etdirilmirdi. Rusiya elçisi Şah Abbasın hüzurunda Rusiya çarı tərəfindən ona verilən tapşırıq, Rusiyada vəziyyət, iki dövlət arasındakı münasibətlərin inkişafı ilə bağlı uzun-uzadı bir nitq söylədi. Nitqindən əlavə M. Tixonov iki məktubu şaha təqdim etdi. Onlardan birincisini M.Tixonov özü ilə gətirmişdi. İkinci məktub isə Rusiya nümayəndəsi İvan Brexov tərəfindən gətirilmiş məktub idi. Onların hər ikisi Rusiya çarı adından yazılmışdı. Lakin bu məktubların arasında

səkkiz aylıq bir fasilə var idi. Yəni birinci məktubun yazılmasından sonra Rusiya ərazisində ciddi dəyişikliklər baş vermişdi. İstər M.Tixonovun nitqində, istərsə də Rusiya çarı tərəfindən göndərilmiş birinci məktubda iki dövlət arasında qarşılıqlı münasibətlərin formalaşması tarixinə toxunulur və bu münasibətlərin davam etdirilməsi istəyi ifadə olunurdu. İkinci məktub isə öz həcminə görə daha böyük idi. Bu məktubun da əsas məzmununu qarşılıqlı münasibətlərin inkişaf etdirilməsi təşkil edirdi. Həmin məktub yazılanda Həştərxan şəhəri artıq üsyançı Zarutski qüvvələrindən təmizlənmişdi. Çarın məktubunda bu barədə məlumat verilir və həm də şahdan xahiş olunurdu ki, Həştərxan nümayəndəsi kimi Səfəvi dövlətinə gəlmiş adamlar həbs edilərək Rusiya tərəfinə təslim edilsin. M.Tixonov tərəfindən Mixail Romanovun Rusiya taxt-tacına çıxması və onun da qarşılıqlı münasibətlərin inkişafına tərəfdar olması barəsində Şah Abbasa yetərli məlumat verildi. Yeni Rusiya çarı tərəfindən Səfəvi nümayəndəsi olan Əmir Əli bəyi hörmətlə qarşılaması da M.Tixonovun nitqində öz əksini tapmışdı. Rusiya elçisi bəyan etdi ki, məhz Əmir Əli bəyin Rusiyaya səfərinə cavab olaraq onun rəhbərliyi altında olan elçilik heyəti Səfəvi dövlətinə göndərildi. Rus xronikasında olan məlumatlardan belə bir qənaət hasil olur ki, Şah Abbas Həştərxanın da öz nəzarəti altına alması meyli var idi və Həştərxan nümayəndələrini qəbul etməsi də bununla bağlı idi. M.Tixonov isə Şah Abbasın görüşündə olduğu zaman onun bu istəyinə qarşı təsir göstərməyə çalışmalı idi. Ona görə o çalışırdı ki, Şah Abbasın görüşünə gəlmiş Həştərxan nümayəndələrini geri alsın və Həştərxanın Rusiyanın güclü nəzarəti altında olması haqqında Səfəvi şahında da fikir yaratsın (109).

İvan Brexovun Səfəvi dövlətinə göndərilməsi yalnız ikinci məktubun çatdırılması istəyi ilə bağlı deyildi. Sözsüz ki, Rusiya çarı Həştərxanın da azad edilməsi haqqında Şah Abbası məlumatlandırmağı öz qarşısına məqsəd qoymuşdu. Lakin Rusiya çarı bu nümayəndəni göndərməklə həm də Şah Abbasın Gürcüstan yürüşünün nəticələri, Osmanlı qoşunlarının Səfəvi hüdudlarından geri qovulması haqqında məlumat əldə etmək, habelə Şah Abbasın bir

müddət Həştərxanı nəzarət altına almış qiyamçı qüvvələrlə münasibətlər qurmasının qarşısını almaq idi. Yuxarıda qeyd edildiyi kimi, Şah Abbasın bu qiyamçı qüvvələrlə əlaqələr qurmaq istəyi haqqında artıq Rusiya sarayında da məlumatlar var idi. Maraqlı olan məqamlardan biri o idi ki, İvan Brexovun gətirdiyi məktub türkcə yazılmışdı. İ.Brexov Həştərxan azad edildikdən sonra Moskvadan yola düşdü. O, Həştərxandan yolun bir hissəsini dənizlə hərəkət etməli, sonra da Dərbənddən keçməklə Şamaxı-Ərdəbil marşrutu üzrə hərəkət etməli idi. Böyük sürətlə hərəkət edən İ.Brexov nisbətən qısa bir zamanda bölgəyə yetişdi və qeyd edildiyi kimi M.Tixonovdan daha tez şah qəbulunda ola bildi (110).

M.Tixonovla görüş zamanı aparılan söhbətdən aydın oldu ki, Rusiya ərazisində baş verənlərdən Şah Abbasın kifayət qədər məlumatı vardır. Bu söhbət Rusiya çarı tərəfindən göndərilən qiymətli hədiyyələrin təqdim edilməsindən sonra baş tutdu. Şah Abbas bir daha Rusiya ilə qarşılıqlı münasibətlərin inkişafına tərəfdar olduğunu bəyan etdi. Lakin bu dəfə o, Rusiya ilə qarşılıqlı münasibətlərin yeni məzmun almasında maraqlı olmasını bildirdi. Əgər əvvəllər Şah Abbas Rusiyadan hərbi yardım almaq istəyində olduğunu bildirirdisə, yeni şəraitdə Səfəvi dövlətinin də Rusiyaya kömək göstərmək imkanında olduğunu açıqlayırdı. Şah Abbas bildirirdi ki, mənim dostum Rusiya çarının dostu, mənim düşmənim Rusiya çarının düşməni olmalıdır və əksinə. O da Rusiya çarına dost olanı dost kimi, düşmən olanı isə düşmən kimi qəbul edəcəyini bəyan edirdi. Şah Abbas hətta onu da vəd etdi ki, Rusiya çarına öz düşmənləri ilə mübarizə aparmaq üçün kömək göstərməyə hazırdır: "Mənim böyük qardaşım rus çarına de ki, əgər pul və hərbi qüvvə lazımdırsa mən onu verməyə hazıram. Əgər ehtiyac olarsa mən də çəkinmədən ondan istəyəcəyəm" (111).

Şah Abbas elçini də əmin etdi ki, Rusiya ilə münasibətlərin yaxşılaşması onun da istəyidir və bu istəklərini yeni elçi ilə Rusiya çarına da göndərəcəkdir. Sonra elçi üçün süfrə açıldı və ziyafət verildi. Həmin ziyafətdə Rusiya çarı M.Romanovun şərəfinə badə qaldırdı və öz əli ilə Rusiya elçisinə də badə verdi. Süfrə ətrafında

da Şah Abbasın Rusiya elçisi ilə söhbəti davam etdi və bu söhbət zamanı Səfəvi elçisi onu maraqlandıran suallar ətrafında M.Tixonovdan cavab istədi. Söhbət zamanı M.Tixonov bir daha Həştərxan nümayəndələrinin ona verilməsini xahiş etdi. Şah Abbas bəyan etdi ki, o, Həştərxan nümayəndələrini Rusiya çarına təslim edilməsinə hazırdır. Eyni zamanda onu da xahiş etdi ki, Rusiya çarı Həştərxan nümayəndələrini əfv etsin. M.Tixonov da Şah Abbasın bu xahişini Rusiya çarına çatdıracağını söz verdi. Mövcud olan kəsad məlumatlar onu deməyə əsas verir ki, Həştərxan nümayəndələri Şah Abbas tərəfindən təhvil verilmiş və Rusiya çarı da onları bağışlamışdı. Çünki bir neçə ildən sonra Şah Abbasın görüşünə gəlmiş Həştərxan nümayəndəsi Rusiya çarı tərəfindən elçi olaraq Buxaraya göndərilmişdi (112).

1614-cü il dekabr ayının 26-da Şah Abbas Qızılağac düşərgəsinə tərk etdi və Gilana doğru istiqamət götürdü. Onun tapşırığına əsasən, Rusiya elçilik heyətinin üzvləri Şamaxıya getməli və yalnız M.Tixonov şahın ardınca yollanmalı idi. Nəzərdə tutulmuşdu ki, qarşıdakı dayanacaqların birində Şah Abbas Rusiya elçisini qəbul etsin və ona geri qayıtmaq icazəsi verilsin. Həmin qəbulun elə dekabr ayının 26-da baş tutacağı ehtimal edilirdi. M.Tixonov da bu tapşırığı alandan sonra şah karvanının ardınca hərəkətə başladı. Lakin onun şahla görüşü bir də dekabr ayının 29-da baş tutdu. Həmin görüşdə Şah Abbas Rusiya çarına salamlarını çatdırmağı xahiş etdi və ikitərəfli münasibətlərin genişləndirilməsi fikrində olduğunu bildirdi. Şah Abbas elçi vasitəsilə Rusiya çarına çağırış etdi ki, Həştərxanla Krım arasında onlara yad olan qüvvələr qalmasın və bu ərazilərdə onlar azad hərəkət etmək imkanı əldə etsinlər. Şah Abbas bir daha Rusiya tərəfində maliyyə və hərbi kömək göstərməyə də hazır olduğunu bildirdi. Şah Abbas birmənalı şəkildə bəyan etdi ki, o, Rusiya ilə bütün istiqamətlərdə mövcud olan münasibətlərin daha yüksək səviyyədə olmasına tərəfdardır. Eyni zamanda o da bildirildi ki, Şah Abbasın fikirlərinin çatdırılması üçün M.Tixonovla birlikdə Rusiya

sarayına Polad bəyin rəhbərliyi altında yeni bir elçilik heyəti göndərilir (113).

Şah Abbas doğrudan da dərhal Səfəvi elçilik heyətinin formalaşdırılması və M.Tixonovla birlikdə yola salınması haqqında fərman verdi. Səltənətin tanınmış əmirlərindən biri olan Polad bəy bu elçilik heyətinin rəhbəri təyin edildi. Elçilik heyəti 13 nəfərdən ibarət idi və onun tərkibində Səfəvi tacirləri də var idi. Bu tacirlər elçilik heyətlərinə verilən güzəştlərdən istifadə etməklə Rusiya ərazisinə yaxşı satılan mallar aparmaq və oradan da başqa mallar gətirmək fikrində idilər. Şah Abbas mövcud ləngimələrə baxmayaraq Rusiya dövləti ilə qarşılıqlı münasibətlərin gücləndirilməsində maraqlı idi. Çünki hələ də aradan qalxmayan Osmanlı təhlükəsinin qarşılanması üçün bu əlaqələr faydalı ola bilərdi. Xüsusilə, dost münasibətlərin olduğu Rusiyanın Qafqazın şimalında möhkəmlənməsi Osmanlı qoşunlarının oradan Dərbənd və Şirvan üzərinə hücumlarının qarşısını ala bilərdi. Yəni Rusiyanın Qafqazı şimalında möhkəmlənməsi Səfəvi şimal sərhədlərinin təhlükəsizliyini daha da gücləndirə bilərdi. Dərbənd istiqamətindən sərhəd xəttinin təhlükəsizliyinə əmin olması isə Şah Abbasa əsas diqqəti digər istiqamətlərə yönəltməyə imkan verə bilərdi (114).

M.Tixonovun elçilik heyətinin Səfəvi dövlətindən geri qayıtması, onunla birlikdə Səfəvi elçilik heyətinin də gəlməsi Moskva sarayının intizarla gözlədiyi səfərlər idi. Çünki Rusiyanın yeni çarı Səfəvi dövləti ilə münasibətlərin hansı istiqamətdə inkişaf edə biləcəyini maraqla gözləyirdi. Ona görə adları çəkilən elçilik heyətlərinin Rusiya daxilində sürətlə Moskvaya doğru irəliləməsi haqqında lazım olan şərait yaradıldı. Bu elçilik heyətləri 1615-ci il mart ayının 24-də Həştərxanda idilərsə, həmin ilin may ayının 27-də artıq Kazan şəhərində idilər. Elçilik heyətlərinin bu hərəkəti dövrün imkanlarına görə sürətli hərəkət sayılırdı (115).

Elçilik heyəti cəmi iki gün Kazan şəhərində qaldıqdan sonra yoluna davam etdi. Bu elçilik heyətinin gəlməsi haqqında Rusiya sarayında da məlumat var idi. Ona görə də Polad bəyin qarşılanması və onun Moskvaya qədər müşayiət olunması üçün voyevoda

İ.Vorotinski adlı birisi Çeboksarı şəhərinə göndərildi. Bu adam 1615-ci il iyun ayının onlarında Çeboksarı şəhərinə yetişdi və Polad bəylə görüşdükdən sonra onunla Moskvaya doğru hərəkəti davam etdirdi. Rusiya çarı tərəfindən həm də Səfəvi elçisinin Moskva yaxınlıqlarında təntənəli qarşılanması haqqında fərman verilmişdi. Bu fərmana görə xüsusi adamlar ayrılmış və onlara lazım olan tapşırıqlar verilmişdi. Elçinin hərəkət etməsi üçün çar tövləsindən xüsusi at ayrılmışdı. Polad bəyin Moskvaya girişi zamanı isə onu 60 atlı müşayiət etməli idi. Rusiya sarayında Polad bəyin qəbulu 1615-ci il avqust ayının 13-də baş tutdu. Bundan əvvəl isə Polad bəyi knyaz Pyotr Tretyakov qəbul etdi. Polad bəy məktubu ona təqdim etməklə gəlişinin məqsədi, Şah Abbasın istəkləri və niyyəti haqqında Tretyakova məlumat verdi. Onun tərəfindən bir daha Səfəvi şahını Rusiya ilə möhkəm münasibətlər qurmaq istəyi Rusiya sarayına çatdırıldı. Sonra isə Polad bəy Rusiya çarı Mixayil Romanovun qəbulunda oldu. Bu qəbul mövcud protokol qaydalarına uyğun keçirildi. Polad bəy Şah Abbasın salamlarını ərz etdikdən sonra Tretyakova gətirilmiş məktubu çara təqdim etdi. Rusiya çarı qarşısında da Şah Abbas tərəfindən iki dövlət arasında mövcud olan münasibətlərin daha da möhkəmləndirilməsi, Qafqazın şimalında hər iki dövlətin marağına cavab verən şəraitin bərqərar edilməsi istəyi çarın diqqətinə çatdırıldı. Elçi eyni zamanda Şah Abbas adından Səfəvi Həştərxan nümayəndələrinin əfv edilməsi Rusiya çarından xahiş olundu (116).

Polad bəy 1615-ci ilin sonlarına qədər Rusiyada qaldı. Güman edilir ki, ilin sonuna kimi o özü ilə gətirdiyi malları Rusiya ərazisində satdı və əldə etdiyi pula yeni mallar alaraq geri qayıtmaq yolunu tutdu. Bundan əvvəl isə o, Rusiya sarayına müraciət etdi və geri qayıtması üçün icazə istədi. Rusiya sarayı isə nəinki icazə verdi. Eyni zamanda Səfəvi elçisinin marşrut üzrə keçəcəyi şəhərlərin hakimlərinə onun qarşılanması, ehtiyaclarının ödənməsi və sonra da yola salınması üçün göstəriş verildi. Polad bəyin nə vaxt Səfəvi paytaxtına yetişməsi haqqında dəqiq məlumat yoxdur. Nəzər alınsa ki, Polad bəy 1615-ci ilin iyul ayında Kazana gəlib

çıxmışdı (117), onda onun həmin ilin sonlarına yaxın vətənə gəlib yetişdiyini güman etmək olar.

Qeyd edildiyi kimi, 1613-cü ildə Rusiyada Romanovlar sülaləsinin hakimiyyəti başladı. Bu sülalənin hakimiyyətinin qonşu və böyük dövlətlər tərəfindən tanınması Rusiyanın yeni hakimiyyəti üçün mühüm əhəmiyyət kəsb edirdi. Rusiya tədqiqatçıları Polad bəyin rəhbərliyi altında Səfəvi elçiliyinin səfərinin qiymətləndirilməsinə də bu nöqtədən yanaşırlar. Belə bir fikir ortaya qoyulur ki, Polad bəyi Moskvaya göndərməklə Şah Abbas yeni sülalənin Rusiyada hakimiyyət başına gəlməsini rəsmi şəkildə tanımış oldu.

Mixayil Romanovun ilk elçilik heyətinin Səfəvi dövlətinə gəldiyi 1615-ci ildən başlayaraq sonrakı bir neçə il ərzində iki dövlət arasında fəal diplomatik heyətlər mübadiləsi oldu. Bu heyətlər mübadiləsinin aparılmasının bir səbəbi Rusiyanın Səfəvi dövlətindən müxtəlif köməklərin alınması istəyi ilə bağlı idi. Həmin illərdə həm Rusiyanın daxilində gərginlik qalmaqda idi. Həm də Rusiyanın beynəlxalq mövqeyi kifayət qədər sabit deyildi. Qafqazın şimal hissəsində də vəziyyət mürəkkəb xarakter almaqda idi. Osmanlı qüvvələrinin Şimali Qafqaza nüfuz etməsi yenidən Rusiya ilə Səfəvi dövləti arasındakı ticarət əlaqələrinin qırılmasına yol açırdı. Həmin dövrdə Rusiya Polşa ilə də müharibə aparırdı. Belə bir şəraitdə Səfəvi dövləti ilə faydalı münasibətlərin qurulması Rusiya sarayının diqqət mərkəzində dayanan məsələlərdən biri idi. Məlumdur ki, yalnız 1614-1618-ci illər ərzində Rusiyadan Brexov, Afanasyev, Şaxmatov, Leontyev, Timofeyev və Vorotinskinin rəhbərliyi altında elçilik heyətləri Səfəvi paytaxtına səfərlər etmişdilər (118).

Rusiya sarayı tərəfindən Səfəvi dövlətinə göndərilən elçilik heyətlərindən birinə Şaxmatov rəhbərlik edirdi. Həmin heyət 1615-ci ilin yanvarında, Polad bəyin elçilik heyəti Moskvaya gəlib yetişməzdən əvvəl yola salındı. Rusiyanın qərar tutduğu vəziyyət Moskva sarayını məcbur edirdi ki, səfər üçün əlverişsiz bir mövsümdə Səfəvi şahını yanına elçilik heyəti göndərilsin. Şaxmatovun çatdırmalı olduğu çar məktublarının məzmunundan göründüyü ki-

mi, Rusiya sarayı Səfəvi qoşunlarının Gürcüstan yürüşündən kifayət qədər narahatçılıq keçirirdi. Bundan əlavə, Rusiya sarayı ehtiyat edirdi ki, Şah Abbas Gürcüstan yürüşündən sonra Kabarda və Kumık torpaqlarına da qoşun çəkə bilər. Həmin əraziləri Rusiya sarayı öz maraqları dairəsində hesab edirdi. Yəni Rusiya sarayı Səfəvi qoşunlarının Gürcüstana və Kabardaya olan mümkün hücumlarına qarşı öz etirazını bildirirdi. Şaxmatov Dərbənddə Səfəvi ərazisinə daxil oldu və sonra Şamaxıdan keçməklə Ərdəbilə doğru yolunu davam etdirdi. Nəhayət 1615-ci ilin avqust ayında Şaxmatov İsfahana gəlib çatdı. Avqust ayının 30-da Şah Abbas Rusiya elçisini qəbul etdi. Bu qəbul kifayət qədər sadə və ciddi şəkildə həyata keçirildi. Şah Abbas ayaq üstə Rusiya çarının məktubunu qəbul edib saray əyanlarının birinə verdi. Şah Abbas Rusiya çarının hal-əhvalını soruşdu və elçi ilə qısaca söhbət etdi. Sonra da elçi nahar yeməyinə dəvət edildi. Bu qəbulun gedişi barəsində geniş məlumat mövcud olmasa da, bəllidir ki, Rusiya elçisi qəbul edilən zaman Şah Abbasın sarayında başqa dövlətlərin də elçiləri var idilər. Rusiya elçisi bunu heç də xoşluqla qarşılamadı. Bundan başqa müxtəsər məlumatlardan bəlli olur ki, Şah Abbas Rusiya çarının Gürcüstana olan iddialarını heç də qəbul etmədi və açıq şəkildə göstərdi ki, Gürcüstan Səfəvi dövlətinin maraq sahəsidir. Yəni Şaxmatov ona verilmiş olan tapşırığın həllinə nail ola bilmədi (119).

Mövcud olan bəzi məlumatlara görə, şah sarayının elçiləri olan Əmir Əli bəylə Polad bəyin rəhbərlik etdiyi elçilik heyətlərinə Rusiya sarayında göstərilən münasibət əvvəlki heyətlərə göstərilən münasibətdən fərqlənirdi. Yəni Rusiya sarayı bu elçilik heyətlərinə əvvəlki səmimiyyəti nümayiş etdirmədi. Şah sarayının bundan xəbəri var idi və ona görə Şaxmatovun rəhbərlik etdiyi elçilik heyətinə qarşı da kifayət qədər mehribanlıq nümayiş etdirilmədi. Bunu Şaxmatovun elçilik heyətinin üzvləri də hiss edirdilər. Onun tərəfindən çar məktubu şaha təqdim edildikdən sonra bu məktuba cavab verilməsini bir ay gözləməli oldu. Görünən odur ki, Şaxmatov bu müddət ərzində Səfəvi sarayının nüfuzlu

əmir və əyanları ilə də Gürcüstan mövzusunda ciddi bir müzakirə aparmaq imkanı olmadı. İstər Şah Abbas, istərsə də saray mənsubları birmənalı şəkildə nümayiş etdirdilər ki, Gürcüstan məsələsində Rusiyanın iddialarının qəbul edilməsi mümkün deyil. Şah Abbas Gürcüstanı Səfəvi dövlətinin tərkib hissəsi sayırdı və bu məsələdə hətta Osmanlı dövlətinə də güzəştə gedilmirdi. Şah Abbas Gürcüstanı Osmanlı nəzarətindən çıxarmaq və Gürcüstan ərazisindəki yerli qüvvələrin üsyanlarının qarşısını almaq üçün böyük bir yürüş keçirdiyi də tarixdən bəllidir. Gürcüstanı yenidən tam nəzarət altına almaq üçün müəyyən itkilərlə müşayiət olunan yürüşdən sonra onun Rusiya güzəştə gedilməsi real deyildi. Həmin dövrdə öz iddialarına baxmayaraq heç Rusiya da Gürcüstan istiqamətində fəal siyasət izləmirdi. Öz iddialarının həyata keçirilməsi üçün isə Rusiyanın gücü yox idi. Bütün bu məsələlər Şah Abbasa məlum idi və ona görə də Rusiya çarının məktubuna qarşı bir laqeydlik nümayiş etdirildi (120).

Bununla belə, Şah Abbas heç də Rusiya ilə münasibətləri kəsmək və ya mürəkkəbləşdirmək fikrində deyildi. Əslində, Rusiya Səfəvi dövləti üçün ciddi təhlükə mənbəyi deyildi və ona görə də Şah Abbas bu dövlətlə münasibətləri saxlamaq deyil, hətta bu münasibətlərdən dövlət maraqları üçün faydalanmaq fikrində idi. Rusiya bir tərəfdən Osmanlı və Krım qoşunlarının şimaldan hücum yolunu kəsməklə Səfəvi sərhədlərinin təhlükəsizliyinə münasib şərait yarada bilərdi. Digər tərəfdən də Rusiya əlavə ticarət marsrutu kimi Səfəvi dövlətinin maraqlarına cavab verirdi. Xüsusilə, Osmanlı dövləti ilə olan mürəkkəb münasibətlər Şah Abbası məcbur edirdi ki, ticarətin Rusiya marşrutuna da ciddi diqqət yetirsin. Buna görə də Şah Abbas davamlı şəkildə Rusiya ilə münasibətlərin daha da yaxşılaşdırılması yollarını arayırdı. Bu məqsədlə 1616-cı ildə Şah Abbas tərəfindən Rusiya sarayına yeni bir elçilik heyəti göndərildi. Həmin elçilik heyətinə Məhəmməd Kazım adlı bir tacir rəhbərlik edirdi. Elmi-tarixi ədəbiyyatda bu elçilik heyətinin qarşısına qoyulan əsas məqsədin iki dövlət arasında ticarət əlaqələrinin gücləndirilməsi olduğu bidirilirdi.

Məhəmməd Kazımın elçilik heyəti Polad bəyin və Hacı Murtuzanın rəhbərlik etdiyi elçilik heyətlərindən sonra Rusiyaya səfər edirdi. Rus xronikasına əsaslanan araşdırmalarda belə bir məlumat vardır ki, Polad bəyin elçilik heyəti ilə Hacı Murtuzanın elçilik heyətinin geri qayıtması xeyli ləngidi. Belə olanda onların ardınca yeni bir elçilik heyəti göndərildi (121).

Bir başqa məlumata görə isə, Hacı Murtuzanın elçilik heyəti iki dövlət arasındakı ticarət əlaqələrinin, habelə Rusiyadan keçən ticarət marşrutunun nizamlanması üçün Moskvaya yollanmışdı. Lakin bu elçilik heyəti də Rusiya sarayı tərəfindən lazımi səviyyədə qarşılanmadı. Bunu Hacı Murtuza özü də hiss edirdi. Hacı Murtuza Rusiya sarayının diqqətini özünə cəlb etmək və görməli olduğu işlərin icrasını asanlaşdırmaq üçün Səfəvi sarayı adından vədlər verməyə başladı. O bəyan etdi ki, əgər rəhbərlik etdiyi elçilik heyəti tapşırılan vəzifələri uğurla başa vurub geri qayıdarsa, Səfəvi sarayı Rusiyaya maliyyə yardımları göstərə bilər (122).

Bu heyətin fəaliyyəti haqqında geniş məlumat söyləmək mümkün deyil. Mümkündür ki, bu heyətin geri qayıtması doğrudan da ləngimiş və ona görə Moskvaya yeni bir heyətin göndərilməsi qərara alınmışdı. Məhəmməd Kazım Rusiyada bir tərəfdən Hacı Murtuzanın görməli olduğu işlərin nəticələri ilə maraqlanmalı, digər tərəfdən də ticarətlə məşğul olmalı idi. Bu məqsədlə o özü ilə böyük həcmdə ticarət malları da aparırdı. Rus xronikasında Məhəmməd Kazımın özü ilə apardığı malların siyahısı da verilmişdir. Bu mallara ipək və parçalardan başqa qiymətli daşlar da daxil idi. Məhəmməd Kazımın rəhbərlik etdiyi elçilik heyətinə əlavə on nəfər də daxil idi. Bu elçilik heyəti 1616-cı il avqust ayının 4-də Həştərxana yetişdi. Heyət burada mehribanlıqla qarşılandı və ona lazım olan qayğı göstərildi. Şah Abbas Həştərxanın hakiminə də məktub göndərmişdi. Həmin məktubda Səfəvi şahı xahiş edirdi ki, Məhəmməd Kazımın elçilik heyətinə qayğı göstərilsin və bu heyətin gömrük ödənclər olmadan ticarətlə məşğul olmasına icazə verilsin. Həştərxan hakimi də elçilik heyətinə ayrıca bir iqamətgah müəyyənləşdirdi, elçiliyin iaşə qayğılarını həll

etdi. Eyni zamanda bu elçilik heyətinin gəlməsi ilə bağlı Moskva sarayına məktub göndərildi (123).

Səfəvi elçilik heyətinin gəlməsi xəbəri alınan kimi Moskva sarayından Həştərxana tapşırıq göndərildi ki, bu heyət Moskvaya yola salınsın. Mövcud olan məlumata görə, Həştərxan hakimi heç Moskvanın tapşırığını gözləmədən Məhəmməd Kazımın rəhbərik etdiyi elçilik heyətini Kazana yola saldı. Bu heyətin qarşılanması və Moskvaya qədər müşayiət edilməsi Panov adlı birisinə tapşırıldı və ona göstəriş verildi ki, dərhal Kazana yola düşsün. Panov burada elçilik heyəti ilə görüşməli və heyətin səfəri və gecələməsi ilə bağlı bütün məsələlərin həllini öz üzərinə götürməli idi. Elçilik heyətinin Kazandan Moskvaya doğru hərəkətini davam etdirmək üçün bütün işlər görülməli, heyət üzvlərinin sayına və yüklərin həcminə görə gəmilər ayrılmalı və yola salınmalı idi. Panov elçilik heyəti ilə görüşdükdən sonra həm bu heyətin Rusiyada ticarət etməsinə köməklik göstərməli, həm də Rusiyanın vəziyyəti ilə bağlı söhbətlər aparmalı idi. Moskva sarayının nümayəndəsi tapşırıq almışdı ki, bu söhbətlər zamanı Rusiyanın qüdrəti və əzəməti barəsində Səfəvi elçilərinə müəyyən təəssürat yaratsın (124).

Moskva sarayının göstərdiyi cəhdlərə baxmayaraq Məhəmməd Kazımın rəhbərlik etdiyi heyət kifayət qədər ləng hərəkət edirdi. Bu elçilik heyəti hətta qışı da Kazanda keçirmək istəyirdi. Lakin Moskva sarayının təkidi ilə heyət Moskvaya doğru yolunu davam etdirməli oldu. Mənbələrin verdiyi məlumata görə, Nijni Novqorodda olarkən Məhəmməd Kazımın satmaq üçün apardığı yükün bəzi əşyaları oğurlandı. Yerli hakimiyyət bu əşyaları oğurlayanları tapıb həbs etdi və Məhəmməd Kazıma dəyən ziyanın bir hissəsi də ödənildi. Elçilik heyəti bir də 1616-cı il dekabr ayının sonlarında Moskvaya yetişdi. Burada elçilik heyətinin sadə bir qarşılanma mərasimi keçirildi. İlkin olaraq elçilik heyəti knyaz Tretyakovun qəbulunda oldu. Knyaz Tretyakovla Məhəmməd Kazım arasında qısa söhbət baş tutdu. Bu söhbət zamanı aydın oldu ki, Polad bəylə Hacı Murtuza hələ də Səfəvi paytaxtına çatmayıblar və Məhəmməd Kazım onlarla Həştərxana görüşə bilmişdi. Səfəvi

şahından isə Rusiya çarına məktub gətirilib və Məhəmməd Kazım bu məktubu şəxsən çara təqdim etmək istəyir. Knyaz Pyotr Tretyakov Şah Abbasın hal-əhvalı ilə də maraqlandı. Məhəmməd Kazım da bildirdi ki, o, Rusiyaya yola düşəndə Şah Abbas Təbrizdə idi və elə orada ikən Rusiya çarına məktub yazdığını söylədi. Məhəmməd Kazım bu görüş zamanı Səfəvi dövləti ilə Rusiya dövləti arasında münasibətlərin tarixinə toxundu, əvvəlki Rusiya çarları ilə Şah Abbas arasında xoş münasibətlərin olduğunu xatırlamaqla həmin münasibətlərin daha yüksək səviyyədə olması ilə bağlı Şah Abbasın istəklərini də səsləndirdi. Knyaz Tretyakov isə Səfəvi dövləti ilə Osmanlı dövləti arasındakı münasibətlərin hazırkı durumu haqqında məlumat verilməsini xahiş etdi. Məhəmməd Kazımın sözlərinə görə, Səfəvi dövləti ilə Osmanlı dövləti arasında yeni müharibə təhlükəsi qalmaqda idi. Onun söylədiyinə görə, Şah Abbasın Təbrizdə olması da həmin təhlükə ilə bağlı idi. Məhəmməd Kazım belə bir məlumat da verdi ki, Şah Abbas Osmanlı sarayına adam göndərərək Bağdad şəhərinin geri qaytarılmasını istəmişdi. Onun eşitdiyinə görə, Şah Abbas Bağdad şəhərini öz əcdadlarının mülki sayırdı və ona görə də bu şəhəri Osmanlı sarayından geri istəyirdi (125).

Knyaz Tretyakov söhbət zamanı Məhəmməd Kazım elçiliyinin qarşısında hansı vəzifələr dayandığı ilə maraqlandı və eşitdikləri haqqında Rusiya çarına məlumat çatdırmağı vəd etdi. 1616-cı il dekabr ayının 29-da Məhəmməd Kazım Rusiya çarı tərəfindən də qəbul edildi. Məhəmməd Kazım bu qəbul zamanı qısa nitq söylədi, gətirdiyi şah məktubunu Rusiya çarına təqdim etdi və şah adından Rusiya çarının səhhəti ilə maraqlandı. Məhəmməd Kazım Səfəvi sarayının Rusiya çarı ilə yaxşı münasibətlər qurmaq arzusunda olduğunu və Polad bəyin rəhbərliyi altında olan elçilik heyətinin də buna görə göndərilmiş olduğunu bildirdi. Onun sözlərinə görə, Polad bəyin geri qayıtması ləngiyəndə Şah Abbas onu Rusiya sarayına göndərməli olmuşdu. Rusiya çarı da cavab nitqində Səfəvi dövləti ilə münasibətlərin yaxşılaşdırılmasına tərəfdar olduğunu bildirdi. 1617-ci il fevral ayının 7-də Məhəmməd Kazım

yenidən Rusiya çarı tərəfindən qəbul edildi. Bu qəbul Məhəmməd Kazımın geri qayıtmasına icazə verilməsi ilə bağlı idi. Bu dəfə də elçilik heyəti protokol qaydaları çərçivəsində qəbul edildi. Bu qəbul zamanı Rusiya çarı tərəfindən iki dövlət arasında münasibətlərin daha da möhkəmləndirilməsi istəyi ifadə olundu və Məhəmməd Kazıma Şah Abbasın məktubuna cavab məktubu təqdim olundu. Məhəmməd Kazımın nəzərinə çatdırıldı ki, Şah Abbası maraqlandıran bütün suallara həmin məktubda cavab yazılmışdır. Həmin məktubda o da bildirilirdi ki, iki dövlət arasında münasibətlərin yaxşılaşdırılması məqsədilə Səfəvi sarayına artıq F.Leontyevin rəhbərliyi altında Rusiyanın yeni bir elçilik heyəti göndərilmişdir. İki dövlət arasındakı münasibətlərə xoş iradənin nümayişi kimi, müxtəlif səbəblər üzündən Rusiya ərazisində saxlanılmış Səfəvi təbəələri də azad edilərək F.Leontyevlə birlikdə yola salınmışdı. Rusiya çarının məktubunun məzmunundan aydın olur ki, həmin saxlanılanlar əsasən ticarət adamları idi və onlar 8-10 il idi ki, Həştərxanda idilər. Həmin adamların buraxılması ilə bir vaxtda yerli hakimlərə də fərman göndərilmişdi ki, Səfəvi tacirlərinə qarşı qayğı nümayiş etdirilsin və Rusiya ərazisində onlar üçün çətinliklər yaradılmasın. Məktubda həm iki dövlət arasında münasibətlər haqqında, həm də Şah Abbasın özü haqqında xeyli xoş sözlər yazılmışdı. Şah Abbas yeni Rusiya çarı tərəfindən də Persiyanın və Şirvanın padşahı adlandırılmışdı. Şah Abbasın göndərdiyi elçini və məktubu məmnunluqla qarşıladığını qeyd edən Rusiya çarı iki dövlət arasındakı münasibətlərin tarixinə də toxunur və Şah Abbası öz qardaşı adlandırırdı. Kifayət qədər uzun olan məktubunun sonunda Rusiya çarı Fyodor Leontyevin və Boqdan Timofeyevin rəhbərlik etdiyi elçilik heyətini Səfəvi sarayına göndərdiyini bəyan etməklə onların vaxtında geri qayıtmasına icazə verilməsini xahiş edirdi. Məhəmməd Kazım fevral ayının ortalarında Moskva şəhərini tərk etdi və Həştərxana doğru istiqamət götürdü (126).

Rusiya çarının öz məktubunda xatırlatdığı Fyodor Leontyevin rəhbərliyi altında olan elçilik heyəti 1616-cı ilin may ayında təşkil

edilmişdi. Rus tədqiqatçılarının apardığı araşdırmalara görə, bu elçilik heyəti Şaxmatovun elçiliyinin uğursuzluğuna cavab olaraq Səfəvi sarayına səfər etməli olmuşdu. Mövcud məlumatlardan ayın olur ki, F.Leontyevin elçilik heyətinin təşkilinə Şaxmatovun geri qayıtmasından əvvəl başlanmışdı. Bu heyətin qarşısına qoyulan əsas vəzifə Səfəvi şahından maliyyə yardımının alınması idi. Amma xəbər alınanda ki, Gürcüstan məsələsi ilə bağlı Şaxmatov müsbət bir cavab almayıb, onda bu məsələnin yenidən qaldırılması da F.Leontyevə tapşırıldı. F. Leontyevin elçilik heyəti 13 nəfərdən ibarət idi. Boqdan Timofeyev elçilik heyəti rəhbərinin köməkçisi təyin edilmişdi. Rusiya sarayı tərəfindən icazə verilmişdi ki, elçilik heyətinə 7-8 nəfər tacir də əlavə edilsin. Bu elçilik heyəti 1616-cı il may ayının 23-də Moskva şəhərini tərk etdi (127).

Görünür, F.Leontyevin elçiliyi Rusiya dövləti üçün xüsusi əhəmiyyət kəsb edirdi. Ona görə də Rusiya sarayı tərəfindən ona tapşırıq verilmişdi ki, səfəri sürətlə həyata keçirsin və 1616-cı ilin yay aylarında öz səfərinin başa vuraraq Moskvaya qayıtsın. F.Leontyevə verilən tapşırıqda o da tələb olunurdu ki, Səfəvi şahı ilə görüşdə ondan maliyyə yardımı istənilsin. Şah Abbasdan 400 min rubl pul istənilməli idi. Bu qədər vəsaitin verilməyəcəyi halda, heç olmasa 100 min rublun şahdan istənilməsi lazım bilinirdi. Həmin vəsaitin əldə edilməsi üçün F.Leontyevdən tələb olunurdu ki, şah sarayının adamlarını qiymətli hədiyyələrlə ələ alsın və onların köməyi ilə məsələ həll olunsun. Bu tapşırığı yerinə yetirəcəyi halda F.Leontyevin və onun heyət üzvlərinin Rusiya sarayı tərəfindən səxavətlə mükafatlandırılacağı bildirilirdi. Səfəvi xəzinəsindən maliyyə yardımının alınması üçün Rusiya elçisi Şah Abbasla və Səfəvi əyanları ilə görüşündə Hacı Murtuzanın verdiyi vədə istinad etməli idi. F.Leontyev bildirməli idi ki, şah elçisi olan Hacı Murtuzanın səsləndirdiyi vədin əsasında Səfəvi şahına müraciət edilməsi qərara alınmışdır. Rusiya sarayı istisna etmirdi ki, şah sarayı verilən böyük həcmdə borcun əvəzində girov tələb edə bilər. Hətta güman edilirdi ki, şah sarayı verilən borcun əvəzində Həştərxan şəhərini girov kimi istəyə bilər. Bu halda F.Le-

ontyev müvafiq göstəriş almadığı üçün məsələnin üstündən keçməyə çalışmalı idi. F.Leontyevə verilmiş tapşırıqlardan biri də onun tərəfindən qəbul zamanı Rusiyanın əzəmətinin gözlənilməsi idi. Ondan tələb olunurdu ki, şahın qəbuluna başqa dövlətlərin elçiləri olmadan getsin. Əgər Rusiya elçisinin qəbuluna digər dövlətlərin elçiləri dəvət edilsəydi, ona F.Leontyev belə qəbuldan imtina etməli idi və çalışmalı idi ki, Səfəvi şahının qəbulunda təklikdə olsun. Elçilik heyətinin qarşısına başqa protokol tələbləri də qoyulmuşdu – Rusiya elçiləri şah iqamətgahının kandarına təzim edə bilməzdi, şah xidmətçilərinin protokoldan kənara çıxan göstərişlərini qəbul etməli deyildi, şahın ayağını öpməyə icazə verilmirdi, şah tərəfindən elçilik heyətinə milli geyimlər təqdim olunsaydı, elçilik heyəti rəsmi görüşlərə bu geyimdə getməli deyildi və s. (128).

Güman edilir ki, F.Leontyevin rəhbərlik etdiyi elçilik heyətinin İsfahana yetişməsi 1616-cı ilin son aylarına təsadüf edir. Bu zaman Səfəvi dövləti ilə Osmanlı dövləti arasında yeni bir gərginlik yaşanmaqda idi. F.Leontyev Şah Abbasın qəbulunda olarkən Rusiya çarının salamlarını, ikitərəfli münasibətlərin möhkəmləndirilməsi istəklərini çatdırmaqla bərabər, şah xəzinəsindən borc pulun verilməsi məsələsini də qaldırdı. Şah Abbas da birmənalı şəkildə bildirdi ki, hazırda düşmənlə üzbəüz dayanmışdır və xəzinədəki pullar xidmət adamlarının maaşına ayrılmışdır. Şah təklif etdi ki, pul əvəzinə Rusiyaya satlıq mallar versin. F.Leontyev isə bu təklifi qəbul etmədi. Ona görə də F.Leontyevin Səfəvi sarayına səfəri nəticəsiz başa çatdı və Səfəvi dövlətindən maliyyə yardımı almaq mümkün olmadı (129).

F.Leontyevin elçilik heyətinin geri qayıtması 1617-ci ortalarına təsadüf edirdi. Rusiya sarayı bu səfərin nəticələrindən məmnun qalmasa da, 1618-ci ildə Səfəvi dövlətinə yeni bir elçilik heyəti göndərdi. Bu elçilik heyəti kifayət qədər böyük heyət idi və onun tərkibinə 150 nəfər daxil idi. Bu elçilik heyətinə Rusiyanın tanınmış knyazlarından biri olan Mixayil Baryatinski rəhbərlik edirdi. Mixayil Baryatinskiyə F.Leontyevin həll edə bilmədiyi məsələ-

lərin həlli də tapşırılmışdı. Rusiya sarayı qarşısında dayanan başlıca məsələlərdən biri Polşa ilə aparılan müharibənin başa çatdırılması idi. Bu da böyük xərclər tələb edirdi ki, həmin vaxt Rusiya xəzinəsinin buna imkanı yox idi. M.Baryatinski səfəri zamanı Səfəvi dövlətindən maliyyə yardımı alınması məsələsinin həllinə nail olmalı idi. Məsələ Rusiya sarayı üçün böyük əhəmiyyət kəsb etdiyi üçün onun həlli ilə bağlı müəyyən güzəştlərə gedilməsi də mümkün sayılırdı. M.Baryatinskiyə səlahiyyət verilmişdi ki, Səfəvi dövlətinin ayıra biləcəyi yardım qarşılığında rəsmi sənəd imzalasın və Rusiya dövləti həmin sənədə əsasən zəruri olan öhdəliyi öz üzərinə götürsün. Bəzi farsdilli elmi-tarixi ədəbiyyatda olan məlumata görə, Səfəvi dövlətinin ayırdığı maliyyə vəsaitinin qarşılığı kimi Həştərxan şəhərinin girov qoyulması da istisna edilmirdi (130). Rus mənbələrində isə bu məsələ təsdiq olunmur. Əksinə, göstərilir ki, şah sarayı verilən borcun əvəzində Həştərxan şəhərinin girov qoyulmasını istəsə, onda M.Baryatinski bildirməli idi ki, bu məsələ ilə bağlı ona hər hansı bir göstəriş verilməmişdir və ona görə Həştərxanın girov qoyulması məsələsində səlahiyyətli deyildir (131). İstənilən maliyyə vəsaiti isə çox böyük idi. Mənbələrdə göstərilirdi ki, Rusiya dövləti cəlb olunduğu müharibənin hər ilinə 400 min rubl xərcləməli olurdu. Rusiya sarayı ümid edirdi ki, bu xərclərin müəyyən hissəsini Səfəvi dövlətindən alacağı borclarla örtə biləcəkdir.

Borc məsələsi ilə bağlı elçilik heyətinin üzvləri Şah Abbasa Rusiya çarı adından bunları çatdırmalı idilər; "...böyük hökmdar, bizim qardaşımız Şah Abbas həzrətlərinin yanına biz öz elçilərimizi, zadəgan və canişin knyaz Mixayil Petroviç Baryatinskini və zadəgan İvan İvanoviç Çiçerini və bizim xidmətçimiz Mixayil Tyuxini qardaşlıq, dostluq, sevgi hissləri və bizim böyük dövlət işlərimiz haqqında məlumat vermək üçün göndərdik. Bunlar böyük hökmdarlar kimi bizim hər ikimizin dostluğu və sevgisi üçün çox lazımdır. Bizim qardaşımız Şah Abbas həzrətləri siz də eynilə bizimlə möhkəm qardaşlıq əlaqələrində idiniz. ...Bizim elçilərimizi biz böyük hökmdarın yanına ləngitmədən geri buraxın. Böyük

hökmdar sizə, bizim qardaşımıza, Şah Abbas həzrətlərinə məlum edirik ki, xeyli vaxtdır ki, bizim düşmənimiz, Moskva dövlətini dağıtmaq istəyən Polşa kralı Siqizmundla müharibə edirik. Onun haqsızlığı, bizim Moskva dövlətini talan etməsi qarşısında hazırda biz bütün işlərimizi kənara qoyub öz qardaşımızdan, Şah Abbasdan hörmətlə xahiş edirik ki, siz, bizim qardaşımız olan Şah Abbas bizə, biz böyük hökmdara öz səmimi, qardaş münasibətinizi və məhəbbətinizi göstərəsiniz, düşmənimiz Polşa kralına qarşı bizə kömək üçün maliyyə vəsaiti göndərəsiniz" (132).

Şah Abbasa ərz edilməli idi ki, Polşa ilə aparılan müharibə, habelə Rusiya daxilindəki qarşıdurmalar səltənət xəzinəsinin boşalmasına gətirib çıxarmışdı və Səfəvi dövlətindən borc istənilməsi də bununla bağlı idi. Şah Abbasa vəd edilməli idi ki, Polşa ilə müharibə başa çatandan sonra borc da geri qaytarılacaqdır.

F.Leontyevin Səfəvi dövlətinə olan səfəri və apardığı danışıqlar bir nəticə verməsə də, Şah Abbas həmin elçiliklə birlikdə Moskvaya Qaya sultanın və Polad bəyin rəhbərlik etdiyi öz elçilərini göndərdi. Şah Abbas onların vasitəsilə Rusiya sarayına 7 min ədəd gümüş külçə göndərdi (132). Onların ümumi dəyəri çox böyük olmasa da, görünür Şah Abbasın bu hədiyyəsi Rusiya sarayında borc alınması üçün əlavə ümidlər yaratmışdı. Bundan əlavə Qaya sultanla Polad bəy də Rusiya sarayında aparılan söhbətlər zamanı Şah Abbas tərəfindən Rusiyaya borc verilməsinin mümkünlüyünə toxunmuşdular. Bu da ona gətirib çıxardı ki, Rusiya sarayı M.Baryatinskinin rəhbərliyi altında yeni və tərkib etibarilə daha böyük elçilik heyətini Səfəvi paytaxtına göndərsin. Elçilik heyəti maliyyə yardımı istəməklə bərabər, iki dövlət arasında münasibətlərin yaxşılaşdırılmasına çalışmalı, Rusiya sarayının və çarının xoş məramını ifadə etməli və ticarət dövriyyəsinin artması yollarını aramalı idi. M.Baryatinski eyni zamanda Rusiyanın cəlb olunduğu müharibə, Rusiyanın daxilində mövcud olan vəziyyət haqqında da məlumat verməli və Rusiyanın gürcü şahzadələrinə olan himayəsi haqqında da fikir bildirməli idi. Mövcud olan məlumata görə, gürcü şahzadələri Rusiya çarından xahiş etmişdilər

ki, Şah Abbas tərəfindən əsir götürülmüş şahzadə Luarsabın azad edilməsi ilə bağlı xahiş etsin. Rusiya elçisi də bu məsələni Şah Abbasa çatdırmalı idi. Elmi-tarixi ədəbiyyatda olan məlumata görə, Luarsab barəsində xahiş ediləcəyi ilə bağlı Şah Abbas əvvəldən məlumat almışdı. Rusiya padşahının ona çatdırılacaq xahişinin yerə salınması baş verməsin deyə Şah Abbas hələ Rusiya elçisi İsfahana çatmazdan əvvəl Luarsabın qətli barəsində fərman verdi. Elçiyə isə bildirildi ki, artıq gecdir, yoxsa Rusiya çarının xahişi heç bir vəchlə yerə salınmazdı (133).

Elçilik heyətinin təşkili, yola düşməsi, maliyyə xərcləri haqqında Rusiya sarayı tərəfindən M. Baryatinskiyə və elçilik heyəti rəhbərinin müavini Çiçerinə çox ciddi təlimat verildi. Bu tapşırıqlar həm müfəssəl idi, həm də elçilik heyətinin bütün həyatını əhatə etməli idi. Hətta yola çıxmaq, hansı marşrutu seçmək haqqında da verilən təlimatda öz əksini tapmışdı. Rusiya daxilində elçilik heyətinin Moskva - Nijni Novqorod – Kazan – Samara – Həştərxan marşrutu üzrə hərəkət etməsi məqsədəuyğun sayılırdı. Həştərxandan sona isə iki marşrut təklif olunurdu. Onlardan biri dəniz yolu idi. Digəri isə Tərki – Kabarda – Dərbənddən keçməklə quru yolu idi. Təlimatda dəniz yolu daha təhlükəsiz yol kimi göstərilirdi. Elçilik heyəti dəniz marşrutunu seçəcəyi halda təhlükəsizliyin təmin edilməsi üçün tüfəngçilər dəstəsi də ayrılmalı idi (134).

Elçilik heyətinə verilmiş təlimatda protokol məsələləri ilə bağlı çoxlu məqamlar var idi. M.Baryatinskidən də tələb olunurdu ki, Rusiya dövlətinin və çarının nüfuzuna uyğun gəlməyən protokol normalarına razılıq verilməsin. O cümlədən, M.Baryatinskidən də tələb olunur ki, Rusiya elçiliyi Şah Abbasın qəbuluna digər dövlətlərin nümayəndələrinin olmadığı halda yollansın. Şah sarayında belə bir ənənə var idi ki, bir dövlətin elçisi qəbul edilərkən Səfəvi paytaxtında olan digər dövlətlərin nümayəndələri də dəvət edilirdilər. Elçilik heyətinin üzvlərinə Səfəvi paytaxtına doğru irəlilədikləri zamanı yerli hakimlərin təşkil etdikləri ziyafətlərdə iştirak etmələri qadağan edilirdi. Şah iqamətgahının kandarını, şahın ayağını öpmək də elçilik heyətinin üzvləri üçün qadağan edilmişdi.

Təlimatda öz əksini tapmış məsələlərin çoxu ikitərəfli münasibətlərin formalaşdırılması ilə bağlı idi. Elçilərə təlimat verilirdi ki, hansı məsələlər haqqında açıq danışmaq olar, hansı məsələlər ətrafında isə heyət üzvləri öz fikirlərini ifadə etməkdən çəkinməli idilər. Həmin məsələlərlə bağlı yalnız Moskva sarayının fikri öyrənilməli idi. Moskva sarayı elçilik heyətinin hərəkət etdiyi gəmilərin qəzaya uğraması və heyət üzvlərinin quruya çıxmasını da istisna etmirdi. Əgər heyət üzvlərinin quruya çıxdığı ərazilər Osmanlı qüvvələrinin nəzarəti altında idisə, onda Şah Abbasa ünvanlanmış olan məktublar məhv edilməli və elçilik heyətinin nə məqsədlə Səfəvi dövlətinə yollanması gizli saxlanmalı idi. Heyət üzvləri yalnız ticarət əlaqələrinin nizamlanması ilə bağlı məktub və sənədləri yanında saxlamalı, lazım gələrdisə Osmanlı nümayəndələrinə göstərməli və bununla da heyətin yalnız ticarət işləri üzrə Səfəvi dövlətinə yollanması barəsində görüntü yaratmalı idilər (135).

Elçilik heyətinə verilən təlimata görə, Şah Abbasın qəbulunda olarkən M.Baryatinski və ya onu əvəz edəcək adam uzun bir nitq söyləməli idi. Bu nitqin əsasını Rusiya çarının Şah Abbasa olan qardaş münasibətinin, Səfəvi dövləti ilə isə ikitərəfli münasibətlərin möhkəmləndirilməsi istəyi öz ifadəsini tapmalı idi. Təlimatda təkrar-təkrar Şah Abbas Rusiya çarının qardaşı adlandırılırdı və bunu elçilik heyəti də daha qabarıq şəkildə Şah Abbasın nəzərinə çatdırmalı idi. Şah Abbasa "böyük hökmdar", "hökmdar əlahəzrətləri" deyə müraciət edilirdi.

Səfər hazırlıqlarının başa çatması ərəfəsində M.Baryatinskiyə Rusiya çarının məktubu da təqdim olundu. Həmin məktub qəbul zamanı Şah Abbasa təqdim olunmalı idi. Rusiya çarının məktubu kifayət qədər həcmli bir məktub idi və onun da əsas məzmununu yuxarıda toxunulan məsələlər təşkil edirdi. Bu məktub da ənənəvi olaraq həm Rusiya çarının titullarının, həm də Şah Abbasın adına səxavətli tərifların xatırlanması ilə başlayırdı. Məktubda da Şah Abbas "bizim qardaşımız", "böyük hökmdar" kimi qələmə alınmışdı. Rusiya çarı iki dövlət arasında münasibətlərin dostluq və hörmət üzərində qurulduğunu məmnunluqla dilə gətirir və bu

münasibətlərin daha yüksək səviyyəyə qaldırılmasına tərəfdar olduğunu bəyan edirdi. Rusiya çarı Səfəvi elçiləri olan Qaya sultanla, Polad bəyi də ehtiramla qəbul etdiyini, onlar vasitəsilə Şah Abbas haqqında hal-əhval tutduğunu, iki dövlət arasında ticarət işlərində sərbəstliyin mövcud olduğunu da Səfəvi şahının nəzərinə çatdırırdı. Rusiya çarı Səfəvi sarayına göndərdiyi elçi F.Leontyevin səfərinin nəticələri ilə bağlı da öz fikirlərini ifadə edirdi. Məlum olduğu kimi, F.Leontyev borc pul almaq üçün Səfəvi sarayına səfər etmişdi. Rusiya çarının məktubda yazdığından belə aydın olur ki, Şah Abbas borc pulun verilməsindən birdəfəlik imtina etməmişdi. Səfəvi şahı mövcud şəraitdə Rusiyaya borc pul vermək imkanında olmadığını bildirməklə gələcəkdə maliyyə imkanlarının dəyişə biləcəyi haqqında bəzi ümidləri ifadə etmişdi. Rusiya çarının müraciətinin yerə düşməməsi xatirinə isə Şah Abbas Qaya sultan və Polad bəylə bir miqdar gümüş pullar göndərdi. Rusiya çarı göndərilən gümüş külçələri "yüngül xəzinə" kimi qiymətləndirirdi. Rusiya çarı eyni zamanda məktubunda onu da yazırdı ki, Şah Abbasın hüzuruna yeni elçiləri göndərmişdir. Şahın nəzərinə çatdırılırdı ki, bu elçilik heyətinin göndərilməsində də məqsəd Səfəvi xəzinəsindən borc götürməkdir. Rusiya çarı göndərilən elçilik heyətinin rəhbərlərinin adını çəkir və borc istəməsinin səbəbini də açıqlayırdı. O, bir daha Polşa ilə müharibənin davam etdiyini bildirir və istənilən borcun da əsasən müharibə xərcləri ilə bağlı olduğunu qeyd edirdi. (136).

1618-ci il may ayının sonlarında M.Baryatinskinin rəhbərlik etdiyi elçilik heyəti Moskvanı tərk etdi və Həştərxan istiqamətində yola çıxdı. Bu heyətin Həştərxan şəhərinə yetişməsi həmin ilin iyul ayının əvvəllərinə təsadüf edir. Elçilik heyəti təxminən üç həftə Həştərxanda qalmalı oldu. Çox güman ki, bu gecikmə səfər gəmilərinin hazırlanması ilə bağlı idi. Burada qərara alındı ki, heyət dəniz yolu ilə səfərə başlasın və Niyazabad limanında quruya çıxsın. Bundan sonra heyət Şamaxıdan keçməklə Səfəvi paytaxtına doğru hərəkətini davam etdirməli idi. Avqust ayının 17-18-də heyət üzvləri bir gün fərqlə Niyazabadda quruya çıxdılar.

Burada da bir neçə gün ləngiyəndən sonra elçilik heyəti Şamaxıya doğru hərəkətə başladı. Şirvan hakimi Yusif xan artıq belə bir heyətin gəlməsi və qarşılanması haqqında Səfəvi sarayından lazımi göstəriş almışdı. Onun tərəfindən göndərilən nümayəndələr Rusiya elçilik heyətini hələ Şamaxıya çatmamış qarşıladılar. Şamaxı şəhərin bir verst məsafə qalanda isə elçilik heyətinin təntənəli qarşılanmasına bir min nəfərlik atlı dəstəsi və 2 min nəfərlik piyada silahlı dəstə çıxarıldı.Şəhər kənarında elçilik heyətini Şirvan əmirlərindən biri qarşıladı və qonaqları Yusif xanın əmrinə uyğun olaraq vilayət iqamətgahının yerləşdiyi bağdakı binaların birinə apardı. Şamaxıda qalmalarına baxmayaraq M.Baryatinski vilayət hakimi Yusif xanla görüşməkdən imtina etdi. O bildirdi ki, bununla bağlı ona Rusiya sarayından ciddi tapşırıq verilib və Şah Abbasla görüşdən əvvəl heç bir yerli hakimlə görüşə bilməz. Sentyabr ayının 14-də Rusiya elçilik heyətinin Ərdəbilə doğru hərəkətə başlaması haqqında şah sarayından icazə gəldi. Bu icazədən sonra elçilik heyəti yol hazırlıqlarına başladı və bir də həmin ayın 25-də Ərdəbilə doğru yola düşdü. Ərdəbildən sonra elçilik heyəti Qəzvin istiqamətində hərəkəti davam etdirdi. Bu heyətin Şah Abbas tərəfindən qəbulu da Qəzvin şəhərində gözlənilirdi. Rus mənbələrindəki məlumata görə, Rusiya elçilik heyəti Ərdəbilin və Qəzvinin girəcəyində heyət üzvlərinin ümid etdikləri təntənə ilə qarşılanmadı. Bununla belə, Rusiya elçilik heyəti 1618-ci il noyabr ayının 2-də Qəzvin şəhərinə yetişdi. Ayın 3-də isə heyət üzvlərinə xəbər verildi ki, bir gün sonra, yəni noyabr ayının 4-də (bəzi məlumatlara görə noyabrın 14-də) Şah Abbas tərəfindən qəbul olunacaqlar. Rusiya elçilik heyəti üzvləri belə bir tələsgənliyə görə öz narazılığını bildirdi. Onlar xahiş etdilər ki, qəbula yaxşı hazırlaşmaları üçün onlara vaxt verilsin. Şah sarayının xidmətçiləri bildirdilər ki, Şah Abbas qışı keçirmək üçün Fərəhabada yollanacaqdır. Ona görə də, Rusiya elçiliyinin şah tərəfindən qəbul edilməsi uzun müddətə təxirə salına bilər. Rusiya elçilərinin başqa bir narazılığı isə onlarla birlikdə hind elçilərinin də şahın qəbulunda olmaları xəbəri idi. M.Baryatinski birmənalı şəkildə hind

elçiləri ilə birlikdə Şah Abbasın qəbuluna yollanmaqdan imtina etdi. Onun bu təkidindən sonra məsələ Şah Abbasa ərz olundu və Şah Abbas da Rusiya elçilik heyətini ayrılıqda qəbul etməyə hazır olduğunu bildirdi. Bundan sonra Rusiya elçiləri Şah Abbasın qəbuluna yollanmağa razılıq verdilər (137).

Rusiya elçilik heyətinin sonradan təqdim etdiyi hesabat sənədlərindəki məlumata görə, Şah Abbas qəbul salonunun ortasında xalça üzərində oturmuşdu. Onun sağ və solunda isə saray əyanları və əmirləri yer tutmuşdular. M.Baryatinski salona daxil olanda onu müşayiət edənlərdən şahın ətrafında oturanların kim olduğunu soruşdu və bununla əmin oldu ki, şahın yanında hind elçiliyinin üzvləri yoxdur. Rusiya elçisi özünü təqdim edəndən sonra çardan məktub gətirdiyini bəyan etdi. Mövcud olan məlumata görə, M.Baryatinski təqdimat nitqində Rusiya çarının hakim olduğu ərazilərin adlarının sadalanmasına xeyli vaxt sərf etdi. Sonra da çarın məktubu Şah Abbasa təqdim olundu. Bildirilir ki, Şah Abbas dizi üstə qalxaraq məktubu qəbul etdi və sonra da Rusiya çarının hal-əhvalı haqqında sual etdi. Qısa protokol söhbətləşməsindən sonra M.Baryatinski nitq söyləməyə başladı. Bu nitq xeyli uzun çəkdi və ona verilmiş təlimata əsasən çar sarayının marağında olduğu məsələlər Şah Abbasın nəzərinə çatdırıldı. Rusiya elçisi gəlişinin məqsədini və Rusiya çarının bütün tapşırıqlarını Şah Abbasa çatdırdı. Şah Abbas da səbirlə Rusiya elçisinin nitqini dinlədi. Nitq başa çatandan sonra Şah Abbas qonaqlara sağ tərəfdə yer göstərdi və əmr etdi ki, məclisə şərab gətirilsin. Şah Abbas həm özü şərab içdi, həm də qonaqlara təklif etdi. Elə süfrə arxasında Şah Abbas Rusiya çarının göndərdiyi məktubu açdı və onu diqqətlə nəzərdən keçirdikdən sonra saray əyanlarından birinə ötürdü (138).

M.Baryatinski ilə geniş söhbətə başlamazdan əvvəl Şah Abbas hind elçilərinin gəlişinə icazə verdi. M.Baryatinski və Rusiya elçilərinin digər üzvləri hind elçilərinin qəbulunda olmaq istəməsələr də, məcbur olub bu mərasimi izləməli oldular. Hind elçisi yaxınlaşandan sonra Şah Abbasın ayağını öpdü və gətirdiyi mək-

tubu təqdim etdi. Şah Abbas Rusiya elçisinə təklif etdi ki, hind padşahının göndərdiyi hədiyyələri birlikdə seyr etsinlər. Hind padşahının göndərdiyi hədiyyələrə altı baş fil, camışlar, atlar daxil idi. Gətirilən hədiyyələr arasında müxtəlif dillərdə söz deməyi bacaran quşlar da var idi. Başqa hədiyyələr də qonaqlar tərəfindən Şah Abbasa təqdim olundu. Hədiyyələrin təqdim edilməsindən sonra hind elçiləri oradan uzaqlaşmalı oldular. Sonra isə Şah Abbas Rusiya elçisi ilə söhbətə başladı. Səfəvi şahı əvvəlcə Osmanlı dövləti ilə apardığı müharibə, Gürcüstan üzərinə yürüş haqqında məlumatları Rusiya elçisi ilə bölüşdü. Ardınca da Səfəvi-Rusiya münasibətləri haqqında fikirlər ortaya qoyuldu. Şah Abbas bu münasibətlərin tarixini xatırlatmaqla qarşılıqlı əlaqələrin daha yüksək səviyyəsinə qaldırılmasına tərəfdar olduğunu bəyan etdi. Şah Abbasla Rusiya elçilik heyətinin üzvləri arasında söhbət xeyli uzandı. Qonaqlara səhərə yaxın məclisi tərk etmək icazəsi verildi və Şah Abbas vəd etdi ki, daha sakit şəraitdə yenidən söhbətlərini davam etdirə biləcəklər (139).

İlk qəbulda Şah Abbas borc pul verilməsi haqqında Rusiya elçilərinə hər hansı bir fikir bildirmədi. İsgəndər bəy Münşi öz əsərində Rusiya elçilik heyətinin Qəzvində qarşılanmasını belə təsvir edirdi: "Həmçinin bu il o uca sülalənin (Romanovlar sülaləsinin) əmir və knyazlarından (kənnas) ibarət böyük bir elçi heyəti Xəzər dəryası və çöllərdən keçərək Şirvanın Dərbəndinə gəldi və hümayun şah məiyyətinin ardınca Ərdəbildən [çıxıb] Qəzvin darüssəltənəsinə çatdı. O elçi də, Səadət meydanında şahla görüş səadətinə yetişdi və mütərcim vasitəsilə padşah tərəfindən özlərinin ehtiyac (niyazməndi) xahişini və möhkəm birlik (ettehad) istəyini ərz edərək türk dilində yazılmış uzun bir məktubu şaha təqdim etdi, məktubun sədaqət məktubu olduğunu bildirdi və knyaz şahanə iltifatla sərbüləndoldu. Hindistan hökmdarının hədiyyələri şahın nəzərinə yetirilən həmin gündə Rus və Moskva (Məska) padşahının töhfə və hədiyyələri də şahın nəzərindən keçirildi. O hədiyyələr Rus məmləkətindən başqa heç bir ölkədə olmayan ənqa quşu ovlayan bir neçə şahindən ibarət idi" (140).

Bəzi mənbələrdə və elmi-tarixi ədəbiyyatda isə M. Baryatinskinin rəhbərlik etdiyi elçilik heyətinin noyabr ayının 14-də Şah Abbas tərəfindən qəbul edildiyi bildirilir. İtaliyalı səyyah Pyetro Delavalle bu barədə öz yol qeydlərində belə yazırdı: "Seşənbə günü, noyabr ayının 13-də elçi, daha doğrusu əvvəlcədən Ərdəbilə getmiş olan Moskva elçiləri və dediyimiz kimi xəstəlikləri üzündən şahla görüşə bilməmişdilər, Qəzvinə gəldilər. Adəti üzrə gecə hər yer çıraqban idi. Lakin bu elçilər mərasimdə iştirak etmədilər. Çaharşənbə günü axşama yaxın şah ilk dəfə Moskva elçisini şəhər meydanında öz hüzuruna qəbul etdi və onun gətirdiyi hədiyyələri nümayişə qoydu. Həmin gün hind elçisinin hədiyyələrini də onun qarşısından keçirdilər. Çünki həmin günə qədər şah onları görməmişdi. Ola bilsin ki, şah onları həm də Moskva elçisinin nəzərinə çatdırmaq istəyirdi. Meydanın bütün ətrafı ağacla bağlanmışdı ki, kimsə piyada və ya at belində meydana daxil ola bilməsin. Yalnız yüksək vəzifə və məqama malik olanlar istisna idi. Nahardan sonra hind elçisinin hədiyyələrini ora gətirdilər və onları nizamla meydanın bir kənarında yerləşdirdilər. Moskva elçisinin hədiyyələri də həmin qayda ilə meydana gətirildi. Onların 150 nəfərdən ibarət olan elçilik heyəti də bu hədiyyələrin ardınca meydana gəldilər. Moskva elçiləri iki nəfər idilər. Onların qaydası belədir. Onlardan biri əsil-nəcabətinə görə daha yüksək məqama malik idi və knyaz adlanırdı. Digər elçi də nəcib ailələrdən idi və məqamı nisbətən daha aşağıdır. Bu iki nəfər elçidən başqa bir nəfər imperator münşisi də bu heyətin tərkibində idi. Bu münşi elçilərlə eyni geyimdə idi və onlarla bir sırada at sürürdü. Yaddan çıxmamış qeyd edim ki, elçinin adı knyaz İvan Baryatinski idi. İkinci elçinin adı İvan İvanoviç idi. Münşinin adını isə bilmirəm [burada söhbət Mixayil Petroviç Baryatinskidən və İvan İvanoviç Çiçerindən və münşi Mixayil Tyuxindən gedir –M.S.]. Mənim fikrimcə bu elçilərin və onların həmkarlarının geyimi xoşagəlməz və zəriflikdən uzaq idi. Belə ki, onların geyimi çox uzun, geniş, qırçınlı, kəmər nahiyəsində isə enli şal bağlanmışdı. Sinə hissəsinə dəsmal bağlanmışdı və o da paltarın bir hissəsinin üstünü örtürdü.

Başlarına dəridən papaq qoymuşdular və onun kənarlarını elə qatlamışdıar ki, papağın ucu görünmürdü. Mən ömrümdə heç vaxt belə əcaib papaq görməmişdim. Hər iki elçinin və münşinin paltarı eyni cür idi. Hər üçü qırmızı rəngli ipəkdən uzun üst geyiminə malik idilər. Onların dəri papaqları isə ölkələrindəki qaydaya əsasən çoxlu sayda mirvarilərlə bəzədilmişdi. Heyətin digər üzvləri bənövşəyi rəngli pambıq parçadan üst geyiminə malik idilər. Məqamı aşağı olanlar isə ağ və ya digər rənglərdə paltar geyinmişdilər. Bu adaların hamısının dərisi ağ rəngdə, sifətləri isə şərab içdikləri üçün qırmızı rəngdə, başlarının və saqqallarının rəngi isə tünd idi. Saqqalları çox uzun idi. Deyirlər ki, onlar təmiz deyildirlər və hətta yağlı əllərini geyimlərinin ətəkləri ilə silirlər. Hətta geyimləri bahalı və zərli olsa belə. Bu xalq əxlaq cəhətdən məğrur, hirsli, etiqadsız olmaqla başqa xalqlara nisbətən katolik kilsəsinin düşmənidir. Mən bu sözləri eşitməyimə baxmayaraq, katolik məzhəbinin nümayəndəsi olmayan bütün xarici elçilərlə görüşürəm. Amma özümdə bələləri ilə görüş üçün bir rəğbət tapa bilmirəm. Moskva elçiləri meydanın ağac əhatəsinə yetişəndə hamılıqla atdan yerə düşdülər. Yalnız baş elçi istisna olaraq at belində meydana daxil oldu. O da meydanın ağac əhatəsindən dörd addım içəri gələndən sonra atdan yerə endi və hədiyyələrin yerləşdirildiyi meydan kənarına yollandı. Mehmandar onu uyğun yerdə yerləşdirdi və sonra da şahın gəlişinə hazırlıq görməyə başladı. Bir qədər sonra çiyin-çiyinə at sürən şahla hind elçisi meydana gəldilər. Onların ardınca bahalı ipək və zərli parçalardan geyimləri və qiymətli daşlarla bəzədilmiş əmmamələri olan yüksək məqamlı adamlar hərəkət edirdilər. Qeyd etmək lazımdır ki, onlar bu əmmaməni yalnız mühüm protokol mərasimlərində başlarına qoyurlar. Şah öz adəti üzrə çox sadə, zər-zibasıs paltar geyinmişdi. Şah və hind elçisi at belində şahın həmişəki gəzinti yeri olan Əlipaşa evinin qapısı qarşısında atdan yerə endilər. Digərləri də piyada olaraq meydana daxil oldular. Onların hər biri öz məqamlarına uyğun olan yeri tutdular. Mən də xəstə olduğum üçün kənarda at belində qərar tutdum ki, hədiyyələr nümayiş etdiriləndə onları

görə bilim. Sonra da tez evə qayıdım. Şah meydana daxil olub at belindən düşəndə mehmandar dərhal Moskva elçilərinə tərəf getdi və onları şahın yanına apardı. Böyük elçi imperatorun məktubunu təqdim etdi. Şah məktubu aldı və adəti üzrə nəzakətli sözlər dedi. Uzaq olduğum üçün onun dediklərini eşitmədim. Sonra şah o üç nəfər, yəni iki elçi və imperator münşisi, habelə hind elçisi ilə Əlipaşa evinə daxil oldular. Onların hamısı evin meydana açılan eyvanında əyləşdilər. Bütün günü və gecəni onlar orada şərab içdilər. Qalan adamlar isə meydanda gəzişirdilər. Şah eyvanın kənarına gələndə hədiyyələrin nümayişinə başlandı. Onları əvvəlcə şahın qarşısından keçirdilər. Sonra da həmin meydanın dövrəsi boyunca nümayiş etdirildi. Hind elçisinin hədiyyələri rus elçisinin hədiyyələrindən qabaq şahın qarşısından keçirildi. Bu hədiyyələri 29 baş yüklənmiş dəvələrdən ibarət idi. Güman edirəm ki, həmin yüklər hind istehsalı olan parçalardan ibarət idi. ...Hind elçisinin hədiyyələrinin nümayişi başa çatandan sonra Moskva elçilərinin hədiyyələrinin nümayişinə başlandı. Əvvəlcə dörd müxtəlif heyvana məxsus olan xəz dərilər toplusu nümayiş etdirildi. Sonra müxtəlif heyvanların dişləri meydana gətirildi. Anlamadım ki, onlar balıq dişidir, yoxsa başqa heyvanların dişidir. Sonra da böyük çıraqlar və fənərlər göstərildi. ... Moskva elçiləri Qəzvində qaldılar ki, qışı orada keçirsinlər. Mehmandar da onlarla birlikdə həmin şəhərdə qaldı”(141).

Rusiyadan gətirilən hədiyyələr arasında spirtli içki olan araq da var idi. Bu arağın miqdarı o qədər çox idi ki, hətta Şah Abbasın narazılığı ilə qarşılandı. Şah Abbasa görə, ruslar onu arağa çox aludə olan bir insan kimi tanıyıblarmış. Ona görə Şah Abbas arağın böyük hissəsində imtina etdi və onu geri qaytardı və elçik heyətinə də xəbər göndərdi ki, ruslar arağı çox xoşladığı üçün elçilik heyətinin ona daha çox ehtiyacı ola bilərdi. Şah Abbas təklif etdi ki, arağın geri göndərilən hissəsini elçi qəbul etsin və Səfəvi dövləti ərazisində qaldıqları zaman ərzində elçilik heyətinin istifadəsinə verilsin. Arağın az hissəsi isə şah sarayında saxlanıldı (142).

Rusiya elçisi tərəfindən qaldırılan təkliflər haqqında da Şah Abbas konkret bir cavab ortaya qoymadı və çar tərəfindən göndərilən məktuba aydın bir cavab bildirilmədən elçilik heyəti ilə görüş də başa çatdı. Rus mənbələrindəki məlumata görə isə, Şah Abbas elçiyə qardaşı Rusiya çarının xahişinə əməl edəcəyini bəyan etdi. Lakin sonradan bu istiqamətdə əməli addımlar atılmadı. Bütünlükdə, rus mənbələrindəki məlumatlara görə, M.Baryatinskinin elçilik heyəti ilə Şah Abbas arasında bir gərginlik duyulmaqda idi və bu gərginlik də son nəhayətdə elçilik heyətinin səfərinin nəticələrinə öz təsirini göstərdi.

Yenə rus mənbələrindəki məlumata görə, elçilik heyətinin qəbulundan iki gün sonra Şah Abbas həmin heyətin münşisi Mixayil Tyuxini yanına gətizdirdi və onunla söhbət etdi. Tyuxinin Şah Abbas tərəfindən yanına çağırılması haqqında Səfəvi mənbələrində və eləcə də farsdilli elmi-tarixi ədəbiyyatda hər hansı bir məlumatla rastlaşmaq çətindir. Bu barədə rus mənbələr xəbər verirlər. Bildirilir ki, Şah Abbas bir neçə dəfə İvan Çiçerini, habelə Mixayil Tyuxini yanına çağırdı. Şah Abbasın nə üçün böyük elçini deyil, onun köməkçilərini yanına çağırması və onlarla söhbət etməsi haqqında da bir məlumat hələlik ortada deyil. Rus tədqiqatçıları, xüsusilə, Tyuxinin şah yanına çağırılmasına diqqəti qabardırlar. Mənbələrdə və elmi-tədqiqat ədəbiyyatında olan məlumata görə, Şah Abbas Tyuxinlə çox sərt danışdı və onun bu sərtliyi Səfəvi elçilərinə Rusiya ərazisində yetərli hörmət qoyulmaması ilə bağlı idi. Şah Abbas Tyuxinə sərt şəkildə bildirdi ki, onun bütün sözlərini olduğu kimi Rusiya çarına çatdırsın. Şahın sözləri isə bundan ibarət oldu ki, Rusiya çarının xahişini yerinə yetirəcəkdir. Lakin Səfəvi elçilərinə Rusiya ərazisində əziyyət verilməsinə, Moskva, Kazan və Həştərxan şəhərlərində onların nəzarət altında saxlanmasına və heç nə almasına icazə verilməməsinə görə çox narazıdır. Şah Abbas onu da bildirirdi ki, Rusiya elçisi ilə artıq onun işi yoxdur və daha Qəzvində qalmayıb Fərəhabada yollanacaqdır (143). Yəni bununla Şah Abbas Rusiya elçiliyi ilə işinin bitdiyini bəyan edirdi.

Rus mənbələrində olan məlumata görə, şah xidmətçilərindən olan Hüseyn bəy adlı birisi Tyuxinin ardınca gələndə böyük elçi və onun köməkçisi buna etiraz etdilər. Onlar bildirdilər ki, şah istədiyini edə bilər. Lakin onların hər üçünün şah qəbuluna getməsi doğru olardı. Hüseyn bəy elçilərin dediyini Şah Abbasa çatdırmaq istəyi ilə geri qayıtdı. Lakin yolda şah tərəfindən göndərilmiş silahlıların yaxınlaşdığını gördü. Həmin silahlılar zorla Tyuxini Şah Abbas yanına aparmaq tapşırığı almışdılar. Hüseyn bəy də məcbur olub geri qayıtdı və M. Tyuxini aparmalı olduğunu bildirdi. Rusiya elçiləri təkid göstərmək istəsələr də bunun bir nəticəsi olmadı. Hüseyn bəyin müşayiəti ilə M. Tyuxin və tərcüməçi Milyuta şah iqamətgahına yollandılar. Mənbə məlumatlarından aydın olur ki, Şah Abbas Rusiya elçilərini heç elçi sifətində görmək istəmirmiş və onları sadəcə Səfəvi dövlətinin qonaqları kimi qəbul etdiyini bildirirdi. Şahın sözlərinə görə, Səfəvi elçiləri də Rusiya ərazisində elçi kimi deyil, daha çox qonaq sifətində qəbul edilmişdi. M.Tyuxin Rusiya çarının Səfəvi dövləti ilə münasibətlərin möhkəmləndirilməsinə xüsusi həssaslıqla yanaşdığını, iki tərəfli münasibətlərin yaxşılaşdırılması üçün Rusiya çarından tapşırıqlar aldığını əsaslandırmağa çalışsa da, Şah Abbas öz fikrindən dönmədi. Amma eyni zamanda onu da əlavə etdi ki, Rusiya çarı ilə dostluq əlaqələrinin möhkəmləndirilməsinə tərəfdar olmaqla, onun xahişlərinə də müsbət cavab verəcəkdir. Səfəvi elçilərinə münasibətlə bağlı Şah Abbas öz dediklərində qaldı. M.Tyuxin isə Qaya sutanın və Polad bəyin şəxsində Səfəvi elçilərinin çox yüksək səviyyədə qarşılandığını və onlara qarşı hər hansı bir hörmətsizliyin edilmədiyini bildirdi. M.Tyuxinin söylədikləri də Şah Abbaı öz fikrindən döndərmədi. O, hətta Rusiya çarı tərəfindən ona hörmət qoyulmamasını da dilə gətirdi. Yəni Səfəvi elçilərinə və tacirlərinə Rusiya ərazisində göstərilən hörmətsizlikləri Şah Abbas özünə qarşı göstərilmiş hörmətsizlik kimi qəbul etdiyini bildirdi. Onun sözlərindən belə məlum oldu ki, Həştərxanda, Kazanda Səfəvi tacirlərinin fəaliyyəti üçün lazımi sərbəstlik yaradılmamış və hətta onlar müəyyən təzyiqlər altına alınmışdı. Bununla bağlı,

Şah Abbas konkret faktlar da açıqlayırdı. Məsələn, Səfəvi tacirlərindən biri Rusiya ərazisində şah üçün qırğı alıb gətirmək istəyirmiş. Həştərxanda həmin qırğı tacirin əlindən alınmış, bu qırğını satmış tatar isə həbs edilmişdi. Rusiya çarı tərəfindən göndərilmiş olan ov quşlarını isə Şah Abbas qəbul etməyəcəyini bildirirdi. O qeyd edirdi ki, həmin quşların lələklərini yondurub azad buraxacaqdır. Səfəvi tacirlərinə qarşı Rusiya ərazisində yüksək gömrük tətbiq edilməsindən də narazılıq var idi. Şah Abbasın M. Tyuxinlə söhbəti xeyli uzun çəkdi və bu zaman da Səfəvi dövlətinin nümayəndələrinə qarşı hörmətsizlik göstərildiyi rus elçisinin diqqətinə çatdırıldı. Bununla belə, Şah Abbas Rusiya çarı ilə dostluq münasibətlərinin saxlanmasına və inkişaf etdirilməsinə tərəfdar olduğunu və bunun üçün çalışacağını da bildirirdi (144).

Görünür ki, Şah Abbasın Rusiya sarayına qarşı olan narazılığı çox ciddi idi. Çünki Rusiya elçilik heyətinin Səfəvi dövləti ərazisində qaldığı sonrakı dövr ərzində onun üzvləri ilə olan gərginlik qalmaqda davam edirdi. M.Tyuxinlə söhbətdən sonra Şah Abbas qışı keçirmək üçün Fərəhabada yollandı və bildirdi ki, Fərəhabada yetişəndən sonra Rusiya elçiliyinin geri qayıtmasına icazə verəcəkdir. Eyni zamanda Rusiya elçiliyinin iki ay ərzində Səfəvi dövləti ərazisində keçinməsi üçün müəyyən miqdar pul, ərzaq və şərab ayrıldı. Rus mənbələrindəki məlumata görə, bu pul xeyli az idi və ona görə də elçilik heyəti puldan və şərabdan imtina etdi. Bunun üçün bir bəhanə də tapıldı. Lakin elçilik heyətinin üzvlərinə diqqətinə çatdırıldı ki, onların şah tərəfindən ayrılmış vəsait və şərabdan imtina edilməsi şahın daha böyük qəzəbi ilə qarşılaşa bilər. Elçilik üzvləri bununla razılaşmalı olsalar da, onlar tezliklə daha bir çətinliklə qarşılaşdılar. Belə ki, 1618-ci ilin sonlarına böyük elçi M. Baryatinski dünyasını dəyişdi və vəsiyyət də etdi ki, onun cənazəsini Rusiya ərazisinə aparsınlar (145).

Rus elmi-tarixi ədəbiyyatında M.Baryatinskinin dünyasını dəyişməsi səbəbi Səfəvi ərazisində keçirdiyi əsəb və gərginliklərlə bağlanılır. Böyük elçinin ölümündən sonra elçiliyin rəhbərliyi vəzifəsini İ.Çiçerin öz üzərinə götürdü. Elə 1618-ci ilin sonlarından

başlayaraq Rusiya elçilik heyətinin üzvləri geri qayıtmaq üçün icazə alınması üzərində işləməyə başladılar. Elçilik üzvlərinin xahişi ilə bir-birinin ardınca fərqli tarixlərdə Fərəhabada adamlar göndərildi ki, qonaqların geri qayıtması üçün Şah Abbasdan icazə alınsın. Lakin tezliklə belə bir icazə alınması mümkün olmadı. 1619-cu il may ayının sonlarında elçilik heyətinə çatdırıldı ki, Şah Abbas Fərəhabaddan İsfahana yollanır və Rusiya elçilik heyətini orada son dəfə qəbul etmək istəyir. Belə olanda elçilik heyəti də İsfahana yollandı. Təxminən iyun ayının ortalarında İ.Çiçerin və M.Tyuxin İsfahanda Şah Abbas tərəfindən qəbul edildilər. Əvvəlki qəbullar zamanı olan gərginlik bu qəbul zamanı da özünü göstərdi. Şah Abbas bir daha Səfəvi elçilərinin və tacirlərinin Rusiya ərazisində hörmətsizcəsinə qarşılanmasını elçilərin nəzərinə çatdırdı. Bununla belə, Şah Abbas yenə də Rusiya çarı ilə möhkəm dostluq əlaqələrinin saxlanmasına tərəfdar olduğunu bildirdi. Rusiya elçiləri Şah Abbasın bu vədindən həvəslənərək borc pul verilməsi məsələsinə toxundular. Mənbə məlumatlarından bəlli olur ki, Rusiya elçiləri təkrar olaraq bir daha bu məsələni qaldırdılar. Lakin Şah Abbas Rusiyaya borc verilməsi ilə bağlı aydın və konkret cavab vermədi. Bununla da, Rusiya elçiliyinin səfəri nəticəsiz tamamlandı. Doğrudur, Rusiya elçiliyinə dərhal geri qayıtmaq icazəsi verilmədi. Məlumdur ki, elçilik heyəti bir müddət də İsfahanda ləngiməli oldu. Bu heyətin üzvləri İsfahanda olduqları vaxt üç dəfə Şah Abbas tərəfindən kütləvi şənliklərin keçirilməsində iştirak etməyə dəvət olundu. İsfahanın Şah meydanında keçirilən belə mərasimlərin birində qonaqlar Şah Abbası dükanların birinin qarşısında əyləşərək yemək yediyinin şahidi oldular. Şah Abbas rus elçilərini də yanına dəvət etdi və onlarla birlikdə Rusiya çarının sağlığına badə qaldırdı. Rusiya elçilik heyəti İsfahan şəhərini bir də 1619-cu il avqust ayının 24-də tərk etdi (146).

Rusiya elçilik heyəti geri qayıdanda Səfəvi dövləti adından Polad bəyin rəhbərliyi altında olan heyət də yola salındı. Bu heyət Rusiya elçilik heyəti ilə birlikdə Moskvaya yollanmalı idi. Polad bəyin heyətinin tərkibinə 26 nəfər daxil idi. Rus mənbələrindəki

məlumata görə, elçilik heyəti geri qayıdanda artıq Rusiya sarayında məlumat var idi ki, Səfəvi dövləti tərəfindən borc pul verilməmişdir. Bununla belə, Rusiya daxilində Polad bəy heyətinin hər hansı bir çətinliklə qarşılaşmadığı bildirilirdi. Bu heyət kifayət qədər ləng hərəkət edirdi və məlumdur ki, 1620-ci il iyul ayının 30-da Həştərxandan Moskvaya doğru hərəkətə başladı. Polad bəy Rusiya sarayında qəbul edildi və ona tapşırılan məsələlər haqqında burada müzakirələr apardı. O, əvvəlcə sarayın yüksək vəzifəli əyanları tərəfindən qəbul edildi və Şah Abbas tərəfindən qaldırılmış olan məsələlər Rusiya bu qəbulda səsləndirldi. Rusiya sarayında bu məsələlər diqqətlə dinlənildi və onların bir çoxu haqqında əvvəllər hər hansı bir şikayət alınmadığı bildirildi. Görüş zamanı Rusiya elçilik heyətinin Səfəvi dövləti ərazisində qarşılaşdığı çətinliklər haqqında isə Polad bəyə şikayətlər çatdırıldı. Polad bəy özü ilə Şah Abbasın Rusiya çarına məktubunu da gətirmişdi. 1621-ci il mart ayının 21-də Rusiya çarı Polad bəyi və onun heyət üzvlərini qəbul etdi. Qəbul zamanı Şah Abbasın salamları və məktubu Rusiya çarına təqdim olundu. İstər çar ilə söhbətdə, istərsə də Şah Abbasın məktubunda bir daha iki dövlət arasında münasibətlərin möhkəmləndirilməsinə dəstək ifadə olunurdu (147).

Qarşılıqlı narazılıqların olmasına baxmayaraq Polad bəyin elçiliyinin ardınca 1621-ci ildə Səfəvi dövlətinə Rusiyanın yeni bir elçilik heyəti göndərildi. Həmin elçilik heyətinə V.Korobin və A.Kuvşinov rəhbərlik edirdilər. Bu heyətin Səfəvi dövləti 1621-1624-cü illər arasında davam etdi. Rus mənbələrində olan müxtəsər məlumata görə, bu elçilik heyəti Şah Abbas tərəfindən daha mehribanlıqla qarşılandı və əvvəlki elçiliklə qəbul zamanı səsləndirilən narazılıqlar özünü göstərmədi (148). Lakin istər Polad bəyin Moskvaya səfəri, istərsə də V.Korobinlə A.Kuvşinovun Səfəvi dövlətinə səfəri nəzərəçarpacaq nəticələr vermədi.

Mövcud olan məlumatlara görə, iki dövlət arasında elçilik heyətlərinin son mübadiləsi 1626-cı ildə baş tutdu. Bu barədə İsgəndər bəy Münşinin əsərində müxtəsər məlumat vardır: “O zaman Qəzvində olan urus padşahının elçiləri, həmçinin Bəlx vali-

sinin elçisi Nədr Məhəmməd xan Özbək sədaqət və dostluq qayda-qanununun tənzimlənməsindən ötrü ali saraya gəlib şahla görüşmək səadəti ilə şərəfləndilər, gətirdikləri məktub, töhfə və hədiyyələri təqdim edib izzət və ehtiramla geri qayıtdılar" (149).

Rusiyanın bu elçilik heyətinin kim olması və hansı məqsədlə Şah Abbasın qəbuluna gəlməsi haqqında İsgəndər bəy Münşi əlavə məlumat verməmişdir. .

2.Səfəvi-hind münasibətləri

Hind hakimləri ilə Səfəvi dövlət arasındakı diplomatik münasibətlər hələ I Şah İsmayılın hakimiyyəti illərində başlamışdı. Şah Abbasın hakimiyyəti dövründə Hindistanda hökmdarlıq edən Kürəkani (Gurgani) sülaləsi mənşəcə türk-müsəlman sülaləsi idi. Bu sülalənin banilərindən olan Zəhirəddin Məhəmməd Babur öz hünəri və tədbirliliyi ilə Hindistanın böyük bir ərazisini ələ keçirərək 1526-cı ildə Moğol imperatorluğunun əsasını qoydu (150). Zəhirəddin Məhəmməd Baburun Şah İsmayıl ilə yaxşı münasibətləri var idi və bölgədə cərəyan edən hadisələrdən daha yaxşı faydalanmaq üçün bu münasibətlərin inkişafına çalışırdı. Şah Təhmasibin hakimiyyəti illərində bu müansibətlər bir qədər də möhkəmləndi. Xüsusilə, bölgədə özbək hakimlərinə qarşı mübarizənin səmərəliliyinə nail olmaq üçün hind hakimi ilə Şah Təhmasib arasında müəyyən anlaşmalar mövcud idi. Qarşılıqlı münasibətlərin daha da yaxşılaşmasına nail olmaq üçün Zəhirəddin Babur öz hakimiyyətinin ilk illərində Xacəgi Əsəd adlı birisninin rəhbərliyi altında olan elçilik heyətini Səfəvi sarayına göndərdi. Bu elçilik heyəti həm Şah İsmayılın dünyasını dəyişməsi ilə bağlı hind şahının başsağlığını, həm də Şah Təhmasibin hakimiyyətə başlaması ilə bağlı təbriklərini Səfəvi şahına çatdırmalı idi. Bu elçilik heyəti Şah Təhmasib tərəfindən mehribanlıqla qarşılandı və o da Süleyman ağa adlı birisinin rəhbərliyi altında öz elçilik heyətini Zəhirəddin Baburun sarayına göndərdi (151).

1530-cu ilin sonlarında Zəhirəddin Baburun dünyasını dəyişməsindən sonra onun böyük oğlu Məhəmməd Hümayun taxta çıxdı. Lakin Məhəmməd Hümayun xan heç də kifayət qədər iradəli bir padşah deyildi. Onun hakimiyyəti illərində Səfəvi-Hindistan münasibətlərində müəyyən gərginliklər özünü göstərməyə başladı. Bu gərginliyin əsas səbəblərindən biri Qəndəhar şəhərinin hansı dövlətə mənsubluğu məsələsi idi. Şah Təhmasib hakimiyyətə başlayanda onun qardaşı Sam Mirzə Xorasan hakimi idi. Ağzıvar xan Şamlı isə onun lələsi təyin edilmişdi. Xorasan vilayətinin real hakimliyi də onun üzərində idi. Şah Təhmasibin şamlı tayfasına qarşı inamsız münasibəti Ağzıvar xanda öz gələcəyi üşün bir təşviş yaratmışdı. Bu təşvişin aradan qaldırılması üçün Ağzıvar xan o zaman Moğol hakimiyyəti altında olan Qəndəhar şəhərinə hücum edərək bu şəhəri ələ keçirmək niyyətinə düşdü. 1535-ci ildə Ağzıvar xan Qəndəhar üzərinə hücum çəkdi. Bu hücum Şah Təhmasiblə razılaşdırılmamışdı. Ağzıvar xan göstərdiyi bütün cəhdlərə baxmayaraq Qəndəharı ələ keçirmək mümkün olmadı və uğursuzluğa düçar olaraq geri qayıtmaq məcburiyyətində qaldı. Baxmayaraq ki, Şah Təhmasib Qəndəhar üzərinə hücumdan xəbərsiz idi, qızılbaş qoşunlarının bu şəhər ətrafında uğursuzluğa düçar olması onu heç də razı salmadı. O zaman Məhəmməd Hümayun şahın qardaşı Kamran Mirzə Qəndəhar hakimi idi və onun Səfəvi hüdudları yaxınlığında güclənməsi Şah Təhmasibin narahatçılıqlarına yol açırdı. Şah Təhmasib qoşun göndərərək Qəndəhar şəhərini ələ keçirdi və bu şəhəri Səfəvi dövlətinin tərkibinə qatdı. Bir müddət sonra Kamran Mirzə öz qoşun dəstəsi ilə Qəndəhar üzərinə hücum edərək yenidən bu şəhəri ələ keçirdi və bu şəhər 1545-ci ilə qədər Kamran Mirzənin nəzarəti altında qaldı. Bu da iki dövlət arasında gərginliyin artmasına yol açdı (152).

1539-cu ildə Benqal hakimi Şirxan Suri Əfqani böyük bir qoşun dəstəsi ilə Məhəmməd Hümayunun üzərinə qoşun çəkdi və onun üzərində qələbə qazandı. Hakimiyyətini itirmiş olan Məhəmməd Hümayun Səfəvi sarayına sığınmalı oldu və Şah Təhmasib də mövcud olan gərginliyə baxmayaraq onu öz himayəsinə

qəbul etdi. Şah Təhmasib onu sadəcə qəbul etmədi, həm də itirmiş olduğu hakimiyyətini geri qaytarmaq üçün lazımi tədbirlər həyata keçirməyə başladı. 1544-cü ildə Hümayun şah qızılbaş qoşun dəstəsi ilə öz hakimiyyətini bərpa etmək üçün Səfəvi sarayından ayrıldı. Göstərilən köməyin əvəzində Hümayun şah Qəndəhar şəhərini ələ keçirib Səfəvi dövlətinə təhvil verəcəyini vəd etmişdi. Lakin Hümayun şah bu vədinə əməl etmədi. O, Qəndəharı əvvəlcə qızılbaş Əmiri olan Budaq xana təhvil versə də, sonradan öz yaxın adamlarından birini Qəndəhar hakimi təyin etdi.

1556-cı ildə Məhəmməd Hümayun şah dünyasını dəyişdi və onun yerinə Cəlaləddin Məhəmməd Əkbər Gurganilər taxt-tacına sahibi oldu. Şah Təhmasib Osmanlı dövləti ilə sülh anlaşmasını əldə etdikdən sonra Qəndəhar məsələsinin həll edilməsinə daha böyük diqqət ayırmaq imkanı əldə etdi. Əkbər şah da Qəndəharı dinc yolla geri qaytarmaqdan imtina etdikdə Şah Təhmasib bu məsələnin güc yolu ilə həllinə qərar verdi. 1556-cı ildə qızılbaş qoşun dəstəsi Qəndəhar şəhərini ələ keçirə bilməsə də, 1557-ci ildə bu məsələ həll edildi və Qəndəhar şəhəri yenidən Səfəvi dövlətinin tərkibinə qatıldı. Şah Təhmasib qardaşı Bəhram Mirzəin oğlu Sultan Hüseyn Mirzəni bu şəhərin hakimi təyin etdi. Bu hadisədən sonra iki dövlət arasında bir neçə elçilik heyətinin mübadiləsi oldu. İsgəndər bəy Münşi Qəndəharın ələ keçirilməsindən sonra iki dövlət arasındakı münasibətlərə belə qiymət verirdi: " O gözəl etiqadlı padşahın vəfatından sonra əziz oğlu Cəlalləddin Məhəmməd Əkbər padşah sərvərlik taxtına əyləşdi. Cənnətməkan şah vəkilüs – səltənə Məsum bəy Səfəvinin oğlu Seyid bəyi layiqli töhfələrlə onun cülusunu təbrik etmək və hörmətli atasının başına gələn qəziyyəni öyrənmək məqsədi ilə Hindistana yolladı. O da həmişə onunla mehribanlıq etməkdəydi. Məhəmməd Əkbər padşahın səltənət və hökmranlığı Hindistanda bərqərar olandan sonra dostluq qapıları bağlandı, onların arasındakı yazışma və gediş-gəliş kəsildi" (153).

Şah Təhmasib çalışırdı ki, Qəndəharla bağlı iki dövlət arasındakı gərginliyi aradan qaldırsın. Səfəvi elçilik heyətləri Gurganilər

sarayında qarşılansa da, iki dövlət arasındakı gərginliyi zəiflətmək mümkün olmadı. Şah Təhmasibin göndərdiyi elçilik heyəti apardığı məktubla və çoxlu hədiyyələrlə Əkbər şahı öz fikrindən döndərə bilmədi və Əkbər şah Səfəvi sarayı ilə müəyyən məsafə saxlamağı lazım bildi. O hətta Şah Təhmasibin məktubuna cavab da yazmadı. 1564-cü ildə Şah Təhmasib yeni bir elçisini məktub və qiymətli hədiyyələrlə Əkbər şahın yanına göndərdi. Əkbər şah göndərilən elçini qəbul etsə də, iki saray arasındakı pərdəli münasibətə son qoyulmadı. Mövcud olan məlumatlara görə, bundan sonra Şah Təhmasib də iki dövlət arasında münasibətlərin bərpa edilməsi üçün əlavə bir cəhd göstərmədi və uzun müddət həmin münasibətlər dondurulmuş halda qaldı. Bunu İsgəndər bəy Münşi də təsdiq edirdi: "Həzrət cənnətməkan şahın başına gələn vaqiədən sonra İran məmləkətlərində cürbəcür hadisələr baş verdiyi üçün yaxşı dostlara xas olan ülfət, aşinalıq və dostanə hal-əhval tutma ənənəsi yerinə yetirilmədi, uzun müddət aralarında get-gəl yolu bağlandı" (154).

Şah Təhmasibin dünyasını dəyişməsindən sonra iki dövlət arasındakı qarşılıqlı münasibətlərdə bir fəallaşma hiss edilməyə başladı. Belə ki, II Şah İsmayılın taxta çıxmasından sonra Əkbər şah tərəfindən Səfəvi sarayına elçilik heyəti göndərildi. Bu elçilik heyəti Şah Təhmasiblə bağlı Əkbər şahın başsağlığını və II Şah İsmayıla isə taxta çıxması münasibətilə təbriklərini çatdırmalı idi. Əkbər şahın göndərdiyi elçilik heyəti kifayət qədər böyük bir dəstə olmaqla bərabər, özü ilə də çoxlu sayda qiymətli hədiyyələr gətirirdi. Lakin II Şah İsmayıl bu elçilik heyətini çox həvəssiz qarşıladı və sonrakı davranışı ilə də göstərdi ki, o, Əkbər şahla deyil daha çox ona müxalif olan birisi ilə münasibətlər qurmaqda maraqlıdır. Şah Məhəmməd Xudabəndə isə hakimiyyətə gələndən sonra bu münasibətlərə yenidən bir fəallıq gətirməyə çalışdı. Bu məqsədlə o, Yarəli adlı bir əyanın rəhbərliyi altında Əkbər şahın sarayına öz elçilik heyətini göndərdi. 1583-cü ildə Şah Məhəmməd Xudabəndə tərəfindən daha bir elçilik heyəti Əkbər şah sarayına yola salındı. Lakin bu elçilik heyətlərinin səfərləri də göz-

lənilən bir nəticəni vermədi və iki dövlət arasındakı münasibətlər öz sönüklüyündə qalmaqda davam etdi (155).

Şah Abbas hakimiyyətə gələndən sonra Moğol imperatorluğu ilə münasibətlərin yenidən canlandırılmasına cəhd göstərdi. Bunu həm dövlət maraqları, həm də konkret tarixi şərait tələb edirdi. Şah Abbas səltənət daxilindəki iğtişaşlara və separatçılığa qarşı mübarizə apardığı kimi, həm də özbək hücumlarının qarşısını almağa böyük vaxt və diqqət sərf etməli olurdu. O, çalışırdı ki, özbək təhlükəsinin bölgədən uzaqlaşdıırlması üçün Moğol şahları ilə ortaq maraq tapsın və bu maraq ətrafında yeni münasibətlər formalaşdırsın. Özbək təhlükəsinə qarşı Moğol imperatorluğunun dəstəyinə arxalanmaq Şah Abbas üçün böyük əhəmiyyət kəsb edirdi. Bu dəstəyə arxalanmaqla səltənətin şərq hüdudlarında özünü göstərən özbək təhlükəsini etibarlı şəkildə aradan qaldırmaq olardı.

Mövcud olan məlumatlara görə, Şah Abbas Moğol sarayı ilə etibarlı əlaqələrin qurulmasına nail olmaq üçün əvvəl Əkbər şahın oğlu, Moğol taxt-tacının varisi Şah Səlimlə (Cahangir) əlaqə yaratdı, ona məktub göndərdi. Elmi-tarixi dövriyyədə Şah Abbasın Şah Səlimə yazdığı məktubun mətni də mövcuddur. Həmin mətn belədir: "İndi bizim əhvalımızı niyə soruşmursunuz? Biz sizinlə dostluğa hazırıq. Sizdən bir xəbər gözləyirik. Bu dostluq iki dövlətin də qədimdə olduğu kimi əmin-amanlığa qovuşmasına səbəb olacaqdır. Qədimdən bizim sülaləmiz sizinkilərlə dostluq və əmin-amanlıq içində yaşayırdı. Sizi görməsəm də, sizə sevgim içimdədir. Bizim əlaqələrimiz qədimdən bəri davam etməkdədir. Bu əlaqələr Teymur dövründən bu yana gün keçdikcə inkişaf etməkdədir. Bəzən narahatlıq yaşanmışdır. Amma iki dövlət gördüyü tədbirlərlə bu məsələləri aradan qaldırmışdır. Hazırda biz Qərblə və Osmanlı sultanları ilə müqavilələr bağlayırıq. Qərb ilə İran (Səfəvi dövləti nəzərdə tutulur- M.S.) arasında ticarət və siyasi əlaqələr davam etmıkdədir. Bütün səylərimiz Hindistanla da belə bir müqavilə bağlamaqdır. Hazırda Qərb ölkələrinin tacirləri asanlıqla İrana gəlir və ticarət işlərini həyata keçirirlər. Biz bunun Hin-

distanla da etməyi arzu edirik. Mən öncə bir nümayəndə göndərmişdim. Ancaq istədiyimiz məqsədə nail ola bilmədik. Məqsədimiz iki ölkə arasında siyasi və ticarət əlaqələrini inkişaf etdirməkdir. Yenidən bir nümayəndə göndərirəm. Ümid edirəm ki, iki ölkə arasında siyasi və ticarət əlaqələri qədim dövrdəkindən daha yüksək olsun. Mən son illərdə Mavəraünnəhr hakimləri və Bəlx hakimlərinə qarşı mübarizə aparıram. Onlara nəsihətlər verdim. Ancaq gün keçdikcə qarətləri artırdılar. Hazırda onlar tərəfindən bir problem çıxacağını təxmin etmirəm. Bütün məqsədim sizin dövlətinizlə İran (Səfəvi dövləti nəzərdə tutulur- M.S.) arasında əlaqələrin inkişf etməsidir. Bu ana kimi sizin dövlətinizdən İrana (Səfəvi dövləti nəzərdə tutulur- M.S.) heç bir nümayəndə gəlməyib. Arzu edirəm ki, sizin də nümayəndəniz İrana gəlsin və əlaqələrimiz daha da inkişaf etsin. Mən öz nümayəndəmi göndərirəm və ümid edirəm ki, iki dövlətin inkişafı nümayəndələrimizin yerləşməsi ilə məqsədlərinə çatacaqdır. Sizin sağlıq, güc və səltənətinizin uğurla davam etməsini arzu edirəm" (156).

Şah Abbasın bu məktubuna aldığı cavabın mətni də elmi-tarixi dövriyyəyə çıxarılmışdır. Əkbər şahın oğlu Şah Səlim tərəfindən yazıldığı iddia olunan həmin cavabda deyilirdi: "Məktubunuzda dostluq və sevgidən bəhs edirsiniz. Biz də qarşılıqlı olaraq eyni duyğuları bölüşürük. Sevgi və ehtiramımızı çatdırırıq. Son 4-5 il ərzində bizim də fikrimiz və məqsədimiz Səfəvi şahı ilə əlaqələrin daha da inkişaf etməsidir. Bunu yaxşı bilirik ki, iki dövlətin əlaqələri daha əvvəl başlamışdır və davam edəcəkdir. Biz sizinlə ticarət və siyasi sahədə müqavilə bağlamağa hazırıq" (157).

Qeyd etmək laızmdır ki, bu iki məktubun tərcümə olunmuş mətni türk araşdırmaçılarının əsərindən götürülmüşdür. İlk baxışdan görünür ki, bu məktublar ənənəvi məktub yazılışına uyğun deyildir. Ola bilsin ki, məktubun yalnız bir hissəsi tərcümə edilmişdir. Məktubun məzmunundan onun Əkbər şahın oğluna yazıldığı müəyyən şübhə doğura bilər. Çünki məktubda xatırlanan məsələlər onun daha səlahiyyətli şəxsə yazılması gümanını yaradır. Eyni zamanda məktubun məzmunundan o da aydın olur ki, bu

məktub heç də Moğol sarayına Şah Abbas tərəfindən göndərilən ilk məktub deyil. Şah Abbas yazır ki, öncədən də bir nümayəndə hind sarayına göndərmişdi. Çox güman ki, həmin nümayəndə İsgəndər bəy Münşinin öz əsərində xatırlatdığı Yadigar sultan idi. İsgəndər bəy bu barədə belə yazırdı: "...aləmi bəzəyən hümayun cülus vaxtında əlahəzrət zilləllah şah həmin alicah padşahla ülfət və aşinalıq istəyərək, qədim münasibəti ehya etmək fikrinə düşdü. Həqiqətən də, özünün əcdadları tərəfindən möhkəmlənən məhəbbət və dostluğu axı necə özünün həqiqət mahiyyətli xasiyyəti müqabilində aradan yox edəsən və dostun dostluğundan qaçasan? Xülasə, cahanı bəzəyən fikir belə oldu ki, qızılbaş silkindən olan bir adamı elçi (rəsalət) kimi o həzrətin yanına yollasın. İxtiyar püşkü sufi təbiətli və saf etiqadlı Yadigar Sultan Rumluya düşdü. Onu layiqli töhfələr və məhəbbət ayinli namə ilə yola saldılar. Həmin məşhur namədə şah ona (Cəlaləddin Əkbər padşaha) biganəliyin dostluqla əvəz olunmasını, qədim əzəmət və əhd-peymanın dostluğun hərəkət verici qüvvəsi olduğunu izhar edib yazırdı: "Qəza-qədərin tələbi ilə Abdulla xan və özbək qoşunları Xorasanı tutmuşlar. Özbək ləşkərinin dəf olunması və irsi məmləkətimiz olan Xorasanın xilas olma zərurəti hamıya məlumdur. Siz əgər bizə zahiri imdad edə bilməsəniz belə, batini mərdlikdən (himmət) və diqqətdən kənar olmayın" (158).

Mövcud olan bir məlumata görə, Şah Abbasın Əkbər şaha göndərdiyi məktub kifayət qədər uzun bir məktub idi və dövrün yazışma ənənləri üzərində tərtib olunmuşdu. Şah Abbas protokol normalarına uyğun olaraq uzun-uzadı tərif və ehtiram ifadəsindən sonra iki dövlət arasında münasibətlərin bərpa olunması istəyini ifadə etmişdi.

Şah Abbas məktubunda Əkbər şahın atasının dünyasını dəyişməsi ilə bağlı onun yanına öz elçisini göndərmədiyini etiraf edirdi. Onun yazdığına görə, Şah Təhmasibin və Həmzə Mirzənin ölümündən sonra Moğol sarayından baş sağlığı alınmadığı üçün Əkbər şahın vəfatından sonra Səfəvi sarayından da başsağlığı bildirilmədi. Bununla belə, Şah Abbas iki dövlət arasında səmimi

münasibətlərin bərpa olunacağına ümid bağladığını bildirirdi. Məktub 1591-ci ildə göndərilmişdi və həmin il Səfəvi hüdudları yenidən özbək qoşunlarının hücumuna məruz qalmışdı. Şah Abbas istəyirdi ki, özbəklərin növbəti hücumunun qarşısını almaq üçün Şah Əkbərdən təsirli bir kömək alsın. Lakin elə məktubdakı cümlələrdən də göründüyü kimi, Şah Abbas belə bir kömək ala biləcəyinə əmin deyildi. Əslində, elə belə də oldu. Çünki həmin dövrdə Moğol sarayına özbək hakimlərinin elçiləri də gəlib-gedirdilər. Özbək hakimləri də Əkbər şahı Səfəvi dövlətinə qarşı qaldırmaqla Əkbər şahın şəxsində müttəfiq qazanmaq istəyirdilər. Mövcud olan məlumata görə, özbək hakimləri Əkbər şahla bölgənin nəzarət dairəsinə bölünməsi haqqında razılığa gəlməyə çalışırdılar. Belə bir razılığın əldə ediləcəyi təqdirdə Kabul və Qəndəhar Əkbər şahın, Bədəxşan və Xorasan isə özbəklərin nəzarəti altına düşməli idi. Yəni Səfəvi dövlətinin tərkib hissəsi olan şərq əraziləri Moğol imperiyası ilə özbəklər arasında bölünməli idi. Özbəklər hətta bu bölgü ilə də kifayətlənmir və Qəndəharı da ələ keçirmək üzərində düşünürdülər. Əkbər şah belə bir razılaşmaya getmədi və özbəklərə də arzusunda olduğu köməyi vermədi. Eyni zamanda Əkbər şah Şah Abbasa da hansısa kömək göstərilməsindən imtina etdi. Onun elçisini isə Moğol sarayında saxladı və uzun müddət onun geri qayıtmasına icazə vermədi (159). Ona görə də Şah Abbas özbək müdaxiləsinə qarşı təkbaşına mübarizə aparmaq məcburiyyətində qaldı.

Mövcud olan məlumatlar onu deməyə əsas verir ki, Əkbər şah istər Səfəvi dövləti ilə, istərsə də özbək hakimi olan Abdulla xanla açıq ittifaq yaratmağa ehtiyat edirdi. Belə ki, bir-birinə qarşı mübarizə aparan bu tərəflərin birinin üstünlük qazanaraq bölgədə söz sahibinə çevrilməsi qarşı tərəfə kömək etmiş Əkbər şaha qarşı təhlükə təşkil edə bilərdi. Ona görə də Əkbər xan Xorasan istiqamətində Səfəvi-özbək qarşıdurmasına müdaxilə etməkdən çəkindi və ona görə Şah Abbasın xahişinə də müsbət cavab verilmədi.

Şah Abbas Xorasan üzərinə özbək qoşunlarının hücumun qarşısını almaq üçün Əkbər şahdan kömək almaq ümidində olduğu

bir vaxtda əks vəziyyətlə qarşılaşmalı oldu. Belə ki, 1594-cü ildə Səfəvi dövlətinin hüdudları daxilində olan Qəndəhar şəhəri könüllü şəkildə Moğol imperatorluğuna təhvil verildi. Yuxarıda qeyd edildiyi kimi, Qəndəhar şəhərinə uzun müddət idi ki, Şah Təhmasibin qardaşı Bəhram Mirzə və onun övladları hakimlik edirdilər. Şah Abbas hakimiyyətə gələndə bu şəhərin hakimi Bəhram Mirzənin oğlu Sultan Hüseyn Mirzə idi. Həmin ərəfədə o da dünyasını dəyişdi və şəhərə hakimlik onun övladları olan Rüstəm Mirzə ilə Müzəffər Hüseyn Mirzənin əlinə keçdi. Şah Təhmasibin dünyasını dəyişməsi ilə Səfəvi dövləti ərazisində baş verən qarışıqlıqlar Qəndəhara olan diqqəti xeyli zəiflətdi. Bu isə Moğol hakimlərinin Qəndəharı tutmaq imkanlarını lazımınca artırdı. Belə bir zamanda özbək hakimlərinin də bölgəyə olan hücumları davamlı xarakter aldı. Rüstəm Mirzə ilə Müzəffər Hüseyn Mirzə narahat idilər ki, özbəklər Şah Abbasın gəncliyindən istifadə etməklə Xorasanı bütünlüklə işğal edəcək və sonra da Qəndəhar üzərinə qoşun çəkəcəklər. Belə bir təhlükədən sığortalanmaq üçün Rüstəm Mirzə ilə Müzəffər Hüseyn Mirzə Moğol imperatorluğuna sığınmağı və bununla özbək təhlükəsindən xilas olmağı qərara aldılar. Rüstəm Mirzə ilə onun başqa bir qardaşı olan Səncər Mirzə hələ 1592-ci ildə Moğol sarayının himayəsinə keçdilər. Əkbər şah onların Moğol himayəsinə girməsini məmnunluqla qarşıladı və Rüstəm Mirzəyə Multanın və Belucistanın bəzi ərazilərinin hakimi vəzifəsi verildi. Müzəffər Hüseyn Mirzə isə 1594-cü ildə belə bir addım atdı. Müzəffər Hüseyn Mirzə əvvəlcə öz adamlarını Moğol sarayına göndərdi və onların vasitəsilə Moğol sarayının himayəsinə qəbul edilməsini xahiş etdi. Müsbət cavab alandan sonra özü də Moğol sarayına yollandı və Qəndəhar şəhərini könüllü şəkildə Əkbər şaha təhvil verdi. Bununla da Qəndəhar şəhəri yenidən Moğol imperatorluğunun tərkibinə daxil edildi (160).

İsgəndər bəy Münşinin yazdıqlarından isə belə aydın olur ki, Rüstəm Mirzə ilə Müzəffər Hüseyn Mirzə arasında müəyyən narazılıqlar mövcud idi. Bu narazılıqlar da əsasən hakimiyyət və daha böyük səlahiyyət iddiaları ilə bağlı idi. Rüstəm Mirzənin daha tez

Moğol sarayına sığınması isə onun sistanlıların qoşununa qarşı uğursuz mübarizə aparması ilə bağlı idi. Rüstəm Mirzə sistanlıların qoşun dəstəsinə məğlub olduqdan sonra bölgəni tərk etmək və Əkbər şahın yanına getmək qərarına gəldi. İsgəndər bəy bu hadisəni belə təsvir edirdi: "Amma, öz gələcəyinə nəzər salan mirzə [Rüstəm Mirzə], ləşkərindəki dağınıqlığı gördü və bildi ki, onun ətrafında artıq heç kimsə yoxdur. O, [həmçinin] özbəklərin iqtidarını müşahidə edərək daha həmin vilayətdəki mühitin onun istədiyi kimi olmadığını gördü. Habelə, Müzəffər Hüseyn Mirzə tərəfdən də çoxlu cəncal görünməkdəydi. [Buna görə də] məcbur olub Hindistan diyarına doğru üz tutdu. Əvvəlcə Bikar vilayətinə gəldi. Orada, hind hökmdarına layiqli itaət etməyən və o vaxtlarda ətrafına padşah əmirləri toplaşmış Bikar valisi Mirzə Canı bəy Ərğunla görüşdü. Mirzə onu da itaətə rəğbətləndirərək, onunla birlikdə Hindistana tərəf irəlilədi. Mirzə o diyara gəlib çatdıqdan sonra, kamkar və uca məqamlı padşah Cəlaləddin Məhəmməd Əkbərlə görüş izzətinə yetişdi və o uca məqamlı padşah onu ehtiramla qəbul etdi, məsələnin elə başlanğıcında mirzəyə Multan tərəfdə yer verdi. O ali məqamlı xosrovun şəfəqqətinə layiq görülən mirzə bir müddət Hindistan məmləkətlərində qaldı" (161).

Müzəffər Hüseyn Mirzənin Moğol sarayına pənah gətirməsinə gəlincə isə, İsgəndər bəy Münşinin yazdığına görə, Xorasan vilayətini işğal altına alan özbək hakimləri Qəndəhar və Sistan istiqamətində də qoşun dəstəsi göndərmişdilər. Özbək hakimləri bu vilayətləri öz hakimiyyətləri altına gətirmək istəyirdilər. Özbək qoşun dəstələri ilə Müzəffər Hüseyn Mirzənin qoşun dəstəsi arasında döyüş də baş vermişdi. Doğrudur, bu döyüşlər vilayətin talan və soyğunçuluğa məruz qalması ilə müşayiət olunurdu, bununla belə ilk döyüşlərdə Müzəffər Hüseyn Mirzənin qoşun dəstəsi özbəkləri məğlubiyyətə uğrada bilmişdi. Bununla belə, Müzəffər Hüseyn Mirzə də böyük itkilər verdi və bilirdi ki, özbək qoşunlarının növbəti hücumları zamanı onun müqavimət göstərməsi xeyli çətinləşəcəkdir. Ona görə də Müzəffər Hüseyn Mirzə də Əkbər şahın lütfünə sığınmağı daha üstün saydı. Onun bu niy-

yətindən xəbər tutan özbək hakimləri Müzəffər Hüseyn Mirzəni fikrindən daşındırmaq istəsələr də, o, özbəklərin sülh istəyinə heç də inanmadı və Qəndəharı Əkbər şaha təhvil verdi: "Müzəffər Hüseyn Mirzəni də özünə cəlb etmək istəyən o müdrik padşah (Cəlaləddin Məhəmməd Əkbər) Zəmindavəri və Hindistanı tutmaqdan ötrü Rüstəm Mirzəyə elə çox insaniyyət və ehsan lütf etdi ki, Müzəffər Hüseyn Mirzə də Hindistana getməyə meylləndi. Çünki, Xorasandakı özbək əmirləri xüsusilə Dinməhəmməd Sultan, Baqi Sultan, yərliğlə o vilayəti fəth etmək əmri alan Canı bəy Sultanın bacısı oğlu Turan valisi Abdulla xan o diyarın (Xorasanın) hər yerini öz tapdağına çevirdikdən sonra yenidən Qəndəhar və Sistan hüduduna ləşkər göndərmişdilər. [Buna görə də,] onlarla Müzəffər Hüseyn Mirzə arasında güclü müharibələr baş verdi. Həmin hərblərin əksəriyyətində qızılbaş tayfaları zəfər çaldılar, özbək döyüşçüləri isə əzildilər. Məhz buna görə də, o ölkənin ətraf yerləri (həvaşi) heç vaxt o tayfanın (özbəklərin) qarət və taracından xali deyildi, asayiş və əmin-amanlıq o camaatdan uzaqdı. Qızılbaşların böyük adamlarının əksəriyyəti və Sultan Hüseyn Mirzənin etibarlı və bacarıqlı mülazimləri, yuxarıda yazıldığı kimi, həmin mərəkələrdə qətlə yetirildi, dövlət çəməni tamamilə solmağa başladı. Müzəffər Hüseyn Mirzə də öz vəziyyətinə münasib Hindistana getməyi məsləhət görüb, bundan başqa heç bir fürsət (məfərr) görə bilmədi. Baxmayaraq ki, Rüstəm Mirzənin gedişindən sonra, Turan elçisi Abdulla xan ona töhfə və hədiyyələrlə elçi göndərmiş və belə bir nəvazişnamə (estemalətnamə) də yazmışdı: "Özbəklərin və qızılbaşların dava-dalaşının, habelə turanlılar və iranlılar arasındakı ədavətin çox qədim olmasına baxmayaraq, qoy o möhtəşəm sülalə sahibi rahət olsun ki, bizim onunla məhəbbət və dostluqdan başqa heç bir fikrimiz yoxdur. Siz Hindistana getmək xəyalını ürəyinizdən çıxarıb xatircəmliklə Qəndəharda qalın, çünki cığatayların sizin ata məskəninizi tutmaq fikri yoxdur". Qəndəhar və özbək ləşkərləri arasında dəfələrlə müharibələr olub qanlar töküldüyündən, Mirzə Abdulla xanın sözlərinin yalan olduğunu düşünən Müzəffər Hüseyn özbəklərə inanmadı, vahimə ona üstün

gəldi və türklərə (torkan) meyl etmədi. Mirzənin səyi (hemmət) hind qumaşına və qızıl toplamağa yönəldiyi üçün, o, məmləkətdarlıq və Qəndəhar vilayətini zəbt etməkdən tamamilə əl çəkdi, Hindistan məmləkətlərini öz rahətliyindən ötrü pənah bildi. Müzəffər Hüseyn Mirzədən əvvəl Hindistana gedib orada əmirlik və quşbəyişik (quşbəyigəri) mənsəbinə çatan və Sultan Hüseyn Mirzənin qədim nökəri olan Qara bəy Kurçayi ali məqamlı Hindistan hökmranına boyun olmuşdu ki, mirzəni (Müzəffər Hüseyn Mirzəni) Hindistana gətirəcək və Qəndəharı o ali məqamlı padşahın işğalı üçün hazırlayacaqdır. ... Xülasə, onun hiyləgərlik (dəmdəme) və əfsungərliyi bir səbəb oldu və mirzə Hindistana getmək fikrinə düşdü. O, əvvəlcə anasını və böyük oğlunu [oraya] yolladı, sonra isə özü bir neçə yazışmadan və əhd-peyman etdikdən sonra Hindistana doğru yola düşdü. Ali məqamlı padşahsa Qəndəhar hakimliyini o vaxtlarda Multanda olan böyük əmirlərdən birinəpənchezari (?) vəzifəsini daşıyan Bəngeş hakimi Şahibəy xan Kabuliyə namizəd etdi" (162).

Göründüyü kimi, Müzəffər Hüseyn Mirzənin yerinə Əkbər şah tərəfindən Şahibəy adlı birisi Qəndəhar hakimi təyin edildi. İsgəndər bəy Münşinin yazdığına görə, Müzəffər Hüseyn Mirzə sonradan öz əməlinə görə peşman oldu və onunla Əkbər şah arasında hətta narazılıqlar da meydana gəldi. Müzəffər Hüseyn Mirzə etdiyi əməlinə baxmayaraq Səfəvi dövləti hüdudlarına geri qayıtmaq istədi. Onun bu istəyinə, eləcə də Həccə getmək arzusuna Əkbər şah tərəfindən qadağa qoyuldu. Ona görə də, Müzəffər Hüseyn Mirzə geri qayıda bilmədi və vətən həsrəti ilə hind torpağında dünyasını dəyişdi (163).

Şah Abbas sözsüz ki, Qəndəharın Səfəvi dövlətindən qoparılması ilə razı deyildi və mövcud tarixi şəraitdə bu məsələni güc yolu ilə həll etmək üçün onun imkanları məhdud idi. Ona görə Şah Abbas Qəndəharın Moğol dövlətinin tərkibinə qatılması məsələsinə təmkinlə yanaşdı. Çünki Xorasanın özbək qoşunlarının nəzarət altında olduğu bir vaxtda Qəndəhara kömək göstərilməsi heç mümkün deyildi. Bu şəhərin özbəklərin soyğunçu talanları altına

düşməsindənsə, Moğol imperiyasının himayəsi altında olması daha məqsədəuyğun sayıla bilərdi.

Bununla belə, Şah Abbas Moğol sarayına elçi göndərdi və onun vasitəsi ilə yolladığı məktubda Qəndəharın Səfəvi dövlətinə məxsusluğu Əkbər şaha xatırladıldı. Əkbər şahın mövcud şəraitdə Şah Abbasın Qəndəhar üzərinə qoşun dəstəsi göndərə bilməyəcəyini başa düşürdü və ona görə də Qəndəharın zorla geri alına bilməyəcəyinə görə Şah Abbasın xatırlatmasına cavab vermədi. Bu yolla o, Qəndəhar şəhərini geri qaytarmaqdan da imtina etdi. Əvəzində təxminən dörd ilə yaxın Moğol sarayında saxladığı Şah Abbas elçisi Yadigar sultana geri qayıtmaq icazəsi verdi. Onunla birlikdə Əkbər şah özünün də iki elçisini, Ziyaəddin Kaşini və Əbunəsr Xəvafı qiymətli hədiyyələrlə Səfəvi sarayına göndərdi. Adları çəkilən hind elçiləri əslən Səfəvi təbəələri idilər. Onlar vaxtilə Səfəvi dövlətini tərk etmiş və Moğol sarayında yüksək məqamlara sahib olmuşdular. Mənbələrdə olan məlumata görə, həmin elçilər Səfəvi sarayında olanda Şah Abbas onlardan soruşdu ki, nə üçün Səfəvi sarayına Səfəvi əsilli elçilər göndərilir. Yəni Hindistanda başqa adam tapılmır ki? Bu səfirlərdən biri belə cavab verdi ki, Hindistanda adam tapılmır. Əgər Hindistanda adam çox olsaydı onda biz kimsəyə gərək olmazdıq və bizə çörək verən tapılmazdı. Deyilənə görə, Şah Abbasın bu hazırcavabılıqdan çox xoşu gəldi və həmin elçiyə şah tövləsindən bir at bağışladı (164).

Əkbər şah öz elçiləri vasitəsilə həm də Şah Abbasa məktub göndərdi. Bu elçilər 1594-cü ildə Səfəvi sarayına yola düşdülər. Hind elçilərinin və Şah Abbas elçisinin həmin vaxt yola salınması heç də təsadüfi deyildi. Çünki iki dövlət arasında gərgin münasibətlərin əsas səbəbi Qəndəhar məsələsi idi ki, Əkbər şah bu məsələni artıq öz xeyrinə həll etmişdi. Qəndəharın ələ keçirilməsindən sonra Səfəvi dövləti ilə münasibətlərin normallaşdırılması Moğol hakimlərinin maraqlarına cavab verirdi. Bu normallaşmaya nail olmaqla həm də Qəndəharı Moğol sərhədləri daxilində saxlamaq olardı. Yadigar sultanla birlikdə yola düşən hind elçiləri Oman dənizindən keçməklə Hörmüz adasına çıxmalı və oradan da Qəz-

vinə doğru hərəkət etməli idilər. Bu elçilər bir ildən sonra Qəzvinə yetişə bildilər (aşağıda qeyd edildiyi kimi, İsgəndər bəy Münşi isə hind elçilərinin başqa marşrutla hərəkət etdiyini göstərirdi). Əkbər şah Şah Abbasa məktub göndərəndə artıq kifayət qədər yaşlı və təcrübəli bir insan idi. Baxmayaraq ki, Qəndəhar şəhəri Şah Abbasın istəyinin əksinə olaraq Moğol dövlətinin tərkibinə qatılmışdı, bununla belə Şah Abbas Əkbər şaha qarşı təmkinli münasibətini saxlamaqda idi. Bunun nəticəsi idi ki, Əkbər şah dünyasını dəyişənə qədər Qəndəhar məsələsini elə də qabartmadı. Şah Abbas onu böyük və təcrübəli bir padşah kimi qəbul edirdi və onun tərəfindən verilən məsləhətlərə də təmkinlə qulaq verirdi. Əkbər şahın elçilərlə göndərdiyi məktubda da Şah Abbasa ünvanlanmış xeyli məsləhət və təkliflər var idi (165).

Əkbər şahın Şah Abbasa göndərdiyi məktub kifayət qədər uzun bir məktub idi. Məktubun məzmunundan hiss olunur ki, Əkbər şah müxtəlif məsələlərə toxunmaqla Qəndəhar məsələsinə də öz münasibətini bildirir və Qəndəharın geri qaytarılmasının aktuallığını kölgəyə almaq istəyir. Məktub Allaha həmd və sitayişlə başlayırdı. Eyni zamanda islam peyğəmbəri də yad edilir və onun ruhuna salam göndərilirdi. Belə bir girişdən sonra Əkbər şah əsas mətləblərin izahına başlayırdı. İlk növbədə Əkbər şah Səfəvi sarayından gəlmiş elçi Yadigar sultanın məmnuluqla qarşıladığını bildirir və onun geri qayıtmasının ləngiməsini təəssüflə dilə gətirirdi. Əkbər şah bu ləngimənin səbəbini də özünə görə məktubda açıqlayırdı. O bildirirdi ki, bir neçə il ərzində ona müxalif və düşmən olan qüvvələrlə müharibə aparmalı olmuşdu. Həmin müharibənin gedişində Əkbər şah raclara, dağlarda sakin olan əfqanlara, beluclara qarşı mübarizə aparmalı olmuşdu. Yəni o demək istəyirdi ki, bu tayfalara qarşı aparılan davamlı müharibələr Şah Abbasın elçisinin də uzun müddət Moğol sarayında ləngiyib qalmasına səbəb olmuşdu. Moğol qoşunları tərəfindən aparılan döyüşlər haqqında da məktubda müxtəsər məlumat verilirdi. Əkbər şah sonra bildirirdi ki, bu müharibələr artıq başa çatmış və ona görə qərara alınmışdır ki, Səfəvi sarayına elçi göndərilsin. Moğol imperatoru

Şah Təhmsibin dünyasını dəyişməsindən sonra Səfəvi hüdudları daxilində də nizamsızlıqların baş verməsinə işarə edir və bu nizamsızlıqların sona yetməsini razılıqla qəbul edirdi. Əkbər şahın məktubda toxunduğu ilk ciddi məsələ Qəndəharın Moğol dövləti tərkibinə qəbul edilməsi idi. Əkbər şah bu məsələdə Səfəvi dövlətinə qarşı düşmən mövqedə olmadığını, özbək təhlükəsi qarşısında müdafiəsiz qalmış Qəndəhar hakimlərinin (məktubda onlar "mirzələr" adlandırılır) çətin vəziyyətdən çıxarılmasını əsaslandırmağa çalışırdı. O da bildirirdi ki, əvvəlcə Rüstəm Mirzə müraciət edərək Moğol himayəsini xahiş etdi. Sonra isə Əkbər şahın yazdığına görə Müzəffər Hüseyn Mirzə öz atasını və böyük oğlunu Moğol sarayına göndərdi. Bildirilir ki, onlar Qəndəhara kömək üçün imdad dilədilər. Əkbər şah sülhü müharibədən üstün saydığı üçün Qəndəharı öz himayəsi altına almaq qərarına gəldiyini yazırdı. Əkbər şah əsaslandırmağa çalışırdı ki, Səfəvi sarayının kömək göndərmək imkanlarının məhdud olduğu bir zamanda Qəndəharın himayə altına alınması narahatçılq və qəzəb doğurmamalıdır. Çünki bölgədə özbək təhlükəsi real təhlükə olaraq qalmaqda idi və özbək xanı Abdulla xan öz elçilərini Əkbər şahın yanına göndərməklə Səfəvi dövlətinə qarşı ittifaq yaradılmasına çalışırdı. Əkbər şah isə bu ittifaqa getmədi və əvəzində Abdulla xana da öz məsləhətlərini göndərdi. Yəni belə bir fikir ifadə olunurdu ki, Qəndəhar Moğol himayəsi altına alınmayacağı halda özbəklərin ciddi təhlükəsi ilə qraşılaşa bilərdi (166).

Məktubda Əkbər şah Kəşmirdə apardığı döyüşlərdən də danışır və Səfəvi şahına dövlətin möhkəmləndirilməsi üçün bəzi məsləhətlər də verirdi. Türkdilli elmi ədəbiyyatda bu məktubun bir hissəsinin tərcüməsi verilmişdir. Əkbər şah Şah Abbasa müraciətlə belə yazırdı: "...Hakimiyyət dövründə hörmət, insanlara mərhəmət və sülh ixtilafdan daha yaxşıdır. Bu üsul sizin səltənətinizi və hökumətinizi daha da gücləndirəcəkdir. Bu mövzuda biz özbək hakimlərinə də məsləhətlər verdik. Bu, iki ölkənin də xeyrinədir. Biz onlara da məktub yollayıb bu mövzulara toxunduq. Sülh məsələsində bizim edə biləcəyimiz bir şey olursa, yardım edə bi-

lərik. İranın (Səfəvi dövləti nəzərdə tutulur - M.S.) vəziyyəti qarışıqdır. Bəzi insanlar hökuməti devirməyi düşünərək qarət və talanlara başlamışlar. Əgər özbəklərlə sülh müqaviləsi imzalasanız daxili məsələləri qısa müddət ərzində həll edə bilərsiniz. İnsanların namusunu qorumaq üçün yaranmış fürsəti qaçırmayın və sülh üçün səy göstərin. Əbədi olan din və inanc işlərində necə ola bilər ki, şəxsi mənfəət düşünülsün. İki tərəfin biri haqlı, digəri isə haqsızdır. Əgər günahkar işlətdiyi gümahı bilərək edirsə, o xəstədir. Bu xəəstəyə şəfqət göstərmək onu cəzalandırmaqdan daha yaxşıdır. Səbr etmək hər şeydən üstündür. Tələsik qərar qəbul etmək və iş görmək həm düşməni gücləndirir, həm də daxili müxalifliyin güclənməsinə səbəb ola bilər. Bu məsələdə tədbirli davranıb, irəlisini düşünmək lazımdır" (167).

Qeyd edilməlidi rki, Əkbər şah tərəfindən göndərilən elçilik heyəti hər iki dövlət üçün müəyyən əhəmiyyət kəsb edirdi. Əkbər şah üçün bu elçilik heyəti Səfəvi sarayına göndərilən ilk elçilik heyəti idi. O, göndərdiyi məktubunda Səfəvi dövləti ilə münasibətlər qurulmasının gələcəyi haqqında öz fikirlərini açıqlamışdı. Yəni həmin məktub Səfəvi-Moğol münasibətlərinə Əkbər Şahın mövqeyinin aydınlaşdırılması baxımından əhəmiyyət kəsb edir. Əkbər şah Qəndəharı geri qaytarmaq istəmirdi, amma Səfəvi dövləti ilə xoş münasibətlərin saxlanmasına da əks deyildi. Şah Abbas isə yaxın gələcək üçün bu iki dövlət arasında münasibətlərin necə qurula biləcəyi haqqında müəyyən təsəvvürlər əldə etdi. O, Osmanlı Türkiyəsinə qarşı tutduğu strateji xətti Moğol dövləti ilə münasibətlərə də tətbiq etdi. Yəni Şah Abbas Qəndəharın qoparılması ilə razı deyildi. Lakin onun geri qaytarılması üçün yetərli güc əldə edilənə qədər Moğol dövləti ilə dinc münasibətləri istisna etmirdi. Qarşılıqlı münasibətlərin xoş məram üzərində qurulmasına tərəfdar olması görüntüsü yaradılması üçün isə Əkbər şahın elçiləri Qəzvində böyük təntənə ilə qarşılandı. Hind elçilərinin Qəzvində qarşılanması 1596-cı ilin yayında baş verdi: "Bu il aləmpənah dərgaha aləmin hər yerindən elçilər gəldilər, onların bəzisi Qəzvində, bəzisi isə İsfahanda şahla görüş səadətinə yetişdilər. Ali

dərgahda o elçi və mehmanlarla birlikdə elə bir məclis təşkil olundu ki, keçmiş vaxtlarda elə məclislər az keçirilərdi. Hər diyardan gətirilən töhfə və hədiyyələr [şaha] təqdim olundu. Onlardan Hindistan məmləkətlərinin uca məqamlı, Firidun bargahlı hökmdarı Cəlaləddin Məhəmməd Əkbər padşahın elçiləri Mirzə Ziyaəddin Kaşi və Əbu Nəsr Xafi idilər ki, onlar yeddi il bundan əvvəl Hindistana göndərilən Yadigar Sultan Rumlu ilə gələrək həmin darüssəltənədə şahla görüş səadətinə çatdılar. Kaşan qazisi Mir Rəfiəddinin oğlu olan Mirzə Ziyaəddin iyirmi beş ilə yaxın idi ki, Hind vilayətinə getmiş, o əzəmətli padşahın (Hindistan padşahının) mülazimləri silkinə daxil edilmiş və orada tam ixtiyar sahibi olmuşdu. Əbu Nəsr isə Xaf vilayəti əhalisindəndir. Bu yaxınlarda onların hər ikisi Yadigar Sultan Rumlu ilə birlikdə [Hindistandan] İran elçiliyinə göndərildilər, Kələç-Mükran yoluyla Kirmana və oradan da bu səadət aşiyanlı dərgaha gəldilər. Fərmana əsasən Qəzvinin Səadətabad meydanı çırağban olundu, bazarları bəzədilər. Əlahəzrət elçilərə bir neçə gün [həmin] meydanda ziyafət (tuy) verib, izzət və ehtiram göstərdi. Onlar Şeyx Mübarəkin oğlu Şeyx Əbülfəzl tərəfindən ürəkaçan böyuk məhəbbət və dostluqla yazılmış bəlağət üslublu məktubu şahın nurlu nəzərinə yetirdilər, dağ peykərli dəvələrlə gətirdikləri töhfə və hədiyyələri Səadətabad meydanında hümayun şaha göstərdilər" (168).

Hind elçiləri bir ilə yaxın Səfəvi ərazisində qaldı. Bir də bir il keçəndən sonra onların geri qayıtmasına icazə verildi. Hind elçiləri ilə birlikdə Şah Abbasın da elçilik heyəti Əkbər şahın sarayına yola düşdü. Bu elçilik heyətinə saray eşikağasıbaşı Mənuçehr bəy rəhbərlik edirdi. Belə bir yüksək vəzifəli saray mənsubunun elçi kimi Əkbər şahın yanına göndərilməsi Şah Abbasın Moğol sarayı ilə normal münasibətlər qurmaq istəməsinin göstəricisi idi. Xoş məramlı münasibətə tərəfdar olduğunu göstərmək üçün Şah Abbas böyük sayda qiymətli hədiyyələri də Moğol sarayına yola saldı. Bu hədiyyələrə 101 baş gürcü və İraq atları, 300 top zərli parça, nəfis xalçalar və s. daxil idi. Elçilik heyətini 500 nəfərlik qızılbaş atlı dəstəsi müşayiət etməli idi. Elçilik heyəti Kirman və Mokran-

dan keçməklə hind sarayına doğru istiqaməıt götürdü. Bu heyət təxminən bir ildən sonra Moğol sarayına yetişdi. Səfəvi elçilik heyətinin Moğol sarayına yetişməsi 1598-ci ilin oktyabr ayına təsadüf edirdi (169).

Şah Abbasın Əkbər şaha yazdığı məktub uzun bir məktub idi. Şərq ənənələri üslubunda yazılmış bu məktub yaradanın vəsfi ilə başlayır və ona həmd-səna ifadə olunurdu. Bu mövzuya məktubda kifayət qədər böyük yer ayrılıb və Şah Abbasın öz duyğularını ifadə etmək üçün altı yerdə şer parçasından istifadə olunmuşdu. Bütünlükdə isə məktubda yeddi nəzm parçası vardır. Məktubda Əkbər şah tərəfindən göndərilən elçi Ziyaəddinin şah sarayında məmnunluqla qarşılandığı qeyd edildikdən sonra, onun haqqında şah tərəfindən xeyli xoş sözlər də söylənmişdir. Şah Abbas bununla elçilik heyətinin göndərilməsini və iki dövlət arasında xoş münasibətlərin yaradılmasını məmnunluqla qəbul etdiyini bəyan edirdi. Sonra məktubda Şah Abbas atası Şah Məhəmməd Xudabəndənin dünyasını dəyişməsi, Xorasan vilayətində mürəkkəb proseslərin cərəyan etməsi haqqında Əkbər şaha məlumat verirdi. O, Xorasan vilayəti ilə bağlı həm özbək qoşunlarının bu vilayət üzərinə davamlı hücumlarından, özünün lələsi olmuş Əliqulu xanla Məşhəd hakimi Mürşüdqulu xan arasında baş verən döyüşlərdən də söz açmışdı. Şah Abbasın Əkbər şaha göndərdiyi məktubda qızılbaş əmirlərinin hakimiyyət uğrunda daxili qarşıdurma yaratması, Gilan hakimi Xan Əhmədin mərkəzi hakimiyyətə itaətsizlik yolunu tutması və onun qiyamının yatırılması, Osmanlı qoşunlarının Səfəvi üzərinə hücumu haqqında da qeydlər vardır. Şah Abbasın bu məktubunun ikinci hissəsi daha çox məlumat xarakterlidir və Səfəvi şahı burada səltənət daxilində və ətrafında baş verən hadisələr haqqında Əkbər şaha müəyyən bilgilər çatdırmışdır. Şah Abbas Mənuçehr bəyi elçi kimi Moğol sarayına göndərdiyini də məktubda qeyd etmişdi (170).

Şah Abbas bu məktubunda tezliklə qızılbaş tayfalarını öz ətrafında səfəbər edərək Xorasan vilayətini özbək qoşunlarından təmizləyəcəyini bəyan edirdi. Məktubun göndərilməsindən təxmi-

nən bir il sonra, 1598-ci ildə Şah Abbas doğrudan da Xorasana yürüş etdi və bu vilayəti yenidən nəzarət altına almaqla həmin ilin avqust ayında Herat şəhərinə daxil oldu. Xorasanın azad edilməsi Şah Abbasın təxminən on illik hakimiyyəti ərzində əldə etdiyi böyük uğurlardan biri idi. Bu uğurun əldə edilməsindən sonra Şah Abbas göndərdiyi elçinin geri dönməsini gözləmədən Əkbər şahın yanına yeni bir elçilik heyəti göndərdi. Bu heyətə Əli bəy Kəramili rəhbərlik edirdi. İsgəndər bəy Münşi bu barədə belə yazırdı: "Bu il Xorasan səfərində baş vermiş hadisələrdən [biri də] budur: Herat darüssəltənəsində şamlı yüzbaşıları silkinə məxsus olan Mirzə Əli bəy Kəramili elçi sifətilə Hindistana göndərildi, ali məqamlı padşah Cəlaləddin Məhəmməd Əkbərə Xorasan fəthinin necə baş verməsi və Dinməhəmməd xanla müharibənin nə təhər olması barədə ənbər qoxulu qələmlə yazılmış məktub apardı" (171).

Həmin məktubunda Şah Abbas yalnız böyük qələbəsi haqqında xəbər vermirdi. Şah Abbas açıq şəkildə Əkbər şahın nəzərinə çatdırırdı ki, Xorasan istiqamətində itirilmiş olan ərazilərin hamısı geri qaytarılmışdır. Yalnız Qəndəhar vilayəti geri qaytarılmamışdır. Yəni Şah Abbas işarə edirdi ki, Əkbər şah tərəfindən Qəndəhar vilayətinin də geri qaytarılması yaxşı olardı. Məktubda belə bir ümid ifadə olunurdu ki, Əkbər şah Qəndəharı Səfəvi dövlətinin tərkibinə qaytaracaqdır (172).

Həmin məktubun bir yerində deyilirdi: "...İlahinin lütfü ilə müxaliflərin işğalı altında olan Xorasan vilayəti, yalnız siz həzrətin qüvvələrinin işğalı altında olan Qəndəhardan başqa bütünlüklə ələ keçirilmişdir və daha başqalarının işğalında olan ərazi qalmamışdır. Aramızda olan ittifaq və birliyə görə o da bizə qismət olar və yadların işğalında qalmaz..." (173).

Əkbər şahın bu məsələ ilə bağlı Şah Abbasa müsbət cavab verməsi haqqında aydın məlumata rast gəlmək mümkün deyildir. Məlum olan odur ki, Şah Abbas tərəfindən elçi kimi göndərilmiş Mənuçehr bəyin təxminən dörd il Moğol sarayında ləngidilməsindən belə bir qənaətə gəlmək olar ki, Əkbər şah bununla Şah Abbasa öz cavabını vermişdi. Şah Abbas Qəndəhar məsələsində təkidli oldu-

ğunu nümayş etdirirdi. Özbək qoşunları Xorasan vilayətindən təmizləndikdən sonra bir qızılbaş dəstəsi Moğol imperatorluğu ilə sərhəddə yerləşən Baet qalasının üzərinə göndərildi və bu qala nəzarət altına alındı. Amma Şah Abbas sonra irəli hərəkət etmədi. Çünki o da bilirdi ki, Moğol imperiyasının böyük gücü vardır və bu imperiya ilə müharibə etmək vaxtı hələ yetişməmişdir (174).

Bir məlumata görə, Əkbər şah 1599-cu ildə Şah Abbasa məktub göndərdi. Bildirilir ki, bu məktubda Əkbər şah öz ailəsi ilə Şah Abbasın ailəsi arasında nikah qohumluğunun yaradılması və nəvəsinin Şah Abbas övladlarından biri ilə nikah edilməsi haqqında təklif irəli sürdü. Həmin təklifə əsasən, Şah Abbas bu qohumluğa razı olacağı təqdirdə sonrakı yeddi il ərzində Əkbər şahın 30 minlik qoşun dəstəsinin köməyinə arxalana bilərdi. Amma bu təklifin nə ilə nəticələndiyi haqqında qaynaqlarda və elmi-tarixi ədəbiyyatda aydın bir məlumat yoxdur (175). Əslində, belə bir təklifin irəli sürülməsinin özü də şübhəli görünür. Çünki belə bir təklifin ortaya çıxması ilə Şah Abbas yəqin ki, Qəndəharın da geri qaytarılması fürsətini əldən verməzdi.

Mənbələrdə Əkbər şah tərəfindən 1602-cü ildə böyük bir elçilik heyətinin Səfəvi sarayına göndərməsi haqqında məlumat mövcuddur. Əkbər şah bir neçə ildən sonra nəhayət ki, Səfəvi elçisi Mənuçehr bəyin geri qayıtmasına izacə verməyi qərara aldı. Həmin ilin sentyabr-oktyabr aylarında Moğol imperiyasını tərk edən Səfəvi elçiliyinə çoxlu sayda qiymətli hədiyyələr təqdim olundu. Bu hədiyyələr həm elçi üçün, həm də Şah Abbasa təqdim edilməsi üçün nəzərdə tutulmuşdu. İsgəndər bəy Münşi bu elçi ilə bərabər hind elçisinin də Səfəvi sarayına gəlməsi haqqında məlumat verir. Bəzi elmi araşdırmalarda isə hind elçisinin Səfəvi elçisinin yola düşməsindən bir neçə ay sonra Səfəvi dövlətinə tərəf hərəkətə başladığı qeyd olunur. Hind elçisinin soyadı ilə bağlı da mənbə və elmi-tarixi ədəbiyyatda fərqli ifadələr mövcuddur. Məsələn, bəsi ədəbiyyatda onun adının Mir Məhəmməd Məsum xan Behəkkəri olduğu bildirilir (176). İsgəndər bəy Münş isə onu Mokri adlandırmışdır.

Elçinin və məktubun göndərilməsində məqsəd Səfəvi dövləti ilə xoş münasibətlərin saxlanması idi. Hind elçiliyinin göndərilməsi ərəfəsində Şah Abbas həm səltənət daxilində, həm də Osmanlı qoşunları ilə döyüşlərdə ciddi uğurlar qazanmışdı və görünür Əkbər şah da bu uğurlardan xəbərdar idi. Ona görə də günügündən möhkəmlənməkdə və güclənməkdə olan Səfəvi dövləti ilə xoş münasibətlərin qorunması Əkbər şah üçün də əhəmiyyət kəsb edirdi. Məktubda deyilirdi: "..İndi Mənuçehr bəyin göndərilməsi üçün imkan yarandı ki, bizim birliyimiz və sədaqətimiz haqqında olan məktubu təqdim etsin. Onunla birlikdə Mir Məsum Behəkəri də yola düşmüşdür. O, bu ölkənin çox hörmətli seyidlərindən və saraya ən yaxın olan adamlardan biridir. Ona tapşırılmışdır ki, xoş bəlağətli bir dillə bir sıra məsələləri şihahi şəkildə çatdırsın... Bizim əcdadlarımız (qoy onların hakimiyyəti əbədiyyətə kimi davam etsin) arasında çoxdan dostluq və birlik münasibətləri olmuşdur. Mən bu birliyin, sədaqətin və səmimiyyətin qorunmasına elə də çox diqqət ayırmırdım. Bu barədə məktubda yazmaq və onu təsəvvür etmək mümkün deyil. Mənim təkidli xahişim və səmimi istəyim ondan ibarətdir ki, bu dünya fırlandıqca, ulduzlar işıq saçdıqca bu xeyirxah münasibətlər diqqət mərkəzində olsun..." (177).

Məktub ənənəvi qaydada yazılmışdı. Əvvəlcə yaradana həmd və dua ifadə olunmuş, sonra da qarşılıqlı dostluğun qorunub saxlanması üçün xoş arzular ifadə olunuşdu. Məktubda Mənuçehr bəyin elçi kimi Moğol sarayına gəlməsi, onun Şah Abbasın özbək qoşunlarına və daxili qiyamçılara qarşı uğuru haqqında gətirdiyi xəbərdən məmnun olduğunu qeyd edən Əkbər şah belə xəbərləri tez-tez eşitmək arzusunda olduğunu da yazırdı. Şah Abbasın hərbi sahədə böyük uğurlar əldə etməsi məktubun məzmununa da öz təsirini göstərmişdi. Əkbər şahın əvvəlki məktubundan fərqli olaraq onun ikinci məktubunda Şah Abbasa məsləhət vermək məsələsi də artıq fərqli bir məna kəsb etmişdi. Əkbər şah onu özünə bərabər bir tərəf kimi qəbul edirdi və ikitərəfli münasibətlərin möhkəmləndirilməsini təkid edirdi.

Əkbər şahın elçisi və Mənuçehr bəy Səfəvi dövləti ərazisinə daxil olanda Şah Abbas qızılbaş qoşunları ilə İrəvan qalası ətrafında Osmanlı qüvvələrinə qarşı döyüş aparırdı. Bir məlumata görə, hind elçisini qəbul edəndə Şah Abbas ondan belə soruşdu ki, həzrəti-şah babam necədir? Bu sözlərlə o, Əkbər şahı nəzərdə tuturdu (178). Hind elçisi də, Əkbər şahın salam-dualarını ona çatdırdı və özü ilə gətirmiş olduğu hədiyyələri Şah Abbasa təqdim etmək istədi. Bir məlumata görə, Şah Abbas onun elçisinin bir neçə il Moğol sarayında ləngidilməsindən narazı qaldığı üçün, bir məlumata görə isə başı İrəvan ətrafnda gedən döyüşə qarışdığı üçün Əkbər şahın göndərdiyi hədiyyələr içərisindən yalnız bir ədəd qiymətli daşlarla bəzədilmiş qılınc götürdü. Digər hədiyyələrin isə qəbul edilməyəcəyi görüntüsü yaratdı (179).

İsgəndər bəy Münşi ibu hadisəni belə təsvir edirdi: "Qiyam və qarışıqlığa səbəb olan bu iki ağır hadisədən osmanlı vəzirləri və dövlət başçıları həyacanlandılar. Sultanın Sultan Mustafa adlı oğlu ağıldan kəm olduğundan onun on altı yaşlı başqa oğlu Sultan Əhmədi Rum padşahı taxtına əyləşdirib, məmləkət işlərini nizamlamağa başladılar. Mühasirə dövrünün başqa hadisələrindən biri də Mökr vilayətinin ali məqamlı padşahları xanədanından Cəlaləddin Məhəmməd Əkbərin mötəbər əmiri Mir Məhəmməd Məsum xan Mokrinin gəlişidir. O həmin Firidun əzəmətli padşah tərəfindən hələ yeddi il bundan əvvəl elçi sifəti ilə Hindistana gedən xasseyişərifə qulamlarından Mənuçöhr bəy Eşikağası ilə birlikdə gəlib, ləyaqətli töhfə və hədiyyələr gətirdi. Hədiyyələrin arasında qilaflı bir qılınc, başdan-başa qızılla və xırda almas və cəvahirlərlə işlənmiş zirehli bir paltar da vardı. Məna aləminin uzağı görən adamları yuxarıda göstərilən qılıncın əlahəzrətin öz himmət qılıncını belinə bağlayıb Şirvan, Azərbaycan və Gürcüstan kimi irsi məmləkətləri almaqdan ötrü düşmənlərin üzərinə yollandığı bir zamanda göndərilməsini sahibqran ailəsindən və gürəkan xanədanından çıxan və həmişə özünün qəhr qılıncını əfqan və hindli [hünud] düşmənlərin başına endirən bir dövlət sahibinin xoş məramı kimi qiymətləndirdilər, kamkar şəhriyarın fəth və zəfərinə ümüdvar

oldular. Xülasə, adı çəkilən elçi İrəvan qalası ayağında zəfər nişanlı orduya çatıb, Mənuçöhr bəylə birgə ayini behişt olan məclisdə iştirak etməklə şərəfləndi. O, həmin şahanə hədiyyələri dövlətxana qapısına gətirib yan-yana düzdü ki, əgər icazə olarsa, onları müqəddəs nəzərə (Şah Abbasa) göstərsinlər. Əlahəzrət zilləllah şah qala tutmaq məşğələsindən bir qədər ayrılıb, öz himmət nəzərini töhfə və hədiyyələrə yönəltdi, amma onun uğurlu falı olan həmin qılıncdan qeyri başqa hədiyyələrə baxmadı.

Mokr xanının mülazimləri ruhu bədənlərdə donduran soyuğa və qışın şiddətinə baxmayaraq, dörd ay dövlətxanada keşik çəkmək və onların mallarını (barxanə) mühafizə etməklə məşğul oldular. Şərif paşanın və Rum ordusunun əksər əzəmətli və savadlı şəxslərinin qalanın fəthindən sonar gəlib ali dərgahda olduqları vaxt [Hindistan elçiləri] gətirdikləri şahanə töfhə və hədiyyələri elçinin peşkəşi ilə birgə müqəddəs nəzərə çatdırdılar. Əlahəzrət isə onların hamısını əzəmətli əmirlərə, vilayət hakimlərinə, hümayun ordudakı hər tayfanın əyan-əşrəfi arasında payladı" (180).

Bir məlumata görə, Şah Abbas Şah Əkbərdən incik düşdüyü üçün onun hədiyyələrinə qarşı açıq bir laqeydlik nümayiş etdirdi və yalnız bir qılınc götürməklə digər hədiyyələrdən üz çevirdi. Əkbər şahın elçisi Mir Məhəmməd Məsum isə bu incikliyin aradan qadırılması üçün öz müdrikliyini işə salmalı oldu. O, həm də istedadlı bir qələm sahibi olmaqla ədəbi yaradıcılıqla da məşğul olurdu. Hind elçisi dörd ay səbirlə Şah Abbasın İrəvan ətrafındakı döyüşləri başa vurmasını gözlədi. Növbəti görüşündə Mir Məhəmməd Məsum bəlağətli dilini işə saldı, xoş sözlərlə Şah Abbasın qəlbini ələ ala bildi. Şah Abbas da bundan sonra hədiyyələri qəbul etməyə razı oldu (181).

Şah Abbas bir ilə yaxın hind elçisinin Səfəvi ərazisindən geri qayıtmasına icazə vermədi. Hind elçisi geri qayıdanda isə Şah Abbas öz elçisini hind sarayına göndərmədi. Şah Abbas onunla kifayətləndi ki, Mir Məhəmməd Məsumla Əkbər şaha öz məktubunu göndərdi. Bir məlumata görə, Şah Abbasın bibisi Zeynəb bəyim də Əkbər şahın anası Həmidə banuya məktub göndərdi (182).

Şah Abbasın bu məktubu da kifayət qədər uzun bir məktub idi və ənənəvi olaraq bu məktub da yaradana ünvanlanan dualarla başlanırdı. Səfəvi şahı son zamanlar əldə etdiyi hərbi uğurlara görə də dualarını yazmaqdan çəkinmirdi. Həmin uğurları Şah Abbas yaradanın ona olan lütfü kimi qiymətləndirirdi. Sonra isə Şah Abbas keçirdiyi hərbi kampaniyalar haqqında Əkbər şaha məlumat verirdi. Azərbaycan üzərinə hücumdan danışarkən Şah Abbas bildirirdi ki, şah babası Şah Təhmasibin hakimiyəti illərində Səfəvi dövləti ilə Osmanlı dövləti arasında sülh anlaşması imzalanmışdı. O qeyd edirdi ki, Səfəvi sarayı bu anlaşmaya sədaqətli qaldı və Osmanlı hüdudlarına hücum etməkdən çəkindi. Osmanlı sultanı Sultan Süleymanın oğlu Bayəzidin Səfəvi sarayına pənah gətirməsi və sonradan iki dövlət arasında imzalanmış anlaşmaya uyğun olaraq onun Səfəvi sarayı tərəfindən geri qaytarılmasına da toxunan Şah Abbas iki dövlət arasında əldə edilmiş anlaşmaya sədaqətli qalındığına işarə edirdi. Məktubda qeyd olunurdu ki, Osmanlı tərəfi isə əldə edilmiş həmin anlaşmaya sədaqətli qalmadı və qızılbaş tayfaları arasınnda bir zəiflik hiss edilən kimi, Osmanlı qoşunları Azərbaycanı və Şirvanı işğal altına aldılar. Bununla belə, Şah Abbas iki dövlət arasında yenidən sülh anlaşmasının əldə edildiyini yazır və buna görə də yaradana şükür edirdi. İki dövlət arasında yeni müharibənin başlanmasının səbəbini isə Şah Abbas Osmanlı tərəfində görürdü. O yazırdı ki iki dövlətin sərhədi arasında Nəhavənd qalası var idi və bu qala Osmanlı qüvvələrinin əlində idi. Əldə edilmiş razılaşmaya əsasən bu qala geri qaytarılmalı olduğu halda Osmanlı tərəfi bu razılaşmaya riayət etmədi. Həmin qala isə ətraf bölgənin inanlarının narahatçılıqlar keçirməsinə səbəb olurdu. Şah Abbas yazırdı ki, onun fərmanına əsasən Həmədan hakimi həmin qalanı ələ keçiriərək yerlə yeksan etdi. Bundan sonra isə Şah Abbas Azərbaycan üzərinə qoşun çəkməsi haqqında yazırdı. O qeyd edirdi ki, belə bir qərar qəbul ediləndən sonra qızılbaş qoşunları İsfahandan Təbrizə qədər qırx günlük yolu on gün ərzində başa vurdular və Azərbaycana yetişdilər. Şah Abbas onu da yazırdı ki, qızılbaş qoşunları Təbriz

ətrafına yetişəndə Osmanlı sərkərdəsi və qoşunları kürd qüvvələri ilə döyüşmək üçün şəhərdə deyildilər. Onlar qızılbaş qüvvələrinin yaxınılaşmasını eşidib geri qayıtsalar da Təbriz şəhərini daha qızılbşların əlindən ala bilmədilər. Məktubda yazılana görə, baş verən döyüşdə on min Osmanlı atlısı qətlə yetirilmişdi. Təbriz qalasından ələ keçirilmiş qənimət haqqında da Şah Abbas məktubda açıqlama vermişdi. Həmin qənimət arasında 2 min ədəd top, 5 min ədəd tüfəng, 100 min mənn ağırlığında barıt, on illik azuqə ehtiyatı və başqaları var idi. Şah Abbas sonra yazırdı ki, Təbriz şəhəri ələ keçirildikdən sonra Naxçıvan, İrəvan və Azərbaycanın digər qalaları üzərinə yürüş edildi. Onun yazdığına görə, bu qalaların hamısı kifayət qədər möhkəmləndirilmiş və təchiz edilmiş qalalar idi. Şah Abbas İrəvan qalasının daha möhkəm bir qala olduğunu qeyd edirdi. Buna baxmayaraq həmin qala da qızılbaş qüvvələrinin fədakarlığı nəticəsində Osmanlı qoşunlarından azad edildi. Şah Abbas yazırdı ki, bu yürüşə başlamaqda onun başlıca məqsədi Səfəvi dövlətinin əvvəlki sərhədlərinin bərpa edilməsi idi. Ona görə də İrəvan qalası tutulduqdan sonra Şirvan və Gəncə üzərinə yürüş təşkil edildi. Məktubda qeyd edilirdi ki, Əkbər şahın elçisi Mir Məhəmməd Məsum da məhz bu döyüşlərin gedişində Şah Abbasın görüşünə gəlib çıxmışdı (183).

Türkdilli araşdırmalarda haqqında danışılan məktubun qismən tərcüməsi aşağıdakı kimi verilmişdir: “Anadolu sultanları ucalar ucası yurtlu Şah dədəm[Tahmasib] ilə nəsildən nəslə arada artıq muxalifət olmaması yönündə barış və andlaşma şərtlərini sağlam bir iman üzərində qurmuşlardı. Cənnət məkanlı bu qulların ölümündən sonra uca qızılbaş firqələri arasındaki ixtilafları bəhanə edərək onlar fürsət buldular və Azərbaycan ilə Şirvanı almağa yönəldilər. ...Biz, Osmanlı Dövləti ilə öncədən andlaşma yapmışdık. Amma onlar bu andlaşmanı yoksayıb, Nəhavəndə qədər toprağı alıb, ələ keçirdikləri yerləri təxrib etdilər. Bu xüsusda öz sədaqatsizliklərini göstərmişdilər. Səltənət və hökumət namusunun paramparça olmasına dayanmayıb, həmən bölgəyə ordu sövq edib, 40 gün içində Təbriz və həvalisini fəth etdik. Böyləcə

Osmanlı əsgərləri bu bölgələrdən geri çəkilmişdir. Bu savaşda təxminən 10.000 düşmən süvarisi bizim qılıcımızla ölmüşdür. Bizim ordumuz Təbriz qalasını hücuma məruz qoyub, 20 gün içində almışdır. Bu qalanın fəthiylətəxminən 2000 top, 5000 tüfəng, 100.000 men (83.300 kg) barıt, 10 illik yeyəcək və malzəmə əlimizə keçmişdir. Buradan İrəvan, Naxçivan və Azərbaycanın sair qalalarına doğru hərəkət etdik. Düşməni buralarda da məğlub edib, adı keçən bölgələri təsərrüfümüz altına aldıq. Biz, öncədən andlaşma yapıb, hüdudumuzu bəlli etmişdik. Gəncə və Şirvanı aldıqdan sonra artıq yeni hüdud özlüyündə ortaya çıxmışdır. Bu anda isə biz barışa hazırıq. Artıq daha çox insanın ölməsini istəmirik. Bu savaşda iki tərəfdən də çox insan ölmüşdür. Yaxlaşıq 30.000 insan, 12.000 at və 7.000 dəvə bu qalada məhsur qalmış idi. Fəthdən sonra qalalara yetərli yiyəcə əşyaları qoyduq. Bu şəkildə bir fəth hərəkatı heç bir İran şahına nəsib olmamışdır. Osmanlıdan bizə aid olan bütün qalaları aldıq. Bu anda isə onlardan cavab gözləyirik. Barışa hazırıq. Sizə Tanrıdan güç və sağlıq diləyirik" (184).

Bu məktub Əkbər şahın sağlığında Şah Abbas tərəfindən ona ünvanlanmış sonuncu məktub oldu. Həmin məktub 1605-ci ildə Əkbər şaha təqdim olundu. Elə 1605-ci ildə də Əkbər şah dünyasını dəyişdi və onun yerinə oğlu şahzadə Səlim səltənət taxt-tacına sahib oldu. Moğol imperiyasının yeni şahı tarixdə həm də Nurəddin Məhəmməd Cahangir şah kimi də məşhurdur. Mənbələrdə mövcud olan sənədlərdən məlumdur ki, Əkbər şah hələ dünyasını dəyişməzdən əvvəl onun övladlarından biri olan şahzadə Danial da 1603-cü ildə Şah Abbasa məktub yazmışdı. Məktubun məzmunundan aydın olur ki, Şah Abbasın elçisi Mənuçehr bəy Moğol sarayında olarkən şahzadə Danial onunla davamlı təmasda olmuş və onun vasitəsi ilə Şah Abbas haqqında da geniş məlumat əldə edə bilmişdi. Məktubun məzmunundan o da aydın olur ki, şahzadə Danial Şah Abbasın yanına Bahadur bəy adlı öz elçisini göndərmişdi. Məktubu da Səfəvi sarayına Bahadur bəy çatdırmışdı. Şahzadə Danial öz məktubunu Şərq ənənlərinə uyğun olaraq yaz-

mışdı. Onun məktubunun əvvəlində Allahın vəsfinə, Şah Abbasın tərifinə kifayət qədər yer ayrılmışdı. Sonra isə məktubda iki dövlət arasındakı dostluq münasibətlərindən söhbət açılırdı. Şahzadə Danial yazırdı ki, bu dostluq barəsində geniş danışmağa elə bir ehtiyac yoxdur. Çünki iki dövlət arasındakı dostluq əlaqələrinin möhkəm olması çoxlarına bəllidir. Şahzadə Danial ona da ümid etdiyini bildirirdi ki, bu dostluq əlaqələri gələcəkdə daha da möhkəmlənəcəkdir. Məktubda şahzadə Danial son zamanlar əldə etdikləri hərbi uğurlardan da söz açılırdı. O özünün bu hərbi yürüşlərdə iştirak etdiyinə toxunurdu. Onun yazdıqlarından aydın olur ki, Əkbər şah onu hərbi yürüşə göndərilən əsas qoşun dəstəsinə rəhbər təyin etmişdi. Şahzadə Danial da bu tapşırığın öhdəsindən lazımınca gəlmiş və böyük uğura sahib olmuşdu. Şah Əkbər də onu bu uğuruna görə mükafatlandıraraq Xandeş vilayətinin hakimi təyin etmişdi. Məktubdan aydın olur ki, yalnız adı çəkilən vilayət deyil, bir neçə başqa vilayətlər də şahzadə Danialın hakimiyi altına verilmişdi. Məktubdan aydın olur ki, şahzadə Danial öz elçisini və şəxsi hədiyyələrini Mənuçehr bəylə birlikdə Şah Abbasa göndərmişdi (185).

Moğol hakimiyyətinə sahib olmuş Cahgangir şahla da Şah Abbasın yaxşı münasibətləri var idi. Yuxarıda qeyd edildiyi kimi, onların məktublaşması haqqında bəzi məlumatlar mövcud idi. Elmitarixi dövriyyədə olan tarixi sənədlərdən də aydın olur ki, 1603-cü ildə Şah Abbasla Şah Səlim (Cahangir şahla) arasında da yazışma olmuşdu. Mövcud məlumata görə, həmin il Şah Səlim öz ticarət adamını Səfəvi dövləti ərazisinə göndərmişdi ki, ona gərəkli olan əşyalar və malları alıb gətirsin. Bu məsələdən Şah Abbas xəbər tutanda həmin ticarət adamını saraya dəvət etdi və Şah Səlimin bütün sifarişlərinin icrasını öz üzərinə götürdü. Hind taciri geri qayıdanda Şah Abbasın Şah Səlimə məktubunu da apardı. Həmin məktubun məzmunundan aydın olur ki, əvvəllər də Şah Səlimin adamı gəlib Səfəvi ərazisində lazım olan əşyaların alışı ilə məşğul olmuşdu. Şah Abbas buna öz təəssüfünü bildirirdi ki, həmin adamın gəlişindən xəbəri olmamışdı. O arzu etdiyini bildirirdi ki, belə

məsələlərlə bağlı ona xəbər göndərilsin və o da lazım olan sifarişləri icra etsin. Məktubda daha sonra Şah Abbas hələ Şah Təhmasibin dövründən başlayaraq iki dövlət arasında xoş münasibətlərin olmasından söz açır və həmin münasibətlərin qorunub saxlanmasına tərəfdar olduğunu qeyd edirdi. Şah Abbas bu məktubda Əkbər şahın iki dövlət arasındakı münasibətlərin inkişafına soyuq yanaşdığını da Şah Səlimin nəzərinə çatdırırdı. Dediyinin sübutu kimi, Şah Abbas hind sarayına göndərdiyi elçisinin neçə il ərzində orada saxlandığını bildirirdi. Səfəvi şahı onu da bildirirdi ki, Bəlx üzərinə hücum zamanı Əmir Teymura aid olan maraqlı bir sənəd əldə etmişdir. Bu sənəd Əmir Teymurla Səfəvi şeyxləri arasında yaxşı münasibətlərin olmasından xəbər verirdi. Şah Abbas hind şahını və onun varislərini Əmir Teymur nəslindən sayırdı və Bəlxdə tapılan sənədi də Şah Səlimə göndərməklə demək istəyirdi ki, onların mənsub olduqları nəslin təmsilçiləri daha qədim zamanlardan xoş münasibətlərə malik olmuşdular. Şah Səlim ona Şah Abbas tərəfindən göstərilən diqqəti məmnunluqla qarşıladı və Şah Abbasın məktubda ifadə etdiyi fikirlərə ortaq olduğunu çatdırmaq üçün öz əli ilə yazdığı məktubu Mir Ziyaəddin adlı birisi ilə Şah Abbasa göndərdi. Onun yazdığı məktub kifayət qədər müxtəsər məktub idi və ona görə də Şah Səlim bildirirdi ki, onun fikirlərini daha müfəssəl şəkildə Mir Ziyaəddin ona çatdıracaqdır (186).

İsgəndər bəy Münşi əsərində həm Əkbər şahın dünyasını dəyişməsi, həm də Cahangir şahın şah elan olunması haqqında məlumat vardır. Həmin məlumatdan aydın olur ki, Cahangir şahın oğlu Sultan Xosrovun da taxt-tac iddiası var imiş: "Bu il baş verən hadisələrin biri də uca məqamlı Cəlaləddin Məhəmməd Əkbər padşahın vəfatıdır. Hadisənin şərhi belədir: Bu il ali məqamlı [Əkbər padşah] – geniş Hindistan məmləkətlərinin hökmranı, o dudman dövlətinin mərkəzi olan Aqra (Əqrə) şəhərində xəstələndi, natəvanlıq yatağına düşdü. [Quranın] qiymətli ayəsində buyurulduğu kimi "əgər onların əcəli çatarsa, nə bircə saat ondan önə keçə, nə də geri qala bilərlər" təbiblərin müalicəsinin faydası olmadı, fani

aləmi tərk edib ölməz cahana tələsdi. Kamkar və ad-sanlı şahzadə olan şahzadə Səlim – padşahın böyük oğlu elə həmin günlərdə atası ilə görüşməkdən ötrü Allahabaddan çıxıb Aqraya gəlmişdi. O, hələ çayın kənarına gəlib çatmışdı ki, bu dəhşətli (hayele) hadisə baş verdi. Əksər əmirlər və dövlət əyanları o vaxtlarda öz izzəfli və böyük babasının yanında yaşayan Sultan Xosrovun – Şahzadə Səlimin oğlunun padşah olmasını istəyirdi. O sülalənin mötəbər əmirləri Şeyx Fərid Bəxşi və dövlətin bir-iki ağıllı başçısı həmin əmir və əyanlara qarşı çıxaraq, şahzadə Səlimin yanına getdilər, onunla görüşdülər. [O vaxt] başqa əmirlərə və dövlət başçılarına zahir oldu ki, böyük oğulun sağ olduğu halda oğulzadənin (pesərzadə) taxta çıxarılması çətin ola bilər. Onlar həmin istəkdən daşındılar və Şah Səlimin hökmdarlığına razı oldular" (187).

Cahangir şahın Moğol taxt-tacına yiyələnməsi ilə Səfəvi-hind münasibətlərində yeni bir səhifə açıldı. Şah Abbas iki dövlət arasında xoş münasibətlərin saxlanmasına tərəfdar olsa da, Qəndəhar məsələsinin həllini də diqqətdən kənarda qoymurdu. Əkbər şahın hakimiyyəti illərində Şah Abbas bu məsələyə dözümlü yanaşırdısa, yeni şəraitdə bu məsələnin həlli üçün dərhal cəhd göstərildi. Belə ki, Cahangir şahın hakimiyyətə gəldiyi 1605-cü ildə Herat hakimi olan Hüseyn xan Şamlı, Sistan və Fərəh hakimləri ilə birlikdə Qəndəhar üzərinə hücum çəkdilər və bu qala-şəhəri mühasirəyə aldılar. Qeyd edilməlidir ki, Qəndəhar qalası kifayət qədər möhkəm bir qala idi və onun çox etibarlı müdafiə imkanları var idi. Bundan başqa qalanın hind hakimi olan Şahibəy xan da qalanın möhkəmləndirilməsi üçün müəyyən tədbirləri həyata keçirmişdi. Bu qala təxminən bir ilə yaxın mühasirə altında saxlandı. Qalanın müdafiəsinin gücləndirilməsi üçün Cahangir şah tərəfindən Mirzə Qazinin rəhbərliyi altında əlavə qüvvələr göndərildi. Bu zaman Şah Abbas qızılbaş qoşunları ilə Azərbaycanda Osmanlı qüvvələrinə qarşı mübarizə aparırdı. Qəndəhar ətrafında mürəkkəb vəziyyətin yaranmasından xəbər tutanda o, Hüseyn bəy adında olan əmirlərindən birini ora göndərdi və mühasirənin dayandırılmasına əmr etdi. Şah Abbas bu məsələ ilə bağlı Cahangir

şaha da xəbər göndərdi və qızılbaş əmirlərinin Qəndəhar üzərinə hücumundan xəbərsiz olmasını və bu qalanın Şahibəy xan tərəfindən idarə edilməsinə etiraz etmədiyini bildirdi (188).

Şah Abbasın Qəndəhar üzərinə hücumdan xəbərsiz olması şübhəli görünə bilər. Çünki onun razılığı olmadan qızılbaş əmirləri yəqin ki, belə böyük və uzun sürən yürüşə başlamazdılar. Amma əsas diqqətin Osmanlı qoşunları ilə mübarizəyə yönəldiyi üçün Şah Abbas bu məsələnin həllini yenidən təxirə salmağı üstün tutdu və bir də on altı ildən sonra Qəndəharın geri qaytarılması ilə bağlı qətiyyətli hücuma əl atdı. Amma İsgəndər bəy Münşi israr edirdi ki, Şah Abbasın bu hücumdan xəbəri yox idi. Onun fikrincə, Şah Abbas istəsəydi elə o vaxt çox asanlıqla bu qalanı ala bilərdi. İsgəndər bəyin yazdığına görə, Şah Abbas hələ belə bir zamanın yetişmədiyi qənaətində idi. Xüsusilə, Əkbər şahın ölümündən dərhal sonra belə bir işə əl atılmasını o, düzgün saymırdı. İsgəndər bəy bu hadisə haqqında belə yazırdı: "Baxmayaraq ki, mülk tutmaq kimi vacib bir işdə zəruri olan kiçik bir hücum və işarə ilə həmin qala asanlıqla alına bilərdi, lakin bu tərəf [o tərəfə] hələ dostluq (vedad) tələbinə uyğun olaraq Cəlaləddin Məhəmməd Əkbərin [vəfatı] münasibətilə öz başsağlığını bildirməmişdi. Buna görə də [şah] kəmfürsət adamlara xas olan həmin əməlin (qalanın mühasirəyə alınmasını) insanlıqdan uzaq bir məsələ olduğunu düşündü, bunu əzəmətli əmirlərə qadağan etdi, həmin ali sülalə tərəfindən Qəndəhar hakimi olan və qalada mühasirədə qalan Şahibəy xan Cığataya dostanə və nəvazişli bir məktub və fərman yazaraq, şamlıların xudabəndə tayfasından olan Hüseyn bəy adlı bir şəxslə göndərdi: [Məktubda yazmışdı:] "Bizimlə o ali məqamlı həzrət padşah arasında məhəbbət və qardaşlıq əlaqəsi mövcud olduğu üçün həmin ülka və məmləkətlərdən keçirik. Qoy o (Şahıbəy xan Cığatay), arxayınlıqla həmin mülki idarə etməklə məşğul olsun". Amma, gözləyirdilər ki, (motərəssed) bu mötəbər elçinin göndərilməsindən və qala hakiminin xatircəm edilməsindən sonra həzrət şah sabiq və hazırkı sədaqət, dostluq və insanlıq qayda-qanununa

rəğmən Qəndəhar qalasının yenidən onların ixtiyarına qalması ilə razılışmayacaqdır" (188a).

Osmanlı qoşunlarına qarşı mübarizəni başa çatdırandan sonra Şah Abbas hind sarayına öz elçisini göndərmək qərarına gəldi. Bu zaman Əkbər şahın dünyasını dəyişməsindən və Cahangir şahın da hakimiyyətə gəlmsəindən üç il ötmüşdü. Şah Abbas nəzərdə tutmuşdu ki, göndərdiyi məktubla həm xoş münasibətlərdə olduğu Əkbər şahın vəfatı münasibətilə başsalığı versin, həm də Cahangir şahın taxta çıxması ilə əlaqədar öz təbriklərini çatdırsın. Başlıcası isə Qəndəhar üzərinə hücumla yarana biləcək narazılıqlar aradan qaldırılsın.

Bir məlumata görə, hələ Qəndəharın mühasirəsinin dayandırılmasından dərhal sonra Şah Abbas tərəfindən Hüseyn bəy adlı birisi Cahangir şahın yanına göndərildi. Hüseyn bəy Lahurda Cahangir şahın qəbuluna düşə bildi. Hüseyn bəy Şah Abbas adından Cahingir şaha Əkbər şahın dünyadan köçməsi münasibətilə başsağlığı çatdırdı. Eyni zamanda Cahangir şah da Şah Abbasa məktub göndərdi və həmin məktubda iki dövlət arasında mövcud olan münasibətlərin möhkəmləndirilməsi üçün Səfəvi sarayından mötəbər bir elçiliyin gəlməsi arzusunu ifadə etdi (189).

Şah Abbasa göndərdiyi məktubunda Cahangir şah protokol qaydasında Səfəvi elçisinin gəlməsinə çox sevindiyini bildirirdi. Cahangir şah iki dövlət arasında münasibətlərin möhkəmləndirilməsinə bir daha tərəfdar olduğunu və bununla bağlı Səfəvi sarayından gələcək daha mötəbər bir elçiliyin yetişməsini gözlədiyini bildirirdi. Bununla belə, Cahangir şah gizli şəkildə də olsa öz narahatçılığını ifadə etməkdən çəkinmədi. Belə ki, o, Səfəvi elçisinə geri qayıtmaq icazəsi vermədi və bunu onunla izah etdi ki, şah elçisi gərək dövlət adına layiq şəkildə yola salınsın. Cahangir şah səltənət paytaxtında olmadığını yazaraq geri qayıdan kimi elçi məsələsinə yenidən qayıdacağını yazırdı.

Məsələyə səbirli və təmkinli münasibət Şah Abbas tərəfindən də nümayiş etdirildi. Çünki onun tərəfindən elan edilmiş elçilik heyəti Səfəvi sarayı tərəfindən bir də 1610-cu ildə yola salındı.

Elçilik heyətinə rəhbərlik Şah Abbas tərəfindən Yadigar Əli sultana tapşırıldı. Yadigar Əli sultan Talış bölgəsinin tanınmış və nüfuzlu əmirlərindən biri idi. O bir müddət Bağdadın hakimi olmuşdu. Zəkalı, təcrübəli bir insan olduğu üçün o, Hindistana göndərilən böyük elçilik heyətinin rəhbəri təyin edildi. Yadigar Əli sultan həm Şah Abbasın məktubunu, həm də onun qiymətli hədiyyələrini Cahangir şaha çatdırmalı idi. 50 nəfər atlı bu elçilik heyətinin müşayiət etməli idi. Qəndəhar yolu ulə Hindistana yollanan bu atlıların atları xüsusi seçilmiş atlar idilər və hər bir atlı da qiymətli paltar geyinməklə bellərinə daş-qaşla bəzədilmiş qılınc bağlamışdılar. İsgəndər bəy Münşi bu elçilik heyətinin təşkili və onun apardığı qiymətli hədiyyələr haqqında belə yazırdı: "...artıq üç il idi ki, Hindistanın hökmdarı Cəlaləddin Məhəmməd Əkbər üqba aləminə yollanmış, böyük oğlu Məhəmməd Səlim öz qiymətli atasının qayimməqamı olmuşdu. Həmişə bu iki sülalə arasında mövcud olmuş və indii də davam edən dostluq rabitəsi və məhəbbətə görə, şahın ürəyindən keçdi ki, uca qızılbaş tayfasının mötəbər bir tayfa üzvünü mərhum padşahın təziyəsi və onun əziz oğlunun taxta cülus etməsinin mübarəkbadlığından ötrü o diyara yollasın. Amma, Azərbaycan və Şirvan yasaqı ilə bağlı böyük işlərin mövcudluğu səbəbindən bu işə fürsət tezliklə yaranmadı. Əlahəzrət gündən-günə böyüyən səltənət paytaxtında olduğu bu günlərdə isə onun işıqlı yaddaşına həmin məsələ düşdü: O, izzət məclisinin işlərindən agah, həmçinin səltənət büsatının iş bacaran hər üzvünü bir-bir xəyalından keçirdi və fikri qızılbaş tayfası mirzədələrindən olan yüksək əmir məqamlı cənab Yadigar Əli Sultan Talışın üzərində dayandı. Bu şəxs cənnət aşiyanlı Süleyman şanlı xaqanın dövründəki xəlifətül-xüləfanın nəvəsi idi ki, babası bir müddət Bağdad darüssalamının hakimi olmuşdu. Yadigar Əli Sultan biliyi, fəsahəti və dilli-dilavərliyi ilə hamıdan üstün idi və şah onu [Hindistana] risalət və səfarətə təyin etdi, möhtərəm atanın təziyəsi və hümayun cülusun təbriki münasibəti ilə məhəbbətli bir məktub yazıldı, cənab elçi isə ləyaqətlə bu səfərin hazırlığı işinə başladı. Hamısı bədov atlara minmiş, gözəl kəmər və yarağa sahib

əlli nəfər ağa və mülazim nizamlı şəkildə və tam təmtəraqla yola düşərək Qəndəhar yolu ilə məqsəd istiqamətinə rəvan oldu. Hədiyyə şəklində göndərilən töhfə və hədiyyələr arasında əlli baş qıvraq ərəb, gürcü və bəyati at vardı ki, onlar xasseyi-şərifə ilxılarında yetişdirilmişdi və heç bir ad-sanlı padşah sərkarının onlara bənzər atları ola bilməzdi. Bundan başqa zərlə işlənmiş və məxmərdən hazırlanmış çullar (çol), layiqli silahlar urus vilayətindən gətirilmiş və hər biri həştad tümən və doxsan tümənə-şahiye-İraqi dəyərində qiymətləndirilmiş qara və uzun tüklü urus kürkü (pustin) ki, nadir tapılan qara və uzun tüklü tülkü dərisindən hazırlanmışdı, həmçinin min beş yüz ədəd qızıl, gümüş saplarla tikilmiş gözəl məxmər, ipək, atlas paltarlar, Avropa (firəng) və Çin (Xətay) parçaları, Yəzd və Kaşan qumaşları, başqa layiqli, yaraşıqlı töhfə və hədiyyələr də vardı ki, əgər onlar haqqında təfsilatla yazılsa [siyahı] uzunmış olar" (190).

Şah Abbasın Cahangir şaha göndərdiyi məktubda ifadə olunan əsas məsələlər Əkbər şahın dünyasını dəyişməsi ilə bağlı başsağlığı vermək, Cahangir şahı hakimiyyətə başlaması ilə təbrik etmək, elçilik heyətinin göndərilməsinin ləngiməsinin səbəbini açıqlamaq və iki dövlət arasındakı dostluq münasibətlərinin davam etmısinə öz dəstəyini bildirmək idi. Məktub kifayət qədər səmimi bir dildə yazılmışdı və həmin məktub 1611-ci il aprel ayının 8-də Cahangir şaha təqdim olundu. Türkdilli araşdırmalarda bu məktubun qismən tərcüməsi aşağıdakı şəkildə verilmişdir: "Mən, Hind padşahının vəfatına çox üzüldüm. Amma o, cənnətə getdi və Tanrının dəvətinə icabət etdi. Bu fani dünyanı buraxıb, baqi dünyaya getdi. Amma onun yerinə Tanrı sevər və Tanrını bilən bir kimsə oturmuşdur. Biz bu üzüntünü sizin padşahlığınız sayəsində xoş hisslərə dönüştürdük. Əkbərin vəfatından sonra sizin yola daha güçlü bir şəkildə dəvam etmənizi diləyirik. Üzüntünü bir kənara bıraxıb, gün keçdikcə ölkənizi güçləndirmənizi və yaxşı yönətməyinizi diliyirik. Bizi də bir qardaş ölkə olaraq bilin. İki ölkənin gün keçdikcə bir-birinə yaxınlaşmasını Tanrıdan diləyirik. ...Tanrıdan, böyük padşaha [Şah Səlimə] müvəffəqiyyətlər diləyirik. Öz

ölkənizi inkiaf etdirməyinizi və irəliyə götürmənizi Tanrıdan niyaz edirik. Taxta keçməyinizi cani-könüldən təbrik edirik. Padşaha, Tanrıdan ölkəsində ədaləti və şəfqəti yaymasını diliyirik. Çox yaxşı bilirik ki, sizin soyunuz Gurkanilere [Timura] dayanmaqdadır. Məmləkəti yönətməkdə və irəli götürməkdə heç bir sıxıntı çəkməyəcyinizi düşünürük. Sizin səltənətə keçmənizi təbrik üçün tərəfimdən bir şəxsin göndərilməsi gərək idi. Fəqət Azərbaycan və Şirvan məsələsi bizi çox məşğul etdi. Bu səbəblə qüsurumuza baxmayın. Mən bu anda paytaxtdan uzaqda bu məsələlərlə məşğulam. Ədəb və ehtiram bunu icab etdirir ki, mənim bir təmsilçim sizi təbrik üçün orada olsun. Amma millətimin namusunu qorumaq və onları pis insanlardan qurtarmaq düşüncəsi önə keçdi. Fəqət İsfahana döndükdən sonra sarayımızın önəmli şəxsiyyətlərindən və mənim də yaxın qullarımdan olan Yadigar Əli Sultanı sizə göndərdim. Həm təbrik, həm də iki ölkənin bundan sonraki əlaqələri xüsusunda bu şəxs mənim vəkilim olaraq sizin ölkənizdə qalacaqdır" (191).

Şah Abbasın elçisi Cahangir şah tərəfindən çox böyük qonaqpərvərliklə və təntənə ilə qarşılandı. Cahangir şah özü də belə bir elçilik heyətinin gəlişinə sevindiyini bildirir və Şah Abbası da qardaşım deyə xatırlayırdı. Şah Abbasın göndərdiyi hədiyyələr də Cahangir şahın çox xoşuna gəlmişdi və o, bildirirdi ki, belə qiymətli hədiyyələri alandan sonra şah elçisinə 30 min rupi dəyərində olan bir xələt verib. Cahangir şahın dediyinə görə, bu xələtin Səfəvi pulu ilə bir min tümən dəyəri var idi (192).

Amma hadisələrin sonrakı gedişi göstərdi ki, Cahangir şahın Səfəvi şahının elçisinin gəlməsi ilə bağlı olan məmnunluğu bütöv deyil. O, Səfəvi dövləti ilə münasibətlərin korlanmasını istəmirdi. Amma bu münasibətlərin yeni səviyyəyə qaldırılması üçün də ümid edilın təşəbbüskarlığı nümayiş etdirmirdi. Çox güman ki, Qəndəharla bağlı olan hadisə Cahangir şahı Səfəvi dövləti ilə münasibətlərin daha da şəffaflaşdırılmasından çəkndirirdi. Elə buna görə idi ki, Cahangir şah onun sarayına gəlmiş Səfəvi elçisinin dərhal geri qayıtmasına icazə vermədi və bu elçini də bir neçə il

gözlətməyə məcbur etdi. Gözləməyə məcbur edilən yalnız Yadigar Əli sultan deyildi. Mənbələrdə olan məlumatlara görə, 1613-cü ildə hind sarayında iki Səfəvi elçisi geri qayıtmaq üçün icazə gözləyirdi (193). Çox güman ki, hələ də gözləməkdə olan Səfəvi elçilərinin biri də Yadigar bəydən əvvək Cahangir şahın görüşünə gəlmiş Hüseyn bəy idi.

İsgəndər bəy Münşinin yazdıqlarından aydın olur ki, Səfəvi sarayının elçisi Cahangir şahın sarayında gözlədiyi vaxt Hindistan ərazisində mövcud olan türk sultanlıqlarının hakimləri ilə Şah Abbas arasında elçilik mübadiləsi oldu. İsgəndər bəyin xatırlatdığı elçilik mübadiləsi 1613-cü ildə üç müsəlman-türk sultanlıqları ilə baş vermişdi. Bu sultanlıqlar Adilşahlar, Nizamşahlar və Qütbşahlar sultanlıqları (dövlətləri) idilər. Həmin sultanlıqlar öz müstəqilliklərini qoruyub saxlamağa çalışsalar da Cahangir şahın şah olduğu böyük səltənətin davamlı təzyiqləri altında idilər. Həmin təzyiqlərdən xilas olmaq üçün türk-müsəlman sultanlıqları Şah Abbasın da köməyindən yararlanmağa çalışırdılar. Bu məqsədlə bu sultanlıqlarla Səfəvi sarayı arasında elçilər mübadiləsi davam edirdi. İsgəndər bəy Münşinin əsərində bu məsələ belə təsvir olunmuşdur: "[Hadisələrin] biri Dekən Hindistanına elçilər göndərilməsidir. Böyük Dekən sultanlarının qədim vaxtlardan bu vəlayətnişan dudmana istək və sədaqətləri olmuşdur. Bir qədər bundan əvvəl, nəstəliq xətti yazmaqda zəmanə xoş nevislərinin ən üstünü və dövranın yeganəsi olan Xorasan vilayətinin əzəmətli seyidlərindən olan Mir Xəlilullah Xoşnevis Allahın təqdiri ilə Dekən vilayətinə gedib Bicapur valisi Adilşahın yanında qalmışdı. Çölkəndə valisi Məhəmmədqulu Qütbşah, habelə nizamsahiyyə sülaləsinin sepəhdarı (qoşun başçısı) Məlik Ənbər layiqli töhfələr və hədiyyələrlə cahanpənah dərgaha elçilər göndərib, Hindistan hökmranının fərmanı ilə onların məmləkətinə (Golkəndəyə) soxulan cığatay ləşkərinin zülmünə qarşı [şahdan] kömək istəmişdilər. Müqəddəs səfəviyyə və ali teymuri sülaləsinin həzrət padşahları arasında daim məhəbbət, ülfət (vedad), səmimiyyət (movəddət) və vəhdət mövcud olduğu üçün, əlahəzrət zilləllah şah və Hindistan

məmləkətlərinin əzəmətli həzrət padşahı Səlimşah öz mərhum atalarından daha artıq sədaqət, dostluq, ülfət və qardaşlıq etməkdədirlər. [Səlimşah] əvvəlcə o həzrətə məhəbbətamiz bir məktub yazarak Dekən sultanlarının cəzalandırılmasını (sifariş) xahiş etdi ki, bu xahiş o həzrət tərəfindən razılıqla qarşılandı, onlara birbirləri ilə düşmənçiliyi tərk etməyi tapşırdı. Buna görə də bu il Hüseyn bəy Qeyçaci Təbrizi-Qütbaşın, Dərviş bəy Mərəşini Nizam şahın, Məlik Ənbəri və Şahqulu bəy Zəyəki-Adilşahın yanına elçi təyin etdi, onlara inayət üslublu məktublar yazıb, gözəl xələtlər, atlar və qiymətli hədiyyələr göndərdi" (194).

1613-cü ildə Səfəvi dövləti ilə Moğol sarayı arasında da böyük bir elçilik heyətinin mübadiləsi oldu. Təxminən iki ik yarım Moğol sarayında geri qayıtmaq icazəsi gözləyən Yadigar Əli sultan həmin ildə belə bir icazəni ala bildi. Onunla birlikdə Cahangir şahın da böyük bir elçilik heyəti Səfəvi sarayına yola salındı. Həmin elçilik heyətinə Xanaləm kimi tanına Mirzə Bərxudar rəhbərlik edirdi. Amma bu elçilik heyəti Səfəvi sarayına doğru xeyli ləng hərəkət edirdi və bu heyət bir də təxminən altı ildən sonra Şah Abbas tərəfindən şah sarayında rəsmi olaraq qəbul edildi. Bu heyətin səfərinin davam etdiyi müddət ərzində Səfəvi və Moğol sarayları arasında bir neçə digər heyətlərin də mübadiləsi baş verdi.

Belə heyətlərdən biri Cahangir şah tərəfindən İstanbula göndərilən ticarət heyəti idi. Həmin heyətə Məhəmməd Hüseyn xan Çələbi rəhbərik edirdi. Məhəmməd Hüseyn xan İstanbula yollanmalı və oradan hind sarayı üçün gərəkli olan əşyaları və malları alıb gətirməli idi. Onun yolu Səfəvi ərazisindən düşdüyü üçün Cahangir şah bir məktub yazıb Şah Abbasa çatdırmasını tapşırdı. Məhəmməd Hüseyn xan eyni zamanda hind şahının hədiyyələrini də Səfəvi şahına təqdim etməli idi. Şah Abbas bu məktubu da və hədiyyəlrəi də məmnunluqla qəbul etdi. Amma biləndə ki, Məhəmməd Hüseyn xan nə məqsədlə İstanbula gedir, onda onun almalı olduğu əşyaların siyahısının verilməsini istədi. Həmin siyahını aldıqdan sonra Eyvaz bəy Topçuya tapşırdı ki, siyahıda olanların hamısını tapıb hind sarayına göndərmək üçün hazırlasın.

Eyvaz bəy də verilən tapşırığı yerinə yetirdi və Məhəmməd Hüseyn xanın da daha İstanbula getməsinə bir ehtiyac qalmadı. Eyvaz bəyə eyni zamanda Şah Abbas tərəfindən belə bir tapşırıq verildi ki, həmin malları və şah məktubunu hind sarayına çatdırsın. Cahangir şah Şah Abbasın bu iltifatını böyük məmnunluqla qarşıladı. O, sonradan "Cahangir tüzüyü" adlanan əsərində həmin məmnunluğunu belə bölüşürdü: "Cəvahir allınması və və töhfələrin çatdırılması üçün Məhəmməd Hüseyn Çələbiyə bir miqdar zər verib yola saldım. Qərara alınmışdı ki, o, İraq yolu ilə İstanbula getsin və oradan bizim üçün yaxşı və nəfis töhfələr alıb gətirsin. Bu zaman lazım idi ki, İran hakimi ilə görüsün. Ona bir kitab və xatirə hədiyyələri də vermişdim. Beləliklə, Məşhəd ətrafında o, qardaşım Şah Abbasla görüşür. Şah ondan soruşur ki, hind şahı üçün nəyin alınması ona tapşırılmışdır. Şah soruşanda Məhəmməd Çələbi də yanında olan siyahını ona göstərir. Bu siyahıya yaxşı mirvarilər və İsfahan mumiyası da daxil idi. Buyurur ki, bu iki əşyanın alınması mümkün deyil və mən bunları ona göndərəcəyəm. O, tanınmış xidmətçilərindən olan Üveysə (Eyvaz nəzərdə tutulur – M.S.) tapşırıq verir ki, altı ədəd firuzə, ... 14 tulə mumiya, 4 baş İraq atı, habelə əvvəldən yazmış olduğu məktubu mənə çatdırsın. Bu məktubda dostluq və məhəbbətdən çox yazılmışdı, həm də üzürxahlıq edirdi..." (195).

1614-cü ildə şah elçisi vəzifəsini öz üzərinə götürmüş Robert Şerlinin də Cahangir şahın qəbulunda olması haqqında məlumat vardır. Robert Şerli Şah Abbas tərəfindən elçi kimi Avropa dövlətlərinin hakimlərinin yanına göndərilmişdi. Bir məlumata görə, Robert Şerli Avropadan geri qayıdarkən yolunu Hindistandan saldı və Cahangir şahın da qəbulunda oldu. Robert Şerli orada Şah Abbasın elçisi kimi qəbul olundu və o, iki dövlət arasnda münasibətlərin möhkəmləndirilməsi məsələləri ətrafında öz fikirlərini ortaya qoydu (196).

1615-ci ildə Şah Abbas tərəfindən də bir ticarət heyəti Hindistana göndərildi. Bu heyətə Xacə Əbdülkərim adlı bir tacir rəhbərlik edirdi. Xacə Əbdülkərimə tapşırıq verilmişdi ki, Səfəvi

sarayının marağında olduğu bəzi əşyaları və malları oradan alıb gətirsin. Şah Abbas ona eyni zamanda bir məktub da vermişdi ki, Cahangir şaha çatdırsın. Bu məktuba Cahangir şahın marağında olduğu bəzi qiymətli əşyalar da hədiyyə kimi əlavə olunmuşdu. Həmin hədiyyələr arasında Yəmən əqiqindən hazırlanmış təsbih və Venesiyada hazırlanmış bir ədəd kasa var idi. Şah Abbas məktubda Xacə Əbdülkərimi özünün etibarlı xidmətçilərindən biri kimi təqdim edirdi və Cahangir şahdan da xahiş edirdi ki, verilən tapşırığın icrası üçün ona müşayiətçi təyin etsin (197).

Xacə Əbdülkərimin hind səfərinin nəticələri haqqında mənbələrdə yetərli məlumat yoxdur. Çox güman ki, bu heyət öz səfərini yaxşı başa vurmuşdu. Yəqin elə bunun nəticəsi idi ki, 1616-cı ildə Şah Abbas yeni bir elçilik heyətini hind sarayına yola saldı. Bu elçilik heyətinin tərkibi kifayət qədər böyük idi və ona Məhəmməd Rza bəy adlı birisi rəhbərlik edirdi. Həmin heyət özü ilə həm Şah Abbasın məktubunu, həm də Cahangir şah üçün nəzərdə tutulmuş qiymətli hədiyyələri aparırdı. Məhəmməd Rza bəyin heyəti 1616-cı ilin oktyabr ayında Əcmirdə Cahangir şah tərəfindən böyük bir sevinclə qəbul edildi. Bu qəbul zamanı Şah Abbasın məktubu Cahangir şaha təqdim olundu. Məktub kifayət qədər uzun bir məktub idi və onun böyük hissəsi ənənəvi tərif və vəsflərə həsr olunmuşdu. Şah Abbas hind sarayının elçisi olmuş Məhəmməd Hüseyn Çələbinin Səfəvi dövləti ərazisində olmasına toxunmuş və ona göstərilən ehtiramdan söz açmışdı. Şah Abbasın məktubundan aydın olur ki, Cahangir şah öz elçisi Məhəmməd Hüseyn Çələbinin vasitəsilə Səfəvi xəzinəsinə məxsus olan və üstündə Cahangir şahın əcdadlarının adı yazılmış böyük yaqut daşını əldə etmək istəyirmiş. Bildirilir ki, həmin ləl və yaqut daşlar vaxtilə Teymurilər xəzinəsinə məxsus olmuş və sonralar Səfəvi xəzinəsinə düşmüşdü. Şah Abbasın apardığı araşdırmadan sonra aydın olur ki, həmin daş Həzrət Əlinin Nəcəfdəki türbəsinin mülkiyyətindədir. Belə olanda Şah Abbas müctəhidlərlə məsləhətləşmə aparır və həmin yaqutun Nəcəfin mülkiyyətindən çıxarılması üçün bir razılıq əldə edir. Şah Abbas məktubunda yazırdı ki, bu daşın apa-

rılması üçün Avropadan xüsusi qab gətirilib və zərgərlərin daş üzərindəki bəzək işləri başa çatandan sonra Cahangir şaha göndəriləcəkdir. Bir məlumata görə isə, Şah Abbas həmin yaqut daşı Avropadan gətizdirdiyi qiymətli qutunun içərisinə qoyaraq Cahangir şaha göndərdi (198). Amma elə Şah Abbasın göndərdiyi məktubdan da aydın olur ki, haqqında danışılan yaqut daşı sonradan Cahangir şaha göndərilmişdi: "...Bir neçə qiymətli cəvahiratın, xüsusilə də bizim sarayımızda olan bir neçə ləlin və onların arasında sizin əcdadınız adını yazılmış olduğu daşın satın alınması ilə bağlı Çələbiyə bildirildi ki, həmin daşlar müqəddəs Nəcəfin mülkiyyətindədir. Ona buyurulmuşdu ki, bu diyarda hər hansı bir işi olsa, onunla bağlı fikirləşmədən bizə müraciət etsin. ...Üləma və sədrlərlə məsləhətləşmədən sonra müqəddəs məkandan alındı, Avropadan bizim üçün gətirilmiş olan həmin daşa layiq olan qutunun içərisinə qoyuldu" (199).

Məhəmməd Rza bəy altı aya yaxın hind sarayında qaldı və 1617-ci ilin martında Cahangir şahın icazəsi ilə geriyə hərəkətə başladı. O özü ilə Cahingir şahın Şah Abbasa ünvanladığı məktubu və qiymətli hədiyyələri də gətirirdi. Yolda ikən Məhəmməd Rza bəy dünyasını dəyişdi. Belə olanda onun səfər yoldaşlarından olan Məhəmməd Kazım bəy adlı birisi elçilik heyətinə və Cahangir şahın göndərdiyi əşyaların Şah Abbasa çatdırılmasına rəhbərliyi öz üzərinə götürdü (200).

Şah Abbasın Cahangir şahla məktublaşmasından məlum olur ki, həmin vaxtlarda Səfəvi tacirlərindən biri Osmanlı ərazisinə səfər etmiş və oradan xeyli sayda qiymətli daşlar alaraq satmaq üçün gətirmişdi. Belə daşların Səfəvi dövləti daxilində alıcıları çox idi. Hətta Şah Abbasın məktubundan da göründüyü kimi, Səfəvi ərazisinə gəlmiş avropalı tacirlər də belə daşlara böyük maraq göstərirdilər və onları alırdılar. Şah Abbas məsələdən xəbərdar olanda həmin daşların satılmasına icazə vermədi və onların hamısını Cahangir şaha göndərdi ki, hind şahı tərəfindən alınsın. Çünki Cahangir şahın da belə daşlarla yaxından maraqlandığını Şah Abbas bilirdi. Bu baraədə Şah Abbas Cahangir şaha göndərdiyi

məktubunda da yazırdı. Həmin məktubunda Şah Abbas başqa bir məsələni də Cahangir şahın nəzərinə çatdırırdı. Belə ki, Şah Abbasın tapşırığı ilə Həzrət Əlinin türbəsi üçün qiymətli daşlarla bəzədilmiş bir qutu düzəldilmişdi. Nəzərdə tutulmuşdu ki, həmin qutu Həzrət Əlinin Nəcəfdəki ziyarətgahına göndərilsin. Lakin sonradan belə bir qərar qəbul olundu ki, həmin quru üzərindəki qiymətli daşlar satılsın və əldə edilmiş vəsait Həzrət Əli türbəsinin abadlaşdırılmasına xərclənsin. Şah Abbas din xadimlərinin bununla bağlı təklifini qəbul etdi. Lakin həmin daşlar arasında mövcud olan beş ədəd ən bahalı yaqut daşının ayırdı və bu daşların qiyməti ilə bağlı Cahangir şaha məlumat göndərdi. Onun nəzərinə çatdırdı ki, əgər bu qiymətli daşları almağa maraqlıdırsa, onda öz nümayəndələrini göndərsin və onlar da vəqf mülkiyyətinə nəzarət edən din xadimlərinin hüzurunda həmin daşları alsınlar (201).

Bu məktubda irəli sürülən təklifin Cahangir şah tərəfindən qəbul edilib-edilməməsi haqqında məlumat söyləmək çətindir. Cahangir şahın qiymətli daşların alınmasına olan marağını nəzərə almaqla belə bir təklifdən boyun qaçırması yəqin ki baş verməzdi. Bu təklif həm də tərəflər arasında etimadın mövcudluğunun nümayişi idi və tərəflər səylə bu etimadın möhkəmləndirilməsinə çalışırdılar.

İki şah arasında mübadilə edilən məktublardan birində Əmir Teymurun nəvəzi Uluğ bəyin Səfəvi xəzinəsində saxlanılan üstürlabın Cahangir şaha hədiyyə edilməsindən söz açılmışdır. Məlumdur ki, Şah Abbas nücum elminə böyük maraq göstərirdi və təcrübəli münəccimlərin söylədikləri ilə hesablaşırdı. Cahangir şah da nücum elminə maraq göstərirdi. O həm də onun əcdadına məxsus olan üstürlabın əldə edilməsinə çalışırdı və bununla bağlı Şah Abbasın qarşısında məsələ də qaldırırdı. Cahangir şah tərəfindən Səfəvi sarayına göndərilən Hacı Rəfiq adlı birisi Şah Abbasın yanında təşkil olunmuş məclislərin birində Uluğ bəyin üstürlabı ilə bağlı Cahangir şahın xahişi səsləndirildi. Şah Abbas bu xahişi də qəbul etdi. O, fərman verdi ki, nücum alimləri və ustalar dərhal Uluğ bəyin üstürlabının surətini düzəltsinlər. Həmin iş hazır

olandan sonra Uluğ bəyin üstürlabı Cahangir şaha göndərildi. Bununla bağlı Şah Abbas bir məktub da yazıb Cahangir şaha göndərdi (202).

İki dövlət arasında diplomatik münasibətlərin inkişafında və qarşılıqlı etimadın gücləndirilməsində Cahangir şah tərəfindən Xanaləmin rəhbəliyi altında göndərilən elçilik heyətinin böyük rolu oldu. Bu elçilik heyəti təxminən bir min nəfərdən ibarət idi. Hind elçilik heyəti yalnız sayı tərkibinə görə yox, həm də Xanaləmin malik olduğu məqama görə nüfizlu bir elçilik heyəti idi. Həmin elçilik heyətini iki dövlət arasındakı münasibətlərin yeni bir səhifəsi kimi də qiymətləndirmək olar. Şah Abbas elçisi Yadigar Əli sultanı bir neçə il hind sarayında saxladıqdan sonra Cahangir şah təkcə onun geri qayıtmasına icazə vermədi. Həm də onunla birlikdə böyük bir elçilik heyətini Səfəvi sarayına göndərdi. Cahangir şah ilk növbədə Yadigar Əli sultana qiymətli hədiyyələr verdi. Həmin hədyyələr arasında bir ədəd daş-qaşla bəzədilmiş qılınc, bir ədəd yəhər, ciqqəsi olan bir ədəd baş geyimi, nağd olaraq 30 min rupi var idi. Yadigar Əli sultana verlən bütün hədiyyələrin ümumi qiyməti isə 40 min rupidən artıq idi (203).

Cahangir şahın Şah Abbasa göndərdiyi hədiyyələr də öz qiyməti və dəyəri ilə seçiirdi. Onların arasında 29 baş dəvə, çoxlu sayda qiymətli geyimlər, göz oxşayan şah çadırı, qiymətli daşlarla bəzədilmiş müxtəlif silahlar, böyük bir fil dişi, altı ədəd ikitəkərli hind arabası, qaplan, kərgədan, ceyran, bəbir, bir neçə baş fil və d. vəhşi heyvanlar var idi (204).

Cahangir şah eyni zamanda Şah Abbasa bir məktub göndərdi. Həmin məktub nisbətən müxtəsər bir məktub olmaqla Şah Abbasın vəsfi ilə başlayırdı. Sonra hind şahı iki dövlət arasında mövcud olan xoş münasibətlərə toxunur və bu münasibətlərin daha da möhkəmləndirilməsi ilə bağlı öz arzularını bəyan edirdi. Məktubda Şah Abbas tərəfindən Yarigar Əli xanın elçi kimi hind sarayına göndərilməsi yüksək qiymətləndirilir və bunu iki dövlət arasında münasibətlərin möhkəmləndirilməsinə yaxşı bir səbəb kimi qiymətləndirirdi. Cahangir şah hər zaman Şah Abbasla bağlı mə-

lumatlı olmaq istədiyini və bunun üçün iki şah arasında yazışmaların da gələcəkdə davam etməsini istəyirdi. Sonra Cahangir şah özü tərəfindən Xanaləmin rəhbərliyi altında elçilik heyətinin Səfəvi sarayına göndərdiyini məktubda açıqlayırdı. Hind şahı göndərdiyi elçi haqqında da tərifli sözləri məktubda ifadə etmişdi və o, Şah Abbasa bildirirdi ki, Xanəlim onun etibar etdiyi insanlardan biridir. Məktubun sonunda xahiş olunurdu ki, ikitərəfli münasibətlərin və dostluğun möhkəmləndirilməsi üçün Səfəvi sarayına göndərilmiş olan Xanaləmin şah qəbulundan sonra tezliklə geri qayıtmasına icazə verilsin (205).

Xanaləm cığatay moğollarına aid olan berlas qəbiləsindən olmaqla Cahangir şahın yaxın adamlarından biri idi. Onların arasında səmimi münasibətlər var idi və Cahangir şah ona qardaşım deyə müraciət edərdi. Mövcud olan məlumata görə, Xanaləmin rəhbərlik etdiyi elçilik heyətinin tərkibində üç nəfər də tanınmış rəssam və nəqqaş var idi. Onlar Səfəvi sarayında Şah Abbasın rəsmini, Xanaləm elçiliyinin qarşılanma səhnələrini çəkib aparmalı idilər. Tərkibinin böyük olmasına görə Xanəlimin rəhbərlik etdiyi elçilik heyəti xeyli ləng hərəkət edirdi. Bu elçilik heyəti Xorasan vilayətindən keçməklə yolunu şah sarayına salmalı idi. Hind heyəti Heratda, Məşhəddə, Nişapurda və Qumda xeli dayanmalı oldu. Hind elçiliyinin ləngiməsinin bir səbəbi də Şah Abbasın Osmanlı qoşunlarına qarşı döyüşdə olması ilə bağlanılır. Bildirilir ki, hind elçiliyi Şah Abbasın səltənət paytaxtında olmadığı haqqında xəbər alandan sonra yuxarıda adları çəkilən məkanlarda xeyli dayanmalı oldu. Şah Abbas isə hind elçiliyinin Səfəvi hüdudlarına qədəm qoymasından xəbər tutuan kimi, söhbət yasovulu olan Əli bəy Şamlını qonaqların qarşılanmasına və müşayiət edilməsinə göndərdi (206).

Hind elçiliyi 1618-ci il oktyabr ayının 14-də (bəzi məlumata görə isə noyabr ayının 14-də) nəhayət ki, Şah Abbas tərəfindən qəbul edildi. Bu elçiliyin Səfəvi hüdudlarına gəlməsi və Şah Abbas tərəfindən qarşılanması İsgəndər bəy Münşinin əsərində də öz əksini tapmışdı. İsgəndər bəy Münşi hund elçiliyinin Qəzvində

qarşılanması mərasiminin şahidi olmuşdu və o bu barədə öz təəssüratlarını belə bölüşürdü: “Keçən günlərdə baş verən hadisələrin şərhi zamanı qələmimiz belə yazmışdı: Hindistan məmləkətlərinin hökmranı ali məqamlı Şah Səlim o sülalənin böyük əmirlərindən və cığatayların bərlas qəbiləsindən olan və padşah tərəfindən “bay”, yəni “qardaş” adlandırılan “Xanaləm” ləqəbli Mirzə Bərxordarı hümayunun (Şah Abbas) elçi təyin etdiyi Yadigar Əli Sultan Talışla birlikdə elçiliyə göndərilmişdi və o, bir neçə vaxt Herat darüssəltənəsində qalmışdı. Mirzə Bərxordar bu il ali dərgaha yollandı. Şah rum ordusunun hücumunu dəf etmək üçün Azərbaycana tərəf getdiyindən, söhbət yasavulu Kəlbəli bəy Şamlıya tapşırdı ki, elçini qarşılayıb, hümayun ordu qayıdan zamanadək Qum darülmömininə apararaq orada saxlasın. Mirzə Bərxordar əvvəlcə Qəzvin darüssəltənəsinə, sonra Qum darülmömininə getdi, Yadigar Əli Sultan isə ondan ayrılaraq ali dərgaha üz tutdu. Xanaləm Qəzvinə daxil olan gün bu “Aləmara” [kitabının] müəllifi şəhərdə idi və elçinin zahiri bər-bəzəyini müşahidə elədi. Dünyagörmüş adamlar belə deyirlər ki, o xanədanın yaranmasından bu günədək Hindistan vilayətindən, hətta Rumdan da belə şövkətdə, geyim-keçimdə və həşəmətdə hələ heç kim İran vilayətinə gəlməmişdir, heç hələ bu da məlum deyildir ki, əzəmətli Kəyan şahlarının dövründə də belə bir elçini görmüşlər ya yox? Məhz bu cür gözəl və xoşbəxt bir zamanda, Allahın köməyi və əlahəzrət zilləllah şahın əzəmət və hökmranlığının çoxalması dövründə bu elçinin gəlişi baş verdi. Dünya sultanları və şan-şöhrətli hökmdarlar (fərmanrəva), istər müsəlman olsunlar, istərsə də qeyri-müsəlman, o həzrətlə zahiri və mənəvi sədaqət və münasibət qapılarını açmışlar və açmaqdadırlar. O həzrətin məhəbbəti onların ürəklərində bərk-bərk yer tutduğundun, öz elçilərini sultanların pənah yeri olan bu dərgaha göndərməklə fəxr edir və bunu özləri üçün şərəf bilirlər. Xülasə, Xanaləm İran mülkünə ayaq basan vaxt onunla birlikdə min nəfər mötəbər padşah mülazimi gəlmişdi. Xanaləmin özünün mülazimləri isə, əgər onun nökər və xidmətçilərini saymasaq, iki yüz quşçu və mirşikardan ibarət idi ki,

onların bir hissəsini Heratdan geri qaytardılar. Xanaləm Qəzvin darüssəltənəsinə çatan gün onunla gələn padşahın və özünün mülazim, xidmətçi və cangüdənlərinin sayı yeddi yüz-səkkiz yüz nəfər idi. Qızılı taxtlar və cürbəcür yəhərlərlə bəzədilmiş on ədəd iri fil, habelə bəbir, pələng, ahu, hind quzuları, ov pələngi (yuz), kərgədan, danışan quşlar (tuti) və sair heyvanlar da gətirmişdilər. Cah-cəlal ordusunun qələbə ilə Azərbaycandan qayıdıb Qəzvin darüssəltənəsində dayandığı vaxt, Xanaləmin buraya gəlməsindən ötrü iltifatla bir məktub yazıldı və o, olduğu yerdən çıxıb səltənət sarayına doğru yollandı. Şəhərə çatdığı zaman onu bir dəstə əzəmətli əmir istiqbal edərək, izzət və ehtiramla şəhərə gətirdi. Xanaləm oranın Səadətabad sarayındakı ürəkaçan bir mənzildə yerləşdirildi. Ertəsi gün, əlahəzrət Səadət meydanında covgan və qəbəq atma (qəbəqəndazi) oyunu ilə bərk məşğul olan vaxt Xanaləm onun səadətli görüşünə gəldi, olduqca çoxlu nəvazişə, izzətə və ehtirama layiq göründü. O, öz gövhərlər səpən dili ilə şaha xitabən dedi: "Bizimlə uca məqamlı, günəş papaqlı həzrət padşah arasında qardaşlıq münasibəti yaranmışdır və bizim şah səni "bəradər" (qardaş) adlandırmışdır, bəradər də ki, bəradərdir". Əlahəzrət, bu sözlərinə görə onu qardaş kimi öz mərhəmət ağuşuna çəkdi, aşina və biganələri fərqləndirmədən hamıya göstərdiyi şahanə ehtiram və nəvazişləri onun şəxsində də həyata keçirdi. Adı çəkilən darüssəltənə bir neçə gün əlahəzrətin iqamət yeri oldu və o, hər gün Səadətabad meydanındakı işrət məclislərinə Xanaləmi dəvət edirdi. Xanaləm isə istəyirdi ki, ali məqamlı padşaha gətirdiyi töhfə və hədiyyələri ona təqdim etsin, lakin bu məsələ uzanır və baş tutmurdu. Şah istəyirdi ki, Gilan yolu ilə behiştnişan Mazandarana getsin və o vilayətin Zənkul adlı yerində şikarla məşğul olsun. O, Xanaləmə onun gətirdiyi hədiyyələrin təqdimatı üçün vədə müəyyənləşdirdi, lakin vaxtın azlığından Xanaləmin istəyinin həyata keçməsindən ötrü fürsət ələ düşmürdü. Çünki, dünyəvi bir bəzəyə baxmağın o padşahdan ötrü elə bir əhəmiyyəti yox idi və buna görə də istəmirdi ki, bir neçə günün xoş saatlarını həmin bər-bəzəyə baxmağa sərf eləsin, şikar ləzzətindən məhrum olsun. Buna

görə də fərman olundu ki, gətirilən töhfə və nəfis şeylərin hərəsindən iki-üç ədədini götürüb şahın hümayun nəzərinə yetirsinlər, başqa əmtəə və mallarınsa qeydiyyatını aparıb büyutata (xəzinəyə) versinlər ki, şah tədriclə onlara nəzər yetirsin. Baxmayaraq ki, bu təklif elçinin xoşuna gəlmədi, lakin o məcburiyyət üzündən bununla razılaşaraq, gətirdiyi qəribə töhfələrinə nəfis hədiyyələrdən, o cümlədən qızıl və gümüşün, cəng alətlərinin, az tapılan töhfələrin, qumaş parçaların və başqa şeylərin üç yüz ədədini ayırıb, onları Səadətabad meydanında şahın mübarək nəzərinə yetirdi. Şahın əmri ilə Xanaləm özünə məxsus olan bütün şeyləri və çadırları şəhərdə qoyub, xüsusi şikargah olan Zənkulun tamaşasına getmək üçün müqəddəs qoşuna qoşuldu" (207).

Şah Abbas hind elçisini ehtiramla qarşıladı və göründüyü kimi onu hətta şəxsən iştirak etdiyi ov mərasimlərinə də dəvət etdi. İtaliyalı səyyah Pyetro Delavalle də hind elçisinin Qəzvində qarşılanmasının şahidi olmuşdu. O da öz xatirələrində bu mərasim barəsində bəzi qeydlər etmişdi. P.Delavalle bu barədə belə yazırdı: "...Noyabr (1618) ayının 11-də axşam çağı şah fərmanına uyğun olaraq şəhər meydanı çıraqban edildi. Meydanın ətrafına böyük ağaclar düzdülər ki, insanlar ora yalnız piyada daxil ola bilsinlər. Şah özü də bir dəstə yaxın ətrafı ilə piyada şəkildə meydana daxil oldu. Bütün gecəni onlar çıraqların işığı altında badə içməklə məşğul oldular. Elə həmin gəlişi çoxdan gözlənilən hind səfiri Qəzvinə gəlib çatdı. Əvvəlcədən də dediyimiz kimi, bu elçi əvvəlcədən də bir dəfə bu şəhərə vaxtsız gəlmişdi və şahın fərmanı ilə yaxınlıqda yerləşən Qum şəhərinə getməli olmuşdu. Hind elçisi də bir neçə ay həmin şəhərdə yeni fərmanın gəlməsini gözləməli oldu. İndi isə şahın yeni əmrinə əsasən tələsik Qızvinə gəlmişdi. Amma o, şəhərin çıraqban olmasına diqqət yetirmədi və güman edildiyinin, saray mənsublarının bir qrupunun gözləntilərinin əksinə olaraq şahla görüşmək üçün meydana gəlmədi. O, birbaşa Cənnət bağına (Səadət bağı) getdi və həmin gecəni orada şahın əmrinə əsasən ayrılmış iqamətgahda keçirdi. Sonrakı gün də elçinin şərəfinə meydanı çıraqban etdilər. Şah onu mehribanlıqla

və yülksək qonaqpərvərliklə hüzuruna qəbul etdi. Meydanın ən yaxşı binalarından biri olan Əlipaşa evinin eyvanında şah bütün gecəni onunla söhbət etdi və badə qaldırdı. ...Əmirlər, əyanlar, dövlət mənsubları və şahın digər qonaqları hamılıqla bu eyvana sığışmazdılar. Hətta bu evin hind elçilik heyətinin ixtiyarına verilmiş böyük salonu da qonaqları tutmurdu. Ona görə digər qonaqlar meydanın digər küçələrində otururaq yemək və içməklə məşğul oldular. ...O biri gün Səadət meydanında həzrət-ali cövkan və qəbəğatma oyununun xoşluğunu yaşayanda və şərab məclisinə oturanda Xanaləm bu hümayunun qəbuluna düşə bildi. Ona qarşı həddindən artıq nəvaziş və ehtiram göstərildi. Elçiyə dürr saçan dili ilə belə söylədi ki, bizimlə və günəş papaqlı alicah padşah arasında qardaşlıq və səmimiyyət bərqərardır. O həzrət səni qardaş adlandırmışdır, qardaşın qardaşı da elə qardaşdır. Bir sözlə onu qardaşcasına mərhəmət ağuşuna aldı, ona o həzrətə xas olan müxtəlif şahanə təzim, kəramət və nəvaziş nümayiş etdirdi" (208).

Yuxarıda yazılanlardan da bəllidir ki, Xanalimin elçilik heyəti M.Baryatintinskinin rəhbərliyi altında olan elçilik heyəti ilə bir vaxtda qəbul olundu. Rus elçisi hind elçisi ilə bir zamanda qəbul edilməsini istəmirdi. Belə bir göstəriş ona Rusiya sarayından da verilmişdi. Amma vəziyət elə gətirdi ki, rus elçisi vəziyyətlə barışmalı oldu. Hətta Rusiya nümayəndələri hind elçisinin şah tərəfindən qəbulunu da izləməli oldu. Rus mənbələrində olan məlumatlardan da bəllidir ki, Şah Abbas hind elçisinə elə də çox vaxt ayırmadı. Xanaləm şah hüzurunda olanda onun ayaqlarından öpdü və sonra da Cahangir şahın gətirdiyi məktubu ona təqdim etdi. Qısa söhbətdən sonra Şah Abbas hind şahının göndərdiyi hədiyyələrin nümayişi keçirildi. Şah Abbas Rusiyanın elçisini də bu hədiyyə nümayişinə dəvət etdi. Hədiyyələr təqdim olunandan sonra hind elçisi şah hüzurundan çəkildi və Şah Abbas Rusiya elçiliyini qəbul etdi. İsgəndər bəy Münşinin yuxarıdakı ifadəsindən belə bir qənaət hasil olur ki, Xanələmin gətirdiyi bütün hədiyyələrin Qəzvində şaha təqdim edilməsi qismət olmamışdı. İtaliyalı səyyah P.Delavallenin yazdığına görə isə, Qəzvində hind elçiliyi

tərəfindən Şah Abbası və tamaşaçıları heyrətləndirə biləcək bir hədiyyə nümayişi keçirildi. İtaliyalı səyyaha görə, Şah Abbas Əli paşa evinin eyvanından hind şahının hədiyyələrini izlədi.

P.Delavallenin yazdıqlarından aydın olur ki, Şah Abbas hind elçisi Xanələmlə birlikdə at belində şəhər meydanına daxil oldular. İtaliyalı səyyah xüsusi olaraq qeyd edirdi ki, Şah Abbasın atı ilə Xanaləmin atı yanbayan gedirdi. Yəni Şah Abbas ona belə hörmət nümayiş etdirirdi. Səltənətin digər yüksək vəzifəli məqamları isə meydana piyada daxil olmaq məcburiyyətində qalmışdılar. Şah Abbas hind elçisi ilə meydana daxil olduqdan sonra atdan düşüb Rusiya elçisi ilə görüşdü. İlk olaraq da hind elçisinin hədiyyələri Şah Abbasa təqdim olundu. İtaliyalı səyyah təqdim olunma mərasimində bunları müşahidə edə bilmişdi: "Şah eyvana gəldikdən sonra hədiyyələrin təqdimi başlandı. Hədiyyələri əvvəlcə şahın qarşısından keçirir və sonra da bütün meydan boyu dolandırıb kənara aparırdılar. Hind elçisinin hədiyyələrini Moskva elçisinin hədiyyələrindən qabaq Şah Ababsın qarşısından keçirdilər. Bu hədiyyələr 29 dəvə yükündən ibarət olan ağır yüklər idi və güman edilirdi ki, həmin yüklər hind istehsalı olan müxtəlif parçalar idi. Sonra isə çox gözəl və zərif qızıl çubuqlardan düzəldilmiş böyük bir otaq nümayişə çıxarıldı. Sonra çoxlu sayda qiymətli daş-qaşlarla bəzədilmiş qılınclar və digər silahlar göstərildi. Onların ardınca isə İranda (Səfəvi dövləti nəzərdə tutulur – M.S.) başa qoyulan əmmamələrin düzüldüyü yüz tabaq aparıldı. Bu əmmamələr Hindistanda düzəldilmişdi və hər tabağn üzərində onlardan beş ədəd qoyulmuşdu. Tabağlar ağacdan düzəldilmiş və üstü rənglənmişdi. İranda əşyaların daşınması və hədiyyələrin təqdim olunması üçün həmişə bu tabaqlardan istifadə olunur. Hədiyyələrdən biri də böyük bir heyvanın dişi idi ki, onun iki nəfər əllərində aparırdılar. Bu diş sözsüz ki, ya fil dişi idi, ya da hansısa bir balığın dişi idi. İranda ondan bıçaqların, xəncərlərin və digər silahların tutacaqlarının hazırlanması üçün istifadə olunur. Ondan sonra isə daha az əhəmiyyətli hədiyyələr nümayiş etdirildi. Doğrusu mən heç onları görə bilmədim. Sonda beş ədəd hind arabası nümayiş

etdirildi. Onların hər birinin iki təkəri var idi və oturacaq yeri də dörd künc olmaqla düz səthdən ibarət idi. Bizim kimi oturmaq lazım gəlsəydi, orada iki nəfərdən artıq otura bilməzdi. Amma şərq üsulu ilə dörd nəfər rahatca orada otura və kənara düzülmüş olan çoxlu dairəvi balışlara dayaqlana bilərdilər. Bütün bu arabalar qızıl və zərli parçalarla bəzədilmişdilər. Onların hər birinə də göz oxşayan iki ağ öküz qoşulmuşdu. Öküzlərin üstü də bəzəkli və qiymətli parçalarla bəzədilmişdi. Hind inəkləri bizim inəklərdən fərqlənirlər. Belə ki, onların belində boyun nahiyyəsinə yaxın çıxıntı vardır. Bu baxımdan onlar dəvələrə də bənzəyirlər. ...Arabalardan sonra növbə qəribə heyvanlara çatdı. Əvvəlcə iki kərkədan tamaşaçıların gözü qarşısından keçirildi. Onların damağları üstündə gələcəkdə çıxmalı olan buynuzun yeri görünürdü. Bu iki heyvan hələ çox cavan idi. Buna baxmayaraq bizim inəklər ölçüsündə çox böyük bədənləri var idi. Amma onların ayaqları çox qısa idi. Xüsusilə, qabaq ayaqları arxa ayaqlara nisbətən gödək idi. Bu heyvanın başı inək başına oxşayırdı. Lakin bir qədər uzun və həm də daha möhkəm idi. Rəngi isə boz idi. Ondan sonra dağ inəyinə oxşayan bir heyvan göstərildi. Onun buynuzları xeyli uzun idi. Baxmayaraq ki, onu inək adlandırırdılar, mən əmin idim ki, başqa növ heyvanlara mənsub idi. Bu məmləkətin məlumatsız adamları onun düzgün adını bilmirlər. Sonra növbə müxtəlif maral, ceyran və vəhşi eşşəklərə çatdı. Onların içərisində ən baxımlısı gümüşü rəngli vəhşi keçi idi. Onun cəmi üç ayağı var idi. Yəni qarşıda iki ayağı və arxada bir ayağı. Bu ayaq yuxarıda budlara birləşirdi. Hind elçisinin hədiyyələri səkkiz, ya da on filin nümayişi ilə başa çatdı. Onlardan iki-üçünün belində kəcavə var idi və onların içərisində adamlar var idi. Bu kəcavələr bizim təsəvvürümüzdə olan kəcavə deyildi. Onlar daha çox yataq taxtına oxşayırdılar. Onun dörd tərəfi zərli parça ilə örtülmüşdü" (209).

P.Delavalle də təsdiq edirdi ki, Rusiya və hind elçilərini qəbul edəndən sonra Şah Abbas Fərəhabada yollandı. Bu zaman o, Xanaləmi də özü ilə apardı. İtaliyalı səyyah qeyd edirdi ki, hind elçiliyinin tərkibi çox böyük idi və ona görə də Şah Abbas onların

hamısını özü ilə apara bilməzdi. Elçilik heyətindən yalnız bir neçə nəfər şah karvanına qoşula bildi. Mövcud olan məlumatlar onu deməyə imkan verir ki, Xanaləm Səfəvi dövləti ərazisində olduği iki il ərzində dəfələrlə Şah Abbasla birlikdə ov mərasimində və digər əyləncə mərasimlərində iştirak etmişdi. Bu yolla Xanaləm Səfəvi şahı ilə birlikdə səltənətin bir sıra şəhərlərini və vilayətlərini də gəzdi. Öz təcrübəsi, müdrikliyi, biliyi və səmimiyyəti ilə Xanaləm elçilik müddətində Şah Abbasın dərin ehtiramını və sevgisini qazana bildi. Xanaləmlə birlikdə Şah Abbas ən müxtəlif məkanlarda və ən müxtəlif tədbirlərdə oldu. Bu tədbirlərin bir çoxunda Şah Abbas bütün rəsmiliyi bir kənara qoyaraq öz səmimiyyətini nümayiş etdirdi və Xanaləmlə yaxın və köhnə bir dost kimi davrandı. Belə ki, Şah Abbas Xanaləmlə birlikdə küçə və bazarları gəzdi, insanların gündəlik həyatı ilə tanış oldu, qəhvəxanaya baş çəkdi, rəsmi və qeyri-rəsmi məclislərdə oldu. Bu dövr ərzində Xanaləm Şah Abbasın etibar və etimad etdiyi, yoldaşlıq haqqını qazana bilmiş bir insana çevrildi. Hind elçisinə qarşı bağlılıq o dərəcədə artdı ki, Şah Abbas çox vaxt Xanaləmi Canaləm adlandırırdı. Bir sözlə, Şah Abbasla hind elçisi arasındakı münasibətlər protokol normalarından kənara çıxırdı və bu münasibətlər daha çox xoş ehtiram üzərində qurulmuşdu. Xanaləmlə söhbətlər zamanı Şah Abbas davamlı olaraq Cahangir şahla möhkəm və dərin münasibətlərdə olduğunu bildirdi. Bununla belə, şah Abbas qeyd edirdi ki, Qəndəhar Xorasanın bir parçasıdır. Şah Abbas hind elçisinin də nəzərinə çatdırırdı ki, Xorasan və Qəndəhar əhalisi iki şah arasında möhkəm dostluq əlaqəsinin olmasına baxmayaraq, Qəndəharın geri qaytarılmamasına görə öz təəccüblərini bildirməkdədirlər. Şah Abbas hind elçisinə açıq şəkildə bildirdi ki, Cahangir şah Qəndəharı geri qaytarmaqla iki dövlət arasındakı dostluq münasibətlərinin təmizliyini nümayiş etdirməlidir. Onun sözlərinə görə, Cahangir şahın bu qərarı Səfəvi ərazilərinə iddialı olan özbək hakimlərinə də bir dərs ola bilərdi. Şah Abbas məsələnin həllinin yüngülləşdirilməsi üçün özünün də Qəndəhar istiqamətində ov mərasiminə gəlməsini planlaşdırırdı. Onun fik-

irncə, bu səfər zamanı şah və onun mənsubları yerli hakimlər tərəfindən yaxşı qarşılanacaqdısa, bununla Səfəvi sarayının Qəndəharla bağlı tələblərinin daha yüngül şəkildə qəbul ediləcəyi təsəvvürü yarana bilərdi. Şah Abbas ümid edirdi ki, Cahangir şah Qəndəharı dinc şəkildə Səfəi dövlətinə qaytara bilər və bu ümidlərini Xanaləmlə söhbətlərində də ifadə edirdi (210).

İsgəndər bəy Münşi Qəndəhar ətrafında davam edən söz-söhbətlər və bu məsələ ilə əlaqədar Şah Abbasın Xanələmə dedikləri barəsində belə yazırdı: "...uca qızılbaş tayfasından olan bacarıqlı və ağıllı Yadigar Əli Sultan Talışın elçi sifətilə gedərək, dostanə və mehriban səfərinin başa çatdırılmasından sonra, oraya (Hindistana) bir-birilərinin ardınca gedən başqa elçilər də gurəkaniyyə sülaləsinin vəkillərinə və həmin sülalənin tərəfdarları olanlara kinayəli yaxud müstəqim işarələrlə Qəndəhar barəsində öz fikirlərini bildirmişdilər. Qarşı tərəfə isə bu söhbətlər təsir etmir və elçilərin sözləri nəzərə alınmırdı. Amma, Qəndəharı qəhr və zor gücü ilə geri almaq isə ülfət və dostluğun ziddinə olan bir əməl hesab olunurdu. Yuxarıda yazıldığı kimi, elə buna görə də o vilayət uzun müddət o sülaləyə mənsub adamların əlində qaldı. Nəhayət o sülalənin böyük üləmalarından olan və ali məqamlı padşah [Şah Abbas] tərəfindən ali "qardaş" ləqəbi ilə şərəflənən və Xanaləm kimi tanınan Mirzə Bərxordar elçi sifətilə gəldi. Əlahəzrət təkbətək söhbət zamanı öz məhəbbət və qardaşcasına dostluğunun izharından sonra Qəndəhar məsələsini ortaya gətirmiş, bu müddət ərzində aradakı ülfətin qorunmasından ötrü özünün müstəqim və qarşı tərəfinsə güzəştə getməmək barədəki fikri xüsusunda Xanaləmlə danışıq aparmışdı. O, birbaşa olaraq belə buyurmuşdu: "Bizimlə, o uca məqamlı həzrət padşah arasındakı yaxınlıq və birlik hər şeydən artıq bununla əlamətdardır ki, biz bir-birimizə ülka və məmləkəti də müzayiqə etməyi bacarmalıyıq. Amma, Qəndəhar Xorasanın daxilindədir və bizim irsi mülkümüzdür. Baş verən zahiri ənənəvi məsələləri yaxın və uzaq adamlar görməkdədirlər. Müxtəlif məclislərdə nəyəsə nəsə bir məna vermək aləmində olanlar dilə mənasız sözlər gətirir və bu məsələyə başqa

rəng verirlər. [İndi] məhəbbətə layiq olan və tərəflərarası münasibətləri tənzimləyəcək yol budur: O kamkar qardaş (yəni Məhəmməd Səlim) düşmənlərin tənələrinə cavab olaraq qoy Hindistan vilayətindən olduqca uzaq olan və aramızdakı məhəbbətə maneçiləik edən o mülkü (yəni Qəndəharı) bu məhəbbət arzulayan qardaşa geri qaytarsın ki, həm səbəblər aləmini zahirən seyr edən və hərzə-hərzə bihudə sözlər danışanların dilləri qısalsın, həm də bütün aləmdə öz birlikləri ilə məşhur olan bu iki sülalə arasında ülfət və ədalət yenidən möhkəmlənsin, qonşuluğumuzdakı sultanlara, xüsusilə bizə maneçilik edən özbək tayfalarına cığatay və qızılbaşların bir-biriləri ilə müttəfiq olmaları zahir olsun bu məsələnin faydalı olması görünsün. Yox, əgər Qəndəharın geri qaytarılması o həzrətin şərafətli təbinə çox çətin gələrsə, biz onun razılaşmamağının səbəbini ali dünyəvi məsələlərlə məşğul olması kimi başa düşərik. Belə olan halda seyr və şikar məqsədi ilə biz bir neçə günlüyə o həzrətin adamları ilə birlikdə o vilayətin şikargahlarında seyrə və şikara qurşanmaqdan ötrü siz tərəfə gələcəyik və sonra geri qayıdacağıq. Qoy o həzrət öz mizbanlığına başlasın. Qoy hamıya məlum olsun ki, o mülkdən geri qayıtmaq məhz bizim birliyimizin sayəsindədir, aramızda ögeylik və ayrılıq yoxdur" (211).

Mövcud olan məlumata görə, Şah Abbas İsfahanda olarkən bir daha hind elçisinin rəsmi qəbulu keçirildi. 1619-cu ilin iyun ayının 19-da təşkil olunmuş həmin qəbulda Osmanlı, rus və ispan elçiləri də iştirak edirdilər. Həmin qəbul zamanı Xanaləmə böyük hörmət və ehtiram nümayiş etdirildi.

1619-cu ildə Şah Abbas hind sarayına növbəti elçisini göndərdi. Bu zaman Xanaləm hələ də Səfəvi ərazisində idi. Seyid Həsən adlanan Səfəvi elçisi Cahangir şaha Şah Abbasın məktubunu və bir də şah hədiyyələrini çatdırmalı idi. Növbəti elçinin göndərilməsində məqsəd Səfəvi qoşunlarının Osmanlı qoşunları üzərində yeni uğurları haqqında Cahangir şaha xəbər çatdırılması idi. Şah Abbas bu məktubunda Osmanlı dövləti ilə yeni müharibə istəmədiyini, lakin sərhəd bölgəsinin bəzi valilərinin yarıtmaz siyasəti

üzündən zor tətbiq edilməsinə məcbur olduğunu yazırdı. Şah Abbas həmin məktubunda yazırdı: "Biz, Rum padşahı [Osmanlı Padişahı] ilə savaşmak istəmirik. Bu müddətdə hər iki hökümdarın arasında məktublaşmalar və hər iki ölkənin baş komandanları arasında görüşmələr olmuş və iki ölkə arasında qan tökülməməsi qərarlaşdırılmışdı. Bu vəziyyət bir neçə il sürdü. Fəqət bəzi ikiüzlü insanlar səbəbiylə iki ölkə arasında fitnə çıxdı. Bunlardan biri Gürcüstan valisinin [Kaxeti hakimi Təhmurəs xanın] üsyanıdır ki, bizim xəracgüzarımız idi. Amma bu adam anlaşmamıza qarşı hərəkət edib, çoxlu əsgərini Azərbaycana göndərdi. Biz də Allaha təvəkkül edib bu mütəmərrid [dikbaş] adamı cəzalandırdıq və sərdarlarımızdan sipəhsalar Qərçəqay bəyi vəzifələndirib müxaliflərin yox edilməsinə səy göstərdik. … Bu savaşda təxminən 260.000 üsyancı [muxalif ordusu] bizim pusqumuza düşdü. Bu insanlar suçsuz, günahsız insanları məhv etmişlərdi. Amma sonunda məğlub oldular. Nə qaçacaq yolları, nə də güçləri qalmıştı. Yalvarmağa başladılar. Biz də əcdadımızdan qalan ənənəyə görə onları bağışladıq. Bu olaydan sonra sülhü qəbul etdik və kəndi ölkəmizə geri döndük. Mən bu fəthləri Tanrının yardımı ilə qazandım. 8-ci imamın yardımı olmasaydı biz belə bir fəthə yetişə bilməzdik. Amma bütün bunlara rəğmən biz barış tələb edirik və barışı daha düzgün sayırıq" (212).

1620-ci ildə (bəzi məlumatlara görə isə 1619-cu ildə) Xanaləm nəhayət ki, geri qayıtmaq icazəsi aldı. Şah Abbas onunla Cahangir şaha göndərdiyi məktubdan aydın olur ki, Səfəvi şahı hind elçisinin hələ bir müddət də qalmasını istəyirmiş. Lakin Cahangir şah xəbər göndəribmiş ki, Xanaləm geri qayıtsın. Şah Abbas Cahangir şaha göndərdiyi məktubunda da Xanaləm haqqında yüksək fikirdə olduğunu və bütün mənalarda onun yetkin bir insan səviyyəsinə qalxdığını təsdiq edirdi. Şah Abbasın məktubunda o da bildirilirdi ki, hind elçilik heyətinə daxil olan münşi Şah Məhəmməd əvvəlcədən yola salınmışdır ki, Xanaləmin geri qayıtmasını Cahangir şaha çatdırsın. Məktubda əlavə olaraq iki dövlət arasında xoş

münasibətlərin möhkəmləndirilməsi istəyi və arzusu da öz əksini tapmışdı (213).

Qeyd edildiyi kimi, Xanaləmin rəhbərliyi altında olan elçilik heyəti ikitərəfli münasibətlərdə yadda qalan bir hadisəyə çevrildi. Şah Abbas da Xanaləm elçiliyi səviyyəsində bir elçilik heyətinin Cahangir şahın yanına göndərilməsini qərara aldı. Bu elçilik heyətinə rəhbərlik qızılbaş qoşunlarının nüfuzlu əmirlərindən biri olan Zeynal bəy Biqdeli Şamlıya həvalə olundu. Onun rəhbərlik etdiyi heyət 1620-ci ilin yayında Xanaləmlə bilrikdə hind sarayına doğru hərəkətə başladı. Zeynal bəy özü ilə Şah Abbasın məktubunu və bir də onun çox qiymətli hədiyyələrini aparırdı. Zeynal bəyin elçilik heyəti ilə bağlı İsgəndər bəy Münşi belə yazırdı: "Bu ilin əvvəllərində Hindistan mülkünün həşəmətli hökmranı Şah Səlim tərəfindən elçi gəlmiş Xanaləm əlahəzrətdən geri qayıtmaq üçün rüsxət aldı. Ali sarayın xüsusi adamlarından olan tuşmalbaşı Zeynal bəy Bigdeli Şamlı isə hind elçiliyinə təyin olundu və Xanaləmlə birlikdə gözəl xələtlər və nağd pul, zərif qumaşlar, tazı atlar kimi bol ənamlarla yola düşdü. Onun apardığı puln on beş min tüməni – İraqi məbləğində idi. Əmirlərin, yaxın adamların, ali ordu əyanlarının, Xorasan hakimlərinin uca məqamlı padşah üçün göndərdikləri töhfə və hədiyyələrdən başqa qiymətli daş-qaşlarla bəzədilmiş alətlər, [o cümlədən] rum, firəng, rus, İran şəhərləri və başqa yerlərin nadir bəxşişləri, saysız-hesabsız tazı atlar da yola salındı. Qəşəng və qiymətli hədiyyələrdən bahalı daşlar və yaqutlarla işlənmiş nadir bir zəncir, heç bir padşahın xəzinəsində bənzəri olmayan və gövhərşünasların yeddi min tümən, hətta bəlkə ondan çox qiymətləndirdikləri bir ədəd gözəl ləl də vardı ki, üzərində Mirzə Uluq ibn Şahrux ibn Əmir Teymur Gurganın adı nəqş olunmuşdu. Həmin ləl Süleyman şanlı həzrət xaqan Şah İsmayıl əleyhirrəhmə zamanı sultanların xəzinələrindən ələ keçirilərək, xəzaneyi-amerədə saxlanılırdı" (214).

Zeynal bəyin rəhbərlik etdiyi elçilik heyəti 1621-ci ilin aprelmay aylarında Lahurda Cahangir şah tərəfindən qəbul edildi. Səfəvi elçisi həm Şah Abbasın göndərdiyi qiymətli hədiyyələri,

həm də məktubu Cahangir şaha təqdim etdi. Bu məktubun məzmununu iki dövvlət arasında dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi arzusu təşkil edirdi. Mövcud məlumatlara əsasən demək mümkündür ki, Zeynal bəy elçiliyinin göndərilməsində başlıca hədəflərdən biri də Qəndəharın geri qaytarılması ətrafında hind sarayının mövqeyinin öyrənilməsi idi. Bəzi mənbə məlumatlarına görə, Qəndəharın geri qaytarılması məsələsi Şah Abbasın məktubunda öz əksini tapmışdı. Bəzi fikirlərə görə isə bu məsələni Zeynal bəy şifahi şəkildə Cahangir şahın diqqətinə çatdırmalı idi. İstənilən halda Zeynal bəyin üzərinə ağır və məsuluyyətli bir vəzifə qoyulmuşdu. Bəlli idi ki, hind sarayı Qəndəharı geri qaytarmaq istəmir. Belə olan halda Zeynal bəyin cəhdlərinin bir nəticə verəcəyi də elə əvvəldən şübhə altında idi (215).

İsgəndər bəy Münşi də təsdiq edirdi ki, Zeynal bəy hind sarayında olanda Qəndəharın geri qaytarılması məsələsini Cahangir şahın diqqətinə çatdırdı. Onun yazdığına görə, şah ətrafındakı bir sıra adamlar Qəndəharın geri qaytarılması məsələsinə ciddi etiraz etdilər və bunu dövlət maraqlarına zidd bir iş kimi qiymətləndirdilər. Bu adamların dediklərinə görə, Qəndəharın təhvil verilməsi Cahangir şahın zəifliyi kimi qəbul edilə bilərdi. Həmin sözlər Cahangir şahın qərar qəbul etməsinə öz təsirini göstərdi. Digər tərəfdən bəllidir ki, Zeynal bəyin elçi kimi hind sarayında olduğu vaxtlarda şah ailəsi daxilində hakimiyyət uğrunda didişmələr başlamışdı. Belə bir vəziyyətdə Qəndəharın təhvil verilməsi Cahangir şahın mövqelərini daha da zəiflədə bilərdi. Deyilənə görə, bu amil də Qəndəhar məsələsində Cahangir şahın mövqeyinə təsirsiz ötüşmədi (216).

Bəzi müəlliflərin fikrincə, Zeynal bəy özünü Cahangir şahın qəbulunda xeyli təkəbbürlü apardı ki, bu da Cahangir şah tərəfindən əsəbiliklə qarşılandı. Hind saray protokoluna görə, şah qəbuluna gələn xarici qonaq təzim xatirinə aşağı əyilərək əllərini yerə vurub sonra da alnına toxundurmalı idi. Zeynal bəy isə belə eləmədi və qəbul salonuna daxil olan kimi, bir başa şahın qarşısına yollandı. Zeynal bəyə xatırladıldı ki, qəbul protokolu necə ol-

malıdır. Lakin o, deyiləni qəbul etmədi və həmin protokol qaydasına əməl etmədi. Qəndəhar məsələsi ətrafında aparılan söhbətlərdən sonra isə tərəflər arasında fikir yekdilliyinin olmadığı və Qəndəharın geri qaytarılmasına bağlanılan ümidlərin əbəs olduğu üzə çıxdı. Cahangir şah da Səfəvi sarayı tərəfindən ortaya atılan təkliflə razı olmadı və bu narazılığın təsdiqi kimi, Zeynal bəyin geri qayıtmasına icazə vermədən Lahuru tərk edib Dehliyə yollandı. Zeynal bəy də bunu görəndə şah icazəsi almadan geri qayıtmaq fikrinə düşdü. Şah Abbasın Cahangir şah üçün nəzərdə tutduğu qiymətli hədiyyələrdən bəziləri Zeynal bəyin yola düşdüyü vaxt hələ hazır olmamışdı. Nəzərdə tutulmuşdu ki, həmin hədiyyələr hazır olan kimi sonradan Zeynal bəyə göndərilsin və o da onları Cahangir şaha təqdim etsin. Zeynal bəy Lahurdan geri qayıtmaq hazırlıqları görməyə başlayanda həmin hədiyyələri gətirib ona çatdırdılar. Zeynal bəy də məcbur olub Dehliyə yollandı. Yeni gətirilən hədiyyələr təqdim olunduqdan sonra Cahangir şahın vəzirləri ilə Qəndəharın geri qaytarılması məsələsi ətrafında müzakirə apardı. Amma bu müzakirələr də bir nəticə vermədi. Belə olanda Zeynal bəy Qəndəhar ətrafında aparılan müzakirələrin nəticələri haqqında Şah Abbasa məlumat göndərdi (217).

Zeynal bəy elçiliyinin nəticələri göstərdi ki, Qəndəhar şəhərini yalnız hərbi yolla geri almaq mümkündür və bununla bağlı qərar 1622-ci ildə verildi. Zeynal bəyin hind sarayına yollanmasından sonra daha beş müxtəlif Səfəvi elçiliyi Cahangir şahın sarayına yollandı. Bu heyətlərin hər biri ilə Şah Abbasın həm məktubu, həm də qiymətli hədiyyələri göndərildi. Heyətlərin hər biri də hind sarayında Qəndəharın tarixən Səfəvi ərazisi olması və onun geri qaytarılmasının zəruriliyi hind sarayının diqqətinə çatdırıldı. Lakin bu elçilik heyətlərinin apardığı müzakirələrin də bir nəticəsi olmadı.

Nəhayət, Şah Abbas Qəndəharın hərbi yolla geri qaytarılması haqqında qərar qəbul etdi. 1622-ci ilin fevralında Şah Abbas 60 min nəfərlik qoşun dəstəsi ilə Xorasan istiqamətində hərəkətə başladı. Xorasan vilayətindən adlamaqla şah qoşunları Fərəhə yetiş-

dilər. Hind sarayının diqqətinin yayındırılması üçün Şah Abbas səltənətin şərq hüdudlarına tərəf yola düşməsini həmin bölgədə təşkil ediləcək ov mərasimi ilə əlaqələndirirdi. Bu barədə o, hind elçisi Xanaləmlə söhbətində bildirmişdi. Fərəhdən Şah Abbas Qəndəharın o zamankı hakimi Əbdüləziz xana məktub göndərdi. İsgəndər bəy Münşi bu barədə belə yazırdı: "...əlahəzrət bu ilin mübarək baharının əvvəllərində Xanaləmə etdiyi vədə görə, yuxarıda yazıldığı kimi, seyr və şikar istəyi ilə Hirmənd və Ərğəndab [çaylarının] sahiliylə o diyara tərəf yola düşdü, Fərahdan Qəndəhar hakimi Əbdüləzizə və oradakı cığatay əmir və əyanlarına bu dərgahın etibarlı şəxslərindən olan Vüsal bəy Evoğlu ilə məktub göndərdi. Orada belə yazılmışdı: "Bəzi mülki işləri yoluna qoymaqdan ötrü xeyirli Xorasan səfəri başlandı və biz indi Fərahı keçib o hüdudda seyr və şikar etməyə yollanırıq. Siz gərək hümayun qoşunun sizə tərəf gəlişinin məhz seyr və şikar məqsədi daşıdığını biləsiniz, bizi səmimiyyətlə qarşılayasınız, bizimlə görüş səadətinə yetəsiniz ki, burada olacağımız bir neçə gün müddətində sizlər də şahın məiyyətində olasınız, bizə qardaşlıq münasibəti bildirəsiniz, mizbanlıq edəsiniz. Arxayın olun ki, bizim o uca məqamlı həzrət padşahın mülazimlərinə izzət, ehtiram və qardaş münasibət ərz etməkdən başqa bir işimiz yoxdur. Bu yürüşə çıxmağımızın əsil məqsədi, Xanaləmə dediyimiz kimi, belədir: Qoy hər iki tərəfin sərhədində yaşayan insanlara, xüsusilə bizə müxalif olan özbəklərə məlum olsun ki, bizim və sizin məmləkətiniz vahiddir, birdir, aramızda heç bir ayrı-seçkilik yoxdur, qoy bu sözlərdə başqa məna axtarmasınlar" (218).

Şah Abbasdan alınan məktub heç də Qəndəhar hakimi Əbdüləziz xanın ürəyincə olmadı. Çox güman ki, o artıq Şah Abbasın böyük bir qoşun dəstəsi ilə Qəndəhara tərəf gəlməsindən narahatçılıq keçirməyə başlamışdı. Əbdüləziz xan şübhə etmirdi ki, Qəndəharı yenidən Səfəvi dövləti tərkibinə qatmaq istəyən Şah Abbasın qarşısında müqavimət göstərə bilməyəcəkdi. Ona görə Əbdüləziz xan aldığı məktuba cavab yazdı və Şah Abbasa Qəndəhara tərəf gəlməməyi məsləhət bildi: "Amma, şahın göndərdiyi

dostluq və iltifat məktubunun məzmunu ilə tanışlıqdan sonra Əbdüləziz xan və cığatay əyanları sevindilər, uca məqamlı padşahın mülazimlərindən olan Mirzə Baqi Kabulini zahirən sədaqətli sözlərlə yazılan, amma hiyləgərliklə dolu olan bir məktubla şaha yolladılar: Məktubda yazılmışdı: "Həzrət şah qoy bu fikrindən daşınıb, elə oradan da geriyə qayıtsın. Əks təqdirdə [padşahımıza] xidmət (nukəri) baxımından bizim sizə qarşı müxalifət etməkdən, qaladarlıq və savaşa başlamaqdan başqa çarəmiz qalmayacaqdır". Bu nifaqlı məktubdan heç kim sədaqət qoxusu duymadı. O vilayətin hər tərəfi isə cah-cəlal çadırları ilə dolmuşdu. Buna görə də onların (hind cığataylarının, yəni moğolların) tələb və xahişlərini yerinə yetirmək bu dövlətə layiqli iş deyildi. Həmin dar düşüncəli adamlardan görünən elə ədəbsiz hərəkət artıq birlik [şüarının] üstündən müxalif və biganəlik xətti çəkirdi ki, bu da şahın saf ayininin ziddinə olan bir etiraz idi. Əlahəzrətin fikri dəyişdi, dərhal hücuma başlamağa meylləndi, Xosrov Sultan Mirzə Pazukini bir dəstə qəhrli döyüşçü ilə Şah Kəlan tərəfindən qorunan Zəmindavər qalası üzərinə yollandı. Rəcəb ayının səkkizinci (19 may, 1622) çəharşənbə günü isə Qəndəhar xaricdən iqbal çadırları ilə doldu" (219).

Canahgir şah Qəndəhar qalasının mühasirəyə alınması xəbərini çox böyük təşvişlə qarşıladı. O, heç bir vəchlə Qəndəharın yenidən Səfəvi dövləti tərkibinə qatılmasını istəmirdi və ona görə təcili tədbirlər görmək yolunu tutdu. Hind şahı iki dövlət arasında mövcud olan münasibətlərə istinad edərək Şah Abbasın Qəndəhar üzərinə qoşun çəkəcəyini az ehtimal edirdi. Ona görə də Qəndəhar istiqamətində cəmi beş min nəfərlik hind qoşun dəstəsi var idi. Bu dəstə ilə də qızılbaş qoşunlarına qarşı ciddi müqavimət göstərilməsi mümkünsüz idi. Qəndəhar üzərinə hücum etmiş qızılbaş qüvvələrinə ciddi müqavimət göstərilməsi üçün Cahangir şah böyük bir qoşun dəstəsi təşkil etdi və ona rəhbərliyi Şah Cahan kimi tanınan oğlu, şahzadə Xürrəmə tapşırdı. Eyni zamanda Cahangir şah şimal vilayətlərinin hakimlərinə fərman göndərdi ki, qoşun dəstələri ilə Qəndəhar üzərinə yürüş etmək üçün hazırlıq gör-

sünlər. Lakin bu tədbirlər bir nəticə vermədi. Belə ki, hind sarayında yenidən hakimiyyət davası alovlandı və Şah Cahan tabeliyində olan qoşun dəstəsi ilə birlikdə atası Cahangir xana qarşı çıxdı. Bəzi məlumatlara görə, Şah Cahan hətta Şah Abbasa da məktub göndərdi və Cahangir şaha qarşı ittifaqa girməyi təklif etdi. Bildirilir ki, Şah Abbas bu təklifi qəbul etmədi. Əksinə, o, Şah Cahana məsləhət gördü ki, atası ilə düz yola getsin (220).

Bir məlumata görə, qızılbaş qüvvələrinin Qəndəharı mühasirəyə alması xəbəri gələndə Cahangir şah çox qəzəbləndi və bu qəzəbini o, Şah Abbasa göndərdiyi məktubda da ifadə etdi. Mövcudluğu və Cahangir şaha məxsusluğu şübhə doğuran həmin məktubda hind şahı qızılbaş qoşunlarını tör-töküntü, Şah Abbasın özünü isə səadətsiz bir insan adlandırırdı. O yazırdı ki, qızılbaş qoşunları ayaqlarını öz cızıqlarından kənara ataraq Qəndəharı mühasirəyə almış və orada bir çox insanı da qətlə yetirmişlər. Cahangir şah sonra da xəbərdarlıq edirdi ki, ən yaxın zamanlarda ən təcrübəli sərkərdələrin rəhbərliyi altında qoşun təşkil olunacaq və Qəndəhar ətrafına göndəriləcəkdir. Onun yazdıqlarına görə, bu qoşunlarda yalnız fillərin sayı-hesabı olmayacaqdı və bu fillər qəfil bəla kimi qızılbaş qoşunları üzərinə töküləcəkdi. Cahangir şah məktubunun sonunda hərbə-zorba gəlirdi və yazırdı ki, əgər Şah Abbas quş olub uçsa belə, onu ovlayıb Cahangir şahın yanına gətirəcəklər (221).

Bir daha qeyd edilməlidir ki, bu məktub haqqında elmi-tarixi dövriyyədə məlumat olsa da, onun mövcudluğu araşdırmaçılar arasında şübhə ilə qarşılanır. Qərar tutduğu daxili və xarici şərait mühitində Cahangir şahın belə cəsarətli məktub yazması az inandırıcıdır.

İsgəndər bəy Münşi yazırdı ki, Əbdüləziz xandan imtina cavabı alsa belə Şah Abbas dərhal qala üzərinə hücum təşkil etmədi. O, bir neçə gün səbir edib qalanın dinc yolla təhvil veriləcəyini gözlədi. Həm də qala mühasirəsi üçün zəruri olan toplar, qurğular, istehkamçılar qoşunla gətirilməmişdi. Yəni Şah Abbas ov məqsədilə səfər etmək xəbərini bəyan edəndə, qala mühasirəsi üçün la-

zım olan texnikanı götürmədi ki, məqsədinin nə olması barəsində vaxtından tez şübhə yaranmasın. İsgəndər bəy yazırdı: "Əbdüləziz xan və onun yoldaşları, məktubda yazdıqları kimi, anlamazlıqları üzündən zahirdə əlahəzrətlə aşinalıq, batində biganəlik məqamında dayandılar, yaramaz üzrxahlıq etmələrinə baxmayaraq qaladarlıq etməyə girişdilər, ali orduya tərəf top atdılar, hərbə başladılar. Əlahəzrət zilləllah şah bir neçə gün bu işə şahanə səhlənkarlıqla (təğafol) yanaşdı, döyüşməyi iqbal döyüşçülərinə qadağan etdi, onları düz yola gətirməyə çalışdı, dəfələrlə razılıq və birliyə dəvət etdi, faydalı nəsihətlərə başladı: "Qoy uzaqgörən əqlin gücü ilə tərslik (lecac) və inadkarlıqdan əl çəksinlər, əminlik və səlamətlik yolunu tutsunlar". Amma, bunun heç bir xeyri olmadı, qaladarlıq və inadkarlıqlarında israr etdilər, beləliklə də, cahandarlıq qayda-qanununa əsasən həmin mülkün qəhrlə tutulması kimi şahanə qərara gəldilər, çünki belə etməmək daha dərya qədər hövsələyə sığmaz, belə səhlənkarlıq şahanə himmət və qeyrətə ar gələrdi. Şahın qiyamət alovlu qəzəbinin şöləsi zəbanə çəkdi və müzəffər əskərlər mühasirəyə və qala tutmağa göndərildi. Baxmayaraq ki, qala tutmaqdan ötrü vacib olan qala silahları, xüsusilə top, badlic, topxana işçiləri (əmələ) və beldarlar yox idi, ali ordunun bahadırları və qalalar tutan igidlər qalanın hər yanını əhatələdilər, seybələri irəli gətirdilər. Dəmir pəncəli qəhrəmanlar həyəcanlı meşə aslanları (huyəbr) kimi dırnaqları ilə barı və bürcləri cırmaqlayıb, on yeddi gün ərzində qalanın bünövrəsini laxlatdılar, lağımlar ataraq qalanın dibini arı evi və hörümçək toru kimi zəiflətdilər. O qarabəxtlərin dövlət binası kimi hər gün bir neçə möhkəm bürc uçurulur, o nadanların başlarına idbar və bəxtiqaralıq tozları yağırdı. Əlahəzrət zilləllah şah, bütün adamlara xas olan mərhəmətinin çoxluğundan qəhrli döyüşçülərə yürüşə başlamaq əmri vermirdi ki, məbadə əskərlərin səhvi üzündən biçarə rəiyyət ayaq altında qalıb tələfata uğrasın. Xülasə, qaladakılar bürc və barıların titrəyişini və qalanın əsməyə başlamasını, qaladarların qorxuya düşdüklərini görüb, acizliklərini müşahidə etdilər, qəflət və nadanlıq yuxusundan bir qədər oyandılar, özlərinin

hər tərəfdən bədbəxtlik (ezterar) bataqlığında qərq olduqlarını anladılar, aman istəmək məqamına gəldilər" (222).

Yəni bir neçə günlük gözləntidən sonra Şah Abbas Qəndəhar qalası üzərinə hücum əmri verdi. Qoşunlar ixtiyarında olan toplardan, tüfənglərdən istifadə etməklə qala üzərinə hücuma başladılar. Nəqəbçilərə də qala divarları altından lağım atılması tapşırıldı. On gün ərzində lağımçılar qala divarlarının altını eşdilər. Şah Abbas qoşun əmirlərinə göstəriş verdi ki, ətrafdan ağaclar, ot və ələf toplayıb qala divarları altına yığsınlar və sonra da ona od vursunlar. Belə də edildi və güclü atəş qala divarlarının aşmasına əlavə bir təkan verdi. Qala daxilindəkilər çıxış yolunun olmadığını görüncə, şah çadırına nümayəndələr göndərdilər və ondan əfv dilədilər. Qəndəhar hakimi Əbdüləziz xan da kəfən və qılıncını boynundan asaraq Şah Abbasdan əfv dilədi. Şah Abbas onları əfv etdi və qoşunlara da tapşırdı ki, şəhər əhlindən kimsənin malına və canına toxunulmasın (223).

İsgəndər bəy Münşi Qəndəharın fəthunu belə təsvir edirdi: "Əlahəzrət onlardan çoxlu ədəbsizlik baş verməsinə baxmayaraq, əvvəlki dostluq əlaqəsini nəzərə aldı, nübüvvət və vəlayət xanədanının üzvlərinə xas olan ənənəvi mürüvvət və fütüvvət ilə bütün qaladakılara aman verdi, onlar pərişanlıqdan aman tapdılar. Şəban ayının on birinci (21 iyun, 1622) seşənbə günü Əbdüləziz xan başqa əmir və əyanlarla, o cümlədən Şəmşir xan, Əliqulu Durmən, "Məxdumzadə" adı ilə tanınan Mirzə Fazil, Xacə Aftab, "Xane-Dovran" ləqəbli sabiq hakim Şahməhəmməd ibn Şahibəy xan, Tulə xan və başqaları qaladan çıxıb istədilər ki, günahkarların etdikləri kimi boyunlarından oxqabı (tərkeş) asaraq şahın yanına gəlsinlər. Surət aləminin zahirini bəzəyən və mənəvi əlaqələri hərəkətə gətirən (silsiləcünban) adamlara qayda-qanun öyrədən əlahəzrət onların bir neçə gün davam edən həyəcanlarına etina etməyərək öz razılığını vermədi, onlar isə xəcalətlə boyunlarını əyib, bu sülalənin qayda və adəti üzrə öz intizarlarını bildirdilər. Əlahəzrət onlarla mərhəmətlə davrandı, hamısına faxir xələtlər və layiqli peşkeşlər verdi, cürbəcür nəvazişlərlə həmin şəxslərin

vahiməyə düşən ürəklərini aldı və hamısına yenidən qalaya qayıtmaq icazəsi verdi, hərə öz mənzilinə qayıtdı. Üç gündən sonra, mülazim və xidmətkarlardan başqa üç-dörd min nəfər cığatay və başqa döyüşçülər qaladan çıxdılar, ali ordunun yanında çadır qurdular. Onların hamısı onlara edilən şahanə iltifat və mərhəmət altında tam həyəcan və çaşqınlıqla günlərini başa vururdu. Əbdüləziz və cığatayların qalanı təhvil verib buraya gəlmələrindən sonra həmin ayın on dördündə (24 iyun, 1622) cümə günü əzəmətli sədrlər və dərgaha yaxın şəxslər şəhərə" (224) girdilər.

Qəndəhara daxil olan əzəmətli müctəhidlər, əmirlər və qoşun əhli şəhər məscidinə yollanaraq təxminən 25 il Səfəvi hakimiyyətindən uzaq düşmüş bu şəhərin yenidən səltənət tərkibinə gətirilməsi ilə bağlı namaz qıldılar, əldə eidlən uğurla bağlı yaradana dua etdilər. Burada Şah Abbasın adına xütbə oxundu. Qəndəhar şəhəri alınanda Səfəvi elçisi Zeynal bəy hələ də Hind sarayında idi. Cahangir şah və hind sarayının mənsublarında belə bir güman yarandı ki, Zeynal bəy ötürdüyü məlumatlarla Şah Abbası Qəndəhar üzərinə hücuma təhrik etmişdi. Ona görə saray daxilində ona qarşı bir narazılıq yarandı. Amma hələ Zeynal bəy geri qayıtmamış hind sarayına yeni Səfəvi elçiləri gəldilər. Şah Abbas çalışırdı ki, Qəndəhar qalasını geri qaytarsa belə, hind sarayı ilə münasibətlər korlanmasın və əvvəlki qaydada qalsın. O, hətta şəhəri dinc yolla təslim etməkdən imtina edən Əbdüləzizə və onun ətrafındakılara qarşı da sərt tədbirlər həyata keçirmədi. Əksinə, onlara qarşı mehribanlıq göstərdi, onlara qiymətli hədiyyələr bağışladı. Onlar geri qayıtmaq istəyəndə isə Şah Abbas özünün Heydər bəy Yüzbaşı adlı yeni elçisini də onlara qoşdu və onlarla birlikdə hind sarayına yola saldı. İsgəndər bəy Münşi yazırdı: "Əbdüləziz və cığataylar isə tam peşmançılıq hissi ilə hind diyarına getmək istəyib xahiş etdilər ki, male-əmani təqdim etmək və canlarının bağışlanmasına təşəkkür (şokraneyecanbəxşi) əlaməti kimi layiqli hədiyyələr verməklə şahdan icazə alsınlar. Xosrovanə xasiyyət bəhrinin himməti əsla bunu qəbul etmədi, [şah onların] gətirdikləri qiymətli daş-qaşa və başqa şeylərə nəzər yetirmədi,

onların parçalanmış ürəklərini ələ almaq məqsədilə gətirdikləri şeylərdən imtina etdi, peşkəşlərini özlərinə bağışladı, onlara yol azuqələri, ehtiyacları miqdarında İraq irqindən olan minik atları verdi, hamısını mal, silah və əhli-əyalları ilə birlikdə sağ-salamət yola saldı, hind diyarının həzrət padşahına və cah-cəlallı hökmranınıa məhəbbətamiz bir məktub da yazdı, onu Heydər bəy Yüzbaşı Qaradağlı, Əbdüləziz xan və yoldaşları ilə göndərdi. Əlahəzrət öz məktbunda asimanın təqdiri və qəzanın məsləhəti (iqtiza) ilə baş vermiş yürüş münasibətilə öz üzrxahlığını bildirdi, sədaqət və birlik qapılarının açarı ola biləcək iki qızıl açar hazırladıb o həzrətə göndərdi ki, onların birinin üstündə "Qəndəhar", ikincisindəsə İran məmləkətinin adları nəqş olunmuşdu. [Şah] məhəbbət və qardaşlıq dili ilə padşaha belə xəbər göndərdi: "O həzrətin adamlarının ağıllarının dayazlığı və qafillikləri üzündən bizim aramızda ayrılıq və biganəlik yarandı, illərlə açıq olan aşinalıq və birlik qapıları qapandı ki, bütün bunlar [Allahın] təqdiri ilə baş verdi. İndi ixtiyar ali mülazimlərə verilmişdir. Allahın evindən bu qardaşa verilmiş bütün İran vilayətlərini bir qala şəklində təsəvvür edərək, onların ixtiyar açarının özünüzün iqtidarı altında olduğunu güman edin, bü sözləri rəsmi təklif və təvazökarlıq saymayın. Sübhanallah, ülfət və birlik (elteyam) necə də uca mərtəbədir ki, şanşöhrətli hökmdarlar özlərinin hökmdarlıq etmələrinə (təsəllot) və iqtidarlı olmalarına rəğmən səbəblər aləmində hər biri cahanı qarışdıra biləcək vəhşət yaratmaları üzündən (movəccəbat) on iki imam həzrətlərinin köməyi və ədalətli padşahların kamil sifatlarının zatında olan əzəli vəhdət tələbi (moqtəza), həmçinin bilik sultanı və ağıl hökmranının hökmü ilə öz şan-şöhrətlərini əldən vermirlər" (225).

Elmi-tarixi dövriyyədə Şah Abbasın Cahangir şaha göndərdiyi məktubun başqa bir variantı da vardır. Bu variant belədir: "Biz səltənətimizin əvəllərində atadan miras qalan bu torpaqları itirmişdik. Lakin hakimiyyətim boyu oranı geri almağa qərarlı idik. Qəndəhar bu müddət ərzində Gurgani (Teymuri) hökmdarlarının, yəni sizin əlinizdə idi. Biz sizi özümüzdən hesab edirdik. Buna görə də

hücum etməmişdik. Aramızda dostluq əlaqələri yarandığı üçün sizin müəyyən addım atacağınızı gözləyirdik. Bir müddət belə keçdi. Biz ayrı-ayrı vaxtlarda o bölgələrin Səfəvi hakimiyyəti altında olmasının lazım gəldiyini xatırlamışdıq. Lakin sizdən qəti bir cavab gəlmədi. Sonra xəbər yollayıb oralara səyahət və ziyarət edəcəyimizi bildirdik. Ancaq buna da müsbət yanaşmadığımız üçün məqdədimiz gerçəkləşmədi. Qəndəhar qalasının müdafiəçiləri nüxalifətə keçdilər. Biz səbr etdik. Lakin onlar cürətli hərəkətlərini davam etdirdilər. Biz də Qəndəharı yerlə-yeksan etməyə qərar verdik. Lakin qalanın təslim edilməsindən sonra onların hamısını bağışladıq. Sizinlə aramızdakı əlaqələr bu qalanın fəthi ilə bağlı pozulmayacaq qədər möhkəmdir. Bu bölgələr sizə aiddir. Biz sadəcə idarə edirik. Bu hadisə sizi naharat etməsin" (226).

Bu məktub ənənəvi normalardan kənar yazılmış müxtəsər bir məktub idi. Farsdilli elmi ədəbiyyatda belə məktublar "rəqeə" adlanır. Yəni belə məktubları qısa bir peyğam kimi də qəbul etmək mümkündür. Farsdilli elmi-tarixi dövriyyədə bu rəqeənin orijinal variantı da vardır. Lakin həmin variant yuxarıda verilmiş mətndən müəyyən qədər fərqlənməkdədir. Şah Abbas öz dualarını bəyan etməklə yazırdı ki, atasının hakimiyyəti illərində bəzi ərazilər hakimiyyətin nəzarətindən çıxmış və müxaliflərin nəzarəti altına düşmüşdü. O yazdığına görə, Qəndəharla bağlı hər zaman gözləyirdi ki, canına bərabər olan qardaşı (yəni Cahangir şah) bu məsələdə heç nəyi əsirgəməyəcəkdir. Amma bu gözləntilər özünü doğrultmayanda dəfələrlə məktublar yazıldı və məsələ xatırladıldı. Şah Abbas yazırdı ki, bu məktublar göndərilməsinə baxmayaraq qarşı tərəfdən heç bir cavab alınmadı. O qeyd edirdi ki, bir müddət sonra Qəndəhar bölgəsinə ov etmək üçün yollanacağını bəyan etdi və düşünürdü ki, bununla tərəflər arasında etimadlı münasibət daha da güclənsin. Şah Abbas Qəndəhar hakimi Əbdüləzizlə ünsiyyət yaratdığını və sonra da onunla birlikdə yüzbaşı Heydər bəy adlı elçisini də Cahangir şah sarayına göndərdiyini yazırdı (227).

Qeyd edildiyi kimi, Şah Abbas hind sarayı ilə münasibətlərin pisləşməsini heç də istəmirdi. Bu münasibtlərin xoş məram üzə-

rində saxlanılması bir tərəfdən iki dövlət arasında iqtisadi əlaqələrin genişlənməsinə imkan verə bilərdi. Digər tərəfdən də səltənətin şərq sərhədlərinin təhlükəsizliyini təmin edə bilərdi. Şah Abbas ona görə də Qəndəharın hind hakiminə və əyanlarına xoş münasibət göstərdi, onlara qiymətli hədiyyələr verdi və sonra da öz yurdlarına yola saldı. Qəndəhar hakimi Əbdüləziz xanla birlikdə Şah Abbas həm də özünün yeni elçisini hind sarayına göndərdi və onunla rəqeədən əlavə həm də böyük bir məktub göndərdi. Bu məktubla da Şah Abbas çalışırdı ki, Qəndəhar məsələsi ilə bağlı hind sarayının, Cahangir şahın barışmazlığını yumşaltsın, onlarda baş verən hadisəyə qarşı bir yumşaqlıq yaratsın. Şah Abbas çatdırmaq istəyirdi ki, o, Cahangir şahla xoş münasibətlərin davam etdirilməsinə tərəfdardır.

Bu məktub Cahangir şahın vəsfi ilə başlanırdı. Bəlağətli təsvirlərlə və bənzətmələrlə Şah Abbas hind şahına öz münasibətini ifadə edirdi. Bu məktubda da Cahangir şah can qədər əziz olan qardaş adlandırılırdı. Şah Abbas bir daha bildirirdi ki, şah babam rəhmətə getdikdən sonra səltənət daxilində narahat günlər başladı və bir sıra ərazilər səltənət nəzarətindən qopa bildilər. Sonra Şah Abbas Qəndəharın da Səfəvi dövlətindən qoparıldığına işarə edirdi və bildirirdi ki, bu məsələ ilə bağlı elə də narahatçılıq keçirmirdi. Çünki hind şahını da o özününkülərdən biri hesab edirdi. Bununla belə, Şah Abbas onu da yazırdı ki, məsələnin həll olunacağını səbirlə gözləyirdi və ümid edirdi ki, hind şahı Qəndəharı könüllü surətdə geri qaytaracaqdır. Məktubda qeyd olunurdu ki, məsələnin həlli dəfələrlə hind sarayına göndərilən məktublarda da yada salınmışdı və bununla hind sarayının diqqəti bir daha Qəndəhar məsələsi üzərinə cəlb edilirdi. Şah Abbasın fikrincə, Qəndəharın geri qaytarılması ilə bu barədə mövcud olan ümidsizliklərin, habelə xoşagəlməz söhbətlərin aradan qalxmasına da yol aça bilərdi. Təəssüflə qeyd olunurdu ki, bu məsələnin həlli hər dəfə təxirə salınırdı və bu da dost və düşmən arasında kənar söhbətləri ortaya çıxarırdı. Şah Abbas sonra Qəndəhar istiqamətində ova çıxmaq məəsləsinə toxunurdu. Onun fikrincə, bu zaman onun hind

mənsubları tərəfindən qarşılanması və onların xoş münasibətlərinin ifadəsi dost və düşmən arasında bu iki dövlət arasındakı münasibətlərin möhkəmliyinə olan şübhələrini aradan qaldıra bilərdi. Şah Abbas bu səfər zamanı Qəndəharı tutmaq istəmədiyini və bunun üçün qala mühasirəsi avadanlıqlarını da özü ilə götürmədiyini israrla bəyan edirdi. Məktubda bildirilirdi ki, Fərəhə yetişəndən sonra Qəndəharın hakiminə məktub göndərildi. Həmin məktubda deyilirdi ki, iki dövlət arasında möhkəm münasibətlər var və ərazi mənsubiyyətində heç bir fikir ayrılığı yoxdur. Şah Abbas qeyd edirdi ki, hər iki dövlətin ərazisini biz öz ərazimiz hesab edirik və ona görə Qəndəhar hakimindən istənilirdi ki, Səfəvi şahını qarşılasın və ona öz qonaqpərvərliyini nümayiş etdirsin. Səfəvi şahı Qəndəhar hakiminə gəlişinin məqsədinin yalnız ov və əyləncə olduğunu çatdırırdı. Şah Abbasın yazdığına görə, Qəndəhar hakimi onun məsləhət və təklifinə qulaq asmadı və şah qüvvələri Qəndəhar ətrafına yetişəndən sonra şah adına uyğun olan bir qarşılanma ilə qarşılaşmadı. Qızılbaş əmirləri dərhal qala üzərinə hücum təklifi etsələr də, Şah Abbas on gün gözləməyi lazım bildi. On gün ərzində Qəndəhar hakimi Şah Abbasa qarşı laqeyid qaldıqda qala üzərinə hücum əmri verildi. Şah Abbas bir daha qeyd edirdi ki, qala mühasirəsi üçün yetərli silah və avadanlığı yox idi. Yəni o, əvvəldən Qəndəhar qalasını ələ keçirmək niyyəti ilə səfərə başlamamışdı. Yalnız Qəndəhar hakiminin saymazlığı Şah Abbası məcbur etdi ki, ona öz yerini göstərsin. Şah Abbas qalanın ələ keçirilməsindən sonra şəhər sakinlərinin və hakimlərinin əfv edildiyini və bunu iki dövlət arasındakı səmimi münasibətlərin olması ilə əlaqələndirdiyini yazırdı. Baş vermiş hadisənin mahiyyətinin çatdırılması üçün Şah Abbas özünün sədaqətli sufilərindən biri olan Heydər bəy Yüzbaşını hind sarayına göndərdiyini də yazırdı. Heydər bəy məsələnin mahiyyətini anlatmaqla hind şahında yarana biləcək anlaşılmazlığı aradan qaldırmağa çalışmalı idi. Şah Abbas məktubunun sonunda bildirirdi ki, onun bütün əraziləri eyni zamanda hind şahının əraziləridir və ümid etdiyini bildirirdi ki, hind şahı Qəndəhar hadisəsinə anlaşıqlı yanaşacaqdır (228).

Türkdilli elmi ədəbiyyatda Şah Abbasın Cahangir şaha göndərdiyi məktubun qismən tərcüməsi belə verilmişdir: **"**Biz, səltənətimizin başlangıcında bu atadan miras torpağı əlimizdən qaçırmışdıq [Əkbərin fəthinə işarə edilir]. Fəqət səltənətimiz müddətində oraları geri almağa qərarlıydıq. Qəndəhar isə bu müddət zərfində Gürgani[Teymuri] hökmdarlarının, yəni sizin əlinizdə idi. Biz isə sizi özümüzdəm bilirdik. Bu üzdən hücum etməmişdik. Aramızda qurulmuş olan dostluq və birlik səbəbiylə sizin bir addım atacağınızı bilirdik [Qəndaharın geri qaytarılmasını gözlədiklərinə işarə olunur]. Bir müddət belə keçdi. Biz ara-sıra o bölgələrin İran şahının hakimiyyəti altında olması gərəkdiyini xatırlatmışdıq. Fəqət sizdən qəti bir cavab gəlmədi. Sonra bir xəbər yollayıb, oralara səyahət və ziyarət edəcəyimizi bildirdik. Amma buna da olumlu yaxınlaşmadınız və məqsədimiz hasil olmadı. Qəndəhar qalasının mühafizləri müxalifətə başlamışlardı. Biz səbir etdik. Fəqət onlar cürətli hərəkətlərinə davam etdilər. Biz də Qəndaharı xak ilə yeksan [yerlə bir] etməyə qərar verdik. Fəqət qalanın fəthindən sonra hamısını bağışladıq. Sizinlə aramızdaki münasibət bu qalanın fəthiylə pozulmayacaq qədər sağlamdır. Bu bölgələr sizə aiddir. Biz sadəcə idarə edirik. Bu fəth sizi narahat etməsin. Könlünüzü sındırmayın" (229)

Məktub yazmaqdan əlavə, Şah Abbas iki ədəd qızıl açar düzəltdirdi. Bu açarlardan birinin üzərinə Qəndəhar, digəsinin üzərinə isə Səfəvi səltənətinin adı yazıldı. Onlar da hədiyyə kimi Cahangir şaha göndərildi. Şah Abbas bununla Cahangir şaha çatdırmaq istəyirdi ki, həm Qəndəharın və həm də bütün səltənətin açarı onun əlindədir. Yəni bu səltənəti də özününkü bilsin (230).

Bəllidir ki, Cahangir şah səltənəti daxilində baş verən hadisələrə, saray daxili çəkişmələrə və hakimiyyət davasına görə Qəndəhara qoşun çəkə bilmədi. Yəni Şah Abbasın Qəndəharın ələ keçirilməsi ilə bağlı barışdırıcı mövqeyi onu heç də qane etmədi. Lakin qətiyyətli addımlar atmaq üçün də onun imkanları yox idi. Şah Abbasın növbəti məktubunu alandan sonra Cahangir şah uzun müddətdən bəri onun sarayında olan Zeynal bəyin geri qayıtma-

sına icazə verdi. Ona həm də Cahangir şahın Şah Abbasa yazdığı məktub təqdim olundu. Doğrudur, Cahangir şah məktubda Qəndəharın itirilməsi ilə bağlı sərt etiraz bildirmədi. Lakin onun Qəndəharın itirilməsi ilə bağlı olan narazılığı Zeynal bəyin yola salınması zamanı özünü göstərdi. Belə ki, Zeynal bəy elçi adına uyğun olan ehtiramla yola salınmadı. Hətta Zeynal bəy yola düşəndən sonra Cahangir şah ondan şikayət dolu bir məktub yazıb Səfəvi sarayına göndərdi. Səfəvi sarayında isə Zeynal bəy 1623-cü ildə hörmətlə qarşılandı və elçilik vəzifəsini uğurla yerinə yetirdiyi üçün Şah Abbasın xüsusi mükafatına layiq görüldü. Ona xan məqamı verildi və Səfəvi qoşunlarının sipəhsaları vəzifəsinə təyin olundu (231).

Zeynal bəyin və hind sarayımda olan Səfəvi elçilərinin 1623-cü ilin yazında geri qayıtması haqqında İsgəndər bəy geniş və maraqlı bir məlumat vermişdir. Onun yazdıqları da Zeynal bəyin başına gələnlər haqqında yuxarıda deyilənlərin təsdiqi ola bilər. İsgəndər bəy bu barədə belə yazırdı:"Bu bahar əyyamı baş verən müxtəlif hadisələrdən biri də xaqana yaxın (müqərrəbəl-xəqani) bir şəxs və Hindistan elçiliyinə gedən bir elçi olan Zeynal bəy Tuşmalbaşının, həmçinin Qəndəharın fəthindən sonra o diyara gedən Heydər bəy Yüzbaşı Qaradağlının və Mirvəli bəyin geri qayıtmalarıdır.

Zeynal bəyin gedib-qayıtmağının şərhi belədir: O tərəfdən elçi təriqilə gələn Xanaləm hind silsiləsinin böyük əmirlərindən idi. Yuxarıda yazıldığı kimi Xanaləm müxtəlif mallar, yaraqlar və daş-qaşlarla İrana gəlmişdi. Əlahəzrət şah da bu dövlətin əmirləri, yaxınları və mötəbər adamlarına nəzər saldıqdan sonra zatən ləyaqətli, düşüncəli, himmətli, ədəbli, xoş rəftarlı, etibarlı, məhrəm, həmçinin şərəf və mənliyi başqalarından üstün olan Zeynal bəyi elçiliyə layiq və bu xidmətə yararlı bilərək, yuxarıda yazıldığı kimi, onu Xanaləmlə Hindistana rəvan etdi. Bu işə başlayan Zeynal bəy öz vəzifəsinə sədaqətli, etiqadlı mürşidi və vəlinemətinin (Şah Abbasın) yolunda baş, can və malından keçən sufi kimi qoşulmağı və dost-düşmən tərəfindən bəyənilən adam olmağı qarşısına məq-

səd qoydu. Buna görə də, vəlinemətin himmətinə, qeyrətinə, adına və namusuna ehtiramla həmin səfərə hazırlaşdı, şahanə şövkət, əzəmət, bər-bəzək, zər-zivər, külək sürətli tazı atlar, əskərlərin ən yaxşı bəzəyi olan qiymətli daş-qaş, qızıl və gümüşlə bəzənmiş yəhərlər, növbənöv alətlər və saysız-hesabsız əşya və ziynətlər, çoxlu mülazim, xidmətçi və əmələ ilə şahın xidmətindən ayrılıb Xanaləmlə birlikdə rəvan oldu. Hindistana qədəm basanda getdiyi hər bir məkan, vilayət və qəsəbələrdə onu istiqbal şərtlərinə uyğun olaraq izzət və ehtiramla qarşılayırdılar. Lahura çatdıqda Hindistan məmləkətlərinin hökmranı olan uca məqamlı həzrət padşahın (Məhəmməd Əkbərin) yanına təşrif apardı. Geri qayıtmaq vaxtı Zeynal bəy aldığı əmrin müqabilində Lahurda qaldı, Xanaləm isə irəli getdi. Padşahın Lahura gəlişindən sonra Zeynal bəy onun xidmətinə yetişib salamlaşdı və təzim ədəb-ərkanını yerinə yetirdi. Hümayun əlahəzrətin (Şah Abbasın) adından onu dostanə sorğusuala tutdu, qardaşyana (bəradəranə) nəyəsə bir ehtiyacının olumolmadığını soruşdu, xaqanın hümayun fallı məktubunu töhfə və hədiyyələrlə birlikdə padşaha təqdim etdi. O elçilik ədəbərkanını və səfarət qayda-qanununu tərəfl ərin məhəbbət və dostluğuna layiq tərzdə yerinə yetirdi. Uca məqamlı həzrət padşahın ölkəsində belə bir qayda vardır ki, hər il onun təvəllüd günü doğulduğu Dehli darülmülkündə bayram kimi qeyd olunur, əhali öz hökmdarını vəd etdikləri müxtəlif nəzirlərlə təbrik edir. İndi həmin gün yaxınlaşdığı üçün o həzrət Lahurda ləngiməyib Dehliyə rəvan oldu. Xanaləmin məsləhəti ilə Zeynal bəy Qəndəhar məsələsini olduğu kimi padşahın dövlət başçılarına və əyanlarına ərz elədi, amma arxayın olmaq naminə eşitmək istədiyi cavabı onlardan ala bilmədi. Buna görə də elə oradan geri qayıtmaq və daha irəli getməmək fikrinə düşdü. Elə bu əsnada gurəkaniyyə nəslindən olan həzrət padşah üçün müəyyən olunan və üzərində mərhum padşah Mirzə Uluğ bəy ibn Mirzə Şahrux ibn Əmir Teymur Gurəkanın adı yazılmış böyük bir ləl gətirdilər, çünki Zeynal bəy elçiliyə yollanarkən həmin ləli hələ hazırlayıb qurtara bilməmişdilər. Həmçinin Rum padşahının bəzi hədiyyə və töhfələrindən əlahəzrətin hind

padşahı üçün qardaşcasına seçib-ayırdığı şeylər və onların göndərildiyi barədə Zeynal bəyə yazılan kağız da gəlib yetişdi. Buna görə də, bəy məcbur olaraq, Dehliyə yollandı. Adı çəkilən təvəllüd bayramı keçiriləndən və yuxarıda adları qeyd olunan töhfələr təqdim olunandan sonra uca məqamlı padşah Agrə darüssəltənəsinə getdi.

Zeynal bəyə daim ehtiram göstərilirdisə də, onun dövlət başçıları və başqa adamlarla Qəndəhar barədə aparılan danışıqlarına qənaətbəxş bir cavab verilmirdi. Bəy də məktub yazaraq bu məsələni olduğu kimi öz vəlinemətinə ərz etdi.Yuxarıda barəsində yazılan Qəndəhar hadisəsinin xəbəri Hindistana çatanda, Zeynal bəyi bu məsələdə təqsirkar bilib, bir neçə gün həmin məsələ xüsusunda onunla söhbət etdilər. Nəhayət Heydər bəy Yüzbaşı Qaradağlı və Mirvəli bəy Daruğə bir-birinin ardınca gələrək şahın məhəbbət dolu sözlərini və məktubda yazılan Qəndəhar barədəki ürəkaçan üzrxahlığını ərz etdilər. Yazılanlar üzürlü sayıldı, şadyanalıq başlandı. Tərəflər arasındakı sədaqət və dostluq qanun-qaydasının möhkəmlənməsi xüsusunda yenidən danışıq aparıldı. Uca məqamlı padşah Kəşmir vilayətinə getdiyindən, onun şəhərdə olmadığı vaxt Zeynal bəy və adları çəkilən elçilər gəlib, dostanə izahatlar və misilsiz nəzakətlər əks olunmuş məktub təqdim etdilər. Orada yazılmışdı: "Biz o padşahlıq tacını ziynətləndirən padşahla aramızda olan məhəbbət və dostluğu dünyadan üstün sanırıq və bunu heç bir hədiyyə ilə bərabərləşdirə bilmərik".

Beləliklə, Zeynal bəyə və adları çəkilən elçilərə rüxsət verib yola saldılar. Əkbər sülaləsinin qanununa əsasən xüsusi təzim etmə və [rəsmi] görüş vaxtı belə qayda mövcuddur: Ənam və bəxşişlər təqdim olunarkən onlara layiq görülən şəxslər dayanıb onu gözləyirdilər. Zeynal bəydən ayrılmaq vaxtı çatdıqda uca məqamlı padşah elçiyə veriləcək peşkəşlərin adlarını sadaladı. Zeynal bəyin nəzərincə bu hərəkətdə ləyaqətsiz lik vardı. Buna görə də Zeynal bəy bu astanaya (səfəvilərə) hörmət və qürurunun çoxluğundan o peşkəşlərə əhəmiyyət vermədi. Hər iki tərəfin yaxşılığını istəyən adamların təkid etmələrinə baxmayaraq o, həmin peşkəşlərdən

imtina edib dedi: “Bu qayda bizim vəlinemətimizin qayda-qanununa uyğun deyfil. Əgər padşahın bizə qarşı fəxr edəcəyimiz xüsusi inayəti olsaydı, biz həmin inayətlə kifayətlənərdik. Dünya malı nə olan şeydir ki? Bizdən ötrü xüsusi şəfəqqət hər cür ləyaqətsizlikdən üstündür və biz həmin şəfəqqətlə kifayətlənərdik”. Zeynal bəyə qarşı ürəklərində onun qaydaqanunu barədə dediklərinə qəzəbi olan bəzi dövlət adamları öz vəlinemətlərinin tərəfini tutaraq həmin peşkəşlərin verilməsindən vaz keçdilər, Zeynal bəy də bu barədə söhbət açmayaraq yola rəvan oldu.

Bu ilin əvvəllərində həmin elçilər dərgaha gələrək behiştnişan Mazandaranda şahla görüşmək səadəti ilə şərəfləndilər, Zeynal bəyin xidmətləri bəyənildi. O, xosrovanə diqqətə məruz qaldı, qədri və məqamı ucaldı” (232).

Cahangir şahın Şah Ababsa göndərdiyi məktub da Allaha və onun peyğəmbərinə dua və ehtiramla başlayırdı. Məktubda Şah Abbasın vəsfinə həsr edilmiş uzun-uzadı cümlələr də var idi. Şah Abbas bu məktubda xosrovanə taxtın sahibi, Səfəvi xanədanın layiqli təmsilçisi, zamanın soltanı, dövranın xaqanı və s. kimi xarakterizə olunurdu. Hind şahı məktubunda iki dövlət arasında mövcud olmuş dostluq münasibətlərini də xoş sözlərlə anırdı. Cahangir şah həm Heydər bəyin, həm də Zeynal bəyin elçi kimi hind sarayına gəlməsini bu məktubunda xatırladırdı. O yazırdı ki, Zeynal bəyin gətirdiyi məktubda Qəndəhar barəsində heç nə yazılmamışdı. Hind şahı Zeynal bəyin gəlməsi ərəfəsində səltənət daxilində baş verən hadisələr haqqında da bir neçə cümlə ilə Şah Abbasa məlumat verirdi. O, bildirirdi ki, Şah Abbas ovla məşğul olduğu günlərdə Dekən hakimi itaətsizlik edərək qiyam yolunu tutmuşdu. Bu itaətsizliyin aradan qaldırılması üçün hind şahı Lahura yollanmış və orada lazımi tədbirlərin görülməsi haqqında fərman vermişdi. Yetərli sayda qoşun toplanandan sonra Cahangir şah oğlu Şah Cahanı bu qüvvələrə rəhbər təyin edib özü Əgərəyə qayıtmışdı. Cahangir şah Əgərədə olarkən Zeynal bəy onun qəbuluna düşə bilmişdi. Zeynal bəy də şifahi şəkildə Qəndəharın Səfəvi dövləti tərkibinə qaytarılması ilə bağlı Şah Abbasın təklifini ona

çatdırmışdı. Cahangir şahın yazdığına görə, o bu məsələyə kifayət qədər təmkinlı yanaşmışdı və Zeynal bəyə də bildirmişdi ki, Dekəndə baş verən hadisələri yatırandan sonra bu məsələyə qayıdılar və Zeynal bəyin də geri qayıtmasına icazə verilər. Cahangir şah yazırdı ki, Dekən məsələləri həll olunandan sonra Pəncabda narahatlıqlar özünü göstərdi. Bu dəfə də onun başı Pəncab məsələlərinə qarışdı. Sonra isə havalar çox isti olduğu üçün Kəşmirə yollandı və Zeynal bəyə də xəbər göndərdi ki, o da Kəşmirə gəlsin. Hind şahının yazdığına görə, nəzərdə tutmuşdu ki, Zeynal bəy Kəşmirə gəlib bir qədər istirahət etsin və orada da ona geri qayıtmaq icazəsi verilsin. Cahangir şah yazırdı ki, elə bu vaxtlarda Qəndəharın Səfəvi qoşunları tərəfindən ələ keçirilməsi xəbərini aldı. O, məkdubunda doğrudan da Qəndəharın itirilməsi ilə bağlı xəbərdən yaranan qəzəbini gizlətməyə çalışırdı və bildirirdi ki, Şah Abbasa qarşı hörmətsizlik göstərilməməsi barəsində Qəndəhar hakimi Əbdüləziz xana da əmr göndərmişdir. Sonra da yazırdı ki, Qəndəharın Şah Abbasın nəzarəti altına düşməsindən heç bir sıxıntı keçirməmişdir (233).

Cahangir şah öz məktubunu belə bitirirdi: "Elçinizin gəlişinə qədər Qəndəharla bağlı hər hansı bir tələbinizin olduğunu heç duymamışdım. Elçinizlə yolladığınız məktubda da bundan bəhs olunmur. Bunu onun söylədiyindən öyrəndik. Mən elçinizə "qardaşımla aramızda heç bir iş üçün sıxıntım olmaz" – dedim. Daha sonra sizin qoşunla Qəndəhara doğru yola çıxdığınızı öyrəndim. Təbii ki, buna da inanmadım. Lakin xəbərin gerçək olduğu məlum olan zaman Qəndəhar hakiminə əmr yollayaraq "qardaşımın itaətindən kənara çıxma"–dedim. Aramızdakı qardaşlıq telləri möhkəmdir. Sizə (qardaşlığa) yaraşan səbir edib elçinin gəlməsini gözləməkdir. İndi aradakı razılığı və sədaqəti pozmaqda kimin davranışı qüsurludur?"(234).

Görünür, Şah Abbas yazdığı məktubun və göndərdiyi elçinin Cahangir xanın qəzəbinin söndürülməsi üçün kifayət edəyəcəyini güman edirdi. Səfəvi şahı əmin olmaq istəyirdi ki, onun bölgəni tərk etməsindən sonra hind şahı Qəndəhar üzərinə qoşun çəkmə-

yəcəkdir. Bu hadisənin baş verəcəyi təqdirdə Qəndəharı qorumaq kifayət qədər çətin ola bilərdi. Səltənət paytaxtından kifayət qədər uzaq olan Qəndəhara az bir zamanda kömək yetirilməsi də mümkün deyildi. Cahangir şahın Şah Abbasa qarşı özbək xanları ilə ittifaqa girməsi isə yalnız Qəndəharın deyil, bütün Xorasan vilayətinin təhlükə altına düşməsi demək olardı. Bir məlumata görə, Qəndəharı tərk etməzdən əvvəl Şah Abbas yeni bir elçini və onun vasitəsi ilə də məktubunu Cahangir şaha göndərdi. Məktub Heydərqulu bəy adlı birisi ilə göndərilmişdi. Şah Abbas bu məktubunda Qəndəhar sakinlərinin vəziyyətinin yaxşı olması, gələcəkdə iki dövlət arasıdakı münasibətlərin yenidən möhkəmlənəcəyi haqqında öz arzularını ifadə etdi: "Qəndəharı fəth etdiktən sonra oranın xalqına şəfqət ilə davrandıq. Onlara, iki ölkə arasında olan sağlam əlaqəyə kimsənin və heç bir şeyin zərər verməyəcəyini söylədik. Əlaqələrimiz davam etməkdədir. İki ölkədə bəzi fəsadçılar çıxsa da bunlara rəğmən Hind ölkəsi ilə düşmən olmarıq. Sizi düşmən olaraq görmürük. İndi Qəndəharda barış və sükunət hakimdir. Xalqa sözümüz, bizim hind ölkəsi ilə fərqimiz olmamasıdır. İki ölkə də Qəndəharın hüzur içində olmasını istəməkdədir. Bundan sonra Allahın yardımı ilə əlaqələrimiz gün keçdikcə yaxşılaşacaq və irəli gedəcəkdir. Qəndəhar hakimləri iki ölkənin zərərinə olan hərəkətlərdən qaçacaqlar. Biz, köhnə hakimləri əfv edib, onlara yeni vəzifələr verdik. Siz, bundan dolayı üzülməyin. Bu hadisənin bizə də sizə də zərəri oldu. Bu olay haqqında nə sizdə, nə də bizdə günah vardır. Oradaki bəzı talançılar bu olaylara səbəb olmuşlar. İffəti və namusu diqqətə almayıb, günah etmişdirlər. Bizim tərəfimizdən olan şey isə mərhəmət və şəfqətdir. Təbii ki o insanlar da etdiklərində peşman olup, bizə itaət etməyə qərar vermişdirlər. Biz də bu səbəblə onları əfv edirik. Çünkü əfv etmək padşahların işidir. Onların da bizi narahat etməyəcəyini və etdiyimiz yaxşılıqların qarşılığında artıq rahatsızlıq yaratmağı buraxacaqlarını ümid edirik" (235).

Məktubun məzmunundan görünür ki, Qəndəhar şəhəri alınarkən şəhər daxilində talanlara da yol verilmişdi. Çox güman ki,

məktubun yazılmasının bir səbəbi də bununla bağlı idi. Yəni Şah Abbas bununla Cahangir şahı da əmin etmək istəyirdi ki, şəhər daxilindəki əmin-amanlıq əvvəllər olduğu kimi təmin ediləcəkdir.

Şah Abbasın Cahangir şahın oğlu şahzadə Xürrəmlə məktublaşması haqqında da məlumat mövcuddur. Şahzadə Xürrəm (Şah Cahan) tərəfindən yazılan məktub Şah Abbasa elə Qəndəharda olarkən çatdırıldı. Məktubun məzmunundan görünür ki, onun yazılması Şah Abbasın Qəndəhara doğru hərəkətə başlamasından əvvəl baş vermişdi. Çox güman ki, o zaman hələ Cahangir şahla oğlu arasında da narazılıqlar özünü göstərməmişdi. Şahzadə Xürrəm hind şahının böyük oğlu deyildi. Buna baxmayaraq, Cahangir şah onu çox istəyirdi, onu öz vəliəhdi hesab etməklə Şah Cahan adlandırırdı. Şah Cahan da özünün hind vəliəhdi olmasını Şah Abbasa bəyan etmək üçün onun yanına Zahid bəy adlı bir elçisini göndərdi. Bununla bağlı o, uzun bir məktub yazdı və bu məktubu Zahid bəylə Şah Abbasa göndərdi. Zahid bəy Məşhədə yetişəndə Şah Abbasın qızılbaş qoşunu ilə birlikdə Qəndəhar istiqamətində hərəkət etməsi haqqında məlumat aldı. Belə olanda Zahid bəy Məşhəddə dayandı və Şah Abbasla nə vaxt və harada görüşməyin mümkün olması haqqında fürsət gözləməyə başladı. Qəndəhatr şəhəri alınandan sonra Zahid bəy də Şah Abbasın qəbuluna yollandı. Şah Abbas onu mehribanlıqla qarşıladı və hətta özü də Şah Cahana cavab məktubu yazdı. Şah Abbas hind sarayının vəliəhdi ilə münasibətlər qurulmasının əleyhinə deyildi. Bu münasibətlər Qəndəhar hadisəsindən sonra iki dövlət arasında münasibətlərin yaxşılaşmasına müsbət təsir göstərə bilərdi. Lakin Şah Cahanla atası Cahangir şah arasında münasibətlərin pisləşməsi hind vəliəhdi ilə Şah Abbas arasındakı münasibətlərin ahəngdarlığına öz təsirini göstərdi. Belə ki, Şah Cahanın başı daha çox atasının idarəçiliyi altında olan qoşunlara qarşı döyüşlər aparmağa qarışdı. Şah Cahan atasına qarşı müxalif mövqe tutdu və məcbur oldu ki, saray həyatından kənarlaşsın. O, hətta Səfəvi dövləti ərazisinə pənah gətirmək haqqında da düşünürdü. Lakin qatıldığı hərbi-siyasi proseslər onu hind ərazisini tərk etməyə imkan vermədi.

Şah Cahan öz atasına qarşı müxalifətdə olduğu zaman Şah Abbas məktub göndərdi. Şah Cahan bu məktubda Zahid bəyin Şah Abbas hüzurunda elçiliyindən məmnunluğunu qeyd etməklə bərabər, başına gələnlər haqqında da Şah Abbasa məlumat verdi. Məktub Şah Abbasın vəsfi ilə başlayırdı və Şah Cahan çox bəlağətli ifadələrlə Şah Abbas haqqında çoxlu tərifli ifadələr işlətmişdi. Məsələn, Şah Abbas zəmanə sultanlarının iftixarı, adlı-sanlı xaqanların nümunəsi, yaradılışın nadir gövhəri, ali məqamlı şahənşah və s. kimi ifadələrlə vəsf edilmişdi. Bu tərifli ifadələrdən sonra Şah Cahan onun yanına Zahid bəyin gəlməsi haqqında məlumat verirdi. O yazırdı ki, bu zaman Dekəndə ona tapşırılan vəzifəni başa vurub Əkbərabada yollanmaqda idi. Şah Cahan ona gətirilən məktubda Şah Abbasın öz qardaşı oğluna yazdıqlarını məmnunluqla oxuduğunu bildirirdi. Sonra isə o, başına gələnlər haqqında məlumat verirdi və bildirirdi ki, bəzi naqis insanlar, dayaz düşüncəli adamlar səbəbsiz yerə əsası olmayan işlər barəsində atasına xəbərlər çatdırdılar. Şah Cahan yazırdı ki, bu fitnəkarlıqlar nəticəsində onunla atası arasında qarşıdurma yarandı və iş qoşun dəstələrinin tətbiqinə gəlib çıxdı. O, Dehli ətrafında qarşı tərəfin dəstəsinə üstün gəldiyini və onun gücü bəlli olandan sonra saray mənsublarının sülh istəməsini, habelə bəzi bölgələrin də onun hakimiyyəti altına verilməsi təklfinin irəli sürüldüyünü qeyd edirdi. Şah Cahan bildirirdi ki, sülh təklifinə razı olub ona vəd edilən vilayətlərə doğru hərəkət edəndə şah sarayı öz vədini pozdu və yenidən onun üstünə qoşun dəstəsi göndərildi. Şah Cahan artıq çarəsiz vəziyyətə və təzyiqlər altına düşdüyünü bəyan edirdi. Belə bir vaxtda o, Şah Abbasa müraciət etmək qərarına gəldi. Şah Cahan özünün Xacə Hacı adlı elçisini Zahid bəylə birlikdə Şah Abbasın hüzuruna göndərmək qərarını verdi. Bu barədə o, məktubunda da yazırdı. Şah Aləm məktubunda Şah Abbasdan məsləhət istəyirdi ki, nə etsin? (236).

Şah Cahan məktubunda açıq şəkildə yazmasa da, çox güman ki, məqsədi Şah Abbasdan hərbi kömək almaqla atasına qarşı mübarizə aparmaq idi. Şah Abbas da ondan aldığı məktuba cavab

yazdı. Şərq ənənələri üzərində yazılmış məktubda böyük bir giriş hissə var idi. Bu giriş hissədə Şah Cahanın vəsfinə aid xeyli fikirlər söylənmiş və hətta nəzmlə də bir beyt qələmə alınmışdı. Şah Abbas elçi Xacə Hacının gəlişini və onun gətirdiyi məktubu sevinclə qarşıladığını bildirirdi. Səfəvi şahı Şah Cahanın başına gələnlərlə bağlı öz təklif və məsləhətini də məktubda ifadə etdi. Şah Abbas məsləhət görürdü ki, məsələnin daha da gərginləşdirilməsindən çəkinsin, əqli və tədbiri ilə sülh və barış üçün çalışsın, öz atası ilə dil tapıb ona itaətdə olduğunu bəyan etsin, fitnəkar insanlara imkan verməsin ki, onların arasındakı gərginlikdən öz məqsədləri üçün istifadə etsin. Şah Abbas bildirirdi ki, o da canı qədər istədiyi qardaşına (Cahangir şah nəzərdə tutulur –M.S.) məktub yazacaq, onu da övladına qarşı şəfqət və mehribanlıq nümayiş etdirməyə dəvət edəcəkdir (237).

Şah Abbas birmənalı şəkildə Şah Cahanın öz atasına və mərkəzi hakimiyyətə qarşı müxalifətdə olmasını məsləhət görmədi. Bununla o, çox güman ki, həm də Cahangir şahla münasibətlərin mürəkkəbləşməsinə yol vermədi və Hindistan ərazisində yaradılmış türk-müsəlman dövlətinin daxili çəkişmələrlə zəifləməsini məqsədəuyğun saymadı. Şah Cahan da Şah Abbasın məsləhətlərini qismən qəbul etdi. O, atası Cahangir şahla barışığa getməsə də, onunla silahlı müxallifəti dayandırmaqdan əl çəkdi. Şah Cahan Dekən vilayətinə gedərək orada öz həyatına davam etdi.

Qəndəhar şəhəri ələ keçirildikdən sonra Şah Abbas adından səltənətin bütün hakimlərinə fəthnamələr göndərildi. Həmin fəthnamələr insanların çox toplaşdığı yerlərdə oxunaraq əldə edilmiş uğura görə yaradana dualar edildi. İtaliyalı səyyah P.Delavalle səltənətin cənubunda bu fəthnamənin insanlara oxunmasının şahid olmuşdu. O yazırdı: "...Gəmbərunun bütün sakinləri məscidə toplaşdıqdan sonra bir molla minbərə qalxdı və şəhər hakiminin yanında uca səslə şah sarayıdan Qəndəharın fəthi ilə bağlı alınmış məktubu oxudu. Bu məkdubda Şah Abbas əldə etdiyi uğur haqqında ətraflı məlumat verirdi. O, əvvəlcə bu fəthin qanuni və ədalətli səbəblərindən söz açır və bildirirdi ki, qədim dövrlərdən

başlayaraq Qəndəhar səltənətin tərkib hissəsi idi. Lakin moğol padşahları oranı zorla işğal etmişdilər. Bu vilayəti bir neçə dəfə dostcasına onlardan istədik və çoxlu sayda elçini onların sarayına göndərdik. Lakin onun tərəfindən bizi razı salacaq bir iş görülmədi. Belə olanda qoşun çəkilməsi ilə hicri tarixi ilə 1031-ci il şaban ayının 13-də, seşənbə günü (20 iyun 1622-ci il) şəhər və qala ələ keçirildi. ...Hər dəfə şahın adı çəkiləndə şeypur və nağaranın səsi ucalırdı. Ardınca da insanlar dua və sənaya başlayırdılar. Şiraz hakiminin (İmamqulu xan) adı çəkiləndə isə yalnız dua eşidilirdi. Məktub oxunandan sonra da molla xahiş etdi ki, toplaşanlar şah üçün dua etsinlər" (238).

Qəndəhar şəhərinin alınmasından sonra Şah Abbas orada elə də çox dayanmadı. Təxminən on gün ərzində şəhərdə idarəçiliyin tənzimlənməsi və digər işlərin icrasından sonra Şah Abbas geri dönmək qərarı verdi: "Qəndəhar məmləkəti məhrusə məmləkətlərə əlavə olunduqdan sonra əlahəzrət o yerin [dövlət] işlərini nizamlamaqla məşğul oldu. Vilayətin və onun mülkiyyətinin idarə olunmasını bu əbədi dövlətin böyük və qədim əmirlərindən olan şücaətli, qorxmaz, mərdanə və hüşyar Gəncəli xan Zeyəkə tapşırdı. O, uzun müddətdir ki, Kirman darüləmanının əyalət və mülkiyyətinə başçılıq edir. [Şah] Qəndaharın nizama salınmasını onun fərasət (dəyarət) ixtiyarına verdi, müqəddəs ordudakı bütün kürd tayfaları xanın köməyinə yollanıb Qəndəharda yaşamağa başladılar. Tərşiz hakimi Əhməd Sultan Məçəki qalanın tənziminə təyin edildi. [Şah] Qəndəhar vilayətinin işlərini tənzimlədikdən sonra şəban ayının iyirmi dördündə (3 iyul, 1622) çaharşənbə günü geriyə döndü" (239).

Qəndəhar səfərini başa vurub geri qayıtdıqdan sonra Şah Abbas qızılbaş qoşunlarını Bağdad istiqamətinə göndərdi. Tarixdən bəllidir ki, qızılbaş qoşun dəstələri Bağdad ətarfında ciddi uğurlar əldə etdilər və bu şəhər yenidən Səfəvi dövlətinin tərkibinə daxil edildi. Şah Abbas bu şəhərin fəth edilməsi sevincini özündə əks etdirən bir məktub yazıb Cahangir şaha göndərdi. Şah Abbas bir tərəfdən öz böyük fəthi haqqlnda Cahangir şaha məlumat verir-

disə, digər tərəfdən bu məktub həm də iki tərəfli münasibətlərin əvvəlki səviyyədə saxlanması ilə bağlı Səfəvi şahının yeni bir cəhdi idi. Bu məqam məktubun mətnində də qabarıq şəkildə özünü göstərməkdə idi. Məktubun Cahangir şaha çatdırılması üçün elçilik heyəti təşkil olundu və ona rəhbərlik qulamlar dəstəsinin müstövfisi Ağa Məhəmmədə həvalə olundu (240).

Məktubun mətni belə idi: "Tanrıya həmd və şükürlər olsun ki, iki ölkənin arasında atalarımız və babalarımız zamanında heç bir sıxıntı olmamışdı. Bundan sonra da bir sıxıntı olmaması üçün çalışırıq. İki ölkə hər zaman qardaş olaraq bir-biri ilə əlaqədə olmuşlar. Bu ana qədər heç bir hadisə bu qardaşlığı poza bilməmişdir. Bizim də sizdən istədiyimiz budur ki, iki ölkə arasındaki bu dostluq və qardaşlığın pozulmasına izin verməyin. Bəzı narahatlıqlar iki ölkə əlaqələrini poza bilməz. Asilərin çıxardığı fitnə və etdikləri pis əməllər iki ölkəyə zərər verə bilməz. Bu dostluq, cani-könüldəndir. Sonuna qədər də bu şəkildə davam edəcəkdir. Mən, əlaqələrimizin pozulmasını istəmirəm. İki ölkənin qapılarının açıq olmasını istəyirəm. Amma bəzi məsələləri də anlatmaq istəyirəm. Biz, Bağdad və İranın qərbinə qoşun çıxarmaq məcburiyyətində qaldıq. Çünkü ora bizim ata torpağımızdır. Heç kimsənin bizim torpağımızı almasına izin verməyəcəyik. Bu bölgələrdə fəsad və fitnə həddini aşmışdı və günahsız insanları öldürürdülər. Xalq da bundan şikayətçi idi. Onlar mənim fərmanım altında idilər. Bizim üçün müqəddəs topraqların hüzur içində olması çox önəmlidir. Müqəddəs topraqlar bizim ölkəmizin bir parçası idi və bundan sonra da belə qalacaqdır. Mən, ordularımı oraya göndərdim. Düşmənləri oradan çıxardım. Çünkü o topraqların huzura qovuşması lazım idi. O bölgələri fəth etdikdən sonra həzrət Əlinin türbəsinə gedib ziyarət etdim. Digər məsum imamların türbəsinə gedib, yardım üçün dua etdim. Çünkü məzlum və zəif insanların haqlarının pozulmasını qəbul edə bilmərəm. Onların namusunu və mallarını qorumak mənim vəzifəmdir. Bu anda orada insanlar sıxıntısız yaşıyırlar. Herat bölgəsinin də belə olmasına ümid edirik. Çünkü Herat da bizim ata mirasımızdır. Amma böyük padişaha [Cahangir

şah nəzərdə tutulur – M.S.] bəzi tövsiyələr verməyə məcburam. İki ölkənin əlaqələrinin pozulmasına izin verməyin. Məktublaşmalar davam etsin. Düşmənlərə fitnə çıxarmaq üçün fürsat verməyin. O ölkəyə və padşaha tanrıdan müvəffəqiyyətlər diləyirik" (241).

Səfəvi şahının bu məktubunu və qiymətli hədiyyələrini aparan elçilik heyəti 1626-cı il oktyabr ayının sonlarında Cahangir şahın hüzurunda oldu. Məktubun mətnindən göründüyü kimi, Şah Abbas üstüörtülü şəkildə olsa da Qəndəharın Səfəvi ərazisi olmasına və bir vaxtlar hansısa səbəblər üzündən qoparılmış olan ərazilərin yenidən Səfəvi tərkibinə qaytarılması zəruruliyinə toxunmuşdu. Cahangir şah da mövcud reallığı nəzərə alaraq Qəndəhar məsələsi ilə bağlı iddialar irəli sürməkdən çəkindi. Bir tərəfdən daxili saray çəkişmələri, digər tərəfdən də özbək qoşunlarının təhlükəsi Cahangir şahı daha təmkinli siyasət yeritməyə məcbur edirdi. Şah Abbasın elçilik heyəti onun tərəfindən mehribanlıqla qarşılandı və elçi ilə görüşdə Qəndəhar məsələsi xatırlanmadı. Ağa Məhəmməd təxminən altı ay hind sarayında qaldı. 1626-cı ilin mart ayında Cahangir şah bir daha Şah Abbas elçisini hüzura qəbul etdi. Bu qəbul zamanı həm elçiyə, həm də Şah Abbasa qiymətli hədiyyələr verildi. Elçinin hədiyyəsi qiymətli əşyalarla bərabər, həm də nağd pul idi. Şah Abbasa isə bir ədəd brilyant daşlarla bəzədilmiş gürz, bir ədəd kəmər və bir ədəd də yenə qiymətli daşlarla bəzədilmiş şamama hədiyyə olundu. Eyni zamanda Cahangir şah tərəfindən Şah Abbasa ünvanlanmış məktub da elçiyə təqdim olundu. Həmin məktubda Cahangir şah da iki dövlət arasında dostluq münasibətlərinin mövcudluğundan öz məmnunluğunu ifadə edir və onun daha da yüksəldilməsi tərəfdarı olduğunu bildirirdi. Bu dostluğun vəsfinə məktubda xeyli yer ayrılmışdı. Məktubda həmçinin Cahangir şahın oğlu Şah Cahanın müxalifətçiliyi haqqında da müəyyən məlumat öz əksini tapmışdı. Başlıcası isə Cahangir şahın məktubunda Qəndəhar məsələsi xatırlanmamışdı (242).

Bir daha qeyd edilməlidir ki, Cahangir şah qərar tutduğu tarixi şəraitdə Qəndəharın yenidən Səfəvi dövlətinin tərkibinə qaytarılması ilə barışmalı olmuşdu. Şah Abbasla məktublaşmaların davam

etdiyi vaxtlarda Cahangir şahı əslində daha ciddi məsələlər narahat edirdi. Bu da, yuxarıda deyildiyi kimi, bir tərəfdən oğlu Şah Cahanın müxalifətçiliyi, digər tərəfdən də özbək qoşunlarının hücum təhlükəsi idi. Belə bir vaxtda Cahangir şah Şah Abbasın şəxsində yeni bir təhlükə ilə də qarşılaşmaq istəmirdi.

1627-ci ildə Changir şahın böyük oğlu şahzadə Pərviz dünyasını dəyişdi. Şah Abbas başsağlığının çatdırılması üçün dərhal elçilik heyəti təşkil etdi. Taxta bəy Yüzbaşı tərəfindən rəhbərlik edilən bu elçilik heyəti hind sarayına Şah Abbasın başsağlığı məktubunu və hədiyyələrini çatdırmalı idi. Taxta bəy özü ilə dörd məktub aparmalı idi. Onlardan ikisi Cahangir şaha, biri mələikə Nurcahan bəyimə, biri isə Cahangir şahın kiçik oğlu şahzadə Şəhriyara çatmalı idi. Lakin elə 1627-ci ildə Cahangir şah da dünyasını dəyişdi. Belə olanda Taxta bəyin rəhbərlik etdiyi elçilik heyəti geri qayıtmalı oldu (243).

Cahangir şah dünyasını dəyişməsindən əvvəl nəvəsi Sultan Bəlağini özünün varisi elan etmişdi. Şah Cahan isə atasının bu vəsiyyəti ilə razılaşmadı və hakimiyyətlə bağlı öz iddiasını ortaya qoydu. O, qoşun dəstəsi toplayaraq səltənətin paytaxtı olan Əgərəyə yürüş etdi. Əgərə yaxınlığında səltənətin bir sıra vəzifəli əyanları və onların tabeliyində olan qoşun dəstələri də Şah Cahana qoşuldular. Nəticədə, Şah Cahan hakimiyyət uğrunda mübarizədə qalib gəldi və 1628-ci ilun yanvarında Moğol taxt-tacına sahib oldu.

Şah Cahanın Moğol taxt-tacına sahib olması Şah Abbasın həyatının son illərinə təsadüf edir. Onun taxt-tac sahibi olması xəbəri alınan kimi Şah Abbas özünüün Bəhri bəy adlı elçisini hind sarayına göndərdi. Bəhri bəy həm Cahangir şahın dünyasını dəyişməsi ilə bağlı Şah Abbasın başsağlığını, Şah Cahanın taxta çıxması ilə bağlı isə təbriklərini çatdırmalı idi. O özü ilə həm də Səfəvi şahının qiymətli hədiyyələrini aparırdı. Bəhri bəy ingilis gəmiləri ilə dənizdən və Hind okeanından keçməklə üç aydan sonra hind sarayına yetişdi. Amma Bəhri bəyin heyətinin hind sarayın çatdığı vaxtlarda Şah Abbasın da dünyasını dəyişməsi xəbəri alındı. Yəni Bəhri bəy Şah Abbas tərəfindən hind sarayına göndə-

rilmiş sonuncu elçi oldu. Yuxarıda yazılanlardan bəllidir ki, Şah Abbasla Şah Cahan arasında xoş münasibətlər mövcud idi. Şah Cahan hakimiyyətə gəldikdən sonra da Şah Abbasa hörmətlə yanaşdığını nümayiş etdirdi, onun tərəfindən göndərilən elçini yüksək səviyyədə qarşıladı, Səfəvi elçisinə çoxlu sayda qiymətli hədiyyələr bağışladı və onun vasitəsilə Səfəvi dövlətinin yeni hökmdarı olan Şah Səfiyə də məktub göndərdi (244).

Şah Cahan hüzuruna qəbul etdiyi Şah Abbas elçisinə yüksək mehribanlıq göstərməklə həm də Səfəvi dövləti ilə münasibətlərin yüksək səviyyədə olmasına və həmin səviyyədə qalmasına məmnunluğunu ifadə etdi. Şah Abbas isə iki dövlət arasında Qəndəhar məsələsinin olmasına baxmayaraq, iki dövlət arasındakı xoş münasibətlərin qalmasına nail ola bildi.

3. Portuqaliya və İspaniya ilə münasibətlər

Şah Abbasın hakimiyyəti illərində izlənilən xarici siyasətin mühüm istiqamətlərindən birini də Portuqaliya və İspaniya ilə qurulan münasibətlər təşkil edirdi. 1580-ci ildə, yəni Şah Abbasın hakimiyyətə gəlməsindən bir neçə il əvvəl İspaniya dövləti Portuqaliyanı özünə birləşdirdi və bu vəziyyət 1640-cı ilə qədər davam etdi. Bu birləşmədən vahid dövlət meydana gəlsə də, portuqal gəmiləri dünya sularında öz bayraqları altında üzürdülər və onlar İspaniya dövlətinin nəzarəti altında müəyyən fəaliyyət sərbəstliyini saxlayırdılar (245).

Portuqaliya ilə Səfəvi dövləti arasında ilk münasibətlərin formalaşması Şah İsmayılın hakimiyyəti illərinə təsadüf edir. O zaman Portuqaliya dünyanın inkişaf etmiş dövlətlərindən biri olmaqla çox böyük dəniz donanmasına malik idi. Bu da ona imkan verirdi ki, dənizlə ticarətin qurulmasında böyük üstünlüklər əldə etsin. Yeni satış bazarları və xammal mənbələri əldə edilməsi üçün portuqal gəmiləri Afrika ətrafında dövrə vurmaqla Hindistana da gəlib çıxa bilmişdilər. İmkanlarından istifadə etməklə Portuqaliya Hindistanla ticarətdə monopoliya əldə edə bilmişdi.

Portuqaliyanın Səfəvi dövləti ilə ilk qarşılaşması da elə dəniz ticarəti sahəsində üstünlüklərin qorunub saxlanması üçün edilmişdi. Portuqaliyanın kralı İmmanuilin fərmanı ilə XVI əsrin əvvəllərindən etibarən dəniz yollarının və dənizətrafı ərazilərin nəzarətinin gücləndirilməsi üçün strateji məntəqələrdə möhkəm qalaların tikilməsinə başlandı. Hindistanla olan əlaqələrin qorunub saxlanması və bu ölkə ilə Avropa arasında ticarətin davamlılığının qorunması üçün Fars körfəsi hövzəsinin də nəzarət altına alınması məqsəduyğun sayıldı. Bu məqsədə nail olmaq üçün döyüş gəmiləri həmin körfəz sularına göndərildi. Adı çəkilən körfəzin nəzarət altına alınması həm bölgənin sərvətlərindən faydalanmaq, həm də də Avropaya aparan etibarlı və daha yaxın ticarət yollarının əldə edilməsi baxımından əhəmiyət kəsb edirdi. Portuqal gəmiləri 1507-ci ildə Hörmüzə doğru istiqamət götürdü. Körfəz sularına daxil olandan sonra portuqal gəmiləri əvvəlcə Məsqət şəhərini ələ keçirdilər. Bu zaman Məqsət şəhəri Hörmüz əmirinin asılılığında idi və ona müəyyən edilmiş vergi verirdi. Hörmüzə doğru irəliləyərkən sahil boyu mövcud olan kiçik limanlar da portuqallar tərəfindən nəzarət altına alındı və nəhayət növbə Hörmüzün özünə yetişdi. Həmin vaxt Hörmüzün hakimi 12 yaşlı Seyfəddin adlı birisi idi. Kiçik yaşlı olduğu üçün şəhərin idarəçiliyi əməli olaraq onun əmisi Şeyx Əttar tərəfindən həyata keçirilirdi. Şeyx Əttar da portuqal qüvvələrinin yaxınlaşmasını görəndə qalanın müdafiəsi üçün lazımi göstərişlər verdi. Bir məlumata görə, portuqal döyüşçüləri 450 nəfərdən, başqa bir məlumata görə isə 750 nəfərdən ibarət idi. Həmin qüvvələr sahilə yaxınlaşan kimi, Hörmüz qalasını mühasirəyə aldılar (246).

Şeyx Əttar qalanın mühafizəsi üçün təşkil etdiyi bütün qüvvələri səfərbərliyə alaraq portuqal qüvvələrinə müqavimət göstərməyə çalışdı. Lakin daha güclü silahlarla silahlanmış olan portuqallar Hörmüz qalası müdafiəçilərinin müqavimətini tezliklə qıra və qalaya nəzarəti ələ ala bildilər. Portuqal hərbi qüvvələri komandanının razılığı ilə Hörmüz qalası əvvəlki hakimlərin hakimiyyəti altında qaldı. Lakin bu qala Portuqaliyadan asılı vəziyyətə

düşdü. Belə ki, Hörmüz qalasına illik xərac kəsildi və qala hakimləri bu xəracı ödəməyi boyunlarına götürdülər. Portuqal hərbi rəhbərliyinin icazəsi olmadan qala gəmilərinin dənizə çıxması isə qadağan edildi. Bölgədə öz mövqeyini möhkəmləndirmək üçün portuqal qüvvələri Hörmüz adasında və Qeşm adasında qalalar tikməyi qərara aldılar. Həmin qalalarda yerləşdirilmiş portuqal qarnizonu körfəz daxilində nəzarəti təmin etməli idi. Eyni zamanda Hörmüz adasında bir ticarətxananın tikintisinə başlandı (247).

Şah İsmayılın bu zaman Portuqaliya qüvvələrinə müqavimət göstərmək və həmin qüvvələri Hörmüz adasından sıxışdırmaq imkanı yox idi. Zəruri döyüş gəmiləri olmayan Şah İsmayıl vəziyyətlə barışmalı oldu və çalışdı ki, yaranmış şəraitdə Portuqaliya dövləti ilə münasibətlər qursun və bu dövlətin imkanlarından öz gücünü artırmaq üçün istifadə etsin. Ona görə də Şah İsmayıl Portuqaliya qüvvələrinin Hindistandakı hakiminin yanına öz elçisini göndərdi. Bununla, Səfəvi dövləti ilə Portuqaliyanın bölgədəki qüvvələri arasında diplomatik əlaqələrin əsası qoyuldu. Şah Abbas hakimiyyətə gələndə Portuqaliya İspaniya tərəfindən ələ keçirilsə də, Portuqaliya tərəfindən səltənətin cənub sularında başlanan siyasət davam etməkdə idi. Əslində, bu dövrdə artıq İspaniyanın tərkibində olan Portuqaliyanın bölgədəki vəziyyəti daha da möhkəmlənmişdi.

Şah Abbas hakimiyyətə gəldikdən dərhal sonra Hörmüz məsələsini və cənub sahillərində yaranmış vəziyyəti həll etmək imkanı yox idi. Bir tərəfdən səltənət daxilində hakimiyyət və səlahiyyət uğrunda ciddi çəkişmələrin davam etməsi, digər tərəfdən də Osmanlı və özbək qoşunları tərəfindən səktənət sərhədlərinin həm şərqində və həm də qərbində mövcud olan real təhlükənin aradan qaldırılması zərurəti Hörmüz məsələsi ilə məşğul olmaq imkanı vermirdi. Bu məsələyə toxunmadan Şah Abbas Avropa dövlətləri ilə, o cümlədən də İspaniya-Portuqaliya ilə diplomatik əlaqələri gücləndirməyi və Osmanlı təhlükəsinin qarşısının alınması üçün Avropa dövlətlərindən kömək əldə edilməsini daha məqsədəuyğun sayırdı. Avropanın böyük dövlətləri olan İspaniya-Portuqa-

liya, Almaniya, Venetsiya, Fransa, Polşa, habelə Roma papalığı da Səfəvi dövləti ilə əlaqələr qurulmasını maraqla qarşılayırdılar. Çünki Səfəvi dövləti ilə qurulan münasibətlər Avropa üçün böyük təhlükə hesab edilən Osmanlı dövlətinin qərbə doğru yeni yürüşlərinin qarşısını ala bilərdi. Bunun nəticəsi idi ki, yalnız Səfəvi sarayından Avropaya elçilər göndərilmirdi. Eyni zamanda, Avropa dövlətləri də Səfəvi sarayına öz elçilərini göndərir və Osmanlı təhlükəsinin qarşısının alınması üçün Səfəvi dövləti ilə münasibətlər yaradılmasına çalışırdılar. Bu diplomatik əlaqələr Şah Abbasın hakimiyyətə gəlməsindən sonra daha da genişlənmişdi.

1588-ci ildə İngiltərə qoşunları İspaniya qoşunları üzərində böyük uğur əldə etdikdən sonra (248) Avropa dövlətləri arasında Səfəvi dövləti və ticarət yolları üstündə bir rəqabət də yarandı. Bu rəqabətdə üstün mövqeyi saxlamaq münasibətilə 1598-ci ildə İspaniya sarayı tərəfindən iki portuqal keşişi Səfəvi dövlətinə göndərildi. Həmin keşişlər Fransisken və Dominiken missioner ordenlərinin təmsilçiləri idilər. Fransisken ordeninin təmsilçisi Alfonso Kordero, Dominiken ordeninin təmsilçisi isə Nikola de Melo idi. Bu missioner keşişlər İsfahanda Şah Abbasın qəbuluna düşə bildilər. Şah Abbas onları mehribanlıqla qarşıladı. Nikola de Melo özünü şaha İspaniya padşahının və Roma papasının nümayəndəsi, Hörmüz adasının keşişi kimi təddim etdi (249).

Bu keşişlər Səfəvi dövləti ərazisində missioner fəaliyyəti göstərməklə bərabər, İspaniya ilə münasibətlərin möhkəmlənməsinə də çalışmalı idilər. Xüsusilə də, İngiltərənin təsirinin artdığı bir vaxtda İspaniya maraqlarının qorunması da bu keşişlərn qarşısında dayanan əsaslı vəzifələrdən idi. Portuqal keşişlərində İngiltərə nümayəndələrinin Səfəvi sarayına gəlməsi haqqında artıq məlumatları var idi. Ona görə onlar bu barədə Şah Abbasın hüzurunda da məsələ qaldırdılar. Bu keşişlər inandırmağa çalışdılar ki, şah sarayı ilə İspaniya arasında daha qədim əlaqələr mövcuddur və bu əlaqələrin qorunub saxlanması Səfəvi sarayının da maraqlarına uyğundur. O da bildirildi ki, İngiltərə nümayəndələrinin səsləndirəcəyi vədlərə etimad edilməsə, onda keşişlər bütün xristian döv-

lətlərin hakimləri ilə Səfəvi dövləti arasında münasibətlərin yaxşılaşdırılmasına çalışacaqlar (250).

Portuqal keşişlərinin İngiltərə əleyhinə Səfəvi sarayında apardıqları təbliğatdan italiyalı səyyah P.Delavallenin də xəbəri var idi. O bu barədə öz xatirələrində belə yazırdı: "İspaniya nümayəndəsi o zaman şahın yanına getdi və ondan xahiş etdi ki, ingilislərin İran torpağına daxil olmasına icazə verilməsin. O qorxurdu ki, əgər onların ayaqları İran torpaqlarına dəysə və iki məmləkət arasında ticarət qapıları açılsa, ingilislərlə portuqallar arasında çoxdan mövcud olan düşmənçilik üzündən Hörmüzdə və ya onun ətrafında Portuqaliyanın maraqlarına çox ciddi bir zərbə vurulacaqdır. Ona görə şahın yadına salmaq istəyirdi ki, İspaniya kralı ilə dostluğa ehtiram əlaməti olaraq onun düşmənlərinə, yəni ingilislərə səltənət torpaqlarına ayaq basmasına icazə verməsin. Hələ ki, onların müzakirəsinin nə ilə başa çatdığı haqqında məlumatım yoxdur. Lakin əminəm ki, ingilislər bu mübarizədə qalib olacaqlar. Çünki şah öz ipəyini türklərin əlindən qurtarmağa çalışmaqdan əlavə, həm də imkan daxilində daha çox qərb dövlətləri ilə əlaqə yaratmaq və onlarla ticarət etmək və onları İran torpağına cəlb etmək istəyirdi. Şah eyni zamanda portuqallarla dost olsa da, onların sərhədə çox yaxın olmasını istəmirdi. Əksinə, maraqlı idi ki, nəinki ingilislər, hətta Avropanın güclü dəniz qüvvələrinə malik digər ölkələri də onun səltənəti ilə gediş-gəliş etsinlər və onların köməyi ilə portuqallara müqavimət göstərə bilsin" (251).

Mövcud olan məlumata görə, portuqal keşişlərinin şah sarayındakı qəbulunda İngiltərənin nümayəndələri də iştirak edirdilər. Həmin nümayəndələrin məlumatına görə, Şah Abbas keşiş Nikolo de Molonu Səfəvi xəzinəsində saxlanılan qiymətli bir xaçla mükafatlandırdı və sonra da bu keşişlərlə söhbətə başladı: "...Şah Abbas Nikolo de Molodan soruşdu ki, siz haradan gəlirsiniz və dünyanın hansı ölkələrini gəzmisiniz. Keşiş cavab verdi ki, məni papa öz müavini kimi şərq ölkələrinə göndərmişdir. Şah soruşdu ki, papa nə deməkdir? Baxmayaraq ki, o, bunun mənasını yaxşı bilirdi, özünü bilməməzliyə vurdu və keşişlə söhbəti davam etdirdi. Keşiş

də cavab verdi ki, papa bu dünyada həzrət İsanın müavinidir və insanların günahlarını bağışlayır. Şah dedi ki, belə olan təqdirdə o, gərək çox qoca olsun. İsanın vaxtından bu günə qədər sağdır və onun müavinidir. Keşiş cavab verdi ki, belə deyil və İsanın vaxtından bu günə qədər çoxlu sayda papalar bir-birini əvəz etmişlər. Şah dedi ki, onda məlum olur ki, papalar da bizim kimi insandırlar, onlar Romada və ya İtaliyada anadan olmuşlar. Keşiş də cavab verdi ki, bəli, bu belədir. Şah soruşdu ki, onlar nə vaxtsa Allahla və ya İsa ilə söhbət ediblər? Keşiş cavab verdi ki, yox. Şah soruşdu: bəs onlar insanların günahını necə bağışlayırlar? Mən inanmıram ki, Allahdan başqa kimsə insanların günahını bağışlaya bilsin. Amma həzrət İsa haqqında etiraf etməliyəm ki, onu böyük peyğəmbər kimi qəbul edirəm. Əlbətdə ki, o da insanların günahlarını bağışlaya bilər. Kitablarda oxumuşam ki, o bu dünyada böyük möcüzələr göstərib. Onu da oxumuşam ki, atasının kimliyi məlum deyil, anası mələk nəfəsindən hamilə qalıb. Onun xaça çəkilməsi dastanından da xəbərdaram və ona görə də yəhudilərdən narazıyam" (252).

Portuqal keşişləri Şah Abbasla görüşəndə İngiltərənin elçilik heyəti də artıq Səfəvi ərazilərinə yetişmişdilər. Keşişləri də narahat edən bu idi ki, ingilis elçiləri ilə görüş Portuqaliyanın maraqlarını kölgə altına qoya bilər. İngilis elçiliyinin də gəlişində məqsəd Səfəvi dövləti ilə münasibətlərin daha da gücləndirilməsi idi. Həmin elçilik heyətinə Antoni və Robert Şerli qardaşları rəhbərlik edirdilər. Şah Abbas Xorasan yürüşünü başa vurub 1598-ci ilin sonlarında Qəzvinə gələndə Şerli qardaşları artıq Qəzvində idilər. Şerli qardaşları bir məlumata görə 26 nəfərlik heyətlə (253), bir məlumata görə isə 32 nəfərlik bir heyətlə (254) Qəzvinə gəlmişdilər. Onlar özlərini şotland kralı Ceymsin qardaşı kimi təqdim etdilər. İngilis elçiliyi əslində, Səfəvi sarayı ilə ticarətin və siyasi münasibətlərin qurulması üçün göndərilsə də, Antoni Şerli bu barədə şah hüzurunda söhbət açmadı. O, bildirdi ki, bir hərbçi kimi onun xidmətinə gəlmişdir. Bununla belə, Antoni Şerli bildirdi ki, xristian dünyasının bütün kralları onun haqqında çox eşidiblər və

onunla Osmanlı Türkiyəsinə qarşı ittifaq yaradılaması arzusundadırlar. Şah Abas bu xəbəri məmnunluqla qarşıladı və ingilis elçiliyinə öz qonaqpərvərliyini nümayiş etdirdi (255). Bir neçə gündən sonra Şah Abbas Qəzvini tərk edib İsfahana yollananda ingilis elçilərini də özü ilə apardı. Həm İspaniyadan gəlmiş keşişlər, həm də ingilis elçiləri təxminən yarım il İsfahanda qaldılar. Onlar burada Şah Abbasın diqqəti və qayğısı altında oldular və dəfələrlə şahla birlikdə ov mərasimlərində iştirak etdilər.

İstər İspaniya və istərsə də ingilis elçilərinin gəlişi əslində, Şah Abbasın istəkləri ilə üst-üstə düşürdü. Çünki Şah Abbas Osmanlı Türkiyəsi ilə sülh anlaşmasına getsə də, Səfəvi torpaqlarının itirilməsi ilə razı deyildi. Həmin torpaqların geri qaytarılaması üçün Şah Abbas əlverişli fürsəti gösləyirdi. Qərb ölkələri ilə ittifqın yaradılması və onların vasitəsilə Osmanlı Türkiyəsinin zəiflədilməsi Şah Abbasa da faydalı bir fürsət verə bilərdi. Sözsüz ki, qərb dövlətləri ilk növbədə öz maraqlarını Səfəvi dövləti hesabına təmin etmək istəyirdilər. Bununla belə, Şah Abbas da ümid edirdi ki, qərb dövlətlərindən ümidində olduğu hərbi-texniki yardımı ala biləcəkdir. Ona görə də Şah Abbas qərara aldı ki, İspaniya kralı III Filipin hüzuruna öz elçisini göndərsin və onunla Osmanlı Türkiyəsinə qarşı ittifaqa girmək imkanlarını arasın. Şah Abbas tərəfindən yalnız İspaniya sarayına elçi göndərilməsi istəyi çox güman ki, portuqal keşişlərinin ona verdiyi vəd ilə bağlı idi. Nəzərdə tutulmuşdu ki, bu elçilik heyəti əvvəlcə Hindistana yollansın, oradan isə portuqal gəmilərində İspaniyaya istiqamət götürsün. Belə bir elçilik heyətinin İspaniya sarayına göndərilməsi qərarının qəbul edilməsinə heç şübhəsiz ki, həmin vaxt Səfəvi sarayında olan Osmanlı elçiliyinin tələbləri də öz təsirini göstərmişdi. Osmanlı sultanı III Məhəmməd tərəfindən Səfəvi sarayına elçi kimi göndərilmiş olan çavuş Məhəmməd ağa 300 nəfərlik böyük bir heyət tərəfindən müşayiət olunurdu və gəlişinin də əsas məqsədi sultanın tələbinin Şah Abbasa çatdırılması idi. Osmanlı sultanı iki dövlət arasında əldə edilmiş sülh anlaşmasının pozulmayacağına zəmanət kimi Şah Abbasın oğlunun girov olaraq Osmanlı sarayına

göndərilməsini istəyirdi. Şah Abbas bu tələblə razılaşmadı və öz qəzəbini Osmanlı elçisinə bildirdi. Onun göstərişi ilə Osmanlı elçisinin saqqalı qırxıldı. Şah Abbas yəqin ki, Osmanlı dövləti ilə münasibətlərin yenidən gərginləşəcəyini ehtimal edirdi və ona görə də Osmanlı dövlətinin gücünə qarşı Avropada kömək axtarmağı lazım bilirdi. Şah Abbas səltənətin tanınmış əmirlərindən olan Hüseynəli bəyi elçilik heyətinin rəhbəri təyin etməklə İspaniya sarayına göndərməyi qərara aldı. Nəzərdə tutulmuşdu ki, Robert Şerli də Hüseynəli bəylə birlikdə yola salınsın. Robert Şerli həm elçilik heyətinə tərcüməçilik etməli, həm də Şah Abbasın ismarıcını İngiltərə sarayına çatdırmalı idi (256).

Bu niyyətdən xəbərdar olanda Antoni Şerli şaha təklif etdi ki, bütün Avropa dövlətlərinin sarayına elçilik göndərilsin və həmin dövlətlərlə Osmanlı dövlətinə qarşı ittifaq imkanları müzakirə edilsin. Antoni Şerli inandırmağa çalışırdı ki, əgər Şah Abbas Osmanlı dövlətinə qarşı müharibəyə başlasa, onda qərb dövlətlərini də Avropa cəbhəsindən Osmanlı dövlətinə qarşı müharibəyə cəlb etmək olar. Antoni Şerli eyni zamanda Avropaya göndəriləcək elçiliyə rəhbərliyin ona tapşırılması təklifini irəli sürdü. Təklifinin ciddi olduğuna və başqa niyyət güdmədiyinə inandırmaq üçün Antoni Şerli geri qayıdacağı günə qədər qardaşı Robert Şerlinin və ingilis heyəti üzvlərini Səfəvi sarayında saxlanılması mümkünlüyünə toxundu. Şah Abbas bu təklifi qəbul etdi. Şerli qardaşlarının xatırlamalarına görə, Şah Abbas hətta bu təklifdən çox məmnun oldu və dərhal Antoni Şerlinin də qoşulacağı böyük bir elçilik heyətinin təşkil edilməsənə fərman verdi (257).

Antoni Şerli əslində, bu elçilik heyətinin tərcüməçisi vəzifəsini öz üzərinə götürməli idi. Amma Şah Abbas tərəfindən ona böyük səlahiyətlər verildi və bu səlahiyyətlər elçi səlahiyyətləri səviyyəsinə qaldırıldı. Şah Abbasın razılığına əsasən, qərb dövlətlərinin hakimləri ilə şah sarayı adından danışıqları Antoni Şerli aparmalı idi. Nəzərdə tutulmuşdu ki, bu elçilik heyəti Roma papası, Almaniya imperatoru, İngiltərə kraliçası, Şotlandiya, İspaniya, Venesiya sarayı ilə belə danışıqlar həyata keçirilsin. Həmin danı-

şıqların aparılması üçün Antoni Şerlinin səlahiyyətlərini təsdiqləyən məktub da Şah Abbas tərəfindən imzalandı. Bu məktubun məzmunu belə idi: "Həzrət İsaya etiqadı olan siz padşah bilin ki, ser Antoni bizim dostumuzdur. Bizim keçmişdə də belə bir niyyətimiz var idi. Lakin yanımızda bir nəcabətli insan yox idi ki, bizə yol göstərən olsun və yol üstündəki maniəni aradan qaldırsın. O öz istəyi ilə İrana gələndən sonra öz istəyi ilə də bizim əmirlərmizdən birinin yol yoldaşı olmağa razılıq verdi. Onun bizim səltənətdə qaldığı zaman ərzində biz iki qardaş kimi bir qabdan yemək yedik və bir qədəhdən şərab içdik. Bu nəcibzadə sizin hüzurunuza yetişəndə onun sözlərinə və istəklərinə mənimki kimi tam şəkildə etibar edin" (258).

Avropaya göndərilmək üçün Hüseynəli bəyin və Antoni Şerlinin rəhbərliyi altında 40 nəfərlik bir elçilik heyəti təşkil edildi. Bu elçilik heyəti tərəfindən Avropa saraylarına çatdırılması üçün 32 dəvə yükü hədiyyələr də hazırlandı. Şah Abbas bu elçilik heyətinin səfərinə böyük əhəmiyyət verirdi. Onun üçün idi ki, o, elçilik heyətini İsfahanın çıxacağına qədər müşayiət etdi (259).

Elçilik heyəti yola düşmək ərəfəsində İspaniyanı təmsil edən portuqal keşişləri Antoni Şerlinin yanına gələrək onların da Avropaya geri qayıtması üçün şahdan icazə alınmasını istədilər. Onlar bildirdilər ki, Avropada onları ciddi işlər gözləyir və ona görə də geri qayıtmalıdırlar. Antoni Şerli bir gün sonra portuqal keşişləri ilə birlikdə Şah Abbasın hüzuruna yollandı. Xatirələrdə bildirilir ki, məhz Şerliyə görə Şah Abbas portuqal keşişlərini qəbul etdi. Qiymətli xaçın bağışlanması da bu görüş zamanı baş verdi. Şerli qardaşlarının xatirələrinə görə isə, Şah Abbas iki gün elçilik heyətini müşayiət etdi və ayrılarkən də Səfəvi şahı Antoni Şerlini əmin etdi ki, onun qardaşına öz övladı kimi qayğı göstərəcəkdir və nə qədər ki, o, şahdır Robert heç bir ehtiyacla qarşılaşmayacaqdır (260).

Hüsenyəli bəyin və Antoni Şerlinin rəhbərlik etdiyi elçilik heyətinin tərkibinə Oruc bəy Bayat da daxil idi (261). O öz xatirələrində bu elçilik heyətinin təşkili və yola salınması haqqında belə

yazırdı: “Xristian centelmenləri vaxtında gəlmişdilər. Çünki şah özü də istəyirdi ki, portuqal Hindistanından keçməklə İspaniya kralına elçi və hədiyyələr göndərsin. Amma ser Antoni şahın diqqətinə çatdırdı ki, İspaniyanın əlahəzrət kralından başqa Avropada və qərbdə çoxlu sayda digər xristian krallar vardır. Onlar çox böyük istəklə Osmanlı Türkiyəsinə qarşı şahla birləşə bilərlər. Ona görə də onların hər birinə hədiyyə göndərilməsi yaxşı olar. Ser Antoni bu fikrini inandırıcı şəkildə çatdırdı və bu təklifi təcili bir məsələ kimi irəli sürdü. Şah da onun təkliflifini dərhal qəbul etdi və fərman verdi ki, elçilik heyətinin göndərilməsi üçün bütün hazırlıq işlərinə başlansın. Nəzərdə tutulmuşdu ki, ser Antoni də bu elçilik heyətini müşayiət edəcəkdir. Ser Antoni bununla razılaşdı və ona göstərilən etimadı bir şərəf işi kimi qəbul etdi. O təklif etdi ki, səkkiz xristian hökmdarı ilə şah adından danışıqlar aparılsın: Roma papası, Almaniya imperatoru, İspaniya kralı, Fransa kralı, Polşa kralı, Venesiya hakimi, İngiltərə kraliçası və Şotlandiya kralı. Bütün işlər qaydasına salındı və ser Antoni razı oldu ki, kiçik qardaşı Roberti 15 nəfər ingilislə birlikdə şah sarayında qalsın. Bütün digərlərinə məqamına uyğun olaraq şah tərədindən yetərli həcmdə vəsait verildi. Həmin vaxt bura Hörmüzdən Lissabon sakini olan iki portuqal səyyah-monaxı gəldi... Bu adamlar da şahın xristian monarxlarına öz nümayəndələrini göndərmək ideyasını bəyəndilər. ...Onlar şahdan xahiş etdilər ki, o iki məktub yazsın: biri müqəddəs papaya və digəri İspaniyanın əlahəzrət katolik kralına. Şah dərhal razı oldu və əmr etdi ki, bu məktublar yazılsın və ayrıca onlara təqdim olunsun. Səfəvi dövlətinə gələrkən ser Antoni Yunandan (və Osmanlı imperiyasından) keçmişdi. Türk dilini bildiyi üçün özünü asalnlıqla türk kimi təqdim edə bilirdi. Amma bu yolla evə qayıtmaq artıq mümkün deyildi. Hindistandan keçməklə yola düzəlmək isə uzun bir dəniz yolçuluğunu tələb edirdi. Nəticədə belə qərara gəlindi ki, elçilik heyətinin yolu Tatariyadan və Moskoviyadan keçsin” (262).

Elçilik heyətinin üzvü olan Oruc bəy Bayatın xatirələrində Şah Abbasın onları şəhər kənarına qədər müaşyiət etməsi haqqlnda

məlumat mövcud deyil. Oruc bəyin yuxarıdakı qeydlərindən həm də elçilik heyətinin nə üçün Rusiya marşrutunu seçməsi də bəlli olur. Bu marşrut da əslində, uzun bir marşrut idi. Amma göründüyü kimi başqa seçim də qəbul ediləsi deyildi. Moskvadan keçdiyi üçün elçilik heyətinə həm də Moskva sarayında görüş keçirmək tapşırılmışdı. Lakin başlıca vəzifə Avropaya yetişmək və qərb dövlətləri, o cümlədən İspaniya dövlətinin hakimləri ilə görüş keçirmək idi.

Elçilik heyətinin İsfahandan Avropaya doğru hərəkətə başlaması 1599-cu il iyul ayının 12-nə təsadüf edirdi (263). Şah Abbas Avropaya göndərdiyi elçilik heyətinin rəhbərlərinə qərb dövlətlərinin saraylarında hansı məsələlərin müzakirəsi haqqında müfəssəl tapşırıqlar vermişdi. Səfəvi dövləti ərazisində missioner səfərlərində olmuş Karmelit missioner ordeninin təmsilçiləri olan keşişlərdən miras qalmış xronikada həmin tapşırıqların mahiyyəti haqqında geniş məlumat verilmişdir. Həmin məlumata əsasən, elçilər şah sarayı adından qərb hakimlərinin diqqətinə bu məsələləri çatdırmalı idilər:

1. Persiya hökmdarı öz dostluq və xoş məramını bütün xristian hökmdarlarına təklif edir, xristian ölkələrinə və onların əhalisinə ehtiram üzündən və ümumi düşmənə, yəni türklərə olan böyük nifrət üzündən ittifaq yaradılmasını arzulayır;

2. Bütün ağırlığının onun üzərinə düşməyəcəyindən arxayın olandan sonra şah müharibə aparmağa başlayacaqdır;

3. Məhz bunların təminatı müqabilində Zati-Aliləri ciddi bir şəkildə təklif edir ki, bütün Avropa respublikaları, vassallar mahiyyətindən asılı olmayaraq əvvəllər türklərlərlə bağlanmış bütün müqavilə və anlaşmalardan imtina etməyə razılıq verir, yaxud istənilən bir yaxınlaşmadan imtina edir – ən azı onlar bu müharibənin uğurlu nəticələri məlum olanadək seyrçi rolunda qalacaq və ya gilzi şəkildə öz köməklərini göstərəcəklər;

4. Avropa dövlətləri hökmdarlarının nəzərinə çatdırılmalı idi ki, əgər bu dövlətlərin tacirləri Osmanlı dövləti ilə hər hansı müqavilələr imzalayıblarsa və bu müqavilələrə əsasən quru və ya də-

niz yolu ilə müharibə təchizatı çatdırırlarsa, belə müqavilələr ləğv olunsun və Osmanlı dövlətinə müharibə təchizatı göndərilməsinin qarşısı alınsın;

5. Avropa hökmdarlarına tövsiyə edilirdi ki, xristian dövlətləri öz aralarında düşmənçilik etmələri və müharibə aparmaları Osmanlı dövlətini gücləndirməkdən başqa bir nəticəsi olmayacaqdır. Yaxşı olardı ki, onlara verilən dostcasına və qərəzsiz məsləhətlər qəbul edilsin və tezliklə dostluq və sədaqət müqavilələri bağlamaqla bir-biri ilə ittifaq yaratsınlar və düşmənə qarşı çevirməli olduqları qüvvələri bir-biriləri ilə aparılan müharibələrdə səbəbsiz yerə məhv etməsinlər;

6. Əgər xristian knyazlıqları belə bir müqaviləyə imza atmaq istəyirlərsə, impertaor həzrətləri bu müqavilənin doğruluğu ilə bağlı İran hökmdarına təminat versin;

7. İran (Səfəvi –M.S.) hökmdarı ilkin razılıq şərtləri daxilində və bu qərarlarla bağlı götürdüyü öhdəliklər daxilində tərəddüd etmədən döyüş zonasına 60 minlik tüfəngçi, eləcə də atlı dəstə və hətta heç vaxt xəyallarına gəlməyəcək geniş bir qüvvə göndərəcəkdir

8. Bildirilirdi ki, müdafiə döyüşləri aparılarkən vaxt və pul itkisi, günahsız insanların həyatını itirməsi, heysiyyətin və nüfuzun təhlükə altına atılaması baş verir. Bu yolu tutan ölkələr öz zəifliklərini və bacarıqsızlıqlarını etiraf etməlidirlər

9. Təkid edilirdi ki, əgər Avropa dövlətləri Osmanlı dövlətinin ləğvini isrəyirlərsə, onlar müxtəlif istiqamətlərdən bu dövlət üzərinə hücum etməlidirlər. Səfəvi dövlətinin şahı xristian dövlətlərinin hökmdarlarından xahış edirdi ki, türklər üzərinə müxtəlif istiqamətlərdən, xüsusən də Macarıstan istiqamətindən hücum üçün qərar qəbul etsinlər;

10. Səfəvi hökmdarı vəd edirdi ki, əgər yuxarıda deyilən kimi Avropa dövlətlərinin imperatorları və hökmdarları onun xahişinə əməl edəcəklərini lazımı şəkildə öz elçiləri vasitəsilə ona bildirsələr, onda Səfəvi şahı da həmin dövlət üzərinə hücuma keçəcəkdir;

11. Təklif olunurdu ki, tərəflər arasında anlaşma əldə edilsin və bundan sonra kimsə qarşılıqlı razılıq olmadan hər hansı bir hərəkət etməsin;

12. İstisna edilmirdi ki, bir çox hadisələr baş verə bilər. Ümid edilirdi ki, belə hadisələr baş verəndə elçilər göndərilməklə lazımi məsləhətləşmələr aparılsın. Səfəvi tərəfi belə elçilərin qəbul ediləcəyini və onlara yer ayrılacağını vəd edirdi (264).

Qeyd edilməlidir ki, Karmelit keşişlərinin xronikasında Şah Abbas tərəfindən bəyan edilən təkliflər yalnız bunlardan ibarət deyildi. Həmin təkliflərin hər biri ayrıca tezis şəklində xronikada öz əksini tapmışdır. Ümumi şəkildə yanaşılarsa, Şah Abbas daha sonra Avropa dövlətləri ilə əldə edilmiş ittifaq anlaşmalarının hansı nəticələrə gətirib çıxara biləcəyinə toxunurdu. O bildirirdi ki, Osmanlı dövlətinə qarşı anlaşma əldə edildikdən sonra qərb elçiləri, habelə xristian missionerləri azad şəkildə Səfəvi dövləti ərazisinə gələ bilərlər. Şah vəd edirdi ki, onların azad fəaliyyəti və yaşamaları üçün lazım olan bütün şərait yaradılacaqdır.

Bu təklif və məsləhətlər Karmelit missionerlərinin xronikasında öz əksini tapmışdır. Göründüyü kimi, bu təkliflərdə və mülahizələrdə Şah Abbasın Osmanlı dövlətinə qarşı barışmaz münasibəti daha qabarıq verilmişdir. Şübhə yoxdur ki, Şah Abbasa aid edilən bu barışmazlıq əslində, qərb missonerlərinin və nümayəndələrinin Osmanlı ödvlətinə qarşı olan barışmaz münasibətinin ifadəsi idi. Onlar hər vasitə ilə arzuladıqlarının həyata keçməsinə çalışırdılar. Doğrudur, Şah Abbas da itirilmiş ərazilərin geri qaytarılamsına çalışırdı və Şerli-Hüseynəli bəy elçiliyinin Avropaya yola düşdüyü vaxtlarda Şah Abbasa israrla Osmanlı qoşunlarının Səfəvi ərazisindən sıxışdırılması yollarını arayırdı. Yəni bu vaxtlarda onun Osmanlı sarayına qarşı qəzəbli olması istisna deyildir. Amma Şah Abbas itirilmiş ərazilərin geri qaytarılması üçün qərb dövlətlərindən canlı kömək ala bilmədiyi kimi, imkanı olanda Osmanlı ərazilərinə də daxil olmadı. Yəni Şah Abbasın Osmanlı dövlətinə qarşı münasibəti qərb nümayəndələrinin göstərməyə çalışdıqları qədər də ifrat barışmazlıq səviyyəsində deyildi.

Səfəvi elçiliyi uzun və kifayət qədər ağır səfər marşrutu seçmişdi. İstər Xəzər dənizi ilə, istərsə də Rusiya ərazisi ilə hərəkət etmək elçilik heyətindən xeyli vaxt tələb edirdi. Bu səfər yolçuluğu Oruc bəy Bayatın xatirələrində geniş şəkildə öz əksini tapmışdır. Elçilk heyəti Rusiya ərazisində xeyli vaxt keçirməli oldu. Məlumdur ki, elçilik heyəti 1601-ci ilin yayında Romaya yetişdi. Hüseynəli bəy və Antoni Şerli Səfəvi şahının nümayəndəsi kimi Roma papasının qəbulunda olmalı idi. Amma Romada Hüseynəli bəylə Antoni Şerli arasında mübahisə yarandı və bu mübahisə də Antoni Şerlinin elçilik heyətindən uzaqlaşmasına gətirib çıxardı. Elçilik heyəti hələ Rusiyanın Arxangelsk şəhərində olarkən, Antoni Şerli şah hədiyyələrinin toplandığı 32 yeşiyi ingilis gəmilərindən birinə yüklətdirdi və vəd verdi ki, həmin gəmi bu yükləri onların gəlişinə qədər Romaya çatdıracaqdır. Romada Hüseynəli bəy Antoni Şerlidən hədiyyələr olan yeşikləri tələb etdikdə, bəlli oldu ki, A.Şerli həmin yeşiklərdəki əşyaları ingilis tacirlərinə satıbdır. Hüseynəli bəy biləndə ki, bu hədiyyələr daha geri qayıtmayacaq, onda A.Şerli ilə ciddi mübahisə etdi. Roma papası şah elçisini qəbul etmək üçün vaxt təyin edəndə, Hüseynəli bəy hətta Antoni Şerlinin etdiklərini xatırladaraq həmin görüşü təxirə salmaq istədi. Amma papanın təkidi ilə bu görüş baş tutdu. Hüseynəli bəy Antoni Şerli olmadan papanın qəbuluna yollandı. Oruc bəy Bayat yazırdı ki, şah elçiliyi Roma papalığı tərəfindən çox yüksək səviyyədə qarşılandı. Papa tərəfindən qəbul ediləndən sonra Səfəvi elçiliyi iki ay Romada qaldı. Elə həmin günlərdə Antoni Şerli və onun yanında olan ingilislər yoxa çıxdılar. Onları tapmaq mümkün olmadı (265).

Antoni Şerli ilə Hüseynəli bəyin arasında narazılığın nədən yaranması haqqında ingilis mənbələrində başqa bir məlumat da mövcuddur. Antoni Şerlini müşayiət edən ingilislərdən birinin yazdığına görə, bu iki adam arasındakı mübahisə səlahiyyət davası ilə bağlı idi. Belə ki, Romada olarkən Antoni Şerli onun daha yüksək səlahiyyətə malik olduğunu bildirərək kobud şəkildə Hüseynəli bəydən itaət etməsini tələb etdi. Guya Hüseynəli bəy bu

kobud sözləri eşidəndən sonra Antoni Şerlidən incidi və geri qayıtmalı olduğunu bəyan etdi. Hətta o da iddia olunur ki, Hüseynəli bəy İsfahana qayıtdı, baş verənləri Şah Abbasa ərz etdi. Şah Abbas da bu məsələdən qəzəblənərək Hüseynəli bəyi cəzalandırdı (266).

Amma bu məlumat doğru deyil. Hüseynəli bəy heç də Romadan geri qayıtmadı. O, əvvəlcə Roma papasının qəbulunda oldu, Şah Abbasın məktubunu papaya çatdırdı, iki ay Romada qaldıqdan sonra papanın qayğısı ilə İspaniyaya yola salındı. Elçilik heyəti Genuyadan keçməklə Savon limanına qədər gəmilərlə hərəkət etdilər. Sonra isə heyət üzvləri quru yola hərəkətlərini davam etdirdilər. İspaniya ərazisinə daxil olanda elçilik heyəti kral sarayının mənsubları və mühafizəçilər tərəfndən qarşılandı. Heyət üzvləri bir müddət Barselonada qaldılar. Oruc bəy Bayat həm İspaniya sarayı tərəfindən qarşılanmalarını, həm Barselonada yadda qalan günlər keçirmələrini öz xatirələrində səxavətlə təsvir etmişdir. Elçiliyin qarşılanması şah adına layiq bir şəkildə həyata keçirildi və bir müddətdən sonra elçilik heyəti ispan kralının iqamətgahına gətirildi. Kral sarayında da elçilik heyəti saray protokol qaydalarına uyğun olaraq qarşılandı. Bununla, İspaniya sarayı həm də Səfəvi dövləti ilə əlaqələr qurulmasına öz münasibətini nümayiş etdirdi.

İspaniya kralının sarayı Valyadolid adlanan məntəqədə yerləşirdi. Mənbələrdəki məlumatlardan aydın olur ki, Valyadolid çox da böyük olmayan bir məntəqə idi. İspaniya sarayının nəzrdə tutduğu plana əsasən, elçilik heyəti əvvəlcə Valyadolid yaxınlığındakı Tudel adlanan yerdə yerləşdirildi. Burada olarkən elçilik heyətinin üzvləri İspaniya sarayının əyanları ilə görüşdülər, saray protokolu haqqında onlardan məlumatlar aldılar. Kral qəbulundan əvvəl elçilik heyəti xüsusi bir mərasimlə Valyadolidə gətirildi. Burada da elçilik heyətinin üzvləri məskunlaşdıqları iqamətgahda İspaniya sarayının ən yüksək vəzifəli mənsubları ilə görüşdülər. Nəhayət, bir neçə günlük intizardan sonra elçilik heyəti xüsusi bir mərasimlə kral sarayına müşayiət edildi. Elçilik heyətinin üzvü

olan Oruc bəy Bayat İspaniya kralı tərəfindən qəbul olunmalarını belə təsvir edirdi: "Saray qapıları ağzında biz atlardan yerə endik, pilləkənlərlə yuxarı qalxdıq və qəbul zalının qarşısında kamerqer dayanmışdı. O bizi qəbul zalına müşayiət etdi. Kral orada idi. Elçi məktubla irəli getdi. Bu məktub ənənəyə uyğun olaraq bir yard uzunluğu və üç barmaq eni olan kağız üzərində qızılı və rəngli mürəkkəblə yazılmaqla maraqlı şəkildə bükülmüşdü. İran ənənəsinə görə bu kağız ortadan bükülmüşdü. İspaniyada da yarımlisti belə bükürlər. Bu məktub qızılı mahuddan tikilmiş kisəyə qoyulmuşdu və elçi onu başındakı şalın arasına qoymuşdu. Onu oradan götürdü, əvvəlcə öpərək gözü üstünə qoydu və sonra krala təqdim etdi. Əlahəzrət şlyapasını qaldırıb məktubu qəbul etdi və tərcüməçi vasitəsilə öyrəndi ki, İran şahı ona nə yazıb. Bununla da ona bizim elçiliyimizin gəlməsinin səbəbi də bəlli oldu. O dedi ki, İran şahının ona təklif etdiyi dostluğa görə çox məmnundur və böyük sevinclə ondan gözlənilən hər şeyi edəcək və sonra bu məktuba cavab göndərəcəkdir. Hər iki tərəfdən hər şey deyiləndən və ediləndən sonra elçi əlahəzrəti tərk etmək üçün icazə istədi. Biz fəxri dəstənin müşayiəti ilə öz iqamətgahımıza qayıtdıq. Sonrakı iki ay ərzində bizi sarayda çox əla şəkildə qarşıladılar, əlahəzrətin arabalarında gəzib-dolaşdıq, şəhərin ən gözəl yerləri ilə tanış olduq, keçirilən bal məclislərində rəqs etməklə əyləndik. Bizə belə gəldi ki, əvvəlcə səfər etdiyimiz krallıq və ölkələrə nisbətən İspaniyada daha yaxşı günlər keçirdik. Çünki hətta müsabiqələrdə də ispanlarda digər xalqlarda çatışmayan əzəmət və arxayınçılıq vardır" (267).

Oruc bəy Bayatın qeyd etdiyi kimi, Səfəvi elçilik heyəti təxminən iki ay İspaniyanın paytaxtında qaldı və burada kralın qayğısı altında xoş günlər keçirdi. Heyət üzvləri üçün narahatlıq doğuracaq hal ondan ibarət oldu ki, onların səfər yoldaşı olan Əliqulu bəy adlı birisi katolik məzhəbini qəbul etdi. Bu adam İspaniya paytaxtında olduğu vaxt əvvəlcə ispan geyimi daşımağa maraq göstərdi və sonra elə katolik məzhəbini qəbul edərək İspaniyada qalmağa üstünlük verdi. İki aydan sonra elçilik heyəti kral

tərəfindən bir daha qəbul edildi və Şah Abbasa yazılmış məktub elçiyə təqdim olundu. Elçilik heyətinin üzvlərinə isə hədiyyələr paylandı. Elçi Hüseynqulu bəyə qızıldan düzəldilmiş zəncir bağışlandı. Digər elçilik üzvlərinə də qızıl zəncir bağışlandı. Lakin elçiyə verilən zəncir həm ağır, həm də daha qiymətli idi. Əlavə olaraq Portuqaliyaya getməli olan elçilik heyətinə yol xərci verildi. Elçilik heyəti Portuqaliyada gəmilərə oturaraq Səfəvi sularına doğru hərəkətə başlamalı idilər. Səltənətin cənub limanlarından birinə çatana qədər bütün yol xərcləri İspaniya sarayı tərəfindən ödənildi. Oruc bəy Bayat bunları yazmaqla bir daha İspaniya sarayı tərəfindən mehribanlıqla qarşılandıqlarını və səfərin sonuna qədər bu sarayın qayğısı altında olduqlarını bildirirdi. Qonaqların müşayiət edilməsinə bir tərcüməçi də ayrılmışdı (268).

Elçilik heyəti Lissabonda da çox böyük qonaqpərvərliklə qarşılandı. Burada ölkənin ali rəhbərləri Səfəvi elçilik heyətinin üzvlərini qəbul etdilər və onlara geniş diqqət ayırdılar. Elçilik heyəti Lissabonda olarkən Oruc bəy Bayat Valyadolidə qayıtmalı oldu. Belə ki, Lissabonda olarkən heyət üzvlərinin biri naməlum şəkildə qətlə yetirilmişdi. Bununla bağlı Oruc bəy İspaniya sarayına yollanaraq ora məlumat çatdırmalı idi. Oruc bəy bu işi görsə də Valyodoliddə olarkən katolik məzhəbini qəbul etdi və özünə Don Juan adını götürdü. Ondan başqa, Bünyad bəy də katolik məzhəbini qəbul etdi. Bununla da elçilik heyəti üzvlərindən üç nəfər katolik məzhəbini qəbul etdilər və onlar İspaniya ərazisində qalmağı qərarlaşdırdılar. Əks təqdirdə, onlar çox sərt cəza ilə qarşılaşa bilərdilər (269).

Səfəvi elçilik heyəti 1602-ci ilin əvvəllərində Portuqaliyadan gəmilərlə yola düşdü və həmin ilin sonlarına yaxın Hindistan ərazisində olan Qova limanına yetişdi. Dörd ay da orada vaxt keçirəndən sonra Hüseynəli bəyin rəhbərlik etdiyi Səvəfi elçilik heyəti Səfəvi hüdudlarına gəlib yetişdi (270).

Hüseynqulu bəyin rəhbərlik etdiyi elçilik heyəti İspaniya və Portuqaliyada səfərdə olarkən Hörmüz qalası artıq Səfəvi qoşunlarının nəzarəti altına alınmışdı (1601-ci ilin sonunda). Yəni İspa-

niya və Portuqaliyanın cənub sahillərindəki marağına güclü bir zərbə vurulmuşdu. Bununla belə, İspaniya kralı Səfəvi dövləti ilə münasibətləri heç də kəsmədi və Hüseynqulu bəyə verdiyi sözə əməl edərək Səfəvi sarayına öz elçilik heyətini göndərməyi qərara aldı. İspaniya kralı üçün Osmanlı Türkiyəsinə qarşı Səfəvi dövləti ilə ittifaq yaratmaq və Səfəvi ipəyinin ticarətində yer almaq maraq kəsb edən məsələ idi. Ona görə də bu məsələnin həllində daha ciddi nəticələrin əldə edilməsini məhz elçilik heytinin Səfəvi sarayına göndərilməsində görürdü. Digər tərəfdən İspaniya kralı III Filip atası II Filipin vəsiyyətinə əsasən, həm də Səfəvi dövləti ərazisində xristian dininin təbliğini gücləndirmək istəyirdi. Bununla bağlı, İspaniya kralı Hindistana hakim təyin olunmuş Dom Arisa Saldanaya və Hindistandakı Qova limanının keşişi Aleksis de Menezesə Səfəvi sarayına elçilik heyəti göndərilməsi barəsində göstəriş verdi. Həmin adamlar da üç nəfər din xadimindən ibarət elçilik heyəti təşkil etdilər və Səfəvi sarayına göndərdilər. Həmin elçilik heyətinə Jerominyo de Kruz, Kristofolo de Spiritu Santo və Antonio de Quvea daxil idilər. Bu heyət 1602-ci ilin fevralında Hindistanın Qova limanından Səfəvi hüdudlarına doğru hərəkətə başladı. Heyət üzvləri özləri ilə Şah Abbasa hədiyyə olaraq "İsa Məsihin həyatının şərhi" adlı qiymətli bir kitab da aparırdılar (271).

Səfəvi sarayına göndərilən bu elçilik heyətinin qarşısına bir neçə vəzifə qoyulmuşdu. İlk vəzifə sözsüz ki, xristianlığın Səfəvi dövləti ərazisində təbliği və yayılması ilə bağlı idi. Kifayət qədər etiqad sahibi olan İspaniya kralı da Səfəvi ərazisində xristianlığın yayılmasını və bu dinin qəbul etdirilməsini özünün dini və dövlət vəzifələrindən biri hesab edirdi. Elçilik heyəti çalışmalı idi ki, katolik keşişlərinin və təbliğatçılarının Səfəvi ərazisinə azad şəkildə gəlib getməsinə icazə alınsın. Bunun qarşılığı olaraq İspaniya kralı da Osmanlı dövlətinə qarşı Səfəvi dövləti ilə ittifaq yaratmağı vəd edirdi. Dini məsələlərlə bağlı ispan keşişlərinin həll etməli olduğu vəzifələrdən biri də Səfəvi dövləti ərazisində məskunlaşmış erməni qriqorianların Roma papasının itaəti altına gətirilməsi idi. Bu barədə Antonio de Quvea Şah Abbas qarşısında məsələ qaldırmalı

idi. Sonradan Şah Abbasın qəbulunda olarkən Antonio de Quvea doğrudan da bu barədə məsələ qaldırmışdı. A.de Quvea istəyirdi ki, Şah Abbasın əmrinə əsasən erməni xəlifəsi onunla birlikdə Romaya yollansın, orada papanın ayaqlarını öpməklə ona itaət etməyi öz üzərinə götürsün. Şah Abbas da ona cavab vermişdi ki, Səfəvi səltənəti daxilində hər kəs yaşamaqda da, dinin inanclarında da azaddır və ona görə erməni xəlifəsini zorla Romaya göndərmək barəsində əmr verə bilməz. Amma Şah Abbas onu da bildirdi ki, əgər erməni xəlifəsi öz istəyi ilə, könüllü şəkildə Romaya yollanarsa, buna etiraz etməyəcəkdir (272).

A.de Quveanın rəhbərlik etdiyi elçilik heyəti qarşısında dayanan vəzifələrdən biri də Bəhreynin Səfəvi nəzarəti altına keçməsindən sonra İspaniya ilə ticarət əlaqələrinin qorunub saxlanması və möhkəmləndirilməsi məsələsi idi. Cəhd göstərilməli idi ki, iki dövlət arasında ticarət əlaqələrinin möhkəmləndirilməsi üçün rəsmi razılaşma əldə edilsin. Bu ticarət əlaqələrinin möhkəmləndirilməsi üçün İspaniya sarayı Səfəvi dövləti ilə İngiltərə arasında münasibətlərin genişlənməsinin qarşısı alınmalı idi. İspaniya sarayı Səfəvi dövləti ilə ticarət əlaqələrinin qurulmasında üstünlük əldə etmək istəyirdi. Bunun üçün isə Səfəvi dövlətinin digər Avropa dövlətləri ilə ticarət əlaqələrinin genişlənməsinə müəyyən məhdudiyyətlər yaradılmasına ehtiyac var idi. A. de Quvea da öz səfər yoldaşları ilə birlikdə bu məsələnin həllinə çalışmalı idi (273).

İspan keşişlərindən təşkil olunmuş elçilik heyəti Səfəvi ərazisinə daxil olanda Şah Abbas qızılbaş qoşunları ilə Bəlx üzərinə hərbi yürüşdə idi. Ona görə A. de Quvea Səfəvi şahının hüzuruna bir çapar göndərdi və onun vasitəsilə bu elçilik heyətinin gəlişini ona xəbər verdi. A.de Quvea öz səfər xatirələrində bu barədə belə yazırdı: "...Günabada çatanda bizimlə yolçulq edən bir ermənini məktubla Məşhədə, Şah Abbasın yanına göndərdim ki, bizim gəlməyimiz haqqında onu məlumatlandırsın. Bizi bilirdik ki, Fars xanı bizim haqqımızda şaha pis məlumat çatdırmışdı və yazmışdı ki, biz yalnız Hörmüz hakiminin elçiləriyik və istəyirik ki, Bəhreyn adaları haqqında onunla müzakirə aparaq (həmin adaları Fars

xanı hiylə ilə portuqallardan almışdı). Səfərimizin məqsədinin əsası haqqında şaha yazdım. ...Bizim tərcüməçimiz şah düşərgəsinə çatanda onun özünü görə bilmədi ki, bizim məktubumuzu təqdim etsin. Çünki birinci dəfə şaha deyəndə ki, portuqal elçilik heyəti tərəfindən tərcüməçi gəlib, o, cavab vermədi. Bir gün tərcüməçi şah çadırının yanında dayananda şah onu görür və soruşur ki, bu kimdir? O da irəli gəlib özünü təqdim edir. Şah etnasızcasına soruşur: "Portuqal elçiləri nə üçün gəliblər? Mən həmişə portuqallara qarşı mehribanlıq etmişəm, onlarsa mənə qarşı düşmənçilik və mühləraribə edib". Amma məktubu oxuyandan və hind nayibüssəltənəsinin məktubunu görəndən sonra bildi ki, biz həm də İspaniya kralından məktub gətirmişik. O, sarayın böyüklərindən biri bizim qəbul edilməyimiz üçün vəzifələndirdi. Bu adam Türbətdə bizə yetişdi və bizi böyük ehtiram və mehribanlıqla Məşhədə apardı" (274).

İspaniyanın elçilik heyəti Məşhəddə çox mehribanlıqla qarşılandı. Şah Abbasın göstərişinə əsasən, sarayın nüfuzlu əmir və əyanları bu heyətin pişvazına çıxdı və heyət üzvləri böyük ehtiramla şah hüzuruna müşayiət edildilər. Şah hüzurundakı qəbul zamanı heyət üzvü Jerominyo de Kruz İspaniya kralının məktubunu Şah Abbasa təqdim etdi. Sonra da Hindistanın nayibüssəltənəsinin Şah Abbasa göndərdiyi qiymətli hədiyyələr nümayişə çıxarıldı. A.de Quveanın səfər xatirələrindən aydın olur ki, bu görüşdən heyət üzvləri də razı qalmışdılar: "Şah qiymətli xalçaların fərş edildiyi dörd künc bir salonda əyləşmişdi. Ətrafında dövlətin sərdarları və böyükləri iki sırada qərar tutmuşdular. Şahın geyimi və əmmaməsi başqalarınkından heç də fərqlənmirdi. Onu əl ilə göstərməsəydilər heç tanımaq da olmazdı. ...Bizi şah məclisinə gətirən adam bizdən soruşdu ki, yaxın gedib onun ayaqlarını öpmək, ya da eləcə uzaqdan başınızla təzim etmək istəyirsiniz? Cavab verdik ki, biz şahı yaxından görmək və öz dövlətimizin qaydasına uyğun ona ehtiramımızı bildirmək istəyirik. Nə isə yaxına getdik və bir dizimizi yerə dayaqlayıb şahın əlini öpdük. Şahın yaxınları bizim bu hərəkətimizə təəccüb etdilər və dedilər

ki, heç də yaxşı əməl deyildi, gərək onun ayağını öpəydiniz. Lakin şahın özü çox xoşhal oldu və bizə ürəkaçan sözləri ilə nəvaziş göstərdi. ...Jerominyo de Kruz İspaniya padşahının məktubunu şaha təqim etdi və dedi ki, bu, bizim gətirdiyimiz ən yaxşı hədiyyədir. Şah belə cavab verdi: mən də onu çox qiymətli bir xəzinə hesab edirəm. Sonra hədiyyələri bir-bir şahın qarşısından keçirdilər. ... şah İspaniya padşahının səhhəti haqqında sorğu-sual etdi və onun sağlamlığına görə öz məmnunluğunu ifadə etdi. Sonra da o bizim uzun səfərimiz haqqında söhbətə başladı və soruşdu: nə üçün Hindistana əl yetirmək üçün bu qədər zəhmət və əziyyət çəkirsiniz? Yəni Hindistan sizin ölkənizdən daha gözəldir? Cavabında dedim: bizim əsas məqsədimiz ilk növbədə bütpərəstlərə və kafirlərə təlim verilməsi və onların Allahın dininə gətirilməsi, ondan sonra isə bizim padşahımızın imperiyasını genişləndirməkdir" (275).

Şah Abbas diqqətlə ispan elçilərini dinlədi və onların qaldırdığı məsələlərə qismən əməl edilməsi üçün dərhal razılıq verdi. Bu razılıq əsasən keşişlərin Səfəvi dövləti ərazisində azad şəkildə dini təbliğatla məşğul olmaları barəsində idi. Şah Abbas geri qayıdarkən ispan elçiliyinin üzvlərini də özü ilə Kaşana, sonra da İsfahana gətirdi. Onun verdiyi razılığa əsasən İspaniyanı təmsil edən və Avqustin missioner ordeninə mənsub olan keşişlər öz fəaliyyətlərini qurmaq üçün İsfahanda kiçik bir kilsə tikə bilərdilər. Bu kilsənin kaşilərə tutulması xərcini də Şah Abbas səltənət xəzinəsi hesabına olmasını qəbul etdi. Sonradan aparılan müzakirələrin nəticəsi kimi, Şah Abbas tərəfindən Avqustin ordeninə məxsus olan insanların Səfəvi ərazisində mərkəzinin tikilməsi üçün də icazə verildi. İspaniya heyətinin üzvləri Şah Abbasa vəd etmişdilər ki, cənub sularında Səfəvi dövlətinin ticarət fəaliyyəti üçün mənsub olduqları dövlət tərəfindən hər hansı bir çətinlik yaradılmayacaqdır. Bəzi məlumatlara görə, Şah Abbas Osmanlı dövlətinə qarşı İspaniya ilə ittifaqın yaradılmasına nail olmaq üçün A.de Quveanın elçilik heyətinin üzvlərinə qarşı xüsusi mülayimlik göstərirdi. Bununla əlaqədar şah hətta onu da göstərmək istəyirdi ki, İspaniya

tərəfindən bu məsələ ilə bağlı hər hansı bir fəallıq nümayiş etdirilsə, onda Avqustin keşişlərinin Səfəvi dövləti ərazisindəki fəaliyyəti üçün daha geniş imkanlar yaradıla bilər. Şah Abbas tərəfindən İspaniya elçilərinin yaşayış xərclərinin ödənməsi üçün xəzinədən vəsait ayrıldı, onlar Şah Abbasın məclislərinə dəvət edilməyə başladılar. Bir dəfə şah hətta A.de Quveanı öz hərəmxanasına da apardı. Bununla Şah Abbas göstərmək istədi ki, o, İspaniya elçilərinə qarşı daha səmimi münasibətdədir. Karmelit missioner ordeninin Səfəvi dövləti ərazisində olan təmsilçilərinin əldə etdiyi məlumata görə, hərəmxana daxilində rəqqas xanımlar İspaniya elçisinin qarşısında rəqs etdilər və həmin məclisdə Şah Abbas da vəd etdi ki, İspaniyanın köməyi ilə Osmanlı dövlətindən geri alınacaq hər bir şəhərdə bir kilsə tikilməsinə icazə veriləcəkdir. Guya Şah Abbas ümid edirmiş ki, İspaniya dövləti Osmanlı dövlətinə qarşı müharibəyə başlayacaq və Səfəvi dövlətinə kömək üçün isə toplar və top mütəxəssisləri göndərəcək (276).

İspaniya elçilərinin şah hərəmxanasına aparılması və orada baş tutan söhbət haqqında Antonio de Quvea özü səfər xatirələrində belə yazırdı: "Bir neçə gündən sonra, 1602-ci il fevral ayının 11-də, şənbə günü bizim hər üçümüzü öz hüzuruna çağırdı və papa tərəfindən onun yanına göndərilmiş Pyer Fransisko de Kosta ilə hərəmxanaya apardı. ...Orada bizə dedi ki, sizə demək istədiklərimi qeyd eləyin. Sonra dəftər və qələm tələb etdi və buyurdu ki, dediklərini qeydə alaq. Şah dedi: "Mən hazıram ki, səltənətdə kilsələr tikəm və çox istəyirəm ki, qadın və kişi xristianların hamısı mənim ölkəmə gəlsinlər. Lakin bizim ruhanilər buna razı deyildirlər və bunu mənə qadağan edirlər. Qorxuram ki, əgər belə işlərə əl atsam məni öldürsünlər. Əgər siz razısınızsa ki, belə bir təhlükə içərisində sizin istədiklərinizi edim, onda sözüm yoxdur. ...Amma mənim fikrimcə, daha yaxşı olar ki, sizin padşahınız türklərlə müharibəyə başlasınlar və bundan sonra kilsələrin tikilməsinə başlayaq. Belə olan halda siz İsfahandan kənarda da, mənim ölkəmin bütün şəhərlərində kilsələr tikə bilərsiniz. Lakin yenə də ruhanilər narazılıq etmək istəsələr və bu işə mane olmağa çalışsalar, mən

onlara deyə bilərəm ki, onların daha heç bir narazılıq haqqı yoxdur, səltənətin düşmənlərinə qarşı mənə kömək edənlərə əks gedə bilmərəm. ...Xüsusi məmurlarımı göndərəcəyəm ki, mənim şəxsi xəzinəm hesabıma nə desəniz onu da etsinlər və fərman verəcəyəm ki, bütün xristian, yəhidi və müsəlman tacirlər və digərləri Hörmüzlə ticarət edə bilsinlər. Xahiş edirəm ki, papaya və öz padşahınız Filipə xüsusi olaraq yazınız ki, onların hər ikisini ata və qardaş kimi əziz tuturam" (277).

Bildirilir ki, Şah Abbas sonra onun adından yazılan sözlərin altında öz mühürünü də vurdu və dediklərinin doğruluğunu bununla bir daha təsdiqləmiş oldu. Mövcud olan məlumata görə, Fransisko de Kosta İspaniyadan göndərilmiş növbəti elçilik heyətinin rəhbəri idi. Hələ A.de Quveanın rəhbərlik etdiyi elçilik heyəti Səfəvi ərazisində olduğu vaxt İspaniyadan iki nəfərlik yeni bir elçilik heyəti İsfahana göndərildi. Bu elçilik heyətinə Fransisko de Kostadan başqa Diyeqo de Miranda adlı digər bir keşiş və bir də bölgə haqqında tanışlığı olan bir zabit daxil idi. Həmin elçilik heyətinə də verilən tapşırıq əsasən, iki dövlət arasında ticarət əlaqələrinin möhkəmləndidilməsi, Səfəvi dövləti ərazisində missioner keşişlərin fəaliyyətinin genişləndirilməsi və Osmanlı dövlətinə qarşı Səfəvi dövləti ilə ittifaq münasibətlərinin yaradılması idi. Növbəti elçilik heyətinin gəlməsindən sonra Şah Abbas İspaniya nümayəndələrini öz hərəmxanasında qəbul etdi və onlarla gizli söhbət apardı (278). Çox güman ki, Şah Abbas da İspaniyadan hər hansı bir hərbi yardımın alınacağına ümid edirdi və ona görə də bu dövlətin təmsilçilərinə qarşı xüsusi qayğı göstərirdi.

Şah Abbas Osmanlı nəzarəti altında olan Səfəvi ərazilərinin geri qaytarılması haqqında XVII əsrin ilk vaxtlarından böyük bir yürüşə hazırlaşırdı. Bu yürüşün kifayət qədər çətin olacağı Şah Abbasa məlum idi və ona görə ümid edirdi ki, həmin yürüşün uğurla başa çatdırılması üçün Avropa dövlətlərindən müəyyən hərbi kömək ala biləcəkdir. İspan elçilərinə də bu mənada qayğı göstərilir və ümid bağlanılırdı. Həmin elçilər hələ İsfahanda ikən Şah Abbas qoşunla Azərbaycan istiqamətində yürüşə başladı. Bu

məqsədlə o, 1603-cü ilin sentyabrında İsfahanı tərk erdi. Şah Abbas Azərbaycanda olarkən Andonio de Quveanın və ikinci elçilik heyətinin üzvü olan Diyeqo de Mirandanın geri qayıtmasına icazə verdi. Onlarla birlikdə Allahverdi bəy Türkman da şah elçisi kimi İspaniyaya yola salındı. Allahverdi bəy özü ilə Şah Abbasın İspaniya kralına yazdığı məktubu və şahın qiymətli hədiyyələrini də aparmalı idi. Güman edilirdi ki, həm ispan elçiləri, həm də Allahverdi bəy İspaniyaya yetişdikdən sonra bu dövlətlə Səfəvi dövləti arasında Osmanlı dövlətinə qarşı bir ittifaq yaradılmasına nail ola biləcəkdir (279).

Şah Abbas tarixinin müşahidə edilməsi göstərir ki, o, əslində Osmanlı ərazilərinə müdaxilə edilməsinin tərəfdarı olmamışdı və buna da çalışmamışdı. Şah Abbas yalnız Osmanlı nəzarəti altında olan Səfəri ərazilərinin geri qaytarılması üçün Azərbaycan istiqamətində hərbi yürüşə başlamışdı və qərb dövlətləri ilə ittifaq yaradılması məsələsini də o, Səfəvi ərazilərinin geri qaytarılması üçün Osmanlı dövlətinə müəyyən təzyiq göstərilməsi kimi qəbul edirdi. Şah Abbas qərb dövlətlərindən belə bir kömək almaq ümidində idi və Allahverdi bəyin elçiliyi də bu məqsədə xidmət etməli idi. Şah Abbas ispaniya kralına yazdığı məktubunda həmin dövlətlə dostluq münasibətlərinin möhkəmləndirilməsinə tərəfdar olmasını bəyan etməklə yanaşı A. de Quveanın rəhbərliyi altında ispan elçiliyinin Səfəvi sarayına gəlməsindən məmnun oluğunu bildirirdi. Şah Abbas ispan keşişlərinə Səfəvi dövləti ərazisində kilsə tikmələrinə, onların azad şəkildə öz dini ayinlərini icra etməsinə icazə verildiyini yazırdı. O əlavə edirdi ki, Hindistan ərasizindən Səfəvi hüdudlarına gələn ispan təbəələrinə də azad şəkildə yaşamaq və dini ayinləri icra etmək sərbəstliyi verilmişdir. Şah Abbas şübhə etmirdi ki, yazdıqlarının doğruluğunu geri qayıtmış keşişlər də təsdiq edə bilərdilər. Məktubda yazılmışdı ki, Antonio de Quvea ilə birlikdə Səfəvi elçisi olan Allahverdi bəy də İspaniya sarayına göndərilir. Şah Abbas onu özünün etibar etdiyi əmirlərdən biri kimi xarakterizə edirdi. Elçilik heyətinin göndərilməsində Şah Abbasın başlıca məqsədi sözsüz ki, Osmanlı Türkiyəsinə qarşı

müharibə aparılması üçün hərbi yardımın əldə eidlməsi idi. Bu barədə Allahverdi bəy Şah Abbasın sözlərini də İspaniya kralına çatdırmalı idi. Amma bu elçilik heyəti heç İspaniyaya çatmamış həmin dövlətin yeni bir elçilik heyəti Səfəvi hüdudlarına yetişdi. Bu elçilik heyətinə Lusi Pereyra de Lazerda adlı birisi rəhbərlik edirdi. Elçilik heyətinə iki nəfər keşiş və 50 nəfərlik xidmət personalı daxil idi. Antoniyo de Quvea hələ Səfəvi ərazisində olarkən İspaniya kralı Bəhreynin şah qüvvələrinin nəzarəti altına düşməsindən xəbər tutmuş və de Lazerdanın rəhbərliyi altında olan elçikik heyətini də Bəhreynin yenidən İspaniyanın nəzarəti altına qaytarılması ətrafında müzakirələr aparılamsı üçün şah sarayına göndərmişdi. Bundan əlavə de Lazerda çalışmalı idi ki, Səfəvi dövlətini Osmanlı dövlətinə qarşı müharibəyə təhrik etsin və bu iki dövlət arasında sülh anlaşmasının əldə edilməsinə maneçilik yaratsın. Bu ispan səfiri Səfəvi ərazisinə yetişəndə artıq Şah Abbas Osmanlı dövlətinə qarşı müharibəyə başlamışdı. Ola bilsin ki, elçinin gətirdiyi məktub yazılanda qızılbaş qoşunlarının Osmanlı qoşunları ilə qarşılaşmasından İspaniya sarayının məlumatı yox idi. Bundan başqa mövcud olan məlumata görə, ispan elçisi Səfəvi sarayında İngiltərəni təmsil edən Robert Şerlinin zərərsizləşdirilməsi üçün də mümkün işləri görməli idi. İspaniya elçiliyi hətta Robert Şerlinin qətli barəsində də fikirləşməli idi (280).

Bu elçilik heyəti Səfəvi hüdualarına yetişəndə Şah Abbas qızılbaş qoşunları ilə Osmanlı dövlətinə qarşı müharibəni davam etdirirdi. İspan elçiliyi dəniz yolu ilə Hörmüz adasına gəldi və oradan Səfəvi dövlətinin içərilərinə doğru hərəkət etdi. İspaniya kralının göstərişinə əsasən həm Hindistanın ispan hakimi, həm də İspaniyadan asılılığa malik olan Hörmüz hakimi de Lazerdaya lazım olan köməkliyi göstərməli idilər. De Lazerda lazımi köməkliyi onlardan ala bilməsə də 1604-c ilin avqustunda Hörmüzdən Səfəvi paytaxtına doğru hərəkətə başladı. Şah Abbas İsfahanda olmadığı üçün ispan səfiri Osmanlı sərhədinə doğru yola düşdü ki, orada Səfəvi şahı ilə görüşə bilsin. İspaniyadan növbəti elçilik heyəti gəlməsini və bu elçilik heyətinin İsfahandan şimal-qərbə

doğru hərəkətə başlaması xəbərini eşidəndə Şah Abbas qonaqlar üçün mehmandar təyin etdi və onu elçilik heyətinin qarşılanmasına göndərdi. Şah Abbasın göstərişinə əsasən İspaniya elçilik heyəti Qəzvində yerləşdirilməli və bu heyətə qonaqpərvərlik nümayiş etdirilməli idi. Şahın göstərişinə əsasən, qonaqlar üçün Qəzvində əzəmətli bir iqamətgah ayrıldı və onlara xidmət göstərilməsi üçün zəruri tədbirlər həyata keçirildi. Osmanlı dövləti ilə müharibənin uzandığı üçün ispan elçiləri təxminən dörd ay Qəzvində gözləməli oldular. Vaxtın uzandığı üçün ispan səfiri narahat olmağa başladı və şahla görüşün vaxtının sürətləndirilməsi üçün elçilik heyətinin üzvü olan Per Pyer Belçua des Anjosu Azərbaycana göndərdi ki, orada qullarağası Allahverdi xanla görüşsün və məsələni ona çatdırsın. Belcua des Anjos da Təbriz ətrafına yollandı və orada Allahverdi xanla görüşə bildi. Həmin günlərdə Səfəvi qoşunlarının rəhbərliyi ilə bölgədə olan Osmanlı sərdarı Cığaloğlu arasında iki dövlət arasında sülh anlaşmasının əldə edilməsi üçün müzakirələr aparılırdı. Bəlli olduğu kimi, İspaniya sarayı Səfəvi dövləti ilə Osmanlı dövləti arasında sülh anlaşmasının olmasını istəmirdi və iki dövlət arasında müharibənin davam etməsi ispan sarayının maraqlarına daha çox uyğun idi. Belcua des Anjos ünsiyyət saxladığı Allahverdi xan vasitəsi ilə bu müzakirələrin pozulmasına cəhd göstərdi. Onun bu müzakirələrin gedişinə müdaxilə etmək imkanı olmasa da, tərəflər arasında danışıqlar baş tutmadı. İspan səfiri də bu vəziyyətdən məmnun qalaraq bir daha elçinin Şah Abbasla görüşünə imkan yaradılması məsələsi ilə məşğul olmağa başladı. Nəhayət, belə bir fürsət əldə edildi. İspan səfiri dörd ay Qəzvində qaldıqdan sonra Azərbaycana yollanmaq icazəsi aldı və o, 1605-ci il mart ayının 21-də Təbriz şəhərinə yetişdi. Bir neçə gündən sonra isə o, Qars qalası ətrafında Şah Abbasla görüşə bildi (281).

İspan elçisinin döyüş bölgəsinə gəlməsi və orada şah tərəfindən mehribanlıqla qarşılanması haqqında İsgəndər bəy Münşinin əsərində də müxtəsər məlumat vardır. O yazırdı: "O zaman baş verən başqa bir hadisə isə Firəngistan sultanlarının sərvərləri olan İs-

paniya və Portuqaliya şahları tərəfindən göndərilmiş mötəbər elçilərin təşrif gətirmələridir. Yanlarında əlli nəfərədək yaraqlı mülazimləri olan həmin elçilər Qars yaxınlığında fələk əzəmətli dərgaha gələrək, görüş şərəfinə nail oldular, müqəddəs zata layiqli töhfə və hədiyyələr təqdim edib onun inayət və iltifatına layiq görüldülər, bir neçə gündən sonra şahdan rüsxət alıb, böyük ruh yüksəkliyi və xoş əhval ruhiyyə ilə geri döndülər" (282).

Şahla görüş zamanı de Lazerda özünün şəxsi hədiyyəsini də Şah Abbasa təqdim etdi. Həmin hədiyyə qızıl işləmələri olan bir oturacaq idi. İspaniya elçisi həmin hədiyyə haqqında şaha bildirdi ki, bu oturacaq (səndəli) portuqal ustalarının əl işidir və onu hədiyyə olaraq gətirmişdir ki, Şah Abbasın da portuqal sənətkarlarının əl qabiliyyətindən məlumatı olsun. Bu hədiyyə şah tərəfindən məmnunluqla qəbul olundu. İspan səfiri təxminən bir həftə şah düşərgəsində qaldı və sonra ona Qəzvinə qayıtmaq icazəsi verildi. Şah Abbasın Osmanlı qoşunlarına qarşı müharibəsi uzun çəkdiyi üçün ispan elçisi də təxminən bir ilə yaxın Qəzvində gözləməli oldu. Belə olanda ispan elçisi heyət üzvü Belcua des Anjosu bir daha şah düşərgəsinə yolladı ki, onun geri qayıtmasına icazə alınsın. İspan elçisi həm də gətirdiyi məktubda yazılanlara hansa bir cavabın alınması intizarında idi. Şah Abbas Bəhreynin yenidən portuqalların nəzarəti altına verilməsi ilə razı olmadı. Eyni zamanda Robert Şerlinin saraydan uzaqlaşdırılması ilə bağlı İspaniya kralının istəyi nəzərə alınmadı. Yəni de Lazerdanın elçilik missiyası İspaniya sarayının ümidində olduğu nəticəni vermədi. İspaniya sarayı özü də de Lazerda elçiliyinin Səfəvi sarayına səfərinin gözlənilən nəticəni vermədiyini etiraf edirdi. İspaniya sarayı eyni zamanda elçilik heyətinin tələm-tələsik geri qayıtmasını da düzgün saymırdı. Şah Abbas isə İspaniya tərəfindən irəli sürülən təklifləri qəbul etməsə də bu dövlətlə əlaqələrin kəsilməsini də istəmirdi. Çünki Osmanlı Türkiyəsi ilə müharibənin nə qədər uzanacağı hələ bəlli deyildi və Şah Abbas hələ də ümid edirdi ki, bu müharibənin sona çatdırılması üçün qərb ölkələrindən və o cümlədən də İspaniyadan hərbi kömək ala biləcəkdir. Ona görə də Şah

Abbas tərəfindən İmamqulu bəy Türkman Səfəvi sarayının elçisi kimi İspaniyaya göndərildi. İmamqulu bəyin rəhbərlik etdiyi elçilik heyəti 1605-ci ilin sonlarına yaxın de Lazerda ilə birlikdə İspaniyaya yola düşdü. Bu elçilik heyətinin qarşısında dayanan başlıca vəzifə Osmanlı dövlətinə qarşı İspaniya ilə ittifaq əlaqələrinin nəhayət ki, qurulması idi. İspaniya kralı öz elçilik heyətinin səfərinin uğursuzluqla başa çatdığı üçün Şah Abbas elçisinin gəlişinə müəyyən ümidlər bağlayırdı. Ona görə də Hörmüzdəki hakimə və Qovadakı portuqal hakiminə göstəriş göndərdi ki, Səfəvi elçisinin yola salınmasının təşkili və onun yol xərclərinin ödənməsi üçün lazım olan tədbirləri görsünlər (283).

Görülən tədbirlərə baxmayaraq İmamqulu bəy Türkmanın rəhbərlik etdiyi elçilik heyəti bir də bir ildən sonra ispan sarayına yetişdi. O, İspaniya kralı III Filip tərəfindən də qəbul edildi. Şah Abbas ona göndərdiyi məktubunda de Lazerdanın rəhbərliyi altında elçilik heyətinin gəlməsini, bu elçilik heyətinin gəlişi zamanı Osmanlı dövləti ilə müharibə aparıldığını və ispan elçisini də döyüş bölgəsində qəbul etməli olduğunu yazırdı. Səfəvi şahı iki dövlət arasında dostluq münasibətlərinin mövcudluğuna öz məmnunluğunu ifadə edirdi. Onun məktubunda Osmanlı dövlətinə qarşı hərbi ittifaq yaradılaması məsələsinə də toxunulmuşdu. Amma bu zaman İspaniya dövətinin beynəlxalq maraqlarında artıq müəyyən dəyişikliklər baş vermişdi. Belə ki, ispan sarayı mövcud şəraitdə Osmanlı dövləti ilə düşmənçilik etməyə artıq lüzum görmürdü. Ona görə də Osmanlı dövlətinə qarşı Səfəvi dövləti ilə ittifaq yaradılması məsələsi ispan sarayı üçün artıq ciddi əhəmiyyət kəsb etmirdi. İspaniya kralı belə bir ittifaqın yaradılams haqqında əməli addım atmadı (284). Bundan başqa, heç şübhəsiz ki, Bəhreynin İspaniya nəzarətindən çıxarılması və onun geri qaytarılmaması da Səfəvi dövləti ilə ciddi münasibətlər qurulmasına öz təsirini göstərirdi. Beləliklə, İmamqulu bəy Türkmanın rəhbərlik etdiyi elçilik heyəti də lazım olan nəticəni əldə edə bilmədi.

Bəhreynin və cənub sahilləri boyunca bir sıra qalaların itirilməsi İspaniya kralının ciddi narahatçılığına səbəb olmuşdu və bu

narahatçılığın aradan qaldırılması üçün hələ İmamqulu bəy Türkmanın rəhbərlik etdiyi elçilik heyəti yetişməzdən əvvəl Antoniyo de Quvea ikinci dəfə elçi kimi şah sarayına göndərildi. Onun gətirdiyi məktubdan da aydın olurdu ki, ispan kralı İmamqulu bəyin rəhbərliyi altına şah elçisinin İspaniyaya göndərilməsindən xəbəri var idi. İspan kralı məktubunda bildirirdi ki, A. de Quveanın yola salındığı vaxta qədər, yəni 1607-ci ilin iyul ayına qədər İmamqulu bəy gəlib İspaniyaya yetiş bilməmişdi. Məktubdan o da aydın olur ki, gəminin olmadığı üçün İmamqulu bəyin elçilik heyəti Hindistanın Qova limanında ləngiməli olmuşdu. İspaniya kralı yazırdı ki, uzun müddət Səfəvi şahından hər hansı bir məlumat almadığı üçün A. de Quveanı yenidən onun yanına göndərməli olmuşdu. Məktubda ispan kralı Şah Abbası "çox əziz dost" adlandırırdı. A. de Quveanın gətirdiyi məktubda Osmanlı qoşunları üzərində əldə edilən uğurlara görə Şah Abbasa təbriklər də çatdırılırdı. İspan kralı Osmanlı dövlətini "ortaq düşmən" adlandırırdı və bildirirdi ki, Aralıq dənizində hər zaman Osmanlı gəmiləri ilə döyüşlər aparmaqdadır. İki dövlət arasındakı dostluq münasibətlərinə də toxunan ispan kralı bu münasibətlərin daha da möhkəmləndirilməsinə tərəfdar çıxırdı və qeyd edirdi ki, bu dostluqdan adi insanların da faydalanması arzusundadır. İspaniya kralı bu məktubunda da Bəhreynin Allahverdi xan tərəfindən ələ keçirilməsindən şikayət edirdi. O, yazırdı ki, Bəhreyn Hörmüz hakiminin bac-xərac verəni idi və onun bu statusunun geri qaytarılmasını arzu edirdi. Hörmüz hakimi isə İspaniyadan asılı vəziyyətdə idi. İspan hakiminin məktubunda Fars hakimi haqqında xeyli şikayət və narazılıq var idi. İspan kralı yalnız Bəhreynin deyil, qızılbaş qoşunları tərəfindən ələ keçirilmiş digər qalaların da geri qaytarılmasını istəyirdi. Məktubda Səfəvi ərazisində missioner keşişlərin də fəaliyyətinə toxunulur və onların fəaliyyətinin qurulması üçün Şah Abbas tərəfindən lazımi şərait yaradılacağına ümid edilirdi (285).

Bir məlumata görə isə, Antoniyo de Quvea İsfahana gəlməklə Səfəvi dövləti ərazisində missionerliklə məşğul olan Avqustin ke-

şişlərinin fəaliyyətinə rəhbərlik etməli idi (286). A.de Quvea dəniz yolu ilə əvvəlcə Hindistanın Qova limanına yetişəndə bu liman şəhərinin baş keşişi ispan kralının göstərişi əsasında Giyulom de Jesus adlı daha bir keşişi onun tabeliyinə verdi. Onlar birlikdə Səfəvi ərazisinə yola düşdülər və 1608-ci il iyun ayının sonlarında İsfahan şəhərinə yetişdilər. Bu heyətin İsfahana yetişməsi ərəfəsində qızılbaş qoşunlarının Bağdad üzərinə yürüşünə hazırlıq aparılırdı. Şah Abbas yeni ispan elçiliyinin gəlişindən xəbər tutsa da bu heyəti İsfahanda qəbul etmədi. Heyətin gəlişindən bir həftə keçəndən sonra Şah Abbas Həmədan ətrafındakı qızılbaş qoşunları düşərgəsinə yollandı. O, saray mənsublarına da göstəriş verdi ki, ispan elçiliyini də Həmədan ətrafına yola salsınlar ki, orada bu elçilik heyətini qəbul etsin. Bu göstərişə uyğun olaraq ispan elçiliyi də Həmədan ətrafına yola salındı və Şah Abbas avqustin keşişlərini Həmədan yaxınlığındakı düşərgəsində qəbul etdi (287). Şah Abbas Azərbaycan üzərinə hərbi yürüşünü başa çatdırıb bu bölgədəki əraziləri Osmanlı qoşunlarından geri alsa da Bağdad şəhəri hələ də Osmanlı nəzarəti altında qalmaqda idi. Şərqin bu böyük şəhərinin yenidən Səfəvi hüdudlarına qaytarılması üçün Şah Abbasın qarşısında ağır bir hərbi yürüş dayanırdı. Səfəvi şahı ümidini kəsmirdi ki, heç olmasa Bağdad üzərinə hücum üçün qərb ölkələrindən ümidində olduğu bəzi hərbi köməyi ala bilər. Ona görə o da İspaniya elçiləri ilə görüşü maraqla gözləyirdi.

Antoniyo de Quvea öz səfər xatirələrində İsfahan ətrafına yetişmələrini və Şah Abbasın qəbulunda olmalarını belə xatırlayırdı: "...Biz şah düşərgəsinə yetişəndə bizim üçün çox soyuq suyu olan bir çeşmənin kənarında çadır qurdular. Bu çadıra yol şah çadırının qarşısından keçirdi. Biz atdan yerə enmək üçün dayananda şah bizi gördü və mehmandara göstəriş verdi ki, bizi onun yanına aparsın. Biz səfər libasında onun çadırına yollandıq. ...Şah gülər üzlə və mehribanlıqla bizi qarşıladı. Mən dizimi yerə qoyub onun əlini öpmək istəyəndə o, əlini mənim çiynimə qoydu və dedi: Mən sizi İsfahanda görə bilmədiyimdən narazısınız? Dedim: Ondan narazıyam ki, əlahəzrəti görə bilmədim, əlahəzrətin bizi görmək

istəməməsindən narazı deyilik. Mən böyük bir şövqlə gəlmişdim ki, əlahəzrəti qazanmış olduğu bütün fəthlərə görə təbrik edim. Sizi görməyə müvəffəq olmadım və ona görə nigaran qaldım. ...Şah mənə öz yanında yer verdi və İspaniya padşahının hal-əhvalını soruşdu. Mən ona dedim ki, bizim padşahın əlahəzrətə olan dostluğu və məhəbbəti əlahəzrətə olan hisslərindən daha çoxdur. Şah soruşdu ki, nə səbəbə görə? O səbəbə görə ki, İspaniya padşahı hər zaman özünü əlahəzrətin əsil dostu bilir və çalışır ki, onun xatirini razı salsın. Şah Abbas dedi: Mən də sizin padşahın sadiq dostuyam. Dedim: doğrudur. Lakin İspaniya padşahı heç vaxt əlahəzrətlə dostluğa bədgüman yanaşmır. Amma Almaniya padşahı Osmanlı dövləti ilə sülh əldə etdiyi üçün əlahəzrət İspaniya padşahı ilə bağlı bədgüman olmuşdur. Dedi: bu barədə söhbət açmayaq. Çünki istəyirəm ki, bu gün şad və xürrəm olaq. Bundan başqa çox istəyirəm ki, osmanlılarla savaşam, sizinlə yox. Mən bir daha onun əlini öpdüm. Sonra nahar süfrəsini açdılar və şah istədi ki, biz onun qonağı olaq" (288).

Bir məlumata görə, Şah Abbas A.de Quveanın rəhbərliyi altında olan Avqustin keşişlərini səhər yenicə açılanda qəbul etdi və onlarla söhbət günortadan sonra təxminən saat dördə qədər davam etdi. Bu müddət ərzində onlar həm söhbət etdilər və həm də birlikdə nahar etdilər. Şah Abbasın qərb dövlətlərinin siyasəti ilə bağlı bəzi gileyləri var idi və bu barədə də söhbət zamanı bəzi məsələlərə toxunuldu. Xüsusilə, Almaniya imperatoru II Rudolf Osmanlı sarayı ilə sülh anlaşmasına getməsi Səfəvi sarayında gözlənilən olmamışdı. Bununla belə, Şah Abbas alman imperatorunun bu qərarı üzərində də çox dayanmağı lazım bilmədi. Bildirilir ki, ispan kralının A. de Quvea ilə göndərdiyi məktub da Şah Abbas üçün elə də ürəkaçan olmadı. Belə ki, İspaniya kralı Şah Abbasın Osmanlı qoşunları üzərində əldə etdiyi uğurlara görə öz təbriklərini çatdırsa da, Səfəvi dövlətinə hərbi kömək göstərilməsi məsələsinə heç işarə belə edilməmişdi. Əksinə, ispan kralı yazdıqları ilə Şah Abbasdan Bəhreynin yenidən İspaniyanın nəzarəti altına qaytarılmasını istəyirdi. Qərb dövlətlərinin verdiyi vədlərin əksinə olaraq,

Osmanlı dövlətinə qarşı müharibəyə başlamamasını Şah Abbas ispan elçisi ilə görüşündə də xatırlatdı və A. de Quveaya yenidən Avropaya qayıdaraq qərb dövlətləri ilə hərbi ittifaq məsələsinin yenidən qaldırılmasını təklif etdi. A.de Quvea bu təklifin qəbul edilməsinin mümkünsüzlüyünü Şah Abbasın diqqətinə çatdırdı və bildirdi ki, ispan kralın əmrinə əsasən, onun daimi olaraq İsfahanda qalmasına ehtiyac vardır (289).

Antoniyo de Quvea bu barədə öz səfər xatirılərində belə yazırdı: "...hədiyyələrin təqdim edildiyi gün şah mənə dedi ki, gərək o yenidən təyin edəcəyi elçi ilə birlikdə İspaniyaya qayıdam, İspaniya padşahını və papanı türklər əleyhinə müharibəyə qaldıram. Dedim ki, ispan padşahının tapşırığı belə deyildir və o istəyir ki, mən əlahəzrətin sarayında qalım. Şah dedi: yəqin yadındadır ki, sən özün ilk səfərində məni türklərə qarşı müharibəyə təşviq etdin. İndi isə gərək firəng padşahını bu müharibəyə vadar edəsən. Mən öz çadırıma qayıtdım və bu uzun səfərdən qəmgin olmuşdum. Bundan sonra xəstələndim və icazə istədim ki, İsfahana qayıdam. Lakin şah icazə vermədi və öz həkimlərini vəzifələndirdi ki, məni müalicə etsinlər. Lakin mən nəhayət ki, İsfahana getdim və şahın əmrini orada olan digər keşişlərə çatdırdım. Qərara gəlindi ki, əgər şah israr etsə onun dediyini qəbul edək" (290).

Antoniyo de Quvea İsfahanda xəstəliyini müalicə etdirdikdən sonra yenidən şah düşərgəsinə qayıtdı. Çünki onların ilk görüşündə hər hansı bir nəticə hasil olmamışdı. Sonradan Şah Abbas daha bir neçə dəfə A.de Quveanı qəbul etdi və Avropa dövlətlərindən səmərəli köməyin alınması üçün yeni elçilik heyətinin göndərilməsi məsələsi üzərində dayandı. A.de Quvea təkrar-təkrar elçilik heyətlərinin Avropaya göndərilməsinin nə faydası ola biləcəyini şahdan soruşdu. Şah Abbas da bildirdi ki, bu yolla qərb padşahlarına təzyiq etmək və onları Osmanlı dövlətinə qarşı əməli fəaliyyətə keçməyə sövq etmək istəyir. A. de Quveanın iddiasına görə, səltənətin şərqində özbək təhlükəsinin hələ də qaldığı bir vaxtda Şah Abbas qərb dövlətlərinin Osmanlı dövlətinə qarşı daha da fəallaşmasını və bununla Osmanlı təhlükəsinin zərərsizləşdirilmə-

sini istəyirdi. Şah Abbas İspaniya kralını hərbi ittifaqa cəlb etmək üçün hətta Səfəvi ipəyinin Hörmüzdən keçməklə dəniz yolu ilə qərbə daşınmasına razı idi. Bu yol tacirlər üçün sərfəli yol olmasa da, Şah Abbas bu addımı atmağa hazır idi. O bu yolla bir tərəfdən qərb dövlətləri ilə münasibətlərin daha etibarlı səviyyəyə qalxmasını, digər tərəfdən də Hələbdən keçən ticarət yolunun bağlanması ilə Osmanlı dövlətinin bu ticarətdən əldə etdiyi faydanın qarşısını almaq istəyirdi (291).

A.de Quveanın yazdığına görə, Almaniya imperatoru II Filipin Osmanlı dövləti ilə sülh anlaşmasına getməsi Şah Abbasın daha böyük narazılığına səbəb olmuşdu. Çünki alman imperatoru şah Abbasa göndərdiyi məktubunda Osmanlı dövləti ilə heç vaxt sülh barışığına getməyəcəyini yazmışdı. Şah Abbas da Almaniya ilə yarada bildiyi münasibətlərdən Osmanlı qoşunlarına qarşı mübarizədə istifadə edə biləcəyinə böyük ümid bağlayırdı. Amma Şah Abbas Şirvan üzərinə qoşun çəkdiyi zaman Almaniya ilə Osmanlı dövləti arasında sülh razılaşmasının əldə edildiyi barədə məlumat aldı. Bu da onun qəzəbi ilə qarşılaşdı. A.de Quvea bu məsələ ilə bağlı belə yazırdı: "...Almaniya imperatoru məktub yazaraq söz vermişdi ki, heç vaxt sultanla sülh razılaşmasına getməyəcəkdir. Şah Abbas bu məktubu saxlayırdı və bir dəfə onu mənə də göstərdi. ... O güman edirdi ki, alman imperatoru öz sözünü mütləq tutacaqdır. Ona görə də ona çox hörmətlə yanaşırdı. Hətta onun təsvirini özünün xüsusi otağının girişində qoymuşdu və hər dəfə bu otağa daxil olanda ehtiram əlaməti olaraq ona baş əyirdi. Mən özüm də bir dəfə bunun şahidi oldum və təəccüb etdim. Məndən soruşdu ki, bu adamı tanıyırsan? Dedim ki, tanımıram. Dedi: bu, alman imperatorunun təsviridir və türklərlə döyüşdüyü üçün ehtirama layiqdir" (292).

A. de Quveanın fikrincə, qərb dövlətlərinin çox vədlər verməsi və sonra da öz vədlərinə əməl etməməsi Şah Abbasın dərin təəccübünə səbəb olmuşdu və görüşləri zamanı da bunu açıq şəkildə dilinə gətirirdi. O, qərb dövlətlərinin hakimlərinin belə qeyri-ciddiliyini normal hal saymırdı və bir dəfə bunu ispan elçisinə də

çatdırmışdı: “xristianlar əvvəlki kimi savaş işində qüdrətli deyildirlər, öz vədlərinə və qərarlarına da bağlılıq göstərmirlər. Mən öz qılıncımın gücü ilə türklərdən 125 qalanı geri aldım. Amma avropalı padşahlar bu münasib fürsətdən istifadə etmək əvəzinə, sultanla sülh razılaşmasına gəliblər. Belə br vəziyyətdə siz nə üçün gözləyirsiniz ki, mən öz ölkəmdə sizə kilsə tikmək icazəsi verim, ermənilərı təşviq edim ki, papaya itaət etsinlər, siz bizim səltənətdə kilsə zəngləri çaldırasınız? ...Gedin, şükür edin ki, sizi öz ölkəmdən çıxarmamışam. Keşişlərdən biri dedi: Əgər alman padşahı türklərlə sülhə gedibsə, bizi elçi kimi göndərən ispan padşahı isə günahsızdır. Papa sülh məsələsinə müdaxilə etməmişdir, onu nə təqsiri var? Şah cavab verdi: Siz özünüz dəfələrlə demişdiniz ki, alman padşahının ispan padşahı ilə bağlılığı vardır və onların hər ikisi papaya mütidirlər. Yəqin ki, onlar belə bir mühüm məsələdə məsləhətləşiblər və razılığa gəliblər” (293).s

Yəni Şah Abbas ehtimal edirdi ki, əgər Almaniya imperatoru verdiyi vədin əksinə olaraq Osmanlı dövləti ilə sülh sazişinə gedibsə, deməli İspaniya kralının və papanın da bu məsələdən xəbəri var idi. Papanın bu məsələdən xəbərdar olması isə bütün qərb dövlətlərinin Osmanlı dövlətinə qarşı güzəştli mövqe tutması anlamını verə bilərdi. A. de Quveanın yazdıqlarından belə bəlli olur ki, Şah Abbas qərb hökmdarlarının verdikləri vədi belə asanlıqla ayaq altına almasına inanmaq istəmirdi və ona görə də real məlumat əldə edilməsinə çalışırdı. A. de Quvea da bu işi görə bilərdi və ona görə də Şah Abbas onun dərhal geri qayıtmasını istəyirdi. A. de Quvea isə xəstələnib bir müddət İsfahanda qalsa da, Şah Abbas heç də öz fikrindən dönmədi və ispan elçisi İsfahandan geri qayıdan kimi dərhal onu yanına dəvət etdi. A. de Quvea özü bu barədə belə yazırdı: “Şah mənim geri qayıtmağından çox məmnun oldu və görəndə ki, mənim halım yaxşıdır dedi ki, əgər xəstəliyin yalançı xəstəlik deyildisə, təhlükəli xəstəlik də deyildi. Dedim ki, xristianlar yalanı az danışırlar. Xüsusilə, bizim vəzifəmiz bizdən doğru danışmağı tələb edir. ...Lakin şahın lütfü mənimlə olduğu üçün tez sağaldım. Şah qəhqəhə çəkib güldü və dedi: elə fikirləşirdim ki,

İspaniyaya geri qayıtmağın qorxusundan xəstələnmisən. Dedim ki, məni geri qayıtmaqdan çəkindirən çox səbəblər vardır. Əvvəla, ispan padşahı əmr etmişdir ki, İranda qalım. İkincisi, siz əlahəzrət tərəfindən Luis Pereyira ilə İspaniyaya göndərilən İmamqulu bəy Pakizə hələ qayıdıb gəlməyib. O cümlədən don Robert Şerli də hələ geri qayıtmayıb. Mənim fikirmcə, bu elçiliklərin hamısı eyni tapşırığa malikdirlər. Ona görə də mənim getməyimə heç lüzum qalmır. Şah dedi: Sənin İranda qalmağınla bağlı padşahın əmrinə gəlincə, onun məsliyyətini mən öz üzərimə götürürəm. O bir qrup elçilərlə bağlı da təəcüb etməyə ehtiyac yoxdur. Çünki mən böyük bir işə əl qoymuşam. Bununla bağlı əgər türklər qarşısında təklikdə müdafiə olunsam, məğlub olacağam. Özü də tatarların (özbəklərin) başqa

istiqamətdən İranın təhdid etdiyi bir vaxtda. Ona görə də bir neçə elçinin göndərilməsi heç də qəribə deyildir. Gərək Avropa padşahlarını vadar edək ki, öz vədlərinə əməl etsinlər. Siz də gərək gedəsiniz və papanı məcbur edəsiniz ki, türklərlə sülh əldə etmiş Almaniya imperatoruna öz narazılığını bildirsin və ondan tələb etsin ki, yenidən Osmanlı dövlətinə qarşı müharibəyə başlasın. Allaha rəva deyildir ki, papa və digər Avropa hakimləri məni belə bir təhlükəli işə atsınlar. Özləri isə türklərlə barışsınlar və onlarla dostluq etsinlər. Sən özün mənim türklərlə savaş başlamağıma səbəb olduğun üçün gərək bu yolda zəhmət çəkəsən. Qəmginləşdiyindən idi, ya təsirliyindən idi bu sözləri deyəndə şahın gözündən bir neçə qətrə yaş süzüldü. Mən dedim: Arzulayırdım ki, bütün qərb padşahlarının iradəsi mənim istəyimdən asılı olsun, mən də dərhal onların hamısını Osmanlı dövlətinə qarşı müharibəyə qaldırım. Amma təəssüf ki, belə deyil. Bununla belə, əlahəzrətin iradəsi olsa, mən də hərəkət etməyə hazır olacağam. Şah çox sevindi. Mən ondan xahiş etdim ki, rəsmi məktub hazırlansın və həm də icazə versin ki, mən erməni xəlifəsini də özümlə papanın hüzuruna aparım. Şah dedi: Bilirsən ki, mən səltənətin bütün xristianlarına azadlıq vermişəm və erməni xəlifəsini məcbur edə bilmərəm ki, sənlə getsin. Lakin onun özü razı olsa, onda sözüm yox-

dur. Əslində, istəyirəm ki, həzrət papa bir aliməqamlı keşişi İrana göndərsin və o da buradakı bütün xristianların xəlifəsi olsun" (294).

Bu söhbətdən sonra A. de Quvea nəhayət ki, yenidən geri qayıtmağa və Şah Abbasın məktubunu ispan kralına çatdırmağa razı oldu. Onunla birlikdə Səfəvi elçilik heyətinin də İspaniyaya yollanması qərara alındı. Bu elçilik heyətinə rəhbərlik Şah Abbas tərəfindən Dəniz bəy Rumlu adlı bir qorçuya həvalə olundu. Şah Abbasın göstərişi ilə onun adından ispan kralına və papaya məktublar yazıldı. Mövcud məlumatlara görə, həm A. de Quvea, həm də Dəniz bəy ayrı-ayrılıqda papaya və ispan kralına məktub aparırdılar. Məktubla bərabər elçilik heyətləri Şah Abbasın qiymətli hədiyyələrini də özləri ilə aparmalı idilər. Elçilik heyətinə Şah Abbasın göstərişi ilə Xacə Səfər adlı bir erməni taciri də əlavə edildi. Bu tacir özü ilə əlli tay ipək aparıb Avropada satmalı idi. Məqsəd o idi ki, ipək ticarətinin ənənəvi yolla deyil, cənub sularından Avropa ölkələrinə göndərilməsinin başlanması ispan sarayına nümayiş etdirilsin. Şah Abbas bununla bir daha nəzərə çatdırmaq istəyirdi ki, İspaniya ilə hərbi ittifaqın yaradılacağı təqdirdə ipək ticarəti marşrutunun da dəyişdirilməsi mümkün idi. A.de Quveanın yazığına görə, Şah Abbasın ispan kralına ünvanladığı məktubunda sağ-salamat olduğunu bildirir və hələ də hər iki dövlətin düşməni olan Osmanlı dövlətinə qarşı müharibə apardığını qeyd edirdi. Səfəvi şahı bu müharibədə yeni uğurların əldə etdiyini də yazırdı. Məktubda ispan sarayı tərəfindən Səfəvi dövlətinə yeni elçilik göndərilməsinə görə məmnunluq ifadə olunurdu. İspan kralına təklif olunurdu ki, Səfəvi ərazisində İspaniyanın konsulu vəzifəsini icra edə biləcək hazırlıqlı və təcrübəli bir adam göndərilsin və bu adam Səfəvi ərazisində olan xristianların xristian dininin normaları əsasında mühakiməsini və cəzalandırılmasını da öz üzərinə götürə bilsin. Şah Abbasın ispan kralına göndərdiyi məktubda daha sonra belə yazılmışdı: "... Siz aliməqamlı padşah yeddi il əvvəl də Pyer Antuan de Quveanı elçi kimi mənim yanıma göndərmişdiniz ki, məni Osmanlı türkləri ilə müharibəyə təhrik etsin.

Yəqin ki, siz keşişin iradəsinə və sözlərinə əsasən türklərlə etdiyim müharibədən xəbərdarsınız və bilirsiniz ki, onlardan çoxlu sayda şəhərləri və qalaları geri almışam. Dostluq və məhəbbət xatirinə lazımdır ki, mən öz vəzifəmi icra etdiyim kimi, siz əlahəzrət də müttəfiqlərinizi, dostlarınızı və sizin əlinizin altında olanları Osmanlı sultanına qarı müharibəyə təşviq edəsiniz. Siz padşah yaxşı bilirsiniz ki, mənim xristianlara hörmət və məhəbbətim vardır. Ona görə isrəyirəm ki, ali məqamlı bir keşişi bura göndərəsiniz və o, mənim məmləkətimdəki bütün xristianlara rəhbərlk etsin. Bu adam ermənilərin mərkəzi və müqəddəs bir məkanı olan Üçkilsədə məskən salsın. Siz əlahəzrətə olan ehtitramıma görə mənim paytaxtımda iqamət tapmış bütün xristian keşişlərinə və ruhanilərinə layiqli mənzil və məskən vermişəm. Onların hər biri eyni zamanda özləri üçün öz istəklərinə uyğun evlər tikə bilərlər. Siz aliməqam padşaha ehtiramımın nişanəsi olan bu məktubla birlikdə mənim sarayımın və qoşunlarımın böyüklərindən biri olan Dəniz bəyi də göndərirəm. Ümid edirəm ki, o, mümkün qədər tez bir zamanda geri qayıtmaq icazəsi ala biləcəkdir. O bu məktubda yazılmamış mətləbləri də sizə çatdıracaqdır. ...İpək ticarəti ilə bağlı isə çalışacağam ki, onun aparılmasını türklərin əlindən alım və siz əlahəzrətin ixtiyarına verməklə bu ticarətin Hörmüz vasitəsilə həyata keçməsini təmin edim. Yaxşı olar ki, sizin tərəfdən də bir nəfər Hörmüz adasına göndərilsin və o da İran tacirlərinin maraqlarının qoruqçusu olsun, İsfahandan ora ipək göndərənlər ziyan görməsinlər və xəsarətə düşməsinlər" (295).

Deyildiyi kimi, Şah Abbasın İspaniya kralı III Filipə yazdığı bir məktubu da Dəniz bəy özü ilə aparırdı. Həmin məktubun surəti elmi-tarixi dövriyyədə qalmaqdadır. Məktub ənənəvi girişlə başlanırdı. Sonra Şah Abbas iki dövlət arasında dostluq münasibətlərinin bərqərar olması tarixinə toxunurdu və yazırdı ki, hələ Şah Təhmasibin hakimiyyəti illərində ispan sarayından Don Sebastyan adlı bir portuqal elçisi Səfəvi sarayına gəlmiş və özü ilə layiqli hədiyyələr gətirmişdi. Ona görə Şah Abbas iki dövlət arasında həmin vaxtlardan dostluq münasibətlərinin bərqərar edildiyinə öz

məmnunluğunu ifadə edirdi. Şah Abbas son vaxtlar keşişlər vasitəsilə ispan kralından məktublar aldığına toxunur və bunu qədimdən başlanan dostluğun davamı kimi qiymətləndirirdi. Şah Abbas qərb ölkələrindən gəlmiş keşişlərin və tacirlərin Səfəvi dövləti ərazisində azad şəkildə yaşadıqlarına və ticarət etdiklərinə də toxunur və bildirirdi ki, bununla bağlı onun tərəfindən xüsusi bir fərman da verilmişdir. Xüsusilə, ispan təbəələrinin azad şəkildə Səfəvi ərazisinə gəlməsinə və onlara hər hansı bir əziyyətin verilməsinin qarşısının alınmasına da şah tərəfindən təminat verilmişdi. Şah Abbasın məktubunda ingilis tacirlərinin Səfəvi dövləti ilə ticarətinin məhdudlaşdırılması ilə bağlı ispan kralının təklifinə də münasibət bildirilmişdi. Səfəvi şahı yazırdı ki, Fars və Lar hakimlərinə uyğun göstərişlər verilmişdir və ona işarə edirdi ki, ispan sarayı ilə münasibətlərin möhkəmləndirilməsi xatirinə ingilis tacirləri ilə ispan sarayını razı salacaq hərəkətlər edilsin. Sonra Şah Abbas Osmanlı dövləti ilə müharibə apardığına və ona görə də elçi göndərmək fürsətinin olmadığına toxunurdu. Şah Abbas bu məktubda hərbi ittifaq münasibətlərinə toxunmamışdı. O, Dəniz bəyi hədiyyələrlə və şah məktubu ilə birlikdə ispan sarayına göndərdiyini yazırdı. Şah Abbas onu da əlavə edirdi ki, Dəniz bəylə birlikdə ipək yükünün də göndərildiyinə və bununla dəniz ticarət yolunun açılmasının mümkünlüyünə də işarə edirdi (296). Çox güman ki, Osmanlı dövlətinə qarşı hərbi ittifaq yaradılması məsələsini Dəniz bəy şifahi şəkildə ispan kralına çatdırmalı idi. Çünki elçilik heyətlərinin göndərilməsində də məqsəd Şah Abbasın özünün qeyd etdiyi kimi, Avropa hakimlərinə təzyiqlər göstərilməsi idi.

Baxmayaraq ki, Şah Abbas Avropa dövlətlərinin Osmanlı dövləti ilə sülh razılaşmalarına getməsini çox sərt qarşılaşmışdı, A. de Quvea və Dəniz bəy elçiliklərinin Avropaya yola düşməsindən əvvəl özü də Osmanlı dövləti ilə sülh müzakirələrinə başlamağı məqsədəuyğun saydı. Çünki bu dövrdə Səfəvi sarayı ilə Osmanlı sarayı arasında bəzi yazışmalar və görüşlər də olmuşdu və bu zaman iki dövlət arasında sülh razılaşmasının əldə edilməsinin

mümkünlüyü ətrafında fikir müzakirələri də aparılmışdı. A. de Quvea da bu barədə bəzi məlumatlar əldə etmişdi. Bununla bağlı öz xatirələrində o, belə yazırdı: "Belə görünürdü ki, şah sülh razılaşmasına meylli idi. Bu məsələ siyasi sirr kimi saxlansa da mənə də bu barədə xəbər çatmışdı. Məlum oldu ki, şah savaş zamanı əsir götürülmüş türk paşalarından birini elçi kimi seçərək İstanbula göndərmək və sülh razılaşması ilə bağlı ilkin işləri görmək istəyir. Belə olanda mən dərhal mənim elçiliyim qarşısında qoyulan vəzifə haqqında söhbətlər yaydım ki, şah düşərgəsində ola biləcək türk casuslarının, habelə İstanbula getməli olan paşanın qulağına çatsın. Xəbər yaydım ki, şah məni Avropaya göndərir ki, xristian padşahlarını türklərə qarşı qaldıram və sultan məğlub olmayınca onlar da sakitləşməsin. Şah istəyir ki, ipək ticarəti Hörmüz vasitəsilə həyata keçirilsin və bununla türklər bunun faydasından məhrum olsunlar. İstəyirdim ki, bu yolla Şah Abbas tərəfindən aldadılması barəsində sultana da xəbər çatsın. Belə ki, şah sülh barəsində danışdığı vaxt xristianları müharibəyə təhrik edir. Ona görə də şahın sözünə inanmasın və sərhəd xəttində öz qoşunlarını müharibəyə hazır vəziyyətdə saxlasın. Şah da həmişə öz qoşunlarını Osmanlı sərhədlərində saxlasın. Çünki bu iki dövlətin başı müharibəyə qarışsa, xristian dünyası da sülh və dinclik içərisində olacaqdır" (297).

Antoniyo de Quvea bununla bir daha mənsub olduğu dövlətin və qərb ölkələrinin Səfəvi dövləti ilə münasibətlərinin mahiyyətini açıqlayırdı. Çox güman ki, Şah Abbas da bu siyasətin mahiyyətindən xəbərdar idi və ona görə də o, qərb dövlətlərini fəaliyyətsizlikdə günahlandırırdı. İspaniyadan ümidində olduğu əməli köməyi ala bilməyəndə Şah Abbas səltənətin cənub sahillərindəki portuqal dəniz bazalarının da ələ keçirilməsinə göstəriş verdi. Cənub sahilləri boyunca portuqal hərbçilərinin nəzarəti altında olan qalalar və ərazilər üzərinə hücumlar təşkil edildi. Bu hücumlara Fars vilayətinin hakimi Allahverdi xan rəhbərlik edirdi. O, cənub sahilləri boyunca yerləmiş bəzi qalalardan əlavə, Qeşm adasının da bir hissəsini nəzarət altına aldı. Bundan əlavə, Şah Abbasın əmrinə

əsasən, bölgədəki portuqal təbəələri ilə yerli əhalinin ticarət işlərinin aparılmasına qadağa qoyuldu. Bu barədə xəbərlər ispan sarayında nigarançılıqla qarşılandı və ispan sarayı şübhə etmirdi ki, vəziyyətin düzəldilməsi barəsində ciddi tədbirlər görülməsə Fars və Oman körfəzlərindəki bütün portuqal mövqeləri əldən çıxa bilər. Ona görə də İspaniya kralı Hind okeanındakı portuqal hərbi donanmasının gücləndirilməsinə qərar verdi. Onun əmrinə əsasən 14 ədəd böyük və kiçik hərbi gəmi 1608-ci ilin mart ayında İspaniya sahillərini tərk etdi və Hindistan sahillərinə doğru istiqamət götürdü. Hind okeanında hərbi gücünü artırmaqla bərabər, ispan kralı Səfəvi sarayı ilə siyasi münasibətləri də kəsmədi. Əksinə, bu münasibətlərin də genişləndirilməsi haqqında Hindistanın Portuqaliyadan olan hakiminə lazımi göstəriş verildi. Bu hakim vasitəsi ilə Səfəvi dövləti ərazisində olan Avqustin keşişlərinə xəbər göndərildi ki, onlar hər vasitə ilə Səfəvi dövləti ilə Osmanlı dövləti arasında sülh müzakirələrinin aparılmasına mane olsunlar (298).

Osmanlı dövləti ilə müharibəni uğurla başa vuran Şah Abbas Portuqaliyanın da bütünlüklə cənub sahillərindən və sularından sıxışdırıb çıxarmaq niyyətində idi. Amma bu işi yalnız qoşunlarla görmək mümkün deyildi. Portuqaliya başlıca olaraq özünün güclü hərbi donanması ilə Hind okeanı hövzəsində güclü mövqelərə malik idi. Şah Abbasın isə hərbi gəmiləri yox idi. Ona görə Şah Abbas istəyirdi ki, güclü hərbi donanması olan Avropa dövlətlərindən biri ilə yeni ittifaq əlaqələri qursun və həmin dövlətin vasitəsilə İspaniyanı Hind okeanı hövzəsindən sıxışdırsın. Onun nəzərində bu hədəfə çatmaq üçün İngiltərə və Hollandiya ilə danışıqlar aparılması mümkün idi. Çünki həmin dövlətlərin hərbi donanması olmaqdan əlavə, həm də İspaniya dövləti ilə müəyyən ixtilafları da var idi. Xüsusilə, Səfəvi dövləti ilə ticarət əlaqələrində öz mövqeyini möhkəmləndirmək istəyən İngiltərə ilə sövdələşmələr bu məsələnin həllinə kömək göstərə bilərdi. Ona görə də Şah Abbas Avropaya yeni bir elçilik heyətinin göndərilməsini məqsədəuyğun saydı və Robert Şerlini bu elçilik heyətinin rəhbəri təyin etdi. Belə bir elçilik heyətini göndərməklə Şah Abbas həm də Os-

manlı dövlətinə qarşı hansısa bir ittifaq əlaqələrinin yaradılması imkanını da bir daha nəzərdən keçirmək istəyirdi. Səfəvi şahı hələ də Osmanlı təhlükəsinə qarşı etibarlı kömək mənbəyi axtarışında idi. Baxmayaraq ki, Antoni Şerlinin Avropaya elçilik missiyası heç də gözlənilən sonluqla başa çatmamışdı, bununla belə qarşıya qoyulan vəzifənin daha səmərəli həlli üçün Robert Şerlinin Səfəvi dövlətinin elçisi kimi Avropaya göndərilməsi lazım bilindi. Onun rəhbərliyi altında elçilik heyəti təşkil olundu, Avropanın böyük dövlətlərinin hakimlərinə, habelə Roma papasına məktublar hazırlandı və qiymətli hədiyyələrlə birlikdə 1608-ci ilin fevralında bu elçilik heyəti Avropaya yola salındı (299).

Bir məlumata görə, Robert Şerli özü artıq vətənə dönmək istəyirdi və bununla bağlı Şah Abbas qarşısında da məsələ qaldırmışdı. Şah Abbas da buna icazə verməmişdi. Deyilənə görə, məqsədinə nail olmaq üçün Robert Şerli başqa vasitələrə əl atmalı oldu. O, İngiltərədəki yaxınlarından birindən xahiş etdi ki, onun adına İsfahana məktub göndərsin və həmin məktubda yazsın ki, qardaşı Antoni Şerli ispan kralı tərəfindən yüksək vəzifəyə təyin edilib və böyük bir qoşun dəstəsinə rəhbərlik ona həvalə edilib. Yəni Antoni Şerli Avropada böyük nüfuz sahibinə çevrilibdir. Həmin məktub İsfahana yetişdikdən sonra Robert Şerli Karmelit keşişlərindən xahiş etdi ki, onlar məktubda yazılanların doğru olduğunu təsdiq etsinlər. Bundan sonra belə bir məktubun gəlməsi haqqında Şah Abbasa da məlumat çatdırıldı. Robert Şerli Şah Abbas qarşısında məsələ qaldırdı ki, Avropaya yeni bir elçilik heyətinin göndərilməsi yaxşı olardı. Onun iddiasına görə, belə bir elçilik heyəti Antoni Şerlinin köməyi ilə Avropa dövlətlərini Osmanlı dövləti əleyhinə qaldıra bilərdi. Sonra da Robert Şerli bu elçilik heyətinə rəhbərlik etməyi öz üzərinə götürməyə hazır olduğunu bildirdi. Səfəvi dövləti ərazisində qaldığı müddətdə Robert Şerlinin şah qoşunlarının təşkilatlandırılmasında, təchiz edilməsində kifayət qədər faydalı xidmətləri olmuşdu. Ümumiyyətlə, Şah Abbasın ona qarşı yaxşı münasibəti var idi. Şah Abbas onun getməsini istəməsə də, Avropa dövlətləri ilə münasibətlərin möhkəmləndirlməsi mə-

sələsi böyük əhəmiyyət kəsb etdiyindən Robert Şerlinin şah elçisi kimi Avropaya yollanmasına razılıq verdi (300).

Robert Şerlinin elçilik heyəti Rusiyadan keçməklə Avropaya səfər etdi. Ona görə də onun elçilik heyətinin yolçuluğu da uzanmalı oldu. Rusiya ərazisini adladıqdan sonra Səfəvi elçiliyi Polşa ərazisində Krakovda və sonra da Praqada bir müddət ləngiməli oldu. Polşa ərazisində olarkən Robert Şerlini bu dövlətin kralı III Sigizmund, Praqada olarkən isə alman kralı II Rudolf qəbul etdi. 1609-cu il sentyabr ayının sonlarında Robert Şerli Romaya yetisdi. Burada Roma papası V Pavel onu qəbul etdi. R.Şerli ilə Roma papası arasında maraqlı müzakirələr aparıldı. Şah Abbasın Osmanlı dövlətinə qarşı Avropa dövlətləri ilə ittifaq yaratmaq niyyəti bir daha papanın da nəzərinə çatdırıldı. Konkret bir nəticə elan olunmasa da papa tərəfindən Səfəvi elçisinə qarşı mehribanlıq nümayiş etdirildi. Hətta Robert Şerliyə Latren qəsrinin kenti məqamı verildi. Bundan başqa ona dini məqam da əta olundu. Həmin dini məqam ona xristianlar arasında müəyyən dini işlərin görülməsinə səlahiyyət verirdi. Roma papası ilə danışıqları başa vurduqdan sonra Robert Şerli İspaniyaya yola düşdü. Onun rəhbərlik etdiyi heyət Barselonaya çatanda Səfəvi şahının elçilərinin gəlişi ilə bağlı ispan sarayına xəbər göndərildi. İspaniya kralı və saray mənsubları biləndə ki, bu elçilik heyətinə ingilis rəhbərlik edir, onda bu xəbərə bir qədər təmkinlə yanaşıldı. Digər tərəfdən ispan sarayında belə bir şübhə də var idi ki, Robert Şerli əsas olmadan özünü Səfəvi şahının elçisi adlandıra bilər. Ona görə qərar verildi ki, Robert Şerli bir müddət Barselonada gözləsin. Onun bu şəhərdə dayanması xeyli vaxt apardı. Belə olanda Robert Şerli həm icazəsiz, həm də öz xərcləri hesabına Barselona şəhərini tərk etdi ispan kralının qış iqamətgahının yerləşdiyi Arencuezə gəldi. O, bir müddət də burada gözləməli oldu. Nəhayət ki, 1610-cu ilin yanvar ayında ispan kralı III Filip onu qəbul etdi. Robert Şerli özü ilə Şah Abbasdan iki məktub gətirmişdi. Eyni zamanda o, Şah Abbasın istəklərini şifahi şəkildə də ispan kralına çatdırdı. Bu istək Avropa dövlətlərinin birləşməsi və Səfəvi dövləti ilə birlikdə Osmanlı dö-

vlətinə qarşı ittifaq yaratması idi. Amma ispan kralı onu çox soyuq qarşıladı və aparılan müzakirələrdə də bu soyuqluq özünü açıq şəkildə göstərdi. Yeni şəraitdə ispan kralı Osmanlı dövlətinə qarşı hərbi mövqe tutulmasını məqsədəuyğun saymırdı. Ona görə də o, Avropa dövlətlərinin Osmanlı dövlətinə qarşı ittifaq yaratması məsələsinə çox biganə yanaşdı. Robert Şerli özü də ispan kralının ona qarşı soyuqluğunu gördükdə, məsələnin nə yerdə olduğunu başa düşdü və bir neçə gündən sonra Madridə yollandı. 1610-cu ilin martında Robert Şerli ispan kralından geri dönmək icazəsi aldı. Lakin bundan sonra da Robert Şerli bir müddət İspaniya ərazisində qalmalı oldu. Mövcud olan məlumata görə o bir də 1611-ci ilin yayında İngiltərəyə yola düşə bildi (301).

Robert Şerli İspaniya ərazisində olduğu vaxt Antoniyo de Quvea və Dəniz bəyin rəhbərlik etdiyi elçilik heyətləri də gəlib İspaniya ərazisinə yetişdilər. Bu elçilik heyətlərinin İspaniyaya yetisməsi 1610-cu ilin sentyabr ayına təsadüf edirdi. Elçilik heyətləri ispan kralı tərəfindən mehribanlıqla qarşılandı. Şah Abbasın göndərdiyi məktublar və qiymətli hədiyyələr ispan kralına təqdim olundu. Eyni zamanda Şah Abbasın təklifləri ərtafında ispan kralının qəbulunda söhbətlər aparıldı. Osmanlı dövlətinə qarşı ittifaq yaradılması artıq İspaniyanın maraqlarına cavab vermirdi və ona görə də bu təklif barəsində ispan sarayı tərəfindən konkret qərar qəbul edilmədi. Şah Abbasın irəli sürdüyü təkliflərdən biri də Səfəvi ipəyinin Hörmüzdən Avropaya daşınması idi. Bu məsələ Robert Şerli tərəfindən də ispan sarayında qaldırılmışdı. Səfəvi ipəyinin Hörmüzdən Avropaya daşınması ispan sarayı üçün maraqlı göründü. Hətta belə bir qərar qəbul edildi ki, Robert Şerli Lissabondan geri göndərilsin və bu məsələ həll edilsin. Lakin Robert Şerlinin geri qayıtması əvvəlcə təxirə salındı, sonra isə ləğv olundu və o, İngiltərəyə yollandı (302).

Antoniyo de Quvea və Dəniz bəyin ispan sarayına səfəri zamanı əldə etdikləri bir nəticə bundan ibarət oldu ki, ticarət əməkdaşlığı sahəsində bəzi addımlar atılsın. Belə qərarlaşdırıldı ki, ildə iki dəfə portuqal gəmiləri Hindistanın Qova limanından Hörmüzə

yollansın və oradan Səfəvi tacirlərini İspaniya ərazisinə gətirsin. Doğrudur, bu razılaşma Səfəvi tacirlərinin Avropaya çıxışını müəyyən qədər yüngülləşdirirdi. Lakin bu zaman ticarət həcmi elə də böyük olmalı deyildi. Ona görə də bu anlaşma iki dövlət arasında ticarət əlaqələrinin genişləndirilməsində çox da böyük bir əhəmiyyət kəsb etmirdi (303).

İspaniya kralı Şah Abbasın təkidli təklifləri qarşısında Osmanlı dövlətinə qarşı müharibəyə başlamaq istəməsə də, Səfəvi dövləti ilə Osmanlı arasında sülhün olmasını da istəmirdi. Onun üçün gizli deyildi ki, belə bir sülhün əldə edilməsi Osmanlı dövlətinin həm möhkəmlənməsinə, həm də öz diqqətini Avropaya tərəf çevirməsinə gətirib çıxara bilər. Ona görə də ispan kralı belə bir qərara gəldi ki, Səfəvi dövlətinə yenə də elçi göndərsin və həmin elçi vasitəsilə Səfəvi-Osmanlı arasında sülh əldə edilməsinə hər vasitə ilə mane olsun. Bu elçilik heyətinə rəhbərlik isə Antoniyo de Quveaya həvalə olundu. Yəni A. de Quvea üçüncü dəfə elçi kimi Səfəvi sarayına göndərildi. A.de Quvea eyni zamanda Roma papasının nümayəndəsi statusunu da öz üzərinə götürməli oldu. Şah Abbasın Səfəvi dövləti ərazisindəki bütün xristianlara rəhbərlik edilməsi üçün səlahiyyətli bir ruhaninin göndərilməsi təklifinə cavab olaraq papa bu vəzifəni A. de Quveaya tapşırdı. Onun yola düşməsindən əvvəl Roma papası Şah Abbasa məktub da hazırladı. Həmin məktubda papa bildirdi ki, Şah Abbasın istəyinə uyğun olaraq qərb dövlətlərini Osmanlı dövlətinə qarşı səfərbər edilməsi mümkün olmamışdır (304).

1612-ci ilin mart ayında elçilik heyətləri İspaniyanı tərk etdilər və dəniz yolu ilə Səfəvi dövlətinə istiqamət götürdülər. Bu elçilik heyətləri də onlara verilən tapşırıqların icrasına nail ola bilmədilər. Ən başlıcası Avropa dövlətləri Osmanlı dövlətinə qarşı müttəfiq olmaq üçün sözdən əmələ keçmədilər. Bundan əlavə, ispan kralı hətta cənub sahillərində itirilmiş ərazilərin geri qaytarılması arzusunu ifadə etdi və Antoniyo de Quvea geri qayıdarkən bu məsələnin də həllinə çalışmalı idi. Bu heyətlər təxminən bir il sonra, yəni 1613-cü ilin martında İsfahana yetişdilər. Həmin günlərdə də

həm A.de Quvea, həm də Dəniz bəy Şah Abbas tərəfindən qəbul edildilər. Şah Abbas onları sonsuz bir qəzəblə qarşıladı və hətta Dəniz bəyin dərhal qətlə yetirilməsi barəsində fərman verdi (305).

O zaman Səfəvi dövləti ərazisində olan Karmelit keşişlərindən biri yazırdı ki, ispan elçisi A. de Quvea şahın qəbulunda olarkən Şah Abbas onunla çox kobud davrandı, ona çoxlu acı sözlər dedi və hətta tələb etdi ki, ispan sarayına göndərdiyi ipəyin dəyəri də ödənilsin. Yəni Şah Abbas tərəfindən ispan elçisinə çox ağır bir münasibət göstərildi. Sözsüz ki, istər ispan sarayının, istərsə də Avropa hakimlərinin Osmanlı dövlətinə qarşı ittifaq yaradılması ilə bağlı verdikləri vədə əməl etməmələri Şah Abbası kifayət qədər qəzəbləndirmişdi və bu qəzəb A. de Quveaya ağır münasibət göstərilməsinə yol açmşdı. Dəniz bəyin cəzası isə daha ağır oldu. Şah Abbas onun fəaliyyəti haqqında hələ geri dönməzdən əvvəl müəyyən məlumatlar əldə etmişdi. Bu da Dəniz bəy haqqında sərt qərar çıxarılmasına səbəb olmuşdu. Mövcud olan məlumatlara görə, Dəniz bəyə heç sözünü deməyə belə imkan verilmədi və dərhal qətlə yetirildi.

Mənbələrin birində olan məlumata görə, Dəniz bəyin özünə haqq qazandırmaq üçün nə isə demək istəməsi Şah Abbasın qəzəbini daha da coşdurdu və fərman verdi ki, onu tutub dar ağacından assınlar. Şah Abbas tələb etdi ki, Dəniz bəy şəhər meydanında insanların gözü qarşısında dar ağacına çəkilsin və onun qanı da axıdılsın. Yəni Dəniz bəy kütlə qarşısında alçaldılsın və onun belə öldürülməsi elçilərə, vəzirlərə, əmirlərə də dərs olsun. Həmin mənbənin məlumatına görə, Şah Abbas onu xəyanətdə ittihamlandırırdı və cəzasını da ağır edirdi ki, şah tapşırığının icrasına məsuliyyətsiz yanaşmağın nəyə gətirib çıxara biləcəyi digərlərinə də dərs olsun. Mənbənin bildirdiyinə görə, Şah Abbas elə orada bəyan etdi ki, şahı təmsil edən adamlar təmiz olsunlar, mənfi keyfiyyətləri özlərindən uzaqlaşdırsınlar, bu adamlar bütün davranışları və danışıqları ilə şahı təmsil etməyə layiq olsunlar, kənardan müşahidə edənlər onun yaxşı əməllərini görsünlər, ona rəğbətlə yanaşa bilsinlər, bələləri padşaha sədaqətli olsunlar, onun sirlərini və gön-

dərdiyi peyğamları qoruya bilsinlər, öz maraqları və mənfəətləri xatirinə padşahın hökmünə məsuliyyətsiz yanaşmasınlar. Bildirilir ki, Şah Abbas elçinin qəbahətli əməllərini bir-bir dilə gətirdi. Həmin qəbahət işlərdən biri bu idi ki, Dəniz bəy hələ Avropa şəhərlərindən birində olarkən ispan kralının şaha göndərdiyi məktubun möhürünü açmış və məktubun məzmunu ilə kənar adamları tanış etmişdi. Şahın qeyd etdiyinə görə, bu əməl şahlara qarşı çox böyük bir xəyanət idi. Şah Abbas sonra əlavə edirdi ki, hər bir elçi gərək məmləkətini öz milli geyimində təmsil etsin. Kənardan görənlər də bilsinlər ki, bu adam hansı məmləkəti təmsil edir. Dəniz bəy isə İspaniyada olarkən ispan mələkəsinin dünyasını dəyişməsi münasibətilə öz milli geyimini dəyişib yerli geyimə bürünmüşdü. Bununla Dəniz bəy hansı məmləkətdən olmasının fərqinə varmamışdı. Onun sözlərinə görə, bu zaman Dəniz bəyin bir günahı da onda idi ki, əyninə geydiyi yas libasını dəyişərkən ispan sarayından ona hədiyyə (xələt) veriləcəyi ümidində idi. Yəni Dəniz bəy xırda şəxsi maraq üçün məmləkətin adına xələl gətirmişdi. Şah Abbasın sözlərinə görə, istənilən halda Dəniz bəy yas libası geyinməli deyildi. Hətta ispan sarayında ona təklif ediləcəyi halda bildirməli idi ki, o, yalnız Səfəvi şahının dünyasını dəyişəcəyi halda yas libası geyinə bilər. Bundan başqa Dəniz bəy ona tapşırılan elçilik vəzifəsini də lazımınca icra edə bilməmişdi. Şah Abbas tərəfindən Roma papasına yazılmış məktubu ünvanına çatdırmaq üçün başqa birisinə həvalə etmişdi. Belə ki, Dəniz bəy şah məktubunu müəyyən maliyyə vəsaitinin qarşılığında bir tacirə vermişdi ki, o özünü Dəniz bəy adlandıraraq şah məktubunu papaya təqdim etsin. Şah Abbas bu əməli də səltənətə xəyanət kimi qiymətləndirirdi. Şah Abbasa görə, elçi Romaya gedə bilməyəcəyi halda məktubu geri qaytarmalı və məsələ haqqında şaha ərz etməli idi. O isə pul qazanmaq xatirinə şah məktubunu kənar bir adama etibar etmişdi. Dəniz bəy yarıtmaz rəftara malik olmaqda da günahlandırılırdı. Belə ki, onun elçilik heyətinə daxil olan bir neçəsi Dəniz bəyin yarıtmaz davranışına etiraz əlaməti olaraq xristian dinini qəbul etmiş və geri qayıtmaqdan imtina etmişdi. Heyət üzvlərinin

öz dinini ataraq xristian dinini qəbul etməsinin günahını da Şah Abbas Dəniz bəydə görürdü. Ona görə də şah heç sorğu-sual etmədən Dəniz bəyin qətlinə fərman verdi (306).

Ehtimala görə, Dəniz bəyin rəhbərlik etdiyi elçilik heyətinin üzvlərindən birinə xüsusi tapşırıq verilmişdi ki, elçinin fəaliyyətini və rəftarını izləsin və bu barədə vaxtında Şah Abbasa xəbər çatdırsın. Çünki Şah Abbas elçilik heyətinin geri dönməsindən əvvəl artıq Dəniz bəyin əməlləri barəsində məlumatlı idi. Dəniz bəyin adına yazılan günahlardan biri də satış üçün Avropaya göndərilmiş ipəyin ispan kralına hədiyyə edilməsi və onun dəyərinin alınmaması idi. Deyilənə görə, ispan kralının şah təkliflərinə biganə münasibətinə görə, Şah Abbas ona ipəyin hədiyyə edilməsinə də tərəfdar deyildi. Bir məlumata görə isə Dəniz bəy ona tapşırılmış olan əşyaların bir hissəsini satmış və onun pulunu özü mənimsəmişdi (307).

Avropalı müəlliflərin yazdığına görə, Şah Abbas ispan elçisi A. de Quveanı qəbul edərkən hədiyyə olaraq ispan sarayına göndərdiyi ipəyin qarşılığı olaraq hansı hədiyyəni gətirməsi ilə maraqlandı. A. de Quvea da ispan kralının ona ədviyyələr göndərdiyini bildirdi. Guya Şah Abbas bundan da narazı qaldı və dedi ki, ispan elçisinin gətirdiyi hədiyyə onun göndərdiyi hədiyyəyə bərabər hədiyyə deyil (308).

Şah Abbasın qəzəblənməsindən A.de Quvea da ciddi təşvişə düşdü. Onun üçün aydın oldu ki, Şah Abbasla münasibətləri yoluna salmaq onun üçün artıq çətin olacaqdır. Ona görə də A. de Quvea gizli şəkildə İsfahanı tərk edib Şiraza qaçdı. İspan elçisi istəyirdi ki, gizli şəkildə portuqalların nəzarəti altında olan Hörmüzə yetişsin və orada təhlükəsiz bir həyat sürsün. Şirazda olarkən ispan elçisi Fars hakimi Allahverdi xanın əmrinə əsasən həbs olundu. Amma bir müddət sonra o, həbsdən azad oldu və Hörmüzə qaçdı. Bununla da Antoniyo de Quveanın Səfəvi dövlətinə elçiliyi başa çatdı.

İtaliyalı səyyah Pyetro Delavallenin xatirələrində Antoniyo de Quveanın Səfəvi dövlətinə elçilik missiyası haqqında maraqlı

qeydləri qalmaqdadır. O, Səfəvi sarayında olarkən təsvir etdiyi hadisələrin, o cümlədən də A.de Quvea ilə bağlı söhbətlərin şahidi olmuşdu və ona görə onun qeydləri də məsələnin başa düşülməsi baxımından əhəmiyyətli ola bilər. O yazırdı: "Məsih xəlifəsi Antoniyo ata İran sarayında ispan elçisi idi. İranla İspaniya arasında danışıqların aparılması məqsədilə o, bir neçə dəfə gedib-gəlmişdi. Lakin nəhayətdə İranda elçi olduğu vaxt şahla onun arasında olan fövqəladə çətinliklərdən və müşküllərdən sonra o bu ölkədən qaçdı və xeyli adamı da özü ilə apardı. Bu hadisə şahı xeyli qəzəbləndirdi. Şahın belə qəzəblənməsi və əsəbiləşməsi onun danışdığı vaxt özünü göstərirdi. Şah bu adamı yalançı, riyakar və şeytan adlandırdı. Mən onun sözlərini yaxşı anlayım deyə sağ əlinin şəhadət barmağını üzü aşağı istiqamətləndirirdi. Bununla o, bir daha nişan verirdi ki, xəlifə alçaq adam idi. Bu vaxt mən müdaxilə etmədim. Çünki mən xəlifəni tanımırdım və onların arasındakı söhbətdən də xəbərim yox idi. Ancaq mən bilirdim ki, bütün avropalıların yalan danışdığına şah əmin idi. Bununla bağlı o, çox həssaslıq göstərirdi. Doğrudan da, bu camaat keçmişdə ona çoxlu yalanlar satmışdılar. Təəssüf ki, bu səltənətə gələnlər bir qayda olaraq yalnız öz xeyirləri barəsində düşünürdülər. Bu məqsədlərinə çatmaq üçün isə onlar yalan danışmaqdan çəkinmirdilər. Onlar hətta öz padşahlarına da yalanlar danışırdılar. Hətta elə yalanlar uydururdular ki, həqiqətdən çox uzaq idi. Ona görə sual edilməlidir ki, bu xristian xəlifəsi və ya ispan səfiri saf və doğruçu adamlardan sayıla bilərmi? Əgər xristian padşahlarından biri məndən soruşsaydı, şübhəsiz ki, cavab verərdim ki, onun kimi möhtərəm adam belə ola bilməz. Qanun-qaydaları qərbdən tamamilə fərqlənən bir islam ölkəsində belə əməllər yoxdur" (309).

İtaliyalı səyyahı Pyetro Delavallenin xatirələrində daha sonra Şah Abbasın İspaniya kralı və onun siyasəti haqqında mülahizələri də yer almışdır. Belə bir qənaət yaranır ki, Şah Abbasın Antoniyo de Quvea haqqında olan təsəvvürləri ispan kralı haqqındakı təsəvvürlərini tamamlayırdı. İtaliyalı səyyah yazırdı: "Şah sonra ispan şahı haqqında danışmağa başladı və soruşdu ki, nə üçün o,

türklərlə müharibə aparmır? Cavab verdim ki, o, bacardığını edir. İspaniya donanması dənizlərdə cövlan edir və hər il xeyli sayda türk gəmilərini qənimət götürürlər. Quruda da ispanlar türk qalalarını viran edirlər, əsgərlərini əsir götürürlər. Amma türklərin bizim ölkələrimizə qarşı belə əməllər etmək qüdrəti yoxdur. Çoxlarının qorxusuna səbəb olmuş türk qüvvələrinin bizim ölkələrimizə hücum etmək qüdrəti çatmır. Ona görə də istər dənizdə, istərsə də quruda ispanlardan bundan artığını gözləməyə dəyməz. Şah dedi ki, bu, çox azdır və çox zəif təsiri vardır. Gərək Kipr adası onların əlindən alınsın, müqəddəs ərazilər nəzarətlərindən çıxarılsın. Əgər o, ispan padşahının yerinə olsaydı ya ölümü qəbul edərdi, ya da beytül-müqəddəsi azad edərdi. Cavab verdim ki, dənizləri aşmaq elə də asan bir iş deyil. Bu işin indiki dəniz vasitələri ilə həyata keçirilməsi uzun vaxt aparır və bu işdə xaricdən kömək alınması ümidi də çox zəifdir. Bundan əlavə, İspaniya ölkəsinin də qərb ölkələri arasında çoxlu düşmənləri vardır. Həmin düşmənlərlə onun qədim və böyük bir ixtilafı vardır. İspan padşahı qüdrətli bir adam olsa da, onun nəzarəti altında olan ölkələr arasında birlik yoxdur. Belə dağınıq bir vəziyyətdə o, düşmənləri tərəfindən də əhatə olunmuşdur. Ona görə də ətrafındakı ölkələri nəzərə almadan öz qüvvələrini xaricə göndərə və uzaq ölkələrə istiqamətləndirə bilməz. Bundan başqa, bizim ölkəmizlə şərq ölkələri arasında fərqlər vardır. Bu ölkələrdə hər şey şaha məxsusdur və hər şey onun mülkiyyətindədir. Hamı da onun əsgəridir və şah hara istəsə ora da gedərlər. Dedim ki, bizim ölkədə ərazilərin bir hissəsi padşaha aid olsa da, çox hissəsi onun təbəələrinə məxsusdur. Bu torpaqları padşahdan almayıblar və ona görə məcbur deyildirlər ki, müharibəyə yollansınlar. Yalnız yaxşı məvacib verildiyi halda, ya da könüllü şəkildə onlar müharibələrdə iştirak edirlər. Belə adamların da sayı çox deyil. Ona görə də qərb dövlətlərinin padşahları üçün heç də asan deyil ki, dənizləri aşaraq həyata keçirilən yürüşlər üçün çox adam toplaya bilsinlər. Digər tərəfdən də çoxlu adamın göndərilməsi üçün çoxlu da gəmiyə ehtiyac vardır. Təəssüf ki, bir sıra çətinliklər üzündən onlar mövcud deyil. Nə-

zərə alınsa ki, türklərin böyük qüvvələri var, onda gərək biz də bu qüvvələrə qarşı çoxlu adam toplayaq. Onların hamısının gəmilərə yerləşdirilməsi isə mümkün deyil. Bu sözlər şahın xoşuna gəldi və adəti üzrə bu sözləri ətrafındakılara tərcümə etdi. Sonra soruşdu ki, ispan padşahının yaxın düşmənləri kimdir? Mən cavab verməzdən əvvəl özü əlavə etdi: Lüter tərəfdarları belələrindəndir. Dedim ki, bəli. İspaniya və Flandriya dəniz tərəfdən və qurudan müxtəlif millətlərin etibar edilməsi mümkün olmayan lüterlər ilə qonşudurlar. İspaniya Afrika murlarına da çox yaxındır. İtaliya da türklərə və murlara xeyli yaxındır" (310).

Bu söhbətdən göründüyü kimi, Şah Abbas İspaniya ilə münasibətlərin qurulmasına böyük ümidlər bağlayırmış. Amma İspaniya da öz maraqlarını aşaraq Səfəvi dövlətini dəstəkləmək yolunu tutmadı. Siyasi əlaqələrin gözlənilən nəticəni verməməsi bu iki dövlət arasında münasibətlərin mürəkkəbləşməsinə də yol açdı. Xüsusilə, cənub sahillərində Portuqaliyanın nəzarəti altında olan Qəmbərun (Bəndər Abbas) limanının azad edilməsi və Portuqaliyanın bu ərazilərdəki maraqlarına zərbə endirilməsi iki dövlət arasında gərginliyin artmasına yol açdı. Günü-gündən möhkəmlənməkdə olan Şah Abbas tədricən cənub sularına nəzarəti də öz əlinə almağa başladı. 1614-15-ci illərdən etibarən ingilis ticarəti də cənub sahillərinə yol almağa başladı. İngilislərin Hind okeanı hövzəsində ticarət fəaliyyətini genişləndirməsinə başlaması Şah Abbasın icazəsi ilə baş verirdi. Bununla Şah Abbas bir tərəfdən İngiltərə ilə münasibətləri genişləndirməyə çalışır, digər tərəfdən də ingilislərin vasitəsilə portuqalların Hind okeanındakı monopoliyasını məhdudlaşdırırdı.

Bunlara baxmayaraq, Səfəvi dövləti ilə İspaniya arasında diplomatik münasibətlər də qalmaqda idi. Görünür, hər iki tərəf diplomatik münasibətlərin saxlanılması ilə öz maraqlarını həll edəcəklərinə ümid bağlayırdılar. 1615-ci ilin iyun ayında elçi kimi Avropaya göndərilmiş Robert Şerli də İsfahana yetişdi. O, həm ingilis, həm də ispan kralından Şah Abbasa məktub gətirdi. Robert Şerli dəniz yolu ilə geri dönərkən yolunu Hindistandan salmışdı.

O, Əgərədə hind padşahı Cahangir şahın qəbulunda olmuş və İsfahana geri dönərkən Cahangir şahın hədiyyələrini də Şah Abbasa çatdırmağı öz üzərinə götürmüşdü. R.Şerli eyni zamanda Avropa hakimlərindən də Şah Abbasa çoxlu hədiyyə gətirmişdi (311).

R.Şerlinin ispan kralından gətirdiyi məktubda bir daha Şah Abbasa vəd edilirdi ki, tezliklə Roma papasının köməyi ilə digər qərb dövlətləri ilə birlikdə Osmanlı dövlətinə qarşı müharibəyə başlayacaqdır. Bildirilirdi ki, İspaniyanın hərbi gəmiləri Hind okeanı hövzəsinə göndərilməklə Osmanlı Türkiyəsinə qarşı mübarizə aparılacaqdır. İspaniya ilə davam etdirilən diplomatik münasibətlər gözlənilən əməli nəticəni verməsə də, Şah Abbasa görə yalnız bu dövlətin hərbi donanmasının cəlb edilməsi ilə Osmanlı dövlətinin gücünü zəiflətmək olardı. Ona görə də Şah Abbas İspaniya ilə əlaqələrin davam etdirilməsində israrlı idi. Robert Şerlinin İspaniya kralından gətirdiyi məktubda konkret əməl ilə bağlı söz açılmasa da, Şah Abbas yenidən bu ölkəyə elçi göndərmək qərarına gəldi. Ancaq bu dəfə elçi seçiminə Şah Abbas ehtiyatla yanaşmalı oldu. Çünki istər Hüseynəli bəyin elçiliyi, istərsə də Dəniz bəyin elçiliyi Şah Abbasda daxili bir narazılığa yol açmışdı. Belə ki, həmin elçilik heyətlərinin etimadı tamamilə doğrultmaması, bu elçilik heyətlərinin bir neçə üzvünün də islam dinini tərk edərək xristianlığı qəbul etməsi Şah Abbasda müəyyən nigarançılıq yaratmışdı. Ona görə də Şah Abbas Avropaya göndəriləcək növbəti elçilik heyətinə rəhbərliyi yenidən Robert Şerliyə həvalə etməyi qərarlaşdırdı. Onun Avropaya ilk elçiliyi də əslində, gözlənilən nəticələri verməmişdi. Bununla belə, Şah Abbasa bəlli idi ki, R.Şerli Avropada Almaniya imperatoru və Roma papası tərəfindən çox yüksək səviyyədə qarşılanmışdı. R. Şerlinin İngiltərədə də səmərəli danışıqlar apara biləcəyi ehtimal edilirdi. Bu danışıqlar zamanı İngiltərənin Səfəvi dövləti ilə ticarətin genişləndirilməsinə marağı artırmaqla bərabər, bu dövlətin hərbi gəmilərinin Hind okeanı hövzəsinə cəlb edilməsi ilə Portuqaliyanın bu bölgədəki monopoliyasını da məhdudlaşdırmaq, sonra da Hörmüzü portuqalların nəzarəti altından çıxarmaq mümkün ola bilərdi (312).

Robert Şerli növbəti dəfə elçi kimi Avropaya yollanmağa razı oldu. Şah Abbasın tapşırığı əsasında Səfəvi dövləti ərazisindəki Karmelit keşişlərindən olan Pyer Redemeto de la Kruz da R.Şerli ilə birlikdə yola düşdü. Elçilik heyətinin başlıca vəzifəsi ispan kralı ilə görüşmək, Şah Abbasın məktubunu və qiymətli hədiyyələrini ona çatdırmaq və ispan kralını nəhayət ki, Osmanlı dövlətinə qarşı hərbi ittifaqa girməsinə sövq etmək idi. Bu heyət 1615-ci ilin oktyabr ayında dəniz yolu ilə İspaniyaya yola düşdü. R.Şerli Hörmüzdən gəmi ilə Hindistanın Qova limanına gəldi və burada təxminən on ay İspaniyaya yollanacaq gəmini gözləməli oldu. R.Şerliyə tapşırılmışdı ki, Hörmüzdə və Qovada olarkən oradakı portuqal mənsubları ilə də müzakirələr aparsın. Cənub sahillərində bir sıra mövqeləri itirəndən sonra bölgədəki portuqallar Səfəvi tacirlərinin fəaliyyəti üçün müəyyən çətinliklər yaratmağa başlamışdılar. Şah Abbas maraqlı idi ki, bu çətinliklər aradan qalxsın və Səfəvi ticarətinin genişlənməsi üçün daha münasib şərait əldə edilsin. Hörmüzdə apardığı danışıqlar zamanı R.Şerli oradakı portuqal mənsubları ilə bəzi razılığa gələ bildi. Həmin razılaşmaya əsasən, ən azı R.Şerlinin ispan sarayına elçiliyi başa çatana və ispan sarayı ilə aparılan danışıqların nəticələri bəlli olana qədər Hörmüzdə Səfəvi tacirlərinə çətinliklər yaradılmalı deyildi. Qovada aparılan danışıqlar zamanı isə portuqallar sərt mövqe ortaya qoydular və tələb etdilər ki, Səfəvi dövləti cənub sahillərində ələ keçirdiyi bütün mövqeləri, o cümlədən Bəhreyni, Qəmbərunu və digər məntəqələri geri qaytarsın (313).

Qeyd edilməlidir ki, ispan sarayı da Səfəvi dövləti ilə münasibətlərin saxlanmasına tərəfdar idi. Şah Abbasın hakimiyyəti illərində mübadilə edilən elçiliklərin səfərləri hər iki tərəf üçün gözlənilən nəticəni verməsə də, mövcud imkanların itirilməməsi hər iki tərəfin marağında idi. Dəniz bəyin və Antonio de Quveanın geri yola salınmasından sonra ispan sarayı da Səfəvi sarayına yeni bir elçilik heyətinin göndərilməsi qərarına gəldi. Şah qoşunları tərəfindən cənub sahillərində bir sıra limanları və qalaların ələ keçirilməsi ilə ispan sarayı barışmırdı. Əvvəlki mövqelərin geri qayta-

rılması üçün ispan sarayı diplomatik danışıqların gücləndirilməsini məqsədəuyğun saydı. Ona görə də qərara alındı ki, ispan sarayının tanınmış əyanlarından biri olan Qarsiya de Silva Fiquera elçi kimi Səfəvi dövlətinə göndərilsin. Qarsia Fiqueranın rəhbərlik etdiyi elçilik heyəti 1614-cü ildə İspaniyadan yola düşdü. R.Şerlinin elçilik heyəti Qova limanında olanda bu elçilik heyətləri orada görüşə bildilər (314).

Mənbə məlumatlarından göründüyü kimi, həm R. Şerlinin, həm də Fiqueranın yolçuluğu çox uzun sürdü. R. Şerli İsfahandan yola düşəndən iki il sonra, 1617-ci ilin oktyabrında nəhayət ki, Lissabona yetişə bildi. Fiquera isə təxminən iki il Qova limanında qaldıqdan sonra 1617-ci ilin əvvəllərində İsfahana yetişdi. İspan elçisinin yolçuluğunun uzun sürməsi Hindistanın Qova limanındakı portuqal mənsublarının ispan sarayının izlədiyi siyasətə olan narazılıqları ilə bağlı idi. Bu limandakı portuqallar ispan elçisinin Səfəvi sarayına yollanmasını istəmirdilər. Ona görə idi ki, ispan elçisi təxminən üç il Qova limanında gözləməli oldu. Üç ildən sonra o, nəhayət ki, kiçik bir gəmi ilə Qovadın çıxıb Hörmüzə tərəf üz tutdu. Hörmüzə hakimlik edən portuqallar da onun Səfəvi sarayına yollanmasından heç də məmnun olmadılar. Fiquera bir müddət Hörmüzdə qalandan sonra Lar yolu ilə Şiraza gələ bildi. Burada olarkən o, gəlişi barəsində Şah Abbasa xəbər göndərdi və təyin olunacaq məkana doğru irəliləmək üçün ondan icazə istədi. Şirazda da o, şahın icazəsini dörd ay gözləməli oldu. Bu zaman Şah Abbas Mazandaranda idi və o, dörd aydan sonra Fiqueraya İsfahana gəlməsi üçün icazə verdi. İsfahandan isə Fiquera Qəzvinə yollanmalı oldu.

Fiqueranın elçiliyi ilə bağlı səfər xatirələri qalmaqdadır. Bu səfər xatirələri onun rəhbərlik etdiyi elçilik heyətinin üzvlərindən biri tərəfindən yazılmışdır. Həmin xatirələrdən də görmək mümkündür ki, Fiquera Qovada olduğu zaman həm Hindistanın portuqal hakimi, həm Qovadakı rəhbər keşişlə dəfələrlə görüşmüş və Səfəvi dövlətinə səfərini davam etdirmək üçün onlardan əməli kömək almağa çalışmışdı (315).

İspan elçisinin Qəzvinə yetişməsi 1618-ci il iyun ayının 15-nə təsadüf edirdi. Onun Qəzvinə yetişməsi, saray əyanları tərəfindən qarşılanması, Şah Abbas tərəfindən qəbul edilməsi haqqında Pyetro Delavallenin xatirələrində geniş məlumat mövcuddur. İtaliyalı səyyah özü də həmin günlərdə Qəzvində idi. O, ispan elçisi ilə şəxsən görüşmüş, həm də onun qarşılanmaşının və Qəzvində keçirdiyi günlərin şahidi olmuşdu. İtaliyalı səyyah yazırdı: "Sonrakı gün iyunun 14-ü, pəncşənbə günü idi. Məlumat aldım ki, ispan elçisi Hindistan və Hörmüz yolu ilı İrana gəlmişdi və uzun müddət idi ki, hamı onun intizarında idi. O, Qəzvin yaxınlığındakı kəndlərdən birində dayanmışdı və icazə gözləyirdi ki, şəhərə daxil ola bilsin. Onun üçün artıq hətta ev də hazırlanmışdı. Bir katolik padşahın nümayəndəsi kimi o, mənim üçün də əziz idi. Ona görə öz tərcüməçimi onun yanına göndərdim və onunla görüşmək arzusunda olduğumu çatdırdım. Sonrakı gün bu elçinin şəhərə daxil olmasına icazə verlmişdi. Mən hamıdan əvvəl, hələ şəhər kənarında olarkən onunla görüşməyə getdim. Ona xoş gəlmisən dedim, hətta İrandakı qaydaların əksinə olaraq, ehtiram əlaməti kimi atdan yerə düşmək istədim. Bir qədər sonra onun mehmandarı Hüseynəli bəy və Şeyxəli bəy adlanan və evində elçiyə yer verilən Qəzvin darğası, şirazlı İmamqulu xanın qardaşı Davud xan, saray əyanlarının və mənsublarının bəzi digər üzvləri şahım əmrinə əsasən ipək və qumaş libaslar geyinərək, başlarına lələklər taxılmış bəzəkli əmmamələr qoyub qızıl və gümüş təchizata malik atlarda gəlib yetişdilər. Davud xan elçiyə dedi ki, bütün bu insanlar şahın qulamlarıdır və istəyirlər ki, elçinin diqqətini şahın əzəmətinin böyüklüyünə yönəltsinlər. Siz də biləsiniz ki, əgər onun qulamları belədirsə, onda onların ağası necədir. Mən və o, yan-yana elçini şəhərə qədər müşayiət etdik. Elçinin ispan libası geymiş tərcüməçisi də bizimlə birlikdə at sürürdü. Darğa və mehmandar isə bizdən bir qədər qarşıda hərəkət edirdi. Elçi şəhərə qədər Davud xanla davamlı söhbət etdi. Belə bir güman hiss olunurdu ki, onların əvvəldən tanışlıqları var idi və atası Allahverdi xan haqqında elçi yüksək mətləblərə toxunurdu və təəssüf etdiyini də bildirirdi ki,

belə ali sifətlərə malik olan bir insan artıq dünyasını dəyişmişdir və ona görə onunla artıq görüşmək imkanı da yox idi. Mənim nəzərimcə, elçi qəribə söhbətlər edirdi. Çünki Allahverdi xan doğrudan da böyük adam olsa da, məhz o, ali mirvarilərin əldə edildiyi Bəhreyn adasını portuqalların nəzarəti altında olan Hörmüz hakiminin əlindən almışdı. Onun oğlu İmamqulu xan isə iki yüz dəniz mili boyunca sahəni nəzarət altında saxlaya bilən Bəndər qalasını portuqalların əlindən almışdı. Təəccüblü hal idi ki, indi ispan elçisi şikayət yerinə Səfəvi şahına hədiyyələr gətirmişdi.

Bəsdir, Allah nə istəsə o da olacaqdır. Mən bu barədə heç nə demək istəmirəm. Yalnız onu demək istəyirəm ki, İtaliyada və Avropada özlərini xeyli qürurlu göstərən bu ispan ağalar həmin qüruru qorumaq üçün xristianlarla və hətta öz soydaşları ilə də müharibə aparırlar. Yaxşı olardı ki, onlar Asiyada da belə hərəkətlər edəydilər, öz yumruqlarını və dişlərini onlara göstərəydilər. Daha özləri-özləri ilə vuruşmayaydılar. ...Meydanda şahı gözlədiyimiz zaman doğrudan da gülməli və təsirli bir səhnə yarandı. Elçi yanındakılarla birlikdə bir tərəfdə dayandı. Ona qarşı qəzəbli olan xristian ruhanilər isə onunla bir sırada dayanmaq istəmirdilər. Onlar İtaliyadan olan bizimkilərlə və papanın adamları ilə başqa bir yerdə dayanmışdılar. İngilislər, almanlar, bəzi isveçlilər, alman təmsilçisi Albert fon Şilinq və isveç təmsilçisi Beng Bengston Oksentyerna digər tərəfdə sıraya dayanmışdıq. Bir dəstə divanəyə oxşayan bizim bu vəziyyətimiz iranlıların diqqətindən heç də qaçmadı və onlar bizə gülürdülər. Amma əslində, qərib və kafirlərə məxsus olan bir yerdə gərək hər şey başqa cür olaydı. Məsələn, Konstantinopolda aralarında dərin ixtilaflar olmasına baxmayaraq yalnız katoliklər deyil, bəlkə bütün məzhəblərdən olan xristianlar Osmanlı sarayında hər zaman özlərinin birliyini nümayiş etdirirlər. ...İranda isə təəssüf ki, belə deyil və Don Qarsiyanın hərəkətlərinə görə biz hamımız bir-birimizdən aralı və bir-birimizə yad olmuşuq. Ona görə də o yalnız onun padşahının ona tapşırdığı işlərdə uğur qazana bilməyəcək, eyni zamanda dəfələrlə nümayiş etdirdiyi kimi, heç İranda xristian maraqlarını qorumağa da meyli

yoxdur. ...İyunun 17-də yekşənbə günü şah qəsrindən bir küçə ilə ayrılan və Cənnət bağı adlanan bağda şah ispan elçisinə qəbul olunmaq şərəfi bağışladı. Onu ilk dəfə qəbul etdiyindən çox yaxşı bir qonaqlıq təşkil olundu. Bu qəbul zamanı elçinin hədiyyələri və digər hədiyyələr də nümayişə qoyulmalı idi. Bu qonaqlığa müxtəlif adamlar dəvət olunmuşdular. Məclisdə müxtəlif millətlərdən öz geyimlərində olan və fərqli dillərdə danışan yüzdən artıq müxtəlif adamlar dəvət olunmuşdular. Məni də burada iştirak etməyə dəvət etmişdilər. Bu ziyafət şam ziyafəti idi və aşağıdakı kimi təşkil olunmuşdu: o günün sabahı ispan elçisinə xəbər vermişdilər ki, şah tərəfindən qəbul olunacaq. Ona görə o da bu qəbula hazırlaşdı və əyninə xüsusi bir libas geydi. Elçi ispan padşahının hədiyyələrini də həmin gün təqdim etmək istədiyindən şəhər cavanları arasından beş yüz nəfər seçib bəzəndirdilər və onun yanına göndərdilər. Bu adamların sayı ona görə çox idi ki, İran qaydalarına görə hər bir hədiyyə əgər kiçik olsa belə gərək bir nəfər tərəfindən daşınsın. Bununla uzun bir sıra yaranmalı və nümayiş də təntənəli bir görkəm almalı idi. İspan elçisi Qəzvinə gətirdiyi hədiyyələr bütünlükdə təxminən yüz min ispan ekosu dəyərinə malik idi. Bundan başqa o, Hindistandan üç yüz dəvə yükü istiotu da hədiyyə olaraq gətirmiş və İsfahanda şah adamlarına vermişdi" (316).

İspan elçisi Qarsia de Fiqueranın xatirələrində də onun Şah Abbas tərəfindən qəbul edilməsi barəsində maraqlı qeydlər qalmaqdadır. Həmin xatirələrdə deyilirdi: "Ayın 14-də gün hələ yuxarı qalxmamışdı ki, elçi bir dəstə xidmətçisi ilə şəhərə yola düşdü. Digərlərini isə İspaniyadan şah üçün gətirdiyi hədiyyələri və çemodanları aparmaq üçün əvvəlcədən vəzifələndirmişdi. Bu yolçuluq zamanı onu müşayiət edənlər çox yaxşı bəzənmişdilər, əyinlərinə çox qiymətli paltarlar geymiş və papaqlarına lələklər taxmışdılar. Elçi özü isə əyninə çox bahalı, səliqəli və müxtəlif rənglərdə, yaşına və sinninə uyğun paltar geymişdi. Şəhərə bir fərsəngin dörddə biri qədər məsafə qalanda bir dəstə yaraşıqlı və çox qıvraq silahlı adamlarla qarşılaşdıq. Onlara Allaverdi xanın oğlu və Şiraz hakimi İmamqulu xanın qardaşı Davud xan rəhbərlik

edirdi. Davud xan şahın göstərişinə əsasən, bir neçə yüksək məqamlı adamlarla birlikdə elçinin qarşılanmasına gəlmişdi və elçi ilə görüşdükdən sonra onu iqamətgaha qədər müşayiət etməli idi. Elçi atlılara yaxınlaşanda şəhər hakimi, şahın xüsusi ehtiramına malik, səltənətin büyütat rəisi və elçinin qarşılanmasına və yerləşdirilməsinə məsul olan Hüseyn bəy digər atlılardan ayrıldılar və bizə yaxınlaşdılar Xoş sözlər səsləndirdikdən, elçinin xidmətində dayanmağa hazır olduqlarını dedikdən sonra Davud xan da irəli gəldi və elçinin sol tərəfindən qərar tutdu. Digər atlılar isə onlardan bir qədər irəlidə hərəkətə başladılar. Biz şəhərə tərəf yolumuzu davam etdirdik" (317).

İspan elçisi öz xatirələrində onları qarşılamağa gələnlərdən yazarkən bu adamların son dərəcə bahalı və yaraşıqlı paltar geydiklərini, bellərindən asdıqları qılınc və xəncərlərin tutacaqlarının qızıl və gümüşdən hazırlandıqlarını qeyd edirdi. Təxminən 200 nəfərə yaxın yaxşı geyinmiş və silahlanmış atlı elçilik heyətinin qarşılayaraq şəhərə qədər müşayiət edilməsinə göndərilmişdi. Elçilik heyəti onların qarşılanmasına göstərilən bu diqqəti məmnunluqla qəbul edirdi. Göstərilən diqqəti elçilik heyəti həm də onlara şah tərəfindən göstərilən hörmət və ehtiramın nişanəsi kimi qəbul edirdilər.

"Öz vəzifəsinin icrası üçün yaxşı ədəbə və xasiyyətə malik olan elçi çox yorulmuşdu. Ona görə də şəhərə daxil olunan gün elçi göstəriş verdi ki, bütün bağlamaları və yükləri açsınlar. İspaniyadan gətirilmiş əşyalar açılaraq sıra ilə yığıldı, havanın, suyun və yolçuluğun gedişində mümkün ola biləcək zədələrinin təsiri ilə əşyaların zərər görməməsinə görə elçi də xatircəm oldu. Bu görüş zamanı təşrifat (protokol) vəzifəsi tapşırılmış səltənətin büyütat rəisi elçinin yanına gəldi. Dedi ki, şah qarşıdakı yekşənbə günü, yəni iki gündən sonra elçisini qəbul etmək fikrindədir. O bildirdi ki, sandıqlardan çıxarılan hədiyyələrə şəxsən baxış keçirmək üçün yenidən gələcəkdir. Bu adam sabahı gün tezdən yenə də gəldi. Elçinin xidmətçiləri gətirilən hədiyyələrin hər biri ilə bağlı ona məlumat verdilər. Elçi istəyirdi ki, yüklərin aparılmasında qarışıq-

lığa yol verməmək üçün mehmandan bütün hədiyyələri ondan qəbul etsin və özü şahın hüzuruna aparsın. Amma o bu təklifi qəbul etmədi və dedi ki, qaydalara görə, gərək qəbul günü bu hədiyyələr elçinin qarşısında daşınsın. Ona görə bu gecə də hədiyyələr elçinin yanında qalmalı oldu. Yekşənbə günü mehmandar 600 adamla elçinin yanına gəldi. Onların hər biri ölçüsündən asılı olmayaraq bir hədiyyəni əllərində aparmalı idilər" (318).

İspan elçisinin özü ilə gətirdiyi hədiyyələr bunlardan ibarət idi: bir neçə top qırmızı parça, məxmər toxunuşlu zərif mahud, güllü İtaliya sətini, bir neçə böyük qab, qızıl işləmələri olan teşt və aftafalar, buxarı ləvazimatları və alətləri, gümüş qablar, yaylaqda və ya ov mərasimində işlətmək üçün 60 ədəd qızıl işləməli gümüş qabların toplandığı sandıq, büllurdan olan iki ədəd yüksək keyfiyyətli qab, qızıldan düzəldilmiş əlavə iki ədəd qab, bəndi və həmayili olan 6 ədəd qılınc və bir ədəd xəncər, kənarları rəngli və bəzəkli təsvirlər olan və bu bəzəklərin yaxşı həkk edildiyi kiçik sandıq. Bu sandığın içində 23 ədəd qızıl zəncir var idi. Onlardan ikisi zümrüd, mirvari və digər qiymətli daşlarla bəzədilmişdi. Zümrüd qaşı olan 10 ədəd böyük üzük, 4 dəst yəhər, gümüşlə işlənmiş və rəngarəng bəzədilmiş yəhər təchizatı, çövkan oyunu üçün 6 dəst xüsusi geyim. 50 ədəd zənburək və 50 ədəd istifadəyə hazır olan fitilli tüfəng. Onların qalın lülələri xüsusi olaraq ov üçün nəzərdə tutulmuşdu. Tüfəngin maşaları qızıldan düzəldilmiş, qundaqları isə bəzədilmişdi. Bu silahlar qızılla işlənmiş qablara yerləşdirilmişdi. Bundan başqa bir neçə qısa tüfəng, döyüş tapançası, 25 parça 50 kiloluq polad, müxtəlif alətlərlə dolu sandıq, rəngləmə üçün istifadə olunan 8 bağlama, 50 kiloluq qırmızı dənələrin olduğu beş kiçik bağlama. Onlardan ən yaxşı rəngi almaq olurdu. Ona görə idi ki, bu hədiyyə digər hədiyyələrdən daha çox diqqəti cəlb etdi. Şahın istəyinə əsasən elçi də öz şəxsi hədiyyələrini təqdim etməli idi. O da yuxarıdakı hədiyyələrə iki tablonu əlavə etdi. Onların hər ikisində ispan geyimində və papaqlarında olan iki qadın təsvir edilmişdi. Tablolardan birindəki ispan kralının böyük qızı idi. Digəri isə Fransa mələkəsi idi. Həmçinin qa-

lın darçın ağacından düzəldilən və ucluqları gümüş işləməli dəmirdən düzəldilmiş 12 ədəd Silan istehsalı olan nizə, Silan istehsalı olan 4 ədəd fitilli tüfəng.

Bu hədiyyələr arasında diqqəti daha çox cəlb edən çox güclü və vəhşi bir it də var idi. Belə itlər az təsadüf edilirdi. Elçi onu xüsusi olaraq şaha təqdim etmək üçün özü ilə İspaniyadan gətirmişdi. Bütün bu hədiyyələr küçələrdən keçirərək müəyyən edilmiş məkana aparıldı. Elçi günortadan sonra saat 4-də Qəzvinin hakiminin, mehmandarın, bir neçə yüksək vəzifəli əyanın və bir dəstə döyüşçünün müşayiəti ilə evindən çıxdı. Elçini müşayiət etməyə gələnlərin hamısı bahalı və nəfis paltarlar geyinmişdilər. Onun hərəkət etdiyi küçə boyu xeyli adam toplaşmışdı. Həmin gün xarici elçinin şah tərəfindən qəbul ediləcəyini eşidən şəhər sakinləri küçələrə axışmışdılar. Bu izdihamın arasından keçəndən sonra elçi nəhayət ki, şahın sarayına çatdı. Bildirildi ki, qəbul şah sarayının bağında olacaqdır. Bunun üşün ağaclardan birinin kölgəsində yerə bir neçə xalça da sərilmişdi.

"Şah sarayının qarşısındakı meydan adamlarla, yüksək vəzifəli əyanlarla dolu idi. Onlar nizamlı şəkildə orada dayanmışdılar. Belə ki, yüksək vəzifəli adamlar və elçini müşayiət edənlər onun dayandığı yerdən şah sarayının qapısına qədər iki sırada nizamla düzülmüşdülər. Yarım saat beləcə ötüşdükdən sonra elçi əyninə geyindiyi mərasim libasından və yerdə oturmaqdan yoruldu. Mehmandardan xahiş etdi ki, onun yanına gəlsin. Ona dedi ki, şahın nəzərinə onun vəziyyəti çatdırılsın. O bu gün əlahəzrətin qarşısında parıldamaq və ispanların bir qayda olaraq öz padşahlarının ad günü və ya toy mərasimləri zamanı geydikləri ən yaxşı paltarı şaha nümayiş etdirmək üçün geyinmişdir. Amma bu paltarlar onun üçün narahatçılıq yaradır və çox yorulubdur. Ona görə də şahdan xahiş edilsin ki, əlahəzrət öz inayət və iltifatını göstərsin və ona daha tez qəbul olunmaq şərəfi əta eləsin. Yoxsa, öz iqamətgahıma qayıtmaq məcburiyyətində qalacağam. Mehmandar yaranmış vəziyyətə görə üzr istədi. Amma xəbər göndərmək üçün öz lütfünü əsirgəmədi. Bir azdan sonra o, elçinin yanına gəldi və dedi ki, şah

onu qəbul etməyə hazırdır və şahın hüzuruna gedə bilər. O, bir neçə nüfuzlu əyanın müşayiəti ilə şah sarayına daxil oldu. Bu vaxt divan sahibi olan Ağamir və şah yanında böyük nüfuz qazanmış xacəbaşı Yusif elçinin qarşılamasına çıxdılar, onu sərv və çibar ağaclarının əhatə etdiyi xiyabanla apardılar. Bu yolda elçinin yanında olan adamlar yavaş-yavaş aralandılar. Nəticədə adları çəkilən iki nəfərdən və şəxsi xidmətçilərdən başqa elçinin yanında kimsə qalmadı. ...Elçini müşayiət edən mehmandar və xacəbaşı sarayın təxminən 60 addımlığında öz adamlarını dayandırdılar. Şahı dəfələrlə görən və onu yaxşı tanıyan tərcüməçilərədn biri əlahəzrətə tərəf işarə edərək dedi ki, şah oradadır. Doğurudan da şahın öz sarayından çıxması müşahidə edilməmişdi. O, hovuzun kənarında dayanmışdı. Bu zaman şaha yaxınlaşan elçi papağını başından götürdü və dizini aşağı əyərək sağ əli ilə öz ehtiramını nümayiş etdirdi. Sonra da o həmin əlini dodaqlarına apararaq onu öpdü. Ardınca da həmin əlini şahın əynindəki qəbaya sürtdü və əlini ikinci dəfə öpdü. Bundan sonra o öz padşahının məktubunu çıxardı və onu öpərək əlahəzrətə təqdim etdi. Şah məktubu alandan sonra elçini mehribanlıqla qəbul etdi və dedi ki, sağ-salamat gəlib çıxmağına görə çox şaddır. Daha sonra şah, ispan padşahının hal-əhvalını soruşdu və maraqlandı ki, bu müddət ərzində ondan məktub alıbmı? Elçi də vaxtın azlığını nəzərə alaraq qısa cavablar verdi və şahın işarəsi ilə onun otağına yollandı. Keçiddən və ya körpücükdən keçərək bu otağa daxil olmaq üçün 2-3 pillə yuxarı qalxmaq lazım idi. Elçi otağa daxil olanda orada yaxşı geyinmiş 5-6 gənci gördü. Onların görünüşündən aydın olur ki, məmləkətin böyük adamlarındandırlar" (319).

Fiqueranın xatirələrindən aydın olur ki, daxil olduğu otaqda yerə sərilmiş xalça üzərində oturmalı oldu. Bu qəbulda ondan başqa Osmanlı elçisi də iştirak edirdi. İspan elçisi buna təəccüb etsə də, Osmanlı elçisi ilə eyni vaxtda şah qəbulunda olmasına etiraz edə bilmədi. İspan elçisinin diqqətini cəlb edən o oldu ki, Osmanlı elçisi ondan fərqli olaraq xeyli sadə geyinmişdi və bu da onun daha rahat şəkildə xalça üzərində oturmasına səbəb olurdu. Fique-

ranın sonrakı təsvirlərindən aydın olur ki, onun Osmanlı elçisi ilə bir vaxtda şah tərəfindən qəbuledilməsi heç də təsadüfi deyildi. Şah bununla Osmanlı elçisinə göstərmək istəyirmiş ki, onun İspaniya sarayı ilə çox yaxşı münasibətləri var və bu münasibətlərdən Osmanlı dövləti əleyhinə istifadə oluna bilər. Fiqueranın xatirələrində aydın olur ki, Osmanlı elçisi bir gün əvvəl Qəzvinə yetişmişdi. Lakin Şah Abbas onu dərhal qəbul etməmişdi və onun da qəbulunu ispan elçisinin qəbulu ilə bir günə salmışdı. Amma Osmanlı elçisi Şah Abbasın vəzirləri və saray mənsubları ilə danışıqlar aparmışdı. Şah Abbas bilirdi ki, onun gəlişindən məqsəd Osmanlı dövlətinin əvvəllər işğalı altında olmuş ərazilərin yenidən geri istənilməsi idi. Şah Abbas isə bu tələblə birmənalı şəkildə razı deyildi və ispan elçisini qəbul etdiyi günlərdə belə bir görüntü də yaratmağa çalışırdı ki, Səfəvi dövlətinin Avropadan kömək almaq imkanları da vardır.

"Şah elçinin bağışladığı tüfənglərdən birini əlində tutaraq otağa daxil oldu. Bu tüfəng nə elə böyük idi, nə də elə kiçik. O, döyüş silahı idi və çox sərrast atırdı. Ondan atlılar da at belində istifadə edə bilərdilər. Çünki lüləsinin yuxarısından barıt doldurmaq mümkün idi. Şah bu tüfəngi çox bəyənmişdi. O işarə etdi ki, kimsə yerindən qalxmasın və elçidən soruşdu: ispanlar döyüşlərdə bu tüfəgnlərdən istifadə edirlərmi? Elçi də cavab verdi ki, piyadalar daha çox belə tüfənglərdən və bu kalibrdən istifadə edirlər. Amma atlıların istifadə etdiyi tüfənglər daha yüngül və daha qısadırlar" (320).

Mərasim zamanı Şah Abbas ispan elçisi ilə bərabər, Osmanlı elçisi ilə də söhbət elədi və onun da sözlərini dinlədi. Fiqueranın xatirələrində deyilir ki, şah Osmanlı elçisi ilə çox ciddi söhbətlər etdi, onun əsəbiləşməsinə səbəb oldu. Lakin şah həm də bu elçinin sağlığına badə qaldırdı. Şah Abbas eyni zamanda ispan kralının şərəfinə badə qaldırdı və məclisdə onu öz qardaşı adlandırdı. Bununla belə, Fiquera gəlişinin əsas məqsədi ilə bağlı Şah Abbasla hər hansı bir müzakirə aparması haqqında heç nə yazmamışdır. Bəlli idi ki, o, əgər qızılbaş qüvvələrinin cənub sahillərində nə-

zarət altına aldığı ərazilər haqqında məsələ qaldırmış olsaydı da belə, ona müsbət cavab ala bilməyəcəkdi. Mövcud olan məlumata görə isə, ilk qəbul zamanı ispan elçisi gəlişinin məqsədini Şah Abbasa çatdıra bilməmişdi. Bunun üçün lazım olan fürsət də yaranmamışdı. İkinci görüşləri zamanı da ispan elçisi öz padşahının istəklərini Şah Abbasa çatdıra bilməmişdi. Elçinin Şah Abbasla ikinci görüşü ona Şirvan hakimi Yusif xan tərəfindən hədiyyələr təqdim edəndə olmuşdu. Üçüncü görüşləri zamanı da ispan elçisi məqsədinə nail ola bilmədi. Mövcud olan məlumatlara görə, həmin görüş planlaşdırılmamış bir görüş idi. Belə ki, ispan elçisi öz iqamətgahını tərk edərək hara isə gedirmiş. Bu vaxt o, şəhər küçələrində Şah Abbasla qarşılaşır. Şah Abbas da onu yanına alıb özü ilə aparır. Saray kənarındakı bir bağda onlar bir məclis qururlar. Şah eyni zamanda Karmelit keşişlərinin təmsilçilərini bu məclisə dəvət edir. Məclisdə dini mövzular üzrə söhbətlər və müzakirələr aparıldı və bu dəfə ispan elçisi gəlişinin əsas məqsədi haqqında Şah Abbasa məlumat vermək fürsəti tapmadı. O da güman edilir ki, məclisdə Karmelit keşişləri iştirak etdiyi üçün ispan elçisi gəlişinin məqsədi barəsində Şah Abbasa məlumat vermədi (321). Görünür, heç Şah Abbas da onun gəlişinin məqsədi barəsində soruşmağı lazım bilməmişdi.

Bir müddət sonra bəlli oldu ki, Şah Abbas Sultaniyyəyə getməlidir. O hətta istəyirdi ki, ispan elçisini də özü ilə Sultaniyyəyə aparsın. İspan elçisi isə bu səfəri qəbul etmək istəmirdi. Ancaq çalışırdı ki, Şah Abbas Qəzvini tərk etməzdən əvvəl onunla bir də görüşə bilsin və nəhayət ki, gəlişinin məqsədini ona çatdırsın. Pyetro Delavallenin yazdığına görə, ispan elçisi bir neçə dəfə öz mehmandarından xahiş etdi ki, bununla bağlı Şah Abbasın yanında məsələ qaldırılsın. O, hətta Karmelit keşişlərindən də xahiş etdi ki, onların təmsilçiləri Şah Abbasın qəbulunda olsun və ispan elçisinin qəbul edilməsi haqqında onun razılığı alınsın. Karmelit keşişi ispan elçisinin bu xahişini Şah Abbasa çatdırdı və şah da bu xahişi qəbul etdi. İyul ayının 19-da Şah Abbas belə bir görüşün baş tutmasına icazə verdi. Bundan sonra ispan elçisi saray qar-

şısındakı meydana dəvət edildi. Şah Abbas at belində meydana gəldi və elçiyə dedi ki, o da atlansın və o da şahla yanaşı at sürsün. Onların söhbətlərinin baş tutması üçün tərcüməçi də atlandı və aramla meydan boyu dövrə vurmağa başladılar. Bu gəzinti zamanı ispan elçisi dövlətinin padşahı adından Bəhreynin və Qəmbərunun qızılbaş qüvvələrinin nəzarəti altına düşməsindən öz narahatlığını bildirdi. Şah Abbas əvvəlcə Bəhreyn haqqında öz fikrini bildirdi və elçiyə dedi ki, oranı portuqallardan deyil, Hörmüz hakimindən geri almışdır. Onun dediyinə görə, Hörmüz hakimi əvvəllər Səfəvi şahlarının tabeçiliyində olmuşdular. Ona görə də Bəhreynin geri qaytarılması tələbini Şah Abbas qəbul etmədiyini bəyan etdi. Fiqueranın dediklərindən bəlli olurdu ki, Şah Abbas Bəhreyn barəsində öz mövqeyini çatdırdıqdan sonra ispan elçisinin nə cavab verəcəyini gözləmədi və elçini meydanda tərk edərək saraya döndü (322).

Beləliklə, ispan elçisi böyük vaxt itirməsinə baxmayaraq ümidində olduğu cavabı ala bilmədi. Şah Abbas hələ Qəzvində olarkən o, xeyli çalışdı ki, belə bir cavabı alsın. Şah Abbas isə xəbər göndərdi ki, ispan elçisi yaşlı bir insandır, səfər çətinliklərinə dözə bilməz və ona görə də İsfahana qayıtsın və orada qalsın. P. Delavallenin yazdığına görə, ispan elçisi şahla Sultaniyyəyə getmədiyi üçün qəzəblənmişdi və bu qəzəbini də elçidən çıxdı. Onun hətta öz vətəninə geri qayıtmasına da icazə vermədi. Şahın fikrincə, elçi gəldiyi məmləkətin ərazisində uzun müddət qalmalı idi. Tez gəlib-qayıdanı isə o, sadəcə qasid adlandırırdı. Ona görə də ispan elçisi də Şah Abbasın tələbi ilə razılaşmalı və İsfahana qayıtmalı oldu.

İspan elçisi İsfahanda Şah Abbasın Azərbaycan səfərindən geri qayıtmasını gözlədiyi vaxtda Robert Şerli də ispan sarayında öz elçilik vəzifəsini icra etməkdə idi. Ona tapşırılan vəzifənin mahiyyəti İspaniya dövlətini Osmanlı dövlətinə qarşı müharibəyə təhrik etmək idi. Bu məqsədlə də ispan sarayında apardığı söhbətlərinin birində Robert Şerli bildirmişdi ki, əgər ispan hərbi gəmiləri Qırmızı dənizə girişi və çıxışı Osmanlı gəmilərinin üzünə bağlasa və onların Hindistanla ticarətinə mane olsa, onda Şah Abbas da Qəm-

bərun limanını portuqallara geri qaytara bilər. Belə olanda ispan kralı Bəhreyn adalarının da geri qaytarılması haqqında təklif verdi. Ancaq Robert Şerli bu məsələ haqqında fikir söyləmək üçün səlahiyyətli olmadığını bildirdi. Belə olanda ispan kralı İsfahanda olan Qarsia de Fiqueraya məktub göndərdi və bildirdi ki, Şah Abbas heç olmasa Qəmbərun limanını geri qaytararsa, onda Osmanlı gəmilərinin Qırmızı dənizlə hərəkətinin qarşısını almağa razıdır. Qarsia de Fiquera bu məktubu alandan sonra ispan sarayının Səfəvi dövlətindəki siyasi müşaviri Pyer Melşua des Angesi Şah Abbasın qəbuluna yolladı. Fiqueranın özünün Şah Abbasın qəbuluna yollanmamasının səbəbi var idi. O düşünürdü ki, əgər ona tapşırılan vəzifənin icrası üçün Şah Abbasın razılığını ala bilməmişsə, deməli onun növbəti xahişinə də ciddi diqqət ayrılmayacaqdır. Elçi güman edirdi ki, yeni bir adamın Şah Abbasın qəbuluna göndərilməsi daha yaxşı nəticə verə bilər. Bu zaman Şah Abbas Fərəhabadda idi. Pyer Melşua da ispan elçisinin məktubu ilə Fərəhabada yollandı. Ancaq Şah Abbas onu ümumiyyətlə qəbul etmədi. Saray münşisi vasitəsilə ispan nümayəndəsinə xəbər göndərdi ki, o, artıq Osmanlı dövləti ilə sülh razılaşması əldə etmişdir və ona görə İspaniya dövlətinin köməyinə artıq ehtiyac qalmamışdır. Şah Abbas əlavə olaraq onu da bildirdi ki, Osmanlı dövləti ilə əldə etdiyi razılaşmadan sonra Səfəvi ipəyini də bundan sonra Hələb və Konstantinopoldan yola salacaqdır və Osmanlı ticarətinə qarşı maneələr yaradılmasını da istəmir. Eyni zamanda o da bildirildi ki, qızılbaş qüvvələri tərəfindən cənub sahillərində azad edilmiş adaların, məntəqələrin və ərazilərin heç biri İspaniyaya qaytarılmayacaqdır (323).

İspan sarayının nümayəndəsi də ümidində olduğu cavabı Şah Abbasdan ala bilmədi. Əslində, İspaniya sarayının ümidlərinə cavab verəcək münasibətin göstərilməsinə də əlavə bir ehtiyac qalmamışdı. Səfəvi dövləti ilə Osmanlı dövləti arasında Sərab sülh anlaşması əldə edilmiş və Şah Abbasın Osmanlı təhlükəsi ilə bağlı narahatçılığı da aradan qalxmışdı. Ona görə İspaniya dövləti ilə münasibətlər də yeni bir məzmun almaqda idi. Bu məsələyə ita-

liyalı səyyah P.Delavalle də öz xatirələrində toxunmuşdu və Şah Abbasın ispan sarayının xahişinə belə sərt münasibət göstərməsinin səbəbini elə ispan sarayının davranışında görürdü. O yazırdı: "Bu nəzər qədim İran şahlarına (Şah Abbasın əcdadları nəzərdə tutulur – M.S.) məxsusdur və onu məktublar vasitəsilə dəfələrlə portuqal padşahlarının diqqətinə çatdırmışdılar. Şah Abbas da bu nəzərin tərəfdarı idi. Güman edirəm ki, əvvəllər Romada İran elçisi olmuş və indi də şah elçisi sifətilə yenidən Roma papasının və ispan kralının yanına yollanmış ingiliş Robert Şerli də bu fikri nəzərdə saxlayırdı. Portuqallar minlərlə bəhanə gətirdilər ki, bunu etməsinlər. Lakin bu bəhanələr mənim fikrimcə, puçdurlar. Çünki onlar əvvəllər bu işləri görmüşdülər və hətta Qızmızı dənizdən keçməklə onların çoxu Sina dağına (Misirin şərqində) qədər irəliləmişdilər. Bu yolla onlar müvəffəq olmuşdular ki, öz qüvvələrini xristian olan Həbəş padşahının qüvvələri ilə birləşdirsinlər və onların köməyi ilə türklərə böyük əziyyətlər versinlər. İndi isə portuqallar bunu etməkdən imtina edirlər və bəhanələri də budur ki, guya Hindistanda işləri çoxdur. ...Şah bütün işlərə çox yaxşı bələddir və ispanların diqqətsizliyi ona çox qəribə görünür. Çünki o dəfələrlə xüsusi nümayəndələr vasitəsilə kömək istədi ki, ispanlar türklərə qarşı müharibəyə daxil olsunlar. İspaniya isə bütün qüvvəsini bu işə cəlb edə bilməsə də heç olmasa xoş niyyətin nümayişi üçün formal bir işə görə və tədbirlərə əl ata bilərdilər. Lakin təəssüflə heç vaxt bunu etmədilər. Onu bilirəm ki, ispan padşahının vəzirləri ona yalan məlumat verirlər, öz maraqlarını əsas tuturlar və hər şeydən öz faydaları üçün istifadə edirlər. Ona görədir ki, indi hamı ispan kralından şikayətçidir" (324).

P. Delavalle də ona işarə edirdi ki, İspaniya kralı Səfəvi dövləti ilə münasibətlərin qurulmasına qeyri-ciddi yanaşırdı. İspan kralı tərəfindən Səfəvi sarayına müxtəlif təkliflər göndərilsə də, Şah Abbasın təklifləri ilə bağlı hər hansı bir əməli addım atmadı. Şah Abbas da bunu lazımınca qiymətləndirirdi. İspan sarayının nümayəndəsinə Fərəhabadda xoş məram göstərilməməsi də bununla bağlı idi. Bir daha qeyd edilməlidir ki, Sərab sülh anlaşması əldə

ediləndən sonra İspaniya dövləti ilə münasibətlərin əvvəlki qaydada davam etməsi öz aktuallığını itirirdi.

Bir müddət Fərəhabadda qaldıqdan sonra Şah Abbas 1619-cu ilin iyun ayında İsfahana qayıtdı. Bir sıra dövlətlərin elçiləri Şah Abbası müşayiət edirdilər. Onlardan bəziləri, o cümlədən hind, Osmanlı, rus elçiləri də Şah Abbasın İsfahana dönməsindən üç gün sonra bu şəhərə qayıtdılar. Şah Abbasın göstərişi əsasında şəhər sakinləri bu elçilərin qarşılanmasına çıxdılar və çox təntənəli bir qarşılanma mərasimi keçirildi. İspan elçisi həmin vaxt İsfahanda idi və yuxarıda qeyd edildiyi kimi, o, şahı Azərbaycana səfəri zamanı müşayiət etməmişdi. İtaliyalı səyyah P. Delavalle bu mərasimlə bağlı belə yazırdı: "Elçilərin gəldiyi gün şah İsfahan sakinlərinə xəbər verdi ki, özü şəxsən elçilərin qarşılanmasına çıxacaqdır və şəhər sakinləri də gərək onların qarşılanmasında iştirak etsinlər. ...Bir neçə gün əvvəldən şah İsfahan, Şiraz, Yəzd və Kerman əhalisindən 60 min nəfərlik tüfəngçi dəstəsi təşkil etmiş və fərman vermişdi ki, münasib bir gündə onlar toplaşsınlar. ... Bu 60 min atlı Nəqşi-cahan meydanındakı şah sarayından və təxminən 12 min addımlıq məsafədə elçilərin olduğu Dövlətabad kəndinə qədər bir-birinin yanında sıraya düzülmüşdülər. ...Şah ispan elçisinə də yəhərli-yüyənli yeddi baş at göndərdi. ... İspan elçisi isə təkəbbürlülük üzündən istəmirdi ki, digər elçilərlə bir yerdə olsun. Həmişə şahı axtarırdı. Şah isə istəyirdi ki, qarşılanması üçün bütün hazırlıqların görüldüyü hind elçisi ilə görüşsün. Ona görə də, kimsənin xəbəri olmadan başqa bir yolla şəhər kənarına yollandı. Hind elçisindən irəlidə hərəkət edənlər şəhərə daxil oldular. Şah İsfahana yaxınlaşanda özünü hind elçisinə çatdırdı, qarşılanma mərasimi keçirildi və digərlərin şəhərə daxil olmasından sonra onu özü ilə şah sarayına apardı. İspan elçisi biləndə ki, şah digər elçiləri qəbul etməyib, onda əsəbiləşdi və hətta şikayət də etdi ki, onun məqamı tacirin qəbul edilməsindən daha yuxarıdır. Bununla o, Hindistanın tacir elçisini nəzərdə tuturdu. Çünki Hindistan adamlarının çoxunun peşəsi ticarətdir. Lakin o səhv edirdi. Bu elçi hind imperatorunun nüfuzlu mənsublarından biri idi. ...İs-

pan elçisi çox böyük qəzəblə və hirslə yanındakılarla birlikdə evə qayıtdı. Amma heç istirahət edə bilməmişdi ki, şah mehmandar Hüseyn bəyi onun yanına göndərdi və xahişini çatdırdı ki, bütün elçilər saraya toplaşıblar və o da saraya gəlsin. Don Qarsiya məcbur oldu ki, yenidən paltarını geyinsin və öz xidmətçiləri ilə birlikdə şah sarayına yollandı. ...Hindistan elçisi ispan elçisini yanında əyləşdirildi. Bu məclisdə hər elçi öz padşahının məktubunu şaha təqdim etdi. İspan elçisi də həmin vaxtlar Bernard adlı portuqal keşişinin III Filipdən gətirdiyi məktubu şaha təqdim etdi. Şah da məktubu Pyer Jan Taddeusa verdi ki onu tərcümə etsin. Bu məktubda hal-əhval soruşulmasından başqa bir şey yox idi. Şah elçilərlə şərab içməyə başladı. Bir saatdan sonra ispan elçisi icazə alaraq evinə qayıtdı" (325).

Nəqşi-cahan meydanındakı görüş ispan elçisinin Səfəvi şahı ilə rəsmi müzakirə apara bildiyi sonuncu görüş oldu. İspan elçisi bu görüşdən sonra anladı ki, İspaniya kralının irəli sürdüyü təkliflərin Səfəvi şahı tərəfindən qəbul edilməsi artıq mümkün deyil. Bu görüşün bəzi detalları haqqında ispan elçilik heyətinin üzvləri tərəfindən hazırlanmış xatirələrdə də bəzi qeydlər qalmaqdadır. Həmin xatirələrdə deyilirdi: "Avqust ayının 2-də (1619-cu il) elçiyə xəbər çatdırıldı ki, həmin günün axşamı geri qayıtmaq icazəsi vermək üçün şah elçiləri, o cümlədən ispan elçisini meydanda toplayacaqdır. Axşam saat 9-da bütün elçilər çoxlu sayda fənər və məşəllərin işığına bürünmüş meydanda toplaşdılar. İspan elçisi meydana çatanda digər elçilər hərəmxananın qarşısında dayanıb şahı gözləyirdilər. Adamların çoxluğunu və havanın istiliyini görüb meydanın ortasına yollandı və İsfahandakı iki məzhəbin ora gəlmiş keşişləri ilə orada söhbətə başladı. Meydana toplaşmış olan bu keşişlər ispan elçisi vasitəsilə şaha öz xahişlərini çatdırmaq istəyirdilər ki, onlara kilsə tikmək üçün icazə verilsin. Çünki o vaxta qədər onlara yalnız İsfahanda qalmaq icazəsi verilmişdi. Bu vaxt şah çoxlu sayda əyanların və xidmətçilərin və xeyli sayda məşəl, şah və keçən il Qəzvində də gördüyüm böyük şamdanların əhatəsində saraydan çıxdı, heç yerdə dayanmadı və sarayın qar-

şısında onu gözləyənlərlə bir kəlmə də kəsmədən mehmandarın müşayiəti ilə elçinin xristian ruhaniləri ilə söhbət etdiyi yerə yollandı" (326).

Şah Abbas ispan elçisini görəndə adəti üzrə uca səslə "İspaniya, İspaniya" dedi. Elçiyə yaxınlaşanda Şah Abbas onunla ehtiramla salamlaşdı və qardaşı hesab etdiyi İspaniya kralından onun üçün hansı xəbəri gətirməsi ilə maraqlandı. Şah ona çatdırdı ki, demək istədiklərini eşitmək və imkan daxilində öz köməyini əsirgəməmək üçün indi onun yanındadır. İspan elçisi şah tərəfindən belə ayaq üstündə qarşılanmasına görə belə hesab edirdi ki, bu görüş formal bir görüşdür və yalnız xudahafizləşmək üçün ümumi sözlər söylənəcəkdir. Elçi də cavab verdi ki, əslində, İspaniya kralının bütün sözlərini Qəzvində şah qəbulunda olduğu zaman səsləndirmişdir. III Filip tərəfindən sonradan göndərilən məktubun məzmunu isə ispan nümayəndəsi vasitəsi ilə Fərəhabadda şaha çatdırılmışdı. Elçi sonra dedi ki, özü haqqında yalnız geri qayıtmaq icazəsi, yanındakı ruhanilər üçün isə İsfahanda kilsə tikilməsinə icazə verilməsini istəyir. Şah onun bütün mətləblərini dinləməyə hazır olduğunu bildirdi. Elçinin nəzərinə çatdırıldı ki, ən yaxın bildiyi adamlarla söhbət etməyə hazırdır. Şah özü də yanında kənar adamları saxlamadı. Söhbət üçün müəyyənləşdirilmiş yerdə onun yanında çox məhdud sayda saray mənsubları var idi. Şah Abbas hətta öz nökərlərindən də kimsəni yanında saxlamadı ki, heç olmasa onun atını tutsun. Bəzi adamları da yanında onun üçün saxladı ki, elçi ilə olan söhbətə kimsə şahidlik edə bilsin. Qarsia de Fiqueranın xatirələrində olan məlumata görə, ispan elçisinin yanında isə Karmelit keşişi Pyer Jan Taddeus və bir də tərcüməçi var idi. Şah Abbas meydanın bir küncündə atdan yerə düşüb bir kənarda əyləşdi. O, ispan elçisini də yanında əyləşdirib onu dinləməyə başladı. Əvvəlcə, şah özü danışdı və elçiyə sağ-salamat öz ölkəsinə qayıtmağı arzuladı. Sonra da onun geri qayıtmasına icazə verdiyini bəyan etdi. Şah Abbas əlavə etdi ki, elçini öz atası kimi görür və buna görə istədiyi sualı verməkdə azaddır. Şah Abbasın mehriban danışığından və xoş əhval ruhiyyəsindən hərəkətə

gələn ispan elçisi bir sıra mətləbləri yenidən şaha xatırlatmağı lazım bildi. Elçinin toxunduğu ilk məsələ Səfəvi-Osmanlı müharibəsi məsələsi oldu. O etiraf etmək məcburiyyətində qaldı ki, Avropa dövlətlərinin Osmanlı dövlətinə qarşı ittifaq yaratması və müharibəyə başlaması məsələsi konkret bir nəticəyə gəlməmişdir. Amma onun fikrincə, Avropa ölkələri açıq hərəkətə başlamasalar da, onların müəyyən potensiala malik olması Osmanlı sarayının diqqətini hər zaman özünə cəlb edirdi. Elçinin fikrincə, bunlar nəzərə alınmasa belə Şah Abbasın Osmanlı nəzarətində olan əraziləri geri qaytarmaq imkanı var idi. Belə ki, Osmanlı sarayında yeni sultanın hakimiyyətə gətirilməsi sarayın başının qarışmasına yol açırdı. Belə bir vəziyyətdə osmanlıların Səfəvi sərhədlərinə tezliklə qoşun çəkəcəyi də inandırıcı görünmürdü. İspan elçisi bütün diqqətini ona çevirdi ki, Şah Abbasda Osmanlı dövlətinə qarşı müharibəyə başlamaq inamı yarada bilsin. Şah Abbas isə əksinə, bir daha Avropa dövlətlərinin Osmanlı dövlətinə qarşı müharibəyə başlamasını yenidən dilə gətirdi. Onun sözlərinə görə, Avropa dövlətləri Osmanlı dövlətinə qarşı müharibəyə başlayacağı təqdirdə Səfəvi qoşunları da öz sərhədləri istiqamətindən bu müharibəyə qoşula bilərdi. Şah Abbas vəd də verirdi ki, belə bir müharibənin başlanacağı təqdirdə qoşunları ilə Yerusəlimə qədər irəliləyəcək və bu şəhəri alaraq Avropanın ixtiyarına verəcəkdir. Bununla bərabər, Şah Abbas qərb ölkələrinin padşahları haqqında giley-güzarını da dilində gətirdi. O bir daha xatırlatdı ki, dəfələrlə vəd vermələrinə baxmayaraq, qərb dövlətləri Osmanlı dövlətinə qarşı müharibəyə başlamadılar. Hətta Səfəvi qoşunları Osmanlı dövlətinə qarşı müharibə aparanda da İspaniya Osmanlı dövləti ilə sülh münasibətlərində olmağa üstünlük vermişdi. Şah Abbas qısaca öz hakimiyyətindən əvvəl itirilmiş Səfəvi ərazilərinin Osmanlı qoşunlarından geri alınmasına da toxundu. O bildirdi ki, bu uğurları yaradanın lütfü və bir də öz qılıncının gücü ilə əldə etmişdir. Bu mövzu tamamlandıqdan sonra ispan elçisi daha iki mövzu ilə bağlı şaha müraciət etdi. Bu mövzular haqqında o, Qəzvində şah qəbulunda olarkən fikrini açıqlamış və sonra da Fərəhabada göndərilən

ispan kralının məktubunda xatırlanmışdı. Birinci məsələ ticarətin təşkili ilə bağlı idi. İspan elçisi bir daha Şah Abbasdan xahiş etdi ki, İngiltərənin və digər dövlətlərin Səfəvi dövlətləri ilə ticarət əlaqələri qurmasına icazə verməsin və bu işlərdə İspaniyanın monopoliyası qorunsun. Digər məsələ isə cənub sahilləri boyunca Səfəvi qüvvələri tərəfindən ələ keçirilmiş limanların geri qaytarılması məsələsi idi. Elçi Bəhreynin, Qeşmin və Qəmbərunun geri qaytarılması barədə Şah Abbas qarşısında məsələ qaldırdı. Şah Abbasın bu adaların geri qaytarılması ilə bağlı mövqeyi artıq əvvəldən də bəlli idi. Bununla belə, ispan elçisi son ümidlə bu məsələni yenidən onun qarşısında qaldırdı. Şah Abbas da öz əvvəlki mövqeyindən dönməyərək elçiyə fərqli bir cavab verdi. Onun dediyinə görə, ispan kralı üçün adı çəkilən adaların Hörmüz hakiminə və ya Səfəvi şahına məxsus olmasının nə fərqi var ki? Onların hər ikisi müsəlmandırlar. Fərq ondadır ki, onlardan biri sünnidir. O (yəni Hörmüzün sünni hakimi) qərb dövlətlərinin padşahlarının düşmənidir. Lakin Səfəvi şahının qərb padşahlarına qarşı tamam başqa münasibəti vardır. Elçi bu cavabdan heç də xoşlanmadı. Lakin anladı ki, bu məsələ üzərində söhbətin uzadılmasının heç bir nəticəsi olmayacaqdır. Ancaq onu əlavə etdi ki, Hörmüz hakimi İspaniya kralına xərac verirdi və ondan asılı vəziyyətdə idi. Əlahəzrət Səfəvi şahı isə ispan kralının dostu və müttəfiqi olduğu üçün o adaları da ona qaytara bilər. Elçinin bu təkidli sözləri Şah Abbasın xoşuna gəlməsə də, elçiyə kobud davranış nümayiş etdirmədi. Yalnız onu dedi ki, o, ispan kralına Hörmüz hakimindən daha çox hörmət edir (327).

Səfəvi dövləti cənub sahillərində və sularında öz mövqeyini möhkəmləndirməyə başlamazdan əvvəl Hörmüzlə bağlı ciddi narahatçılıqlar mövcud idi. Portuqaliyanın və sonradan da İspaniyanın nəzarəti altında olan bu ada cənub sularında, Hind okeanı hövzəsində ticarətin təşkilinin mühüm mərkəzlərindən biri idi. Səfəvi tacirləri öz işlərinin təşkili üçün Hörmüzdən keçməli və burada onlara qarşı irəli sürülən tələblərlə razılaşmalı olurdular. Bu tələblər isə Səfəvi tacirlərinə əlavə çətinliklər və maliyyə xərc-

ləri gətirirdi. Şah Abbasın da bu işlərdən kifayət qədər məlumatı var idi və onda da Portuqaliyanın və İspaniyanın cənub sularında ticarət işlərini monopoliyada saxlamalarından heç də razı deyildi. Bu barədə Karmelit keşişlərinin xatirələrində də müəyyən qeydlər qalmaqdadır: "Hörmüz hakimləri İran şahının təbəələrinin qarşısında şah haqqında pis sözlər deyirdilər və tacirləri vadar edirdilər ki, onlar istəklərinin əksinə olaraq əşyaları öz qiymətindən 60 faiz başa alsınlar. Belə mallar üçün İran bazarlarında müştəri tapmaq çətin idi. Həmin tacirlərdən biri bu vəziyyətdən boğaza yığılaraq onlara qəbul etdirilmiş malları toplayıb Hörmüzün hərbi qalasının darvazası qarşısında od vurdu. Bundan başqa İrana məxsus satlıq malları, o cümlədən atları öz qiymətlərindən ucuz alırdılar. Şah təbəələri olan erməni tacirləri ilə də onlar daha pis rəftar edirdilər. ...Belə pis rəftar nəhayətdə ona səbəb oldu ki, səltənət tacirləri indi daha ticarət işləri üçün Hörmüzə getmirlər. Onlar uzun müddət gəmi gözləməli olsalar da Bəsrəyə getməyə üstünlük verirlər. Ya da onlar Şirazda Hindistandan gələn ticarət karvanlarını gözləyirlər və bununla onlar canlarına və mallarına təhlükə olan Hörmüz səfərinə yollanmırlar. Hörmüz qalasının hakimi bir dəfə öhdəlik yazdı ki, belə zülmləri dayandırsın. Amma verdiyi vədə əməl edə bilmədiyi üçün Avropa dövlətləri sakinlərinin də abır-həyasını apardı. İranlılar və ermənilər dəfələrlə bu barədə Şah Abbasa və Fars hakiminə şikayət etdilər. Şah da iki-üç dəfə Fars hakiminə göstəriş verdi ki, portuqal gəmilərinin körfəz limanlarında yan almasının, onların karvanlarının məmləkət ərazilərinə daxil olmasının qarşısını alsın. Hörmüz gömrüyündə şah təbəələrini yumruq və bıçaqlarla vurub yaralayırdılar. İran elçisinin köməkçilərindən biri İspaniya sarayına yollananda Hörmüz yollarının birinin darlığı üzündən portuqal əsgərlərindən biri ilə toqquşmuşdu. Həmin adam günahsız yerə o əsgər tərəfindən öldürülmüşdü. Bu xəbər Şah Abbasa çatanda İsfahandakı Avqustin keşişlərindən tələb etdi ki, qatil əsgəri ona təhvil versinlər. Onlar da cavab verdilər ki, həmin əsgər kilsəyə sığındığı üçün şahın xahişinin qəbulu mümkün deyil. ...Qədimdən adət idi ki, Hindistandan İran şahları üçün

gətirilən əşyalar üçün Hörmüz adasında gömrük vergisi tutulmurdu. Amma Şah Abbas bu məsələdə də narazı idi ki, ona qarşı hörmətsizlik edilir və hətta gətirilən malların ona aidliyini təsdiq edən sənədləri də cırıb ayaq altına atırdılar. Şah adamlarının qarşısında isə şah haqqında ağır sözlər söyləyirdilər. Bir müddət əvvəl də hind imperatorunun Şah Abbas üçün göndərdiyi hədiyyələri gömrük vergisinin alınması üçün tutub saxlamışdılar və iddia da edirdilər ki, onlar Şah Abbasa aid deyil. Şah bundan xəbər tutanda öz adamlarına göstəriş verdi ki, bu hadisə ilə bağlı heç nə etməsinlər, özü ora yollansın və Hörmüzü azad etsin. Bir neçə ayda sonra isə Hörmüz hakimi gömrük vergilərinin təmin edilməsi adı ilə həmin hədiyyələri satmışdı. ... Şah Abbası daha çox əsəbiləşdirən isə o idi ki, ticarət gəmiləri Hindistandan Hörmüzə gələndə iranlı tacirlərin yanında olan müsəlman və ya qeyri-müsəlman oğlan və qızları, ya da şah sarayında xidmət üçün Hindistandan satın alınan cavanları adadakı portuqallar onların xristian olmaları və ona görə də İrana getmək istəmələri bəhanəsi ilə oğurlayırdılar. Bu uşaqları onlar kilsəyə aparırdılar və onları zorla xristian dinini qəbul etməyə məcbur edirdilər. Hörmüz adasında olan çoxsaylı casuslar bu barədə şaha məlumat çatdırmışdılar. İsfahandakı Avqustin keşişləri də bu məlumatları əsasən, təsdiq edirdilər" (328).

İspan elçisi Hörmüz haqqında təklifi irəli sürəndə Şah Abbasın orada baş verənlərdən yaxşı xəbəri var idi. Ona görə o bu məsələnin üzərində heç dayanmadı da. Bundan sonra Şah Abbas elçinin toxunduğu mövzulardan kənar mövzular üzrə söhbəti davam etdirdi. İspan elçisinə də artıq bəlli oldu ki, Şah Abbas onun marağında olduğu məsələlər üzrə söhbəti davam etdirmək istəmir. Elçinin ticarət məsələləri, xüsusən də İngiltərənin Səfəvi dövləti ilə ticarət əlaqələrinin məhdudlaşdırılması haqqında da Şah Abbas gözlənilən cavabı vermədi. İspan elçisi bir neçə cəhd edib bu mövzunu ortaya gətirsə də, Şah Abbas söhbəti dəyişdirdi və bununla ticarət məsələləri ilə bağlı elçinin istəyinə uyğun olmayan bir mövqeyə malik olduğunu nümayiş etdirdi. Şah Abbasla ispan elçisi arasında iki saatlıq söhbət oldu və ispan elçisi üçün bu söh-

bət nəticəsiz başa çatdı. Onun son xahişi isə İsfahanda qalan keşişlər tərəfindən kilsə tikilməsinə icazə verilməsi oldu. Don Qarsiya Fiqueranın xatirələrində olan məlumata görə, Şah Abbas bu məsələyə xüsusi diqqət ayıracağını vəd etdi. İspan elçisi tərəfindən qaldırılan məsələlər ümumən, artıq Şah Abbasın maraqlarına uyğun deyildi və müvafiq də cavab verildi. Bununla belə, Şah Abbas ispan elçisinin incik halda geri qayıtmasını da istəmirdi. Söhbətlərinin sonunda Şah Abbas bir daha onu öz atası adlandırdı və şəxsi xahişini səsləndirməsini istədi. İspan elçisi isə yalnız geri qayıtmasına icazə verilməsini xahiş etdi. Xatirələrdə bildirilir ki, Şah Abbas oturduqları yerdən daha tez qalxdı və sonra da hər iki əlini elçiyə uzatdı ki, onun ayağa qalxmasına kömək etsin. Xudahafizləşərkən Şah Abbas onu qucaqladı və onu yaxşı dostlarından bir kimi xatırlayacağını bəyan etdi. Elçi isə qəbula görə ona öz təşəkkürünü bildirdi və Şah Abbasın əlindən öpdü (329).

İspan elçisinə və onun elçilik heyətinin üzvlərinə şah tərəfindən qiymətli hədiyyələr paylandı. Eyni zamanda ispan kralı üçün xeyli sayda qiymətli hədiyyələr ayrıldı. Don Fiqueranın nəzərinə çatdırıldı ki, onun ardınca İspaniyaya şah elçisi göndəriləcəkdir. İspan kralının məktubunun cavabı və kral üçün ayrılmış qiymətli hədiyyələri də həmin elçi özü ilə aparacaqdır.

Bir tərəfdən Osmanlı dövlətinə qarşı ittifaq yaradılması haqqında təkliflərə məhəl qoyulmaması, digər tərəfdən də cənub sularında Səfəvi dövlətinin iqtisadi maraqlarının zərbə altında saxlanması Şah Abbasın İspaniya dövlətinə qarşı münasibətinin tamamilə dəyişməsinə yol açdı. Elçi ilə son söhbəti zamanı kifayət qədər nəzakətli görünməyə çalışsa da əslində, elçi də bunu hiss etdi. İngiltərə dövləti ilə siyasi və iqtisadi münasibətlərin genişləndirilməsi və bu münasibətlərin Səfəvi dövlətinin maraqlarına cavab verməsi də Şah Abbasın İspaniya ilə bağlı sərt münasibətdə olmasına yol açırdı. Don Fiqueranın hələ Səfəvi ərazisində olduğu vaxt, 1629-cu ildə Səfəvi dövləti ilə İngiltərə arasında imzalanan razılaşmaya əsasən, Səfəvi ipəyinin cənubdan ixrac edilməsi hüquqları Şərqi hind şirkətinə həvalə olundu. İngiltərənin kifayət

qədər möhkəmlənməsi və Hind okeanı hövzəsində İspaniya ilə rəqabətə imkanlı olması bölgədə İspaniya hərbi-dəniz donanmasının Səfəvi dövləti üçün yaratdığı məhdudiyyətlərin aradan qaldırılmasına da güclü bir ümid yaradırdı. Doğrudur, İspaniyanın cənub sahillərində malik olduqları imkandan istifadə edərək ingilis gəmilərinə öz təzyiqlərini göstərirdilər. Hətta Şərqi-Hind şirkətinin əməkdaşlarının portuqallar tərəfindən öldürülməsi halı da baş vermişdi. Bu təzyiqlərdən Şah Abbasın da xəbəri var idi. Lakin Şah Abbas yeni şəraitdə İngiltərə ilə ticarət əlaqələrinin genişləndirilməsinə daha böyük maraq göstərirdi. Şah Abbas baş verənlərə görə İspaniyaya qarşı açıq və sərt etirazını bildirməsə də, Osmanlı dövləti ilə Sərab sülh razılaşmasının (1618) əldə edilməsindən sonra öz mövqeyini xeyli sərtləşdirdi və kəskinləşdirdi. Bu sərtliyi və kəskinliyi Şah Abbasın ispan elçisi və nümayəndəsi ilə görüşlərdə də hiss etmək mümkün idi. Ona görə Don Fiquera da ona tapşırılan vəzifəsinin icrasına nail olmadan geri dönmək məcburiyyətində qaldı.

Nəzərdə tutulmuşdu ki, ispan elçisi Hörmüzə getsin və oradan İspaniyaya yollansın. Don Fiquera Hörmüzdə olarkən ona İspaniyadan iki məktub gətirdilər. Şah Abbasa ünvanlanmış həmin məktublardan biri ispan kralı, digəri isə elçi kimi orada olan Robert Şerli tərəfindən göndərilmişdi. İspan elçisi daha Hörmüzdən geri qayıtmadı. O, həmin məktubları çapar vasitəsilə İsfahana, Jan Taddeusa göndərdi və xahiş etdi ki, onları Şah Abbasa çatdırsın. Jan Taddeus da bir dəfə meydanda Şah Abbasla qarşılaşdı. Orada həmin məktubları Şah Abbasa təqdim etdi və özü də onları oxuyub tərcüməsini açıqladı. İspaniya kralı bu məktubunda da artıq Şah Abbasın qəbul etmədiyi təklifləri təkrar edirdi. O, bir daha öz gəmiləri vasitəsilə dəniz yollarını Osmanlı ticarəti üzünə bağlamağa hazır olduğunu bildirirdi. Onun yazdığına görə bu işin həyata keçirilməsi üçün artıq beş ədəd böyük hərbi gəmi də hazırlamışdır. İspan kralının yazdıqlarından belə bir qənaət hasil olurdu ki, onun tərəfindən artıq həmin gəmilər Səfəvi sahillərinə doğru yola salınmışdır. Səfəvi elçisi kimi İspaniyaya gəlmiş Robert Şerli

və onu müşayiət edən Karmelit keşişinin də bu gəmilərdə geri yola salındığı bildirilirdi. Ticarət işlərinin təşkilində də Səfəvi tacirləri üçün müəyyən güzəştlərin tətbiq ediləcəyini açıqlayırdı. Onun yeni güzəştlərinə əsasən, Səfəvi təbəələri olan həm müsəlman, həm də xristian tacirləri Hörmüzdə öz yüklərini sata bilərdilər. Hörmüzdə alıcı tapılmayacağı təqdirdə tacirlər öz yüklərini Hindistanın Qova limanını apara bilərdilər. Səfəvi tacirləri bu zaman gömrük və digər maliyyə vergilərindən azad edilə bilərdilər. Səfəvi tacirləri cənub limanlarında çətinliklərlə qarşılaşdıqları təqdirdə birbaşa Lissabonla ticarət əlaqələri qura bilərdilər. Amma digər qərb ölkələri ilə əlaqələr qurulmasına müsbət yanaşılmırdı. Konkret olaraq bildirilirdi ki, Səfəvi tacirləri Səfəvi ərazisində istehsal olunan ipəyi İspaniyada və İspaniya nəzarəti altında olan ərazilərdə dörd il gömrük vergisinin yarısını ödəməklə sata bilərdilər. Dörd ildən sonra isə Səfəvi tacirləri gömrük vergilərini tam şəkildə ödəməli idilər. Bu şərt daxilində ticarət edən Səfəvi tacirləri ipək satışından əldə etdikləri pulun dörddə üçünü İspaniyada istehsal olunan malların alınmasına sərf etməli idilər. Əldə edilən pulun dörddə biri isə Hörmüzdə və ya Qova limanında xərclənməli idi. Səfəvi tacirləri geri qayıtdıqları zaman isə Hörmüzdə, Qova limanında portuqal tacirlərinin ödədikləri həcmdə gömrük haqları ödəməli idilər. Ticarət işlərinin qurulması üçün gərək olsaydı Lissabonda Səfəvi ticarət nümayəndəliyi də açıla bilərdi. Bu ticarət nümayəndəliyinə Səfəvi təbəələri və ya da portuqallar təyin edilə bilərdilər. Qərb ölkələrinin təbəələrinin bu vəzifəyə təyin edilməsi mümkün sayılmırdı. İspaniya tərəfindən də Səfəvi dövləti ərazisində üç nəfərdən ibarət ispan ticarət nümayəndəliyinin açılması təklif olunurdu. Bu ticarət nümayəndəliyi Səfəvi və ispan tacirləri arasında ixtilafların baş verəcəyi halda onların ədalətlə çözülməsini öz üzərinə götürməli idi. Amma bildirilirdi ki, Səfəvi tacirləri və ticarət təmsilçiləri İspaniya ərazisində islam dininin təbliği ilə məşğul ola bilməzdilər. Belə bir halın baş verəcəyi təqdirdə onlar ciddi cəzalandırılmalı idilər. İspan kralının nəzərincə bu sadalananlar onun tərəfindən Səfəvi dövləti üçün edilmiş gü-

zəştlər idi və o bu güzəştləri də təmənnasız etmirdi. Bu güzəştlərin əvəzində İspaniya kralı şaha təklif edirdi ki, Qəmbərun limanı Hörmüz hakiminə geri qaytarılsın. Bundan başqa Fars hakimi tərəfindən cənub sahillərində ələ keçirdiyi qalaları, o cümlədən də Bəhreyni yenidən Hörmüz hakiminin nəzarəti altına versin. Yəni bütün bu limanlar və qalalar yenidən İspaniyanın nəzarəti altına qayıtsın. Çünki Hörmüz hakimi İspaniya kralının vassalı idi (330).

Şah Abbasa çatdırılan ikinci məktub isə qeyd edildiyi kimi, Robert Şerlidən idi. O da bəyan edirdi ki, ispan kralı Osmanlı ticarət gəmilərinə qarşı döyüşə başlamağa və Osmanlı gəmilərinin Qırmızı dənizə gəlməsinin qarşısını almağa hazırdır. Robert Şerlinin yazdığına görə, ispan kralı hətta yaxın vaxtlarda Roma papasının köməyi ilə digər qərb dövlətlərini də Osmanlı dövlətinə qarşı müharibəyə qaldırmağa çalışmalı idi. Ona görə də Robert Şerli Şah Abbasa təklif edirdi ki, İngiltərə ilə əlaqələri genişləndirməkdən çəkinsin. Nə qədər ki, ispan kralının Osmanlı dövlətinə qarşı çıxmasının qeyri-mümkünlüyü haqqında xəbər gəlməmişdi, Şah Abbasın Şərqi hind şirkəti ilə hansısa bir razılaşmaya zəmin yaratmasından çəkinməsi məqsəduyğun sayılırdı. Çünki Osmanlı dövlətinin İngiltərə ilə yaxşı münasibətləri var idi və ona görə də onun Osmanlı Türkiyəsinə qarşı ittifaqa daxil edilməsi çətin ola bilərdi. Yəni Robert Şerli Səfəvi şahını da Osmanlı dövləti ilə yaxşı münasibətdə olan İngiltərə ilə münasibətlərin genişləndirilməsindən çəkindirməyə çalışırdı (331).

İspan kralının məktubunda toxunan məsələlər Şah Abbas üçün qeyri-ciddi göründü və ona görə də məktubda yazılanları istehza ilə qarşıladı. Bu məsələlər hətta onun əsəbiləşməsinə də yol açdı. İspan kralının yazdığından belə çıxırdı ki, Səfəvi ipəyinin ticarəti İspaniyanın monopoliyasına verilsin. Amma məlum idi ki, Avropa dövlətlərində Səfəvi ipəyinə böyük tələbat var idi. Ona görə də Şah Abbas məktubda bununla bağlı yazılanlara belə bir münasibət bildirdi ki, iqtisadi baxımdan kimin daha sərfəli təklifi olsa ipək də həmin tərəfə veriləcəkdir. Yəni bu məsələdə iqtisadi və ticarət rəqabəti üstün tutulmalı idi. İspaniya kralının məktubunda müəy-

yən təhdid nişanələrini də hiss etmək mümkün idi. Bildirilirdi ki, Səfəvi dövlətinin Hörmüzdəki portuqallara qarşı qeyri-dost münasibət göstərəcəyi halda iki dövlət arasındakı əlaqələr qırıla bilər. Bundan əlavə, o da bildirilirdi ki, Hörmüzdəki portuqallar da bu halda Səfəvi dövlətinə qarşı bəzi hərəkətlərə əl ata bilərdilər. Bu halda münasibətlərin korlanmasının məsuliyyəti Səfəvi dövləti üzərində qalmalı idi. Belə bir təsəvvür yaradılırdı ki, Hörmüzdə olan portuqal qarnizonu Səfəvi dövlətinə qarşı lazımi müqavimət göstərə bilər. Şahidlərin ifadəsinə görə, bu məqam Şah Abbasın xüsusi ilə qəzəbinə səbəb oldu. O qərar tutduğu məclisdə ayağa qalxdı və öz qəzəbini soyutmaq üçün o tərəf-bu tərəfə addımlamağa başladı. Sonra da Şah Abbas əlini qılıncına ataraq bildirdi ki, öz qılıncı ilə Hörmüzü portuqallardan tamamilə azad edəcəkdir. Karmelit keşişlərinin yazdıqlarından aydın olur ki, bu məktubla tanışlıq Şah Abbasda Hörmüzün ələ keçirilməsi fikrini daha da qətiləşdirdi. Karmelit keşişləri bildirirdilər ki, onların sonrakı görüşlərində də Şah Abbasın Hörmüz adasını bütünlüklə nəzarət altına almaq qətiyyətinin şahidi oldular (332). Osmanlı dövləti ilə sülh razılaşmasının əldə edilməsindən sonra bütün diqqəti və qüvvələri Hörmüz üzərində cəmləşdirmək mümkün idi. Şah Abbasın nəzərincə, cənub sularında və sahillərində xarici dövlətlərin monopoliyasına son qoymaq üçün artıq münasib şərait də yetişmişdi.

Robert Şerlinin məktubunda qeyd edildiyi kimi, İspaniyanın beş ədəd hərbi gəmisi Hörmüz adasına doğru hərəkətə başlamışdı. İspaniya kralının öz məktubunda irəli sürdüyü təkliflərin qəbul olunacağı təqdirdə bu gəmilər Qırımızı dənizə giriş və çıxışı Osmanlı gəmilərinin üzünə bağlamalı idi. Robert Şerlinin elçilik heyəti ilə Avropaya göndərilən Karmelit Pyer Redemeto de Lakruz da həmin gəmilərdə idi və o, Səfəvi sarayına gələrək ispan dövlətinin təkliflərini bir daha Şah Abbasa çatdırmalı idi. Robert Şerlinin özü isə İspaniyada qalmışdı. 1619-cu ilin sonlarında İspaniyadan hərəkətə başlayan bu gəmilərdən biri yolda ikən dəniz sularına qərq oldu. Digər dörd gəmi isə 1620-ci ilin iyun ayının ortalarında Hörmüz adasına yetişdi. Karmelit keşişi şah sarayında bir daha ispan

sarayının tələblərini və təkliflərini açıqlamalı və cənub sahillərində ələ keçirilmiş məntəqələrin geri qaytarılmasını çatdırmalı idi (333). Hörmüz istiqamətinə göndərilmiş döyüş gəmiləri bu təkliflərin icrasına bir zəmanət olmalı idi. Güman edilirdi ki, bu gəmilərin bölgəyə yetişməsindən sonra Səfəvi dövləti də ispan sarayının tələbləri qarşısında müəyyən güzəştlərə gedə bilər.

Döyüş gəmilərinin rəhbərinə göstəriş verilmişdi ki, Səfəvi sarayı irəli sürülən təklifləri qəbul etməsə, onda Hörmüzdə möhkəmlənsin və cənub sahilləri boyunca Səfəvi qüvvələri tərəfindən ələ keçirilmiş qalalar və məntəqələr üzərinə hücuma keçsin. Cənub sahillərində Səfəvi qüvvələri tərəfindən yeni tikilmiş bütün qalalar isə xarab edilməli idi. Təkliflərin Səfəvi sarayı tərəfindən qəbul ediləcəyi təqdirdə isə gəmilər Qırmızı dənizə yollanmalı və həmin dənizin giriş-çıxışını Osmanlı gəmiləri üçün bağlamalı idi. Gərginlik yaranacağı zaman isə döyüş gəmiləri Hörmüzün müdafiəsinə qoşulmalı idilər (334).

Bu gəmilər Hörmüzə yetişdiyi zaman Qarsiya de Fiquera hələ Hörmüzdə idi. Onun elçilik missiyasının bir nəticə verdiyi üçün Səfəvi qüvvələrinin Hörmüz üzərinə hücumunu da istisna etmirdi. Adada olduğu günlərdə İspan elçisi qalanın müdafiə imkanlarını nəzərdən keçirdi və belə bir qənaətə gəldi ki, Hörmüz qalası lazımi müdafiə imkanlarına malik deyildir. Qala divarları alçaq, onların qarşısındakı xəndəklər isə dayaz idi. Bu xəndəyi də, divarları da asanlıqla adlamaq mümkün idi. Başlıcası isə Hörmüzün portuqal müdafiəçilərinin kifayət qədər möhkəm iradəyə malik olmamaları ispan elçisini narahat edirdi. Onun qane etməyən məqamlardan bir də qala hakiminin üç ildən bir dəyişməsi idi. Buna görə də qala hakimləri qalanın möhkəmləndirilməsi və müdafiəsinin təşkili üçün gərək olan təcrübəyə malik deyildilər. Qala hakiminin sərəncamında təcrübəli mühəndis və topçu da yox idi. İspan elçisi hələ ilk gəlişində bu çatışmazlıqları Hörmüz hakimin nəzərinə çatdırmışdı (335).

İspan elçisi vətənə dönmək üçün Hörmüzə gələndə yenə həmin vəziyyətlə rastlaşdı. O bu barədə qalanın yeni hakiminə də öz fik-

rinə çatdırdı. Amma qalanın yeni hakimi əvvəlki hakimlərdən də təcrübəsiz idi və bundan əlavə həm də kənar adamların irad tutmasını heç cürə qəbul edə bilmirdi. İspan elçisinin heyətinin üzvləri tərəfindən hazırlanmış yol xatirələrində portuqal hakimləri ciddi tənqid olunurdular. Onlar Səfəvi dövlətinin qüdrətini görməzliyə alırdılar və onların fikrincə, Səfəvi mənsubları Hörmüz adasını mühasirəyə almağa cəsarət edə bilməzdilər. İspan elçisinin Hörmüzə döndüyü zaman bu adaya yeni bir portuqal hakimi təyin edilmişdi. Ona da göstəriş verilmişdi ki, əgər Səfəvi sarayı verilən təklifləri qəbul etməsə onda Səfəvi nəzarəti altında olan məntəqələr həmin dövlətdən geri alınsın. Hörmüzün yeni hakimi də bu istiqamətdə öz fəaliyyətini qurmağa çalışırdı. İspan elçisi Fiquera vəziyyətdən və şəraitdən daha yaxşı xəbərdar olduğu üçün Hörmüzün yeni hakiminə də ilk növbədə bu adanın müdafiəsinin möhkəmləndirilməsi üzərində çalışmağı təklif etdi. Hörmüz hakimi yenə bu təklifi qəbul etmədi və Hörmüzün möhkəmləndirilməsi əvəzinə Qeşm adasında qala tikilməsinə başladı. Ancaq Fiqueranın xatirələrində deyilirdi ki, həmin qala da lazım olan müdafiə imkanlarına malik deyildi (336).

O da məlumdur ki, ispan elçisi Hindistanın Qova limanında olanda Hörmüz adasındakı vəziyyəti İspaniyanın oradakı nayibüssəltənəsi ilə də müzakirə etdi. Hindistan nayibüssəltənəsi İspaniyanın bölgədəki hakimi vəzifəsini icra edirdi və bu baxımdan Hörmüzdəki portuqal və ispan mənsubları da ona tabe idilər. İspan elçisi Hörmüz adasının müdafiəsinin təşkilinin çox həssas olduğunu nayibüssəltənənin diqqətinə çatdırdı və bu məsələyə ciddi diqqət yetirilməsinin vacibliyinə toxundu. Amma nayibüssəltənə də onun işlərinə irad tutulmasından və ona təkliflər verilməsindən heç də xoşlanmadı və Hörmüzün möhkəmləndirilməsi üçün əlavə işlər görülməsini lazım bilmədi.

Qarsiya de Fiqueranın xatirələrində belə bir məlumat vardır ki, ispan elçisi Hörmüzə qayıdanda iki dövlət arasındakı gərginlik açıq şəkildə hiss edilmirdi. Səfəvi dövlətinin cənubundakı vilayətlər daxilində də qoşun toplanması, yeni müharibəyə hazırlaşması

haqqında təşviş doğurucu xəbərlər alınmırdı. Bu məlumata görə, Hörmüzdəki ispan təbəələri iki dövlət arasında dinc münasibətlərin qalmasına tərəfdar idilər. O da bildirilir ki, bu vaxtlar Şah Abbas hətta İsfahandakı Avqustin keşişlərindən də ikisini məktubla Hörmüz adasına yolladı və onun hələ də İspaniya dövləti ilə sülh şəraitində yaşamağa üstünlük verdiyini bildirdi. Xatirələrdə bildirilirdi ki, Hörmüz hakiminin bu məktuba nə cavab yazması elçilik üzvlərinə məlum deyildi. Məlum olan o idi ki, Hörmüz mənsubları Şah Abbasın bu məktubunu onun qorxaqlığı kimi qəbul etdilər. Hörmüzdəki portuqal mənsubları aldıqları məktubun məzmunu barəsində Hindistanın Qova limanında yerləşən portuqal hakimlərinə xəbər göndərdilər və bildirdilər ki, Şah Abbas qorxuya düşüb və ona görə də sülh təklifi edib. Bundan sonra döyüş gəmilərinin rəhbəri cənub sahilləri boyunca Səfəvi nəzarəti altında olan qalalara və ərazilərə hücum əmri verdi (337).

İspaniyanın döyüş gəmilərinin rəhbərinin Səfəvi dövlətinə qarşı təcavüzkar mövqeyi Hörmüzdə mövcud olan digər portuqal təbəələri razı deyildilər. Hörmüz hakimi, Hörmüzdə məskənləşmiş olan digər portuqallar, o cümlədən də hələ də orada vaxt keçirən elçi Qarsiya de Fiquera Səfəvi dövləti ilə müharibəyə başlanmasının tərəfdarı deyildilər. Bu baxımdan Hörmüzdəki İspaniya təbəələri arasında Səfəvi dövləti ilə müharibə başlanıb-başlanmaması barəsində iki mövqe formalaşdı. Hörmüzdəki mənsublar Səfəvi dövləti ilə sülh yolunun tapılmasını dəstəklədilər. Onlar şübhə etmirdilər ki, Səfəvi dövləti ilə müharibəyə başlanması vəziyyəti daha da mürəkkəbləşdirə bilərdi. Müharibə tərəfdarı olmayan portuqallar toplaşaraq belə bir fikrə gəldilər ki, ispan elçisi Fiqueranın vasitəsilə Şah Abbasa məktub göndərsinlər və tərəflər arasında dinc yaşayış yolu tapsınlar (338).

İspan döyüş gəmilərinin Hörmüz ətrafına gəlməsi bölgədəki hərbi şəraitə uyğun təsirsiz qalmadı. Yəni bəlli oldu ki, İspaniya kralı ikitərəfli münasibətlərlə bağlı irəli sürdüyü təkliflərin hətta zor gücünə həyata keçirilməsini də istisna etmir. Şah sarayında bu barədə dərhal Şah Abbasa xəbər çatdırıldı. Həmin vaxt Şah Abbas

Fərəhabadda idi. İspan döyüş gəmilərinin Hörmüzə gəlməsindən sonra bu adadakı portuqallar Karmelit keşişlərinin rəhbəri Pyer Jan Taddeusa məktub göndərdilər və ondan xahiş etdilər ki, bir daha Şah Abbasın qəbulunda olsun və ispan kralının göndərdiyi təkliflərlə razı olub-olmadığını aydınlaşdırsın. Keşiş Taddeus əvvəlcə Şah Abbasın qəbuluna yollanmağa cəsarət etmədi və bu barədə Hörmüzdəkilərə də məktub göndərdi. O bildirdi ki, Şah Abbasın ispan kralının təkliflərinə münasibəti aydındır və o öz qərarından geri çəkilən deyil. Amma Hörmüzdəki portuqal mənsubları bu cavabla razılaşmadılar və onlar məktub yazıb keşiş Taddeusdan bir daha xahiş etdilər ki, Şah Abbasın qəbulunda olmağa çalışsın. Bu xahişdən sonra keşiş Taddeus Fərəhabada yola düşdü. Amma ora çatmamış xəbər aldı ki, Şah Abbas Xorasana yollanıb. Ona görə də onunla görüşə bilmədən geri qayıtdı (339).

1620-ci ilin sonlarından etibarən ingilis donanmasının da bölgədə iştirakı genişlənməyə başladı. Bunun nəticəsi kimi, həmin ilin son günlərində altı ədəd ingilis gəmisi Cask adasına yaxınlaşdılar. Həmin gəmilərdən ikisi dəniz döyüşləri zamanı ispanlardan qənimət kimi götürülmüşdü. İngilis gəmiləri bölgədə ingilis ticarətinin genişlənməsinə öz dəstəyini vermək vəzifəsinə malik idi. Gəmilərin Cask adasına yaxınlaşmaqda da məqsədi orada ipək ticarətini həyata keçirmək idi. İngilis gəmilərinin belə açıq şəkildə Cask adasına yaxınlaşması İspaniyanın maraqlarına istiqamətlənmiş bir təhdid idi. Hörmüz adasında dayanmış ispan döyüş gəmilərinin rəhbəri Ruy Freyra de Andrade öz ölkəsinin maraqlarını qorumaq üçün Cask adası sahillərindəki ingilis gəmiləri üzərinə hücum etdi. Onun rəhbərliyi altında döyüşən ispan dənizçiləri ingilis gəmilərinə müəyyən itkilər yetirməyə müvəffəq oldular. Hətta ingilislərin qənimət götürdüyü gəmilərdən birini də geri qaytara bildilər. Bununla belə, ingilis gəmiləri bu döyüşdə qalib oldular, İspan gəmiləri ağır itkilərə məruz qaldıqdan sonra Hörmüz adasına geri çəkilmək məcburiyyətində qaldılar. Freyra de Andrade rastlaşdığı bu məğlubiyyətlə razılaşmadı və bir müddət sonra Bəndər Abbas üzərinə hücum çəkdi. Orada olan ingilis tacirlərinin ço-

xu məhv edildi, qalanları isə var-yoxdan çıxarıldı. Onların vardövləti talandı və bəzi gəmiləri də əllərindən alındı. Bundan sonra İspan gəmiləri Qeşm adası üzərinə hərəkət etdilər. İspanlar bölgədəki hakim mövqelərinin qorunub saxlanması üçün Qeşm adasında qala tikintisinə də başladılar. İngilislərin hərbi təzyiqlər altına alınması artıq Səfəvi dövlətinin maraqlarına cavab vermirdi. Çünki ingilis şirkəti olan Şərqi hind ticarət şirkəti ilə Səfəvi dövləti arasında faydalı əməkdaşlıq formalaşmaqda idi. Sonradan bu əməkdaşlığın rəsmiləşdirilməsi isə Səfəvi-İngiltərə münasibətlərinin yaxşılaşması üçün bir təkan oldu. Ona görə də ispan gəmilərinin ingilis gəmiləri üzərinə hücumu şah sarayının narahatçılığı ilə qarşılaşdı. Şah Abbas hətta Avqustin keşişlərindən birini Hörmüz adasına göndərdi və onun vasitəsilə oranın mənsublarına çatdırdı ki, ingilis və ispan-portuqal mənsubları öz aralarındakı ixtilafları açıq dəniz döyüşlərində həll etsinlər. Onlar bununla bağlı Səfəvi dövlətinin cənub sahillərini döyüş meydanına çevirməsinlər. Şah Abbasın sözlərinə görə, əgər ispan və ingilis nümayəndələri Səfəvi dövlətinin hansısa mövqeyindən narazı idilərsə, onda bu barədə onlar şah sarayı ilə məsləhətləşə bilərdilər. Şah Abbas əmin edirdi ki, bu halda vəziyyətdən çıxış yolu tapıla bilər. Səfəvi şahı onu da xəbərdar edirdi ki, baş verən döyüş yalnız tərəflərin öz aralarındakı münasibətlərin müəyyənləşdirilməsinə xidmət edirsə, onda bilsinlər ki, onları peşman etməyə və Hörmüzü nəzarət altına almağa heç də aciz deyildir (340).

Bu hadisələr bir daha onu göstərdi ki, Hind okeanı hövzəsində və cənub sularında mövqelərin möhkəmləndirilməsi və dövlətin iqtisadi fəaliyyətinə təhlükəsiz mühitin yaradılması üçün İspaniya ilə münasibətlərin ciddi gələcəyi yoxdur. Ona görə Səfəvi sarayı bölgədəki ingilis qüvvələri ilə birgə fəaliyyət imkanlarının araşdırılmasına başladılar. Şah Abbasın ingilis qüvvələrini birgə fəaliyyətə cəlb edərək İspaniyanın cənub sularından uzaqlaşdırması hər iki dövlət üçün faydalı ola bilərdi. Lakin bölgədəki ingilis qüvvələri bu məsələyə ehtiyatla yanaşırdılar. Çünki İspaniya ilə İngiltərə arasında xoş münasibətlər var idi və cənub sularında in-

gilis-ispan qüvvələri arasında hərbi rəqabətə əl atılması iki dövlət arasında münasibətlərin də pisləşməsinə yol açа bilərdi. Bununla belə, məlumdur ki, şah sarayı Şərqi-Hind şirkətini İspaniya donanmasına qarşı birgə mübarizə aparmağa məcbur etdi (bu barədə bax: Süleymanov M. Səfəvilər. VIII. I Şah Abbas. Bakı, Maarif, 2023, s.99-115).

1622-ci ilin yanvarında Qeşm adası, aprelində isə Hörmüz adası qızılbaş qüvvələrinin nəzarəti altına gətirildi. İspaniyanın bölgədəki mövqelərinə ağır zərbə vuruldu və Şah Abbas cənub sularında da öz mövqelərini kifayət qədər möhkəmləndirdi. 1621-ci ildə İspaniyanın yeni kralı elan edilmiş IV Filip itirilmiş mövqelərin geri qaytarılması üçün 1624-1625-ci illərdə bölgədəki ispan qüvvələrinə fəallıq nümayiş etdirmək göstərişi verdi. Lakin bu fəallığın bir nəticəsi olmadı və Səfəvi qüvvələri ispan qoşunlarının bütün fəallıqlarının qarşısını aldı. Belə olanda ispan sarayı Səfəvi dövləti il dostluq münasibətlərinin bərpa edilməsilə bölgədəki maraqlarını qismən qorumaq yolunu tutdu. 1625-ci ildə Səfəvi dövləti ilə İspaniya arasında sülh razılaşması əldə edildi. Həmin razılaşmaya əsasən İspaniya cənub sahillərindəki əvvəlki mövqelərindən əl çəkməyə razılığını bildirdi. İki tərəfli razılaşma əsasında İspaniya Kong adasında ticarətdən gələn gömrük vəsaitlərinin yarısını əldə etmək və Bəhreyn adası yaxınlığında mirvari ovlamaq səlahiyyəti əldə etdi. Bundan sonra Şah Abbasın sağlığında iki dövlət arasında diqqəti cəlb edəcək bir hadisə baş verмədi.

4.İngiltərə ilə münasibətlər

Səfəvi dövləti ilə İngiltərə arasında əlaqələrin yaranması Şah Təhmasibin hakimiyyəti illərinə təsadüf edirdi. XVI əsrin ikinci yarısından etibarən inkişafının yeni bir dövrünə qədəm qoyan İngiltərə şərq ölkələri ilə iqtisadi əməkdaşlığın genişləndirilməsi yollarını arayarkən Səfəvi dövləti ilə də ilkin əlaqələrini yarada bilmişdi. Aralıq dənizi hövzəsi Osmanlı gəmilərinin, Qırmızı dəniz və Hind okeanı hövzəsi isə İspaniya-Portuqaliya donanmasının

nəzarəti altında olduğu üçün İngiltərə Rusiyadan keçməklə Səfəvi dövləti və Orta Asiya bölgəsi ilə əlaqələr yaratmağa başladı. İngiltərə tərəfindən Moskvada təşkil edilmiş "Moskva" şirkəti bu əlaqələrin qurulması üçün mühüm bir mərkəzə çevrilmişdi. İngiltərənin həm şərq bazarlarında satmaq üçün malları, həm də şərq ölkələrindən idxal marağında olduğu mallar var idi. Şərqə aparan əsas ticarət yolları İngiltərənin üzünə bağlı olduğu üçün İngiltərə öz fəaliyyətini Rusiya üzərindən qururdu ki, bu da müəyyən çətinliklərlə bağlı idi. Bir tərəfdən yolun uzunluğu, digər tərəfdən də istifadəsi mümkün olan yolların istifadəsinin lazımınca tənzimlənməməsi həmin çətinliklərin əsas göstəriciləri idi. Bununla belə, ingilis tacirləri Şah Təhmasibin hakimiyyəti illərində Xəzər dənizindən keçməklə Şamaxı və Qəzvinlə müəyyən əlaqələr qura bilmişdilər. Hətta Şah Məhəmməd Xudabəndənin hakimiyyəti illərində də ingilislər Səfəvi dövləti ərazisinə səfər edə bilmişdilər. Lakin elə Şah Məhəmməd Xudabəndənin hakimiyyəti illərində səltənət daxilində nizamsızlıqların artması, tayfa başçıları arasında daxili çəkişmələrin güclənməsi bütünlükdə qərb dövlətləri ilə əlaqələrin də bir müddət kəsilməsinə səbəb oldu. Şah Abbasın da hakimiyyətinin ilk illərində həmin çəkişmələr davam etdi və onun dövründə İngiltərə ilə ilk əlaqə XVI əsrin son illərinə təsadüf edir.

1599-cu il yanvar ayının 23-də Antoni və Robert Şerli qardaşlarının rəhbərliyi altında olan 26 nəfərlik (bəzi məlumatlara görə isə 32 nəfərlik) ingilis nümayəndə heyəti Qəzvinə daxil oldu. Bəzi elmi-tarixi ədəbiyyatda olan məlumata görə, Şerli qardaşları irland nayibüssəltənəsinin tapşırığı əsasında Səfəvi sarayına gəlmişdilər və bu heyətə verilən əsas tapşırıq da Səfəvi dövlətini Osmanlı dövlətinə qarşı müharibəyə təhrik etmək, habelə İngiltərə ilə Səfəvi dövləti arasında ticarət əlaqələrini təşkilatlandırmaq idi. Yəni Avropa dövlətləri çalışırdılar ki, Şərqin iki böyük müsəlman və türk dövlətini bir-birinin üstünə qaldırsınlar, onların arasında müharibəni qızışdırsınlar və onların hər ikisini gücdən salsınlar (341). Belə müharibənin baş verməsi Osmanlı dövlətinin qərb dövlətləri üzərinə hərbi yürüşlərinin də qarşısını ala bilərdi. Hətta Şerli qar-

daşlarının fars dilinə tərcümə olmuş səfər xatirələrinin girişində də bu məqama işarə olunmuşdur (342).

Qeyd edilməlidir ki, həmin səfər xatirələri Şerli qardaşlarının özləri tərəfindən deyil, onların rəhbərlik etdiyi elçilik heyətinin üzvləri tərəfindən qələmə alınmışdır. Amma səfər qeydlərini oxuyarkən Şerli qardaşlarının xüsusi tapşırıq əsasında Səfəvi sarayına göndərildiyini görmək mümkün deyildir. Doğrudur, bu səfər qeydlərində Şerli Antoninin öz hakiminə xidmət göstərmək arzusu ifadəsini tapmışdır. Elə bu arzunun ifadəsi kimi, Antoni Şerli və onu müşayiət edən heyət üzvləri İngiltərədən Hollandiyaya, oradan isə Almaniyadan keçməklə Venesiyaya gəldilər. Venesiyada olarkən heyət üzvləri Səfəvi təbəəsi olan bir tacirlə rastlaşdılar və həmin tacir onlara Səfəvi şahının şan-şövkəti, yaxşı əməlləri barəsində çoxlu söhbət etdi. Bu sözləri eşidəndən sonra Antoni Şerlidə Səfəvi dövlətinə səfər etmək həvəsi yaranır. Bildirilir ki, elə həmin günlərdə Antoni Şerli, Ancelo adlı bir avropalı səyyahla Venesiyada rastlaşdı və həmin səyyahın Şah Abbas haqqında söylədiyi xoş sözlər Antoni Şerlidə Səfəvi dövlətinə səfər etmək istəyini daha da gücləndirdi. Avropalı səyyah onu da əlavə etdi ki, əgər ingilislər Səfəvi dövlətinə yollansalar, bu səfər onların daha böyük marağına səbəb olacaqdır (343).

Bəzi araşdırmaçılar isə onun Səfəvi sarayına səfərinin başqa səbəblərlə bağlı olduğuna toxunmuşlar. Bildirilir ki, Antoni Şerli İngiltərənin Saskes zadəganlarından idi və həyatının xeyli hissəsini ingilis qoşunlarında xidmətdə keçirmişdi. O, bir sıra döyüşlərdə iştirak etmiş və qoşun dəstələrinə rəhbərlik etmişdi. Səfəvi sarayına yollanmaq ərəfəsində Antoni Şerli ingilis qoşun dəstəsinin başçısı kimi 4 minlik bir dəstə ilə Fransa kralı IV Henrinin köməyinə də yollanmışdı. Fransa qoşunları ilə birlikdə iştirak etdiyi döyüşdə göstərdiyi şücaətə görə o, Fransa kralı tərəfindən yüksək mükafata layiq görülmüşdü. A.Şerlinin İspaniya qoşunlarına qarşı döyüşdə iştirak etməsi haqqında da məlumat vardır. Həmin döyüşün 1596-cı ildə baş verdiyi bildirilir. Sonra isə o öz dəstəsi ilə İtaliyaya yollanır ki, bu dövlətin qoşunlarına qatılsın.

Səfəvi dövlətinə tərəf hərəkətə başlamaq ərəfəsində İtaliya qoşunları Roma papasının qoşunları ilə müharibə aparırmış. A.Şerli və onun adamları İtaliyaya yetişəndə bu müharibə artıq sülhlə tamamlanmışdı. O, bir müddət Venesiya şəhərində qalmalı oldu. Məhz bu vaxtlarda o, səyyah Ancelo ilə rastlaşdı. Səyyah Ancelo da ona Şah Abbas sarayına yollanmağı tövsiyə etdi. A.Şerli bir cəngavər kimi xidmətdə olmaqla həm ad-san, həm də var-dövlət qazanmaq istəyində idi. Ona görə də A.Şerli bu təklifi məmnuniyyətlə qəbul etdi (344).

Avropalı tədqiqatçılardan biri isə Şerli qardaşlarını macəra axtaranlar adlandırırdı. Səfəvi sarayına üz tutduqları zamanı Antoni Şerlinin otuz dörd, qardaşı Robertin isə on səkkiz yaşı var idi. Səfər zamanı onların yanında olan iyirmi dörd nəfərdən altı nəfəri zadəgan, qalanları isə xidmətçilər idilər. Avropalı tədqiqatçı Şerli qardaşlarının hər hansı xüsusi bir tapşırıqla Səfəvi sarayına yollandıqlarına şübhə ilə yanaşırdı. Onların guya Səfəvi şahını Osmanlı dövlətinə qarşı müharibəyə təhrik etmək fikrini də o, qəbul etmirdi. Bu fikri onunla əsaslandırılırdı ki, o dövrün ingilis kraliçası I Yelizaveta Osmanlı dövləti ilə xoş münasibətlər qurmağa çalışırdı. Çünki İngiltərənin gərgin münasibətlərdə olduğu İspaniyanın Aralıq dənizində fəaliyyətinin məhdudlaşdırılması istiqamətində ciddi mövqeyə malik idi. Bu isə İngiltərə dövlətinin də maraqlarına cavab verirdi. Səfəvi dövlətinin Osmanlı dövləti ilə müharibəyə başlaması Osmanlı dövlətinin zəifləməsinə gətirib çıxara bilərdi. Bu da İngiltərənin maraqlarına cavab vermirdi. Şerli qardaşlarının iki dövlət arasında ticarət əlaqələrinin genişləndirilməsi ilə bağlı olmasını da avropalı tədqiqatçı David Blou qəbul etmirdi. Onun yazdığına görə, İngiltərənin Səfəvi dövləti ilə birbaşa ticarət əlaqələri qurması ya Rusiyadan keçməklə, ya da Hind okeanını aşmaqla ola bilərdi. Rusiyadan keçən yol iki dövlət arasında ticarət işlərini heç də təşviqləndirmirdi, bu marşrut elə də sərfəli bir marşrut deyildi. Hind okeanı hövzəsi isə İspaniya donanmasının nəzarəti altında idi. Yəni Şerli qardaşları istəsəydi belə, İngiltərə ilə ticarət əlaqələrində sıçrayışa müvəffəq olmaq mümkün deyildi.

Müəllif sonra da əlavə edirdi ki, Şerli qardaşlarının səfəri heç bir halda ingilis sarayının sanksiyası ilə baş verməmişdi. Bu müəllif belə ehtimal edirdi ki, Səfəvi dövləti ərazisinə səfər etmək Antoni Şerlinin öz təşəbbüsü idi. Səyyah Ancelonun tövsiyələri isə bu təşəbbüsü həyata keçirməyə bir təkan vermişdi. Adı çəkilən müəllif yazırdı ki, Antoni Şerli başdan-ayağa Yelizaveta dövrünün macəra axtaranı idi. O bir qədər məğrur olmaqla yanaşı böyük-böyük danışan, başqalarının diqqətini özünə cəlb etməyə çalışan birisi idi. Bununla belə, o da etiraf edilirdi ki, Şerli qardaşları Səfəvi dövləti ilə Avropa dövlətləri arasında münasibətlərin möhkəmlənməsində də müəyyən rol oynaya bildilər (345).

Gənc olmasına baxmayaraq Antoni Şerli kifayət qədər təcrübəli və dözümlü bir insan idi. Bunu onun heyət üzvləri də qeyd edirdilər. Şerli qardaşlarının Səfəvi dövlətinə səfəri ilə bağlı xatirələrdə də bildirilirdi ki, hətta heyət üzvləri salamat qalmalarına təhlükə yarananda belə o, ümidini itirmir və ən ağır təhlükədən belə çıxırdı. Bu zaman o, heç zaman ümidsizlik, çarəsizlik hissləri keçirməzdi və öz dəyanəti ilə heyət üzvlərini də təşviqləndirərdi. O da bildirilirdi ki, Antoni Şerli öz həyatını heyət üzvləri yolunda qoymağa belə hazır idi. Səfəvi dövləti ərazilərinə daxil olduqdan sonra heyət üzvlərinin narahatçılıqları bir qədər azaldı. Çünki Səfəvi dövləti ərazisində asayiş daha sabit və təhlükəsiz idi. Heyət üzvləri özləri də qeyd edirdilər ki, Səfəvi dövləti ərazisinə daxil olduqları gündən rastlaşdıqları insanların səmimiyyəti ilə qarşılaşdılar. Hətta sərhəd xəttində dayanan mühafizəçilər də onları çox xoş qarşıladılar. Şerli qardaşlarının xatirələrində bu mühafizəçilərin geyimləri də təsvir olunmuşdu. Yəni bildirilirdi ki, sərhəd mühafizəçilərinin xüsusi və fərqli bir geyimi var idi. Elə sərhəd xəttində mühafizəçilər A.Şerliyə bildirdilər ki, Şah Abbas onların gəlişindən çox sevinəcəkdir (346).

Sərhəd mühafizəçilərinə də bəlli idi ki, Şah Abbas xarici heyətlərin gəlişinə və səltənət hüdudlarında onlara qayğı göstərilməsinə diqqətlə yanaşırdı. Onun üçün idi ki, heyət üzvləri Qəzvin şəhərində də çox mehribanlıqla qarşılandılar. Şəhər hakimi tərə-

findən heyət üzvlərinin qayğılarını həll etmək üçün onlara xidmətçilər ayırdı, müəyyən qədər maliyyə vəsaiti verildi ki, qonaqların xərclərini ödəmək mümkün olsun. Ümumiyyətlə, Səfəvi sarayının mənsubları tərəfindən elan edildi ki, Şerli qardaşlarının bütün xərcləri xəzinə hesabına ödəniləcəkdir. Heyət üzvləri Qəzvinə yetişəndə Şah Abbas sarayda deyildi. O, qoşunlarla birlikdə özbəklərlə müharibəyə yollanmışdı və Şerli qardaşlarının Qəzvinə yetişdiyi vaxtlar artıq geri qayıtmaq üzrə idi. Qəzvinə yetişməyə iki-üç gün qalmış Şah Abbas Qəzvin hakiminə xəbər göndərdi ki, heyət üzvlərinə yaxşı atlar versinlər. Bu atlarla heyət üzvləri Qəzvin hakimi ilə birlikdə Şah Abbası qarşılamağa yollanmalı idilər. Bu mərasimdə iştirak etmək üçün Şerli qardaşları bahalı mərasim paltarları geyindilər, bellərinə qiymətli daşlarla bəzədilmiş qılınclar bağladılar, başlarına isə çox böyük əmmamə qoydular. Şəhərdən yarım fərsəx aralanandan sonra qonaqlar yaxınlaşmaqda olan qızılbaş qoşunu ilə qarşıladılar. Qoşunlar qələbə ilə Qəzvinə qayıdırdılar və Şerli qardaşlarının xatirələrində deyilir ki, təxminən on min nəfərlik qoşun əhli nizələrə keçirilmiş on iki min kəlləni də özləri ilə gətirirdilər. Bu kəllələr məğlub edilmiş özbəklərin kəllələri idilər. Qoşunları hərəkəti kərənayların və təbillərin musiqisi ilə müşayiət olunurdu. Musiqiçilər dəstəsinin arxasında Şah Abbas qərar tutmuşdu. Xatirələrdə olan qeydlərə görə, Şah Abbasın əlində nizə var idi. Onun çiynindən ox-kaman asılmış, belinə isə qılınc və xəncər bağlanmışdı. Şahın arxasınca isə qoşun başçıları düzülmüşdülər. Şahı gördükdə Şerli qardaşları atdan yerə düşdülər, ona yaxınlaşıb ayaqlarını öpdülər. Şah onları səssizcə qarşıladı və sonra qoşun başçısına göstəriş verdi ki, Şerli qardaşlarını və onların xidmətçilərini də sıraya alsınlar. Şah özü isə oradan uzaqlaşdı və bir qədərdən sonra on altı xanımın müşayiəti ilə geri qayıtdı. Bu xanımlar da at belində idilər. Onlar qonaqlara çatanda hündürdən fəryad çəkdilər. Şah isə bu dəfə Şerli qardaşları ilə əl verib görüşdü, onların hər birini ayrı-ayrılıqda qucaqladı, üzlərindən öpdü. Sonra da and içərək bildirdi ki, bundan sonra onlara öz

qardaşı kimi yanaşacaqdır. Bundan sonra şah yoluna düzəldi və Antoni Şerlini də sağ tərəfindən yerləşdirdi (347).

Qəzvin şəhərinə yetişdikdən sonra Şah Abbas Şerli qardaşlarını öz iqamətgahlarından birinə apardı. Əzəmətli bir salonda Şah Abbasla Antoni Şerli arasında söhbət baş tutdu. A.Şerli səfər macəraları, başına gələnlər və o cümlədən də gəlişinin məqsədi haqqında Şah Abbasa məlumat verdi. Şah Abbas diqqətlə onun dediklərini dinlədi və A.Şerli sözünü bitirdikdən sonra ayağa qaxaraq dedi: Ey qardaşım, yol boyu sizə baş verən çətinliklərə görə çox təəssüf edirəm. Amma çox sevinirəm ki, siz sağ və salamat gəlib bizim sarayımıza çatmışınız. Bizim gözümüz üstündə sizin yeriniz vardır (348).

Bundan sonra yemək süfrəsi açıldı. Bunun ardınca da Şah Abbas qonaqlarını iqamətgahın pəncərəsindən çövkan oyununa tamaşa etməyə dəvət etdi. Bu oyunun keçirilməsi üçün elə iqamətgahın qarşısında böyük və hamar bir meydan var idi. Şerli qardaşlarının xatirələrində yazıldığı kimi, çövkan oynayan atlılar hər biri altı nəfər olmaqla iki dəstəyə bölündülər. Şah Abbas da bu dəstələrdən birinin tərkibində idi. Xatirələrdə bu oyunun geniş təsviri verilmişdir. Bildirilirdi ki, bu oyunu musiqiçilər dəstəsi də müşahidə edirdi və hər dəfə top şahın qarşısına düşəndə kərənaylar və təbillər səslənməyə başlayırdı. Fürsət yaranan kimi Şah Abbas pəncərəyə yaxınlaşır və oradan tamaşa edən Antoni Şerlidən çövkanı bəyənib-bəyənmədyini soruşurdu. Oyun bitdikdən sonra yenidən məclis düzəldi və bu məclisə ingilislərdən əlavə Osmanlı elçisi də dəvət edildi. Heyət üzvlərindən olan Corc Manaurinq məclisin necə keçməsini belə təsvir edirdi: "Burada oturacaqlardan (stul) istifadə olunmur. Biz xalça üzərində oturduq. Mən onlar kimi bardaş qurub otura bilmirdim. Dizlərim üstündə oturdum. Bu vaxt Osmanlı elçisi padşaha dedi ki, ingilislər öz adətlərinə görə kətil üzərində otururlar. Mən İstambulda dəfələrlə ingilislərin evində olmuşam. Padşah bunu eşidən kimi dərhal digər otağa getdi və xidmətçilərə dedi ki, bir əşyanı otağa gətirsinlər. Bu əşyanın üstünə şərab şüşələri qoyulurdu. Onu salona gətirdilər, üzərinə

güllü xalça atdılar. Padşah mənə əmr etdi ki, onun üstündə oturum. Sonra o, şərab gətirməyi əmr etdi və mənim sağlığıma içdi. ...Sonra məndən soruşdu ki, mənim tabeliyimdə xidmət etməyə razısanmı? Cavab verdim ki, siz əlahəzrətin torpağında olduğum üçün əmrinizə itaət etmək mənim borcumdur. Amma öz köhnə ağamı tərk etməyə çətinlik çəkirəm. Çünki o mənə çox yaxşılıqlar edib. Padşah bunu eşidəndə əlini mənim çiynimə qoydu və 3-4 dəfə mənim üzümdən öpdü. Dedi ki, mən sənin sədaqətini bəyəndim. Sənin ağan mənim qardaşımdır. Ondan xahiş edəcəyəm ki, məmləkətimdə olduğun vaxt ərzində mənim xidmətimdə olasan. Bir qədər söhbətdən sonra biz ser Antoninin yanına getdik. Padşah ona dedi ki, gərək xidmətçilərindən birini səndən alım. Ser Antoni cavab verdi ki, onların ixtiyarı mənim əlimdə deyil. Lakin siz əlahəzrət istəyirsinizsə kimi desəniz sizin xidmətinizdə hazırdır. Padşah ona təşəkkür etdi və dedi ki, mən də öz xidmətçilərimə əmr edəcəyəm, onlar da sizin xidmətinizdə dayansınlar. Bir qədər söhbətdən sonra padşah ser Antonini onun evinə yola saldı və dedi ki, sizinlə xudahafizləşmirəm. Çünki yatmazdan əvvəl bir daha sizə baş çəkəcəyəm" (349).

Şah Abbas vədinə əməl edərək gecə yarısı öz adamlarını Şerli qardaşlarının ardınca göndərdi. Onların xatirələrində olan təsvirdən aydın olur ki, Şah Abbas onları Qəzvin bazarının mərkəzində olan kiçik sahədə gözləyirdi. Həmin sahə xalçalarla bəzədilmiş və şahın səndəlisi də oraya qoyulmuşdu. Bu səndəli gümüşdən düzəldilmiş, firuzə və yaqutlarla bəzədilmişdi. Səndəli üzərində altı ədəd böyük brilyant daş var idi. Sahənin yaxşı işıqlandırılması üçün çoxlu sayda şamlar qoyulmuşdu. Amma Şah Abbas özü bu səndəlidə oturmadı. O, Antoni Şerlini irəli dəvət etdi və ona həmin səndəlidə oturmağı təklif etdi. A.Şerli padşah səndəlisində oturmağa çox qorxdu və Şah Abbasdan üzrxahlıq etdi. Şah Abbasın təkidli israrından sonra A.Şerli deyiləni etmək məcburiyyətində qaldı. Robert Şerli üçün də səndəli gətirildi. Qalan heyət üzvləri isə onların ətrafında yerdə oturdular. Burada yeni bir ziyafət məclisi təşkil olundu. Məclisə musiqiçilər və rəqqasələr də

gətirildi. Bazar daxilindəki məclis tamam olandan sonra şah Antoni Şerlinin əlini tutaraq küçəyə çıxdı və bu halda küçə ilə addımlamağa başladı. Beləcə səkkiz gün ərzində ingilis heyətinin şərəfinə ziyafətlər təşkil edildi. Heyətin gəlişinin onuncu günü isə heyət üzvlərinə şah hədiyyələri bağışlandı. Hədiyyələr arasında on iki baş dəvə, üç dəst böyük çadır və onları üçün lazım olan təchizat əşyaları, on altı baş qatır var idi. Qatırlar üzərinə də xalçalar salınmışdı. Əlavə olaraq on dörd baş at bağışlandı Onlardan ikisi məxsusi olaraq Antoniyə, ikisi də Robertə bağışlandı. Digər atlar isə heyət üzvlərinə paylandı. Bu atların yəhərlənməsi üçün yəhərlər ayrıldı və onlardan ikisi qiymətli daşlarla bəzədilmişdi (350).

Bu zaman Antoni Şerli də gətirdiyi hədiyyələri şaha təqdim etdi. Həmin hədiyyələr arasında bir neçə cəvahir və qiymətli əşyalar var idi. Amma A.Şerli Qəzvində olduğu ilk günlərdə nə məqsədlə gəlməsi barəsində şaha ətraflı məlumat vermədi. O istəyirdi ki, Şah Abbasla yaxından tanış olsun, onun istək və qayğılarından xəbər tutsun və bundan sonra öz fikrini ona çatdırsın. 1599-cu ilin ilk günlərində Şah Abbas İsfahana yola düşdü və Şerli qardaşlarını da öz ilə apardı. Bu zaman Şah Abbasın başlıca qayğılarından biri Osmanlı nəzarəti altında olan Səfəvi ərazilərinin geri qaytarılması idi. Lakin bu məqsədə çatmaq üçün Şah Abbasın hələ yetərli gücü yox idi və bunun üçün qərb dövlətlərinin köməyinə arxalanmaq onun diqqət mərkəzində idi. İsfahana yetişəndən sonra Şah Abbas öz qonağını onun üçün ayrılmış evə qədər müaşyiət etdi və səhəri günü də Antoni Şerlinin yerləşdiyi evə gəldi. Şerlinin xidmətində olan yeri xidmətçilərdən biri qəza nəticəsində dünyasını dəyişmişdi. Şah Abbas yazılana görə, bu məsələ haqqında məlumat almaq və Antoniyə başsağlığı vermək üçün onun goruşünə yollanmışdı. Əslində isə, Şah Abbasın nəzərində də Antoni Şerli kifayət qədər məlumatlı, təcrübəli, hərb işindən başı çıxan bir insan idi. Bu cəhətlərinə görə Şah Abbasın ona olan hörməti günü-gündən artmaqda idi. Şah Abbas ona Mirzə Antoni deyə müraciət edirdi. Təxminən altı aya yaxın Antoni Şerli İsfahanda qaldı. Bu müddət ərzində o, qızılbaş qoşun dəstələrinə Avropa döyüş taktikasının

sirlərini öyrətdi və bu qoşunların döyüş gücünün artırılmasına nail oldu. Xüsusilə, odlu silahların taktikası sahəsində onun fəaliyyəti xeyli səmərəli oldu. İngilislərin səyləri və iştirakı ilə odlu silahların, xüsusən topların istehsalı sahəsində də Səfəvi hüdudları daxilində müəyyən işlər görmək mümkün oldu.

İsfahan şəhərinə yetişmək ərəfəsində Şah Abbasın fərmanı ilə qoşunlara sıra baxışı keçirildi. Bəzi tədqiqatçıların fikrincə, bununla Şah Abbas öz gücünü xarici nümayəndələrə, o cümlədən Şerli qardaşlarına nümayiş etdirmək istəyirdi. Məlumdur ki, həmin vaxtlarda Osmanlı elçisi çavuşbaşı Məhəmməd ağa da Səfəvi ərazisində idi və çox güman ki, o da bu sıra baxışını müşahidə edirdi. Qoşunlar onlara verilən tapşırığı icra etdilər. Bununla belə, ümumi intizamdan çıxma halları da baş verdi və bələləri dərhal qətlə yetirildi. Deyilənə görə, hətta Şah Abbas da ümumi intizama tabe olmayan bir döyüşçünü öz qılıncı ilə iki yerə böldü (351).

İsfahanda olarkən Osmanlı elçisi gəlişinin məqsədini də Şah Abbasa çatdırdı. 1590-cı ildə əldə edilmiş İstanbul sülh razılaşmasına əsasən, Səfəvi sarayı tərəfindən Şah Abbasın qardaşı Həmzə Mirzənin oğlu Heydər Mirzə girov kimi Osmanlı sarayına göndərilmişdi. Bir neçə ildən sonra Heydər Mirzə İstanbulda dünyasını dəyişdi. Belə olanda Osmanlı sarayı əldə edilmiş sülh anlaşmasının pozulmayacağına zəmanət kimi Şah Abbasın böyük oğlu Məhəmməd Bağır Mirzənin (Səfi Mirzə) İstanbula göndərilməsi məsələsini qaldırdı. Osmanlı elçisi də bu məsələni Şah Abbas qarşısında qaldırdı (352).

Bəllidir ki, Şah Abbas bu tələblə razılaşmadı və oğlunun Səfəvi taxt-tacının varisi olduğunu qeyd edərək Osmanlı sarayının tələbi ilə razılaşmadı. Osmanlı sarayının bu tələbi Şah Abbası xeyli qəzəbləndirmişdi. Tədqiqatçıların fikrincə, elə həmin vaxtlarda Osmanlı dövləti ilə müharibə başlanması və Osmanlı nəzarəti altında olan ərazilərin geri qaytarılması məsələsi aktuallaşmağa başladı. Elə həmin vaxtlarda da Antoni Şerli Osmanlı hakimiyyəti altında olan ərazilərin geri qaytarılması üçün Avropa dövlətləri ilə ittifaq yaradılması təşəbbüsünü irəli sürdü. Bu məsələ saray əyanları ara-

sında ciddi mübahisəyə səbəb oldu. Allahverdi xan tezliklə belə bir ittifaqın yaradılması və bu ittifaqın dəstəyini alandan sonra Osmanlı dövlətinə qarşı müharibəyə başlanmasını dəstəklədi. Sədr-əzəm Hatəm bəy Ordubadi isə bu fikri dəstəkləmədi. Hatəm bəy Osmanlı nəzarəti altında olan ərazilərin geri qaytarılmasını istəyirdi. Lakin onun fikrincə, bunun üçün hələlik Səfəvi dövlətinin yetərli gücü yox idi. Qızılbaş qoşunları mövcud imkanları düzgün qiymətləndirmədən Osmanlı dövlətinə qarşı müharibəyə başlasaydı, bu, Səfəvi dövləti üçün daha ağır nəticələrə gətirib çıxara bilərdi. Hatəm bəyə görə cənub sahilləri boyunca yerləmiş Portuqaliya qüvvələrinə qarşı döyüşə başlamaq daha real idi. Bu fikir isə Allahverdi xanın xoşuna gəlmədi. Nəticədə, istər Osmanlı, istərsə də Portuqaliya qüvvələrinə qarşı müharibəyə başlanıb-başlanmaması barədə bir qərar ortaya qoyulmadı. Şah Abbas da bu məsələlər barəsində aydın bir fikir söyləmədi (353).

Çox güman ki, Şah Abbasın bu qərarsızlığına Hatəm bəy Ordubadinin mövqeyi öz təsirini göstərdi. Hatəm bəy müdrik və təcrübəli bir insan idi və elə bu keyfiyyətinə görə Şah Abbas onu səltənətin sədr-əzəmi vəzifəsinə gətirmişdi. Hatəm bəy yaxşı bilirdi ki, yeni müharibəyə başlanması məsələsində tələskənlik daha ağır nəticələrə gətirib çıxara bilər. Şübhə yoxdur ki, Şah Abbas da elə belə bir qənaətə gəlmişdi. Bununla belə, Şah Abbasa yaxşı məlum idi ki, Osmanlı dövləti ilə münasibətlərin gərginləşməsi tezgec müharibəyə gətirib çıxara bilər. Çünki Osmanlı sarayı çavuşbaşı Məhəmməd ağa ilə çox ciddi tələblər göndərmişdi. Şah Abbasın böyük oğlunun girov istənilməsindən əlavə, Cəlali hərəkatı adı altında Səfəvi ərazisinə pənah gətirmiş insanların geri qaytarılmasını və səltənətin şərqində özbəklərin də ərazi iddiaları təmin edilsin. Doğrudur, Şah Abbas bu tələbləri qəbul etmədi. Hətta Osmanlı elçisinin saqqalını da qırxdırdı ki, bu da həm elçi üçü, həm də Osmanlı sarayı üçün bir hörmətsizlik idi. Osmanlı sarayına qarşı belə hökmlülüyün cavabının gəlməsi də istisna deyildi Ona görə də Osmanlı dövlətinə qarşı meydanda tək qalmamaq üçün

Şah Abbas müəyyən vaxtdan sonra nəhayət ki, qərb hökmdarlarının sarayına elçilik heyət göndərməyi qərarlaşdırdı.

Şah Abbas əvvəlcə yalnız ingilis kraliçasının yanına öz elçisini göndərmək istəyirdi. Həm də o bu işi Robert Şerliyə həvalə etmək istəyirdi. Onun gümanınca Antoni Şerli hərb işində daha təcrübəli bir mütəxəssis kimi, İsfahanda qalmaqla qızılbaş qoşunlarının təşkilatlandırılmasında və təchizində faydalım işlər görə bilərdi. Belə bir qərara Şah Abbas ingilis elçiliyinin İsfahana gəlməsindən təxminən yarım il sonra gəldi. O nəzərdə tutmuşdu ki, Robert Şerlini qiymətli hədiyyələrlə ingilis sarayına göndərsin və İngiltərənin Osmanlı dövlətinə qarşı müharibəyə girmək imkanlarını araşdırsın. Amma Antoni Şerli bu qərara müdaxilə etdi və özünü Avropaya göndəriləcək Səfəvi elçiliyinin rəhbəri olmasını təklif etdi. Antoni Şerli özünü Şotlandiya hakiminin qohumu və Avropa hökmdarlarının tanıdığı bir adam kimi təqdim edərək elçilik missiyasının həyata keçirilməsində daha çox fayda verə biləcəyini bəyan etdi. Antoni Şerli eyni zamanda belə bir təklif irəli sürdü ki, Avropa dövlətlərinin hamısının hökmdarlarına məktub yazılsın. O, Şah Abbası əmin etdi ki, Osmanlı dövlətinə qarşı müharibəyə başlayacağı təqdirdə elçiliyi zamanı qərb dövlətlərini ittifaqa cəlb edə və onların Səfəvi dövlətinə qarşı müharibəyə başlamalarına təhrik edə biləcəkdir. Şerli qardaşlarının xatirələrində olan məlumata görə, Şah Abbas bu deyiləndən xeyli xoşhal oldu. Həmin məlumata görə, məhz bu söhbətdən sonra Şah Abbas Osmanlı elçisinə də rədd cavabı verərək geri göndərdi və onu da əlavə etdi ki, Osmanlı dövləti ilə üzbəüz gəlməyə də hazırdır (354).

Şerli qardaşlarının xatirələrində bildirilirdi ki, Antoni Şerlinin qərb dövlətlərinə elçi kimi göndərilməsi qərarı səltənət əhlinin də xoşuna gəldi. Çünki insanlar da Səfəvi ərazilərinin Osmanlı nəzarəti altında olması ilə razı deyildilər və ona görə istəyirdilər ki, qərb dövlətlərinin köməyi ilə həmin ərazilərin geri qaytarılması mümkün olsun. Adı çəkilən xatirələrdə sonra deyilirdi: “Bu qərar veriləndən sonra padşah ser Antoninin işindən razı halda ona bildirdi ki, Osmanlı dövləti ilə müharibədə səni öz qoşunlarının baş

sərdarı təyin edəcəyəm. Ser Antoni də böyük məmnunluqla bu təklifi qəbul etdi. O öz qardaşından bir neçə dəfə daha təcrübəli idi və ona görə qərar verdi ki, əvvəlcə elçiliyə yollansın və sonra da sürətlə geri qayıdıb xidmətlə məşğul olsun. Amma yolçuluq zamanı bədbəxtlik onu yaxaladı. Yəni ser Antoni səfərə yola düşmək əsnasında padşahdan xahiş etdi ki, ali rütbəli bir adamı da onun yanına versin. Bununla qərblilər görsünlər ki, şah xristian sultanlarına böyük ehtiram göstərir. Bu təklif şahın xoşuna gəldi və illərlə onun xidmətində olan birisini seçərək ona yeni rütbə verdi. On altı nəfər xidmətçi də onla birlikdə yola düşdü. Bundan əlavə, şah ser Antoniyə vəd etdi ki, xristian hökmdarların hər birinə qiyməti və bahalı hədiyyələr göndərəcəkdir" (355).

Antoni Şerli ilə Avropaya yollanmasına icazə verilən Səfəvi əyanı Hüseynəli bəy idi. Bundan sonra elçilik 41 nəfərdən ibarət elçilik heyəti təşkil edildi və həmin heyət 1599-cu il iyul ayının 9-da İsfahandan yola düşdü. Əvvəlki fəsildə qeyd edildiyi kimi, elçilik heyətinin rəhbərləri kimi Hüseynəli bəylə Antoni Şerlinin aydın səlahiyyətləri yox idi və ona görə də Avropada olarkən onların arasında səlahiyyət məsələsi üstündə mübahisə yarandı. Elçilik heyətinə iki nəfər keşiş də qatılmışdı. Onlar Səfəvi dövləti ərazisində missionerlik fəaliyyətini həyata keçirən keşişlər idilər. Onlar Avropaya qayıtmaq istədikləri üçün bu elçilik heyətinin tərkibinə qatıldılar. Şah Abbas tərəfindən elçilik heyətinin səfər edəcəkləri Avropa dövlətlərinin padşahlarına məktublar hazırlandı. Onların arasında ingilis kraliçası, Almaniya imperatoru, İspaniya kralı III Filip, Fransa kralı IV Henri, Venesiya hakimi, Roma papası da var idi. Həmin məktublarda qarşılıqlı dostluq münasibətlərinin qurulmasına toxunulurdu. Bundan əlavə, Antoni Şerli şifahi şəkildə qərb hökmdarlarına Osmanlı dövlətinə qarşı ittifaq yaradılması və bu dövətə qarşı müharibə başlanması təklifləri də çatdırılmalı idi. Səfəvi sarayı istəyirdi ki, qərb dövlətləri eyni zamanda Osmanlı dövləti ilə olan ticarət müqavilələrini, o cümlədən silah alış-verişi ilə bağlı olan müqavilələri ləğv etsinlər və Osmanlı dövləti ilə olan hər cürə əməkdaşlığa son qoyulsun. Antoni

Şerliyə Səfəvi dövləti adından etibarnamə də hazırlandı. Həmin etibarnamədə Antoni Şerlinin Səfəvi sarayı adından danışıqlar aparılmasına səlahiyyətli olması bəyan edilirdi: "Həzrət İsaya iman gətirmiş siz əlahəzrətlər bilin ki, ser Antoni bizimlə dostluq əlaqələrindədir. Bizim əvvəldən belə bir niyyətimiz var idi. Amma bu nəcibzadədən əvvəl kimsə yox idi ki, bizə yol göstərsin və yol üzərində olan maneələri aradan qaldırsın. O adam öz istəyi ilə İrana gələndən sonra öz istəyi ilə də bizim əmirlərimizdən birinə müşayiətçi olmağı öz üzərinə götürdü. Onu biz öz məmləkətimizdə qarşılayandan sonra biz qardaşş kimi onunla bir qabdan yemək yedik və bir badədən şərab içdik. Əgər bu nəcibzadə siz xristian padşahının hüzuruna gəlsə, onun sözlərinə və istəklərinə mənim özüm qədər etibar edin" (356).

Şerli qardaşlarının səfərnaməsində olan məlumata görə, Şah Abbas bu elçilik heyətinin Avropaya yollanmasına böyük ümidlər bağlayırdı. Xüsusilə, Antoni Şerlinin bu işdə səmərəli fəaliyyət göstərəcəyinə ümid edirdi. Buna görə idi ki, elçilik heyətini Şah Abbas şəxsən özü yola saldı: "Xülasə, daha iki həftədən sonra bütün xristian padşahlarına göndəriləcək hədiyyələr hazır oldu və padşah onları ser Antoniyə verdi. Biz İsfahandan yola düşdük. Padşah iki günlük yol boyu bizi müşayiət etdi. Sonra da təəssüf və hüznlə ser Antonidən ayrıldı. O, Robert Şerlinin əlini tutdu və biz onu tərk etdik. Padşah ser Antoniyə dedi ki, mən sənin qardaşını öz övladım kimi əziz tutacağam və nə qədər ki, mən padşaham o heç vaxt ehtiyac hiss etməyəcəkdir" (357).

Bundan sonra Şah Abbas yuxarıda qeyd edildiyi kimi, ser Antoni Şerliyə bir qızıl möhür də verdi və dedi ki, onun bu möhürlə şah adından sənəd möhürləməsinə etibar edir. Şah Abbasın sözlərincə, Antoni Şerli əgər Səfəvi səltənəti böyüklüyündə qiyməti olan bir sənədi imza etsəydi də, Şah Abbas tərəfindən qəbul ediləcəkdi. Elçilik heyəti Kaşandan keçməklə Mazandarandan Xəzər dənizinə çıxmalı və gəmi ilə Həştərxana yola düşməli idilər. Hüseynəli bəy aparmalı olduğu bütün hədiyyələrin hazır olmadığı üçün bir qədər ləngiməli oldu. Ona görə Antoni Şerlinin yanında

olan heyət Ənzəli limanında bir müddət Hüseynəli bəyi gözləməli oldu. Bəllidir ki, Antoni Şerlinin və Hüseynəli bəyin rəhbərlik etdiyi elçilik heyət Moskvadan və Rusiyanın şimal limanlarından keçməklə Avropa ölkələrinə hərəkətlərini davam etdilər. Bu elçilik heyəti Polşa sarayında, Romada görüşlər keçirdilər və burada olarkən Antoni Şerli ilə Hüseynəli bəyin yolu bir-birindən ayrı düşdü. Bundan sonra onlar ayrı-ayrılıqda öz elçilik missiyalarını icra etməyə çalışdılar (358).

Hüseynəli bəylə yollarını ayırdıqdan sonra Antoni Şerli İsfahana qayıdacağını bəyan etdi. Lakin o bu sözünə əməl etmədi və bir müddət də Avropada qalmaq qərarını verdi. O, Romadan Venesiyaya yollandı və oradan Səfəvi sarayının nümayəndəsi kimi ispan kralına bir neçə məktub göndərdi. Özü də təxminən üç ilə yaxın orada qaldı. Onun İspaniya kralına yazdığı məktubların bəziləri ingilis məmurlarını əlinə keçdi və ingilis sarayına göndərildi. İngiltərə ilə İspaniya arasında gərgin münasibətlər olduğu üçün Antoni Şerlinin ispan kralı ilə yazışmaları ingilis sarayında böyük qəzəblə qarşılandı. Eyni zamanda A. Şerlinin katolik məzhəbinə qoşulması heç də ingilis sarayının xoşuna gəlmədi. Ona görə A.Şerli Venesiyada gözləməli oldu. Bir də I Ceyms ingilis kralı olandan sonra A.Şerlinin İngiltərəyə qayıtmasına icazə verildi. Bununla belə, Antoni Şerli bir müddət Avropada qalmağa üstünlük verdi. O öz heyət yoldaşları vasitəsilə İngiltərə ilə əlaqələri qoruyub saxlasa da, Alaniyaya yollanmağı qərara aldı. Şerli qardaşlarının səfərnaməsində olan məlumatlardan göründüyü kimi, Antoni Rusiyaya da yollanmaq istəyirmiş. Amma bu plan alınmadıqda o, Almaniyaya yollandı. Onun 1603-cü ildə Almaniyaya gəlməsi güman olunur. Almaniya sarayı tərəfindən ona bəzi tapşırıqlar verildi ki, onların icrasının Səfəvi elçiliyi ilə hər hansı bir bağlılığı yox idi. Bir sözlə, Romada Hüseynəli bəylə baş verən ixtilafdan sonra Antoni Şerli ciddi bir iş görə bilmədi. Hüseynəli bəy isə Antoni Şerlidən ayrıldıqdan sonra ispan sarayına səfərini davam etdirdi. O, orada öz görüşlərini başa vurduqdan sonra Lissabondan yola düşdü və 1603-cü ildə İsfahana yetişdi. Beləliklə,

Şah Abbasın böyük ümidlə yola saldığı bu elçilik heyətinin Romada parçalanmaya məruz qalması tapşırılan vəzifələrin icrasına da öz təsirini göstərdi. Antoni Şerli elçilik heyətindən ayrı düşdü, Hüseynəli bəy isə İspaniyada öz görüşlərini keçirdikdən sonra geri qayıtmalı oldu. Elçilik heyətinin üzvləri İngiltərəyə səfər edə bilmədilər. Bundan əlavə, görüşlər keçirilən saraylarda da Osmanlı dövlətinə qarşı ittifaq yaradılması mümkün olmadı. Yəni Səfəvi dövləti ilə Osmanlı dövləti arasında müharibənin yeni səhifəsinin açıldığı bir vaxtda qərb dövlətlərinin Osmanlı dövlətinə qarşı təzyiq göstərməsinə nail olunmadı.

XVII əsrin əvvəllərindən etibarən Səfəvi-Osmanlı müharibələrinin yeni bir səhifəsi açıldı. Şah Abbas Osmanlı nəzarəti altında olan ərazilərin geri qaytarılması üçün Azərbaycan üzərinə hərbi yürüş təşkil etdi. O, hiss edirdi ki, bu müharibə uzun müddət davam edə bilər. Onun üçün də qərb dövlətləri ilə Osmanlı dövlətinə qarşı ittifaq yaradılması məsələsi yenidən meydana gəldi. Şah Abbas qərara aldı ki, bu məqsədlə Avropa dövlətlərinə yeni bir elçilik heyətini göndərsin və Robert Şerlini də həmin elçilik heyətinin rəhbəri təyin etsin. Robert Şerli də qızılbaş qoşunlarının tərkibində Osmanlı qoşunlarına qarşı döyüşlərdə iştirak edirdi. Onun hətta bəzi qoşun dəstələrinə rəhbərlik etməsi də bəllidir. R.Şerli iştirak etdiyi döyüşlərdə kifayət qədər şücaət və fədakarlıq göstərdi və bir daha Şah Abbasın təqdirini qazandı. Baxmayaraq ki, Antoni Şerlinin elçilik missiyasına bağlanan ümidlər özünü doğrultmamışdı, bununla belə Şah Abbas Robert Şerlinin fədakarlığını və sədaqətini yüksək qiymətləndirdi və onu elçilik heyətinin rəhbəri təyin etdi.

Robert Şerli özü də şah sarayında xidmət etməyi, qoşunların tərkibində yürüşlərə çıxmağı məmnunluqla qəbul edirdi. Yəni öhdəsinə düşən işləri sədaqətlə yerinə yetirirdi və bu mənada saray əhlinin də hörmətini qazanmışdı. Antoni Şerli Avropaya yola düşəndə ingilis elçilik heyətinin beş üzvü Robert Şerli il İsfahanda qaldı. Baxmayaraq ki, onun cəmi 18 yaşı var idi, amma tapşırılan işlərin öhdəsindən gəlməyi bacarırdı. O, əyninə qızılbaş paltarı

geyinirdi və bu mənada onu bəzən yerlilərdən fərqləndirmək də çətin olurdu. Robert Şerli də katolik məzhəbini qəbul etmişdi. Ona görə İsfahanda olan katolik missionerlərlə onun da yaxşı əlaqələri var idi. Başına isə Robert böyük bir qızılbaş papağı qoyurdu. Qulaqlarından birində deşik açaraq sırğa da daşıyırdı. Şah Abbasın da ona xoş münasibəti var idi və buna görə onu bəyzadə adlandırırdı. Elə bunun üçün idi ki, Antoni Şerli ilə salamatlaşanda Şah Abbas bildirmişdi ki, qardaşından nigaran olmasın. Antoni Şerlinin elçilik heyətinin nəticəsizliyi Şah Abbasın Robert Şerliyə olan münasibətinə müəyyən kölgə salsa, da tezliklə bu da aradan qalxdı. Çünki Robert Şerlinin xoş rəftarı və tapşırılan işə can yandırması Şah Abbasın ona olan əvvəlki münasibətini bərpa etdi (359).

Robert Şerlinin şah qoşunlarına sərkərdə təyin edilməsi haqqında Şerli qardaşlarının xatirələrində belə bir məlumat vardır: "Ser Robert Şerli qardaşının səfərə yollanmasından sonra sərkərdə elan olundu və şahın Osmanlı qoşunları ilə savaşı zamanı böyük bir vəzifəyə sahib oldu. O özünün elə bir qabiliyyət və rəşadətini nümayiş etdirdi ki, iranlılar ona əldə etdiyi zəfərlərdən xatirə olaraq bir tac bağışladılar. Düşmənlə üzbəüz gəldiyi gün o, əlinə bir ox alıb irəli atıldı və düşmən üzərinə elə bir həmlə etdi ki, onlar təəccüb və qorxu içərisinə düşdülər. Əsgərləri də ondan nümunə götürdülər və bütün düşmən döyüşçülərini qılıncdan keçirdilər. Yalnız sərkərdələrindən otuz nəfərini salamat saxladı. Ser Robert onları şahın hüzuruna apardı və dərhal osmanlılara bir məktub yazdı. Həmin məktubda tələb etdi ki, siz mənim qardaşım ser Tomas (döyüşdə Osmanlı qoşunlarına əsir düşmüşdü) azad edin, əvəzində bu otuz nəfərdən birini heç nəsiz geri qaytaracağam" (360).

Osmanlı qoşunları tərəfindən bu təklif qəbul olunmadı. Əksinə, Robert Şerliyə iddialı bir cavab verildi və bildirildi ki, Osmanlı əsirləri ilə nə etməyi bacarırlarsa edə bilərlər. Bununla da kifayətlənməyən Osmanlı döyüşçüləri qarşı tərəfə təhqir dolu sözlər də yazmdılar. Onların yazdıqlarından belə çıxırdı ki, heç nədən qorxmurlar və çox tezliklə qızılbaş qüvvələri üzərinə hücum çəkəcəklər. Bəlli idi ki, Osmanlı döyüşçülərinin bu təhdidedici sözlə-

rinin arxasında böyük bir güc də dayanırdı. Robert Şerlinin xəbəri var idi ki, Osmanlı qoşunlarının sayı yüz minlərlə hesablana bilər. İlk baxışdan ona gör də Osmanlı təhdidləri real görünə bilərdi. Robert Şerlinin fikrincə, onun rəhbərliyi altında olan qızılbaş qüvvələri apardıqları son döyüşlərdə kifayət qədər yorulmuşdular və onların daha bir ağır döyüşə atılmağa gücləri qalmaya bilərdi. Belə olduğu halda Osmanlı qüvvələri qarşısında davam gətirmək də xeyli çətin ola bilərdi. Lakin bu vəziyyət Robert Şerlini heç də qorxutmadı. Osmanlı qoşunları tərəfindən irəli sürdüyü təklifə rədd cavabı alan kimi, əsir götürdüyü Osmanlı döyüşçülərinin boynunu vurdurdu və sonra da öz döyüşçülərini əmr etdi ki, qətlə yetirilən Osmanlı döyüşçülərinin başlarını nizələrə keçirib insanlar arasında gəzdirsinlər. Bu yolla Robert Şerli öz dəstəsində və ətrafındakı insanlarda daha güclü döyüş ruhu yaratmağa cəhd göstərdi. Sonra da qoşun əhli arasında car çəkdi ki, o bu gün ya qarşısındakı düşməni məhv edəcək, ya da döyüş meydanında qılınca hədəf olacaqdır. Bu sözləri deyib Robert Şerli qoşun dəstəsini döyüş qabağı qruplaşdırmağa başladı. Döyüş düzülüşünü başa çatdırandan sonra Robert Şerli müşahidə etdi ki, onun qarşısında dayanan Osmanlı qoşunları on dəfə onun qüvvəsindən çoxdur. Qızılbaş döyüşçüləri də bunu müşahidə etdilər və ona görə onların arasında da bir təşviş özünü göstərməyə başladı. Robert Şerli qoşunlardakı bu təşvişi görəndə öz döyüşçülərinə bu sözlərlə ruh verməyə çalışdı: “Ey qeyrətli və rəşadətli döyüşçülər! Ehtiyac yoxdur ki, çoxlu sözlərlə sizin cürətinizi coşdurum. Çünki bu, atəş üstünə yağ tökülməsinə və ya ən ali atın yüyənlənməsinə bənzəyir. Əvvəlki döyüşlərdə göstərdiyiniz rəşadət, hətta sonuncu döyüşdəki fədakarlığınız məni əmin edir ki, əgər düşmən indikindən də qat-qat çox olsa, yenə haqq bizim tərəfimizdədir və bizim döyüşçülərimiz rəşadət donuna bürünüblər. Bu vəziyyətdə də biz müzəffər və fateh olacağıq. Mənim qeyrətim məni coşdurur ki, ya ilk savaşda olum, ya da qoşun əhlinin sonuncu nəfəri kimi müqavimət göstərim, yenə də şərəfli ölüm məni öz tərəddüdlərimdən xilas edəcəkdir. Ona görə də mənim dediklərimi öz rəşadətinizin

əsası kimi qəbul edin Sizin sərkərdəniz hara gedəcəksə, siz də onun ardınca gedin, cürət göstərin və onda şübhəsizdir ki, qələbə də sizinlə olacaqdır"(361).

Bu sözlərdən sonra Robert atının belinə qalxdı, papağının niqabını üzünə çəkib qeyz və qəzəblə Osmanlı döyüşçülərinin üstünə atıldı. Onun dediyi sözlərdən sonra bütün döyüşçüləri də ardınca döyüş meydanına atıldılar. Şerli qardaşlarının xatirələrində yazıldığına görə, onların bu cəsarəti Osmanlı döyüşçülərini matməəttəl qoymuşdu. Xüsusilə, Robert Şerlinin hərəkətləri onların təəccübünə səbəb olmuşdu. Çünki o, qorxu bilmədən şir kimi özünü qoşun içinə atmışdı və bütün döyüşçülərdən də öndə gedirdi. Bu sürətlə o, qarşısına çıxan hər kəsi də qılıncdan keçirirdi. Yenə xatirələrdə olan məlumata görə, bunu görəndə Osmanlı döyüşçülərinin çoxunun canına vəlvələ düşdü və ona görə də onların bir çoxu silahı yerə atıb geri çəkilməyə başladı. Bildirilirdi ki, Robert Şerlinin qılınc zərbəsindən çoxlu sayda dünyasını dəyişən Osmanlı döyüşçüsü də var idi. Xatirələrdə o da bildirilirdi ki, növbəti döyüş zamanı Robert Şerli özü fərdi qaydada daha böyük bir nəticə əldə etdi və 60 nəfərə yaxın daha böyük vəzifəyə malik Osmanlı hərbçisini əsir götürüb düşərgəyə gətirdi (362).

Osmanlı qoşunları ilə aparılan döyüşlərin birində Robert Şerli üç dəfə yaralandı. Bununla belə, o, vəzifəsinin icrasını inadla davam etdirdi. Bütün bu halları Şah Abbas da görürdü və ona görə də onun Robert Şerliyə olan hörməti də artırdı. On görə idi ki, Antoni Şerlinin elçilik missiyasının uğursuz başa çatmasına baxmayaraq, Robert Şerlini yeni elçi kimi Avropa dövlətlərinə göndərməyi qərara aldı.

Antoni Şerlinin geri qayıtması ləngiyəndə Robert Şerli də öz vətəninə qayıtmaq sevdasına düşdü. Amma Şah Abbas onun qayıtmasına icazə vermirdi. Yuxarıda qeyd edildiyi kimi, belə olanda Robert Şerli İngiltərədəki tanışları tərəfindən məktub təşkil etdirib İsfahana gətizdirdi və orada qardaşı Antoni Şerlinin İspaniyada böyük vəzifəyə təyin edildiyi bəyan olunndu. Sonra da Şah Abbasa məlumat çatdırıldı ki, Antoni Şerli böyük vəzifə tutduğu

üçün onun imkanlarından istifadə etmək olar və buna görə Avropaya yeni bir elçilik heyətinin göndərilməsi yaxşı olardı. Bildirilir ki, bu yolla Robert Şerlinin elçi kimi Avropaya göndərilməsi məsələsi də həll edildi (363).

Beləliklə, Robert Şerlinin rəhbərliyi altında olan elçilik heyəti 1609-cu ilin fevral ayında İsfahandan Mazandarana yola düşdü. Bu heyət də dəniz yolu ilə Rusiyaya, oradan isə Avropaya yollanmalı idi. Nəzərdə tutulmuşdu ki, Robert Şerli Polşada, Almaniyada, Venesiyada, Romada və İspaniyada olmalı və sonra da İngiltərəyə yollanmalı idi. Bu dövlətlərin hər birinin padşahına Şah Abbasın məktubu və qiymətli hədiyyələri çatdırılmalı idi. Bu dövlətlərin saraylarında Robert Şerli mehribanlıqla qarşılandı. 1609-cu ilin iyun ayında Robert Şerli Almaniyada olarkən ona "kent" məqamı verildi. Onu bu səfər zamanı 8 nəfərlik Səfəvi mənsubları və bir neçə nəfər də Robert Şerlinin öz ətrafında olan adamlar müşayiət edirdilər. Robert Şerli, yuxarıda qeyd edildiyi kimi, qızılbaş geyimində idi və böyük qızılbaş papağının üstünə kiçik bir xaç da asmışdı. Elçilik heyətinin digər üzvləri də bahalı qızılbaş geyimlərində idilər. Roma papasının qəbuluna yollanarkən də elçilik heyəti gözə görümlü bir geyimdə idi. Bu qəbul zamanı Roma papasını 12 nəfər kardinal müşayiət edirdi. Roma papası ilə də qəbul çox yüksək səviyyədə keçdi. Bu qəbulda Robert Şerli Şah Abbasın məktubunu Roma papasına təqdim etdi. Məktubun əsas məzmununu qərb dövlətlərinin Osmanlı dövlətinə qarşı ittifaqa girməsini Roma papasından xahiş edilməsi təşkil edirdi. Şah Abbas eyni zamanda Roma papasının köməyi ilə İspaniyanı Kipr adasının işğalına təhrik etmək istəyirdi. Kipr adası işğal edildikdən sonra burada Hələnb üzərinə də qoşun çıxarmaq mümkün idi. Bundan başqa, Şah Abbas bir daha Roma papasından xahiş edirdi ki, Üçmüəzzinə bir səlahiyyətli keşiş göndərsin və bu keşiş Səfəvi hüdudlarında məskunlaşmış bütün xristianların dini işlərinə rəhbərlik etsin. Qərb tədqiqatçılarının yazdığına görə, guya Şah Abbas bildiribmiş ki, əgər Osmanlı dövləti dağılsa və İstanbul ələ keçirilsə o da xristian dinini qəbul edəcəkdir. Bildirilir ki, Robert

Şerlinin bu iddiası Roma papası tərəfindən də maraqla qarşılandı. Romada olduğu zaman Robert Şerliyə Müqəddəs kilsənin kenti adı verildi (364).

Mövcud olan məlumata görə, Şah Abbas Roma papasının təzyiqi ilə ilk növbədə İspaniya kralını Osmanlı dövlətinə qarşı hərbi ittifaqa cəlb etmək istəyirdi. Roma papası ilə aparılan müzakirələrdən sonra Robert Şerli İspaniyaya yola düşdü. Burada da onun qarşısında dayanan başlıca vəzifə Şah Abbasın məktubunu ispan kralına təqdim etmək və onu Osmanlı dövlətinə qarşı ittifaqa sövq etmək idi. Eyni zamanda ispan sarayında da Kipr adasının ələ keçirilməsi və sonra da Qırmızı dənizin ispan dənizi tərəfindən bağlanması məsələsi qaldırıldı. Amma onun qaldırdığı məsələlərin heç biri ispan sarayı tərəfindən qəbul edilmədi. Qeyd edilməlidir ki, ispan sarayı bir tərəfdən ingilislərin Səfəvi dövləti adından elçilik etməsinə bir qədər ehtiyatla yanaşırdılar. Digər tərəfdən isə yeni şəraitdə Osmanlı dövlətinə qarşı hərbi ittifaqa girişmək İspaniyanın maraqlarına cavab vermirdi.

Belə olanda Robert Şerli səfərini İngiltərəyə doğru davam etdirmək qərarına gəldi. Hələ Madriddə ikən Robert Şerli İngiltərənin oradakı elçisi ilə görüşdü və özünün elçilik məqsədi ilə bağlı ona da məlumat verdi. İngiltərə üçün cəlbedici məsələ ondan ibarət ola bilərdi ki, Şah Abbas Avropa ilə ipək ticarətinin ingilis tacirlərinin monopoliyasına verməyə hazır idi. Bəlli olduğu kimi, Şah Abbas ipək ticarəti marşrutunun Hələb və İstanbuldan keçməsini istəmirdi. Çünki bu halda əldə edilən gömrük vergiləri Osmanlı dövlətini daha da gücləndirirdi. Şah Abbas cənub limanlarından istifadəni ingilislərin ixtiyarına verməklə onlara gömrük güzəştləri də verə bilərdi. Bu təkliflər ingilis sarayı üçün cəlbedici görünə bilərdi. Amma Robert Şerlinin İngiltərəyə yola düşməsi bəzi çətinliklərlə qarşılaşdı. Bir məlumata görə, qardaşı Antoni Şerli onun İngiltərəyə yola düşməsini istəmirdi və buna müvəffəq olmaq üçün hətta ispan sarayına da müraciət etmişdi. Antoninin sözlərinə görə, Robertin İngiltərəyə yollanması və orada Səfəvi təklifləri ətrafında müzakirə aparması İspaniyanın maraqlarına

qarşı çevrilə bilərdi. Ona görə də Robert bir müddət İspaniyada ləngiməli oldu. Bununla belə, o, Hollandiyaya yollanmaq bəhanəsi ilə İspaniyanı tərk etdi. O, belə bir məlumat yaydı ki, Rotterdamdan olan bir holland tacirlə Səfəvi ipəyinin ticarəti ilə bağlı sövdələşməsi vardır. Həmin sövdələmənin həll edilməsi üçün Hollandiyaya getməlidir. Robert Şerli bu yolla Hollandiyaya, oradan isə İngiltərəyə yollandı (365).

Robert Şerli özü də İngiltərəyə yollanmağa bir qədər ehtiyatla yanaşırdı. Bununla bağlı o, İngiltərənin İspaniyadakı elçisi Kattinqtonla məsləhətləşmiş və o da bu barədə ingilis sarayına məktub göndərmişdi. Robert Şerli ehtiyat edirdi ki, onu ingilis sarayında Səfəvi elçisi kimi qəbul etməsin və buna görə də Şah Abbasın verdiyi tapşırıqların öhdəsindən gələ bilməsin. Ona görə də Robert Şerli İngiltərənin İspaniyadakı elçisi vasitəsi ilə bilmək istəyirdi ki, ingilis sarayı onu ingilis təbəəsi kimi deyil, Səfəvi elçisi kimi qəbul edəcək, ya yox? Robert Şerli Səfəvi elçisi kimi göndərilməsinin təsdiqi kimi, şah sarayının İngiltərəyə verə biləcəyi ticarət güzəştləri haqqındakı yuxarıdakı məlumatı da İngiltərənin İspaniyadakı elçisi vasitəsilə ingilis sarayına çatdırdı. Robert Şerli onu da əlavə etdi ki, şah sarayı cənub sularındakı iki limanı ingilis tacirlərinin ixtiyarına verməyə hazırdır. Ticarət məsələləri ilə bağlı İngiltərə ilə razılaşmanın imzalanması da Səfəvi sarayının maraq dairəsində idi. Bundan əlavə, Şah Abbas ingilislərin köməyi ilə gəmilərin hazırlanması ilə bağlı da müəyyən planlara malik idi. O istəyirdi ki, belə gəmilərin hissələri İngiltərədə hazırlansın, sonra onlar ingilis gəmiləri vasitəsilə cənub sahillərinə daşınsın və orada yığılaraq gəmi halına salınsın. Şah Abbas eyni zamanda İngiltərə ilə hərbi ittifaq münasibətlərinin də yaradılmasına tərəfdar idi. Bu ittifaq vasitəsilə o, İspaniyanın cənub sularında, xüsusilə də Hörmüz adasındakı monopoliyasına son qoymaq istəyirdi. Şah Abbas ümid edirdi ki, belə ittifaqın yaranacağı təqdirdə İngiltərədən yetərli hərbi kömək ala biləcəkdir (366).

1611-ci il oktyabr ayının 1-də ingilis kralı I Ceyms özünün Hempton Kort sarayında Robert Şerlinin qəbul etdi. Robert Şerli

ingilis sarayına gəlmiş ilk Səfəvi elçisi idi. O, kral tərəfindən maraqla qarşılandı və ona Robert Şerli tərəfindən Şah Abbasın məktubları təqdim olundu. Bu məktublar vasitəsilə ingilis kralının qiyabi şəkildə Şah Abbasla ilk tanışlığı baş verirdi. İngilis kralına təqdim olunan məktublardan biri Şah Abbas tərəfindən 1610-cu ilin noyabr ayında imzalanmışdı. Tədqiqatçıların fikrincə, Şah Abbasın göndərdiyi məktublarda və Robert Şerlinin şifahi olaraq çatdırdığı ismarıclarda bir neçə məsələyə toxunulmuşdu və ingilis sarayından da həmin məsələlər ətrafında münasibət bildirilməsi arzu edilirdi. Həmin məsələlər bunlar idi: qarşılıqlı şəkildə səltənət saraylarında elçilərin olması, ticarət sərbəstliyi və ingilis təbəələrinin Səfəvi dövləti hüdudlarına azad şəkildə gedib-gəlməsi, Səfəvi hüdudlarında Şərqi-Hind ticarət şirkətinin təsis edilməsi, Osmanlı dövləti ilə ticarət əlaqələrinin kəsilməsi, ticarət işlərinin aparılması üçün cənub sahillərində iki limanın ingilis tacirlərinin istifadəsinə verilməsi, Osmanlı dövlətinə qarşı hərbi ittifaqın yaradılması (367).

Sözsüz ki, müzakirə olunan başlıca məsələ Osmanlı dövlətinə qarşı hərbi ittifaqın yaradılması məsələsi idi. Digər məsələlər isə, əsasən, hərbi ittifaqın yaradılması üçün qarşı tərəfin təşviqləndirilməsinə xidmət edirdi. Şah Abbas da öz məktubunda qarşılıqlı dostluq münasibətlərinə meylli olması haqqında giriş sözlərindən sonra bu məsələyə toxunurdu. O yazırdı ki, qərb dövlətlərinin padşahları tərəfindən xeyli sayda ruhani və keşiş Səfəvi sarayına göndərilmiş və onların vasitəsi ilə dostluq münasibətləri haqqında razılaşmaların imzalanması təklif edilmişdir. Şah Abbas əlavə edirdi ki, məhz belə təklifləri alandan sonra Robert Şerlinin simasında öz elçisini qərb dövlətlərinin xristian padşahlarının yanına göndərməyi qərara aldı. O, Robert Şerlinin xeyli vaxtdan bəri Səfəvi sarayında olmasını qeyd edir, onun haqqında yüksək fikirdə olduğunu bildirir və yazırdı ki, o həm sizinkidir, həm də bizimki. Məktubda Osmanlı dövlətinə qarşı hərbi ittifaq yaradılması ilə bağlı qərb padşahlarının təkliflərinə xüsusi münasibət bildirilirdi. Şah Abbasın yazmağına görə, qərb dövlətləri Səfəvi dövləti ilə

ittifaqda iki istiqamətdən Osmanlı dövlətinə hücum edilməsini təklif edirdilər. Bununla əlaqədar, Şah Abbas da öz istəyini yazırdı ki, qərb dövlətləri mümkün qədər tez bir zamanda Hələb və ya Şam istiqamətindən, ya da münasib bilinən digər bir istiqamətdən Osmanlı dövləti üzərinə hücum təşkil edilsin. Bu zaman Şah Abbas da öz qoşunları ilə Diyarbəkr istiqamətindən və da Səfəvi dövlətinin qərb hüdudlarının digər bir istiqamətindən Osmanlı hüdudlarına hücum edə bilərdi. (368).

İngilis sarayı tərəfindən dörd nəfərlik xüsusi bir heyət təşkil edildi ki, həmin heyət Robert Şerli tərəfindən ifadə olunmuş Səfəvi təkliflərini müzakirə etsin. Bu heyət də istər hərbi-siyasi, istərsə də ticarət təkliflərini müzakirə etdi və onların qəbul edilməsinin mümkünlüyünü araşdırdı. Mövcud olan məlumata görə, Osmanlı dövləti ilə geniş ticarət əlaqələrinə malik olan bəzi ingilislər Səfəvi sarayının təkliflərinə müsbət yanaşmadılar. Çünki bu təkliflərin qəbul edilməsi həmin ingilislərin Osmanlı dövləti ilə mövcud olan ticarətini məhdudlaşdıra bilərdi. Bu təzyiq təşkil edilmiş heyətin hazırladığı nəticədə də öz əksini tapdı. İngilis sarayına çatdırıldı ki, Səfəvi dövləti çox uzaqda yerləşdiyi üçün bu dövlətlə ticarət əlaqələrinin genişləndirilməsi sərfəli deyildir. O da bildirildi ki, hazırda İngiltərə ilə Səfəvi dövləti arasında ticarət dövriyyəsi elə də böyük deyildir və Robert Şerli tərəfindən səsləndirilən təkliflərin icrası İngiltərəyə ciddi bir fayda gətirməyəcəkdir. Nəhayət o da bildirildi ki, hazırkı şəraitdə Səfəvi sarayının xahişinə əsasən Osmanlı dövləti ilə ticarət əlaqələrinin kəsilməsi məqsəduyğun deyildir (369).

İngilis kralı I Ceyms bu təkliflərlə razılaşdı. Bununla belə, ingilis kralı Səfəvi sarayı ilə münasibətlər qurulmasına maraqlı olduğunu da nümayiş etdirdi. Onun tərəfindən Robert Şerliyə "ser" ləqəbi və "saray şevalye"si rütbəsi verildi. Yəni göstərildi ki, ingilis sarayı Səfəvi elçisinə ehtiramla yanaşır. İngilis kralı hətta Robert Şerlinin gəmi ilə Hindistana çatdırılması haqqında da göstəriş verdi. Yəni Robert Şerli onun üçün ayrılmış gəmidə, ingilis sarayının xərcləri hesabına Hindistana çatdırılmalı idi. Robert Şerli

təxminən bir il yarım İngiltərədə qaldı. Lakin o, istər İngiltərədə, istərsə də digər Avropa dövlətlərində Şah Abbas tərəfindən verilən tapşırıqların öhdəsindən gələ bilmədi. Daha doğrusu, Avropa dövlətləri verdikləri vədlərin əksinə olaraq, Osmanlı dövlətinə qarşı hərbi ittifaq yaradılmasına getmədilər.

Robert Şerli İngiltərəni 1613-cü ilin yanvarında tərk etdi, Hindistana doğru istiqamət götürdü. İngilis gəmisi Robert Şerlini Hindistandan sonra Səfəvi hüdudlarına da yetirməli idi. Bu səfərin xərcləri də ingilis sarayı tərəfindən ödənildi. Robert Şerli isə öz üzərinə belə bir öhdəlik götürdü ki, yola çıxdığı gəmi Səfəvi hüdudlarına yetişəndə bir neçə ay orada gözləsin, Robert Şerli bu müddət ərzində gəmiyə ipək, pambıq və digər satlıq mal yığmaq, həmin mallar gömrük xərclərindən azad etmək və yola salmaq istəyirdi. Razılaşdırılmışdı ki, bu malların satışından əldə edilən faydanın üçdə ikisi gəmi sahibinə, üçdə biri isə Robert Şerliyə çatsın. Robert Şerli onu da vəd etdi ki, onun səfəri sağ-salamat başa çatsa, gəmi heyətinin bütün üzvlərinin şah tərəfindən mükfatlandırılmasına çalışacaqdır. Robert Şerli geri qayıdarkən Hindistanda hind padşahı Cahangir şahın qəbulunda olduqdan bir müddət sonra Səfəvi dövlətinə üz tutdu və 1615-ci ilin iyun ayında Səfəvi hüdudlarına yetişdi (370).

Robert Şerli təxminən səkkiz illik fasilədən sonra İsfahana gəlib çatdı. Şah Abbas onu mehribanlıqla qarşıladı və görüşdükləri ilk gün ona şah qəsrində gecələmək üçün yer ayrıldı. Robert Şerli elə ilk görüşdə də Şah Abbasa ingilis kralı I Ceymsin məktubunu təqdim etdi. İngilis kralı məktubun əvvəlində öz salamlarını və xoş arzularını bildirdikdən sonra Robert Şerlinin elçi kimi gəlişinə sevindiyini bəyan edirdi. Robert Şerlinin ingilis olduğu halda Şah Abbası təmsil etməsi onun məmnunluğu ilə qarşılanmışdı. İngilis kralı Səfəvi elçisinə İngilis sarayında böyük hörmət və ehtiram göstərildiyini və bu ehtiramın ilk növbədə Səfəvi şahına olan münasibətin ifadəsi olduğunu qeyd edirdi. İngilis kralı bir sıra mətləblərin məktubda yazılmadığını, onların Robert Şerli tərəfindən şifahi olaraq çatırılacağını da bildirirdi. Məktubda Şah Abbas

tərəfindən qaldırılan konkret təkliflər ətrafında aydın bir münasibət yox idi. İngilis kralı ingilis təbəələrinin Səfəvi hüdudlarına gəldikdə onlara sərbəst fəaliyyəti üçün imkan yaradılmasını arzu edir, Səfəvi dövlətinin güclənməsi və Osmanlı dövlətinin məhv olması üçün dualar etdiyini bildirirdi (371).

Doğrudur, Robert Şerlinin elçilik missiyası gözlənilən nəticəni vermədi. Bununla belə, onun qərb dövlətlərinin padşahları tərəfindən xoş məramla qarşılanmasını Şah Abbas müsbət qarşıladı və elə ona görə də o, Robert Şerlini yenidən elçi kimi Avropaya göndərməyi qərara aldı. Şah Abbas hələ də Osmanlı təhlükəsinin aradan qalxmadığını görürdü və ona görə yenidən cəhd edirdi ki, qərb dövlətləri ilə Osmanlı dövlətinə qarşı hərbi ittifaq yaradılması imkanlarını bir daha nəzərdən keçirsin. Belə bir ittifaqın yaradılacağı təqdirdə Şah Abbas heç olmasa Səfəvi ərazilərinin daha uğurla müdafiə olunacağına ümid edirdi. Amma Robert Şerli bu təklifə könülsüz yanaşdı və İsfahanda qalmaq arzusunda olduğunu bildirdi. Lakin bir neçə aydan sonra yenidən Avropaya yollanmağa hazır olduğunu Şah Abbasa bəyan etdi. Amma Robert Şerli şahdan xahiş etdi ki, İsfahanda olan keşişlərdən də iki nəfərin onunla getməsinə icazə versin. Şah Abbas bu keşişlərdən yalnız birinin elçilik heyətinin tərkibinə daxil edilməsinə razı oldu. O da keşiş Redemeto idi. Bununla bağlı, hətta Şah Abbas tərəfindən xüsusi bir fərman da imzalandı. Həmin fərmanda deyilirdi ki, keşiş Redemeto Avropa dövlətlərinə elçi kimi göndərilən Robert Şerlini müşayiət edəcək, Səfəvi elçisi ilə birlikdə qərb dövlətlərinin padşahları ilə görüşəcəklər. Bu keşişlərdən tələb olunurdu ki, onlar Səfəvi sarayının istəklərinin qərb saraylarına çatdırılmasında Robert Şerliyə köməklik göstərsinlər. Fərmandan aydın olur ki, Robert Şerli şahdan Pyer Jan Taddeusun da onunla getməsinə razılıq verməsini istəmişdi. Şah isə bu keşişin Səfəvi hüdudlarında qalmasını məqsədəuyğun sayırdı. Fərmanda vilayət hakimlərindən tələb olunurdu ki, Pyer Jan Taddeus hansı vilayətə yollanmış olsa, orada ona lazımi hörmət və ehtiram göstərilsin.

Robert Şerli lazımi təlimatları alandan sonra 1615-ci ilin oktyabrında İsfahanı tərk edib Hörmüz adasına yola düşdü (371).

Robert Şerli Elçilik missiyası ilə Avropaya yola düşməzdən əvvəl Hindistanda fəaliyyətə başlamış olan Şərqi-Hind şirkətinin nümayəndələrinin Səfəvi dövləti ilə münasibətlər qurulmasına vasitəçilik etdi. Bölgədə, xüsusilə də Hind okeanı hövzəsində ticarət işlərinin monopoliyada saxlamağa çalışan İspaniya-Portuqaliyanın bölgədəki qüvvələri İngiltərənin ticarət şirkətlərinin fəallaşması ilə heç də razı deyildilər. Şah Abbas isə öz növbəsində İspaniya-Portuqaliya ticarət şirkətlərinin bölgədə monopoliya yaratmalarını qəbul etmək istəmirdi. Ona görə ingilis ticarətinin Səfəvi ərazisinə yol açması Şah Abbas tərəfindən də təqdir edilirdi. Bundan xəbəri olan Şərqi-Hind şirkətinin Hindistandakı nümayəndəliyindən iki nəfər, Riçard Stil və Con Kruzər 1614-cü il mart ayının ilk günlərində İsfahana gəldilər. Bu nümayəndələr ilk gəlişi ilə Səfəvi dövləti ilə ticarət münasibətlərinin qurulması imkanlarını araşdırmaq və Səfəvi bazarı haqqında daha geniş məlumat almaq istəyirdilər. İlk gəlişlərində bu nümayəndələr həm də İngiltərədə istehsal olunan mahudun Səfəvi hüdudlarında satılmasına da nail olmaq istəyirdilər. Onların təmsil etdiyi Şərqi-Hind şirkəti tələb olunandan daha çox mahud parçanı Hindistan ərazisinə gətirmişdi və ona görə də onlar mövcud təklifdən artıq olan mahudun Səfəvi ərazisində satılmasına maraqlı idilər. İngilis nümayəndələri soyuq havalar üçün mahud parçaya Səfəvi ərazisində ehtiyacın çox olacağına əmin idilər. Səfəvi ərazisində ticarət işlərinin qurulması üçün adları çəkilən nümayəndələr Şərqi-Hind şirkətinin Hindistan nümayəndəliyindən məktub da gətirmişdilər. Həmin nümayəndələr İsfahanda Robert Şerlini tapdılar və gəlişlərinin məqsədini ona çatdırdılar. Onlar istəyirdilər ki, Robert Şerli lazım olan razılıqların alınması üçün Səfəvi sarayına öz təsirini göstərsin. Həmin günlərdə Robert Şerlinin artıq elçi kimi yenidən Avropaya getməli olduğu bəlli olmuşdu. Bu səfər zamanı o, İspaniyada da olmalı idi. Robert Şerli əmin idi ki, ispan sarayında onun ingilis tacirlərinə Səfəvi sarayında vasitəçilik etməsi bəlli olarsa, onda onun İspani-

yaya olacaq elçiliyi uğursuz başa çata bilər. Bununla bağlı məlumatların ispan sarayına çata bilməsi ehtimalı isə var idi. İsfahanda missionerlik fəaliyyəti ilə məşğul olan portuqal keşişlər bu barədə xəbər tutan kimi, ispan sarayına məlumat göndərə bilərdilər. İspaniya isə ona rəqib olan bir dövlətin fəaliyyətinin şərqdə genişlənməsini istəmirdi. Robert Şerli çətin vəziyyətdə qalsa da, ingilis tacirlərinə kömək etmək qərarına gəldi. O, məlumatın keşişlərə çatmaması üçün gizli şəkildə Şərqi-Hind şirkətinin nümayəndələrini səltənətin sədr-əzəminə təqdim etdi və ondan xahiş etdi ki, ingilis şirkətinin fəaliyyətinin qurulması üçün şahdan hökm alınmasına kömək etsin. Şah Abbas da ingilis şirkətinin Səfəvi dövlətinə gəlməsini müsbət qarşıladı və ingilis tacirlərinin səltənət hüdudlarında azad fəaliyyəti ilə bağlı fərman verdi. Bu fərman səltənətin bütün vilayət hakimlərinə və vəzifəli mənsublarına ünvanlanmışdı ki, onlar ingilis nümayəndələrinə hörmət və ehtiram göstərsinlər, onların Səfəvi hüdudlarındakı fəaliyyət sərbəstliyini təmin etsinlər. Konkret olaraq bildirilirdi ki, ingilislərə məxsus olan gəmilərin Cask limanına və ya digər limanlara daxil olduğu zaman yerli hakimlər onlara mehribanlıq göstərməlidirlər. Fərmanda deyilirdi ki, ingilis tacirləri gətirdikləri malları satmaq üçün səltənət daxilində istədikləri yerə apara bilərlər. Tələb olunurdu ki, ingilis tacirlərinin cənub limanlarına yan almaları zamanı onlar digər avropalıların təzyiqlərindən qorunsunlar (372).

Fərmanın sonunda göründüyü kimi, ingilislərin Avropanın digər dövlətlərinin təmsilçilərindən qorunması da yerli hakimlərinin vəzifələrinə aid edilmişdi. Konkret ünvan göstərilməsə də, məlum idi ki, XVI əsrin sonu, XVII əsrin əvvəllərindən cənub sularında məhz İspaniya-Portuqaliya güclü mövqelərə malik idi və yalnız bu dövlətin bölgədəki qüvvələri ingilis ticarətinin bölgədə genişlənməsini məhdudlaşdırmağa çalışa bilərdi. Şah Abbas da cənub bölgəsinin hakimlərindən tələb edirdi ki, ingilis tacirlərinin fəaliyyətini həm də portuqalların təzyiqlərindən qorusunlar. Bu fərmandan sonra ingilis şirkətinin nümayəndələri özləri də müəyyən dəyərləndirmələr apardılar və Cask adasının ticarət işlərinin qurul-

ması üçün münasib bir liman olduğu qənaətinə gəldilər. Bu liman ispan-portuqal təhlükəsindən də müəyyən məsafədə idi. Şərqi-Hind şirkətinin İsfahana gəlməsi, Səfəvi dövləti ilə ticarət üçün müəyyən güzəştləri əldə etməsi bütünlükdə iki dövlət arasında iqtisadi-siyasi münasibətlərin qurulması üçün ciddi əhəmiyyətə malik idi. Bu münasibətlərin bərqərar edilməsi və möhkəmləndirilməsi bölgədə İspaniya-Portuqaliya monopoliyasının aradan qaldırılmasına yol açа bilərdi. Bu da Şah Abbasın izlədiyi siyasətə cavab verirdi. İngilis şirkətinin nümayəndələri Cask adası vasitəsilə ticarətin qurulması imkanlarına əmin olduqdan sonra 1616-cı ilin noyabr ayında ilk ticarət gəmisini Hindistandan Cask adasına yola saldılar. Bu gəmi ilə bir ingilis heyəti də yola düşdü. Edvard Kannok tərəfindən rəhbərlik edilən həmin heyət 1617-ci ilin mart ayında İsfahana yetişdi (373).

Edvard Kannokun rəhbərlik etdiyi nümayəndə heyəti İsfahana yetişəndə Şah Abbas səltənət paytaxtında deyildi. O, qızılbaş qoşunları ilə birlikdə Gürcüstanda baş vermiş qiyamların yatırılmasına yollanmışdı. Edvard Kannok yaranış olan münasib şəraitdən yararlanaraq Səfəvi sarayı ilə ticarət işləri ilə bağlı bəzi məsələlər üzrə Şah Abbasın razılığını əldə etmək istəyirdi. Həmin məsələlərə Səfəvi dövləti ilə ticarət razılaşmasının imzalanması, ingilis istehsalı olan malların Səfəvi ərazisində satılması üçün razılaşmanın əldə edilməsi və cənub sahillərində ingilis ticarətinin təşkili üçün xüsusi bir limanın müəyyənləşdirilməsi daxil idi. Bu məsələlərin həllinə nail olmaq üçün Edvard Kannok Şah Abbasın yanına yollandı (374).

Edvard Kannokun rəhbərlik etdiyi gəminin və heyətin Səfəvi hüdudlarına gəlməsi haqqında italiyalı səyyah Pyetro Delavallenin xatirələrində də bəzi qeydlər qalmaqdadır. Həmin qeydlərdə deyilirdi: "Bu il ilk dəfə Fars körfəzində bir ingilis gəmisi cənub sahilinə yaxınlaşdı. Bu gəmi özü ilə bir miqdar satlıq əmtəə və bir dəstə tacir, o cümlədən Edvard Kannok ki insanlar onu elçi kimi tanıyırdılar, gətirmişdi. O, mart ayının sonlarında İsfahana gəldi. Amma o zaman şah orada deyildi. Ona görə də onu bir müddət

müvəqqəti olaraq əlahəzrətin qonağı kimi mehribancasına qarşılamalı oldular. Kifayət qədər istirahət edəndən sonra o, bu ilin yayında sərhəd bölgəsində olan şahın görüşünə yollandı. O, ingilis padşahı və Hindistanla ticarəti həyata keçirən şirkət adından şaha təklif etmək istəyirdi ki, hər il ingilis gəmiləri ingilis malları ilə Fars körfəzindəki limanlara gəlsinlər və sonra da İran ipəyini oradan okean yolu ilə İngiltərəyə daşısınlar. Şah da bunda çox maraqlı idi ki, ipək Türkiyə yolu ilə daşınmasın. Çünki hazırda səltənət ipəyi bu ölkə vasitəsilə Hələbə və digər şəhərlərə daşınır və buna görə də onun düşməni olan türklər bundan çoxlu fayda əldə edirdilər. İspaniyanın nümayəndəsi də bu vaxt şahın yanına yollandı. O da şahın qarşısında məsələ qaldırmaq istəyirdi ki, ingilislərin İran ərazisinə daxil olmasına icazə verməsin. Çünki qorxurdu ki, əgər onların ayağı İrana dəysə, onda iki dövlə arasında ticarət qapıları açılacaq. Bundan sonra isə ingilislər və portuqallar arasında qədimdən mövcud olan düşmənçilik tezliklə Hörmüzə, ya da onun ətrafında portuqal dövlətinin mənafelərinə güclü zərbə vuracaqdır. Ona görə də şahın yadına salmaq istəyirdi ki, o, İspaniya padşahı ilə olan dostluğuna görə icazə verməsin ki, onun düşmənləri, yəni ingilislər İran torpağına ayaq açsınlar. Hələ bilmirəm ki, onların müzakirələri nə ilə nəticələnmişdir. Lakin əminəm ki, ingilislər bu mübarizədə qalib olacaqlar. Çünki şah bir tərəfdən çox istəyir ki, öz ipəyini türklərin əlindən çıxarsın. O çalışır ki, imkan olduqca daha çox qərb dövlətləri ilə əlaqələr qursun, onlarla ticarətə başlasın və onları İran ərazisinə gəlməsinə təşviqləndirsin. Digər tərəfdən isə şah portuqallarla dost olsa da, onların sərhədə belə yaxın olmalarını istəmir. Əlinə imkan düşərsə istəyər ki, yalnız ingilisləri deyil, hətta Avropanın güclü dəniz qüvvələri olan digər məmləkətlərdən də onun ərazilərinə gəlib-getsinlər və onların köməyi ilə portuqallara qarşı çıxa bilsin" (375).

Edvard Kannok və onun heyəti Şah Abbas tərəfindən mehribanlıqla qarşılandı və onlar arasında ingilisləri ümidləndirən bir müzakirə oldu. Şah Abbas ingilislərin Səfəvi dövlətinə ayaq açmasında maraqlı olduğu üçün Kannok tərəfindən qaldırılan tək-

liflərə də müsbət cavab verdi və bunun nəticəsi idi ki, Şərqi-Hind ingilis şirkəti Səfəvi ərazisində ticarətlə məşğul olmaq üçün böyük güzəştlər əldə etdi. Həmin güzəştlərə əsasən, ingilis təbəələrinin səltənət ərazisində azad hərəkətinə, onların təhlükəsizliyinə, ticarətlə məşğul olmasına zəmanət verirdi. Bu güzəştlər əsasında ingilislər Səfəvi ticarətində hətta müəyyən monopol hüquqlar əldə etmək imkanı qazandılar. İngilis nümayəndə heyəti ilə Səfəvi dövləti arasında bir razılaşma da imzalandı. İngilis təbəələrinin Səfəvi dövləti ərazisində ticarət fəaliyyətini tənzimləyə biləcək bu razılaşma 20 bənddən ibarət idi. Həmin bəndlərin məzmunu belə idi (376):

- Şah Abbas bildirirdi ki, əvvəllər də qarşı tərəfin padşahı tərəfindən şahın məhrusə məmləkətinə böyük və kiçik elçilər göndərilmişdir. Buna görə əlahəzrət ingilis padşahının iki dövlət arasında dostluq və ehtiram münasibətlərinin möhkəmlənməsini istəyəcəyi təqdirdə şah sarayı tərəfindən də elçi göndərilə bilər ki, bu elçi də mövcud olan dostluğu quruyub saxlasın;

- İngiltərə təbəələrinin şahın məhrusə məmləkətinə aid olan limanlardan, digər limanlardan və ya da quru yoldan keçib gəlsələr həmin məntəqələrin hakimləri onların hərəkətinə mane olmasınlar, onların fəaliyyətinə çətinlik yaratmasınlar. Bundan əlavə həmin adamlara lazım olan sayda dəvə və digər yük heyvanları kirayəyə versinlər ki, onlar da öz mallarını istədikləri yerə apara bilsinlər. Bu zaman onlardan yüksək kirayə haqqı alınmasın;

- İngilis tacirlərindən tələb olunurdu ki, yan aldıqları limanlarda gətirdikləri malları həmin yerdə mövcud olan qiymətlərə uyğun olaraq satsınlar və bahaçılığa yol verməsinlər;

- İngilislərin ticarət yükünü daşıyan gəmi qəzaya uğrayacağı təqdirdə onun yüklərinin kənara daşınmasına kimsə mane olmalı deyildi. Bundan başqa yerli əhali də qəzaya düşmüş gəmilərin yüklərini mənimsəməməli və onları tapacağı halda sahibinə geri qaytarmalı idi;

- İngilis tacirləri Səfəvi dövləti ərazisində istənilən şəhərdə öz mallarını sata və onun əvəzində yerli malları ala bilərdilər. Kimsə

onları ticarət işlərinə mane olmalı deyildi. Limanlarda da onların ticarət fəaliyyətinə kimsə mane olmamalı idi. Bir sözlə, ingilis tacirlərinə səltənət daxilində hərəkət sərbəstliyi təmin edilməli idi;

- İngilislər yerli malları qiymətli daşlar qarşılığında alacağı təqdirdə də kimsə onların fəaliyyətinə mane olmamalı və bu yolla ticarət etmələrinə yol açılmalı idi;

- İngilis tacirləri şahın məhrusə məmləkətinə gələcəkləri təqdirdə kimsə onları öz dini mərasimlərini icra etməyə mane olmalı deyildi, kimsə onları islam dinini qəbul etməyə məcbur etməməli idi. Əgər bu adamlar öz xoşu ilə islam dinini qəbul etsəydilər, onun əmlakının toxunulmazlığı təmin edilməli idi;

- Şah məmləkətinə gələn ingilis tacirlərinin yanında silah olsaydı, onu daşımaq səlahiyyətinə malik idilər. Kimsə onların silah gəzdirməsinə etiraz etməməli idi;

- Səfəvi ərazisinə gəlmiş ingilis tacirlərinə qarşı oğurluq və soyğunçuluq əməlləri qadağan olunurdu. Əgər ingilislərə qarşı oğurluq və ya soyğunçuluq edənlərdən kimsə öldürülsəydi onun qanı batmalı idi. Əgər oğurluq edən adan salamat şəkildə tutulsaydı, onda həmin adam ingilis nümayəndələrinin şahidliyi ilə öz cəzasına çatdırılmalı idi. Oğurluq edən adan avropalı olduğu təqdirdə isə həmin adam ingilis konsulu tərəfindən cəzalandırılmalı idi;

- İngiltərə padşahı tərəfindən Səfəvi sarayına elçi göndəriləcəyi halda, ona böyüklüyündən və kiçikliyindən asılı olmayaraq İsfahanda məskən ayrılmalı idi. Həmin elçi şəhəri tərk etməli olduğu halda həmin məskən başqasına deyil, bu elçinin yanındakı adamlardan birinə verilməli idi. Elçi geri qayıdana qədər həmin ev başqasının əlinə düşməli deyildi;

- Səfəvi dövlətinə gəlmiş elçilik heyətinin üzvlərindən kimsə doğru olmayan hərəkət etsəydi, onun tənbih edilməsi elçinin özünə həvalə edilməli idi. Hadisənin baş verdiyi məntəqənin hakimi və ya darğası isə bu işə qarışmamalı və ingilislərin həyatına çətinlik yaratmalı deyildi;

- Səfəvi dövləti ərazisinə gəlmiş elçi məmləkətin istədiyi şəhərində özünə müavin (konsul) təyin edə bilərdi. Bu müavin həmin şəhərdə yerləşməli və həmin şəhərin hakimi də onunla elçi kimi davranmalı idi;

- Konsulun təyin edildiyi şəhərdə onunla bağlı hər hansı bir ixtilaf baş verəcəyi halda, o bu barədə həmin şəhərin hakiminə məlumat çatdırmalı idi. Şəhər hakimi lazımi qərarı qəbul edə bilməyəcəyi halda konsul bu məsələ barəsində elçiyə məlumat verməli idi. Elçi də bu barədə şaha məlumat çatdırmalı və məsələnin həlli ilə bağlı şah tərəfindən qərar verilməli idi;

- İngilis elçisi yanında bir neçə tərcüməçi saxlaya bilərdi. Bu tərcüməçilər yerli adamlar olduğu təqdirdə onlara qarşı da müəyyən tələblər irəli sürülürdü. Həmin tərcüməçilər etibarlı adamlar olmalı və onlar elçi və ya konsul adından danışdığı halda bu tərcüməçinin sözlərinə şübhə edilməməli idi. Elçiyə və onun adamlarına hörmət edildiyi kimi, tərcüməçilərə də eləcə hörmət edilməli idi;

- Yerli sakinlərdən kimsə elçiliyin xidmətinə girsəydi, məvacibi elçilikdən almalı idi və bununla bağlı kimsə ona çətinlik yaratmalı deyildi;

- Osmanlı ərazisində və ya başqa səltənətlərdə bir ingilis əsir düşmüş olsaydı və onu gətirib Səfəvi ərazisində satsaydılar və ingilislər də onların ingilis olmasını təsdiqləsəydilər, onda həmin əsirlər əgər islam dinini qəbul etməyiblərsə satın alınmalı və sonra da azad edilərək ingilislərə satılmalı idi;

- Əgər Səfəvi hüdudlarında ingilis təbəələrindən kimsə dünyasını dəyişsəydi, onun əmlakına kimsə toxunmamalı idi. Bu əmlak elçiyə və ya konsula təhvil verilməli və onların vasitəsilə həmin adamın varisinə çatdırılmalı idi. Dünyasını dəyişmiş ingilis mövcud xristian qəbristanlıqlarından birində dəfn edilə bilərdi. Kimsə bu işə də mane olmalı deyildi;

- Səfəvi hüdudlarında bir ingilis xristian dininə mənsub olan bir xristian xanımla evlənsəydi, onların övladı olsaydı və bu valideynlər sonradan dünyasını dəyişmiş olsaydı, o zaman onların öv-

ladı əgər isa dinini qəbul etməyibsə, onda o, elçiyə və ya konsula təhvil verilməli idi;

- İngilis tacirlərinin Səfəvi ərazisinə gətirdiyi və ya buradan Avropa ölkələrinə apardığı mallardan vergi və onda bir tutulması İstanbulda, Hələbdə və Osmanlı dövlətinin digər ərazilərində tətbiq edilən vergi miqdarında tutulmalı, həmin miqdardan artıq vergi alınmamalı, yol müşayiətçiləri əvvəllər olduğu qaydada hərəkət etməli və normadan artıq haqq tələb etməli deyildilər. İngilis tacirlərinin malları oğurlandığı halda, bu hadisənin baş verdiyi yerin hakimi oğurlanan malları axtarıb tapmalı və sonra da onları konsulun və xristian keşişin şahidliyi ilə sahibinə qaytarmalı idilər;

- Müsəlmanlarla ingilislər arasındakı sövdələşmə zamanı hər hansı bir ixtilaf baş versəydi, onda məhkəməyə müraciət edilməli və ixtilafa düşənlər ingilis konsulunun yanına göndərilməli idi. Konsul da öz qanunlarına uyğun olaraq qərar qəbul etməli idi. Əgər ixtilafa səbəb olan maliyyə vəsaiti 20 tüməndən artıq olsaydı, onda məsələnin həlli elçiyə həvalə olunmalı idi. Elçi də şəriət məhkəməsi nümayəndəsinin qərarına uyğun olaraq əməl etməli idi;

- İngilis tacirləri gətirdikləri malları əvvəlcə müəyyənləşmiş yerdə sata bilməsəydi, onda bu mallar azad şəkildə səltənətin digər şəhərlərinə apara bilərdi.

Bu razılaşma göründüyü kimi, kifayət qədər geniş bir razılaşma idi və onun əsasında Səfəvi dövləti ilə geniş ticarət əlaqələri yaratmaq mümkün idi. Amma bu razılaşmada ingilislərin nail ola bilmədiyi məqamlar da var idi. İngilislər çox arzulayırdılar ki, Səfəvi ipəyinin ticarəti monopoliyası onlara verilsin. Razılaşmada isə bu məqam öz əksini tapmamışdı. Şah Abbas qeyd edildiyi kimi, daha çox Avropa dövləti ilə geniş ticarət əlaqələrinə malik olmaq istəyirdi. Belə əlaqələrin olması həm də siyasi münasibətlərə öz təsirini göstərə bilərdi. Digər tərəfdən Səfəvi hüdudlarındakı ingilis ticarəti heç də bütün vergilərdən azad edilməmişdi. Bu məsələ də əvvəllər tərəflər arasında müzakirə obyekti olmuşdu. Amma yuxarıdakı bəndlərdən göründüyü kimi, bəzi vergi növləri Os-

manlı dövləti ərazisində mövcud olan vergilər miqdarında saxlanmışdı.

Şah Abbas tərəfindən ingilislərə icazə verildi ki, İsfahanda və Şirazda ingilis ticarətxanaları təşkil edilsin. Bu ticarətxanalarda təmsil olunacaq ingilis tacirləri üçün Səfəvi hüdudları daxilində azad fəaliyyət göstərilməsinə geniş imkanlar yaradıldı. Eyni zamanda cənub sahillərində və limanlarında da ingilis tacirlərinin kök salması üçün lazımi güzəştlər qəbul edildi. Bütün bunlar, bir daha qeyd edilməlidir ki, İspaniya-Portuqaliyanın cənub sahillərindən, bütünlükdə Hind okeanı hövzəsindən sıxışdırılıb çıxarılması üçün böyük əhəmiyyət kəsb edirdi. İngiltərə dövrün artıq inkişaf etməkdə olan böyük dövlətlərindən biri idi və ona görə də ona istinad etməklə səltənətin siyasi və iqtisadi maraqlarını da həyata keçirmək imkanları var idi. Mövcud olan məlumata görə, Edvard Kannok ingilis ticarətinin genişlənməsi üçün Şah Abbas tərəfindən verilmiş güzəştlərdən dərhal istifadə etdi və hələ Səfəvi hüdudlarını tərk etməmiş İsfahanda və Şirazda ingilis ticarətxanalarını işə saldı (377).

İsfahan və Şirazda ingilis ticarətxanalarının təşkili məsələləri başa çatdıqdan sonra Edvard Kannok və onun heyəti Hindistana qayıtmaq məqsədilə Hörmüzə yola düşdü. Minab yaxınlığında o və onun bir neçə yoldaşı naməlum şəkildə dünyasını dəyişdilər. Bəzi məlumatlara görə, onlar portuqallar tərəfindən zəhərləndilər (378). Belə bir iddianın doğruluğu mümkün ola bilərdi. Çünki E. Kannokun Səfəvi dövləti ərazisindəki fəaliyyəti və əldə etdiyi nəticələr İspaniya-Portuqaliyanın maraqlarının sarsıdılmasına istiqamətlənmişdi. Ona görə də portuqallar da öz qisaslarını belə aldılar.

E. Kannokun dünyasını dəyişməsi əldə edilmiş razılaşmanın icrasına elə də bir ciddi təsir göstərmədi. Şah Abbas ingilis ticarətinin Səfəvi hüdudlarında rövnəq tapmasının tərəfdarı idi. Əldə edilmiş razılaşmadan sonra qərargahı Hindistanda yerləşdirilmiş Şərqi-Hind şirkətinin imkanlarından İspaniya-Portuqaliya qüvvələrinə qarşı istifadə edilməsi üçün də əlavə münasib bir imkan yarandı. Yuxarıda qeyd edildiyi kimi, şah sarayı Hörmüzün ispan-

portuqal qüvvələrindən azad edilməsi üçün Şərqi-Hind şirkətindən kömək istədi. Müəyyən tərəddüdlərə baxmayaraq bu şirkət də öz gəmilərini Hörmüz üzərinə hücumda iştirak etməsinə icazə verdi. Bunun qarşılığı olaraq Fars hakimi İmamqulu xanla ingilis şirkəti arasında bir razılaşma da imzalandı. Həmin razılaşmada Hörmüzdə toplanan gömrük vəsaitlərinin bərabər şəkildə bölünməsi, Hörmüzün Səfəvi və ingilis qüvvələri tərəfindən müştərək idarə edilməsi, xristian əsirlərin ingilislərə, müsəlman əsirlərin isə qızılbaşlara təhvil verilməsi, ingilislərin müharibə xərclərinin bir hissəsinin qızılbaş qüvvələri tərəfindən ödənilməsi, əldə edilmiş müharibə qənimətlərinin bərabər şəkildə bölüşdürülməsi kimi şərtlər nəzərdə tutulmuşdu. Belə razılaşmadan sonra müştərək hücuma başlamaqla Səfəvi dövləti 1622-ci ilin aprelində Hörmüz adasını bütünlüklə öz nəzarəti altına ala bildi. Yəni ingilislərlə qurulan münasibətlər cənub sularında Səfəvi maraqlarının da təmin edilməsinə yol açdı.

Səfəvi-İngiltərə münasibətlərinin təkmilləşdirilməsi üçün Robert Şerlinin ikinci elçilik missiyasına müəyyən vəzifələr tapşırılmışdı. Bu heyət 1623-cü ilin yanvarında Londona yetişə bildi. Robert Şerli ingilis kralı I Ceyms tərəfindən mehribanlıqla qarşılandı. Çünki Səfəvi dövləti ilə Şərqi-Hind şirkəti arasında əldə edilmiş razılaşmalardan ingilis sarayında artıq məlumat var idi. İngilis sarayının mənsublarının Robert Şerlinin kral tərəfindən qəbul edilməsi ilə bağlı bəzi qeydləri saxlanmaqdadır. Bu qeydlər Şerli qardaşlarının xatirələrində də əks olunmuşdur. Həmin qeydlərdə deyilirdi: "1623-cü il yanvar ayının 19-da mənə əmr verildi ki, Nyumarketə gedim elçi Robert Şerlini qarşılayım, onun qəbulunu təşkil edim, Sakhamdakı evimdə onun rahat yaşayışını təmin edim. Robert Şerli dəniz və quru yolla uzun səfərdən sonra gəlib bura çıxmışdı. Bacısı ledi Kroft da oradan mənə yazmışdı ki, qardaşının kral tərəfindən qəbul edilməsini təşkil edim. ...Beş gün sonra kral tərəfindən saray kolyaskası və beş nəfər xüsusi xidmətçi Sakhama gəldilər. Saraydan məni xəbərdar etmişdilər ki, həmin gün günortadan sonra kral elçini öz hüzuruna qəbul edəcəkdir.

Günortaya iki saat qalmış şah elçisini üç kolyaskada kral sarayına apardıq. Məni onu kralın xüsusi otağına müşayiət etdim. Oradan isə saray təmsilçisi onu kralın istirahət məkanına apardı və orada kralın qəbuluna yetişdi. Robert Şerli bütünlüklə iranlı paltarında idi və başında əmmamə var idi. O, kralın qəbuluna yetişəndə iki dəfə başını aşağı əyərək təzim etdi, əmmaməsini başından çıxardı şahın qarşısında qoydu. Özü isə dizini yerə dayaqladı və sonra sözlərini ifadə etdi. Kral ona ayaq üstə qalxmağa icazə verəndə əmmaməsini başına qoydu və fars dilində yazılmış etibarnaməsini təqdim elədi. Bütün İngiltərədə fars dilini bilən bir adam tapılmadığı üçün məktubundakı mətləblər naməlum qaldı. Bundan sonra kral elçiyə öz lütfünü bəyan etdi və ona qayıtmaq icazəsi verdi. ... Fevral ayının 14-də yenə əmr olundu ki, Sent Ceymz sarayında qəbul olsun. ...Saray kolyaskası və bir neçə xidmətçi ilə birlikdə onun evinə getdik və onu Sent Ceymz sarayına apardıq. Kral qəbul salonunda dayanıb elçinin daxil olmasını gözləyirdi. Robert Şerli daxil olanda əmmaməni çıxarmadan başı ilə təzim etdi. Sonra sağ əlini yerə toxundurdu və bu əlini alnına apardı. Krala yaxınlaşanda dizini yerə qoydu. Kral isə onu qaldırdı. Elçi gəlişinin məqsədini qısaca ərz elədi. Sonra da gəldiyi kimi də, geri qayıtdı" (379).

Bu görüş və müzakirələr zamanı ingilis sarayında da İngiltərə ilə Səfəvi dövləti arasında bir razılaşma əldə edildi. Bu razılaşmada Şah Abbasın arzusunda olduğu bəzi məqamlar da öz əksini tapdı. O cümlədən həmin razılaşmada aşağıdakılar nəzərdə tutulmuşdu:

-Səfəvi dövlət və Şərqi-Hind şirkəti üçün portuqallar cənub sularında ticarət çətinlikləri yaratsaydı, onda onlara qarşı mübarizə aparılması üçün Səfəvi dövlətinin sərəncamına ingilis gəmiləri verilə bilərdi. Bu zaman gəmiləri müharibə xərcləri Səfəvi dövlətinin xəzinəsi hesabına ödənilməli idi;

- İngiltərə dövləti Səfəvi tacirlərinə icazə verirdi ki, daşınma xərcləri ödənməklə öz yüklərini İngiltərəyə gətirsinlər və burada digər ölkələrin tacirlərindən ödədiyi vergilərdən artıq olmayan

vergilər ödəsinlər. Bundan başqa Səfəvi tacirləri İngiltərə ərazisinə qızıl və gümüş gətirmək və oradan aparmaq işində azad idilər. Bununla bağlı gömrük vergiləri ödənməli deyildi;

- Səfəvi dövləti də öz öhdəsinə götürürdü ki, İngiltərə istədiyi vaxt 25 min nəfərlik qızılbaş qoşunu bu dövlətin sərəncamına veriləcək (380).

Bu razılaşmanın əldə edilməsi İngiltərənin də maraqlarına cavab verirdi. Bununla İngiltərə Hind okeanı hövzəsində öz mövqelərini möhkəmləndirə bilərdi. Bu işdə İngiltərənin rəqibi hələlik İspaniya-Portuqaliya idi. İngiltərə cənub sularında öz mövqelərini möhkəmləndirmək işində ispan və portuqalların müqaviməti ilə rastlaşa bilərdi. Belə bir müqavimətin qırılması üçün də İngiltərə Səfəvi dövlətindən hərbi yardım istəyirdi. Cənub sularında ispan və portuqalların monopoliyasına son qoyulması üçün Şah Abbas da belə bir köməyin göstərilməsinə hazır idi. Robert Şerlinin elçiliyi ilə əldə edilmiş razılaşma Səfəvi tacirlərinə sərbəst şəkildə İngiltərə bazarlarına daxil olmaq yollarını açırdı. Lakin bu razılaşmanın rəsmiləşdirilməsi bir qədər uzandı. 1625-ci ilin mart ayında ingilis kralı I Ceymsin dünyasını dəyişməsi ilə həmin razılaşma da imzalanmamış qaldı. Bəzi məlumatlara görə, bu razılaşmada ingilis şirkətlərini təmin etməyən məqamlar var idi və ona görə də onlar onun rəsmiləşdirilməsini hər vasitə ilə təxirə salmağa çalışırdılar. Yeni kral I Çarlzın hakimiyyətə başlamasından sonra isə bu razılaşma ümumiyyətlə unuduldu (381).

Əslində, mövzu üzrə aparılan araşdırmalarda Robert Şerlinin əldə etdiyi razılaşmanın rəsmiləşdirilməməsi başqa bir səbəblə əlaqələndirilir. Belə ki, Robert Şerlinin Avropaya yollanmasından sonra yeni bir elçilik heyətinin İngiltərəyə göndərilməsi məsələsi ortaya çıxdı. Onda Nağdəli bəy adlı birisinin rəhbərliyi altında yeni bir elçilik heyəti İngiltərəyə göndərildi. Bu heyət ingilis gəmiləri ilə İngiltərəyə yetişdi. Həmin elçilik heyəti hələ Robert Şerli İngiltərədə olarkən gəlib Londona yetişdi. Nağdəli bəy ingilis sarayında bəyan etdi ki, yalnız o, Səfəvi sarayını təmsil etmək səlahiyyətinə malikdir və Robert Şerli belə bir səlahiyyətə malik de-

yildir. Onun sözlərinə görə, Robert Şerlinin təqdim etdiyi etibarnamə və digər sənədlər saxtadır və onların rəsmi qüvvəsi yoxdur. Bu bəyanat istər-istəməz ingilis sarayının əldə edilmiş razılaşmaya münasibətini də dəyişdi və onun imzalanması təxirə salındı (382).

Bir məlumata görə isə, Nağdəli bəy Şərqi-Hind şirkətinin gəmisində İngiltərəyə yollanmalı oldu. Bu gəmidə adı çəkilən şirkətin nümayəndələri ilə olan sövdələşmələr sonradan onun Robert Şerli ilə ixtilafa girməsinin səbəbi kimi göstərilməkdədir. Güman edilir ki, Robert Şerlinin əldə etdiyi razılaşma Şərqi-Hind şirkətinin maraqlarına cavab vermirdi və ona görə də bu şirkətin nümayəndələri Nağdəli bəyin vasitəsilə həmin razılaşmanın rəsmiləşdirilməsindən imtina edilməsinə müvəffəq oldular. Yəni Nağdəli bəy Robert Şerlini sənədləri saxtalaşdırmaqda ittihamlandırdı və bununla da qarşıya qoyulan məqsədə çatmaq mümkün oldu. Şerli qardaşlarının xatirələrində İngilis sarayının protokol müdirinin bu məsələ ilə bağlı öz əksini tapmış aşağıdakı qeydləri qalmışdır: "1626-cı il fevral ayının ortalarında Şərqi Hind ticarət şirkətindən ingilis padşahına xəbər verdilər ki, Portsmitə bir gəmi gəlmişdir. Bir müddət bu gəmi haqqında məlumat yox idi. Bildirildi ki, həmin gəmdə İran padşahının elçisi gəlibdir. Qərara alındı ki, kralın kolyaskası bir neçə mehmandarla birlikdə o elçinin Keniqstonda qarşılanması və onun Londona gətirilməsinə göndərilsin. Bu elçi üçün qabaqlar Robert Şerli ilə bağlı həyata keçirilmiş protokoldan daha üstün olan bir qarşılanma tədbirləri həyata keçirildi. Saray kolyaskasına səkkiz at qoşulmuşdu. Bu da elçi qarşılanmasına bir əzəmət vermək üçün edilmişdi. Bu elçi fevralın 19-da Londona çatdı. Tacirlər onun xərclərini ödədilər və ona bir mənzil tutdular. O, iki gün orada qaldı və icazə istədi ki, kral tərəfindən qəbul olunsun və bunun üçün tarix müəyyənləşdirilsin. Ser Robert Şerli və onun dostları belə güman etdilər ki, bu elçinin gəlməsi tacirlərin planları ilə bağlıdır. Çünki tacirlər də istəyirdilər ki, tez bir zamanda onu kralın qəbuluna çatdırsınlar. Ser Robert Şerli məsələdən xəbərdar olmaq üçün lord Krivlenddən xahiş etdi ki, onun adamlarının biri ilə yeni elçinin evinə gedə bilsin və onu

salamlasın. Ser Robert yeni elçiyə məlumat vermək istəyirdi ki, o da onun padşahı tərəfindən elçiliyə göndərilmişdir. Lord Krivlend bu işi etmək üçün protokol müdirindən ser Robert Şerlinin özü ilə gətirdiyi və krala təqdim etdiyi etibarnamənin ona verilməsini xahiş etdi. Lakin protokol müdiri razılaşmadı və dedi ki, onun bu məsələyə heç bir dəxli yoxdur. Bundan sonra lord Krivlend duk Bukenqhemə müraciət etdi və onun vasitəsilə kralın icazəsini aldı ki, o kağızları Robert Şerlinin səfəri ilə bağlı harada lazımdırsa, orada göstərə bilsin. Ona görə də lord Krivlend bu etibarnaməni götürdü. Yeni elçinin qəbula gəlməli olduğu gün kralın kolyaskasında mən də daxil olmaqla 7-8 nəfər ser Robert Şerlinin evinə getdik. Oradan isə birlikdə yeni elçinin evinə yollandıq. Mən dedim ki, gəlin əvvəlcə bu yeni elçinin evinə adam göndərək və gəlməyimiz haqqında ona xəbər verək. Yəni bizə qarşı hörmətsizlik göstərməsin. Biz bir nəfər göndərdik və yolda ikən onun cavabını aldıq. Yeni elçi dedi ki, onlar gələ bilərlər" (383).

Göründüyü kimi, yalnız Robert Şerli deyil, eyni zamanda saray mənsubları da yeni elçinin gəlməsini bir qədər təşvişlə qarşılaşmışdılar. Robert Şerlinin məsələni aydınlaşdırmaq üçün lord Krivlendə müraciət etməsi də əslində həmin təşvişlərin aradan qaldırılması istəyi ilə bağlı idi. Robert Şerli bilirdi ki, onun etibarnaməsi var və lord Krivlendə də məsələni müəyyənləşdirməzdən əvvəl həmin etibarnaməni protokol rəisindən əldə etdi. Lord Krivlend belə bir etibarnamənin mövcudluğuna əmin olandan sonra Robert Şerli ilə birlikdə yeni elçinin yanına getməyə razı oldu. Çox güman ki, Robert Şerli də, kral sarayının mənsubları da yeni elçinin gəlişinin məqsədi və şəxsiyyəti haqqında artıq əvvəldən məlumat almışdılar. Ona görə məsələnin aydınlaşdırılması yəqin ki, saray mənsubları üçün də maraqlı idi.

"Xülasə, elçinin evinə yollanıb onun otağına daxil olduq. Gördük ki, elçi iranlılar kimi səndəli üzərində bardaş qurub oturubdur. Bizim heç birimizə yer göstərmədi və yerindən tərpənmədi. Ser Robert Şerli ona salam verib onun yanında səndəli üzərində oturdu. Lord Krivlend tərcüməçi vasitəsilə bizim gəlişimizin məqsə-

dini ona çatdırdı. Amma lord nə vəzifə sahibi olması haqqında ona məlumat vermədi. Mən fürsət tapıb lord Krivlendin vəzifəsi, məqamı və nüfuzu haqqında yeni elçinin tərcüməçisinə xəbər çatdırdım. Bu zaman elçi ayaqlarını topalayıb səndəlidən yerə düşdü və lorda azacıq bir ehtiram nümayiş etdirdi. Bundan sonra ser Robert Şerli öz etibarnaməsini açıb onu iranlılara xas bir şəkildə gözləri üstünə qoydu, sonra onu alnına toxundurdu və sonra da öpüb yeni elçiyə təqdim etdi. Robert Şerli istəyirdi ki, yeni elçi də bu sənədə oxşar ehtiramı göstərsin. Lakin yeni elçi birdən yerindən qalxdı, ser Robert Şerliyə yaxınlaşdı, onun əlindəki kağızları alıb cırdı və üzünə də güclü bir sillə vurdu. Lord Krivlend onların arasına girdi ki, tutaşma baş verməsin. Bu zaman yeni elçinin oğlu ser Robert Şerlinin üzərinə hücum çəkdi və daha iki sillə vuraraq onu yerə yıxdı. Lord Krivlend və kralın xidmətçilərindən biri ona yaxınlaşıb geri çəkdilər. Biz isə əlimizi qılınca atmışdıq. Lakin qılıncı çəkmədik. İranlılardan da kimsə qılıncını və xəncərini çıxarmamışdı. Lord Krivlendə elçinin ədəbsiz və təhlükəli rəftarını pisləyərək dedi ki, əgər mənimlə gəlmiş bu adama İran padşahının hörməti olmasaydı, bu həyasızlığı etdiyinizə görə sən də və sənin lə olanlar da bu otaqdan sağ-salamat çıxmazdınız. Elçi bir qədər peşman olub dedi ki, sizin xətrinizə dəydiyim üçün çox təəssüf edirəm. Məsələ bundadır ki, bu adamın mənim padşahımın və vəlinemətimin xəttini bu cür saxtalaşdırdığına görə çox qəzəbləndim. Mənim padşahımın yazışmalarında möhür hər zaman sənədlərin yuxarısında vurulursa, bu kağızda möhür kağızın arxa tərəfinə vurulmuşdur. Mən necə səbir edim ki, bu alçaq və saxtakar adam cəsarət edib İran padşahının bacısının qızını aldığını deyir. Ser Robert Şerli xəcalətli bir hala düşmüş və kənara çəkilmiş halda bu sözləri eşidəndə irəli gəldi və dedi ki, heç vaxt padşahın bacısı qızını aldığını deməmişdir. Əksinə demişdir ki, şahın xanımının xidmətçilərindən birini almışam" (384).

Robert Şerli sonra sənəd üzərində möhür məsələsinə də aydınlıq gətirdi. O da təsdiq etdi ki, daxil yazışmalarda Şah Abbas bir qayda olaraq sənədin üzərinə möhür vurur. O cümlədən, əgər

elçi kimi Səfəvi təbəəsi xaricə göndərilirsə, onun da etibarnaməsinin yuxarı küncünə möhür vurulur. Amma elçi kimi Səfəvi təbəəsi deyil, başqa dövlətlərin təbəəsi göndərilirsə, onda möhür sənədin arxa tərəfinə vurulur. Yəni sənəd açılmazdan əvvəl bilinsin ki, bu sənəd kim tərəfindən göndərilibdir. Yeni elçi bu cavabın qarşılığında kinli baxışlarla ona baxdı və heç nə demədi. Belə olanda onun görüşünə gələnlər söhbətlərini bitirib onun evini tərk etdilər. Robert Şerli öz mənzilinə, saray mənsubları isə saraya yollandılar. Lord Krivlend və onu müşayiət edənlər saraya yetişəndə, kral nahara yollanmışdı. Onlar istəyirdilər ki, kralla görüşsünlər və şahidi olduqlarını ona da çatdırsınlar. Məsələ duk Bukhenqemə çatdırıldı ki, o da öz növbəsində kralı məlumatlandırsın. Belə də oldu. Kral məlumatlandırıldıqdan sonra qərara alındı ki, yeni elçinin sarayda qəbul edilməsi bir müddət təxirə salınsın. Kralın əmri ilə bu məsələnin araşdırılmasına başlandı. Belə bir qənaətə gəlindi ki, həmin hadisənin baş verməsində Robert Şerli daha çox günahkardır. Xüsusilə, vurulan zərbələr qarşısında Robert Şerlinin sakit dayanması və cavab verməməsi saray mənsublarında müəyyən şübhə doğurdu. Robert Şerli bu hadisədən sonra kralın adına müraciət göndərdi və ondan geri qayıtmasına icazə verilməsini xahiş etdi. Eyni zamanda o, kraldan xahiş etdi ki, onun gətirdiyi etibarnamələr Səfəvi sarayına göndərilsin və onların doğru sənəd olması müəyyənləşdirilisin. Amma saray mənsublarının nəzərində onun gətirdiyi sənəd saxta sənəd deyildi. İngilis kralı da onun geri qayıtmasına icazə verdi. Kral tərəfindən həm də Şərqi-Hind şirkətinin tacirlərinə göstəriş verildi ki, Robert Şerlini də öz gəmilərində aparsınlar. Tacirlər də məcburiyyət qarşısında qalaraq onu öz gəmilərində aparmağ razı oldular (385).

Təxminən on günlük fasilədən sonra Nağdəli bəy də ingilis kralı tərəfindən qəbul edildi. Bu qəbul sarayının bayramlar üçün nəzərdə tutulmuş salonunda keçirildi. Elçi bu salona daxil oldu, amma heç bir ehtiram və təzim əlaməti nümayiş etdirmədən birbaşa kralın yanına addımlayaraq öz etimadnaməsini təqdim etdi. Elçi əvvəlcə etimadnaməni öpdü və sonra onu krala təqdim etdi. Hətta

bu zaman da elçi kral qarşısında təzim etmədi. Sonra da elçi kraldan iyirmi addımlıq bir məsafədə dayandı. Yalnız bu zaman kral qarşısında təzim etdi və üç dəfə başını aşağı əyərək salonu tərk etdi (386).

Yeni elçi kral sarayını tərk edib mələkənin qəbuluna yollandı və onunla da görüşdü. Şerli qardaşlarının xatirələrindən belə bəlli olur ki, ingilis kralı I Çarlz ser Robert Şerlinin elçiliyinin saxta ola biləcəyinə elə də çox inanmırdı. Çünki Robert Şerli Londonu tərk etməzdən əvvəl bir dəfə də kral tərəfindən qəbul edildi. Bu söhbət zamanı iki dövlət arasında münasibətlərin bir sıra məsələləri bir daha müzakirə edildi. Kral tərəfindən Robert Şerlinin səfər xərclərinin ödənməsinin Şərqi-Hind şirkətinin tacirlərinə tapşırılmasından da belə güman etmək olar ki, ona olan etibar tamamilə aradan qalxmamışdı. Şərqi Hind şirkətinin tacirləri Robert Şerlinin səfər xərclərini ödəmək istəmirdilər. Yalnız kralın təkrar əmrindən sonra onlar bu xərci öz üzərilərinə götürmək məcburiyyətində qaldılar. May ayının sonlarına yaxın hər iki elçi ticarət gəmiləri ilə Londonu tərk etməli idilər. Robert Şerli ilə birlikdə kral sarayının elçisi də Səfəvi sarayına yollanmalı idi. Bu elçi ser Dormer Kətton adlanırdı. Şerli qardaşlarının səfərnaməsində olan məlumata görə, bu elçiyə iki əsas tapşırıq verilmişdi. Birincisi, ingilis sarayının elçisi Səfəvi sarayında araşdırmalı idi ki, Robert Şerlinin elçi kimi etibarnaməsi doğru idi, ya yox? İkincisi, iki dövlət arasında ticarət münasibətlərinin qurulması və genişləndirilməsi əsasında müzakirələr aparmalı idi. Ser Dormer Kətton ingilis sarayına gəlmiş Nağdəli bəyin qaldırdığı məsələlər ətrafında müvafiq qərarlar qəbul olunmasının imkanlarını aramalı idi. Amma həm Səfəvi elçiləri, həm də ingilis elçisi müəyyən edilmiş vaxtda limana yetişə bilmədilər. Onlar limana yetişəndə gəmi artıq Londonu tərk etmişdi. Ona görə də elçilər daha on ay Londonda qalmaq məcburiyyəi ilə üzləşdilər. Elçilər Hindistana doğru hərəkətə başlayanda isə Nağdəli bəy yolda dünyasını dəyişdi. Şerli qardaşlarının xatirələrində yer almış məlumata görə, Nağdəli bəy Londonda olarkən Robert Şerliyə qarşı haqsız hərəkət etdiyini anlamışdı. O, bu

hərəkətlərinə görə Şah Abbas qarşısında nə cavab verəcəyini bilmirdi. Ona görə də əsəbindən özünə yer tapa bilməyən Nağdəli bəy tiryəkə qurşandı və ona ifrat aludəlik Nağdəli bəyin də həyatının sonuna çıxdı (387).

Uzun çəkən yolçuluq 1628-ci ilin əvvəlində başa çatdı. Həmin ilin yanvar ayında Robert Şerli və ingilis elçisi Qəmbərun limanına yetişdilər. Həmin vaxt Şah Abbas Xəzər dənizi kənarlarında idi. Qəmbərun hakimi Robert Şerlinin şah elçisi olduğunu bilən kimi, həm onun, həm də ingilis elçisinin qarşılanması və yola salınması üçün lazım olan işləri gördü. Robert Şerli ilə ingilis elçisi gəmini tərk edəndə gəmidəki hərbçilər tüfəngdən yüz dəfə atəş açdılar. Qəmbərun hakimi isə onların şəhəri tərk etdiyi vaxt tüfənglərdən on yaylım atəşi açdırdı. İngilis elçisinə, əslində elə də böyük səlahiyyətlər verilməmişdi. O, başlıca olaraq ticarət əlaqələrinin qurulması ilə bağlı Şah Abbasın fikirlərini öyrənməli və onları ingilis sarayına çatdırmalı idi. Eyni zamanda o, həm də ingilis sarayının qarşılıqlı ticarət əlaqələrinin qurulması ilə bağlı mövqeyini şah sarayına çatdırmalı idi. İki dövlət arasında ticarət əlaqələrinin qurulması ilə bağlı ingilis elçisinə hər hansı bir razılaşmanı imzalamaq səlahiyyəti yox idi (388).

İngilis kralı I Çarlz tərəfindən ser Dormer Kəttona verilən tapşırıqlar haqqında ingilis elçiliyinin üzvlərindən biri olan Tomas Herbertin yol qeydlərində belə bir məlumat var idi: "Elçi ser Robert Şerli vasitəsilə şah tərəfindən göndərilən təkliflər iki dövlət arasında və bizə tabe olan dövlətlər arasında ticarətin inkişaf etdirilməsi ilə bağlı idi. Amma ikinci elçi Nağdəli bəyin gəlişindən sonra anlaşılmaz hadisələr baş verdi və bunlar bizi məcbur edir ki, İran şahının təkliflərinin cavabı qarşısında lazım olan razılaşma əldə edilsin. Mərhum ata onu padşahın böyük elçisi kimi qəbul etdi. Bizim tərəfimizdən də onun barəsində belə bir hörmət və ehtiram nümayiş etdirildi. Ser Robert Şerli iki dövlətin qarşılıqlı maraqlarına uyğun olan təklifləri bizə çatdırdı. Ondan sonra şah tərəfindən ikinci elçi kimi Nağdəli bəy İngiltərəyə gəldi. Gəlişindən az sonra onun görüşünə getmiş əyanların və nüfuzlu adamların

qarşısında bu elçi Robert Şerlini təhqir etdi, onun etibarnaməsini cırdı və onun üzünə sillə vurdu. Onun tərəfindən ingilis zadəganlarından birinin bu məmləkətin əxlaq qaydalarının ziddinə olaraq belə təhqir edilməsi gərək özünü şah elçisi sayan birisi tərəfindən edilməyəydi" (389).

Bu sözlər ingilis kralına məxsus idi və onun elçisi də bu sözləri Şah Abbasa çatdırmalı idi. İngilis kralı bildirirdi ki, elçinin belə hərəkətləri İngiltərədə cəzasız qalmazdı. İngilis kralının fikrincə, bu hal qəbul edilməli deyildi və ona görə də o öz elçisindən tələb edirdi ki, bu hadisənin mahiyyətini Səfəvi sarayında olarkən aydınlaşdırsın. Baş verən hadisəyə görə Robert Şerlinin ingilis sarayına çatdırdığı təkliflərin də nə dərəcədə doğru olması şübhəli qalmışdı. Həmin təkliflər barəsində ingilis elçisi bir aydınlıq əldə etməli idi. İngilis kralı tələb edirdi ki, həmin təkliflər yenidən Şah Abbasa açıqlansın və onların doğru olacağı təqdirdə gələcəkdə onlar nəzərə alınsınlar. İngilis kralı öz elçisinə yalnız bu səlahiyyəti verirdi ki, o, irəli sürülmüş təkliflərin doğru olacağı təqdirdə onların ingilis sarayı tərəfindən qəbul ediləcəyini Şah Abbasa çatdırsın. İngilis kralı öz elçisinə onu da tapşırmışdı ki, şah tərəfindən ona hər hansı bir ləqəbin və məqamın verilməsinə razı olmasın (390).

Robert Şerli və ingilis elçilik heyəti Əşrəf sarayında Şah Abbasın qəbuluna düşə bildilər. Şerli qardaşlarının xatirələrində bu qəbulun çox əzəmətli keçirildiyi qeyd edilmişdir. Qonaqların saraya müşayiət edilməsi, onların çox zəngin sarayda qəbul olunması, zəngin süfrənin açılması, süfrə üzərinə qızıl mətbəx əşyalarının düzülməsi və s. bu əzəmətin bir nişanəsi idi. Lakin qonaqların qəbulu nə qədər əzəmətli təşkil edilmişdisə, Şah Abbası özü o qədər sadə idi və elə də bahalı olmayan paltarda qonaqların görüşünə gəldi: "Oradan biz digər bir otağa daxil olduq. Bu otaqda zəngin bir otaq idi. Əvvəlki otaqlarda qızıl qablar var idi və onlar göz qamaşdırmaq üçün nümayişə qoyulmuşdu. Məclisin başında şah bardaş qurub oturmuşdu. Onun oturduğu yer döşəmədən bir qədər yuxarı idi. Bu oturacağın üzərinə xalça, iki-üç ağ ipək-

dən olan döşəkcə qoyulmuşdu. Onun libası çox sadə və adi idi, əmmaməsi 40 şillinqdən artıq deyildi. Geyimi də qırmızı parçadan idi və elə də bahalı deyildi. Qılıncının dəridən qını var idi. Lakin onun qəbzəsi qızıldan idi. O gün padşah əyninə adi paltar geyindiyindən, dövlətin digər mənsubları və əyanları da oxşar geyimdə idilər. Lakin qablar və otağın cəvahiratı kasıblıqdan uzaq idi. Bu vaxt orada olan tacirlərdən birinin təxmini dəyərləndirməsinə görə, onların təxminən 20 milyon lirə qiyməti var idi. Bizim böyük elçi şah hüzuruna yetişən kimi tərcüməçi vasitəsilə müxtəsər şəkildə gəlişinin məqsədini bəyan etdi. Bu da ondan ibarət idi ki, padşahın osmanlılar üzərindəki müzəffər qələbələrini təbrik etsin və ipək və digər ticarət mallarının ticarətinin təşkilini yenidən bərpa edilməsi istəyini çatdırsın. Bundan başqa elçi ser Robert Şerlinin elçi Nağdəli bəy tərəfindən töhmətləndirilməsinin əsassızlığına şahın münasibətini öyrənməli idi" (391).

Şerli Qardaşlarının xatirələrində deyilirdi ki, Şah Abbas ingilis elçisini mehribanlıqla qarşıladı Başqa elçilər bir qayda olaraq onun ayaqlarını öpdükləri halda, o, ingilis elçisinə bunu etməyə imkan vermədi. İngilis elçisi də Şah Abbasın yanında dizi üstə oturdu və şah onun üçün badə gətirməyi əmr etdi. Onlar birlikdə ingilis kralının sağlığına badə qaldırdılar. Məclisin gedişində ingilis elçisi papağını başından götürdü. Bunu görəndə Şah Abbas da əmmaməsini kənara qoydu. Elçi bu qəbuldan məmnun olduğu üçün təkrar-təkrar öz təşəkkürlərini şaha çatdırdı. Məclisdəkilər də təəccüblə şahın elçiyə qarşı olan iltifatını müşahidə edirdilər. Xüsusilə, elçinin şah hüzurunda başı açıq oturması onlar üçün adi bir hal deyildi. Bir sıra mətləbləri ingilis elçisi Şah Abbasın qarşısında ərz elədi. Bir sıra məsələlər isə qəbuldan sonra şah mənsublarına çatdırıldı. Ticarət və qarşılıqlı maraq kəsb edən digər məsələlər ətrafında fikir birliyi nümayiş etdirildi. Robert Şerlinin məsələsinə gəlincə isə, ingilis elçisini müşayiət edən qızılbaş əyanı onunla yaxşı münasibətlərdə deyildi. Ona görə ingilis elçisinin yanında Robert Şerli haqqında xoşagəlməz sözlər söylədi və hətta Şah Abbasın da ondan xoşu gəlmədiyini dedi. Bunu eşidəndə ingi-

lis elçisi bir daha təkid etdi ki, Robert Şerli ilə bağlı məsələ aydınlaşdırılsın və ona məlumat verilsin. Elçi Robert Şerlinin adına şah tərəfindən verilmiş etibarnaməni də saray mənsublarına göstərdi və bu sənədlə bağlı fikir söylənilməsini xahiş etdi. Robert Şerlinin məsələsi sonradan yenə də müzakirə obyekti oldu. Belə ki, ingilis elçisini müşayiət edən Məhəmmədəli bəy adlı birisinin verdiyi məlumata görə, Robert Şerlinin etibarnaməsi Şah Abbasa göstərilmiş və o da bu etibarnamənin saxta olduğuna görə qəzəblənmişdi. Şerli qardaşlarının xatirələrində bildirilir ki, Robert Şerlinin etibarnaməsinin saxta olması heç də inandırıcı görünmür. Çünki Robert Şerli uzun müddət şahın yanında sədaqətlə xidmət etmişdi və onun elçiliyi heç də ilk elçilik deyildi. Güman edilirdi ki, ingilis elçisini müşayiət edən Məhəmmədəli bəy şaha təhrikedici bir məlumat vermişdi. Hətta o da güman edilirdi ki, Məhəmmədəli bəy yeni bir etibarnamə düzəltmiş və onu şaha göstərmişdi. Şah da onun saxta olduğunu bəyan etmişdi. Sübut kimi o göstərilirdi ki, Şah Abbas Robert Şerli haqqında hər hansı cəza əmri vermədi. Yəni Şah Abbas Robert Şerlini cəzalandırmadısa, deməli onun günahsızlığı bəlli idi. Şerli qardaşlarının xatirələrində olan məlumata görə, Robert Şerli artıq yaşlaşmışdı və əvvəlki kimi fəaliyyət göstərə bilmirdi. Ona görə bu məsələdə bəzi qaranlıq məqamlar var idi. Haqqında danışılan xatirələrin məlumatına görə, Robert Şerli sonra çox da uzun həyata malik olmadı. 1628-ci il iyun ayının 13-də o, dünyasını dəyişdi (392).

İngilis elçisini müşayiət edən Tomas Herbert də öz səfər qeydlərində Şah Abbas tərəfindən qəbul edilmələri haqqında bəzi təəssüratlarını yazmışdı. Mövcud olan məlumata görə, Tomas Herbert şah sarayında olmuş tək-tək avropalılardan idi ki, Şah Abbas haqqında elə də müsbət fikirlərə malik deyildi. Həmin münasibət onun səfər qeydlərində də hiss olunmaqda idi: "1628-ci il may ayının 25-də, yekşənbə günü ramazan ayının son günləri idi. Həmin gün şah bizi qəbul etdi. Belə qəbullar zamanı verilməli olan qonaqlıq və ziyafətdən imtina edilmişdi. Robert Şerli də bizim elçi ilə birlikdə idi. Mən və yeddi-səkkiz nəfər heyət üzvü də onun

yanında idik. Şah sarayı tərəfindən elçinin görüşünə heç bir əyan və ya mehmandar göndərilməmişdi. Yalnız şah xidmətçilərindən olan Məhəmmədəli bəy elçinin yanına gəldi və çox adi şəkildə ona öz ehtiramını ifadə etdi. Dövlətxanaya yetişib atdan yerə enəndə saray adamlarından biri bizi "xoş gəldi" deyə adi bir sözlə qarşıladı və bizi böyük həyətin ortasında olan kiçik bir otağa apardı. Orada bir neçə qarovul var idi. Otaqda beş ədəd yerli xalçadan başqa əsaslı bir şey yox idi. Otağın ortasında ağ mərmərdən olan hovuzun içi saf su ilə dolu idi. Biz təxminən iki saat orada vaxt keçirdik və şərab içdik. Şərab elə də yaxşı deyildi. Lakin şərab içmək üçün istifadə olunan qablar çox baha idi. İstifadə olunan bardaqlar, camlar, sinilər hamısı qızıldan idi. ...Bir neçə sultan bizi göz oxşayan bir bağın içərisindən keçirdilər və başqa bir imarətə apardılar. Bu imarətdə çoxlu sayda zərli nəqqaş işləri var idi. Bu imarətin kənarlarından Xəzər dənizi, Elbrus dağı və ürəkaçan mənzərə görünməkdə idi Daxil olduğumuz salon dördkünc olmaqla çox böyük, gözəl və zərli nəqqaş işləri ilə bəzədilmişdi. Döşəməyə zərli ipək xalçalar döşənmişdi. Salonun mərkəzində də içində saf su olan bir hovuz var idi. Onun da dörd yanında bardaqlar, camlar, fincanlar və digər qablar var idi ki, hamısı qızıldan düzəldilmişdi. Onların bəzilərində gülab, şərab və ya da rəngarəng güllər var idi. Bu sərvətlərin hamısına tamaşa etdikdən sonra bizi daha hündür olan bir otağa apardılar. Otağın tavanında planetlər və onların dövrəsindəkilər rəsm olunmuşdu. Bütün ulduzlar qızıl və tünd lacivərd haşiyəli olmaqla parıldayırdılar... Burada zərli qablar o qədər idi ki, otağın qiymətinin bəlkə də 20 milyon ingilis lirəsi və ya 260 milyon Fransa pulu olduğunu güman etmək olardı. Bu otaqda başqa bir su hovuzu da var idi. Onun da ətrafı zərə tutulmuş və kənarına çoxlu sayda cəvahirata tutulmuş qızıl qablar qoyulmuşdu. Elə bir bardaq, cam və ya fincan yox idi ki, onlar yaqut, brilyant, mirvari, zümrüd, firuzə və digər cəvahiratla örtülmüş olmasın. ...Bu otağın kənarlarında, divar boyunca bir dəstə mirzə, xan, sultan və bəylərbəyi iki dizləri üstündə oturaraq heykəl kimi gözlərini bir nöqtəyə dikmişdilər. Kimsədən səs gəlmirdi, kimsə

də digəri ilə söhbət eləmirdi, kimsə öskürmür və asqırmırdı. Çünki şah məclislərində belə etmək qadağandır və böyük günah hesab edilir. Bu məclisin yuxarısında Şah Abbas ağ atlasdan olan iki, ya üç döşək üstündə bardaş qurub oturmuşdu. Bu padşahı iranlılar çox sevirlər, xaricilər isə ona ehtiram saxlayırlar. Düşmənləri isə ondan qorxurlar. Bizim gördüyümüz bütün sərvət və mala sahib olan bu adam çox sadə tikməli pambıq paltarda idi. Sanki bizə göstərmək istəyirdi ki, onun böyüklüyü və əzəməti onun geyimində, mirvarilərində deyil, daha çox onun sifətlərində və siyasətindədir. Başında ağ rəngli, bir qədər də boza çalan əmmaməsi var idi. Əynindəki gödəkçə köynəyin üstündən dəri kəmər bağlanmışdı. Qılıncının qını qırmızı dərindən, qəbzəsi isə qızıldan idi. Qılıncın tiyəsi qövsvari idi və yeni çıxmış ayı xatırladırdı. Digər saray adamları da şah kimi sadə geyimə malik idilər. İranlılar tərəfindən kəlməçi adlandırılan tərcüməçi vasitəsilə elçi şaha dedi ki, uzun bir yolu keçib gəlmişlər ki, İran və İngiltərənin müştərək düşməni üzərində əldə edilən qələbə ilə bağlı təbrikləri çatdırmağa, ipək və digər yerli məhsulların ticarəti haqqında danışmaq, İngiltərə şəhriyarının dostluq salamlarını çatdırmaq üçün gəlmişdir. Həmçinin istəyir ki, Robert Şerli və Nağdəli bəy tərəfindən ona ünvanlanan töhmətlər haqqında da məlumat əldə etsin.

Şah ayağa qalxdı və türk dilində bəlağətli bir nitq elədi və dedi: "Osmanlı türkləri aciz insanlardır, bacarıq və huşluluqda iranlılarla müqayisəyə gələ bilməzlər. Mən türklərlə və digər xalqlarla apardığım on beş savaşda iranlıların (qızılbaş qoşunları nəzərdə tutulur- M.S.) igidliyini nümayiş etdirdim. Ümid edirəm ki, xristianlar da tezliklə birləşsinlər. Osmanlılar o vaxt öz qüdrətindən məhrum olacaqlar ki, mövcud olan ixtilaf və parçalanma aradan qalxsın. Əgər xristianlar öz aralarında ixtilafa və düşmənçiliyə malik olmasaydılar bu imperatorluq da indi belə güclü ola bilməzdi".

Ticarətlə bağlı isə dedi ki, əgər İngiltərə padşahı istəsə hər il yanvar ayında on min tay ipək Hörmüz adasında ingilislərə təhvil verilsin, onun qiyməti bahasında isə ingilis mahudu alınsın və bu

da tatarlara, ərəblərə, ermənilərə, ruslara və gürcülərə satılsın. Amma bir şərtlə ki, ingilis tacirləri türklərlə ticarət etməyəcəklərinə söz versinlər. Çünki Osmanlı sultanı xarici ticarətdən çoxlu fayda görür və türklərlə ticarət tikan yaradıb onu öz gözünə soxmağa bərabərdir. Ya da düşmən qılıncını öz boynunu vurmaq üçün itiləyəsən. Robert Şerli ilə bağlı şah dedi ki, onun həqiqi elçisi olmuşdur və Nağdəli bəyin etdiyi hörmətsizliyə görə isə onun ürəyini ələ alacaqdır. Nağdəli bəy də özünü günahkar saydığı üçün özünü öldürməyə qərar vermişdir. Çünki onu hansı cəza gözlədiyini bilirdi. Sonra şah öz başına and içdi ki, əgər o, (yəni Nağdəli bəy) sağ-salamat gəlsəydi onu əvvəllərdə olduğu kimi tikə-tikə edəcəkdi və it kimi küçədə yandıracaqdı. İranla İngiltərə arasındakı dostluq haqqında isə dedi ki, bu dostluğu sevinclə və məmnunluqla qarşılayır və ümid edir ki, həmişə davam edəcəkdir. Sonra elçiyə qonaqpərvərlik göstərdi, ona "xoş gəldin" dedi və sonra yenidən öz yerində əyləşdi. Bu vaxt bütün saray mənsubları başlarını ayaqlarına qədər aşağı əymişdilər. Şah elçiyə işarə etdi ki, əyləşsin. Onun əlindən tutub yanında əyləşdirdi. Elçi iranlılar kimi otura bilmədiyindən gülməyə başladı. Elçi şaha ehtiram əlaməti olaraq papağını başından çıxardı. Şahın işarəsi ilə ona şərab tökdülər və onunla İngiltərə padşahının sağlığına şərab içdi. Sonra isə elçiyə olan mehribanlığını tamamlamaq üçün özü də əmmaməsini başından çıxardı. Elçi bir saatlıq söhbətdən sonra şah məclisini tərk etdi.

Lakin bütün bu mehribanlıqdan sonra bilmirəm necə oldusa birdən-birə şahın bizə qarşı münasibəti dəyişdi. Biz Qəzvinə çatanda şah daha bizi saraya dəvət etmədi. Elçi ölənə qədər şahı görmədi. Şah sarayının mənsublarından da kimsə onun görüşünə gəlmədi. Sonra bəlli oldu ki, Məhəmmədəli bəy Şərqi-Hind şirkətinin təmsilçilərindən hədiyyə və peşkəş alıb bizi düşmənə çevirib. Bu adam adi bir vəzifədən yüksələrək şahın etimad və etibar sahibinə çevrilmişdi. Onun istədiyi adamı şah qəbul edir və ona ehtiram göstərirdi. İstədiyi adamı isə öldürtdürə bilirdi. Ona görə də onun hörmətini qazanmaq üçün hər tərəfdən ona hədiyyə və

peşkəş göndərirdilər. Onun nəticəsidir ki, bu adamın illik gəliri 140 min sterlinqdir. Bu, təəccüblü deyildir. Çünki şah hərəminin və sarayının gəliri də yüz min lirədən çoxdur" (393).

Tomas Herbertin xatirələrindən də belə bəlli olur ki, Şah Abbas ingilis elçisi Dormer Kəttonla görüşündə Robert Şerlinin etibarnaməsinin doğru olduğunu bəyan etmiş və Nağdəli bəyin ona qarşı olan münasibətinə haqq qazandırmamışdı. Amma o da bəlli olur ki, Şah Abbasın sonradan həm Robert Şerliyə qarşı, həm də ingilis elçiliyinə qarşı münasibəti tamamilə dəyişdi. Tomas Herbert bunu Məhəmmədəli bəyin onlar haqqında Şah Abbasa yanlış məlumat verə bilməsi ilə əlaqələndirirdi.

Robert Şerliyə qarşı münasibətin dəyişməsinin başqa səbəbləri haqqında da bəzi məlumatlar vardır. Belə bir fikir ortaya qoyulur ki, Şah Abbasın Robert Şerliyə görə münasibətinin dəyişməsi doğru ola bilərdi və bunun üçün müəyyən səbəblər də var idi. Onun qardaşı Antoni Şerlinin Səfəvi sarayına qarşı naxələflik etməsi heç də Şah Abbasın yadından çıxmamışdı. Doğrudur, Robert Şerli sonradan şah sarayında sədaqətli xidmətini davam etdirdi. Bununla belə, onun son elçilik missiyası zamanı bir sıra sərbəstliklərə yol verməsi Şah Abbasın qəzəbinə səbəb ola bilərdi. Robert Şerli ispan sarayında olarkən İspaniya tərəfinə müəyyən vədlər vermişdi. O cümlədən, ispan donanması tərəfindən Qırmızı dənizə Osmanlı gəmilərinin girişinin kəsiləcəyi təqdirdə ipək ticarətində İspaniyaya üstünlük veriləcəyi barəsində vəd bəlli olduğu kimi Şah Abbas tərəfindən qəbul edilmədi. Güman edilir ki, Robert Şerlinin həm bu sərbəstliyi, həm də Avropaya etdiyi elçilik zamanı ona tapşırılan vəzifələrin öhdəsindən gələ bilməməsi Şah Abbasın qəzəbinə səbəb ola bilərdi.

Yuxarıda qeyd edildiyi kimi, Şah Abbasla görüşdən sonra Robert Şerlinin həyatı çox uzun sürmədi. O, 1628-ci il iyun ayının 13-də dünyasını dəyişdi. Xanımı Tereza onun dəfn olunmasına icazə vermədi və böyük çətinliklərdən sonra Robert Şerlinin nəşinin Səfəvi hüdudlarından çıxarılmasına və Avropaya aparılmasına icazə ala bildi. Az sonra ingilis elçisi Dormer Kətton da Qəzvində

ikən dünyasını dəyişdi və elə Qəzvində də dəfn edildi. Şah Abbasın hakimiyyəti illərində D. Kətton elçiliyi ikitərəfli müzakirələrin aparıldığı son elçilik heyət oldu.

5.Digər Avropa dövlətləri ilə münasibətlər

Polşa ilə münasibətlər. Şah Abbasın hakimiyyəti illərində dövlətin çoxşaxəli xarici siyasəti həyata keçirilirdi. Bu hakimiyyət illərində Avropanın demək olar ki, Avropanın bütün güclü və inkişaf etmiş dövlətləri ilə qarşılıqlı münasibətlərin qurulması istiqamətində əməli addımlar atılırdı. Şah Abbas hakimiyyəti dövrü üçün Avropa dövlətləri ilə əlaqələrdə iki əsas istiqamət özünü göstərirdi. Bu istiqamətlərdən biri Osmanlı təhlükəsinə qarşı Avropa dövlətləri ilə ittifaq münasibətlərinin qurulması cəhdi idi. Digəri isə Avropa dövlətləri ilə ticarət münasibətlərinin qurulması və genişləndirilməsi idi. Hər iki istiqamət konkret tarixi şərait üçün Səfəvi dövlətinin xüsusi maraq dairəsində idi. Bu istiqamətlər üzrə münasibətlərin qurulması Avropa dövlətlərinin də maraq dairəsində idi. Çünki Osmanlı dövləti kimi güclü bir dövlətin yarada biləcəyi təhlükənin aradan qaldırılması və ya zəiflədilməsi üçün qərb dövlətləri Səfəvi dövlətinin imkanlarından istifadə etməyə və onu Osmanlı dövlətinə qarşı qaldırmağa çalışırdılar. Qərb dövlətləri eyni zamanda Səfəvi dövləti ilə ticarət əlaqələrinin genişləndirilməsində, xüsusilə Səfəvi ipəyinin Avropaya daşınmasında çox maraqlı idilər. Ona görə də tərəflər arasında davamlı elçilik mübadiləsi həyata keçirilirdi.

Şah Abbasın hakimiyyəti illərində Avropanın güclünməkdə olan dövlətlərindən biri Polşa idi. Bu dövlətin padşahı olan III Sigizmund təxminən Şah Abbasla bir vaxtda hakimiyyətə gəlmişdi və Polşa onun hakimiyyəti illərində inkişafının uğurlu illərini yaşayırdı. III Sigizmund da Osmanlı təhlükəsindən ehtiyatlandığı üçün Səfəvi dövləti ilə münasibətlər qurulmasına maraq göstərirdi. Digər tərəfdən Səfəvi dövləti ilə Rusiyadan keçən ticarət marşrutunun fəallaşacağı halda Polşa da bundan böyük faydalar görə

bilərdi. Polşa ilə münasibətlərin genişləndirilməsi Şah Abbası da cəlb edirdi. Ona görə də o, Polşaya elçilik heyəti göndərməyi qərara aldı.

Bəlli olduğu kimi, Şah Abbas 1599-cu ildə Antoni Şerlinin və Hüseynəli bəyin rəhbərliyi altında Avropa ölkələrinə böyük bir elçilik heyəti göndərdi. Bu elçilik heyəti Rusiyadan keçməklə Avropaya yollanmalı idi. Elçilik heyəti Polşadan keçməli və Şah Abbasın məktubunu Polşa kralı III Sigizmunda çatdırmalı idi. Lakin yaranmış vəziyyət üzündən bu heyət Polşaya gedə bilmədi. Çünki Antoni Şerlinin təkidi ilə elçilik heyəti Avropa ölkələrinə yolunu Rusiyanın şimalından saldı. Ona görə də Polşa sarayında görüşlər keçirilməsi də mümkün olmadı (394).

İki dövlət arasında qarşılıqlı münasibətlərin qurulması üçün növbəti cəhd Polşa kralı III Sigizmund tərəfindən göstərildi. Onun Səfəvi dövlətinin getdikcə qüdrətlənməsi və iqtisadi imkanları barəsində artıq kifayət qədər məlumatları var idi. Ona görə də o istəyirdi ki, Səfəvi dövlətinin imkanlarından daha çox faydalanmaq imkanı əldə etsin. III Sigizmund 1602-ci ildə tacir Səfər Muratoviçin rəhbərliyi altında elçilik heyətini Səfəvi dövlətinə yola saldı. Qara dənizdən keçməklə Osmanlı ərazisinə, oradan da İrəvana gələn Polşa elçilik heyətinə də başlıca olaraq iki məsələnin həlli tapşırılmışdı. Bunlardan birincisi iki dövlət arasında ticarət əlaqələrinin nizamlanması, bunun üçün lazım olan addımların atılması, ikincisi isə hərbi-siyasi münasibətlərin qurulması idi. Yəni zərurət yarandığı halda Osmanlı təhlükəsini önləmək üçün Polşa ilə Səfəvi dövləti ilə ittifaq yaradılması Polşa sarayının maraq dairəsində idi. Bu heyət Şah Abbas tərəfindən mehribanlıqla qarşılandı. O, Polşa tərəfindən irəli sürülən təklifləri dinlədi və elçi ilə bir xeyli söhbət etdi. Güman edilir ki, Polşa elçisi S.Muratoviç Səfəvi ermənilərindən idi və ona görə fars dilini də yaxşı bilirdi. Polşa elçisinin fars dilində, tərcüməçi olmadan Şah Abbasla söhbət etməsi Səfəvi şahının məmnunluğuna səbəb oldu. Amma bu elçilik heyətinin hansı nəticələr əldə etməsi barəsində mənbələrdə və elmi-tarixi ədəbiyyatda yetərli məlumat qalmamışdır.

İkitərəfli münasibətləri nizamlanması ilə bağlı növbəti məktub da III Sigizmund tərəfindən göndərildi. Bu məktub Şah Abbasa Karmelit keşişləri tərəfindən çatdırıldı. Bu keşiş dəstəsi 1603-cü ildə Romadan papa tərəfindən yola salındı. Roma papasının bu heyəti göndərməkdə əsas məqsədi Səfəvi dövləti ərazisində missionerlik fəaliyyətinin gücləndirilməsi idi. O, həm də Şah Abbasa məktub yazdı. Karmelit keşişləri Səfəvi dövlətinə gəlmək üçün yollarını Almaniyadan və Polşadan salmalı oldular. Həm Almaniya imperatoru, həm də Polşa kralı III Sigizmund keşişlər vasitəsilə Şah Abbasa yeni bir məktub göndərdilər. Polşa kralının məktubunun təxminən 1604-cü ilin dekabrında yazıldığı güman edilir. Keşişlərin yolçuluğu xeyli uzanmalı oldu və onlar bir də 1607-ci ilin yanvar ayında İsfahanda Şah Abbasın qəbuluna düşə bildilər. Bu zaman Polşa kralının məktubu da Şah Abbasa təqdim olundu. III Sigizmundun məktubunda Karmelit keşişlərinin fəaliyyəti üçün şərait yaradılması Şah Abbasdan xahiş olunurdu. Məktubun elmi dövriyyədə olan məzmunundan da göründüyü kimi, orada başqa bir məsələyə toxunulmamışdı. III Sigizmund məktubunda iki dövlət arasında dostluq münasibətlərinin olmasına da toxunur və mövcud olan həmin dostluğa istinad etməklə Polşa kralı Şah Abbasdan keşişlərin fəaliyyətinə şərait yaradılmasını xahiş edirdi. Məktubun əvvəlində Karmelit ordeninin meydana gəlməsi və onun qarşısında dayanan vəzifələr haqqında müxtəsər şəkildə məlumat verilirdi. Polşa kralı bəyan edirdi ki, bu orden tərki-dünya bir ordendir və onun üzvlərinin dini fəaliyyətdən başqa bir məqsədi yoxdur. Məktub belə tamamlanırdı: "Əlahəzrətdən xahiş olunur ki, bizim aramızda olan dostluq və birliyə görə bu adamlara öz ölkənizdə böyük ehtiram göstərəsiniz. Əgər xristian camaatı bu keşişlərin yanına gəlib-getsələr, kimsə onlara əziyyət verməsin və imkan versinlər ki, onlar öz dinlərini və ayinlərini icra etsinlər. Bu keşişlər tərki-dünya olduqları üçün Allaha itaət və xidmətdən başqa onların əlindən bir iş gəlmir. Onların təbiətində məkr, hiylə, pis əməl yoxdur. İltimas olunur ki, əlahəzrət onların vəziyyəti ilə ma-

raqlansın və onlara Avropa ölkələrində göstərilən şəfqət əsirgənməsin" (395).

Karmelit keşişləri İsfahana yetişməmişdən əvvəl isə Şah Abbasın özü tərəfindən Polşaya bir elçilik heyəti göndərildi. Əslində, Mehdiqulu bəy Türkman tərəfindən rəhbərlik edilən bu heyət bir neçə Avropa dövlətinin sarayında olmalı idi. O cümlədən də elçilik heyəti Polşa sarayında olmaqla Şah Abbasın məktubunu III Sigizmunda çatdırmalı idi. Həmin heyət 1605-ci ildə Avropaya doğru hərəkətə başladı. Bu zaman Səfəvi və Osmanlı müharibəsi davam edirdi və Şah Abbas çox istəyirdi ki, Osmanlı nəzarəti altında olan ərazilərin geri qaytarılması üçün Avropa dövlətlərindən kömək alsın. Şah Abbas məktubunda Polşa ilə hərbi ittifaq yaradılması məsələsinə də toxunmuşdu. Şah Abbasın qiymətli hədiyyələrini də gətirmiş bu elçilik heyəti Polşa sarayında böyük sevinclə qarşılandı. Amma Şah Abbasın istəyinə uyğun olan hərbi ittifaq yaradılması istiqamətində bir nəticə əldə edilmədi. Çünki Polşa sarayı və parlamenti Osmanlı dövlət ilə əldə etdiyi sülh anlaşmasının əleyhinə getməyi məqsədəuyğun hesab etmədi. Bununla bağlı, hətta Polşa parlamenti xüsusi qərarlar da qəbul etdi. Ona görə, Səfəvi-Polşa hərbi ittifaqının yaradılması mümkün olmadı (396).

Bununla belə, Şah Abbas Avropa dövlətləri ilə, o cümlədən də Polşa ilə hərbi ittifaqın qurulması məsələsində israrını davam etdirdi. Onun tərəfindən 1608-ci ilin əvvəllərində Robert Şerlinin rəhbərliyi altında yeni bir elçilik heyəti Avropaya göndərildi. İsfahanda missionerlik fəaliyyəti ilə məşğul olan keşiş Pol Simon tərəfindən müşayiət olunan Robert Şerli yolunu Polşadan salmalı və Şah Abbasın məktubunu III Sigizmunda çatdırmalı idi. Şah Abbas eyni zamanda keşiş Pol Simon vasitəsi ilə də Polşa kralına məktub göndərmişdi. Bu elçilik heyəti də Rusiya ərazisindən keçməklə Polşaya getməli idi. Krakov şəhərində Səfəvi elçiləri Polşa kralının qəbulunda oldular. Bir məlumata görə isə Avropaya əvvəlcə Əliqulu bəyin rəhbərliyi altında 32 nəfərlik bir elçilik heyəti göndərildi. Bu heyətin ardınca isə Robert Şerlinin rəhbərliyi al-

tında olan elçilik heyəti yola salındı. Böyük vaxt fərqi olmadan yola düşən bu elçilik heyətləri Polşaya eyni vaxtda yetişdilər və eyni vaxtda da Polşa kralı tərəfindən qəbul edildilər. Polşa sarayında onlar üçün təntənəli bir qəbul təşkil edildi və III Sigizmundun elçilik heyəti üzvlərinə böyük bir mehribanlıq nümayiş etdirdi. Elmi-tarixi dövriyyədə olan məktubların məzmunundan belə aydın olur ki, keşiş Pol Simon da bu səfər zamanı Robert Şerli ilə birlikdə olmuşdu.

Həm Robert Şerli, həm də digər heyətin tərkibində olan keşiş Pol Simon Şah Abbasın məktublarını Polşa kralına təqdim etdilər. Bu məktubların hər ikisində hərbi ittifaq yaradılması məsələsinə toxunulmuşdu.

Şah Abbas məktubunun əvvəlində Robert Şerlini elçi kimi seçməsi haqqında fikrini qələmə almışdı. Onun yazdığına görə, Avropaya kimin elçi göndərilmsi barəsində seçim edilməsi zamanı Robert Şerlinin üzərində dayandı. Çünki Robert Şerli uzun müddət idi ki, şah sarayında xidmət edirdi. Bu mənada o, həm şah sarayının adamı idi, həm də avropalı idi. Şah yazırdı ki, hərbi ittifaqın yaradılması üçün əvvəllər də avropalılara təklif göndərmişdi. Onun fikrincə, Avropa dövlətləri bir tərəfdən, şah qoşunları isə digər tərəfdən Osmanlı dövləti üzərinə hücum edə bilərdi. Səfəvi şahı bildirirdi ki, Avropa dövlətləri ilə ittifaqda Osmanlı dövləti üzərinə hücum etmək üçün böyük sayda qoşun hazırlığına malikdir. O, əminliklə yazırdı ki, Avropa dövlətləri münasib bildikləri istiqamətdən Osmanlı dövləti üzərinə hücum etsələr, Şah Abbas da Səfəvi sərhədlərindən bu dövlət üzərinə hücuma başlayacaqdır. Məktubunun sonunda Şah Abbas qarşı tərəfdən Robert Şerliyə Səfəvi elçisi kimi hörmət və ehtiram göstərilməsini xahiş edirdi (397).

Keşiş Pol Simon vasitəsilə Polşa kralına təqdim olunan məktubda Şah Abbas əvvəlcə iki dövlət arasında dostluq münasibətlərinin mövcudluğuna öz məmnunluğunu ifadə edir və sonra da Pol Simonu elçi kimi vəzifələndirdiyini yazırdı. Bu məktubunda da Şah Abbas bildirirdi ki, Osmanlı dövləti üzərinə eyni zamanda

iki istiqamətlərdən hücum edilməsi haqqında Avropa dövlətlərindən təklif almışdır. Onun yazdığına görə Avropa dövlətləri münasib bildikləri istiqamətlərdən bu hücumu təşkil edəcəklərinə söz vermişdilər. Şah Abbasa görə bu dövlətlərin hansı istiqamətdən hücum etmələrinə baxmayaraq, Osmanlı dövləti üzərində qələbə əldə etmək mümkün idi. Səfəvi şahı elan edirdi ki, elə indinin özündə də qızılbaş qoşunları Osmanlı dövləti üzərinə hücum etməyə hazırdır. Bu məsələnin daha çox Avropa dövlətlərinin qərarından asılı olması bir daha Polşa kralının diqqətinə çatdırılırdı. O yazırdı ki, hansı istiqamətdən hücum edilməsini Avropa dövlətləri özləri müəyyənləşdirsinlər. Amma Şah Abbas təklif edirdi ki, Avropa dövlətləri Osmanlı dövləti üzərinə iki istiqamətdən hücum etsələr daha məqsədəuyğun olardı. Bu istiqamətlərdən biri Hələb istiqaməti ola bilərdi. Digər istiqamətin seçilməsini isə Şah Abbas Avropa dövlətlərinin ixtiyarına buraxırdı. Sonra məktubda Robert Şerlinin də keşişlə birlikdə Avropaya elçi kimi göndərildiyi qeyd edilmişdi. Şah Abbas onun haqqında da xoş sözlər yazmışdı. Bildirilirdi ki, Robert Şerli uzun müddət şah sarayında xidmət etmişdir, sarayın hörmət və ehtiramını qazanmışdır. Onun həm də avropalı olduğu nəzərə alındığı üçün elçi kimi seçilməsinə qərar verilmişdi. Şah Abbas özünün ona etimad etdiyini yazmaqla Polşa kralından da ona etimad göstərilməsini xahiş edirdi (398).

Robert Şerli və onu müşayiət edən heyət üzvləri bir neçə ay Polşada qaldılar. Elə həmin ildə bu heyət Almaniya sarayına yola düşdü və alman imperatorunun qəbulunda oldu. Polşa kralı ilə keçirilən görüşün gözlənilən nəticəyə malik olması haqqında isə mənbələrdə və elmi-tarixi ədəbiyyatda hər hansı bir məlumatla rastlaşmaq mümkün deyil. Belə məlum olur ki, Robert Şerlinin də Polşaya səfəri nəticəsiz qaldı və Polşa sarayı Osmanlı dövlətinə qarşı Səfəvi dövləti ilə ittifaqa girməkdən boyun qaçırdı. Çünki Polşa dövləti üçün beynəlxalq şəraitdə müəyyən dəyişikliklər baş vermişdi və artıq Osmanlı dövlətinə qarşı cəbhə tutulması bu dövlətin marağına uyğun deyildi. Ona görə də bir nəticə əldə edə bilməyən elçilik heyəti Polşanı tərk edib öz yoluna davam etdilər.

Bununla belə, Şah Abbas Polşa ilə əlaqələri kəsmədi. Hətta Osmanlı dövləti ilə müharibə başa çatdırılandan sonra da Şah Abbas bu münasibətləri davam etdirdi. Çünki Avropa dövlətləri ilə ticarət əlaqələrinin genişləndirilməsi baxımından Polşa müəyyən əhəmiyyət kəsb edirdi. Ticarətin Rusiya marşrutunun işə salınacağı təqdirdə Polşa bu marşrutun üzərində yerləşirdi və bu dövlətlə əldə edilmiş razılaşmalar ticarətin genişləndirilməsi baxımından faydalı ola bilərdi. Ona görə də Şah Abbasın 1610-cu ildə Avropa dövlətlərinə yeni bir elçilik heyəti təyin etdi. Missioner keşiş Pyer Jan Taddeus tərəfindən rəhbərlik edilən bu elçilik heyəti Rusiyadan keçməklə Avropaya səfər etməli və bu zaman Polşa sarayında da olmalı idi. Şah Abbas elçilik heyətinin səfər edəcəyi dövlətlərin rəhbərlərinə, o cümlədən də Polşa kralı III Sigizmunda məktub yazdı və onun çatdırılmasını P. Taddeusa tapşırdı. Məktubun əvvəlində Şah Abbas Polşa kralını salamlayır və iki dövlət arasında dostluq münasibətlərinin mövcudluğundan öz məmnunluğunu ifadə edirdi. Səfəvi şahı sonra iki dövlət arasında uzun müddətdən bəri elçilik mübadiləsinin olmamasına görə öz nigarançılığını çatdırırdı. Şah Abbas ümid etdiyini bildirirdi ki, gələcəkdə iki dövlət arasında elçilik və məktub mübadiləsi davam edəcəkdir. Məktubda bildirilirdi ki, ikitərəfli münasibətlərin davam etdirilməsi üçün Polşa kralının bir istəyi olarsa Səfəvi sarayına çatdırılsın və bununla bağlı olan lazımi işlər görülsün. Sonra da Şah Abbas Roma papalığının təmsilçisi olan Pyer Jan Taddeusu elçi kimi göndərdiyini və ona etibar etdiyini yazırdı (399).

Göründüyü kimi, məktubda hansısa ciddi bir məsələyə toxunulmamışdı. Məktub sadəcə ikitərəfli münasibətlərin saxlanılmasına təkid edən bir məktub idi. Bununla, Şah Abbas bir daha Polşa sarayına iki dövlət arasında münasibətlərin saxlanılmasına tərəfdar olduğunu çatdırırdı.

Pyer Jan Taddeusun rəhbərlik etdiyi elçilik heyəti Rusiya daxilində baş qaldıran qarışıqlıq üzündən üç ilə yaxın Həştərxanda qalmalı oldu. Ona görə də bu keşiş heç Polşaya gedib çıxa bilmədi (400).

1615-ci ilin yayında Robert Şerli Avropaya ilk elçilik missiyasını başa vuraraq geri qayıtdı. O özü ilə bir sıra Avropa dövlətlərinin, o cümlədən də Polşanın kralının Şah Abbasa yazdığı məktubu gətirdi. Yuxarıda yazılanlardan bəllidir ki, Robert Şerlinin Avropaya, o cümlədən Polşaya göndərilməsində başlıca məqsədlərdən biri, Osmanlı dövlətinə qarşı hərbi ittifaqın yaradılmasına nail olunması idi. Polşa kralı III Sigizmund məktubunda bu məsələyə toxunsa da, onunla bağlı hansı qərar qəbul edilməsini yazmamışdı. Məzmunundan göründüyü kimi, bu məktub adi bir protokol məktubu idi və dostluq münasibətlərinə sədaqətli olduğunu yazmaqla Polşa kralı Şah Abbasa öz salam-duasını çatdırırdı: "Əlahəzrətə dualarımı ifadə etməklə məlum olsun ki, siz əlahəzrətə qarşı bizim dostluq və birlik hisslərimiz sonsuzdur. Bəyzadə elçi (Robert Şerli nəzərdə tutulur – M.S.) sarayımıza çatanda biz böyüklərimizlə divan iclasına toplaşmışdıq. Adı çəkilən elçi burada əlahəzrətin rum (Osmanlı dövləti) üzərindəki qələbələrindən bizə məlumat verdi. Məmnunuq ki, biz belə bir təcrübəli və ağıllı elçi görməmişdik. Bu məlumatı eşidəndə biz çox-çox məmnun olduq və bu elçinin gəlməsi ilə siz əlahəzrətin bizə qarşı olan dostluq münasibəti bir daha aydın oldu. Çünki əlahəzrətin bizə qarşı sonsuz məhəbbətindən xəbərdar olduq və Allah şahiddir ki, aramızda on illik bir məsafə olsa da, əlahəzrətin məhəbbətini biz hiss edirik. Əlahəzrətin bizimlə bağlı etdiyi hər yaxşılıq yüksək qiymətləndirilməlidir. Biz də əlimizdən gələn yaxşılığı və izzəti elçi üçün göstərdik. Bizə də vacib oldu ki, əlahəzrətə öz hörmətimizi ortaya qoyaq, bəyzadə elçinin toxunduğu məsələlərlə bağlı öz böyüklərimizi toplayaq və qərarlaşaq ki, nə etməliyik. İnşaallah ki, divan toplantısında qardılan məsələlərlə bağlı bir qərar meydana gələr və yaradan şahiddir ki, əlahəzrətin xidmətləri heç vaxt bizim yadımızdan çıxmayacaq. Bəyzadə elçinin elçiliyindən elə bir sevinc bizə üz verdi ki, onun şərhinə söz çatmır, bizim də münasibətimiz əlahəzrətə bəlli olacaqdır" (401).

Bu münasibətlərin nəticəsi kimi, birbaşa Səfəvi dövləti ilə Polşa arasında ticarət əlaqələri də yaranmışdı. Elə ona görə idi ki,

1615-ci ildəTeofilos adlı bir polşalı tacir İsfahana gəlmişdi. Onun Polşa kralı Sigizmundun yaxın ətrafından olduğu bildirilirdi. Teofilosla bərabər Avropanın bəzi ölkələrindən də bir qrup tacir İsfahana gəlmişdi. Şah Abbas polşalı taciri qəbul etdi və onun vasitəsilə Polşa kralı III Sigizmunda məktub da göndərdi. Məktubda Şah Abbas bir daha Polşa kralına öz ehtiramını bəyan etdi və ikitərəfli münasibətlərin genişləndirilməsinə tərəfdar olduğunu bildirdi (402).

Məsafə baxımından Polşa kifayət qədər Səfəvi dövlətindən uzaq idi. Həm də Polşaya aparan ticarət marşrutu o qədər də münasib deyildi. Bu dövlətlə ticarət münasibətlərinin Rusiya ərazisindən qurulması daha əlverişli idi. Lakin bu zaman da uzun dəniz yolları, Rusiya daxilindəki qeyri-sabitlik tacirlər üçün müəyyən çətinliklər yaradırdı. Bununla belə, Şah Abbas Polşa ilə münasibətlərin genişlənməsinə dövlət maraqlarından yanaşırdı və bu münasibətlərin genişlənməsinə çalışırdı.

1616-cı ildə Şah Abbas yeni bir elçini Avropaya yola saldı. Bu elçi Yaqub adlı bir Səfəvi ermənisi idi. Mənbələrdə olan məlumata görə, Yaqub həm də bir casus kimi Avropa dövlətlərinə göndərilmişdi. O, Şah Abbasın Avropanın bir sıra saraylarına, o cümlədən də Polşa kralına ünvanladığı məktubları çatdırmalı idi. Yaqub iki il müddətində Avropada oldu və Polşa sarayına gələrkən Şah Abbasın məktubunu krala təqdim etdi. Bu məktubda da tərəflər arasında ikitərəfli münasibətlərin mövcudluğundan və möhkəmləndirilməsindən məmnunluq ifadə olunurdu. Şah Abbas əlavə olaraq təklif edirdi ki, Qara dəniz sahillərindəki Trabzonda bir qala tikəcək və onun mühafizəsini Polşa kazaklarına tapşıracaqdır. Həmin vaxtlarda Osmanlı qoşunlarının Don çayı istiqamətində hücumlar həyata keçirməsi haqqında məlumatlar alınmışdı. Osmanlı dövlətinin Volqa çayına çıxması, Şimali Qafqazda möhkəmlənməsi Səfəvi dövlətinin maraqlarına uyğun deyildi. Ona görə Qara dəniz hövzəsində Polşa dövləti ilə əməkdaşlıq edilməsi Şah Abbasın maraq dairəsində idi. Şah Abbas onu da vəd edirdi ki, belə bir qalanın tikiləcəyi halda qızılbaş qoşunları ilə bu qala-

nın mühafizəsinə kömək göstərməyə hazır olacaqdır. Eyni zamanda bu qalanın həmişəlik Polşanın tabeçiliyində qalacağı bildirilirdi. Təklif Polşa kralı tərəfindən qəbul edildi. Amma Polşa kralının cavab məktubunun yetişdiyi 1618-ci ildə Səfəvi dövləti ilə Osmanlı dövləti arasında münasibətlər bir qədər sabitləşmişdi. Bu da ona imkan verdi ki, Şah Abbas Qara dəniz sahillərində qala tikilməsi ideyasından daşınsın. İtaliyalı səyyah Pyetro Delavallenin xatirələrində elçi Yaqubun Avropadan geri qayıtması və şah sarayına gəlməsi haqında bəzi qeydlər mövcuddur. O yazırdı: "Noyabr ayının 9-da indiyə qədər görmədiyim və Yaqub adlandırılan bir erməni mənim yanıma gəldi. Şah onun xidmətlərindən çox istifadə edirdi və dəfələrlə onu məktublarla ora-bura göndərirdi. Ona hətta casus deyə müraciət edirdilər. O dedi ki, yenicə Venesiya, Konstantinopol və Hələb yolu ilə Osmanlı ərazisindən keçməklə Avropadan qayıtmışdır. Şah ona Polşa kralı, Ferdinand və Avropanın digər padşahlarına çatdırmaq üçün məktublar vermişdi. İndi o bu tapşırığı başa vurmuşdu. O mənə dedi ki, Polşa kralı, kazakların rəhbərlərindən biri, Fransa elçisi və Roma papalığını təmsil edən qara geyimli iki keşişlə toplantı keçirmişdir. Onların hamısı şaha məktub yazmışlar. Qara geyimli keşişlər də Karmelit keşişlərinin xəlifəsi olan Covanni ataya məktublar yazmışlar. Şah onların hamısını götürmüş və öz münşisi Ağamirə vermişdir. Özü isə məktublara müraciət etmədən onun (yəni Yaqubun) şifahi məlumatı ilə kifayətlənmişdir" (402).

Yaqubun elçiliyinin başa çatmasından sonra Səfəvi dövləti ilə Polşa dövləti arasındakı münasibətlərdə hər hansı bir dəyişikliyin olması haqqında mənbə və elmi-tarixi ədəbiyyatda məlumat yoxdur.

Almaniya ilə münasibətlər. Şah Abbasın Avropa dövlətləri arasında xoş münasibətlər qurmağa çalışdığı dövlətlərdən biri də Almaniya imperatorluğu idi. Bu dövlətlə də qurulan əlaqələrin mərkəzində Səfəvi dövləti üçün ənənəvi maraq kəsb edən iki məsələ - Osmanlı dövlətinə qarşı hərbi ittifaq və ticarət əlaqələrinin genişləndirilməsi dayanırdı. Almaniya dövləti ilə Səfəvi dövləti

əlaqələr hələ I Şah İsmayılın hakimiyyəti illərində başlamışdı. Elə o zaman da Osmanlı təhlükəsinin mövcudluğu bu iki dövlətin ortaq maraqlarını təşkil edirdi. I Şah Təhmasibin hakimiyyəti illərində də Almaniya dövləti ilə münasibətlərin qurulması istiqamətində bəzi cəhdlər göstərildi. Şah Abbasın hakimiyyəti illərində isə bu münasibətlərin inkişafı istiqamətində yeni bir fəallaşma özünü göstərməyə başladı.

Şah Abbas hakimiyyətə gəldiyi vaxt Almaniya Avropanın qüdrətli dövlətlərindən biri idi və ona imperator II Rudolf hökmdarlıq edirdi. Bu imperatorluğun böyük hərbi gücü və Osmanlı dövlətinə müqavimət göstrmək imkanları var idi. Şah Abbasın hakimiyyətinin ilk illərində Almaniya imperatorluğunun Osmanlı dövləti ilə müharibəsi də baş verdi. Yəni Almaniya dövləti Osmanlı təhlükəsi ilə birbaşa üzbəüz idi və ona görə də Şah Abbas Şübhə etmirdi ki, Osmanlı dövlətinə qarşı ittifaq yaradılmasına Almaniya dövləti də maraqlı olacaqdır.

Almaniya dövləti ilə rəsmi münasibətlərin qurulmasına ilk cəhd Antoni Şerli və Hüseynəli bəyin rəhbərliyi altında Avropaya göndərilən elçilik heyəti ilə göstərildi. Tərkibi qırx nəfərdən artıq olan bu elçilik heyəti 1599-cu ildə İsfahandan yola düşdü. Antoni Şerli ilə Hüseynəli bəy bu elçilik zamanı Almaniya imperatorunun da qəbulunda olmalı və ona Şah Abbasın məktubunu təqdim etməli idilər.

Mövcud olan məlumata görə, bu heyət göndərilməzdən əvvəl də iki dövlətin nümayəndələri arasında müəyyən kontakt baş vermişdi. Belə ki, Almaniyanın Moskvadakı nümayəndəliyinin təmsilçiləri hələ 1592-ci ildə bu şəhərə gəlmiş Səfəvi taciri Əli Xosrov bəylə maraq doğuran məsələlər ətrafında müzakirələr aparılmışdı. Bu müzakirələrdən sonra isə Səfəvi sarayı tərəfindən bir nəfərin alman sarayına göndərildiyi bildirilir (404).

Antoni Şerlinin və Hüseynəli bəyin rəhbərlik etdiyi elçilik heyəti Rusiyaya yetişəndən sonra şimal dənizlərindən keçməklə Almaniya ərazisinə yollandı. Bu heyət 1600-cü il oktyabr ayında Praqa şəhərin daxil oldu. Elçilik heyətinin üzvü olmuş Oruc bəy

Bayat Praqa şəhərinə yetişmələrini belə təsvir edirdi: "Praqa şəhərindən beş lyö məsafədə olan və II Rudolfun imperator sarayı yerləşən Trinka şəhərində olarkən biz imperator həzrətlərinin yanına adam göndərdik və ondan bizim elçiliyin hərəkəti barəsində icazə istədik. Cavabın gəlməsi üçün beş gün gözləməli olduq. Lakin həmin günün axşamı cavab əldə edə bildik. İmperator həzrətləri öz kamerdinerlərindən birini və altı fayton göndərdi ki, bizi paytaxta çatdırsın. Biz şəhərə çatmazdan əvvəl sarayın baş kamerdineri altı gözəl faytonla bizim qarşımıza gəldi. Mənim fikrimcə, onun yanında Praqadan gəlmiş on mindən artıq adam var idi ki, onlar da bizi qarşılamağa çıxmışdılar. Bütün bu adamlar ya minik arabalarında idilər, ya da at belində. Onlardan başqa gələnlər arasında imperator sarayında təmsil olmuş Avropanın müxtəlif kral və şahzadələrinin elçiləri də var idi. Onlar da sevinclə bizi iqamətgahımıza qədər müşayiət etdilər. Böyük bir sarayda bizim üçün ayrıca otaqlar müəyyənləşdirilmişdi. Elçiliyin ingilis nümayəndələri üçün də ayrıca otaqlar verilmişdi. Sonradan imperator həzrətləri tərəfindən bizim sarayın mühafizəsinə adamlar da ayrıldı. Onun əyanlarının bir çoxu bizə baş çəkdi. Bizim gündəlik xərclərimiz üçün də imperator tərəfindən 150 kron müəyyənləşdirildi. Həftənin sonuna biz hələ istirahətdə ikən əlahəzrət öz katibini əmrlərlə bizim yanımıza göndərdi. Sonrakı gün bizi beş böyük minik arabasında imperator sarayına gətirdilər. Bu bina bizim gördüyümüz binalar arasında ən gözəli və zəngini idi. Giriş darvazasından birinci pilləkənə kimi hər iki tərəfdə imperator qvardiyasının müxtəlif silahlarla silahlanmış dörd müxtəlif dəstəsi düzülmüşdü. Biz onların arası ilə hərəkət etdik. Biz pilləkənin sonuna çatanda əlahəzrətin kamerqerləri bizim qarşımıza çıxdılar və oradakı saray adamları ilə birlikdə bizi imperator salonunun qarşısına gətirdilər. Biz böyük salona daxil olduq. Orada imperator bizi gözləyirdi. Kamerqerlər və saray mənsubları orada dayandılar və biz təklikdə daxil olduq. İmperator salonun sonunda göz oxşayan xalçanın üzərində dayanmışdı. Xalçanın kənarında isə xidmət üçün hazır olan baş katib dayanmışdı. O, tərcüməçi idi, çoxlu dil-

ləri bilirdi və imperatorun xüsusi ehtiramına malik idi. Bizim elçi irəli çıxdı, öz ehtiramını ifadə etmək üçün dizini yerə qoydu və şahın məktubunu imperatora təqdim etdi. Sonra imperator tərcüməçi vasitəsilə elçinin hal-əhvalını soruşdu, necə gəlib çıxması, yorucu səfərdən sonra yaxşı istirahət edə bilməsi ilə maraqlandı. Elçi tərcüməçi vasitəsilə bütün suallara lazımi nəzakətlə cavab verdi və sonra onu müşayiət edən və dediyinə görə şah tərəfindən göndərilmiş bizim hər birimizi təqdim etdi. Əlahəzrət buyurdu ki, bizim hər birimiz növbə ilə ona yaxınlaşaq və özümüzü təqdim edək. Bu zaman o, tərcüməçi vasitəsilə bizim hal-əhvalımızla maraqlandı və bununla bizə öz münasibətini nümayiş etdirdi. İmperator öz nəslinin xarakterik cəhətini özündə birləşdirən Avstriya Evinə məxsus sonsuz nəzakət və mehribanlıq göstərdi. Sonra imperator səmimiyyətlə elçini azad etdi və dedi ki, o, Səfəvi şahının öz məktubunda etdiyi xahişlərlə dərindən tanış olacaq və böyük məmnuniyyətlə imkan daxilində olanlara əməl edəcəkdir. Sonra əlahəzrətin kamergerlərindən biri bizi yaşadığımız saraya qədər müşayiət etdi.

... Sonrakı üç ay ərzinə biz imperator sarayında qalmaqla istirahət etdik. Bütün bu vaxt ərzində çox gözəl şəkildə əyləndik və sonra (1601-ci ilin yazında) imperator bizə öz səfərimizi davam etdirməyə icazə verdi. O, elçiyə əlli ədəd qızıl suyuna çəkilmiş gümüş qab, o cümlədən boşqab yumaq üçün qablar, qrafin və şamdanlar, habelə yol xərcləri üçün dörd min dukat hədiyyə etdi. Heyət üzvü kimi, bizim hər birimizə isə qızıl suyuna çəkilmiş gümüşdən böyük pivə fincanı və yol xərcləri üçün isə 200 kron verildi. İki minik arabasında biz imperator kamergerinin müşayiəti ilə Praqadan hərəkətə başladıq və elə birinci gün Beroun adlanan bir şəhərə gəldik. Biz orada istirahətə dayandıq. Sonrakı gün kamerger bizdən ayrıldı, paytaxta qayıtdı. Biz isə İtaliyaya doğru yolumuzu davam etdirdik" (405).

Elçilik heyətinin istər Almaniya imperator ilə görüşündə, istərsə də bu heyətin Praqada qaldığı vaxt Şah Abbas tərəfindən qaldırılan məsələlər ətrafında müəyyən müzakirələr oldu. Mövcud

olan bəzi məlumata görə, II Rudolf elçilik heyətinin digər Avropa dövlətlərinə yola düşməsi ilə razı deyildi. Təklif olunurdu ki, şah tərəfindən yazılmış məktubla ünvana qasidlər vasitəsilə göndərilsin və rəsmi elçilik heyəti isə geri qayıtsın. Şah Abbas tərəfindən Almaniya imperatoru tərəfindən sadəcə Osmanlı dövlətinə qarşı ittifaq yaradılması təklif olunmurdu. Eyni zamanda tələb olunurdu ki, ittifaqın yaradılacağı təqdirdə Almaniya dövləti Səfəvi sarayından xəbərsiz Osmanlı dövləti ilə heç bir bir razılaşmaya getməsin. Almaniya imperatoru bu məsələ ətrafında müzakirələr aparılandan sonra cavabın verəcəyini bildirsə də, elçilik heyəti Praqanı tərk edənə qədər bununla bağlı aydın bir fikir bəyan edilmədi (406).

Bununla belə, Almaniyanın imperatoru Səfəvi dövləti ilə münasibətlərin davam etdirilməsinə meylli idi. Onun nəticəsi idi ki, 1602-ci ildə Almaniya sarayı tərəfindən bir elçilik heyəti İsfahana yola salındı. Bu elçilik heyətinə Transilvaniya zadəganlarından olan Etiyen Kakaç de Zalonkemeni adlı birisi rəhbərlik edirdi. Bu elçilik heyətinə tapşırılmışdı ki, şah sarayında başlıca olaraq Osmanlı dövlətinə qarşı ittifaq yaradılması barəsində müzakirələr aparsın və bununla bağlı razılaşma imzalanmasına nail olsun. Eyni zamanda imperator sarayı istəyirdi ki, Təbriz şəhəri geri alınana kimi şah sarayı tərəfindən Osmanlı sarayı ilə heç bir razılaşmaya imza atılmasın. Alman elçisi səfər zamanı Moskvada olarkən Rusiya sarayı ilə Osmanlı dövlətinə qarşı Almaniya-Rusiya-Səfəvi ittifaqının yaradılması ətrafında da müzakirələr aparmalı idi (407).

Alman elçisi öz səfərini Rusiyadan keçməklə icra etməli idi. 1602-ci il avqust ayının sonlarında Praqadan hərəkətə başlayan bu heyət həmin ilin noyabr ayının sonlarına yaxın Rusiya çarı Boris Qodubovun qəbulunda oldu. Rusiya çarı alman imperatorunun təkliflərinə müsbət yanaşdı və o öz münasibətini II Rudolfa yazdığı məktubunda da ifadə etdi. Elçi ilə aparılan müzakirələrdən sonra Boris Qodunov alman kralına məktub ünvanladı. Həmin məktubda deyilirdi ki, alman elçisi ilə görüşdən sonra onun yolçuluğunun davam etdirilməsi və Rusiya ərazisindən çətinlik çəkmədən keçməsi üçün lazım olan şərait yaradılıb. Rusiya çarı bildirirdi

ki, o Şah Abbasa da məktub yazmışdır və onunla Osmanlı dövlətinə qarşı hərbi ittifaqa girməyə razı olduğunu bəyan etmişdir. Məktubun Şah Abbasa çatdırılması üçün Səfəvi sarayına böyük bir elçilik heyəti də göndərilmişdi. Boris Qodunov alman imperatoruna onu da yazırdı ki, Şah Abbasın hərbi ittifaqa razı olacağı təqdirdə bütünlükdə Osmanlı dövlətinə qarşı razılaşdırılmış siyasət həyata keçirməsini istəyir. O cümlədən, Boris Qodunov istəyirdi ki Şah Abbas Rusiya çarı ilə razılaşdırılmadan Osmanlı sarayı ilə heç bir sülh anlaşmasına getməsin. O öz tərəfindən də söz verirdi ki, o da Şah Abbasla razılaşdırmadan Osmanlı sarayı ilə sövdələşməyə getməyəcəkdir. Boris Qodunov sonra alman imperatorunun nəzərinə çatdırırdı ki, onun təklifi Şah Abbas tərəfindən qəbul olunub və ona görə Şah Abbas Osmanlı qoşunlarına qarşı savaşa başlayanda Aleksandr Krosinski adlı bir təbəəsinin qoşun dəstəsi ilə Səfəvi şahının köməyinə göndərmişdir. Rusiya çarı sonra Osmanlı qoşunların qarşı aparılan savaşda Şah Abbasın uğurlar qazandığını və bir çox ərazilərin də bu zaman geri qaytarıldığını yazırdı. Qeyd etmək lazımdır ki, Moskvada olarkən alman elçisi Səfəvi elçisi Zeynal bəylə görüşə bilmiş və onun da səfəri ilə bağlı fikir mübadiləsi etmişdi (408).

Alman elçisi Səfəvi dövlətinə doğru su yolu ilə hərəkət etməli idi. O, Volqa çayı ilə Həştərxana gəldi və bir müddət də orada gözləməli oldu. Dəniz yolu ilə təxminən bir ay yolçuluq edən alman elçisi 1603-cü ilin avqust ayında Lənkərana yetişdi. 1602-ci ilin noyabrında Rusiya çarının qəbulunda olan alman elçisinin səfərinin kifayət qədər ləngiməsinin nə ilə bağlı olduğunu söyləmək çətindir. Lənkərana yetişən kimi Etiyen Kakaç de Zalonkemeni şah sarayına çapar göndərdi və elçilik heyətinin gəlişi ilə bağlı Şah Abbasa məlumat çatdırdı. Şah Abbas bu zaman Azərbaycan ərazilərinin Osmanlı nəzarətindən çıxarılması üçün hərbi yürüşə hazırlaşırdı. Bununla belə, o, alman elçilik heyətinin qarşılanması və paytaxta müşayiət olunması üçün xüsusi bir heyət təşkil etdi və Robert Şerlini də bu heyətin rəhbəri təyin etdi. Şah tərəfindən nəzərdə tutulmuşdu ki, alman elçilik heyətini elə döyüş

bölgəsində qəbul etsin. Şah sarayının təmsilçilərinin müşayiəti ilə alman elçilik heyəti Lahicana yola düşdü. Lakin Səfəvi ərazisinə gəlmiş alman elçilik heyəti üçün səfər heç də yaxşı başlamadı. Lahicanda Etiyen Kakaç de Zalonkemeni və elçilik heyətinə daxil olan daha üç nəfər xəstələnərək dünyasını dəyişdilər. Dünyasını dəyişməzdən əvvəl alman elçisi heyətə rəhbərliyi Georq Tektander fon der Yabel adlı birisinə həvalə etdi. O, elçilik heyətinin münşisi vəzifəsini icra edirdi (409).

Bu itkidən sonra elçilik heyəti Robert Şerli ilə birlikdə Lahicandan Qəzvinə doğru hərəkətə başladı. Elçilik heyətinə rəhbərliyin həvalə olunduğu Tektanderin yol qeydlərindən aydın olur ki, sonrakı yolçuluq da bir sıra sınaqlarla qarşılaşmalı oldu. Belə ki, heyət üzvlərindən daha dörd nəfər xəstəliyə tutuldular. Onlardan iki nəfəri rus, iki nəfəri isə polşalı idi. Bu adamların xəstəliyi o dərəcədə şiddətli idi ki, elçilik heyəti onları tərk etməli oldu. Tektander yazırdı ki, bu adamlar yerli sakinlərin qayğısına buraxıldı və yerli sakinlər də onlara qarşı çox yaxşı qayğı nümayiş etdirdilər. 1603-cü ilin noyabrında elçilik heyəti Qəzvin şəhərinə daxil oldu. Bu şəhərdə isə elçilik heyətini müşayiət edən mehmandar xəstəliyə tutularaq dünyasını dəyişdi (410).

Çox güman ki, Qəzvinə yetişəndən sonra elçilik heyətinin Təbrizə getməli olduğu aydın oldu. Əks təqdirdə heyət Xəzər sahillərindən birbaşa Təbrizə istiqamət götürə bilərdi. Tektanderin yazdığına görə, o, Təbrizə təklikdə hərəkət etməli oldu. Onun yanında yalnız Moskvadan olan tərcüməçi var idi ki, o da yerli dilləri çox zəif bilirdi. Alman elçisinin yazdığına görə, Şah Abbas həmin vaxt 120 min nəfərlik qoşun dəstəsi ilə Təbriz üzərinə hücum etmiş və o, Qəzvində olarkən bu şəhəri artıq Osmanlı nəzarətindən geri almışdı. Tektander 1603-cü il dekabr ayının 15-də Təbrizə yetişdi və dərhal da Şah Abbas tərəfindən qəbul edildi. Bu qəbulla bağlı alman elçilik nümayəndəsinin səfər qeydlərində bəzi məlumatlar qalmaqdadır. O yazıdı: “Mən dekabr ayının 15-də, təxminən nahardan üç saat sonra çox yorğun və düşkün bir vəziyyətdə Təbrizə yetişdim. Çünki mənim də tutulduğum qızdırma və məx-

mirək xəstəliyi məni çox zəiflətmişdi. Hətta başqalarının köməyi olmadan atın yəhəri üstünə də qalxa bilmirdim. Bir neçə dəfə bu xəstəliyim öldürücü bir vəziyyət aldı. Çox vaxt çalışırdım ki, gecə də, gündüz də hərəkəti dayandırmayım və şahdan əvvəl Təbrizə yetişim. Mənim gəlişimdən üç gün sonra şah Təbrizi tərk etdi. Heç atdan yerə düşməmişdim ki, şah məni öz hüzuruna çağırdı. Mənə hələ fürsət tapa bilməmişdim ki, bir şey yeyim, libasımı dəyişim və atları da tövləyə göndərim. Xidmətçimi bazara göndərmişdim ki, yemək üçün bəzi şeylər alsın. Nə isə, hər şeyi buraxdım və şahın hüzuruna yollandım. Məni sarayın daxilinə apardılar. Şah saray mənsublarının və məsləhətçilərinin arasında, yerdə oturmuşdu. Şahın libası başqaları ilə müqayisədə daha sadə olduğundan və yanımda da tərcüməçinin olmadığından onu tanıya bilmədim və bir ləhzə tərəddüd etdim. Bu vaxt yaşlı iranlılardan biri mənim əlimdən tutub şaha tərəf apardı. Moskva müşayiətçisinin mənə verdiyi təlimata uyğun olaraq, şahın qarşısında təzim etdim və şahın əlindən öpdüm. Şah işarə etdi ki, ayağa qalxam. Sonra bir italiyalı müsəlman mənimlə İtaliya dilində danışmağa başladı. Ondan soruşdum ki, latın dilini bilirmi və sonra da elə bu dildə ona dedim ki, Almaniya imperatoru mənim rəhbərimi əlahəzrət şahın hüzuruna göndərmişdir. O, səkkiz nəfərdən ibarət olan yol yoldaşları ilə birlikdə Gilan əyalətinin Ləngəruduna (Lənkəran nəzərdə tutulur-M.S.) gəlib yetişibdir. Yol yoldaşlarından üç nəfər yaxşı yeməyin və şərabın olmaması üzündən o şəhərdə dünyasını dəyişdilər. Bundan əlavə dörd nəfər ölüm ayağında olduqları üçün orada qaldılar. Amma mərhum rəhbərimiz məni vəzifələndirdi ki, əlahəzrət imperatorun məktubunu sizə çatdıram. Mən bunu deyəndə şah istədi ki, məktubu görsün. Amma məktub sandıqda qaldığından qalxdım ki, onu gətirməyə gedim. Amma mənə icazə verilmədi. Məcbur olub açarı şahın məsləhətçilərindən birinə verdim ki, gedib məktubu gətirsin və şahın hüzurunda mənə versin. Əlahəzrət imperatorun məktublarından biri latın, o biri isə İtaliya dilində idi. Üçüncü məktub isə Rusiya çarından idi və iki dildə yazılmışdı. Mən əvvəlcə öyrədilmiş ədəb üzrə təzim etdikdən və

məktubları öpdükdən sonra onları şaha təqdim etdim. Şah ehtiramla məktubları aldı. O həmçinin mənim hədiyyələrimi qəbul etdi. Şah əlini mənim başıma qoydu və məni yanında otuzdurdu. O, məktubların möhürünü açdı. ...Sonra şah öz xidmətçilərindən birinə tapşırdı ki, məni qalacağım evə çatdırsın. İtaliyalı tərcüməçini və məktubları da ora göndərdi. Bu tərcüməçi mənim yanımda İtaliya dilində olan məktubları və bizim elçiyə aid olan məktubu fars dilinə tərcümə etdi. O, Rusiya çarının bizim səfərimizlə bağlı məktubu ilə də tanış oldu“ (411).

Təbriz şəhəri Osmanlı nəzarətindən çıxarıldıqdan sonra Şah Abbas qoşunlarla birlikdə İrəvan istiqamətində irəliləməyə başladı. Georq Tektander fon der Yabel İrəvan şəhərinə qədər qızılbaş qoşunları ilə birlikdə oldu. İrəvana qədər olan şəhərlərin və yaşayış məntəqələrinin Səfəvi nəzarəti altına düşməsini və bu zaman yerli əhalinin Şah Abbası necə qarşılamasını müşahidə etdi. Bu barədə onun səfər qeydlərində də məlumatlar vardır. İrəvan şəhəri də nəzarət altına alınandan sonra Şah Abbas Tektanderin geri qayıtmasına icazə verdi. “Bu hadisələr başa çatandan sonra şah məni öz hüzuruna çağırdı və dedi ki, mənim çox hörmətli əlahəzrət sərvərimin yanına dönmək vaxtım yetişmişdir. Bundan sonra o, Mehdiqulu bəy Türkman adlı birisini də mənimlə gedəcək elçi kimi təyin etdi. Şah mənə özünün geyindiyi bir dəst səltənət libası, bir baş ərəb atı və 900 sikkə bağışladı” (412).

Mehdiqulu xan şah sarayının elçisi kimi, Rusiya sarayına və Almaniya imperatoruna Şah Abbasın məktublarını çatdırmalı idi. Yeni elçinin göndərilməsində məqsəd Osmanlı qoşunları üzərində əldə edilmiş uğurlar haqqında Rusiya çarına məlumat vermək və Şah Abbasın ona olan təşəkkürünü çatdırmaq idi. Şah Abbas tərəfindən aparılan savaşda Rusiya çarının göndərdiyi köməkdən də istifadə olunurdu. Bəzi məlumatlara görə, Osmanlı qoşunlarına qarşı aparılan döyüşlərdə Rusiya çarı tərəfindən göndərilmiş bir neçə minlik rus qoşun dəstəsi və bir neçə ədəd top da iştirak edirdi. Osmanlı dövlətinin zəiflədilməsi üçün Rusiya çarı onun marağında idi ki, Şah Abbas bu dövlətlə olan savaşını davam etdir-

sin. Bunun nəticəsində Volqa-Don hövzəsi üçün yarana biləcək Osmanlı təhlükəsini də aradan qaldırmaq olardı. Almaniyanın və Səfəvi dövlətinin birlikdə yola düşən elçilik həyətləri Xəzər dənizi və Bolqa çayı ilə öz səfərlərini icra etdilər və bu elçilik heyətləri 1604-cü ilin iyulunda Moskvada, Rusiya çarı Boris Qodunovun qəbulunda ola bildilər. Rusiya çarı Almaniyanın elçilik təmsilçisi ilə Səfəvi elçisini mehribanlıqla qarşıladı, Səfəvi qoşunlarının Osmanlı qoşunları üzərindəki uğurları onda böyük bir məmnunluq yaratdı. Bununla bağlı, Rusiya çarı Almaniya imperatoru II Rudolfa göndərdiyi məktubunda da öz razılığını gizlətmədi (413).

1604-cü ilin sonlarında Mehdiqulu xan və alman elçiliyi Praqaya yetişdi. Burada məlum oldu ki, Zeynal xan Biqdeli adlı başqa bir şah elçisi də Praqadadır. O da Almaniya imperatoruna Şah Abbasın məktubunu gətirmişdi. Həmin məktubda da Osmanlı qoşunları üzərində əldə edilmiş uğurlar haqqında məlumat verilirdi. Şah Abbas savaşın davam edəcəyi barəsində alman imperatoruna məlumat çatdırırdı (414).

Mehdiqulu bəylə Zeynal xanın Almaniyaya elçilik missiyası başa çatanda alman imperatoru da Səfəvi sarayına öz elçisini göndərmək qərarına gəldi. Bu dəfə qraf Vratislav van Dohna adlı birisi elçi təyin edildi və Səfəvi dövlətinə yola salındı. Lakin bu elçi yolda ikən dünyasını dəyişdi və bununla da elçilik missiyası başa çatmamış qaldı. Mövcud olan məlumata görə, Şah Abbas Almaniya ilə münasibətlərin saxlanmasına xüsusi diqqət yetirirdi. Buna başlıca səbəb də Almaniya imperatoru II Rudolfun Şah Abbasla razılaşdırmadan Osmanlı sarayı ilə sülh razılaşmasına getməyəcəyini öhdəsinə götürməsi idi. Buna görə də Şah Abbas sarayın otaqlarından birinə II Rudolfun portretini asmışdı və hər dəfə həmin otağa daxil olanda hörmət əlaməti olaraq II Rudolfun portreti qarşısında başını əyirdi. Bununla belə, 1606-cı ildə Şah Abbas məlumat aldı ki, Almaniya imperatoru Osmanlı dövləti ilə sülh razılaşmasına getmiş və bu barədə Şah Abbasa hər hansı bir məlumat verməmişdir. Bu da Şah Abbasın Almaniya ilə münasibətlərinə kəskin şəkildə mənfi təsir etdi.

Səfəvi elçisi kimi Avropaya göndərilmiş Robert Şerli 1609-cu ildə Almaniya imperatoru II Rudolfun qəbulunda oldu, Şah Abbasın məktubunu və qiymətli hədiyyələrini ona çatdırdı. Doğrudur, Robert Şerli Səfəvi sarayının elçisi kimi alman sarayında yaxşı qarşılandı. Lakin bu qarşılanma iki dövlət arasında münasibətlərin yaxşılaşmasına müsbət bir təsir göstərmədi. Şah Abbasın hakimiyyəti illərində Almaniyada II Rudolfdan sonra daha iki imperator taxta çıxdı. Bununla belə, həmin illərdə iki dövlət arasında münasibətlərdə müsbət bir dəyişiklik yaranmadı.

Hollandiya ilə münasibətlər. Şah Abbas hakimiyyəti illərində ikitərəfli əlaqələrin kifayət qədər ardıcıllıqla davam etdiyi ölkələrdən biri də Hollandiya idi. XVI əsrin ikinci yarısında Hollandiya İspaniyanın nəzarət etdiyi hüdudlara daxil olsa da, inkişaf etməkdə olan məkanlardan biri idi. Bu ölkənin tacirləri hələ İspaniyanın tərkibində olarkən öz əlaqələrini genişləndirir və hətta Hind okeanı hövzəsinə də səfərlər edirdilər. Şimal dənizlərinin sahilində yerləşməsi Hollandiyada gəmiçiliyin inkişafına zəmin yaradırdı və bu da öz növbəsində dəniz ticarətinin qurulmasına kömək edirdi. Holland tacirləri ilk növbədə bölgə daxilində öz işlərini yaxşı qurdular və bununla da çox böyük vəsaitlərə sahib oldular. Bölgə daxilində ticarətin təşkilatlanmasına nail olduqdan sonra onlar yeni bazarlar axtarışına çıxdılar və bununla da onların Asiya bazarlarına yolu açıldı. Xüsusən, XVI əsrin sonlarında holland səyyahlarının Hindistana və bölgə dövlətləri ərazilərinə səfərləri və bu səfərlər haqqında məlumat yaymaları holland tacirləri arasında da Hind okeanı bölgəsinə bir maraq yaratdı. Bu bölgənin zəngin bazarlarına yol tapmaq üçün holland tacirləri ispan, portuqal tacirləri ilə güclü rəqabətə girişməli olsalar da bu istiqamətdə davamlı addımlar atmağa başladılar. Hind okeanı hövzəsində mövqe qazanmaq üçün hollandların Portuqaliyaya və ya İspaniyaya qarşı hərbi güc çıxarmaq imkanları yox idi. Ona görə də onlar iqtisadi yolla portuqalların bölgədən sıxışdırılması yolunu tutdular və vaxt ötdükcə bu istiqamətdə arzusunda olduqları nəticələri də əldə etdilər.

Dünya bazarlarında yeni mövqe əldə etmək üçün hollandlar 1597-ci ildə mövcud olan ticarət şirkətlərini birləşdirdilər. Belə bir şirkətin yaradılması ticarət dairələrinin imkanlarının mərkəzləşdirilməsi və daha böyük işlərin görülməsi baxımından əhəmiyyət kəsb edirdi. Bunun nəticəsi idi ki, elə XVI əsrin sonlarında holland şirkətləri ədviyyə ticarəti sahəsində ingilis şirkətlərini sıxışdıra bildilər. Sonradan bu təcrübə daha da genişləndirildi və Hindistanla ticarət əlaqələrinə malik olan holland şirkətləri birləşdirildi və onların bazasında 1602-ci ildə Hollandıyanın şərq ölkələri ilə ticarət edəcək Şərqi-Hind şirkəti təsis edildi (415).

Şərqi-Hind şirkətinin təsis edilməsi ilə Hind okeanı hövzəsində holland ticarəti xeyli genişlənməyə başladı. Qısa müddət ərzində bu şirkət portuqal tacirlərini kifayət qədər sıxışdırmağa müvəffəq oldu. Hətta bölgədəki bəzi dəniz ticarət limanları da hollandların əlinə keçdi. Bütün bu fəaliyyətlər Hindistan ətrafında cərəyan edirdi və holland tacirləri də özlərinin ilkin fəaliyyətini məhz Hindistan üzərində qurmağa çalışırdılar. Elmi-tarixi ədəbiyyatda mövcud olan məlumatlardan belə bir qənaət hasil olur ki, iki dövlət arasında qarşılıqlı əlaqələrin qurulmasının təşəbbüskarı şah sarayı olmuşdu. Belə ki, hollandlara məxsus Şərqi-Hind şirkətinin cənub sularında genişlənməkdə olan fəaliyyəti və bütünlükdə holland tacirlərinin gediş-gəlişləri haqqında Şah Abbas da müəyyən məlumatlar əldə etmişdi. Xüsusilə, hollandların dəniz donanmasına malik olması Şah Abbasın maraq dairəsində idi. Buna görə idi ki, Zeynal bəyin rəhbərliyi altında Avropaya elçilik heyəti göndəriləndə ona verilmiş tapşırıqlardan biri də Hollandiyaya yollanmaq və bu dövlətin rəhbərləri ilə görüşmək idi. Zeynal bəy 1608-ci ilin iyun ayında Hollandiyaya gəldi, burada dövlət mənsubları, xüsusilə də Şərqi-Hind şirkətinin təmsilçiləri ilə davamlı müzakirələr apardı. Şah Abbası daha çox maraqlandıran holland gəmiləri vasitəsilə ipək ticarətinin coğrafiyasının genişləndirilməsi idi. Bu Zeynal bəy tərəfindən holland tacirləri ilə görüşdə də qaldırıldı. Şah sarayı tərəfindən vəd edildi ki, hollandlar ildə yüz ədəd gəmi ilə cənub sularına gəlməklə ipək ticarətini öz əllərinə ala bilərlər.

Bununla, hollandlar Hind okeanı hövzəsində ipək ticarəti ilə bağlı İspaniya və Portuqaliyanın monopoliyasına son qoya bilərdilər. Şah sarayı bu məsələdə holland tacirləri üçün lazımi imkanlar yaratmağa hazır olduğunu bildirirdi. Lakin həmin vaxtlarda Hollandiya öz müstəqilliyini qazanmaq üçün İspaniya sarayı ilə müzakirələr aparırdı. Bu müzakirələrin uğurla başa çatması üçün hollandlar İspaniya sarayının narazılığına səbəb ola biləcək addım atmaqdan çəkinirdilər (416).

Bir məlumata görə, 1609-cu ildə elçi kimi Avropaya göndərilən Robert Şerli də hollandların Şərqi-Hind şirkətinin nümayəndələri ilə görüşmüş və onlara Səfəvi dövləti ilə ticarət əlaqələrinin qurulması təklif olunmuşdu. Bu dövrdə hollandların artıq Səfəvi ipəyi haqqında geniş məlumatları var idi. Belə ki, ələ keçirilmiş portuqal ticarət gəmilərindəki ipək Hollandiyaya daşınmış və onların yaxşı satıldığının şahidi olmuşdular. Lakin Robert Şerlinin təklifindən sonra da holland tacirlərinin Səfəvi dövləti ilə ticarət əlaqələrinin qurulmasında hər hansı bir irəliləyiş baş vermədi. Robert Şerli tərəfindən hollandlara müştərək ingilis-holland şirkətinin yaradılması da təklif olunmuşdu. Bu təklif də gözlənilən nəticəni vermədi. Elə 1609-cu ildə cənub sularına yol tapmış holland dəniz donanmasının rəhbərlərinə Portuqaliyaya qarşı Səfəvi dövləti ilə ittifaq yaradılması da təklif olundu. Bu müraciət də cavabsız qaldı (417). Holland ticarət şirkətləri Hind okeanı hövzəsində ticarət monopoliyasını ələ almağa ehtiyatla yanaşırdılar. Çünki istər İspaniyanın, istərsə də İngiltərənin bölgədə kifayət qədər böyük gücü var idi. Həmin gücə qarşı çıxmaq üçün Hollandiya müəyyən siyasət izləyirdi və həmin siyasətin nəticəsində daha münasib şərait 1614-cü ildən etibarən formalaşmağa başladı.

Hollandiya dəniz ticarətində İngiltərə ilə güclü rəqabət aparırdı və ticarət işlərinin genişləndirilməsi üçün bu rəqabətdə üstünlük əldə edilməsinə ehtiyac var idi. 1614-cü ildən etibarən holland tacirləri Hind okeanı hövzəsində ingilis tacirlərinin fəaliyyətinin məhdudlaşdırılması üçün əməli addımlar atmağa başladılar. Holland tacirlərinə aydın idi ki, Səfəvi dövləti ilə ipək ticarətində üs-

tünlük əldə etmək üçün ingilis ticarətini cənub sularından sıxışdırmaq lazımdır. Bu mənada holland tacirləri Səfəvi ipəyi və bu dövlətlə ticarətin genişləndirilməsi üçün daha ciddi şəkildə düşünməyə başladılar. Səfəvi ipəyinə hollandların marağının artması həm də Avropa bazarında meydana gələn tələblə bağlı idi. Həmin dövrdə Avropa bazarında Səfəvi ipəyinə böyük tələbat var idi və ipək ticarətinin ələ alınması ilə böyük faydalar da qazanmaq mümkün idi.

1622-ci ildə Hörmüz adasının portuqallardan geri alınmasından sonra Səfəvi dövlətinin cənub sularında ticarət işlərini qurmaq üçün yeni imkanlar açıldı. Bölgədə portuqal monopoliyası aradan qaldırıldıqdan sonra Səfəvi limanlarına holland tacirlərinin gəlişgedişi də artdı. Bunun nəticəsi idi ki, 1623-cü Bəndər Abbasda Hollandiyanın ticarət nümayəndəliyi açıldı. Bu ticarət nümayəndəliyini açandan sonra hollandlar Şah Abbasa müraciət etdilər və ondan Səfəvi ipəyinin ticarətində iştirak etmək üçün icazə aldılar. Bir məlumata görə, bu zaman Şah Abbas Bağdad istiqamətinə yola düşmüşdü. Şah Abbas da holland tacirlərin bu ticarətdə iştirak etməsinə razılıq verdi. Eyni zamanda holland tacirlərinin qarşısında belə bir şərt qoyuldu ki, Avropadan gətirilən bütün mallar şah anbarlarına təhvil verilsin və bu malların pərakəndə satışı şah tərəfindən təşkil edilsin. Təhvil verilən malların dəyərində isə hollandlar ipək və ya digər malları alıb apara bilərdilər. Hollandlar üçün əsas məsələ ipək ticarətinə icazə alınması məsələsi idi ki, buna da nail oldular. Amma gətirdikləri malların bütünlüklə şah anbarlarına təhvil verilməsi onları elə də razı salmadı. Holland tacirlərinin fikrincə, bu zaman şah məmurları tərəfindən təhvil alınan holland mallarının qiyməti aşağı salınır, satılan ipəyin qiyməti isə yuxarı qaldırılırdı. Bu da hollandların narazılığına səbəb olurdu (418).

1623-cü ildə Hollandiyanın ilk elçisi də şah sarayına təşrif gətirdi. Bu elçi Hubert Visnix adlanırdı. Onun Səfəvi sarayına gəlişində əsas məqsəd şah tərəfindən ingilis tacirlərinə verilmiş güzəştlərin holland tacirləri üçün də əldə edilməsi, iki dövlət ara-

sında ticarət əlaqələrinin genişlənməsinə imkanlar qazanılması idi. Nəzərdə tutulmuş üstünlüklərin əldə edilməsi ilə Hollandiya həm ingilis, həm də portuqal tacirləri ilə mövcud olan rəqabətdə üstün gəlmək istəyirdilər. Hubert Visnixin İsfahana gəlişi Şah Abbasın Bağdad üzərinə uğurlu yürüşünün başa çatması ilə bir vaxta təsadüf edirdi. Kifayət qədər qələbə əhval-ruhiyyəsində olan Şah Abbas holland elçisini mehribanlıqla qarşıladı və onun tərəfindən qaldırılan məsələlərə də xoş məramla yanaşdı. Hollandların timsalında Şah Abbas Avropa bazarına yeni bir çıxışın əldə edilməsini görürdü. Bu dövlətlə ticarət əlaqələrinin uğurlu şəkildə qurulması həm də Səfəvi ipəyinin Osmanlı ərazisindən daşınmasının qarşısının alınması demək idi. Şah Abbas elçi tərəfindən İsfahanda hollandların ticarət evinin açılmasına, bu ticarət evinin vergilərdən azad edilməsinə razılıq verdi. Başlıcası isə iki dövlət arasında ticarət işləri üzrə razılaşma imzalandı. Belə bir razılaşmanın imzalanmasına Səfəvi sarayında müəyyən narazılıq olsa da, Şah Abbas öz qərarından dönmədi (419).

Şah Abbas tərəfindən 1623-cü il noyabr ayının 21-də qəbul edilmiş bu razılaşma 23 bənddən ibarət idi. Həmin bəndlərin məzmunu aşağıdakı kimi idi:

1. Əlahəzrət şah bütün hollandlara icazə verir ki, onun bütün səltənətində ticarətlə məşğul ola bilsinlər və almaq istədikləri hər cürə mal onlara satılsın;

2. Kimsə hollandları məcbur edə bilməz ki, almaq istəmədikləri malları qəbul etsinlər. Hansı malların ticarət edilməsində kimsədən asılı olmayaraq onlar azaddırlar;

3. Hollandlar idxal və ixrac zamanı ticarət malları və nağdılaşdırma üçün maliyyə ödənclərindən və gömrük haqlarından azaddırlar. Lakin yolçuluq üçün əvvəllər mövcud olan maliyyə vəsaitini ödəsinlər; Eyni zamanda onlar tərəfindən istifadədən artıq ola biləcək malların alınmasına yol verilmir;

4. Məmurların heç bir şərtlə haqları yoxdur ki, hollandlar tərəfindən gətirilən və aparılan ticarət mallarını və ya vəsaitlərini zəbt etsinlər. Hollandlar hakimlərin və məmurların müxalifətinə bax-

mayaraq öz malları ilə birlikdə istənilən şəhərə gedə bilərlər. Kimsənin onların mallarını yoxlamaq haqqı yoxdur;

5. Hollandlar ticarət və mal mübadiləsi ilə məşğul olduqları bütün məntəqələrdə öz ölkələrinin ölçü və çəki miqyaslarından istifadə edə bilərlər;

6. Hər hansı bir holland əlahəzrət şahın məmləkəti daxilində düynasını dəyişsə, yerli hakimlər dünyasını dəyişənin bütün mallarını və əmlakını toxunmadan qoruyub saxlamağa borcludurlar. Onlar dünyasını dəyişən adamların bütün mallarını təhvil verməyə borcludurlar. Əgər bir holland öz həmvətənlərinin olduğu yerdə dünyasını dəyişsə də yerli hakimlər onun malına toxuna bilməzlər;

7. Şah öz öhdəliyinə götürür və qəbul edir ki, səltənət daxilində hollandların oğurlanmış mal və əşyalarının dəyəri geri qaytrılacaqdır;

8. Əşyaların daşınmasında hollandlardan əlavə maliyyə vəsaiti tutulmamalıdır. Bütün karvan sahibləri yerli sakinlərə göstərdikləri xidmət əvəzində aldıqları qiymətləri hollandlara da tətbiq etməli və qiyməti artırmamalıdırlar. Holland tacirləri üçün məmləkət daxilində daşınma üçün dəvələrin, qatırların kirayəsində heç bir maniəçilik yaradılmayacaqdır;

9. Bütün yerli hakimlər və dövlət məmurları hollandların yaşaması, iaşəsi və minik heyvanları ilə bağlı hər cür şəraiti yaratmağa məsuliyyət daşıyırlar. Onların həyatı üçün təhlükə yarananda mühafizələri təyin olunmalıdır;

10. Hollandlar yaşadıqları mənzillərdə istisnasız olaraq sərbəstdirlər. Məhkəmə qüvvələrindən kimsənin icazəsiz onların evinə daxil olmağa haqqı yoxdur. Bu zaman hollandlar onlara müqavimət göstərə bilərlər;

11. Səltənət ərazisində olan hollandlara özləri üçün ibadətgah və ya kilsə tikmələrinə icazə verilir. Kimsə onların ibadətlərinə mane ola bilməz;

12. Hollandların haqqı var ki, səltənət ərazisində olan hollandlardan özlərinə qul alsınlar və sonra da onu özləri ilə aparsınlar;

13. Əgər holland təbəələrindən kimsə islam dinini qəbul etsə və hollandların başçısı onun əmlakını müsadirə edə və sonra da istədiyi yerə göndərə bilər;

14. Əgər hər hansı bir holland şah məmləkətində yerli sakinlərdən birini qətlə yetirmiş olsa, yerli məhkəmələr onu mühakimə edə bilməzlər. Beləsinin mühakiməsi hollandların başçısının öhdəsinə veriləcəkdir. O da öz qanun və qaydalarına uyğun olaraq onu mühakimə etməlidir;

15. Əgər hər hansı bir holland bir xanımla əlaqədə olsa, məhkəmə mənsublarının onu mühakimə etmək haqqı yoxdur. Əgər bu adam günahkardırsa, o, hollandlar tərəfindən mühakimə olunmalıdır;

16. Hollandlara icazə verilir ki, özləri üçün qəbiristanlıq düzəltsinlər və öz ölülərini kimsənin maniəçiliyi ilə qarşılaşmadan öz adətlərinə uyğun olaraq orada dəfn etsinlər;

17. Hollandların tərcüməçiləri holland təbəələrinə məxsus olan güzəştlərə malikdirlər. Kimsə onları təhqir edə və incidə bilməz;

18. Hollandların xidmətində dayanan adamlar, dini mənsubiyyətindən asılı olmayaraq toxunulmazdırlar;

19. Şah məmləkətinin suları daxilində hollandlara məxsus hər hansı bir gəmi qəzaya uğrayarsa, yerli hakimlər mütləq şəkildə qəzadan tapılmış malları heç bir şərt qoymadan hollandlara geri qaytarmalıdırlar;

20. Hollandlar istifadə etdikləri atları və digər heyvanları məmləkət hüdudlarından kənara çıxara bilərlər;

21. Holland tacirləri tərəfindən Şiraza və Hörmüzə gətirilmiş mallar hər cürə gömrük rüsumundan azaddırlar;

22. Yol məmurlarının hollandlardan yolçuluq haqqı almaq ixtiyarı yoxdur;

23. Hollandiyadan gələcəkdə elçi gələrsə və holland təbəələri üçün daha geniş güzəştləri şahdan xahiş edərsə, şah həzrətləri söz verir ki, qəbul edilməsi mümkün olan güzəştləri onların ixtiyarına verəcəkdir (420).

Bu razılaşmaya əsasən, Şah Abbas bütün holland təbəələrinə səltənət ərazisində həm toxunulmazlıq, həm də vergisiz azad ticarət hüququ verdi. Avropa tacirləri arasında hollandlar belə yüksək imtiyazlara layiq görüldülər. Çox güman ki, Şah Abbas Hollandiya tərəfinin Səfəvi dövlətinə qarşı etibarlı münasibətinə əmin olmuşdu. Onun tərəfindən verilən bu imtiyazlar Hollandiyada da çox böyük məmnunluqla qarşılandı. Ona görə də Hollandiya məclisi tərəfindən Şah Abbasa göstərdiyi bu diqqətə görə məmnunluq məktubu ünvanlandı. Həmin məktub belə başlayırdı: "Qüdrətli padşah, güclü şahənşah! Qadir Allah elə etsin ki, bizim silahlarımız hər zaman düşmənlərimizə qarşı çevrilmiş olsun. Hər zaman onu istəyirik ki, qonşularımızla, uzaq torpaqların padşahları və hakimləri ilə dostcasına əlaqə və münasibətlərimiz olsun. Çox böyük məmnunluq hiss edirik ki, siz əlahəzrətlə də dostluq və anlaşma əldə etmişik. Çox böyük sevinclə xəbər tutduq ki, əlahəzrət şah düşmənlərini məmləkətindən uzaqlaşdıra bilib və sizin məmləkətinizin ticarət işləri üçün böyük əhəmiyyətə malik olan Hörmüz də onların əlindən geri almışınız. İki dövlətin xeyrinə olan razılaşmanın əldə edilməsinə razı olmuşsunuz. Siz əlahəzrət üçün əzəmət, qələbə və qələbə arzulayırıq. Siz əlahəzrətdən xahiş edirik ki, bizim təbəələrimizə və tacirlərimizə sizin məmləkətinizdə sərbəst və güvənli şəkildə yaşamalarına və ticarətlə məşğul olmalarına, bütün hüquqlardan istifadə etmələrinə icazə verəsiniz" (421).

Şah Abbasın xoş məram nəticəsində iki dövlət arasında kifayət qədər etimadlı bir münasibət yarandı. Şah sarayı əmin idi ki, bu münasibətlər gələcəkdə Portuqaliyanın bütünlüklə cənub sularından uzaqlaşdırılmasında və bu bölgədə Səfəvi hakimiyyətinin möhkəmlənməsində öz müsbət təsirini göstərəcəkdir. Yəni Şah Abbas Hollandiya ilə bağlı izlədiyi siyasətin qarşılıqlı olacağına ümidlə yanaşırdı. Amma hadisələrin sonrakı gedişi onu göstərdi ki, hollandlar etimadlı münasibətlər qurulmasından daha çox öz mənfəətlərinin ardınca qaçırlar. Əldə edilmiş razılaşmada təsbit olunmuş güzəştlərdən əlavə güzəştlərin əldə edilməsi üçün hollandlar bəzi təkliflərini də ortaya qoydular. Baxmayaraq ki, təsbit

olunmuş güzəştlərlə hollandlar böyük fayda əldə edirdilər, sonradan bəlli oldu ki, heç bu da onları qane etmir. Hollandlar tərəfindən təklif olundu ki, alış-veriş pul müqabilində deyil, malların mübadiləsi ilə həyata keçirilsin. Onlar istəyirdilər ki, Avropadan gətirdikləri ədviyyə və digər malların dəyərində Səfəvi dövlətindən ipək götürsünlər. Şah Abbas isə bunu qəbul etmədi. Çünki ən azı Osmanlı dövləti ilə savaş aparılması üçün nağd pula ehtiyac var idi. Nağd pulun çatışmazlığı üzündən bəzən hərbçilərin aylıq məvaciblərini ödəmək də çətin olurdu. Ona görə tərəflər arasında müəyyən ixtilaflar meydana gəldi. Həmin ixtilafların aradan qaldırılması üçün 1626-cı il aprel ayının 23-də Hubert Visnix ilə saray nümayəndəsi Mülayim bəy arasında yeni bir razılaşma imzalandı. Sonra da bu razılaşma şah möhürü ilə təsdiq olundu. Razılaşmaya əsasən, 1627-ci ilin əvvəlindən başlayaraq üç il ərzində Hollandiyadan gətirilən mallar müəyyən edilmiş qiymət və əlavə olaraq ümumi qiymətin üçdə biri qarşılığında nağd olaraq təhvil alınmalı idi. Əldə edilmiş nağd pulu xərcləməklə hollandlar isə İsfahanda ipək əldə edə bilərdilər. Bu zaman satılmalı olan ipəyin növü də müəyyən edilmişdi. Hər ipək tayının qarşılığında hollandlar tərəfindən 48 tümən ödənməli idi. Əgər ipək nağd ödəmə ilə alınacaqdısa, onda qiymət 45 tümənə endirilə bilərdi. Bu razılaşmanın icra olunacağı təqdirdə hollandlar bütün yol xərclərindən və gömrük haqqlarından azad olunmalı idilər (422).

Səfəvi sarayı ümid edirdi ki, yeni razılaşma ilə həm iki dövlət arasındakı münasibətlər daha da möhkəmlənsin, həm də səltənət daxilində nağd pula olan ehtiyac aradan qaldırılsın. Lakin sonradan bəlli oldu ki, heç hollandlar da kifayət qədər nağd pula malik deyildirlər. Yəni Səfəvi şahı hollandlara yeni güzəştlər versə də, əvəzində nağd pul ehtiyacını aradan qaldırmaq mümkün olmadı. Belə olanda Mülayim bəy əldə edilmiş son razılaşmaya Səfəvi dövləti tərəfindən əməl edilməyəcəyini bildirdi. Hollandlara çatdırıldı ki, hər ipək tayı nağd şəkildə hollandlara 50 tümənə satılacaqdır. Şah Abbas isə bəyan etdi ki, hollandlara olan ehtirama görə, onlara ipəyin hər tayını bir tümən aşağı satmağa razıdır (423).

Hollandiya ilə münasibətlərin daha da möhkəmləndirilməsi üçün Şah Abbas hələ ikinci razılaşma əldə edilməzdən əvvəl Musa bəy adlı saray əyanlarından birini elçi kimi Hollandiyaya göndərdi. Onun rəhbərliyi altında olan 13 nəfərlik elçilik heyəti Hollandiyada həm siyasi, həm də iqtisadi məsələləri müzakirə etməli və bu məsələlərlə bağlı qarşılıqlı razılaşmanın əldə edilməsinə çalışmalı idi. Musa bəyin elçilik heyəti 1625-ci ildə İsfahandan yola düşdü və 1626-cı il fevral ayının 9-da Hollandiyaya yetişdi. Bu heyət Hollandiya ilə ilk razılaşmanın imzalanmasından sonra həmin ölkəyə üz tutdu. Yəni ilk razılaşmanın əldə edilməsi Hollandiya tərəfinin məmnunluğu ilə qarşılandığı üçün Səfəvi sarayı ümid edirdi ki, iqtisadi sahədə əldə edilmiş anlaşmanı siyasi sahədə əldə edilmiş anlaşma ilə tamamlamaq mümkün olacaqdır. Lakin mövcud olan bəzi məlumatlara görə, hollandlar, xüsusilə də Musa bəyin səfərini təşkil etməyi öz üzərinə götürmüş Şərqi-Hind şirkəti şah elçisinin Hollandiyaya getməsinə ehtiyatla yanaşırdı. Bir tərəfdən bu elçilik heyətinin xərcləri kifayət qədər ola bilərdi ki, şirkət heç də bu xərcləri ödəməyə meylli deyildi. Digər tərəfdən ehtiyat edilirdi ki, Musa bəy elçiliyinin səfəri iki dövlət arasındakı ipək ticarətinə ziyan gətirə bilər. Belə ki, Musa bəy özü ilə yüz tay ipək aparırdı. Bu ipək elçilik heyəti üzvləri tərəfindən satılacağı təqdirdə bu ticarətin hansı gəlir gətirə bildiyindən xəbərdar olacaqdı. Bu isə sonradan hollandlara satılan ipəyin qiymətinin artırılmasına gətirib çıxara bilərdi (424).

Bununla belə, Səfəvi dövləti ilə ticarət güzəştlərinin itirilməməsi üçün Hollandiyada elçilik heyəti yüksək qonaqpərvərliklə qarşılandı. Musa bəy həm Hollandiya hakimi Fridrix Henrix tərəfindən, həm də hökumət üzvləri tərəfindən qəbul edildi. Bu qəbullar da təntənəli şəkildə keçirildi və elçilik heyətinə böyük qonaqpərvərlik nümayiş etdirildi. Bu qəbullar zamanı Şah Abbas tərəfindən göndərilmiş qiymətli hədiyyələr də Hollandiya hakiminə və hökumət üzvlərinə təqdim olundu. Hökumət üzvləri ilə görüş zamanı Musa bəy tərəfindən Şah Abbasın istək və təklifləri açıqlandı. Şah Abbas əsasən siyasi təkliflər irəli sürür və dövlətin siyasi

mövqeyinin möhkəmləndirilməsində Hollandiyanın kömək göstərəcəyinə ümid edirdi. Həmin təkliflərin mahiyyəti belə idi: Hollandiya qısa zaman ərzində öz elçilərini Osmanlı dövlətindən geri çağırsın. Şah Abbas bunu sözsüz ki, Hollandiya ilə Osmanlı dövləti arasında münasibətlərin məhdudlaşdırılması üçün istəyirdi. Ümid edilirdi ki, Hollandiya da Səfəvi dövləti ilə müttəfiqlik istəyində səmimi olduğunu nümayiş etdirəcəkdir. O da bildirilirdi ki, hollandlara Səfəvi dövlətindən başqa heç bir dövlət ərazisində sərbəst fəaliyyət imkanları verilməmişdir. Şah Abbas səltənətin cənub sahillərində daha yaxşı möhkəmlənmək üçün Hollandiyadan kömək almaq istəyirdi. Qızılbaş qoşunlarının hücumları nəticəsində cənub sahillərində yerləşmiş bəzi liman və məntəqələr, o cümlədən Qeşm, Hörmüz, Qəmbərun və başqaları Səfəvi dövlətinin nəzarəti altına gətirilmişdi. Lakin cənub sularında mühüm mərkəzlərdən olan Məsqət və Lark məntəqələri hələ də İspaniyanın nəzarəti altında qalmaqda davam edirdi. Şah Abbas bu məntəqələrin Səfəvi nəzarəti altına gətirilməsi üçün Hollandiya ilə ittifaqa girməyi məqsədəuyğun sayırdı (425). Belə bir ittifaqın yaradılacağı halda Məsqət və Larkın ələ keçirilməsi üçün Şah Abbas hollandlara müəyyən imtiyazların verilməsi ilə də razı idi.

Hollandiya hökuməti Şərqi-Hind şirkətinin nümayəndələrinin iştirakı ilə bu təklifləri ətraflı şəkildə müzakirə etdi. Lakin qərara alındı ki, onların nəzərə alınması Hollandiya üçün hər hansı bir fayda gətirməyəcəkdir. Hollandiya hökuməti Səfəvi dövləti tərəfindən verilmiş güzəştlərlə kifayətlənməyi və əlavə öhdəliyin götürülməsini lazım bilmirdi. Hökumət üzvlərinin fikrincə, Osmanlı dövləti ərazisindəki holland elçilərinin geri çağırılması məsələsi Şərqi-Hind şirkətinə aid olan bir məsələ deyildi və ona görə Şərqi-Hind şirkəti qarşısında belə bir öhdəlik qoymaq mümkün deyildi. Məsqət və Larkın İspaniyadan geri alınması üçün hərbi kömək göstərilməsini də hollandlar mümkün hesab etmədilər. Onların fikrincə, bu məsələ həll olunacağı halda belə onun hollandlara nəzərəçarpacaq faydası olmayacaqdı. Digər tərəfdən İspaniya ilə cənub sularında müharibəyə girişmək Hollandıya üçün ağır maliyyə

xərclərinə gətirib çıxara bilərdi. Musa bəy Hollandiya hökumətinin bu qərarını təəssüflə qarşıladı. O, Hollandiyada qaldığı bir neçə ay ərzində hökumət üzvləri ilə, səlahiyyətli adamlarla görüşdü və qəbul edilmiş qərarın dəyişdirilməsinə çalışdı. Lakin bir nəticə əldə edilmədi. Təxminən iki illik fasilədən sonra Musa bəy Hollandiyanı tərk etdi və Şərqi-Hind şirkətinin gəmisində geriyə hərəkətə başladı (426).

Görünür, Hollandiyanın hökumət üzvləri qəbul etdikləri qərarın iki dövlət arasında, xüsusilə ticarət sahəsində mövcud olan münasibətlərin korlanmasına səbəb ola biləcəyini hiss etdilər. Ona görə də onlar, Musa bəyin geri qayıtmasından yarım il sonra (sentyabr 1627-ci il) Şah Abbasa məktub yazdılar və qəbul etdikləri qərara haqq qazandırmağa çalışdılar. Həmin məktubda deyilirdi: "Siz əlahəzrətin elçisinin Osmanlı torpağındakı holland nümayəndələrinin və məmurlarının geri çağırılması və şah məhrusə məmləkətləri ilə ticarət münasibətlərinin qurulmasına arxayınçılıq yaradılması ilə bağlı təklifləri ilə bağlı siz böyük padşaha bildirilir ki, türk şəhərlərindəki holland nümayəndələri xüsusi tacirlərin xərcləri hesabına ticarət üçün deyil, cinayətkarların və oğruların həbsxanalarında gün keçirən hollandların müdafiəsi üçündürlər. Bizim məmurlar və tacirlər bilsələr ki, siz əlahəzrətin məmləkətində sərbəst şəkildə ticarətlə məşğul ola və sizin mərhəmətinizdən və lütfünüzdən bəhrələnə bilərlər, dərhal Osmanlı torpaqlarını tərk edəcəklər. Portuqallarla savaş məsələsinə gəlincə isə, siz əlahəzrətin iradəsi bizim üçün sevinc və məmnunluq zəminidir. İndi biz əlli ildən çoxdur ki, bu düşmənlə savaşlardayıq. Siz əlahəzrəti əmin edirik ki, bizim üçün heç nə bu şahanə iradədən üstün deyil. Ona görə də biz tezliklə bir elçini ali saraya göndərəcəyik. Ona göstəriş verəcəyik ki, bu məsələni və digər məsələləri orada müzakirə etsin. Öz tərəfimizdən isə Hindistanda olan hərbi gücümüzü siz əlahəzrətin ixtiyarına verə bilərik. Biz Hindistandakı qüvvələrimizin baş hakiminə göstəriş vermişik ki, Hindistanla Fars körfəzi arasında yerləşən xüsusi dəniz dəstəsi ilə portuqalların işinə xəsarət yetirməkdən çəkinməsin" (427).

Hollandiya hökumətinin nümayəndələri vəd etsələr də, Səfəvi dövlətinə elçi göndərmədilər. Belə olanda Şah Abbas yenidən Hollandiya hökumətinə məktub yazdı və həmin məktubda bir daha iki dövlət arasındakı münasibətlərə toxundu. Məktubun əvvəlində yazışma ənənələrinə uyğun olaraq Hollandiya hakimlərinin şərəfinə xeyli vəsf edici ifadələr işlədilmişdi. Sonra iki dövlət arasında formalaşmış olan işgüzar münasibətlərə toxunulur və hər zaman qarşı tərəfin elçisinin gəlməsinin məmləkətdə intizarla gözlənildiyi bildirilirdi. Şah Abbas Hollandiyadan gələn məktubla tanış olduğuna işarə edərək onun məmnunluqla qarşılandığını qeyd edirdi. Şah Abbas bir daha qarşı tərəfə olan xoş münasibətini ifadə edir və qarşı tərəfin təbəələrini Səfəvi dövləti ərazisinə dəvət edirdi. O vəd edirdi ki, Səfəvi dövləti ərazisinə gələnlər öz ölkələrində olduğu kimi azad və sərbəst şəkildə hərəkət edə və yaşaya biləcəklər. Vəd olunurdu ki, onların sərbəst yaşamalarına kimsə maneçilik törədə bilməz. Bundan başqa vəd edilirdi ki, Səfəvi ərazisində istənilən miqyasda ticarət işləri görülə bilər. Şah Abbas məktubunda əsasən, iqtisadi məsələyə toxunmuşdu. Konkret məqamlara toxunmadan Şah Abbas holland təbəələrini öz məmləkətinə dəvət edir və onların azad şəkildə ticarət etmələrinə heç bir çətinlik yaradılmayacağını vurğulayırdı. Gətirilən malların da Səfəvi dövləti ərazisində maniəsiz ticarətinə şərait yaradılacağı bu məktubda öz əksini tapmışdı (428).

Hollandiya hökuməti Şah Abbasın hakimiyyətinin sonlarına yazın nəhayət ki, Səfəvi sarayına elçi göndərmək qərarına gəldi. Bu vəzifə Jan Smit adlı birisinə həvalə olundu. Bu elçi uzun yolçuluqdan sonra 1629-cu il may ayının ortalarında İsfahana gəlib çıxdı. Həmin vaxt Şah Abbas artıq dünyasını dəyişmişdi.

Şah Abbasın hakimiyyəti illərində **Venesiya** hersoqluğu ilə də münasibətlər qurulması istiqamətində əməli addımlar atılmışdı. Bu dövlətlə də münasibətlərin qurulmasının müəyyən tarixi var idi və həmin tarix I Şah İsmayılın hakimiyyəti illərinə gedib çıxırdı. Amma istər I Şah İsmayılın, istərsə də onun xələflərinin hakimiyyəti illərində Venesiya ilə olan münasibətlər elə də inkişaf

tapmadı. Şah Abbas isə Avropa dövlətləri ilə münasibətlər qurulmasında daha davamlı fəallıq göstərirdi. Onun maraq sahəsində olan dövlətlər arasında Venesiya dövləti də var idi. Qeyd edildiyi kimi, hakimiyyəti boyu Avropa dövlətləri ilə, o cümlədən də Venesiya ilə münasibətlərin qurulmasında iki əsas məsələ Şah Abbasın maraq dairəsində idi. Bunlardan biri Osmanlı dövlətinə qarşı Avropa dövlətləri ilə hərbi ittifaqın yaradılması və həmin dövlətlərin köməyi ilə Osmanlı nəzarəti altında olan ərazilərin geri alınması, ikincisi isə Avropa dövlətləri ilə ticarət əlaqələrinin genişləndirilməsi idi.

1599-cu ildə Antoni Şerlinin və Hüseynəli bəyin rəhbərliyi altında Avropaya göndərilən elçilik heyətinin qarşısında dayanan vəzifələrdən biri də Venesiyada olmaq və Şah Abbasın məktubunu Venesiya hakiminə çatdırmaq idi. Bu heyət 1601-ci ilin baharında İtaliyanın şimalına yetişdi. Florensiyada olarkən elçilik heyəti Venesiyaya üz tutmazdan əvvəl həmin dövlətin mənsublarına məktub göndərdilər və öz gəlişləri haqqında onlara xəbər verdilər. Venesiyanın hökumət mənsubları Səfəvi elçilik heyətinin gəlməsi xəbərinə ehtiyatla yanaşdılar və bu heyətlə görüşməkdən imtina etdilər. Səbəb də o idi ki, Venesiya hersoqluğunun təmsilçiləri həmin vaxt Osmanlı sarayı ilə danışıqlar aparırdılar. Bununla bağlı Osmanlı dövlətinin nümayəndələri də Venesiyaya gəlmişdilər. Güman edilirdi ki, Səfəvi elçilərinin Venesiyada görünməsi Osmanlı dövləti ilə Venesiya arasında aparılan müzakirələri poza bilər. Ona görə də elçilərin qəbul edilməsinin qeyri-mümkünlüyü ilə bağlı Venesiya tərəfindən üzrxahlıq edildi. Həmin elçilik heyətinin üzvü olmuş Oruc bəy Bayat bu barədə belə yazırdı: "Biz Romaya getməmişdən əvvəl geriyə, Venesiyaya qayıtmalı və şahın məktubunu Doj Sinyora çatdırmalı idik. Ona görə də biz gün ərzində qayıqla gölü keçdik, Minşo çayı boyunca hərəkət etdik, sahilə çıxıb Otranto adlanan şəhərə gəldik. Oradan da biz Veronaya yollandıq. Bu şəhər Venesiya ərazisində Avropa şəhərlərinin ən gözəllərindən biri idi. Orada biz üç gün dayandıq və Dojla görüşə icazə almaq üçün Venesiyaya göndərdiyimiz adamın geri qayıt-

masını gözlədik. Venesiyalılar cavab göndərdilər ki, məhz həmin vaxt Osmanlı elçisi ilə mühüm dövlət işlərini müzakirə edirlər və ona görə də bizi qəbul etmək onlar üçün müsaid deyil. Həmçinin də türk elçisinin burada olduğu vaxt şah elçisinin qəbul edilməsi məqsədəuyğun olmazdı. Bu iki dövlət bir-biri ilə düşmən münasibətlərdədir. Amma bizim ehtiyac duyduğumuz hər şeyin bizə göndəriləcəyi vəd edildi. Bu məktuba bizim təhqir olunmuş elçimiz cavab verdi ki, onun türk elçisi ilə heç bir işi yoxdur və o, Venesiyanın bu hörmətsiziyi qarşısında fikir bildirməyi lazım bilmir. Beləliklə, bizim səfərimiz təxirə salındı və yolumuza davam edərək biz Ferraruya gəldik" (427).

Beləliklə, şah sarayı tərəfindən Venesiya ilə elçi mübadiləsi üçün göstərilən ilk cəhd baş tutmadı. Həmin elçilik heyətinin başına gələnlərdən xəbər tutmamış Şah Abbas Venesiya hersoqluğu ilə əlaqələr qurulması üçün başqa bir elçilik heyətini göndərmək qərarına gəldi. Həmin elçilik heyətinə Əsəd bəy adlı bir təbrizli əyan rəhbərlik edirdi. Bu elçilik heyəti Osmanlı ərazisindən keçməklə Aralıq dənizinə çıxmalı və oradan da dənizlə Venesiyaya yollanmalı idi. Amma bu elçilik heyəti də tapşırılan vəzifənin öhdəsindən gələ bilmədi. Əsəd bəy Venesiya limanına yetişən kimi həqiqətə uyğun olmayan şayiələr yaymağa başladı. Yerli tacirlərin və hökumət mənsublarının diqqətini cəlb etmək üçün o bəyan etdi ki, Şah Abbas bütün övladlarını xristian dininə gətirmək istəyir. Bu xəbər Venesiya hersoqu I Vinçensoya da çatdı və onu xeyli nigaran etdi. Səfəvi elçisinin gəlişi haqqında məlumatların yayılacağı təqdirdə Venesiya ilə Osmanlı dövləti arasında münasibətlərin korlanacağından ehtiyat edən Venesiya hersoqu Əsəd bəyi qəbul etmədi və onun geri yola salınması haqqında göstəriş verdi. Şahidlərdən biri Əsəd bəyin Venesiyaya gəlməsi ilə bağlı öz xatirələrində belə bir qeyd etmişdi: "Şah Abbas tərəfindən Antoni Şerli və Hüseynəli bəy Bayatın elçi kimi Avropaya göndərildiyi vaxtlarda bir nəfər də Hələb yolu ilə Venesiyaya gəlmişdi. Bu adamın adı Əsəd bəy idi. O özü ilə şahdan Venesiya hersoquna məktublar da gətirmişdi ki, rəsmi təmsilçi kimi tanınsın və ehti-

ram edilsin. Bir gün Venesiyada olan Pistoy şəhərinin keşişi Diyeqo Damiranda vasitəsilə Əsəd bəylə tanış oldu. Bir iranlı tacir keşişə dedi ki, o, Venesiyaya ticarət üçün gəlməmişdir. Əksinə, şah onu gizli şəkildə elçiliyə göndərib ki, Avropa hökmdarlarının onun elçilərini necə qəbul etməsindən xəbər tutsun. Eyni zamanda şah elçilərinin ehtiyaclarının aradan qaldırılmasında kömək etsin. O həmçinin əlavə etdi: Şah istəyir ki, bütün övladlarını xristian etsin və bütün İran əhalisini də bu dinə gətirsin. Əsəd bəy deyirdi ki, o, Romaya getmək və bu məsələ ilə bağlı papanın özü ilə söhbət etmək istəyir. Lakin o, Romaya getmək istədiyi vaxtda Ancelo adlı bir erməni onun dediklərini Venesiyanın hökumət şurasının üzvlərindən birinə danışdı. O adam da eşitdiklərini Venesiya hersoqun çatdırdı. Hersoq da Osmanlı sultanının Şah Abbas tərəfindən onun yanına elçi göndərilməsi barəsində eşidəcəyindən qorxu keçirib dərhal Əsəd bəyi onun istəyinin əksinə olaraq gəmiyə oturtdu və geri yola saldı" (430).

Əsəd bəy öz ehtiyatsızlığı üzündən Venesiya hersoqunun qəzəbi ilə qarşılaşdı və geri qayıtmaq məcburiyyətində qaldı. Yolda ikən o, dünyasını dəyişdi və öz səfəri ilə bağlı Şah Abbasa məruzə etmək imkanı qalmadı. Venesiya hersoqu isə Səfəvi dövləti ilə siyasi və hərbi münasibətlər qurmağa çəkinsə də, ticarət sahəsində qarşılıqlı əlaqələrin qurulmasına maraq göstərirdi. Elə buna görə idi ki, o, şah sarayına bir neçə məktub göndərdi. Şah Abbas isə daha çox Venesiya ilə hərbi-siyasi münasibətlərin qurulmasında maraqlı idi. Çünki o, Osmanlı qoşunlarına qarşı hazırlaşdığı savaşda qərb hakimlərinin mümkün köməklərinə arxalanmaq istəyirdi. Buna görə də 1603-cü ildə Venesiya sarayına növbəti elçilik heyəti göndərildi. Bu elçilik heyətinə rəhbərlik Fəti bəylə Məhəmməd Əmin adlı birisinə həvalə edildi. Fəti bəylə Məhəmməd Əmin Venesiya sarayında qızılbaş qoşunları üçün silah və hərbi texnikanın alınması məsələsini müzakirəyə çıxarmalı idi. 1603-cü ilin mart ayında şah elçiləri Venesiyaya yetişdi. Venesiya hersoqu bu dəfə şah elçiləri ilə görüşməkdən imtina etmədi. Mart ayının 5-də elçilik heyəti hersoq tərəfindən qəbul edildi. Amma Osmanlı

dövlətinə qarşı Səfəvi dövləti ilə hərbi ittifaqa girmək təklifi hersoq tərəfindən qəbul edilmədi. Şah elçiləri eyni zamanda Venesiyada silah əldə edilməsinə də müvəffəq olmadılar. Beləliklə, növbəti şah elçilik heyəti də tapşırılan vəzifənin icrasına nail olmadan geri qayıtmaq məcburiyyətində qaldı. Adları çəkilən elçilər yenə də Aralıq dənizi ilə geri qayıtdılar. Suriyada quruya çıxanda onlar Osmanlı məmurları tərəfindən saxlanıldılar və gətirdikləri ticarət malları da onların əllərindən alındı. Yalnız Suriya ərazisində fəaliyyət göstərən Venesiya konsulunun səylərinən sonra Fəti bəyin mallarının bir hissəsini geri qaytarmaq mümkün oldu (431).

1603-cü ildə Azərbaycan ərazilərinin geri qaytarılması üçün Osmanlı qoşunlarına qarşı başlanan və təxminən on il ərzində davam edən savaş dövründə Şah Abbas qərb dövlətlərindən hərbi kömək alacağına çox ümid edirdi. Ona görə də həmin dövrdə Avropa ölkələrinə bir neçə elçilik heyəti göndərildi. Həmin heyətlər həm də Venesiyada olmalı idilər. Lakin göstərilən bütün cəhdlərə baxmayaraq, digər Avropa dövlətləri ilə bərabər, Venesiya hersoqluğu da Osmanlı Türkiyəsinə qarşı Səfəvi dövləti ilə hərbi ittifaqa getmədi. O cümlədən bəllidir ki, 1609-cu ildə erməni tacir Xoca Kirakos, 1610-cu ildə isə Xoca Səfər Venesiyaya göndərildi. Amma bu elçiliklər də gözlənilən nəticəni vermədi (432).

Xoca Səfər həm Venesiyaya, həm də Romaya yollanmalı idi. O, Venesiya hersoquna və Roma papasına Şah Abbasın məktubunu çatdırmalı idi. Şah elçisi Venesiya ilə ikitərəfli münasibətlərin inkişafına çalışmaqla bərabər, həm də Fəti bəy tərəfindən səfəri zamanı aldığı malların geri qaytarılması məsələsi ilə məşğul olmalı idi. Bu mallar xəzinə vəsaiti hesabına alınmışdı və saraya çatmalı idi. Səfəvi-Osmanlı müharibələrinin yeni dövrü başladığı üçün həmin malları gətirmək mümkün olmamışdı. Şah Abbas eyni zamanda Antoni Şerliyə də məktub yazmışdı. Şah ondan tələb edirdi ki, həm Avropada gördüyü işlər barəsində məlumat versin, həm də xəzinə vəsaiti ilə Fəti bəyin Venesiyada aldığı malların toplanıb Xoca Səfərə təhvil verilməsinə öz köməkliyini göstərsin. Çox güman ki, Venesiyada alınan mallara böyük vəsait xərclən-

mişdi və bu mallar yalnız ticarət üçün deyildi. Çünki Şah Abbas Avropaya yollanan Xoca Səfərlə Roma papasına göndərdiyi məktubda da həmin malların Səfəvi elçisinə təhvil verilməsi məsələsini qaldırmışdı. Karmelit keşişlərinin xatırlamalarına görə, Şah Abbas Roma papasına yazdığı məktubda salam və xoş arzularını ifadə etdikdən sonra Culfadan olan tacir Xoca Səfəri onun hüzuruna göndərdiyini bildirirdi. Səfəvi şahı Xoca Səfəri etimad göstərilmiş bir nümayəndə kimi təqdim etdikdən sonra ona Venesiyada alınmış malların toplanıb geri qaytarılması vəzifəsinin tapşırıldığını bildirirdi. Roma papasından xahiş olunurdu ki, əgər Venesiyalılar həmin malların toplanıb geri alınmasına mane olsalar, onda papa bu məsələnin həllinə öz köməyini göstərsin və venesiyalılara çatdırsın ki, həmin mallar sahibinə təhvil verilməlidir. Bu mallar toplanıb geri alındıqdan sonra Xoca Səfər onları götürüb Hörmüzə çatdırmalı idi. Amma əslində, Roma papasının bu məsələyə müdaxilə etməsinə heç ehtiyac qalmadı. Xoca Səfər Venesiyada yaxşı qarşılandı və Fəti bəydən qalmış mallar toplanaraq ona təhvil verildi. Xoca Səfər özü də Şah Abbasa göndərdiyi məktubda təsdiq edirdi ki, Venesiyaya yetişən kimi, Fəti bəydən orada qalmış malların hamısı ona təhvil verildi. O əlavə edirdi ki, şahın bir dinarının belə Venesiyada qalmasına imkan verməyəcəkdir (433).

İkitərəfli münasibətlərin inkişafına davamlılıq vermək üçün Şah Abbas Venesiyanın Hələbdə fəaliyyət göstərən konsulu Giovanni Françesko Saqredoya 1608-ci ildə öz dövlətinin konsulu səlahiyyətini verdi və onun şah səltənətinin Venesiyadakı səlahiyyətli nümayəndəsi təyin etdi (434). Bu konsulun Səfəvi maraqlarının təmin edilməsi üçün nə dərəcədə səmərəli fəaliyyət göstərməsini ortaya qoymaq mümkün deyildir. Ancaq Venesiya da digər Avropa dövlətləri kimi Osmanlı dövlətinə qarşı Səfəvi dövləti ilə hərbi ittifaqa getmədi. Bu dövlət həm də Səfəvi dövlətinin Osmanlı dövləti ilə sülh anlaşmasını qəbul etmək istəmirdi. Məsələn, 1610-cu ildə Avropa sarayları arasında belə bir məlumat yayılmışdı ki, Səfəvi dövləti artıq Osmanlı dövləti ilə sülh razılaşması əldə etmək üzrədir. Bununla bağlı, Venesiyanın şah sarayındakı

konsulu Şah Abbasa məktub ünvanladı və təmsil etdiyi hersoqluq adından Osmanlı dövləti ilə sülh anlaşmasına gedilməsinə öz təəccübünü bildirdi. Şah Abbas da 1610-cu ilin iyun ayında bu məktuba cavab yazdı. Səfəvi şahı Venesiya konsulunun diqqətinə çatdırdı ki, irəli sürülən sülh təklifləri Osmanlı dövləti tərəfindən qəbul edilməmişdir. Şah bildirdi ki, Osmanlı dövləti tərəfindən irəli sürülən təklif şah sarayı tərəfindən qəbul edilə bilməz. Ona görə də bizimlə Osmanlı dövləti arasında sülh yoxdur. Şah Abbas sonra da yazırdı ki, yaradan necə istəsə, elə də olacaqdır (435).

Belə bir məktubu yazmaqda Şah Abbasın çox güman ki, öz məqsədi var idi. Çünki Şah Abbas Osmanlı dövləti ilə sülh razılaşmasına gedəndə, heç bir Avropa dövlətinin mövqeyin nəzərə almadı və yalnız öz dövlətinin maraqlarına uyğun olaraq hərəkət etdi. Bununla belə, Şah Abbas Avropa dövlətləri ilə, o cümlədən də Venesiya ilə iqtisadi əlaqələrin saxlanmasına maraqlı idi. Ona görə də Şah Abbas 1612-ci ildə yeni bir elçilik heyətini Venesiyaya göndərdi. Bu elçilik heyətinə Xoca Əlaəddinlə Xoca Şahsuvar rəhbərlik edirdilər. Onlar Venesiya hersoquna Şah Abbasın məktubunu və qiymətli hədiyyələrini çatdırmalı idilər. 1613-cü il fevral ayının sonlarında bu elçilər Venesiya hersoqu tərəfindən qəbul edildilər. Məktubda şah tərəfindən adları çəkilən adamların elçi sifətilə Venesiya sarayına göndərildiyi bildirilirdi. Sonra da Şah Abbas tərəflər arasında ticarət əlaqələrinin genişlənməsi, Venesiya tacirləri üçün Səfəvi dövləti ərazisində sərbəst fəaliyyət şəraitinin yaradılacağı haqqında fikirlər ifadə olunmuşdu. Şah Abbas belə yazırdı: "Əgər Venesiya şəhərindən, həmçinin Venesiya torpaqlarından olan xristian tacirlər bizim məmləkətə ticarətə gəlsələr, biz onları yaxşı qarşılayacaq və hər cürə kömək göstərəcəyik; onlara istədikləri hər şeyi, arzu etdikləri bütün malları almaq üçün hər cür imkan yaradacağıq" (436).

Görüş zamanı Venesiya hersoqu şah elçiləri qarşısında öz təkliflərini açıqladı və onların Şah Abbasa çatdırılmasını istədi. Venesiya hersoqu istəyirdi ki, hakimi olduğu şəhər Avropada Səfəvi ipəyinin satış mərkəzlərindən biri olsun. O təklif edirdi ki, Səfəvi

ipəyi Şam şəhərindən keçməklə Aralıq dənizinə, dəniz vasitəsi ilə isə Venesiyaya daşınsın. Venesiyadan isə bu ipək Avropaya paylana bilərdi. Bu təklifin qəbul ediləcəyi halda Venesiya hersoqu Səfəvi ipəyi üçün gömrük güzəştlərinin verilə biləcəyini də qeyd edirdi. Bununla, Venesiya hersoqu Səfəvi ipəyinin cənub limanlarından Avropaya göndərilməsini zəiflətmək və Səfəvi ipəyinin ticarətində Portuqaliyanın mövqelərinə zərbə vurmaq istəyirdi (437).

Osmanlı dövləti ilə sülh razılaşması əldə ediləndən sonra Venesiya hersoqunun təklif etdiyi marşrutun istifadə edilməsi asanlaşdı və ona görə bu marşrutla da ticarət işləri müəyyən qədər fəallaşdı.

1621-ci və 1624-cü illərdə də şah sarayı tərəfindən Venesiya sarayına elçilik heyətləri göndərildi. Bu heyətlər də Şah Abbasın məktublarını çatdırmaqla, iki dövlət arasında ticarət əlaqələrinin genişləndirilməsi ətrafında müzakirələr aparmalı idilər. Hər iki elçilik heyətinin Venesiya sarayında yüksək səviyyədə qarşılanması haqqında xəbər vardır. Şah Abbasın hakimiyyətinin son illərində Venesiya sarayına elçilik heyəti göndərilməsi və ya da Venesiya sarayının elçilərinin şah sarayında qarşılanması haqqında məlumat yoxdur.

Venesiya ilə bərabər, Şah Abbas İtaliyanın mərkəzində yerləşən **Toskaniya** hersoqluğu ilə də əlaqələr qurulmasına maraq göstərirdi. Bu vilayət 1569-cu ildə hersoqluğa çevrildi və müstəqil siyasət yeritməyə başladı. Vilayətin paytaxtı Florensiya şəhəri idi. Toskaniya ilə ilkin münasibətlərinə qurulmasına cəhd göstərilməsi XVI əsrin sonlarına təsadüf edir. 1599-cu ildə Antoni Şerli ilə Hüseynəli bəy şah elçiləri kimi Avropaya yollananda Toskaniya hersoqluğunda olmalı və şah məktubunu hersoqa təqdim etməli idi. Bu hersoqluqla da münasibətlərin qurulması zamanı Şah Abbas yenə də iki əsas məsələyə diqqət yetirirdi. Bir tərəfdən Osmanlı dövlətinə qarşı ittifaq yaradılması məsələsi, digər tərəfdən də ticarət münasibətlərinin qurulması və inkişaf etdirilməsi.

Bu elçilik heyətinin Florensiyaya yetişməsi 1601-ci ilə təsadüf edir. Yuxarıda qeyd edildiyi kimi, Antoni Şerli ilə Hüseynəli bəy

əvvəlcə Venesiyaya yollanmaq istəyirdilər. Venesiya hersoqu icazə vermədikdə elçilik heyəti Toskaniya hersoqluğuna yollanmaq qərarına gəldi. Elçilik heyətinin üzvü olan Oruc bəy Bayat Toskaniya hersoqluğuna səfər haqqında öz xatirələrində bu qeydləri etmişdi: "Buradan biz Florensiyanın böyük hersoqunun yanına çapar göndərdik ki, gəlişimiz haqqında ona xəbər çatdırsın. O da özünün baş kamerqerini bizim yanımıza göndərdi. Bu adam bizim yolçuluğumuzu təşkil etdi. Biz Florensiyaya yetişəndə hersoq orada yox idi. O, ova getmişdi. Oradan əmr göndərdi ki, bizi onun sarayında yerləşdirsinlər. Bizi qarşılamaq üçün şəhər darvazalarına çoxlu sayda adam çıxmışdı və üç yaraşıqlı minik arabasında saraya gəldik. Burada da çoxlu sayda adam toplanmışdı. Bizə böyük hersoqun xidmətçiləri xidmət göstərirdilər. Florensiyada bir iki həftə qaldıq. Bizi çox yaxşı əyləndirdilər, bu məşhur şəhərin ən görməli yerlərini bizə göstərdilər. Şəhər öz əzəmətli binaları ilə məşhurdur. Hersoq yanımıza adam göndərib bizi Pizaya dəvət etdi. O özü və böyük hersoginiya da orada idilər. Biz ora gəlib çatanda hersoqun qardaşı Covanni de Mediçi tərəfindən qarşılandıq. O bizi saraya apardı və orada hersoqla hersoginiya tərəfindən bizim üçün məftunedici bir qəbul təşkil edildi. Burada bizi on gün saxladılar, zəngin qonaqlıqlar verdilər, sonra da böyük hersoqa məxsus olan bahalı və nadir xəzinələri bizə göstərdilər. Bizi Lovornaya da apardılar ki, yeni şəhəri görək. Bu şəhər orada tikilməkdə idi və buranın məkanı çox cəlbedicidir. Artıq qalanın tikintisi başa çatıb və oradan limana təhlükəsiz çıxış təmin edilib. Bu liman sonradan Aralıq dənizinin ən yaxşı limanlarından biri olmalı idi. Bu işlərin görülməsi üçün onların beş mindən artıq qulu vardır. Böyük hersoq bizim elçiyə çox gözəl bir qızıl zəncir bağışladı. Bu zənciri onun boynuna 16 dəfə dolamaq mümkün idi. Onun qiymətli daşlarla bəzədilmiş medalyonun içində hersoqun kiçildilmiş portreti var idi. Belə bir başqa qiymətli hədiyyə Antoni Şerliyə də verildi. Heyətimizin üzvləri də diqqətdən kənarda qalmadı və hər birinə hədiyyə verildi. Sonra isə o bizi azad etdi. Ka-

merqerə də tapşırdı ki, bizi müşayiət etsin və Romaya qədər olacaq yol xərclərini ödəsin" (438).

Oruc bəy Bayatın xatirələrindən də göründüyü kimi, Toskaniya hersoqu I Ferdinand şah elçilərini sevinclə qarşıladı. Aparılan söhbətlər zamanı Toskaniya hersoqu Səfəvi dövləti ilə xoş münasibətlərin qurulmasına və möhkəmləndirilməsinə tərəfdar olduğunu bildirdi. Lakin bu istiqamətdə çevik addımlar atılmadı. Bir də təxminən beş ildən sonra, 1606-cı ilin sonlarında Toskaniya hersoqu öz elçisini Səfəvi sarayına göndərmək qərarına gəldi. Bu məqsədlə vaxtilə Səfəvi təbəəsi olan və Florensiyada yaşayan Fəzli bəy adlı birisi Georgi Qriqorio adlı birisi ilə birlikdə elçi kimi Səfəvi sarayına göndərildi. Bu elçilər 1608-ci ildə İsfahanda Şah Abbas tərəfindən qəbul edildi. Elçilərin gətirdikləri məktubda Toskaniya hersoqu Səfəvi dövləti ilə qurulan münasibətlərdən, iki dövlət arasında ticarət əlaqələrinin genişlənməsindən və Səfəvi tacirlərinin Toskaniyaya ayaq açmaqlarından məmnunluğunu bildirirdi. O həmçinin bu münasibətlərin gələcəkdə də davam etdirilməsinə tərəfdar olduğunu bildirirdi (439).

Şah Abbas bu elçilik heyətini ehtiramla qarşıladı və o da qarşılıqlı münasibətlərin davam etdirilməsinə tərəfdar olduğunu bəyan etdi. Bu məsələ ilə bağlı öz münasibətini Şah Abbas Toskaniya hersoquna yazdığı məktubunda da ifadə etdi. Səfəvi şahı məktubunun əvvəlində Toskaniya hersoqu haqqında xeyli tərif dolu sözlər yazdı. Şah Abbas iki dövlət arasında xoş münasibətlərin olmasına görə məmnunluğunu bir daha Toskaniya hersoquna çatdırır və bu dövlətlər arasında fikir birliyinin olduğunu qeyd edirdi. Səfəvi şahı Toskaniya hersoqu tərəfindən Fəzli bəyin elçi kimi gəlməsini də sevinclə qarşıladığını yazırdı. Onun gətirdiyi məktubla tanış olandan sonra Şah Abbas bildirirdi ki, Toskaniyadan olan tacirlərin Səfəvi ərazisinə gəlməsinə lazımi şərait yaradılacaqdır. Bildirilirdi ki, hersoqluğun təmsilçisi olan tacirlərə münasib şəraitin yaradılması haqqında yerli hakimlərə də lazımi göstəriş verilmişdir. Məktubda belə bir fikir də ifadə olunmuşdu ki,

müştərək düşmənə qarşı birgə mübarizə aparılması ilə tacirlərin fəaliyyətinə də yaxşı şərait yaratmaq mümkündür (440).

İstər Toskaniya hersoqunun məktubunda, istərsə də Şah Abbasın cavab məktubunda konkret əməkdaşlıq sahələri ilə bağlı əsasən, iqtisadi məsələlərə toxunulmuşdu. Toskaniya hersoqu hələlik Osmanlı dövlətinə qarşı hərbi ittifaq məsələsində hər hansı bir fəallıq göstərmirdi. Lakin tezliklə onda Osmanlı dövlətinə qarşı yeni bir münasibət formalaşdı. Belə ki, Osmanlı sultanı III Sultan Məhəmmədin dünyasını dəyişməsindən sonra taxt-tac uğrunda onun övladları arasında bir ixtilaf yarandı. Adı çəkilən sultanın oğlu Sultan Əhməd taxta çıxdı. Yəhya adlı səltənət şahzadəsi də taxta iddia irəli sürdü və bununla bağlı onunla Sultan Əhməd arasında münaqişə yarandı. Yəhya bu ixtilafda üstün ola bilmədiyi üçün Florensiyaya qaçdı və Toskaniya hersoqundan ona kömək göstərilməsini xahiş etdi. Toskaniya hersoqu da Yəhyaya kömək vermək qərarına gəldi. Bu məqsədlə o, Migel Angelo Kristiano adlı birisini öz təmsilçisi kimi Osmanlı ərazisinə göndərdi. Bu adam Osmanlı ərazisində yeni sultanı qəbul etmək istəməyən qüvvələri təhrik etməli və onların vasitəsilə Yəhyanın hakimiyyətə gəlməsinə kömək göstərməli idi. Amma Toskaniya təmsilçisinin Osmanlı ərazisinə gəlməsi də, burada sultana müxalifətdə olan qüvvələrinin hərəkətə başlaması da bir nəticə vermədi və müxalifət qüvvələrinə sultan qüvvələri tərəfindən ağır zərbə vuruldu. Migel Angelo Kristianoya belə bir tapşırıq da verilmişdi ki, Səfəvi ərazisinə keçsin, Səfəvi şahı ilə əlaqə yaratsın və həmin vaxtlar Səfəvi ərazisinə pənah gətirmiş cəlalilərdən istifadə etməklə Yəhyanın hakimiyyətə gətirilməsi imkanlarına baxsın. Adı çəkilən elçi də Səfəvi hüdudlarına gəldi. Şah Abbas onu mehribanlıqla qarşıladı. Toskaniya elçisi uzun müddət Səfəvi ərazisində qaldı. Bu elçi ona tapşırılmış vəzifənin icrası ilə bağlı ciddi bir nəticə əldə etməsə də, geri qayıtmağa da tələsmədi. Amma bir neçə ildən sonra o, Şah Abbasdan icazəsiz İsfahanı tərk edib Bəndər Abbasa, oradan da Hindistana qaçdı. Bununla onun da elçilik missiyası başa çatdı (441).

Migel Angelo Kristiano İsfahanda olduğu zaman Şah Abbas onunla görüşməyə vaxt tapırdı. Belə görüşlərin birində Şah Abbas ona Avropa hökmdarları haqqında öz şikayətlərini çatdırdı. Karmelit keşişlərinin xatirələrində bu barədə bəzi qeydlər qalmışdır: "Bu müzakirə bir saatdan çox çəkdi və bu vaxt ərzində şah qızmar günəş altında dayanmışdı. Onun sifəti də tərə batmışdı və ara bir bu tərini əli ilə silirdi. Ondan sonra öz atını hazırlamağa getdi. Lakin qəfildən fikrini dəyişdi və böyük hersoqun nümayəndəsinə tərəf getdi. Başqalarının getməsinə icazə verdi. Kimsə ona yaxınlaşırdısa da, əli ilə kənarlaşmasına işarə edirdi. Şah bir daha xristian padşahlarından və hakimlərindən şikayət etməyə başladı. O, papadan gileyləndi ki, Avropanın vəziyyəti haqqında ona çox az məlumat göndərir. Şah İspaniya padşahından da gileyləndi ki, onun göndərdiyi məktubda İspaniyanın xristian dövlətləri ilə apardığı müharibə haqqında məluma var idi. Lakin Osmanlı dövlətinə qarşı müharibə haqqında bir söz də yazmamışdı. Şah hersoqun nümayəndəsinə dedi: eşidib ki, almanlar və ingilislər ispanlara qarşı döyüşlər aparmaq üçün hazırlaşırlar. O əmin idi ki, xristian dövlətləri arasındakı bu müharibə tezliklə başlanacaqdır. Şah Abbas xristian dövlətlərin hakimlərinin öz məktublarında ona yazdıqları yalanlardan da gileyləndi. Toskaniya hersoqunun elçisi dilə gəldi və dedi: keçmişdə Avropada vəziyyət belə idi ki, bu dövlətlərin başçıları Osmanlı dövlətinə qarşı müharibə üçün birləşmək istəmirdilər. Hersoqun nümayəndəsi ardınca dedi: İspaniya və Fransa arasında düşmənlərinə qarşı ittifaqın yaranmaq üzrə olması haqqında məlumat almışdır. Hazırda Toskaniya hersoqu da İspaniya ilə ittifaq razılaşmasına gəlmişdir. Şah hersoqun nümayəndəsi ilə görüşünün sonunda ona dedi: bu vəziyyətin davam edəcəyi halda, yəni Avropanın xristian dövlətlərinin bir-biri ilə düşmənçiliyinin davam edəcəyi, bu ölkələrin Osmanlı dövləti ilə müharibə aparmayacağı və İrana kömək çatdırmayacağı halda bu dövlətlərlə münasibətlərə yenidən baxacaq, xristianlar və xristianlıq üçün İran daxilində hər şeyin məhdudlaşdırılmasına qərar verəcəkdir" (442).

1608-ci ildə Avropaya yola düşən Robert Şerlinin görüşməli olduğu hakimlərdən biri də Toskaniya hersoqu olmalı idi. Şah Abbas elçisi vasitəsilə hersoqa da məktub yolladı. Robert Şerli 1609-cu ilin avqustunda Toskaniya hersoqunun qəbulunda oldu və Şah Abbasın məktubunu ona təqdim etdi. Həmin il Osmanlı qoşunları ilə savaş davam etməkdə idi və Şah Abbas elçisi vasitəsilə bir daha Avropa dövlətləri, o cümlədən də Toskaniya ilə hərbi ittifaq yaradılması imkanlarını aramaqda idi. Şah Abbasın məktubu daha çox protokol məktubu idi və bu məktubda əsasən iki dövlət arasında münasibətlərin qorunub saxlanması məsələsinə toxunulmuşdu. Ənənəvi salamlaşmadan və xoş sözlərdən sonra Şah Abbas Toskaniya hersoquna gec məktub yazmasının səbəbinə də toxunurdu. Şah Abbas yazırdı ki, Avropa ölkələrinin elçiləri davamlı olaraq gəlir və təmsil etdikləri dövlətlərin padşahlarının məktublarını da gətirirdilər. O cümlədən, Roma papası tərəfindən vaxtaşırı keşişlərin Səfəvi dövləti ərazisinə gəlməsinə də məktubda işarə olunurdu. Şah Abbasın demək istədiyi o idi ki, bu elçilər və keşişlər vasitəsilə Avropa dövlətlərində cərəyan edən hadisələrdən də xəbər tuta bilirdi. Məktubda sonra Toskaniya hersoqluğu tərəfindən Fəzli bəyin elçi kimi Səfəvi sarayına göndərilməsinin məmnunluqla qarşılandığı bildirilirdi. Yuxarıda qeyd edilmişdi ki, Fəzli bəy Toskaniyada yaşayırdı və Şah Abbasın məktubundan belə anlaşılır ki, o həm də xristian dinini qəbul etmişdi. Səfəvi dövlətinə tərəf hərəkət zamanı Osmanlı ərazisindən keçəndə Fəzli bəy islam dinini qəbul etdi. Onun bu qərarı Şah Abbas tərəfindən xoşluqla qarşılandı və hətta ona ehtiramla yanaşdı. Şah Abbas Toskaniyaya yeni elçi göndərmək istəyəndə Fəzli bəy də ona bildirdi ki, bu elçilik vəzifəsini o öz boynuna götürmək istəyir. Şah Abbas onun nə vaxt geri qayıtmaq istədiyini öz seçiminə buraxıbmış. Fəzli bəyin elçi kimi geri qayıtması gözlənildiyi halda, birdən-birə onun gizli şəkildə Səfəvi dövləti ərazisini tərk etməsi xəbəri alındı. Buna görə də Toskaniyaya elçi göndərmək məsələsi də ləngidi. Belə olanda yeni bir elçinin göndərilməsi məsələsi ortaya çıxdı. Robert Şerli Avropaya yollananda ona həm də Toskaniyaya getmək və

Şah Abbasın məktubunu Toskaniya hersoquna çatdırmaq tapşırıldı. Şah Abbas məktubunda yazırdı ki, Robert Şerli etimad sahibidir və onun dediklərinə etibar etmək olar. Məktubda yazılanlardan belə aydın olur ki, Robert Şerli şahın tapşırıqlarını şifahi şəkildə də çatdıra bilərdi. Eyni zamanda o da xahiş olunurdu ki, Toskaniya hersoqu iki tərəfli münasibətlərlə bağlı öz istəklərini Robert Şerliyə çatdıra bilərdi (443).

Robert Şerli Şah Abbasın istəklərini şifahi şəkildə də Toskaniya hersoquna çatdırdı. Toskaniya hersoqu II Kosminin Fransa kralı IV Henri ilə ailə qohumluğu var idi. Şah Abbas istəyirdi ki, II Kosmi öz əlaqələrindən istifadə etməklə Fransanı Osmanlı dövlətinə qarşı müharibəyə təhrik etsin. Güman edilirdi ki, Fransanın Osmanlı dövlətinə qarşı müharibəyə qalxacağı halda Toskaniya hersoqluğu da Osmanlıya qarşı olan hərbi ittifaqa qoşulacaqdır. Bu da Osmanlı dövlətinə qarşı ikinci cəbhənin açılmasına gətirib çıxara bilərdi. Bundan əlavə, Şah Abbas Toskaniya ilə ticarət əlaqələrinin daha da fəallaşmasına təkid edirdi və istəyirdi ki, Toskaniya Osmanlı dövləti ilə ticarət münasibətlərini məhdudlaşdırmaqla əsas diqqəti Səfəvi dövləti ilə münasibətlərin genişləndirilməsinə istiqamətləndirsin (444).

Toskaniya hersoqu Səfəvi elçisini mehribanlıqla qarşılasa da, Şah Abbasın qaldırdığı məsələlərlə bağlı o, qətiyyətli mövqe tuta bilmədi. Əslində, Avropa dövlətləri Səfəvi dövlətini Osmanlı dövlətinə qarşı müharibəyə təhrik etsələr də, özləri bu müharibədən kənarda qalmaq istəyirdilər. Belə bir şəraitdə Toskaniya da öz maraqlarını Avropa dövlətləri ilə bir cəbhədə görürdü və Səfəvi sarayına qarşı xoş münasibətləri saxlamağa çalışsa da Səfəvi təkliflərinə meyllilik nümayiş etdirmirdi. II Kosimo Şah Abbasa yazdığı məktubunda da bunları etiraf edirdi. Məktubunun əvvəlində II Kosimo haqqında yazılan xoş sözlərə təşəkkürünü bəyan etməklə bildirirdi ki, onun da Şah Abbasa olan məhəbbəti yüz qat artıqdır. Sonra II Kosimo Fransa kralının Osmanlı dövlətinə qarşı təhrik edilməsi məsələsinə münasibətini açıqlayırdı. O yazırdı ki, Fransa kralı çox böyük bir adamdır və qohumluğu çatsa da ona belə bir

təklifi vermək gücündə deyil. Sonra II Kosimo onu da əlavə edirdi ki, əgər münasib fürsət yaranarsa bu təklifi Fransa kralına çatdırmağa çalışacaqdır. II Kosimo Toskaniya tacirlərinin Osmanlı dövləti ilə ticarət əlaqələrinin dayandırılması ilə bağlı Şah Abbasın digər təklifinə də cavab yazdı. O bildirirdi ki, tacirlər Osmanlı dövləti ilə ticarətdən böyük fayda götürürlər. Ona görə Osmanlı dövləti ilə ticarəti dayandırmaq heç də asan deyil. II Kosimonun yazdığına görə, Roma papası Osmanlı dövləti ilə ticarətə qadağa qoymasa da, silah və hərbi təchizatın Osmanlıya aparılmasını qadağan etmişdir. Roma papasının bu qadağasına baxmayaraq, Avropa tacirləri gizli yolla olsa da, Osmanlı dövlətinə silah və hərbi təchizat da daşıyırdılar. II Kosimo yazırdı ki, atasının hakimiyyəti illərində Toskaniya tacirləri Osmanlı dövləti ilə silah və hərbi təchizat ticarəti etməmişdilər. O söz verirdi ki, onun da hakimiyyəti illərində Osmanlı dövlətinə silah satılmasına imkan verməyəcəkdir. Daha sonra Toskaniya hersoqu Osmanlı dövlətinə qarşı hərbi ittifaq yaradılması məsələsinə də toxunurdu. II Kosimo yazırdı ki, Roma papası hər zaman Avropa dövlətlərini Osmanı dövlətinə qarşı müharibəyə çağırır. Bu çağırışın nəticəsi kimi, İspaniya da davamlı şəkildə Osmanlı dövlətinə qarşı müharibə aparırdı. Kosimonun yazdığına görə, Avropa dövlətləri Osmanlıya qarşı qoşun toplamaq niyyətinə düşsələr, onda bu barədə Şah Abbasa xəbər veriləcəkdir (445).

Osmanlı şahzadəsi Yəhya II Kosimonun hakimiyyəti illərində geri yola salınmışdı. II Kosimo da Osmanlı şahzadəsinə dəstək verməklə qərb maraqlarının həyata keçməsinə çalışırdı. Toskaniya hersoqu şübhə etmirdi ki, Şah Abbas da şahzadə Yəhyanın hakimiyyət iddiasına dəstək verəcəkdir. Ona görə də Robert Şerli hələ Toskaniyada olanda ondan xahiş etdi ki, bununla bağlı Şah Abbasa məlumat göndərsin və ondan şahzadə Yəhyanın Osmanlı ərazisində başlayacağı hərəkata dəstək verməsi xahiş olunsun. Robert Şerli də bununla bağlı Şah Abbasa məktub yazdı və bu məktubu Toskaniyadan yola saldı. Robert Şerli məktubunun əvvəlində Macarıstana gəlməsi haqqında yazırdı və bildirirdi ki, orada onu Şah

Abbasın elçisi kimi yüksək səviyyədə qarşıladılar. Onun yazdığına görə Toskaniyada da Şah Abbasın elçisi olmasına görə onu xüsusi mehribanlıqla qarşıladılar və ona böyük ehtiram göstərdilər. Robert Şerli xüsusi olaraq eyd edirdi ki, Toskaniya hersoqunun göstərdiyi hörməti heç bir padşah tərəfindən görməmişdir. Sonra Robert Şerli bir daha vurğulayırdı ki, ona göstərilən bu hörmət və ehtiram yalnız Şah Abbasa görə idi. Bununla, Robert Şerli Səfəvi şahının Toskaniyada belə böyük nüfuza malik olmasını göstərmək istəyirdi. Məktubda Osmanlı şahzadəsinin öz məmləkətini tərk edərək Toskaniyaya pənah gətirməsi haqqında da məlumat verilirdi. Robert Şerli yazırdı ki, Toskaniya hersoqu böyük bir qoşun dəstəsi ilə Osmanlı şahzadəsini Osmanlı ərazisinə göndərmək istəyir. Bununla, Toskaniya hersoqluğu əslində, Osmanlı dövləti ilə müharibəyə başlamalı idi. Məktubda həm də Şah Abbas tərəfindən Osmanlı şahzadəsinin dəstəklənəcəyinə ümid edilirdi. Toskaniya hersoqu da bu ümiddə idi. Onun fikrincə, Osmanlı taxt-tacına Avropa meylli bir şahzadənin çıxarılması həm Səfəvi dövlətinin, həm də Avropa dövlətlərinin maraqlarına cavab verə bilərdi. Toskaniya hersoqu onu da bildirirdi ki, Şah Abbasın köməyi ilə Osmanlı dövlətində hakimiyyət dəyişikliyinə nail olmaqla Səfəvi şahı həm də itirmiş olduğu əraziləri asanlıqla geri qaytara bilər (446).

Yuxarıda qeyd edildiyi kimi, Yəhya hərəkatı bir nəticəyə gətirib çıxarmadı. Hətta bəziləri arasında onun doğrudan da şahzadə olması şübhə ilə qarşılanırdı. Yəni Osmanlı dövləti ilə bağlı Şah Abbasla II Kosimonun istəyi və əməli bir-birini tamamlamadı. Şahzadə Yəhya hakimiyyət iddiası üçün Osmanlı ərazisinə göndəriləndən sonra II Kosimo tərəfindən Qudibaldo Brancadoro adlı birisi də elçi kimi Səfəvi sarayına yola salındı. Bu elçi şah sarayına gəlməklə onun tərəfindən şahzadə Yəhya hərəkatına kömək göstərilməsi məsələsi müzakirə edilməli idi. Lakin bu elçinin səfərinin hansı nəticələrlə tamamlanması haqqında elmi-tarixi ədəbiyyatda yetərincə məlumat yoxdur.

Şah Abbas tərəfindən Xoca Səfər Venesiyaya göndəriləndə ona da tapşırıldı ki, Toskaniya hersoqluğuna getsin və şahın məktubunu hersoqa çatdırsın. Yuxarıda yazılanlardan bəlli olduğu kimi, Xoca Səfərə tapşırılmışdı ki, Fəti bəy tərəfindən alınmış və gətirilməmiş malların və əşyaların Səfəvi sarayına göndərilməsini təmin etsin. Bu məsələ ilə bağlı Şah Abbas Toskaniya hersoquna yazdığı məktubunda da ondan kömək istəyirdi. Şah Abbas bu məktubunda iki tərəfli münasibətlərin yaxşı səviyyədə olmasına işarə edir və xeyli müddətdən bəri Toskaniya hersoqundan məktub almadığını da yazırdı. Ona qarşı hörmət və ehtiramını ifadə edəndən sonra Şah Abbas məktubunda Fəti bəy haqqında məlumat verirdi. O yazırdı ki, Fəti bəyi Venesiyaya göndərəndə bir sıra malların və əşyaların alınmasını tapşırmışdı. Səfəvi dövləti ilə Osmanlı dövləti arasında müharibə başladığından Fəti bəy bu malların böyük bir hissəsini gətirə bilməmiş və yenidən Venesiyaya geri göndərmişdi. Şah Abbas xahiş edirdi ki, əgər Venesiya sarayı və camaatı həmin malların geri gətirilməsində çətinlik yaratsa, onda Toskaniya hersoqu bu məsələyə müdaxilə etsin və məsələnin həllinə öz köməyini göstərsin. Şah Abbas sonda onu da yazırdı ki, Toskaniya hersoqunun Səfəvi dövləti ilə bağlı hər hansı bir işi və ya istəyi varsa, onu açıqlasın. Şah Abbas vəd edirdi ki, bununla bağlı dərhal lazım olan işlər görüləcəkdir (447).

Xoca Səfər 1610-cu ilin avqust ayında Florensiyaya yetişdi. O həm hersoq tərəfindən, həm də Florensiya sarayı tərəfindən mehribanlıqla qarşılandı. Toskaniya hersoqu Fəti bəydən qalma əşyaların və malların Xoca Səfərə təhvil verilməsi üçün öz köməkliyini göstərdi və bu köməklik nəticəsində Səfəvi elçisi ona tapşırılmış vəzifənin öhdəsindən gələ bildi. Toskaniya hersoqu bununla bir daha Səfəvi dövləti ilə xoş münasibətlərdə olmaq istəyini nümayiş etdirdi. 1610-cu ilin sentyabr ayında Toskaniyanı tərk edən Xoca Səfərə həm də hersoq II Kosimonun Şah Abbasa ünvanladığı məktub təqdim edildi. Həmin məktubda II Kosimo yazırdı ki, Xoca Səfərə lazım olan kömək göstərilmişdir və məktubda yazılması mümkün olmayan mətləblər isə şifahi şəkildə ona

çatdırılmışdır. Toskaniya hersoqu yazırdı ki, Venesiya camaatı ilə bağlı Şah Abbasın xatiri cəm olsun. Çünki onların Səfəvi təbəələrinə qarşı dostluq münasibətləri vardır. II Kosimo onu da yazırdı ki, Şah Abbas istədiyi məsələlər üzrə ona yaza bilər və həmin məsələlər dərhal həll olunacaqdır (448).

1619-cu ildə Toskaniya hersoqu Şah Abbasa növbəti məktubunu göndərdi. Həmin məktubda Aralıq dənizində əsir düşmüş erməni tacirlərdən söhbət açılırdı. Bir neçə erməni taciri Avropaya mal apararkən Aralıq dənizində əsir götürülür. Belə bir xəbər yayıldı ki, bu erməni tacirlər Səfəvi təbəələridir. Toskaniya hersoqu yazırdı ki, Səfəvi təbəələrinin əsir götürülməsi xəbərini eşidən kimi, dərhal bu işə müdaxilə etdi və erməni tacirlər əsirlikdən azad edildi. Sonra isə məlum oldu ki, həmin ermənilər Osmanlı təbəəsi imiş. Toskaniya hersoqu təklif edirdi ki, Səfəvi təbəələri belə uzun səfərə çıxanda onlara hansına bir sənəd verilsin və bu sənədə görə bəlli olsun ki, onlar Səfəvi təbəələridir. Daha başqaları Səfəvi dövlətinin və Şah Abbasın adından və nüfuzundan istifadə etməsinlər (449).

Bu məktub iki dövlət arasındakı son yazışmalardan biri idi.

Şah Abbasın hakimiyyəti illərində Roma papalığı, Fransa və Avropanın bəzi digər dövlətləri ilə də müəyyən əlaqələri də var idi. Bu əlaqələr zamanı Avropa dövlətləri ilə iqtisadi əlaqələr qurmaq və ticarət işlərini xeyli genişləndirmək mümkün oldu. Osmanlı dövlətinə qarşı hərbi ittifaqın yaradılması məsələsinə gəlincə isə, Avropa dövlətləri bunu vəd etsələr də və Səfəvi-Osmanlı dövlətləri arasında müharibənin qızışdırılmasına çalışsalar da, onlar əməli addımlar atmadılar. Şah Abbas öz qoşunlarını gücü ilə Səfəvi dövlətinin əvvəlki sərhədlərini bərpa etdi. O bununla da kifayətləndi. Şah Abbas köhnə Səfəvi sərhədlərini aşmadı və uğur imkanları olsa belə, o, Osmanlı hüdudlarına müdaxilə etmədi.

6. Elçilik heyətlərinin qarşılanmasının və qəbulunun təşkili

Xarici siyasət dövlət həyatında xüsusi əhəmiyyət kəsb edən bir məsələ idi. Bu siyasətin aparılması və onunla bağlı olan protokolların icra edilməsi sahəsində müəyyən bir təcrübə və ənənə də meydana gəlmişdi. Şah Abbasın hakimiyyəti illərində bu sahədə maraqlı istisnalar və yeniliklər özünü göstərsə də, şah və şah qonağı ilə bağlı ənənəvi təcrübəyə də yüksək səviyyədə riayət olunurdu. Bu təcrübə və ənənənin formalaşmasına heç şübhəsiz ki, xarici dövlətlərin qonaq qəbul etmək təcrübəsinin də öz təsiri var idi. Xarici dövlətlərə səfər edən elçilərin gördükləri, qarşılaşdıqları, eşitdikləri yerli təcrübənin formalaşmasına təsirsiz ötüşmürdü.

Dövrün mənbələrində xarici dövlətlərə rəsmi nümayəndə kimi göndərilən insanlar türk sözü olaraq "elçi" adlandırılırdılar. Elçi göndərilməsi və ya qəbul edilməsi yalnız dövlət təmsilçilərinin mübadiləsi kimi həyata keçirilmirdi. Elçilərin mübadiləsi həm də dövlətin gücünün, əzəmətinin nümayiş etdirilməsi baxımından müəyyən əhəmiyyət kəsb edirdi. Ona görə də elçilərin qarşılanmasına Səfəvi dövləti daxilində son dərəcə qayğı və ehtiramla yanaşılır, onlara qarşı xarici dövlət başçısının şəxsi təmsilçisi kimi qonaqpərvərlik göstərilirdi.

Elçi dövlət tərəfindən xüsusi səlahiyyət verilmiş insanlar idi. Onların səlahiyyəti şah tərəfindən imzalanmış və möhürlənmiş sənədlə təsdiq olunurdu. Belə sənədi olmayan insanlar elçi kimi digər dövlətlərin hakimləri qarşısında mənsub olduğu dövlətin hakimini təmsil edə bilməzdi. Əvvəlki qeydlərdən bəlli olduğu kimi, Robert Şerlinin ikinci elçilik missiyası zamanı malik olduğu etibarnamə sonradan etibarsız sayıldı və bununla bağlı hətta müəyyən qalmaqal da ortaya çıxdı.

Lakin dövlət təmsilçiləri yalnız elçilər deyildi. Ümumiyyətlə, xarici əlaqələrin qurulmasında iştirak edən dövlət təmsilçiləri malik olduqları səlahiyyətlərə görə fərqlənirdilər. Onların arasında elçi (və ya böyük elçi), siyasi təmsilçi və çaparlar var idi. Bəzi

müəlliflər onların arasında bərabərlik işarəsi qoysalar da (450), bu adamlar səlahiyyətlərinə görə bir-birindən fərqlənirdilər

Çaparlar daha çox poçtdaşıyan vəzifəsini icra edirdilər. Onların vəzifəsi saray və ya şah tərəfindən verilmiş məktubun və ya ismarıcın qarşı tərəfə çatdırılması idi. Çaparların qarşı tərəflə müzakirə aparmaq, siyasi mövqe təmsilçisinə çevrilmək səlahiyyəti yox idi. Siyasi təmsilçilər isə o adamlar idi ki, onlar hansısa məqsədlər üçün başqa dövlətlərin ərazisinə səfər edirdilər və bu zaman onlara şah sarayının və ya şahın özünün siyasi mövqeyini səfər etdiyi ölkənin sarayına və ya hakiminə çatdırmaq səlahiyyəti verilirdi. Elçi və ya böyük elçi isə mənsub olduğu dövlətin mövqeyini qarşı tərəfə çatdırmaq və mənsub olduğu dövlət adından müzakirələr aparmaq səlahiyyətinə malik idi. Sözsüz ki, aparılan danışıq və müzakirələr müəyyən edilmiş səlahiyyətlər çərçivəsində aparılmalı idi. Bu mənada müşahidəçilər və mütəxəssislər elçiləri şahın və ya dövlət hakiminin danışan dili kimi qəbul edirdilər (451). Yəni onlar həm öz hökmdarının adından danışmalı və həm də malik olduğu səlahiyyətlər çərçivəsində öz hökmdarı adından müəyyən məsələlərə münasibətini bildirməli idi. Səlahiyyətli olmadığı məsələlər ətrafında isə elçinin müzakirə aparması qəbul edilməz idi.

O dövrün təcrübəsini ümumiləşdirən müşahidəçilərin fikrincə, elçilər xarici dövlətlərə iki halda göndərilirdi:`birinci halda dövlətlər arasında xoş münasibətlər olduğu təqdirdə. Bu zaman qarşı tərəfə xoş məramın, o cümlədən də dövlət rəhbərlərinin dünyasını dəyişdiyi zaman dövlət adından başsağlığının çatdırılması üçün elçi göndərilə bilərdi. İkinci halda isə dövlətlər arasında münasibətlər mürəkkəbləşdikdə və bununla bağlı bu və ya digər mesajları qarşı tərəfə çatdırmaq zərurəti yarandıqda (452).

Hər iki halda ortaya çoxsaylı məsələlər çıxa bilərdi. Onlar ətrafında fikir mübadiləsi aparılması, qarşı tərəfin mövqeyinin öyrənilməsi, qəbul edilmiş qərarların qarşı tərəfə çatdırılması, tərəflər arasında əlaqələrin saxlanması, qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi, maraq doğuran müxtəlif sahələr üzrə əlaqələrin inkişaf etdirilməsi, o cümlədən də gərginlik mənbəyi olan məsələlər ətrafında

mövqelərin ortaya qoyulması və mənsub olduğu dövlətin maraqlarının qorunması və s. kimi məsələlər elçilərin vəzifəsinə daxil ola bilərdi. Bu məsələləri qarşı tərəfə çatdırmaq və verilən məsuliyyətli tapşırıqları həll etmək üçün elçilərdən müəyyən qabiliyyət və istedad tələb olunurdu. Ona görə də elçilərin seçilməsinə xüsusi diqqət yetirilirdi. Yəni elçi seçiminə bir sıra tələblər irəli sürülürdü. O cümlədən tələb olunurdu ki, elçi ağıllı və bilikli olsun, yaxşı danışmağı və hazırcavab olmağı bacarsın, padşah xidmətində yaxşı təcrübə əldə etmiş olsun, irəlini görməyi bacarsın, söhbətlərin hansı istiqamətdə gedə biləcəyini duysun, xeyirxahlığı ilə seçilsin, hərbçi olduğu halda silah işlətməyi qabiliyyəti ilə başqalarından seçilsin, söhbətlərin və qəbul edilməli olan qərarlarda mənsub olduğu dövlətin maraqlarının əks edilməsinə nail olsun. Soyuqqanlılıq, təmkin, məntiqlilik də elçilərə xas olacaq keyfiyyətlər kimi dəyərləndirilirdi (453).

Elçilərin başqa keyfiyyətləri haqqında da müəyyən fikirlər mənbələrdə və elmi-tarixi araşdırmalarda öz əksini tapmışdı. Bildirilirdi ki, dövləti təmsil edən elçi mənsub olduğu dövlətin maraqlarını digər dövlətlərin saraylarında müdafiə etməyi bacarmalı və bunun üçün gərəkli olan əməl və keyfiyyətlərə malik olmalı idi.

Hind padşahı Cahangir şahın taxta çıxması münasibətilə təbrikə göndərilən elçinin Şah Abbas tərəfindən seçilməsi və bu elçinin şah adından hansı hədiyyələri özü ilə aparması haqqında İsgəndər bəy Münşi belə yazırdı: "O, izzət məclisinin işlərindən agah, həmçinin səltənət büsatının iş bacaran hər üzvünü bir-bir xəyalından keçirdi və fikri qızılbaş tayfası mirzədələrindən olan yüksək əmir məqamlı cənab Yadigar Əli Sultan Talışın üzərində dayandı. Bu şəxs cənnət aşiyanlı Süleyman şanlı xaqanın dövründəki xəlifətül-xüləfanın nəvəsi idi ki, babası bir müddət Bağdad darüssalamının hakimi olmuşdu. Yadigar Əli Sultan biliyi, fəsahəti və dilli-dilavərliyi ilə hamıdan üstün idi və şah onu [Hindistana] risalət və səfarətə təyin etdi, möhtərəm atanın təziyəsi və hümayun cülusun təbriki münasibəti ilə məhəbbətli bir məktub yazıldı, cənab elçi isə ləyaqətlə bu səfərin hazırlığı işinə başladı. Hamısı

bədov atlara minmiş, gözəl kəmər və yarağa sahib əlli nəfər ağa və mülazim nizamlı şəkildə və tam təmtəraqla yola düşərək Qəndəhar yolu ilə məqsəd istiqamətinə rəvan oldu. Hədiyyə şəklində göndərilən töhfə və hədiyyələr arasında əlli baş qıvraq ərəb, gürcü və bəyati at vardı ki, onlar xasseyi-şərifə ilxılarında yetişdirilmişdi və heç bir ad-sanlı padşah sərkarının onlara bənzər atları ola bilməzdi. Bundan başqa zərlə işlənmiş və məxmərdən hazırlanmış çullar (çol), layiqli silahlar urus vilayətindən gətirilmiş və hər biri həştad tümən və doxsan tümənə-şahiye-İraqi dəyərində qiymətləndirilmiş qara və uzun tüklü urus kürkü (pustin) ki, nadir tapılan qara və uzun tüklü tülkü dərisindən hazırlanmışdı, həmçinin min beş yüz ədəd qızıl, gümüş saplarla tikilmiş gözəl məxmər, ipək, atlas paltarlar, Avropa (firəng) və Çin (Xətay) parçaları, Yəzd və Kaşan qumaşları, başqa layiqli, yaraşıqlı töhfə və hədiyyələr də vardı ki, əgər onlar haqqında təfsilatla yazılsa [siyahı] uzunmış olar" (454).

Başqa bir halda isə Zeynal bəyin Şah Abbas tərəfindən hind sarayına göndəriləcək elçi kimi seçilməsi ilə bağlı İsgəndər bəy Münşi belə yazırdı: "Əlahəzrət şah da bu dövlətin əmirləri, yaxınları və mötəbər adamlarına nəzər saldıqdan sonra zatən ləyaqətli, düşüncəli, himmətli, ədəbli, xoş rəftarlı, etibarlı, məhrəm, həmçinin şərəf və mənliyi başqalarından üstün olan Zeynal bəyi elçiliyə layiq və bu xidmətə yararlı bilərək, yuxarıda yazıldığı kimi, onu Xanaləmlə Hindistana rəvan etdi. Bu işə başlayan Zeynal bəy öz vəzifəsinə sədaqətli, etiqadlı mürşidi və vəlinemətinin (Şah Abbasın) yolunda baş, can və malından keçən sufi kimi qoşulmağı və dost-düşmən tərəfindən bəyənilən adam olmağı qarşısına məqsəd qoydu. Buna görə də, vəlinemətin himmətinə, qeyrətinə, adına və namusuna ehtiramla həmin səfərə hazırlaşdı, şahanə şövkət, əzəmət, bər-bəzək, zər-zivər, külək sürətli tazı atlar, əskərlərin ən yaxşı bəzəyi olan qiymətli daş-qaş, qızıl və gümüşlə bəzənmiş yəhərlər, növbənöv alətlər və saysız-hesabsız əşya və ziynətlər, çoxlu mülazim, xidmətçi və əmələ ilə şahın xidmətindən ayrılıb Xanaləmlə birlikdə rəvan oldu" (455).

Elçilər bir qayda olaraq qızılbaş əmirləri arasından seçilirdi. Bu vəzifənin sərhəd bölgəsində yerləşən vilayətlərin hakimlərinə həvalə edilməsi də istisna deyildi (456).

Xarici dövlətin sarayına göndərilən elçi özü ilə Şah Abbasın hədiyyələrini aparmalı idi. Bu hədiyyələr çox qiymətli hədiyyələr olurdu. Yəni hədiyyələrin çoxluğu və dəyəri də elçi göndərən dövlətin əzəmətinin göstəricisinə çevrilirdi. Yuxarıdakı istinadda göründüyü kimi, hind padşahının sarayına elçi göndərilən Yadigar Əli Sultan özü ilə çox böyük sayda və dəyərdə hədiyyələr aparırdı.

Elçilik fəaliyyəti təcrübəsinin araşdırılması göstərir ki, xarici dövlətlərə göndərilən elçilər rəsmi tapşırıqlarla bərabər, qeyri-rəsmi tapşırıqlar da verilirdi. Həmin qeyri-rəsmi tapşırıqlara bunlar daxil idi: ilk növbədə elçi mənsub olduğu dövlətlə göndərildiyi dövlət arasında qurulması ehtimal olunan münasibətlərin xarakterini, bu münasibətlərin xoş məramlar üzərində qurulub-qurulmadığını öyrənməli idi. Elçi səfər etdiyi dövlətin padşahının durumu, bütünlüklə dövlətin vəziyyəti haqqında məlumat əldə etməyə çalışmalı idi. Diqqət yetirilməli olan başlıca məsələlərdən biri səfər edilən ölkənin qoşunları, qoşunların ümumi sayı, onların struktur tərkibi, təchizatı və ehtiyatları haqqında məlumatların toplanması idi. Elçi çalışmalı idi ki, maraq doğura biləcək bütün məsələlər haqqında mümkün məlumatı toplasın. O cümlədən, dövlətin padşahı kimdir, neçə yaşı var, xarakteri, siyasəti nədir, saray daxili vəziyyət necədir, ölkənin vilayətləri nə dərəcədə inkişaf edibdir, qoşunların döyüş qabiliyyəti hansı səviyyədədir, padşahın vəzirləri və saray mənsubları müdrik insanlardır, ya yox, səltənət xəzinəsində nə qədər ehtiyatlar var, padşahın rəiyyətə münasibəti necədir, padşahın həmsöhbətləri olan adamlar aqil və fazil adamlardır, yoxsa cahil insanlar, ətraf dövlətlərin padşahları ilə necə münasibətlər qurulub, dini işlər ölkə daxilində necə qurulub, din xadimlərinə hörmət və ehtiram varmı, padşah rəhimlidir, ya zülmkardır, ölkə daxilində yollar necədir, onların abadlaşdırılmasına hansı diqqət yetirilir, bu yollardan və su keçidlərindən qoşunları hərəkət etdirmək mümkündürmü və s. (457).

Maraq doğura biləcək digər məsələlər haqqında da elçi məlumatlar toplamağa borclu idi. Elçi göndərildiyi ölkə ilə bağlı elə tamamlanmış məlumata malik olmalı idi ki, şah maraqlandığı zaman ortaya çıxan suallara cavab verə bilsin. Konkret olaraq Şah Abbas elçi göndərdiyi Avropa ölkələrinin Osmanlı dövlətinə qarşı münasibətinin bütün təfərrüatlarından xəbər tutmağa çalışırdı. Bəlli olduğu kimi, Avropa dövlətləri ilə Osmanlı dövlətinə qarşı hərbi ittifaqın yaradılması Şah Abbasın Avropa siyasətində üstün xətti təşkil edirdi. Bu dövlətlərin imkanlarından Osmanlı dövlətinə qarşı istifadə edilməsi üçün Şah Abbası müvafiq məsələlərin bütün təfərrüatları maraqlandırmırdı.

Elçini bir qayda olaraq böyük bir heyət müşayiət edirdi. Bu heyətə həm elçiliyin siyasi üzvləri, həm də xidmət personalı daxil edilirdi. Məsləhətləşmələr aparılması, elçiliyin fəaliyyətinin qələmə alınması ilə bağlı heyət tərkibinə təcrübəli adamların daxil edilməsi diqqət mərkəzində olardı. Səltənət daxilində elçilik heyətinin hərəkəti üçün minik heyvanları ayrılar və heyətin səfər xərcləri xəzinə hesabına ödənərdi. Şah Abbasın təcrübəsində bir heyətə iki eyni səlahiyyətli elçinin təyin edilməsi halı da var idi. Məsələn, Antoni Şerli ilə Hüseynəli bəy eyni elçilik heyətinin rəhbəri təyin edilmişdilər. Lakin bu təcrübə özünü doğrultmadı. Məlumdur ki, Antoni Şerli ilə Hüseynəli bəy arasında səlahiyyətlərlə bağlı ixtilaf meydana gəldi və bunun nəticəsi olaraq Antoni Şerli elçilik heyətini tərk etməli oldu.

Şah Abbas tərəfindən elçilik heyətlərinə rəhbərliyin xarici dövlətlərin təbəələrinə tapşırılması təcrübəsi də mövcuddur. Əvvəlki Səfəvi şahlarının və eləcə də qonşu dövlətlərin təcrübəsində bir qayda olaraq elçilik heyətlərinə sarayın etibar və etimad etdiyi nüfuzlu əmir və əyanlar təyin edilirdilər. Şah Abbasın hakimiyyəti illərində də belə hallar az olmamışdı. Elə yuxarıda adları çəkilən Yadigar Əli Sultan, Zeynal bəy və başqaları belələrindən idi. Amma Avropaya göndərilən elçilik heyətlərindən birinə Antoni Şerli, ikisinə Robert Şerli, başqa birisinə isə karmelit keşişləri rəhbərlik etmişdilər. Bu bir tərəfdən Avropa təbəələrinin Avropada daha

yaxşı eşidilə biləcəyindən, digər tərəfdən də Şah Abbasın onlara etibar etməsindən irəli gəlirdi. Antoni Şerli öz missiyasını vaxtından əvvəl başa vurmalı olsa da və Robert Şerlinin ikinci elçiliyi zamanı elçi səlahiyyətləri ətrafında ixtilaf yaransa da bu təcrübənin bütünlüklə özünü doğrultmadığını demək də doğru olmazdı.

Elçi vəzifəsinin icrasına laqeydliklə və məsuliyyətsizliklə yanaşanlar isə çox ciddi şəkildə cəzalandırılırdı. Şah Abbas bu məsələdə çox ciddi qətiyyət nümayiş etdirirdi. Bu mənada Dəniz bəyin cəzalandırılması nümunə ola bilər. Dəniz bəy İspaniyaya elçi olaraq göndərilmişdi və öz missiyasını başa vuraraq 1613-cü ildə İsfahana dönmüşdü. Şah Abbas onun hər hansı bir izahatını dinləmədən dərhal qətl olunmasına göstəriş vermişdi. Dəniz bəy hələ İsfahana yetişməzdən əvvəl Şah Abbasa məlum olmuşdu ki, o, elçilik heyətinin üzvləri ilə çox kobud davranmış və bunun nəticəsi kimi elçilik heyətinin bir neçə üzvü xristian dinini qəbul etmişdi. Şah Abbas müsəlmanın xristian dinini qəbul etməsinə barışmazlıq göstərirdi və elçilik üzvlərinin xristian dininə yuvarlanmasını da Dəniz bəyin günahı bilirdi. Ona divan tutulması zamanı Şah Abbas Dəniz bəyin yol verdiyi digər xətaları da dilə gətirdi. Həmin xətalardan biri bu idi ki, İspaniya kralının Şah Abbasa göndərdiyi məktubun ağzını açmış və məktubla tanış olmuşdu. Elçi üçün belə bir əmələ yol verməsi qəbuledilməz sayılırdı. Dəniz bəy İspaniyada olarkən milli geyimdən imtina etmiş və yerli geyimi geymişdi. Şah Abbas bunu da düzgün saymırdı. Onun tələbi belə idi ki, səltənətin təmsilçisi milli geyimdə xarici dövlətlərin sarayında təmsil olunmalıdır. Hətta Şerli qardaşları da şah elçisi kimi, Avropa saraylarında qızılbaş libasında təmsil olunmuşdular. Nəhayət, Dəniz bəy Roma papasına çatdırılmalı olan şah məktubunu başqa birisinə vermiş və həmin adam da müəyyən maliyyə vəsaiti qarşılığında özünü Dəniz bəy adlandırmaqla şah məktubunu papaya təqdim etmişdi. Şah Abbas Dəniz bəyin bu əməlindən çox qəzəbləndi və həmin əməli səltənətə xəyanət kimi qiymətləndirdi. Bütün bunların cəzası kimi, Dəniz bəy dar ağacından asıldı. Şah Abbas bu ciddi cəzaya əl atarkən bəyan etdi ki,

gərək şahı təmsil edən adamlar təmiz olsunlar, mənfi keyfiyyətləri özlərindən uzaqlaşdırsınlar, bu adamlar bütün davranışları və danışıqları ilə şahı təmsil etməyə layiq olsunlar, kənardan müşahidə edənlər onun yaxşı əməllərini görsünlər, ona rəğbətlə yanaşa bilsinlər, beləliəri padşaha sədaqətli olsunlar, onun sirlərini və göndərdiyi peyğamları qoruya bilsinlər, öz maraqları və mənfəətləri xatirinə padşahın hökmünə məsuliyyətsiz yanaşmasınlar (458).

Xarici dövlətə yollanan elçilik heyətinin Şah Abbasın özü tərəfindən şəhər kənarında yola salması faktı da mövcudur. Məsələn, Antoni Şerli ilə Hüseynəli bəyin rəhbərlik etdiyi elçilik heyətini Şah Abbas şəxsən İsfahanın çıxacağına qədər müşayiət etmişdi (459). Bu elçilik heyəti Avropanın bir neçə dövlətində olmalı idi. Ona görə də Şah Abbas bu elçilik heyətinin səfərinə xüsusi bir əhəmiyyət verirdi. Onun bu elçilik heyətini bu cür yola salması həm də elçilik heyətinin məsuliyyətinin artırılmasına hesablanmış bir addım idi.

Xarici dövlətlərə göndərilmiş elçilik heyətlərinin geri qayıdışı ləngidikdə heyətin rəhbəri tərəfindən görülən işlər barəsində şaha məktublar göndərilərdi. Heyət geri qayıtdıqdan sonra isə elçi şah qarşısında hesabat verirdi. O eyni zamanda müşahidə etdikləri barədə şaha öz təkliflərini də çatdıra bilərdi. Elçilik heyətləri geri qayıdanda səfər etdikləri dövlətlərin hakimləri şaha həm məktub, həm də qiymətli hədiyyələr göndərərdi. Elçi onları da şaha təqdim edirdi. Başlıcası isə elçinin gətirdiyi məlumatlar əsasında Şah Abbas həmin dövlətlə öz gələcək münasibətlərini nizamlayırdı.

Xarici ölkələr tərəfindən gələn elçilərin qarşılanmasına, yerləşdirilməsinə, qəbuluna da Şah Abbas sarayında xüsusi diqqət yetirilirdi. Onlar ən ali qonaq səviyyəsində hərtərəfli qayğı altına alınırdı. Xarici dövlətin elçisi Səfəvi hüdudlarına daxil olduğu andan saray qayğısı altına alınırdı.

Xarici qonaqların qarşılanması, qəbulu və Səfəvi hüdudlarında onun yaşaması üçün müəyyən bir protokol da mövcud idi. Bu protokolun hər zaman gözlənilən, mütləq şəkildə riayət olunan məqamları da var idi, müəyyən hallarda protokol çərçivəsindən

kənara çıxan məqamları da var idi. Dəyişməyən və bir qayda olaraq riayət olunan məqamlar ondan ibarət idi ki, sarayda qonaqların qarşılanması və yerləşdirilməsi üçün protokol xidməti var idi. Bu xidmətə mehmandarbaşı rəhbərlik edirdi. Mehmandarbaşı sarayın nüfuzlu əyanları arasından seçilirdi və şaha yaxınlığı ilə tanınırdı. Elçilərin Səfəvi sarayında və hüdudlarında qərar tutması və vəzifələrini icra etməsi mehmandarbaşı tərəfindən nizamlanırdı. Elçilər səltənət paytaxtına daxil olanda gəlmələri barəsində ilk növbədə mehmandarbaşını xəbərdar etməli və şah qəbuluna düşmələrini onunla razılaşdırmalı idilər. Mehmandarbaşı da elçini və onun heyətini lazımi qaydada yerləşdirdikdən sonra onun nə vaxt qəbul ediləcəyini şahla razılaşdırırdı. Bundan sonra bu barədə elçiyə məlumat verilir və onun qəbul mərasimi təşkil edilirdi. İtaliyalı səyyah Pyetro Delavalle öz xatirələrində saray mehmandarbaşısı haqqında qısa qeydlər etmişdi. O bununla bağlı belə yazırdı: "Mart ayının 12-də, bazar günü karmelit keşişlərinin xəlifəsi olan Covanni ata şah sarayının vəzifə mənsublarından biri olan mehmandarbaşıya məktub göndərdi və ona mənim gəlişim haqqında məlumat verdi. Mehmandarbaşının vəzifəsi ondan ibarətdir ki, o, qonaqların yerlşdirilməsinə, onlara qayğı göstərilməsinə məsuliyyət daşıyır. Məktubda göstərilirdi ki, mən hazırda harasa hərəkət etmək fikrində deyiləm və şaha müraciət edilməsi və ya şahın qəbuluna düşə biləcəyim məhəllin təyin edilməsi ilə bağlı son qərarın alınması intizarındayam" (460).

Mehmandarbaşının tabeliyində bir neçə mehmandar var idi. Bu mehmandarlar xarici elçiləri Səfəvi hüdudlarına daxil olduğu andan müşayiət etməyə başlayırdılar. Mehmandar təyin olduğu elçinin və onun heyətinin Səfəvi hüdudlarında qaldığı müddət ərzində bütün qayğılarını öz üzərinə götürməli idi. Həmin məsələlərin həlli ilə bağlı mehmandarın lazımi səlahiyyətləri də var idi. Mehmandar elçilik heyətinin ortaya çıxan qayğılarını ya özü həll etməli, ya da bununla bağlı lazım olan məsələlərin həllini təşkil etməli idi. Elçinin şah tərəfindən qəbul edilməsi, bu zaman hansı protokolun izlənilməsi mehmandar tərəfindən nizamlanmalı idi.

Bir sözlə, mehmandar elçinin gəldiyi gündən, Səfəvi hüdudlarını tərk etdiyi anadək onun qayğısını çəkməli və yaşayışını təşkil etməli idi. İtaliyalı səyyah P.Delavallenin xatirələrində şah sarayının mehmandarları ilə bağlı belə qeydləri var idi: "Mehmandar vəzifəsi İspaniya sarayında da mövcuddur. Lakin İranda bu vəzifənin daha geniş anlamı vardır. Çünki burada mehmandar yalnız qonaqlar üçün mehmanxana hazırlamır, eyni zamanda onlara hədiyyə verir, onları müşayiət edir, onların şahla aparılacaq müzakirələrlə bağlı məsələləri həll edir. Yəni həqiqətdə hər cürə müzakirələr onun vasitəsi ilə həyata keçməlidir. Hətta bir xarici ölkənin elçisinin müzakirə edəcəyi məsələ sülh mövzusu olsa, bu məsələdə də mehmandar yüksək vəzifə mənsublarından biri sayılır" (461).

P. Delavalle sonra əlavə edirdi ki, onun yanına təyin edilmiş mehmandar şah sarayının nüfuzu və arxalı əyanlarından biri idi. Bununla o, göstərmək istəyirdi ki, mehmandar vəzifəsi Səfəvi sarayında kifayət qədər nüfuzlu bir vəzifə idi.

İspan elçisi Fiqueranın səfər qeydlərində də mehmandarın səlahiyyətləri və gördüyü işlər barəsində bəzi qeydlər saxlanmaqdadır. "...Yarım saat beləcə ötüşdükdən sonra elçi əyninə geyindiyi mərasim libasından və yerdə oturmaqdan yoruldu. Mehmandardan xahiş etdi ki, onun yanına gəlsin. Ona dedi ki, şahın nəzərinə onun vəziyyəti çatdırılsın. O bu gün əlahəzrətin qarşısında parıldamaq və ispanların bir qayda olaraq öz padşahlarının ad günü və ya toy mərasimləri zamanı geydikləri ən yaxşı paltarı şaha nümayiş etdirmək üçün geyinmişdir. Amma bu paltarlar onun üçün narahatçılıq yaradır və çox yorulubdur. Ona görə də şahdan xahiş edilsin ki, əlahəzrət öz inayət və iltifatını göstərsin və ona daha tez qəbul olunmaq şərəfi əta eləsin. Yoxsa, öz iqamətgahıma qayıtmaq məcburiyyətində qalacaqdır. Mehmandar yaranmış vəziyyətə görə üzr istədi. Amma xəbər göndərmək üçün öz lütfünü əsirgəmədi. Bir azdan sonra o, elçinin yanına gəldi və dedi ki, şah onu qəbul etməyə hazırdır və şahın hüzuruna gedə bilər" (462).

Xarici elçilər Səfəvi hüdudlarına daxil olduğu andan şah qonağı hesab edilirdi. Bu o demək idi ki, elçi birbaşa şahın qayğısı altında idi. Vilayət hakimləri də bunu bilirdilər və onlar müvafiq götəriş də almışdılar ki, xarici elçilər şahın xüsusi qonaqları kimi qarşılansınlar. Vilayət hakimi tərəfindən elçilərin ilkin təntənəli qarşılanması həyata keçirilir, onlara mühafizə təyin edilir, şah qonağına layiq olan məskən ayrılır və bundan sonra elçinin gəlişi ilə bağlı şaha məlumat verilirdi. Şahın icazəsi alındıqdan sonra elçi səltənət paytaxtına və ya da şahın həmin vaxt qərar tutduğu məntəqəyə yola salınırdı.

Mənbələrdə və elmi-tarixi ədəbiyyatda olan məlumata görə, 1618-ci ilin may ayında M.Baryatinskinin rəhbərliyi ilə Rusiya elçilik heyəti dəniz yolu ilə Şirvana gələndə bu vilayətin hakimi Yusif xan artıq Səfəvi sarayından həmin heyətin yüksək səviyyədə qarşılanması üçün göstəriş almışdı. Yusif xan tərəfindən qonaqların qarşılanması üçün müəyyən edilmiş nümayəndələr Rusiya elçilik heyətini hələ Şamaxıya çatmamış qarşıladılar. Bu heyətin qarşısına ilkin heyət göndərildi ki, elçilik heyəti Şamaxıya müşayiət edilsin. Şamaxı şəhərinə bir verst məsafə qalanda isə elçilik heyətinin təntənəli qarşılanması üçün bir min nəfərlik atlı dəstəsi və 2 min nəfərlik piyada silahlı dəstə göndərildi. Bu qarşılanma mərasiminə Şamaxının yüksək vəzifəli əyanlarından biri rəhbərlik edirdi. Qonaqlar Yusif xanın əmrinə uyğun olaraq vilayət iqamətgahının yerləşdiyi bağdakı binaların birinə aparıldı. Elçilik heyəti bir neçə ay Şamaxıda qaldı. Bu müddət ərzində onların bütün xərcləri vilayət xəzinəsi tərəfindən ödənildi. Sentyabr ayının 14-də Rusiya elçilik heyətinin Ərdəbilə doğru hərəkətə başlaması haqqında şah sarayından icazə gəldi (463).

Elçili heyəti sərhəd vilayətlərindən şah iqamətgahına tərəf yola salınanda da onun bütün səfər xərcləri saray xəzinəsindən, ya da yerli hakimlərin xəzinəsindən ödənilirdi. Səltənət paytaxtına və ya şah iqamətgahına qədər bütün yol qayğıları da yerli idarəçilik tərəfindən həll olunurdu. İspaniya elçisi Fiqueranın xatirələrində ispan elçilik heyətinin səltənətin cənub sahillərində qarşılanması

və şah iqamətgahına yola salınması belə təsvir olunmuşdu: "...Elçinin Lar şəhərinin yaxınlıqlarına yetişdiyi həmin gecə Pyer Melçior des Anges [o zaman İsfahanda olan ispan keşişi] fars dilində pərvanə adlandırılan xüsusi fərmanla şah düşərgəsindən gəldi. Bu fərmanla şah əmr etmişdi ki, elçiyə və onun yol yoldaşlarına dəvə, yük heyvanları, azuqə və ehtiyac duyulan digər şeylər verilsin. Əslində, Fars əmirül-ümərası İmamqulu xan tərəfindən elçinin bütün ehtiyacları aradan qaldırılmışdı. ...Lar hakimi elçi üçün böyük həcmdə müxtəlif meyvələr, üzüm, yemiş, xurma və digər əşyalar göndərdi.. Səhəri günü isə bu hakim şəhər böyüklərinin bir dəstəsi, sayı 400 nəfərdən artıq olan çoxlu tüfəngçi ilə bizi qarşılamağa gəldi"(464).

İspaniya elçisi Fiquera İsfahana yetişəndə Şah Abbas paytaxtda deyildi. Ona görə də o bir müddət bu şəhərdə qalmalı oldu. Onun rəhbərlik etdiyi elçiliyin səfər qeydlərindən göründüyü kimi, şahın yoxluğu zamanında da İsfahanda ona xüsusi qayğı göstərildi və şah qonağına layiq olan bir binada ona məskən ayrıldı. Sonra şah mənsublarından əmr gəldi ki, qəbul üçün ispan elçisi Qəzvinə yola düşsün. İspan elçisi böyük hörmətlə İsfahandan Qəzvinə yola salındı və bu zaman sarayın vəzifəli mənsubları ispan elçiliyini xeyli müşayiət etdilər (465).

Elçinin səfər boyu keçdiyi bütün şəhərlərdə və yaşayış məntəqələrində də ona oxşar ehtiram və qayğı göstərilirdi. İspaniya elçisi Fiqueranın Qəzvinə doğru hərəkət etdiyi zaman Kaşan hakimi tərəfindən yüksək səviyyədə qarşılanması haqqında səfər xatirələrində xeyli maraqlı qeydlər vardır. Həmin qeydlərdən aydın olur ki, hələ Kaşan şəhərinə yetişməzdən əvvəl bu şəhərin hakimi ispan elçilik heyətinin istifadəsi üçün həm azuqə əşyaları, həm meyvə, həm də şərab məhsulları göndərdi. Kaşan ətrafında isə elçilik heyətinin başqa bir qarşılanma mərasimi oldu. "Səhərin açılmasından bir qədər əvvəl elçi Kaşanın yarım fərsəxliyinə yetişdi. Gün çıxana kimi biz orada dayanıb gözlədi. Gün hələ görünməmişdi ki, əvvəlcə bir neçə atlının, ardınca isə şəhər hakiminin gəldiyini gördük. Bizi qarşılamağa gələnlərin hamısı at belində idilər.

Onlar hamısı digər yerlərdə gördüyümüz libaslara bürünmüşdülər, hamısı da cəld və yaraşıqlı idilər. Bu dəstə ilə bərabər, 500 nəfərdən ibarət olan tüfəngçilər dəstəsi və bir qrup şəhər sakinləri də gəlib çıxdılar. Onların qarşısında isə dəf və təbilin səsləndirilməsi ilə ənənəvi yerli musiqi ifa olunurdu. Dəstənin qarşısında gənc xanımlar və oğlanlar rəqs edirdilər. Bu qarşılanma mərasimində xüsusi ilə at belində olan xanımlar diqqət çəkirdilər ki, onlar başqalarından fərqlənirdilər. Bu xanımlar öz dövrünün ən yaxşı paltarlarını geyinmişdilər, sifətlərinin ətrafında və alınlarında çoxlu sayda mirvarilər düzülmüşdü. Onların uzun saçları arxalarına tökülmüşdü. İranlı xanımların saçları bir qayda olaraq qara rəngədir. Təbii qara rəngə malik olmayan saçlar da rənglənərək qaraldılırdı. Bu xanımların arasında xoş çöhrəli və xna rəngində saçları olan çox gözəl bir xanım var idi. ...Elçi şəhərə daxil olduğu gün yol yoldaşları ilə birlikdə at belində şah sarayına aparan xiyabanın darvazasına qədər irəlilədi. Biz orada bir qədər dayandıq ki, qadınlar atdan düşdükdən sonra öz rəqslərini başa çatdırsınlar. Bundan sonra şəhər hakimləri elçini dayandığımız meydandan çox da uzaq olmayan iqamətgahına müşayiət etdilər" (466).

Səltənət paytaxtına yetişdikdən sonra elçilik heyətinin qarşılanması və şah qəbuluna gətirilməsi üçün də xüsusi bir mərasim təşkil edilirdi. Bu mərasimlər bir qayda olaraq şah sarayının qarşısındakı meydandan başlayırdı. Xüsusi müşayiət altında yaşadığı iqamətgahdan şah sarayının həyətinə gətirilən elçi burada çox görüntülü şəkildə qarşılanır və sonra da mehmandarlar tərəfindən şahın qəbuluna aparılırdı. Elçilərin İsfahan sarayında qarşılanması ilə bağlı P.Delavallenin xatirələrində maraqlı məlumatlarla qarşılaşmaq mümkündür. Bu məlumatlardan biri də 1619-cu il iyun ayının 19-da Osmanlı, Hindistan və Rusiya elçilərinin qarşılanması ilə bağlıdır. O yazırdı: "...İyun ayının 19-da, çaharşənbə gününün səhəri Hindistanın, Moskvanın və Osmanlının üç elçisi böyük qarşılanma mərasimi ilə İsfahana daxil oldular.. Moskva dövləti iki nəfəri İran sarayının elçiliyinə göndərmişdi. Lakin o iki nəfərdən biri Qəzvində dünyasını dəyişdi. O biri isə təkcə öz münşisi

ilə birlikdə İsfahana daxil oldu. Elçilərin şəhərə daxil olduğu gün şah, şəhər sakinlərinə xəbər etdi ki, o özü şəxsən elçilərin qarşılanmasına yollanacaqdır və şəhər sakinləri də gərək elçilərin qarşılanmasına çıxsınlar. Əvvəldən İsfahanda olan digər iki elçiyə, yəni İspaniya elçisinə və İngiltərənin nümayəndəsinə də peyğam göndərdilər ki, üç başqa dövlətin elçilərinin qarşılanması üçün şəhər xaricində ona qoşulsunlar. Bir neçə gün əvvəldən İsfahandan və onun ətrafından, hətta Şirazdan, Yəzddən və Kirmandan toplanmış 60 min nəfərlik tüfəngçi dəstəsinə fərman verilmişdi ki, ən yaxşı vəziyyətdə müəyyən edilmiş gün hazır olsunlar. Onlar da dəstə-dəstə müxtəlif bölgələrdən, gözoxşayan, rəngbərəng geyimdə və gözəl lələkləri olan böyük əmmamələrlə gəlib toplaşdılar. Hər bir dəstənin öz rəhbəri var idi. Ney, təbil və döyüş musiqi alətlərinin səsası altında yalnız İranda adət olan dairəvi şəkildə hərəkət edirdilər. Hər dəstənin də özünün ayrıca bayrağı var idi. Bayraq nizəyə keçirilmişdi və onun yuxarısında bir enli və bir neçə rəngarəng lentlər bərkidilmişdi. Bu 60 min nəfər iki sırada İsfahan meydanındakı şah qəsrindən elçilərin olduğu və İsfahan şəhərindən təxminən 12 min qədəmlik məsafədə yerləşən Dövlətabad kəndinə qədər düzülmüşdülər. Onların hər birinin əlində tüfəng var idi. Bu tüfənglərin qundağını böyürlərinə dayaqlayaraq lüləsinin ağzını asimana tərəf çevirmişdilər.

O gün səhərdən küçələrdə böyük nağaraların, şeypurların və müxtəlif alətlərin səsası adamın qulağını kar edirdi. Tüfəngçilər səkkiz nəfərlik və on nəfərlik dəstələrlə sıradan çıxır və yerli adətlərə uyğun rəqs edirdilər. Bu dəstələr yorulanda yenidən öz sıralarına qayıdırdılar və onlar öz yerini digər bir dəstəyə verirdilər. Rəqs etməyə başlayanlar öz silahlarını yanındakılara verirdilər. Bunlara görə, məndə belə bir qənaət yarandı ki, iranlılar rəqs etməyi çox sevirlər. Belə ki, musiqi səsası eşidəndə və ya öz dostlarının rəqs etdiyini görəndə haldan düşürlər və ixtiyarlarını əldən verirlər. Yəni onlar öz yerlərində əl və ayaqlarını hərəkət etdirməkdən, boyunlarını, başlarını, qaş və gözlərini tərpətməkdən dayana bilmirlər. Bir sözlə, İsfahandan Dövlətabada qədər təxminən

üç fərsəng bütün yol boyu səhərdən axşama qədər musiqi və oynamaq davam etdi. Adamlar çox həvəslə oynayır, əl çalır və atılıb-düşürdülər. Həm də qışqırırdılar: ”Xuda Şah Abbasın iqbalını uzun etsin”. Şahın qəsrinin qarşısında, Nəqşi-cahan meydanı boyunca iki sıra tüfəngçilərdən başqa bir dəstə qulam da iki sırada dayanmışdı. Onların bəzisi əllərində zərli şərab camları, bəziləri də buzla dolu olan qabları tutmuşdular. Onlar adamlara su, ya da şərab verirdilər. Şah Abbas şəhər böyüklərinə və saray əyanlarına fərman vermişdi ki, onlar da Dövlətabada qədər elçilərin qarşısına çıxsınlar. Onlar da bahalı ipək paltarlarda, qiymətli cəvahirlə, gözəl lələklərlə bəzədilmiş əmmamələrdə, yəhər və yüyənləri daşqaşlarla bəzədilmiş bahalı cins atların belində atlıların və öz xidmətçilərinin arasında hərəkət edirdilər. Atlıların elə bir izdihamı yaranmışdı ki, sanki həmin gün bütün İsfahan əhli at belində idi.

...Şah heç bununla da kifayətlənmədi və fərman verdi ki, avropalılardan, ermənilərdən, yəhudilərdən ibarət olan qeyri-müsəlman etniklər və xalqlar da elçilərin qarşılanmasına çıxsınlar. O, xüsusilə yəhudilərin bu qarşılanmaya çıxmasına təkid etdi. Onlar da itaət etdilər və dəstə-dəstə şəhər xaricinə yollandılar. Yəhudilər xüsusi bir avazla oxuyur və dua edirdilər. Onların əlində parçaya dolanmış və Tövratı andıran bir bükülü və yandırılmış şamlar var idi. Culfa isəvilərindən də 700 nəfər piyada tüfəngçilərin arasında yer tutdular, üç yüz atlı isə gözəl libaslarda silaha sarılaraq əvvəlcədən müəyyən edilmiş yerdə qərar tutdular. Bütün bunlardan əlavə, şah göstəriş vermişdi ki, hərəmxana xanımlarından 25 nəfər də elçilərin qəbulunda iştirak etsinlər. Bu da qarşılanmanın xüsusiliyinə dəlalət edirdi. Belə qarşılanma yalnız fövqəladə elçilərə münasibətdə icra olunur. Bu 25 xanım da at belində, niqabları yuxarı çəkilmiş halda, əlləri açıq şəkildə hərəkət edirdilər. Onlar da tam nizamla elçilərin qarşlanmasına çıxdılar. ...Hindistan elçisi eşitmişdi ki, Şah onların qarşılanması üçün Dövlətabada qədər gələcəkdir. Bir müddət orada dayandı. Şahı isə başqa bir fikrə düşdü. O, dövlət adamlarını və əyanlarını göndərməkdən imtina etdi. Sonra özü də İsfahanda o qədər dayandı ki, Hindistan elçisi

daha gözləməyib İsfahana doğru hərəkətə başladı. Osmanlı və Moskva elçiləri də onun arxasınca yola düşdülər. Yalnız İngiltərə elçisi saray və siyasi mərasimlərə və normalarına etinasızlıq etdi. İspan elçisinə şah məxsusi olaraq yəhərli-yüyənli yeddi baş at göndərmişdi və xahiş etmişdi ki, bütün həmkarlar ilə birlikdə şəhərin kənarına çıxsınlar və mərasimin tamaşasına yollansınlar. O iddialı yaşlı da deyilənə itaət etdi və İsfahan darğası ilə birlikdə şəhərdən çıxdı. İspan elçisi təkəbbürlü olduğu üçün istəmirdi ki, digər elçilərlə yol yoldaşı olsun və daim gözləri ilə şahı axtarırdı. Şah isə bütün bu qarşılanma mərasiminin həsr edildiyi Hindistan elçisini görmək istəyirdi. Ona görə də o, başqa bir yolla şəhər kənarına yollandı, hind elçisinin qarşısında hərəkət edənlər şəhərə daxil olanda İsfahan yaxınlığında özünü ona yetirdi. Qəbul mərasimi təşkil edildi və digərlərin şəhərə daxil olmasından bir saat yarım sonra yalnız onu özü ilə şah sarayına apardı. ...Hindistanda şahdan sonra üç nəfər daha mühüm vəzifə sahibidirlər. Birincisi Xanlar xanı idi. Şahdan sonra onun məqamı hamıdan yuxarıdır. İkincisi Mir Miran və üçüncüsü Nurəddin Cahangir şah tərəfindən Şah Abbas sarayına elçi göndərilmiş Xan Aləm idi.

İspan elçisi qəzəblənib öz yol yoldaşları ilə birlikdə evinə qayıtdı. Lakin heç istirahət etməyə macal tapmamışdı ki, şah mehmandar Hüseyn bəyi onun ardınca göndərdi və xahiş etdi ki, bütün elçilər şah qəsrində toplandığı üçün o da oraya gəlsin. Don Qarsiya çarəsizlikdən bir də libasını geyindi və xidmətçiləri ilə birlikdə şah qəsrinə yollandı. Qorçu Hüseyn xan, Fars əmirül-ümərası İmamqulu xanın qardaşı Davud xan, İran sipəhsaları Qərçəqay xan elçilərin hər biri Qəsrin böyük salonunda Osmanlı elçisi, Hind elçisi, özbək və Moskva elçiləri, İngiltərənin nümayəndəsi də salonda idilər. Bir neçə dəqiqədən sonra şah iki xidmətçisi ilə xüsusi qapıdan salona daxil oldu, elçilərdən hal-əhval tutdu onların hər birinə yer göstərdi, Hindistan və İspaniya elçilərini özünə yaxın yerdə əyləşdirdi. İspaniya elçisini müşayiət edənlərə də salona daxil olmaq icazəsi verdi. Elçi asanlıqla yerdə əyləşə bilmədiyi üçün əmr etdi ki, onun üçün səndəli gətirsinlər.

Bu məclisdə elçilərin hər biri öz padşahlarının məktublarını təqdim etdilər. O cümlədən İspaniya elçisi portuqal keşişi Bernard Azevedo tərəfindən gətirilmiş kral III Filipin məktubunu şaha təqdim etdi. Şah da həmin məktubu karmelit keşişlərinin İsfahandakı xəlifəsi Pyer Jan Taddeusa verdi ki, onu tərcümə etsin. Bu məktubda hal-əhval soruşulmasından başqa bir şey yox idi. Sonra şah elçilərlə şərab içməyə başladı. Bir saatdan sonra İspaniya elçisi icazə istədi ki, evinə qayıtsın" (467).

İsgəndər bəy Münşinin hind elçisinin şah tərəfindən rəsmi qəbulu haqqındakı qeydlərindən də bəlli olur ki, elçi səltənət paytaxtına yetişdiyi vaxt şah kənarda olurdusa, bu zaman onun göstərişi ilə elçi ya onun yanına gətirilir, ya da hansısa bir məntəqədə gözləməsi əmr edilirdi. Hind elçisi Xanaləm İsfahana yetişəndə Şah Abbas hərbi yürüşdə idi. Bu hərbi yürüş başa çatandan sonra Şah Abbas onu öz yanına dəvət etdi: ""Keçən günlərdə baş verən hadisələrin şərhi zamanı qələmimiz belə yazmışdı: Hindistan məmləkətlərinin hökmranı ali məqamlı Şah Səlim o sülalənin böyük əmirlərindən və cığatayların bərlas qəbiləsindən olan və padşah tərəfindən "bay", yəni "qardaş" adlandırılan "Xanaləm" ləqəbli Mirzə Bərxordar hümayunun (Şah Abbas) elçi təyin etdiyi Yadigar Əli Sultan Talışla birlikdə elçiliyə göndərilmişdi və o, bir neçə vaxt Herat darüssəltənəsində qalmışdı. Mirzə Bərxordar bu il ali dərgaha yollandı. Şah rum ordusunun hücumunu dəf etmək üçün Azərbaycana tərəf getdiyindən, söhbət yasavulu Kəlbəli bəy Şamlıya tapşırdı ki, elçini qarşılayıb, hümayun ordu qayıdan zamanadək Qum darülmöminində apararaq orada saxlasın. Mirzə Bərxordar əvvəlcə Qəzvin darüssəltənəsinə, sonra Qum darülmöminə getdi, Yadigar Əli Sultan isə ondan ayrılaraq ali dərgaha üz tutdu. Xanaləm Qəzvinə daxil olan gün bu "Aləmara" [kitabının] müəllifi şəhərdə idi və elçinin zahiri bər-bəzəyini müşahidə elədi. Dünyagörmüş adamlar belə deyirlər ki, o xanədanın yaranmasından bu günədək Hindistan vilayətindən, hətta Rumdan da belə şövkətdə, geyim-keçimdə və həşəmətdə hələ heç kim İran vilayətinə gəlməmişdir, heç hələ bu da məlum deyildir

ki, əzəmətli Kəyan şahlarının dövründə də belə bir elçini görmüşlər ya yox? Məhz bu cür gözəl və xoşbəxt bir zamanda, Allahın köməyi və əlahəzrət zilləllah şahın əzəmət və hökmranlığının çoxalması dövründə bu elçinin gəlişi baş verdi. Dünya sultanları və şan-şöhrətli hökmdarlar (fərmanrəva), istər müsəlman olsunlar, istərsə də qeyri-müsəlman, o həzrətlə zahiri və mənəvi sədaqət və münasibət qapılarını açmışlar və açmaqdadırlar. O həzrətin məhəbbəti onların ürəklərində bərk-bərk yer tutduğundun, öz elçilərini sultanların pənah yeri olan bu dərgaha göndərməklə fəxr edir və bunu özləri üçün şərəf bilirlər. Xülasə, Xanaləm İran mülkünə ayaq basan vaxt onunla birlikdə min nəfər mötəbər padşah mülazimi gəlmişdi. Xanaləmin özünün mülazimləri isə, əgər onun nökər və xidmətçilərini saymasaq, iki yüz quşçu və mirşikardan ibarət idi ki, onların bir hissəsini Heratdan geri qaytardılar. Xanaləm Qəzvin darüssəltənəsinə çatan gün onunla gələn padşahın və özünün mülazim, xidmətçi və cangüdənlərinin sayı yeddi yüz-səkkiz yüz nəfər idi. Qızılı taxtlar və cürbəcür yəhərlərlə bəzədilmiş on ədəd iri fil, habelə bəbir, pələng, ahu, hind quzuları, ov pələngi (yuz), kərkədan, danışan quşlar (tuti) və sair heyvanlar da gətirmişdilər. Cah-cəlal ordusunun qələbə ilə Azərbaycandan qayıdıb Qəzvin darüssəltənəsində dayandığı vaxt, Xanaləmin buraya gəlməsindən ötrü iltifatla bir məktub yazıldı və o, olduğu yerdən çıxıb səltənət sarayına doğru yollandı. Şəhərə çatdığı zaman onu bir dəstə əzəmətli əmir istiqbal edərək, izzət və ehtiramla şəhərə gətirdi. Xanaləm oranın Səadətabad sarayındakı ürəkaçan bir mənzildə yerləşdirildi. Ertəsi gün, əlahəzrət Səadət meydanında covgan və qəbəq atma (qəbəqəndazi) oyunu ilə bərk məşğul olan vaxt Xanaləm onun səadətli görüşünə gəldi, olduqca çoxlu nəvazişə, izzətə va ehtirama layiq göründü. O, öz gövhərlər səpən dili ilə şaha xitabən dedi: “Bizimlə uca məqamlı, günəş papaqlı həzrət padşah arasında qardaşlıq münasibəti yaranmışdır və bizim şah səni “bəradər” (qardaş) adlandırmışdır, bəradərdə ki, bəradərdir”. Əlahəzrət, bu sözlərinə görə onu qardaş kimi öz mərhəmət ağuşuna çəkdi, aşina və biganələri fərqləndirmədən hamıya

göstərdiyi şahanə ehtiram və nəvazişləri onun şəxsində də həyata keçirdi" (468).

Elçinin qarşılanması və qəbulu heç də həmişə belə keçirilmirdi. Bəzi hallarda elçilər rəsmi protokoldan kənar qəbul edilirdi. Məsələn, 1589-cu il aprel ayının 9-da Rusiya elçisi Vasilçikovun qarşılanması üçün hər hansı bir protokol icra edilmədi. Elçilik heyəti sarayın eyvanında Şah Abbasın qəbulunda ola bildilər. Rusiya elçisi təzim edib Şah Abbasın əlindən öpdü. Elçinin tərcüməçisi və münşisi də şahın əlini öpdükdən sonra onlar üçün ayrılmış yerə istiqamətləndirildilər. Elçilik heyətinin üzvləri onlar üçün müəyyənləşdirilmiş yeri tutdular. Vasilçikova Şah Abbasla üzbəüz yerdə oturmaq təklif olundu (469).

Bəzi hallarda isə elçi bir başa hərbi düşərgədə qəbul edilirdi. Bu o vaxtlar baş verirdi ki, hərbi yürüşlər uzun çəkirdi və belə vaxtlarda elçini ləngitməmək üçün elçi şah düşərgəsinə dəvət edilirdi. Məsələn, 1604-cü ildə İsfahana gəlmiş ispan elçisi De Lazerda şah qəbulunda olmaq üçün əvvəlcə Qəzvinə göndərildi. Bir neçə gün orada qaldıqdan sonra isə ispan elçisi Təbriz ətrafına yollandı və orada Şah Abbasın qəbuluna düşə bildi. İspaniya elçisi Antonio de Quvea şah qəbuluna ilk dəfə Məşhəddə düşə bilmişdi. Bu qəbulla bağlı onun xatirələrində bəzi qeydlər də mövcuddur: "Şah qiymətli xalçaların fərş edildiyi dörd künc bir salonda əyləşmişdi. Ətrafında dövlətin sərdarları və böyükləri iki sırada qərar tutmuşdular. Şahın geyimi və əmmaməsi başqalarınkından heç də fərqlənmirdi. Onu əl ilə göstərməsəydilər heç tanımaq da olmazdı. ...Bizi şah məclisinə gətirən adam bizdən soruşdu ki, yaxın gedib onun ayaqlarını öpmək istəyirik, ya da eləcə uzaqdan başınızla təzim etmək istəyirsiniz? Cavab verdik ki, biz şahı yaxından görmək və öz dövlətimizin qaydasına uyğun ona ehtiramımızı bildirmək istəyirik. Nə isə yaxına getdik və bir dizimizi yerə dayaqlayıb şahın əlini öpdük. Şahın yaxınları bizim bu hərəkətimizə təəccüb etdilər və dedilər ki, heç də yaxşı əməl deyildi, gərək onun ayağını öpəydiniz. Lakin şahın özü çox xoşhal oldu və bizə ürəkaçan sözləri ilə nəvaziş göstərdi" (470).

İspaniya elçisi Antonio de Quvea ikinci dəfə 1608-ci ildə Həmədan yaxınlığındakı düşərgədə şahın qəbuluna düşə bildi. Hərbi düşərgədə sözsüz ki, bütün qarşılanma mərasimini həyata keçirmək mümkün deyildi. Şah Abbas elçini səhra şəraitində qəbul edirdi və bu, elçilərin özləri tərəfindən də anlaşıqlı qarşılanırdı. Bununla belə, Şah Abbas tərəfindən göstərilən ehtiram öz səmimiliyini itirmirdi. A.de Quvea şah düşərgəsində qarşılanmasını belə təsvir edirdi: "...Biz şah düşərgəsinə yetişəndə bizim üçün çox soyuq suyu olan bir çeşmənin kənarında çadır qurdular. Bu çadıra yol şah çadırının qarşısından keçirdi. Biz atdan yerə enmək üçün dayananda şah bizi gördü və mehmandara göstəriş verdi ki, bizi onun yaxına aparsın. Biz səfər libasında onun çadırına yollandıq. ...Şah gülər üzlə və mehribanlıqla bizi qarşıladı. Mən dizimi yerə qoyub onun əlini öpmək istəyəndə o, əlini mənim çiynimə qoydu və dedi: Mən sizi İsfahanda görə bilmədiyimdən narazısınız? Dedim: Ondan narazıyam ki, əlahəzrəti görə bilmədim, əlahəzrətin bizi görmək istəməməsindən narazı deyilik. Mən böyük bir şövqlə gəlmişdim ki, əlahəzrəti qazanmış olduğu bütün fəthlərə görə təbrik edim. Sizi görməyə müvəffəq olmadım və ona görə nigaran qaldım. ...Şah mənə öz yanında yer verdi" (471).

Qəbul zamanı xarici elçilər tərəfindən şahın əlinin öpülməsi qəbul protokolunun elementlərindən biri idi. Protokolun elementlərindən biri də elçilər tərəfindən şahın ayağının öpülməsi idi. Elçi şah hüzuruna daxil olanda özünü təqdim etdikdən sonra irəli addımlamalı və dizlərini yerə qoyaraq başını şahın ayağına toxundurmalı idi. Bir çox hallarda şah özü buna icazə vermirdi. Məsələn, Şerli qardaşlarını qəbul etdiyi zaman Şah Abbas ayağının öpülməsinə icazə vermədi. Belə olanda Şerli qardaşları şahın əlini öpməklə kifayətlənməli oldular (472).

1589-cu ildə Rusiyadan gəlmiş elçi Vasilçikova da protokol norması kimi şahın ayağını öpməli olduğu bəyan edildi. Vasilçikov isə öz dövlətində belə bir adətin olmadığını bildirdi. Ona görə qəbul zamanı o, şahın əlini öpdü və şah da buna etiraz etmədi (473).

Elçi qəbulu mərasiminin əsas elementlərindən biri mənsub olduğu dövlətin hakiminin Şah Abbasa göndərdiyi məktubun təqdim edilməsi idi. Bu məktub kəsb etdiyi məzmundan əlavə, iki dövlət arasında əlaqələrin mövcudluğunun göstəricisi idi. Bəzi məktublar sadəcə protokol cümlələrindən, qarşı tərəfin hal-əhvalının soruşulmasından ibarət idi. Amma həmin məktubun göndərilməsi tərəflər arasında qarşılıqlı münasibətlərin mövcudluğunun və onun inkişaf etdirilməsinin təsdiqi idi. Məktubların böyük hissəsi isə tərəflərin maraqlarını əks etdirən məsələlərin çatdırılmasına həsr olunurdu. Avropa dövlətlərinin rəhbərləri ilə aparılan məktublaşmada Osmanlı dövlətinə qarşı ittifaqın yaradılması və ipək ticarətinin təşkilatlandırılması məsələləri öz əksini tapmışdı. Osmanlı dövləti ilə aparılan yazışmalar isə daha çox iki dövlət arasında sülh münasibətlərinin bərqərar edilməsi ilə bağlı idi. Hind padşahı ilə də davamlı məktublaşma olmuşdu. Bu zaman diqqət mərkəzində olan başlıca məsələ ikitərəfli münasibətlər və Qəndəhar ətrafında cərəyan edən hadisələr olmuşdu. Xarici dövlətlərin elçiləri bir qayda olaraq gətirdikləri məktubları öpdükdən sonra şaha təqdim edirdilər. Şah da məktubu qəbul edərək onu oxunması üçün tərcüməçiyə verirdi. Tərcüməçi əsasən, Avropadan və Rusiyadan gəlmiş məktubların oxunması üçün istifadə olunurdu. Məktub təqdim olunandan sonra cavab dərhal verilməzdi. Amma məktubun məzmunu ətrafında söhbət xeyli uzun çəkə bilərdi. Şah Abbas özü də bir çox hallarda elçilərlə geniş söhbət etməyi və onlardan maraqlandığı məsələlər ətrafında müzakirələr aparmağı xoşlaryardı. Bəzən rəsmi qəbul ilə başlanan söhbət bir neçə saat davam edə bilərdi (474).

Şah Abbas Avropa hakimlərindən gəlmiş məktubların tərcüməsi üçün türk dilini bilən avropalılardan istifadə edirdi. Məsələn, bəllidir ki, Robert Şerli, italiyalı səyyah P. Delavalle türk dilini bilirdi və onların şahla ünsiyyəti də türk dilində baş verirdi. Bu adamlar da, digərləri də yaxşı bilirdilər ki, şah sarayında türk dilində danışığa üstünlük verilir.

Elçilərin qəbul mərasiminin mühüm elementlərindən biri də onların mənsub olduqları dövlətin hakimi adından gətirdikləri hədiyyələrin şaha təqdim edilməsi idi. Həmin hədiyyələr Şah Abbasa bəslənilən ehtiramın bir göstəricisi idi. Ona görə də Şah Abbas bu hədiyyələrin ictimai şəkildə təqdim olunmasına maraq göstərirdi. Hind elçisi Xanaləmin gətirdiyi hədiyyələr o qədər çox idi ki, onlar hətta xarici səyyahların da diqqətini cəlb etmişdi. Yuxarıda qeyd edildiyi kimi, bu hədiyyələr həddən artıq çox idi və onların yalnız daşınması və şah qarşısından keçirilməsi xeyli vaxt davam etdi. Həmin hədiyyələrin daşınması üçün 29 baş dəvə cəlb edilmişdi. Hədiyyələrə hind istehsalı olan müxtəlif parçalar, çoxlu sayda qiymətli daş-qaşlarla bəzədilmiş qılınclar və digər silahlar, başa qoyulan əmmamələrin düzüldüyü yüz tabaq, böyük bir heyvanın dişi, beş ədəd hind arabası, iki kərkədan, müxtəlif maral, ceyran və vəhşi eşşəklər daxil idi. Hind elçisinin hədiyyələri səkkiz, ya da on filin nümayişi ilə başa çatdı. Onlardan iki-üçünün belində kəcavədə adamlar oturmuşdu.

Elçilərin gətirdikləri hədiyyələr yerli xidmətçilər tərəfindən şahın qarşısından keçirilərdi. Böyüklüyündən və kiçikliyindən asılı olmayaraq daşınması mümkün olan hər hədiyyəni bir nəfər aparırdı. Yuxarıda qeyd edildiyi kimi, ispan elçisi Fiqueranın gətirdiyi hədiyyələr o qədər çox idi ki, onların daşınması üçün şah sarayından elçinin sərəncamına 600 nəfər xidmətçi göndərilmişdi. Şah Abbas tərəfindən bəyənilmiş həmin hədiyyələr arasında bir neçə top qırmızı parça, məxmər toxunuşlu zərif mahid, güllü İtaliya sətini, bir neçə böyük qab, qızıl işləmələri olan teşt və aftafalar, buxarı ləvazimatları və alətləri, gümüş qablar, yaylaqda və ya ov mərasimində işlətmək üçün 60 ədəd qızıl işləməli gümüş qabların toplandığı sandıq, büllurdan olan iki ədəd yüksək keyfiyyətli qab, qızıldan düzəldilmiş əlavə iki ədəd qab, bəndi və həmayili olan 6 ədəd qılınc və bir ədəd xəncər, kənarları rəngli və bəzəkli təsvirlər olan və bu bəzəklərin yaxşı həkk edildiyi kiçik sandıq, 50 ədəd zənburək və 50 ədəd istifadəyə hazır olan fitilli tüfəng və s. var idi.

Bəzi hallarda Şah Abbas elçilərin gətirdikləri məktuba cavabı xüsusi şəraitdə verirdi. Məsələn, 1602-ci ildə İspaniya elçisi A.de Quveanı Şah Abbas öz hərəmxanasına dəvət etdi və orada onunla ayrıca söhbət etdi. Həmin söhbət zamanı Şah Abbas ispan elçisinə öz cavabını da çatdırdı.

Bəzi hallarda Şah Abbasın qəbul zamanı elçi ilə kifayət qədər sərt danışması ilə də rastlaşmaq mümkündür. Məsələn, məlumdur ki, Rusiya nümayəndəsi Tyuxinlə söhbətində Şah Abbas öz sərt münasibətini ortaya qoydu. Bununla Şah Abbas şah elçisinə Rusiyada etinasız münasibət göstərilməsinə narazılığını ifadə etdi. İspan elçisi Fiquera ilə söhbətində də Şah Abbas kifayət qədər sərt münasibətini göstərdi. İspaniya kralının Hörmüz adasını geri qaytarmaq təklifinə qarşı Şah Abbas öz narazılığını belə ifadə etdi və mövqeyini açıqlayandan sonra elçinin cavabını gözləmədən onun yanından uzaqlaşdı (475).

Elçilərin qəbulundan sonra onlar üçün ziyafət verilərdi. Bu zaman elçi ilə birlikdə onu müşayiət edən heyət üzvləri, habelə saray mənsubları dəvət edilərdi. Belə məclislərdə şah çox sadə libasda iştirak edərdi. Yuxarıda yazılanlardan bəllidir ki, sadə libasda olmasına görə qonaqlar da Şah Abbası tanımaqda çətinlik çəkirdilər. Məclisə dəvət edilən əmir və əyanlar isə əksinə, təmtəraqlı bir geyimdə olardılar. Onlar ən bahalı geyimlərini geyər və onları zərcəvahiratla bəzəyərdilər. Bunu Şah Abbas da onlardan tələb edirdi. Müşahidəçilər və şahidlər qeyd edirlər ki, Şah Abbas belə ziyafətlərdə nə qədər sadə geyimdə olsa da, onun tərəfindən təşkil olunan məclislər öz əzəməti ilə seçilərdi. Xüsusilə, ziyafətin verilməsi üçün qızıl və gümüşdən hazırlanmış, qiymətli daşlarla bəzədilmiş qablardan istifadə olunardı. Bu qablar öz zənginliyi ilə ziyafətdə iştirak edən xarici qonaqların da heyrətinə səbəb olardı. Belə ziyafətlərin təşkili Şah Abbasın şəxsi nəzarəti altında olardı və bəzən özü də süfrənin açılmasına müdaxilə edərdi. Şah Abbas bir tərəfdən öz qonaqpərvərliyini nümayiş etdirirdisə, digər tərəfdən də göz oxşayan zənginliklə Səfəvi dövlətinin əzəməti haqqın-

da təsəvvür yaratmağa çalışırdı. Süfrə üzərinə dövrün yeməkləri düzülərdi. Qonaqlara bir qayda olaraq şərab da təklif olunardı.

Elçilər uzun müddət Səfəvi dövləti ərazisində qalırdılar. Bu da bir ənənə idi. Şah Abbasa görə, qısa müddət ərzində geri qaydan nümayəndə elçi yox, qasid adlandırıla bilərdi (476). Elçi isə uzun müddət səfər etdiyi dövlət ərazisində qalmalı və bir də müvafiq icazə verildikdən sonra vətəninə dönə bilərdi. Səfəvi dövləti ərazisinə gəlmiş elçiyə geri qayıtması üçün şahın özü tərəfindən icazə verilməsi qəbul qaydalarının məcburi elementi idi. Elçinin geri döndüyü zaman bir qayda olaraq onun gətirdiyi məktub, mənsub olduğu dövlətin hakiminə və o cümlədən də elçinin özünə qiymətli hədiyyə verilirdi. Çox hallarda isə qonaq elçinin ardınca, Şah Abbas öz elçisini həmin elçinin mənsub olduğu dövlətə göndərirdi. Bu zaman Şah Abbasın bu dövlətin hakiminə geniş məktubu və bir də çoxlu sayda qiymətli hədiyyələri elçi ilə yola Salınırdı.

Şah Abbas xarici dövlətlərin elçilərinə xüsusi diqqət və qayğı göstərirdi və onlarla birlikdə şəhər gəzintisinə də çıxırdı. Bu zaman Şah Abbas çox səmimi şəkildə söhbət edər və İsfahanın, onun baş meydanını və bazarının gözəlliyini qonaqlara göstərməyə çalışardı. Bununla Şah Abbas sadəliyini və səmimiyyətini də ortaya qoyardı. İtaliyalı səyyah P. Delavalle Şah Abbasın elçilərlə bir gəzintisinin şahidi olmuş və bu zaman müşahidə etdiklərini öz xatirələrində də qələmə almışdı. O yazırdı: "1018-ci il (1618-ci miladi ili) rəcəb ayının 6-da, çaharşənbə günü Şah Abbas öz qonaqları və digər adamlarla birlikdə qəhvəxanadan çıxdı və hamılıqla karvansarada qızıl və gümüş sikkələrin vurulduğu zərbxananın tamaşasına yollandılar. Qəhvəxanadan Qeysəriyyə darvazası tərəfdən Nəqşi-cahan meydanına getdik. Meydanın bu hissəsində kiçik bir su arxı var idi və onun suyu hovuza axırdı. Oradan da başqa bir arxla su meydanın dövrəsinə dolanırdı. Bir neçə dəqiqə bu yerdə dayandıq və çıraqlarla işıqlandırılmış meydana və çıraq işığının su arxında və hovuzunda yaratdığı gözəl mənzərənin seyrinə məşğul olduq. Sonra da Qeysəriyyə darvazasından bazara daxil olduq və bazarın ortasındakı zərbxanaya

yollandıq. Orada alovlana kürələri, böyük qazanları, qızıl və gümüş pulların sikkəsini istehsal edən işçiləri, hər tərəfdən nəzərə çarpan böyük qızıl və gümüş parçalarını tamaşa etdik. Şah bizi oradan Gilək və Lələbəy karvansarasına apardı. Bu gediş-gəliş zamanı şah adamlarla söhbət etmək və ya şərab içmək üçün dayanırdı. O cümlədən Trabzon ticarət rəisi Mək bəyin (?) dükanının qarşısında tamaşaya dayandı. Bu dükan Lələbəy karvansarasının sağ hissəsində ən böyük və ən əzəmətli bir dükan idi. Sonra da venesiyalı Aleksandr Skudendolinin dükanına yollandı. Bu dükan təsvirlərlə aynalarla, müxtəlif İtaliya malları ilə dolu idi. Şah onunla çox mehribanlıqla söhbət etdi. Dükanda İtaliya padşahlarına və böyüklərinə aid olan tabloları şah Hindistan elçisinə göstərdi və xahiş elədi ki, onlardan xoşu gələni seçsin və qiyməti haqqında düşünməsin. Şah söz verdi ki, qiymət məsələsində venesiyalı taciri o özü razı salacaqdır. Biz bu tabloların hər birini Romanın Navone meydanında bir ekoya (üç abbası) alırıq. Amma İranda onların hər birini ən azı on qızıl sikkəyə alırlar və belə də fikirləşirlər ki, ucuz alırlar. Hind elçisi isə heç nə seçmədi. Sonra şah Culfa ermənilərindən olan tanınmış tacir Xacə Nəzərin və adını bilmədiyim bəzi digər ermənilərin dükanları qarşısında dayandı. O dükandarın birindən xoşuna gələn bir şüşə şərab götürdü və sonra yoluna davam etdi. Bu hadisə erməni tacir üçün çox sevindirici bir hal idi. ...Şah bütün bu vaxt ərzində danışıb-gülürdü, öz qonaqları ilə, xüsusilə ispan və hind elçisi ilə zarafat edirdi. Bu padşah xeyli xoş xarakterlidir. Lakin əcib davranışı var. İspan elçisi mətin və vüqarlı bir insan idi. Şah ona baba (ata) deyə müraciət edirdi. O da şahın ehtiramına hörmətlə yanaşırdı. Hind elçisi isə əksinə, xeyli gülürdü, zarafat edirdi, şahla isə çox dostcasına hərəkətlər edirdi. Məsələn, bəzən əli ilə onun kürəyinə vururdu. Öz məmləkətinin adətinə uyğun sadə ağ geyimi var idi. Bəzi vaxtlar sanki onun qulağına nə isə deyirdi, çiyninə dayaqlanırdı, öz saçları ağardığı üçün şahı da gülə-gülə qoca adlandırırdı. Bir sözlə, elə hərəkətlər edirdi ki, onun şahla yaxınlığını göstərirdi. Amma əslində, hərəkətləri onun yüngüllüyünü, ədəbsizliyini, məs-

xərəbazlığını göstərirdi. Ola bilsin ki, o bu yolla şahın fitri təkəbbürlüyünü və etinasızlığını aradan qaldırmaq istəyirdi.

Moskva elçiləri mədəniyyətdən uzaq, gec başa düşən, ləng hərəkət edən adamlar idilər və elçilərin arxasınca hərəkət edirdilər. İnsanların izdihamı və təzyiqləri o qədər idi ki, onlardan başqa heç kimin taqəti çatmırdı. Çünki Moskva elçiləri hündür, güclü və dolu bədənli idilər. Onlar alçaq qamətli kiçik bədənli şahı top kimi havada atıb-tuta bilərdilər. Osmanlı elçisinə kimsə diqqət yetirmirdi. Ona görə də onun yaxşı xasiyyəti yox idi. Adamlar arasında tənha gedirdi və adamlar da ona etinasızcasına diqqət yetirirdilər. Zərbxanadan kənara çıxanda Moskva elçilərinin qəribə hərəkətlərinə görə adamlar Osmanlı elçisinə çox güclü təzyiq göstərdilər. O yerə yıxıldı və baş geyimi də yerə düşdü. Yanındakılar da onu tutub saxlamadılar. Mən də istəmədiyim halda, onun kimi yerə yıxılmamaq üçün ayağımı onun arxasına qoydum. Şah və saray mənsubları bu hadisəni görməzliyə vurdular. Lakin bazar camaatı çox güldülər. Osmanlı elçisi və onun adamları vüqarlı və ciddi olduqları üçün bu hadisədən çox qəzəbləndilər və incidilər. Lakin bunu hiss etdirmədilər.

Nəhayət belə bir əyləncə gəzintisi ilə bütün Ələbəy karvansarasını gəzdik və sonra yenə də Qeysəriyyə darvazasından meydana tərəf hərəkət etdik. Müxtəlif çıraqlarla dolu olan bazarın ayaqqabı, ətdar və bəzzaz dükanlarının olduğu digər hissələrindən yan keçdik. Şahın fərmanına əsasən meydandakı hovuzun yaxınlığında, yerdən pilləkənlərlə bir qədər hündür olan dairəvi yerdə süfrə açılmışdı. Hamı süfrə ətrafında oturdular. Şah isə adəti üzrə bu və ya digər tərəfə addımlayırdı və bir an da olsa sakitləşmirdi. Onun tanımayan adamlar güman edirdilər ki, nəzarətçi və ya da mehmandardır. Yorğun və az qala yuxulu olan ispan elçisi şahdan icazə aldı və evinə getdi.Bəziləri də onun ardınca getdilər. Bundan sonra şah xəbərsiz olaraq səltənət sarayına qayıtdı. Lakin digərləri səhərə qədər orada badə qaldırmaqla məşğul oldular" (477).

Şah Abbas xarici dövlətlərin elçiləri ilə belə əyləncə məclislərini tez-tez təşkil edirdi. Xalq bayramlarının təşkili zamanı da

elçilər kütləvi şənliklərə dəvət edilərdilər. Belə şənliklər də sonra ziyafət məclisləri ilə tamamlanardı. Bu dəvətlər zamanı Şah Abbas özünü sadə və səmimi bir insan kimi göstərirdi və xarici elçilərdə də onun səmimiyyətinə hər hansı bir şübhə yaranmırdı. Xarici dövlətlərin elçilərinin Şah Abbas tərəfindən ov mərasimlərinə dəvət edildiyi hallar da mövcud idi. Məsələn, təxminən iki il ərzində Səfəvi dövləti daxilində qalan hind elçisi Xanaləm dəfələrlə Şah Abbasla birlikdə ov mərasimində olmuş və Şah Abbasla birlikdə məmləkətin bir çox şəhərlərini və görməli yerlərini gəzmişdi. Belə tədbirlərin çoxunda Şah Abbas protokol rəsmiyyətini kənara qoyaraq sadə bir davranış nümayiş etdirdi və Xanaləmlə yaxın və köhnə bir dost kimi davrandı. Şah Abbas Xan aləmlə birlikdə küçə və bazarları gəzdi, insanların gündəlik həyatı ilə birlikdə tanış oldu, qəhvəxanaya baş çəkdi, rəsmi və qeyri rəsmi məclislərdə oldu. Hind elçisinə qarşı bağlılıq o dərəcədə artdı ki, Şah Abbas çox vaxt Xanaləmi Canaləm adlandırırdı. Bir sözlə Şah Abbasla hind elçisi arasındakı münasibətlər protokol normalarından kənara çıxırdı və bu münasibətlər daha çox qarşılıqlı hörmət üzərində quruldu.

7. İstifadə olunan mənbə və ədəbiyyat

1.Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə. Tehran, 1392, s.280; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti. Bakı, 2020, s.284

2. Сеидова Г. Азербайджан в торговых и политических взаимоотношениях Сефевидской империи и Русского государства в XVII веке (по русским источникам). Баку, Нурлан, 2004, с.38-39; Азимли Д., Гасымов Х. Роль Волжско-Каспийского торгового маршрута в экономической и культурной жизни Сефевидского государства http://bao.az/categories_Tarix/subcategories_azerbaycan-tarix/product_0810357372; Дзарасов А. А., Рябцев А. Л., Дзарасов А. О. Особенности восточной торговли России в

XVI веке. http://moscowstate.ru/osobennosti-vostochnoj-torgovli-rossii-v-xvi-veke/
3. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s.284; Kəcbaf Ə.Ə., Dehqannejad M., Çırağçi Q. Bərrəsi-ye əbad-e təhəvolat-e rəvabnet-e İran və Rusiye dər dövre-ye Səfəvi, s.4//Fəsilname-ye pəjuheşi-ye tarixi, N-1, 1397, s.1-18
4. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 281
5. Rəncbər M., Təvəkkülian Ə., Musəvi S.Ə. Rəvabet-e ticcari-ye İran və Rusiyə dər dövre-ye dovvom-e hökumət-e Səfəvi, s. //Fəsilname-ye tarix-e rəvabet-e xareci, N-51,1391, s.57-78
6. Дзарасов А. А., Рябцев А. Л., Дзарасов А. О. Особенности...
7. Азимли Д., Гасымов Х. Роль Волжско-Каспийского...
Дзарасов А. А., Рябцев А. Л., Дзарасов А. О. Особенности...
8. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s. 216
9. Bax: Süleymanov M. Səfəvilər. V. Şah Təhmasib. Bakı, 2020, s. 410-450
10. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 283
11. Алиев Ф. Азербайджано-русские отношения. Баку, 1985, с.30; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 286
12. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 284
13. Yenə orada, s. 285
14. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том I. С.-Петербург, 1890, с. 3-4; Сеидова Г. Азербайджан в торговых и политических взаимоотношениях Сефевидской империи, с. 49; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom. Tehtan, 1391, s.1068
15. Müəzzi N.H. Tarix-e rəvabet-e siyasi-ye İran ba donya. Cild I. Tehran, 1324, s.255; Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye

İran dər əhd-e Şah Abbas-e Əvvəl-e Səfəvi. Tehran, 1373, s.195
16. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 495
17. Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-e Əvvəl-e Səfəvi, s. 196
18. Müəzzi N.H. Tarix-e rəvabet-e siyasi-ye İran ba donya, s. 257
19. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 495; Müəzzi N.H. Tarix-e rəvabet-e siyasi-ye İran ba donya, s. 257
20. Camalzadə M. Tarix-e rəvabet-e rus və İran. Tehran, 1372, s. 117
21. Camalzadə M. Tarix-e rəvabet-e rus və İran, s.118; Müəzzi N.H. Tarix-e rəvabet-e siyasi-ye İran ba donya, s. 258
22. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1070; Nəcəfli T. I Şah Abbas dövründə Səfəvi dövləti ilə Moskva knyazlığı arasındakı münasibətlər Türkiyə tarixşünaslığında, s. 23//«Qarapapaqlar». - 2014. - №3.-S.-23 - 29.
23. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том I, s. 4-6
24. Camalzadə M. Tarix-e rəvabet-e rus və İran, s.119
25. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 496
26. Camalzadə M. Tarix-e rəvabet-e rus və İran, s.120; Müəzzi N.H. Tarix-e rəvabet-e siyasi-ye İran ba donya, s. 260
27. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 496
28. Camalzadə M. Tarix-e rəvabet-e rus və İran, s.120; Müəzzi N.H. Tarix-e rəvabet-e siyasi-ye İran ba donya, s. 261; Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-e Əvvəl-e Səfəvi, s.197
29. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том I, s. 7-8
30. Yenə orada, s. 8-9

31. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том I, s. 124; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1071; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 497
32. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том I, s. 126; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1071; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 497; Müəzzi N.H. Tarix-e rəvabet-e siyasi-ye İran ba donya, s. 262
33. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том I, s. 128-129
34. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том I, s. 130-131; Camalzadə M. Tarix-e rəvabet-e rus və İran, s.126
35. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том I, s. 132-133; Camalzadə M. Tarix-e rəvabet-e rus və İran, s.126-127
36. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том I, s. 134
37. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 498
38. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том I, s. 134-135; Camalzadə M. Tarix-e rəvabet-e rus və İran, s.127-128
39. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том I, s. 139
40. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том I, s. 141-142; Camalzadə M. Tarix-e rəvabet-e rus və İran, s.128; Müəzzi N.H. Tarix-e rəvabet-e siyasi-ye İran ba donya, s. 269
41. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том I, s. 143

42. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том I, s. 148-149;
43. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том I, s. 141-142; Camalzadə M. Tarix-e rəvabet-e rus və İran, s.128; Müəzzi N.H. Tarix-e rəvabet-e siyasi-ye İran ba donya, s. 269
44. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том I, s. 155; Müəzzi N.H. Tarix-e rəvabet-e siyasi-ye İran ba donya, s. 271; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 499
45. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том I, s. 158-160
46. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том I, s. 162; Müəzzi N.H. Tarix-e rəvabet-e siyasi-ye İran ba donya, s. 272
47. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том I, s. 158-160
48. Yenə orada, s. 169-171
49. Yenə orada, s. 171-173
150. Camalzadə M. Tarix-e rəvabet-e rus və İran, s.130-131; Müəzzi N.H. Tarix-e rəvabet-e siyasi-ye İran ba donya, s. 272; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 498
51. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том I, s. 174-176
52. Yenə orada, s. 177
53. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s.290
54. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том I, s. 179-182
55. Yenə orada, s. 182-184
56. Yenə orada, s. 185-186
57. Yenə orada, s. 187
58. Yenə orada, s. 188

59. Yenə orada, s. 190-192
60. Yenə orada, s. 192-193
61. Yenə orada, s. 198-201
62. Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-e Əvvəl-e Səfəvi, s.200; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 501
63. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том I, s. 211-212
64. Yenə orada, s. 214
65. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1074; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s.290
66. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том I, s. 221
67. Yenə orada, s. 225
68. Yenə orada, s. 226-227
69. Yenə orada, s. 228-233
70. Yenə orada, s. 248
71. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi). Bakı, 2010, s.935
71. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том I, s. 248
72. Yenə orada, s. 254-255
73. Yenə orada, s. 257-258
74. Yenə orada, s. 259-260
75. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1075-1076; Müəzzi N.H. Tarix-e rəvabet-e siyasi-ye İran ba donya, s. 278; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 502
76. Сеидова Г. Азербайджан в торговых и политических взаимоотношениях Сефевидской империи и Русского Государства, с. 43
77. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 503

78. Yenə orada, s. 503
79. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том I, s. 289
80. Yenə orada, s. 293-294
81. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том I, s. 295; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 503
82. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 503
83. Müəzzi N.H. Tarix-e rəvabet-e siyasi-ye İran ba donya, s. 281; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1077
84. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 506
85. Книга Орудж-бека Байата - Дон-Жуана Персидского. (Историко-географический трактат). Перевод с английского Октая Эфендиева, Акифа Фарзалиева. Баку, 1988, с.86
86. Yenə orada, s. 87
87. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том II. С- Петербург, 1892, с. 72
88. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 509
89. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том II, с. 137-143
90. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 509; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1079
91. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 510; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1080
92. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s.293
93. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 512

94. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 512; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1081-1082; Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-e Əvvəl-e Səfəvi, s. 204
95. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 513
96. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том II, с. 144-150
97. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 293
98. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1084
99. Yenə orada
100. Yenə orada
101. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 514; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1085-1086
102. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1087
103. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 294
104. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том II, с. 251; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 294; Бушев П.П. История посольств и дипломатических отношений русского и Иранского государств в 1613-1621 гг. Москва, Наука, 1987, с.20
105. Бушев П.П. История посольств и дипломатических отношений русского и Иранского государств в 1613-1621 гг. Москва, Наука, 1987, с.39, 48; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1088; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 295
106. Бушев П.П. История посольств и дипломатических отношений, s. 49

107. Yenə orada, s. 40
108. Yenə orada, s. 49-50
109. Yenə orada, s. 51-53
110. Yenə orada, s. 63-74
111. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том II, с. 289-290; Бушев П.П. История посольств и дипломатических отношений, s. 54-55; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 295
112. Бушев П.П. История посольств и дипломатических отношений, s. 58
113. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том II, с. 295-296; Бушев П.П. История посольств и дипломатических отношений, s. 62; Camalzadə M. Tarix-e rəvabet-e rus və İran, s.148
114. Бушев П.П. История посольств и дипломатических отношений, s. 90
115. Yenə orada
116. Yenə orada, s. 92
117. Yenə orada, s. 96
118. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 296
119. Бушев П.П. История посольств и дипломатических отношений, s. 127-129; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 518
120. Бушев П.П. История посольств и дипломатических отношений, s. 132-133
121. Yenə orada, s. 134
122. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 519
123. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том III. С- Петербург, 1898, с.274; Бушев П.П. История посольств и дипломатических отношений, s. 134-135

124. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том III, с.263-264; Бушев П.П. История посольств и дипломатических отношений, s. 135-136
125. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том III, с.286-287
126. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том III, с.295-297; Бушев П.П. История посольств и дипломатических отношений, s.140
127. Бушев П.П. История посольств и дипломатических отношений, s.143-144
128. Yenə orada, s. 147-150
129. Yenə orada, s. 152
130. Camalzadə M. Tarix-e rəvabet-e rus və İran, s.151
131. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том III, с.391
132. Yenə orada, s. 310
132. Бушев П.П. История посольств и дипломатических отношений, s.143
133. Camalzadə M. Tarix-e rəvabet-e rus və İran, s.151; Müəzzi N.H. Tarix-e rəvabet-e siyasi-ye İran ba donya, s. 292-293
134. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том III, с.300
135. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том III, с. 305-308; Бушев П.П. История посольств и дипломатических отношений, s.180-181
136. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том III, с. 365-368
137. Бушев П.П. История посольств и дипломатических отношений, s.192-195
138. . Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том III, с. 420-422; Бушев

П.П. История посольств и дипломатических отношений, s.195-197
139. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том III, с. 422-424; Бушев П.П. История посольств и дипломатических отношений, s.197-198
140. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi (Tarix-e aləmaraye Abbasi). II kitab. Çevirəni: Şahin Fazil. Bakı, 2014, s. 1674-1675
141. Səfərname-ye Pyetro Delavalle. Tehran, 1370, s. 424-430
142. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1093
143. Бушев П.П. История посольств и дипломатических отношений, s.198-199
144. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том III, с. 426-434; Бушев П.П. История посольств и дипломатических отношений, s.200-206
145. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Том III, с. 436-438; Бушев П.П. История посольств и дипломатических отношений, s.208-209
146. Бушев П.П. История посольств и дипломатических отношений, s.210-225
147. Yenə orada, s. 244-250
148. Yenə orada, s. 260
149. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi (Tarix-e aləmaraye Abbasi). II kitab, s. 1873
150. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 201; Parsadust M. Şah Təhmasib əvvəl. Tehran, 1381, s.403-404
151. Şəhriyar Nəqəvi. Nomayəndəqan-e siyasi-ye İran və Hindistan dər zəman-e səfəviyan və baburian, s.37-38//Bərrəsiha-

ye tarixi, N-6, sal-e həftom, s. 38-44; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 202

152. Şəhriyar Nəqəvi. Nomayəndəqan-e siyasi-ye İran və Hindistan dər zəman-e səfəviyan və baburian, s.39; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 202
153. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi, s. 809
154. Yenə orada, s. 809-810
155. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 222-223
156. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı. Doktora tezi. Ankara, 2011, s.219; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 230
157. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı. Doktora tezi. Ankara, 2011, s.220; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 230-231
158. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi, s. 810
159. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 405-406; Фарзалиев А., Мамедова Р. Дипломатические отношения между Сефевидским государством и империей великих моголов в конце XVI – первой четверти XVII в. http://www.vostlit.info/Texts/Dokumenty/Persien/XVI/1520-1540/Sefevid_Mongol/pred3.phtml?id=9615
160. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s.407
161. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi, s. 903
162. Yenə də orada, s. 904-905
163. Yenə orada, 906-907
164. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. I və II cildlər. Tehran, 1364, s.279
165. Yenə orada, s. 280

166. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s. 408-409; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. I və II cildlər. Tehran, 1364, s.280-287
167. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı, s.224-225; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 234-235
168. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi, s. 974-975
169. Фарзалиев А., Мамедова Р. Дипломатические отношения между Сефевидским государством и империей великих моголов в конце XVI – первой четверти XVII в...; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 235
170. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. I və II cildlər. Tehran, 1364, s.288-299
171. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi, s. 1073
172. Фарзалиев А., Мамедова Р. Дипломатические отношения между Сефевидским государством...
173. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 411
174. Фарзалиев А., Мамедова Р. Дипломатическиие отношения между Сефевидским государством...
175. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 236
176. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 414; Фарзалиев А., Мамедова Р. Дипломатические отношения между Сефевидским ...
177. Фарзалиев А., Мамедова Р. Дипломатические отношения между Сефевидским государством...
178. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı, s.227
179. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 796; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 413
180. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi). II kitab. Bakı, 2011, s. 1177-1178

181. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.796
182. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı, s.228
183. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.797-799
184. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı, s.228-229
185. Фарзалиев А., Мамедова Р. Дипломатические отношения между Сефевидским государством...
186. Yenə orada
187. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s.1284
188. Mənsuri Müqəddəm M., Quluzadə m, Əlləhi M. Əhəmiyyət-e stratejik Qəndəhar və təsir-e an bər rəvabet-e Səfəviyan ba Qurganiyan-e hind, s.130//Fəsilname-ye tarix-e rəvabet-e xarici, N-89, 1400, s.121-138
188a. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s.1725
189. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 416
190. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s.1405-1406
191. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı, s. 230-231
192. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 416
193. Фарзалиев А., Мамедова Р. Дипломатические отношения между Сефевидским государством...
194. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s.1549-1550
195. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 418
196. Фарзалиев А., Мамедова Р. Дипломатические отношения между Сефевидским государством...

197. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 419; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 240
198. Фарзалиев А., Мамедова Р. Дипломатические отношения между Сефевидским государством...; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 240; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.802
199. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.802
200. Фарзалиев А., Мамедова Р. Дипломатические отношения между Сефевидским государством...; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 240
201. Şah Abbasın Məhəmməd Rza Çələbi vasitəsilə Şah Səlimə (Cahangir şaha) göndərdiyi məktub, s.1286/ Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.1286-1287
202. Şah Abbasın üstürlabla bağlı Şah Səlimə məktubu, s. 1288/ Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.1288
203. The Tuzuk-i-Jahangiri or memoirs of Jahangir. Hürtford, Stepen Austin and suns ltd. (tarixsiz), s. 248
204. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı, s.234
205. Şah Səlimin Xanaləm vasitəsilə Şah Abbasa məktubu/ Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.1289-1291
206. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.804-805; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 421
207. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s.1672-1674
208. Səfərname-ye Pyetro Delavalle. Tehran, 1370, s.423- 424
209. Yenə orada, 427-429
210. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.806-807; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 422

211. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s.1725-1727
212. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı, s.235-236; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 242
213. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.807-808
214. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s.1690-1691
215. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.812; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 427
216. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s.1727; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 429
217. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.813
218. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s.1727-1728
219. Yenə orada, s. 1728-1729
220. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.815; Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı, s.238
221. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.814-815
222. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s.1729-1730
223. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 431
224. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s.1730-1731
225. Yenə orada, s.1731-1732
226. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 244
227. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.816

228. Cahangirnamə. Tüzükü Cahangiri. Tehran, 1359, s. 397-399
229. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı, s.118-119
230. Mənsuri Müqəddəm M., Quluzadə M., Əlləhi M. Əhəmiyyət-e stratejik Qəndəhar və təsir-e an bər rəvabet-e Səfəviyan ba Qurganiyan-e hind, s.132
231. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 433; Mehdəvi Ə.H. Tarix-e rəvabet-e İran. Əz ebteda-ye dövran-e Səfəvi ta payan-e cəng-e dovvom-e cahani. Tehran, 2525 (şah təqvimi), s. 96
232. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s.1764-1766
233. Cahangirnamə. Tüzükü Cahangiri. Tehran, 1359, s. 399-401
234. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 244-245
235. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı, s.119-120; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 245-246
236. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 823-824
237. Yenə orada, s.825-826
238. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.822
239. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s.1737
240. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 434
241. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı, s.121-122; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s. 246-247
242. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 434
243. Yenə orada, s.435
244. Yenə orada, s. 437
245. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 527

246. Tarix-e rəvabet-e İran ba Avropa dər əhd-e Səfəviyyə. Tərcüməçi Abbas Pərviz. Tehran, 1317, s.6; Sadeqi Z. Tarix-e İran dər əsr-e Səfəvi. Tehran, 1358, s.146
247. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 856;
248. Махмудов Я.М. Азербайджан и Европа: Взаимоотношения государств Аггоюнлу и Сефевидов с западноевропейскими странами. II половина XVI-начало XVII века. Москва, 2010, с. 275
249. Ələvi N.X. Rəvabet-e İran və Portuqal əz didqah-e səfərname-nevisan-e xareci-ye əsr-e Səfəvi, s.46-47 //Fəsilname-ye tarix-e rəvabet-e xareci, N-82, 1399, s. 33-56
250. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 861
251.Səfərname-ye Pyetro Delavalle. Tehran, 1370, s. 117
252. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 861
253. Seyvori R. Təhqiqat dər tarix-e İran-e əsr-e Səfəvi. Tehran, 1391, s.278
254. Книга Орудж-бека Байата - Дон-Жуана Персидского. (Историко-географический трактат). Перевод с английского Октая Эфендиева и Акифа Фарзалиева. Баку, 1988, с.78
255. Yenə orada
256. Книга Орудж-бека Байата - Дон-Жуана Персидского, s. 78; Tarix-e rəvabet-e İran ba portuqal dər əhd-e Səfəviyyə, s.8; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 862
257. Səfərname-ye bəradəran-e Şerli. Tehran, 1362, s.98
258. Belan L. Zendegi-ye Şah Abbas. Tehran, 1375, s. 134
259. Mehdəvi Ə.H. Tarix-e rəvabet-e xareci-ye İran. Tehran, 1369, s. 66
260. Səfərname-ye bəradəran-e Şerli. Tehran, 1362, s.100-101
261. Nakı Ə. Şah Abbas döneminde İspaniya-İran ilişkileri (1587-1629). Yüksek lisans tezi. Ankara, 2009, s. 112

262. Книга Орудж-бека Байата - Дон-Жуана Персидского, s. 78-79
263. Chronicle of the Carmelites in Persia and Papal mission of the XVIIth and XVIIIth centuries. Volume I, London, 1939, p.71
264. Chronicle of the Carmelites in Persia and Papal mission of the XVIIth and XVIIIth centuries, s. 72-73; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom , s. 864
265. Книга Орудж-бека Байата - Дон-Жуана Персидского, s. 96-97
266. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 868
267. Книга Орудж-бека Байата - Дон-Жуана Персидского, s. 98
268. Yenə orada, s. 99
269. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 870-871
270. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 533
271. Tarix-e rəvabet-e İran ba Avropa dər əhd-e Səfəviyyə, s.10-11; Rəvabet-e İran ba İspaniya və Portuqal dər əhd-e Səfəviyyə.
https://www.aftabir.com/articles/view/applied_sciences/geograohy_history/c12_1327754864p1.php/-روابط-ایران-با-اسپانیا-و-پرتغال-در-عهد-صفوی
272. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 535; Rəvabet-e İran ba İspaniya və Portuqal dər əhd-e Səfəviyyə.
273. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 534; Rəvabet-e İran ba İspaniya və Portuqal dər əhd-e Səfəviyyə.
274. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 873-874

275. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 534
276. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 535; Rəvabet-e İran ba İspaniya və Portuqal dər əhd-e Səfəviyyə...
277. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 875
278. Rəvabet-e İran ba İspaniya və Portuqal dər əhd-e Səfəviyyə...
279. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 876
280. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 536; Rəvabet-e İran ba İspaniya və Portuqal dər əhd-e Səfəviyyə...
281. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 539
282. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s.1207-1208
283. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 541; Rəvabet-e İran ba İspaniya və Portuqal dər əhd-e Səfəviyyə...
284. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 574; Mehdəvi Ə.H. Tarix-e rəvabet-e İran. Əz ebteda-ye dövran-e Səfəvi... s.74
285. Belan L. Zendegi-ye Şah Abbas, s.209
286. Blou D. Şah Abbas. Tehran, 1390, s.122
287. Yenə orada
288. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 541
289. Blou D. Şah Abbas, s.122
290. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 878-879
291. Blou D. Şah Abbas, s.123
292. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 879

293. Yenə orada, s. 879-880
294. Yenə orada, s. 880-881
295. Yenə orada, s. 882
296. Yenə orada, s.1306-1308
297. Yenə orada, s. 883
298. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 543
299. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 884; Tarix-e rəvabet-e İran ba Avropa dər əhd-e Səfəviyyə, s.12
300. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 543
301. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 548; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom , s. 886
302. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 548; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom , s. 887
303. Blou D. Şah Abbas, s.127
304. Yenə orada, s. 128
305. Yenə orada, s. 137
306. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 549
307. Blou D. Şah Abbas, s.137
308. Yenə orada
309. Səfərname-ye Pyetro de Lavalle. Tehran, 1370, s. 244-245
310. Yenə orada, s. 246
311. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 552
312. Blou D. Şah Abbas, s.148
313. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 893; Blou D. Şah Abbas, s.149

314. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 555; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom , s. 895
315. Səfərname-ye Don Qarsiya de Silva Fiquera. Səfir-e İspaniya dər dərbar-e Şah Abbas əvvəl. Tehran, 1363, s. 15-20
316. Səfərname-ye Pyetro de Lavalle, s. 308-309
317. Səfərname-ye Don Qarsiya de Silva Fiquera, s.261-262
318. Səfərname-ye Don Qarsiya de Silva Fiquera, s.262
319. Yenə orada, s. 265-266
320. Yenə orada, s. 267
321. Səfərname-ye Pyetro de Lavalle, s. 268
322. Yenə orada, s. 325
323. Səfərname-ye Don Qarsiya de Silva Fiquera, s.321
324. Səfərname-ye Pyetro de Lavalle, s. 256
325. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 557
326. Səfərname-ye Don Qarsiya de Silva Fiquera, s. 365
327. Yenə orada, s.366-368
328. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 903-904
329. Səfərname-ye Don Qarsiya de Silva Fiquera, s. 368-369
330. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 557
331. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 908; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 563
332. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 909
333. Tarix-e rəvabet-e İran ba Avropa. Tərcüməsi – Abbas Pərviz. Tehran, 1317, s. 14; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom , s. 912
334. Səfərname-ye Don Qarsiya de Silva Fiquera, s. 371
335. Yenə orada, s. 372
336. Yenə orada

337. Yenə orada, s. 374
338. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 565
339. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 913
340. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 566; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom , s. 914
341. Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-s əvvəl-e Səfəvi. Tehran, 1374, s. 65, 129; Seyvori R. Dər bab-e Səfəviyan. Tehran, 1380, s. 200;Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 934; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 578; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti. Bakı, 2020, s.348
342. Səfərname-ye bəradəran-e Şerli. Tehran, 1362, s. 22
343. Yenə orada, s. 40
344. Belan L. Zendegi-ye Şah Abbas. Tehran, 1375, s. 128-129
345.. Tehran, 1390, s.71-72
346. Səfərname-ye bəradəran-e Şerli, s. 70
347. Yenə orada, s. 79-80
348. Yenə orada, s. 81
349. Yenə orada, s. 82-83
350. Yenə orada, s. 84-85
351. Belan L. Zendegi-ye Şah Abbas, s.131
352. Yenə orada, s. 133
353. Blou D. Şah Abbas, s. 76
354. Səfərname-ye bəradəran-e Şerli, s. 98-99; Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-s əvvəl-e Səfəvi, s.69; Dər bab-e Səfəviyan, s. 200
355. Səfərname-ye bəradəran-e Şerli, s. 99
356. Dər bab-e Səfəviyan, s. 200; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 578
357. Səfərname-ye bəradəran-e Şerli, s. 101

358. Seyvori R. Təhqiqat dər tarix-e İran-e əsr-e Səfəvi. Tehran, 1391, s. 278; Dər bab-e Səfəviyan, s. 200; Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-s əvvəl-e Səfəvi, s.73
359. Səfərname-ye bəradəran-e Şerli, s. 134
360. Yenə orada, s. 135
361. Yenə orada, s.136
362. Yenə orada, s. 136-137
363. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 940
364. Blou D. Şah Abbas, s. 125
365. Yenə orada, s. 126
366. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 941-942
367. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 582; Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-s əvvəl-e Səfəvi, s. 130
368. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom , s. 942; Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-s əvvəl-e Səfəvi, s. 130
369. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom , s. 943; Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-s əvvəl-e Səfəvi, s. 130
370. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom , s. 943-944; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 583
371. Belan L. Zendegi-ye Şah Abbas, s.151; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom , s. 945, 1309;
372. Blou D. Şah Abbas, s. 148
373. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 584; Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-s əvvəl-e Səfəvi, s. 133
374. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 585

375. Səfərname-ye Pyetro de Lavalle, s. 116
376. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 587-590
377. Yenə orada, s. 590
378. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 953
379. Səfərname-ye bəradəran-e Şerli, s. 141-142
381. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan-e İran ba Avropa, s.25
383. Səfərname-ye bəradəran-e Şerli, s. 144-145
dər əhd-e Səfəviyyə, s. 597
382. Belan L. Zendegi-ye Şah Abbas, s.305; Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-s əvvəl-e Səfəvi, s. 139;
384. Yenə orada, s. 146-147
385. Yenə orada, s. 147
386. Yenə orada, s. 148
387. Yenə orada, s. 149
388. Səfərname-ye bəradəran-e Şerli, s. 149; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 600
389. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 964
390. Yenə orada, s. 965
391. Səfərname-ye bəradəran-e Şerli, s. 157
392. Yenə orada, s.159-160
393. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 965-968
394. Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-s əvvəl, s. 215
395. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1112
396. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan-e İran ba Avropa, s.25

397. Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-s əvvəl, s. 218
398. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1112
399. Yenə orada, s. 1116
400. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan-e İran ba Avropa, s.655
401. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1117
402. Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-s əvvəl, s. 221
403. Səfərname-ye Pyetri Delavalle, s. 421
404. Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-s əvvəl, s. 162
405. Книга Орудж-бека Байата - Дон-Жуана Персидского, s.93-94
406. Blou D. Şah Abbas, s. 81; Tarix-e rəvabet-e İran ba Avropa dər əhd-e Səfəviyyə, s.87; Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-s əvvəl, s. 162
407. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan-e İran ba Avropa, s.661
408. Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-s əvvəl, s. 164-165
409. Tarix-e rəvabet-e İran ba Avropa dər əhd-e Səfəviyyə, s.49; Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-s əvvəl, s. 165
410. Georq Tektander fon der Yabel. İterpersikum. Tehran, 1351, s.50
411. Yenə orada, s. 53-54
412. Yenə orada, s. 65
413. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 978
414. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan-e İran ba Avropa, s.663

415. Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-s əvvəl, s. 143
416. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan-e İran ba Avropa, s.670
417. Yenə orada, s. 670-671
418. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s.353; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1098
419. Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-s əvvəl, s. 125; Tarix-e rəvabet-e İran ba Avropa dər əhd-e Səfəviyyə, s.29
420. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1099-1101; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan-e İran ba Avropa, s.673-675; Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-s əvvəl, s. 146-150
421. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan-e İran ba Avropa, s.675-676; Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-s əvvəl, s. 150-151
422. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan-e İran ba Avropa, s.677
423. Yenə orada, s. 678
424. Nəvayi Ə. Rəvabet-e siyasi və iqtisadi-ye İran dər dövre-ye Səfəvi. Tehran, 1383, s.165
425. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s.354; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1103; Tarix-e rəvabet-e İran ba Avropa dər əhd-e Səfəviyyə, s.30
426. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s.354; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1103-1104; Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-s əvvəl, s. 153
427. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1104

428. Yenə orada, s.1105-1106
429. Книга Орудж-бека Байата - Дон-Жуана Персидского, s. 94-95
430. Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-s əvvəl, s. 240-241
431. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s.313-314
432. Yenə orada, s. 314
433. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan-e İran ba Avropa, s.615; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s.314; Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-s əvvəl, s. 243
434. Giorgio Rota. Persia and the Republic on Venice on over-view, p. 582//The turks. Middle ages, N-2, s. 580-587
435. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan-e İran ba Avropa, s.615
436. Giorgio Rota. Persia and the Republic on Venice on over-view, p. 582; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan-e İran ba Avropa, s.615; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s.314
437. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan-e İran ba Avropa, s.616
438. Книга Орудж-бека Байата - Дон-Жуана Персидского, s. 96
439. Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-s əvvəl, s. 228
440. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1149
441. Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-s əvvəl, s. 230
442. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan-e İran ba Avropa, s.644
443. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1152

444. Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-s əvvəl, s. 231; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan-e İran ba Avropa, s.644
445. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1153-1154
446. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1153-1154; Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-s əvvəl, s. 232
447. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1157-1158; Vilayəti Ə.Ə. Tarix-e rəvabet-e xareci-ye İran dər əhd-e Şah Abbas-s əvvəl, s. 233
448. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan-e İran ba Avropa, s.649
449. Yenə orada, s. 647
450. Xəmiri Ə.B. Adab və təşrifat-e səfarət dər İran-e dövre-ye Səfəviyyə. s. 2. http://rdch.ir/article-1-68-fa.html
451. Yenə orada
452. Yenə orada
453. Yenə orada
454. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s.1405-1406
455. Yenə orada, s. s.1764-1766
456. Xəmiri Ə.B. Adab və təşrifat-e səfarət dər İran-e dövre-ye Səfəviyyə. s. 3
457. Yenə orada, s. 4
458. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 549
459. Mehdəvi Ə.H. Tarix-e rəvabet-e xareci-ye İran. Tehran, 1369, s. 66
460. Səfərname-ye Pyetro Delavalle, s. 56-57
461. Yenə orada, s. 182
462. Səfərname-ye Don Qarsiya de Silva Fiquera, s.262
463. Бушев П.П. История посольств и дипломатических отношений, s.192-195

464. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.776
465. Səfərname-ye Don Qarsiya de Silva Fiquera, s.233
466. Yenə orada s.239-240
467. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.779-783
468. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s.1672-1674
469. 469. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1070; Nəcəfli T. I Şah Abbas dövründə Səfəvi dövləti ilə Moskva knyazlığı arasındakı münasibətlər Türkiyə tarixşünaslığında, s. 23//«Qarapapaqlar». 2014, №3, s. 23 - 29.
470. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 534
471. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik İran və cahan dər əhd-e Səfəviyyə, s. 541
472. Səfərname-ye bəradəran-e Şerli, s. 169
473. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s. 1070; Nəcəfli T. I Şah Abbas dövründə Səfəvi dövləti ilə Moskva knyazlığı arasındakı münasibətlər Türkiyə tarixşünaslığında, s. 23//«Qarapapaqlar». - 2014. - №3.-S.-23 - 29.
474. Blou D. Şah Abbas, s.122
475. Бушев П.П. История посольств и дипломатических отношений, s.198-199; Səfərname-ye Pyetro de Lavalle, s. 325
476. Səfərname-ye Don Qarsiya de Silva Fiquera, s. 325
477. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas Əvvəl. Cild dovvom, s.788-790

II FƏSİL
ŞAH ABBAS DÖVRÜNDƏ ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT

1.Şah Abbasın hakimiyyəti illərində ədəbiyyat

Şah Abbasın hakimiyyəti illərində ədəbiyyatın, incəsənət və mədəniyyətin yeni bir səhifəsi açılmışdır. Səltənətin bütün həyatını bürüyən yeniləşmə və inkişaf ədəbiyyatın və incəsənətin inkişafına da müsbət təsir göstərirdi. Xüsusilə tətbiqi sənət və memarlıq sahəsində yaradılmış olan sənət əsərləri bu gün da dünyanın ən gözəl yaradıcılıq nümunələri sırasında özünə yer tutmaqdadır.

Şah Abbasın özündə yaradıcı bir təfəkkür və istedad var idi. Bu istedad həm söz yaradıcılığı, həm də tətbiqi sənət sahələrində özünü göstərirdi. Bunun nəticəsi idi ki, Şah Abbasın hakimiyyəti illərində yaradıcı insanlara qarşı diqqət və qayğı da kifayət qədər geniş idi.

Şah Abbas dövrünün bədii yaradıcılığında diqqəti cəlb edən bir sıra məqamlar özünü göstərməkdədir. Bunlardan biri bədii təfəkkürün ifadəsində Azərbaycan türk dilinin üstün təsirinin olması idi. Şah Abbasın hakimiyyəti illərində Azərbaycan türk dilinin saray və ictimai həyatda üstün mövqeyə malik olması və bunun səbəbləri haqqında əvvəlki tədqiqatlarda geniş təhlil və fikir ortaya qoyulmuşdur (1). Azərbaycan türk dilinin siyasi, hərbi, ictimai həyatda və bədii yaradıcılıqda üstün təsirə malik olmasını əslində, mövzunun farsdilli araşdırmaçıları da etiraf edirlər (2). Doğrudur, Azərbaycan türkcəsinin Səfəvi dövləti hüdudlarında istifadəsinin əhəmiyyətini azaltmaq üçün bu araşdırmaçılar fars kökənli Azəri dilinin tarixən mövcudluğu məsələsini də ortaya atırlar və bu zaman Azərbaycan (Cənubi) əhalisinin Azəri dilində danışdığını iddia edirlər. Amma Azərbaycan türkcəsi yalnız Azərbaycan (Cənubi) arealında yayılmış bir dil deyildi. Onun yayılma coğrafiyası hətta tarixi Azərbaycan coğrafiyası hüdudlarını da aşırdı. Azərbaycan türkcəsinin bədii ədəbiyyatda üstün yeri söz yaradıcılığında həm də türk təfəkküründün güclənməsinə yol acırdı.

Türkdilli ədəbiyyatın inkişafı Şah Abbasın da hakimiyyəti illərində farsdilli ədəbiyyatın kölgədə qalmasına səbəb olmuşdu. İran ədəbiyyatının nüfuzlu tədqiqatçılarından olan Braun hətta Səfəvilər dövründə tanınmış şairlərin yoxluğunu zamanın qəribəliklərindən biri kimi xarakterizə edirdi. Tanınmış şairlərin yoxluğundan danışarkən müəllif farsdilli şairlərin olmamasını nəzərdə tuturdu. Azərbaycan türkcəsində yazıb yaradan çoxlu sayda söz ustalarını isə Braun diqqətdən kənarda saxlamışdı (3). Halbuki dövrün ədəbi mənzərəsi məhz türkdilli söz ustaları tərəfindən müəyyənləşirdi. Şah Abbasın hakimiyyəti illərində fars dilində yazıb-yaradan söz ustalarının mövcudluğunu inkar etmək düzgü olmazdı. Bununla belə, bu dövr ədəbiyyatının inkişafında türkdilli ədiblərin xidmətləri daha böyük idi.

Farsdilli müəlliflərdən biri isə bu məsələ ilə bağlı belə bir fikir ortaya qoyurdu ki, Səfəvi hakimiyyəti illərində "fars dili tarixdə islamdan sonra ən yüksək nöqtəsinə çatdı. Amma qəribədir ki, sənətin və başqa sahələrin inkişafda olduğu bu dövrdə şer və yazıçılıq ədəbiyyatında tanınmış bir adam meydana gəlmədi" (4). Müəllif bir tərəfdən haqlıdır ki, Şah Abbasın hakimiyyəti illərində farsdilli ədəbiyyatın diqqəti cəlb edəcək bir nümunəsi meydana gəlmədi. Lakin bu dövrün ədəbiyyatı yalnız fars dilində yaradılan ədəbiyyat deyildi. Azərbaycan türkcəsinin üstün yerə malik olduğu bir mühitdə türkdilli ədəbiyyatın çox geniş inkişaf edə biləcəyi daha təbii idi və müəllif də nədənsə türkdilli ədəbiyyatı Səfəvi dövrü ədəbiyyatına daxil etmək istəmir. Əslində, bu yanaşma farsdilli tarixşünaslığa xas olan yanlış və qərəzli bir yanaşmadır və belə yanaşma ilə dövrün ədəbi mənzərəsinə obyektiv qiymət vermək də çətindir. Bu müəllif öz yazısının bir yerində Şah Abbas haqqında belə yazırdı: "Onu islamdan sonra İranı dirildən biri kimi tanımaq olar. O, İranın islamdan əvvəlki, sasanilər dövrünün sərhədlərini bərpa etdi, bu dünyada qüdrətli və mərkəzləşdirilmiş bir dövlət yaratdı". Doğrudur, bir Azərbaycan türkü kimi Şah Abbas hazırkı İranın sərhədlərinin formalaşmasında tarixi rol oynamışdır. Amma Şah Abbas itirilmiş ərazilərin geri qaytarılması za-

manı sasanilər sərhədlərini deyil, ulu əcdadı Şah İsmayıl Səfəvi tərəfindən fəth edilmiş sərhədlərin bərpasını qarşısına məqsəd qoymuşdu. Onun Osmanlı sarayı ilə apardıqları sülh müzakirələrinin də əsasını məhz Səfəvi sərhədlərinin bərpası təşkil edirdi. Məmləkəti diriltməyə çalışanda da Şah Abbas məhz əcdadlarından ona miras qalmış Səfəvi səltənətinin dirildilməsini qarşısına məqsəd qoymuşdu. Şah Abbasın bu istiqamətdəki dövlətçilik fəaliyyətinin hansısa bir tarixi İranın dirildilməsi naminə edilməsi haqqında mənbələrdə tutarlı bir fakta rast gəlmək də çətindir.

Onun ədəbiyyata diqqəti də əslində, əcdadlarının hakimiyyəti illərində yaranmış ədəbi ənənənin yenidən canlandırılması istəyindən irəli gəlirdi. Elə bu diqqətin və yaradıcı mühitin formalaşmasına göstərilən qayğının nəticəsi idi ki, Şah Abbasın hakimiyyəti illərində ənənəvi janrlarla bərabər, xalq yaradıcılığı da çox geniş yayılmışdı. Klassik şerin inkişafında Nəsimi, Füzuli, Şah İsmayıl Xətai kimi böyük söz ustalarının təsiri dövrün ədəbi mühitində açıq şəkildə hiss edilməkdə idi. Bununla yanaşı, xalq yaradıcılığı da ədəbi yaradıcılığın ayrıca bir qolu kimi uğurla inkişaf etdirilməkdə idi. Təsadüfi deyil ki, araşdırmaçılar da XVII əsri Azərbaycan şifahi ədəbiyyatının daha çox inkişaf etdiyi bir dövr kimi qiymətləndirirlər. Bildirilir ki, XVII əsrin əvvəllərindən başlayaraq aşıq ədəbiyyatının genişlənməsi istiqamətində yaradıcı addımlar atılmışdı. (5). Başqa bir araşdırmaçının fikrincə isə Azərbaycan ədəbiyyatının məlum inkişaf tarixində xalq yaradıcılığı bu dövrdəki qədər zəngin və məzmunlu bədii təfəkkür məhsulları yetişdirməmişdi. Bu dövrdə xalq ədəbiyyatı həm forma-şəkil və janr baxımından zənginləşib, həm də mövzu, ideya-məzmun baxımından yeni keyfiyyətlər və uğurlar əldə edib. Şah Abbasın hakimiyyəti illərində həm də Azərbaycan ədəbiyyatının qüdrətli yaradıcı şəxsiyyətləri yetişib, möhtəşəm və mükəmməl sənət abidələri meydana gəlib (6). Yəni belə bir inkişaf üçün səltənət daxilində yaradıcı mühit mövcud idi.

Şah Abbas hakimiyyəti illərində mövcud olan xalq yaradıcılığının ən mükəmməl nümunələrindən biri Koroğlu dastanı idi. Bu

dastan öz bədii məzmununa və mükəmməlliyinə görə dünya folklorunun ən yaxşı nümunələri sırasında dayanmağa layiq olan bir əsərdir. Tarixdən bəlli olduğu kimi, Koroğlu dastanı XVI əsrin sonlarında Osmanlı Türkiyəsi ərazisində meydana gəlmiş Cəlali hərəkatı ilə bağlı olan bir folklor əsəridir. Sovet tarixşünaslığında və ədəbiyyat tarixində Cəlalilər hərəkatı xalq hərəkatı kimi təqdim olunsa da, əslində, bu hadisəyə belə birmənalı yanaşılması heç də doğru olmazdı. Aparılmış tədqiqat da bunu təsdiq edir (7).

İdeoloji qaynaqları mübahisə doğursa da, Koroğlu dastanı forma və məzmun mükəmməlliyi, habelə həcminin böyüklüyü ilə seçilən bir sənət nümunəsidir. Bu dastanda çox geniş coğrafiyada cərəyan edən hadisələrin bədii ifadəsi öz əksini tapmışdır. Əsərdə mövzunun dinamik inkişafını müşahidə etmək mümkündür. Elə bu cəhət özü də dastanın tamlaşmasına, bütövləşməsinə zəmin yaradan bir amildir.

Koroğlu dastanının bədii-tarixi dəyərini artıran cəhətlərdən biri onun tamamilə türk həyatını əks etdirməsidir. Dastan bölgənin coğrafiyasında üstün ictimai-siyasi və hərbi fəallığa malik olan türklərin həyat tərzini, həyata münasibətini, haqq-ədalət uğrunda fəal mübarizəsini bədii ifadələrlə öz oxucularına çatdırmaqdadır. Əsərin qəhrəmanları türk tayfalarının təmsilçiləridir, bu qəhrəmanların mübarizə apardıqları qarşı tərəf də türk dünyasıdır. Koroğlu dastanı Şah Abbasın hakimiyyəti dövründə türk xalqlarının bölgənin həyatında aparıcı rola malik olmasının bədii təsdiqidir. Bu mənada Koroğlu dastanının bədii məzmunu ilə tarixi reallıq arasında bir bağlılıq vardır.

Koroğlu dastanın ictimai-tarixi əhəmiyyətini özündə əks etdirən məqamlardan biri də sözsüz ki, xanımların ictimai həyatdakı gerçək rolunun qələmə alınmasıdır. Dastanın xanım qəhrəmanları kifayət qədər sərbəst, dövrünün məişət çərçivələrindən və düşüncələrindən kənara çıxan, kişilərlə birlikdə ictimai həyatda fəallıq nümayiş etdirən insanlardır. Onlar əsasən türk xanımlarıdır, at çapmaqda, mübarizlikdə heç də dastanın kişi qəhrəmanlarından geri qalmırlar. Şah Abbasın həyatından bəllidir ki, səltənət daxi-

linə xanımların heç də hamısı belə sərbəst və azad deyildilər. Hətta Şah Abbas İsfahan meydanında və ya bazarında xanımlar üçün xüsusi günlər və mərasimlər təşkil edirdi ki, belə tədbirlərdə yalnız xanımlar iştirak etsinlər. Onların sərbəstliyini təmin etmək üçün belə tədbirlərə kişilər buraxılmırdı. Lakin kifayət qədər sərbəst olan xanımlar da az deyildi. Yuxarıda yazılanlardan bəllidir ki, bəzi vaxtlar Şah Abbası üzü açıq xanımlar at belində müşayiət edirdilər. Yəni Koroğlu dastanında türk xanımlarının sərbəstliyi haqqında yazılanlar heç də ədəbi təxəyyülün məhsulu deyildi. Bu mövzu elə dövrün gerçəkliyindən doğurdu.

Koroğlu dastanının dilinin son dərəcə sadə, anlaşıqlı, saf olması onun başqa bir dəyərli cəhətidir. Bu dastanda dilin saflığı, təmizliyi və sadəliyi ədəbi dil çərçivəsindən kənara çıxan bir məsələdir. Dastanın oxunması onu göstərir ki, Şah Abbasın hakimiyyəti illərində Azərbaycan türkcəsi kifayət qədər formalaşmış olan mükəmməl bir ifadə vasitəsi idi. Əslində, Azərbaycan türkcəsinin mükəmməl bir ifadə vasitəsi kimi formalaşması daha qədim tarixlərə malikdir. Şah Abbas dövrünə isə ona görə bir daha istinad edilir ki, hətta onun hakimiyyəti illərində də Azərbaycan sakinlərinin dilinin başqa dil olmasını yazanların (8) iddialarının gerçəklikdən kənar olduğunu görmək olar. Bu mənada Koroğlu dastanının dili dövrün tarixi şəraitinin qiymətləndirilməsi üçün həm də ictimai-siyasi məna kəsb edir.

Dastanda öz əksini tapmış ümumi məzmunun dövrün tarixi reallığı ilə bağlılığı da bu əsərin diqqəti cəlb edə biləcək məqamlarından biridir. Koroğlu və onun ətrafına toplaşmış olan həmkarları əsasən Osmanlı hakimlərinə və Osmanlı hakimiyyətini Azərbaycan ərazisində təmsil edən xanlar və bəylərə qarşı mübarizə aparırdılar. Bəllidir ki, Şah Abbas hakimiyyətə gələndə Azərbaycanın böyük bir hissəsi Osmanlı nəzarəti altında idi. O, 1603-cü ildən başlayaraq təxminən on il ərzində Azərbaycan torpaqlarının Osmanlı nəzarəti altından çıxarılması uğrunda savaş apardı. Bu savaşda xalq kütlələri də Şah Abbasın bu mübarizəsini yaxından dəstəkləyirdi. Koroğlu dastanında əksini tapmış hadisə-

ləri həm də Azərbaycan xalqının Şah Abbasın bayrağı altında aparılan mübarizənin ümumi gedişinə göstərdiyi dəstəyin bədii ifadəsi kimi də qəbul etmək mümkündür.

Koroğlu dastanının nəsr hissəsi dövrün təhkiyəçiliyinin ən yaxşı nümunəsi olduğu kimi, çox saylı nəzm parçaları da aşıq şerinin ən yaxşı nümunələri hesab edilə bilər. Bu dastanın meydana gəlməsi Azərbaycan xalq yaradıcılıq məktəbinin inkişafında yeni bir hadisə idi və Şah Abbas hakimiyyəti illərində meydana gəlmiş həmin əsər bu gün də öz bədii dəyərini qoruyub saxlamaqdadır. Koroğlu dastanının bədii məziyyətləri onu deməyə imkan verir ki, yalnız bu əsərin mövcudluğu Şah Abbas dövrünün ədəbi mühitinin səmərəsizliyi haqqında istənilən iddianın üzərindən xətt çəkmək mümkün olsun.

Şah Abbas hakimiyyəti illərində yaradıcı mühitin olması dastançılıq yaradıcılığında yeni-yeni əsərlərin meydana gəlməsinə yol açdı. Onlardan biri "Şah İsmayıl" dastanı idi. Araşdırmaçıların fikrincə, bu dastanın iki variantı mövcuddur. Birinci variant I Şah İsmayıl Səfəviyə həsr olunmuş dastandır. Lakin bu dastan bütöv şəkildə mövcud deyildir. Dastanın yalnız bəzi hissələri elm aləminə tanışdır. Ədəbi dövriyyədə olan ikinci variantın isə II Şah İsmayılın həyatı ilə bağlı olduğu güman edilir (9). Şah İsmayıl dastanının məzmunu elədir ki, bu dastanın I Şah İsmayıl və II Şah İsmayılın həyatı ilə bağlı olan real faktlara rast gəlmək mümkün deyildir. Mövzunun adı Şah İsmayıl ilə bağlı olsa da, onun məzmunu xalq təxəyyülündən irəli gələn ideya üzərində qurulmuşdur. Bu dastanın da ədəbi-tarixi baxımından başlıca əhəmiyyəti onun mövcudluğunun Şah Abbasın hakimiyyəti illərində ədəbi yaradıcılığın yüksək səviyyədə olmaşı ilə bağlı əlavə bir sübuta çevrilməsidir. Bu dastanın da dili çox sadə, anlaşıqlı və ifadəlidir. Dastan həmçinin Azərbaycan türkcəsinin yüksək inkişaf səviyyəsində olmasının göstəricisidir. Məzmununa gəldikdə, mütəxəssislər onu daha çox II Şah İsmayılın həyatı ilə bağlamağa meyllidirlər.

Şah İsmayıl dastanının diqqət cəlb edə biləcək məqamlarından biri də onun qadın qəhrəmanı olan Ərəb Zənginin kişilərlə bir sə-

viyyədə qılınc vurmaq, qurşaq tutmaq bacarığı nümayiş etdirməsidir. Çox böyük ehtimalla, bu surət dövrün xanımları arasında mövcud olan cəngavərlik meyllərinin bədii ifadəsidir. Yəni dastan yaradılan zaman Ərəb Zəngi surətinin prototiplərinin həyatda mövcud olmasını istisna etmək olmaz.

XVII əsrdə yaradıldığı bildirilən dastanların biri də "Aşıq Qərib" dastanıdır (10). Məlumdur ki, dastanların meydana gəlməsinin konkret tarixini söyləmək mümkün deyildir. Öz həcmi və janr tələbləri baxımından dastanların yaradılması, onların formalaşdırılması müəyyən bir vaxt tələb edir. "Aşıq Qərib" dastanının da formalaşdırılmasına başlanmasının Şah Abbasın hakimiyyəti illərində baş verməsi istisna deyildir. Bu dastan məhəbbət dastanıdır. Belə bir dastanın da meydana gəlməsi üçün Şah Abbasın hakimiyyəti illərində yaradıcı ədəbi mühit mövcud idi.

Şah Abbasın bir obraz kimi iştirak etdiyi dastan da mövcuddur. Bu dastan "Abbas və Gülgəz" dastanıdır. Bu dastanın Şah Abbasın müasiri olmuş aşıq Abbas Tufarqanlı tərəfindən yaradıldığı ehtimal edilir. Şah Abbas obrazının dastanda olması və dastanın sonunda onun tərəfindən ədalətin bərpa olunması onu deməyə imkan verir ki, bu dastan elə Şah Abbasın hakimiyyəti illərində meydana gəlmişdir. Doğrudur, sovet ideologiyasının tələbləri və təsirləri çərçivəsində aparılmış bəzi tədqiqatlarda Şah Abbasın bu dastandakı obrazının təhlilindən daha çox, tarixşünaslıqda mövcud olan yanlış yanaşma əsasında Şah Abbasın şəxsiyyətinin qiymətləndirilməsinə yol verilsə də, bəzi tədqiqatçılar isə bu obrazın daha obyektiv təhlilinə üstünlük vermişlər (11). Bu yanaşmanın müəllifi olan tədqiqatçı xalq yaradıcılığının bir sıra nümunələrində Şah Abbasın ədalətli şah kimi müsbət obrazı yaradıldığını qeyd etməklə, bir çox hallarda onun aparılan tədqiqatlarda mənfi obrazının yaradıldığını təsdiq edirdi. Əslində, "Abbas və Gülgəz" dastanında Şah Abbasın qəddarlığını, haqsızlığını göstərəcək epizodlar yoxdur. Doğrudur, bu əsərdə dastançılığın və bədii süjetin tələblərinin gözlənilməsi məzmuna öz təsirini göstərib. Bununla belə, dastanın sonunda Şah Abbasın ədaləti mövqeyi haqq aşığı olan

Abbasın öz sevgilisinə qovuşmasına səbəb olur. Dastanın sonunda deyilir: "Şah Abbas vəzir-vəkili çağırıb dedi:

-Abbas haqq aşığıdır, onu sevgilisini əlindən alsaq bəlaya düşərik. Bütün sınaqlardan çıxdı. Onu öldürməyib Pərini özünə verirəm, nə deyirsiniz?

Dedilər:

-Şah sağ olsun, hamımız razıyıq. Aşığı incitmək olmaz.

Şah əmr elədi, Abbası gətirdilər. Şah Abbas ona dedi:

-Aşıq, sevgilini özünə verirəm. Ya bizim ölkədə qal, ya da öz ölkənə get" (12).

Haqqında danışılan bu dastanlar da onu deməyə əsas verir ki, Şah Abbasın hakimiyyəti illərində xalq yaradıcılığının bu janrının inkişafına yaradıcı bir mühit mövcud idi və bu mühit Azərbaycan dastan yaradıcılığının sonrakı inkişafına da öz təsirini göstərmişdi. Bütünlükdə, Səfəvilər dövrü Azərbaycan dastan yaradıcılığının ən məhsuldar dövrü hesab edilə bilər ki, bu dastanlar Səfəvi arealında söz yaradıcılığına verilən dəyərin bir təsdiqidir.

Şah Abbasın hakimiyyəti illəri həm də xalq aşıq yaradıcılığının inkişaf illəridir. Bu yaradıcılıq sahəsinin istedadlı təmsilçiləri də az deyildir və onların şəxsində aşıq yaradıcılığı da inkişafının yeni bir dövrünə qədəm qoymuşdu. Xalq aşıqlarının yetişməsi bir tərəfdən bu sənət sahəsinə xalq arasında mövcud olan meylin və marağın nəticəsi idi. Digər tərəfdən isə bu yaradıcılıq sahəsinin inkişafı türk xalq ədəbi mühitinin zənginliyinin göstəricisi idi. Aşıq sənəti və aşıq yaradıcılığı əsasən, türk həyatı ilə bağlıdır və Şah Abbas dövrünün aşıq yaradıcılığı bütünlükdə ozan sənətinin yeni bir səviyyəyə qalxmasına güclü təkan göstərdi. Bu mənada Şah Abbas dövründə daha da kamilləşən və mükəmməlləşən aşıq yaradıcılığının dünya folklorunun ən dəyərli nümunələrindən biri kimi qəbul edilə bilər.

Şah Abbas aşıqlıq məktəbinin formalaşmasına heç şübhəsiz ki, Qurbaninin yaradıcı təsiri olmuşdu. Aşıq Qurbani I Şah İsmayılın və Şah Təhmasibin hakimiyyəti illərində yaşasa da, o öz istedadı ilə aşıq yaradıcılığında güclü bir məktəbin əsasını qoydu və bu

məktəbin ən yaxşı davamçıları da Şah Abbasın hakimiyyəti illərində söz yaradıcılığına başladılar. Belə söz ustadlarından biri Sarı Aşıq kimi tanınan Aşıq Abdulla idi (13). O özünün bütün yaradıcılığı ilə Aşıq Qurbani tərəfindən əsası qoyulmuş Təbriz aşıq məktəbinin təsiri altında olduğunu göstərirdi. Sarı Aşıq çox qısa həyatı dövründə çox dəyərli bir ədəbi irs qoyub getmişdir və bunun nəticəsi kimi, bu gün də Azərbaycan aşıq sənətinin ən istedadlı nümayəndələrindən biri hesab edilir.

Şah Abbas dövrünün ən istedadlı aşıq nümayəndələrindən biri də Abbas Tufarqanlıdır. Araşdırmaçılar onun yaradıcılığını Azərbaycan aşıq sənətinin intibah dövrü kimi dəyərləndirirlər. Onun şerləri XVII əsr Azərbaycan ictimai-siyasi həyatının və məişətinin güzgüsü hesab edilir. Abbas Tufarqanlının qələmə aldığı yaradıcılıq nümunələrində yaşadığı dövrün gerçəkliklərini, türk məişətinin ən kiçik detallarını müşahidə etmək mümkündür. O, həm dini mövzuda əsərlər, həm də bəşəri və məhəbbət mövzularında son dərəcə axıcı və məzmunlu sənət nümunələri yaratmışdır. Onların arasında daha çox məhəbbət və bəşəri mövzuda olan əsərlər işıq üzü görmüş və tədqiqatçıların təhlil obyektinə çevrilmişdir (14).

Abbas Tufarqanlı Şah Abbas dövrü ədəbi yaradıcılığın ən istedadlı nümayəndələrindən biridir və istedadına görə Şərqin ən tanınmış söz ustadları ilə bir sıraya qoyulmağa haqqı olan bir sənətkardır.

Şah Abbasın hakimiyyəti illərində şifahi ədəbiyyatla yazılı ədəbiyyatda da bir canlanma var idi. Lakin bu canlanma daha çox türkdilli ədəbiyyata xas idi. Həmin dövrdə türkdilli ədəbiyyatın kifayət qədər tanınmış nümayəndələri yetişmişdir ki, onlar öz istedadları ilə dövrünün nüfuzlu söz ustaları kimi tanınmışdılar. Tədqiqatçılar haqlı olaraq qeyd edirlər ki, XVI-XVII əsrlərdə, o cümlədən də Şah Abbasın hakimiyyəti illərində farsdilli ədəbiyyat dərin süqut içərisində idi. Fars dilinin istifadəsində hər hansı bir məhdudiyyət olmasa da Səfəvi hüdudlarında bu dildə yaranan ədəbiyyat böhran içərisində idi. Bir məlumata görə, farsdilli şairlərin bir hissəsi Hindistana mühacirət etmişdilər. Onların arasında

Rüknəddin Məsihi, Saib Təbrizi, İbrahim Ordubadi, Səttar Məhəmməd, Sadiq Təbrizi, Şərəfəddin Təbrizi, Mirzə Sahib Ordubadi, Mahmudbəy Füsuni, Qasımxan Kəlbəli Təbrizi, Lütfi Təbrizi, Əbdüləli Məhvi, Hacı Müzəffər Təbrizi, Məhəmməd Hüseynbəy, Əli Nəzmi, Söhrab Hümai kimi Azərbaycan şairləri də var idi (15). Bu şairlərin bir çoxu Şah Abbasın müasirləri idilər. Hindistan sarayı tərəfindən himayə olunsalar da onlar fars dilində yazırdılar və Şah Abbas dövrü ədəbiyyatının zənginləşməsinə öz təsirlərini göstərirdilər. Adları çəkilən bu söz adamlarının bəziləri həm də Səfəvi sarayının müəyyən təqiblərindən canlarını xilas etmək üçün Hindistana yollanmışdılar. Bununla belə, onlar vətənlə əlaqələrinin kəsilməsinə nigarançılıqla yanaşırdılar. Məsələn, İbrahim Ordubadi öz rübailərindən birinin son beytində belə yazırdı:

Hərçənd ze daye tifl migirəd şir
Leyk əz madər nəmikonəd qət-e nəzər
(Südü uşağa dayə versə də
Uşaq gözünü anasından çəkməz) (16).

Hindistanda yaşamalı olan Mirzə Sadiq Təbrizin mühacirətinin səbəbi isə bəlli idi. O, Xorasanda yaşayan seyidləri öz əsərində həcv etdiyi üçün Səfəvi sarayının təqibinə məruz qalmışdı (17). Təəssüf ki, bu həcvin məzmunu haqqında məlumat vermək mümkün deyil. Mühacirətdə yaşamaq Azərbaycan və Səfəvi şairlərinin vətənlə əlaqələrini məhdudlaşdırmaqdan əlavə, həm də onların əsərlərinin itib-batmasına gətirib çıxarırdı. Ona görə də adları çəkilən şairlərin çoxunun yaradıcılığı haqqında geniş fikir söyləmək çətindir.

Hind sarayında yaşamış məşhur Azərbaycan şairlərindən biri Saib Təbrizi idi. O, 1601-ci ildə Təbrizdə anadan olmuşdu. Bu zaman Təbriz şəhəri hələ Osmanlı qoşunlarının nəzarəti altında idi. Saib Təbrizinin cavanlıq illəri Şah Abbasın hakimiyyəti illərinə təsadüf edirdi. Məlumdur ki, Şah Abbas səltənət paytaxtını İsfahana köçürdükdən sonra şəhər ətrafında Abbasabad adlı yaşayış məntəqəsi yaratdı və bu məntəqəyə təbrizliləri yerləşdirdi. Saib Təbrizinin atası Mirzə Əbdürrəhim Təbrizi kifayət qədər imkanlı

bir adam idi və onun hətta Abbasabad tacirlərinin kətxudası olması ehtimal edilir. Öz fəaliyyəti ilə Mirzə Əbdürrəhimin Səfəvi sarayının etimadını qazandığı da bildirilirdi. Saib Təbrizi İsfahanda dövrünün tanınmış söz ustadları Kaşi və Şəfaidən dərs almışdı. Bu söz ustaları ilə tanışlıq Saib Təbrizidə də ədəbi yaradıcılığa ilkin maraq yaratmışdı. Saib Təbrizinin ədəbi ustadlarından olan Şəfai də Şah Abbas dövrü ədəbi mühitinin formalaşmasında təsirli rolu olan söz sahiblərindən biri idi. Onun haqqında İsgəndər bəy Münşi belə yazırdı: "O, İsfahan darüssəltənəsinin təbibzadələrindən idi. Özünü tanıma (təməyyoz, təmyiz) və gənclik illərinin əvvəlində mövcud elmləri öyrənməyə başlayaraq öz kamalını artırdı, tibb elmi və təbabət qanunlarını öyrənməkdə çox mahir oldu. Lotu xislətli (ləvəndməşrəb) və şux təbiətli bir adamdı. Şer və şairlik zövqü onun təbiətinə qalib gəldi, bu yolda uca mərtəbəyə yetişdi, ustad və bəlağətli şairlərdən oldu, aləmdə məşhurlaşdı. Onun qəsidə, qəzəl, məsnəvi, qitə (müqəttəat) və rübayyatlardan ibarət gözəl şerləri çox, zəngin incəliklərlə yazılan mənalı fikirləri zəngin, şirin ifadələri saysız-hesabsızdır. Təbiətinə uyğun rişğəndi (gəzəndegi) sözlər də deyərdi. Hövsələsinin azlığından azacıq da kobudluğa dözməzdi. Xasiyyəti zarafatçıl olduğu üçün tez-tez davakar adamların ona qarşı dil açmalarına məruz qalardı. Həcv yazmağın (heca) qadağan olunmasına baxmayaraq o, o tərzdə bədii şerlərdə də rəngin mənalar və şirin zarafatlar deməkdən qalmır, fikirlərini incəliklə söyləyirdi. Dünyanı fəth edən cənnətməkan həzrət şaha yaxınlığı vardı, amma lotuyana xislət sahibi olduğundan şah məiyyətinin yanında az olardı. Şah ona İranın məliküş-şüərası və ən seçkin adamı ləqəbi vermişdi. O, həcv şeirlərinə görə bəzən məzəmmətlənərdi. Həyatının axırlarında həcv yazmaqdan tövbə etdi, bir üzrxahlıq qitəsi yazdı ki, həmin qitə budur:

Mən and içirəm Rəbbə ki, əqlin o həzrətin
Yüksəkliyi önündə qəti eştebahı yox...
Yoxdur qərəzim almağa düşməndən intiqam,

Ollam günahkar ki, bu şəxsin günahı yox.
Amma, aşarsa həddi ədəbsizlik, eylərəm
Şərən zülm o düşmənə, bir başqa rahı yox...
Olmazsa şairin əgər alsın qisasını,
Kəskin sözündən özgə onun bir pənahı yox...

[Həkim Şəfai Sefahani] bu il (1629) İsfahan darüssəltənəsində xəstələnib ömür divanının varaqlarını ölüm küləyinə verdi, öz təbibanə qəbul otağından (mətəbb) çıxdı. Cənnətməkan şahın [hakimiyyəti] vaxtında (Şah Təhmasib nəzərdə tutulur – *red.*) Həkim Nurəddin Kaşinin vəfatı münasibətilə Mövlana Möhtəşəm Kaşi onun [maddeyi-] tarixi xüsusunda bir qitə demişdi. ... Həkim Şəfainin gözəl və mənalı şerləri elə çoxdur ki, hətta bu cildə (səhifə) sığmaz. Yuxarıda yazıldığı kimi, həcv yazdığı üçün onun üzrxahlıq qitəsindən şairliyi və ustadlıq mərtəbəsi məlumdur" (18).

Mənbələrdə qalmış məlumatlar da onu təsdiq edirdi ki, şair Şəfai öz istedadına və hazırcavablığına görə Şah Abbasın xüsusi ehtiramına layiq görülmüşdü. Onun məliküş-şüəra ləqəbinə layiq görülməsi də Şah Abbas iltifatının təsdiqi idi. Bir məlumata görə, Şah Abbas bir dəfə at belində İsfahanın Nimrud məhəlləsindən keçirmiş. Şair Şəfaini orada gördükdə Şah Abbas ona ehtiram əlaməti olaraq atdan yerə düşmək istəyir. Şəfai özünün yetirərək buna imkan vermir. Şah Abbas da onun xahişinə əməl edərək atdan düşmür. Lakin şahı müşayiət edən əmir və əyanlar atdan yerə düşürlər və Şəfaiyə öz ehtiramlarını bildirirlər. Deyilənə görə, Şəfai yaradıcılığında həcvə geniş yer verdiyi üçün Şah Abbasın məzəmmətləri ilə də qarşılaşıbmış. Şəfai də şahın narahatçılığına son qoymaq üçün ümumiyyətlə söz qoşmaqdan imtina edir və bunu saraya göndərdiyi bir qitə ilə Şah Abbasın nəzərinə çatdırır (19).

Atasının ticarət işlərinə kömək etməsi ilə əlaqədar Saib Təbrizi hələ gənc yaşlarında həm səltənətin, həm də bölgənin bir çox şəhərlərini də gəzmişdi. O, Məkkə və Mədinəyə səfər etmiş, Osmanlı ərazisində olmuş, orada elm və bilik adamları ilə tanışlıq əldə etmişdi. Saib Təbrizinin böyük istedadı, yaradıcılıq məharəti

Səfəvi sarayında bəzi adamların qısqanclığına səbəb olmuş və ona görə o, Səfəvi sarayından uzaqlaşmalı olmuşdu. Saib Təbrizi 1625-ci ildə İsfahanı tərk edib Hindistana yollandı. Bu zaman onun 24 yaşı var idi. Buna baxmayaraq, Saib Təbrizi bölgənin məşhurlaşmış söz ustalarından biri idi. Onun yaradıcılığının çiçəklənən dövrü isə Hindistan həyatına təsadüf edir (20).

Saib Təbrizinin Şah Abbas dövrü ədəbiyyatının inkişafındakı rolu ondan ibarətdir ki, o, Azərbaycan ədəbiyyatının əzəmətli söz ustası Füzuli ənənəsinin davamçısı olmaqla bərabər, həm də özünəməxsus bir ədəbi yol seçə bilmişdi. Yəni o öz istedadı və yaradıcılığı ilə ədəbiyyat tarixində yeni bir səhifə açdı və öz üslubu ilə özündən sonra gələn söz ustalarının da yaradıcılığına ədəbi təsir göstərdi. Şah Abbas dövrünün tədqiqatçıları onu zəmanəsinin çox böyük şairlərindən hesab edirlər. Avropalı tədqiqatçılardan biri isə onu İranın son böyük şairi adlandırırdı (21). Öz məhsuldar və səmərəli yaradıcılığı ilə Saib Təbrizi həm Hindistan ədəbiyyatına, həm Osmanlı ədəbiyyatına, həm də Səfəvi dövlətinin türkdilli və farsdilli ədəbiyyatının inkişafına yaradıcı təsir göstərə bilmişdi. Onun yaradıcılığı haqqında həm Osmanlı təzkirələrində, həm də farsdilli təzkirələrdə geniş məlumat vardır. Bəzi tədqiqatçılar onun 120 min beytdən ibarət ədəbi mirasının olduğunu qeyd edirlər. Bəzi müəlliflər isə bu ədəbi mirasın 200 min beytdən ibarət olması üzərində dayanırlar (22).

Saib Təbrizinin yaradıcılığının məhsuldar dövrü Şah Abbasın hakimiyyətindən sonrakı dövrə təsadüf edir. Bununla belə, Saib Təbrizi məhz Şah Abbas dövründə bir söz ustası kimi formalaşmış və səmərəli ədəbi yaradıcılıq yoluna başlamışdır. Onun yaradıcılığında ənənəvi formalar üstünlük təşkil etsə də, bu formada yazılan əsərlərə dərin məzmun verməyi bacarmışdır. Saib Təbrizi türk ədəbi dilinin yaşarlılığını da öz yaradıcılığı ilə bir daha təsdiq etmişdir. Bütün bu cəhətlərinə görədir ki, Saib Təbrizi orta əsrlər türkdilli Azərbaycan ədəbiyyatının ən tanınmış nümayəndələrindən biri olmaqla Şah Abbas dövrü ədəbi mühitinin formalaşmasına da böyük təsir göstərə bilmişdir.

Yuxarıda qeyd edildiyi kimi, XVII əsrdə Hindistan sarayında xeyli sayda azərbaycanlı ədiblər var idi. Onların arasında öz istedadı və nüfuzu ilə seçilənlərdən biri Məsihi kimi tanınan Rüknəddin Məsud Kaşani idi. Kaşanda doğulsa da o, Azərbaycan türklərindən idi və dövrün ədəbi mühitində onun da öz yeri var idi. Rüknəddin Məsudun atası Nizaməddin Əli tanınmış həkim idi. Tibb sahəsində malik olduğu bilik və təcrübəyə görə o, saray həkimliyinə də dəvət edilirdi. Rüknəddin Məsud da öz atasından tibbin müəyyən sirlərini öyrənmiş və kifayət qədər bilikli bir həkimə çevrilmişdi. Hind sarayına da o, əslində, həkim kimi dəvət edilmişdi. Amma Məsihi həm də istedadlı söz ustadı idi. Sağlığında qələmə alınmış təzkirələrdən birində onun haqqında belə yazılmışdı: "Həkim Rüknəddin Kaşanlıdır. Həmin vilayətdə tanınmış şəxsdir. Yerdə Allahın kölgəsi olan Əbülqazi Abbas padşahın zəfər əshabələri sırasına daxildir. Onun cənnətə bərabər olan məclislərində iştirak etmək hüququ var. Xoşxasiyyət və xoşrəftar gəncdir. Bütün şer növlərində yazır. Hal-hazırda "Xosrov və Şirin"ə cavab olaraq bir kitab yazır. Təxəllüsü Məsihidir" (23).

Bu sətirlərdən göründüyü kimi, Məsihi öz istedadı və qabiliyyəti ilə Şah Abbasın yaxın ətrafına daxil idi və şah məclislərində iştirak etmək hüququ var idi. Yəni o, tez-tez şah məclislərinə dəvət edilirdi. Yuxarıdakı təzkirə məlumatına görə, o, şerin bütün növlərində yazırdı ki, bu da onun böyük istedad sahibi olmasından xəbər verirdi. Eyni zamanda Məsihi tərəfindən Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasına nəzirə yazması haqqında da məlumat verilir. Lakin Məsihinin Nizami mövzusunda yazdığı əsərlərinin mövcudluğu haqqında elmi-ədəbi dövriyyədə hər hansı bir məlumat yoxdur.

Bir məlumata görə, Şah Abbas Kaşanda olarkən üç gün təbibşair Məsihinin evində qalmışdı. Məsihinin İsfahanda yaşadığı vaxt da Şah Abbas dəfələrlə onun evində qonaq olmuşdu. Yəni Məsihiyə qarşı Şah Abbasda xüsusi bir ehtiram var idi. Məsihi özünün "Məcmue-ye xəyal" adlanan divanını da Şah Abbasa həsr etmişdi.

Bütünlükdə onun yaradıcılığının 100 min beytdən çox olduğu bildirilir (24).

Məsihi də ona olan şah ehtiramını yüksək qiymətləndirirdi və əsərlərində də bunu ifadə etməyə çalışırdı. Şah Abbas haqqında yazdığı qitələrinin birində Şəfai belə deyirdi:

O, cahanın xudavəndidir, amma xuda deyil
-O, cahanın xudasıdır, özü isə xuda deyil
Lakin xudadan bir dəm də olsa ayrı deyil
-Lakin bir an da olsa xudadan ayrı deyil

Bəli, u sayei başəd xudayi
(Bəli, o xudanın kölgəsi ola bilər)
Nəbaşəd sayera əz kəs codayi
(Onun kölgəsi heç kimdən uzaq olmasın)
Şəhi ke asiman zir-e fərman-e ust
(Asiman bu şahın fərmanı altındadır)
Del-e doşmənan vəqf-e peykan-e ust
(Düşmənlərin ürəyi onun peykanına hədəfdir)
Cavan bəxt Abbas şah dəlir
(Cavanbəxtli Şah Abbas cəsurdur...) (25).

Bir dəfə Şah Abbasın iştirak etdiyi məclisdə Məsihi sarayın fazillərindən biri ilə şer deyişməsinə başlayır. Bu deyişmədə Şah Abbas Məsihini deyil, onunla deyişəni müdafiə etdi. Bu hadisə Məsihinin şahdan incik düşməsinə gətirib çıxardı. Məsihi bir qəsidə yazıb Şah Abbasa göndərir və ondan İsfahanı tərk etmək icazəsi istədi. Şah Abbas da onun İsfahandan uzaqlaşmasına icazə vermədi. Bununla belə, Məsihi öz niyyətindən dönmədi. Şah Abbas Mazandaran tərəfə yola düşəndə Məsihi də fürsətdən istifadə etdi və öz övladlarını da yanına alıb Hindistana yollandı (26).

Məsihinin həm bir həkim kimi "Zabitət ül-əlac" ("Müalicə qaydaları") tibb elminə aid kitabı, həm də bədii əsərləri haqqında elmi-tarixi ədəbiyyatda məlumatlar vardır. Onun yaradıcılığının zir

vəsini "Vərqa və Gülşa" adlı poeması təşkil edir. Bu poema Azərbaycan türkcəsində yazılmışdır. Poemanın sonlarında müəllif oğluna xitabən yazdığı əsərlərin adını çəkmişdir:

Həqqa ki, mənim bu üç kitabım,
Rövşəndir onlardan afitabım.
"Vərqavü Gülşa", "Danəvü Dam"
"Zənburü Əsəl" üçüncüyə nam (27).

"Vərqa və Gülşad" poeması klassik şərq poemaları ənənəsinə uyğun yazılmışdır. Poema minacatla başlayırdı, peyğəmbərin, imam Əlinin tərifinə yazılmış qəsidələrdən sonra müəllif Şah Abbasın tərifinə də bir qəsidə yazmışdı. Bu da onu deməyə əsas verir ki, Məsihi tərəfindən "Vərqa və Gülşa" poeması Şah Abbasın sağlığında yazılmağa başlamışdı. Məsihi bu qəsidədə Şah Abbasın şərəfinə xoş sözlər yazmışdı. Poemanın sonluğunda isə Şah Səfinin tərifinə həs edilmiş qəsidə vardır. Yəni bu poema tamamlananda Səfəvi taxtında artıq Şah Səfi idi. Bir məlumata görə, Hindistandan İsfahana qayıtdıqdan sonra Məsihi bu poemasını Şah Səfiyə təqdim etdi. Lakin Səfəvi sarayında ona xoş münasibət göstərilmədi. Ona görə Məsihi yenidən doğulduğu Kaşana yollandı və 1655-ci ildə dünyasını da orada dəyişdi. Şah Səfi sarayında Hindistandan geri qayıtmış Məsihiyə göstərilən münasibət barəsində təzkirələrin birində belə yazılmışdı: "Məsihi padşahdan bir o qədər iltifat görmədi. 80 yaşından keçmiş qoca yaşlarında səfərə çıxaraq 1066-cı il tarixində (1655-1656) İsfahandan Şiraza getmiş, bir müddət orada qalmışdı. Oradan qayıdandan sonra Kaşanda vəfat etmişdi" (28).

Məsihinin bu poemasının mühüm ədəbi-tarixi dəyərlərindən biri onun Azərbaycan türkcəsində yazılmasıdır. Şair türkcə ədəbi yaradıcılığın güclü ənənələrini davam etdirərək bu dildə ədəbi hadisə ola biləcək bir əsər ortaya qoydu. Müəllif həm Nizaminin, həm də Füzulinin poemalarından təsirlənməklə bədii cəhətdən mükəmməl olan bir əsəri özündən sonra miras qoymuşdur. Poemanın digər dəyərli tərəflərindən biri də canlı döyüş səhnələrinə malik olmasıdır. Bu döyüş səhnələrinin dərin təhlilinin aparılması

ilə şairin yaşadığı dövrün, daha doğrusu Şah Abbas dövrünün hərb işinin müəyyən detalları barəsində də maraqlı qənaətlər üzə çıxarmaq mümkündür.

Şah Abbas dövrü ədəbiyyatının zənginləşdirilməsində xüsusi rolu olan şairlərdən biri də Məhəmməd Əmanidir. O, da həmin dövrün türkdilli ədəbiyyatının tanınmış və istedadlı nümayəndələrindən biridir. Məhəmməd Əmaninin həyatı haqqında dəqiq məlumatlar çox olmasa da onun Şah Təhmasibin hakimiyyəti illərində dünyaya gəldiyi güman edilir. Bir şair kimi formalaşması Şah Təhmasibin varisləri dövrünə təsadüf etsə də, məhsuldar yaradıcılığı Şah Abbasın hakimiyyəti illərində baş vermişdir.

Əmaninin Şah Abbasla yaxşı münasibətləri olmuşdur. Yazdığı əsərlərdən də bəlli olur ki, o, Şah Abbasın rəhbərliyi altında qızılbaş qoşunlarının hərbi yürüşlərində iştirak etmişdir. Bu yürüşlər zamanı müşahidə etdiklərini, o cümlədən də qızılbaş qoşunlarının qələbələrini Əmani öz əsərlərinin də mövzusu seçmişdir. Bu mövzuda onun xeyli sayda əsəri vardır və bu cəhətinə görə müharibə mövzusu onun yardıcılığında ayrıca bir istiqamət kimi dəyərləndirilməlidir. Belə əsərlərindən biri də Təbriz şəhərinin Osmanlı qoşunlarından azad edilməsi münasibətilə yazılmış qəsidədir. Qəsidə Azərbaycan türkcəsində yazılmışdır

Şaha mədain sayiyi-kövsər olacaqdır,
Hər canibə əzm olsa müsəxxər olacaqdur.
Abbasi-Əlisən bu gün, ey şahi-cahangir,
İqliminə həd səddi-Sikəndər olacaqdır.
Ğəm irməs, əgər xaricilər eyləsələr keyd,
Çün Mehdiyi-hadi sana rəhbər olacaqdur.
Fəthü-zəfərü-nüsrətü-iqbal yanınca,
Hükkami-cəhan cümləsi çakər olacaqdur.
...Çün şah Səfinin çırağı yanmış əzəldən,
Rövşənlik ona ta dəmi-məhşər olacaqdur.
Xurşid sifət şah tülu eyləcək əda,
Əncüm kimi məhv olmağa müncər olacaqdur.
Osmaninin onunu ki, bir şahi sayarlar,

Osmanlı qaçan şaha bərabər olacaqdur.
Təbriz fütuhatnın əxbarı yetəndə,
İstanbulun əhli qamu müztər olacaqdur.
Xotkar qəmü-qüssə bilə yaslara batub,
Matəm zədəvü-zarü mükəddər olacaqdur.
Ol dəmdə qulağına yetər avaz,
Mülkin nə ki, bar şahə müqərrər olacqdur
İsnü-əşərü-əlfdə oldu bu fütuhat,
Tarixi cahan əhlinə əşhər olacaqdur (29).

Bu qəsidədə Təbrizin azad edilməsinə və yenidən Səfəvi hüdudlarına qaytrılmasına görə Şah Abbas tərif olunurdu. Şair onu cahan cahangiri adlandırır və onun tərəfindən Təbrizin azad edilməsin Osmanlı sarayının qəm-qüssəsinə səbəb olacağı bildirilirdi.

Əmaninin də Şah Abbas dövrü yaradıcılığının mühüm tərəflərindən biri onun dilinin son dərəcə sadə və aydın olmasıdır. Bu, əslində, dövrün reallıqlarından irəli gəlirdi, Azərbaycan türkcəsinin səltənət daxilində tutduğu mövqedən irəli gəlirdi. Bu dildə danışan və yazan Əmani öz yaradıcılığı ilə eyni zamanda Azərbaycan türkcəsinin zənginləşməsi sahəsində də dəyərli xidmətlər göstərmişdi.

Xüsusilə, heca vəznində yazdığı əsərlərində Əmaninin dili daha təmiz və safdır. Əmaninin Azərbaycan dilli ədəbiyyata gətirdiyi bir yenilik də onun qısa məzmunlu mənzum hekayələr yazmasıdır. Qısa süjetə malik olan bu hekayələr də Azərbaycan türkcəsində yazılmış maraqlı ədəbi əsərlərdir (30).

Şah Abbas dövrünün ədəbiyyatının və mədəniyyətinin inkişafında dəyərli xidmətləri olan yaradıcı insanlardan biri də Sadiq bəy Əfşar idi. Sadiq bəy Əfşar çoxşaxəli istedada malik idi. O, şah sarayının kalliqrafı olmaqla rəssamlıqla, musiqi ilə, söz yaradıcılığı ilə və təzkirə hazırlanması ilə məşğul olmuşdu. Sadiq bəy həm Azərbaycan türkcəsində, həm də fars dilində bədii əsərlər yaratmışdı. Onun hər iki dildə divanının olduğu bildirilir. Bundan əlavə onun Şah Abbasın vəsfinə həsr edilmiş "Fəthname-ye Abbas-e namdar" ("Məşhur Abbasın fəthnaməsi") poeması vardır. Üç min

misradan ibarət olan bu poema Şah Abbasın tapşırığı əsasında yazılmışdır. Bu poemanın Firdovsinin "Şahnamə" poemasına nəzirə olduğu bildirilir və əsər "Şahnamə" bəhrində yazılmışdır. Poemada Şah Abbasın yürüşlərini vəsf edən nəzm parçaları yer almışdır. Sadiq bəy Əfşardan irs qalmış maraqlı əsərlərdən biri də onun "Məcməül-xəvas" təzkirəsidir. Təzkirə türkcə yazılmışdı və bu topluya dövrünün çoxlu sayda söz ustadı daxil edilmişdir (31).

Şah Abbasın hakimiyyəti illərində İsfahan da Azərbaycan dilli ədəbiyyatın mərkəzlərindən birinə çevrilmişdi. Yuxarıda qeyd edildiyi kimi, İsfahan səltənətin paytaxtı elan edildikdən sonra bu şəhər ətrafında Azərbaycan türklərinin koloniyası yaradıldı və bura Azərbaycandan çoxlu sayda türklər köçürüldü. Köçürülənlər arasında şairlər də var idi. Şakir, Haseh, Vahid, Nadir, Vüqui, Zahid, Hali, Həşri və digərləri belələrindən idi (32). Amma Azərbaycan türk dilində yaradılan ədəbiyyatın əsas mərkəzi olaraq qalmaqda idi. Bu mərkəzlərin fəaliyyətinin mühüm nəticələrindən biri Azərbaycan türkcəsinin inkişafına və zənginləşməsinə yol açması idi. Qeyd edilməlidir ki, Şah Abbasın hakimiyyəti illərində də ədəbi yaradıcılıqda dil baxımından iki üslubu müşahidə etmək mümkündür. Bunlardan biri klassik dil üslubu idi ki, onun ən tanınmış nümayəndələri Nəsimi, Füzuli və digərləri idi. Bu üslubda ərəb və fars dillərinin təsiri açıq şəkildə duyulmaqda idi. Digər üslub isə xalq danışıq dilinə yaxın olan folklor ədəbiyyatının dil üslubu idi. Bu üslub isə dilin təmizliyi və saflığı baxımından daha mükəmməl idi.

Dövrün türkdilli şairləri arasında aşağıdakıların da adlarını görmək mümkündür: Əbu Talib Təbrizi, Ədhəm bəy Türkman, Əfşar Dağıstani, Bayandur Təbrizi, Cəmi Həmədani, Xazin Təbrizi, Məşriqi Təbrizi, musiqilər qoşan Mütribi Qəzvini və digərləri. Onların həm də türk dilində və fars dilində əsərlər yazması ehtimal olunur.

Mənbə və elmi-tarixi ədəbiyyatda Şah Abbas dövrünün tanınmış türkdilli şairləri arasında Hüseyn bəy Türkmanın da adı çəkilməkdədir. Hüseyn bəy Türkman ilk növbədə hazırcavablığı, şi-

rin dilli və zarafatcıl olması ilə məşhur idi. Bu keyfiyyətlərinə görə Şah Abbas ona rəğbətlə yanaşırdı və onu öz məclislərinə dəvət edirdi. Deyilənə görə, Şah Abbas onun hazırcavablığından və yumorundan bəzi saray əyanlarının gülüş hədəfinə çevrilməsində istifadə edilirdi. Bir məlumata görə, Hüseyn bəy Türkmana xalq arasında Köpək Ləvənd ləqəbi də verilmişdi (33).

Məlumdur ki, onun əynində hər zaman türk libası olardı və xüsusi bir türk papağı qoyardı. Bu da onu başqalarından bir qədər fərqləndirərdi. Onun hərəkətlərində də bir sərbəstlik var idi və bununla bir növ təlxəkləri də andırardı. Zarafatcıl olmaqdan əlavə, Hüseyn bəy həm də şer qoşmaq istedadına malik idi. Bəzi vaxtlar da zarafatla başqalarının şerlərini oxumaqla onları öz adına çıxardı və bununla ətrafdakıları da əyləndirərdi. Şah Abbas onu yalnız öz məclislərinə dəvət etmirdi, eyni zamanda iştirak etdiyi mərasimlərə, o cümlədən də ov mərasiminə dəvət edərdi. Bir dəfə Hüseyn bəy xəbər tutur ki, Şah Abbas ova yollanıb və onu özü ilə aparmayıb. Hüseyn bəy aşağıdakı beytlə başlanan nəzm parçasını yazıb ona göndərir:

Səhər amədəm be kuyət be şekar rəfte budi
To ke, səg nəbordi be çe kar rəfte budi?
(Səhər hüzuruna gəldim, ova getmişdin
Sən ki, köpək aparmamışdın, nəyə getmişdin?)

Şah məslislərinin əyləndirilməsi üçün şah sarayının xidmətində digər zarafatcıl şairlər də var idi. Onlar da həm hazırcavablığı, həm də zarafat dolu şerlər yazmaqda müəyyən qabiliyyətə malik idilər. Onların arasında Mövlana Xoruz, Mövlana Aqili, Xacə Hidayətulla Razi kimi şairlər var idi. Doğrudur, bu şairlərin dövrün ədəbiyyatının inkişafında ciddi bir xidmətləri yox idi. Heç onlar özləri də yəqin ki, buna iddia etmirdilər. Belə şairlər daha çox gündəlik yaşayış qayğısında olsalar da, hər halda söz yaradıcılığına müəyyən diqqət cəlb edirdilər. Təzkirələrdə qalmış məlumata görə, belə şairlərdən biri olan Xacə Hidayətulla Razi hətta mənasız söz yığınından ibarət olan və yalnız qafiyə və bəhr üzərində

qurulan şerlər yazırdı və bu qabiliyyəti ilə də Şah Abbasın diqqətini cəlb edirdi. Xacə Hidayətulla Razi bir dəfə Şah Abbasın yanında vəd edir ki, o, hətta mənasız söz yığınından ibarət olan xəmsə (beş poema) də yarada bilər. Şah Abbas maraq üçün Raziyə belə bir əsərin yaradılması tapşırığı verir və qərara alır ki, hər beytin müqabilində ona bir abbası veriləcək. Amma hansısa beytin bir mənası olarsa, onun əvəzində şairin bir dişi çəkiləcək. Təzkirələrdə əksini tapmış məlumata görə, Xacə Hidayətulla Razinin işi başa çatandan sonra onun əsəri yoxlanılır və yalnız üç nəzm parçasında bir məna ifadə olunduğu müəyyənləşdirilir. Ona görə onun üç dişi çəkilir (34).

Şah Abbasın hakimiyyəti illərində səltənət daxilində fars dilində də söz yaradıcılığı ilə məşğul olanlar var idi. Lakin mütəxəssislərin yazdığı kimi, onların arasında kifayət qədər istedad sahibi olan şairlər yox idi. Bu, sözsüz ki, fars dilinə olan ögey münasibətlə bağlı deyildi. Şah Abbas özü də fars dilində ara bir şerlər yazırdı. Sadəcə, onun hakimiyyəti illərində farsdilli ədəbiyyat ənənələri səviyyəsində şair yetişməmişdi.

Şah Abbas dövrü farsdilli ədiblər haqqında təzkirələrdə müxtəsər də olsa məlumatlar mövcuddur. Belə ədiblərdən biri Mövlana Ətayi idi. Onun da Şah Abbas sarayı ilə bağlılığı haqqında məlumat mövcuddur. Onun qoşduğu nəzm parçaları Şah Abbasın xoşuna gəlirdi. Şah Abbasın az-çox xoşladığı farsdilli şairlərdən biri də Zülali Xansari idi. Zülali Xansari məhsuldar yaradıcılığı ilə fərqlənən şairlərdən idi və qoşduğu məsnəviləri Şah Abbasa da təqdim etmişdi. Onun ilk iri həcmli əsərlərindən biri "Həft səyyarə" ("Yeddi ulduz") adlanırdı. Zülalinin digər məsnəviləri də mövcud idi. Güman edilir ki, bu məsnəvilər də şair tərəfindən Şah Abbasa təqdim olunmuşdu (35).

Yəni farsdilli şairlər də bilirdilər ki, ədəbi dəyər kəsb edən əsərlər Şah Abbas tərəfindən yüksək qiymətləndirilir və həm də mükafatlandırılır. Bu isə öz növbəsində söz yaradıcılığı istedadına malik olan insanlarda ədəbi fəaliyyətə olan marağı daha da artırırdı.

Dövrün tanınmış adamlarının da söz yaradıcılığı ilə məşğul olması haqqında məlumatlar vardır. Onların arasında səltənət sədr-əzəmi Hatəm bəy Ordubadi, Gilan hakimi Xan Əhməd Gilani və digərləri də var idi. Təzkirələrdə və elmi-tarixi ədəbiyyatda ədəbi yaradıcılıqla məşğul olan aşağıdakı söz ustalarının adları ilə qarşılaşmaq mümkündür: Mir Əbülbəqa Təfərroşi, Şeyx Əbülqasım Karezuni, Mir Əbülqasım Fenderski, Mir Əbülməali İsfahani, Mir Əbuturab Məhrum Razi, Əhməd bəy Ləng Razi, Əsiri Qaini, Əsiri Şirazi, Əsiri Məşhədi, İşraq İsfahani, Əslixan bəy Zülqədər, İfzəl İsfahani, Əqdəs Məşhədi, Mirəlləhi İsidabadi, Əmin Yəzdi, Ünsü Dəliri Zülqədər, Ovci Nətənzi, Babaşah Qəhpayei, Bağır Herəvi, Mirzə Bədii İsfahani, Qazi Bədiüzzəman, Molla Bixudi Semnani, Mirzə Cəfər Kaşani, Cəfər bəy Lahici, Cəfər Saveçi, Cəlaləddin, Cəfər Fərahani, Molla Cəlaləddin Sistani, Molla Cəlaləddin Məhəmməd Yəzdi (saray münəccimi), Hatəm Kaşani, Hafizi Kermani, Hali İsfahani, Hali Yəzdi, Molla Hamedi Yəzdi, Həsən xan Şamlı, Molla Həşri Təbrizi, Xazən Təbrizi, Xüruş Təbrizi, Xəyal Şirazi, Molla Zəki Həmədani, Rindi Kaşi, Molla Ruhi Həmədani, Molla Rövnəzi Həmədani, Zaceri Nətənzi, Mirzə Zeynalabdin, Samiri Təbrizi, Sühabi İstərabadi, Səxi Kermani, Süruri Yəzdi, Sultan Füqəra Qəzvini, Səhvi Təbrizi, Molla Şokuhi Həmədani, Təbxi Qəzvini, Mir Əbdülbaqi Təbrizi, Üzrü Təbrizi Məzhəri Kəşmiri və digərləri (36).

Şah Abbas tarixini qələmə almış İsgəndər bəy Münşini də dövrünün istedadlı söz ustalarından biri saymaq olar. Onun böyük həcmli Tarixi Aləm-arayi Abbasi" əsərində çoxlu sayda nəzm parçaları işlədilmişdir. Az sayda nəzm parçası istisna olmaqla yerdə qalan parçalar İsgəndər bəy Münşiyə məxsusdur. Həmin parçalar ayrılıqda toplanarsa sayı mini ötəcək misralar ola bilər. Bu nəzm parçaları əsərdə təsvir olunan hadisələrlə bağlı verilmiş və bu hadisənin təsvirini bir növ tamamlamışdır. Janr baxımından da bu nəzm parçaları arasında müxtəlifliyi görmək mümkündür. İsgəndər bəy Münşiyə məxsus olan bütün nəzm parçaları fars dilin-

dədir. Adı çəkilən əsərdə müəllifin Şah Abbasın vəsfinə həsr etdiyi bir neçə nəzm parçası vardır. Onlardan biri belədir:

İqbal taxt-tacının dürrü sayılan,
Cah-cəlal şerinin şahbeyti olan,
Peyğəmbər nəslinin fəxri tək qalan
Abbasdır din şahı, dövr xosrovu (37).

Başqa bir nəzm parçasında isə İsgəndər bəy tərəfindən Şah Abbas belə vəsf edilir:

Bu dövlətdən, bu mülkdən, ey şah, al kam,
Fələk rəhbər olsun sənə, bəxt ram.
Təxtü tacın olsun sənin mübarək,
Kəyan taxtına vurmusan bər-bəzək.
Bəzə şahlıq taxtını, ey hökmdar,
Şahənşah olmağa ləyaqətin var.
İnayət edərsə Pərvərdigarın,
Qəza zamin olar, qədərsə yarın.
Təbii ömür qismət olsun sənə,
İşıq səpsin bəxtin cahan üstünə.
Nəsibin ola səadət, cah-cəlal,
Yüz iyirmi il padşahlıqda qal (38)

Əsərin başqa bir yerində Şah Abbasın vəsfi ilə bağlı İsgəndər bəy Münşi öz düşüncələrini yazır və sonra da bu düşüncələrini nəzm ilə tamamlayırdı: "...ümidvarıq (reca-ye vaseq) belə bir xeyirli niyyətin xoş bərəkətindən (meymənət) o, bu dünyada öz ali məqsədlərinə çatacaq, onun səadətli hakimiyyət müddəti həzrət əsr və zaman sahibinin (İmam Mehdinin –*red.*) – zühuruna qədər davam edəcək. İnsanlar (aləmiyan) onun ədaləti sayəsində cah-cəlalın əzəmətindən (setvət) rahat yaşayacaq, [adamlar] asudəliyin həmişəbahar gürzarında buluddan süzülən dürr qətrələri kimi tazətər olacaq, [əlahəzrət] o biri dünyada (oqba) məşhər gününün şəfaəti və kövsər saqisinin köməyindən bəhrələnəcəkdir.

Nəzm

İlahi, o ali nəsilli şahın,
Bizə yadigar o padşahın
Uzat ömrünü taxtında şah kimi,
Yaşat yəqinlik nuruyla daimi.
O zatı görmə çox şahlıq taxtına,
İlahi, yaraşır təxtü tac ona.
İlahi, zəminü zəman naminə
Rahatlıq üçün, insü can naminə,
Uzat təbii ömrün ildən-ilə
Cavan saxla cahanı bəxti ilə" (39).

Şah Abbasın dünyasını dəyişməsi ilə bağlı İsgəndər bəy Münşinin düşüncələrinin həm də nəzmlə ifadəsi vardır:

Ey şah, sənin gücünlə dövr etdi cahan,
Qırx il döyüşübsən neçə düşmənlə haman.
Tərk eyləməyin bizləri qəzadandır,
Daim yaşayır, bəlli ki, təkcə Yaradan (40).

Yuxarıda qeyd edildiyi kimi, Şah Abbas dövründə yaradılan bir sıra ədəbi əsərlərin mövzusu elə Şah Abbas olmuşdu. Dövrün hökmdarı kimi Şah Abbasın fəaliyyəti, xüsusilə fəthləri şairlərin üz tutduğu mövzulardan birinə çevrilmişdi. Xüsusilə, Bağdad kimi böyük bir şəhərin Osmanlı nəzarətindən çıxarılması və yenidən Səfəvi hüdudlarına qaytarılması bir sıra ədəbi əsərlərdə də vəsf olunmuşdu. Belə əsərlərdən birinin müəllifi Qasım ibn Əhməd Hifzidir. O, Şah Abbas dövrünün şairlərindən olmuş və özündən sonra zəngin bir yaradıcılıq irs qoyub getmişdir. Təxminən 6 min beytə yaxın yaradıcılığı olan Hifzi bəzi təzkirəçilərin fikrincə İsfahanda, bir başqasının fikrincə isə Təbrizdə dünyaya gəlmişdi (41).

Təzkirələrdə olan məlumatlardan aydın olur ki, Hifzi dərviş həyat tərzinə malik olmuşdur. O, bir müddət Hindistanda yaşamış, sonra Məkkəyə yollanmış, sonra da geri qayıdaraq Səfəvi hüdud-

larında həyat sürmüşdür. Onun yaradıcılığında dövrün digər ədibləri kimi ürfani mövzular üstünlük təşkil etmişdir. Bununla belə, Hifzi Şah Abbasın hərbi yürüşlərinə və fəthlərinə də söz qoşmuşdur. Hifzinin divanında dörd qəsidəsinin Şah Abbasın Bağdad fəthinə həsr edilməsi haqqında məlumat vardır. Bu qəsidələr sadəcə fəthnamə deyildir. Burada Şah Abbasın sərkərdəliyi, qəhrəmanlığı ilə bərabər, onun digər keyfiyyətlərinə də toxunulmuş, Şah Abbas həm də dövrünün ədalətli və yaradıcı bir şahı kimi vəsf olunmuşdur. Tədqiqatçıların yazdığına görə, Hifzinin ilk qəsidəsinin başlanğıcında bir neçə beyt itmişdir. Lakin qəsidənin əsas mətni artıq elmi-ədəbi dövriyyədədir. Şah Abbas bu qəsidədə dövrün böyük padşahı, sərkərdəsi və ədalət carçısı kimi qələmə alınmışdır. Şahlar şahının məskəni olan Bağdadın fəth edilməsi isə müəllif tərəfindən son dərəcə məzmunlu bir şəkildə nəzmə çəkilmişdir (42).

Hifzinin ikinci qəsidəsi məzmun etibarilə birinci qəsidəsini tamamlayır. Bu qəsidə əvvəlcə təbiətin gözəlliklərinin vəsfi ilə başlayır və bu gözəlliklə cənnətin gözəlliyi arasında bir əlaqə yaradılır. Şair bir sıra güllərdən söhbət açır və onların gözəlliyinin təsdiqi üçün bəzi Quran kəlamlarından istifadə edir. Sonra isə şair Şah Abbasın vəsfinə keçir. O, elə ilk misralardan Şah Abbası Turan, İraq, Rum və Əcəm mülklərinin padşahı, İsgəndər xislətli, Şah Təhmasib nəslinin davamçısı, dinin və dünyanın hakimi, güclü və qəhrəman, son dərəcə səxavətli bir şah kimi təsvir edirdi. Şairin fikrincə, Şah İsmayıl nəslində Şah Abbas kimi bir şah olmamışdı. Çünki o, qılıncı ilə böyük bir dünyaya sahib olmuşdu. Hifzi Şah Abbası haqqın kölgəsi, din və ədalətin günəşi adlandırırdı. Sonra isə qəsidədə Bağdad və Nəcəfin fəthinə toxunulur və oradakı müqəddəs məkanların abadlaşdırılmasından söz açılırdı (43).

Hifzinin üçüncü və dördüncü qəsidələrində də Şah Abbasın özbəklərə qarşı savaşlarından başlamış Bağdadın fəthinə qədər fatehlik yürüşlərinə toxunulmuş və onun qəhrəmanlığı vəsf olunmuşdur. Qəsidələrdən başqa Hifzinin Şah Abbasın vəsfinə həsr edilmiş qəzəli, fəthnaməsi də vardır. Həmin əsərlər də bədii cə-

hətdən məzmunlu nəzm əsərləridir. Tədqiqatçıların müəyyənləşdirdiyinə görə, Məşriqi Şirazi adlı bir şairin də Şah Abbasın vəsfinə həsr edilmiş bir neçə nəzm əsəri vardır (44).

Elm aləminə eyni zamanda Şah Abbasın Bağdad fəthinə türk dilində yazılmış bir nəzm parçası da məlumdur. Onun müəllifi bəlli deyil və bu şer parçası fiqh haqqında yazılmış bir kitabın son səhifələrindən birində aşkar edilmişdir. Bu nəzm parçası Bağdad və Nəcəfin fəthinə ayrı-ayrılıqda fars dilində həsr edilmiş üç beytlə başlayır. Sonra isə türk dilində davam etdirilir. Türk dilində olan həmin şer parçası belədir:

Xosrovi İran ki, bu iqbalü bu tövfiq ilə
Hər birər sultanı, hər xanı birər cəmcah olur
Bu ədalət, bu mürüvvət və bu kərəm kim onda var
Zati Mehdi tək xəifəyi həzrətulla olur
Etdi İran ölkəsini riski gülzari canan
Oldu kim rizvan əgər görsə ölkə dilxah olur
İsfahan ərşi-əzimdən məlayik xiliydin
Küfr və iman görmək üçün kəhkəçandı, rah olur
Bir tərəf atsa təbərranı əgər əvvəl şahi din
Came ədyan nə, pəs küllü cahana şah olur
Həqq mücəllisi məzahirdə cəlal ilə camal
Arifi kamil yanında küfr ilə iman olur
Yetmiş iki millətinin tövrinə etdi zühur
Hamı yollar dostunun ətrafına yeksan olur
Haqq əgər istər bir əbayi birər hümmət edər
Kim onun dərmanı dərdü dərdi də dərman edər
Hasilən bu şahi din, bu nəsli xeyrülmüslümün
Kim onun ilqabı haqdan seydi şahan olur
Xirəini göstərə, ədl eliyib zülmü qürub
Mülki İranın mühəqqər kəlbəsi rizvan olur
İxtilaf dinində mənn etməsə hər kəsiləni
Bu qutunun şureqani da nigaristan olur
Əvvəl şah kanqa çərçiyi mərrixdir

Ədaye onun şövkəti tubixdur
Bağdad alındı və onun feyzindən
Tofiqat ilə ... tarixdur
Eşitməzəm məhil fələkindən bəhanələr
Cəsrinin fəraqın istərəm və qəhvəxanalar
Rəqsü səma mövləvini haqdan istərəm
Kim elmü qal vəsvəsəsidir əfsanələr
Aldı İraq əzəli şahının təranələri
Bu fəthə tarix oldu iyi qəhvəxanaları
Haqdan həmişə arifə feyzü səfa yetər
Bağdada fəthnaməsi bizlərə nələr yetər
Mülkü İraq Məkkədən şaha peşkəş
Arif olana Hillə ilə Kərbəla yetər
Gah Kərbəlada sakin olum, gah Nəcəfdə kim
Şahbaz ruha hanı belə aşinalar
Alındı xosrovi İran üçün İraqi ərəb
Ki sərf edə Nəcəf və Kərbəlada nəğd tərəb (45).

Şah Abbas yalnız ədəbi yaradıcılığa qayğı göstərmirdi. O özü də bəzi vaxtlar söz yaradıcılığı ilə məşğul olurdu. Doğrudur, onun elə də zəngin bir ədəbi irsi qalmamışdır. Lakin təzkirələrdə əksini tapmış nəzm parçaları Şah Abbasın yaradıcılıq istedadına malik olmasını nümayiş etdirir. Şah Abbasdan elm aləminə bəlli olan nəzm əsərləri fars dilindədir. Bu nəzm əsərlərini Abbas təxəllüsü ilə yazmışdır. Təzkirələrdən birində Şah Abbasın aşağıdakı üç beytini oxumaq mümkündür:

Kəlbəi ra ke, mən şodəm bani
Mətləbəm təkyeye səgan-e Əlist
(Köpək ki, mən ona çevrimişəm
Mətləbim Əli köpəklərinə təkyə olmaqdır)
Zin səbəb feyz yaftəm zale
Ke məra mehr ba Əli-ye əzəlist
(Ona görə də feyz aldım ondan
Çünki mənim mehrim böyük Əliyədir)

Xane-ye delqoşa şodeəş tarix
Çün ke, əz kəlb-e astan-e Əlist
(Ürəkaçan evi tarix olubdur
Çünki, o, Əlinin evinin köpəyidir) (46).

Şah Abbasın şiə təriqətinə, həzrət Əliyə olan etiqadı bu beytlərdə öz əksini tapmışdır. Bəzi təzkirələrdə Şah Abbasın qəzəlləri də qalmışdır. Bu qəzəllər bəşəri və məhəbbət mövzusundadır. Onladan biri aşağıdakı kimidir:

Məhəbbət aməd o zəd həlqe bər delü canəm
Dərəş qoşudəm və şod ta be həşr-e mehribani
Nə həsti həstəm və nə nistəm nəmidanəm
Ke mən kiyəm, çe kəsəm, kafərəm, müsəlmanəm?
Əgər məsxər köfrəm. Ke bəst-e zonnarəm
Və əgər motabee dinəm, kocast imanəm
Əz in do, hər do niəm, bəlke aşeğəm aşeğ
Məhəbbət sənəmi kərde na mosəlmanəm
Do ruz şod ke, degər aşeğəm, be can-e aşeğ
Be no qoli ke, bord nəğd-e din o imanəm
Əcəb ke, əz ələm-e eşq can bord Abbas
Ke dərd bər sər-e dərdəst o nist dərmanəm

(Məhəbbət gəldi və ürəyimə və canıma halqa vurdu
Qapısını açdım və sonsuz mehriban oldu
Var kimi var deyiləm, yox kimi yox, bilmirəm
Ki mən kiməm, nə kəsəm, kafirəm, yoxsa müsəlman
Əgər küfr adamıyam, kafirlərə bağlıyam
Yox, əgər dinə bağlıyamsa, imanım hardadır
Bu ikisinin heç biri deyiləm, bəlkə aşiqəm, aşiq
Büt məhəbbəti məni qeyri-müsəlman edib
İki gün oldu ki, aşiqəm, aşiqin canına
Təzə gül ki, apardı dinimi və imanımı
Əcəbdir ki, eşq kədərindən Abbasın canı getdi
Ki, dərd dərd üstündən gəlir, yoxdur dərmanım) (47).

Şah Abbasın bir qəzəli də məlumdur ki, onun da sonluğu yuxarıdakı qəzəlin sonluğu kimidir. Bu qəzəlində Şah Abbas bəşəri məsələyə toxunmuşdur Həmin qəzəl belədir (48):

To dusti və mennət dustdar əz canəm
Be dusti ke, be coz dusti nemidanəm
Ze hiç kəmtərəm və kəmtərəm zeh iç amma
Yeqane gövhər bəhrü mohite orfanəm
Xodaprəstəm və islam-e mən məhəbbət-e tost
Əgər tora nəpərəstəm mədan müsəlmanam
Be piş dide-ye həqq bin, təfavoti nəkonəd
Əgər çe mur-e zəifəm və gər Soleymanəm
Məhəbbət-e to be dinəm fekənde səd rəxne
Ze dusti-ye to bər bad rəfte imanəm
Əcəb ke, əz ələm-e eşq can bord Abbas
Ke dərd bər sər-e dərd əstü nist dərmanəm

(Sən dostsan, dosta xidmət canımdadır
O dosta ki, ondan başqasını bilmirəm
Heçdən aşağıyam, aşağıyam heçdən, amma
Yeganə gövhər ürfan mühitim üçündür
Xudapərəstəm, islamım sənə məhəbbətimdir
Əgər sənə pərəstiş etməsən, müsəlmanam
İrəliyə haqq gözü ilə bax, fərq olunmasın
Zəif qarışqayam, ya Süleymanam
Sənin məhəbbətin ürəyinə yüz bəla salıb
Səninlə dostluqdan imanım bərbad olub
Əcəbdir, eşq ələmindən Abbasın canı getdi
Ki, dərd dərd üstündən gəlir, yoxdur dərmanım)

Mütəxəssislərin fikrincə, bu dövr ədəbiyyatının inkişafına saray qayğısı və himayəsi öz müsbət təsirini göstərirdi. Saraylarda şahın və ya digər saray mənsublarının himayəçiliyi ilə ədəbi məclislər düzəldilər və orada şairlərin şerləri dinlənilərdi. Saray tərə-

findən təşkil olunan belə məclislərə daha çox məşhurlaşmış söz ustaları dəvət edilərdilər. Belə məclislərdə hər bir söz ustası öz istedadını və məharətini nümayiş etdirməyə çalışardı. Həmin məclislərdən sonra isə söz ustaları növbəti belə məclislərin keçirilməsinə hazırlıq görür və daha yaxşı əsərlər yaratmağa çalışırdılar. Bir çox hallarda ədəbi məclislər üçün klassik şairlərin, o cümlədən Füzuli və digərlərinin əsərləri seçilər və onlara nəzirələr yazılardı. Ədəbi məclislərdə belə nəzirələrə qiymət də verilərdi və bununla bir növ ədəbi əsərlər ətrafında müzakirələr də təşkil edilərdi. Ədəbi məclislərin əyləncə xarakterini gücləndirmək üçün şairləri bədahətən söz demək və bununla onların deyişməsi təşkil edilərdi. Söz ustalarının və fazil insanlarının iştirakı ilə şah məclislərinin təşkil edilməsi haqqında İsgəndər bəy Münşinin əsərində də bəzi məlumatlar vardır. Əsərin bir yerində o, yazırdı: “Hümayun şahın zatı, həmçinin o həzrətin hünərpərvər təbi qədrşünaslıq mizanı və sözə qiymət vermək meyarı olduğu üçün onun bilikli fəzilət əhlinin və bəlağətli söz ustadlarının söhbətlərinə böyük rəğbəti vardı. Cahan hökmdarlarının cahandarlıq işləri ilə məşğul olmaları səbəbindən boş vaxtları olmamasına, habelə onların fazil və bəlağətli şair və söz sahibləri ilə söhbətlərinə az vaxt ayırmalarına baxmayaraq, onlar həmişə meyl edirlər ki, müqəddəs ünsiyyət məclisləri o şəxslərin iştirakı ilə işıqlansın, elə əziz adamlar qiymətli gövhər kimi zahiri və mənəvi bəzəyə malik olduqlarından onlarla söhbət qənimət və iksir təsiri bağışlasın. Buna görə də, Herat darüssəltənəsində iqamət etdiyi bu vaxtlarda o, söhbətcil adam, fəzl, hünər, bəlağət sahiblərinin ən üstünü, mənalı fikirlər nazimi və fərasətli şəxslərin məliki olan Mirzə Fəsihi Herəviyə məclislərində iştirak etməsini təklif etdi. Mirzə Məsihi Herəvi o vilayətin seyidləri və əyanları zümrəsindən idi, ənsariyyə sülaləsindən çıxmışdı, fəzilət və kamal ziyəri, söz söyləmək bacarığı ilə bəzənmiş olduğundan şahın nurlu fikri buna yönəldi ki, qoy həmişə müqəddəs məclis onun qiymətli vücudu ilə ziynətlənsin, feyzli söhbəti ilə büsatlansın və [eşidənlər] onun sehirli təbindən xoşlansınlar. Əmr verildi və o, zəruri olan hər şeylə təmin olundu. Mirzə

Fəsihi Herəvi sədaqətinin çoxluğundan bu hümayun əmri qəbul etdi. Baxmayaraq ki, o gözəl məkan bu bilik və fəzilət dəryasının gövhərindən xali qaldı, amma behişt ayinli məclisə, hümayun zata və müqəddəs məiyyətə sonsuz sevinc bəxş etdi. O, hazırda müqəddəs yaxın adamlar zümrəsinə mənsubdur və müqəddəs məclis həmsöhbətlərindəndir" (49).

Təzkirələrdə olan məlumatlara görə, Şah Abbas yalnız söz sahiblərinin və şairlərinin məclislərini təşkil etmirdi. Eyni zamanda onların yazdıqları haqqında öz fikirlərini də söyləyirdi. Başqa sözlə, Şah Abbas ədəbi əsərlər haqqında fikir söyləməyə imkan verən duyuma və təcrübəyə də malik idi. Bir məlumata görə, Şah Abbas bir dəfə şəhər qəhvəxanalrından birinə gəlir və görür ki, orada tanımadığı iki adam oturub. Onlardan kim olduqlarını soruşanda biri cavab verir ki, şairdir. Belə olanda şah ondan tələb edir ki, bir şer desin. Molla Şokuhi adlanan həmin adam da belə bir beyt səsləndirir:

Ma bidelan be bağ-e cahan həmçi bərg-e qol
Pəhlu-ye yek-digər həme dər xun neşəsteim
(Biz ürəksizlər cahan bağında gül ləçəkləri kimi
Hamımız yanaşı qan içində oturmuşuq)

Gül çiçəklərini şair aşiqlərə bənzədibmiş. Şah Abbas bu bənzətməni anlayır və belə bir duyuma görə şairi alqışlayır. Amma eyni zamanda onu da deyir ki, aşiqlər gül çiçəklərinə bənzətmək bir qədər kəskin alınıbdır (50).

Ümumiyyətlə, Şah Abbas tez-tez şəhər qəhvəxanalarına baş çəkərdi. Onun hakimiyyəti illərində İsfahanda və eləcə də səltənətin digər böyük şəhərlərində çoxlu sayda qəhvəxanalar var idi. Şah Abbasın bu əyləncə ocaqlarına marağı olduğu bilindiyi üçün onların sayı gündən-günə artmaqda idi. İnsanlar bu qəhvəxanalarda vaxtlarını keçirə, günün sonunda istirahət edə və bəzən də bəzi əyləncələrlə məşğul ola bilərdilər. Qəhvəxanaların çoxunun xidmətçiləri erməni, gürcü və digər qeyri-müsəlmanlar arasından seçilərdilər. Bu zaman da ona diqqət yetirilərdi ki, həmin xidmətçilər yaraşıqlı oğlanlar olsunlar. Xidmət keyfiyyəti ilə müştərilərin

tələblərini ödəyən qəhvəxanalar İsfahanda xeyli çox idi. Onların çoxu bir-birinə qonşu idilər və çoxlarının arasında heç divar da yox idi. Yəni bir qəhvəxanada cərəyan edənləri digər qəhvəxanalardan da müşayiət etmək olardı. Bu qəhvəxanaların işinə musiqiçilər də dəvət edilərdilər. Şairlər və digər sənət adamları da axşamlar bu qəhvəxanalara toplaşar və öz yaradıcılıqları ilə bağlı söhbətlər aparardılar. Müştərilərin diqqətini cəlb etmək üçün qəhvəxanalarda bəzən məşhur poemaların hissələri oxunardı. Şah Abbasın hakimiyyəti illərində İsfahanda bir neçə qəhvəxana xüsusilə şöhrət tapmışdı. Onların arasında Baba Fərraş, Hacı Yusif, Tufan və digərləri var idi. Şah Abbas belə əyləncə ocaqlarında olanda oradakı şairlərlə söhbətlər edir, onların yaradıcılığı ilə maraqlanırdı.

Bütünlükdə, Şah Abbas istedadlı şairləri yüksək qiymətləndirir və onları öz məclislərinə dəvət edirdi. Yuxarıda qeyd edildiyi kimi, belə məclislərdə həm yeni şerlər səsləndirilər, həm də şairlərin bədahətən şer demək qabiliyyətləri yoxlanardı. Bu zaman öz istedadı ilə seçilən şairlər şah tərəfindən səxavətlə mükafatlandırılardı. Təzkirələrdə olan məlumata görə, fars vilayətində baş qaldıran qiyamın yatırılmasından sonra Şah Abbas İsfahana gəldi. Şahın gəlişi ilə bağlı İsfahan çıraqban edilmişdi, meydan və küçələrdə çoxlu sayda çıraqlar işıqlandırılmışdı. Bəlli olduğu kimi, Şah Abbas şəhər meydanlarının çıraqban olmasını çox xoşlayırdı və İsfahanın çıraqban gecəsini seyr etmək üçün Şah Abbas bir dəfə yaxın ətrafı və şairlərlə birlikdə mərkəzi meydana çıxırlar. Şahın yanındakı adamlar arasında Taqıyəddin Məhəmməd Əvhədi adlı bir şair də varmış. Əvhədi şah meydanının çırağban olmasını görüb bədahətən bir rübai səsləndirir. Bu rübaidə İsfahan meydanını çıraqlara tutulması vəsf edilirdi və belə bir fikir söylənilirdi ki, bu çıraqlar sanki Şah Abbasa səcdə etmək üçün yerə enmiş ulduzlardır. Şah Abbas bu rübaini çox xoşladı və yanında olan digər şairlərə də müraciət etdi ki, onlar da öz bacarıqlarını göstərsinlər. Bu şairlər də hərəsi bir parça nəzm söyləyir. Şah Abbas diqqətlə onları dinləyir. Lakin şah Əvhədi tərəfindən söylənmiş rübaini

söylənilənlərin hamısından üstün tutur. Ona görə də Şah Abbas Əvhədini səxavətlə mükafatlandırdı, onu öz nədimləri sırasına daxil etdi və özü ilə o zaman səltənət paytaxtı olan Qəzvinə apardı. Əvhədi də təsdiq edirdi ki, sonralar dəfələrlə Şah Abbasın hüzurunda şairlər məclisi təşkil edilmişdi və bu məclislərdə istedadlarını nümayiş etdirən şairlər şah mükafatlarına layiq görülürdülər. Belə məclislərin birində Şah Abbas şairlik istedadlarına əmin olduğu Əvhədi və Şəfaiyə tapşırdı ki, Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poemasına nəzirə olaraq türk dilində yazılmış bir poemanı fars dilinə tərcümə etsinlər. Mövcud olan məlumata görə, Əvhədi də şah tapşırığına uyğun olaraq həmin poemanın bir hissəsini fars dilinə tərcümə etdi (51).

İstedadını xoşladığı şairlərin evinə yollanmaq da Şah Abbasın söz yaradıcılığı ilə məşğul olan insanlara qayğısının bir nümunəsi idi. Yuxarıda qeyd edildiyi kimi, şair Məsihinin evində bir neçə gün qonaq qalması da bu insanın şairlik istedadına verdiyi qiymət ilə bağlı idi.

İstedadlı söz ustalarının Şah Abbas tərəfindən çox böyük səxavətlə mükafatlandırılması haqqında da faktlar elmi-tarixi ədəbiyyatda öz əksini tapmışdır. Belə səxavətə layiq görülən şairlərdən biri Şani təxəllüslü söz ustası idi. Bu söz ustasının bir məclisdə dediyi şer o qədər Şah Abbasın xoşuna gəlmişdi ki, onu zərə tutmuşdu. Sonradan hətta bir sıra söz ustaları öz əsərləri ilə şahın xoşuna gələrək belə mükafatlanmalarını istəsələr də, öz istəklərinə müvəffəq ola bilməmişdilər.

Bütünlükdə, Şah Abbasın hakimiyyəti illərində yaranmış olan ədəbiyyat Səfəvi dövrü ədəbiyyatının yeni və zəngin bir səhifəsini təşkil edir.

2. Şah Abbas dövründə incəsənət və elm

Şah Abbasın hakimiyyəti illərində elm, mədəniyyət və incəsənətin inkişafının yeni bir səhifəsi açıldı. Bir tərəfdən səltənətin iqtisadi həyatının canlanması, təsərrüfatın genişlənməsi, digər tə-

rəfdən də Şah Abbasın şəxsi qayğısı və marağı incəsənətin və elmin dövr üçün xarakterik olan sahələrinin tərəqqisinə münasib bir zəmin yaratdı. Yəni Şah Abbas dövründə həyatın bütün sahələrində özünü göstərən canlanma və inkişaf sənət və elm yeniliklərlə tamamlanırdı.

Bu yenilik və inkişaf Şah Abbas dövrünün memarlığını, tətbiqi sənət sahələrini və o dövrdə daha çox ənənəvi olan elm sahələrini əhatə etmişdi. Bu dövrün **memarlığı** və şəhərsalma mədəniyyəti haqqında əvvəlki tədqiqatlarda da fikirlər ortaya qoyulmuşdu (52). Ona görə müxtəsər olaraq onu qeyd etmək olar ki, Şah Abbasın hakimiyyətə gəlməsindən sonra Səfəvi memarlığında da yeni bir səhifə açıldı. Xüsusilə, səltənət paytaxtının İsfahana köçürülməsi Səfəvi memarlığına yeni bir təkan verdi. Çünki Şah Abbas özü yalnız yeni paytaxt seçmədi. Həm də bu paytaxtı yenidən qurdu, yeni bir şəhər saldı və əzəməti şəhəri Səfəvi səltənətinin simvollarından birinə çevrildi.

Bütünlükdə dövrün memarlığını öz təyinatına və məzmununa görə üç istiqamətdə qruplaşdırmaq mümkündür: dini memarlıq, qeyri-dini memarlıq və saray memarlığı (53). Şah Abbasın hakimiyyəti illərində bu istiqamətlərin hər üçündə canlanma və inkişaf mövcud idi. Heç şübhəsiz ki, bütün bu istiqamətlərin inkişafının ən yaxşı göstəricisi və təsdiqi İsfahan şəhəri idi. Şah Abbasın rəhbərliyi altında bu şəhər yenidən tikildi və tədricən Səfəvi dövlətinin paytaxtına çevrildi. Bu şəhər əzəmətli bir dövlətin əzəmətli paytaxtı məzmununu və görünüşünü aldı. Nəticədə İsfahan şəhəri yeni bir görkəm kəsb etməklə şəhərsalma mədəniyyətinin ən yaxşı nümunələrindən biri oldu. Şah Abbas səltənətin qüdrətini diriltdiyi kimi, onun paytaxtını da diriltdi, bu gün də dünya memarlığının ən gözəl incilərindən olan bir şəhər yaratdı. Səfəvi tarixinin mötəbər tədqiqatçılarından biri olan Rocer Seyvori Şah Abbasın İsfahan memarlığını haqlı olaraq belə dəyərləndirirdi: "İran haqqında kiçicik təsəvvürü olan hər bir insan "İsfahan- nesf-e cahan" (İsfahan dünyanın yarısıdır) ifadəsini eşitmişdir. Bu ifadəni qoşan bizə başa salmağa çalışır ki, dünyanın digər yarısını isə cənnət təşkil

edir. Bu məğruranə şəhər bir nəfərin yaradıcılığıdır - Böyük Şah Abbasın. Vilford Belantın doğrucasına dediyi kimi, "İsfahan Şah Abbasın yadıgarıdır" (54).

Mütəxəssislər qeyd edirlər ki, səltənət paytaxtı olan böyük bir şəhərin bir nəfər tərəfindən planlaşdırılması və ya onun yenidən qurulmasında bir nəfərin xüsusi rolunun olduğu şəhərlər mövcuddur. Amma onların hamısından qabaq İsfahan kimi əzəmətli bir şəhər məhz Şah Abbasın zehniyyəti və yaradıcı təfəkkürü ilə ərsəyə gəlmişdi (55).

Şah Abbas doğrudan da yalnız səltənət sarayının və ayrı-ayrı böyük memarlıq abidələrinin tikintisi ilə kifayətlənmədi. O, bütün elementləri və infrastrukturu ilə birlikdə qədim tarixi olan böyük bir şəhəri yenidən qurdu və onu bugünkü əzəmətinə çatdırdı. İsfahanda yalnız saray və şah meydanı salınmadı. Bu şəhərdə məscidlər, karvansaralar, mədrəsələr, bazarlar, hamamlar, qalalar, bağlar, xiyabanlar, körpülər tikildi və bütün bu tikililərin ahəngdar ansamblı yaradıldı. Özündən sonra irs qoyduğu memarlıq incilərinə görə Şah Abbası həm də qurucu bir hökmdar kimi xarakterizə etmək olar. Bu mənada fəaliyyətinin digər sahələrinə toxunmadan Şah Abbası yalnız elə İsfahan kimi dünya memarlıq incisini qurub-yaratmasına görə bəşər tarixinin böyük dühalarından bir kimi yad etmək olar.

Mütəxəssislərin yazdığı kimi, Şah Abbas memarlğının yaradılmasında dövrünün zəka sahiblərindn biri olan Şeyx Bəhaəddin Məhəmməd Amolinin müstəsna xidmətləri var idi. O, istedadlı memar olmaqdan əlavə, həm də filosof, Quran təfsirçisi, fəqih, münəccim, müəllim, şair idi. Şeyx Bəhayi nə dərəcə istedadlı mühəndis idisə, o dərəcə də istedadlı alim və filosof idi. İsfahan şəhərinin yenidən qurulması və memarlıq incisinə çevrilməsi ilə bağlı Şah Abbasın ideyalarının məhz onun tərəfindən planlaşdırıldığı bildirilir (56).

Şeyx Bəhayi İsfahan memarlığını yaradanlardan biri idi. Dünyasını dəyişəndə də bu insan planlaşdırdığı Nəqşi-cahan meydanından axirət dünyasına yola salındı. İsgəndər bəy Münşinin yaz-

dığına görə, İsfahanın memarı olan bu istedadlı insanın son mənzilə yola salınmasına o qədər insan toplaşmışdı ki, hətta onun tərəfindən planlaşdırılmış Nəqşi-cahan kimi böyük bir meydan da izdiham üçün kiçiklik edirdi: "Bu ilin şəvval ayının dördündə (22 avqust, 1621) xəstələndi, başını yeddi gün natəvanlıq yastığına qoydu. Şəvval ayının on ikisində (30 avqust, 1621) seşənbə günü xəstəliyinin səkkizinci günündə şeyxin şərafətli ruh quşu bədən darısqallığından uçdu, müqəddəs aləmə pərvaz etdi. Həzrət zilləllah şah [o zaman] yaylaqdaydı. Şəhərdə qalmış bir neçə əyan basdırmağa aparılan cənazənin önündə və axırında addımlamağa başladılar. Hamı cənazə altına girmək üçün bir-birinə mane olurdu. O qədər izdaham vardı ki, Nəqşe-Cahan meydanının geniş olmasına baxmayaraq adamlar bir-birilərinin altında qalırdılar. Belə vəziyyətdə cənazənin aparılması olduqca çətin idi. Şeyx Ətiq adlı came məsciddə onu quyu suyu ilə qüsl etdilər. Üləmalar və fazil adamlar cənazəyə Allahın rəhməti üçün namaz oxuyurdular Ali qədirli iki imamzadənin dəfn olunduğu həzrət imaməl-sacedin (səcdə edənlərin imamı – *red.*) və qiblətül-arifin (ariflərin qibləsi – *red.*) İmam Zeynalabdinin şərafətli büqəsində cənazəni yerə qoydular, oradansa müqəddəs Məşhədin Rezəviyyə rövzəsinə apardılar, şeyxin öz vəsiyyətinə görə, müqəddəs Məşhəddə yaşadığı vaxt müdərris olduğu imamın müqəddəs ayağı altında dəfn etdilər. Allah rəhmət etsin" (57).

Şah Abbas tərəfindən səltənət paytaxtının İsfahana köçürülməsinə qədər bu şəhərin mərkəzi Harun-u Vilayət meydanı hesab edilirdi. Bu meydanın ətrafında son yüzilliklərin memarlıq nümunələri ilə rastlaşmaq mümkün idi. Həmin nümunələr özündə səlcuq, elxani, müzəffəri və teymuri dövrlərinə aid olan binalar idilər. Yəni İsfahan şəhəri müxtəlif hakimiyyətlərin təsirini özündə əks etdirən bir şəhər arxitekturasına malik idi. Onlar da planlı və nizamlı şəkildə deyil, yerli şəraitə uyğun olaraq tikilmişdilər. Şah Abbas səltənət paytaxtını İsfahana köçürdükdən sonra onun memarlıq inkişafı yeni bir mərkəzdə cəmləşdi. Onun XVI-cı əsrin sonlarında imzaladığı fərmana əsasən, şəhərin yenidən qurulması

Nəqşi-cahan meydanı və Çaharbağ xiyabanı ətrafında aparıldı. Nəqşi-cahan meydanı ətrafında saray binaları, dini binalar və ticarət mərkəzi açıldı. Çaharbağ xiyabanı ətrafında isə səltənətin əmir və əyanlarının, vəzifə sahiblərinin yaşayış imarətlərinin tikintisi aparıldı. Ümumiyyətlə, məlumdur ki, İsfahanda tikilən bütün binaların layihələri Şah Abbasa göstərilirdi və onunla razılaşdırılırdı. O da məlumdur ki, ki, hətta qeyri-dinlərə məxsus olan təbəələrin tikdikləri böyük binaların layihələri əvvəlcə Şah Abbasa göstərilir və onun razılığından sonra layihənin icrasına başlanardı. Şah tərəfindən layihəsi bəyənilən tikintilərin aparılması isə şah qulamlarının nəzarəti altında baş verirdi. Bu nəzarətçilər tikintini icra edəcək işçi qüvvəsini, sənət adamlarını, tikinti mallarını tapıb toplayır və sonra da tikintinin gedişinə nəzarət edirdilər (58).

Bu tikintilərin aparılması üçün köhnə şəhərin cənub tərəfi seçildi. Bu ərazi həm boş idi, həm də Zayəndərud çayına yaxın idi. Bu da imkan verdi ki, boşluq ərazidə şəhərin yeni hissəsinin sərbəst şəkildə planlaşdırılması və bu planlaşdırmanın da yaxınlıqdakı çayla əlaqələndirilməsi aparılsın.

İsfahan memarlığının səciyyəvi xüsusiyyətlərindən biri budur ki, onun inkişafında həm ənənəçilik nəzərə alınmış, həm də yeni bir yanaşma tətbiq edilmişdir. Səlcuqlar hakimiyyəti dövründən başlayaraq Səfəvi arealında hakimiyyətdə olmuş türkdilli dövlətlərin türk-islam memarlığının nişanələrini Şah Abbas dövrünün memarlığında, o cümlədən də İsfahanın memarlığında görmək mümkündür.

Şah Abbas səltənət paytaxtını İsfahana köçürəndə onun taxta çıxmasından təxminən on il ötmüşdü. Bu illər ərzində onun memarlığa xüsusi bağlılığını, onun təşəbbüsü ilə gözoxşayan binaların tikilməsini görmək mümkün deyildir. Yalnız İsfahana köçəndən sonra Şah Abbas yeni memarlığa rəvac verməklə həm də səltənətinin qüdrətini ortaya qoymağa başladı. Mütəxəssislər də qeyd edirlər ki, İsfahan Şah Abbasın qəlbi idi (59). Çünki o, İsfahanı yenidən qurdu, bu şəhəri səltənətin qüdrətinin göstəricisi olmaqla, həm də dünya memarlığının şah əsərlərindən birinə çevirdi.

Şah Abbas mərkəzi meydan olan Nəqşi-cahan meydanını elə planlaşdırdı ki, bu meydan səltənətin həm siyasi, həm iqtisadi, həm dini, həm də təhsil mərkəzi oldu. Bu meydan ictimai hadisələrin baş verdiyi bir mərkəz idi. Həmin elementlərin yer tapdığı meydanda həm də xüsusi bir gözəllik yaradan simmetriya vardır. Nəqşi-cahan meydanının düzbucaqlı olan sahəsinə giriş üçün hər tərəfdən bir qapı olmaqla dörd qapısı var idi və bu qapıların üzərində yaraşıqlı tağlar tikilmişdi. Bu tağların hər birinin ayrı-ayrı memarlıq üslubunda tikildiyi bildirilirdi. Meydan bütünlükdə iki mərtəbəli tikili ilə əhatə olunmuşdur və bu tikililərin eyvanı mehrabvari şəkildə qurulmuşdur. Eyvanların arası aşağıdan yuxarı kaşılarla bəzədilmişdir. Meydanın hər tərəfindin mərkəzində bir hündür tikili vardır. Şimal tərəfdə Qeysəriyyə bazarına giriş üçün hündür tağlı darvaza vardır. Onun qarşısında, meydanın cənub hissəsində Şah məscidinə girişin tağlı və minarəli girişi vardır. Meydanın qərb tərəfində Ali qapı, onunla üzbəüz isə Şeyx Lütfülla məscidi yerləşir (60).

Qeyd edildiyi kimi, Nəqşi-cahan meydanı elə planlaşdırılmışdı ki, səltənətin ürəyi bu meydanda döyünürdü. Belə ki, siyasi idarəçilik, böyük dövlətlərin elçilərinin qəbul edilməsi əsasən bu meydan ətrafındakı iqamətgahlarda həyata keçirilirdi. Qeysəriyyə bazarı səltənətin ən böyük bazarlarından biri idi. Bundan başqa həftə arası meydan özü də ticarətin həyata keçdiyi bir mərkəzə çevrilirdi. Gün ərzində meydan ticarət köşklərini quran tacirlərin ixtiyarına verilərdi. Həftə sonu, istirahət günləri, eləcə də axşamlar Nəqşi-cahan meydanı şəhər sakinlərinin əyləncə məkanına çevrilərdi. Nəqşi-cahan meydanında yerləşən məscidlər cümə məscidləri idi və cümə günləri şəhər sakinləri bu məscidlərə axışardılar. Bir sözlə Nəqşi-cahan meydanı yalnız əzəməti ilə deyil, həm də insanların asanlıqla istifadə edə biləcəyi praktikliyi ilə fərqlənirdi.

Nəqşi-cahan meydanında yerləşdirilmiş iki məscid də əzəməti və memarlıq inciliyi ilə seçilir. Onların hər ikisi çox böyük həcmə, zəngin memarlıq elementlərinə malikdir. Şah məscidi Lütfulla

məscidinə nisbətən daha böyükdür. Lütfulla məscidinin minarələri yoxdur. Bu məscidin mərkəzdə hündür və geniş bir qübbəsi vardır. Məscidə giriş meydanın daxilindəndir və bu giriş böyük və əzəmətli bir tağ şəklində qurulmuşdur. Girişdən açılan qapı çox da uzun olmayan bir koridora birləşir və bu koridordan keçməklə məscidin böyük salonuna daxil olmaq mümkündür. Lütfulla məscidi əsasən şah ailəsinin ibadət yeri kimi nəzərdə tutulmuşdu. Şah məscidinin memarlıq həlli də kifayət qədər maraqlıdır. Bu məscidin əsas salonu meydanı əhatə edən tikililərdən bir qədər arxadadır. Məscidə giriş Nəqşi-cahan meydanına açılır. Burada hündürlüyü təxminən 27 metr olan əzəmətli bir tağ tikilmişdir. Bu tağdan adladıqdan sonra təxminən 45 dərəcəlik bucaq altında sağa meyllənmək lazımdır ki, qarşıda olan əsas salona daxil olmaq mümkün olsun. Şah Abbasın dünyasını dəyişməsindən az sonra tikintisi başa çatan bu məscidin əsas salonu da əzəməti və yaraşığı ilə seçilməkdədir. Məscidlərin hər ikisinin divarları üzərində olan kitabələdə memarların adı da həkk olunmuşdur. Bu əzəmətli tikililərin xarici görkəminə yüksək ustalıqla icra olunmuş kaşı işləmələri xüsusi bir gözəllik gətirmişdir. Mütəxəssislərin fikrincə, bu məscidlərin tikintisində də teymuri üslubu açıq şəkildə hiss olunmaqda idi. Çünki Şah Abbas hələ Heratda yaşayarkən bölgədə teymuri üslubunda tikilmiş məscid və memarlıq abidələri ilə yaxından tanış idi. Amma sözsüz ki, bu üsluba yaradıcı şəkildə yanaşılırdı və Şah Abbasın rəğbətlə yanaşdığı teymuri üslubu daha da zənginləşdirilirdi(61).

Baxmayaraq ki, bu məscid Şah Abbasın dünyasını dəyişməsindən sonra başa çatmışdı, bununla belə onun üzərində Şah Abbasla bağlı olan bir sıra kitabələr qalmışdır. Məscidə girişin yuxarısında xəttat Əlirza Abbasın əl işi olan bir kitabə vardır və həmin kitabədən bəlli olur ki, Şah Abbas bu məscidi öz vəsaiti hesabına Şah Təhmasibin savabı üçün tikdirmişdir. Bu məscidin divarlarında Məhəmmədrza İmaminin, Əbdülbaqi Təbrizinin, Məhəmməd Saleh İsfahaninin xəttatlığı ilə başqa kitabələr də mövcuddur. Həmin kitabələr özləri də ayrı-ayrılıqda memarlıq nümunələridir. Məsci-

din minarələrinin dövrəsində, habelə onun ayrı-ayrı hissələrində Qurani-Kərimdən "İxlas" surəsi, habelə "Allah-Əkbər" sözləri yazılmışdır. Şah Abbasdan sonrakı dövrdə də bu məscidə digər kitabələr əlavə edilmişdir. Bunlardan başqa məscidin kitabələrində Şah Abbasın bəzi fərmanları da həkk olunmuşdur. Bu fərmanlardan birində ayna düzəldənlərin, paltar ustalarının, dəlləklərin və digərlərinin vergilərinin bağışlanması yazılmışdı. Bir başqa fərmanda isə kəndir bazarının dəllallarının 84 tümənlik maliyyə borcunun silindiyi bildirilirdi (62).

Nəqşi-cahan meydanına yaraşıq verən memarlıq incilərindən biri də Ali qapı sarayıdır. Vaxtilə beş mərtəbəli olmuş bu sarayın hündürlüyü təxminən 33 metrə yaxın idi. Sarayın daxilində çoxlu sayda kiçik otaqlar vardır və güman edilir ki, həmin otaqlar saray mənsubları üçün nəzərdə tutulmuşdu. Sarayın diqqət çəkən əsas özəlliyi onun ikinci mərtəbəsinin böyük və geniş eyvanı olması və eyvanın hündür sütunlar üzərində qurulması. Ali qapı Şah Abbas zamanında tikilmiş və ondan sonra isə bu saraya əlavə tiklilər artırılmışdı. Meydana açılan sütunlu eyvan çox genişdir. Mövcud məlumatlara görə, bu eyvandan həm xidməti işlər üçün, həm də istirahət üçün istifadə olunardı. Belə ki, burada həm idarəçiliklə bağlı tədbirlər həyata keçirilər, həm də xarici qonaqlar qəbul edilərdi. Bundan başqa bu eyvandan həm də meydanın seyr edilməsi, meydanda keçirilən müxtəlif müsabiqələrə tamaşa edilməsi üçün istifadə olunardı. Ali qapının eyvanı meydanı əhatələyən iki mərtəbəli tikililərdən yuxarıda idi. Ona görə də eyvandan bütün meydanın əhatəli görünüşü açılırdı (63).

Yuxarıda qeyd edildiyi kimi, İsfahanın ikinci memarlıq mərkəzi Çaharbağ xiyabanı idi. Bu xiyabanın salındığı ərazinin dörd yerində üzüm bağları bar idi. Xiyabanın adı da buradan götürülmüşdü. Yəni dörd bağın olduğu xiyaban. Bu xiyaban şəhərin ictimai və şəxsi binalarını özündə birləşdirən və təxminən dörd kilometr uzanan bir xiyaban idi. Bu xiyaban şimaldan cənuba uzanır və Zayəndərud çayını keçdikdən sonra təxminən daha iki kilometr davam edirdi. Çaharbağ xiyabanı Hezarcirib adlanan bağ sahəsinə

qədər uzanırdı. Hezarcirib saray mənsublarının, şəhər sakinlərinin istirahəti üçün yaxşı imkanları olan bir ərazi idi. Maraqlı olan isə Çaharbağ xiyabanının planlaşdırılması, bu xiyabanın Zayəndərud çayı üzərində qurulmuş otuz üç aşırımlı körpü ilə birləşdirilməsi idi. Bu körpü şahın yaxın silahdaşlarından biri olan Fars hakimi Allahverdi xan tərəfindən tikilmişdir. Ona görə bu körpü həm də Allahverdi xan körpüsü kimi tanınmaqdadır. Bu körpü özü də ayrılıqda çox maraqlı və gözoxşayan bir memarlıq incisidir. Körpü elə tikilmişdir ki, onun yatağında qurulmuş enli sahələrdə isti vaxtlarda sərin suya yaxın bir fəzada sərinlənmək, dinlənmək və istirahət etmək mümkün idi.

İstər Çaharbağ xiyabanındakı tikililər, istərsə də Zayəndərud körpüsü üzərindəki körpü memarlıq inciləri olmaqla bir-birini tamamlayırdı. Həmin tikililər bu günün özündə də dünya memarlığının şah əsərləri sırasına daxil edilməyə layiq olan nümunələrdir.

Şah Abbasın hakimiyyəti illərində yalnız İsfahanda deyil, səltənətin digər şəhərlərində də geniş memarlıq işləri aparıldı. Bu dövrün memarlığında dini təyinatlı tikililər mühüm yer tuturdu. Bu mənada səltənətin elə bir böyük şəhəri tapmaq mümkün deyildi ki, orada böyük məscidlər tikilməsin. Lakin dövrün memarlığını təşkil edən sözsüz ki, yalnız dini tikililər deyildilər. Yollar, karvansaralar, ictimai və ticarət təyinatlı tikililər və s. səltənətin böyük şəhərləri olan Məşhəd, Ərdəbil, Təbriz, Qum və digərlərində də inşa olunurdu. Şah Abbas xüsusilə, Məşhədin və Ərdəbilin abadlaşdırılmasına, bu şəhərlərdəki ziyarətgah kompleksinin təkmilləşdirilməsinə böyük diqqət ayırırdı. Məşhəd ziyarətgahına olan diqqət Şah Abbasın etiqadı ilə bağlı idisə, Ərdəbilə olan diqqət isə ulu əcdadına olan bağlılıqdan irəli gəlirdi. Bu şəhərlərin hər ikisində aparılan tikinti-abadlıq işlərində də memarlıq sənətkarlığına geniş yer verilmişdi.

Şah Abbas Osmanlı ərazisindən keçməklə Həcc ziyarətinə yollanmağın çətinliklərini nəzərə alaraq səltənət zəvvarlarını daha çox Məşhədə cəlb etmək istəyirdi. Bu istək əslində, onun dini etiqadından irəli gəlirdi. Elə həmin etiqadın təsdiqi idi ki, Şah Ab-

bas İsfahandan piyada olaraq Məşhəd ziyarətinə yollanmışdı. Məşhəddəki İmam Rza ziyarətgahında zəvvarların ziyarət mərasimlərinin icrasını daha da asanlaşdırmaq üçün Şah Abbas tərəfindən bir sıra abadlıq işləri aparıldı. Ziyarətgah kompleksinin əvvəldən formalaşmış olması onun yenidən qurulmasına imkan verməsə də, Şah Abbas imkanlar daxilində bəzi təkmilləşdirmə işlərinin aparılmasına göstəriş verdi. Bunun nəticəsi kimi, Gövhərşad məscidinin şimal eyvanı, Balasər mədrəsəsi, köhnə kompleksin şərq və qərb eyvanları Allahverdi xan və Hatəm xan hücrələri təmir edildilər. Kompleksin bir sıra tikililərinin kaşı işləri yeniləndi və digər abadlıq işləri aparıldı. Bunların nəticəsi kimi, İmam Rza ziyarətgahı həm genişləndi, həm də görünüş baxımından daha baxımlı bir forma aldı (64).

Ərdəbildəki Şeyx Səfi ziyarətgahında da Şah Abbasın göstərişi ilə bir sıra maraqlı memarlıq işləri görülmüşdü. Bunlardan biri ziyarətgah kompleksinə daxil olan Darülhəfazın yenidən bəzədilməsi idi. Bu tikilidə yeni gəç işləri, qabarıq bəzək işləri aparıldı. Ziyarətgahın Çinixanası isə Şah Abbasın göstərişi ilə tikilmiş və bununla kompleks bir qədər də genişləndirilmişdi. Bu Çinixananın çox baxımlı bir görünüşü vardır. Tavanı kifayət qədər hündür olan bu salon sanki böyük bir mağaranı andırır və onun divarının yuxarısında çini qabların yığılması üçün ayrıca oyuqlar açılmışdır (65). Məlumdur ki, Şah Abbas sonradan səltənət xəzinəsində saxlanılan çoxlu sayda çini qabları Şeyx Səfi ziyarətgahına vəqf etdi və həmin qablar da Çinixanada saxlanmaqla, həm də ziyarətçilərə nümayiş etdirilirdi.

Fərəhabad kimi bir şəhərin salınması da Şah Abbas dövrünün memarlıq nümunələrindən biri idi. Bəllidir ki, şah iqamətgahının yerləşdiyi və daha çox Şah Abbasın istirahət iqamətgahı kimi nəzərdə tutulan Fərəhabad qısa zaman ərzində bütün infrastrukturu olan bir şəhərə çevrildi. Şah Abbasın rəhbərliyi altında bu şəhərdə geniş xiyabanlar, yaraşıqlı binalar, böyük saraylar və iqamətgahlar tikildi.

Şah Abbasın quruculuq işləri səltənətin yüksək vəzifəli və imkanlı adamları tərəfindən də davam etdirilirdi. Saray mənsubları, vilayət hakimləri yeni memarlıq nümunələri yaratmaqla Şah Abbasın da rəğbətini özlərinə cəlb etmək istəyirdilər. Yuxarıda haqqında danışılan Allahverdi xan körpüsü, Məşhəd ziyarətgahındakı Allahverdi xan eyvanı Fars vilayətinin hakimi Allahverdi xanın vəsaiti hesabına tikilmişdi. Onun tərəfindən tikilən memarlıq abidələri yalnız bunlar deyildi. Məsələn Kirman hakimi Gəncəli xan tərəfindən bu şəhərdə məscid, mədrəsə və karvansaranı özündə birləşdirən böyük bir kompleks tikilmişdi. Əzəmətinə və yaraşığına görə bu kompleks Şah Abbas dövrünün dəyərli memarlıq nümunəlindən biri sayıla bilər. Kirman meydanı İsfahanda Şah Abbas tərəfindən qurulmuş Nəqşi-cahan meydanın oxşarı kimi tikilmişdi. Təxminən 100 X 50 metr ölçüsündə olan bir meydanda yuxarıda adları çəkilən obyektlər yerləşdirilmişdi. Meydana bazar da əlavə edilmişdi və bununla həmin meydan əslində, şəhərin ictimai, siyasi, dini və iqtisadi mərkəzinə çevrilmişdi (66).

Şah Abbas dövrünün memarlığında karvansaralar mühüm yer tuturdu. Səltənətin iqtisadi həyatının canlanması, ticarət əlaqələrinin genişlənməsi yeni-yeni karvansaraların da salınmasına ehtiyac yaradırdı. Aparılan tədqiqatlardan bəllidir ki, Şah Abbasın hakimiyyəti illərində vilayətlər arası əlaqələrin təhlükəsizliyi təmin edildi, gediş-gəliş asanlaşdırıldı və bu da karvansaraların daha səmərəli şəkildə fəaliyyəti üçün münasib zəmin yaratdı. Araşdırmalar da göstərir ki, Şah Abbasın hakimiyyəti illərində karvansaralar şəbəkəsi yaradıldı və bu karvansaralar tacirlərin fəaliyyətinin nizamlanmasına və əlaqələndirilməsinə yol açdı. Həm də Şah Abbas dövründə karvansara memarlığının yeni bir üsulu özünü göstərməyə başladı. Bu karvansaralar əvvəlkilərlə müqayisədə daha geniş, daha rahat və daha görünüşlü idi. Həmin karvansaralar həm də öz möhkəmliyi ilə seçilirdi və hətta Şah Abbasın hakimiyyətindən uzun müddət sonra da onlar istifadəyə yararlı idilər. Şah Abbasın dünyasını dəyişməsindən bir müddət sonra İsfahana gəlmiş bir xarici səyyah yazırdı ki, təkcə bu şəhərdə 1802 karvan-

sara vardır (67). Bu karvansaraların böyük hissəsi sözsüz ki, Şah Abbasın hakimiyyəti illərində tikilmişdi. Yəni karvansara memarlığı Şah Abbas dövrü memarlığının ayrıca bir istiqaməti kimi formalaşmışdı. Karvansaralar adətən bir kompleks halında layihələndirilirdi. Bu mərkəzlərdə bir qayda olaraq məscidlər də nəzərdə tutulur, ticarət mallarının saxlanması üçün ayrıca anbarlar tikilir, heyvanlara xüsusi yerlər ayrılır və su ilə təchiz olunurdu. Karvansaralar həm də təhlükəsizlik tələblərinə cavab verməli idilər. Bütün bu elementlər layihələndirmə zamanı nəzərə alınmalı idi.

Şah Abbasın hakimiyyəti illərində memarlığın sürətli inkişafı bu sahəyə bağlı olan digər sənətkarlıq sahələrinin də sürətli inkişafına yeni imkanlar açdı. Mütəxəssislər də qeyd edirdilər ki, Şah Abbasın hakimiyyətə gəlməsi ilə memarlıqla bərabər, digər sənət sahələrində bir dirçəliş və canlanma baş verdi. Çünki Şah Təhmasibdən sonra hakimiyyətdə yaranmış olan qeyri-sabitlik, siyasi hərc-mərclik sənət sahələrinə diqqəti xeyli zəiflətmişdi. Bunun nəticəsi idi ki, söz və sənət sahiblərinin xeyli hissəsi mühacirət etmək məcburiyyətində qalmışdı. Mühacirətə getməyənlər isə səltənət paytaxtından uzaq düşür və vilayət hakimlərinin saraylarında özlərinə himayədarlıq tapmağa çalışırdılar (68).

Xüsusilə belə bir məqama diqqət yetirilir ki, Şah Abbas sənətkarlıq üslublarından teymurilər ənənəsinə böyük dəyər verirdi. Çünki Əmir Teymurun hakimiyyəti illərində onun yaratdığı imperiya daxilində sənətkarlıq yüksəliş dövründə idi və onun ənənələri Şah Abbas dövründə də davam edirdi (69). Araşdırmaların birində isə təsdiq olunurdu ki, Şah Abbas dövrü sənət sahələrində aparıcı istiqamətlərdən biri olan nəqqaşlıq teymuri dövrü nəqqaşlığı üzərində qurulmuşdu (70). Yəni Şah Abbas dövrü sənətkarlığının inkişafına türk sənətkarlıq ənənələrinin böyük təsiri var idi.

Tətbiqi sənət sahəsində **kaşı rəssamlığı** Şah Abbasın hakimiyyəti illərində rövnəq tapmış istiqamətlərdən biri idi. Məscid tikintilərinin artması və onlara əzəmətli görünüş verilməsi həm də kaşi işləri vasitəsilə həyata keçirilirdi. Elə Nəqşi-cahan meyda-

nında tikilmiş olan Lütfulla məscidi ilə Şah məscidinin əzəmətli görünüşü həm də bu məscidlər üzərində aparılmış kaşı və rəngkarlıq işləri ilə bağlı idi. Məscidlərin müxtəlif hissələrində yerləşdirilmiş xəttatlıq nümunələri də kaşı rəssamlığı ilə icra edilirdi. Lütfulla məscidinin kaşı rəssamlığının dövrün tanınmış sənətkarlarından olan Məhəmməd Rza İsfahani tərəfindən aparıldığı bildirilirdi. Bu məscidin kitabələri isə süls xətti ilə Əlirza Abbasi tərəfindən işlənmişdi. Əlirza Abbası Təbriz şəhərindən idi və o, Təbriz məktəbinin ən yaxşı ənənələrinin daha yüksək səviyyədə davamçısı idi. Bütünlükdə, Əlirza Abbasi Şah Abbas dövrünün ən yaxşı xəttatlarından biri hesab edilirdi. Şah məscidinin mehrabının qurulması zamanı istifadə olunan kaşı işlərinin bənzəri yox idi. Tədqiqatçıların fikrincə, burada aparılmış işləri kaşı rəssamlığının və Səfəvi dövrü memarlığının ən yaxşı nümunəsi idi. Və ya həmin məscidin kümbəzinin işlənməsi üçün nümayiş etdirilən məharət bu sənət sahəsinin Şah Abbas dövründə son dərəcə inkişaf etməsinin təsdiqi idi (71).

Şah Abbas dövrü memarlığının fərqləndirici xüsusiyyətlərindən biri, tikintilərin xarici görünüşünə daha çox diqqət yetirilməsi idi. Həmin xarici görünüş də əsasən kaşı və rəngkarlıq işləri ilə həyata keçirilirdi. Sözsüz ki, bu xarici görünüş tikintinin daxili planlaşdırması ilə ahəngdarlıq təşkil edirdi. Bununla belə, xarici görünüşün təmin edilməsi, yəni kaşı işləri və rəngkarlıq memarlıq elementlərini tamamlamaqla güclü bir təsir yarada bilirdi. Kaşı rəssamlığı isə öz növbəsində kaşı istehsalının nizamlanmasına təkan verirdi. Bu iş də əslində mürəkkəb bir proses idi. Kaşının hazırlanması, rənglənməsi, həmin rəngin kaşı istehsalı zamanı alınması ciddi bir texnologiyanın və məharətin olmasını tələb edirdi. Şah Abbasın hakimiyyəti illərində bu sahənin də artıq böyük bir məktəbi formalaşmışdı. Aparılan tədqiqatlara görə, Şah Abbas dövründə əsasən "həft rəng" (yeddi rəng) deyilən dörd künc kaşılardan istifadə olunurdu. O da bildirilir ki, bu dövr kaşılar əvvəlki dövrlərdən fərqli olaraq çox da parlaq deyildilər. Bununla belə, onlar yüksək sənətkarlıqla hazırlanırdılar (72).

Şah Abbas hakimiyyətə gələndən sonra gördüyü mühüm işlərdən biri səltənət kitabxanasının fəaliyyətinin bərpa edilməsi oldu. Bu kitabxana hələ I Şah İsmayılın hakimiyyəti illərində yaradılmış və Şah Təhmasibin hakimiyyəti illərində çox səmərəli bir fəaliyyətə malik olmuşdu. Ondan sonrakı dövrdə səltənət həyatının bir çox sahələri kimi, kitabxananın fəaliyyəti də diqqətdən kənarda qalmışdı. Şah Abbas səltənət daxilində elmin və mədəniyyətin inkişafına təkan vermək üçün bu kitabxananın fəaliyyətini canlandırmağa qərar verdi. Onun fərmanı ilə dövrün tanınmış elm və sənət adamı olan Sadıq bəy Əfşar bu kitabxananın rəhbəri təyin edildi. Yuxarıda qeyd edildiyi kimi, Sadıq bəy Əfşar nəqqaş, rəssam, xəttat və hətta şair idi. O, səltənətin kitabdarı adlanırdı. Şah Abbas şübhə etmirdi ki, onun rəhbərliyi altında çoxlu sayda sənətkarlar toplanacaq və sənət sahələri də onlar tərəfindən inkişaf etdiriləcəkdir. Kitabxananın fəaliyyətinə bir canlanma gətiriləndən sonra Şah Abbas marağında olduğu bir kitabın yeni əlyazmasının hazırlanmasına və bu əlyazmanın minüatür rəssamlıqla zənginləşdirilməsini tapşırdı. Sadıq bəy Əfşar da dərhal bu sifarişin icrasına başladı, çoxlu sayda xəttatı, nəqqaşı, miniatürçü rəssamı, kitab səhifələyənləri, cildləyənləri kitabxanaya dəvət etdi. Onların iştirakı ilə şah tərəfindən sifariş edilən kitabın hazırlanmasına başlandı. Dövrün kitabçılıq ənənələrinə uyğun olaraq kitabın səhifələri ayrıca hazırlanmalı, mətn seçilmiş xətlə onun üzərinə yazılmalı, rəssamlıq işləri ayrıca səhifələr üzərində aparılmalı və sonra da onlar bir yerə yığılaraq kitab halına salınmalı idi. Bu kitabın sənətkarlıq təhlili göstərir ki, mətnin yazılmasında teymuri və türk ənənələri öz təsirini saxlamaqda idi. Kitaba daxil edilmiş minüatür rəsmləri isə Sadıq bəy Əfşar və dövrün tanınmış rəssamı Ağa Rza çəkmişdir (73).

Qeyd edildiyi kimi, Sadiq bəy Əfşar dövrünün tanınmış nəqqaş-rəssamlarından biri idi. Onun da yaradıcılığı əsasən, Təbriz rəssamlıq məktəbinin ənənələri üzərində qurulmuşdu. O, nəqqaşlıq üzrə özünün ilk biliklərini və vərdişlərini Müzəffər Əli adlı məşhur nəqqaşın yanında almışdı. Sonradan isə öz istedadı və qa-

biliyyəti ilə dövrünün kamil sənətkarlarından birinə çevrildi. Sənətə və sənətkarlara səltənət daxilində diqqət azaldığı vaxtlarda Sadiq bəy bir müddət bu işlərdən uzaqlaşdı, dərvişlik etdi, səyahətə çıxdı. Əslində, Şah Abbas hakimiyyətə gələndə o, səltənət kitabxanasının rəhbəri idi. Şah Abbas isə onu bu vəzifədə saxladı və ona səltənət kitabxanasının fəaliyyətinin canlandırılmasını tapşırdı. Sadiq bəy Əfşar da bu istiqamətdə səmərəli işlər gördü. Lakin Sadıq bəy kifayət qədər kəmhövsələ, kəmfürsət, tündməcaz bir sənətkar idi və ona görə ətrafındakılarla dil tapmaq bəzən onun üçün çətin olurdu. Bunun nəticəsi idi ki, Şah Abbas bir dəfə onu kitabdar vəzifəsindən azad etdi, bir müddət sonra isə onu bu vəzifəyə yenidən bərpa etdi (74). Xarakterinin özünəməxsusluğuna baxmayaraq, Sadiq bəy Əfşar dövrünün ən məşhur nəqqaşlarından biri idi və Şah Abbas dövrü nəqqaşlığının inkişafında onun böyük xidmətləri var idi. İsgəndər bəy Münşi onun haqqında belə yazırdı: "...hərtəfəfli inkişafa malik, sözü bütöv adam idi. Təxəllüsü Sadiqi idi. Hələ gənc ikən nəqqaşlığa meyl etmiş, gecə-gündüz əsrin nadir şəxsiyyəti olan Ustad Müzəffər Əlinin xidmətində olmuşdur. Ustad onun qabiliyyət və bacarığını müşahidə edib təlim-tərbiyəsi ilə məşğul olmuşdu. Sadiqi bəy şagirdlikdə kamal mərtəbəsinə yetişdi. Lakin, təbiətin qürur və inadı üzündən, habelə nəqqaşlığın bir müddət rəvacda olmaması səbəbindən, həmçinin zəmanənin onun arzularına uyğun dövran etməməsinə görə həmin peşəni tərk etdi, zahirpərəstlik libasını əynindən çıxartdı, "qələndərlər zümrəsi" tərkibində səyahətə çıxdı. O vaxtlarda Həmədan hakimi olan Əmir xan Mosullu Sadiqinin vəziyyətindən xəbər tutub, onu qələndərlik libasından çıxarıb, özünə mülazim etdi. O, onunla yaxşı rəftar edirdi. Türkcülüyünün (torkiyyət) və qızılbaşlığının (qızılbaşi) təbiətinə uyğun olaraq [özü] şücaət iddiasına düşdü və dövrünün şücaətli adamlarına saymazyana yanaşdı. İsgəndər şanlı nəvvabın dövründə Bədr xan və İsgəndər xan Əfşarın mülazimi oldu. Astrabad türkmanlarının mərəkəsi vaxtı o ağılasızmaz igidliklər etdisə də, amma heç vaxt nəqqaşlığından əl çəkmədi. Nəhayət, çox böyük inkişafa nail oldu, bənzərsiz qələmi

olan rəssam, tayı-bərabəri olmayan nəqqaş və əvəzsiz layihəçi [tərrah] oldu. Sadiqi bəy, özünün iti qələmi ilə minlərlə sənət əsəri yaratdı, qabiliyyət qabiliyyət və istedad zirvəri ilə bəzəndi, şairliyə və söz demək məharətinə yiyələndi. Onun yaxşı qəsidə, qəzəl və məsnəviləri mövcuddur. ...O, bu fənnin (nəqqaşlığın) zümrəsinə daxil olduğundan, onun adı şairlər silkinə yazılmadı. İsmayıl Mirzənin zamanında kitabxana işçilərindən idi, amma cənnətməkan şahın dövründə hörmətli kitabdarlıq vəzifəsinə yetişdi, şəfqətə layiq görüldü. Amma olduqca bədməzac, özündən razı və təng-hövsələ adamdı. Xasiyyətinin yaxşı, ya pis olmasından asılı olmayaraq o, həmişə nəfsani qərəzkarlıq (əğrazenəfsani) edir, öz dostları və həmkarları ilə keyfinin necəliyinə görə, həddindən artıq pis davranışa yol verirdi. Onlarsa onun bu xasiyyətinə dözürdülər. Ayağını insaf dairəsindən kənara qoyaraq hər kəslə pis davranmağını ifrat həddə çatdırdı. Buna görə də, büsatdan uzaqlaşdı, ehtiramını itirdi, xidmətdən kənar oldu. Amma, ömrünün sonuna qədər mənsəbi əlindən alınmadı. Sadiqi bəy Əfşar öz kitabdarlıq məvacibini ali divandan alırdı" (75).

Mövcud olan diqqət və dəyərin nəticəsi idi ki, Şah Abbas hakimiyyəti illərində yeni bir **nəqqaşlar** məktəbi formalaşmışdı. Bu nəqqaşların yaradıcılığı bu sənət sahəsinin inkişafında yeni bir səhifə açmışdı. Belə nəqqaşlar rasında Həbibulla Savəçi, Müsəvvər Kaşi, Siyavuş bəy, Şeyx Məhəmməd Səbzəvari, Ələsgər Kaşi, Mir Yəhya Təbrizi, Mövlana Kəpək Herati Həkim Layiq, Molla Yeganə, Molla Yekta, Molla Müfid, Molla Turabi və başqaları da var idi (76).

Həbibulla Savəçi Qum hakimi Hüseyn xan Şamlının sarayında xidmət edirdi. Onun istedadlı bir nəqqaş olduğunu görəndə Şah Abbas bu adamı öz sarayına çağırdı və onu sarayın xüsusi nəqqaşları sırasına daxil etdi. Ümumiyyətlə, Şah Abbas nəqqaşlığın inkişafına xüsusi diqqət göstərirdi. Bu sənət sahəsinin hələ Şah Abbasa qədər zəngin bir ənənəsi formalaşmışdı. I Şah İsmayılın və Şah Təhmasibin hakimiyyəti illərində bu sənət sahəsinin çox istedadlı nümayəndələri yetişmişdi. Bütün dövrlərin sənətkarlıq

nümunəsi sayıla biləcək "Şah Təhmasib Şahnaməsi" də belə sənətkarların istedadı və zəhməti bahasına başa gəlmişdi. Şah Abbasın hakimiyyəti illərində Səfəvi nəqqaşlıq məktəbi yenidən canlandı və yuxarıda adları çəkilən nəqqaşlar kimi məşhur nəqqaşlar yetişdilər. Şah Abbas dövründə istedadı ilə seçilən nəqqaşlardan biri də yuxarıda adı çəkilən Ağa Rza kaşı idi. Ağa Rza kaşı dövrünün tanınmış nəqqaşı Ələsgər Kaşinin oğlu idi və nəqqaşlığın ilkin sirlərini də o öz atasından öyrənmişdi. Ələsgər Kaşinin yaradıcılığının daha məhsuldar dövrü Şah Təhmasibin hakimiyyəti illərinə təsadüf edirdi. Ağa Rza Kaşi isə bir nəqqaş kimi Şah Abbasın hakimiyyəti illərində ən gözəl əsərlərini yarada bildi. Xüsusilə, insan sifətlərinin və bütünlükdə təsvirlərinin rəsmində Ağa Rza dövrünün ustadı səviyyəsinə yüksələ bildi. Bu istedadına görə, Ağa Rza hətta Şah Abbas tərəfindən də yüksək qiymətləndirilirdi. Şah Abbas onun çəkdiyi rəsmləri seyr edər və onlara öz qiymətini verərdi. Bir dəfə Ağa Rza öz rəsmlərinin birində müraciət etdiyi insan surətini o dərəcədə reallıqla yarada bilmişdi ki, Şah Abbas bu istedadına görə onun əllərini öpmüşdü. Malik olduğu istedadına və məşğul olduğu sənət sahəsinin inkişafında göstərdiyi xidmətlərə görə Şah Abbas onun haqqında xüsusi bir fərman da imzalamışdı. Həmin fərmanda şah, Ağa Rzanı istedadına və qabiliyyətinə görə möcüzə yaradan nəqqaş adlandırır və onu şah himayəsində olan nadir istedadlı nəqqaşlardan biri olduğunu bildirirdi (77).

İsgəndər bəy Münşi öz kitabında Ağa Rza Kaşi və onun atası haqqında belə qeydlər etmişdi: "Mövlana Əli Əsğər Kaşi – Misilsiz ustad və gözəl rəssam idi. Rəngli boya ilə işləməkdə bənzərsizdi, dağ təsvirlərində və ağac çəkməkdə bütün nəqqaşlardan irəlidəydi. O da Sultan İbrahim Mirzənin xidmətində idi. İsmayıl Mirzə zamanı kitabxana işçilərindən oldu. Oğlu Ağa Rza təsviri rəssamlıqda, surət və çöhrə çəkməkdə çox inkişaf etmişdi və zəmanənin möcüzü oldu ki, dövrümüzdə buna şəkk-şübhə yoxdur. Qələm işlətmək məharətinə baxmayaraq, həmişə gücünü sınayır, pəhləvanlıq (koştigiri) edir və bundan həzz alırdı. İstedad adamları

ilə söhbətə meyl etmir, pəhləvanlarla yaxınlıq edirdi. Son vaxtlarda həmin işdən əl çəkmişdisə də, az şəkil çəkirdi. O da Sadiqi bəy kimi bədxasiyyət, səbirsiz, qaradinməz adamdır. Təbiətində alicənablıq (esteğnayi) vardır. Həzrət əlahəzrət zilləllah şahın xidmətində iltifatlara yetişdi, çoxlu hörmət gördüsə də, yersiz (nahəncar) hərəkətlərinə görə etibar sahibi olmadı. Həmişə müflis və pərişanhaldır" (78).

İsgəndər bəy Münşinin Səyavuş bəy və Şeyx Məhəmməd Səbzəvari haqqında da müxtəsər qeydləri var idi. Onun yazdığına görə, Səyavuş bəyin nəqqaşlıq qabiliyyəti Şah Təhmasib tərəfindən yüksək qiymətləndirildi və onun bu istedadının daha da açılmasına imkan yaradırdı. Səyavuş dövrünün tanınmış xəttatlarından olan Əli Müsəvvəridən dərs alırdı. Təcrübəsi artdıqdan və ustadı yanında dərslərini başa vurduqdan sonra Səyavuş bəyin nüfuzu daha da genişləndi. Məlumata görə, Şah Təhmasib bundan sonra bir də onun sənəti ilə maraqlandı və istedadının təkmilləşdiyini görəndə özü də ona bəzi məsləhətlər verdi. İsgəndər bəyin yazdığına görə, Səyavuş bəy bənzərsiz bir nəqqaş idi, onun çox zərif işləri var idi. Xüsusilə, qoşunlarla bağlı olan səhnələri və dağ mənzərələrini yaratmaqda onun bənzəri yox idi. Səyavuş bəy Şah Abbasın hakimiyyəti illərində də öz sənətini davam etdirirdi və elə Şah Abbası müşayiət etdiyi hərbi yürüşlərdən birində dünyasını dəyişmişdi. Mövlana Şeyx Məhəmməd Səbzəvari isə rəngkarlıq sahəsində xüsusi istedada malik idi. Bunu hətta Sadiq bəy Əfşar kimi böyük bir sənətkar da etiraf edirdi. Nəstəliq xətti ilə yazmaqda da onun böyük istedadı var idi. Onun sənətlə məşğul olmasının müəyyən hissəsi II Şah İsmayılın hakimiyyəti illərinə düşürdü. Sonradan o, Xorasana yollandı və orada onun Şah Abbasla yaxınlığı başladı. Mövlana Şeyx Məhəmməd Səbzəvarinin yaradıcılığının böyük hissəsi isə Şah Abbasın hakimiyyəti illərinə təsadüf edirdi (79).

Şah Abbas sarayında xarici nəqqaş-rəssamların olması haqqında da məlumat vardır. Bu nəqqaş-rəssamlar Səfəvi dövlətinə elçilik heyəti və səyyahlarla birlikdə gəlmişdilər. Həmin rəssam-

lardan biri Hollandiyadan olan Jan van Haslet idi. Bu rəssam italiyalı səyyah Pyetro Delavalleni müşayiət edən adamlar arasında idi. Bir müddət sonra Şah Abbas onun rəssamlıq istedadından xəbər tutdu və onu saraya dəvət etdi. Böyük istedad sahibi olduğu üçün Jan Haslet tezliklə Şah Abbasın rəğbətini qazandı və Şah Abbas ona "Ustad nəqqaş" ləqəbi verdi. Şah Abbasın Əşrəfdəki iqamətgahının divarları məhz Jan Haslet tərəfindən işlənmişdi. Nəticədə şah iqamətgahı xaricilərin də diqqətini cəlb edən yaraşıqlı bir məkana çevrilmişdi (80).

Şah Abbas sarayında yunan rəssamların olduğu da bəllidir. İspaniya elçisi olan Fiquera öz xatirələrində yazırdı ki, İsfahanla Kaşan arasındakı şah bağlarından birindəki iqamətgahda yunan rəssamı tərəfindən çəkilmiş qiymətli əsərləri görmüşdür. Avropalı rəssamlara olan maraq sadəcə onların əl işləri ilə bağlı deyildi. Onların səltənət daxilində əsərlər yaratması Avropa rəssamlıq üslublarının Səfəvi rəssam-nəqqaşlıq üslublarına da yaradıcı təsir göstərirdi. Bu da Səfəvi rəssamlığının zənginləşməsinə zəmin yaradırdı (81).

Əvvəlcə Sadıq bəy Əfşar, sonra Əlirza Təbrizi tərəfindən rəhbərlik edilən səltənət kitabxanası yanında xeyli sayda yaradıcılıq emalatxanaları var idi. Nəqqaşlar, rəssamlar və xəttatlar da bu emalatxanalarda çalışırdılar. Bu emalatxanalara ümumi nəzarət sarayın büyutat naziri tərəfindən həyata keçirilirdi. Büyutat naziri sarayın, şah iqamətgahlarının daxili həyatını tənzimləməklə şaha yaxınlığı ilə seçilən vəzifə sahiblərindən biri idi. Sarayla bağlı olan daşınmaz əmlakı idarə edən birisi kimi, büyutat naziri səltənət kitabxanasına bağlı olan yaradıcılıq emalatxanalarının fəaliyyətinin təşkilini öz üzərinə götürmüşdü. Avropalı səyyahların verdiyi məlumata görə, Şah Abbasın dünyasını dəyişməsindən bir müddət sonra yalnız İsfahanda 30 yaradıcılıq emalatxanası var idi. Heç şübhəsiz ki, onların böyük hissəsi məhz Şah Abbasın hakimiyyəti illərində təsis edilmişdi. Bu emalatxanaların bəziləri şah sarayının əhatəsində, bəziləri də fəaliyyət üçün münasib olan digər

yerlərdə qurulmuşdular. Bu emalatxanaların hər birində təxminən 150 nəfərin çalışdığı bildirilirdi (82).

Yaradıcılıq emalatxanalarına sənət rəhbərliyi isə səltənət kitabxanası tərəfindən həyata keçirilirdi. Qeyd edildiyi kimi dövrünün böyük sənətkarı, söz ustası Sadiq bəy Əfşar bu kitabxananın rəhbəri vəzifəsində saxlanıldı. Lakin onun xarakterinin mürəkkəbliyi həmin vəzifədən azad edilməsi ilə nəticələndi. Onun yerinə isə Şah Abbas dövrünün çox məşhur xəttatı olan Əlirza Təbrizi Abbasi təyin edildi. Əlirza Təbriz xəttatlıq məktəbinin yetirməsi idi və o, cavanlığında Molla Məhəmməd Hüseyn Təbrizi və Əlaəddin ibn Məhəmməd Təbrizi kimi böyük və istedadlı ustadlardan dərs almışdı. Şah Məhəmməd Xudabəndənin hakimiyyəti illərində Təbriz şəhəri Osmanlı qoşunlarının nəzarəti altına düşəndə Əlirza həmin şəhəri tərk etdi və Qəzvinə gəldi. Təbrizdə aldığı **xəttatlıq** vərdişlərini Əlirza burada istifadə etməyə başladı. Şəhər məscidlərindən birində yer alan Əlirza nəsx və süls xətlərində yazmaqda mahir idi və o bu məharətini yer aldığı məscidin kitabələrinin hazırlanmasında da nümayiş etdirdi. Sonradan Əlirza öz bacarığını daha da inkişaf etdirdi və digər yazı növlərini öyrənməyə başladı. Nəticədə, Əlirza yeddi yazı növündə məharətlə yazmaq vərdişlərinə yiyələndi (83).

Qəzvində fəaliyyət göstərdiyi zaman Əlirza xeyli məşhurlaşdı, digər məscidlərin kitabələrinin yazılmasında da iştirak etdi. Bir müddət sonra Şah Abbas da onun istedadından xəbər tutdu və dərhal da onun saraya göndərilməsi haqqında fərman verdi. Şah Abbas istedad və qabiliyyətini gördükdən sonra onu sarayın xüsusi nədimləri sırasına daxil etdi və onu öz himayəsi altına götürdü. Şah Abbas o zamanlar az-çox yaxşı xəttat kimi tanınan bəzi xəttatları da onun rəhbərliyi altına verdi, bu sənətin sirlərini onlara aşılamağı Əlirzaya tapşırdı. Əlirza şah tərəfindən verilən tapşırıq və sifarişləri vaxtında və çox yüksək keyfiyyətlə icra etdi və istedadlı bir sənətkar olduğunu bir daha nümayiş etdirdi. Bu keyfiyyətləri Şah Abbas yüksək qiymətləndirirdi. Buna görə idi ki, dövrünün böyük sənətkarları içərisində Əlirza şah tərəfindən daha

rəğbət və ehtiramla qarşılanırdı (84). Şah Abbasın qayğısına olan minnətdarlıq hisslərinin nəticəsi kimi, Əlirza Təbrizi də özünə Abbası təxəllüsü götürmüşdü.

Bəzi məlumatlara görə, Şah Abbas Əlirzanın sənətkarlığını o dərəcədə xoşlayırdı ki, bəzi vaxtlar yanında oturaraq onun yazmasına tamaşa edirdi. Bəzi vaxtlarda isə Şah Abbas hətta yanan şamı əlində saxlamaq Əlirzanın işləməsinə işıq tuturdu. Şah Abbas onun yaradıcılığına bəslədiyi rəğbətin və verdiyi dəyərin nəticəsi idi ki, Məşhəddəki İmam Rza ziyarətgahının məqbərəsinin, habelə Nəqşi-cahan meydanındakı Lütfulla məscidi ilə Şah məscidinin kitabələrinin yazılmasını Əlirzaya tapşırmışdı. Əlirza Təbrizi də fərqli üslublarda həmin məscidlərin kitabələrini yazdı. İmam Rza ziyarətgahının məqbərəsinin kitabəsi süls xətti ilə, Nəqşi-cahan məscidlərinin kitabələri isə nəstəliq xətti ilə yazıldı. Məscidlərə yazdığı kitabələrdə Əlirza tərəfindən Şah Abbasın adı xatırlanırdı və onu vəlinemət kimi yazıya köçürmüşdü (85). Həmin kitabələr adları çəkilən müqəddəs məkanların memarlığının dəyərli elementlərindən birinə çevrilmişdir və bu gün də öz varlığını qoruyub saxlamışdır.

İmam Rza ziyarətgahının kitabələrinin yenilənməsi bu ziyarətgah üzərinə edilən özbək hücumları ilə bağlı idi. Bu hücumlar zamanı ziyarətgahın bir çox qiymətli əşyaları qarət edilmiş, ya da onlara ziyan yetirilmişdi. Şah Abbas göstəriş verdi ki, Əlirza Qurani-Kərimdən bəzi ayələri və müqəddəs məkanın ruhuna uyğun olan nəzm parçalarını zərgərlərlə birlikdə dəmir lövhələr üzərinə işləsin və sonra da həmin lövhələri İmam Rzanın qəbrinin üzərindəki məqbərə örtüyünün şəbəkələri üzərinə yerləşdirsin. Əlirza da Məstəli Zərgər adlı biri ilə bu sifarişi yerinə yetirdi. O, dəmir lövhələr üzərinə yalnız müqəddəs ayələri deyil, həm də nəzm parçaları yazdı. Həmin nəzm parçalarından biri belə idi:

Dər məhşər əgər lütf-e to xizəd şəfaət
Besyar becuyənd və gönəhkar nəyabənd
(Məhşərdə sənin lütfün şəfaətə qalxsa
Çox axtarın günahkar da taba bilməzlər).

Qurani-Kərimin də Əlirza tərəfindən üzünün köçürüldüyü məlumdur. Əlirzanın əlyazmaları içərisində ən qiymətlisi sayılan bu əlyazma hazırda Məşhəddə İmam Rza siyarətgahının kitabxanasında saxlanmaqdadır (86).

Səltənət kitabxanasında çalışarkən Əlirza ilə Sadiq bəy Əfşar arasında bir anlaşılmaqlıq və narazılıq meydana gəldi. Bu anlaşılmazlıq, əslində, onların xarakterinin tündlüyü ilə bağlı idi. Görünür, bu narazılıq onların fəaliyyətinə də müəyyən təsir göstərmişdi. Belə ki, bu iki böyük sənətkar arasında mövcud olan narazılıq Şah Abbasın da qulağına çatdı. Şah Abbas da Sadiq bəy Əfşarı kitabdar vəzifəsindən azad etdi və onun yerinə Əlirzanın təyin etdi. Bununla belə, Sadiq bəy kitabxanada fəaliyyətini davam etdirirdi. Təfərrüatı məlum olmayan səbəblər üzündən bir müddət sonra Sadiq bəy yenidən səltənət kitabxanasının rəhbəri vəzifəsinə gətirildi. Lakin bu, yenə uzun sürmədi. Sadiq bəy sonradan bir daha tutduğu vəzifədən kənarlaşdırıldı. Belə bir qənaətə gəlmək olar ki, Şah Abbas bu iki sənətkarı istedadına hörmətlə yanaşdığı üçün onlar arasında baş verən narazılıqlara dözümlü münasibət göstərirdi. Şah Abbasa da bəlli idi ki, Təbriz sənətkarlıq məktəbinin davamçıları olan belə sənətkarlar heç də tez-tez yetişmir. Səltənət kitabxanası yenidən Əlirzanın rəhbərliyi altına verildi. Amma bununla da bu iki sənətkar arasındakı çəkişmələrə son qoyulmadı. Əlirza şah tərəfindən verilmiş bir sifarişin üzərində çalışarkən Sadiq bəy ondan bir daha şikayət etdi. Həmin sifarişə əsasən, Əlirza istedadlı xəttatları cəlb etməklə minüatür şəkillərin olduğu bir kitab tərtib etməli idi. Sadiq bəy həmin kitabın düzgün tərtib edilməməsi ilə bağlı Şah Abbasa xəbər göndərdi. Şah Abbas da həmin vaxt Xorasan vilayətində özbək qoşunlarının qarşısını almaqla məşğul idi. Buna baxmayaraq, Şah Abbas Əlirzanı yanına çağırtdırdı, Sadiq bəyin şikayəti ilə bağlı ondan məlumat istədi. Əlirzanın verdiyi məlumatdan sonra Şah Abbas Sadiq bəyin şikayətini qəbul etmədi. Əlirza da heç bir cəza almadan öz işlərinin icrasını davam etdirdi. Mövcud olan məlumata görə, Sadiq bəy bu hadisədən sonra Əlirza ilə çəkişmələrin apa-

rılmasını dayandırdı və ona verilən sifarişlərin icrası ilə məşğul oldu (87).

Əlirza bu hadisələrdən sonra da Şah Abbasın sevimli sənətkarlarından biri olaraq qalmaqda idi. O, şah məclislərində iştirak edirdi və istedadlı bir sənətkar kimi saray daxilində də hörmət və ehtirama malik idi. Şah Abbas tərəfindən o, "Şahnəvaz" (yəni şah tərəfindən nəvaziş edilən) ləqəbinə layiq görülmüşdü. Şah Abbas onu dövrünün ən yaxşı sənətkarı kimi görmək istəyirdi. Onun fikrincə, Əlirza o dövrün ən tanınmış nəstəliq yazı növü üzrə ən məşhur xəttatı olan Mir Əli Herəvidən heç də geri qalmırdı. Bunun sübutu üçün Şah Abbasın əmri ilə Mir Əli Herəvinin əl işi olan sənət nümunələrini topladılar. Sonra da şah Əlirzaya tapşırıq verdi ki, Mir Əlinin yazdıqları sətirlərin qarşısında həmin sətirləri yenidən yazsın. Yəni belə bir imkan yaransın ki, Mir Əli Herəvinin əl işləri ilə Əlirzanın əl işlərini əyani şəkildə müqayisə etmək mümkün olsun. Bu sifarişin icrası da göstərdi ki, öz istedadı ilə Əlirza doğrudan da Mir Əlidən heç də geri qalmır (88).

Şah Abbas dövrünün tanınmış xəttatlarından biri də Mir İmad idi. Qəzvində doğulmuş olan bu sənətkarın əsil adı Mir Məhəmməd Qəzvini idi və yüksək sənətkarlığına görə ona İmad əl-Mülk ləqəbi verilmişdi. Bu sənətkar daha çox Mir İmad kimi tanınmışdı. Sonradan böyük istedad sahibi olduğunu nümayiş etdirən Mir İmad xəttatlığın ilk vərdişlərini Qəzvində yaşayarkən almışdı. Dövrün tanınmış xəttatlarında sayılan İsa bəy Rəngarəng və Malik Deyləmi onun ilk müəllimləri olmuşdu. Xəttatlığa böyük maraq göstərən Mir İmad Qəzvində aldığı biliklərlə kifayətlənməmiş və öz vərdişlərini daha da inkişaf etdirmək üçün Təbrizə yollanmışdı. O, kamil xəttat kimi yetişmək üçün Təbriz sənətkarlıq məktəbinin ənənələrindən də bəhrələnə bilmişdi. Mir İmad Təbriz xəttatlıq məktəbinin ən yaxşı təmsilçilərindən olan Molla Məhəmməd Hüseyndən dərs aldı. Mövcud olan məlumatlara görə, Mir İmad çox böyük inadla, yorulmaq bilmədən xəttatlıq vərdişlərinin artırılması ilə məşğul olurdu. Öz ustalıq səviyyəsini yoxlamaq üçün bir dəfə Mir İmad bir mətni nəstəliq xətti ilə yazıb ustadı Molla Məhəm-

məd Hüseynin yanına apardı, həmin yazı parçasını göstərərək ustadından ona öz qiymətini verməsini istədi. Amma Mir İmad bu yazının kim tərəfindən yazıldığını demədi. Molla Məhəmməd Hüseyn də yazını görən kimi dərhal belə bir cavab verdi ki, əgər belə yazmağı bacarsan yazmağı davam et, yoxsa əlini qələmdən çək. Mir İmad deyəndə ki, yazını o yazıb, onda ustadı onun üzündən öpdü və artıq ustad kimi yetişdiyini bildirdi (89).

Ömrünün bir hissəsini Mir İmad səyahətlərdə keçirdi. O, əvvəlcə Qəzvinə qayıtdı və orada Fərhad xan Qaramanlının himayəsi altında fəaliyyət göstərdi. Fərhad xanın qətlindən sonra Mir İmad Heratda və Gilanda oldu, sonra yenidən Qəzvinə qayıtdı. Şah Abbas səltənət paytaxtını İsfahana köçürəndən sonra Mir İmad da bu şəhərə gəldi və burada öz sənətini davam etdirməyə başladı. Şah Abbas tərəfindən sənətkarlara böyük himayə və qayğı göstərildiyini görəndə ona məktub yazdı, onun himayəsi altında fəaliyyət göstərmək arzusunu ifadə etdi. Şah Abbas da onun istəyinə rəğbətlə yanaşdı, onu sənətkarlar dəstəsinə daxil etdi. İstedadını gördükdən sonra Şah Abbas ona da öz qayğı və himayəsini əsirgəmədi. Çox az bir müddətdə Mir İmad yüksək istedad sahibi olduğunu bir daha nümayiş etdirdi, öz həmkarları arasında ad-san qazandı. Mövcud olan məlumata görə, Mir İmad məğrur bir xarakterə malik idi. Kimsənin işlərinə qarışmadan o, başqalarının da onun işlərinə qarışmasına imkan verməzdi. Öz sənətinə sıx şəkildə bağlı olduğu üçün Mir İmad saray mənsublarına, bəzi hallarda hətta şahın özünə qarşı da etinasız idi. Başqalarına yaltaqlanmaq, yüksək vəzifəlilər yanında özünə yer qazanmaq onun xasiyyətindən uzaq idi. Şah Abbas onun bu xarakterinə müsbət yanaşırdı və rəğbətini nümayiş etdirirdi. Lakin ətrafındakılar və həmkarları arasında bəziləri Mir İmadın bu xarakterinə uyğunlaşa bilmirdilər. Ona görə də həmin adamlar hər vasitə ilə Mir İmadı incitməyə, onun qəlbini qırmağa çalışırdılar. Belə bir vəziyyətdə Mir İmadla Əlirza Abbasi arasında da gərginlik yaşanmağa başladı. Bəzi tədqiqatçıların fikrincə, bu gərginlik daha çox Əlirza Abbasi tərəfindən başlandı. Belə ki, İsfahandakı böyük məscidlərin, İmam Rza

ziyarətgahının kitabələrinin Əlirzaya tapşırılması ilə Mir İmad diqqətdən kənarda qaldı. Mir İmad ona olan diqqətsizlikdən narazı qalsa da Əlirza bu barədə onun narazılığını aradan qaldıracaq bir addım atmadı. Belə olanda Mir İmad şaha müraciət etməyi qərara aldı və saray sifarişlərindən kənar qalmasını onun diqqətinə çatdırmaq istədi. Mir İmad bir nəzm parçası yazaraq şaha göndərdi. Həmin nəzm parçası müəyyən ədəb çərçivəsindən kənara çıxmışdı və orada ağır ifadələrə yol verilmişdi. Bu, Şah Abbasın xoşuna gəlmədi və nəticədə Mir İmadın narazılığı heç də aradan qalxmadı (90).

Bununla belə, Şah Abbas ona qarşı sərt qərar qəbul etmədi. Bir müddət sonra isə Şah Abbas ona yetmiş tümən pul göndərdi və yeni bir kitabın üzünün köçürülməsini ona sifariş etdi. Əvvəlki narazılıqlara görə, Mir İmad bu sifarişin icrasına məsuliyyətsizcəsinə yanaşdı. Həmin kitabdan yalnız yetmiş beyti kağız üzərinə köçürdü. Bir il ötəndən sonra Şah Abbas verdiyi sifarişin icrası ilə maraqlandı. Mir İmad da kağıza köçürdüyü yetmiş beyti şaha göndərdi. O, Şah Abbasa da belə bir xəbər göndərdi ki, verdiyi pul yalnız bu beytlərin yazılmasına bəs etdi. Şah Abbas onun bu hərəkətindən xeyli qəzəbləndi və kağız üzərinə köçürülmüş olan yetmiş beyti geri qaytardı. Bəzi rəvayətlərə görə, Mir İmad da bu yetmiş beytin hər beytini bir tələbəsinə verdi və tələbələri də hər biri bu beytin əvəzində bir tümən taparaq Mir İmada təqdim etdi. Bu yolla Mir İmad yetmiş tüməni toplayıb şaha göndərdi. Bir daha qeyd edilməlidir ki, Şah Abbas dövründə bir tümən çox böyük pul idi. Xəttat tələbələrin bu həcmdə pula malik olmaları inandırıcı görünməsə də Mir İmadın bu yolla yetmiş tümən toplamasın işarə edilir. Amma rəvayətdə o da bildirilir ki, bu hərəkətdən qəzəblənsə də Şah Abbas yenə də Mir İmad haqqında sərt qərar qəbul etmədi. Bununla belə, Mir İmad saray himayəsindən uzaqlaşmalı oldu. O öz evinə çəkilərək tələbələrin öyrədilməsi ilə məşğul oldu. Bir müddətdən sonra Mir İmad yenə öz xarakterini nümayiş etdirdi, Şah Abbasa bir nəzm parçası göndərdi və həmin nəzm parçasında şaha qarşı öz narazılıqlarını ifadə etdi (91).

Mir İmadın davamlı narazılıqları və bunun bir qədər nəzakətdən kənar şəkildə Şah Abbasa çatdırması onun fikrinin dəyişməsinə yol açdı. Göstərilən qayğının hörmətsiz şəkildə qarşılanması Şah Abbasın qəzəbini artırdı və o, nəhayət ki, Mir İmadın cəzalandırılması fikrinə gəldi. Deyilənə görə, Mir İmadla yola getməyən və ya ondan narazı qalan bəzi adamlar da Şah Abbasın ona qarşı fikrinin dəyişməsinə təkan verdilər. Belələrinin arasında səltənət kitabxanasının rəhbəri Əlirzanın da adı çəkilirdi. Mümkündür ki, xarakter uyğunsuqluğu bu iki böyük sənətkarın arasında ziddiyyətin güclənməsinə gətirib çıxarmışdı. Əlirza həm istedadlı sənətkar, həm də səltənət kitabxanasının rəhbəri kimi Şah Abbasla daha tez-tez ünsiyyətdə ola bilirdi. Şah qəbulunda olarkən Əlirzanın Mir İmad haqqında narazılıqları Şah Abbasa çatdırması istisna deyildir.

Mövcud olan məlumata görə, Mir İmadın məzhəb etiqadı haqqında da Şah Abbasa şübhəli məlumatlar çatdırılırdı. Belə ki, Mir İmad sünni məzhəbinə mənsub idi. Onun sünni olması şiəliyə müxalifət kimi qələmə verilir və Şah Abbasa çatdırılırdı. Deyilənə görə, Mir İmad hətta Şah Abbasın şiə etiqadında olmasını da qəbul etmirdi. Səfərləri zamanı Mir İmad Osmanlı ərazisində də olmuşdu. Bəzi söhbətlərində Mir İmad Osmanlı təbəələrinə, yəni sünnilərə olan münasibətini də gizlədə bilmirdi. Bu barədə də Şah Abbasa xəbərlər çatdırılırdı. Bütün bunlar Şah Abbasın ona qarşı daha sərt münasibətinin formalaşmasına səbəb oldu. Son nəhayətdə Mir İmad qətl olunmaqdan canını qurtara bilmədi (92).

Bununla belə, Mir İmad dövrünün çox böyük sənət adamlarından biri idi və Şah Abbas dövründə xəttatlığın inkişaf etməsində onun dəyərli rolu var idi.

İsgəndər bəy Münşi də öz əsərində bir neçə tanınmış və istedadlı xəttatdan söz açmış və onlar haqqında qısaca məlumat vermişdir. Onlardan biri Mir Sədrəddin Məhəmməddir. Onun atası Qəzvinin tanınmış seyidlərindən idi. İsgəndər bəy onun haqqında belə yazırdı: "Dövrün xoşnevislərindən olan nəstəliqyazan Mirzə Əşrəfin oğludur. Qəzvinin seyfihüseyni seyidlərindəndir. O və

qardaşı Mir Ruhulla hər ikisi böyük seyid və ruzigarın istedad sahiblərindəndirlər. Ata-babalarının isə şöhrət, qabiliyyət, istedad, fəzilət və mənəvi kamillik cəhətdən təriflərə heç bir ehtiyacları yoxdur. Mirzə Əşrəfin xüsusi tərzdə və məlahətlə yazdığı müxtəlif aşiqanə qəzəllər dövrün söz ustadları (soxənvər) arasında elə şur və şövq yaratmışdır ki, ədalət naminə həqiqətən də misilsizdir. Onun adları çəkilən comərd oğulları dövr elmlərini mənimsəməkdə başqa həmkarlarından seçilirdilər, belə ki, onların hər ikisi gözəl əxlaqlı, fəzilətli və bilikli idilər. Olduqca münasib olardı ki, mirin və qardaşının şərif adları əzəmətli seyidlər və möhtərəm böyüklər zümrəsinə yazılaraq, onlar təbiblər silkinə (ətobba) daxil ediləydilər. Xülasə, mir yaxşı nəstəliqnevis idi. İraq xoşnevisləri arasında qeyd-şərtsiz yaxşı şagirdi olan və xətt təlimini mirdən mənimsəyən Mövlana Malik Deyləmi Qəzvini isə cavanlıq dövründə olduqca səliqə-sahmanlı yazı yazırdı, amma qocalıqda gözünün zəifləməsi cəhətindən yazı məşqini tərk etdi, özünün ilk yazıları ilə kifayətləndi. Nəstəliqdə o, Mövlana Sultanəlinin yolunu davam etdirmişdi, başqalarından tam seçilirdi və üstün idi, Mövlana Sultanəlinin xəttinə Mövlana Mirəlidən artıq etiqad vardı ki, yalnız bir-iki nadir xoşnevis haqda belə söyləyirlər. Bu fəndə Mövlana Mirəli çox inkişaf etmiş və məşhurlaşmışdı, amma qələm sahibləri Mövlana Sultanəliyə üstünlük verirdilər. Günlərin bir günü cənab mir mövlananın yanına gəlməzdən əvvəl onun üç gözəl xətli qitəsini özü ilə götürdü, hər üçünün üzünü köçürdü və mövlanaya göstərdi. Mövlana Sultanəli həmin xətlərə baxıb onların hansının kimə məxsus olduğunu təyin edə bilmədi. Bir qədər sonra mövlana mirin xəttini bəyəndi. Xülasə, cənab mirin (Sədrəddinin) qabiliyyət və istedadı yüksək idi. O, illərlə qədim adamların tarix kitablarını və şerlərini oxumuş və elə bir təzkirə qələmə almışdı ki, keçmişlərdə ona bərabər əsər yazan olmamışdı. Dünyanın harasında olur-olsun, əgər hansı kəs mövzun bir misra yazmışdırsa cənab mir onu taparaq öz təzkirəsində əks etdirmişdi. Cənab mirin həyatı, beləliklə, bu işə sərf oldu, amma onu öz istədiyi kimi tamamlaya bilmədi. Musiqi və ədvar elmi aləmində də çox

səy etdi və ruzigarın məşhur musiqiçilərindən oldu. Bəstəkarlıqda (qovl və əməl) nadir fikir və əməl sahibi idi, gözəl (bədi) musiqisi ilham sahibləri olan adamların məclislərinin bəzəyi olmaqla, nəğmələri dövr xanəndələrin dillərinin əzbəridir. İsgəndər şanlı nəvvabın hakimiyyəti vaxtı xoşbəxt şahzadə Həmzə Mirzənin "məclis əhli və yaxın adamları" ("məclisiyan və moqərrəvan") zümrəsinə daxil edilmişdi. Əlahəzrət zilləllah şahın xoşbəxt əyyamı zamanı isə olduqca böyük iltifata yetişmişdi və həmişə şahın yanında olardı. Xorasan səfərlərinin birində axirət səfəri mahnısını yazaraq bəqa aləminə yollandı" (93).

Şah Abbas dövrü sənətkarlığının mühüm istiqamətlərindən birini də **metal-filiz işləmə** sahəsi təşkil edirdi. İstər təsərrüfatın inkişafı, istərsə də məişət şəraitinin yaxşılaşması insanlar arasında metal-filiz məhsullarının istifadəsinə ehtiyac artırırdı. Bu, hər şeydən əvvəl metal-filiz məhsullarının möhkəmliyi, istifadə yararlılığı və davamlılığı ilə bağlı idi. Lakin metal-filiz məhsullarının istehsalında keyfiyyət məsələsi Şah Abbasın hakimiyyəti illərində o dərəcədə yüksəlmişdi ki, artıq bu sahənin də öz sənətkarları və sənətkarlığı formalaşmışdı.

Yuxarıda qeyd edildiyi kimi, dəmir lövhələr üzərində müqəddəs cümlələrin, şer parçalarının həkk edilməsi son dərəcə zövqlü bir şəkildə həyata keçirilirdi. Bu iş bir qayda olaraq xəttat və zərgər tərəfindən icra olunurdu. Xəttatın göz oxşayan yazısı zərgərin sənətkarlığı nəticəsində dəmir lövhələr üzərinə köçürülür və sonra da bu dəmir lövhələr ya müqəddəs məkanlarda, ya da şah məkanlarında görümlü bir yerdə asılırdı. Müqəddəs məkanlardakı məzarlar üzərində qurulan qəfəsələr özləri hər biri ayrı-ayrılıqda sənətkarlıq nümunələri idi. Metal məmulatdan zərif bir qəfəsənin düzəldilməsi yüksək sənətkarlıq səviyyəsinə qaldırılmışdı. Mütənasib bizim, dəqiq ölçülər, müəyyən bir süjet və onların zövqlə işlənilməsi sahəsində artıq bir məktəb də formalaşmışdı. Şah Abbasın hakimiyyəti illərində də bu sahədə bir inkişaf və maraq var idi. Şah Abbas özü də ona maraq göstərirdi ki, onun tərəfindən tikilən böyük məscidlərdə, müqəddəs məkanların abadlaşdırılma-

sında metal işləri zövqlə görülsün və bu işlər aparılan işlərin ümumi memarlıq elementlərini tamamlasın.

Metal-filiz işləmə sənətkarlığı o dərəcədə inkişaf etmişdi ki, artıq bu sahənin daxilində də konkret istiqamətlər formalaşmışdı. O cümlədən, zərgərlik, silah istehsalı, soyuq silahlar istehsalı, dəmirçilik, misgərlik, məişət dəmirçiliyi və s. (94). Bu istiqamətlər də öz iş bölgüsünə malik idi. Məsələn, zərgərlik daxilində sim vuranlar, zər vuranlar, cəvahir düzəldən, qızıl vuranlar, qızıl və gümüş zərgərliyi, həkkaklar və s. Görülən işin ümumi sənətkarlıq səviyyəsi bu sahələrinin hər birinin sənətkarlıq səviyyəsi ilə müəyyənləşirdi.

Zərgərlik sənətinin yüksək inkişafını Şah Abbas dövrünün mənbələrində öz əksini tapmış məlumatlar da təsdiq edirdi. Xarici dövlətlərin elçiləri və səyyahların xatirələrində qalmış məlumatlar onu göstərir ki, Şah Abbas məclislərində istifadə olunan məişət qab və alətlərinin əksəriyyəti qızıldan idi. Ölçülərindən asılı olmayaraq bu qabların və alətlərin istehsalı mükəmməl istehsal sahələrinin olmasını tələb edirdi. Şah Abbas hakimiyyəti illərində belə bir istehsal sahəsi mövcud idi.

Zərgərlik məharətindən silahların istehsalında da istifadə olunurdu. Xüsusilə, soyuq silahların tutacaqlarının gözəl görünüşü, silah sahiblərinin adlarının və ya müqəddəs ifadələrin qılınclar üzərinə həkk edilməsi zərgərlərin yüksək ustalığı ilə həyata keçirilirdi. Bir qayda olaraq bu yazılar müxtəlif nəbati elementlərlə birlikdə qılınc, xəncər və digər kəsici silahların tiyəsi üzərinə həkk edilirdi (95).

Bütünlükdə, soyuq silah istehsalı sahəsində son dərəcə güclü bir ənənə mövcud idi və bu ənənənə Şah Abbasın hakimiyyəti illərində daha da zənginləşmişdi. Bəllidir ki, Səfəvi dövründə soyuq silahlar daxili istehsal hesabına ödənilirdi. Vaxt ötdükcə bu silahların istehsalında faydalılıqla sənətkarlıq bir-birini daha da tamamladı və soyuq silahlar silah olmaqdan əlavə həm də sənətkarlıq nümunələrinə çevrilirdilər. Soyuq silahların istehsalı üçün Təbrizdə, Qəzvində, İsfahanda, Məşhəddə böyük emalatxanalar fəa-

liyyət göstərirdi. Bu emalatxanalarda istehsal olunan silah nümunələri hətta xarici dövlətlərin hakimlərinə də hədiyyə edilirdi (96).

Şah Abbasın hakimiyyəti illərində sənətkarlığın inkişafı həm də **toxuculuq** sahəsində özünü göstərirdi. Burada da parça toxuculuğu ilə xalça toxuculuğu ayrıca sənət və peşə sahələri kimi formalaşmışdı. Xüsusilə, ipək istehsalının günü-gündən artması ondan hazırlanan parçaların emalını da sürətləndirirdi. Kifayət qədər zərif parça olan ipəyin toxunması və bu zaman müxtəlif elementlərin və üsulların tətbiq edilməsi bu sahədə mövcud olan təcrübə və ənənəni də zənginləşdirirdi. Səltənətin bir sıra şəhərlərində, o cümlədən Şamaxıda, Gilan şəhərlərində, Astrabadda, Kaşanda, Məşhəddə parça istehsalı emalatxanaları mövcud idi və bu emalatxanalarda göz oxşayan parçalar toxunurdu. İpək parça istehsalında üç üslubu müşahidə etmək mümkün idi: adi parça istehsalı, zərli işləmələri olan ipək istehsalı və ipək məxmər istehsalı, Bu parçalardan saray əyanlarının, mənsublarının, imkanlı adamların libaslarının tikilməsinə, evlərin bəzədilməsində istifadə olunurdu. Belə parçalar həm də xarici dövlətlərin nümayəndələrinə hədiyyə kimi təqdim olunurdu. İpək parçalar üzərində çox zaman nəbati, heyvan və insan şəkilləri toxunurdu və onların gözəl görünüşü üçün müxtəlif toxuma üsullarından istifadə edilirdi. İpək parça istehsalı ilə bağlı olan yüksək sənətkarlıq da çox zaman məhz bu rəsmlərin ipək parça üzərinə köçürülməsi zamanı özünü göstərirdi. Bu sahədə elə bir təcrübə qazanılmışdı ki, sənətkarlıqla işlənmiş ipək parçalar qiymətli əşya kimi xarici qonaqlara təqdim olunurdu (97).

İtaliyalı səyyah Pyetro Delavalle də böyük emalatxanalardan birinin yerləşdiyi Kaşanda üç növ ipək parçanın istehsal edilməsindən xəbər verirdi. 1. Uzun və enli kəmərbənd. Bu kəmərbəndlər insanların belinə dolandırılırdı və kəmər rolunu oynayırdı. İmkanlı adamların kəmərbəndləri bir tərəfdən nəbati və digər rəsmlərlə bəzədilirdi. Digər tərəfdən də varlı adamlar bu kəmərbəndləri qiymətli daşlara tutardılar. 2. Zərsiz istehsal olunan ipək parçalar. Belə parçalar zərsiz ola da, onların üzərinə nəfis şəkildə işlənmiş

nəbati, insan və digər rəsmlər olurdu. 3. İnsan libasları üçün nəzərdə tutulmuş ipək parçalar (98).

Qeyd etmək lazımdır ki, parçalar üzərindəki rəsmlərin hazırlanmasında dövrünün böyük sənətkarlarından olan Rza Abbasi də iştirak edirdi. O, müəyyən layihələr hazırlayır və bu layihələrin parçalar üzərinə köçürülməsini tövsiyə edirdi. Həmin layihələr istehsal olunan parçaların baxmlılığını daha da artırırdı (99).

Parçalar üzərində yalnız təsvirlər deyil, yazılar da rəsm olunurdu. İlk vaxtlar parça üzərində dini məzmunlu yazıların rəsmi edilməsi daha çox nəzərə çarpırdı. Sonradan isə bu yazılara həm də şərqin böyük şairlərinin əsərlərindən misralar və beytlər rəsm edilməyə başladı (100).

İpək parçalardan başqa səltənət daxilində digər parçalar da istehsal olunurdu. Həmin parçaların istehsalı sahəsində də müəyyən təcrübə və sənətkarlıq səviyyəsi əldə edilmişdi.

Xalça toxuculuğu isə Şah Abbas dövrü sənətkarlığınını başqa bir istiqamətinin təşkil edirdi. Bu sahədə də hələ Şah Abbasa qədər zəngin bir ənənə mövcud idi. Məlumdur ki, Şah Təhmasibin hakimiyyəti illərində Şeyx Səfi ziyarətgahı üçün toxunmuş xalça bütünlüklə dünya xalçaçılıq sənətinin şah əsərlərindən biri idi. Xalça toxuculuğu kompleks sənət sahəsi idi. Bu sənətin inkişafı bir neçə peşə sahibinin istedadının bir-birini tamamlaması ilə meydana gəlirdi. Xalça toxuculuğu üçün zəruri olan iplərin əyrilməsi və sonra da onların rənglənməsi ayrıca bir ustalıq tələb edirdi. Rənglərin təbiiliyi, saflığı, davamlılığı xalça toxuculuğu üçün ciddi bir əhəmiyyət kəsb edirdi. Xalça rəsmlərinin layihələndirilməsi və sonra da onun xalçaya köçürülməsi sahəsində də artıq böyük bir təcrübə əldə edilmişdi. Şah Abbas dövrü xalçalarının üzərində son dərəcə zəngin naxışlar və rəsmlər görmək mümkündür. Bu naxışlar və rəsmlər xalça üzərində müəyyən bir məzmunun, o cümlədən də baxımlılığın ifadəsi üçün istifadə olunurdu. Naxışların xalça üzərinə köçürülməsi xüsusi bir ustalıq və məharət tələb edirdi. Bu ustalıq və məharət də xalçaçılıq sahəsində əldə edilmiş sənəkarlığın mühüm göstəricilərindən hesab oluna bilərdi.

Qeyd etmək lazımdır ki, səltənətin müxtəlif bölgələrinin xalça toxunuşunda üstünlük verdiyi rəsmlər, ölçülər, ilmə sayı və s. elementlər var idi. Həmin elementlər həm də xalçaların hansı bölgədə istehsalını müəyyən etməyə imkan verən məqamlar idilər.

Xalçalar həm ölçülərinə, həm təyinatına, həm ilmə sayına və digər cəhətlərinə görə bir-birindən fərqlənə bilərdilər. Onlar hər şeydən əvvəl zənginlik əlaməti kimi məişətdə işlədilən başlıca toxuculuq əşyalarından biri idi. Sözsüz ki, xalçalar yalnız zənginlik göstəricisi deyildi. Xalçalardan döşəmələrin örtülməsi, divarların tutulması və bəzədilməsi və s. üçün istifadə edilirdi. Şah saraylarının, müqəddəs məkanların döşənməsi və bəzənməsi üçün xalçalardan və digər toxuculuq əşyalarından geniş istifadə olunurdu. Xalçaların ölçüləri daha çox istifadə olunacaq məkanların ölçüləri ilə müəyyənləşirdi. Burada sərt bir tələb olmasa da, sözsüz ki, xalça toxunmağa başlanmazdan əvvəl onun ölçüləri istifadə və sifariş tələbinə uyğun müəyyənləşdirilir və rəsmlər də müəyyənləşdirilmiş ölçü daxilində yerləşdirilirdi.

Xalça təsvirlərində nəbati və həndəsi elementlər bir qayda olaraq üstünlük təşkil edirdilər. Lakin insan rəsmlərinin, müqəddəs yazıların toxunduğu xalçalar da az deyildi. Bu mənada xalça rəsmləri içərisində dini mövzu da kifayət qədər yer tuturdu. Dini mövzuda olan yazılar daha çox nəstəliq, süls və kufi xətləri ilə yazılırdı Şərqin tanınmış şairlərinin əsərlərindəki süjetlərin xalça üzərinə köçürülməsi təcrübəsi də davamlı bir ənənəyə malik idi.

Şah Abbasın hakimiyyəti illərində xalçaçılıq əslində, bütün səltənət ərazisində aparılırdı. Bu sənət sahəsini həm fərdi qaydada, həm də kollektiv şəkildə həyata keçirmək mümkün idi. Xüsusilə, xalçaçılıq türk tayfa qadınlarının əsas məşğuliyyət sahələrindən biri idi. Bununla belə, səltənət daxilində artıq bir neçə xalça istehsalı mərkəzləri də formalaşmışdı. Məsələn, Təbriz, Həmədan, Kaşan, Herat belə mərkəzlər sırasında idi. Hər bir xalça mərkəzinin də öz toxuculuq ənənəsi və təcrübəsi var idi. Bu ənənə səltənət üçün ümumi olan xalçaçılıq məktəblərini bir-birindən fərqləndirirdi.

Şah Abbasın hakimiyyəti illərində bəzi **elm** sahələrinin inkişafı ilə də rastlaşmaq mümkündür. Doğrudur, Şah Təhmasibin hakimiyyətindən sonra elm və zəka sahiblərinə diqqət xeyli azalmışdı. Səltənət daxilində mövcud olan qeyri-sabit həyat, qızılbaş tayfa əmirləri arasında davam edən hakimiyyət çəkişmələri elmə olan marağı da kifayət qədər zəiflətmişdi. Vəziyyət elə bir yerə gəlib çatmışdı ki, səltənət daxilində nüfuz sahibi olan elm və düşüncə adamları mühacirət etmək məcburiyyətində qalmışdılar. Bunun nəticəsi idi ki, xeyli sayda yaradıcı insanlar və zəka sahibləri Osmanlı və hind sarayına pənah aparmalı oldular. Digər tərəfdən də səltənətin böyük bir hissəsinin Osmanlı nəzarəti altına düşməsi həmin ərazilərdə yaşayan söz və zəka sahiblərinin mühacirət yolunu tutmasına gətirib çıxardı. Onların çoxu Osmanlı və hind saraylarında məmnunluqla qarşılandı və onların öz yaradıcı və zehni fəaliyyətlərinin davam etdirmək üçün daha yaxşı şərait yaradıldı (101).

Şah Abbasın hakimiyyətinin ilk illərində də elm və bilik müəyyən qədər inkişafdan kənarda qaldı. Çünki Şah Abbas bu illərdə əsas diqqəti daxili parçalanmaların və çəkişmələrin aradan qaldırılmasına, səltənətin sabit və davamlı inkişaf yoluna çıxarılmasına istiqamətlənmişdi. Səltənət daxilində vəziyyət sabitləşdikcə və iqtidar möhkəmləndikcə elm və sənətin inkişafı da ahəngdar bir hal aldı.

Vaxt ötdükcə, elm və biliyin artırılması təbii bir maraq kəsb etdi. Doğrudur, Şah Abbas din alimlərinin siyasi işlərə müdaxilə etməsinə razı deyildi. Bununla belə, Şah Abbas da çalışırdı ki, səltənət daxilində şiə fiqhinin öyrənilməsi, hakim məzhəb olan şiəliyinin elmi əsaslarının hazırlanması geniş vüsət alsın. Bu mənada Şah Abbas ilk növbədə özü elmi biliklərin yayılmasının nümunəsini göstərməyə başladı. O, bilik sahiblərini, məlumatlı insanları öz ətrafına topladı, onları yaxın nədimləri sırasına daxil etdi, onların iştirakı ilə məclislər təşkilinə geniş meydan verdi. Bu barədə mənbələrdə, eləcə də xarici səyyahların xatirələrində kifayət qədər məlumatlar mövcuddur.

Şah Abbasın elmə, mədəniyyətə verdiyi qiymət barəsində İsgəndər bəy Münşi belə yazırdı: "Şah hər təbəqə ilə özünə xas tərzdə rəftar edir, aləmin məlum və qeyri-məlum (motəaref və ğeyremotearef) bir çox dillərini bilir və hər tayfa ilə onun öz dilində danışır. Fars şerini yaxşı bilən şah şeri yaxşı da başa düşür, ondan bəhrələnir, hətta bəzən özü də şer yazır. Musiqidə, elmi-ədvarda söz verməkdə və ona əməl etməkdə dövrün ən qabaqcıl adamıdır. O həzrətin bəstələdiyi bəzi ahəng və havalar musiqiçilər (əhle-saz) yanında məşhurdur, çalğıçıların dillərinin əzbəridir. Onun ürəyə yatımlı şirin lətifələri (lətayef), rəngarəng məzəli zarafatları, təbiət xoşluğu barədə tez-tez söhbətlər eşidilir" (102).

Bu sətirlər müxtəsər də olsa, Şah Abbasın elm, bilik və mədəniyyət məsələlərinə maraqlı olduğunu və bu marağın da elmin və incəsənətin inkişafına təsir edə bildiyini göstərir. Əsərinin bir yerində İsgəndər bəy Münşi belə yazırdı: "O həzrətin gözəl xasiyyəti və şüarı beləydi ki, lap kiçik işlərin əncamında belə Rəbbin kəlami-məcidinə baxıb fal açsın, ilahi məsləhət və fərman almadan heç bir işə başlamasın. Din və dövlətin ən böyük işlərindən biri olan bu mübarək işdə də [şah] məşvərəti lazım bildi, fal açmaqdan ötrü xasseyi-şərifə münəccimləri zümrəsindən etibarlı şəxs olan Mövlana Müzəffər Münəccim Cünabadinin oğlu Mövlana Məhəmməd Təqini Mazandaran diyarının fazil və əməlisaleh (ətqiya) şəxslərindən sayılan Mövlana Murad Mazandaraninin yanına məşvərətə yolladı" (103).

Bu sətirlər isə Şah Abbasın həm astronomiya elminə, həm də Quran təfsirçiliyinə maraq göstərdiyini, bu elm sahələrinin ortaya qoyduğu qənaətlərə istinad edilməsinin əhəmiyyətini nümayiş etdirirdi. İstər dini kitabların təfsirçiliyində, istərsə də münəccimlikdə Şah Abbasın etiqadı heç də mövhumatdan irəli gəlmirdi. Şah Abbasın həyatından bəllidir ki, o, nücum elminə, münəccimlərə kifayət qədər inanırdı. Onun nəzərincə, nücum elmi, səma cisimlərinin yerdəyişmələri və onların təbiətə göstərə biləcəyi təsir obyektiv dəlillərə əsaslanırdı. Münəccimlər isə sadəcə öz bilikləri sayəsində səma cisimlərinin yerdəyişmələrinin yaratdığı reallıq

barəsində məlumatları insanlara çatdırırdılar. Savadlı, bilikli münəccimlər səma cisimləri ilə bağlı daha real məlumatlar verirdilər. Savadsız münəccimlər isə düzgün qiymətləndirmə apara bilmir və ona görə də onların savadsızlığı çoxlarına mövhumat kimi görünürdü. Elminə inandığı, təcrübədən çıxardığı insanlar tərəfindən müqəddəs kitabların təfsirinə Şah Abbas etimadla yanaşırdı.

Elmi bilikləri geniş olan insanlara qarşı Şah Abbasın xüsusi ehtiramı var idi. Onun dövrünün böyük alimlərindən və zəka sahiblərindən biri Cəbəl Amol alimlərindən olmuş Şeyx Əbdülsəmədin oğlu Şeyx Bəhaəddin idi. Şeyx Bəhayi kimi tanınan bu insan həm atasının, həm də dövrünün digər böyük alimlərinin yanında təhsil almaqla riyaziyyat, tibb, məzhəb, Quran təfsirçiliyi, nücum elmi, fəlsəfə sahələrində çox geniş biliklərə malik idi. İsgəndər bəy Münşi öz əsərində onun haqqında belə bir fikir söyləmişdir: "Əsrin yeganəsi və dünyanın vahid alimi olan Şeyx Bəhaəddin Məhəmməd: Mərhum Əbdülsəmədin sadiq övladıdır. O, Cəbəlamilin əzəmətli şeyxlərindən idi və bütün elmlərdə, xüsusilə fiqh, təfsir, hadisə və ərəbiyyətdə fazil və elmli adamdı. Gəncliyi şəhidesani (ikinci şəhid) və diri adamların ən məşhuru (zobde) olan mərhum *Şeyx Zeynəddinlə* – Allah rəhmət eləsin – söhbətdə, hədis və rical [elminin] təshih olunmasında, ictihad müqəddimatını öyrənməkdə və biri digərindən kamal kəsb etməkdə keçdi. Cənab şeyx şiə olması səbəbindən rumilər tərəfindən şəhadətə yetdikdən sonra, Bəhaəddin vətənindən [çıxıb] əcəm [diyari] tərəfə gəldi, behiştayin şahın təmtəraqlı məclislərində iştirak etmək izzətinə yetişdi və cürbəcür inayətlərə çatdı. Fəqahət və ictihadı bilməklə dövrünün üləmalarından üstün oldu. O üləmalar arasında ixtilafa səbəb olan və uzun müddət icra olunmayan cümə namazının yenidən icra olunmasının şərtləri üçün böyük səy etdi, mömünlərin böyük bir hissəsi ilə bu işin yerinə yetirilməsinə başladı. Uzun müddət Xorasan naibliyində şeyxülislam, şəriyyat və dövlət təsəddisi vəzifələrində, ümumiyyətlə isə darüssəltənədə xidmətini yerinə yetirir, həmin ürəkaçan məkanda aydın, ifadəli (ğorra) şəriətin rəvacı və xeyriyyə binalarının qaydaya salınması (tənsiq)

üçün çalışırdı. O, dini elmlərin ifadəsi, yəqiniyyə maarifinin genişlənməsi, risalə və kitab yazmaqla məşğul olur, [bir sıra] çətinliklərin həllinə çalışırdı. Həcc beytüllahül – həramına getdikdən və insanların ən xeyirlisinin (Məhəmməd peyğəmbərin), həmçinin yüksək məqamlı imamların – onlara Allahın salamı olsun –müqəddəs məzarlarının ziyarətindən sonra orada iqamət etdi. O, vaxtını həmin yerin üləmaları ilə keçirirdi və elə orada da həyat kitabxanəsinin büsat vərəqlərini örtüb, bəqa aləmi kitabının mütaliəsinə başladı. Cahanı öz şərafətli vücudu ilə bəzəyən onun sadiq xələfi kiçik yaşlarında öz anası ilə birlikdə əcəm vilayətinə gəlib, ciddi-cəhd ilə atasının irsinin toplanması, elm və bilik öyrənməklə məşğul oldu. O, atasının təfsir, hədis, ərəbiyyət, fiqh və bunlar kimi başqa əsərlərinin mütaliəsi və ona irsən keçmiş qabiliyyət sayəsində kamal mərtəbəsinə yüksəldi, Mövlana Abdulla Müdərris Yəzdi ilə olan söhbətlərindən hikmət və başqa məqul elmləri öyrəndi. Riyaziyyatı Molla Əli Müzəhhibdən və feyzli sərkar Mövlana Əfzəl Qayini Müdərrisdən və başqa riyaziyyatçılardan mənimsədi. Tibb və hüquqşünaslıq elmlərini isə o, zəmanəsinin Boqratı adlanan Həkim İmadəddin Mahmud vasitəsilə ki, bu barədə "Ətobba" ("Təbiblər") bəhsində yazılacaqdır, öyrənmiş və [buna görə də] ondan tam bəhrələnə bilmişdi. Az zaman içində o cənab məqul və mənqul elmlərdə bərk tərəqqi etdi və hər fənn üzrə əsrin fəzilət sahiblərindən üstün oldu, yazdığı əsərlər etibarlı (zi etibar) üləmaların diqqətini cəlb etdi. Onun Qurani-məcidin təfsirinə həsr etdiyi "Ürvətül-vosəqa", [həmçinin] səhiyyə, hüsn, müvəssəq (?) və hər bir hədisin şərhinə aid "Həblül-mətin", [həmçinin] "Məşriqüş-şəmseyn", ehkam ayələrinin və səhiyyənin təfsiri, "Haşiyeye-təfsire-Qazi","Haşiyeyi-qəvaede-şəhidi", "Kitabe hədayeqülsalehin", "Dər şərhe-səhifeye-kamele", "Ketabeeynül-həyat fi təfsirül-ayat", "Ketabe-çehel hədis", "Şərhüşşərhe Çəhmini dər heyət", "Haşiyeye-şərhe-moxtəsəre-osul və haşiyeye motul", "Risaleye-təsrihül-əflak dər heyət", "Risaleye-xülasətül-hesab", "Risaleye-səhife dər üstürlab və əsnaəşəriyyat", "Ərbəeye – təharət və sovm-o səlavat və Həcc", "Ketabe zübdətül-üsul" və "Mifta-

hül-fəllah dər təvafüqe-mərayez və sonən" və bu səhifənin təhrir olunduğu hicri tarixlə min iyirmi beşinci (miladi 1616/17) ilə bərabər olan tarixə qədər bitirdiyi, bir neçə başqa risalə və kitabı vardır. Onun ali əmrlə yazmağa başladığı amma hələlik tamamlanmamış "Cameyi-Abbasi" kitabı əsasən dini elmlər barəsindədir ki, əcəm xalqı ondan bəhrələnəcəkdir. Xülasə, o cənab Şeyx Əli Mənşarın vəfatından sonra şeyxülislamlıq mənsəbinin sahibi, həlaliyyət vəkaləti, İsfahan darüssəltənəsinin şəriyyat təsəddisi kimi işlərdə çalışıb bir neçə müddət fəaliyyət göstərdi. Nəhayət, Həcc beytüllahi-həramına ziyarət etmək həvəsinə düşərək, çalışdığı vəzifələrdən ayrılıb həmin xeyirli səfərə yollandı. O, bu səadətə nail olduqdan sonra fəqirlik və dərvişliklə həyat keçirməyə başladı, dərviş libası geyib səfərə çıxdı. Uzun müddət İraq-Ərəbdə, Şamda, Misirdə, Hicazda və Beytül-müqəddəsdə yaşadı. Səyahət etdiyi vaxtlarda bir çox sufi üləmaları və rəhbərlərinin, əhlüllah silkinə mənsub adamların həmçinin guşənişinlərin fikirlərini öyrənib, onların feyzbəxş söhbətlərindən bəhrəmənd oldu. Onların maddi və mənəvi bütün kamilliklərinə (camee-kəmalat) yiyələnə bildi. O, hal-hazırda zahiri və batini elmlərdə dövrünün ən bilikli alimi kimi, üləma və fazil adamlar arasında ali rütbəyə malikdir. Əlahəzrət şah da o səadət nişanlı vaxtdan etibarən dövranın yeganəsi olan o şəxsə (Şeyx Bəhaəddin Məhəmmədin oğluna) ehtiram edir və o, həmişə şahın məiyyətindədir. Səfərlərin əksəriyyətinə şah onu özü ilə aparır, onun feyzbəxş söhbətlərindən sevinir. Baxmayaraq ki, şer və şairlik o cənabın ali mərtəbələrindən aşağıda durur, amma böyük söz demək zövqünə malik adamdır. O cənabın ərəb və fars dillərində gözəl şerləri, zəngin mənalı sözləri, şirin kəlamları dillər əzbəridir. Xüsusilə, Rum mollası (Mövlana Cəlaləddin Rumi) üslubunda "Ğorər və dorər" adlı məsnəvilər nəzmə çəkmişdir. ...Onun rəngarəng kəlam, bəlağətli ibarə, məlahətli şerlər, hər fənn üzrə bəhslər, hər cür lətif hekayətlərindən ibarət "kəşkül" adlı yeddi cilddən ibarət məcmuə tərtib olunmuşdur. Xülasə, o elə dalğalı bəhrdir ki, mənfəəti hər yana çatır. Hal-hazırda əsrin yeganəsi olan o şəxsin şərafətli vücudu cahanın cənnət bağlarının bəzəyi və

İran mülkünün təravətidir. Dövrün bir çox elm və fəzl öyrənməyə cəhd edən şəxsləri onun yanına gedib ondan məna öyrənirlər. Ümid edirəm ki, o təbii bir ömür yaşayacaqdır, adamlar onun fəzilət və sözlərindən bəhrələnməkdə olacaqlar" (104).

İsgəndər bəy Münşi əsərinin başqa bir yerində isə Şeyx Bəhayi haqqında belə yazırdı: "Bilik və elminin çoxluğu ilə bəzənən, ali ictihadı (müctəhidliyi) və bəyinilən əxlaqı ilə seçilən gözəl şəxsdir, feyzlə dolu batini fəqirliyi və dərvişliyi ilə zəngindir, davranışı arifliyindən xəbər verirdi, əhlüllah ilə yaxınlıq edirdi. Bu ilin bir günündə o, "arifi-rəbbani Baba Rüknəddin İsfahani" türbəsi kimi tanınan bir məqbərədə salavat etməklə məşğul idi. Bu zaman bir qəbirdən şeyxin qulağına bir səs gəldi, qəbir əhli və torpaq nihanxanəsinin bir asudə adamı onunla danışmağa başlayıb belə dedi: "Nə üçün belə qəflət içindəsən? İndi təyəqqoz (oyanma, huşsuz olma) və agahlıq əyyamıdır". Həmin ölü adam şeyxə öz adını və əsli-nəslini də söylədi, gizli sirlərdən bir neçə söz də dilinə gətirdisə də, şeyx buna əhəmiyyət vermədi, qəflət, ağahlıq və oyanış (entebah) barədəki sözləri eşitməklə kifayətləndi. O həzrətin (Şeyx Bəhaəddin) başına gələn bu əhvalatdan sonra onun sirrlərinə mərhəm olan adamlardan birisi [həmin söhbət] barədə bir neçə kəlmə danışası oldu. Xülasə, bu qəribə əhvalat şeyxi fikir aləminə (təfəkkir) qərq etdi, bir neçə gün dostlarla görüşdən və [elmi] mübahisələrdən kənarlaşdı, axirət səfərinə hazırlaşdı, bu məlal evindən köçməyin (motərəssed) intizarını çəkdi. Şəvval ayı idi. Şeyx bir ləhzə də dinclik tapa bilmirdi. Hər gün ondan feyz olan tələbələrindən biri şeyxə belə söylədi: "Qoy batində Allahla olsun, zahirdəsə tələbələrə elm öyrətməyindən qalmasın ki, bunun savabı onun itaət və ibadətinə əlavə edilsin". Çox belə söhbətlərdən sonra şeyx tamamilə sakitləşdi get-gedə xəlqullahla əvvəlki kimi davranmağa başladı, amma zahirən üç ayadək elmi mübahisə və tələbə hazırlamaqla (təlmiz) məşğul oldu, "Cameye-Abbasi" adlı şərafətli [kitab] nüsxəsini tamamlamağa girişdi" (105).

İsgəndər bəy Münşi özünün mötəbər və iri həcmli əsərində yeri gəldikcə dövrünün böyük və tanınmış elm adamları haqqında da

söz açmışdır. Bu elm adamları həm saray tərəfindən, həm də insanlar tərəfindən qəbul edilən, hətta qonşu dövlətlərdə də nüfuz sahibi olan insanlar idilər. Belələrindən biri Mövlana Abdulla Şüştəri idi. Bu elm adamın fəaliyyətinin əsas hissəsi Şah Təhmasibin hakimiyyəti illərinə təsadüf edirdi. O, din elmlərini öyrənmək və təbliğ etməklə məşğul olurdu. Səltənət daxilində ilkin biliklərini aldıqdan sonra Şüştəri Ərəbistana yollandı, şiə məzhəbinin elmi mərkəzlərindən biri sayılan Cəbəl Amolda öz biliklərini daha da təkmilləşdirdi, sonra yenidən vətənə qayıtdı. Şah Abbas hakimiyyətə gələndə Şüştəri İmam Rza ziyarətgahının mücaviri idi. Burada o, həm də dini-elmi bilikləri təbliği, öyrədilməsi ilə məşğul idi. İsgəndər bəy Münşinin yazdığına görə, elmi biliklərin yayılmasına təmənnasız yanaşdığı üçün Şüştəri insanlar arasında hörmət və ehtiram qazanmışdı. Şah Abbasın hakimiyyətə gəlişindən az sonra özbəklər Xorasan vilayətinə hücum edəndə onu tutub özləri ilə apardılar və Mavərənnəhrdə qətlə yetirdilər (106).

Şah Abbas dövrünün böyük alimlərindən biri də Şeyx Lütfulla Teysidir. Onun atası Cəbəl Amol alimlərindən idi və ilk biliklərini də öz atasından almışdı. Sonradan Şeyx Lütfulla Məşhədə gəlmiş və orada elmi biliklərini daha da genişləndirmişdi. Özbək qoşunları Xorasan üzərinə hücum edəndə Şeyx Lütfulla əvvəlcə Qəzvinə gəldi, orada dərs deməklə məşğul oldu. Sonra isə Şeyx Lütfulla İsfahanda yaşamağa başladı. Şah Abbasın hərəmlərindən biri onun qızı idi və Nəqşi-cahan meydanındakı Lütfulla məscidi də onun şərəfinə adlandırılmışdı.

Dövrün elm, sənət, zəka sahibləri haqqında maraqlı məlumatlar vermiş İsgəndər bəy özü də dövrün elm adamlarından biri idi. Onun yazmış olduğu "Tarix-i Aləmarayi Abbasi" əsəri Səfəvi tarixi haqında mövcud olan mənbələr arasında öz mötəbərliyi və həcmliliyi ilə seçilir. Türkman türk tayfasının təmsilçisi olan İsgəndər bəy 1560-cı ildə dünyaya gəlmişdi. Həyatı haqqında çox geniş məlumat olmasa da, bəllidir ki, gənc yaşlarında lazımi savad almış və elmi biliklərin öyrənilməsinə böyük maraq göstərmişdi. O, dövrünün istedadlı insanlarından biri idi və söz yaradıcılığı sa-

həsində özündən sonra qiymətli irs qoyub getmişdir. Ona böyük şöhrət və ölməzlik gətirmiş "Tarixi Aləmarayi Abbasi" əsərində də İsgəndər bəy çoxlu sayda nəzm parçalarından istifadə etmişdi. Onun bu nəzm parçaları toxunduğu mövzuya aid olmaqla həmin mövzunun daha ətraflı qiymətləndirilməsi üçün müəyyən əhəmiyyət kəsb etməkdədir. Şah Məhəmməd Xudabəndənin hakimiyyəti illərində İsgəndər bəy Səfəvi qoşunlarına yazılmış və süvari qulam kimi xidmətə başlamışdır. Sonradan isə o, Şah Abbas sarayında münşilik etməyə başlamışdı. Adı çəkilən əsərlə tanışlıq göstərir ki, İsgəndər bəy kifayət qədər məlumatlı bir insan idi. Çünki o, yalnız Şah Abbas haqqında deyil, həm də onun əcdadları haqqında, habelə bölgədə cərəyan etmiş tarixi hadisələr haqqında geniş və mötəbər məlumatlar vermişdir. Bunun üçün İsgəndər bəyin ona qədərki mənbələrlə yaxından tanış olması şübhəsizdir. Aparılan tədqiqatlar da onu göstərir ki, İsgəndər bəy Şah Abbasa qədərki Səfəvi tarixi haqqında yazmaq üçün mövcud olmuş tarixi qaynaqları dərindən öyrənmiş və onlardan istifadə etmişdir. Bunu o özü də əsərində etiraf edirdi. Şah Təhmasibin həyatı haqqında yazarkən İsgəndər bəy özündən əvvəl yazılmış qaynağa istinad etməsini belə şərh edirdi: "İlahinin seçdiyi o həzrətin [Şah Təhmasibin] gözəl sifətlərinin vəsfi qədərindən artıq, onun haqqında yazmaq isə qələmin qüdrətindən və darül-inşa (dəftərxana) katiblərinin barmaqları (bənan) imkanından kənardır. Uca dövlətin onun dövründə baş vermiş hadisələrinin təsvirini, apardığı müharibələri, aldığı ölkə və şəhərləri, habelə başqa böyük əhvalatları rumlu tarixçi (movərrex) mərhum Həsən bəy o həzrətin dövründə yazdığı və "Əhsənüt-təvarix" adlandırdığı kitabında elə təsvir etmişdir ki, bu həqir zərrədə elə yazmaq qabiliyyəti yoxdur" (107).

"Tarixi Aləmarayi Abbasi" əsərinin başlanğıcında İsgəndər bəy Münşi yazırdı ki, bir tarixçi kimi yetişmək üçün çox əziyyət çəkdi, özünün elm və biliyini artırmaq üçün böyük zəhmətlərə qatlaşdı. O, əvvəlcə başqa işlərlə məşğul olsa da, elmə olan marağı onu yaradıcılıq işlərinə cəlb etdi. Xüsusilə, inşa elminə bələd olan insanlarla ünsiyyətdə olması İsgəndər bəy Münşidə nəzm və nəsr

yaradıcılığına maraq daha da artdı: "...mən özümü savad kəsb etməməkdə bəhrəsiz görməmək, heyrət və nadanlıq səhrasında sərgərdan etməməkdən ötrü çətinlikdən çəkinməməyin gərəkli, məqsədə uyğun və biədəblilikdən xali olduğunu düşündüm. Bu [kitabdakı] məqalələri (məqalat) yazmaqdan məqsəd budur ki, mən, yəni [Allah] qullarının kiçiyi olan və Münşi kimi tanınan İsgəndər cavanlıq nəşəsinə daldığım vaxtlarda ağlı gödək dünyapərəst adamların təhriki ilə, öz xislətimə uyğun gələn dəbdə olan elmləri (olume-motədavele) öyrənməkdən əl çəkib siyaq elminə (dəqiq mühasibat elmi) həvəs göstərdim, bir müddət bu natamam peşə (şöğle-natəmam) ilə məşğul oldum, naqis etiqadımla özümü kamal rütbəsinə çatdırdım. [Bir müddət] dəyərli vaxtımı dövlət adamlarına [xidmətdə] sərf etdikdən sonra uzaqgörən ağlım məni qəflət yuxusunun xumarlığından (sokr) oyatdı və öz-özümə dedim: "Qurşandığın bu kiçik (xəsis) iş səni fəzilət və kamaldan yüz mərtəbə uzağa atdı. Sən ki, mənalar dalğaları ilə dolu olan dənizdə üzgüçülük etmisən, heç rəvadırmı ki, mərəkə axtaran şəxslərin yoluyla gedib surətpərəstliyə aldanasan?" Ətraflı düşünüb bildim ki, vaxtım boş-boşuna keçmiş, mənim vücudum peşimançılıqla dolmuşdur. [Amma], qabiliyyət və istedada malik və inşa elminə (məktub və başqa sənədlərin fəsahət və bəlağətlə yazılması) bələd olmuş bəzi izzətli adamların feyzli söhbətlərindən işıqlandım, həmin adamlarla həmsöhbət olduğum vaxtlarda onların nəzm və nəsrdə zərnigar qələmlə bəyan səhifəsinə yazdıqları faydalı və şirin sözləri dinlədikdə, mənim yoxsul (dəryuze) ilhamım həmin şəxslərin tərifəlayiq fikirlərinə rəğbətləndi" (108).

İsgəndər bəy Münşi daha sonra öz əsəri üzərində necə işlədiyi, özündən əvvəl yazılmış olan mənbələrdən istifadə etməsi və onlardan bəhrələnərək yeni bir əsər yaratmağa çalışmasına toxunmuşdur. Yəni əslində, İsgəndər bəy yazdığı əsərin mötəbərliyinə necə nail olmasını özü etiraf etmişdir. Yazmaq qabiliyyəti və istedadı bəlli olanda onu Şah Abbas sarayında münşilər dəstəsinə qəbul etdilər. Bununla da onun yaradıcılıq yolunda çalışmaları başladı. İsgəndər bəy burada müəyyən çətinliklərlə rastlaşsa da, apar-

dığı mütaliə ilə, özündən əvvəlki qələm sahiblərinin təcrübəsini öyrənməklə nəsr və nəzm yaradıcılığının sirlərini öyrənməyə başladı. Elə əsərin özündən də göründüyü kimi, İsgəndər bəy Münşi həm nəzm sahəsində, həm də nəsr sahəsində böyük istedad sahibi idi: "Beləliklə, mən xilafət nişanlı sarayın münşilər silkinə qəbul olundum. Bu böyük vəzifədə (məşgəleyi-əzim) gecə-gündüz çalışdım və bu ləyaqətli işə bağlandım. Cidd-cəhd (himmət) istəyən, fəhm və istedad (fetrət) tələb edən bu işi öyrənmək hələ mənə müyəssər olmurdu, amma xəcil kamal və böyük çalışqanlıqla onu öyrənmyə giriftar oldum. Lakin, bu böyük vəzifədə (məşğəleyeəzim) hər gecəgündüz davam edən məşğuliyyətim mənim istəyimə (hemmət), dərrakəmə (fəhm) və istedadımın ləyaqətlə davam etməsinə mane oldu. İşin gedişində fürsət tapan kimi seyr və xəbərlə dolu kitabların mütaliəsi ilə məşğul olub, həmin şərafətli peşədən bəhrələnməyimi arzuladım ... Sağlam düşüncəli adamlar tərəfindən hamıya məlum olan tarix kitablarının oxunmasının faydasını, xüsusilə yaxın vaxtlarda baş vermiş hadisələrə onların böyük rəğbətlərinin mövcudluğunu və söz ustadlarının bu sahədə imkanlarının çoxluğunu nəzərə aldıqda, [məlumdur ki,] daha gözləmək vaxtı deyildir. [Buna görə də,] sən öz qədəmini himmətin istəyinə uyğun at və Allahın sənə uğur gətirməsini və Allah tərəfindən diləyinin qəbul olunmasını istə. ... Bu fikirlərlə günlərimi başa vurdum. Mən öz bəhanə axtaran təbiətim (məzac) və inadkar təbimlə çarpışmaqdaydım. Nəhayət uzaqgörən rəyim belə qərarlaşdı ki, padşahlıq taxt-tacını (deyhim) bəzəyən hökmdarın (Şah Abbasın) qiymətli ömür rəmzlərini (romuzat) ibarə səlisliyi, münasib sözlər, habelə bəzəkli ifadə və mənalara qapılmadan yazım və yazılanları fikir və amal dəftərində qeyd edim ki, əgər ömür vəfa edərsə, aidiyyətli (təəlloq) adamların ruzigarın müxtəlif işləri ilə məşğul olmaqdan başqa çarələri qalmadığı kimi, vaxt tapıb fürsət əldə edim. ... Söz meydanında çoxlu Abbasi qələmiylə fikir-xəyalın söz kəhərini hərəkətə gətirib, şahın əbədi dövlətində baş verən hadisələri onun doğulduğu gündən bu günəcən ki, hal-hazırda min iyirmi beşinci (miladi 1616) ilə bərabərdir və [şahın]

şərafətli yaşının qırx yeddiyə çatdığı günlərdir, habelə onun cavanlıq dövrü və dövlətinin bahar əyyamıdır, yazmağa başladım, şüur şüalarının işığı çatan məqama qədər həmin hadisələri təfərrüata varmadan və nöqsana yol vermədən qələmə aldım, geniş məlumatı olmayan əhvalatları, zərurət üzündən, onları mənə danışan adamlara etibar edərək, olduğu kimi yazı ipinə düzdüm, bu son dərəcə gözəl əsəri (segerfnamə) və qiymətli səhifəni "*Tarixe-aləmaraye-Abbasi*" adlandırdım, yazdıqlarımı xasiyyət və xüsusiyyətə (təbaye) məlal gətirən qaranlıq iqtibas və ibarələrdən təmizləməyi lazım bildim, [Baş verən] hadisə və xəbərlərin parlaq surətini və gözəl müşahidələrimi sadə bir libasla bəzədim, onları ərsəyə gətirdim. Amma, [mənim etdiklərim] ümumi səciyyə daşıyan yol deyildir. Bəzən olur ki, təbiət gülüstanının bülbülü budaqda oturub nəğmə oxuyur, bəzən də şirin nitqli tuti [quşu] şəkəristanda ibarələr deməyə başlayır və dilinin ləzzəti daha da çoxalır. Xülasə, hər bir ibarə şirin xurmadır. Yaxud, bəzən elə də olur ki, kitabı yazarkən qələmin dilinə hər nə gəlirsə elə onunla da kifayətlənir və razılaşırsan, daha heç bir münasib şerə aludə olmursan. Yaxud da, nadir hallarda [sənin tərəfindən] iki-üç beyt yazılırsa da, bunların hamısı fikir və səliqə-sahmandan və təb saflığından doğan bir nəticədir. Kitabı yazarkən bədahətən bəzi tarixi hadisələr də xatirimə düşdü, qələmin dili ilə bəyan olundu və onlar mənim sözlü qələmimlə yazıldı. "müvəffəqiyyət və təbərrüklə" mənşəyi peyğəmbərlik (nübüvvət) və vəlilik (vəlayət) xanədanı (dudman) içərisindən çıxmış o həzrətin (Şah Abbasın) cahanın başqa sultanlarından və dövranın qeyri xaqanlarından fərqlənən əsil-nəsəbini, bəyənilən hərəkətlərini və layəqətli vəsfini bu kitabın müqəddiməsində (dibaçə) yazdım ki, icmal şəklində bu haqda sonradan təfsilatla yazmağa başlayım. Bu vəlayətnişan xanədanın sadiq bəndəsi və duz-çörəyi ilə boya-başa çatan bir adam kimi haqqım vardır ki, söz-sovlu mədhiyyəçilər (vəssaf) və sözləri bəlağətlə yazan [başqa] tarixçilər (movərrex) kimi, öz vəlinemətimin bəyənilən vəsfi və əxlaqı (seyər) barədə biri-yüz, yüzi isə min edə-edə yazaraq, yazılanları ruzigar səhifəsində yadigar qoyum,

amma o həzrətin düzgünlüyə (həqqaniyyət) olan sağlam meyli həqiqətdən uzaq və bühudə sözlər yazan yazarların (soxənsəra) yazılarından xoşlanmadığı üçün, biz onların bəyənilməz üsullarından sərfnəzər etdik, qələmimizin cilovunu hiyləgərlik (təkəllof) meydanının axtarışından (təkapu) və ibarəli bəzək – düzəyindən kənara çəkdik" (109).

İsgəndər bəy Münşi bu əsərinin böyük bir hissəsi Şah Abbasın həyatın və hakimiyyətinə həsr olunmuşdur. Sözsüz ki, bu əsərdə onun şəxsi fikir və mülahizələri, yaşantıları ilə qarşılaşmaq mümkündür. Bununla belə, İsgəndər bəy Şah Abbasın həyatı ilə bağlı ən mötəbər bir əsəri yaratmağa müvəffəq olmuşdur. Həmin əsər bu günə qədər dünya Səfəvişünaslığının davamlı şəkildə müraciət və istinad etdiyi ən mötəbər mənbələrdən biri kimi qalmaqdadır.

3. İstifadə olunmuş mənbə və ədəbiyyat

1. Süleymanov M. Səfəvilər. VIII. I Şah Abbas. Bakı, 2023, s.127-147
2. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. II cild, Tehran, 1391, s.164-165
3. Braun E. Tarix-e ədəbiyyat-e İran. Əz ağaz-e əhd-e Səfəviyyə ta zaman-e hazer. Cild 4., s.35
4. Musəvi M. Şah Abbas zende konənde-ye şokuh-e parsiyan. https://tamadonema.ir/شاه-عباس
5. Araslı H. XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı, 1956, s. 85
6. Babayev Y. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər). Bakı, 2018, s.588
7. Süleymanov M. Səfəvilər. VII. I Şah Abbas. Bakı, 2023, s.701-708
8. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. II cild, s.165
9. Araslı H. XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi, s. 87; Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, 1992, s. 400

10. Araslı H. XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi, s. 89
11. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. II hissə. Bakı, 2006, s. 440
12. Yenə orada, s. 445
13. Araslı H. XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi, s. 113; Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. II hissə. Bakı, 2006, s. 166
14. Araslı H. XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi, s. 108; Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. II hissə. Bakı, 2006, s. 1670
15. Qasımov X. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı, 2008, s. 316
16. Araslı H. XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi, s. 93
17. Yenə orada
18. İsgəndər bəy Münşi. Düyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1915-1917
19. Yenə də orada
20. Araslı H. XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi, s. 140-141; Каджар Ч. Выдающиеся сыны древнего и средневекового Азербайджана. — Баку, 1995, с. 183
21. Braun E. Tarix-e ədəbiyyat-e İran. Əz ağaz-e əhd-e Səfəviyyə ta zaman-e hazer. Cild 4., s.198
22. Керимов П. Об Азербайджанской тюркоязычной литературе XVII века, с. 428//Иран-наме, № 3-4, 2016, с. 424-431; Tarix-e İran. Dövre-ye Səfəviyan. Pəjuheş əz daneşqah-e Kembric. Tehran, 1388, s.544
23. Babayev Y. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər), s. 633
24. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl, cild II, s. 172
25. Yenə orada, s. 172-173
26. Yenə orada, s. 173
27. Araslı H. XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi, s. 123

28. Babayev Y. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər), s. 634; Каджар Ч. Выдающиеся сыны древнего и средневекового Азербайджана, s. 182
29. Araslı H. XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi, s. 65; Babayev Y. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər), s. 571-572
30. Araslı H. XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi, s. 66; Babayev Y. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər), s. 572
31. Qasımov X. Orta əsrlərdə Azərbaycan mədəniyyəti, s.317; Каджар Ч. Выдающиеся сыны древнего и средневекового Азербайджана, с.171
32. Araslı H. XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi, s. 92
33. Təzkire-ye Nəsrabadi. Tehran (tarixsiz), .s. 431; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl, cild II, s. 181
34. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl, cild II, s. 183
35. Yenə orada, s. 184-185
36. Yenə orada, s. 186-188
37. İsgəndər bəy Münşi. Düyanı bəzəyən Abbasın tarixi, s. 714
38. Yenə orada, s. 715-716
39. İsgəndər bəy Münşi. Düyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1373
40. Yenə orada, s. 1913
41. Cəfərian R. Asar-e Hifzi Bağdadi, şair-e duzəbnane-ye farsi-ərəbi dər dövre-ye Şah Abbas-e əvvəl, s.16 //Aine-ye pəjuheş, N-1, 1399, s. 13-53
42. Cəfərian R. Asar-e Hifzi Bağdadi, şair-e duzəbnane-ye farsi-ərəbi dər dövre-ye Şah Abbas-e əvvəl, s.25-29
43. Yenə orada, s. 33-39
44. Yenə orada, s. 46-53
45. Cəfərian R. Əşar türkü dər sitayiş-e eğdam-e Şah Abbas dər fəth-e Bağdad be sal-e 1033. https://www.khabaronline.ir/news/343142/ 1033
46. Təzkire-ye Nəsrabadi, s. 9

47. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl, cild I, s. 168
48. Yenə orada
49. İsgəndər bəy Münşi. Düyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1756-1757
50. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl, cild I, s. 167
51. Yenə orada, s. 181
52. Süleymanov M. Səfəvilər. VIII. I Şah Abbas. Bakı, 2023, s.234-255
53. Tarix-e İran. Dövre-ye Səfəviye. Pəjuheş əz daneşqah-e Kembric. Tehran, 1388, s.404
54. Seyvori R. İran-e əsr-e Səfəvi. Tehran, 1366, s.151
55. Yenə orada, s. 152
56. Yenə orada, s. 155
57. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1719
58. Anar D.G. Safevi şahlarının baniligi üzerine bir degerlendirme, s. 130//İran çalışmaları Dergisi, N-1, 2017, s. 117-143; Blou D. Şah Abas, s. 273
59. Tarix-e İran. Dövre-ye Səfəviye. Pəjuheş əz daneşqah-e Kembric, s. 419
60. Anar D.G. Safevi şahlarının baniligi üzerine bir degerlendirme, s. 132
61. Seyvori R. İran-e əsr-e Səfəvi. Tehran, 1366, s.159; Blou D. Şah Abbas, s. 273
62. Qodyani A. Tarix-e fərhəng və təməddon-e İran dər dövreye Səfəviyye, s. 139
63. Tarix-e İran. Dövre-ye Səfəviye. Pəjuheş əz daneşqah-e Kembric, s. 425; Anar D.G. Safevi şahlarının baniligi üzerine bir degerlendirme, s. 134
64. Tarix-e İran. Dövre-ye Səfəviyn. Pəjuheş əz daneşqah-e Kembric, s. 435-436
65. Yenə orada, s. 437
66. Yenə orada, s. 438

67. Taheri Ə. Tarix-e siyasi və ictimai-ye İran əz mərg-e Timurləng ta Şah Abbas. Tehran, 1383, s. 382-383
68. Blou D. Şah Abbas. Tehran, 1390, s. 266
69. Yenə orada, s. 265
70. Qodyani A. Tarix-e fərhəng və təməddon-e İran dər dövreye Səfəviyye, s. 142
71. Taheri Ə. Tarix-e siyasi və ictimai-ye İran əz mərg-e Timurləng ta Şah Abbas, s.383
72. Blou D. Şah Abbas, s. 273
73. Yenə orada, s. 266
74. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl, cild I, s. 207
75. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi, s. 325-327
76. Yenə orada, s. 207
77. Yenə orada, s. 206
78. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi, s. 328-329
79. Yenə orada, s. 328
80. Blou D. Şah Abbas, s. 269
81. Yenə orada, s. 270
82. Blou D. Şah Abbas, s. 270
83. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl, cild I, s. 190-191
84. Blou D. Şah Abbas, s. 269
85. Yenə orada, s. 268-269
86. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl, cild I, s. 193
87. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl, cild I, s. 191; Blou D. Şah Abbas, s. 268
88. Yenə orada, s. 196
89. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl, cild I, s. 194
90. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl, cild I, s. 196; Blou D. Şah Abbas, s. 269
91. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl, cild I, s. 197-198
92. Yenə orada, s. 199
93 İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi,

s. 320-321
94. Keyvani M. Pişəvəran və zendegi-ye senfi-ye anan dər əhd-e Səfəvi. Tehran, 1392, s.61
95. Qodyani A. Tarix-e fərhəng və təməddon-e İran dər dövreye Səfəviyye, s. 145
96. Yenə orada
97. Yenə orada, s. 145-146
98. Tarix-e İran. Dövre-ye Səfəviye. Pəjuheş əz daneşqah-e Kembric, s. 398
99. Tarix-e İran. Dövre-ye Səfəviye. Pəjuheş əz daneşqah-e Kembric, s. 401; Qodyani A. Tarix-e fərhəng və təməddon-e İran dər dövreye Səfəviyye, s. 146
100. Qasımov X. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı, 2008, s.332
101. Qurbannejad P., Hüseynpur H. Bərrəsi-ye eləl-e mühacirət və mühaciran-e Azərbaycani be İsfahan dər dövre-ye Şah Abbas Səfəvi, s. 16// Məskuye, N-20, 1391, s. 8-31
102. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi, s. 694
103. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1902
104. Yenə orada, s. 294-297
105. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1719
106. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi, s. 292
107. Yenə orada, s. 93
108. Yenə orada, s. 4-5
109. Yenə orada, s. 11-14

III FƏSİL. ŞAH SƏFİ

1.Səfi Mirzənin şah elan edilməsi

Şah Abbasın beş oğlan övladı var idi. Lakin onların heç birinə Şah Abbasdan sonra taxta çıxmaq qismət olmadı. Belə ki, Şah Abbas böyük oğlunu qətlə yetirmiş, iki oğlu vaxtsız dünyasını dəyişmiş, iki oğlunun isə gözlərini kor etdirmişdi (1).

Şah Abbasın böyük oğlunun adı Məhəmməd Bağır Mirzə idi. Amma o daha çox Səfi Mirzə kimi tanınmışdı. Şah Abbas həyatının sonlarına yaxın Səfi Mirzənin hakimiyyət iddiasına düşdüyündən şübhələnmişdi. Bu şübhələr də onun oğlunun qətli ilə başa çatdı. Öz övladlarına qarşı belə qəddar olması Şah Abbas xarakterinin anlaşılması mümkün olmayan cəhətlərindən biridir. Bütün həyatı boyu dünya malına aludəçilik göstərməyən, yaradanın qismətinə təvəkkül edən Şah Abbas hakimiyyət məsələsində kimsəyə güzəştə getmək istəmirdi. Doğrudur, bu məsələdə Şah Abbas yalnız oğlunu cəzalandırmadı və xeyli sayda adam Səfi Mirzə ilə birlikdə qətlə yetirildi. Şah Abbası da daha çox qəzəbləndirən Səfi Mirzənin kimlərinsə əlində vasitəyə çevrilməsi idi. Çünki bəzi adamlar Səfi Mirzəni taxta çıxarmaqla real hakimiyyətə yiyələnmək istəyirdilər. Şah Abbas da buna imkan vermədi. Lakin bu zaman o öz oğluna çox ağır cəza verdi ki, həyatının sonuna qədər bu cəzanın əzabını yaşamalı oldu.

Şah Abbasın ikinci oğlu Həsən Mirzə idi. O, hələ çox erkən yaşlarında öz əcəli ilə dünyasını dəyişdi. Şah Abbasın 1598-ci ildə anadan olmuş üçüncü oğlu Sultan Məhəmməd Mirzə adlanırdı. Bu adı ona Şah Abbas atasının xatirəsinə görə vermişdi və buna görə də onu çox vaxt Xudabəndə Mirzə deyə çağırırdılar. Şah Abbas çox çalışırdı ki, Xudabəndə Mirzə qapalı həyata malik olsun, onun əmir və əyanlarla ünsiyyətinə yol verilməsin. Bununla da, bəzi iddialı adamların ondan istifadə etməklə Şah Abbas hakimiyyətinə son qoymaq niyyətlərinin icrasının qarşısı alınsın. Amma yaşa dolduqca Xudabəndə Mirzə də insanlar arasına çıxmağa başladı,

saray tədbirlərinə qatıldı. Xudabəndə Mirzə şahın qanuni varisi sayılmalı idi və atasından sonra taxta çıxmağa onun qanuni haqqı var idi. Buna baxmayaraq, onun da hərəkətlərində Şah Abbasın qəzəbinə səbəb olacaq hallar özünü göstərməyə başladı. Yəni Xudabəndə Mirzə elə adamlarla ünsiyyət qurdu, iştirak etdiyi məclislərdə elə söhbətlər apardı ki, Şah Abbas onun da hakimiyyət iddialarından şübhələnməyə başladı. Nəticədə, Şah Abbasın əmri ilə onun gözlərinə mil çəkildi və o, dünya işığından məhrum edildi.

Şah Abbasın dördüncü övladı İsmayıl Mirzə idi. Onun da ömrü uzun olmadı. İsmayıl Mirzə on iki yaşında olarkən xəstəliyə tutuldu və dünyasını dəyişdi. Şah Abbasın sonuncu oğlan övladı İmamqulu Mirzə idi. O, taxta çıxa biləcək yeganə övlad idi. Bu mənada ilk vaxtlar Şah Abbasda ona qarşı xüsusi bir rəğbət də var idi. Bununla belə, həyatının sonlarına yaxın Şah Abbasın İmamqulu Mirzəyə qarşı da münasibəti dəyişdi və onu da kor etdirdi. Nəticədə, Şah Abbasın övladları arasında taxt-tac sahibi ola biləcək kimsə qalmadı.

1628-ci ildə Şah Abbas Novruz bayramını Mazandaranda keçirdi. Tarixdən bəllidir ki, Şah Abbas Mazandaranda vaxt keçirməyi, orada istirahət etməyi çox xoşlayırdı. Sözsüz ki, bu zaman o, dövlət işlərini də yaddan çıxarmırdı. Lakin Mazandaranın təbiəti, iqlimi hər zaman onu özünə cəlb edirdi və elə bunun nəticəsi idi ki, Şah Abbas orada özünə yeni iqamətgah da tikdirmişdi. O, Mazandaranda sonuncu Novruz bayramını qeyd etdi. Burada olarkən Şah Abbas Osmanlı qoşunlarının yenidən Səfəvi hüdudlarına hücum edə biləcəyi haqqında məlumat aldı. Bu təhlükənin qarşısının alınması məqsədilə Şah Abbas Qəzvinə yollandı. Lakin haqqında danışılan və ehtimal edilən Osmanlı təhlükəsi həmin il aradan qalxdı. Şah Abbas bir müddət Qəzvində qaldı və burada olarkən onun səhhətində bir ağırlaşma özünü göstərdi. Doğrudur, bir neçə gün sonra aparılan müalicənin nəticəsi kimi Şah Abbasın səhhətində yaxşılaşma baş verdi. Bununla belə, mənbələrin verdiyi məlumata görə, həmin günlərdə Şah Abbas taxt-tac varisi

haqqında düşünməyə başladı. Mənbələrdə olan məlumatlara görə, Şah Abbas artıq həyatının sonunun yetişdiyini hiss etməyə başlamışdı. Bu da onu məcbur edirdi ki, artıq taxt-tac varisi haqqında da düşünsün: "O günlərdə [şahın] vəlayət və irşad nuru ilə işıqlanan ürəyinə (zəmir) dammışdı ki, tezliklə fani dünyanı və vəhşətli məkanı tərk edəcəkdir. Ətirli fikri ona yönəldi ki, dövlət bağının tazə ağacı və səltənət çəmənini bəzəyən pöhrə (nehal) olan cavanbəxt şahzadə, mərhum şahzadə [Səfi Mirzənin] yadigarı, bu günki cahanın ulduzu, əzəmət və bəxtiyarlıq asimanının nurlu ayı (bədr), padşahlıq (kəyani) tacının bəzəyi və xosrovluq tacının münasib (berazende) adamı, səfəvi dudmanının xələfi, ələvi xanədanının övladı, ilahi (yəzdani) inayətlərin istiqamətləndiyi şəxs, Allahın (Sobhani) göstərişlərinə (təyidat) əməl edən bəndə, yeri cənnət olan mərhum şahzadənin əziz xələfi Səfi Mirzənin-qoy [atasının] ömrü əbədiyyətə qovuşsun-yaşından on səkkiz mərhələ ötmüşdür, o, inkişaf (roşt) etməyə və bilik mənimsəməyə başlamışdır. [Şahzadə] İsfahan darüssəltənəsində boya-başa çatmışdı. O xoşxislət şahzadənin xidmətində duran və onu böyüdən kişi və qadından ibarət bir neçə etimadlı adama əmr olundu ki, onu [şahın] hüzuruna gətirsinlər ki, bundan sonra şahanə tərbiyət və şəfəqqət kölgəsi altında yaşasın, vəliəhdlik rütbəsi ilə izzətlənsin" (2).

İsgəndər bəy Münşinin bu məlumatına əsasən, belə bir qənaətə gəlmək olar ki, Şah Abbasın nəvəsi Sam Mirzə 1610-cu ildə anadan olmuşdu. Şah Abbasın varis haqqında düşünməyə başladığı vaxt onun artıq 18 yaşı var idi. Mənbələrdə olan məlumata görə, Şah Abbas hətta Qəzvində xəstəliyə tutulmasından əvvəl Sam Mirzəni taxt-tac varisi elan etmək fikrində olduğunu öz əmir və əyanlarının yanında bir neçə dəfə açıqlamışdı. Saray məclislərinin bəzilərində də Şah Abbas elan etmişdi ki, ondan sonra səltənət hakimliyi Sam Mirzəyə çatacaqdır (3).

Qəzvində öz işlərinin yekunlaşdırdıqdan sonra Şah Abbas yenidən, Mazandarana, Əşrəf şəhərinə yollandı. Burada onun xəstəliyi yenidən güclləndi. Şah Abbas bu xəstəliyin qarşısında taxt-tac varisi haqqında daha qətiyyətli qərar qəbul etmək məcburiyyəti

qarşısında qaldı. Bu qərarın qəbul edilməsindən əvvəl Şah Abbas münəccimlərə üz tutdu, onların məsləhətini eşitməyi məqsədəuyğun saydı. Şah Abbas hər zaman ciddi qərar qəbul etməzdən əvvəl münəccimlərlə məsləhətləşərdi. O, istəyirdi ki, Sam Mirzəni İsfahandan yanına gətizdirsin və onun varis təyin edilməsi rəsmiləşdirilsin. Bununla bağlı, Şah Abbas istəyirdi ki, həm Qurani-Kərim üzərində fal açılsın, ilahi məsləhətin necə olmasını öyrənsin, həm də ulduzların seyrinin nələr vəd etdiyini öyrənsin: "O həzrətin gözəl xasiyyəti və şüarı beləydi ki, lap kiçik işlərin əncamında belə Rəbbin kəlami-məcidinə (Qurani-Kərimə) baxıb fal açsın, ilahi məsləhət və fərman almadan heç bir işə başlamasın. Din və dövlətin ən böyük işlərindən biri olan bu mübarək işdə də [şah] məşvərəti lazım bildi, fal açmaqdan ötrü xasseyi-şərifə münəccimləri zümrəsindən etibarlı şəxs olan Mövlana Müzəffər Münəccim Cünabadinin oğlu Mövlana Məhəmməd Təqini Mazandaran diyarının fazil və əməlisaleh (ətqiya) şəxslərindən sayılan Mövlana Murad Mazandaraninin yanına məşvərətə yolladı. Həmin Mövlana fal açdı və fal bu kəramətli ayə üzərinə düşdü: "Rəbbinizin üç min mələk endirərək imdadınıza yetişməsi sizə kifayət etməzmi? Bəli, əgər səbir edib [Allahdan] qorxsanız onlar [Məkkə müşrikləri] qəzəblə üstünüzə gəldikləri zaman Rəbbiniz artıq beş min nişan əli mələklə sizə yardım edər". Həmin kəramətli ayədən zahir oldu ki, şahın istəyi olduqca mübarəkdir, lakin şahzadənin İsfahandan gətirilməsi xüsusunda bu ayədə səbir və sükunət işarəsi vardır.

...Cahan işlərinin mənfəətini və cahanda olanların vəziyyətini bilən və görəndir. Buna görə də, kəramətli ayəyə əməl olundu, dövlət bağının o cavan ağacının gətirilməsi bir neçə gün təxirə salındı. Sonra aşağıda yazılacağı kimi, az vaxt içində o səltənət nişanlı şahzadənin Mazandarana gətirilməsinin ilahinin minlərlə yüksək hikmətindən biri olduğu aşkar olundu" (4).

Bəzi mənbələrdə Şah Abbasın çağırışından sonra Sam Mirzənin İsfahandan onun yanına gəlməsi haqqında məlumat vardır. Bu mənbə məlumatına görə, Şah Abbas nəvəsi ilə görüşündə ona

öz vəsiyyətini belə çatdırdı: “Övladım, mən sənin atanı çox istəyirdim və arzulayırdım ki, məndən sonra o, şah olsun. Lakin o məni qılıncı ilə məhv etmək niyyətinə düşdü. Amma ölümü özü qəbul etdi. Ona görə də bizim səltənətin varisi sən oldun. Qulaq as gör nə deyirəm – mən ölənə kimi mənə tabe ol, sonra İsfahana yollan və şahlıq etməyə başla. Mənim fərmanımla vəzifə sahibi olmuş əmr və əyanlardan canını qurtar ki, onlar sənə ziyan yetirə bilməsinlər” (5).

Əslində, bu məlumat doğru deyildir. Münəccimlər Sam Mirzənin Şah Abbasın yanına gəlməsinin bir qədər təxirə salınmasının məqsədəuyğun olduğunu bildirdilər. Ona görə də, Şah Abbas dünyasını dəyişənə qədər Sam Mirzə onun yanına gətirilmədi. Şah Abbas isə xəstəlikdən ayağa qalxa bilmədi və o, 1629-cu il yanvar ayının 19-da Əşrəfdə dünyasını dəyişdi. Şahın yaxın adamları güman edirdilər ki, bu hadisə haqqında xəbər yayılması səltənət daxilində hərc-mərcliyə yol açа bilər. Ona görə qorçubaşı İsa xan, eşikağasıbaşı Zeynal xan və etimadüddövlə Xəlifə Sultan qərara gəldilər ki, Şah Abbasın dünyasını dəyişməsi haqqında xəbər hələlik gizli saxlanılsın. Şah Abbasın bibisi Zeynəb bəyim də bu xəbərin yayılmasını lazım bilmədi. Adları çəkilən əyanlar Zeynəb bəyimlə birlikdə belə bir qərara gəldilər ki, səltənət daxilində hərc-mərcliyin başlanmasına yol verməmək üçün İsfahan darğası Xosrov Mirzəyə məktub göndərsinlər və ondan tələb etsinlər ki, Sam Mirzənin mühafizəsini gücləndirsin. Həmin məktubda deyilirdi ki, Şah Abbas Mazandaranda xəstəliyə tutulduğu üçün onun İsfahana gəlməsi məsələsi vardır. Ona görə də lazım bilinirdi ki, məktub alınandan sonra Sam Mirzə və Şah Abbasın oğlu İmamqulu Mirzədən olan nəvəsi Nəcəfqulu Mirzəni dövlətxana daxilinə aparıb mühafizəsini təmin etsinlər. Bu məktub şah möhürü ilə möhürləndi. Sonra da məktub şah sarayında sədaqətlə xidmət edən Məhəmməd Tahir adlı birisi ilə İsfahana göndərildi (6).

Mənbə məlumatına görə bir neçə gün belə davam etdi. Lakin Şah Abbasın dünyasını dəyişməsi tədricən saray daxilində və ətra-

fında yayılmağa başladı. Bu adamlar isə məsələni açıb-ağartmağa cəsarət etmədilər. Onlar çalışırdılar ki, hətta Şah Abbasın adını da dilə gətirməsinlər, onun adının çəkilməsi Şah Abbası sevənlərin gözlərindən yaş axmasına səbəb olmasın. Məsələdən xəbərdar olanlar da öz dərdlərini ürəklərində saxlamağa çalışırdılar. Buna baxmayaraq Şah Abbasın dünyasını dəyişməsi xəbər yavaş-yavaş camaat arasında da yayılmağa başladı. Belə olanda Zeynəb bəyimin razılığı ilə eşikağasıbaşı Zeynal bəy şahın dünyasını dəyişməsini rəsmi şəkildə elan etdi (7).

Bundan sonra qullarağası Möhübəli bəylə İsfahan darğası Xosrov Mirzəyə və saray əyanlarından olan Əbülqasım bəyə məktub göndərildi. Həmin adamlardan tələb olundu ki, şah karvanı geri qayıdana kimi Sam Mirzədən muğayat olsunlar, ona uyğun xidməti göstərsinlər və onun şahlıq taxtına çıxması mərasiminin keçirilməsini ləngitsinlər. Məktub İsfahana göndəriləndən sonra Əşrəfdə olan saray mənsubları da bu şəhəri tərk edərək İsfahana doğru istiqamət götürdülər. Onların məqsədi Şah Abbasın cənazəsini də İsfahana gətirmək və dəfn mərasimini orada keçirmək idi (8).

İsgəndər bəy Münşi bu hadisəni belə təsvir edirdi: "Aqil adamlar bu müsibətdən çıxmaq yolunu səbir etməkdə və dözümdə gördülər, əllərini açaraq "Allaha həmd olsun. Minnət ona məxsusdur" [dedilər]. Dövlət başçılarından o həzrətə yaxın olmaqla şərəflənən İsa xan Qorçibaşı və Xəlifə Sultan Etimadüddövlə, habelə Zeynal xan Eşikağasıbaşı Şamlı və başqa əyanlar sarayda dövlət işlərinin əncamına başlayaraq, hamını aləm şahzadəsinin vəliəhdliyi barədə agah etdilər. Bu vəlayətnişan xanədanın sarayda olan bütün xüləfa, sufi və müridləri mürşide-kamilin fərmanını can-başla qəbul edərək, sədaqət və bağlılıq qədəmi atdılar, bunun xoş müjdənin işarəsi olduğunu söyləyib, səltənət və padşahlığı o iqbal bostanının cavan ağacına tapşırdılar. İsa xan, Zeynal xan və səfəviyyə sülaləsinin etibarlı müridləri olan bütün əyanları bu zərurəti etiraf etdilər. Bu haqda yazılmış sənədi möhürləyərək onu bu dərgahın etibarlı adamlarından "Əkə" ləqəbi ilə məşhur olan Möhübəli bəyə verdilər və İsfahan darüssəltənəsində şaha və cahan şahza-

dəsinə yolladılar, üz vermiş bu böyük müsibət münasibətilə öz göz və ürəklərinə ...təsəlli verdilər. Allaha həmd olsun ki, [şah] özündən sonra elə bir xələf yadigar qoydu ki, cahandarlıq ayini onun hümayun zahiri görünüşündən (tələt) görünür, cahanbanlıq əsəri isə iqbal çöhrəsindən aşkardır. Xülasə, o sənədi aparan şəxs o uzaq məsafəni ildırım və külək sürəti ilə qət edib səkkiz gündən sonra yeni şahla görüş səadətinə yetdi, ona böyük babasının qaçılmaz vaqiəsi xəbərini verdi, həmin lətafətli kağızı onun nurlu nəzərinə çatdırdı. Bu vəhşətli xəbərdən İsfahan darüssəltənəsindəki şahzadələrin və hərəmxananın möhtərəm qadınlarının nalə və əfğanları asimana ucaldı " (9).

Məktub göndəriləndən sonra Şah Abbasın cənazəsini müşayiət edən karvan Əşrəfdən İsfahana doğru hərəkətə başladı. Tarixdən məlumdur ki, şah karvanı Kaşanda böyük bir izdihamla qarşılandı. Bu şəhərin sakinləri Şah Abbasın ölüm xəbərini ağlayan və sızlayan bir halda qarşıladılar, bütün şəhər yas mərasiminə büründü. Şah Abbasın cənazəsinin ətrafında o qədər insan toplaşdı ki, onları yarıb irəliləmək də xeyli çətinləşdi. Qərara alındı ki, Şah Abbasın cənazəsi müvəqqəti olaraq Kaşanda saxlanılsın. Bunun üçün Kaşandan bir qədər kənarda yerləşən Həbib ibn Musa adlı imamzadənin dəfn edildiyi türbə seçildi və cənazə müvəqqəti olaraq orada yerləşdirildi (10).

Lakin bəllidir ki, Şah Abbas sonradan elə Kaşanda torpağa tapşırıldı. İsfahanda isə saray mənsubları şah karvanının gəlib çatmasını gözləmədilər. Saray mənsubları belə bir qənaətə gəldilər ki, Şah Abbasın cənazəsi İsfahana gəlib çatana qədər hakimiyyətsizlikdən istifadə edən bəzi qüvvələrin mümkün təxribat cəhdlərinin qarşısının alınması üçün Sam Mirzə dərhal taxta çıxarılsın və səltənət şahsız qalmasın. Ona görə də dərhal Sam Mirzənin taxta çıxarılması mərasiminə hazırlıq işləri başlandı (11).

İsgəndər bəy öz əsərində Sam Mirzənin taxta çıxmasını belə təsvir edirdi: "Bu xanədanın orada xidmətdə olan bir neçə ağsaqqalı, o cümlədən saf etiqadlı sufilərdən və hərəmxananın eşikağasıbaşısı olan Əbülqasım bəy Evoğlu, İsfahan darüssəltənəsinin

hakimi Gürcüstan valisi Boqrat xanın qardaşı Xosrov Mirzə ilə birlikdə, müxtəlif təbəqələr və tayfalarla dolu olan o şəhərdə yeni şahın hümayun cülusunu matəm və təziyə saxlamaqdan daha üstün bilərək, dərhal o cavan şahzadəni səfəvi sülalə sufilərinə aid olan qayda üzrə cənnətməqam şahın əcdadından miras qalan tərzdə səltənət taxtına və irşad xalçasına əyləşdirdilər, onun ayağını öpmək şərəfinə çatdılar, bu hümayun cülus xəbərini məmləkətlərin sərhədlərinədək yaydılar. Aləmin fazilləri və şəhərin münəccimləri belə mülahizə yürütdülər ki, təsadüfən (bər həsbe ettefaq) taxta cülus üçün seçilən vaxt olduqca xoş və mübarək saatda [baş verdi]. Nücum elminin qəribəliyidir (məab, məayeb) ki, xoşbəxt (məsude) ulduzlar şərəf bürcündə düzgün düzülmüş tale sahibinin əhvalatından xoşhal olmuşdular və ona nəzarət edirdilər. Baxmayaraq ki, bu ilin zic, təqvim və hasil olunan (mostəxrecat) məlumatlarına görə buna bir qədər ehtiyatla yanaşdılar, amma altı ay keçdikdən sonra da padşahlığın cülusu və şahlığın başlanmasından ötrü həmin xoşluqda saat tapılmadı. Aləmin aqilləri və zəka sahiblərinə aşkardır ki, bu qəribə məsələ o həzrətin iqbalının nəticəsidir, sabit dəlillərdəndir və onun ömür və dövlətinin davamlı olacağının əlamətidir" (12).

Yəni köhnə ənənəyə uyğun olaraq yeni şahın taxta çıxacağı günü müəyyənləşdirmək üçün münəccimlərin köməyinə müraciət edildi. Münəccimlər də səma cisimlərinin yerdəyişmələrini müşahidə etdikdən sonra şahlıq taxtına çıxmaq üçün münasib olan günü təyin etdilər. Yuxarıdakı qeydlərdən bildirilir ki, hətta bu hadisədən altı ay keçəndən sonra da şahlıq taxtına çıxmaq üçün belə bir münasib gün olmadı. Gün müəyyən edildikdən sonra mərasimin keçirilməsinə hazırlıq başlandı. Bildirilir ki, dövrün fazil və alimlərindən olan Mirzə Həbibulla, Molla Hüseynəli, Mirzə Qazi və digərləri məsləhətləşərək mərasimin Ali Qapı sarayında keçirilməsini məqsədəuyğun saydılar. Həmin sarayda şahlıq taxtına əlavə zinət vuruldu, Sam Mirzənin belinə I Şah İsmayılın qılıncını bağladılar, ona Quran kitabı verdilər və belinə şah kəməri sarıyaraq onu şahlıq taxtına əyləşdirdilər. Bir məlumata görə, xatə-

mül-müctəhidin kimi məşhurlaşmış olan Mir Damad İsfahan məscidində Sam Mirzənin taxta çıxması ilə bağlı xütbə oxudu və bundan sonra Şah Abbas tərəfindən qətlə yetirilmiş atası Səfi Mirzənin şərəfinə Şah Səfi adı ilə növbəti Səfəvi hökmdarı kimi hakimiyyətə başladı (13).

İsgəndər bəy Münşi öz əsərində Sam Mirzənin taxta çıxması mərasimini qısaca olaraq belə şərh edirdi: "Qızılbaş qaydası üzrə bütün dövlət başçıları, əyanlar, saray adamları və dərgah mülazimlərinin hər biri öz rütbə və məqamlarına uyğun olaraq Nəqşe-Cahan dövlətxanasına gələrək, [yeni] şahın ayağını öpmək şərəfinə yetişdilər. Ali məqamlı xanlar və yüksək rütbəli

böyük şəxslər şahanə nəvazişlərə layiq görüldülər, şahın cahanı bəzəyən camalını müşahidə edərək, ürəklərindəki kədər və məlal tozunu təmizlədilər, dövlətxahların ürəkləri şadyanalıqdan gül-gül açılmağa başladı, o həzrətin yüksək Sam adını "Şah Səfi" adlandırdılar" (14).

İsgəndər bəy Münşi bütünlükdə, Şah Səfinin taxta çıxmasına belə bir qiymət verirdi: "Allaha həmd olsun ki, [şah] özündən sonra elə bir xələf yadigar qoydu ki, cahandarlıq ayini onun hümayun zahiri görünüşündən (tələt) görünür, cahanbanlıq əsəri isə iqbal çöhrəsindən aşkardır. ...Hümayun cülus xəbəri ətrafa yayıldı, ölkənin əmniyyətinə və varlanmasına (esteanət), əhalinin asayişinə səbəb oldu" (15).

İsgəndər bəy Münşinin qeyd etdiyinə görə, Şah Səfinin taxta çıxması münasibətilə yüksək vəzifə tutmuş məqamlar, əmir və əyanlar, saray adamları və dərgah mülazimləri qızılbaş qaydasına uyğun olaraq səltənət dövlətxanasına gələrək yeni Səfəvi şahının ayağını öpdülər və onu şah kimi qəbul etdiyini bildirdilər. Bir başqa məlumata görə isə, Şah Səfi şah elan ediləndən sonra təbillər vuruldu, Musiqi səsləndirildi və yeni şahın taxta çıxması bütün şəhər əhlinə çatdırıldı. Şəhər əhli də dövlətxana ətrafına axışaraq yeni şaha öz itaətlərini bəyan etdilər. İsgəndər bəy Münşi onu da yazırdı ki, Şah Səfinin taxta çıxmasına müxalifətçilik edənlər də oldu. Şah Abbasın dördüncü oğlu olan İsmayılqulu Mirzə gözü-

nün tamamilə kor olmadığını və ona görə də səltənət idarəçiliyini öz üzərinə götürə biləcəyini bildirdi. O yazırdı: "İsfahandakı şahzadələrdən mərhum şahın gözlərinə mil çəkilən doğma oğlu İsmayılqulu Mirzə gözünün artıq gördüyünü bildirib şahlığa iddialı oldu. Baş verə biləcək kütlənin hücumunu və fitnə-fəsadın qarşısını almaqdan ötrü dərhal o nadan şahzadənin bəbəklərini çıxararaq baş verəcək hadisəni qarşısını aldılar və sakitləşdilər. Yuxarıda misal gətirilən kəramətli ayədə buyurulduğu kimi, əgər fal açılan vaxt o həzrət şahın hüzurunda olsaydı, məsələ başqa cür ola bilərdi, [yaxud] padşahın o dəhşətli ölüm xəbəri yayıldığı zaman, dövlət taxtını bəzəyən [Səfi Mirzə] səltənət və xilafətin paytaxtı, həmçinin silahlı və fitnəkar qoşun təbəqələrinin cəmləşdiyi İsfahan darüssəltənəsində olmasaydı, ola bilərdi ki, o böyük şəhərdə fitnəkarlıq zahir olar, bəla qapıları əhalinin üzünə açılar, aciz və aşağı rütbəli adamlar (zirdəstan) zalimlərin ayaqları altında qalardılar" (16).

İsmayılqulu Mirzənin şah olmaq arzusu baş tutmadı. İsgəndər bəy Münşinin fikrincə, bir tərəfdən saray mənsubları, Şah Abbasın yaxın ətrafı, yüksək vəzifəli əmir və əyanlar Sam Mirzənin vəliəhd təyin edilməsini qəbul etdilər. Ona görə də İsmayılqulu Mirzə öz iddiasını həyata keçirmək üçün dəstək tapa bilmədi. Digər tərəfdən də belə hesab edilir ki, İsfahan sarayında məsul olan adamlar, habelə İsfahan darğası sarayda və şəhərdə Sam Mirzənin əleyhinə istiqamətlənə biləcək hərəkətlərə yol vermədilər (17). Bu da hakimiyyətin sakit şəkildə Sam Mirzəyə (Şah Səfiyə) ötürülməsinə şərait yaratdı.

Şah Səfinin hakimiyyətə başlaması ilə bağlı sikkələr də vuruldu. Mənbələrdə olan məlumata görə, Şah Səfinin verdiyi ilk fərman Kürəng çayının İsfahana çatdırılması ilə bağlı əhalidən yığılan verginin ləğv edilməsi oldu. Bildirilir ki, bu çayın istiqamətinin dəyişdirilməsi və İsfahana çatdırılması üçün hər il səltənət daxilində 50 min tümən pul toplanırdı. Həmin çayın istiqamətinin dəyişdirilərək İsfahana gətirilməsi işlərinə hələ Şah Abbasın hakimiyyəti illərində başlanmışdı. Sonradan bəlli oldu ki, bu çayın

İsfahana çıxarılması kifayət qədər çətin bir məsələdir. Ona görə də bu işlər təxirə salındı və vergi toplanmasına da son qoyuldu (18).

Şah Səfinin verdiyi ilk fərmanlardan biri də ipək satışının təşkili ilə bağlı idi. Gilanda istehsal olunan ipəyin Osmanlı ərazisinə aparılması üçün bəzi məhdudiyyətlər qoyulmuşdu. Bu məhdudiyyətlər vergilərlə bağlı idi. Şahın fərmanı ilə ipəyin harada və kimə satılması haqqındakı məhdudiyyətlər aradan qaldırıldı. Başqa bir fərmanlı tənbəki çəkilməsi ilə bağlı olan məhdudiyyətə də son qoyuldu (19).

Başqa bir mənbə məlumatına görə isə, Şah Səfinin taxta çıxmasından sonra verdiyi ilk fərman səltənət daxilində olan meyxanaların bağlanması, şərabın isə məhv edilməsi ilə bağlı oldu. Şah Səfi insanların şərab içməsini və meyxanalarda vaxt keçirmələrini qəbul etmirdi. Onun bu fərmanı xeyli sayda insanı narazı saldı. Bir tərəfdən şərab satmaqla böyük gəlirlər əldə edən insanlar, digər tərədən də şərab içməklə xumarlanmaq istəyənlər həmin fərmandan irəli gələn məhdudiyyətlərlə qarşılaşdılar (20).

Şah Səfinin ilk fərmanlarından biri də səltənətin vəzifə sahiblərinin təyin edilməsi idi. Onların bir çoxu öz vəzifələrində saxlanıldı və Şah Səfi tərəfindən mükafatlara, qiymətli hədiyyələrə və xələtlərə layiq görüldülər. Səltənət eşikağasıbaşı vəzifəsində Zeynal xan Şamlı saxlanıldı. Mənbələrdə Şah Səfi tərəfindən ona bağışlanmış hədiyyələr də sadalanmışdır. Bu hədiyyələr həm çox, həm də qiymətli hədiyyələr idi. Xəlifə Sultan da əvvəlki vəzifəsində, yəni etimaddüddövlə vəzifəsində saxlanıldı. Mənbələrdə o, üləmalar sultanı, əzəmətpənahlı, bilikli, təcrübəli bir insan kimi xarakterizə edilmişdir. Xəlifə Sultan dövrünün böyük islam alimi olduğu, Quran təfsirinə və fiqh elminə yaxşı bələd olduğu və dövrünün ən bilikli üləmalarından dərs aldığı bildirilirdi. İsa xan qorçubaşı da öz vəzifəsində saxlanıldı. O da Şah Abbasın sədaqətli əmirlərindən biri idi. Şah Səfi tərəfindən ona da qiymətli hədiyyələr bağışlandı. Bu hədiyyələrə zərlərlə və qiymətli daşlarla bəzədilmiş paltarlar, samur dərisindən olan üst geyimi, qara tüklərlə düzəldilmiş ciqqə və s. daxil idi. Mirzə Rəfiyəddin Məhəmməd

səltənət sədri, Mirzə Talib xan saray yazışmalarının rəhbəri təyin edildilər. Şahın fərmanı ilə İsfahan darğası, əslən gürcü olan Xosrov Mirzəyə də Rüstəm xan adı verildi (21).

Şah Səfi səltənət şahı elan edilsə də, səltənətin vəziyyətindən kifayət qədər xəbərdar deyildi. Şah Abbasın hakimiyyəti illərində onun övladları və nəvələri səltənət idarəçiliyindən kənar saxlanılırdı. Şah Səfi taxt-taca sahib olduqdan sonra səltənətin yüksək vəzifəli məqamları, o cümlədən qorçubaşı İsa xan, etimadüddövlə Xəlifə Sultan, Zeynal xan, Rüstəm xan, Əbülqasım bəy toplaşaraq məşvərət etdilər və sonra da səltənətin idarəçiliyinin təşkili ilə bağlı öz təkliflərini yeni şaha təqdim etdilər (22).

Şah Səfinin qəbul etdiyi ilk fərmanlardan biri də səltənət xidmətçilərinə olan məvacib borclarının ödənməsi odu. Şah Abbasın hakimiyyətinin son illərində qoşun əhlinin məvaciblərinin verilməsində müəyyən ləngimələr yaranıbmış. Belə borclar saray xidmətçilərinə də aid idi. Onların da müəyyən hissəsinin məvacibləri ödənməmişdi. Şah Səfi bu barədə məlumat alan kimi dərhal həmin borcların xəzinə hesabına ödənməsi haqqında göstəriş verdi. Nəticədə qoşun əhli, qulamlar, qorçular, tüfəngçilər və digərləri böyük miqdarda pul vəsaiti əldə etdilər. Bütün borcların ödənməsi üçün xəzinədən 200 min tümən ödənildi. Bu rəqəm kifayət qədər böyük bir rəqəm idi. Eyni zamanda səltənətə sədaqətlə xidmət edən vilayət hakimləri də mükafatlandırıldılar. Məsələn, Fars, Kuhgiləviyyə, Lar və Bəhreyn bəylərbəyi olan İmamqulu xana il ərzində səltənət xəzinəsinə ödəməli olduğu məbləğ hədiyyə olundu. Həmin məbləğ 60 min tümənə yaxın idi. Bir məlumata görə isə, Fars hakiminə bağışlanan mükafatın həcmi 80 min tümən idi. Eyni zamanda səltənətin digər vilayətlərinin də vergiləri bağışlandı. Bildirilir ki, Fars vilayətindən başqa digər vilayət hakimlərinə bağışlanan verginin ümumi dəyəri 500 min tümən idi. Borc sahiblərinə borcun qaytarılması, sədaqətli insanların səxavətli şəkildə mükafatlandırılması tezliklə ətrafa da yayıldı və insanlarda Şah Səfinin səxavətli və ədalətli olması haqqında təsəvvürlər formalaşdırdı. Fars hakimi İmamqulu xan Şah Abbasın dünyasını dəyişməsindən

əvvəl vilayət qoşunları ilə Bəsrənin mühasirə edilməsinə göndərilmişdi. Lakin o bu tapşırığı icra edə bilmədi. İmamqulu xan eşidəndə ki, Şah Abbas dünyasını dəyişib, onda tapşırılan vəzifənin icrasını başa çatdırmadan geri qayıtdı (23).

Belə bir səxavəti Şah Səfi babası Şah Abbasın dünyasını dəyişməsinin 40-cı günü də nümayiş etdirdi. Bu mərasim İsfahanın Şah məscidində təşkil olundu. Şəhərin müctəhidləri, alim və fazil insanları, şəhər sakinləri həmin gün Şah məscidinə toplaşdılar, dua mərasimində iştirak etdilər. Şah Abbasın ruhuna Quran xətm edildi və xeyrat verildi. İki min nəfərlik yemək hazırlandı, həm mərasimdə iştirak edənlərə, həm də etməyənlərə bu yeməkdən pay düşdü. Şah Səfi özü də bu mərasimdə iştirak etdi, məscidə toplanan insanlara qatılaraq Şah Abbasın ruhuna dualar oxudu (24).

Şah Abbasın qırx mərasimini başa vurduqdan sonra Şah Səfi ova yollanmaq və saray çərçivəsindən bir qədər uzaqlaşmaq istədi. O öz yolunu Ləncana saldı. Çünki bu məkanın həm xoş təbiəti, həm də bol ov heyvanları var idi. Şah Səfi adı çəkilən məkanda bir neçə gün əylənməkdən əlavə, həm də bir daha nümayiş etdirdi. O, Kəresqan məntəqədə olarkən bir tabağ qızılı yerə səpdi və dedi ki, yerə dağılan qızılı kim götürsə onun da olacaqdır. Mənbə məlumatlarına görə, Şah Səfi ov mərasimindən geri qayıtdıqdan sonra isə səltənət sakinlərinin dərdlərinə əlac tapmağa çalışdı, onun göstərişi ilə vəzifə sahibləri sakinlərlə yaxından əlaqə saxlayır və onların çətinliklərinin həllinə kömək göstərməyə çalışırdılar (25).

Şah Səfi tax-tac sahibi olmasına yaxından dəstək vermiş Zeynəb bəyimə də öz ehtiramını çatdırdı, onu saraya gətizdirdi. Bundan başqa Şah Səfi ov mərasimindən geri qayıtdıqdan sonra bir neçə mühüm vəzifəyə yeni təyinatlar apardı. O cümlədən, Canı bəy Şamlı söhbət yasovulu, Şah Abbas hakimiyyəti illərində vaqiənevis olan Mirzə Məhəmməd qulamların vəziri, Hüseyn bəy adlı birisi isə tüfəngçilərin vəziri vəzifəsinə təyin edildilər. Bu təyinatlar səltənət idarəçiliyinin daha yaxşı qurulması və təkmilləşdirilməsi məqsədilə aparılmışdı. Günlər ötdükcə Şah Səfi özü də səltənət idarəçiliyi işlərinə daha yaxından bələd olurdu. Elə həmin

günlərdə Novruz bayramı da yetişdi və Şah Səfi hakimiyyətinin ilk Novruzunun təntənəli qeyd edilməsi üçün lazımi göstərişlər verdi (26).

Şah Səfi üçün bu bayram həm də səltənətin Şah Abbasın vəfatı ilə bağlı keçirdiyi təziyə günlərinin sona çatması kimi qəbul edilirdi. Onun göstərişi ilə Nəqşi-cahan meydanını bağında Novruz bayramının keçirilməsi üçün şaha layiq hazırlıqlar görüldü, bu bağ başdan-başa bəzədildi, orada əsil bayram əhval-ruhiyyəsi yaradıldı. Mənbə məlumatlarına görə, bu bağ cənnət bağına çevrildi və səltənətin vəzifə mənsubları, hakimləri, qoşun başçıları və digərləri bu bağa dəvət edildi. Şah Səfi özü də ön yaxşı, bahalı və görümlü libaslarını geyindi, şah görünüşü ilə bayram şənliklərinə əlavə bir əzəmət gətirdi. Bayram mərasiminə toplaşanlar da bir daha ona öz itaətini bəyan etdilər. Şah Səfi də öz səxavəti ilə bu bayram mərasimini daha da yadda qalan etdi. Bu səxavət nəticəsində xeyli sayda insan tutduğu vəzifəsindən asılı olmayaraq müxtəlif xələtlərə layiq görüldülər. Şah Səfinin növbəti səxavəti ilə qarşılaşanlar arasında vəzifə sahibləri də az deyildi. Paylanan xələtlərin çoxunu bahalı paltarlar təşkil edirdi. Bu paltarların çoxu zərli və qızılı işləmələrə malik idi, samur dərisindən hazırlanmışdı. Zərlə və qiymətli daşlarla bəzədilmiş kəmərlər, ciqqələr, soyuq silahlar da verilən hədiyyələr içərisində idi. Mənbə məlumatlarında bildirilir ki, İsfahan sarayından, səltənət vilayətlərinin saraylarından gəlmiş vəzifə sahiblərində, qoşun rəhbərlərində əsil bayram əhval-ruhiyyəsi yaradıldı. Mənbə məlumatlarına görə, bu Novruz bayramında iştirak edənlərə o qədər hədiyyə və xələtlər paylandı ki, onların hesabının aparılması ən təcrübəli mühasiblər üçün də çətin olardı (27).

Vilayətlərin hamısının hakimləri və nümayəndələri də bu mərasimdə iştirak edirdi. İsgəndər bəy Münşi yeni Səfəvi şahının hökmdarı olduğu səltənəti "məhrusə məmləkəti" adlandırırdı. Bu məhrusə məmləkətinə İraqın, Xorasanın, Qəndəharın, Mərv və Şahcahanın, Azərbaycanın, Şirvanın, Qarabağın, Gürcüstanın, Farsın, Kirmanın, Xuzistanın, Darülmərzin, Bağdadın, Ərəbis-

tanın, Kürdüstanın və Luristanın və digər ərazilərin daxil olduğunu bildirirdi. Mərasimdə iştirak etməyən vilayət hakimlərinin hər birinə də Şah Səfi adından qiymətli hədiyyələr göndərildi. Onlardan başqa, üləma əhlinə, mədrəsələrdə təhsil alan tələbələrə, sərhədlərin mühafizəsində dayanan sərdarlara, qoşun əhlinə, qalaların müdafiəçilərinə və digərlərə çox böyük səxavətlə mükafat və hədiyyələr paylandı. Qoşun əhlinə olan borcların paylanması da Novruz günlərində başa çatdırıldı. Bir sıra tacirlərə, sənət sahələrində çalışanlara vergi güzəştlərinin edilməsi də bayram hədiyyələrinə əlavə edildi (28).

Şah Səfinin taxta çıxması ilə bağlı təbrikə gələnlər, onun qarşısında təzim edənlər də qiymətli hədiyyələrlə mükfatlandırıldılar. Mənbələrdə olan məlumata görə, 1619-cu ilin Novruz şənlikləri zamanı Şah Səfinin təbrikinə gələn, bütünlükdə onun səxavəti ilə qarşılanan insanlar üçün 8 min dəst xələt paylandı. Bir məlumata görə isə, Novruz şənlikləri zamanı Şah Səfi tərəfindən mükafat və xələt olaraq 30 min ədədə yaxın qəba, üst geyimi və digər qiymətli geyim əşyaları bağışlandı. Verilən mükafatlara cins atlar və bu atlar üçün qiymətli daşlarla bəzədilmiş yəhər təchizatı da daxil idi. Qorçubaşı İsa xana cins atla bərabər, qızıldan düzəldilmiş bəzi yəhər təchizatı, etimadüddövlə Xəlifə Sultana qiymətli daşlarla bəzədilmiş yazı əşyaları, eşikağasıbaşı Zeynal bəyə ləl və firuzə ilə bəzədilmiş dəyənək, Yusif ağaya qıymətli daşlarla bəzədilmiş ciqqə, qullarağası Rüstəm xana yenə qiymətli daşlarla bəzədilmiş xəncər bağışlandı. Novruz şənliklərinə dəvət edilmiş xarici dövlətlərin nümayəndələri də hədiyyəsiz qalmadılar (29).

Rüstəm xan qullarağası vəzifəsinə elə Novruz bayramı günlərində təyin edilmişdi. Ondan başqa Zeynal xan səltənət vəkili, Yusif ağa əmir rütbəsi almaqla şikarçıbaşı vəzifəsinə, Taxta xan Ustaclı kaman qorçubaşısı vəzifəsinə, Şahqulu bəy isə ox qorçusu vəzifəsinə təyinat aldılar.

Şah Səfinin Səfəvi şahı elan edildiyi günlərdə qərb sərhədlərindən həyəcanlı xəbərlər gəlməkdə idi. Osmanlı dövləti ərazisində, eləcə də sərhəd bölgəsində məlumat toplayan casuslar xəbər

gətirirdilər ki, Osmanlı sarayı Bağdad şəhərini geri almaq niyyətindədir. Bunun üçün Osmanlı sədr-əzəmi Xosrov paşanın rəhbərliyi altında böyük bir qoşun dəstəsi təşkil edilib və bu dəstə Bağdad istiqamətində hərəkətə başlamaq üzrədir. Şah Səfi bu xəbəri alan kimi dərhal Osmanlı təhlükəsinin qarşısının alınması üçün hazırlıqları görülməsi haqqında fərman verdi. Hətta İsfahan ətrafındakı Batan adlanan məntəqədə hazırlıq aparılması üçün çadırlar da quruldu. Osmanlı sərhədi boyunca yerləşən vilayət hakimlərinə də xəbərlər göndərildi ki, onlar Osmanlı qoşunlarının hərəkətini izləsinlər və bu qoşunların Bağdad istiqamətində hərəkəti başlananda dərhal saraya xəbər versinlər. Amma belə bir vaxtda Gilanda mərkəzi hakimiyyət əleyhinə qiyam qalxması xəbəri alındı və Şah Səfinin bütün diqqəti də həmin qiyamın yatırılmasına yönəldildi (30).

2. Gilan qiyamının yatırılması

Şah Səfinin hakimiyyətə başlamasının elə ilk aylarında Gilanda bir Şah Səfinin hakimiyyətə başlamasının elə ilk aylarında Gilanda bir nəfər özünü Qərib şah adlandırmaqla mərkəzi hakimiyyətə qarşı qiyam qaldırdı. Bu adam özünü Gilanın keçmiş hakimi olmuş Cəmşid xanın nəvələrindən biri kimi təqdim etməklə Gilan hakimliyinə haqqı çatdığını iddia edirdi. Bu adam səfil bir həyat keçirirdi və Şah Abbasın hakimiyyəti illərində onun qəzəbindən qorxaraq meşələrin dərinliklərində gizli bir həyat sürürdü. Şah Abbasın dünyasını dəyişməsindən sonra özünü Qərib şah adlandıran bu adam belə güman etdi ki, Gilan meşələrini tərk edərək vilayət hakimliyini ələ keçirmək üçün münasib şərait yaranmışdır. Bu adamın kimliyi, hansı nəsildən olması haqqında ətrafda yaşayan insanların da xəbəri yox idi. Qərib şah gizlindən çıxıb vilayət hakimliyi iddiasını edəndə onun ətrafına xeyli sayda adam toplaşdı. Onun vasitəsilə fərdi iddialarına çata biləcəyini güman edən bu adamlar mərkəzi hakimiyyət əleyhinə qiyam qaldırmağa böyük həvəslə qoşuldular (31).

Mənbələrdə olan məlumata görə, xırda maraqlar naminə zəkadan uzaq hərəkətlərə yol verən insanlar Gilanda çox idi və Qərib şahın ətrafına toplananlar da bunlardan ibarət idi. Bildirilir ki, onlar öz nadanlıqları üzündən cahillik yolunu tutdular və tanımadıqları bir adamın ətrafına toplaşmağa başladılar. Həmin nadan insanlar Qərib şahın Gilan hakimi olmasına köməklik göstərdilər və onu hakim elan edərək xidmətində dayandılar. Bir müddətdən sonra Qərib şahın eşqinə düşənlərin sayı daha da artdı və mərkəzi hakimiyyətə sədaqəti yaddan çıxardaraq vücuduna bələd olmadıqları bir adamın hakimiyyətini qəbul etdilər. Qərib şah öz ətrafına 30 min nəfərlik bir silahlı dəstə də toplaya bildi. Gilanın nifaq və fəsad mərkəzi hesab edilən Ləşte-nəsa adlı məntəqəsindən Əbu Səid və İnayət adlı adamlar da Qərib şahın yaxın köməkçilərinə çevrildilər. Bundan sonra Qərib şah Gilanın bütün Biyə-piş və Biyə-pəs bölgələrini öz nəzarəti altına gətirmək iddiasına düşdü. Yəni o, bütün Gilanı öz hakimiyyəti altına gətirmək niyyətini ortaya qoydu. Sözsüz ki, Qərib şahın bu qiyamını dəstəkləməyənlər də var idi. Lakin bu adamlar Qərib şahın ətrafına toplaşan kütlədən qorxaraq öz etirazlarını bildirməkdən çəkinirdilər. Bölgənin ələ keçirilməsini Qərib şah Rəşt şəhərindən başladı. Rəşt şəhəri vaxtilə Cəmşid xan idarəçiliyinin mərkəzi idi. Qərib şah ilkin olaraq bu şəhəri ələ keçirməklə Cəmşid xana olan bağlılığını da nümayiş etdirmək istəyirdi. Bu zaman Rəştin vəziri Mirzə İsmayıl idi. Mirzə İsmayıl yanında olan silahlı dəstə ilə Qərib şah dəstəsinə müqavimət göstərmək istəsə də, bir nəticə əldə edə bilmədi. Yəni Rəşti müdafiə etmək mümkün olmadı. Bu şəhər Qərib şah dəstəsinin əlinə keçdi. Qərib şahın silahlıları Rəşti talan etdilər, insanları var-yoxdan çıxardılar, xeyli sayda adamı qətl etdilər (32).

Rəşt sakinlərinin bir hissəsi də təcavüz qarşısında müdafiəsiz qaldıqlarını gördükdə öz var-yoxunu könüllü şəkildə qiyamçılara təslim etdilər. Rəşt kimi böyük bir şəhərin ələ keçirilməsi Qərib şah ətrafında toplaşanların və onun hakimiyyətini qəbul edənlərin sayı daha da artdı. Bundan ruhlanan Qərib şah Biyə-pişlə Biyə-

pəsin də ələ keçirilməsinə başladı. Qərib şahın silahlı dəstəsi Biyə-piş bölgəsinin mərkəzi şəhəri olan Lahicana doğru istiqamət götürdülər. Bu şəhər bölgənin mühüm şəhərlərindən biri idi və onun ələ keçirilməsi bütünlükdə Gilan hakimliyinin ələ keçirilməsi üçün xüsusi əhəmiyyət kəsb edirdi. O, zaman Biyə-pişin vəziri vəzifəsini Mirzə Abdulla adlı birisi icra edirdi. Bu adam Səfəvi sarayına sədaqətli olan insanlardan biri idi. Şəhər üzərinə böyük bir dəstənin gəlməsi xəbərini alanda Mirzə Abdulla Deyləman hakimi Bayramqulu sultan Mirsufidən və Təngabin hakimi Heydər Sultan Hasarlıdan kömək istədi. Lahican şəhəri qala divarları ilə mühafizə olunsa da əlavə köməyin gəlməsi şəhərin müdafiəsini daha etibarlı edə bilərdi. Bir məlumata görə, qiyamçılar dəstəsinin böyük olması xəbərini eşidəndə Lahicanda müdafiə qurulması lazımsız bilindi və imkanı olan insanlar ailələri ilə birlikdə şəhəri və şəhər ətrafını tərk edərək Deyləman tərəfə çəkildilər. Başqa bir məlumata görə isə Deyləman və Təngabin hakimləri Lahicanın müdafiəsinə kömək göndərdilər. Lakin sonradan qiyamçıların böyük gücə malik olduğu bilinəndə şəhərin müdafiəsini dayandırmaq qərara alındı. Lahican sakinləri daşıya biləcəkləri əmlaklarını götürərək şəhəri tərk etdilər və Deyləmana çəkildilər. Biyə-piş vəziri Mirzə Abdulla da köməyə gələnlərin geri qayıtmasından sonra özü də şəhəri tərk etmək məcburiyyətində qaldı. Qərib şah və onun dəstəsi müqavimətə rast gəlmədən Lahicana daxil oldular. Qiyamçıar üç gün Lahicanda qaldılar, bu şəhəri taladılar və sonra da Rankuh və Təngabin məntəqələrinə doğru hərəkətlərini davam etdirdilər (33).

Təngabin hakimi Heydər Sultan Hasarlı qiyamçıların yolu üstündə olan çayın kənarında dayanıb mövqe tutdular. Güman edilirdi ki, tüğyan edən çayın keçilməsi qiyamçılar üçün çətin olacaqdır və Heydər Sultan da bu məqamdan istifadə edərək təsirli müdafiə təşkil edə biləcəkdir. Doğrudan da belə oldu və Heydər Sultan qiyamçıların qarşısını çay kənarında saxlaya bildi. Qərib şah həmin vaxta qədər bölgənin hərbi qüvvələrinə asanlıqla üstün gələ bildiyi üçün yenə də növbəti qələbəsini əldə edəcəyinə əmin

idi. Ona görə də o, əvvəlki əminliklə irəli atıldı. Lakin qiyamçılar Heydər Sultanın dəstəsinin ciddi müqaviməti ilə rastlaşdılar. Göstərilən bütün cəhdlərə baxmayaraq Qərib şah geri çəkilmək məcburiyyətində qaldı. Onun uğursuzluğa düçar olan silahlıları Lahicana geri çəkilməli oldular (34).

Bununla belə, Qərib şah öz iddialarından əl çəkmədi. O, bölgənin hərbi qüvvələrinin zəifliyindən istifadə edərək Gilanı öz hakimiyyəti altına gətirə bildi. Sonra da Rüstəmdara qədər olan yaşayış məntəqələrinin hakimlərinə məktub göndərərək onların da itaət altına gəlməsini tələb etdi. Qərib şahın rəhbərliyi ilə Gilanda mərkəzi hakimiyyətə qarşı qiyam qaldırılması xəbəri alınan kimi Şah Səfi onun yatırılması haqqında qərar qəbul etdi. Həmin qərarla məqsədəuyğun sayıldı ki, bu qiyam Gilana qonşu olan vilayətlərin silahlı dəstələrinin köməyi ilə yatırılsın. Bununla bağlı Astara hakimi Sarı xana və Kəsgər hakimi Qorgin sultana fərman göndərildi. Eyni zamanda fərman verildi ki, Gilana yaxın olan Ərdəbil, Xalxal, Tarom və digər məntəqələrdəki qorçular, qualmlar və digər silahlı xidmət mənsubları Astara və Kəsgər hakimlərinin tabeliyinə keçərək Gilan qiyamının yatırılmasında iştirak etsinlər. Sarı xan, Qorgin sultan, onların silahlı dəstələri, habelə ətraf məntəqələrdən köməyə gəlmiş silahlı dəstələr Rəşt yaxınlığında toplaşdılar. Kuhdəm vilayət hakimi Məhəmmədi xan da öz dəstəsi ilə həmin dəstələrə qoşuldular. Qiyamçılara qarşı ilk döyüş də Rəşt ətrafında baş verdi. Rəşt şəhərinin müdafiə imkanlarına böyük ümidlər bəslənsə də, hakimiyyət qüvvələri qiyamçılara ağır zərbə vurdular. Gilanın böyük bir hissəsini nəzarət altına ala bilən qiyamçılar göstərdikləri bütün cəhdlərə baxmayaraq hakimiyyət qüvvələrinin qarşısını saxlaya bilmədilər və ağır zərbə alaraq geri çəkilməli oldular. Lahicanda olan Qərib şah biləndə ki, onun tabeliyində olan qüvvələrə hakimiyyət qüvvələri tərəfindən ağır zərbə vurulub özünə yer axtarmağa başladı. O, adamlarının bir hissəsini Lahicanda saxladı, özü isə canını qurtarmaq üçün Gilanla Rüstəmdar arasında yerləşən Təngabinə tərəf üz tutdu. Qərib şah görünür, Təngabini ələ keçirərək orada möhkəmlənmək istəyirmiş. Tənga-

bin hakimi Heydər Sultan bu xəbəri eşidəndə Təngabinin müha-fizə divarlarını müdafiəsini daha da gücləndirdi. Bundan əlavə o, Təngabindən üç fərsəx məsafədə olan çayın kənarında ilkin müda-fiə mövqeləri tutmağı qərara aldı. Həmin çay da tüğyan etmişdi və güman edilirdi ki, bu da qiyamçıların çayı adlamasını çətinləşdirə-cəkdir. Qərib şah öz adamları ilə çay kənarına yaxınlaşdı. Amma çaydan keçməyə cürət etmədi. Elə bu vaxtlar onun tabeçiliyində olan dəstənin hakimiyyət qüvvələri tərəfindən ağır zərbə alması xəbərini eşitdi. Belə olanda Qərib şah Təngabini tutmaq fikrindən daşındı və geri çəkilməyə başladı. Bu vaxt rumlu atlılarından bir dəstəsi onların təqibinə qərar verdi və hətta Qərib şah adamların-dan bir neçəsi də ələ keçdi. Həmin adamlar qətlə yetirildilər. Və-ziyyətdən xəbər tutan Deyləman hakimi Bayramqulu Sultan da Qərib şahın hərəkət yolu üstünə çıxdı və onun dəstəsi üzərinə hü-cum etdi. Qərib şahın dəstəsi Sefidrud çayının kənarına qədər təqib edildi. Qızılbaş dəstələrinin təqibindən qorxuya düşən Qərib şah tez-tələsik Sefidrud çayını aşaraq Lahican ətrafında toplaşmış qüvvələrinə tərəf qaçdı. Onun əsas qüvvələri burada yerləşirdi və güman edirdi ki, bu qüvvələrə arxalanmaqla qızılbaş qüvvələrinin qarşısını ala biləcəkdir (35).

Sarı xanın Qorgin sultanın və Məhəmmədi xanın qoşun dəstələri Rəştdən çıxaraq Qərib şahın ardınca hərəkətə başladılar və Kuç-səfan yaxınlığında düşərgə saldılar. Bu qüvvələr döyüş üçün qru-plaşdırıldıqdan sonra Qərib şahın dəstəsi üzərinə hücum təşkil et-dilər. Həmin məntəqədə hakimiyyət qüvvələri ilə Qərib şah qüv-vələrinin arasında böyük bir döyüş baş verdi. Qərib şah üçün bəlli idi ki, bölgə hakimliyini öz əlində saxlamaq üçün onun ardınca gəlmiş olan hökumət qüvvələri üzərində uğur qazanmalıdır. Əks təqdirdə onun öz həyatını itirəcəyi belə istisna deyildi. Qərib şahın dəstəsindən çoxlu sayda qətlə yetirilənlər oldu və qiyamçılar haki-miyyət qüvvələrinin qarşısında duruş gətirə bilmədilər. Bir neçə ağır zərbə alandan sonra Qərib şahın adamları anladılar ki, onlar çox ciddi bir təhlükə ilə qarşılaşıblar. Ona görə də döyüş meyda-nından qaçıb dağılışmağa başladılar. Bu adamların çoxu qiyam

mərkəzi sayılan Ləşte-Neşaya üz tutdular. Hakimiyyət qüvvələri onları təqib etməkdən əl çəkmədilər. Ləşte-Neşa yaxınlığında tərəflər arasında yeni bir döyüş baş verdi və bu dəfə də Qərib şahın dəstəsindən xeyli sayda adam qızılbaşların qılıncına hədəf oldular. Qərib şah özü isə canının salamat qurtarmaq üçün yaxınlıqdakı meşəyə üz tutdu. Lakin qızılbaş döyüşçüləri ondan əl çəkmədilər və onun yaxın ətrafı ilə birlikdə əsir götürdülər. Bir məlumata görə, isə Qərib şah həmin döyüşdən sonra meşədə gizlənərək həyatını xilas edə bildi. Qızılbaşlar isə onun axtarışından əl çəkmədilər və üç gündən sonra onu ələ keçiridilər. Mənbələrdə bu döyüşlər zamanı Qərib şahın adamlarından 8-10 min adamın qətlə yetirildiyi bildirilir (36).

Qərib şahın rəhbərliyi altında qiyam qaldıranlar, bu qiyamçılar arasında özlərini sultan, xan adlandıranlar və bütünlükdə əlinə silah alanlar çox ciddi şəkildə cəzalandırıldılar. Onların bir çoxu canlarını qurtarmaq üçün ətraf məntəqələrə, meşəliklərə qaçırdılar. Lakin qızılbaş silahlıları, yerli hakimiyyət mənsubları onları axtarır və ələ keçəni dərhal qətlə yetirirdilər. Qərib şah isə yaxın ətrafı ilə birlikdə İsfahana, Şah Səfinin sərəncamına göndərildi. Əsir götürülmüş qiyamçıların bir çoxu Nəqşi-Cahan meydanında nümayişkaranə qətlə yetirildilər. Qərib şahın özünü də belə bir aqibət haqladı. Onun qətlə yetirildiyi gün Nəqşi-Cahan meydanında böyük bir izdiham yığıldı. Şah Səfi Ali Qapıdan bu izdihamı izləyirdi. Hind padşahı tərəfindən göndərilmiş elçi də onunla birlikdə bu mərasimi izləyirdi. Qiyam qaldıranlara dərs olsun deyə Qərib şah əvvəlcə tüfəng güllələri ilə deşik-deşik edildi. Sonra isə onun bədəni qəpəğ oyunu üçün istifadə olunan tirin başından asıldı və bir neçə gün orada asılı qaldı. Qərib şah qətlə yetiriləndən və onun rəhbərlik etdiyi qiyam yatırıldıqdan sonra Şah Səfi Gilan əhalisinə ümumi əfv elan etdi və fərman verildi ki, insanlar öz həyatları, təsərrüfatlar ilə məşğul olsunlar. Amma Qərib şah qiyamının yatırılmasından dərhal sonra Gilanda başqa birisinin qiyam başlamaq xəbəri alındı. Həmin adam özünü Adil şah adlandırırdı və bildirirdi ki, guya o, Qərib şahın qardaşı olmaqla Cəmşid xan

nəslinə mənsubdur. Şah Səfi dərhal qətiyyətli qərar qəbul etdi və Adil şah qiyamının başlamamış yatırılmasını Gilan və Mazandaran vəziri Sarı Tağı xan kimi tanınan Mirzə Tağı xana tapşırdı. Sarı Tağı xan da qoşun dəstəsini toplayıb Adil şahın məskən saldığı yerə yollandı. Həyata keçirilən çevik tədbirlər nəticəsində Adil şah açıq qiyama keçməzdən əvvəl yaxın ətrafı ilə birlikdə həbs edildi. Adil şah da, onun yanındakılar da dərhal qətlə yetirildilər. Bununla da Gilan vilayətində asayış və sakitlik təmin edildi (37).

3. Özbək qoşunlarına qarşı mübarizə

Şah Səfi Gilan qiyamını yatırdıqdan sonra başqa bir təhlükə ilə üzbəüz qaldı. Bu da özbək qoşunlarının səltənətin şərq hüdudlarına hücum etməsi ilə bağlı idi. Şah Abbasın hakimiyyətinin əvvəllərindən başlayaraq uzun müddət idi ki, şərq sərhədləri təhlükəsiz vəziyyətdə idi və özbək qoşunları Xorasan məntəqələri üzərinə hücum etmirdilər. Şah Abbasın dünyasını dəyişməsi xəbəri özbək hakimlərində və xanlarında yenidən Xorasan üzərinə hücum etmək iştahası yaratdı. Onlar güman edirdilər ki, Səfəvi taxttacında dəyişikliyin baş verməsi dövlətin zəifləməsinə yol açacaq və bu da özbəklərin uğurlu hücumlarına imkan verəcəkdir. Buna görə də özbək hakimləri 1629-cu ilin əvvəllərində Xorasan üzərinə hücuma başladılar. Həmin hücum ilkin olaraq Xarəzm hakimi İsfəndiyar xan tərəfindən həyata keçirildi. İsfəndiyar xanın özü və əcdadları Şah Abbasla yaxşı münasibətlərə malik idilər və onlar Xarəzm hakimliyini də Şah Abbasın birbaşa köməyi nəticəsində əldə etmişdilər. Nə qədər ki, Şah Abbas sağ idi bu özbək xanları ilə Səfəvi sarayı arasında isti münasibətlər var idi. İsfəndiyar xan özü yaxınları tərəfindən təqibə məruz qalanda Şah Abbasın yanına pənah gətirmişdi və Şah Abbas Qəndəhar istiqamətində hərəkət edəndə İsfəndiyar xan da ona qoşulmuşdu. Sonradan Şah Abbasın göstərişi ilə o, qızılbaş dəstələrinin müşayiəti altında Xarəzmə yollandı və orada hakimlik edən qardaşlarını hakimlikdən uzaqlaşdıraraq onların yerini tutdu. Yəni İsfəndiyar xan Xarəzmdə nəyə

malik idisə, buna Şah Abbasın birbaşa köməyi ilə nail olmuşdu. Amma Şah Abbasın dünyasını dəyişməsi xəbərini alanda İsfəndiyar xan ona edilmiş yaxşılıqların hamısını ayaq altına aldı və Mərv, Nisa, Dərun və Əbivərd məntəqələrini işğal etmək niyyətinə düşdü (38).

Xorasan vilayəti üzərinə hücuma başlamazdan əvvəl İsfəndiyar xan gərgin münasibətlərdə olduğu qardaşları ilə dil tapdı və onları da bu hücuma cəlb edə bildi. Onun nəticəsi idi ki, əvvəlcə İsfəndiyar xanın qardaşı Əbülqazi sultanın rəhbərliyi altında olan qoşun dəstəsi Nisa və Dərun üzərinə göndərildi. Bu zaman Nisa hakimi Möhübəli sultan idi. O, həm cavan, həm də təcrübəsiz bir insan idi. Atası Bəkiş xan Ustaclı mərkəzi hakimiyyətə sədaqətli olan birisi idi və Şah Abbas onun üçün də oğlu Möhübəli sultana belə bir vəzifə vermişdi. Möhübəli sultan isə ciddi sınaqlar qarşısında Nisa qalasının müdafiəsini təşkil etmək qabiliyyətinə malik deyildi. Bundan əlavə, Nisa daxilində bir sıra imkanlı adamlar onunla yola getmirdilər və onun idarəçiliyini qəbul etmək istəmirdilər. Özbək qoşunlarının bu şəhəri almaq məsələsi ortaya gələndə həmin adamlar Möhübəli sultana qarşı öz sədaqətsizliklərini açıq şəkildə ortaya qoydular. Bu adamlar Əbülqazi sultanın yanına adam göndərdilər və Nisa qalasının ələ keçirilməsi üçün onunla əməkdaşlıq etməyə hazır olduqlarını bildirdilər. Əbülqazi sultan da bundan istifadə etdi və Nisa qalasına yaxınlaşmaqla çətinlik çəkmədən onu ələ keçirdi (39).

Nisa qalası alındıqdan sonra özbək qoşunları Dərun qalasına yaxınlaşdılar. Həmin qalanın hakimi Uğurlu sultan idi. O, Nisa hakimi ilə müqayisədə daha təcrübəli bir insan idi və Şah Abbas tərəfindən onun Dərun hakimi təyin edilməsindən təxminən 20 illik bir vaxt ötmüşdü. Bununla belə, özbək qoşunlarına ciddi müqavimət göstərmək üçün onun kifayət qədər qüvvəsi yox idi. Nisa qalasının təslim olması isə Dərun daxilindəki əmir və əyanları ruhdan salmışdı. Yersiz itkilərə yol verilməməsi üçün Dərun qalasının müqavimətsiz özbək qoşunlarına təslim edilməsi qərara alındı. Əbülqazi sultan çətinlik çəkmədən Dərun qalasını da ələ

keçirdi. Sonra isə ora öz adamlarını təyin edib Əbivərd qalasını işğal etməyə yollandı. Bu zaman İsfəndiyar xan da öz dəstəsi ilə Mərv qalasının işğal edilməsi üçün hərəkətə başladı. Beləliklə, Xorasan vilayətində gərgin bir vəziyyət yarandı və bu vilayətin böyük bir hissəsinin özbək qoşunlarının işğalı altına düşməsi təhlükəsi yarandı. Baş verənlər haqqında xəbərlər Şah Səfiyə çatanda özbək təhlükəsinin qarşısının alınması üçün əməli addımlar atılmasına başlandı (40).

Şah Səfinin fərmanı ilə büyütat naziri və tüfəngçiağası başı Zaman bəyin rəhbərliyi altında olan bir qoşun dəstəsi Xorasana göndərildi. Zaman bəy səltənətin sədaqətli və təcrübəli əmirlərindən biri idi. Səfəvi qoşunlarının əsas zərbə qüvvələrindən biri olan tüfəngçilər dəstəsi də onun rəhbərliyi altında idi. Xorasan vilayətinə göndərilən qoşun dəstəsinə də xeyli sayda tüfəngçi verildi və dəstə kifayət qədər gücləndirildi. Zaman bəyə tapşırıq verildi ki, Xorasana yollanmaqla orada baş verən özbək hücumlarının qarşısını alsın və vilayətin əhalisinin sakit həyatını təmin etsin. Bu dəstə hələ Xorasana yetişməzdən əvvəl İsfəndiyar bəy Mərv ətrafına yetişdi və bu qalanı mühasirəyə aldı. Ona görə də Mərv qalasının müdafiəsinin ilkin çətinlikləri bu qalanın hakimi Aşur xan Çegəni və qala qoşunları üzərinə düşdü. Aşur xan da kifayət qədər təcrübəli və şah səltənətinə sədaqətli olan bir qızılbaş əmiri idi. O, özbək qoşunlarının yaxınlaşması xəbərini alanda Mərv qalasının müdafiəsinin gücləndirilməsi üçün lazımi tədbirlər gördü, qalada olan bütün qüvvələri bu hücumun qarşısının alınmasına səfərbər etdi. İsfəndiyar xan güman edirdi ki, Mərv qalasını asanlıqla ələ keçirə biləcəkdir. Ona görə əvvəlcə qala daxilinə adamlarını göndərdi və qalanın müqavimətsiz təhvil verilməsini qala hakimlərindən tələb etdi. Aşur xan isə nəinki bu tələbi qəbul etmədi. Əksinə, tabeliyində olan qüvvələri toparlayaraq qala xaricində dayanan özbək qoşunları üzərinə hücum təşkil etdi. Isfəndiyar xan gözləmədiyi halda qızılbaş döyüşçülərin fədakarlığı ilə qarşılaşmalı oldu. Aşur xan elə bir sürətli və səmərəli hücum təşkil etdi ki, qısa zaman ərzində özbək qoşunlarını ağır bir zərbə vuruldu. Hətta İsfəndiyar

xan həyatını itirmək təhlükəsi ilə qarşılaşdı. Mənbə məlumatlarına görə, qızılbaş atlılarının özbək qoşunları üzərinə hücumu qala divarları üzərindəki toplar və tüfəngçilər tərəfindən də müşayiət olunurdu. Bu isə özbək qoşunlarına çox böyük itkilər gətirdi. Bir məlumata görə, İsfəndiyar xan bu döyüşdə dörd min nəfərə qədər itki verdi. Onun düşərgəsində olan xeyli sayda qiymətli əşyalar isə müharibə qəniməti kimi qızılbaş döyüşçülərinin əlinə keçdi (41).

Yuxarıda qeyd edildiyi kimi, Əbülqazi xan isə Nisa və Dərun qalalarını ələ keçirdikdən sonra Əbivərd qalası üzərinə hücuma keçdi. Bu zaman Əbivərd qalasının hakimi Cəmşid sultan idi. Onun rəhbərliyi altında uğurlu tayfasından olan qızılbaş döyüşçüləri qalanın müdafiəsində dayanmışdılar. Əbülqazi xan dəstəsinin yaxınlaşması xəbərini eşidəndə Cəmşid xan qalanın müdafiəsini gücləndirməyə başladı. Özbək qoşunları isə yaxınlaşaraq Əbivərd qalasını mühasirəyə aldılar. Yəni Əbülqazi xan Nisa və Dərun qalalarından fərqli olaraq burada gözləmədiyi müqavimətlə qarşılaşdı. Elə bu vaxtlarda Zaman bəyin rəhbərliyi altında olan şah qüvvələrinin yaxınlaşması xəbəri alındı. Belə olanda Əbülqazi xan Əbivərdin mühasirəsinin davam etdirilməsini lazım bilmədi və geri çəkilməyə qərar verdi. Bununla belə, Əbülqazi xan və onun qoşun dəstəsi qızılbaş qüvvələrinin ağır zərbəsindən canlarını qurtara bilmədilər. Belə ki, Məşhəd hakimi Mənuçehr xan özbək qoşunlarının hücum xəbərini eşidəndə onlara müqavimət göstərmək qərarı verdi. Mənuçehr xan Səfəvi dövlətinə sədaqətli xidmət etmiş Qərçəqay xanın oğlu idi və o, Şah Abbas tərəfindən b şəhərin hakimliyi vəzifəsinə təyin edilmişdi O, özbək qoşunlarının hücum xəbərini alanda şah sarayı ilə razılaşdırmadan bu qoşunlara qarşısına çıxdı. Əbülqazi xan onun rəhbərliyi altında olan qoşun dəstəsinin hücumunu ciddi təhlükə kimi qəbul etməsə də, ağır bir sınaqla qarşılaşmalı oldu. Mənuçehr xanın dəstəsi kifayət qədər güclü bir dəstə idi. Nişapur hakimi Bayraməli sultan Bayat və Səbzəvar hakimi Əhməd sultan Çegəni də öz dəstələri ilə Mənuçehr xanın dəstəsinə qoşulmuşdular. Özbək qoşunları Əbivərddən geri çəkiləndən sonra rastlaşdıqları məntəqələri talayıb var-yox-

dan çıxardılar. Sonra da onlar xüsusi bir təşviş keçirmədən Nisaya doğru geri çəkilməyə başladılar. Mənuçehr xanın rəhbərliyi altında olan birləşmiş qızılbaş qüvvələri Nisa yaxınlığında özbək qoşunlarını haqlaya bildilər. Tərəflər arasında güclü bir döyüş baş verdi. Özbək döyüşçüləri talan vasitəsi ilə topladıqları sərvətləri qorumağa çalışsalar da, ümid etdikləri nəticəyə nail ola bilmədilər. Onlar ağır zərbə aldılar. Əbülqazi xan böyük sayda itki verdikdən sonra talan tolu ilə topladıqları zəngin qəniməti döyüş meydanında buraxaraq Dərun qalasına doğru geri çəkildi. Mənuçehr xan geri çəkilməkdə olan özbək qoşunlarını təqib etməyi məqsədəuyğun bilmədi. Çünki həm Məşhəd, həm də Nişapurla Səbzəvar müdafiəsiz qalmışdılar. Bu şəhərləri mümkün təhlükələrdən qorumaq üçün qızılbaş əmirləri geri qayıtmağı məqsədəuyğun saydılar. Bir məlumata görə, Əbülqazi xan istəyirdi ki, Nisa sakinlərini köçürərək Xarəzmə aparsın. Bununla bağlı hətta müvafiq əmrin icrasına da başlanmışdı. Yalnız Mənuçehr xanın rəhbərliyi altında olan qoşunların yetişməsi Nisa sakinlərinin köçürülməsinin qarşısını aldı (42).

Mənuçehr xan özbəklərin təqibini davam etdirməsə də, onların qətlə yetirilənlərinin başlarını nizələrə sancaraq əldə edilmiş zəngin qənimətlə birlikdə şah sarayına göndərdi. Şah Səfi də onun bu şücaətini yüksək qiymətləndirdi və böyük səxavətlə onu mükafatlandırdı. Zaman bəyin rəhbərliyi altında olan şah qoşunları bu döyüşün baş verməsindən sonra gəlib bölgəyə yetişdi. Həmin dəstə hələ yolda ikən Astrabad hakimi Xosrov xan və onun rəhbərliyi altında olan qoşun dəstəsi, habelə gəraylı tayfasının rəhbərlərindən biri olan Əlyar xan mənsub olduğu tayfa üzvlərindən təşkil edilmiş bir silahlı dəstə ilə Zaman bəyin dəstəsinə birləşdilər. Zaman bəyə şah sarayından xəbər göndərildi ki, o, vilayətdə olarkən Nisa və Dərun qalalarını müdafiə etməyən qala hakimlərini tapsın və onları ağır cəzaya çatdırsın. Şah qoşunlarının bölgəyə gəlməsi ilə İsfəndiyar xanın Xorasan vilayətini ələ keçirmək niyyəti boşa çıxdı. O, hətta törətdiyi təxribatın onun üçün ağır nəticələrə gətirib çıxaracağından da ehtiyat etməyə başladı. İsfən-

diyar xan törədilən təxribatın günahını öz üzərinə götürməmək üçün baş verənləri qardaşı Əbülqazi xanın üstünə atdı. Hətta Əbülqazi xanı həbs etdirdi və onu şah sarayına yola saldı. İsfəndiyar xan şah mənsublarına belə bir xəbər göndərdi ki, onun özünün və əcdadlarının şah sarayı ilə yaxşı münasibətləri olmuşdur. Ona görə də heç vaxt Xorasan üzərinə hücum etmək niyyətinə düşməmişdir. Onu yoldan çıxardan Əbülqazi xan olmuşdur. İsfəndiyar xan bildirdi ki, baş verənlərin günahkarı olan Əbülqazi xanı şahın sərəncamına göndərir və şah tərəfindən ona layiq olduğu cəza verilsin. 1629-cu ilin fevral ayında Şah Səfi Həmədan ətrafında olarkən Əbülqazi xanı onun yanına gətirdilər. Şah Səfi onu cəzalandırmadı, onun günahlarını əfv etdi və sonra da yaşamaq üçün İsfahana göndərdi. Verilən fərmana əsasən Əbülqazi xan Təbərrük qalasına yerləşdirildi (43).

Mənbələrdən birində olan məlumata görə, İsfəndiyar xan qardaşı Əbülqazi xanı həbs etdirməmişdi. O, fənd işlətməklə Əbülqazi xanı Şah Səfinin nəzarəti altına sala bilmişdi. Belə ki, Xorasan təxribatı bir nəticə verməyəndə İsfəndiyar xan böyük bir elçilik heyətini Şah Səfinin hüzuruna göndərmək qərarına gəldi. Bu elçilik heyəti çoxlu sayda qiymətli hədiyyələri də özü ilə apararaq İsfəndiyar xanın hörmət və ehtiramını Şah Səfiyə çatdırmalı idi. Əbülqazi xan da bu elçilik heyətinin üzvü idi. İsfəndiyar xan elçisini ayrılıqda yanına çağıraraq onu təlimatlandırdı. Bu elçi İsfəndiyar xanın sözlərinə əsasən Şah Səfiyə çatdırmalı idi ki, Xorasan təxribatlarının günahkarı Əbülqazi xandır və ona istədiyi cəzanı verə bilər. Həmin elçi də İsfəndiyar xanın dediyi kimi, Xorasan təxribatlarının günahkarının Əbülqazi xan olduğunu Şah Səfinin nəzərinə çatdırdı. Şah Səfi bu məlumatı dinləsə də, Əbülqazi xana qarşı hər hansı bir cəza tətbiq etmədi. Əksinə, onun günahların əfv etdi, onun üçün süfrə açdırdı. Sonra da onu İsfahana göndərdi. Mənbə məlumatına görə, Təbərrük qalasına göndərilməsi Əbülqazi xana Şah Səfi tərəfindən göstərilən lütfün nişanəsi idi (44).

İsfəndiyar xanın rəhbərliyi altında Xorasana hücum etmiş özbək qoşunlarının vilayətdən çıxarılması heç də özbək hakimlərini Səfəvi hüdudlarına yeni basqınlardan çəkindirmədi. Məlumdur ki, 1629-cu ilin ortalarında Xorasan vilayəti üzərinə özbək qoşunlarının növbəti hücumu baş verdi. Bu hücum Bəlx vilayətinin məşhur sərdarlarından biri olan Urazquş bəy tərəfindən həyata keçirildi. Həmin hücumun başlamasına qədər Şah Səfi tərəfindən Xorasana göndərilmiş olan Zaman bəy vilayətin müdafiə qüvvələrinin möhkəmləndirilməsi üçün bəzi əməli addımlar atdı. Zaman bəy Nisa, Dərun və Əbivərd qalalarının müdafiəsinin təşkili ilə məşğul olduqdan sonra Məşhədə gəldi. Burada o, on min nəfərlik bir tüfəngçi dəstəsi təşkil etdi. Adları çəkilən qalalara mühafizəsi də bu tüfəngçilər hesabına daha da möhkəmləndirildi. Urazquş bəy öz dəstəsi ilə Xorasan vilayətinə məxsus olan Maruçaq ərazilərinə qədər hərəkət etdi. O, Maruçaq ətrafında düşərgə salmaqla ətrafda olan taxıl zəmilərinə od vurdu, talançılıq və dağıntılarla məşğul oldu. Eyni zamanda Maruçaq qalasını mühasirəyə aldı. Orada dayanaraq qızılbaş qoşun dəstələrini gözlədi ki, onlarla döyüşə girsin və bu dəstələri məğlubiyyətə düçar etməklə sonra da Xorasanan daxilinə doğru irəliləsin (45).

Urazquş bəyin Marıçaq üzərinə hücum etdiyi vaxt Bəlx vilayətinin hakimi Nədr Məhəmməd xan idi. Həm Nədr Məhəmməd xan, həm də onun atası Din Məhəmməd xan hər zaman Şah Abbasın qayğı göstərdiyi hakimlərdən olmuşdular. Şah Abbasın sağlığında onla arasında yazışmalar, hədiyyə mübadiləsi mövcud idi. Özbək hakimləri davamlı olaraq öz elçilərini Şah Abbas sarayına göndərir və qiymətli hədiyyələrini ona çatdırırdılar. Yəni nə qədər ki, Şah Abbas sağ idi Din Məhəmməd xan da, onun oğlu Nədr Məhəmməd xan da ona sədaqətli olduqlarını nümayiş etdirirdilər. Şah Abbasın dünyasını dəyişməsindən dərhal sonra Nədr Məhəmməd xan özünün sifətini göstərməyə başladı. O da belə güman etdi ki, Şah Abbasın dünyasını dəyişməsindən istifadə edərək Xorasanın müəyyən ərazilərini öz nəzarəti altına ala bilər. Bu niyyətlə Nədr Məhəmməd xan Badğis vilayətinə, Herat şəhərinə hücum

etdi, bu yerlərdə böyük talançılıqla məşğul oldu. Həmin talanlardan sonra Nədr Məhəmməd xan sərkərdəsi Urazquş bəyin rəhbərliyi altında olan bir qoşun dəstəsini Maruçaqın mühasirəsinə göndərdi. Niyyət də bu idi ki, Maruçaq ələ keçirilsin və bu qala daxilində yaşayan insanlar da talan edilib var-yoxdan çıxarılsın. Maruçaq hakimi olan Xosrov sultan və onun rəhbərliyi altında olan şamlı dəstəsi özbəklərin bu niyyətinin həyata keçməsinə güclü müqavimət göstərdilər. Xosrov sultan qalanın müdafiəsinin təşkilində öz təcrübəsinə istinad etdi və özbəklərin qarşısını saxlamaq üçün səmərəli işlər gördü. Maruçaqın qorunması üçün onun təşkilatçılığı altında qızılbaş dəstələri davamlı şəkildə qala xaricində özbək dəstəsinin üzərinə qəfil basqınlar edir və xeyli sayda özbək döyüşçüsünü qətlə yetirirdilər. Bu basqınlar zamanı qal müdafiəçilərindən də həyatını itirənlər olurdu. Bununla belə, on iki gün davam edən mühasirə özbəklərə ümid etdikləri uğuru gətirmədi və onlar məcburiyyət qarşısında geri çəkilməli oldular. Amma Urazquş bəy öz dəstəsi ilə çox da uzaqlaşmadı. O, yaxınlıqdakı Mürğab çayının sahilinə gəlib orada bir qala tikmək fikrinə düşdü. Bu qala Maruçaq qalasından çox da uzaq deyildi və həmin qaladan Maruçaq qalasını nəzarət altında saxlamaq mümkün idi. Xosrov sultan buna da imkan vermədi. O öz dəstəsi ilə Mürğab yaxınlığında dayanmış özbəklər üzərinə hücum etdi. İtkilərlə müşayiət olunan bu döyüş də qızılbaş dəstəsinin qələbəsi ilə başa çatdı və bununla özbək qoşun dəstəsini Maruçaq ətrafından uzaqlaşdırmaq mümkün oldu (46).

Bundan sonra digər özbək qoşun dəstələri üzərinə də hücumlar başladı. Herat şəhəri ətrafında məskunlaşmış olan qıpçaqların təşkil etdiyi qoşun dəstəsi ətrafdakı özbək dəstələrinin üzərinə hücum çəkdilər. Xorasan vilayətinin bəylərbəyi olan Həsən xan Şamlı da Herat daxilindəki qoşun dəstəsi ilə özbək qoşunlarının üzərinə hərəkət etdi. Nəticədə, özbək qoşunlarına növbəti ağır zərbə endirildi və onlar Herat ətrafından uzaqlaşdırıldı (47).

Bir məlumata görə isə Məşhədə olan Zaman bəy Maruçaqın özbək dəstəsi tərəfindən mühasirə edildiyi xəbərini alanda bu qa-

laya kömək göndərmək qərarına gəldi. Bunun üçün xüsusi bir dəstə formalaşdırdı və Məcnun bəy adlı birisini həmin dəstənin rəhbəri təyin etdi. Dəstə üzvlərinin böyük bir hissəsini tüfəngçilər təşkil edirdilər. Məcnun bəy həm Maruçaq qalasına ərzaq çatdırmalı, həm də qaladakı qoşun dəstəsinə özbəklərin qovulmasında kömək göstərməli idi. Məcnun bəy kifayət qədər təcrübəli bir döyüşçü idi və ona görə də Maruçaqa doğru hərəkət zamanı lazım olan təhlükəsizlik tədbirlərini gördü. O öz rəhbərliyi altında bir qrup döyüşçü ilə mühafizə bölməsi kimi irəlidə hərəkət etməyə başladı. Dəstənin əsas hissəsi isə ondan müəyyən qədər məsafədə arxada gəlirdi. Özbək qoşunlarının basqın təhlükəsi olduğu halda ilkin olaraq Məcnun bəy zərbəni öz üzərinə götürməli və arxadan gələn əsas qüvvəni qəfil zərbədən qorumalı idi. Məcnun bəy əslində səhv etməmişdi. Çünki Urazquş bəy öz silahlılarından bir dəstəni Məcnun bəyin hərəkət etdiyi yol üzərində gizli bir yerə göndərdi. Həmin dəstə bu gizli yerdə dayanaraq qızılbaş dəstəsinin üzərinə qəfil basqın etməli və bu dəstəyə ilkin zərbəni vurmalı idi. Mənbə məlumatına görə, gizlində dayanan özbək dəstəsi bir min nəfərdən ibarət idi. Məcnun bəy öz silahlıları ilə yaxınlaşdıqda gizlində dayanan özbək dəstəsi onların üstünə atıldı. Burada qanlı bir döyüş baş verdi. Məcnun bəy və onun yanındakılar sayca özbəklərdən xeyli az olsalar da fədakarlıqla döyüşdülər. Nəticədə özbəklərə ağır zərbə vuruldu. Əsas qüvvələrin yetişməsindən sonra isə qızılbaşlar özbəklərin nəfəsini kəsdilər. Onların xeyli hissəsi qətlə yetirildi, bir hissəsi isə əsir götürüldü. Qızılbaş dəstəsi Maruçaq qalasına daxil oldu və Məşhəddən gətirilən ərzaq da qala sakinlərinə çatdırıldı (48).

Mənbə məlumatlarından belə aydın olur ki, Herat ətrafında toplaşmış olan özbək qoşunlarının zərərsizləşdirilməsi üçün Zaman bəy də Məşhədi tərk edib bu şəhərə gəlmişdi. Urazquş bəy baş verənlərin heç də özbəklərin istədiyi kimi cərəyan etmədiyini görəndə Zaman bəylə barışıq yolunu axtarmağa başladı. O, Zaman bəyə məktub göndərdi, əvvəlki illərdə özbəklərlə Səfəvi dövləti arasında yaxşı münasibətlər olduğunu xatırlatmaqla həmin münasi-

bətlərin bərpa edilməsinə tərəfdar olduğunu bildirdi. Zaman bəy baş verənlərdən sonra tərəflər arasında xoş münasibətlər yaranmasına tərəfdar olduğunu nümayiş etdirdi. Zaman bəyin nəzərinə o da çatdırıldı ki, özbək hakimləri tərəfindən tezliklə Səfəvi sarayına böyük bir elçilik heyəti göndəriləcək və bu heyət vasitəsilə həm Şah Abbasın dünyasını dəyişməsi ilə bağlı Səfəvi sarayına baş sağlığı veriləcək, həm də Şah Səfinin taxta çıxması ilə bağlı təbriklər çatdırılacaqdır. Zaman bəy özbək hakimlərinin üzrxahlığı və bəyanatları ilə bağlı məktub yazıb Şah Səfiyə göndərdi. Bu məktubu aparan adamla birlikdə əsir götürülmüş özbəklərinə də bir hissəsi, o cümlədən Urazquş bəyin qardaşı oğlu şah sərəncamına göndərildi. İkitərəfli münasibətlərin xoş məramlı olmasına meylliliyi nümayiş etdirmək üçün özbəklər də qızılbaş döyüşçülərindən götürdükləri əsirləri azad etdilər. Zaman bəyin məktubu və göndərdiyi özbək əsirləri Şah Səfiyə hələ Həmədan ətrafında olarkən çatdırıldı. Özbək qoşunlarının Xorasan təxribatının qarşısının qızılbaş qoşunları tərəfindən uğurla alınmasını rəğbətlə qarşılayan Şah Səfi Urazquş bəyin qardaşı oğlunu və digər özbək əsirlərini əfv etdi. Həmin əsirlərə geri qayıtmaq icazəsi də verildi (49).

Xorasan vilayətində vəziyyət sakitləşdikdən sonra Zaman bəy Heratdan Məşhədə qayıtdı. Kömək üçün ona qoşulmuş olan vilayət və şəhər hakimlərinə öz qoşun dəstəsi ilə geri qayıtmaq rüsxəti verildi. 1629-cu ilin ortalarından etibarən Osmanlı qoşunlarının səltənətin qərb hüdudlarına hücum haqqında xəbərlər daha geniş yayıldığı üçün Zaman bəy tabeliyində olan qoşunların bir hissəsini, xüsusilə də tüfəngçilər dəstəsini Şah Səfinin sərəncamına göndərdi. Osmanlı qoşunlarının hücumunun başlayacağı təqdirdə Zaman bəyin göndərdiyi qüvvəyə də ehtiyac yarana bilərdi. Özbəklərə gəlincə isə, Xarəzm padşahı İsfəndiyar xan 1929-cu ilin yayında şah sarayına böyük bir elçilik heyəti göndərdi. Bu elçilik heyəti 1629-cu il sentyabr ayının 14-də Şah Səfi tərəfindən qəbul edildi. Şah Səfi özbəklərlə xoş məramlı münasibətlər qurulmasına tərəfdar olduğunu bildirdi. Bir müddətdən sonra özbək elçiliyi Şah Səfinin məktubu və qiymətli hədiyyələri ilə geri qayıtdı. Bu had-

isədən sonra özbək qoşunları təxminən üç ilə yaxın müddətdə Səfəvi hüdudlarına hücum etmədilər (50).

4. Osmanlı qoşunlarının Səfəvi hüdudlarına hücumu

Şah Abbasın dünyasını dəyişməsi ilə Səfəvi-Osmanlı münasibətlərində də müəyyən dəyişikliklər özünü göstərməyə başladı. Hakimiyyətinin sonlarına yaxın Bağdad şəhərini və onun ətrafını Səfəvi dövlətinin nəzarəti altına gətirilməsi Osmanlım sarayını heç də razı salmamışdı və həmin ərazilərin geri qaytarılması üçün məqam gözlənilirdi. Osmanlı sarayında belə bir güman var idi ki, Şah Abbasın dünyasını dəyişməsi ilə belə bir məqam yetişmişdir. Ona görə də Osmanlı sarayı tərəfindən əməli addımlar atılmağa başlandı.

Bir məlumata görə, Şah Səfi şahlıq taxtına çıxan kimi Maqsud bəy adlı birisinin rəhbərliyi altında Osmanlı sarayına elçilik heyəti göndərdi. Bu elçilik heyəti Osmanlı sarayına yeni Səfəvi şahının bu dövlətlə xoş münasibətlərdə qalmaq istəməsini və bu münasibətlərin davam etdirilməsində maraqlı olduğunu çatdırmalı idi. Lakin Osmanlı sultanı IV Sultan Murad vaxtilə itirilmiş ərazilərin yenidən geri qaytarılmasında israrlı idi. Ona görə də Səfəvi sarayının xoşməramlı təklifi Osmanlı sarayı tərəfindən qəbul edilmədi. Əksinə, Səfəvi hüdudlarına hücum başlanması üçün əməli addımlar atıldı (51).

Osmanlı qoşunlarının Səfəvi hüdudlarına hücumu məsələsi Şah Abbasın dünyasını dəyişməsindən dərhal sonra meydana gəldi. Çox güman ki, qış mövsümünün olması Osmanlı qoşunlarının dərhal hərəkətə keçməsinə mane oldu. Havaların qızması ilə bu istiqamətdə fəaliyyət daha da genişləndi.

Şah Abbasın hakimiyyəti illərində Gürcüstandan qaçaraq Osmanlı sarayına sığınmış olan gürcü sərdarı Mauravi (Gorgi Saakadze) Şah Abbasın dünyasını dəyişməsi xəbərini eşidəndən sonra Səfəvi hüdudları üzərin hücumun əsas təhrikçilərindən birinə çevrildi. Bir tərəfdən itirilmiş ərazilərin geri qaytarılması istəyi, digər

tərəfdən də knyaz Mauravinin təhrikçiliyi IV Sultan Muradı da Səfəvi hüdudları üzərinə yeni hücum başlanmasına sövq etdi. Osmanlı sultanı tərəfindən də sədr-əzəm Xosrov paşaya qoşun toplanması və Səfəvi sərhədləri üzərinə hücuma hazırlıq barəsində fərman verildi. Xosrov paşa da topladığı qoşunla 1629-cu ilin iyun ayında Üsküdara yollandı. Orada təxminən bir ay yürüş hazırlıqları aparıldı. Həmin ilin iyul ayının 9-da Osmanlı qoşunları Xosrov paşanın rəhbərliyi altında Üsküdardan hərəkətə başladı. Xosrov paşaya həvalə olunan başlıca tapşırıq Bağdad şəhərinin yenidən Osmanlı nəzarəti altına qaytarılması idi. Osmanl qoşun dəstəsi 1629-cu il dekabr ayının ortalarında Mosula gəli. Havanın soyuq olmasına və bölgə çaylarının suyunun daşmasına görə Xosrov paşa təxminən qırx gün Mosulda dayanmalı oldu. Irəliyə doğru hərəkətə başlananda isə Xosrov paşa tərəfindən qərara alındı ki, ilkin olaraq sərhəd xəttində yerləşən Ərdəlan və Şəhriban məntəqələrinə zərbə endirilsin. Bu məqsədlə Osmanlı qoşunları Şəhrizor istiqamətində hərəkətə başladı. O da qərar verildi ki, Şəhrizorda Gülənbər adlanan yeni bir qala tikilsin və bu qala Səfəvi dövlətinə qarşı mübarizənin mərkəzinə çevrilsin. Hətta Şəhrizor bəylərbəylik elan edildi və Mustafa paşa da oranın bəylərbəyi təyin edildi (52).

Şah Səfinin ilk qərarlarından biri bu oldu ki, divanbəyi Rüstəm bəyi qoşun dəstəsi ilə Osmanlı dövləti ilə sərhəd bölgəsinə göndərsin. Rüstəm bəy hələ Şah Abbasın hakimiyyəti illərində səltənətin qərb sərhədlərinin mühafizəsində böyük fədakarlıqlar göstərmişdi və ona görə də şah sarayının böyük ehtiramını qazanmışdı. Şah Səfi belə hesab edirdi ki, Rüstəm bəyin sərhəd bölgəsində olması mövcud olan təhlükənin qarşısının alınmasında faydalı ol bilər. Rüstəm bəy ilk növbədə sərhəd bölgəsində yerləşən bölgələrin hakimlərinin mərkəzi hakimiyyətə qarşı müxalifətçiliyinin qarşısını almalı idi. Xüsusilə, sərhəd bölgəsində Osmanlı sarayı ilə əməkdaşlığa meylli olan kürd tayfalarının müxalifətçiliyinə qarşı güclü mübarizə aparılmalı idi. Bu işlərin görülməsi üçün Rüstəm bəyin rəhbərliyi altına güclü bir qoşun dəstəsi veril-

mişdi. Təbriz və onun ətrafındakı məntəqələrin qoşun dəstələri də Rüstəm bəyin dəstəsinə qoşulmalı idilər. Mənbə məlumatına görə, Rüstəm bəy öz qoşun dəstəsi ilə iki dəfə Təbrizdən Van, Ərciş, Əxlat, Adilcəvaz istiqamətində yürüş etdi və müxalifətçiliyə meylli olan sərhəd tayfalarına zərbə endirildi. Osmanlı daxilində olan bu ərazilər talan edildi və Osmanlı qoşunlarının istifadəsinə düşə biləcək ərzaq ehtiyatları da məhv edildi. Rüstəm bəyin dəstəsi Kərkük və Mosula qədər irəlilədi və Osmanlı qoşunlarına kömək göstərə biləcək qüvvələrə zərbə vurdu. Bildirilir ki, mərkəzi hakimiyyətə asilik etmək istəyən xeyli sayda adam qətlə yetirildi və onları kəsilmiş başları xərvar-xərvar İsfahana daşındı (53).

Bir məlumata görə, Osmanlı qoşunlarının hücum xəbəri alınanda Ərdəlan hakimi Əhməd xan İsfahanda idi. Onunla Şah Səfi arasında yaxşı münasibətlər var idi və Şah Səfi hər zaman onu söhbət etdiyi adamlar sırasına qatardı. Şah Səfi onu öz vilayətinə yola saldı ki, geri qayıdıb Osmanlı təhlükəsinin qarşısının alınması üçün o da öz işlərini görsün. Bundan başqa, Şah Səfi qoşun toplanması haqqında fərman verdi. Eyni zamanda vilayət hakimlərinə fərmanlar göndərildi ki, onlar da qoşun toplasınlar və şah qoşunlarına qatılsınlar (54).

Çox tezliklə Şah Səfi məlumat aldı ki, Osmanlı qoşunları Diyarbəkr yaxınlığındadırlar və Xosrov paşanın məqsədi Bağdad şəhərini ələ keçirməkdir. Belə olanda Şah Səfi yaxın ətrafından olan Xələf bəy Süfrəçibaşını Bağdad istiqamətinə göndərdi. Xələf bəyə tapşırıq verildi ki, Bağdad istiqamətində sərhəd bölgəsində olan qüvvələrə Osmanlı qoşunlarının yaxınlaşması xəbəri çatdırılsın və əsas qüvvələr yetişənə kimi bölgədə olan qüvvələrlə sərhəd xəttinin mühafizəsinə çalışsın. Sonra isə böyük qoşunun hazırlanmasına başlandı. Zeynal xan Şamlı səltənətin baş sipəhsaları vəzifəsinə təyin edilməklə bütün qoşunlar onun tabeliyi altına verildi. Səfəvi sərhədlərinin toxunulmaz saxlanması Zeynal xanın qarşısına qoyulan başlıca vəzifə idi. Lazımi tapşırığı alandan sonra Zeynal xan Tacabad-Nətənz yolu ilə hərəkətə başladı. Şah Səfi özü də qoşunlarla birlikdə sərhəd bölgəsinə doğru hərəkət etməyi

qərara almışdı. Amma o, əvvəlcə öz yolunu Kaşandan saldı, Şah Abbasın məzarını ziyarət etdi, onun ruhuna dualar oxudu, Şah Abbasın savabına imkansızlara, ehtiyacı olanlara, şəhər sakinlərinə xeyrat verdi, böyük miqdarda nəzir payladı. Sonra da oradan hərəkətə başlayıb Həmədan şəhərinə gəldi. Şah Səfi burada olduğu müddətdə vilayətlərdən qoşun dəstələri gələrək səltənət qoşunlarına qatıldılar. Onlar sonra da qruplaşdırılaraq dəstə-dəstə Bağdad istiqamətinə yola salındılar. Qoşun daxilində qala müdafiəsi ilə məşğul olacaq dəstələr, tüfəngçilər, ox atanlar dəstəsi yaradıldı (55).

Mənbələrdə Şah Səfinin Həmədanda olarkən qoşunların toplanması, onların təchizi, təşkilatlanması, qruplaşdırılması və yola salınması ilə bağlı tərifləyici sözlər yazılmışdı. Bir tərəfdən Şah Səfinin fərmanına əsasən, vilayətlərdən dəstə-dəstə qoşunların Həmədana gəlməsi və oradan döyüş bölgəsinə yola salınması, digər tərəfdən də çoxlu sayda qoşunun Həmədanda toplanmasına baxmayaraq onların arasında nizam-intizamın olmasına, qoşunlar tərəfindən yerli əhaliyə heç bir ziyan dəyməməsinə toxunulurdu. Bildirilir ki, Həmədan dərvişləri qoşunlar arasında mövcud olan bu nizam-intizama təəccüb edir və bu qoşunların təşkil etmiş səltənət sahiblərinə dualar edirdilər. Bununla mənbə müəllifləri Şah Səfinin təşkilatçılıq qabiliyyətinə, idarəçilik məharətinə toxunurdular və onun zamanında da insanların asayiş içində həyat sürmələrinə toxunurdular (56).

Sərhəd bölgəsində mövcud olan qoşun dəstələri Osmanlı qoşunlarının qarşısını almaq üçün döyüş hazırlığı vəziyyətinə gətirildilər. O cümlədən Fəcur bəylərbəyi Təhmasibqulu xan öz qoşun dəstəsi ilə sərhəd bölgəsinə çıxmaq üçün hazır vəziyyətdə idi. Naxçıvan hakimi Maqsud sultan Kəngərli öz qoşun dəstəsi ilə Xoyda dayanmışdı və həmin istiqamətdən Osmanlı qoşunlarına qarşı döyüşə girişməli idi. Şah tərəfindən bölgəyə göndərmiş divanbəyi Rüstəm bəy Təbrizdə dayanmışdı və oradakı qüvvələrin fəaliyyətini nizamlayırdı. Azərbaycanın bölgələrinin hakimlərinə tapşırıldı ki, öz yerlərində Osmanlı hücumunun qarşısının alınma-

sı üçün lazım olan tədbirləri görsünlər. Mənbələrdə olan məlumata görə, şah fərraşxanasının darğası olan Nəğdi bəy də vəziyyətlə bağlı olaraq Təbrizə göndərildi və bu adam Təbrizin müdafiəsinin təşkili ilə məşğul oldu. Belə ki, Osmanlı qoşunlarının Səfəvi hüdudlarına doğru irəliləməsindən hərəkətə gələn Van əhalisi, sərhəd bölgəsində məskunlaşmış bəzi kürd tayfaları Təbriz üzərinə hücum etmək və bu şəhəri talan etmək fikrinə düşdülər. Bunun üçün onlar on min nəfərlik bir qoşun dəstəsi topladılar və Təbrizə doğru hərəkətə başladılar. Təbriz əhalisi bu xəbəri eşidəndə təşviş və qorxu içinə düşdülər. Nəğdi bəy də belə bir vaxtda Təbrizə gəlib çatdı və təmkinlə şəhərin müdafiəsini təşkil etməyə başladı. O, şəhər əhalisini daşınması mümkün olan əşyaları ilə birlikdə şəhərdən təxliyə etdi və təhlükəsiz bir yerə istiqamətləndirdi. Təbriz gənclərini isə Nəğdi bəy öz ətrafında səfərbər etdi ki, onların köməyi ilə şəhər üzərinə hücum edən qüvvələrin qarşısını alsın. Nəğdi bəy tabeliyində olan qızılbaş qoşun dəstəsi və bu dəstəyə qoşulmuş olan şəhər könüllüləri ilə birlikdə şəhər ətrafından axan Acı çayın yaxınlığında hücum edən qüvvələrlə qarşılaşdı. Tərəflər arasında uzun sürən qanlı bir döyüş baş verdi. Təcavüzkar niyyətlərlə Təbriz üzərinə hücum edən qüvvələr Nəğdi bəyin dəstəsi tərəfindən ağır zərbələr aldılar. Osmanlı və kürd birləşmiş dəstəsi hər zərbədən sonra yenidən qruplaşaraq güclərini səfərbər etməyə çalışsalar da, əvvəlkindən daha ağır zərbə ilə qarşılaşdılar. Döyüşün baş verdiyi gün Acı çayın suyu da xeyli çox imiş və bu da hücum edən qüvvələrin irəliləməsinə əlavə bir çətinlik yaratdı. Mənbə məlumatına görə, elə bir vəziyyət yarandı ki, hücum edənlər sağ-salamat qaçıb canlarını qurtarmağı özlərinə qənimət bildilər və niyyətlərinə yetmədən Təbriz ətrafından uzaqlaşmalı oldular. Təbriz ətrafında baş verən bu döyüşün nəticələri barəsində Şah Səfiyə də məlumat çatdırıldı. Şah Səfi bu məlumatdan xeyli məmnun oldu və həmin döyüşdə uğurun təşkilatçısı olan Nəğdi bəyi səxavətlə mükafatlandırdı (57).

Xosrov paşanın rəhbərliyi altında olan Osmanlı qoşunları sərhəd bölgəsinə yetişməzdən əvvəl baş verən məhəlli döyüşlərdən

biri də Ərdəlan hakimi Xan Əhməd xanın rəhbərliyi altında baş verdi. Onun rəhbərliyi altında olan qoşun dəstəsi Sehran kürdlərinin dəstəsi ilə döyüşə girmək məcburiyyətində qaldı. Bu döyüşlə bağlı mənbə müəlliflərinin diqqətini cəlb edən məqam Sehran kürdlərinə Xanzadə xanım adlı birisi tərəfindən rəhbərlik edilməsi idi. Onun iddialı, lakin zəif ağıllı olması mənbələrdə əksini tapmışdır. Belə ki, Xanzadə xanım çox ağıllı, çox şücaətli birisi kimi göstərməyə çalışır, yerli-yersiz ov mərasimlərinə yollanır, at çapmağa çox meyl göstərir, meydan oyunlarında iştirak etməyə rəğbət göstərirdi. Özü haqqında böyük iddialara düşən Xanzadə xanım hətta ətrafına topladığı silahlı dəstə ilə Kərkük üzərinə də hücum etmişdi. Ərdəlan hakimi Xan Əhməd xan bundan xəbər tutanda öz dəstəsi ilə Sehran kürdlərinin hücumunun qarşısını almağa yollandı. Baş verən döyüşdə Sehran kürdlərinə ağır zərbə vuruldu və Xanzadə xanım da əsir götürüldü. Xanzadə xanım əsir kimi Şah Səfinin sərəncamına göndərildi. Şah Səfi də onun qarşısına gətirilmiş xanıma cəza verilməsini düzgün saymadı, onu əfv etdi. Sonra da Xanzadə xanım İsfahana göndərildi və Təbərrük qalasına salındı (58).

Xosrov paşanın Səfəvi sərhədlərinə yaxınlşamazdan əvvəl Səfəvi sarayının və eləcə də mənbə müəlliflərinin diqqətini cəlb edən məqamlardan biri də gürcü Mauravinin qətlə yetirilməsi oldu. Mauravi şah sarayı ilə münaqişədə olmasına görə Osmanlı sarayına sığınmışdı. Yuxarıda qeyd edildiyi kimi, Şah Abbasın dünyasını dəyişməsindən sonra Mauravi osmanlı sultanını Səfəvi hüdudları üzərinə qoşun çəkməyə təhrik etdi. Osmanlı sultanı belə bir qərar verməyə razı oldu. O, Mauravini də Xosrov paşa ilə birlikdə Səfəvi hüdudları üzərinə göndərdi. Osmanlı sultanına görə, Mauravi Səfəvi ərazilərini və sərkərdələrini yaxşı tanıyırdı və buna görə onun bu yürüşdə iştirak etməsi faydalı ola bilərdi. Mauravi də Xosrov paşa ilə birlikdə yürüşdə iştirak etdi. Bu yürüşdə onu bir oğlu və bir neçə gürcü də müşayiət edirdi. Amma yürüş zamanı onunla Xosrov paşa arasında nifaq yarandı. Bir məlumata görə, Mauravi Səfəvi hüdudlarına doğru irəliləyərkən xeyli sayda silah və sursatı

dəvələrə yükləyib Gürcüstan ərazisindəki Altunqalaya göndərib. Osmanlı qoşunları Ərzrumda olarkən Mauravinin hərəkəti barəsində Xosrov paşaya məlumat çatdırdılar. Xosrov paşa da belə fikirləşdi ki, Mauravi Osmanlı qoşunlarını tərk edib qaçmaq istəyir. Bununla əlaqədar o, əmr verdi ki, Mauravi, onun oğlu və onun yanındakı bir neçə gürcü qətlə yetirilsinlər. Bu əmr dərhal icra olundu. Eyni zamanda Xosrov paşa əmr etdi ki, Mauravinin yaxın adamlarını axtarsınlar və harada tapsalar dərhal qətlə yetirsinlər. Mauravinin qətlə yetirilməsi Səfəvi düşərgəsində məmnunluqla qarşılandı (59). Çünki Mauravi hər zaman Şah Abbasın qayğısı altında olmuşdu. O isə fürsət düşən kimi Şah Abbasa sədaqətsizlik göstərdi və Osmanlı sarayına sığındı.

Sərhəd bölgəsində cərəyan edən hadisələr Şah Səfi tərəfindən diqqətlə izlənilirdi. Osmanlı təhlükəsinin qarşısının alınması üçün onun tərəfindən lazım olan addımla da atılırdı. Bu təhlükə onun diqqətini daha çox cəlb etsə də, Şah Səfi Həmədanda olduğu zaman dövlətçilik işləri ilə də məşğul olurdu. Osmanlı qoşunları ilə əsas döyüş başlamazdan əvvəl gürcü hakimi Təhmurəs xanın elçiləri Şah Səfinin yanına gəldilər və Səfəvi şahı onları öz hüzuruna qəbul etdi. Tarixdən bəllidir ki, hələ Şah Abbas zamanında gürcü hakimləri və saray mənsubları Səfəvi hakimiyyətinə itaət etməkdən boyun qaçırmışdılar. Amma Təhmurəs xan onu da görürdü ki, Səfəvi sarayına qarşı sədaqətsizlik etməklə müstəqil yaşamağa nail ola bilməyəcəkdir. Çünki Osmanlı sarayının da Gürcüstan sarayına öz iddiaları var idi. Ona görə də Təhmurəs xan hələ Şah Abbasın sağlığında Səfəvi sarayı ilə əvvəlki münasibətlərin bərpasına çalışırdı. Şah Abbasın dünyasını dəyişməsindən sonra Şah Səfi digər vilayət hakimləri kimi Təhmurəs xana da qiymətli xələt göndərdi və bununla ona öz iltifatını nümayiş etdirdi. Təhmurəs xan da Şah Səfinin bu iltifatını xoş məramla qarşıladı və Şah Səfi Həmədanda olarkən onun yanına saray əyanlarından və hörmətli keşişlərdən ibarət bir elçilik heyəti göndərdi, bu elçilik heyəti ilə Səfəvi sarayına sədaqətli qalacağını vəd etdi. Şah Səfi də həmin elçilik heyətini mehribanlıqla qarşıladı və xoş məramla da yola

saldı (60). Təhmurəs xanın yenidən öz itaətini bəyan etməsi Səfəvi qoşunlarının Osmanlı qoşunlarına qarşı mübarizənin də səmərəliliyinə müsbət bir zəmin yaratdı. Çünki Osmanlı qoşunlarının Gürcüstana sahib olduqları təqdirdə Səfəvi dövlətinə qarşı hərbi təhlükə daha da ciddiləşə bilərdi.

Şah Səfi Həmədanda olduğu günlərdə həm də Krım taxt-tacının şahzadələrindən olan Şahin Gəray xanı hüzuruna qəbul etdi. Şahin Gəray xan hələ Şah Abbasın vaxtında Səfəvi sarayı ilə xoş münasibətlərə malik idi və Səfəvi sarayında hər tərəfli qayğı ilə əhatə olunmuşdu. Ona görə də onun Səfəvi sarayına yaxın münasibəti var idi. Geri qayıtdıqdan sonra da Şahin Gəray xan Səfəvi sarayı ilə xoş münasibətləri davam etdirməkdə idi. Lakin hakimiyyət uğrunda ailə çəkişmələri onu yenidən Krımı tərk etməyə məcbur etdi. Ona törə də Şah Gəray xan yenidən Səfəvi sarayına pənah gətirdi. Şah Səfi onu da mehribanlıqla qarşıladı və onu saray himayəsi altına aldı (61).

1629-cu ilin sonlarında Axısqa qalası ətrafında da Osmanlı qoşun dəstələri ilə qala müdafiəçiləri arasında döyüş baş verdi. Axısqa qalasının hakimi o zaman Səlim xan idi. Osmanlı qoşunlarının bölgəyə yaxınlaşmasından arxayınlaşan Qaraca Ərdəhan, Qars və Ərzrum ətrafında toplaşmış olan Osmanlı silahlı dəstəsi Axısqaya hücum etmək, bu qalanı talan etmək və sərvət əldə etmək niyyətinə düşdülər. Bu dəstə qala üzərinə hücum edib öz məqsədlərinə tam çatmasa da, müəyyən qədər qənimət ələ keçirə bilmişdi. Artığının əldə edə bilməyəcəyini görən Osmanlı silahlıları qalanı tərk edib geriyə üz tutdular. Qala hakimi Səlim xan isə hünər göstərmək istəyi ilə Osmanlıların təqibinə başladı. O güman edirdi ki, öz silahlı dəstəsi ilə Osmanlı dəstəsinə zərbə vura biləcəkdir. Amma qarşılaşma zamanı Səlim xan öz atından uğursuz şəkildə yerə yıxıldı və hətta hərəkət etmək qabiliyyətini itirdi. Osmanlı silahlıları onu ələ keçirib özləri ilə apardılar. Onlar bölgədən uzaqlaşmazdan əvvəl bir də Axısqa qalasına hücum etdilər. Qarabağ və Çuxursəəd əmirləri bu hücum haqqında xəbər tutduqda dərhal Axısqa qalasının köməyinə yollandılar. Hətta gürcü hakimi Təh-

murəs xan da Axısqa qalasının müdafiəsi üçün öz dəstəsini göndərdi. Bununla o həm də Səfəvi sarayına sədaqətli olduğunu nümayiş etdirdi. Amma bu köməklər gəlib çatmamış Osmanlı dəstəsi geri çəkilmək qərarını verdi. Çünki qala ətrafına toplaşmış olan qüvvələrə qarşı onun dayanmaq gücü yox idi. Osmanlı dəstəsi çəkilib gedəndən sonra Axısqa qalasının hakimliyi Səlim xanın oğlu İsmayıl bəyə verildi. Şah sarayının əyanlarından olan əmisi Aslan bəy də İsmayıl bəyin köməyinə göndərildi (62).

Şah Səfi 1630-cu ilin Novruz bayramını Həmədanda keçirdi. Bu Novruz bayramı onun şahlığının ilk Novruz bayramı idi və ona görə də bu bayram çox təntənəli şəkildə təşkil olundu. Novruz şənlikləri təxminən bir həftə uzandı. Novruzdan az sonra isə Xosrov paşanın rəhbərliyi altında olan Osmanlı qoşunlarının Diyarbəkrdən hərəkətə başlaması və bu qoşunların Bağdada doğru irəliləməsi haqqında məlumat alındı. Həmədan ətrafında toplaşmış olan səltənət qoşunlarından bir dəstəsi dərhal Bağdada göndərildi ki, bu dəstə Bağdad müdafiəçilərinin gücünü daha da artırsın. Həmin dəstənin əsasını tüfəngçilər təşkil edirdi. Bu dəstə ilə birlikdə eşikağası Kəlbəli bəy də Bağdada göndərildi. O, özü ilə nağd pul da aparırdı ki, Bağdad qalasının müdafiəsinin təşkilinə xərclənsin. Kəlbəli bəy həm Osmanlı qoşunlarının artıq Bağdada tərəf irəliləməyə başlaması haqqında məlumatı qala hakimlərinə çatdırmalı, həm də qalanın müdafiəsinin təşkilinə öz köməyini göstərməli idi. Eyni zamanda səltənət sipəhsaları Zeynal xana da göstəriş verdi ki, səltənət qoşunları ilə birlikdə Bağdad istiqamətində hərəkətə başlasın. Zeynal xan eyni zamanda Osmanlı qoşunlarının hərəkətini izləməli və onların hərəkətinə uyğun olaraq özünün də hansı istiqamətə getməli olduğunu müəyyənləşdirməli idi. Osmanlı qoşunlarının hərəkət marşrutu haqqında düzgün məlumata malik olmaq üçün xeyli sayda casuslar ətraf bölgələrə göndərildi ki, onlar lazımi məlumatı toplayıb Zeynal xana çatdırsınlar. Şah Səfi özü isə hələlik Həmədanda qalmağı qərara aldı. Onun yanında səltənət qorçubaşısı, etimadüddövləsi və digər saray mənsublarının rəhbərliyi altında bir qoşun dəstəsi saxlanıldı (63).

Vəziyyətin gərginləşdiyi günlərdə Ərdəlan hakimi Xan Əhməd xanın adamları Osmanlı döyüşçülərindən bir neçəsini əsir tutub gətirdilər və onlardan Osmanlı qoşunları ilə bağlı maraq doğuran məlumatları aldılar. Məlum oldu ki, Xosrov paşa və onun rəhbərlik etdiyi qoşunlar artıq Mosuldadır. Mənbə məlumatına görə, Xosrov paşanın rəhbərliyi altında çox böyük bir qoşun dəstəsi toplanmışdı. Bildirilir ki, Osmanlı hüdudlarına daxil olan Avropa ərazilərindən tutmuş Səfəvi sərhədinə qədər olan ərazilərdən çoxlu sayda qoşun əhli toplanmış, təchiz olunmuş və hərbi yürüşə çıxarılmışdı. Bu qoşunları ixtiyarına verilən topların və digər odlu silahları sayı da çox böyük idi. O qədər böyük qoşun toplanmışdı ki, əvvəlki illərdə Səfəvi dövlət üzərinə hücum edən Osmanlı qoşunlarının sayı bu qədər olmamışdı. Osmanlı mənbələrində Xosrov paşanın Mosula gəlişi və orada qəbul etdiyi qərar barəsində belə yazılmışdı: "...Sədrəzəm Bağdad üzərinə yürümənin hənuz vaxtı gəlməmiş olduğundan Mosulda qüvvətli bir qala tiktirdi. Bağdadın alınması üçün gətirilmiş olan toplar və digər təchizat bu qalaya yerləşdirildi. Qala komandanlığını İbrahim paşa ilə yeniçəri ocağında az rast gəlinən qəhrəman bir igid olan Samsunçubaşı Mustafa ağaya, yanlarına mühafiz olaraq yetərli sayda tüfəngçi buraxıb əmanət etdi" (64).

Mosula yetişdikdən sonra Osmanlı qoşunları Şəhrizor şəhərini nəzarət altına aldılar. Xosrov paşanın fikrincə, bu şəhərin ələ keçirilməsi ərəblər məskunlaşmış bölgənin işğalının başlanğıcı idi. Osmanlı sərdarı qoşunlarıdakı topların böyük bir hissəsini Mosulda saxladı. Qoşunlarn bir hissəsini isə Hillənin tutulmasına göndərdi. Bu şəhər Fərat çayının qarşı sahilində əlverişli bir mövqeyə malik idi. Osmanlı qoşunları bu şəhərdən Bağdad üzərinə hücuma başlaya bilərdilər. Ona görə Hillənin nəzarət altında saxlanması Osmanlı qoşunları üçün əhəmiyyət kəsb edirdi (65).

Yuxarıda qeyd edildiyi kimi, Osmanlı qoşunları Şəhrizorda Gülənbər qalasının tikilməsinə başladılar.Osmanlı qoşunlarının Ərdəlan ərazilərinə gəlməsi bu ərazilərin Xan Əhməd xan tərəfindən yaxşı müdafiə edilmədiyi qənaətini ortaya qoydu. Bu vilayətin

daha yaxşı qorunması üçün Şah Səfinin fərmanı ilə Xan Əhməd xan Ərdəlan hakimi vəzifəsindən azad edildi və saraya gətirildi. Ərdəlanın müdafiəsini möhkəmləndirmək üçün Şah Səfinin fərmanı ilə Xorasandan gətirilmiş tüfəngçilər dəstəsi, söhbət yasovulu olan Canı bəy Şamlının rəhbərliyi altında olan qoşun dəstəsi Həsənabada göndərildi. Eyni zamanda sipəhsalar Zeynal xan da Şəhrizor istiqamətini nəzarət altında saxlamalı və sonra da vəziyyətin tələbi üzrə hərəkət etməli idi. Zeynal xan da Osmanlı qoşunları yaxınlaşmazdan əvvəl Kərkük ətrafının əhalisini daha təhlükəsiz bölgələrə köçürdü ki, Osmanlı qoşunları onların ərzaq ehtiyatlarından sitifadə edə bilməsinlər. Bundan başqa Zeynal xan həm də Vəli xan Əfşarı Şəhriban və Qızılrəbat ətrafına göndərdi ki, o bölgədə mövcud olan ərzaq ehtiyatlarını toplasın və şah qoşunlarının istifadəsinə gətirsin (66). Məqsəd bu idi ki, həm Səfəvi qoşunlarının ehtiyacı üçün ərzaq ehtiyatları yaradılsın, həm də Osmanlı qoşunları üçün bu ərazilərdə ərzaq ehtiyatları əlçatmaz olsun.

Bağdad istiqamətində hərəkət edən səltənət qoşunları və sipəhsalar Zeynal xan Şəhriban adlı məntəqəyə yetişib Gilanək adlı bir yerdə düşərgə qurdular. Bu yer Bağdad qalasının yaxınlığında idi. Zeynal xan ehtimal edirdi ki, Osmanlı qoşunlarını da ora yaxın olan bir ərazidə qarşılaya biləcəkdir. Amma Zeynal xan məlumat aldı ki, Osmanlı qoşunları Şəhrizor istiqamətində hərəkət ediblər və orada düşərgə salmaq niyyətindədirlər. Belə olanda Zeynal xan qoşunlarla birlikdə Mahidəşt adlanan məntəqəyə gəldi. Bu məntəqə Şəhrizora müəyyən qədər yaxın idi və Zeynal xan burada Osmanlı qoşunlarını nəzarət altında saxlamalı və onların hərəkəti haqqında məlumat alınan kimi uyğun qərarı qəbul etməli idi. Bir məlumata görə, sərhəd bölgəsində məskunlaşmış kürd tayfalarının əmirləri Xosrov paşanı inandıra bilmişdilər ki, Osmanlı qoşunları birbaşa Bağdada yollanmasın. Təklif olunurdu ki, sərhəd bölgəsindəki mühüm ərazilər ələ keçirilsin və bundan sonra Bağdada doğru hərəkət davam etdirilsin. Belə bir fikir var idi ki, Səfəvi ərazilərinin ələ keçirilməsi Bağdad üzərinə hücum zamanı Osmanlı

qoşunlarının bu cinahının təhlükəsizliyini təmin edəcəkdir. Ona görə də Xosrov paşa da bu təklifi qəbul edərək qoşunlarla birlikdə Şəhrizora qədər irəliləmişdi. Burada olarkən Osmanlı qoşunlarının bir neçə sərdarı belə bir təklif verirlər ki, Şəhrizora aid olan Mərivan qalasının tutulmasına bir Osmanlı qoşun dəstəsi göndərilsin. Xosrov paşa bu təklifə etiraz etmir və təxminən on min nəfərlik bir qoşun dəstəsi Mərivan qalası üzərinə göndərildi. Həmin dəstə bir neçə gündən sonra Mərivan qalasına yaxınlaşıb orada düşərgə saldı. Mərivan qalası Ərdəlan hakimi Xan Əhməd xanın tabeçiliyində idi. O özü isə Həsənabad qalasında məskunlaşmışdı. Osmanlı qoşunları yaxınlaşanda Xan Əhməd xan hələ Həsənabadda idi. Osmanlı qoşunlarının bu qalaya yaxınlaşması təhlükəsinin qarşısının alınması üçün Xan Əhməd xan təxminən dörd-beş min nəfərlik bir qoşun dəstəsini Mərivan istiqamətinə göndərdi. Bu dəstə əslində daha çox mühafizə dəstəsi idi və Mərivan istiqamətində baş verənlər haqqında məlumat toplamaqla Həsənabada çatdırmalı idi. Həm də lazım gələrdisə ilk zərbəni öz üzərinə götürməli idi (67).

Zeynal xan da osmanlı qoşun dəstəsinin Mərivan ətrafındakı hərəkətləri haqqında məlumat toplamaq üçün bir dəstəni irəli göndərdi. Bu dəstəyə Vəli xan İmanlı Əfşar rəhbərlik edirdi. Dəstə üzvləri osmanlı qoşun dəstəsinin müşahidəsini aparandan sonra Zeynal xana topladıqları məlumatı göndərdilər. Eyni zamanda Zaman xana təklif olundu ki, əgər şah icazə verərsə onda Mərivan ətrafındakı qoşun dəstəsi üzərinə hücum etmək və bu dəstəni məhv etmək olar. İsgəndər bəy Münşinin yazdığına görə, Zeynal xan burada ciddi bir səhvə yol verdi. O, yersiz qürurunu arxalanaraq Osmanlı qoşun dəstəsi üzərinə hücum etmək, asa bir qələbə əldə etməklə şöhrət əldə etmək istəyirdi. Mənbə məlumatına görə, Zeynal xan təcrübəli sərkərdələrə xas olacaq təmkini əldə buraxaraq Osmanlı qoşunları üzərinə hücum etmək qərarına gəldi. Hərəkət sürətini artırmaq üçün Zeynal xan qoşunların bütün təchizatının və yüklərinin Mahidəştdə saxlanmasına göstəriş verdi. Sonra da Mərivana doğru hərəkət başladı. Uzun yol iki gün ərzinə

başa vuruldu və Səfəvi qoşunları Mərivan ətrafına gəlib yetişə bildi. Həmin məntəqəyə yetişəndən sonra da Zeynal xan döyüş aparılacaq sahənin kəşfiyyatını aparması, qoşunların təhlükəsiz döyüş mövqeləri tutmasına ciddi diqqət yetirmədi. Səfəvi qoşunları ərazidən axan çayın bir tərəfində mövqe tutdu. Ancaq ona da diqqət yetirilmədi ki, həmin ərazidən atlıların hərəkəti üçün münasib olmayan yerlər vardır. Osmanlı qoşun dəstəsi isə əvvəldən məntəqəyə gələrək münasib bir yer seçmişdi. Bundan əlavə xəndəklər və səngərlər qazılmış, tüfəngçilər özləri üçün təhlükəsiz mövqelər seçmişdilər (68).

Bir məlumata görə, Osmanlı qoşun dəstəsinin Mərivan qalası həndəvərinə gəlməsi və Zeynal xanın da bu dəstə üzərinə hücum əmri verməsi xəbərini Şah Səfi bəyənmədi. O, təcili şəkildə bir min nəfərlik dəstəni Zeynal xanın yanına göndərdi və tələb etdi ki, Mərivan ətrafında döyüşə girilməsin (69).

İsgəndər bəy Münşinin yazdığına görə, Zeynal xan cahillik göstərdi və qarşı tərəfin gücünü öyrənmədən onun üzərinə hücum əmri verdi. Bununla belə, İsgəndər bəyin verdiyi məlumata görə, Mərivan ətrafındakı döyüş qızılbaş dəstələrinin uğuru ilə başladı. Döyüşün əvvəlində Osmanlı dəstəsinə xeyli itki verildi və hətta Osmanlı döyüşçüləri öz mövqelərini tərk edərək geri qaçdılar və Mərivan qalasının ətəklərinə sığındılar. Qızılbaş döyüşçüləri isə asan bir qələbə əldə etdiklərini düşünərək Osmanlı dəstəsinin düşərgəsi üzərinə hərəkət etdilər. Bu düşərgənin talan edilməsinə başlandı. Lakin qızılbaş atlılarının çoxu çay ətrafındakı bataqlıq əraziyə ilişib qaldılar. Bu atların çoxu sinələrinə qədər bataqlığa batdılar və hərəkət edə bilmədilər. Bir sözlə, qızılbaş döyüşçülərinin döyüşdən çıxması, onların bir hissəsinin başlarının qənimət toplanmasına qarışması, bir hissəsinin isə bataqlıqda qalması Osmanlı dəstəsinə yenidən toparlanmaq və öz qüvvələrini qruplaşdırmaq imkanı verdi. Xüsusilə, Osmanlı qoşun dəstəsində olan tüfəngçilərin yenidən əlverişli mövqelərə çıxmaları və qızılbaşları davamlı atəş altına almaları döyüşün gedişinə bir dəyişiklik gətirdi. Osmanlı döyüşçülərinin bir hissəsi hətta öz düşərgələrinə

qayıdaraq orada talançılıqla məşğul olan qızılbaşlarla əlbəyaxa döyüşə girdilər. Qızılbaş döyüşçülərində belə bir güman yarandı ki, Osmanlı dəstəsinə əlavə kömək gəlib və ona görə də onlar yenidən irəli atılıblar. Onlar yaranmış vəziyyətdən təşvişə düşərək həm talançılığı buraxdılar, həm də kütləvi şəkildə geri qaçmağa başladılar. Zeynal xan döyüş meydanında baş verənləri kənardan izləyirdi. Meydanda qəfil şəkildə dəyişikliyin baş verməsi onun da təəccübünə səbəb odu. O, atından yerə düşüb geri qaçan döyüşçülərin qarşısını kəsməyə çalışdı. Zeynal xan hətta geri qaçanların bir neçəsini güllə ilə öldürdü. Bununla belə, qoşunun geri qaçmasının qarşısını kəsmək mümkün olmadı. Zeynal xan özü də geri çəkilmək məcburiyyətinə qaldı. Elə bir uğursuzluq baş verdi ki, Səfəvi qoşunları pərən-pərən oldu. İsgəndər bəy Münşinin yazdığına görə, Səfəvi qoşunları bir min nəfər itki verdi. Həyatını itirənlər arasında bir neçə əmir və əyan da var idi. Zeynal xan Mərivan ətrafından uzaqlaşmaq məcburiyyətində qaldı (68).

Türkdilli elmi-tarixi ədəbiyyatda olan məlumata görə, Mərivan qalası üzərinə göndərilmiş Osmanlı dəstəsinə Hələb bəylərbəyi Noqay paşa rəhbərlik edirdi. Bu ədəbiyyatda da onun rəhbərliyi altında on min nəfərlik bir dəstənin, Səfəvi qoşunlarının isə 40 min nəfərdən ibarət olduğu bildirilir. Məlumata görə, döyüşün gedişində Osmanlı dəstəsinə əlavə qüvvə köməyə gəldi. 1630-cu il may ayının 5-də başlanan bu döyüşdə Sivas bəylərbəyi Xəlil paşanın da böyük fədakarlıq göstərdiyi haqqında məlumat vardır. Qeyd edilir ki, Xəlil paşa əvvəlcə müdafiədə dayanmış, sonra da hücuma keçərək qələbənin əldə edilməsini təmin etmişdi. Xosrov paşa bu döyüşdən altı gün sonra Mərivana gəlmiş və əldə edilmiş qələbə ilə bağlı qoşunların rəsmi-keçidini təşkil etmişdi (70).

Osmanlı mənbələrində Mərivan qalası Mihriban qalası kimi verilmişdir. Bu dövrün hadisələrinin şahidi olan Osmanlı salnaməçisi İbrahim Peçevi öz əsərində Osmanlı qoşunlarının Mərivan qalası ətrafındakı döyüşünü belə təsvir etmişdir: "23 ramazan 1039 (6 may 1630). Sərdar, Rumeli bəylərbəyi Arnovut soyundan olan Yusif paşanı, Xəlil paşanı və keçmiş sədrəzəm Çərkəz Mə-

həmməd paşanın qohumlarından olan Həsən paşanı yetərli sayda yeniçəri ilə və aşağı bölüklərdən dördünü ağaları ilə birlikdə yanlarına qataraq Mihriban qaalsını almağa vəzifələndirdi. Onlar gedib qala üzərinə hücum etdilər. Aradan bir neçə gün keçmişdi. Vəzir Gülənbər qalasını tikintisi ilə məşğul idi. Bu zaman yuxarıda adları keçən bəylərbəylərindən məktub gəldi. Məktuvda İranda xanlar xanı sayılan Zeynal xan adlı birisinin qırx min kişi ilə üzərlərinə gəldiyini yazır və imdadlarına əsgər göndərilməsini rica edirdilər. Sərdar Xosrov paşa üç-dörd min yeniçəri ilə bəzi bəylərbəyi əsgərlərindən bir qədər daha adam seçib imdadlarına göndərməli oldu. Amma yeniçərilər getməyə tərəddüd göstərdilər və bir sıra üzrlər irəli sürdülər, hətta qəzəblənib öz kətxudalarının çadırını yıxdılar. Ona görə də sərdar qala binasının tikintisi tamamlanmaq üzrə olduğundan özü getmək üçün hazırlıq görməyə başladı. Amma buna gərək qalmadı. Çünki Mihribandan müjdə gəldi. İslam əsgəri düşməni dağıtmış və zəfər qazanmışdı. Orada döyüş belə baş vermişdi: Zeynal xan çoxlu sayda əsgəri ilə yaxınlaşdığı zaman islam əsgəri də döyüş hazırlığı vəziyyəti alaraq ordudan ayrılır və düşmənə qarşı hərəkəət keçir. Amma ilk çarpışmada iranlılar üstün gəldilər. Osmanlı əsgəri dağılır və düşmən əsgəri qorxmadan düşərgənin içərilərinə qədər soxularaq bütün çadırları ələ keçirilər. Vəziyyəti belə görən Rumeli bəylərbəyi, düşərgdən kənarda olan əsgərləri toplamağa çalışır və dağılmışolan bütün əsgərləri öz bayrağı altında bir araya gətirir. Xəlil paşa və Həsən paşa da alaylarını tolayırlar və fürsət tapıb düşmən üzərinə hücum üçün bir-birlərinə baxırlar. Bu arada Zeynal xan osmanlıların yenidən müharibə düzəninə girdiklərini görüncə hmən göz açdırmayıb üzərlərinə atılmaq üçün öz döyüşçülərinə əmr verdi və Rumeli alayı üzərinə hərəkət etdi. Rumeli qaziləri də uca tanrıya sığınaraq və həzrət Məhəmmədin möcüzələrinə güvənərək hamısı birdən düşmən üzərinə atıldılar. Düşmən əsgərləri dayanmayıb önlərindən sıyrıldılar və Xəlil paşanın üzərinə yönəldilər. Fəqət Xəlil paşa öz yerindən tərpənmədi. Düşmən bu dirənişi görüncə ona "Dəmir kazık" ləqəbi verdikləri söylənir. Çünki iranlılara müqayisədə

onun əsgərləri çox az idi. Ancaq üçdə bir, dörddə, bəlkə beşdə bir qədərmiş. O sırada Rumeli və Həsən paşanın əsgərləinə sipahi bölükləri də yetişib savaşa qatıldılar və düşmənin halını pozdular. Bundan sonra dayanmayıb canlarını qurtarmaq fikrinə düşdülər. Gələrkən keçmiç olduqları böyük bir körpüdən dönüşdə bri-birinin önünə keçmək üçün üst-üstə yığıldılar. İslam qaziləri isə düşmənin bu biçimdə açmaqda olduğunu görüncə onları təqib etdilər, yaxaladıqlarını öldürdülər və ya da əsir götürdülər. Körpüdən keçməyi bacaranları yenə də Zeynal xan toplamağa çalışdı. Canlarını qurtaranlar böyük bir ordu oluşdurmalarına qarşı yenə də irəli çıxarmağa gücləri yetməyəcəyini anladılar və geri çəkilməkdən başqa bir iş görə bilmədilər. Dönüş yolunun üzərindəki keçilməsi çətin olan bir keçidə çatana qədər çoxu tökülüb qaldı. İslam əsgəri qovmağı buraxmayaraq saysız dillər və başlar aldılar. O qədər çox at, davar, at təchizatı və başqa əşyalar aldılar ki, hesabı yox idi. Hətta bir çox qızıl işləmələr olan qılınc, qiymətli daşlarla bəzədilmiş xəncər və digər əşyalar qənimət alındı. Söz gedən körpüdən keçərkən çıxluqdan əzilib ölənlər və dərin sularda batıb boğuldular. Osmanlı əsgərinin qılıncı altında can verənlərin sayı daha çox idi. Uca Tanrıya çox şükür. Elə bir hadisə baş verdi ki, yaxın zamanlarda belə biri daha baş verə bilməz. Demək olar ki, İran əsgəri çoxdandır Osmanlının pəncəsindən belə bir zərbə almamışdı (71) .

Mərivan ətrafında əldə edilmiş qələbə Xosrov paşanı xeyli ruhlandırdı və daha da irəli hərəkət etmək əmri verdi. Xüsusilə də baş verən uğursuzluqdan sonra qızılbaş qoşunlarının ağır mənəvi-psixoloji durumda olmasından istifadə etməklə Xosrov paşa dərhal Həmədana doğru irəliləmək fürsətini əldən vermək istəmirdi. Zeynal xanın rəhbərliyi altında olan qoşun dəstəsinin uğursuzluğa düçar olması tezliklə Şah Səfiyə də çatdı. Mənbə məlumatında bildirilir ki, Şah Səfi bu xəbəri çox böyük üzüntü ilə qarşıladı. Mənbə müəllifinin yazdığına görə həmin gecə Şah Səfi ilan vurmuş adamların vəziyyətindən daha dəhşətli bir gecə keçirdi. Saray mənsubları Şah Səfinin bu halını görüb müxtəlif söhbətlərlə və

bəhanələrlə onun başını qatmağa çalışdılar. Amma Şah Səfi bu uğursuzluğun acısını çox ağrılı yaşadı. Şah Səfinin əhval-ruhiyyəsinin dəyişdirilməsi üçün Mərivan ətrafındakı döyüşdə öldürülmüş xeyli sayda Osmanlı döyüşçüsünün başını da şah düşərgəsinə gətirdilər. Bununla belə, qızılbaş qoşunlarının bu uğursuzluğu ağır bir yük kimi Şah Səfinin ürəyində qövr elədi. Şah Səfinin göstərişi ilə şah düşərgəsi Həmədandan bir qədər uzaqlaşdırıldı və şəhərdən bir fərsəx yarım aralı olan Qəssaban adlı çeşmənin yaxınlığında quruldu. Burada olarkən Şah Səfiyə belə bir məlumat da çatdırıldı ki, Xosrov paşa bütün qoşunu ilə Mərivana gəlib və oradakı qoşun dəstəsi ilə birləşib. Mərivanın ələ keşirilməsi, əslində, Osmanlı qoşunları üçün səltənətin içərilərinə doğru irəliləmək yolunu açmışdı. Alınan xəbərlərə görə, Osmanlı qoşunları Həsənabada, oradan isə Həmədana doğru irəliləmək niyyətində idilər. Yəni Mərivan yaxınlında baş vermiş uğursuzluq Səfəvi dövləti üçün ciddi bir təhlükənin başlanğıcını qoymuşdu. Artıq Həmədanın özünün böyük təhlükə altında olması qaçılmaz hal almışdı. Şah Səfinin özünün də diqqətinə çatdırıldı ki, Həmədan üzərində təhlükəli vəziyyət yaranmışdır və ona görə şah hərəminin Həmədan ətrafında olması heç də məqsədəuyğun deyil. Eyni zamanda o da şahın diqqətinə çatdırıldı ki, Həmədan əhalisi də atıq ciddi təhlükə ilə üzbəüz qalmışdır. Həmədan əhalisi də böyük sayda Osmanlı qoşununun yaxınlaşmaqda olmasından təşviş və qorxu içində idilər. Şah Səfi də, saray mənsubları da belə bir vəziyyətin yarana biləcəyini gözləmirdilər. Ona görə də münəccimlər və Quran təfsirçiləri çağırıldı, vəziyyətin necə dəyişə biləcəyi ilə bağlı onları fikirləri öyrənildi. Həm münəccimlər, həm də təfsirçilər belə bir qənaətə gəldilər ki, son nəhayətdə Səfəvi qoşunları qələbə əldə edəcəklər. Bununla belə, mövcud olan vəziyyət tələb edirdi ki, lazım olan qərar qəbul edilsin. Şah Səfinin əmri ilə Taxta xan Səfəvi qoşunları düşərgəsinə yollandı ki, qoşunlar daxilindəki vəziyyəti öyrənsin, sonra da bu barədə şaha məlumat versin. Bununla belə, Həmədanın boşaldılması qaçılmaz oldu. Saray yasağçılarına və qorçu-

larına göstəriş verildi ki, onlar Həmədanın boşaldılmasını nəzarət altına götürsünlər (72).

Xosrov paşanın rəhbərliyi altında olan Osmanlı qoşunlarının hərəkəti Şah Səfi tərəfindən nəzarət altında saxlanılırdı. Ətrafa göndərilmiş olan adamlar hər gün Osmanlı qoşunlarının harada olması haqqında ona məlumat çatdırırdılar. Həmin məlumatlardan da görünürdü ki, Xosrov paşa böyük sürətlə Həmədana doğru irəliləməkdədir. Şah Səfi əmin olurdu ki, Həmədanı hazırkı vəziyyətdə qorumaq imkanı yoxdur və ona görə də şəhər sakinlərinin tezliklə köçürülməsini istəyirdi. Bu işin sürətləndiirlməsi üçün Mövlana Məhəmməd Tahiri də Həmədana göndərdi. Mövlana Məhəmməd Tahir Həmədan sakinlərinin şəhəri tərk etməsinə nəzarəti gücləndirməli idi. Mənbə məlumatlarına görə, Şah Səfi özü də bu prosesdə iştirak edirdi. Həmədanın kasib ailələrinin köçlərinin təşkiuli üçün şah tərəfindən xeyli sayda dəvə və digər yük heyvanları ayrılmışdı (73).

Bununla belə, Osamnlı qoşunlarının Həmədana doğru irəliləməsinin qarşısını almaq mümkün olmadı. Şəhər boşaldıldıqdan sonra Osmanlı qoşunları 1630-cu il iyun ayının 9-da Həmədan şəhərinə daxil oldu. Bir neşə gün ərzində şəhər bütünlüklə talan edildi, Xosrov paşa tərəfindən sərbəst buraxılan qoşun əhli talanlarla bərabər şəhəri də dağıdıb viran hala qoydular. Həməfdan kimi böyük bir şəhərin ələ keçirilməsindən ilhamlanan Xosrov paşa öz yürüşünü İsfahana qədər davam etdirmək xəyalına düşdü. Osmanlı qaynaqlarına görə, yeniçərilər Xosrov paşanın bu qərarı ilə razılaşmadılar. Onlar bildirdilər ki, İsfahana qədər gedilərsə xeyli vaxt itiriləcək, qış fəsli yaxınlaşacaq, geri qayıtmaq çətinləşdiyi kimi, ərzaq tapmaq da müşkülə çevriləcəkdir. Yeniçərilər bildirdilər ki, Səfəvi qoşunlarına artıq güclü zərbə vurulub. Ona görə də geri qayıtmaq və Bağdad qalasını almaq lazımdır. Qaynaqdakı məlumata görə Xosrov paşa da yeniçərilərin bu mövqeyi ilə razılaşmalı oldu. Ona görə də Xosrov bəy qoşunların sonrakı yürüşünün Dərcəzin və Qəzvinlə tamamlamağı məqsədəuyğun saydı. Təxminən bir həftə Həmədanda dayandıqdan sonra Xosrov paşa

Dərcəzinə doğru hərəkət əmri verdi. Osmanlı qoşunları Dərcəzinə də müqavimətsiz daxil ola bildilər. Bu yaşayış məntəqəsi də Həmədan kimi talanlara və dağıntılara məruz qaldı. Bir neçə gün də Osmanlı qoşunları burada dayandı. Nəzərdə tutulmuşdu ki, Osmanlı qoşunları Dərcəzindən Qəzvinə doğru yürüş etsin. Lakin bu planın həyata keçirilməsi üçün Osmanlı qoşunları qızılbaş qüvvələrinin güclənmiş müqaviməti ilə rastlaşmalı oldu. Ona görə də Osmanlı sərdar və əmirləri daha çox bu müqavimətin qırılması üzərində düşünmyə başladılar (74).

Osmanlı qoşunlarının Həmədan və Dərcəzinə girməsini və sonra da geri qayıtmaq məcburiyyətində qalmasını İbrahim Peçevi belə təsvir edirdi: "Zalim Əli səhrasında qalındığı üç gün boyunca hər yana axın və çapqınlar yapılarak çox gənimət alındı. Sonra Həmədana varıb şəhəri və çevrəsi talan və təxrib olundu. İranlılar, Osmanlı əsgərinin gəlməkdə olduğunu xəbər almış olduqlarından şəhər sakinlərinin çoxu yerlərini və o benzeri olmayan evlerini öz əlləri ilə yaxıb yıxmışlardı. Həmədan, yer üzündə oxşarı olmayan bir şəhər idi və hər gören, onun Şam-i Şerif'ə bənzədiyini söylərdi. Şəhər xaricində bir çox bağ və baxçalardakı görkəmli sarayları, sofaları, hovuzları və çeşitli cəmvari tərh ilə köşkləri və oturma yerleri təsvir edilməyəcək bir gözəllikdə idi. Hətta Şah baxçasını və içindəki sarayları, özləri yıxmaya cəsarət etməmişlərdi. Bənzərsiz vəzir gedincə atını oraya sürdü. Yeniçəriləri, öz qullarını və at oğlanlarını yanında götürüb hamısını yıxaraq yerlə bir etdi. Fidanlıklarını, gülistanını, kəmalə yetmiş meyvə ağaçlarını kəsdirib elə təxrib etdirdi ki, əski halını alması üçün uzun illərin keçmesi gərəkirdi. Eyni zamanda o çevrə və yörəyə axınlar düzənləndi. Şəhər içində və xaricində yeraltı depoları və anbarları tapıldı və saysız gənimətlər elə keçdi. O qədər ki, əsgərin daşıya biləcəyi həddi aşdı. Bir çox qiymətli əşya, paltar, örtülər, ev əşyası və çeşidli dəstlər və daha bir çox eşya atəşə atılıb yandırıldı. Beləcə, düşmənin könlündəki yara üstünə yara əlavə oldu. Üç gün qalındıktan sonra oradan da qalxılıp Dərgəzinə varıldı. Lakin Dərgəzin Boğazında bilindi ki, orada çoxlu silahlı əsger toplanıb. Bunlar Osmanlı

əsgərinin yoluna çıxarak savaşdılar. Meydana gələn çarpışmalarda çox sayıda iranlı öldü. İslam əsgərindən də xeyli adam şəhid oldu. Dərgəzin də Həmədan kimi seçkin bir şəhər imiş. Həmədanda İslam əsgərinin yapdığı taxribat Dərgəzində də artıqlamasıyla təkrarlandı. Bu şəhərin də yeraltı depoları və anbarlarına dəyəri yüksək bir çox eşya tapıldı. Bunların da daşınması mümkün olmayanları məhv edildi. Qısacası, bu iki bənzərsiz şəhərdə və kimi ovada, kimi dağda olan bir çox kənddə yapılan yəğma və təxriblərlə iranlılara verilən zərər və ziyan yazılıb anlatılması imkansız olacaq qədər büyükdür. Ancaq Həmədan şəhərinin qarşısındaki dağın çox sərt və varılması son dərəcə çətin bir yerində doğal mağaralar vardır. Şəhər sakinlərindən bir çox kimsələr bu mağaraların içinə girib qorunmuşlar və daşına bilən əşyalarını oralarda gizlətmişlərdi. Qazilərdən bir çox kimsələr qənimət üçün oralara getdilər. Amma çox dik qayalıq və aşılması çətin olan yerler olmaqdan başqa, bir çox yerlərində səngərlər də qurulmuş olduğundan heç nə edə bilməmişdilər. Böyük vəzir də oraya getməyi yasaqladı. Şəxsi əşya üçün qazilərin təhlikəyə atılıb yox olmalarına izin vermədi" (75).

Bir mənbə məlumatına görə, Osmanlı qoşunları Həmədanda olarkən səltənət sipəhsaları Zeynal xanın rəhbərliyi altında olan Səfəvi qoşunları bu şəhərin ətrafına gəldilər və şəhəri mühasirəyə aldılar. Bildirilir ki, Osmanlı qoşunları hər hansı bir hərəkət nişanəsi göstərmədilər. Səfəvi qoşunları isə üç dəfə mühasirəyə alınan şəhər üzərinə hücum təşkil eidlməsinə cəhd göstərdi. Məlumata görə, Səfəvi qoşunları ilə döyüşə girməyə ehtiyat edən Osmanlı qoşunları gecələrin birində xəlvət şəkildə qalanı tərk edib Dərcəzin yoluna çıxdılar və bu yoldan keçməklə tez-tələsik Bağdada doğru hərəkət etdilər. O da bildirilir ki, Osmanlı qoşunları Həmədanı tərk edəndən sonra Şah Səfi şəhər sakinlərinin geri qayıtmasına göstəriş verdi. Həmin göstəriş əsasında yaxın ərazilərdə olan şəhər sakinləri geri qayıtdılar və şəhərin bərpasına başladılar (76).

Lakin bu məlumat həqiqəti əks etdirmir. Osmanlı qoşunları Həmədan və Dərcəzində olarkən şah düşərgəsi də dayandığı Qəssə-

ban məntəqəsindən bir qədər uzaqlaşdı və Səngşir adlanan bir məntəqədə yenidən düşərgə salındı. Mənbə məlumatına görə, bu düşərgə Dərcəzinlə Qəzvin arasında yerləşirdi. Şah Səfi burada olarkən Zeynal xan, onun ətrafındakı yüksək vəzifəli əmirlər, Taxta xan şah hüzuruna gəldilər. Şah Səfi təxminən iki saat ərzində onlarla məsləhətləşmələr apardı, Osmanlı qoşunlarının hərəkətinin dayandırılması imkanlarını aradı. Bu zamanlar səltənət qoşunları şah düşərgəsindən bir fərsəx aralıda dayanırdı. Həmin məşvərətdən sonra Zeynal xan və qoşun əmirləri yenidən qoşunların düşərgəsinə qayıtdılar (77).

Bunun ardınca Şah Səfi qoşunlara Osmanlı qoşunlarının hərəkət marşrutu üzrə münasib yerlərdə mövqe tutmağı və Osmanlı qoşunlarına zərbə endirməyi tapşırdı. Eyni zamanda Şah Səfi səltənət qoşunlarına baxış keçirilməsi haqqında əmr verdi. Bu əmrə əsasən qoşunlar açıq bir meydanda dəstə-dəstə düzlməli və şah da onların döyüşə hazırlıq vəziyyətini nəzərdən keçirməli idi. Əmr verilən kimi, saray təvaçiləri, yasovulları və yasağçıları qoşunları baxış keçirilməsi üçün hazırlamağa başladılar. Təyin olunan gün Şah Səfi qoşunlara baxış keçirməyə başladı. Açıq meydanda qoşunlar tayfa bölgüsü və məntəqələr üzrə dayanmışdılar. Şah Səfi hər tayfa dəstəsinin önündən keçəndə tayfa başçısına öz səmimiyyətini nümayiş etdirir və qoşun dəstəsinə görə öz məmnunluğunu ifadə edirdi. Mənbə məlumatına görə, bu baxışda Luristan bəylərbəyi Hüseynəli bəyin rəhbərliyi altında olan böyük qoşun dəstəsi Şah Səfinin razılığı ilə qarşılandı. Çünki bu dəstənin döyüşçüləri hamılıqla yaxşı hərbi təchizata malik idilər və nizam-intizamı ilə də göz oxşayırdılar. Dəstənin döyüş səviyyəsi Şah Səfini razı saldı. Mənbələrin birində olan məlumatdan belə bir qənaətə gəlmək olur ki, Osmanı qoşunları Həmədana yaxınlaşanda Səfəvi qoşunlarında bu şəhərdən olan döyüşçülərin çoxu öz ailə üzvlərinin və yaxınlarının təxliyyəsi üçün şəhərə yollandılar. Yəni xeyli sayda döyüşçü qoşundan ayrılmalı oldu. Ona görə Səfəvi qoşunları döyüş gücünü müəyyən qədər itirməli oldular. Təxliyyə işləri başa çatandan sonra qoşun əhli geri qayıtdı (78). Şah Səfi tə-

rəfindən sıra baxışının keçirilməsi həm də bununla bağlı ola bilərdi.

Şah Səfi sonra divanbəyi Rüstəm bəyin rəhbərliyi altında dörd min nəfərlik bir qoşun dəstəsini Osmanlı qoşunlarının hərəkəti istiqamətinə göndərdi və ona tapşırıq verdi ki, yol üstündə olan körpülər, yollar dağıdılsın, su quyuları məhv edilsin və Osmanlı qoşunlarının hərəkətinə meneçilik törötmək üçün lazım olan digər işləri görsün. Bu tapşırıq Rüstəm bəy tərəfindən yerinə yetirildi. Hərəkət marşrutu üzərindəki yolların və körpülərin dağıdılması, ərzaq ehtiyatlarının məhv edilməsi barəsində xəbərlər alınması Osmanlı qoşunları rəhbərliyini mürəkkəb bir vəziyyətə saldı. Osmanlı sərdarı və qoşun əmirləri geri qayıdarkən qızılbaş qüvvələrinin ciddi müqaviməti ilə qarşılaşacaqlarını şübhə etmirdilər. Ona görə də məşvərət toplantısı keçirildi və əmirlərin fikirləri dinlənildi. Bəzi qoşun başçıları belə bir təklif irəli sürdülər ki, qoşunlar Ərdəbil istiqamətində geri çəkilsinlər və bununla Ərdəbil üçün də təhlükə yaratsınlar. Onlar güman edirdilər ki, Səfəvi əcdadlarının türbəsinin yerləşdiyi bu şəhərə təhlükə yaradılması Şah Səfini ciddi narahat edəcək və mümkündür ki, Ərdəbilə toxunulmaması şərti ilə Bağdadı Osmanlı dövlətinə güzəştə gedəcəkdir. O da təklif olunurdu ki, Ərdəbildən sonra qoşunlar Vana çıxsın, qışı orada keçirsin və Osmanlı qoşunlarına qoşulmalı olan Krım xanı öz qüvvələri ilə yetidikdən sonra yenidən Səfəvi hüdudlarına hücum davam etdirilsin. Yeniçərilər bu təkliflə də razı olmadılar. Onların rəhbəri bildirdi ki, Osmanlı sultanı tərəfindən Bağdad şəhərinin ələ keçirilməsi tapşırılıb. Ona görə qoşunlar da Bağdadın üzərinə istiqamətləndirilməlidir ki, sultanın fərmanı yerinə yetirilsin. Xosrov paşa bu təkliflə razılaşmalı oldu və qoşunların Dərcəzindən Bağdad istiqamətində hərəkətə başlaması haqqında göstəriş verdi (79).

Şah Səfi Dərcəzinlə Qəzvin arasında yerləşən düşərgəsində Şah Səfi Osmanlı qoşunlarına qarşı daha qətiyyətli hərəkətlər edilməsi barəsində qərar verdi. Onun əmrinə əsasən, fəal müdafiə taktikası seçildi. Qızılbaş döyüşçüləri kiçik dəstələrlə hər gün Osmanlı qo-

şunları üzərinə basqınlar edir və qarşı tərəfə müəyyən itkilər yetirilirdi. Qətlə yetirilən Osmanl döyüşçülərinin başları kəsilərək şah düşərgəsinə daşınırdı. Mənbə məlumatına görə, qızılbaş dəstələrinin Dərcin üzərinə basqınları o qədər artdı və səmərəli oldu ki, Xosrov paşa daha böyük itkilərə məruz qalmamaq üçün geri çəkilmək qərarına gəldi. İsgəndər bəy Münşinin yazdığından belə məlum olur ki, Şah Səfi tərəfindən Rüstəm bəy məhz Osmanlı qoşunlarının geri çəkilməy başlamasından sonra yuxarıda xatırlanan tapşırıq verildi. İsgəndər bəyə görə, Rüstəm bəyin dəstəsi üç min nəfərdən ibarət idi və Şah Səfi ona belə bir əmr də vermişdi ki, dəstəsi ilə hər tərəfdən Osmanlı qoşunları üzərinə basqınlar təşkil etsin, bu qoşunlara rahat irəliləmək imkanı verməsin. Eyni zamanda Zeynal xana da əmr verildi ki, o da səltənət qoşunları ilə birlikdə hərəkətə başlasın və Osmanlı qoşunlarını təqib etsin. Mənbə məlumatlarından aydın olur ki, Rüstəm bəy ona verilmiş tapşırığı yerinə yetirməklə bərabər, Osmanlı qoşunlarının ön dəstələri ilə döyüşə də girdi. Müşahidələrdən sonra bəlli oldu ki, Osmanlı qoşunları Mahidəşt yolu ilə Bağdada tərəf hərəkət etməkdədir. Dərcəzinlə Mahidəşt arasında Rüstəm bəy sağdan, soldan hücum təşkil etməklə Osmanlı dəstələrinə xeyli itki yetirə bildi. Öldürülmüş Osmanlı döyüşçülərinin başları şah düşərgəsinə göndərildi və eyni zamanda baş verən döyüşlə bağlı şaha da xəbər çatdırıldı (80).

Osmanlı qoşunları geri çəkilməyə başlayanda Luristan hakimi Hüseyn xan şah düşərgəsində idi. Bəlli olanda ki, Osmanlı qoşunları Luristan yaxınlığından adlamaqla Bağdada doğru irəliləmək niyyətindədir, onda Hüseyn xan Şah Səfudən icazə alaraq öz vilayətinə döndü. Çünki Osmanlı qoşunları Luristan vilayətinə daxil olacağı halda orada onların qarşısına çıxacaq bir qüvvə yox idi. Hüseyn xan Hersin adlanan məntəqəyə yetişəndə Osmanlı qoşunlarında onun dəstəsi haqqında məlumat alındı. Xosrov paşa qərar verdi ki, bu dəstə məhv edilsin və bununla qızılbaş qüvvələrinə əlavə bir zərbə vurulsun. Osmanlı qoşunları Dərcəzindən hərəkətə başladığı gündən qızılbaş dəstələrinin hücumları altında idi. Görünür, Xosrov paşa Hüseyn xanın dəstəsinə zərbə vurmaqla həm

də qızılbaş qüvvələrinin fəallığını zəiflətmək istəyirdi. Xosrov paşa təxminən beş minlik bir dəstəni Hüseyn xanın dəstəsi üzərinə göndərdi. Osmanlı qoşunlarının bütün hərəkətlərini müşahidə altında saxlayan Rüstəm bəy Xosrov paşanın bu qərarından xəbər tutunca Hüseyn xanın köməyinə yollandı. Onların birləşmiş dəstəsi yenidən qruplaşdırıldı və Osmanlı dəstəsiniun hücumunu qarşılamaq üçün lazımi mövqelər seçildi. Səhər açılınca tərəflər arasında gərgin bir döyüş baş verdi. Həmin döyüşün hətta axşama qədər davam etdiyi bildirilir. Qızılbaş qüvvləri bu döyüşdə fədakarlıq nümayiş etdirərək Osmanlı dəstəsinə üstün gəldilər. İsgəndər bəy Münşinin məlumatına görə, bu döyüşdə beş yüz Osmanlı döyüşçüsü qətlə yetirildi. Osmanlı döyüşçüləri xeyli sayda at da itirdilər. Dəstənin bütünlüklə məhv olmaq təhlükəsi meydana gələndə Xosrov paşanın yanına adam göndərildi və ondan kömək istənildi. Xosrov paşa da əlav olaraq beş min nəfərlik bir dəstəni döyüş meydanına göndərdi. Rüstəm bəylə Hüseyn xanın birləşmiş dəstəsi Osmanlı qoşun dəstəsinə əlavə köməyin gəlməsindən heç də çəkinmədilər və axşama qədər döyüşü davam etdirdilər. Axşamın düşməsi ilə döyüş dayandırıldı və dəstələr geri çəkildilər. Hüseyn xan öz dəstəsi ilə Luristana, Rüstəm bəy isə şah düşərgəsinə yollandılar (81).

Xosrov paşa tərəfindən Rüstəm bəylə Hüseyn xana qarşı göndərilən əlavə dəstəyə Qaraman bəylərbəyi rəhbərlik edirdi. Onun da qatılmış olduöu döyüş 1630-cu il iyul ayının 15-də baş verdi. Osmanlı mənbələrindən birindəki məlumata görə, bu döyüşdə Osmanlı qüvvələrinin sol cinahında Rumeli bəylərbəyi Dəli Yusif Paşa ilə Adana bəylərbəyi Suxtə Sevindik paşa, sağ cinahda isə Şah bəylərbəyi Kiçik Əhməd paşa ilə Anadolu bəylərbəyi Zor paşa mövqe tutmuşdular. Onların qarşısına Luristanın ələ keçirilməsi vəzifəsi qoyulmuşdu. Amma Rumeli bəylərbəyi Yusif paşanın öz dəstəsi ilə qızılbaşların pusqusuna düşməsi döyüşün uğurla başa çatdırılmasını mümkünsüz etmişdi. Yalnız Qaraman bəylərbəyinin altı minlik dəstəsinin köməyə gəlməsindən sonra qızılbaş qüvvələri geri çəkilmişdilər (82).

Bu döyüşdə qızılbaşlar da itki ilə üzləşməi oldular. Əsir götürülmüş qızılbaş döyüşçüləri arasında Babaxan bəy adlı bir yüzbaşı da var idi. Babaxan bəy xoş əxlaqlı bir insan imiş və aralarındakı ünsiyyətdən sonra Xosrov paşa onun qətl edilməsinə razı olmadı. Xosrov paşa bir neçə gün onu yanında saxladı və sonra da öz elçisi kimi onu Şah Səfinin yanına göndərdi. Babaxan bəy Osmanlı sərdarının yazdığı məkdubu Şah Səfiyə çatdırmalı idi. Bu məktubda Xosrov paşa həm Şah Abbasın dünyasını dəyişməsindən kədərləndiyini bildirərək baş sağlığı verir, həm də Şah Səfini taxt-taca çıxması ilə bağlı təbrik edirdi. Xosrov paşa müharibə tərəfdarı olmadığını da məktubda bəyan edirdi. Onun yazdığına görə, Osmanlı sultanı tərəfindən Səfəvi dövləti ilə sülh əldə edilməsinə vəkil təyin edilmişdi və Mərivan yaxınlığında baş verən döyüşün günahkarı da səltənət sipəhsaları Zeynal xan idi. Guya ki, Zeynal xan hücum etməsəydi tərəflər arasında döyüş də baş verməzdi. Gələcək günlərdə nəyin baş verəcəyi ilə bağlı Xosrov paşa Allaha pənah aparırdı. Şah Səfi bu məktubu Xosrov paşanın hiyləsi kimi qəbul etdi və həmin məktubun məzmununa oxşar cavab yazaraq elə Babaxan bəylə Xosrov paşaya göndərdi. İsgəndər bəy Münşinin də fikri belə idi ki, Xosrov paşa bu məktubla Şah Səfini sakitləşdirmək və bununla Bağdada doğru rahat şəkildə irəliləmək istəyirdi. Şah Səfi isə bu hiyləyə aldanmadı(83).

Şah Səfi Mərivan yaxınlığında baş verən döyüşün uğursuzluğuna günahkar kimi Zeynal xanı bilirdi. Bu döyüşün baş verməsindən bir müddət ötməsinə baxmayaraq Şah Səfi onun nəticələrini unuda bilmirdi və ona görə də Zeynal xanı cəzalandırmaq istəyi onu tərk etmirdi. Mənbə məlumatlarına görə də, Zeynal xan bu uğursuzluğa məsuliyyət daşıyırdı. Mənbələrdə o, xeyli qürurlu, iddialı, özündən deyən, hərəkətlərini ölçüb-biçməyən bir əmir kimi xarakterizə edilirdi. Mərivan döyüşü də bu iddalılığın ağır nəticəsi kimi qəbul olunurdu. Zeynal xan bu döyüşə girmək üçün bir tərəfdən Şah Səfinin razılığını almamışdı. Digər tərəfdən də Zeynal xan özü qüruru üzündən qoşunlarda olan təcrübəli əmirlərlə bu döyüşün aparılması ilə bağlı məsləhətləşmələr aparmamışdı. Bu

da Şah Səfini çox qəzəbləndirmişdi. Zeynal xanın qətli qərarı verildikdən sonra o, bir gün məşvərət üçün şah düşərgəsinə dəvət edildi. Şah çadırına daxil olanda onu xacəsaraylar tutdular və mövcud olan məlumata görə yaşı xacəsaraylardan biri olan Bəhram adlı bir qulam onu qətlə yetirdi. Sonra da onun başı bədənindən ayrıldı və nizə sancılaraq düşərgədə, qoşun əhli qarşısında gəzdirildi ki, hamıya dərs olsun, şah fərmanlarının icrasında və qoşun qarşısında məsuliyətsizlik göstərmək olmaz. Zeynal xan həm də eşikağasıbaşı vəzifəsini icra edirdi. Onun qətlindən sonra bu vəzifəyə Uğurlu xan Şamlı təyin edildi. Səltənətin sipəhsaları vəzifəsi isə Rüstəm bəyə həvalə olundu (84).

Osmanlı qoşunlarının Bağdaddan uzalaşdırılmasına nail olmaq üçün Şah Səfi həmin vaxt Xorasanda olan tüfəngçiağası Zaman bəyə xəbər göndərdi ki, bütün tüfəngçilərini də götürüb şah düşərgəsinə gəlsin. Elə həmin günlərdə Bağdad hakimi Səfiqulu xandan Osmanlı dəstəsinə zərbə vurulması barəsində xəbər gəldi. Belə ki, Hillədə olan Osmanlı dəstəsi oradakı ərəblərlə birlikdə ətraf məntəqələrdən ərzaq toplanmaq istəyirdilər. Səfiqulu xan bunu eşidib öz dəstəsini onların üzərinə göndərdi və baş verən qarşılaşma zamanı Osmanlı və ərəb döyüşçülərinə ciddi zərbə vuruldu. Eyni zamanda onların yerli əhalidən toplamış olduqları bir min yeddi yüz xarvar taxıl və digər ərzaq əşyaları ələ keçirildi. Şah Səfi bu xəbəri böyük sevinclə qarşıladı və hətta belə bir hadisəsəy görə məclis də təşkil etdi. Şah Səfi qoşun əmirlərindən olan bir nəfəri bir min nəfər tüfəngçi ilə Bağdad qalasına göndərdi ki, orada olan Səfəvi qüvvələrinə Bağdadın müdafiə edilməsində köməklik etsin (85).

Şah Səfi Bağdada doğru hərəkət etmək üzrə olanda bəzi hadisələr də baş verdi ki, onlara da diqqət ayırmaq lazım gəldi. Belə ki, Gürcüstan hakimi Simayun xan dünyasını dəyişdi. Bu hadisə Gürcüstanda yenidən aranın qarışmasına yol açdı. Lakin Şah Səfi Gürcüstan məsələsi ilə məşğul olmağı sonrakı bir vaxta saxladı. Həmin günlərdə rus çarının və özbək İsfəndiyar xanın elçilərinin də şah düşərgəsinə gəlməsi haqqında məlumat vardır. Elçilər Şah

Səfiyə gətirdikləri qiymətli hədiyyələri təqdim etdilər və bir müddətdən sonra geri qayıtdılar (86). Bu elçilərin hasnı məqsədlə Şah Səfinin hüzuruna gəlməsi haqqında mənbələrdə yetərli məlumat yoxdur. Çox güman ki, onlar da Şah Səfinin taxta çıxması ilə bağlı öz hakimlərinin təbriklərini gətirmişdilər.

Osmanlı qoşunları isə Bağdada doğru hərəkətlərini davam etdirərək 1630-cu il avqust ayının ortalarında Bağdad yaxınlıındakı Dərtəng boğazı adlanan yerə çatdılar. Xosrov paşanın məlumatı var idi ki, Şah Abbas qoşunları Bağdad şəhərini ələ keçirəndə şah özü bu məntəqədə ərar tutmuşdu. Görünür, bu məntəqə Bağdad üzərinə hücumun təşkil edilməsi üçün strateji əhəmiyyətli bir məkan idi. Ona görə Xosrov paşa bu məntəqənin mühafizəsinə xüsusi bir dəstə ayırdı və sonra qoşunla hərəkətini davam etdirdi. Xosrov paşa bir qədər də irəliləyərək Əbu Hənifənin məzarı ilə Dəclə çayı arasında Başdolab adlı məntəqədə düşərgə saldı. Burada dayanmaqda Xosrov paşanın məqsədi Mosulda olan topların gətirilməsini gözləmək idi. Həmin toplar Dəclə çayında hərəkət edən gəmilər vasitəsilə gətirilməli idi. Lakin çayda suyun azlığı üzündən gəmilərin hərəkəti də çətinləşmişdi. Ona görə də Xosrov paşa təxminən iki-üç həftə Dəclə çayında suyun səviyyəsinin qalxmasını və topların gətirilməsini gözləməli oldu. İsgəndər bəy Münşinin yazdığına görə, həmin toplar mahir avropalı ustalar tərəfindən işlədilirdi və ona görə də Xosrov paşa bu toplara böyük ümid bağlayırdı (87).

Xosrov paşa böyük sayda top gətirmişdi və həmin toplar yetişən kimi Bağdad qalasının mühasirəsinə başlandı. Bağdd qalasının şimal və şərq hissəsinin mühasirəsini Xosrov paşa öz üzərinə götürdü. Qalanın cənub hissəsi isə Osmanlının məşhur bəylərbəylərindən biri olan Zor paşaya həvalə olundu. Qalanın digər hissələri də mühasirəyə alındı. Bağdad qalasının müdafiə imkanlarının böyük oldğu üçün Xosrov paşa qalanın fəthi üçün topların fəaliyyətinə xüsusi əhəmiyyət verirdi. Ona görə toplar üçün münasib sayılacaq mövqelər seçildi. Osmanlı qoşunları səngərlərə yerləşdirildi, döyüşə hazır vəziyyətə gətirildi. 1630-cu il oktyabr ayının

əvəllərində Bağdadın mühasirəsi başa çatdı. Bir məlumata görə, Xosrov paşa qala üzərinə hücuma başlamazdan əvvəl Bağdad hakimi Səfiqulu xana məktub göndərdi və ondan tələb etdi ki, Bağdaddan əlavə bütün İraq ərəbini təhvil versin. Səfiqulu xan isə bu tələbə heç bir cavab vermədi. Belə olanda Osmanlı qoşunlarının Bağdad qalası üzərinə hücumu başladı. İlkin olaraq əsas diqqət qala divarları altına lağım atılmasına və qala divarlarının topa tutulmasına yönəldildi.Osmanlı mənbələrinə görə, gündə qala divarları üzərinə 500 top mərmisi, Səfəvi mənbələrinə görə isə gündə bir min ədəd top mərmisi atıldığı bildirilirdi. Xosrov paşa bütün imkanlarını səfərbər edərək qalanın alınması məsələsini tezliklə həll etmək istəyirdi. Top atəşlərinin davam etməsi ilə bərabər, qoşun əhli də səngərlər qazmaqla qala divarlarına yaxınlaşmağa çalışırdılar. Onların bütün hücumları qala müdafiəçiləri tərəfindən fədakarlıqla alınırdı. Bağdad qalası daxilində mübariz bir əhvalruhiyyə formalaşdırılmışdı və şəhər əhli də qoşun dəstəsi ilə birlikdə qalanın müdafiəsinə qalxmışdı. Osmanlı toplarının qala divarlarında yaratdığı uçuqlar dərhal qala müdafiıçiləri tərəfindən bərpa olunurdu və böyük bir fədakarlıqla Osmanlı qoşunlarının təşəbbüsü ələ almaq cəhdlərinə imkan verilmirdi. Hətta qala müdafiəçiləri fürsət əldə edən kimi kiçik dəstələrlə qala xaricinə çıxır və Osmanlı qüvvələrinin üzərinə hücumlar edirdilər. Bu sürətli hücumların qarşısının alınması Xosrov paşa üçün də bir çətinliyə çevrilmişdi. Xosrov paşanın gümanınca, Osmanlı döyüşçüləri qala divarlarından uzaqda idilər və onlar vaxtında qala müdafiəçilərinin sürətli hücumunun qarşısının alınmasına vaxtında yetişə bilmirdilər. Ona görə Xosrov paşa əmr etdi ki, Osmanlı döyüşçüləri qala divarlarına daha yaxın bir məsafəyə gətirilsinlər və divarlar boyu qazılmış səngərlərdə yerləşdirilsinlər. Amma bu da bir nəticə vermədi. Çünki qala divarları üzərində yerləşdirilmiş toplarla yaxına gətirilmiş Osmanlı döyüşçülərini asanlıqla vurmaq mümkün idi. Qərara alındı ki, osmanlı döyüşçülərinin yerləşdirkləri çadırın önündə torpaq təpələr qurulsun və bununla qala müdafiəçilərinin top atəşlərinin verdiyi itkilərin qarşısı alınsın. Lakin bu da gözlə-

nilən nəticəni vermədi. Çünki qala divarları üzərində Osmanlı döyüşçülərinin bütün hərəkətlərini izləmək mümkün idi. Hətta gecələr də qala divarları üzərində yandırılan şamlar vasitəsilə ətrafda nə baş verdiyi asanlıqla müşahidə olunurdu. Qala müdafiəçilərinin işi elə qurulmuşdu ki, onlar Osamnlı döyüşçülərinin bütün hərəkətlərinə uyğun cavab verirdilər. Elə bunun üşün idi ki, Osmanlı ustaları on yeddi dəfə qala divarları altında lağım atmağa çalışdılar. Hər dəfə də onların bu cəhdinin qarşısı qala müdafiəçiləri tərəfindən alındı (88).

Osmanlı qoşunları Həmədan və Dərcəzindən uzaqlaşdıqdan sonra Şah Səfi də səltənət qoşunları ilə 1630-cu il oktyabr ayının əvvəllərində Bağdada doğru hərəkətə başladı. Qoşunların hərəkətə başlamasından sonra Bağdad hakimi Səfiqulu xanın çaparı şah hüzuruna yetişdi və Bağdadın mühasirəyə alınması, qala ətrafında Osmanlı toplarının davamlı şəkildə işləməsi haqqında şaha məlumat çatdırdı. Səfiqulu xan tərəfindən o da çatdırıldı ki, qalanın müdafiəsi üçün bütün qüvvələr səfərbər edilmişdir və səltənət qoşunlarının tezliklə yetişməsi ümidlə gözlənilir. Mövcud olan məlumata görə, hər gün Bağdad qalasından çaparlar şah hüzuruna yetişir və qalanın müdafiəsinin apaırlması ilə bağlı son xəbərləri ona çatdırırdılar. Şah Səfi də qala müdafiəçilərinə daha səmərəli köməyin çatdırılması üçün ətrafında olan qulam və tüfəngçi dəstələrini də Rüstəm bəyin rəhbərliyi altında olan qoşun dəstəsinə göndərdi ki, həmin dəstə daha da güclənsin. Rüstəm bəy səltənət sipəhsaları kimi rəhbərliyi altında olna qoşun dəstəsi ilə Bağdada doğru irəliləməkdə idi (89).

Həmin günlərdə Ərdəlan hakimi olmuş Xan Əhməd xan tərəfindən Urman qalasını geri alması haqqında da Şah Səfiyə məlumat çatdırdılar. Xan Əhməd xan Osmanlı qoşunlarının Bağdad ətrafında cəmləşməsindən və Xosrov paşanın kənara qoşun dəstəsi göndərmək imkanının olmamasından istifadə edərək itirilmiş olan qalaların geri alınmasına başladı. Xan Əhməd xan bəlli olduğu kimi, Şah Səfi tərəfindən öz vəzifəsindən alınmış və İsfahana gətirilmişdi. Amma Osmanlı qoşunlarının hücum xəbərini alanda o,

yenidən geri qayıtdı və itirilmiş qalaları geri qaytarmaqla hakimliyə layiq olduğunu bir daha nümayiş etdirmək istədi.

O, əvvəlcə vilayətə hakim təyin edilmiş qardaşı Mömün xanı vəzifəsindən kənarlaşdırdı və onu həbs edərək İsfahana göndərdi. Sonra isə Xan Əhməd xan Mərivan və Pələngan qalalarını da Osmanlı qüvvələrindən təmizlədi. Bu yerlərə hakim təyin edilmiş Mustafa paşa Arnavud oğlu Xan Əhməd xana müqavimət göstərmək gücündə olmadığı üçün Şəhrizora çəkilmək məcburiyyətində qaldı. Buradan da Xosrov paşaya xəbər göndərdi ki, Xan Əhməd xan tərəfindən otuz minlik bir qoşjn dəstəsi onun üzərinə göndərilir.Xosrov paşa isə əsas diqqəti və gücü Bağdadın alınmasına yönəltmişdi. Ona görə də o, qüvvələrin parçalanmasını məqsədəuyğun bilmədi (90). Bütün bu xəbərlər Şah Səfi tərəfindən məmnunluqla qarşılandı və bu uğur xəbərləri Osmanlı qoşunları üzərində əldə ediləcəyi ümid edilən qələbənin başlanıcı kimi qəbul edildi.

İsgəndər bəy Münşi Bağdad müdafiəçilərinin qəhrəmanlığını və şücaətini xüsusi olaraq vəsf edirdi. Onun yazdığına görə, Osmanlı qüvvələrinin davamlı hücumlarının qarşısında onlar mərdanəlik göstərir və qarşı tərəfin bütün cəhdlərinin qarşısını alırdılar. Osmanlı qaynaqlarına görə, top atəşlərindən sonra Bağdad qalasının Sultan Süleyman adlanan bürcü yarısınadək uçurulmuşdu. Güman ediliri ki, bu bürcü adlamaqla qala daxilinə yol tapmaq mümkün olacaqdır. Lakin yenə qala müdafiıçilərinin fədakarlığı nəticəsində Osmanlı qüvvələri həmin bürcdən qala daxilinə yol tapa bilmədilər. Bununla belə, Xosrov paşa 1630-cu il oktyabr ayının 10-da qala ətrafında yaranmış vəziyyəti əsas hücum üçün münasib bir fürsət kimi qiymətləndirdi və bütün qoşunlara qala üzərinə hücum əmri verdi. Bu dəfə də Osmanlı qoşunları qala müdafiəçilərinin sərt müqaviməti ilə rastlaşdılar. Onların bütün cəhdlərinin qarşısı alındı və qala divarlarını aşmaq mümkün olmadı. Yalnız bir istiqamətdə Osmanlı döyüşçüləri qala divarlarını aşaraq Narın qalaya qədər irəlilədilər, onun ətrafında öz bayraqlarını dalğalandırdılar. Bununla belə, Narın qalanı almaq mümkün olmadı.

Qala daxilinə yol tapmış dörd-beş yüz Osmanlı döyüşçüsü qala müdafiəçiləri tərəfindən mühasirəyə alınaraq zərərsizləşdirildilər. Mənbə məlumatlarına görə, həmin gün Osmanlı qoşunları üç dəfə qala divarları üzərinə güclü hücuma keçdilər. Hər dəfə də onlar qala müdafiəçilərinin güclü müqaviməti ilə qarşılaşdılar. Osmanlı qoşunları nəinki qala divarları ətrafında yorulub əldən düşdülər. Eyni zamanda onlar çoxlu itkilər də verdilər. Dəclə çayını çıxarılmış gəmilərdən qala divarları üzərinə hücum təşkil etmək cəhdi də bir nəticə verməsi. Çünki çayın suyunun az olması üzündən gəmilər yerə oturdular və heç sahilə yaxınlaşa bilmədilər. Gəmilərin içərisində olan Osmanlı döyüşçüləri isə qala müdafiəçilərinin açıq hədəfinə çevrildilər. Qala müdafiəçilər oxlarla və tüfəng atəşləri ilə gəmidə olan döyüşçülərə də böyük itki yetirdilər. Döyüşün gedişində Osmanlı qoşunlarının bir neçə təcrübəli sərdarı da həyatını itirməli oldu (91).

Səfəvi mənbələrinin birinin verdiyi məlumata görə, Osmanlı qoşunları Bağdad qalası üzərinə Hənifə darvazası, Qaraqapı, Narın qala və səkkiz gəmidəm istifadə etməklə Dəclə çayındam hücuma keçdilər. Həm qalanın xaricində, həm də daxilində güclü bir döyüş baş verdi. Bu mənbədə Narın qala üzərinə hücum edən Osmanlı dəstəsinin şücaəti xüsusi olaraq qeyd edilirdi. Bununla belə, həmin hücumu bütün qala boyunca davam etdirmək mümkün olmadı. Mənbə məlumatına görə, Osmanlı qoşunları bu hücum zamanı altı-yeddi min itki verərək hücumu dayandırmaq məcburiyyətində qaldılar (92).

Bağdad ətrafında o qədər gərgin və ağır bir döyüş getdi ki, Osmanlı döyüşçülərinin artıq hərəkət etmək gücü qalmamışdı. Aydın idi ki, belə bir vəziyyətdə yenidən irəli atılmaq, Xosrov paşanın iddialarını həyata keçirmək üçün risq etmək daha ağır nəticələrə gətirib çıxara bilərdi. Ona görə də Xosrov paşa qala ətrafında geri çəkilmək əmri verməli oldu. 1630-cu il noyabr ayının ortalarında Xosrov paşa öz qoşunu ilə Bağdad qalasından geri çəkildi (93).

İbrahim Peçevi Osmanlı qoşunlarının Bağdad üzərinə hücumunu və Xosrov paşanın geri çəkilmək əmri verməsini çox müxtəsər

şəkildə təsvir etmişdir. O yazırdı: "1040-cı il səfər ayının iyirmi yeddinci günü (5.10.1630) Bağdad qalası önündə səngərlərə girildi. Qala tam qırx gün boyunca hücuma məruz qaldı, gecə və gündüz zərbə endirildi və bir dəfə də geniş hazırlıqdan sonra böyük bir döyüş baş verdi. Fəqət fəth vaxtı hələ gəlməmişdi və zəfər də qazanılmadı. Üstəlik əsgər də bu qədər uzun bir səfərin məşəqqətlərindən yorulmuş və ona bir ağırlıq gəlmişdi. Beləcə, hücumu dayandırıb geri çəkilmək qərra alındı. Fəqət bu dəfə də topları daşıyacaq olan camışlar yemək olmaması üzündən tələg olmuşlardı. Sağ qalanlar da cılız və gücsüz idilər. Sonda bölüklərdən hər topa yetəcək qədər adam ayrıldı. Onlar öz atlarını qoşaraq hamısını Mosula apardılar" (94).

Göründüyü kimi, İbrahim Peçevi də Bağdadın mühasirəsinin uğursuzluqla tamamlanmasını Osmanlı qüvvələrinin kifayət qədər yorğun olmaları ilə əlaqələndirirdi. Əslində, bu yorğunluq səfər yorğunluğu deyil, döyüşün gərginliyinin yaratdığı yorğunluq idi. İ.Peçevi ona da işarə edir ki, bu dəfə də topları daşıyacaq camışlar acından tələf olmuşdular. Yəni bu hadisə təkrarlandı. Belə ki, Osmanlı qoşunları hələ Msula gələrkən top daşıyan camışlara lazımi qayğı göstərilməmiş və onların çoxu tələf olmuşdu. Yük heyvanlarına qarşı belə diqqətsizlik Xorsov paşanın bütün səfər boyu yol verdiyi çatışmazlıqlardan biri idi.

Uğursuzluğa düçar olan Osmanlı qoşunları içərisində Səfəvi dövlətinə rəğbətlə yanaşanlar da var idi. Xosrov paşa qala ətrafından geri çəkilmək əmri verəndə həmin adamlar qala daxilində gəldilər və qızılbaş dəstələrinə qoşuldular. Onlar da Osmanlı qoşunları üçün döyüşün son dərəcə çətin və gərgin keçdiyini bildirdilər və təxminən on min nəfərə qədər Osmanlı döyüşçüsünün tələf olduğunu bildirdilər. Döyüşdə fünyasını dəyişənlər arasında Zor paşa kimi tanınmış sərdar da var idi (95).

Amma Zor paşa bu döyüşdə həyatını itirmiş yeganə tanınmış deyildi. Ondan başqa Kiçik Abaza və Gənc Osman kimi təcrübəli qoşun başçıları da var idi. Xüsusilə, Zor paşanın həyatını itirməsi Xosrov paşanı çox kədərləndirdi. Bu kədərin qisasını almaq üçün

o, yanında əsir kimi saxlanılmış və elçi kimi Şah Səfinin yanlna göndərilmiş Babaxan bəyi qətlə yetirdi. Xosrov paşaya daha böyük kədəri isə Bağdad qalasının ələ keçirilməməsi gətirdi. O, belə bir uğursuzluqla qarşılaşacağını güman etmirdi. Xüsusən, Mərivan qalası ətrafında əldə edilmiş qələbə, Həmədan kimi böyük bir şəhərin ələ keçirilməsi və talan edilməsi Xosrov paşada Bağdad uğuruna da dərin bir əminlik yaratmışdı. İlk baxışdan buna bir əsas da var idi. Çünki Bağdad daxilində çox da böyük olmayan bir qızılbaş dəstəsi var idi və Osmanlı qoşunları da Rüstəm bəyin rəhbərliyi altında olan səltənət qoşunlarına qarşı deyil, Bağdadakı mühafizə dəstəsinə qarşı mübarizə aparmalı idilər. Lakin Bağdadın qala müdafiəçiləri Şah Səfidən kömək almaqla elə bir dirəniş və şücaət göstərdilər ki, Xosrov paşa aciz bir duruma düşdü. Nəticədə, Osmanlı sultanı tərəfindən ona verilmiş olan tapşırıq icra edilməmiş qaldı. Bu vəziyyətin xəcalət yükü o dərəcədə böyük idi ki, Xosrov paşa öz uğursuzluğu haqqında Osmanlı sarayına məlumat göndərmədi. Osmanlı sultanı IV Murad isə uzun müddət Bağdad məsələsindən xəbər gəlmədiyi üçün Xosrov paşaya məktub göndərdi və ondan öz fəaliyyəti haqqında məlumat tələb etdi (96).

Bir məlumata görə, Bağdad ətrafından geri çəkilməzdən əvvəl Xosrov paşa qoşun rəhbərlərinin, əmirlərin, sərdarların məşvərət toplantısını keçirdi və mühasirənin davam etdirilib-etdirilməməsi ilə bağlı müzakirə aparıldı. Bu toplantıda bildirildi ki, qoşunların iaşəsi çətinləşib, güllə və mərmi tükənib, döyüşçülər əldən düşüb. Bir sözlə mühasirənin davam etdirilməsinin mümkünsüzlüyü ortaya qoyuldu. Xosrov paşa da bundan sonra mühasirənin dayandırılması və qoşunların Mosula çəkilməsi haqqında qərar verdi (97).

Bağdaddan geri çəkilməli olan Xosrov paşa bu şərədən şərqə tərəf olan Hilləni nəzarət altına almağa qərar verdi. Bir məlumata görə, ərəb şeyləri Xosrov paşaya yaxınlaşaraq Hillənin Osmanlı qüvvələrinin nəzarəti altına alınmasını təklif etdilər. Xosrov paşa Bağdad ətrafından geri çəkilsə də, növbəti ildə havaların isinməsi ilə yenidən bu şəhər üzərinəı hücum etməyi planlaşdırırdı. Bağdad şəhərinə hücumun uğurla başa çatdırılması üçün isə Hillənin

Osmanlı nəzarəti altında olması hərbi əhəmiyyət kəsb edirdi. Bu məntəqə həm Səfəvi qüvvələrinin önlənməsi baxımından, həm də Osmanlı qoşunlarının ərzaq təminatı baxımından da əhəmiyyətə malik idi. Ona görə də Xosrov paşa özü Mosula çəkilsə də Osmanlı qoşunlarının bir dəstəsini Hilləyə göndərdi (98).

Bir məlumata görə isə, Hillənin nəzarət altına alınması elə Xosrov paşanın öz təşəbbüsü idi. Bağdad uğursuzluğundan sonra Xosrov paşa Osmanlı sarayına hesabat verəndə ən azı Hillənin Osmanlı nəzarəti altın alındığını deməklə özünə bir bəraət də tapmağa çalışmalı idi. Bununla Xosrov paşa, Osmanlı sultanının qəzəbindən də öz canını qurtarmaq istəyirdi. O, Diyarbəkr bəylərbəyi Xəlil paşanın və digər sancaq bəylərinin rəhbərliyi altında on min nəfərik bir qüvvəni Hilləyə göndərdi. Xosrov paşa onu da söz verdi ki, Hillə üzərinə Səfəvi qoşunlarının təhlükəsi yaranarsa, dərhal otuz minlik bir qüvvə ilə onun köməyinə gələcəkdir. Elə də güclü müdafiə imkanlarına malik olmayan Hillə qalasının müdafiəsinin təşkili üçün Xosrov paya orada bir miqdar silah və təchizat da saxladı. 1630-cu il noyabr ayının 22-də bölgədən ayrılan Xosrov paşa həmin il dekabr ayının ortalarında Mosula yetişdi. O, Mosul qalasının yenidən qurulması haqqında göstəriş verdi. Mosul şəhəri Bağdad üzərinə hücum və bölgənin nəzarət altına alınması üçün Osmanlı qoşunlarının fəaliyyət mərkəzi ola bilərdi. Ona görə də Xosrov paşa bu şəhərin müdafiəsini möhkəmləndirdi və qalanın təkmilləşdirilməsi başa çatandan sonra qoşunların ağır silahları qala daxilində toplandı (99).

Osmanlı qoşunlarının Bağdad qalasından geri çəkilməsi hər şeydən əvvəl qala müdafiəçilərinin fədakarlığı, onlar tərəfindən qalanın müdafiəsinin düzgün təşkili, qaladaxili imkanların səfərbər edilməs ilə bağlı idilər. Əldə edilən uğur qala müdafiəçilərini çox sevindirdi. Bununla bağlı qala daxilindəkilər dua mərasimləri təşkil etməklə bərabər, Şah Səfiyə də əldə edilmiş nəticə haqqında məlumat göndərdilər. Bşçılarınaağdad hakimi Səfiqulu xan baş verənlər haqqında məktub yazıb onu Şah Səfiyə göndərdi. Bir neçə gündən sonra Səfiqulu xanın çaparı şah düşərgəsinə yetişdi

və Bağdad şəhərinin müdafiə olunduğunu onun hüzuruna çatdırdı. Şah Səfi və şah düşərgəsində olanlar bu xəbərə görə çox sevindilər və elə həmin gün əldə edilmiç böyük uğur münasibətilə şah düşərgəsində şənlik təşkil edildi. Şah tərəfindən saray mənsublarına, qoşun başçılarına qiymətli xələtlər paylandı. Elə həmin mərasimdə qərara alındı ki, şah düşərgəsi də hərəkətə başlasın və Bağdad istiqamətində səfərə çıxsın. Özü Bağdad istiqamətində hərəkətə başlayan Şah Səfi Xorasan tüfəngçilərinin rəhbəri Zaman bəyə tapşırıq verdi ki, öz dəstəsi ilə Şəhrizor istiqamətində irəliləsin və Gülənbər qalasını yenidən Səfəvi qoşunlarının nəzarəti altına gətirsin. Həmin qalanın mühafizəsinə Arnavutoğlu Mustafa paşa təyin edilmişdi. Onun ixtiyarına böyük bir qoşun dəstəsi, yetərli sayda silah-sursat və ərzaq əşyaları verilmişdi. Bu qalanın da nəzarət altına alınması Xosrov paşanın Bağdad yürüşünün böyük planına daxil idi. Lakin Osmanlı qoşunlarının Bağdad ətrafından geri çəkilməsi Şəhrizor qalalarında olan Osmanlı qüvvələrinin də vəziyyətini xeyli çətinləşdirdi. Mustafa paşa öz dəstəsi ilə Osmanlı qüvvələrindən ayrı düşdü və çətin müdafiənin aparılması üçün köməksiz qaldı. Ona görə də qızılbaş dəstəsinin hücum xəbərini alanda Mustafa paşa müqavimət göstərməyi mənasız saydı və yanındakı topları da hərəkətə gətirərək Şəhrizordan uzaqlaşmağa başladı. Çinar gədiyi adlanan bir məntəqədə qızılbaş qüvvələri Mustafa paşanındəstəsini haqladı və tərəflər arasında qanlı bir döyüş baş verdi. Osmanlı qaynarlarına görə, Mustafa paşanın dəstəsi fədakarlıqla döyüşsə də, böyük üstünlüyə malik olan qızılbaş dəstəsini qarşısında duruş gətirə bilmədi. Mustafa paşanın özünün qətlə yetirilməsi isə Osmanlı döyüşçülərinin qaçıb dağılmasına səbəb oldu. Gülənbər qalasını müdafiəsiz qızılbaş qüvvələrinə təhvil verilməsinə görə Xosrov paşa xeyli qəzəbləndi və mənbə məlumatına görə, bununla bağlı Mustafa paşanın tabeliyində olan dörd bəylərbəyini qətlə yetirdi (100).

Səfəvi mənbə məlumatına görə də, Mustafa paşa qızılbaş dəstəsinin yaxınlaşması xəbərin eşidincə qalanı tərk edib uzaqlaşmağa çalışdı. Lakin Zaman bəyin dəstəsi onu təqib etdi və tərəflər

arasında qanlı bir döyüş baş verdi. Mənbə məlumatına görə, Mustafa paşanın dəstəsindən 1500 nəfər qətlə yetirildi, 31 ədəd top qənimət kimi götürüldü. Mustafa paşa özü isə yaralandı. Yəni Zaman bəy Şah Səfi tərəfindən ona verilmiş olan tapşırığı bütünlüklə yerinə yetirdi (101).

Bir məlumata görə, Zaman bəyin Mustafa paşanın üzərinə göndərilməsi Ərdəlanın keçmiş hakimi Xan Əhməd xanın xahişi ilə edilmişdi. Belə ki, Xan Əhməd xan Osmanlı qoşunlarının ağır vəziyyətə düşməsindən istifadə edərək itirilmiş qalaların geri qaytarılmasına başladı. Bunun üçün vilayət əhalisini də öz ətrafında səfərbər edə bildi. Yerli kürd tayfaları tərəfindən dəstəklənən Xan Əhməd xan Ərdəlanın keçmiş hakimi və sahibi kimi bölgəyə qayıtdı. Onun qayıdışı yerli əhali tərəfindən də böyük sevinclə qarşılandı. Tezliklə Mərivan və Pələngan qalaları da Xan Əhməd xanın nəzarəti altına gətirildi. Həmin qalalrın alınmasından sonra Xan Əhməd xan Gülənbər qalasının ələ keçirilməsi üçün Şah Səfidən kömək istədi. Çünki onun ətrafında olan qüvvə ilə Mustafa paşanın dəstəsinə üstün gəlmək mümkün deyildi. Şah Səfi də bu xahişdən sonra Zaman xanı Gülənbər qalası üzərinə göndərdi. Mənbə məlumatına görə, Zaman xan da Xan Əhməd xanla birləşərək Mustafa paşanı Gülənbər qalasından geri çəkilməyə məcbur etdi. Onların birləşmiş qüvvəsi hələ qalaya yaxınaşmazdan əvvəl Mustafa paşa təxminən üç min nəfərlik dəstəsi ilə qalanə tərk etdi. Onun dəstəsində həm toplar var idi, həm də tüfəngçilər. Osmanlı dəstəsi Gülənbər qalasından dörd fərsəx aralananda qızılbaş qüvvələri onları haqladılar. Müqavimətin təşkil edilməsi üçün Mustafa paşa dövrələmə istehkamlar qurdu, dəstəsinin təchizatını, topları bu istehkamlara yerləşdirdi.

Xan Əhməd xanın köməkçisi olan Əli bəyin rəhbərliyi altında bir dəstə çərxçi təyin edildi və Osmanlı qüvvələri üzərinə göndərildi. Döyüş başlanandan sonra Zaman xan da öz tüfəngçilərini Mustafa paşanın topçularının və tüfəngçilərinin üstünə göndərdi. Xorasan tüfəngçiləri qarşı tərəfinə toplarını ələ keçirməklə Osmanlı dəstəsinin zərbə qüvvəsni zəiflətməli idi. Bu tapşırıq da

yerinə yetirildi. Osmanlı döyüşçülərinin güclü müqavimətinə baxmayaraq toplaı qoruyub saxlamaq mümkün olmadı. Bu isə Osmanlı dəstəsinin atəş gücünü xeyli zəiflətdi. İsgəndər bəyşinin yazdığına görə, bu döyüşdə Osmanlı dəstəsi ciddi itkilərə məruz qaldı. Onun məlumatına görə 1500 nəfər Osmanlı döyüşçüsü həmin döyüşdə həyatını itirdi. 300 nəfərdən artıq döyüşçü isə əsir götürüldü. Mustafa paşa isə bu ağır döyüşdə yaralandı və özünü bir təhər Kərkükə çatdırdı. Lakin yarası ağır olduğu üçün dünyasını dəyişməli oldu. Mənbə məlumatına görə, Kərkük camaatı Mustafa paşanın bütün əmlakını talan etdi, özünün isə başını bədənindən ayıraraq Zaman bəyin yanına gətirdi. Bütünlükdə, Osmanlı dəstəsinin əmlakı Səfəvi qüvvələrinin əlinə keçdi. İsgəndər bəy Münşi qəminət kimi götürülmüş topların, badliclərin, böyük və kiçik zərbzənlərin ümumi sayının 32 ədəd olduğunu göstərirdi. Bütün bu silahlar saxlamaq üçün Bağdad qalasına göndərildi. Ərdəlan və Şəhrizor bölgəsi Osmanlı qüvvələrindən tamamilə təmizləndikdən sonra Zaman bəy və Xan Əhməd xan şah düşərgəsinə yollandılar. Onlar Şh Səfi tərəfindən verilmiş tapşırğı tamamilə yerinə yetirmişdilər. Lakin şah düşərgəsinə doğru hərəkət edərkən qəfilən Zaman bəyin səhhəti xarablaşdı və dünyasını dəyişdi. Şah Səfi onun sədaqətini və səltənət yolunda etdiyi xidmətləri yüksək qiymətləndirdi. Zaman bəyin övladları şah tərəfindən səxavətlə mükafatlandırıldı və onun vəzifəsi oğlu Hüseyn bəyə həvalə olundu. Xan Əhməd xan isə bağdadda Şah Səfinin hüzuruna düşə bildi. Şah Səfi onun göstərdiyi fədakarlıqları hüsn və rəğbətlə qarşıladı və onun da böyük səxabvətlə mükafatlandırdı (103).

Mustafa paşa dəstəsinin bölgədən uzaqlaşdırılmasından sonra Osmanlı nəzarəti altında yalnız Hillə qalası qalmışdı. Bu qala Xosrov paşanın Bağdad səfəri zamanı əldə etmiş olduğu kiçik bir uğur idi və Xosrov paşa onun qorunacağına böyük ümid bəsləyirdi. Şah Səfi Bağdada doğru irəliləyərkən buşəhərin hakimi Səfiqulu xandan yeni bir məktub aldı. Həmin məktubda Səfiqulu xan Hillənin Osmanlı qüvvələrinin nəzarəti altında olduğunu bildirirdi. Onun şaha verdiyi məlumata görə Ərzrum hakimi Xəlil paşanın

rəhbərliyi altında olan qoşun dəstəsi bu qalanı nəzarət altında saxlayırdı. Hillə qalası Fərat çayının kənarında yerləşirdi. Bu yerin coğrafiyasına görə, Hillənin bir tərəfinə heç qala divarları çəkməyə ehtiyac yox idi və həmin tərəfdən axan çay qalaya çıxışı xeyli çətinləşdirirdi. Xəlil paşa Xosrov paşanın rəhbərliyi altında olan Osmanlı qoşunlarında ən təcrübəli qoşun başçılarından sayılırdı. Ona görə Xosrov paşa Hillə qorunub saxlanmasını ona tapşırmışdı. Xəlil paşanın tabeliyinə lazım olan qədər silah və sursat, habelə bir neçə təcrübəli əmirlər verilmişdi. Xəlil paşanın ixtiyarına verilən qoşun dəstəsinin sayının dörd min nəfər olduğu bildirilirdi. Bundan başqa qalann özündə də əvvəldə Osmanlı dəstəsi mövcud idi. Xəlil paşanım gəlməsindən sonra qala daxilində olan bütün Osmanlı qüvvələrininü ümumi sayının on min nəfər olduğu bildirilirdi. Bundan əlavə ətraf bölgələrdə yaşayan çoxlu sayda kürd və ərəb də könüllü şəkildə Xəlil paşanın dəstəsinə qatıldılar. Nəticədə Hillə qalasında olan qoşun dəstəsinin sayı on iki min nəfərə çatdırıldı. Xəlil paşa Osmanlı qoşunlarının əsas qüvvələrinin, habelə Mərivan və digər qalalar ətrafında baş verənlərdən sonra qzılbaş qüvvələrinin hücumuna məruz qalacağını istisna etmirdi. Ona görə qoşunun sayı artırılmaqla bərabər, qala divarlarının möhkəmləndirilməsi istiqamətində də ciddi işlər aparıldı (104).

Şah Səfi Hillə qalasının da Osmanlı qüvvələrindən təmizlənməsi qərarını verdi. Bununla əlaqədar o, Rüstəm bəyi vəzifələndirdi və onun rəhbərliyi altında güclü bir dəstəni Hillə üzərinə göndərdi. Rüstəm bəy güclü bir Osmanlı dəstəsi üzərinə göndərildiyini bilirdi. Ona görə o da ixtiyarına verilən dəstənin təşkilinə və təchiziun xüsusi diqqət yetirdi və qısa bir zamanda dəstənin təşkilini başa çatdıraraq Hilləyə doğru hərəkətə başladı. Səfiqulu xandan məktub gətirmiş çapar isə təcili olaraq geri yola salındı ki, şah Səfinin öz karvanı ilə Bağdada doğru irəliləməsini şəhər hakiminə xəbər versin (105).

İbrahim Peçevi qızılbaş dəstəsinin Hillə qalası üzərinə hücumu və bu hücumun nəticəsi barəsində çox qısa məlumat vermişdir. Bunu əslində, təbii saymaq olar. Çünki bu hücum zamanı Xəlil

paşa ciddi bir nəticə ortaya qoya bilmədi və köməksiz qaldığı üçün Rüstəm bəyin hücumunun da qarşısını ala bilmədi. Həmin qeydlər belədir: "Bundan sonra iranlılar Hilləyə hücum etdilər. Qala içərisində sarılmış qalanlar, əlllərindən gələn qədər dirəndilərsə də sonunda dayana bilməyib yük heyvanları ilə çöl tərəf qaçdılar. İranlılar arxalarından yetişib Zülfüqar paşanı tutdular. Xəlil paşa isə güclə qurtara bildi" (106).

Osmanlı qaynaqlarına istinadən aparılmış araşdırmalara görə, Şah Səfi tərəfindən Rüstəm bəyin rəhbərliyi altına 30 min nəfərlik bir qoşun dəstəsi verilmişdi. Şah Səfi 1631-ci il yanvar ayının əvvəllərində Bağdad qalasına yetişdi və burada Hillənin güclü bir qarnizonu olması haqqında məlumat aldı. Bundan sonra Şah Səfi tərəfindən Rüstəm bəyin sərəncamına əlavə bir dəstə də göndərildi. Böyük və güclü bir qızılbaş qoşun dəstəsinin yaxınlaşması xəbərini eşidəndə Xəlil paşa öz çaparını Xosrov paşanın yanına göndərdi və Hillənin qorunması üçün ondan əlavə kömək istədi. Xosrov paşa da bu xahişə müsbət cavab verdi və Şam bəylərbəyi Kor Xəzinədar paşa və Hələp bəylərbəyi Noğal paşa onun kömyinə vəzifələndirildilər. Amma bu paşaların rəhbərliyi altında olan dəstələr Hilləyə yaxınlaşanda bu qala artıq Rüstəm bəy tərəfindən mühasirəyə alınmışdı. Ona görə həmin qüvvələrin bir hissəsi Rüstəm bəyin mühasirəsini yara bilmədikləri üçün geri çəkilməli oldu. Köməyə gələn qüvvələrin bir hissəsi isə heç Hilləy yaxınlaşmadan qızılbaş qoşunları ilə döyüşə girməkdən imtina etdilər. Bir məlumata görə, ətraf bölgələrdə yaşayan ərəblər 30 min nəfərlik bir dəstə toplamaqla Xəlil paşaya kömək edəcəklərini söz vermişdilər. Amma Səfəvi qoşun dəstəsinin gücünü və qüdrətini gördükdə Hilləyə yaxın gəlməyə cəsarət etmədilər. Xəlil paşa bununla arzusunda olduğu köməyi ala bilmədi. Bununla belə, onun rəhbərliyi altında Hillə qalasının müdafiəsi üç ay davam etdi. Bu qalanı bir də 1631-ci il mart ayınnı 16-da fəth etmək mümkün oldu (107).

Səfəvi mənbələrinə görə isə, Rüstəm bəy ona verilmiş dəstə ilə Hilləyə doğru istiqamət götürdü. Bu qalanın mühasirəyə alınması üçün Fərat çayını adlamaq lazım idi. Rüstəm bəy Hillə yaxınlı-

ğındakı körpü üzərindən çayı adlaya bilmədi. Elə orada keçid düzəltmək cəhdi də bir nəticə vermədi. Çünki qala divarları çox yaxın idi və bu divarlar üzərində yerləşdirilmiş toplardan açılan atəş qızılbaş döyüşçülərinin irəli hərəkətini çətinlşdirirdi. Ona görə də Rüstəm bəy məcbur oldu ki, Hillədən beş fərsəx aralıda olan münasib bir yerdə çay üzərindən keçid salsın və qoşunla birlikdə Fərat çayının qarşı tərəfinə keçsin. Qoşiun dəstəsinin açyı adlamasında yerli ərəblər də kömək göstərdilər. Səfəvi hakimiyyətinə rəğbətlə yanaşan ərəblər Rüstəm bəyə həm qayıqalrını verdilər, həm də dəvələr vasitəsilə çayın keçilməsini asanlaşdırdılar. Bundan sonra qoşun dəstəsi Hillə ətəklərinə gəldi və qala mühasirəyə alındı. Dərhal da qala divarları altına lağım atılmasına, səngərlər qazılmasına, istehkamlar qurulmasına başlandı. Bu işlər gecə-gündüz davam etdirildi. Rüstəm bəy eyni zamanda qala daxilindəkilərə xəbər göndərdi, qalanın hər tərəfdən mühasirəyə alındığını bildirərək sakinlərin təslim olmasını təklif etdi. Sözsüz ki, bu təklif Xəlil paşa tərəfindən qəbul edilmədi. O, ətrafındakı əmirlər və qoşun başçılarına verilən tapşırıqlarla qalanın müdafiəsini daha da möhkəmləndirməyə başladı. Belə olanda Rüstəm bəy də qalanın mühasirəsini möhkəmləndirdi, qoşun dəstəsinin kənar aləmlə əlaqələrinin asanlaşdırılması üçün Fərat çayı üzərindən keçid yaradıldı. Qoşunların təminatı, ətraf bölgə insanlarının qoşun dəstəsi ilə əlaqələri bu keçid vasitəsilə daha da asanlaşdı. Eyni zamanda Şah Səfi tərəfindən bu dəstəyə diqqət artırıldı. Dəstənin ərzaq və təchizat ehtiyaclarının ödənməsi üçün Şah Səfi səltənət xəzinəsindən bir neçə xərvar zəri Rüstəm bəyin istifadəsinə göndərdi. Bu zər həm dəstənin zəruri ehtiyaclarının ödənməsinə xərclənməli, həm də mükafat kimk qoşun əhlinə paylanmalı idi. İsgəndər bəy Münşi yazırdı ki, qala daxilindəkiləri təslim olmadığı gördükdə Rüstəm bəy qala divarları altına lağım atılmasına diqqəti daha da gücləndirdi. Qalanın fəthinin sürətləndirilməsi üçün Rüstəm bəyə əlavə kömək də gəldi və mühasirə işləri daha da genişləndi. Xəlil paşa ona kömək gələcəyinə ümid edərək müdafiə işindən əl çəkməsə də onun bu ümidi doğrulmadı. İsgəndər bəyin yazdığına gö-

rə, Xosrov paşa tərəfindən Xəlil paşanın köməyinə göndərilmiş Kor Xəzinədar paşa və digər paşalar öz dəstələri ilə Kərbəlaya çatanda qala ətrafında dayanan Səfəvi qüvvələrin gücü haqqında məlumat aldılar və elə oradan da geri qayıtdılar (108).

Hillə qalasının mühasirəsi iki il yarım davam etdi. Bu müddət ərzində Xəlil paşa kənardan ona kömək gələcəyi ümidi ilə qalanın müdafiəsini təşkil edə bilmişdi. Osmanlı döyüşçüləri də fədakarlıqla döyüşərək qızılbaşların bütün hücumlarının qarşısını alırdılar. Amma biləndə ki, onun köməyinə göndərilmiş olan qüvvələr qalaya yaxınlaşmadan geri çəkilmişlər, onda Xəlil paşa durumunun mürəkkəb olduğunu başa düşdü. Onun üçün artıq şübhə yeri qalmamışdı ki, Xosrov paşa da ona kömək göndərməyəcəkdir. Yeni bir cəhdin ediləcəyi təqdirdə belə Osmanlı qüvvələrinin Hillə qalasına yaxınlaşa biləcəyi sual altına düşə bilərdi. Çünki Rüstəm bəyin dəstəsi qalaya gələn yolların hamısını kəsmişdi və onun mühasirəsini yararaq qalaya daxil olmaq elə də asan deyildi. Belə olanda qalanın tərk edilməsi və gizli şəkildə qaladan uzaqlaşmaq məsələsi ortaya gəldi. Bu məsələ üzərində də Xəlil paşanın dəstəsində müəyyən fikirlər ortaya çıxdı. Qala daxilində olan Osmanlı döyüşçülərinin demək olarki, hamısı piyada idilər. Qızılbaş döyüşçüləri isə əsasən atlılar idilər. Osmanlı döyüşçülərinin piyada şəklində qızılbaş atlılarından qaçıb qurtara bilməsi real görünmürdü. Ona görə qala daxilindəkilərin böyük bir hissəsi qalanın müdafiəsini davam etdirməyi və bu yolla məhv olmaqdan nicat tapmağı məqsədəuyğun sayırdılar. Xəlil paşanın tərəfdarları isə mövcud vəziyyəti digərlərinə anladaraq bildirirdilər ki, vaxt ötdükcə onların durumu daha da ağırlaşacaq, dəstənin ərzaq ehtiyatları da tükənəcək. Lakin bunlar qalanı tərk etməyə müxalif olan Osmanlı döyüşçülərinin fikrini dəyişə bilmədi (109).

Bir məlumata görə, Xəlil paşa qala daxilində və ətrafında vəziyyətin mürəkkəbləşdiyi bir vaxtda qızılbaş düşərgəsinə sülh bağlanması haqqında xəbər göndərdi. Mənbə məlumatına görə, tərəflər sülh əldə edilməsi ilə razılaşdılar. Lakin Xəlil paşa qarşı tərəfin sülhə razı olmasından, yəni onların diqqətinin yayındırılmasından

istifadə edərək gecə ikən gizli şəkildə qalanı tərk edib Mosula tərəf istiqamət götürdü (110).

Xəlil paşa qalanın tərk edilməsi ilə bağlı dəstəsinin ümumi razılığını əldə edə bilməyəndə özü onun tərəfini saxlayan adamlarla birlikdə qalanı tərk etmək qərarına gəldi. Bunun üşün vaxt da seçildi. Xəlil paşa gecə yarısı qalanı tərk etmək göstərişi verdi ki, həmin vaxt qızılbaş döyüşçülərinin diqətindən yayınmaq olardı. Belə də edildi. İsgəndər bəy Münşinin yazdığına görə, Xəlil paşa Luristanın hakiminin mühasirəyə aldığı darvazadan çıxmaqla qalanı tərk etdi. Görünür, həmin darvaza qarşısında qızılbaşların mühasirəsi daha zəif idi. Ya da mümkündür ki, doğrudan da məsələnin sülh yolu ilə həll edilməsi meydana gəlmişdi və ona görə də qızılbaş döyüşçülərində də bir əminlik yaranmışdı. İstənilən halda Xəlil paşa öz adamları ilə gizli şəkildə qızılbaşların mühasirəsindən adlayaraq canlarını qurtara bilmişdilər. İstər qala daxilindəkilər, istərsə də qala xaricindəkilər Xəlil paşanın qalanı tərk etməsindən səhər açılanda xəbər tutdular. Qala daxilindəkilər də qalanı tərk edərək nizamsız şəkildə müxtəlif istiqamətlərə qaçmağa başladılar. Rüstəm bəyin düşərgəsində isə Xəlil paşanın qaçması barəsində məlumat alınan kimi, Osmanlı döyüşçülərinin təqib edilməsinə göstəriş verildi. Təxminən on iki min nəfərlik qızılbaş dəstəsi qaçmaqda olan Osmanlı döyüşçülərinin təqibinə başladı. Qızılbaşlar atlı olduqları üçün xeyli sayda Osmanlı döyüşçüsünü haqlaya bildilər. İsgəndər bəy Münşinin yazdığına görə, bu təqib zamanı dörd-beş min Osmanlı döyüşçüsünün həyatına son qoyuldu. Çoxlarının gecə ikən qalanı tərk etmələrinə baxmayaraq Osmanlı döyüşçüləri Hillə qalasından dörd fərsəxdən çox uzaqlaşa bilməmişdilər. Onların təqib edilməsi elə quruldu ki, bütün istiqamətlərə qızılbaş atlıları göndərildi və nəticədə qala daxilində olan Osmanlı qüvvələrinin demək olar ki, hamısı ələ keçirildi. İsgəndər bəy onu da yazırdı ki, qızılbaş döyüşçülərinin çevik və qətiyyətli hərəkətləri nəticəsində Osmanlı döyüşlüləri öz qılınclarını, ox və kamanlarını çəkməyə belə macal tapmırdılar. Osmanlı döyüşçülərinin bir hissəsi qətlə yetirildi, böyük bir hissəsi isə əsir götü-

rüldü. Eyni zamanda Osmanlı dəstəsinə mənsub olan böyük sayda müharibə qənimətləri də ələ keçirildi. Qalanı tərk etməyə fürsət əldə edə bilməyənlər isə Narın qalaya sığındılar. Onların arasında Zülfüqar paşa, Xəlil paşanın bacısı oğlu Sənulla bəy, Mustafa bəy, Əli paşa və digər vəzifəli döyüşçülər var idi. Bir gün sonra onlar Rüstəmpaşanın yanına adam göndərdilər və əfv olunmalarını ondan xahiş etdilər (111).

Rüstəm paşa isə onların və eləcə də əsir götürülmüş digər Osmanlı döyüşçülərinin əfv olunmasının Şah Səfiyə aid olduğunu bildirdi. Bununla bağlı Şah Səfiyə məlumat göndərildi. Hillə ətrafında baş verən döyüşün uğurla başa çatdığı gün Şah Səfi Bağdadı tərk edərək Nəcəfdə Həzrət Əlinin, Kərbalada imam övladlarının müqəddəs məzarlarını ziyarətə yollanmışdı. Bu ziyarətlərin icrasından əvvəl Şah Səfi yolunu Hillədən saldı və 1631-ci il mart ayının 16-da Hillədə oldu. Şah Səfi Hillə qalasınnı alınmasını böyük sevinclə qarşıladı və bu sevinci paylaşmaq üçün Hilləni fəth edən qızılbaş döyüşçülərinin yanına yollandı. Rüstəm bəy və onun yanında olan qızılbaş əmirləri Şah Səfinin təntənəli şəkildə qarşılanması üçün xüsusi tədbirlər gördülər. Onun gəlişi münasibətilə Fərat çayı üzərinən yeni bir keçid salındı və Şah Səfi həmin keçiddən adlamaqla Hiləyə daxil oldu. Qoşun əhli nizamlı şəkildə Səfəvi şahının qarşılanmasında iştirak etdi. Qala daxilində Şah Səfi üçün münasib bir yer seçildi və şah gecəni həmin məkanda keçirdi. Səhəri gün isə Hillənin fəth edilməsi münasibətilə böyük bir mərasim təşlil edildi. Rüstəmbəy başda olmaqla qızılbaş dəstəsinin əmir və qoşun başçıları da həmin məclisdə iştirak edirdilər. Onların hər birinə məclisdə məqamlarına uyöun olan yer ayrılmışdı. Əvvəlcə əsir götürülmüş Əli paşa, Zülfüqar paşa və Sənulla bəy şah qarşısına çıxarıldılar. Şah Səfi onların qollarının açılmasına göstəriş verməklə, əfv edildiklərini bəyan etdi. Şah iltifatı ilə qarşılanan bu paşalara fəxri qonaqlar kimi həmin məclisdə iştirak etmək icazəsi verildi. Sonra Hillə uğurunu qazanmış olan qızılbaş dəstələri bölmələrlə, alaylarla Şah Səfinin qarşısından keçdilər. Musiqi ilə müşayiət olunan bu keçiddə qətlə yetirilmiş olan

Osmanlı döyüşçülərinin başları nizəyə alıdndı və şah qarşısından keçirildi. Mənbələrdə Osmanlı dəstəsinin verdiyi ümumi itkilər haqqında da məlumat öz əksini tapmışdı. İsgəndər bəy Münşinin yazdığına görə, Osmanlı dəstəsi bu döyüş zamanı 8-9 min itki verdi. Təxminən iki min nəfər isə canlı olaraq əsir götürüldü. 3-4 min baş atın da ələ keçirildiyi bildirilirdi. Bundan başqa qala daxilində hələ də silahı yerə qoymayan Osmanlıdöyüşçüsü var idi. Şah Səfinin fərmanı ilə salamat qalmış Osmanlı döyüşçüləri əfv olundular və bundan sonra onların öz yurdlarına qayıtmasına icazə verildi (112).

İsgəndər bəy Münşi öz əsərində Hillənin alınmasının təsvirindən sonra Xosrov paşanın Səfəvi dövləti üzərinə hücumunun nəticələrinə də qiymətini vermişdir. Birmənalı şəkildə bəlli idi ki, Xosrov paşanın bu yürüşü uğursuzluqla nəticələndi, qarşıya qoyulan yaxın və uzaq məqsədlərin heç birinə nail olunmadı. Osmanı qoşunları ilkin uğurlara baxmayaraq, böyük itki verib geri çəkild. Şah Səfi də cavan olmasına və taxta yenicə çıxmasına baxmayaraq öz səltənətinin müdafiəsini təşkil edə bildi. O, səltənət imkanlarını səfərbərliyə alaraq həm şərqdə, həm də qərbdə sərhədlərin pozulmasının qarşısını almağa müvəffəq oldu.

İsgəndər bəy Münşinin hesablamalarına görə, Səfəvi dövləti üzərinə hərbi yürüş başa çatana qədər Osmanlı qoşunları 25 min nəfər itki verdi. Onun sözlərinə görə, sonradan Osmanlı düşərgəsindən gəlmiş bəzi adamlar bildirirdilər ki, Osmanlı itkilərinin sayı 30 min nəfərdən artıqdır. Həmin məlumatı gətirən adamları İsgəndər bəy qərəzsiz adamları sayır və ona görə də onların məlumatının doğruluğuna da şübhə etmirdi. Bunlardan başqa, Osmanlı yürüşünün davam etdiyi iki ilə yaxın bir müddətdə öz əcəli ilə dünyasını dəyişən döyüşçülərinvə xidməıt personalının olmasını da yazırdı. İsgəndər bəyə görə, onların da sayı on minə çatırdı. Beləliklə, bütün yürüş ərzində Osmanlı qoşunlarının təxminən 40 min nəfər itki verdiyi bildirilirdi. İsgəndər bəy Münşi baş verənlərin tarixi müqayisəsini də aparırdı. Onun fikirncə, Çingiz xandan, Əmir Teymurdan bu yana belə bir hərbi yürüş görün-

məmişdi ki, onun gedişində tərəflərdən biri bu qədər itki vermiş olsun. Sonra müəllif konkret olaraq Əmir Teymurun İldırım Bayəzidlə, Şah İsmayılın Çaldıran düzündə Sultan Səlimlə apardığı döyüşləri də nümunə gətirirdi. Bildirilirdi ki, heç bu döyüşlərdə də Xosrov paşanın verdiyi itki qədər itki verilməmişdi. Bununla İsgəndər bəy Münşi qazanılan hərbi uğurun əzəmətini daha da qabartmaq istəyirdi. O bu uğurun əldə edilməsini ilk növbədə yaradanın lütfü, müqəddəslərin şəfaəti, sonra isə Şah Səfinin tale qisməti kimi qələmə alırdı. İsgəndər bəy Münşi Şah Təhmasibin apardığı döyüşlərə də istinad edirdi və bildirirdi ki, onun şərqdə və qərbdə apardığı döyüşlərdə də qarşı tərəf bu qədər itki ilə rastlaşmamışdı. İsgəndər bəy bu böyük qələbənin əldə edilməsində daha sonra qızılbaş qoşunlarını, əmir və sərkərdələrini və nəhayət sipəhsalar Rüstəm bəyi xüsusi olaraq qeyd edirdi. Bildirirdi ki, Rüstəm bəy başda olmaqla bütün əmirlər, qoşun başçıları, qoşun əhli Şah Səfi tərəfindən mükafatlandırıldılar (113).

Osmanlı dövlətinin Səfəvi dövləti ilə sərhədində məskunlaşmış olan bir çox kürd tayfaları şah sarayının bütün diqqətinin Xosrov paşanın yürüşünün qarşısının alınmasına yönəlməsindən istifadə edərək bölgə məntəqələri üzərinə talançı basqınlar etdilər. Xosrov paşanın yürüşünün davam etdiyi müddət ərzində həmin kürt tayfalarının dəstələri üç dəfə Təbriz, Səlmas, Şirvan, Naxçıvan və Çuxursəəd üzərinə basqınları həyata keçirdilər. Bunun nəticəsində adları çəkilən bölgələrin əhalisinə böyük ziyanlar yetirildi, insanlara çətin günlər yaşadıldı. Bu yürüşlərin qarşısının alınması üçün Çuxursəəd hakimi Təhmasibqulu xan müdafiə tədbirləri görməyi qərarlaşdırdı. O, basqınlara məruz qalmış vilayətlərdən, o cümlədən də hakimi olduğu Çuxursəəddən təxminən on min nəfərlik bir silahlı dəstə topladı və Osmanlı sərhədi boyu məskunlaşmış kürd tayfalarının üzərinə hücum etdi. Təhmasibqulu xan öz dəstəsi ilə Əxlat və Adilcəvaz qalalarına qədər irəlilədi, Səfəvi vilayətləri üzərinə basqınlarda iştirak etmiş tayfaların yaşadığı məntəqələri dağıtdı, müqavimət göstərmək istəyənlərə isə ağır zərbə vuruldu. Həmin tayfaların üzvlərindən bir neçə min nəfər əsir götürüldü,

çoxlu sayda qənimət ələ keçirildi. Bununla da sərhəd bölgəsinə olan basqınların qarşısı alındı (114)

Şah Səfi tərəfindən Hillədə əsir götürülmüş xeyli sayda Osmanlı döyüşçüsünün azad edilməsi və sağ-salamat öz yurdlarına yola salınması Osmanlı sarayı tərəfindən məmnunluq və razılıqla qarşılandı. Şah Səfinin bu əməli xoş məramlı bir hərəkət kimi qiymətləndirildi və bunun qarşılığı olaraq Osmanlı əsirliyində olan iki Səfəvi hakiminin azad edilməsi qərara alındı. Osmanlı dövləti tərəfindən əsirlikdən azad edilən Səfəvi hakimlərindən biri Şəmsi xan idi. O, Şah Abbasın hakimiyyəti illərində Gürcüstan ərazisindəki Axısqa qalasının hakimi idi. Şah Abbasın hakimiyyətinin sonlarına yaxın Osmanlı qoşunları bu qala üzərinə hücum etdilər. Lakin qalanı ala bilməyərək geri çəkilməli oldular. Şəmsi xan qərara aldı ki, geri çəkilməkdə olan Osmanlı dəstəsini təqib etsin və bu dəstəyə ağır zərbə endirsim. Kifayət qədər döyüş təcrübəsinə malik olan Şəmsi xan bu zaman tələsgənliyə yol verdi və özü Osmanlı döyüşçülərinin əlinə keçirdi. Osmanlı döyüşçüləri də onu əsir götürərək İstanbula göndərdilər. Şəmsi xanın əsir düşməsindən sonra onun yerinə Axısqa hakimi Səlim xan Şəmsəddinli təyin edildi. O isə Şah Səfinin hakimiyyətə gəlməsindən sonra bir dəfə Osmanlı dəstələrinə qarşı döyüşdə ehtiyatsızlığa yol verdi və az sayda olan döyüşçüləri ilə Osmanlı dəstəsinin təqib edilməsinə girişdi. Nəticədə o da Osmanlı döyüşçüləri tərəfindən əsir götürüldü və həbsdə saxlanmaq üçün Diyarbəkrə göndərildi. Hillədəki Osmanlı əsirlərinin azd ad edilməsindən sonra Osmanlı sarayı Şəmsi xanı azad etdi və onu Xosrov paşanın yanına göndərdi. Saraydan xəbər göndərildi ki, Xosrov paşa Səlim xanın və onunla həbs edilmiş adamları və Şəmsi xanı azad etsin və yola salsın. Xosrov paşa da bu tapşırığı yerinə yetirdi. O, hər iki qızılbaş xanını azad etdi və bir çavışın müşayiəti ilə öz yurdlarına yola saldı. Çavuş özü ilə Xosrov paşanın Şah Səfiyə yazdığı məktubu da gətirdi. Həmin məktubda Xosrov paşa Osmanlı sarayının Səfəvi sarayı ilə xoş münasibətlərə maraqlı olduğunu yazdı. Yəni Xosrov paşa düşmənçiliyin dayandırılması və iki dövlət arasında sülhün

yenidən bərqərar olması fikrində olduğunu şahın nəzərinə çatdırdı. Əsirlikdən azad edilmiş qızılbaş xanları da İsfahanda Şah Səfinin hüzurunda olanda Osmanlı tərəfinin doğrudan da sülh tərəfdarı olduğunu bəyan etdilər. Bu fikrin təsdiqi kimi, 1631-ci ildə Osmanlı qoşunları Səfəvi hüdudlarına hücum etmədilər. Şah Səfi də bu təklifi razılıqla qarşıladı və o da Xosrov paşaya məktub göndərdi. Həmin məktubun çatdırılması şah sarayının nümayəndəsi kimi söhbət yasovulu olan Canı bəy Şamlıya tapşırıldı. Bu vaxt Hillədə əfv edilmiş Əli paşa Kəskan, Zülfüqar paşa və digərləri hələ Osmanlıya yola salınmamışdılar. Şah Səfinin fərmanı ilə onlar da yanlarındakı digər əsirlərlə birlikdə Osmanlıya yola salındılar. Bu hadisənin baş verməsi və tərəflər arasınnda məktub mübadiləsi Şah Səfidə iki dövlət arasındakı münasibətlərin dostluq üzərində davam edəcəyinə ümidlərini xeyli artırdı (115).

5. İstifadə olunmuş mənbə və ədəbiyyat

1. Bu barədə bax: Süleymanov M. Səfəvilər VIII. I Şah Abbas. Bakı, 2023, s. 775-803
2. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi (Tarix-e aləmaraye Abbasi). II kitab. Çevirəni: Şahin Fazil. Bakı, 2014, s.1901-1902
3. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər. Tehran, 1368, s.21
4. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1902-1903
5. Канакерци З. Хроника. Том – 1, Гл. 1-27 http://ru.hayazg.info/Закарий_Канакерци._Хроника/Том_I_Гл.1 27#.D0.9E_.D0.A6.D0.90.D0.A0.D0.A1
6. İsfahani M. M. Xülasət-əssiyər, s. 34
7. Yenə orada, s. 34
8. Yenə orada, s. 35
9. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1905-1906

10. Yenə orada, s. 1907
11. İsfahani M. M. Xülasət-əssiyər, s. 37
12. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1906
13. İsfahani M. M. Xülasət-əssiyər, s. 38; Павлова И.К. Хроника времен Сефевидов (Сочинение Мухаммада Масум Исфахани "Хуласат ас-сийар). Москва, 1993, с. 27; Mənsurbəxt G., Taheri Müqəddəm S. M. Cayqah-e üləma dər dəstqah-e qodrət də dövre-ye Səfəvi (Dövran-e Şah Abbas-e əvvəl, Şah Səfi, Şah Abbas-e II), s. 134// Tarix-e İran, N-64/5, 1389, s. 123-144
14. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1908
15. Yenə orada, s. 1905-1906, 1908
16. Yenə orada, s. 1906-1907
17. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi. Tehran, 1317, s. 6, 8
18. İsfahani M. M. Xülasət-əssiyər, s. 39
19. Yenə orada
20. Təfərroşi Ə. Tarix-e Şah Səfi. Tehran, 1388, s.22-23
21. Yenə orada, s. 24-25
22. İsfahani M. M. Xülasət-əssiyər, s. 41
23. İsfahani M. M. Xülasət-əssiyər, s. 41, 48; Təfərroşi Ə. Tarix-e Şah Səfi. Tehran, 1388, s.27
24. İsfahani M. M. Xülasət-əssiyər, s. 42
25. Yenə orada, s. 43
26. Yenə orada, s. 43-44
27. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 12
28. Yenə orada, s. 12-13
29. İsfahani M. M. Xülasət-əssiyər, s. 47; Təfərroşi Ə. Tarix-e Şah Səfi. Tehran, 1388, s.27; İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 12; Astrabadi S.H. Əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1366, s.236
30. İsfahani M. M. Xülasət-əssiyər, s. 49

31. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 15
32. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 15; İsfahani M. M. Xülasət-əssiyər, s. 50; Astrabadi S.H. Əz Şeyx Səfi ta Şah Səfi, s. 236
33. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 16; İsfahani M. M. Xülasət-əssiyər, s. 51
34. İsfahani M. M. Xülasət-əssiyər, s. 52
35. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 17
36. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 16; İsfahani M. M. Xülasət-əssiyər, s. 52
37. Astrabadi S.H. Əz Şeyx Səfi ta Şah Səfi, s.237; İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 18
38. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.19; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə. Tehran, 1392, s.732
39. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.20
40. Yenə orada
41. İsfahani M. M. Xülasət-əssiyər, s.57; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s.733
42. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.22; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s.733
43. İsfahani M. M. Xülasət-əssiyər, s. 59-60: Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s.734
44. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s.734
45. İsfahani M. M. Xülasət-əssiyər, s. 62
46. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 27
47. Yenə orada, s. 28
48. İsfahani M. M. Xülasət-əssiyər, s. 62
49. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 28; İsfahani M. M. Xülasət-əssiyər, s. 62-63

50. Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s.735
51. Yenə orada, s.689
52. Kılıc R. XVI. ve XVII. Yüzyıllarda Osmanlı-İran siyasi antlaşmaları. İstanbul, 2001, s.185
53. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 30-31
54. İsfahani M. M. Xülasət-əssiyər, s. 64
55. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 31-32
56. İsfahani M. M. Xülasət-əssiyər, s. 68; Təfərroşi Ə. Tarix-e Şah Səfi, s. 38
57. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 33
58. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 33
59. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 35; İsfahani M. M. Xülasət-əssiyər, s. 68
60. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 36
61. Yenə orada, s. 37
62. Yenə orada, s. 38
63. Yenə orada, s. 39
64. Peçevi İ. Peçevi tarihi II. Ankara, 1982, s. 386
65. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 40
66. İsfahani M. M. Xülasət-əssiyər, s. 71
67. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 42
68. Yenə orada, s.
69. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 43-44; Təfərroşi Ə. Tarix-e Şah Səfi, s. 41; Borazeş Ə.H. Rəvabet-e siyasi və diplomatik-e İran və cahan dər əhd-e Səfəviyyə, s.689
70. Kılıc R. XVI. ve XVII. Yüzyıllarda Osmanlı-İran siyasi antlaşmaları, s. 185
71. Peçevi İ. Peçevi tarihi II, s. 387-388
72. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 44; İsfahani M. M. Xülasət-əssiyər, s. 72-73
73. İsfahani M. M. Xülasət-əssiyər, s. 85-86
74. İsfahani M. M. Xülasət-əssiyər, s. 86; Peçevi İ. Peçevi tarihi II. Ankara, 1982, s. 391

Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639). Doktora tezi. İzmir, 2009, s. 121-122
75. Peçevi İ. Peçevi tarihi II, s. 389-391
76. Təfərroşi Ə. Tarix-e Şah Səfi, s. 42
77. İsfahani M. M. Xülasət-əssiyər, s. 86
78. Yenə orada, s. 87
79. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s.122
80. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 48-49; İsfahani M. M. Xülasət-əssiyər, s. 89
81. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 49
82. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s.123
83. Yenə orada
84. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 52; İsfahani M. M. Xülasət-əssiyər, s. 94; Təfərroşi Ə. Tarix-e Şah Səfi, s. 43
85. İsfahani M. M. Xülasət-əssiyər, s. 96
86. Yenə orada, s. 98
87. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s.123-124; İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 53
88. Kılıc R. XVI. ve XVII. Yüzyıllarda Osmanlı-İran siyasi antlaşmaları, s. 186; Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s.124-125
89. İsfahani M. M. Xülasət-əssiyər, s. 101
90. İsfahani M. M. Xülasət-əssiyər, s. 100; Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s.126
91. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 55; Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s.125
92. İsfahani M. M. Xülasət-əssiyər, s. 102
93. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 55; Küpeli Ö. İrakı Arapta Osmanlı-Safevi mücadelesi (XVI-XVII. Yüzyıllar), s. 236// History studies. Ortadoğu özel sayısı, 2010, s. 227-244
94. Peçevi İ. Peçevi tarihi II, s. 391

95. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 55
96. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s.125
97. Kılıc R. XVI. ve XVII. Yüzyıllarda Osmanlı-İran siyasi antlaşmaları, s. 186
98. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s.126
99. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 55-56; Peçevi İ. Peçevi tarihi II, s. 391-392
100. İsfahani M. M. Xülasət-əssiyər, s. 103; Peçevi İ. Peçevi tarihi II, s. 392; Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s.127
101. İsfahani M. M. Xülasət-əssiyər, s. 104
102. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 56; Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s.127
103. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 59
104. Yenə orada, s. 62-63; İsfahani M. M. Xülasət-əssiyər, s. 104
105. İsfahani M. M. Xülasət-əssiyər, s. 104
106. Peçevi İ. Peçevi tarihi II, s. 392
107. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s.127-128
108. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 64; Təfərroşi Ə. Tarix-e Şah Səfi, s.50
109. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 65
110. İsfahani M. M. Xülasət-əssiyər, s. 107
111. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 67-68; İsfahani M. M. Xülasət-əssiyər, s. 107
112. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 66-67; İsfahani M. M. Xülasət-əssiyər, s. 107-108; Təfərroşi Ə. Tarix-e Şah Səfi, s.51
113. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 69
114. Yenə orada, s. 70
115. Yenə orada, s. 82-83

IV FƏSİL
SƏLTƏNƏTİN MÖHKƏMLƏNDİRİLMƏSİ TƏDBİRLƏRİ

1.Şah Səfiniun İsfahana dönüşü

Hillənin alnması ilə Xosrov paşanın Bağdad yürüşünün bütün nəticələri aradan qaldırılmış oldu və Şah Səfi ona miras qalmış səltənətin hüdudlarını bərpa edə bildi. Hillə sevincini yaşadıqdan sonra Şah Səfi müqəddəs məkanların ziyarətinə yollandı. Bu ziyarət zamanı o həm öz niyyətlərini həyata keçirmək, həm də Xosrov paşa yürüşünün bütün nəticələrinin aradan qaldırılması ilə bağlı müqəddəs məkanlarda yaradana öz dualarını çatdırmaq istəyirdi. Şah kimi taxta çıxdıqdan sonra Şah Səfi ilk dəfə idi ki, bu müqəddəs şiə məkanlarını ziyarət edəcəkdi. Bu məqsədlə də o, əvvəlcə Kərbəlaya istiqamət götürdü. Məlumata görə, Şah Səfi 1631-ci ilin Novruz gecəsini də Kərbəlada keçirdi. Şah Səfi üç gün ərzində Kərbəlada qaldı və həmin günlərini İmam Hüseynin məqbərəsi üzərinə keçirdi. Bu ziyarət günlərində Şah Səfi namaz qıldı, dualar etdi, yaradana öz şükürlərini ifadə etdi, məqbərəinin abadlaşdırılması üçün lazımi göstərişlərini verdi. Kərbəla ziyarətini başa vurduqdan sonra Şah Səfi İmam Hüseyn ziyarətgahının xadimlərinə, xidmətçilərinə böyük miqdarda nəzir-niyaz da payladı (1).

Şah Səfi Kərbəladan Nəcəfə yollandı, orada Həzrət Əlinin məqbərəsini ziyarət etdi. Burada da o, duaları etdi, namazlarını qıldı, onu müşayiət edən üləmaların tilavətini dünlədi, ziyarətini başa çatdırdıqdan sonra bu müqəddəs məkanın xadimlərinə və xidmətçilərinə də çoxlu nəzir-niyaz payladı. Şah Səfi Nəcəf ziyarətgahının vəziyyəti ilə yaxından tanış oldu və bu ziyarətgahın da abadlaşdırılması ilə bağlı işlər görülməli olduğu qənaətinə gəldi. Səfəvi şahı sonra Kufədə də oldu. Orada da dualarını və ibadətini etdi və sonra da Bağdada qayıtdı (2).

Şah Səfi şübhə etmirdi ki, Osmanlı qoşunları Bağdadın ələ keçirilməsi istəyindən əl çəkməyəcəklər. Ona görə də Şah Səfi geri qayıtmazdan əvvəl bu qala-şəhərin müdafiəsinin möhkəm-

ləndirilməsi üçün lazımi göstərişləriniu verdi. Əvvəlcə, şahın geri qayıdışı ilə bağlı Bağdad hakimi Səfiqulu xanın evində böyük bir şənlik mərasimi təşkil olundu. Şah Səfi də, onu müşayiət edən saray mənsubları da bu mərasimdə iştirak etdi. Şah Səfi qərara aldı ki, Səfiqulu xanın (o, həm də Şirəli xan kimi tanınırdı) rəhbərliyi altında olan qala qarnizonunu daha da gücləndirsin. Bunun üçün Səfiqulu xanın ixtiyarına əlavə qulamlar, tüfəngçilər, qorçular verildi, qala qarnizonun heyətinin sayı artırıldı. Mənbə məlumatına görə, Səfiqulu xanın tabeliyinə əlavə olaraq bir min nəfər qorçu, iki min iki yüz nəfər tüfəngçi və üç yüz nəfər də qulam verildi. Bununla bərabər, Şah Səfi qala ətrafında istehkam işlərinin gücləndirilməsini də lazım bildi. Onun göstərişinə əsasən, qala divarlarının təmir ediməsinə, yeni xəndəklərin qazılmasına, mövcud olanların isə dərinləşdirilməsinə başlandı. Şah Səfi bu işlərə rəhbərlik edilməsini Taxta xan Ustaclıya tapşırdı. Qalanın müdafiəsinin möhkəmləndirilməsində iştirak edən bütün vəzifə sahibləri və işçilər onun göstərişini yerinə yetirməli idilər. Şah Səfi saray mənsublarından olan yüzbaşı Heydər bəyə bir min tümən nağd pul da verdi. Heydər bəy bir müddət Bağdadda qalaraq qalanın müdafiəsinin möhkəmləndirilməsində iştirak etməli, zəruri işlərin görülməsi üçün ona verilmiş puldan xərcləməli və bir də işlər başa çatandan sonra İsfahana dönməli idi. Dağılmış qala bürclərinin təmiri və bərpasına rəhbərlik isə konkret olaraq Məcid xan Ustaclıya tapşırıldı. Bağdad qalasının təmiri, bərpası, müdafiəsinin möhkəmləndirilməsi üçün lazımi göstərişləri verəndən sonra Şah Səfi Əsgəreyn müqəddəslərinin ziyarətinə yollandı. Ziyarətlərini başa çatdırandan sonra Şah Səfi Harunabad adlanan məntəqəyə gəldi. Bağdad yürüşündə iştirak edən qoşunlar da orada toplandı. Şah Səfi bu qoşunlara yenidən sıra baxışı keçirəndən sonra Kürdüstan və Luristan hakimlərinə öz qoşun dəstələri ilə birlikdə vilayətlərinə dönmək icazəsi verdi. Digər vilayətlərdən gəlmiş qoşun dəstələri də öz vilayətlərinə dönmək icazəsi aldılar (3).

Şah Səfi bunlardan sonra İsfahana dönüş yolunu tutdu. Şah karvanı kifayət qədər aramla hərəkət edirdi və bu karvanın keçdiyi

yerlərdə ov imkanlarının olduğu halda Şah Səfi ov üçün dayanacaq edirdi. Fars vilayətinə aid olan Toysərkan adlı məntəqədə Şah Səfi üç günlük dayanacaq etdi. Həmin günlər ərzində Fars hakimi İmamqulu xan onun xidmətində dayandı. Həmin məntəqədə kimi Fars hakimi İmamqulu xan və İmamqulu xanın Qarabağda hakim olan qardaşı Davud xan şahın icazəsi ilə şah karvanından ayrıldılar və hər biri öz vilayətlərinə yollandılar. Şah Səfi isə İsfahana doğru yolunu davam etdirdi (4).

Fars və Qarabağ hakimlərinin şah karvanından ayrılmasından əvvəl Herat bəylərbəyi Həsən xanın xidmətçilərindən biri şahın hüzuruna yetişdi və özbək silahlı dəstələrinin vilayətə hücum etməsi haqqında Şah Səfiyə məlumat çatdırdı. Bu hadisə belə olmuşdu ki, Buxara özbəklərindən bir dəstə Mürğab yaxınlığına gələrək Badğis məntəqəsi üzərinə hücum etmək istəyirdi. Hadisələrin şərhindən belə aydın olur ki, bu hadisə Şah Səfinin Osmanlı hücumuna qarşı qalxdığı vaxtlarda baş vermişdi. Çox güman ki, özbəklər də Osmanlı qoşunlarını Səfəvi dövləti üzərinə hücumundan xəbər tutaraq fürsəti münasib bilmiş və talançılıq məqsədilə Badğıs üzərinə hücum etməyi qərarlaşdırmışdılar. Herat hakimi bu hücum barəsində məlumat alan kimi, yerli qızılbaş dəstəsinə bu hücumun qarşınının alınması göstərişini verdi. Bu dəstə də tapşırıq alan kimi özbəklərin dayandığı məkana üz tutdu. Qızılbaş dəstəsi ilə özbək dəstəsi arasında döyüş baş verir. Həmin döyüşdə qızılbaş dəstəsi üstün gəldi və hətta özbək silahlılarından təxminən 300 nəfəri əsir götürüldü. Həsən xanın çaparı bu xəbəri Şah Səfiyə verməklə onu da bildirdi ki, əsir götürülmüş özbək silahlıları şah hüzuruna göndərilmişlər və yaxın günlərdə onlar gəlib çatması gözlənilir. Doğrudan da çox keçmədi ki, özbək əsirlərinin gətirilməsi xəbəri alındı. Gilan və Mazandaran vəziri Mirzə Tağının müşayiəti ilə onlar hələ İsfahana çatmazdan əvvəl Şah Səfinin hüzuruna gətirildi. Bu özbək əsirlərinin gətirilməsində məqsəd səltənətin şərq hüdudlarının etibarlı şəkildə mühafizə olunmasını Şah Səfinin nəzərinə çatdırmaq idi. Şah Səfi də sözsüz ki, bu xəbəri məmnunluqla qarşıladı. Məhz bu hadisədən sonra Şah Səfi onu

müşayiət edən qoşunların rəsmi-keçidini təşkil etdi və həmin rəsmi-keçiddə iştirak edən İmamqulu xanla Davud xana, habelə Kirman hakimi Əmir xana, Xar-Semnan və Dəmavənd hakimi Utar xana öz vilayətlərinə dönmək icazəsi verildi. Onların ardınca Xan Əhməd xan da öz vilayətinə döndü (5).

Şah Səfi hələ İsfahana aparan yolda olduğu zaman Bağdad qalasının təmir və bərpasına vəzifələndirilmiş Taxta xan da onun hüzuruna yetişdi və ona tapşırılan işlərin yerinə yetirildiyini bildirdi. Şah Səfi onun Bağdad ətrafındakı işlərini təqdir etməklə qiymətli hədiyyələrə layiq gördü. Şah Səfinin İsfahana doğru hərəkəti sonradan daha iyirmi günə qədər uzandı və 1631-ci ilin yayının başlanğıcında nəhayət ki, bu şəhərə yetişdi. Şah Səfi Bağdad yürüşündə olarkən hind padşahının elçisi İsfahana gəldi. Şah yürüşdə olduğu üçün elçi İsfahanda qalaraq onu gözləməli olmuşdu. Şah Səfi İsfahana yetişəndən az sonra bu elçini hüzura qəbul etdi. Bu elçi özü ilə gətirmiş olduğu qiymətli hədiyyələri Şah Səfiyə təqdim etdi (6).

Şah Səfinin İsfahana yetişməsindən təxminən on gün sonra onun hüzuruna Bağdad hakimi Səfiqulu xanın çaparı gəldi. Bu çapar Səfiqulu xandan xəbər gətirmişdi ki, Xosrov paşa yenidən Səfəvi hüdudları üzərinə hücuma hazırlaşır. Səfiqulu xanın əldə etdiyi məlumata görə, Xosrov paşa Bağdaddan geri çəkildikdən sonra qışı Mardində keçirmiş və havaların qızması ilə Səfəvi hüdudlarına doğru yeni yürüş hazırlığına başlamışdı. Səfiqulu xanın göndərdiyi məlumata əsasən, Xosrov paşa artıq Tağı paşa adlı birisini Osmanlı qoşunlarının avanqard dəstəsinin rəhbəri təyin edərək irəli hərəkət etməsinə göstəriş vermişdi. Şah Səfi bu məlumatı ciddi qəbul etmədi. Onun fikrincə, Xosrov paşa elə bir ciddi zərbə almışdı ki, yenidən Səfəvi hüdudlarına yürüşü başlamağa iradəsi çatmazdı (7). Əslində isə, Səfiqulu xanın göndərdiyi məlumat həqiqətə uyğun idi. Xosrov Mirzə 1631-ci ilin yayında yenidən Səfəvi hüdudlarına hücuma hazırlaşırdı. Lakin meydana gələn şərait onun bu hücumunu növbəti ilə təxirə saldı (bu barədə aşağıda danışılacaqdır).

2. Qəzvində dərviş qiyamının yatırılması və hakimiyyət müxaliflərinə qarşı mübarizə

Osmanlı qoşunlarının Həmədan və Bağdad yürüşlərinin qarşısının uğurla alınması səltənət daxilində əmin-amanlıq üçün də bir zəmin yaratdı. Onun üçün idi ki, Şah Səfi böyük bir məmnunluqla Bağdaddan İsfahana döndü və daha asudə bir şəraitdə öz şahlığını və dövlət idarəçiliyini davam etdirdi. Belə bir vaxtda səltənətin əvvəlki paytaxtı olan Qəzvində Rza adlı bir dərvişin özbaşınalıq etməsi, ətrafına çoxlu sayda tərəfdar toplaması və onları da bu özbaşınalıqlara sövq etməsi barəsində məlumat alındı. 1631-ci ilin yay aylarının başlanğıcında Qəzvin darğası olan Şahverdi Türkman tərəfindən bu dərvişin artmaqda olan özbaşınalıqları haqqında Şah Səfiyə məlumat çatdırdı.

Özünü sonradan dərviş kimi təqdim edən Rza bir vaxtlar Əlişəkər bəylərbəyi Qarahəsən Ustaclının xidmətçilərindən biri idi. O adi bir xidmətçi olmaqdan əlavə, həm də kifayət qədər çevik və daha asan şəkildə yaşamaq yolu axtaran birisi idi. Qarşısına qoyduğu məqsədlərə çatmağın yollarını tapmaq üçün Rza uzunmüddətli səfərlərə çıxır, dərvişlərə qoşulub ölkələri gəzirdi. Rza Osmanlı ərazisində, Misirdə, Mərakeşdə olur, bəzi elmlərin öyrənilməsi ilə məşğul olmuşdu. Nəticədə, Rza öz danışığı ilə, söylədikləri ilə ətrafındakılarda özünə qarşı inam yaratmaq təcrübəsi əldə etmişdi ki, bu da onun gələcək fəaliyyətinin müəyyənləşməsinə öz təsirini göstərirdi. Digər məmləkətlərə səyahət etməkdən yorulanda Rza Qəzvinə qayıtdı və bu şəhər yaxınlığında olan Kafirabad adlı məntəqədə məskən salaraq yeni şəraitdə öz fəaliyyətini qurmağa başladı (7).

Dərviş Rza Kafirabadda özünə bir dükan açdı və orada kəramət sahibi olduğunu bəyan etməklə sadəlövh insanları öz tərəfinə cəlb etmək yolu tutdu. Tədricən onun müştərilərinin sayı da xeyli artdı. Ətraf məntəqlərin sakinləri öz sadəlövhlükləri üzündən həllini axtardıqları məsələlərlə bağlı onun yanına axışırdılar. Dərviş Rza da şirin dili, dilinə gətirdiklərini dini kitablardan yadında qalan ifa-

dələrlə tamamlaması qısa bir zamanda ona inanların sayını da artırdı. Bölgə əhalisində belə bir inam yarandı ki, dərviş Rza doğrudan da kəramət sahibidir və onun şəfaəti hər cürə çətinliyin həlli üçün bir açardır. Bu insanlar ona sadəcə inanmırdılar. Eyni zamanda onlar dərviş Rzanın yanına öz nəzir-niyazlarını da gətirirdilər. Belə güman edilirdi ki, bu nəzir-niyaz onların dərdlərinin həllinə əlavə bir kömək olacaqdır. Dərviş Rza isə müştərilərinin, habelə onların gətirdiyi nəzir-niyazların artmasından istifadə edərək daha böyük iddialara düşürdü. O özünü hətta imam Mehdinin nayibi (müavini) kimi qələmə verir və imam-zamanın zühurunun çox da uzaqda olmadığını insanların beyninə yeridirdi. Yəni sadəlövh insanlarda belə bir inam yaradılırdı ki, imam Mehdinin zühurundan sonra dərviş Rza daha böyük kəramətə və səlahiyyətlərə malik olacaqdır. Dərviş Rzanın fırıldaqları elə bir miqyas aldı ki, hətta özlərini dərviş adlandıranlar da onun fərziyyələrinə inanmağa başlamışdı. Nəticədə, dərviş Rzananın ətrafına toplaşan insanlar onun bütün iradəsini qəbul etməyə başlamaqla, onun dedikləri ilə durub-otururdular. Dərviş Rzanın ətrafında o qədər tərəfdar toplanmışdı ki, artıq bütün bölgə üçün bunu gizlətmək mümkün deyildi. Onun üçün idi ki, Qəzvin şəhərinin idarəçiliyində olan mənsublar da dərviş Rzanın mövcudluğu, təsir imkanları ilə barışır və onunla hesablaşmalı olurdular. Özlərini dərviş Rzanın müridləri adlandıranlar arasında atrıq silahlı insanlar da var idi və onlar da bu dərvişin xidmətində dayanmışdılar (8).

Dərviş Rza bəzi vaxtlar özünün "dövrünün Mehdisi" də adlandırırdı və ona inanan sadəlövh və ağılsız insanlar arasında artıq qiyama qalxmağın və hakimiyyəti ələ almağım vaxtının çatması haqqında da söhbətlər edirdi. Ətrafındakı insanlar da buna inanmışdı və belə bir etiqada malik idilər ki, özünü Mehdi adlandıran bu adam hakimiyyəti ələ almaqla haqq-ədaləti bərqərar edəcəkdir. Nəhayət, dərviş Rza ətrafındakılarla məsləhətləşdikdən sonra qiyam ediləcəyi günü müəyyənləşdirdi. Belə qərara gəlindi ki, onların bu qiyamı Qəzvindəki səltənət iqamətgahının ələ keçirilməsindən başlasın. Bu iqamətgah vaxtilə Şah Təhmasib tərəfindən

tikilmişdi. Dərviş Rza belə güman edirdi ki, bu səltənət iqamətgahının (darüsssəltənə) ələ keçirsə, onda insanların onun ətrafına toplaşması və onu dəstəkləməsi daha da artacaqdır. Bunun üçün ciddi hazırlıq görüldı və 1631-ci ilin yayında dərviş Rza öz dəstəsi ilə Qəzvinə doğru hərkətə başladı. Bu dəstəyə onun silahlı adamları, qarovulları, bayraq daşıyanları və digərləri daxil idi. Böyük bir dəstə silahlıların müşayiəti ilə, dini məzmunlu bayraqlar qaldırmaqla və Quran sədalarının altında Qəzvinə doğru irəliləməyə başladılar. Dərviş Rzanın ətrafındakı izdiham əvvəlcə şəhər darğasının evinə yollandı və ondan tələb edildi ki, bu izdihama təslim olsun. Darğanın təslim olacağı təqdirdə ona toxunulmayacağı bildirilirdi. Darğa Şahverdi bəyin xidmətçiləri qapı qarşısına böyük bir kütlənin toplaşdığını görüncə onun evdən çıxmasına icazə vermədilər. Şahverdi bəy tərəfindən səltənət iqamətgahının kələntəri olan Əbu Turabı da baş verənlərlə bağlı xəbərdar edildi. Kütlənin asanlıqla çəkilməyəcəyini görəndə Şahverdi bəy müdafiə olunmaq üçün lazımı tədbirlər gördü və beləliklə o, dərviş Rza ilə ünsiyyətə girməkdən və onun tələbini qəbul etməkdən çəkindi. Dərviş Rza da darğanın evini, səltənət iqamətgahını asanlıqla ala bilməyəcəyini görəndə bir qədər ehtiyatlandı və öz dəstəsi ilə birlikdə şəhər kənarında olan Qəzvin İmamzadəsinə yollandı. Bu məkan islam müqəddəslərindən birinin dəfn edildiyi bir məkan idi. Qiyamçı dərviş güman edirdi ki, şəhər darğası onun tələbnin qəbul edərək burada onun ayağına gələcəkdir. Şahverdi bəy isə şəhər üçün bir təhlükə yarandığını görüncə daha qətiyyətli hərəkətə keçməyi qərarlaşdırdı. O, şəhər sakinlərinə, xüsusilə də şahsevənlərə (şah hakimiyyətinə etibarlı olanlara) müraciə etdi və onları köməyə çağırdı. Mərkəzi hakimiyyətə sədaqətli olan insanlar Şahverdi bəyin, kələntər və şəhər vəzirinin müşayiəti ilə İmamzadə türbəsinə yollandılar. Dərviş Rzanın ətrafında olanlar böyük bir izdihamın onlara qarşı gəldiyini görəndə qorxuya düşdülər və atəş açmaqla şəhər sakinlərindən birini qətlə yetirdilər. Bunu görəndə şəhər sakinləri kütləvi şəkildə qiyamçıların üzərinə hücum çəkdilər. Əvvəlcə, qiyamçıların İmamzadə ətrafında olan atları ələ keçirildi və sonra

da qiyamçıların özləri atəşə tutuldu. Dərviş Rzanın adamlarından bir neçəsi qətlə yetirildi. Digərləri kütlə qarşısında duruş gətirə bilməyəcəklərini görüb qaçmağa başlaydılar. Amma şəhər sakinləri onları təqib etdilər və onları haqlı cəzalarına çatdırdılar. Dərviş Rza isə bir neçə yaxını ilə birlikdə İmamzadə türbəsi daxilində müdafiə olunmağa çalışırlar. Lakin onlar da şəhər sakinlərinin qəzəbindən qurtara bilmədilər və qətlə yetirildilər. Bundan sonra Dərviş Rzanın yaşadığı yerdə axtarış aparıldı və nəyi varsa alındı. Dərviş Rza qiyamının öldürülmüş olan bir çox üzvlərinin başlar bədənindən ayrılaraq salamat tutulmuş nümayəndələri ilə birlikdə Şah Səfinin hüzuruna göndərildi. Eyni zamanda baş verənlər haqqında müfəssəl məlumat Şah Səfiyə çatdırıldı (9).

Bağdad yürüşünün başa vurulmasından sonra Şah Səfinin səltənətin daxili işləri ilə məşğul olmaq üçün daha çox fürsət əldə etdi. Mənbə müəllifləri göstərirlər ki, bu vaxt Şah Səfi həm də səltənət daxilində təfriqə salanlara, fərdi iddialarını başqalarına qəbul etdirməyə çalışanlara qarşı qətiyyətli mövqe tutdu. Bunun nəticəsi idi ki, səltənət həyatında kifayət qədər nüfuz sahibi olan qorçubaşı İsa xanın üç övladı – Seyid Məhəmməd, Seyid Əli və Seyid Məsum qətlə yetirildilər. Mövcud olan məlumatlar onu göstərir ki, bu adamların öldürülməsinə səbəb Şah Səfi hakimiyyətinə müxalifət yaradılması cəhdləri ilə bağlı idi. Həmin məlumatlardan belə aydın olur ki, Şah Abbasın dünyasını dəyişməsindən sonra saray əyanları, qoşun başçıları, şahın yaxın ətrafı səltənət daxilində hakimiyyətsizliyə yol verməmək, hər cürə mümkün özbaşınalıqların qarşısını almaq üçün tezliklə bir nəfərin taxt-taca çıxarılmasını istəyirdilər. Şah Abbasın Sam Mirzəni varis kimi görməsindən xəbəri olmayan insanlar bu zaman kimin şah ola biləcəyi üzərinə düşünməyə başladılar. Tarixdən məlumdur ki, bu zaman Şah Abbasın beşinci oğlu olan İmamqulu Mirzə də taxt-taca öz iddiasını ortaya qoydu. İmamqulu Mirzə dünya işığından məhrum edilmişdi. Bununla belə, o, görmə qabiliyyətini tamamilə bildirirdi. Saray mənsublarının və əyanlarının nəzərində İmamqulu Mirzənin şah övladı kimi birbaşa varislik haqqı var idi. Hətta belə bir fikir də

ortaya qoyulmuşdu ki, İmamqulu Mirzənin şahlıq taxtında çətinliklə qarşılaşacağı təqdirdə onun oğlu Nəcəfqulu Mirzə sonradan taxta çıxarıla bilər. Lakin bu ideya qədul edilmədikdə qorçubaşı İsa xanın övladlarından birinin taxta çıxarılması məsələsi ortaya çıxdı. İsa xan birbaşa varislik haqqına malik olmasa da o, Səfəvi nəslindən idi. Onun xanımı Şah Abbasın qızı idi. Buna görə belə güman edilirdi ki, Abbas Mirzənin övladlarından kimsənin şahlıq taxtına çıxması imkanı olmadığı üçün şah ailəsinə qan bağlılığı çatan qorçubaşının böyük oğlu Seyid Məhəmməd yeni şah elan edilsin. Bir daha qeyd edilməlidir ki, bu təklifi ortaya atanların Şah Abbasın vəsiyyətindən xəbərləri yox idi. Onlar da əslində səltənət daxilində nizamın qorunması üçün bu təşəbbüslə çıxış edirdilər. Seyid Məhəmmədin mümkün seçimlərdən biri olduğunu ortaya atanlar məsələnin həlli üçün İsa xanla görüşdülər və məsələnin mahiyyəini ona çatdırdılar. İsa xan isə bu təklifdən birmənalı şəkildə imtina etdi. O bildirdi ki, hakimiyyət haqqı Şah İsmayıl və Şah Təhmasib varislərinə məxsusdur. İsa xan bildirdi ki, adlarını çəkdiyi şahlar öz qılıncları ilə düşmənlərini yol üzərindən təmizləmiş və şiə təriqətini yaymağa müvəffəq olmuşlar. Onun sözlərinə görə, şah nəslinə qohumluğu çatsa da Səfəvi hakimiyyətinə hər zaman sədaqətli olmuşdur, Səfəvi silsiləsinin duz-çörəyinə qarşı naməhrəmlik etməmişdir. İsa xan onun oğlunu şah taxtına çıxarmaq istəyənlərə bildirdi ki, tutduqları fitnə yolundan çəkinsinlər və kənar fikirlərə düşməsinlər. İsa xan hətta onu da bildirdi ki, əgər bu adamlar öz fitnələrindən əl çəkməsələr, onda adam göndərib öz övladlarının boynunu vurduracaq ki, onun övladlarından şah hakimiyyətinə qarşı sui-istifadə olunmasın. İsa xanın yanına gələnlər sərt müqavimətlə rastlaşdıqları üçün söhbəti qapamalı oldular (10).

İsa xan tərəfindən bu söhbət qapansa da, ondan xəbərdar olanlar vaxtaşırı Şah Səfi yanında bu məsələni təzələməyə çalışdılar. Bəzi məlumatlara görə, İsa xanın oğlu Seyid Məhəmməd də ara bir şah olmaq iddiası haqqında söhbətlərə girişərmiş. Saray xacə-sarayları dəfələrlə Şah Səfinin yanında məsələ qaldırmışdılar ki,

Seyid Məhəmmədin bu xəyallarından ehtiyatlanmaq lazımdır. Onlar Şah Səfini inandırmağa çalışırdılar ki, Seyid Məhəmməd nə vaxtsa özünün xam xəyallarını həyata keçirməyə çalışar və bəzi adamlar da onu buna təhrik edə bilərdilər. Hətta bələləri və saray adamları Şah Səfini ova çıxdığı zaman ehtiyatlı olmağa çağırırdılar ki, ona qarşı hər hansı bir hadisə baş verməsin. Xüsusilə, saray mənsublarından olan Çıraq xan belə söhbətlərin ortaya atılmasında daha çox canfəşanlıq edirdi və Şah Səfini İsa xan ailəsindən çəkindirməyə çalışırdı. Açıq şəkildə bildirilirdi ki, Şah Abbasın qız nəvələrindən də kimsə salamat qalmalı deyil ki, gələcəkdə hakimiyyətə iddia irəli sürsünlər. Ən azı bu insanların dünya işığından məhrum edilməsi davamlı olaraq təklif olunurdu. Nəhayət, Şah Səfi bu təkidlərin qarşısında İsa xanın övladlarının cəzalandırılması qərarına gəldi. Həmin günlərdə sarayda Xızır Nəbi bayramının keçirildiyi bir vaxtda şahın tapşırığına əsasən, sipəhsalar Rüstəm bəylə Çıraq xan bu qərarın icrasına yollandılar. Rüstəm bəylə Çıraq xan İsa xanın evinə gəldilər və ona bildirdilər ki, Şah Səfi onun övladlarının səltənət qoşunlarında xidmət etməsini istəmir. Ona görə də onun övladları həbs olunaraq Ələmut qalasına aparılcaqdır. Yəni onlar İsa xanı aldatdılar ki, onun övladları yalnız həbs olunacaqdır. İsa xan da çarəsiz qalıb övladlarını onlara təhvil verdi. Amma İsfahanın Çaharbağında onun övladlarının hər üçü qətlə yetirildi və başları vurularaq şahın hüzuruna aparıldı. Eyni vaxtda Şah Abbasın digər qız nəvələrinə qarşı da bu qətllər icra edildi və Şah Səfinin hakmiyyətinə təhlükə kimi qəbul edilə biləcək neçə-neçə şah övladları o dünyaya göndərildilər (11).

Bir daha qeyd edilməlidir ki, mənbələrdə qətlə yetirilən bu insanlar təfriqə, fitnə-fəsad mənbələri kimi təqdim olunmuşlar. Əslində isə, İsa xandan əlavə, səltənət vəzirinin (etümadüddövlənin), səltənət sədrinin (dini işlər üzrə rəhbərin), səltənətin keçmiş sədrinin və digərlərinin övladları da bu kütləvi qətllərin qurbanı oldular(12).

Bu kütləvi qətllərdən sonra həm də kütləvi şəkildə yeni təyinatlar baş verdi. Övladları qətlə yetirilən vəzifə sahibləri mərkəzi

hakimiyyətə sədaqətsiz təbəqə kimi qəbul edilərək özləri də vəzifələrdən uzaqlaşdırıldılar və onların yerinə yeniləri təyin edildilər. Belələrinin sayı çox idi. Onlardan biri də səltənət vəziri və ya etimadüddövlə vəzifəsi idi. Bu vəzifəsini kütləvi qətllərin həyata keçirildiyi vaxta qədər Xəlifə Sultan tuturdu. Səltənət vəziri vəzifəsi kifayət qədər böyük vəzifə idi və bu vəzifəni tutan adam səltənət daxilində şahdan sonra ikinci səlahiyyətli adam hesab olunurdu. Xəlifə Sultan vəzifəsindən uzaqlaşdırıldıqdan sonra onun yerinə Şah Abbas dövrünün böyük vəzirlərindən olan, Azərbaycanın dövlətçilik tarixində özünəməxsus yer tutmuş Hatəm xan Ordubadinin oğlu Mirzə Talıb xan təyin edildi. O bu vəzifəyə Hatəm xan Ordubadinin oğlu olduğuna görə deyil, xidmət qabiliyyətinə və istedadına görə təyin edildi. Səltənət sədri vəzifəsinə isə dövrün böyük fazillərindən və üləmalarından biri sayılan Mirzə Həbibulla gətirildi. O, Cəbəlamol alimləri nəslindən idi və özü də din elmində böyük xidmətlərə malik idi. Yeni təyinatlardan biri də səltənət qorçubaşısı vəzifəsinə oldu. Övladları qətlə yetiriləndən sonra İsa xan da bu vəzifədən kənarlaşdırıldı. Onun yerinə Çıraq xan təyin edildi. Çıraq xan Şah Səfinin ulu əcdadı olan Şeyx Səfiəddinin ustadı Şeyx Zahid Gilaninin nəslindən idi. Onun özü də, əcdadları da Səfəvi xanədanının sədaqətli xidmətçiləri kimi tanınmışdılar. Çıraq xan hələ Şah Abbasın hakimiyyəti illərində böyük vəzifəyə keçməyə çalışsa da, niyyətinə nail ola bilməmişdi. Bununla belə, o çalışırdı ki, niyyətini öz daxilində gizli saxlasın və vəzifə düşgünü kimi tanınmasın. Kütləvi qətllərin baş verməsindən sonra onda qorçubaşı vəzifəsinə təyinat almaq istəyi gücləndi. İsa xandan sonra o heç də yeganə namizəd kimi ortaya çıxmadı. Çıraq xan görəndə ki, bu vəzifəyə təyin edilməkdən də əli üzülə bilər, onda öz gizli fitnəsi ilə o, qorçubaşının vəzirini də qətlə yetirə bildi. Ola bilsin ki, həmin adam Çırağ xanın bu vəzifəyə gəlməsinə mane olmaq istəyirmiş. Nəhayət ki, Çıraq xan qorçubaşı vəzifəsinə təyinat ala bildi. Bu vəzifəyə gələndən sonra İsa xanın tiyul əraziləri də ona verildi. Çıraq xana tapşırıldı ki, öz gəlirlərindən İsa xana yüz tümən pul ayırsın və İsa xan da bir tərəfə

çəkilərək dua və ibadətləri ilə məşğul olsun. Amma bu pul və bütünlükdə İsa xanın sağ-salamat yaşaması da Çıraq xana çox göründü və o, yenə öz fitnələrini işlədərək Çıraq xanı qətlə yetirdi. Belə fitnə sahibi olan Çıraq xanın öz ömrü də uzun olmadı. Çox tezliklə o özü də fitnə qurbanı oldu və qətlə yetirildi. Həmin vaxtlarda Mirzə Məhəmməd vaqiənevis vəzifəsinə, Əliqulu bəy cilovdarbaşı vəzifəsinə, Mehdiqulu bəy məşəldarbaşı vəzifəsinə təyin aldılar. Bu mənsəb sahibləridərhal öz vəzifələrinin icrasına başladılar (13).

Çıraq xanın qətlə yetirilməsi 1632-ci ilə təsadüf edir. Hakimiyyətin möhkəmləndirilməsi adı altında həmin ildə şah nəslindən olan bir sıra şahzadələr də qətlə yetirildilər. İsgəndər bəy Münşinin yazdığından belə bir qənaətə gəlmək olar ki, həmin şahzadələr Ələmut qalasında həbsdə olsalar da onlar ətrafında xoşagəlməz söhbətlər gəzir, onların hakimiyyətə iddiası haqqında şayiələr dolaşırdı. Hakimiyyətin möhkəmlənməsinə qarşı yönəlmiş belə söhbətlərin yarada biləcəyi təhlükələri önləmək üçün Şah Səfi də yaxın qoşumlarının qətlinə fərman verdi. Qətlə yetirilənlər arasında Şah Abbasın iki oğlu var idi – onun üçüncü oğlu Sultan Məhəmməd Mirzə, beşinci oğlu İmamqulu Mirzə. Onların hər ikisinin gözləri hələ Şah Abbasın hakimiyyəti illərində kor edilərək Ələmut qalasına göndərilmişdi. Kor olmalarına baxmayaraq, Şah Səfi onları öz hakimiyyətinə təhlükə kimi qəbul etdi və onların həyatına son qoydu. Sonra İmamqulu Mirzənin oğlu Nəcəfqulu Mirzə və Şah Səfinin qardaşı Süleyman Mirzə də qətlə yetirilənlər arasında idi. Onların yaşı elə də çox deyildi. Bununla belə, Şah Səfi onların da qətlə yetirilməsinə fərman verdi. Qətlə yetirilənlər arasında Şah Abbasın və II Şah İsmayılın qız nəvələri də var idi – Səncər Mirzə, Sultan Hüseyn xan (14).

3.Müqəddəs məkanların abadlaşdırılması

Şah Səfi Bağdad yürüşü zamanı müqəddəs məkanları ziyarət edərkən həmin məkanların abadlaşdırılmasına da xüsusi diqqət

yetirirdi. Bu ziyarətlər zamanı Şah Səfi həzrət Əlinin Nəcəfdə yerləşın məqbərəsinin abadlaşdırılmalı olduğu qənaətinə gəldi. Çünki bu məqbərənin daxili hissəsi ziyarətə gələn zəvvarlar üçün darlıq təşkil edirdi. Ona görə də Şah Səfi bu ziyarətgahın künbəzinin genişləndirilməsi və abadlaşdırılmasını lazım bildi. Bundan başqa Nəcəf zəvvarları burada su qıtlığından böyük əziyyət çəkirdilər. Yaxınlıqda su mənbəyi olmadığından onun uzaq məsafədən daşımaq lazım gəlirdi. Bu da həm vaxt itkisinə, həm də böyük maliyyə xərcinin çəkilməsinə səbəb olurdu. Həmin çətinliklərin aradan qaldırılması üçün Şah Səfi Fərat çayından Nəcəf ziyarətgahına su çəkilməsi haqqında qərar qəbul etdi. Bu planın yerinə yetirilməsi ziyarətgahı davamlı içməli su ilə təmin edə bilərdi. Nəticədə həzrət Əlinin ziyarətinə gələnlər də bir dəfəlik su çətinliklərindən xilas ola bilərdilər. Eyni zamanda məqbərənin künbəzinin yenidən qurulması məqsədəuyğun sayıldı. Bu məsələnin həlli də ilk növbədə zəvvarların rahatlığı üçün nəzərdə tutulmuşdu. Künbəzin yenidən qurulması və genişləndirilməsi ilə ziyarət məkanı da genişlənə bilərdi ki, bu da zəvvarların rahadlığını təmin edə bilərdi. Şah Səfi bu işə rəhbərliyi Gilan və Mazandaran vəziri Mirzə Məhəmməd Tağıya tapşırdı. Sarı Tağı kimi tanınan bu adam Şah Abbasın hakimiyyəti illərində Mazandaranda bir sıra böyük binaların tikintisinə rəhbərlik etmişdi. Onun bu işlərdəki təcrübəsi nəzərə alındığı üçün idi ki, Şah Səfi tərəfindən Nəcəf ziyarətgahının abadlaşdırılması işləri də ona tapşırıldı (15).

Sarı Tağının sərəncamına səltənətin ən yaxşı mühəndisləri və ustaları verildi. Bundan başqa Sarı Tağı ona tapşırılan işlərin görülməsi üçün zəruri olan maliyyə vəsaiti ilə də təmin edildi. Sarı Tağı da Nəcəfə yollanaraq ona tapşırılan işin icrası ilə məşğul oldu. Bu işlərin icrası üçün yetərli sayda işçi qüvvəsi toplandıqdan sonra Sarı Tağı Fərat çayından Nəcəfə qədər kanal çəkilməsinə başladı. Bu iş altı aya qədər davam etdi və sonda Fərat çayının suyunu Nəcəfə yetirmək mümkün oldu. Mənbə müəlliflərinin fikrincə, bu işlərin aparılması zamanı Sarı Tağı və onun inşaat dəstəsi bir sıra çətinliklərlə qarşılaşdılar. Onların xidmətində olduq-

ları müqəddəs insanların kəraməti həmin çətinliyi asanlıqla aradan qadırmağa imkan verdi. Bu kəramət Fərat çayının Nəcəfə çəkilməsində də özünü göstərdi. Belə ki, Sarı Tağı və onun yanında olan mühəndislər, ustalar Fərat çayının kənarına gəlib kanalın haradan çəkilməli olduğunu müəyyənləşdirdilər. Kufəyə kimi bu kanalı asanlıqla çəkmək mümkün oldu. Kufədən sonra isə qumluq səhra başlayırdı. Qum içərisində su kanalının necə çəkilməsi məsələsi ortaya çıxdı. Əvvəla, kanal qazıldıqca kənardan qum axıb onu doldururdu. Digər tərəfdən də qum üzərinə buraxılan su elə qumun içində yox olub gedəcəkdi. Belə qərara gəlindi ki, əgər qazılan yerdə möhkəm torpaq sahəsi əldə edilməsə suyun Nəcəfə çatdırılması mümkünsüz olacaqdır. İşçilər yaradana təvəkkül edib kanalı qazmağa başlayırlar və çox keçmədi ki, onlar kanalın yatağında möhkəm torpağa rast gəldilər. Bu da imkan verdi ki, Fərat suyunu kanalla axıdıb Nəcəfə çatdırmaq mümkün olsun (16).

Bu işlər zamanı insanlara möcüzə kimi görünən digər hadisə isə həzrət Əli ziyarətgahının künbəzinin təmiri zamanı özünü göstərdi. Ziyarətgahın künbəzinin bərpası və yenidən qurulması ilə bağlı işlər o yerə çatdı ki, mərmər parçalarının işlədilməsinə ehtiyac yarandı. Nəcəf ətrafında və yaxın bölgələrdə isə mərmər mədəni yox idi və ona görə də işlərin aparılmasında da bir fasilə yarandı. Sarı Tağı və onun yanındakılar məsələnin necə həll edilməsi üzərində baş sındırdıqları zamanı bir nəfər onlara yaxınlaşdı və dedi ki, Nəcəf ətrafında mərmər mədəni tapmaq mümkündür. Sarı Tağı da sevincək ən yaxşı daş ustalarını, daş yonanları ona qoşdu və göndərdi ki, gedib həmin mədəni axtarsınlar. Nəcəf ətrafında belə bir mədənin olması barəsində xəbər yox idi. Bu dəstə Nəcəfdən bir qədər aralandıqdan sonra xəbər gətirən adanmın işarəsi ilə yeri qazmağa başladılar. Doğrudan da, ustalar yeri bir qədər qazdıqdan sonra mərmər mədəninə rast gəldilər. O da bəlli oldi ki, bu yerin mərməri çox saf mərmərdir. Mənbə müəllifinin yazdığına görə, ustalar sevindiklərindən papaqlarını göyə atdılar və sonra da mərmərin çıxarılmasına başladılar. Bu da ona imkan verdi ki, Nəcəf ziyarətgahının künbəzinin təmir-bərpa işlərini yerinə yetir-

mək mümkün olsun. 1632-ci ilin ilk aylarında Sarı Tağı Şah Səfinin hüzuruna gələrək tapşırılan işlərin icrası haqqında ona məlumat təqdim etdi (17).

Nəcəfdə işləri tamamlayan Sarı Tağı sonra da Kərbəlaya yollandı. Orada imam Hüseynin məqbərəsi ətrafına su gətirən kanalın işində müəyyən çətinlik ortaya çıxmışdı. Həmin kanal xeyli əvvəl çəkilmişdi. Ona görə də kanalın yatağının təmizlənməsinə ehtiyac var idi. Çünki kanalın yatağı tutulduğundan çox az miqdarda su ziyarətgaha gəlib çıxırdı. Bu iş də uğurla yerinə yetirildi və Kərbəla ziyarətgahına su gətirilməsi də bərpa edildi (18).

4. Səltənətin şərq hüdudlarının müdafiəsi

1632-ci ilin sonlarına yaxın özbək qoşunlarının yenidən Xorasan vilayəti sərhədlərinə hücum etməsi haqqında məlumat alındı. Şah Səfinin hakimiyyətə gəlməsinin ardınca uğursuzluqla başa çatan hücumdan sonra özbək xanları yenə də sakitləşə bilmədilər. Çox güman ki, Osmanlı qoşunlarının Səfəvi dövləti üzərinə hücum etməsi və bu qoşunlara qarşı aparılan mübarizənin qızılbaş qoşunlarının gücünü zəiflətməsi ehtimalı özbəklərdə yeni bir iştaha yaratmışdı. Onun üçün idi ki, özbəklər yenidən Səfəvi hüdudları üzərinə hücuma keçdilər və bir neçə qalanı ələ keçirməyə cəhd göstərdilər.

Mütəxəssislərin fikrincə, bir sıra səbəblər var idi ki, onlar özbək hücumlarının yenidən başlamasına yol açırdı. O cümlədən, tərəflər arasında mövcud olan siyasi ixtilaflar və özbəklərin daha geniş əraziləri ələ keçirimək niyyətləri, iqtisadi ixtilaflar, tərəflər arasındakı dini ixtilaflar. Bu ixtilaflar tərəflərin din xadimləri tərəfindən daha da qızışdırılırdı. Özbək xanlıqlarının məskunlaşdıqları ərazilərdə qışın ağır keçməsi və iqtisadi çətinliliklərin yaranması qoşunları daha məhsuldar qonşu vilayətlər üzərinə hücum etməyə və həmin vilayətləri talan etməyə sövq edirdi. Özbəklərin Xorasan vilayəti üzərinə hücuma başlamasının bir səbəbi də mədəni ixtilaflar idi. Öz inkişaf səviyyəsinə görə Xorasan vilayəti özbək

xanlıqlarının yerləşdiyi ərazilərə nisbətən daha inkişaf etmişdi. Şəhər həyatı, təsərrüfatın daha nizamlı şəkildə qurulması, bazarların inkişaf etməsi özbəkləri bu vilayətə cəlb edirdi. Özbəkləri bu vilayətə cəlb edən səbəblərdən biri də Xorasanda ticarət imkanlarının geniş olması idi Xorasan vilayəti həm yeni bazar idi, həm də qərbə doğru uzanan ticarət yollarının keçdiyi bir məkan idi. Bu vilayətin nəzarət altına alınması həm də böyük gəlirlərə yol aça bilərdi. Osmanlı dövlətinin siyasi və dini müdaxilələri də özbəkləri Xorasan vilayəti üzərinə hücuma keçməyə təhrik edirdi. Osmanlı sarayı Səfəvi dövlətinin zəiflədilməsi və Səfəvi dövləti üzərinə başlanan hücumların uğurla başa çatdırılması üçün özbəklərin Xorasan vilayətini daim gərginlik altında saxlamasını istəyirdi. Ona görə də özbək xanları qızışdırılır və Xorasan üzərinə hücuma təhrik edilirdi. Başlanan müdaxilənin bir səbəbi də özbəklərin Xorasan vilayətinə iddia irəli sürməsi idi. Onların fikrincə, bu vilayət onlara Çingiz xandan və Əmir Teymurdan irs qalmışdı və onların bu vilayətə sahib çıxmaq haqqı vardı (1).

Bütün bunlar və başlıcası isə Səfəvi dövlətinin başının Osmanlı dövlətinə qarışması ehtimalı özbək xanlarının yenidən Xorasan üzərinə hücumuna yol açmışdı. Mənbə məlumatlarına görə, özbək xanları Xorasanın keçmiş sərdarı Zaman xanla əldə edilmiş razılaşmanı pozaraq böyük iddialara düşdülər. Mavərənnəhr hakimi İmamqulu xan yaranmış fürsətdən istifadə edərək Maruçaq, Mərv və digər qalaları ələ keçirmək üçün əməli fəaliyyətə başladı. Özbək hakimlərinin Xorasan vilayəti üzərinə yeni hücumları haqqında məlumat alınan kimi, Şah Səfi də qarşılayıcı tədbirlərin görülməsi haqqında fərman verdi. Onun qərarı belə oldu ki, səltənətin tanınmış və təcrübəli əmirlərindən birinin rəhbərliyi altında Xorasana qoşun dəstəsi göndərilsin. Bu qoşun dəstəsi vilayətin qoşun dəstəsi və köməyə göndərilə biləcək digər qoşun dəstələri ilə birlikdə özbək qoşunlarının hücumunun qarşısını almalı idi. Xorasana göndəriləcək qoşun dəstəsinə rəhbərlik süfrəçibaşı Xələf bəyə tapşırıldı. Xələf bəy hələ Şah Abbasın hakimiyyəti illərində səltənətə sədaqətlə xidmət etməklə dəfələrlə verilən mürəkkəb

tapşırıqların öhdəsindən bacarıqla gələ bilmişdi. Ona görə də onun namizədliyi qəbul edildi. Xorasanda olan tüfəngçilər dəstəsi, səltənət tüfəngçilərinin əlavə bir dəstəsi və başqa qüvvələr Xələf bəyin rəhbərliyi altına verildi. Xələf bəyə belə bir səlahiyyət də verildi ki, ehtiyac yaranarsa Xorasan və ətraf vilayətlərdən əlavə tüfəngçiləri də öz dəstəsinə cəlb etsin. Belə bir tapşırığı alandan sonra Xələf bəy ona verilmiş qüvvələri də yanına alaraq İsfahanı tərk etdi (2).

Özbək qoşunlarının hücumu ərəfəsində Mərv hakimi Aşur xan Çegəni dünyasını dəyişdi. Bu da özbək xanları üçün əlavə bir fürsət oldu. Orada olan qoşun dəstəsinin əksəriyyətini qacar tayfasının üzvləri təşkil edirdilər. Onlardan başqa Aşur xandan əvvəl Mərv hakimi olmuş Mehrab xanın xidmətçiləri olmuş bir dəstə də Mərvdə qalmaqda idi. Özbək hücumu qarşısında Mərvin başsız qalmaması üçün Aşur xanın oğlu Murtuzqulu bəy bu qalanın hakimi təyin edildi. Həmin vaxt Murtuzqulu bəy Qəzvin darğası idi və ona göstəriş verildi ki, dərhal Mərvə yollansın və bu qalaya hakimliyi öz üzərinə götürsün. Murtuzqulu xan da Məşhədə yetişəndə xəbər tutdu ki, İmamqulu xan artıq 15 min nəfərlik bir qoşun dəstəsi ilə Mərv qalasını mühasirəyə alıb. Bu mühasirədən keçib Mərvə daxilinə yol tapmaq mümkün olmadığı üçün Murtuzqulu bəy bir müddət Məşhəddə dayanmalı oldu (3).

Belə bir vaxtda xəbər alındı ki, Bəlx hakimi Nədr Məhəmməd xan oğlu Əbdüləziz sultanı 20 minlik qoşun dəstəsi ilə Maruçaq qalasının mühasirəsinə göndəribdir. Həmin xəbər Şah Səfiyə də çatdırıldı. O isə belə bir qənaətə gəldi ki, Xorasana Xələf bəyin rəhbərliyi altında göndərilmiş qoşun dəstəsi özbək qoşunlarının hücumunun qarşısını almağa yetərli deyildir. Ona görə də qərara alındı ki, səltənət sipəhsaları Rüstəm bəyin rəhbərliyi altında yeni bir qoşun dəstəsi Xorasana göndərilsin. Rüstəm bəy vilayətdə olan bütün qoşunları öz rəhbərliyi altına almaqla özbək qoşunlarının hücumunun qarşısını almalı idi. Şahın fərmanı ilə Dərcəzində olan Rüstəm Məhəmməd xan da geri çağırıldı və Xorasana göndərildi. Rüstəm Məhəmməd xan əvvəllər Xorasan vilayətinə daxil olan

bəzi məntəqələrin hakimi idi. Həmin məntəqələr yenidən onun hakimliyinə verildi. Məhəmməd Rüstəm xana yeni yerində xərcliklər üçün 3 min Təbriz tüməni miqdarında nağd pul, bir min tümən həcmində lazım olan əşyalar və təchizat ayrıldı. Bundan başqa nəzərdə tutulmuşdu ki, Xorasanda toplanan vergilərdən də ona 2 min tümən pul ayrılsın. Bu vəsaitlər hesabına Məhəmməd Rüstəm xan bölgənin müdafiəsinin təşkilinə çalışmalı idi. Ondan əvvəl bölgəyə yola düşmüş Xələf bəy isə bölgəyə yetişən kimi Məşhəd bəylərbəyi Mənuçehr xanla birlikdə Mərvə yollanmaq və Mərvə daxil olmaq üçün hazırlıqlarına başladı. Məhz bu anlarda Xorasan bəylərbəyi Həsən xanın yanından bir nəfər gəldi və Əbdüləziz sultanın rəhbərliyi altında olan 20 min nəfərlik qoşun dəstəsinin Maruçağı mühasirə etməsini onlara çatdırdı. Xələf bəy və onun yanındakı böyük əmirlər belə hesab etdilər ki, Məşhədə qayıtsınlar, əlavə qüvvələr toplasınlar və sonra da birləşmiş qüvvələrlə özbək qoşunlarının üzərinə hücum etsinlər. Yəni Maruçaq qalasının da mühasirəyə alınması xəbəri qızılbaş dəstələrinin Mərv istiqamətində hərəkət etməsini təxirə saldı. Amma bu qərarla razılaşmayanlar da oldu. Belə ki, Səbzəvarın keçmiş hakimi Əhməd Sultan Çegəni Məşhədə dönsə də Mərvə qayıtmaq barəsində Xələf bəy qarşısında məsələ qaldırdı. Mənbə məlumatlarına görə, Əhməd Sultan bu əməli ilə sübut etmək istəyirdi ki, o, dövlətə sədaqətli bir insandır və onu öz vəzifəsindən ciddi bir əsas olmadan azad ediblər. Əhməd Sultan bildirdi ki, kimsənin duyuq düşə bilməyəcəyi yollarla özbəklərin mühasirəsini yarıb Mərv qalasına daxil ola biləcəkdir. Xələf bəy onun bu istəyinə qarşı çıxmadı. Doğrudan da, Əhməd Sultan özbəklərin müşahidə edə bilməyəcəkləri yollardan keçməklə gecə vaxtı Mərvin qala divarlarına yaxınlaşdı, divar üstündəkiləri səsləyib kim olduğunu onlara çatdırdı. Bundan sonra qala mühafizəçiləri darvazanı açaraq onu içəri buraxırlar. Beləliklə, Əhməd Sultan həyatını risqə qoymaq bahasına qala mühafizəçilərinin köməyinə çatdı (4).

Sultan Əhmədin Mərv qalasına daxil olması barəsində xəbər alandan sonra Murtuzqulu bəy də ora yollanmaq qərarına gəldi və

istədi ki, şəhərin yeni hakimi kimi müdafiə işlərinə rəhbərliyi öz üzərinə götürsün. Onu gizli yollarla şəhərə çatdırmağa söz verən adamlar da tapıldı. Xələf bəy də onun Mərvə yollanmasına etiraz etmədi. Mənbə məlumatlarına görə, Murtuzqulu bəy yaxın ətrafından ibarət 35 nəfərlik bir dəstə ilə işlək olmayan yollarla Mərvə doğru hərəkətə başladı. Bu şəhərə bir mənzillik məsafə qalmış Murtuzqulu bəy istirahətə dayandı. Mərvə yetişmək ərəfəsində olması haqqında bir məktub yazıb onu qala sakinlərinə göndərdi. Həmin gün təsadüfən özbək qoşunlarından bir dəstə Məşhəd və Nişapur ətrafını talan etmək üçün Mərv qalasından ayrılmışdı. Səhrada hərəkət zamanı bu dəstə Murtuzqulu bəyin çaparı ilə rastlaşdı. Bu çapardan tapılmış məktubdan aydın oldu ki, Murtuzqulu bəy hansı yolla, nə vaxt Mərv qalasına yaxınlaşacaqdır. 1500 nəfərdən ibarət olan bu özbək dəstəsi Murtuzqulu bəyin hərəkət edəcəyi yol tərəfə istiqamət götürdü. Bu dəstə üzvləri yol boyu gizli mövqelər tutdular və müəyyən olunmuş vaxtda Murtuzqulu bəy də, onun ətrafındakılar da özbəklərin əlinə keçdilər (5).

Murtuzqulu xan özbəklərin əlinə keçəndən sonra qalanın bütün müdafiəsi qala daxilindəkilərin üzərinə düşdü. Bir neçə gün qala üzərinə şiddətli hücumlar davam etdi. Hər iki tərəfdən xeyli sayda adam qətlə yetirildi. Lakin özbəklər Mərv qalasını ələ keçirə bilmədilər. Özbək əmirləri görəndə ki, etdikləri hücumlarla Mərvi ələ keçirmək mümkün deyil. Onda onlar geri çəkilmək məcburiyyətində qaldılar (6). Özbəklər Mərv qalasından geri qayıtdıqdan sonra Maruçaq qalası ətrafında da mühasirə dayandırıldı və oradakı özbək dəstələri də geri qayıtmalı oldular.

İsgəndər bəy Münşinin yazdığına görə, İmamqulu xanla Murtuzqulu xan valideynlərinin kəbin əlaqələrinin yaranmasında Şah Abbasın da vasitəçiliyi və təsiri var idi. Ehtimal edilir ki, İmamqulu xan Şah Abbas tərəfindən onun valideynlərinə ehtiramla yanaşılması mühasirənin dayandırılmasına təsirsiz ötüşmədi. Səfəvi xanədanı tərəfindən onun əcdadlarına qayğı ilə yanaşılması İmamqulu xanı mühasirəni dayandırmağa sövq etdi. Yəni Mərvin mühasirəsinin özbəklər tərəfindən dayandırılması yalnız hərbi səbəb-

lərlə bağlı deyildi. Mərvin mühasirəsi dayandırıldıqdan sonra Maruçaq qalasının mühasirəsinə də son verilməsi haqqında qərar qəbul edildi. Bundan sonra özbək qoşunları geri çəkilib Buxaraya yollandılar.

Bir məlumata görə isə, özbək qoşunlarının əmirləri adları çəkilən qalaların mühasirəsinin səmərəsizliyini gördükləri üçün bu işdən əl çəkdilər. Belə ki, şahın tapşırığı ilə Məşhədə gəlmiş olan Xələf bəy 20 min nəfərlik qoşun dəstəsi ilə Herata doğru hərəkətə başladı. O, Herat ətrafında Xorasan bəylərbəyi Həsən xanın rəhbərliyi altında olan qoşun dəstəsi ilə birləşməli idi. Nəticədə böyük bir qoşun dəstəsinin formalaşacağı göz qabağında idi. Digər tərəfdən də Rüstəm Məhəmməd xan Xorasana göndərildi. Onun da rəhbərliyi altında müəyyən sayda qüvvə var idi. Nəhayət, həm də məlumat alınmışdı ki, sipəhsalar Rüstəm bəy də öz qoşun dəstəsi ilə Xorasana gələcəkdir. Bütün bunlar barədə məlumat alan özbək əmirləri Xorasanda dayanmağın qoşunlar daxilində böyük itkilərə yol açа biləcəyi qənaətinə gəldilər və ona görə də adları çəkilən qalaların mühasirəsini dayandıraraq vilayəti tərk edib geri qayıtdılar (7).

Özbəklər Murtuzqulu xanı da özləri ilə apardılar. Lakin ona hörmətlə yanaşdılar. Belə ki, Mavərənnəhr hakimi İmamqulu xanın onunla qohumluq bağları var idi. Murtuzqulu xanın anası vaxtilə İmamqulu xanın atasının kəbinində olmuşdu. Ona görə də, İmamqulu xan onun qətlinə fərman vermədi və qohumluq bağları ona gətirdi ki, Murtuzqulu xan əsirlikdən azad edildi. Mərvin yeni hakimi vəzifəsinə isə Şah Səfi tərəfindən Nəğdi xan təyin edildi. Bu vəzifəyə təyin edilməklə bir vaxtda ona "xan" məqamı da verildi. Nəğdi xan da dərhal Mərvə yollandı və bu qalanın və bütünlükdə əyalətin hakimliyini öz üzərinə götürdü (8).

Murtuzqulu xanın özbək əsirliyindən azad edilməsi Nəğdi xanın Mərv hakimi təyin edilməsindən sonra baş verdi. O, Mərvə gələndə Nəğdi xanın artıq bu əyalətə təyin edilməsi xəbərini aldı. Ona görə də Murtuzqulu xan orada dayanmayıb Məşhədə döndü. Şah Səfi eşidəndə ki, Murtuzqulu xan özbək əsirliyindən azad edi-

lib, onda ona qarşı yeni bir iltifat göstərdi. Murtuzqulu xan yenidən Mərv hakimi təyin edildi və Mərvə göndərildi. Nəğdi xan isə geri çağırıldı (9).

Özbək qoşunlarının Xorasandan geri çəkilməsindən dərhal sonra Gürcüstanda mərkəzi hakimiyyət əleyhinə qiyam qaldırılması haqqında xəbər alındı. Şah Səfinin fərmanı əsasında Xorasanın köməyinə göndərilmiş olan sipəhsalar Rüstəm bəy qoşun dəstəsi ilə geri çağırıldı.

Özbək xanları və əmirləri isə Xorasandan geri çəkilsələr də bu vilayətə olan iddialarından heç də əl çəkmədilər. Tezliklə Xorasan bəylərbəyi Həsən xan tərəfindən Şah Səfiyə xəbər göndərildi ki, Nədr xanın oğlu Əbdüləziz xanın rəhbərliyi altında 20 min nəfərlik qoşun dəstəsi təcrübəli əmirlərin iştirakı ilə Maruçaq yaxınlığına toplaşmışlar və onların yenidən Maruçaq üzərinə hücum etmək niyyəti vardır. Xorasan vilayətində hərbi vəziyyətin yenidən mürəkkəbləşməsi ilə əlaqədar olaraq Şah Səfi yaxın ətrafını məşvərət toplantısına yığdı. Burada yaranmış vəziyyətdən çıxış yolunun tapılması müzakirə edildi. Məşvərət toplantısının iştirakçıları belə məsləhət gördülər ki, səltənət sipəhsaları Rüstəm bəy qoşun dəstəsi ilə yenidən Xorasana, Xələf bəyin və Xorasan əmirlərinin köməyinə göndərilsin. Saray eşikağası Kəlbəli bəyin də Xorasana göndərilməsi lazım bilindi. Ona beş min tümən pul verildi ki, vilayətə yollanıb orada adamlar toplayıb onları tüfəngçi dəstəsinə daxil etsin. Yəni yerli əhali hesabına tüfəngçilər dəstəsinin sıraları genişləndirilsin. Bu təkliflər şah tərəfindən qəbul olundu və onların icrası ilə bağlı şah fərmanı verildi. Tələb olundu ki, Rüstəm bəylə Kəlbəli bəy dərhal Xorasana doğru hərəkətə başlasınlar. Mövcud olan məlumata görə, Xorasana göndərilmək üçün yeni qoşun toplanması bir müddət uzandı. Özbək qoşunlarının mühasirəsi isə elə də uzun sürmədi və mərkəzi qoşunların yetişməsindən əvvəl özbəklər vilayəti tərk edib geri döndülər (10).

İsgəndər bəy Münşinin yazdığına görə, özbəklər nəinki Maruçaq ətrafını, həm də Badğis və Herat ətrafında talanlarla məşğul oldular, xeyli qayda qiymətli əşyalar, mal-qara topladılar, çoxlu

insanları qətlə yetirdilər. Sonra da taladıqlarını toplayıb yenidən öz yurdlarına döndülər. Maruçaq ətrafındakı özbək qoşunları geri dönəndə Xorasan bəylərbəyi Həsən xan və Maruçaq qalası daxilində olan şamlı döyüşçüləri özbəkləri təqib etməyə başladılar. Bu zaman xeyli özbək döyüşçüsü qətlə yetirildi və bir neçə özbək əmiri də əsir götürüldü. Yəni Həsən xan Xorasan üzərinə hücum etmiş özbək dəstələrinə güclü bir zərbə vura bildi. Amma o bununla da kifayətlənmədi. 1632-ci ilin sonlarında rəhbərlik etdiyi qoşun dəstəsini və şamlı döyüşçülərini Çiçəktu və Meyməndin talan edilməsinə yolladı. Bu məntəqələrin özbəkləri qızılbaş dəstələrinin belə bir hücumunu gözləmirdilər. Onlar güman edirdilər ki, qızılbaşlar ümumiyyətlə özbəklər üzərinə hücuma cəsarət etməzlər. Həm də onlar öz məntəqələrinin yaxşı mühafizə olunduğunu güman edirdilər. Qızılbaş döyüşçüləri həmin məntəqələrin hər ikisini baş-ayaq talan etdilər, sayı məlum olmayacaq qədər malqara, habelə qiymətli əşyalar topladılar. Başlıcası isə adları çəkilən məntəqələrin özbəklərinə güclü zərbə vuruldu ki, onların Xorasan vilayətinə hücum meyllərinin qarşısı alınsın. Bu hücum zamanı bir neçə yüksək məqamlı özbək əsir götürüldülər və sonra da şah hüzuruna göndərildilər. Şah Səfi Qəzvində olarkən həmin özbək əsirlər ona təqdim olundu. Amma o, Murtuzqulu bəyin əsirlikdən azad edilməsi ilə bağlı özbəklər tərəfindən göstərilən iltifata cavab olaraq onları azad etdi və onların sağ-salamat geri qayıtmalarına icazə verdi (11).

Özbək xanları isə Səfəvi dövlətinə qarşı mübarizə aparmaq niyyətlərindən əl çəkmədilər. Bəlx hakimi olan Nədr Məhəmməd öz niyyətinin həyata keçməsi üçün hind hakimi ilə əlaqə yaratmaq fikrinə də düşdü. Bununla bağlı 1632-ci ildə o öz elçisini qiymətli hədiyyələrlə hind sarayına göndərdi. Bəlx hakimi yeni Hind padşahı olmuş Şah Cahana öz təbriklərini çatdırdı. Nədr Məhəmməd eyni zamanda Şah Cahana Səfəvi dövlətinə qarşı birgə mübarizə aparmaq təklifini yetirdi. Şah Cahan da bu təklifə maraqla yanaşdı və Nədr Məhəmmədin elçisi geri qayıdanda o da öz elçisini onunla birlikdə yola saldı. Məlumata görə, Şah Cahana müxalif

olan bəzi yaxınları Səfəvi dövlətinə sığınmaq istəyirdi. Bu isə Şah Cahanın xoşuna gəlmirdi və ona görə Səfəvi dövlətinə qarşı mövqe tutmağa müxalif deyildi (12).

Səfəvi dövlətinə qarşı Şah Cahanın birgə mübarizə aparmağa razı olması Nədr Məhəmmədi məmnun etdi və bu məmnunluğun nəticəsi kimi, 1633-cü ilin mart ayında Sərəxs və Zorabad məntəqələri üzərinə qoşun dəstəsi göndərdi. Bununla kifayətlənməyən Nərd Məhəmməd digər məntəqələr üzərinə hücum üçün də əlavə qoşun toplanmasına başlandı. Bundan xəbər tutan Mərv hakimi Murtuzqulu xan Şah Səfiyə məktub göndərdi və Xorasan vilayəti üzərinə yeni bir təhlükənin meydana gəlməsi barəsində ona məlumat verdi. Bu məktub göndəriləndə Sərəxs artıq Nədr Məhəmmədin əmirləri tərəfindən işğal altına alınmışdı. Yeni özbək təhlükəsinin qarşısını almaq üçün Şah Səfi böyük bir qoşun dəstəsini Xələf bəyin və Rüstəm Məhəmmədin rəhbərliyi altında Xorasana göndərdi. Rüstəm Məhəmməd Bəlx hakimi Nədr Məhəmməd xanın oğlu di. O, atasına qarşı müxalifətdə olduğu üçün Səfəvi sarayına sığınmışdı. Bu qoşun dəstəsinin Xorasana yetişməsindən sonra Sərəxsi özbək qoşunlarının əlindən çıxarmaq mümkün odu. Bu hadisə 1633-cü ilin sentyabr ayında baş verdi. Təxminən iki yüz özbək döyüşçüsü əsir götürüldü. Onların arasında qoşun başçıları da var idi. Şah Səfi bu özbəklərin də azad edilməsi və sərbəst buraxılması haqqında fərman verdi. Onun gümanı belə idi ki, bu iltifatın qarşısında özbəklər də Səfəvi hüdudlarına olan hücumlarını azalda bilərlər. Özbəklər isə əksini etdilər. Səfəvi qüvvələrinin öz gücünü göstərməsi onları xeyli qəzəbləndirdi və baş vermiş uğursuzluğun əvəzini çıxmaq üçün Əbdüləziz xan dəstəsi ilə 1633-ü ilin dekabr ayında Cəm məntəqəsi üzərinə hücum etdi. Şah Səfi tərəfindən Xorasandakı qızılbaş qüvvələri Əmir xanın rəhbərliyi altına verildi və ona özbək qoşunlarının hücumlarının qarşısını almaq tapşırıldı (13).

Əbdüləziz xan 1634-cü il ərzində bir neçə dəfə Xorasan vilayətinə hücumlar etdi. Birinci hücum həmin ilin mart ayında baş verdi. Bu hücum zamanı Herat şəhərinin qərbində olan məntəqələr

özbək talanlarına məruz qaldılar. 12 min nəfərlik bir qoşun dəstəsi həmin bölgədə yerləşən məntəqələri tamamilə talan etdi və toplanmış qənimətlə bu dəstə aprel ayının əvvəllərində geri qayıtdı. Qısa bir müddətdən sonra Əbdüləziz xan da 20 min nəfərlik bir qoşun dəstəsi ilə Heratın qərb bölgəsi üzərinə basqın etdi. Bu dəfə bölgə əhalisi önləyici tədbirlər görmüş və özlərini müəyyən qədər özbək basqınlarından qoruya bilmişdi. Kifayət qədər talançılıq edə bilməyən özbək dəstəsi oradan Heratın cənubunda yerləşən Fərəhə tərəf istiqamət götürdü. Ancaq Fərəh qalası kifayət qədər möhkəmləndirilmiş bir qala idi. Ona görə də özbək qoşunları bu qalanı fəth edə bilmədilər və kor-peşman geri qayıtdılar. 1634-cü ilin payızında Əbdüləziz xan yenə də Xorasan üzərinə hücum qərarını verdi. Bu dəfə daha böyük qənimətlər əldə etmək məqsədilə Əbdüləziz xan Məşhəd və Səbzəvar şəhərləri üzərinə hücum etmək fikrinə düşdü. Bu məqsədlə onlar hərəkətə başladılar və Məşhəd yaxınlığında gözlənilmədən qızılbaş qoşun dəstəsinin müqaviməti ilə rastlaşdılar. Xorasandakı hərbi qüvvələrin rəhbəri, Xələf bəyin yerinə bölgəyə göndərilmiş qorçubaşı Əmir xan özbək qoşunlarının hücumu xəbərini alanda önləyici bir taktika tətbiq etdi. Havanın qaranlıq vaxtı Əmir xan öz qoşun dəstəsi ilə işlək olmayan yollarla özbək qoşunlarının düşərgə saldığı Təcərrüd bölgəsinə doğru hərəkət etdi. Bu dəstə özbək qüvvələrindən xəbərsiz düşərgə ətrafında əlverişli mövqe tutdu. Havanın işıqlanması ilə qızılbaş dəstəsi özbək dəstəsi üzərinə hücum etdi. Özbəklər özlərini toparlayaraq qızılbaş dəstəsinə müqavimət göstərməyə çalışsalar da günün sonun qədər davam edən döyüşdə uğursuzluğa düçar oldular. Onlar topladıqları bütün qənimətləri buraxaraq qaçmaqla canlarını qurtarmağa çalışdılar. Qızılbaşlar isə onların təqibini dayandırmadılar və geri qaçan özbəklərə xeyli itki yetirdilər. Özbək düşərgəsi bütünlüklə Əmir xanın dəstəsinin əlinə keçdi. Bu düşərgədə çoxlu silahlar, bayraqlar, xəzinə, qiymətli əşyalar, dəvələr, atlar və hətta kitabxana da var idi. Həmin qiymətli əşyaların çoxu şah hüzuruna göndərildi. Şah Səfi isə onları Rüstəm Məhəmmədə bağışladı (14).

Özbək qoşunları bu uğursuzluqdan sonra da öz təcavüzkarlıqlarından əl çəkmədilər. Yenə çox qısa müddətdən sonra Əbdüləziz xan 3 min nəfərlik bir dəstə ilə yenidən Xorasan vilayətinə daxil oldu. Yenə xeyli sayda yaşayış məntəqəsi özbək qoşunlarının talanlarının obyektinə çevrildilər. Əbdüləziz xan biləndə ki, qızılbaş qüvvələri Məşhəddə toplaşıblar, onda Məşhəd istiqamətində hərəkətdən imtina etdi. O öz dəstəsini Nişapura tərəf istiqamətləndirdi. Daha çox qənimət əldə etmək üçün Əbdüləziz xan qoşun dəstəsini iki dəstəyə böldü və hər dəstəyə bir istiqamətdə hərəkət etmək tapşırığı verdi. Özünün rəhbərlik etdiyi dəstə Türbəti-Cəmdən keçməklə Nişapura doğru, digər dəstə isə Qain və Tun üzərinə istiqamət götürdü. Məşhəddə bu barədə xəbər alınan kimi özbək qoşunları üzərinə hərəkət başlandı. Baxmayaraq ki, özbəklər bir sıra yaşayış məntəqələrini talan etmişdilər, bununla belə Əbdüləziz xan qızılbaş dəstəsinin yaxınlaşması xəbərini eşidincə Xorasanı tərk etmək qərarı verdi (15).

Bu hadisədən sonra bir neçə il Xorasanda sakitlik təmin edildi və özbək qoşunları bir də 1637-ci ildə bu vilayət üzərinə hücum etdi. Nədr Məhəmməd xan yaranmış fürsətdən istifadə edərək Xorasanda müəyyən əraziləri ələ keçirmək istəyirdi. Belə ki, qərbdən Osmanlı qoşunlarının təhlükəsi, Qəndəhar istiqamətindən isə hind qoşunlarının təhlükəsi Səfəvi dövləti üçün başağırısına çevrildiyi bir vaxtda özbəklər yenidən Xorasan vilayətinə hücum etdilər. Bu hücumun qarşısının alınması üçün qullarağası Siyavuş xanın rəhbərliyi altında qoşun dəstəsi formalaşdırıldı və özbəklərin qarşısında göndərildi. Siyavuş xanın dəstəsi yetişməzdən əvvəl Səbzəvar hakimi Məhəmməd sultan və Çeşmgəzək hakimi Yusif sultan öz dəstələri ilə özbək dəstələrinin qarşısına çıxdılar. Bu hakimlərin təşkilatçılığı ilə özbək qoşunlarına güclü zərbə vurmaq mümkün oldu. Aldıqları ağır zərbədən sonra özbək qoşunları geri çəkilmək məcburiyyətində qaldılar. Bununla belə, onların talançılığı nəticəsində Cəm ətrafında olan məntəqələrə böyük ziyan vurmaq mümkün oldu. Döyüşün son nəticəsi isə Şah Səfini razı saldı. O

bu döyüşdə fərqlənən əmir və qoşun başçılarına qiymətli hədiyyələr göndərdi (16).

Bununla belə, özbəklər vilayəti tərk etmədilər. Nədr Məhəmməd xanın oğlu Əbdüləziz xan bu dəfə Məşhədi də tutmaq qərarına gəldi. Özbək xanlarının çox böyük qüvvə ilə Məşhəd üzərinə gəldiyi bəlli olunca Xorasan vilayətinin bütün məntəqələrinin hakimləri Məşhədə toplandı və bu toplantıda özbək qoşunlarına qarşı mübarizənin təşkili məsələləri müzakirə edildi. Sonra da uyğun qərarlar qəbul edildi. Xorasan daxilində mövcud olan qüvvələrin birləşdirilməsi və özbək qoşunlarına qarşı birlikdə mübarizə aparması öz səmərəsini verdi. Bəzi özbək dəstələri hətta qızılbaşlarla döyüşə girməkdən ehtiyat etdilər və icazəsiz özbək qoşunları sıralarını tərk etdilər. Bununla belə, tərəflər arasında döyüş baş verdi. Hər iki tərəfdən xeyli itki verildi. Əbdüləziz xan güclü müqavimətlə rastlaşdığı üçün döyüşü dayandırıb geri çəkilməli oldu (17).

Bu döyüşdən sonra Şah Səfinin dünyasını dəyişməsinə qədər Səfəvi və özbək qoşunları arasında hərbi qarşıdurma baş vermədi. 1638-ci ildə Nədr Məhəmməd xan yenidən hind padşahı Şah Cahanla Səfəvi dövlətinə qarşı hərbi ittifaq yaratmaq üçün cəhd göstərdi. Lakin onun cəhdi əməli nəticə vermədiyi üçün hərbi ittifaq da baş tutmadı.

Yuxarıda yazılanlardan da göründüyü kimi, özbək qoşunlarının əvvəlki hücumları zamanı Şah Səfi çalışırdı ki, özbəklərə qarşı mülayim və yumşaq mövqe tutsun. Bunun nəticəsi idi ki, özbəklərdən alınan əsirləri Şah Səfi azad edir və sərbəst buraxırdı. Bununla Şah Səfi qarşı tərəfin də mülayimləşəcəyini və Səfəvi dövlətinə qarşı təcavüzkar mövqedən əl çəkəcəyini gözləyirdi. Özbək xanları isə əksinə, Xorasan vilayəti üzərinə hücum etmək və kütləvi talanlar həyata keçirmək üçün fürsət arayırdılar. Sonuncu döyüş ərəfəsində Şah Səfi özbək qoşunlarına qarşı daha qətiyyətli və güzəştsiz mövqe tutulmasının zəruri olduğunu bildirdi və bununla bağlı and da qəbul etdi: "Cəddim əmirəlmömünin Əli ibn Əbu Talibin ruhuna and olsun ki, daha onlara ciddi cavablar verilmə-

sində yumşaqlıq göstərməyəcəyəm". Səltənətin qərb sərhədlərində Osmanlı təhlükəsinin olması da onu tələb edirdi ki, özbəklərə qarşı sərt mövqe tutulsun və onlar Xorasan üzərinə ardıcıl hücumlardan çəkindirilsin (18). Sonuncu döyüş zamanı nümayiş etdirilən qətiyyət də bunun nəticəsi idi və bu qətiyyət də öz nəticəsini verdi.

Sonrakı illərdə bəzi özbək dəstələrinin talan məqsədilə Xorasan vilayəti daxilinə bəzi kiçik miqyaslı basqınları olmuşdu. Lakin bunlar elə də çox təkrarlanmadı. Ümumiyyətlə, Şah Səfinin hakimiyyətinin sonlarına yaxın tərəflər arasında münasibətlərin nisbətən istiləşməsi baş verdi. Hətta sonralar hakimiyyətdən əl çəkən İmamqulu xan həcc ziyarətinə yollanmaq məqsədilə Xorasana da gəlmişdi. Onun yerinə taxta çıxmış qardaşı Nərd Məhəmməd xan isə Səfəvi sarayı ilə münasibətlərin istiləşməsi üçün bir qədər fəallaşmağa başladı.

5. Gürcüstan qiyamının yatırılması

Özbək qoşunlarının Xorasan vilayəti üzərinə yeni hücumlarının başlandığı vaxtlarda Gürcüstanda da mərkəzi hakimiyyət əleyhinə itaətsizlik özünü göstərdi. Mənbələrdə olan məlumata görə, 1632-ci ildə özünü göstərən həmin itaətsizliyin təhrikçisi Qarabağ bəylərbəyi Davud xan idi. Davud xan Səfəvi dövlətinin tarixində böyük xidmətləri olan Allahverdi xanın oğlu idi. Hələ Şah Abbasın hakimiyyəti illərində Allahverdi xanın səltənət qarşısındakı sədaqətli xidməti nəzərə alındığı üçün Davud xan Qarabağ və Aran bəylərbəyi vəzifəsinə irəli çəkilmişdi. Ondan əvvəl Qarabağ bəylərbəyi Məhəmmədqulu xan Ziyadoğlu Qacar idi. Onun Gürcüstanın qiyam qaldırmış hakimləri ilə mərkəzi hakimiyyətə müxalif olan əlaqələrə malik olması üzündən Şah Abbas onun vəzifəsindən kənarlaşdırmış və Davud xanı sədaqətli bir əmir kimi həmin vəzifəyə gətirmişdi. Allahverdi xan uzun müddət səltənətin ən böyük vilayətlərindən biri olan Fars vilayətinin bəylərbəyi idi. Onun dünyasını dəyişməsindən sonra oğlu İmamqulu xan həmin

vəzifəyə təyin edildi. İmamqulu xan da atası kimi Səfəvi səltənətinə sədaqətli xidmətini davam etdirdi. Yəni Allahverdi xanın ailəsi Səfəvi xanədanına sadiq olan bir ailə kimi qəbul edilirdi və ona görə Davud xan bu vəzifəyə irəli çəkilmişdi. Şah Abbasın hakimiyyəti illərində Davud xan Gürcüstanda baş qaldırmış qiyamların yatırılmasında öz köməyini əsirgəmədi. Görünür elə buna görə də Şah Abbas onu Qarabağ və Aran vilayətinin bəylərbəyi vəzifəsinə irəli çəkdi. Davud xan Qarabağın hakimi təyin edildikdən sonra bu bölgədə hakimlik etmiş Ziyadoğlular nəslinin rəhbərliyi altında olan qacar qoşun dəstəsi də onun tabeliyinə verildi.

Ola bilsin ki, Davud xan da Şah Səfinin hakimiyyətə gəlməsini Səfəvi dövlətinin zəifləyəcəyi kimi qəbul edirdi. Əslində, belə düşünməyə bir əsas da var idi. Şah Səfinin idarəçilik təcrübəsi yox idi və o, hərəmsaray yetirməsi idi.

Mənbə müəllifləri bildirirlər ki, Davud xan Qarabağ hakimi kimi istər Şah Abbasın, istərsə də Şah Səfinin hakimiyyəti zamanı Səfəvi sarayının diqqət və qayğısı altında idi. Ziyadoğlular nəslinə məxsus olan tiyul torpaqlar da onun sərəncamına verildi. Mənbələrdə o da əlavə olunur ki, bütün bunlara baxmayaraq fitnə-fəsad, vəfasızlıq Davud xanın daxilində mövcud idi. Fürsət yaranan kimi də həmin cəhətlər özünü göstərməyə başladı (19).

Həmin fitnə-fəsad da özünü Davud xanın Gürcüstanın Kaxet hakimi Təhmurəs xanla münasibətlərində göstərdi. Təhmurəs xan da Səfəvi hakimiyyətinə sədaqətli olmuş gürcü çarlarının nəslindən idi. O, uzun müddət Səfəvi sarayında həyat sürmüş və Səfəvi süfrəsinin çörəyini yemişdi. Şah Abbasın hakimiyyəti illərində Gürcüstanda baş verən qiyamlar yatırılanda Təhmurəs xan da Kaxet hakimliyinə gətirilmişdi. Lakin o da vəzifə sahibi olduqdan sonra Səfəvi hakimiyyətinə qarşı naxələflik etdi. Etdiyi əməllərə görə ciddi cəzadan qurtara bilməyəcəyini görəndə Təhmurəs xan Davud xanla dil tapmağa çalışdı. Sonra Davud xandan xahiş etdi ki əfv olunmasını Şah Abbasdan xahiş etsin. Davud xan da Təhmurəs xanın əfv edilməsi haqqında Şah Abbas qarşısında vəsatət qaldırdı. Davud xan söz verdi ki, əgər Təhmurəs xan bir də

itaətsizlik göstərərsə onun ciddi şəkildə cəzalandırılmasında özü də iştirak edəcəkdir. Şah Abbas da bu sözləri qəbul etdi və Təhmurəs xanın günahlarını bağışladı. Hətta Şah Abbas ona qiymətli hədiyyə və bir də qızılbaş paltarı hədiyyə etdi. Davud xan da həmin paltarı Təhmurəs xana çatdırdı və Təhmurəs xan qızılbaş paltarını geyinməklə Səfəvi səltənətinə sadiq qalacağını nümayiş etdirdi. Bu hadisədən sonra Davud xan özü də bir müddət Gürcüstanda qaldı və oradakı fəaliyyəti ilə bir daha Səfəvi səltənətinə sədaqətli olduğunu nümayiş etdirdi. Elə onun üçün idi ki, Şah Abbas onu Qarabağın bəylərbəyi vəzifəsinə təsdiq etdi. Həmin vaxtlardan da Təhmurəs xanla Davud xan arasında xoş münasibətlər yarandı. Onlar vaxtaşırı bir-biri ilə görüşür, Gürcüstan və Qarabağ ərazisində ov mərasimləri təşkil edir və bir yerdə olurdular (20).

1632-ci ildə Osmanlı qoşunları Səfəvi ərazisində olduğu vaxt Davud xan da Şah Səfinin Bağdad ətrafındakı düşərgəsinə gəldi. Düşərgədə olan qacar əmirləri və əyanları ona etinasız şəkildə yanaşdılar. Bundan başqa, onun haqqında Şah Səfiyə də çoxlu sayda narazılıq və şikayətlər çatdırıldı. Etinasızlıqla qarşılanması Davud xanın qəzəbinə səbəb oldu. Bu hissələrini üzə vurmasa da, sonradan onu öz əməlində göstərdi. Şah karvanı geri qayıdanda Toysərqan adlı məntəqədə Davud xanın böyük qardaşı İmamqulu xan Şah Səfidən icazə alıb Fars vilayətinə üz tutdu. Həmin vaxt məlum oldu ki, Davud xan şahdan icazə almadan özbaşına Qarabağa qayıdıbdır. Şah Səfi bundan sözsüz ki, razı qalmadı. Davud xan isə Qarabağa yetişəndən sonra başına gələnləri ciddi şəkildə təhlil etdi və anladı ki, hətta Qarabağ əmir və əyanları daxilində belə lazım olan nüfuza malik deyildir. O şübhə etmirdi ki, davranışına görə, həm Şah Səfinin, həm də qacar tayfasının qəzəbinə tuş gələcəkdir. Bu qəzəbdən canının qurtarmaq üçün Davud xan Təhmurəs xanla əlaqələrini daha da gücləndirdi. Ciddi təhlükə ilə qarşılaşacağı təqdirdə Davud xan Təhmurəs xanın yanına pənah apara bilərdi. Vəziyyətin onun xeyrinə dəyişməyəcəyini görəndə Davud xan ona ziyan yetirə biləcək qacar əmirlərinin bir dəstəsinə qarşı sui-qəsd təşkil etdi. Belə ki, Gürcüstan ərazisində təşkil

olunacaq ov mərasimində (bir məlumata görə isə toy mərasimində) iştirak etmək üçün 17 nəfər nüfuzlu qacar əmirlərini yanına aldı və Gürcüstan istiqamətində hərəkətə başladı. Bir məlumata görə, bu ov mərasimindən əvvəl Təhmurəs xan öz adamını Davud xanın yanına göndərmiş və ona kömək etməyə hazır olduğunu bəyan etmişdi. Davud xan da qacar əmirlərini aldadaraq onları Gürcüstan ərazisinə çəkib apara bilmişdi. Qacar əmirləri də gürcü çarı tərəfindən ov mərasiminə dəvət olunmalarına hörmətlə yanaşdılar və heç nədən şübhələnmədən Davud xanla birlikdə yola düşdülər. Təhmurəs xan məsələdən xəbərdar olduğu üçün artıq əvvəldən hazırlıq görmüşdü. O, 150 nəfərlik silahlı gürcü dəstəsini Davud xanla gələn qacar əmirləri üzərinə göndərdi. Müəyyən edilmiş məntəqədə görüşəndə gürcü silahlıları qacar əmirlərinin üzərinə hücum etdilər və onların hamısını qətlə yetirdilər. Qacar əmirləri sayca az olduqları üçün gürcü silahlılarına lazımi müqavimət göstərə bilmədilər. Bu hadisənin şahidi olanlardan biri Davud xanın yanına qaçdı və ona baş verənlər haqqında məlumat çatdırdı. Bu adam güman edirmiş ki, Davud xanın bu hadisədən xəbəri yoxdur və ona görə ondan kömək də istəydi. Davud xan onu təbəssümlə qarşıladı və cavab verdi ki, belə hadisələrlə hələ çox qarşılaşmalı olacaqdır. Bununla, demək istədi ki, qacar əmirlərinə sui-qəsd edilməsində Davud xan da iştirak etmişdir (21).

Qacar əmirlərinin qətlə yetirilməsi həm də onu göstərdi ki, Təhmurəs xan da mərkəzi hakimiyyətə itaətdən üz döndəribdir. Davud xan onunla bu məsələdə əlbir oldular və yalnız qacar əmirlərinin qətlə yetirilməsi ilə kifayətlənmədilər. Onlar belə sövdələşdilər ki, gürcü qoşun dəstəsi ilə Gəncə və Qarabağa hücum etsinlər, bölgə əhalisini talayıb var-yoxdan çıxarsınlar. Yenidən itaətsizlik yoluna düşmüş Təhmurəs xan bu planın həyata keçirilməsi üçün qoşun dəstəsi ayırdı. Bu dəstənin Gəncə üzərinə hücum çəkməsi şəhərdə böyük dağıntılara və talanlara səbəb oldu. İsgəndər bəy Münşinin yazdığına görə, gürcü dəstəsinin təcavüzünə rast gələn qadın və uşaqların sədaları göyün yeddinci qatına qədər yüksəldi. Şəhər sakinləri məcbur olub evlərini tərk etdilər. Bəzi-

ləri öz ailə və uşaqlarını hətta Ərdəbilə apardılar ki, gürcülərin qırğınlarından canlarını salamat qurtara bilsinlər. Gürcü dəstəsi bir neçə gün Gəncədə dayandı və həmin günlər ərzində talan və qırğınlar davam etdi. Təhmurəs xan bütün Gəncə ətrafını və Qarabağı da talan və qırğınlara məruz qoymaq istəyirdi. Lakin onun gətirdiyi dəstə elə də böyük dəstə deyildi və qorxdu ki, qırğın və talanların davam edəcəyi təqdirdə bütün Qarabağ ona qarşı qalxa bilər. Ona görə də bir neçə gündən sonra Təhmurəs xan dəstəsi ilə Gürcüstan ərazisinə geri döndü. Onun niyyəti belə idi ki, Gürcüstanda daha böyük silahlı dəstə təşkil etsin və həmin dəstə ilə yenidən Qarabağ ərazisinə qayıtsın (22).

Təhmurəs xanın və Davud xanın səltənət hakimiyyətinə qarşı itaətsizliyi haqqında xəbərlər Səfəvi sarayına çatanda Şah Səfi dərhal onların vəzifədən azad edilməsi haqqında fərman verdi. Onun fərmanına əsasən, Kartli hakimi vəzifəsinə qullarağası Rüstəm xan, Qarabağ bəylərbəyi vəzifəsinə isə yenidən Məhəmmədqulu xan Ziyadoğlu Qacar təyin edildi. Rüstəm xan həm də Kaxet vilayətinin hakimi oldu. O, gürcü çarları nəslindən olmaqla Luarsab xanın nəvələrindən idi. Rüstəm bəy islamı qəbul etdikdən sonra Xosrov Mirzə kimi tanınırdı. Şah Abbas onun xidmətlərini yüksək qiymətləndirirdi və onu qullarağası vəzifəsinə təyin etməklə özünü də Rüstəm xan adlandırdı. Təhmurəs xanın və Davud xanın təxribatları baş verəndə Rüstəm xan Xorasanda idi və özbək hücumlarının qarşısının alınması üçün həmin vilayətə göndərilmişdi. Qeyd edildiyi kimi, Rüstəm xan gürcü çarları nəslindən idi və onun təyinatından sonra gürcü əmir və əyanlarına da xəbər göndərildi ki, Rüstəm xanın ətrafında birləşsinlər və əmin-amanlıq yaratsınlar. Eyni zamanda şah fərmanı verildi ki, sipəhsalar Rüstəm xanın rəhbərliyi altında qoşun dəstəsi Gürcüstana yollansın, Təhmurəs xan itaətsizliyini aradan qaldırsın və Rüstəm xanı Gürcüstan hakimi taxtına əyləşdirsin (23).

Təhmurəslə Davud xan şahın bu fərmanından xəbərdar olunca yenidən qoşun topladılar və Qarabağ üzərinə hücum təşkil etdilər. Davud xan Təhmurəs xanı inandıra bildi ki, əslində, Şah Səfinin

məqsədi başqadır və Gürcüstan hakimliyinə başqasını gətirmək istəyir. Bir sözlə Davud xanı onu yoldan çıxardı və onu mərkəzi hakimiyyətə qarşı kəskin mövqedən uzaqlaşmaqdan çəkindirdi. Davud xanın sözlərinə görə, taxt-taca varis olan şah oğlu (yəni Şah Abbasın oğlu – red) hazırda Fars vilayətində, onun qardaşının yanındadır. Guya bu varis başqa adla İmamqulu xanın yanında yaşayır və İmamqulu xan onu öz oğlu kimi başqalarına təqdim edir. Davud xan iddia edirdi ki, İmamqulu xanın rəhbərliyi altında 30 min nəfərlik qoşun dəstəsi var və o, yaxın vaxtlarda yeni padşahın adına xütbə oxutdurmaqla, adına da sikkə vuracaqdır. Davud xan onu da bildirirdi ki, onun Şah Səfiyə itaətsizlik etməsi də bununla bağlıdır və bu məsələni o öz qardaşı ilə razılaşdırıbdır. Təhmurəs xan onun sözlərinə inandı və yenidən Şah Səfinin iradəsinin əksinə olaraq Qarabağ üzərinə hücum etdi. O eyni zamanda Şirvan, Çuxursəəd və Axısqa hakimlərinə məktub göndərdi və onları tabe olmağa çağırdı. Qarabağ hakimi Məhəmmədqulu xanla Şirvan hakimi Fərrux xan yaranmış təhlükə ilə bağlı şah sarayına gəldilər və məsələ barəsində onu xəbərdar etdilər. Şah Səfi isə onlara göstəriş verdi ki, öz yerlərinə qayıtsınlar və qoşun dəstələrini Gürcüstan üzərinə yürüşə hazırlasınlar. Yəni Şah Səfi bəlli etdi ki, Təhmurəs xan itaətsizliyini aradan qaldırmaq üçün Gürcüstan üzərinə yürüşə hazırlaşmaqdadır (24).

Davud xanın qardaşı İmamqulu xanın hakimiyyət çevrilişində iştirak edəcəyi barəsində yaydığı söhbətlər də Şah Səfinin qulağına çatdırıldı. Şah Səfi bu xəbəri çox ciddi qəbul etdi. Ona görə də Şah Səfi Gürcüstan məsələsi ətrafında məşvərət aparmaq adı ilə İmamqulu xanı öz yanına çağırdı. Görünür, bu söhbətlər İmamqulu xanın da qulağına çatmışdı və ona görə də şah sarayına çağırılması onun təşvişinə səbəb oldu. İmamqulu xan səltənətin ən nüfuzlu vilayət hakimlərindən biri idi. Onun rəhbərliyi altında böyük qoşun dəstəsi var idi və həm də səltənətin ən bacarıqlı əmirlərindən biri idi. İmamqulu xan tərəfindən mərkəzi hakimiyyətə qarşı qiyam qaldırılması Şah Səfini ağır bir duruma sala bilərdi. Ona görə bu söhbətlər yayılandan sonra Şah Səfinin İmamqulu xana

olan münasibətində də dəyişiklik baş verdi. Çox güman ki, İmamqulu xan da ona olan şah münasibətinin dəyişməsini hiss etməkdə idi. Ona görə də o, şah çağırışını icra etmədi. Saraya xəbər göndərdi ki, portuqal qüvvələrinin Hörmüz üzərinə hücumu gözlənilir. Ona görə də belə bir zamanda vilayəti tərk etməsi düzgün olmazdı. Bununla belə, onun şah sarayına gəlməsi tələb edildi. İmamqulu xan əvvəlcə oğlu Səfərqulu xanı şah sarayına göndərdi. Sonra isə özü də İsfahana gəlmək məcburiyyətində qaldı. Şah Səfi səltənət qoşunları ilə Gürcüstana doğru İsfahanı tərk etdiyi gün İmamqulu xan onun hüzuruna yetişdi (25).

İsgəndər bəy Münşinin yazdığına görə, şah karvanı bir neçə gün İsfahanın Topçu qapısı yanında dayandı. Şahın fərmanı ilə Rüstəm xan qullarağası və Qarabağ hakimi Məhəmmədqulu xan dərhal Qarabağa yollandılar ki, Davud xan tərəfindən yoldan çıxarılmış Təhmurəs xanın Qarabağ üzərinə hücumunun qarşısını alsınlar. Şah özü isə bir neçə gündən sonra Qəzvinə yollandı və bir müddət də orada düşərgə saldı. Qarabağ və Gürcüstan üzərinə yürüşə başlanması 1632-ci ilin payızına təsadüf edirdi. Havalar da artıq soyumaq üzrə idi. Şah Səfi hələ Qəzvində ikən güclü yağışlar və sonra da qar yağdı. Havalar düzələn kimi isə Şah Səfi Qəzvin meydanının çırağban edilməsi və sakinlərin əyləncəsi üçün lazım olan işlərin həyata keçirilməsi haqqında göstəriş verdi. Elə həmin gün də İmamqulu xan və onun üç oğlan övladı qətlə yetirildi.

Davud xanın yaydığı məlumata görə, İmamqulu xan taxt-tac varisini öz yanında saxlayır və başqalarının bunu bilməməsi üçün onu öz oğlu kimi digərlərinə təqdim edirdi. Bununla bağlı, söz-söhbət yayılanda Şah Səfi yalnız İmamqulu xanın deyil, onun oğlan övladlarının hamısının qətlə barəsində fərman verdi. O ehtiyat edirdi ki, İmamqulu xanın övladlarından hansısa salamat qalsa, gələcəkdə onu bəhanə edib yenə mərkəzi hakimiyyətə qarşı qiyam qaldıra bilər. Şah Səfi tam arxayınçılıq əldə edilməsi üçün İmamqulu xanın və onun bütün oğlan övladlarını qətl etməyi qərarlaşdırıldı. Bu qətlin icra edilməsi eşikağası Kəlbəli bəyə, İmamqulu xanın damadları olan Davud bəyə və səltənət sipəhsaları

Rüstəm bəyin qardaşı Əliqulu bəyə tapşırıldı. Bu adamlar gecə vaxtı ikən İmamqulu xanın və ailəsinin məskunlaşdığı evə yollandılar. Ailə üzvləri artıq yatağa girmək üzrə idilər. İmamqulu xana və onun övladlarına deyildi ki, Şah Səfi onları öz hüzuruna çağırır. İmamqulu xan və onun övladları da bunu qəbul etməli oldular. Küçəyə çıxanda İmamqulu xan və onun övladları olan Səfərqulu xan, Fətəli bəy və Əliqulu bəy qətlə yetirildilər. Sonra onların başları bədənindən ayrıldı və şah sarayına gətirildi (26).

İmamqulu xanın qətlə yetirilməsindən sonra eşikağasıbaşı Uğurlu xan şah tərəfindən Fars hakimi təyin edildi. Şah ona göstəriş verdi ki, dərhal vilayətə yollansın, İmamqulu xanın sağ qalmış digər övladlarını cəzalandırsın, onun mal-mülkünü ələ keçirərək mühafizə altına alsın. Uğurlu xan da dərhal bu əmrin icrasına yollandı. O, İmamqulu xanın bütün varidatını nəzarət altına aldı, onun sağ qalmış övladlrının gözünə isə mil çəkdirərək dünya işığından məhrum etdirdi. İmamqulu xanın hakimliyi altında olan Kuhgiləviyyə, Lar və Durəq əyalətlərinə başqa hakimlər təyin edildilər. Sunduq sultan Zəngənəyə isə tapşırıldı ki, Bəhreyni nəzarət altına gətirsin (27).

İsgəndər bəy Münşi yazırdı ki, İsfahandan başlamış Oman körfəzinə qədər olan ərazilər Allahverdi xan nəslinin və varislərinin hakimiyyəti altında idi. İsfahandan Oman körfəzinə qədər olan məsafəni piyada bir aya başa vurmaq mümkün deyildi. Yəni belə böyük ərazilər İmamqulu xanın hakimiyyəti altında idi. Amma oİmamqulu xanın qardaşı Davud xanın ağılsızlığı üzündən İmamqulu xan nəinki bu ərazilərə hakimliyini itirdi, həm də özü də daxil olmaqla bütün ailəsi qətlə yetirildi. Bu xəbər Davud xanla Təhmurəs xana yetişəndə onlar böyük səhvə yol verdiklərini anlamağa başladılar. Onlar eşidəndə ki, Şah Səfi saysız-hesabsız qoşunlarla Gürcüstan üzərinə hərəkət etməkdədir, onda daha böyük qorxu içinə düşdülər. Təhmurəs xanla Davud xan Qarabağı tərk etdilər və Gürcüstana yollandılar. Onlar güman edirdilər ki, Gürcüstan ərazisində şah qəzəbindən daha etibarlı şəkildə qoruna bilərlər (28).

Davud xanla Təhmurəs xanın geri çəkilməsindən sonra Məhəmmədqulu xan da Gəncəyə yetişdi və Qarabağın hakimliyini öz üzərinə götürdü. Sipəhsalar Rüstəm xan isə (mənbələrdə o artıq xan kimi xatırlanır) səltənət qoşunları ilə Gürcüstana doğru hərəkət etdi və Tiflis şəhərinin yaxınlığına gəlib çatdı. Bura yetişməklə Rüstəm xan da Gürcüstanın hakimliyinə başladı. Mənbə məlumatına görə, gürcü əyanlarının və əmirlərinin heç də hamısı Səfəvi hakimiyyətinə qarşı barışmaz mövqedə deyildilər. Ona görə də onların çoxu Rüstəm xanın yanına gələrək öz sədaqətlərini ifadə etdilər. Təhmurəs xan isə Gürcüstan ərazisinə gəlmiş Səfəvi qoşunlarına qarşı çıxa bilməyəcəyi üçün Başıaçığa tərəf geri çəkilməyə başladı. Onun az sayda yaxın ətrafı da Təhmurəslə birlikdə Başıaçığa qaçdı. Rüstəm xan elə də ciddi bir müqavimətlə rastlaşmadan həm Kaxetin, həm də Kartlinin əsas qalalarını nəzarət altına aldı. Amma kənarlarda və əyalətlərdə şah hakimiyyətini qəbul etməyən insanlar da var idi. Onlarla bağlı məlumat alınan kimi Rüstəm xan dərhal o istiqamətə dəstə göndərirdi. Bu yolla Gürcüstanın nəzarət altına götürmək mümkün oldu. Rüstəm xan bunu kifayət qədər ehtiyatla edir və yerli əhalini mümkün qədər narazı salmamağa çalışırdı. Ona görə də çoxlu sayda gürcü əmir və əyanları onun yanına gəldilər, şah hakimiyyətinə itaətini bildirdilər və Təhmurəs xanla heç vaxt bir yerdə olmadıqlarını bəyan etdilər. Bu adamlar onu da bildirirdilər ki, Təhmurəs xanı mərkəzi hakimiyyətə qarşı müxalifətçilikdən çəkindirməyə çalışırdılar. Lakin Davud xanın fitnələri onu bu yoldan çəkinməyə qoymurdu. Bütünlükdə, Rüstəm xan Gürcüstan ərazisinə daxil olmaqla Təhmurəs xan qiyamını aradan qaldırdı və bu bölgədə yenidən Səfəvi hakimiyyəti bərqərar oldu.

6. İstifadə olunmuş mənbə və ədəbiyyat

1. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi. Tehran, 1317, s. 79; İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər.

Tehran, 1368, s. 109-110; Təfərroşi Ə. Tarix-e Şah Səfi. Tehran, 1388, s.51-52
2. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 80; İsfahani M. M. Xülasət-əssiyər, s. 112; Təfərroşi Ə. Tarix-e Şah Səfi, s.54-55
3. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 81; İsfahani M. M. Xülasət-əssiyər, s. 113; Təfərroşi Ə. Tarix-e Şah Səfi, s.57
4. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi. Tehran, 1317, s.81
5. İsfahani M. M. Xülasət-əssiyər, s. 114-115
6. Yenə orada, s. 11
7. Yenə orada, s. 118-119
8. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi. Tehran, 1317, s.83-84
9. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 83-84; İsfahani M. M. Xülasət-əssiyər, s. 120-121
10. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.87-88
11. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 89-90; İsfahani M. M. Xülasət-əssiyər, s. 124-125; Astrabadi S.H. Əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1366 s.243
12. Təfərroşi Ə. Tarix-e Şah Səfi. Tehran, 1388, s.63
13. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 90-93; Təfərroşi Ə. Tarix-e Şah Səfi, s.63
14. Astrabadi S.H. Əz Şeyx Səfi ta Şah Səfi, s.244-245
15. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 94; Təfərroşi Ə. Tarix-e Şah Səfi, s.63; İsfahani M. M. Xülasət-əssiyər, s. 131
16. Təfərroşi Ə. Tarix-e Şah Səfi, s.76
17. Təfərroşi Ə. Tarix-e Şah Səfi, s.75; Astrabadi S.H. Əz Şeyx Səfi ta Şah Səfi, s.244
18. Təfərroşi Ə. Tarix-e Şah Səfi, s.77

19.Səvaqeb C., Əqlavənd S. Bərrəsi və təhlil-e monasibət-e Səfəviyyə və özbəkan dər əsr-e Şah Səfi, s. 25-26//Fəsilname-ye tarix-e rəvabet-e xareci, N-4, 1392, s. 21-48
20. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi. Tehran, 1317, s.102
21. Yenə orada, s. 103-104
22. Yenə orada, s. 104
23. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi. Tehran, 1317, s.105; İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər. Tehran, 1368, s. 134; Павлова И.К. Хроника времен Сефевидов. Сочинение Мухаммад-Масума Исфахани «Хуласат ас-сияр». Москва, 1993, с. 84-85
24. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 134
25. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbas, s. 106-107
26. Yenə orada, s. 107
27. Yenə orada
28. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 135; Павлова И.К. Хроника времен Сефевидов, s. 83
29. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbas, s. 108
30. Ümit Ü. Türk. Safevi devletinin özbek hanlıkları ve Babur devleyi ile siyasi ilişkileri (1526-1722). Yüksek lisans tezi. Ankara, 2017, s. 142
34. Səvaqeb C., Əqlavənd S. Bərrəsi və təhlil-e monasibət-e Səfəviyyə və özbəkan dər əsr-e Şah Səfi, s. 37; Ümit Ü. Türk. Safevi devletinin özbek hanlıkları ve Babur devleyi ile siyasi ilişkileri
35. Павлова И.К. Хроника времен Сефевидов, s. 83-84; Ümit Ü. Türk. Safevi devletinin özbek hanlıkları ve Babur devleyi ile siyasi ilişkileri, s. 143
36. Ümit Ü. Türk. Safevi devletinin özbek hanlıkları ve Babur devleyi ile siyasi ilişkileri, s. 143
37. Yenə orada, s. 144

38. Павлова И.К. Хроника времен Сефевидов, s. 84; Ümit Ü. Türk. Safevi devletinin özbek hanlıkları ve Babur devleyi ile siyasi ilişkileri, s. 144-145
39. Səvaqeb C., Əqlavənd S. Bərrəsi və təhlil-e monasibət-e Səfəviyyə və özbəkan dər əsr-e Şah Səfi, s. 34
40. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 137
41. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbas, s. 110-111
42. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbas, s. 112-113; İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 137-138
43. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbas, s. 113-114
44. Yenə orada, s. 114
45. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbas, s. 115; İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 135-136
46. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbas, s. 115
47. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbas, s. 116; İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 147
48. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbas, s. 117; İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 148
49. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbas, s. 117

V FƏSİL
OSMANLI-SƏFƏVİ MÜHARİBƏLƏRİ (DAVAMI)

1.Van qalası ətrafında döyüş

1633-cü ilin Novruz bayramını Şah Səfi Qəzvində qeyd etdi. Gürcüstan qiyamının uğurla yatırılması və orada mərkəzi hakimiyyətin bərqərar edilməsi Şah Səfi tərəfindən məmnunluqla qarşılanırdı. Bu cəhət Novruz bayramının təşkilində də özünü göstərirdi. Bir neçə gün ərzində Qəzvin bayram libası geyindi. Şah da daxil olmaqlar saray əhli və şəhər sakinləri bayram sevincinə büründülər. Bayram şənlikləri həm də Şah Səfinin səxavətli hədiyyələri ilə tamamlandı. Səfəvi şahı səltənət idarəçiliyində xüsusi rolu olan əmir və əyanlara, yüksək vəzifə sahiblərinə qiymətli hədiyyələr verdi. Bir çoxuna isə yeni vəzifələr həvalə olundu.

Novruz bayramından az sonra Hörmüz hakimi Sevindik sultan Qəzvinə gəlib Şah Səfinin hüzuruna qəbul edilməsini xahiş etdi. Sevindik sultan Hörmüz hakimi olduğu illərdə Əmir Teymurun qılıncını əldə etmişdi. Bu qılıncın necə əldə edilməsi təfərrüatı mənbələrdə göstərilməmişdir. Həmin qılıncın üzərində Əmir Teymurun adı da həkk olunmuşdu. Sevindik sultan özlüyündə belə qərara gəldi ki, bu qiymətli qılıncı Şah Səfiyə hədiyyə etsin. Şah Səfi də bu hədiyyəni məmnunluqla qəbul etdi. Səfəvi sarayında Əmir Teymurun qılıncının əldə edilməsi Səfəvi dövlətinin gələcək uğurlarının nişanəsi kimi qəbul edildi (1).

1633-cü ilin Novruzundan az sonra Osmanlı düşərgəsinə elçi kimi göndərilmiş Canı bəy qayıdıb gördüyü işlər haqqında öz ərzini Şah Səfiyə təqdim etdi. Yuxarıda qeyd edildiyi kimi, Şah Səfi tərəfindən Osmanlı əsirlərinin azad edilməsi qarşı tərəfdən xoş məramla qarşılanmış və Xosrov paşa tərəflər arasında sülh razılaşmasının əldə edilməsinin mümkünlüyünə də işarə etmişdi. Bununla bağlı, Şah Səfi də söhbət yasovulu Canı bəy Şamlını Xosrov paşanın düşərgəsinə göndərdi. Canı bəy Osmanlı dövlətinin sədr-əzəmi ilə görüşərək sülh razılaşması ətrafında müzaki-

rələr aparmalı idi. Canı bəy Osmanlı düşərgəsinə yetişənə qədər Osmanlı sultanının fərmanı ilə Xosrov paşa qətlə yetirildi. Belə olanda Səfəvi elçisinin gəlişi barəsində Osmanlı sarayına məlumat göndərildi. Osmanlı sarayından isə göstəriş alındı ki, Canı bəy İstanbula yola salınsın. İsgəndər bəy Münşinin məlumatına görə, Xosrov paşadan sonra Hafiz Əhməd paşa Osmanlı dövlətinin sədr-əzəmi təyin edildi. Lakin onun da sədr-əzəmlik ömrü çox olmadı və Xosrov paşa tərəfdarlarının təhriki və iştirakı ilə o da qətlə yetirildi. Ondan sonra Məhəmməd paşa adlı birisi sədr-əzəm vəzifəsinə irəli çəkildi. Canı bəy də onun tərəfindən qəbul edildi. Tərəflər arasında bəzi müzakirələr aparıldı və hətta Bağdadın hansı tərəfə mənsub olması ilə bağlı da söhbətlər oldu. Lakin hər hansı bir qərar və ya razılaşma əldə edilmədi. Canı bəyin şah adından apardığı məktub Xosrov paşaya ünvanlanmışdı. Osmanlı sarayından belə bir məsləhət görüldü ki, Şah Səfi tərəfindən Osmanlı sultanı adına bir məktub yazılsın, həmin məktub səlahiyyətli bir elçi tərəfindən Osmanlı sarayına gətirilsin və sülh razılaşması da bu səlahiyyətli elçi ilə müzakirəyə çıxarılsın. Canı bəy də bu məsələni Şah Səfinin hüzurunda ərz elədi (2).

Şah Səfi mövcud sərhədlərin saxlanması şərtilə Osmanlı dövləti ilə sülh razılaşmasının əldə edilməsinə razı idi. Lakin iki dövlətin sərhəd bölgəsində baş verən hadisələr bu razılaşmanın əldə edilməsini təxirə saldı.

Şah Səfi 1633-cü ilin Novruz bayramından dərhal sonra Savucbulaq istiqamətində ova yollandı. Həmin ilin aprel ayında Çuxursəəd hakimi Təhmasibqulu xan tərəfindən iki dövlətin sərhəd bölgəsində məskunlaşmış bəzi kürd tayfalarının talançı yürüşləri haqqında xəbər çatdırıldı. Həmin xəbərə görə, Kürdüstan, Qars və Diyarbəkr hakimləri və əmirləri olan Bəhaəddin bəy, Məhəmməd bəy Mahmudi, Tacəddin bəy Məlazcerdi və digərləri 4 min nəfərlik atlı və piyada dəstəsi toplayaraq Çuxursəəd üzərinə talançı yürüş həyata keçirmək niyyətindədirlər. Az sonra bu qüvvələr Araz çayını adlayaraq Çuxursəəd məntəqələrini talan etməyə başladılar. Təhmasibqulu xan öz dəstəsi ilə həmin qüvvələrin qarşısını alma-

ğa yollandı. Tərəflər arasında baş verən döyüşdə kürd qüvvələri uğursuzluğa düçar olub geri çəkildilər. Kürd qüvvələrinin geri çəkilmə yolu üzərində də pusqu quruldu. Bu pusqu da onların ağır itki verməsi ilə nəticələndi. Bəhaəddin bəylə, Məhəmməd bəy Mahmudu baş verən döyüşlər zamanı yaralandılar. Onların rəhbərliyi altında olan döyüşçülərin bir çoxu da Araz çayında boğularaq dünyalarını itirdilər. Kürd dəstələrinin talanla topladığı bütün qənimətlər geri alındı və öz sahiblərinə paylandı (3).

Ərdəlan hakimi Xan Əhməd xan da kürd dəstələri ilə qarşılaşmalı oldu və bu barədə o, şah sarayına məlumat göndərdi. Onun verdiyi məlumata görə, yaxınlıqdakı kürd dəstələri Rab çayı ətrafında toplaşdıqdan sonra Ərdəlan məntəqələri üzərinə talançı yürüş etdilər. Xan Əhməd xan bu barədə xəbər alından sonra öz dəstəsi ilə kürd dəstəsinin üzərinə hücum çəkdi. Kürd döyüşçüləri Osmanlı paşasının rəhbərliyi altında Ərsəbil qalasında müdafiəyə çəkildilər. Qızılbaş dəstəsi bu qalanı mühasirəyə alıb Osmanlı dəstəsinə ağır zərbə vurdu. Kürd döyüşçülərindən 150 nəfər qətlə yetirildi. Xeyli sayda döyüşçü isə əsir götürüldü. Xan Ərdəlan xan bildirirdi ki, kürdlər məskunlaşan məntəqələr üzərinə hücum həyata keçirildi, onların yaşayış məntəqələri yerlə yeksan edildi və çoxlu qənimət ələ keçirildi (4).

Sərhəd bölgəsinin kürt əşirətlərinin Çuxursəəd üzərinə talançı yürüşlər həyata keçirməsindən xəbərdar olan Şah Səfi qətiyyətli addımlar atılmasını məqsədəuyğun saydı. Çünki kürd tayfalarının talançı basqınlarının davam etməsi Arazın şimalındakı çoxlu sayda məntəqələrin viran günə qalması ilə nəticələnə bilərdi. Bu talançı yürüşlərin qarşısının alınması üçün Şah Səfi qoşun dəstəsi ilə Gürcüstanda olan sipəhsalar Rüstəm xana Osmanlı sərhədinə doğru irəliləmək fərmanı verdi. Şah fərmanının çatdırılması üçün söhbət yasovulu Həsən bəy həmin günlərdə Rüstəm xanın yanına göndərildi. Fərmanda tələb olunurdu ki, Rüstəm xan Ərzrum və ya Van qalalarından birinin üzərinə hücum təşkil etsin. Nəzərdə tutulmuşdu ki, bu qalalardan birinə vurulan güclü zərbə Səfəvi dövləti üzərinə talançı basqınların da qarşısını ala bilər. Osmanlı

qalaları üzərinə hücumun daha səmərəli təşkili üçün Şah Səfi 15 min tümən pul da ayırdı və onu saray mənsubları vasitəsilə Rüstəm xana göndərdi (5).

İsgəndər bəy Münşinin verdiyi məlumata görə, sərhəd bölgəsində məskunlaşmış olan tayfalar yalnız Səfəvi dövləti üçün deyil, elə Osmanlı dövləti üçün də müəyyən narahatlıqlar yaradırdı. Çünki bölgədə yerləşmiş olan tayfa hakimlərinin çoxu müstəqil olmaq niyyətinə düşmüşdülər. Buna görə də onlar həm bir-birinin üzərinə, həm də Səfəvi məntəqələri üzərinə hücumlara ara vermirdilər. Bəzi sərhəd tayfa rəhbərləri öz nümayəndələrini şah sarayına göndərərək ondan kömək diləyir və Səfəvi dövlətinə tabe olmağı da öz boyunlarına götürürdülər. Adı çəkilən müəllifin verdiyi məlumata görə, Van qalası üzərinə hücumun təşkil edilməsi üçün Osmanlı hüdudlarında olan bəzi tayfa rəhbərləri də təklif vermişdilər (6).

Həsən xan vasitəsilə şah fərmanını alan Rüstəm xan dərhal verilən fərmanın icrası imkanlarını aradı. O, elə Həsən xanla da bu məsələ ilə bağlı öz fikrini çatdırdı. Rüstəm xan bildirdi ki, şah fərmanında adı çəkilən hər iki qalanın ələ keçirilməsi mümkündür. Sonra da hansı qalanın ələ keçirilməsi haqqında şahdan icazə istənildi. Rüstəm xanın məktubunu Həsən xan saraya gətirdi. Şah Səfi məktubla tanış olduqdan sonra Van qalasının ələ keçirilməsi haqqında öz qərarını verdi. Şahın bu qərarını cilovdar ağası Gülzar ağa Rüstəm xana çatdırdı. Rüstəm xan da bu qərarı eşidəndən sonra Van qalasına doğru hərəkətə başladı. O, Van qalasına yaxınlaşması haqqında Şah Səfiyə məlumat göndərdi və həmin məlumatda onu da bilirdi ki, münəccimlərin məsləhət bildikləri gün qala üzərinə hücum başlanacaqdır. Rüstəm xan tərəfindən Şah Səfidən xahiş olundu ki, o da düşərgəsi ilə birlikdə Azərbaycana doğru hərəkətə başlasın. Şah Səfi bu təklifi qəbul etdi və Azərbaycana doğru hərəkət etməyə başladı. Eyni zamanda o, Rüstəm xana məktub göndərdi, ondan tələb etdi ki, görülən işlər barəsində ona gündəlik məlumat çatdırsın. Eyni zamanda o da bəyan edildi ki, Rüstəm xan həm də qarşılaşdığı çətinliklər barədə öz fikirlərini

yazsın və bu çətinliklərin aradan qaldırılması üçün lazım olan tədbirlər şah sarayı tərəfindən həyata keçirilsin (7).

Elə həmin günlərdə Çuxursəəd hakimi Təhmasibqulu xandan Osmanlı dəstəsinin yeni basqını haqqında məktub alındı. Məktubda bildirilirdi ki, Qars hakimi İbrahim paşa qənimət ələ keçirmək məqsədilə Çuxursəəd məntəqələri üzərinə hücuma keçmişdir. Təhmasibqulu xan bundan xəbər tutanda öz qoşun dəstəsi ilə Osmanlı dəstəsinin qarşısına çıxdı. Tərəflər arasında baş verən döyüşdə qızılbaş döyüşçüləri bir daha uğur qazandılar və İbrahim paşa da məcburiyyət qarşısında qalıb yenidən Qarsa çəkildi (8).

Rüstəm xan səltənət qoşunları ilə Van qalası ətrafına yetişib bu qalanı mühasirəyə aldı. Dərhal da qala ətrafında səngərlər qazıldı, istehkamlar quruldu, qala müdafiəçiləri toplardan və tüfənglərdən atəşə tutuldu. Qala daxilindəkilər də malik olduqları imkanlardan istifadə etməklə qalanın müdafiəsinə başladılar. Qala müdafiəçilərinin də kifayət qədər odlu silahı var idi və onlar da bu silahlardan istifadə etməklə müdafiə olunurdular. Şah Səfi Van qalasının mühasirə olunması xəbərini alanda düşərgəsini hərəkətə gətirib Azərbaycana tərəf istiqamət götürdü (9).

Van qalasının mühasirəsinə 1633-cü il sentyabr ayının ilk günlərində başlandı. Osmanlı mənbələrində olan məlumata görə, qızılbaş qoşunları Van üzərinə hərəkətə başlamazdan əvvəl Diyarbəkr bəylərbəyi Murtuza paşa Səfəvi qoşunlarının Osmanlı hüdudlarına hücum hazırlıqları görməsi haqqında Osmanlı sarayına məlumat göndərmişdi. Onun məlumatına görə, hansı qala üzərinə hücum başlanması haqqında Səfəvi sarayında hələ qərar qəbul edilməmişdi. Murtuza paşa da belə bir vaxtda Səfəvi qüvvələri üzərinə hücuma keçilməsi haqqında Osmanlı sarayından icazə istədi. Murtuza paşaya görə, Van bəylərbəyi ilə vilayətdəki qoşun əmirləri arasında bəzi narazılıqlar da var idi və bu narazılıqlar da hücum üçün qızılbaş qüvvələrinə münasib məqam ola bilərdi. O da bəlli idi ki, bəzi yerli əmirlər arasında Səfəvi sarayını Van üzərinə hücuma təhrik etmək istəyənlər də var idi. Lakin Osmanlı sultanı IV Murad belə bir hücumun başlanmasına icazə vermədi.

Osmanlı mənbələrinə görə, IV Murad qızılbaş hücumunun olmayacağı təqdirdə qarşı tərəflə döyüşə girməyi məqsədəuyğun saymadı. Bir başqa məlumata görə, Murtuza paşa Osmanlı sədrəzəmi Məhəmməd paşaya (Mehmet paşa) göndərdiyi məktubunda Rüstəm xanın rəhbərliyi altında olan Səfəvi qoşunlarının yorğun olduğunu və bundan istifadə edərək bu qoşunlar üzərinə hücuma keçilməsinin zəruriliyini yazmışdı. Bununla belə, böyük müharibəyə başlanmasına Osmanlı sarayı tərəfindən qərar verilmədi(10).

Şah Səfinin Azərbaycana doğru hərəkətə başlaması Azərbaycan və sərhəd bölgəsi əhalisinin sevincinə səbəb oldu. Çünki bu bölgənin insanları davamlı şəkildə təkrarlanan Osmanlı və kürd basqınlarından böyük ziyan görürdülər. Bölgə əhalisi belə bir gümanda idi ki, Şah Səfi bölgəyə gəlməsi ilə sərhəd məntəqələrinin təhlükəsizliyinin təmin edilməsi istiqamətində əməli tədbirlər həyata keçirəcəkdir. Rüstəm xanın rəhbərliyi altında olan qızılbaş dəstələrinin yorğun olması xəbəri isə heç də həqiqətdən uzaq deyildi. Gürcüstan üzərinə yürüşdən sonra qızılbaş qüvvələri istirahət etmədən Van qalası üzərinə hücuma keçmək əmri almışdı. Şah Səfinin Təbrizə gəlməsi əslində, həm də bu məsələ ilə bağlı idi. O, sərhəd bölgəsi üzərinə həyata keçirilən Osmanlı dəstələrinin basqınlarının qarşısını almaq istəyirdi və bunun üçün Rüstəm xanın fəaliyyətinə böyük ümid bağlayırdı. Şah Səfi Təbrizdə dayanmaqla həm də zərurət yarandığı halda Rüstəm xanın dəstəsinə lazım olan kömək çatdırılmasını həll etməli idi. Bununla, Rüstəm xanın dəstəsini müəyyən çətinliklərdən xilas etmək olardı.

Şah Səfinin karvanı Miyanəcdən keçməklə əvvəlcə Ərdəbilə gəldi. Təbrizə yetişməzdən əvvəl Şah Səfi Ərdəbildə uyuyan ulu əcdadlarının ziyarətinə yollandı. Məlumata görə, Şah Səfi Ərdəbil şəhərinə iki fərsəx qalmış atdan yerə endi və Şeyx Səfiəddinin məqbərəsinə qədər piyada getdi. O, bu ulu əcdadının ruhuna dualar oxumaqla yaradandan başladığı səfərin uğurla başa çatmasını dilədi. Sonra Şah Səfi Ərdəbil yaxınlığındakı Gülxoranda ariflər sultanı kimi tanınan Seyid Cəbrayılın məqbərəsini ziyarət etdi. Hər iki ziyarət zamanı müqəddəslərin məqbərəsinin xidmətçi-

lərinə Şah Səfi tərəfindən səxavətlə nəzir-niyaz paylandı. Sonra da Şah Səfi Təbrizə yollandı. O, bu şəhərin sakinləri tərəfindən böyük sevinclə qarşılandı. Şah Səfinin Təbriz şəhərinə yetişməsi 1633-cü il sentyabr ayının 21-nə təsadüf edirdi (11).

Şah Səfi Təbriz şəhərinə yetişmək ərəfəsində Çuxursəəd hakimi Təhmasibqulu xanın çaparı yenidən onun hüzuruna gəldi və Osmanlı dəstəsinin yeni bir basqını haqqında şaha məlumat çatdırdı. Təhmasibqulu xanın məlumatına görə, Ərzrum hakimi Xəlil paşanın Xəmis bəy adlı bir əmirinin rəhbərliyi altında olan silahlı dəstə talan məqsədilə yenidən Çuxursəəd məntəqələri üzərinə basqın etmişdi. Təhmasibqulu xan öz dəstəsi ilə bu Osmanlı dəstəsinin basqınlarının qarşısını aldı və həmin dəstəyə ağır itki yetirildi. Osmanlı dəstəsinin rəhbəri Xəmis bəy də bu qarşılaşmada həyatını itirdi. Osmanlı döyüşçülərinin böyük bir hissəsi əsir götürüldü. Onların şəmşəddinli və qazaxlı elindən toplamış olduqları qənimətlər də geri alındı. Təhmasibqulu xanın yazdığından belə aydın olurdu ki, Osmanlı dəstəsi Qars qalası yaxınlığında yaxalanmışdı. Osmanlı dəstəsi talanları başa vurandan sonra arxayın şəkildə geri dönürdü. Təhmasibqulu xan buna imkan vermədi və elə Qars qalası ətrafında Omanlı dəstəsinə ağır zərbə vurdu. Şah Səfi bu xəbəri də məmnunluqla qarşıladı (12).

Şah Səfi Təbrizə yetişəndən sonra şəhər sakinlərini hüzuruna qəbul etdi, müşkülü olanların dərdinə çarə etdi, sözü olanların şikayətini dinlədi, imkansızlara pul payladı. Elə həmin günlərdə Van qalasını mühasirəyə almış Rüstəm xanın çaparı da Şah Səfinin hüzuruna yetişdi. Rüstəm xan Van qalasını mühasirəyə alması haqqında şaha ərzini çatdırdı. O həm də qarşılaşdığı çətinliklər haqqında məlumatı şaha təqdim etdi. Rüstəm xan bildirirdi ki, Van qalası öz möhkəmliyinə görə digər qalalardan fərqlənməkdədir. Belə ki, bu qala qalın divarlara malik olmaqla dörd tərəfdən su ilə əhatə olunmuşdu. Van qalası da su ortasında olan bir adanı xatırladırdı. Ona görə bu qalanın divarlarına yaxın düşmək çox çətin idi. Rüstəm xan Van qalasının fəth edilməsi üçün şahın köməyinə ehtiyacı olduğunu bildirirdi (13).

Şah Səfi əvvəlcə ehtiyat tədbirləri həyata keçirdi. Onun gümanınca, Mosul və Diyarbəkr hakimləri öz qoşun dəstələri ilə Van ətrafına gəlməklə bu qalanın müdafiəsini möhkəmləndirə bilərdilər. Ona görə Şah Səfi davatdar Kəlbəli xan Qacarı Əlişəkər istiqamətinə göndərdi. Kəlbəli xan orada dəstə toplamalı, sonra bu dəstə ilə Ərdəlana yollanmalı və orada Ərdəlan hakimi Xan Əhməd xanın rəhbərliyi altında olan qoşun dəstəsi ilə birləşməli idi. Bu birləşmiş dəstəyə Bağdadda olan qoşun dəstəsi də qatılmalı idi. Sonra da bu qüvvələr Van istiqamətində hərəkət etməli, digər bölgələrdən Van qalasının köməyinə gələ biləcək qüvvələrin qarşısını almalı idi. Bir məlumata görə, Bağdaddakı qoşun dəstəsi ilə birlikdə Kəlbəli xanın və xan Əhməd xanın rəhbərliyi altında on min nəfərlik bir dəstə təşkil edildi. Həmin qüvvə sadəcə olaraq Van qalasına gələ biləcək Osmanlı qüvvələrinin qarşısını kəsməli deyildi. Ətraf məntəqələr də həmin qüvvələr tərəfindən talan edilməli və Van ətrafında yaşayış ehtiyatlar və imkanları məhv edilməli idi. Qızılbaş dəstəsi Mosuldan başlamış Cəzirə və Əmadiyyəyə qədər olan əraziləri talan edib dağıtdı. Həmin ərazidə qarşıya çıxan Osmanlı döyüşçülərinə də zərbə vuruldu və xeyli sayda həm əsir, həm də qənimət götürüldü. Kəlbəli xan ona tapşırılmış tapşırığı yerinə yetirəndən sonra çoxlu əsir və qənimətlə Şah Səfinin hüzuruna gəldi. Xan Əhməd xanın verilən tapşırığın icrası zamanı göstərdiyi fədakarlıq da Şah Səfi tərəfindən təqdir edildi. Gürcüstan hakimi təyin edilmiş qullarağası Rüstəm xan da vilayət qoşunları ilə Osmanlı qoşunlarına qarşı yürüşdə iştirak etdi. O öz qoşun dəstəsi ilə Ərdəhan və Ərzrum istiqamətində hərəkət etməklə böyük sayda Osmanlı qoşunlarının diqqətini özünə cəlb etdi. Yəni Gürcüstan hakiminə verilmiş tapşırığın icrası ilə böyük bir Osmanlı dəstəsinin Van qalasının köməyinə yollanmasının qarşısı alındı (14).

Səfəvi qoşunlarının Van qalasını mühasirəyə alması Osmanlı hakimləri və sərdarları tərəfindən müəyyən bir təşvişlə qarşılandı. Bu qala ətrafında qızılbaş qüvvələrinin uğur qazanması sərhəd bölgəsində Səfəvi dövlətinin daha da möhkəmlənməsi demək idi.

Bağdadı geri qaytarmaq istəyən Osmanlı sarayı bundan sonra öz niyyətindən əl çəkməli olardı. Ona görə Diyarbəkr bəylərbəyi Murtuza paşa bölgədəki Osmanlı qüvvələrini toplayaraq Səfəvi qüvvələrinə qarşı müqavimət göstərilməsini qərarlaşdırdı. Murtuza paşa sərhəd bölgəsinin bəylərbəyləri arasında öz nüfuzu ilə seçilirdi. Bunun nəticəsi idi ki, o, Səfəvi qüvvələrinə müqavimət göstərilməsinə rəhbərliyi də öz üzərinə götürdü. Murtuza paşa qızılbaş qoşunlarının Van qalasını mühasirəyə alması haqqında Osmanlı sarayına da məlumat verdi və qızılbaş qoşunlarına qarşı müqavimət göstərilməsi üçün icazə istədi. Lakin Osmanlı sarayı hələlik Səfəvi dövlətinə qarşı böyük döyüşə girilməsini lazım bilmədi. Murtuza paşaya göstəriş verildi ki, Diyarbəkrdən kənara çıxmasın. Van qalasının mühasirəsi ciddiləşəndə Osmanlı sarayı hərəkətə keçmək barəsində qərar qəbul etdi. Lakin bu zaman da nəzərdə tutulmuşdu ki, Van qalasının müdafiəsinə göstərilən köməyə Murtuza paşa deyil, Ərzrum bəylərbəyi Xəlil paşa rəhbərlik etsin. Bununla belə, Murtuza paşa sarayın icazəsi olmadan çevik şəkildə qızılbaş qoşunlarına qarşı bölgənin qoşun dəstələrini toplamağa başladı. Murtuza paşa ətraf vilayətlərin hakimlərinə xəbər göndərərək onları öz qoşun dəstələri ilə qızılbaş qoşunlarına qarşı döyüşə dəvət etdi. O cümlədən, Ərzrum bəylərbəyi Xəlil paşaya da xəbər göndərildi. Xəlil paşa bu dəvəti qəbul etmək məcburiyyətində qalsa da çox ləng hərəkət etdi və bununla Murtuza paşanın rəhbərliyi altında döyüşə qatılmağa elə də rəğbətli olmadığını nümayiş etdirdi. Amma Qaraman, Maraş və Sivas əyalətlərinin qoşun dəstələri dərhal Murtuza paşanın dəstəsinə birləşdilər. Mövcud məlumata görə, Murtuza paşa bir aya yaxın Xəlil paşanın və onun qoşun dəstəsinin gəlməsini gözlədi. Bir xəbər olmadıqda Murtuza paşa onun gəlişini gözləmədən hərəkətə başladı. Murtuza paşa birləşmiş qoşun dəstəsi ilə Ərciş də olarkən Xəlil paşanın dəstəsi də gəlib yetişdi. Osmanlı qüvvələri dərhal Van istiqamətində hərəkətə başladılar və 1633-cü il oktyabr ayının 13-də Van ətrafına yetişdilər. Xəlil paşanın ləngliyinə baxmayaraq Murtuza paşa onu ağsaqqal kimi qəbul edirdi və Van qalasının

müdafiəsinə kömək göstərilməsini də onunla məsləhətləşirdi. Bu məsləhətləşmənin nəticəsi kimi qərara alındı ki, arxadan qızılbaş qüvvələrinin üzərinə hərəkət etsinlər. Belə olduğu təqdirdə qızılbaş qoşunları həm birləşmiş Osmanlı qüvvələri tərəfindən, həm də Van qalası daxilindəki Osmanlı dəstəsi tərəfindən ikitərəfli zərbə altına düşə bilərdi (15).

Birləşmiş qoşunların sayı təxminən 40 min nəfərdən ibarət oldu. Səfəvi qoşunlarının sipəhsaları belə böyük bir qoşun dəstəsinin Van qalası üzərinə gələ biləcəyini güman etmirdi. Sərhəd bölgəsində yerləşən Osmanlı vilayətlərindən bir qayda olaraq 10-15 min nəfərlik qoşun dəstəsi toplanardı. Van qalası daxilində olan Osmanlı dəstəsindən əlavə 40 min nəfərlik bir qoşun dəstəsinin də Van ətrafına gəlməsi səltənət sipəhsaları Rüstəm xanı mürəkkəb bir vəziyyətə saldı. O bu barədə Şah Səfiyə də məlumat göndərdi, vəziyyəti ona çatdırdı və ondan əlavə kömək istədi. Şah Səfi də dərhal Çuxursəəd bəylərbəyi Təhmasibqulu xana öz qoşun dəstəsi ilə Rüstəm xanın köməyinə yollanmağı əmr etdi. Onun rəhbərliyi altında 3-4 minlik bir qoşun dəstəsi var idi. Bundan əlavə, Şah Səfi şah düşərgəsində toplanmış olan qoşunların da bir hissəsinin Van qalası ətrafına göndərilməsi haqqında fərman verdi. Düşərgədə olan qulamlar, tüfəngçilər, qorçular, habelə atlı dəstəsi, bütünlükdə təxminən 10 min nəfərlik bir qoşun dəstəsi Van ətrafına göndərilmək üçün hazırlandı. Bu qoşun dəstəsinə rəhbərlik eşikağasıbaşı Uğurlu xana və Urmiya hakimi Kəlbəli xana həvalə olundu (16).

Murtuza paşanın rəhbərliyi altında olan qoşun dəstəsi Rüstəm xan üçün göndərilmiş köməkdən daha tez Van qalası ətrafına yetişdi. Belə olanda, Rüstəm xan mövcud qüvvə ilə Osmanlı qüvvələrinin qarşısını kəsmək məcburiyyətində qaldı. Amma məsələ onda idi ki, Osmanlı qüvvələri yetişəndə qızılbaş dəstələri dağınıq vəziyyətdə idilər. Qızılbaş dəstələri Van qalasının dövrəsi boyu mövqelərə yerləşmişdilər. Onların çoxunun atı da ətrafa buraxılmışdı. Bütün bu dəstələrin tez bir zamanda toplanmasına və atlanmasına ehtiyac var idi. Osmanlı qoşunlarının yenicə yetiş-

məsindən və onların düşərgə qurmağa başlamasından istifadə edən qızılbaşlar toparlanmaq üçün bir fürsət əldə etdilər. Rüstəm xanın əmri ilə dəstənin bütün təchizatı, əmlakı və əşyaları qaladan bir fərsəx aralı daşında və nisbətən daha təhlükəsiz bir yerə toplandı. Isgəndər bəy Münşinin yazdığına görə, mürəkkəb durum yaranmasına baxmayaraq qızılbaş əmirlərinin və qoşun başçılarının hamısı Osmanlı qüvvələri ilə döyüşə girmək arzusunda olduqlarını bəyan etdilər. Bununla bağlı, onlar bir sənəd də tərtib etdilər və hamılıqla imzalayaraq Rüstəm xana təqdim etdilər. Osmanlı mənbələrindəki məlumata görə, Osmanlı sərdarları və qoşun başçıları qızılbaş qüvvələrinin Van qalasından aralanmasını onların ehtiyatlanaraq geri çəkilməsi kimi qəbul etdilər. Ona görə də Xəlil paşanın əmri ilə Osmanlı qoşunlarının bir hissəsi onların ardınca getdi. Lakin qızılbaş qoşunlarının müəyyən məsafəyə çəkilərək döyüşə hazır vəziyyət aldıqlarını görüncə, onlar geri döndülər (17).

Osmanlı qoşunları rəhbərliyi Van qalası yaxınlığında öz qüvvələrini qruplaşdırdı, qüvvələrin sağ və sol cinahları, avanqard dəstəsi müəyyənləşdirildi. Murtuza paşanın qərarı ilə, Xəlil paşa öz dəstəsi ilə sol cinaha, Van, Rakka qoşun dəstələri və kürt silahlıları isə sağ cinaha yerləşdirildi. Qoşunların mərkəzində Murtuza paşa özü vuruşmağı qərara aldı. Toplar və tüfəngçilər üçün mövqe seçildi, döyüşqabağı mövqelər tutuldu. Rüstəm xan da qızılbaş qüvvələrini qruplaşdırdı, döyüşqabağı mövqelər tutuldu. Qüvvələrin sağ, sol qanadları, mərkəzdə vuruşacaq dəstələr müəyyənləşdirildi. 1633-cü il oktyabr ayının 15-də tərəflər arasında gərgin bir döyüş baş verdi. Osmanlı mənbələrindəki məlumata görə, bu döyüş səhərdən başlayaraq hava qaralana kimi davam etdi. Döyüşün gedişində Osmanlı qüvvələri istədikləri uğuru qazana bilmədilər. Bəzi vaxtlarda Osmanlı qoşunları hətta ağır duruma düşdülər. Sol cinahda yer almış Xəlil paşa öz dəstəsini ümumiyyətlə, döyüşə atmadı. Onun dəstəsində olan topların atəşləri isə qeyri dəqiq idi və mərmilərin əksəriyyəti qızılbaş dəstələrinin arxasında partladığı üçün ciddi bir tələfata səbəb olmurdu. Vəziyyət o yerə çatdı ki, Osmanlı qoşunlarında olan şeyxlərdən biri

Murtuza paşanın yanına gəldi, Xəlil paşanın dəstəsinin döyüşə qatılmaması haqqında ona şikayət etdi. Bir məlumata görə, Murtuza paşa heç Xəlil paşanın döyüşdə necə iştirak etməsinin fərqinə baxmayaraq inadkarlıqla irəli atıldı, Osmanlı döyüşçülərini öz ardınca irəli aparmağa çalışdı. Hətta döyüşün gedişində bir dəyişiklik də yaratmaq mümkün oldu. Lakin havanın qaralmasına görə, döyüşü dayandırmaq lazım gəldi (18).

Osmanlı mənbələrinin birinin məlumatına görə, Xəlil paşa qəsdən döyüşə qatılmadı və onunla Murtuza paşa arasında yaranmış olan inciklik döyüşün gedişində də özünü göstərdi. Xəlil paşa istəyirdi ki, öz dəstəsini döyüşdən kənar saxlamaqla Osmanlı dəstəsinin uğursuzluğuna və Murtuza paşanın günahlandırılmasına nail olsun (19). Bu da Murtuza paşanın Osmanlı sultanı tərəfindən ciddi cəzalandırılmasına yol açа bilərdi.

İsgəndər bəy Münşi də tərəflər arasında gərgin bir döyüşün baş verdiyini yazırdı. O da bildirirdi ki, bəzi Osmanlı dəstələri döyüşün aparılmasına xeyli süst yanaşdılar. Çox güman ki, İsgəndər bəy elə Xəlil paşanın dəstəsini nəzərdə tuturdu. Onun yazdığına görə, bəzi dəstələr sözü bir yerə qoyaraq yerlərindən tərpənmədilər. Lakin həmin dəstələrə məxsus olan toplar və tüfənglər kifayət qədər davamlı şəkildə istifadə olunurdu. Qızılbaş qoşunlarında olan toplar və tüfənglər də döyüşə qoşuldular. Bu da tərəflər arasındakı döyüşü daha da qızışdırdı. Top və tüfəng atəşləri hər iki tərəfə müəyyən sayda itkilər gətirdi. İsgəndər bəyin yazdığına görə, bu zaman Osmanlı qüvvələrinin sağ cinahı irəli çıxdı. Həmin istiqamətdə minbaşı Mirfəttahın rəhbərliyi altında olan İsfahan tüfəngçiləri və qulamlar dəstəsi Osmanlı döyüşçülərinin qarşısına çıxdılar. Qızılbaş döyüşçüləri bu istiqamətdə fədakarlıq göstərərək geri çəkilmədilər. Osmanlı döyüşçüləri isə irəli hərəkət etməyə elə də bir cəhd göstərmədilər. Axşama kimi, bu vəziyyət davam etdi. Hava qaralanda isə qüvvələr döyüş meydanından geri çəkildilər. Qızılbaş dəstələri düşərgəyə geri çəkilərək gecəni orada keçirməyi qərara aldılar. Rüstəm xan güman edirdi ki, növbəti gün

şah tərəfindən göndərilən köməkçi dəstələr nəhayət ki, gəlib yetişəcək və döyüş yenidən başlanacaq (20).

İsgəndər bəy Münşinin məlumatına görə, Osmanlı dəstəsi isə döyüşdən əl çəkdi. Bu qoşun dəstəsi, Van qalasının daha təhlükəsiz bir tərəfinə çəkildi. Orada toplaşan qoşun dəstəsinin qarşısında xəndəklər qazıldı, xəndəklər üzərinə tüfəngçilər yerləşdirildi. Yaralı döyüşçülər qala daxilinə daşındılar. Van hakimi vəzifəsindən kənarlaşdırıldı və ciddi şəkildə cəzalandırıldı. Onun bütün əmlakı isə talan edildi. Osmanlı sərdarlarına görə, döyüşdə bir nəticə əldə edə bilməyən qızılbaş qoşunları artıq qaladan çəkilib uzaqlaşmışdılar. İsgəndər bəy də yazırdı ki, qızılbaş qoşunlarının uzaqlaşması Xəlil paşanın ürəyini açmadı. Çünki o, qızılbaş qoşunlarının əli ilə Murtuza paşanın cəzalandırılmasına nail olmaq istəyirdi. Murtuza paşa döyüşün başa çatdığını güman edib öz dəstəsi ilə Diyarbəkrə yollandı. Xəlil paşa isə Ərzruma döndü (21).

Osmanlı qoşunlarının geri çəkilməsindən sonra qızılbaş qoşunlarının əmirləri və dəstə başçıları nə edilməsi barəsində məşvərətə toplaşdılar. Qarabağ bəylərbəyi Məhəmmədqulu xan Ziyadoğlu, Şirvan hakimi Fərrux xan, Kəsgər hakimi Əmir xan və digərləri bildirdilər ki, Osmanlı qoşunlarının Van qalası ətrafından geri çəkilməsi bu qoşunların məğlubiyyəti kimi dəyərləndirilməlidir. Ona görə də təklif olundu ki, daha qızılbaş qüvvələrinin də Van qalası ətrafında dayanmasına ehtiyac yoxdur. Bu təklifə əsasən, qızılbaş qoşunları da Van qalası ətrafından geri çəkildilər (22). Yəni belə güman edilirdi ki, Osmanlı qoşunlarına artıq güclü zərbə vurulubdur və bu qoşunlar daha Səfəvi hüdudlarına hücum etməyə cəsarət etməzlər.

Qızılbaş qoşunlarının Van qalasından geri çəkilməsini və Osmanlı qoşunlarının sakitcə uzaqlaşmasına imkan verilməsini Şah Səfi narazılıqla qarşıladı. O, Rüstəm xana xəbər göndərdi ki, tələb etdi ki Osmanlı qoşunlarının geri getməsinə imkan verilməsin. Belə bir fərman gələndən sonra Rüstəm xan mövcud durumu yenidən təhlil etdi və qoşunların Van qalası ətrafında dayanmasını məqsəduyğun saymadı. Xüsusilə, ərzaq ehtiyatlarının olmaması

Rüstəm xanı Van qalası ətrafından uzaqlaşmağa vadar etdi. Bununla bağlı, Rüstəm xan öz çaparını da şah hüzuruna göndərdi. Şahın nəzərinə ərz edildi ki, Van ətrafında ərzaq ehtiyatları tapılmadığı üçün qızılbaş qoşunları geri çəkilmək məcburiyyətində qalmışlar. Rüstəm xan öz dəstəsi ilə Van qalasından dörd fərsəx aralananda ona kömək üçün vəzifələndirilmiş olan Çuxursəəd hakimi Təhmasibqulu xan, Urmiya hakimi Kəlbəli xan, eşikağasıbaşı Uğurlu xan öz dəstələri ilə gəlib Rüstəm xanın dəstəsinə yetişdilər (23).

Bu dəstələrin əvvəlcə yetişə biləcəyi halda Osmanlı qoşunlarına qarşı döyüşün nəticələri başqa cür də ola bilərdi. Ona görə də Rüstəm xan öz narazılığını Təhmasibqulu xana da çatdırdı. Təhmasibqulu xan da bildirdi ki, Rüstəm xanın köməyinə yollanmazdan əvvəl İrəvanın təhlükəsizliyinin təmin edilməsi ilə məşğul idi. O ehtiyat edirdi ki, İrəvanı müdafiəsiz görən kürdlər, osmanlılar və digərləri bundan istifadə etməyə çalışarlar. Yalnız zəruri müdafiə tədbirlərini həyata keçirdikdən sonra Təhmasibqulu xan Rüstəm xanın köməyinə yollanmağı lazım bildi (24).

Təhmasibqulu xanın dəstəsi Rüstəm xanın dəstəsi ilə 1633-cü il oktyabr ayının 30-da birləşdi. Yeni kömək hesabına dəstənin güclənməsinə baxmayaraq Rüstəm xan yenidən Van ətrafına qayıtmağı məqsədəuyğun saymadı. Çünki havaların soyumağa başlaması qoşunlar üçün əlavə çətinliklər yarada bilərdi. Bununla belə, Təbrizə doğru hərəkət edərkən Rüstəm xan mahmudi tayfasına aid olan bir qalanı fəth etməyi lazım bildi. Bu qalanın kürd əşirətinə məxsus olduğu bəlli idi. Həmin tayfanın hakimi olan Zeynal bəyin qardaşı Laçın bəy həmin qalada məskunlaşaraq onun müdafiəsini öz üzərinə götürmüşdü. Zeynal bəyin də, Laçın bəyin də Osmanlı sarayına sığınmaq istəyi Səfəvi sarayını heç də razı salmırdı. Rüstəm xan kifayət qədər güclü müdafiə imkanlarına malik olan bu qalanı mühasirəyə aldı. 20 günlük mühasirədən sonra bu qalanı ələ keçirmək mümkün oldu. Bundan sonra Rüstəm xan və qızılbaş qüvvələri Təbrizə doğru hərəkəti davam etdirdilər və 1633-cü il noyabr ayının 20-də Təbrizə yetişdilər (25).

Rüstəm xan, habelə Çuxursəəd bəylərbəyi Təhmasibqulu xan, Qarabağ bəylərbəyi Məmməd xan Ziyadoğlu, Urmiya hakimi Kəlbəli xan və digər əmirlər, yüzbaşılar, dəstə rəhbərləri şah tərəfindən qəbul olundular və onların hər biri şahın qiymətli hədiyyələrinə layiq görüldülər. Mahmudi əşirətinin rəhbəri Zeynal bəy, onun qardaşı Laçın bəy, bu əşirətin ağsaqqalları da şah hüzurunda oldular. Şah tərəfindən onlar da qiyməti hədiyyələr aldılar (26).

Osmanlı mənbələrindəki məlumata görə, Murtuza paşa heç də Van qalasını tərk etməmişdi. Səfəvi qoşunları Van ətrafından uzaqlaşandan sonra Murtuza paşanın əmri ilə qala ətrafında qızılbaşlar tərəfindən qazılmış olan bütün səngərlər və xəndəklər dolduruldu. Ardınca da qala divarlarında yaranmış olan uçuqlar bərpa edildi. Sonra da Səfəvi sarayı ilə əməkdaşlıq etmək niyyətində olanlar axtarıldı, ələ keçənlər ciddi cəzalandırıldı. Van qalasının müdafiəsini möhkəmləndirdikdən sonra Murtuza paşa Diyarbəkrə yollandı. Oradan Murtuza paşa səltənət sipəhsaları Rüstəm xana təhdid dolu bir məktub göndərdi. Osmanlı paşası Van qalası ətrafında Rüstəm xanla görüşmək istədiyini bildirirdi və bunun baş vermədiyi üçün təəssüfünü ifadə edirdi. Murtuza paşa şübhə etmirdi ki, yazın gəlişi ilə o, Osmanlı sultanının fərmanına uyğun olaraq yenidən bölgəyə gələcək və Rüstəm xanla görüşmək imkanı əldə edəcəkdir. O yazırdı ki, bu görüşdən sonra Rüstəm xanı Təbrizə qədər qovacaqdır. Rüstəm xan bu məktubu cavabsız qoymadı. Murtuza paşanın məktubuna nisbətən, onun məktubu daha nəzakətli ruhda yazılmışdı. Rüstəm xan tövsiyə edirdi ki, tərəflərin vəzifə sahibləri müharibə qızışdırılması ilə deyil, sülhün əldə edilməsi ilə məşğul olmalıdırlar. O sonra da əlavə edirdi ki, Səfəvi sarayı hər vasitə ilə Osmanlı sarayı ilə sülh əldə edilməsinə çalışmaqdadır. Rüstəm xanın sözlərinə görə, Səfəvi sarayı Osmanlı dövləti ilə dostluq münasibətlərinin qorunmasına tərəfdardır. Qızılbaş qüvvələrinin döyüşə qatılmasını isə o, yalnız müdafiə məqsədilə edildiyini bildirirdi. Rüstəm xan yenidən Səfəvi dövləti üzərinə qoşun çəkilməsini məqsədəuyğun bilmirdi. O, keçmişi xatırladaraq bəyan edirdi ki, dəfələrlə Os-

manlı qoşunları Səfəvi dövləti üzərinə qoşun çəkmiş və hər dəfə də böyük itkilər verərək geri çəkilməli olmuşdu. Rüstəm xan məktubunun sonunda xatırladırdı ki, o, yenə də Osmanlı qoşunlarının uğursuzluğa düçar olması üçün Allaha dualarını edəcəkdir (27).

1633-cü ilin sonu, 1634-cü ilin əvvəllərində Xan Əhməd xanın Kəlbəli xanla birlikdə yenidən Mosul üzərinə basqın etməsi xəbəri gəldi. Bu xanların rəhbərliyi altında olan qoşun dəstəsi Mosulu və onun ətrafını talanlara məruz qoydu, bu vilayəti mühafizə edən qüvvələrə ciddi zərbə vuruldu. Sonra da adları çəkilən xanlar çox böyük sayda müharibə qənimətləri ilə geri qayıtdılar. Bu basqın sərhəd bölgəsində yerləşən Osmanlı qoşun dəstələrinə zərbə vurulması baxımından Şah Səfinin təqdiri ilə qarşılandı (28).

Səfəvi qoşunlarının Van qalası ətrafına gəlməsi və bu qalanı mühasirəyə alması xəbəri Osmanlı sultanı IV Murad tərəfindən narahatçılıqla qarşılandı. IV Murad Bağdadı qızılbaş qüvvələrinin nəzarətindən geri almağa çalışdığı bir vaxtda Van qalasının belə bir hücuma məruz qalması onun planları ilə heç də üst-üstə düşmürdü. Ona görə IV Murad da Səfəvi qoşunlarının hücumunun qarşısını almaq işinə qatılmalı oldu. Öz planlarını həyata keçirmək üçün Osmanlı sultanı sədr-əzəm Mehmet (Məhəmməd) paşanı Van sərdarı təyin etdi. Mehmet paşa ona verilən qoşun dəstəsi ilə Vana doğru hərəkət etməli və bu qalanın müdafiəsini öz üzərinə götürməli idi. IV Murada yaxşı bəlli idi ki, Van qalasının müdafiəsinin təşkil edilməyəcəyi halda Bağdadın da ələ keçirilməsi mümkün olmayacaqdır. Sədr-əzəm Üsküdara gələrək orada səfər hazırlıqlarına başladı. 1633-cü il oktyabr ayının sonlarına yaxın Mehmet paşa tabeliyində olan qoşun dəstəsi ilə səltənətin şərqinə doğru hərəkətini davam etdirdi. Bu qoşun dəstəsi İzmitə yetişəndə IV Murad da dəniz yolu ilə bura gəldi ki, Van qalası üzərinə gedən Osmanlı qoşunlarının nizamını və hazırlıq səviyyəsini özü də yoxlasın. Osmanlı sultanı hətta bir müddət qoşunla birlikdə hərəkət etdi. Elə bu arada Ərzrum bəylərbəyi Xəlil paşanın bir adamı gələrək Səfəvi qoşunlarının Van qalası ətrafından geri çəkildiyini çatdırdı. Osmanlı sultanı Van üzərinə hərəkət etməyi dayan-

dırmadı və Mehmet paşaya tapşırdı ki, öz yoluna davam etsin. IV Murad özü isə geri qayıtdı. Mehmet paşa da qoşunlarla Hələbə gəldi və orada qışlağa dayandı (29).

IV Murad əslində, qərara almışdı ki, Mehmet paşanın rəhbərliyi altında olan qoşun dəstəsi Səfəvi hüdudlarına doğru hərəkətini davam etdirsin. Yəni Osmanlı sultanı Səfəvi dövləti ilə yeni müharibə başlanmasında qərarlı idi və ona görə idi ki, özü də qoşunla Səfəvi hüdudlarına doğru irəliləyirdi. Lakin 1634-cü ilin əvvəllərində Polşa sərhədində baş verən hadisələrə görə IV Murad şərq yürüşünü təxirə salmalı oldu. Onun fikrincə, Avropa istiqamətində baş verən hadisələrin yoluna qoyulması Osmanlı dövləti üçün daha böyük əhəmiyyət kəsb edirdi. Bunun üçün də Diyarbəkr hakimi Murtuza paşa İstanbula çağırıldı və Polşa sərhədinə göndərildi. Murtuza paşanın Avropa cəbhəsi ilə bağlı yetərli təcrübəsi var idi. Ona görə də o, Avropa istiqamətinə göndərildi və ona Polşa sərhədində yeni müharibənin başlanması və ya hər hansı bir razılaşmanın əldə edilməsi səlahiyyəti verildi. Lakin Polşa sarayı görəndə ki, Osmanlı dövləti tərəfindən ciddi hazırlıqlar görülür, onda qarşılıqlı razılaşma əldə edilməsi məqsədəuyğun sayıldı. Bununla Polşa sərhədində yaranmış olan gərginlik də aradan qalxdı (30).

İsgəndər bəy Münşi də öz əsərində Osmanlı sultanının Səfəvi dövləti üzərinə hərəkətə başlamasını yazmışdı. Onun yazdığına görə, Avropa ölkələrindən gəmilərlə Osmanlı hüdudlarına talançı basqınlar edildi və böyük qənimətlər toplandı. İsgəndər bəyin fikrincə, Osmanlı sultanı səltənətin Avropa istiqamətindən talanlara məruz qalmasını çox ciddi bir təşvişlə qarşıladı və ona görə də Səfəvi dövləti üzərinə hücumdan əl çəkib İstanbula qayıtdı (31).

2. Osmanlı qoşunlarının İrəvan üzərinə yürüşü

Avropa istiqamətində meydana gələn gərginlik aradan qalxdıqdan sonra Osmanlı sultanının bütün diqqəti yenidən şərq sərhədlərinə doğru yönəldi. Yaranmış olan fürsət Səfəvi dövləti üzə-

rinə daha böyük bir hücumun həyata keçirilməsi üçün əlavə imkanlar açdı. Güman edilirdi ki, IV Muradın əsas məqsədi tezliklə Bağdadın ələ keçirilməsidir. Lakin sultanın apardığı hazırlıqlardan bəlli oldu ki, o, əvvəlcə İrəvan istiqamətində yürüş etmək və sonradan diqqətini Bağdada tərəf çevirmək niyyətindədir. Həmin yürüş 1635-ci ildə həyata keçirildi. 1634-cü ildə isə bu yürüş üçün hazırlıqlar aparıldı.

Bir məlumata görə, Osmanlı sultanının əvvəlcə Bağdad üzərinə deyil, İrəvan üzərinə getməsinin səbəbi bu şəhərdə hakim vəzifələrdə olan bəzi adamların Osmanlı hücumuna köməklik göstərməyi vəd etməsi ilə bağlı idi. Həmin məlumatda bildirilir ki, İrəvan bəylərbəyi Təhmasibqulu xan Osmanlı qoşunlarının İrəvan üzərinə hücum edə biləcəyi haqqında bəzi xəbərlər almışdı. Bu xəbərlərin dəqiqləşdirilməsi məqsədilə o, 1634-cü ilin əvəllərində öz xəfiyyəsini İstanbula göndərmək istədi. Həmin xəfiyyə bütünlükdə Osmanlı qoşunlarının yerdəyişmələrini müşahidə altında saxlamalı və Təhmasibqulu xana xəbər çatdırmalı idi. Mövcud məlumata görə, İrəvan sarayının Murad Kətxuda adlı vəzifə sahiblərindən biri həmin xəfiyyəni ələ keçirdi və onu məcbur etdi ki, Təhmasibqulu xanın əmrini icra etməsin. Murad Kətxuda həmin xəfiyyə vasitəsilə Osmanlı sultanına və saray mənsublarına məktub göndərdi və Osmanlı qoşunlarını İrəvana dəvət etdi. Bu məktubda deyilirdi: "Ordu topladığınızı və bir səfər planladığınızı öyrəndim. Heç bir yerə getməyin, Rəvana gəlin. Çünki sizə yardım edəcəyəm. Buraya ulasdığınız anda mən eyni gün sizə Rəvanı verəcəyəm" (32).

Osmanlı sultanının yalnız bu məktuba görə yürüşü İrəvan qalası üzərinə təyin etməsini birmənalı şəkildə təsdiq etmək çətindir. Amma o da məlumdur ki, sonradan İrəvan qalası hakimləri arasında başqa xəyanətlər də baş verdi. Ona görə İrəvan qalasından Osmanlı sultanına məktub göndərilməsi istisna olmaya da bilər.

Səfəvi dövləti üzərinə hücumun İrəvandan başlanması taktiki gediş də ola bilərdi. Çünki İrəvanın alınması ilə Osmanlı qoşunları

böyük hərbi üstünlüklər əldə edə bilərdi. 1634-cü ilin Novruz bayramından bir neçə gün sonra Bağdad hakimi Bəktaş xanın çaparı şah hüzuruna yetişərək Osmanlı qoşun dəstələrinin Hillə ətrafında toplaşdıqlarını çatdırdı. Onlar tərəfindən ətraf bölgənin talan edilməsi təhlükəsi var idi. Şah tərəfindən Lur hakimi Şahverdi xana, Ərdəlan hakimi Xan Əhməd xana və Fars əmirlərinə göstəriş verildi ki, onlar lazımi hazırlığa malik olsunlar. Osmanlı qoşunlarının bölgədə fəallaşacağı təqdirdə bu hakimlər və əmirlər öz qoşunları ilə onların qarşısını almalı idilər. Bir neçə gün sonra Bağdad hakimindən yeni bir xəbər Şah Səfiyə çatdırıldı. Həmin xəbərə görə, Osmanlı yeniçəriləri arasında ciddi qarşıdurma yaranmışdı. Hətta yeniçərilər tərəfindən yeniçəribaşının da qətlə yetirilməsi təhlükəsi yaranmışdı. Bildirilirdi ki, Osmanlı sultanı Səfəvi hüdudları üzərinə hücum üçün İstanbulu tərk etsə də, yeniçərilər arasındakı qarşıdurma xəbərini eşidəndə geri qayıtmalı oldu (33).

Bu məlumat Osmanlı qoşunları tərəfindən Səfəvi dövləti üzərinə hücumun nə üçün 1634-cü ildə başlamaması üçün bir əsas ola bilər. Yəni ki, Osmanlı qoşunları içərisində yaranmış olan gərginlik və qarşıdurma bu qoşunların hazırlığına da təsir etdi və ona görə də yürüş sonrakı ilə təxirə salındı.

Novruz bayramından az sonra Təbrizdə bir Osmanlı casusu ələ keçirildi. Osmanlı qoşunlarının yürüşünün başlaması ərəfəsində bu casus Səfəvi qoşunları haqqında kəşfiyyat məlumatları toplayırdı. Şah Səfinin fərmanı ilə bu casusu filin ayağı altına atdılar və bu yolla onu qətlə yetirdilər (34).

1634-cü ilin Novruz bayramından sonrakı ilk aylarda səltənətin şərq sərhədlərində də gərginliklər özünü göstərməyə başladı. Belə ki, Herat hakimi Həsən xanın şah sarayına göndərdiyi məlumata görə, Əbdülrəhman Atalığın rəhbərliyi altında 12 min nəfərlik bir özbək dəstəsi Xorasan vilayəti daxilində talanlar etmiş və bir neçə gündən sonra bu dəstə topladığı qənimətlərlə Mürğab çayını adlayaraq geri qayıtmışdı. Bundan bir müddət sonra isə Nədr Məhəmməd xanın oğlu Əbdüləziz xan 20 min nəfərlik özbək dəstəsi

ilə Xorasan vilayətinin sərhədinə gəldi. Vilayət əhalisi özbəklərin talan təhlükəsi haqqında məlumat alanda öz mülk və əmlaklarının qalalara daşıdılar, orada müdafiə olundular. Özbək dəstəsi Fərəh qalasını mühasirəyə alsa da məqsədinə nail olmadı və bir müddətdən sonra geri qayıtmalı oldu (35).

1634-cü il ərzində səltənətin saray həyatında da bəzi gərginliklər özünü göstərdi. Belə ki, Şah Səfinin fərmanı ilə sədr-əzəm və etimadüddövlə Talıb xan qətlə yetirildi. Talıb xan uzun müddət idi ki, etimadüddövlə vəzifəsini icra edirdi. Şah Səfinin hakimiyyəti illərində o, səltənətin ikinci adamı idi. Lakin bəzi anlaşılmazlıqlara görə Talıb xan bir müddət həmin vəzifədən uzaqlaşdırıldı. Görünür, Şah Səfi onun xidmətinə ehtiyac duyurdu və ona görə onu yenidən etimaddüddövlə vəzifəsinə bərpa etdi. Bununla belə, Talıb xan 1634-cü ildə qətlə yetirildi. Bəzi məlumatlara görə, Talıb xan hərəkətləri və danışıqları ilə şah yanında öz etibarını itirmişdi. Bəzi adamlar da onun etibardan düşməsi üçün şah qarşısında öz təhrikçiliyini göstərmişdilər. Bir məlumata görə isə bir ehtiyatsız hərəkətinə görə, Talıb xan həyatı ilə vidalaşmalı olmuşdu. Bildirilir ki, bir dəfə Talıb xan Xorasan bəylərbəyi olan Həsən xanın evində təşkil olunmuş şərab məclisində iştirak edirdi. Sarayın eşikağasıbaşı Uğurlu xan və mirşikarbaşı Utar xan, söhbət yasovulu Həsən bəy də bu məclisdə idilər. Şərabdan məst olduqdan sonra onlar ağacla keşikçibaşı Bəhram bəyi döyüb öldürmüşdülər. Şah Səfi bu xəbəri eşidib çox qəzəbləndi. Onun keşikçilərinin rəhbərini qətlə yetirən Talıb xanı və onun yanındakı əmirləri qətlə yetirdi. Bundan sonra səltənət etimadüddövləsi vəzifəsinə Mazandaran vəziri olan və Sarı Tağı kimi tanınan Mirzə Tağı gətirildi. Daha bir neçə vəzifəyə də yeni adamlar təyin edildilər (36).

1635-ci ilin Novruz bayramını Şah Səfi Qəzvində qeyd etdi. Bu dəfə də Şah Səfi bu bayramın təntənəli və xoş bir əhval ruhiyyədə keçməsi üçün öz fərmanlarını verdi. Şəhər başdan-başa bəzədildi, yerli və xarici qonaqları ilə birlikdə Şah Səfi bu bayram şənliklərində iştirak etdi. Şah Səfi öz qonaqlarını, qoşun başçılarını

qiymətli hədiyyələrlə mükafatlandırdı, ehtiyacı olanların şikayətlərini dinlədi, məzlumlara kömək olmağa çalışdı.

Şah Səfi Qəzvində Novruz şənliklərində vaxt keçirəndə Osmanlı qoşunları artıq Səfəvi sərhədləri istiqamətində hərəkətə başlamışdı. Mövcud olan məlumatlardan aydın olur ki, hələ 1634-cü ilin sonlarında Səfəvi hüdudlarına yürüş üçün hazırlıqların başlanması haqqında sultan fərmanı verilmişdi. Həmin fərman yürüşə çıxacaq qoşunların təminat və təchizat məsələləri ilə bağlı idi (37).

Səfəvi dövləti üzərinə yürüşə IV Murad özü rəhbərlik edirdi. Mövcud olan məlumata görə, Sultan Süleymanın dünyasını dəyişməsindən sonra Osmanlı sultanları çox nadir hallarda hərbi yürüşlərə rəhbərlik edirdilər. Səfəvi dövləti üzərinə hücuma verdiyi diqqət və əhəmiyyətin nəticəsi idi ki, Osmanlı sultanı bu yürüşə rəhbərliyi öz üzərinə götürmüşdü. Bir məlumata görə 1635-ci ilin fevral ayında, digər məlumata görə isə həmin ilin mart ayında IV Murad İstanbulu tərk edib Üsküdara gəldi. Burada yürüş üçün son hazırlıqlara başlandı. 1635-ci il mart ayının sonlarında IV Murad və Osmanlı qoşunları Üsküdardan yola düşdülər. Bu qoşun Konya və Qeysəriyədən keçməklə may ayının 22-də Sivasa yetişdi. Qoşunların hərəkət etdiyi zaman sədr-əzəm Mehmet paşa Diyarbəkrdə idi. O da orada yeni hərbi yürüş üçün hazırlıq işləri aparırdı. Mehmet paşa tərəfindən həm ərzaq ehtiyatları, həm də silah və sursat ehtiyatları toplanırdı. Sədr-əzəm Osmanlı sultanının qoşunlarla Bağdada doğru irəliləyəcəyini güman edirdi. Ona görə də, hərbi ehtiyatlar Ərzrum və Hələbdə toplanırdı. Sonradan Osmanlı sultanının İrəvan üzərinə hərəkət niyyəti aydın olanda Mehmet paşa Ərzruma yollandı. Onun göstərişi ilə Diyarbəkr və Hələbə toplanmış müharibə ehtiyatları da Ərzruma daşındı (38).

Osmanlı mənbələrində bu yürüşə rəhbərlik edən IV Muradın çevikliyi və fiziki gücü haqqında səxavətlə söz açılmışdır. Məsələn, dövrün hadisələrinin şahidi olan İbrahim Peçevi yazırdı: “Qeysəridən Dəvəli-Hisara gedərkən səadətli padşah həzrətləri araba ilə getmək istədiyindən atdan enib arabaya minmişdi.

Qarşıda bir kənar qoç birdən-birə ortaya çıxdı. Bunu görən Sultan Murad dərhal "bre at" deyə səsləndi, və elə bir sürətlə və anında ata atlandı ki, sanki heç atdan yerə enməmişdi. Uğurlu əllərinə qılıncdan daha kəskin bir mızraq alaraq sanki bir şahin imiş kimi ovunun üzərinə yürüdü, bir ildırım sürəti ilə göz açıb qapayıncaya qədər qoçun girəcəyi yerin qapısını tutdu və mızrağı elə bir bacarıqla fırlatdı ki, qoçu dələrək torpağa sancıldı. Bu hadisəni müşahidə edən çoxlu sayda islam əsgərlərinin hamısı "ey aləmin sığnağı olan padşah, pis gözlər çatlasın, uca Tanrı həzrətləri padşahımızı xəta və təhlükələrdən saxlasın. Yalnız əsgərin deyil, eyni zamanda bütün müsəlmanların, hətta kafir və rəiyyətin də qiyamətə qədər öyünəcəkləri bir hökmdar oldun" kimi dua və öyüncləri göy üzünədək yüksəldi. Padşahın bu qəhrəmanlığı bir daha göstərdi ki, igidlik və mərdlik, Allah üçün tanımlanıb anlatılmayacaq qədər çoxdur. İnsaf ilə söyləmək lazımdır: İslam dövlətlərində indiyə qədər gəlib keçmiş hökmdarların hansında belə bir bacarıq və cəsarət bir arada görülmüşdü, ya tarix kitablarında yazılmışdı?" (39).

Peçevinin Sultan Muradla bağlı təsvir etdiyi başqa bir hadisə belə idi: "Amma bundan daha çox şaşılacaq olanlar da vardır. Yenə eyni vəzir Musa paşa belə anladır: Hərəmdə silahdarlığımı yapmaq vəzifəsini icra etdiyim vaxtlarda çox tez-tez mənə "gəl silahdar" deyib sağ əli ilə qurşağımdan yapışar və qaldırıb başı üzərində bir əli ilə tutar.. və o durumda bir neçə dəfə dolandırardı. Başlanğıcda məni mərmər üzərində fırlatdığı üçün qorxardım. Lakin əlindən salmazdı. Hər dəfə necə qaldırmışdısa, elə o cür də yerə endirərdi. Bu etdiyini insaf gözü ilə görmək lazımdır. Zəmanəmizdə bir pəhləvan görmədik ki, belə bir bacarıq göstərə bilsin" (40).

Novruz bayramından sonra İrəvan bəylərbəyi Təhmasibqulu xan da Şah Səfiyə Osmanlı qoşunlarının hərəkətə başlaması və bu qoşunların İrəvan üzərinə gəlməsi xəbərini çatırdı. İstanbuldan gəlmiş xəfiyyə və digər adamlar bu barədə ona məlumat verdilər. Həmin günlərdə Qəzvin şəhərində taun və vəba xəstəliyi yayıldı

və bu xəstəliyin qarşısını almaq mümkün olmadığı üçün şəhər sakinlərindən 20 min nəfərə qədər həyatını itirdi. Qəzvindən əlavə Sultaniyyə, Tarom, Xalxal, Zəncan və Azərbaycan vilayətinin digər şəhərlərində də xeyli sayda insan bu yolxucu xəstəliklərdən dünyasını dəyişdilər. Bu xəstəliklərdən qorunmaq üçün Şah Səfi və saray mənsubları Qəzvini tərk etdilər və Qəzvindən 3-4 fərsəx aralı olan Dəryavək yaylağına çəkildilər. Bir müddətdən sonra yolxucu xəstəliklər səngidi və Şah Səfi yenidən Qəzvinə qayıtdı (41).

Osmanlı qoşunlarının İrəvan üzərinə hərəkət etməsi bəlli olandan sonra Şah Səfi söhbət yasovulu Canı bəyə tapşırıq verdi ki, Qarabağ, Şirvan və Çuxursəəd qoşunlarının İrəvan istiqamətində toplanmasını təşkil etsin və həmin qoşunlar Osmanlı qoşunlarının zərbəsini qarşılamağa hazır olsunlar. Canı bəy də dərhal bu tapşırığın icrasına yola düşdü. Alınan xəbərlər onu göstərirdi ki, Osmanlı qoşunları artıq Sivasa yetişmişdir. Sonra bu qoşunların Ərzruma doğru hərəkət edəcəyi şübhə doğurmurdu. Qoşunlar hərəkətə başlamazdan əvvəl onların topları artıq Ərzruma yola salınmışdı. Təhmasibqulu xana yetişən məlumatdan bəlli olurdu ki, Osmanlı sultanı Ərzruma yetişəndən sonra bu vilayətin hakimi Xəlil paşanı və oğlunu qətlə yetirmişdir. Osmanlı mənbələrinə görə isə, hələ Osmanlı sultanı yetişməzdən əvvəl sədr-əzəm Mehmet paşa Xəlil paşanı qətlə yetirmişdi (42).

Osmanlı qoşunlarının İrəvan istiqamətində hərəkətdə olması xəbərini alandan sonra Şah Səfi Qəzvində çox da dayanmadı. O, Təbrizə doğru hərəkətə başladı və yol üstündə bir neçə gün Səhənd yaylağında düşərgə saldı. Sultan Murad qurban bayramının yetişməsi ilə əlaqədar iki həftə Sivasda dayanmalı oldu. Sonra o, İrəvan istiqamətində hərəkətini davam etdirdi və 1635-ci il iyun ayının 21-də Kömürobası adlanan məntəqədə qoşunlara sıra baxışı keçirdi. İyul ayının ilk günlərində Sultan Muradın karvanı Ərzruma yaxınlaşdı. Əvvəldən bu şəhərə gəlmiş olan sədr-əzəm Mehmet paşa sultanı qarşıladı və onun şərəfinə böyük bir mərasim təşkil edildi (43).

Ərzrum ətrafına elə böyük bir sayda Osmanlı qoşunları toplandı ki, bu say ətrfdakıların da təəccübünə səbəb oldu. Yəni IV Murad Səfəvi dövləti üzərinə yürüşün uğurla başa çatdırılması üçün çox böyük sayda qoşunu səfərbər etdi. Hətta məlumatlardan o da aydın olur ki, Ərzrum yaxınlığında qoşunlar bir də nəzərdən keçirildi və bu qoşunların heç də hamısı müharibəyə cəlb edilmədi. Mənbələrdə bu qoşunların sayı barəsində bu qeydlər saxlanmaqdadır: "əsgərin sayı o qədər çox idi ki, yüz yaşında olan yaşlı və qoca kişilərə yüz ildən bəri əsgərin bu qədər çoxluğunu görmək nəsib olmamışdı və bu barədə eşitməmişdilər. ...Bu əsgəri təxmin ilə bu qədər min əsgərdir deyənlər kəzbi-sərih edər, çoxluğundan təxmin edərlər. Əsgər deyildir, bu əsgərin ədədini Allah-Təaladan qeyri kimsə bilməz - deyə təkrar edərdilər". Bəzi mənbə müəllifləri Sultan Muradın qoşunlarının sayının 250 min olduğunu və bunun 40-50 mininin yürüşə yaramadığı üçün Ərzrumda saxlandığını, bəziləri isə bu qoşunlarının sayının 200 min nəfərdən çox olduğunu yazırdılar. Sultan Murad doğrudan da Ərzrumda qoşunları bir də nəzərdən keçirdi və ağır yürüşün sınaqlarına dözə bilməyəcək qoşun əhlinin Ərzrumda qalmasını lazım bildi. Osmanlı sultanı təxminən bir həftə Ərzrumda dayandı və sonra yoluna davam etdirdi. 1635-ci il iyul ayının 17-də sultan Qarsa yetişdi və həmin ayın sonunda isə Osmanlı qoşunları artıq İrəvan ətrafında idi (44).

Mənbə məlumatlarından bəllidir ki, IV Murad İrəvana doğru hərəkətə başlayanda bu vilayətin bəylərbəyi Təhmasibqulu xana məktub göndərdi və onu qalanı təhvil verməyə çağırdı. Osmanlı sultanı bu məktubunda yazmışdı ki, çox böyük sayda olan qoşunla Azərbaycana doğru irəliləyir və Təhmasibqulu xanın təslim olacağı təqdirdə ona şahanə nəvaziş göstəriləcəkdir (45).

Yəni qoşunların çoxluğu Sultan Muradda belə bir əminlik yaratmışdı ki, hərbi yürüşü uğurla başa vuracaqdır. Elə bu əminliyinə görə də o, Səfəvi dövlətinin tanınmış əmirlərindən olan Təhmasibqulu xanı Səfəvi dövlətinə sədaqətsizlik göstərməyə sövq etməyə cəhd göstərdi. Təhmasibqulu xanın bu məktuba nə

cavab verməsi ilə bağlı mənbələrdə bir məlumat yoxdur. Mənbələrdə öz əksini tapmış məlumatlar onu da göstərir ki, IV Murad Səfəvi sərhədlərinə doğru hərəkət etdiyi zaman Səfəvi hüdudlarında, vilayətlərdə nə baş verməsi haqqında kəşfiyyat məlumatları da toplayırdı. Bunun üçün ya Səfəvi ərazisinə xəfiyyələr göndərilir, ya da Səfəvi ərazisindən əsirlər (dil) götürülür və Osmanlı düşərgəsinə gətirilirdi (46). Həmin adamlardan toplanan məlumatlar Osmanlı qoşunlarının fəaliyyət planlarının konkrtetləşməsinə yol açırdı.

Osmanlı qoşunları İrəvan qalasının həndəvərinə 1635-ci il iyul ayının 28-də yetişdi. Dövrün Osmanlı xronikasında Osmanlı qoşunlarının İrəvan qalası ətrafına yetişməsi belə təsvir olunmuşdur: "Və səadətli xunkarımız Rəvan qalası önündə (qərbinə) cari olan Zəngi çayını keçmək üçün Rəvan qalasının önündən keçərkən Əsgərin kəsrətindən (çoxluğundan) toz qalxmağa və qala əsgərə yaxın olduğu görünməməklə alay ilə önündən keçərkən həmin alaylar göründüyü kimi qızılbaşi-bədməaş hisardan alaylara topu atıb. Hikməti xuda, ibtida atılan dəmir yuvalak (top gülləsi) ki, təxminən iki vəqiyyə çəkərdi, səadətli padşahımızın mübarək başı üzərindən, ancaq bir-iki zira (arşın) yüksək keçib beş-altı zira miqdarı uzacıq önünə düşüb, hikmətdən kimsənəyə rast gəlməyib, boş yerə düşdü. Səadətli padşahımıza atılan bu alarğayı (yaylımı) gördükdə əsla uğurundan dönməyib gerü (yenə) nəhri-məzburu keçib sayeban qurdurdu. Bir miqdar anda istirahət edib bəədehü otaqi-hümayunlarını bir münasib məhəlləyə nəql etdilər" (47).

Osmanlı sultanının top atəşinin təhlükəsi altına düşməsi və qala ətrafına hansı qüvvələrin yerləşdirilməsi başqa bir Osmanlı mənbəsində belə təsvir olunmuşdur: "1045-ci il səfər ayının 14-də dərya-misal əsgər Rəvan qalasının qarşısında, Rəvan içindəki dinsizlərin, islam qazilərinə toplar və tüfənglər atarkən, göy gurultusunu andıran bir top küçələr üzərindən keçən və zəfərpənah əsgərlərin alayları içinə düşdü. Padşah həzrətləri də məlunların top və tüfənglərinə baxmayaraq Rəvan qarşısında olan Zəngi-xan keçidindən keçdi. Rəvanın yaxınlığında düşərgə

salındı. Çadırlar qala ətrafını əhatə etdilər. O gün axşama qədər qala qapısında döyüş oldu. O yerdə qazinin biri bir baş və digəri də bir dil gətirdi. Ertəsi gün cümə günü idi. Ayın 16-da gecə vaxtı əsgərlər mətrisə (səngərlərə) girdilər. Əski Rəvan tərəfindən Kiçik Əhməd paşa Ərzrum əsgərləri ilə və bir tərəfi də Əskişəhər qapısı olub buradan da Anadolu bəylərbəyi Gürcü Mehmed paşa, orta qol qarşısında da vəziri-əzəm ləvənd və sökbanları ilə, Təbriz qapısı tərəfindən isə Canbuladzadə Mustafa paşa və Kapudan paşa zaimlər və timar ərbabı ilə savaşa başladılar" (48).

1635-ci il iyul ayının ortalarında Şah Səfi Əbhərə gəldi. Burada olduğu günlərdə də Şah Səfi İrəvan qalasının möhkəmləndirilməsi istiqamətində bəzi tədbirlər gördü. O cümlədən, Mir Fəttahın rəhbərliyi altında olan İsfahan tüfəngçiləri İrəvana göndərildi. Osmanlı qoşunlarının İrəvan qalasına yaxınlaşması xəbəri alınanda isə Şah Səfi İrəvanın hakimi Təhmasibqulu xana xəbər göndərdi ki, qalanın müdafiəsinin möhkəmləndirilməsi üçün daha ciddi səylər göstərsin. Mənbə məlumatlarına görə, Şah Səfi iyul ayının 27-də artıq İrəvan qalasının mühasirə olunması xəbərini aldı. Elə həmin gün də Şah Səfinin düşərgəsində olan başqa bir qoşun dəstəsi İrəvan qalasının müdafiəsinin gücləndirilməsinə göndərildi. Bu xəbərləri eşidəndə Şah Səfi öz karvanı ilə hərəkətə başladı və Qarabulağ adlanan məntəqəyə gəldi. Səfəvi şahı bölgəyə daha da yaxınlaşmaqla İrəvan ətrafında baş verən hadisələrdən həm vaxında xəbər tutmaq, həm də çevik tədbirlər həyata keçirmək imkanı əldə etmək istəyirdi. İrəvan qalasının Osmanlı qoşunları tərəfindən mühasirəyə alınması səltənət üçün ciddi bir təhlükə idi və bu qalanın Osmanlı qüvvələri tərəfindən ələ keçirilməsi sərhəd bölgəsinin digər məntəqələri üçün də təhlükə yarada bilərdi (49).

İrəvan qalasının mühasirəsinə başlamazdan əvvəl Sultan Murad özü yüksək bir yerə çıxaraq bu qalanın müşahidəsini apardı. Bundan sonra Osmanlı sultanı vəzirləri, yeniçəri ağasını, qoşun başçılarının, sərdarların müşavirəsini keçirdi. Bu müşavirədə İrəvan qalasının mühasirəsinə qüvvələr təyin edilməsi barəsində qərar qəbul edildi.

Osmanlı xronikasında İrəvan qalası ətrafında mühasirənin qurulması ilə bağlı gündəlik məlumatlar öz əksini tapmışdır. Həmin məlumatlar kifayət qədər müxtəsərdir. Bununla belə, bu mühasirənin necə aparılması haqqında müəyyən təsəvvür əldə etmək mümkündür. Bu xronikalardakı məlumatlardan aydın olur ki, IV Murad qalanın mühasirəsinə şəxsən rəhbərlik edirdi. Qala müdafiəçiləri tərəfindən təhlükə olmasına baxmayaraq Sultan Murad qala ətrafındakı istehkamları və top mövqelərini gəzir, mühasirənin vəziyyəti ilə tanış olur və hətta lazım bildiyi istiqamətlərə topdan atəş də açırdı. Osmanlı sultanı mühasirədə dayanmış döyüşçüləri hər vasitə ilə təşviqləndirməyə çalışardı. Peçevinin yazdığına görə, o vaxta qədər hər hansı bir padşahın səngərlərə girməsi və toplardan özü atəş açması halı olmamışdı (50).

Osmanlı mənbələrinin birində belə qeydlər vardır: "İslam padşahı Sultan Murad xan qalaya nazir olan təpəyə çıxaraq gecə-gündüz müharibə və döyüşü seyr edirdi. Şəhidləri dəfn etdirir, bir əliylə də ənam və timarlar verirdi" (51).

Yəni Sultan Murad bütün günü qala ətrafında gəzməklə öz döyüşçülərinin hücumuna rəhbərlik edirdi. Xronikalarda olan məlumata görə, iyul ayının 29-da artıq İrəvan qalasının bəzi bürclərini uçurmaq mümkün olmuşdu. "Bu gün Rəvan qalasına nazir bir həvalə yerə iki ədəd Balyeməz (Balimoz deyilən ağır top) və bir neçə xırda topları səadətli padşahımız çıxartdırıb üzərinə baş və buğ olan Kapudan Hüseyn paşanı və bir neçə bəylərbəyləri təyin edib bütün gün ta axşama qədər ol həvalədən qalanı döyüb bir neçə bürclərini yıxıb yerə düşürdü" (52).

Səfəvi mənbələrində İrəvan qalasının mühasirəsinin detalları barəsində təfərrüatlı məlumat qalmamışdır. Çox güman ki, bu, İrəvan hakimi Təhmasibqulu xanın sonradan Osmanlı sarayına sığınması ilə bağlı idi. Amma Osmanlı mənbələrindəki məlumatlardan görmək mümkündür ki, qala daxilində ciddi müdafiə işləri qurulmuşdu, qala divarları üzərində yerləşdirilmiş toplar davamlı olaraq Osmanlı mövqelərini atəşə tuturdular. Qala müdafiəçilərinin fədakarlıqla döyüşməsi haqqında da Osmanlı mənbələ-

rində bəzi məlumatlarla rastlaşmaq mümkündür: “Bu gün yeniçəri ağası meterizə girib meteris qazarkən qızılbaşlar ilə tüfəng cəngi oldu. İki yüz miqdarında yeniçəri yaralandı. Ancaq beş-altı yeniçəri şəhid oldu” (53).

Bu qeydlər iyul ayının 30-da baş verən döyüşlər haqqındadır. Sabahı gün tərəflər arasında döyüşlər yenidən qızışdı. Belə gərgin döyüşlər iyul ayının 31-də də baş verdi. 1635-ci il avqust ayının 1-də qala ətrafında tərəflər arasında baş verən döyüşün gərginliyi haqqında Osmanlı salnaməçisi belə yazırdı: “Bu gün və bu gecə Rumeli bəylərbəyi və Anadolu bəylərbəyi və Ərzrum bəylərbəyi Kiçik Əhməd paşa və qala qarşısının həvaləsindən Kapudan Hüseyn paşa və Hələb bəylərbəyi Əhməd paşa hər birisi qolluqollu metrislərdən qızılbaşlar ilə əzim cəng elədilər. Və bütün gün və bütün gecə balyeməz topları ilə və şahi-zərbzən və tüfəng ilə cənglər edib hisarın bəzi bədənlərini və qüllələrini yıxdılar” (54).

Başqa bir Osmanlı mənbəsində qala müdafiəçilərinin apardığı döyüşlər barəsində belə bir xatırlatma var idi: “Qalada olan dinsiz qızılbaşlar dura bilmədilər. Əmirgünə oğlu (Təhmasibqulu xan nəzərdə tutulur – M.S.) da sarayında qalmamaqla fikrə getdilər. Müsəlmanların toplarını dağıdaq – deyə gün çıxan vaxtı beş-altı yüz qızılbaş əsgərini Anadolu əsgərinin içinə gizlicə və qəflətən basqına göndərdilər. Qızılbaşlar gələrkən qazilər hər tərəfdən qılınclarını siyirərək qızılbaşların üzərinə atıldılar. Qızılbaşlar Rumeli tərəfinə döndülər. Bir bayraq aldılar. Rumeli dilavərlərindən bir igid yetişərək bayrağı alan rafizini qətl etdi. Qalan qazilər qılıncları ilə vuruşaraq düşmənləri qaçırdılar” (55).

Bu qeydlərdən də göründüyü kimi, qala müdafiəçiləri Osmanlı qoşunlarının çoxluğuna baxmayaraq qala xaricinə reydlər edir, Osmanlı mövqeləri üzərinə hücum çəkirdilər. Qızılbaş döyüşçüləri hətta Osmanlı dəstələrindən birinin bayrağını da ələ keçirə bilmişdilər. Bununla belə, qüvvə üstünlüyü böyük fərqlə Osmanlı qoşunları tərəfində idi. Ona görə də qızılbaşların cəhdləri gözlənilən nəticəni vermirdi. Şah tərəfindən də bu döyüşlərin gedişinə fəal müdaxilə edildiyini görmək mümkün deyildir. Bəllidir ki, Şah

Səfi İrəvanın müdafiəsinin möhkəmləndirilməsi üçün özü də bölgəyə gəlmişdi. Çox güman ki, İrəvanın mühasirəsinin çox uzun çəkməməsi əlavə qızılbaş qüvvələrinin qala ətrafına gətirilməsini faydasız etmişdi.

Qala müdafiəçilərinə də, Şah Səfiyə də yaxşı bəlli idi ki, İrəvan kifayət qədər böyük və güclü bir qoşunun mühasirəsindədir. Bu mühasirəni uğurla başa çatdırmaq üçün Osmanlı qoşunları Sultan Muradın rəhbərliyi altında dayanmadan qala divarlarını atəşə tuturdular: "Ötə yandan Rumeli qolunun aşağısında mövqelənən Rumeli bəylərbəyi Kiçik Əhməd paşa bir neçə zərbzən ilə qala bədəni üzərində görünən düşməni hədəf alıb aralıqsız bədən və mağzalları dövr etdi. Bir yandan da Dəli Hüseyn paşa adıyla ün salan ağıllı və iş bilən Kaptan paşa qalaya hakim olam təpədə şahi-zərbzənlər ilə qalanın içini və dışını bombardman edərdi. O qədər diqqət və özənlə atış yapırdı ki, bir düşmən əsgərinin başını qaldırıb bədəndə, mazğallarda ya da qala içindəki bir küçədə göstərməsi, hətta barmağını qaldırması imkansızdı. Murtuza paşa da aşağı bölük sipahiləri və ağalarıyla torpaq qalası yapımında qara qol vəzifəsini icra edirdi. Vəzir Mustafa paşa həzrətləri və Kənan paşa həzrətləri ali dərgahlı mütəfərriqləri ilə padşah həzrətlərinin otağını qorumağa vəzifəli idi və günaşırı növbələşərək bu vəzifəni yerinə yetirirdilər" (56).

Avqust ayının 2-də qala divarları ətrafında yenidən güclü döyüş baş verdi. Həmin gün də qala müdafiəçilərindən bir dəstəsi qaladan kənara çıxaraq Osmanlı mövqeləri üzərinə hücum etdilər: "Bu gün Rumeli və Anadolu və yeniçərinin metrisləri axşamdan sonra xəndəklərə qərib çitlər qazılıb və balyeməz toplar qurulub sabaha qədər qızılbaşlar ilə əzim cənglər etdilər. Bu gecə bu zikr olunan metrislərdən üç yüzdən ziyadə adam məcruh olub və bir neçəsi də şəhid olub. Bu zikr olunan məcruhlara dəxi (padşahımız) iyirmi-iyirmi quruş və kimsəyə də on beş və on quruş ehsan etdi. Və qızılbaşi-bədmaşın ekibindən ziyadə sərdən keçdiləri və fədayiləri bu gün öynədən sonraya qədər ortalıq halıdır deyib qəfildən hisardan dışarı hücum etdi. Rumeli bəylərbəyinin metris-

ində topları hərəkətsiz etmək üçün hərəkət etdilər. Hikməti-xuda Rumeli meterisi dəxi qafil bulanmayıb. Qazilər rafizlər üzərinə hücum edib. Hisar altında əzim cəng başladıqları kimi səadətli xunkarımız da dərhal bundan xəbər tutdu, səadətlə atına süvar oldu. İç xalqı qulları top atılan yerdən hisarın qarşısında bayıra çıxıb və qullarına istimalət verib. Filhal hisarın altında bizim əsgərdən xeyli əsgər cəm olub. Düşməni-bidin bu qədər əsgər görcək, geri hisara fərar etdi" (57).

İrəvan qalasının mühasirəsinin beşinci və altıncı günü də qala divarları ətrafında şiddətli döyüşlər getdi. Osmanlı toplarının atəşləri nəticəsində qala divarlarında çoxlu sayda uçuqlar meydana gəldi. Osmanlı döyüşçülərindn bəziləri hətta İrəvan qalası üzərinə də qalxa bildi. Bu döyüşçülər qala divarları üzərində möhkəmlənə bilməsələr də, bir ədəd qızılbaş bayrağı ələ keçirib Osmanlı sultanının çadırına gətirdilər. Sultan da onları bu igidliyinə görə səxavətlə mükafatlandırdı (58).

Avqustun 6-sı İrəvan qalasının taleyi üçün həlledici günlərdən biri oldu. Həmin gün də Osmanlı qüvvələrinin sürəkli hücumu davam etdi. Toplar ara vermədən qala divarlarını atəşə tutdular. Atılan mərmilərdən qala daxilində də xeyli dağıntılar meydana gəldi. Çoxlu sayda evlər dağılıb yerlə-yeksan oldu. Gün ərzində qala divarlarının daha üç yerində böyük uçuqlar yaratmaq mümkün oldu. Qala sakinləri arasında da artıq itkilər özünü göstərməkdə idi. Avqust ayının 6-da bu itkilərin sayı daha da artdı. Həmin gün Təhmasibqulu xan yaxın ətrafından olan Murad kətxudanı qala xaricinə, Osmanlı sədr-əzəminin çadırına göndərdi və qalanı təhvil verməyə hazır olduğunu çatdırdı. Onlar arasında qalanın təhvil verilməsi şərtləri müzakirə edildi. Murad kətxuda qalanın təhvil verilməsi üçün altı günlük bir möhlət istədi. Bu xəbər Sultan Murada da çatdırıldı. Sultan Murad yalnız bir gün möhlət verilə biləcəyini bəyan etdi. Əlavə olaraq tələb etdi ki, yalnız Təhmasibqulu xan özü gəlib aman diləyəcəyi halda qala üzərinə hücum dayandırılacaqdır. Sədr-əzəm tərəfindən Sultan Muradın tələblərini əks etdirən məktub yazıldı və Təhmasibqulu xana

göndərildi. Bundan əlavə Sultan Murad əmr etdi ki, Təhmasibqulu xan gələnə qədər qalanın top atəşinə tutulması dayandırılsın (59).

Avqust ayının 7-si İrəvan qalası üçün həlledici gün oldu. Həmin gün qala ətrafında baş verənlər Osmanlı xronikasında belə təsvir olunmuşdur: "Axşamdan quşluq vaxtına qədər qala möhkəm döyülüb və sülh istədiklərinə baxılmayıb, torpaq sürülmək fərman olub. Düşməni-din qazilərin hücumunu və balyeməz topların zərbini görüb üç tərəfdən (quzey, batı, güney) əzəm gədiklər açılıb qalanın divarları bir mərtəbə yıxıldı ki, içərisində olan evlər görünürdü. Qazilər düşmənin top və tüfənginə baxmayıb fürsət bulduqca içəriyə hücum edib qızılbaşların əllərindən tüfənglərini və başlarından məndillərini (sarıqlarını) qapmağa başladılar. Bu təqdirdə düşməni-din qalanın fəth olunacağını bilib naümid olmalarıyla öynəyə qərib içəridən fəryadü-fəqan və "aman-aman" deyə çağırışmağa başladılar. Dərəqəb (dərhal) Məhəmməd Əmin namında bir bəlli başlı qızılbaşı, Rəvan hakimi qaladan aman diləmək üçün vəziri-əzəmin çadırına göndərib. Məhəmməd Əminin dəxi cavabı dinlənməyib: "Ta başqanınız gəlməyincə sizə aman verilməz" deyə cavab verilib. Bir saatdan sonra Rəvan hakimi qaladan öz kəndxudası ki, Murad ağa deməklə məşhur və mabeynlərində ümuri-didə etdiyi məşhuri-afaq olmuşdur və Rəvan qalasında olan qızılbaşların cümlə ümuru və tədbirləri onun əlindədir.

Əqəbincə o Murad ağa qaladan çıxıb gəldi. (Dedi ki) "-əvvəldən dəxi sünni idim, səadətli hünkarımıza itaət elədim. Və inşallah, yarınkı gün Salı günüdür Rəvan hakimi dəxi qaladan çıxarıb səadətli hünkarımız itaət etdirəyim və qalanı dəxi səadətli padşahımıza təslim etdirəyim" deyə vəd etməklə hünkarımız həzrətləri dəxi amanlarını qəbul edib.

"Hisara top və tüfəng atılmasın" – deyə xəbər göndərib.

Bədehü səadətli hünkarımız ərkan üzərə İstanbulda divan edər şəklində cümlə əhl-divanı otağı-hümayun önünə gətirdib və bizzat özləri səadət və əzəmət və heybət ilə taxtı-şərifə oturub və cümlə iç-xalqı qullarınn geydirib üsküfləri ilə otağı-hümayunlarında

tərtib üzərə durdurub bəədehü Rəvan hakimi Təhmüsibqulu xan kətxudası Murad ağanı səadətli hünkarımızın hüzuru-şəriflərinə gətirdiklərində hünkarımızın heybətindən dəmbəstə olub xeyli zaman söyləməyə macalı olmayıb. Bir zamandan sonra söyləyəcəyi nə isə söyləyib. Söylədikcə səadətli padşahımız məzkuru ilzam edib suçlarına mütərif olduqlarından sonra "ertəsi gün ki, Salı günüdür Rəvan xanını dəxi qaladan çıxaralım və hünkarıma itaət etdirəyim. Və qalada olanlar deiləyən hünkarıma mütabiət edib islama gəlsin (sünni olsun), istəməyən geri Əcəm diyarına getsin" deyə hünkarımızın mübarək ayağını öpüb rica eylədikdə hünkarımız dəxi ricasını qəbul edib və bir sərasər kaftan geydirib geri vəziri-əzəm otağına irsal eylədilər. Bəədehü axşama yaxın Rəvan hakimi Təhmasibqulu xana və yanında mövcud olan sultanlarına və sair qızılbaşlara səadətli padşahımız amannamə yazıb – "Bu canibi (Osmanlı tərəfini) diləyən mütabiət eyləyib orduyu-hümayuna gəlsin. Hər birinə hallı-halınca riayətlər olunur. Diləməyən getsin. Amanın amandır" –deyə bir amannamə yazıb Rəcəb paşanın kətxudası Rizvan kətxuda ilə bu gecə Rəvan hakimi Təhmasibqulu xana və sair sultanlara və qızılbaşlardan olan cəmiyyətlərinə irsal elədilər. Bu gün Rəvan qalası fəth olundu" (60).

İrəvan qalası ətrafında yaranmış ağır vəziyyət qala hakimi və onun yaxın ətrafı tərəfindən də müzakirə olundu. Təhmasibqulu xana kömək üçün göndərilmiş olan qoşun dəstələrinin başçıları da bu müzakirədə iştirak etdilər. Mənbə məlumatlarından aydın olur ki, İrəvan qalası ətrafında yaranmış mürəkkəb vəziyyət Şah Səfi tərəfindən də diqqətlə izlənilirdi. Bu ağır vəziyyət yarananda Şah Səfi Sərab yaylağında idi. Daha dəqiq məlumatların əldə edilməsi üçün Şah Səfi Osmanlı döyüşçülərindən dil tutulub gətirilməsini də öz əmirlərinə tapşırmışdı. Şah Səfi hətta İrəvan qalasına kömək göstərilməsi tapşırılan bəzi məntəqə hakimlərinin ləngiməsinə görə onları qətlə yetirdi. Bununla belə, qala ətrafında kifayət qədər ağır durum olması ona bəlli idi (61).

Səfəvi mənbələrindəki məlumata görə, İrəvan qalasının təslim edilməsi xəbərini Şah Səfiyə Qarabağ bəylərbəyi Məhəmmədqulu xanla Şirvan bəylərbəyi Fərrux xan çatdırdılar. Onlar İrəvan qalasına yaxınlaşa bilmədilər. Yəni Təhmasibqulu xan lazımi köməyi əldə edə bilmədi və bu da qalanın müdafiəsinin gedişinə təsirsiz ötüşmədi. Məhəmmədqulu xanla Fərrux xan şaha çatdırdılar ki, qala daxilindəkilər müdafiənin davam etdirilməsinin mənasızlığını gördükləri üçün qalanı təslim etmək məcburiyyəti qarşısında qaldılar. Bu xəbər Şah Səfidə ağır bir təəssürat yaratdı. Şah Səfi İrəvan qalasının təslim edilməsinin səbəblərini də araşdırmağa başladı. Onun gəldiyi qənaətlərdən biri də bu idi ki, Xəlil sultan Qaramanlıya tapşırılsa da, o vaxtında özünü qalaya yetirə bilməmişdi. Bu məqam özü də qalanın müdafiəsinin çətinləşməsinə yol açmışdı. Verilən tapşırığın icrası üçün göstərdiyi səhlənkarlığa görə Xəlil sultan Qaramanlı Şah Səfinin əmri ilə qətlə yetirildi (62).

İrəvan qalasının təslim edilməsi ilə bağlı qala daxilində qərarın necə qəbul edilməsi ilə bağlı Osmanlı mənbələrindən birində belə bir məlumat vardır: "Mühasirənin yeddinci günü idi. Beş tərəfdən mühasirəyə təyin edilən vəzirləri islam padşahı dəvət etdi: "Bu qalanı sabah almaq gərəkdir. Almalısınız, yoxsa siz bilirsiniz!" – deyə xitab etdi. Hamısı bir ağızdan: "Canımız din və dövlət uğrunda fəda olsun!" – dedilər O gecə, başqa zamandan daha çox top atıldı. Qalada olan qızılbaşlar gizlənməyə yer tapmırdılar. Səhər açılanda gördülər ki, topların və tüfənglərin atılması ilə tam zamanında yürüş başlandı. Yeddinci gün, sıx bir döyüş zamanı, qalada olan xan kətxudası Murad ağa ilə Rəvan hakimi Əmirgünə oğlu Təhmasibqulu xan və Təbrizdən yardıma gələn Xızır ağa, Bağdad hakimi olan Mir Fəttah oğlu da bu mühasirədə olan xanlar və sultanlar bir yerə toplaşdılar. Murad ağaya və Əmirgünə oğlu Təhmasibqulu xana belə dedilər: "Bu üzərimizə gələn qəhrəman bir padşahdır. Qala hücumla alınsa birimizə aman və zaman verməz. Ailəmiz və uşaqlarımız qılınc loğması olacaq. Buna çarə nədir?" – deyə soruşdular. Murad kətxuda: "Bir adil padşahdır. Qa-

lanı təslim edək. Padşahlarda mürvət müqərrərdir. Bir tükümüzə xəta gəlməz" – deyə söylədi. Təhmasibqulu xan ilə Xızır ağa və başqaları "qəbul olunası budur" – deyə təsdiq etdilər. Mir Fəttah oğlu buna razı olmadı. "Mən Bağdad kimi yerdən on səkkiz günə gəldim, min baş at çatlatdım. Mən bu işə razı olmaram. Şah tərəfinə də cavab deyiləm" – deyə cavab verdi. Başqaları da: "indi qala bizimdir. Biz şərt ilə padşaha təslim edərik, səni də baxarıq nə tədarük edərsən" – deyə Mir Fəttahı cavabladı. Bu sözə görə Mir Fəttahın ağlı başından getdi. "İndi mənim tabelərim və bayraqlarım ilə getməyimə aləmpənah padşahdan rica edərsiniz" – deyə ricalarda oldu. Onlar: "Biz sizi boynumuza alırıq" – dedilər" (63).

Yəni İrəvan qalası daxilində qalanın təhvil verilməsi ilə bağlı bir tərəddüd var idi. Lakin çıxış yerinin qalmaması və qala sakinlərinin həyatının qorunması zəruriliyi son nəhayətdə qalanın təhvil verilməsi kimi ağır bir qərar qəbul edilməsinə gətirib çıxardı. Təhmasibqulu xan sonra bu qərarla razılaşdı və 1635-ci il avqustun 8-də İrəvan qalasını Osmanlı qoşunlarına təhvil verdi. Osmanlı xronikasında bu hadisə belə təsvir olunub: "Bu gün quşluq vaxtında Rəvan hakimi olan Təhmasibqulu xan və bəllibaşlı sultanlardan Novruz sultan və Bozçalı sultan və Rəvan hakiminin kətxudası Murad ağa və Xızır bəy və Əmin Məhəmməd və xanın nə miqdar tabeçiliyində olanlar vardısa səadətli padşahımıza itaət etdilər. Qala qapısından dışarı çıxıb bölük sipahiləri, qala qapısından otağı-hümayünə gəlincə tərtib üzərə iki səf durub. Təhmasibqulu xan sipahilərin ortalığından keçib otağihümayunun önünə gəldiklərində səadətli hünkarımız dəxi samurqaplı bəyaz sərasər kababicə (padşah kürkü) geyib və mürəssə sorğuclar ilə müzəyyən olub heybət və əzəmət ilə otağı-hümayunlarında taxtı-şərifə oturub vüzəra və müfti və qazi əsgərlər, hünkarımızın yanında durub. Və otağı-hümayun dışarısında çorbaçılar və solaklar və ümumən təvayifi-əhli-divan hazır olub durdular. Bəədəhü, otağı-hümayun açılıb, Əmirgünə oğlu Təhmasibqulu xan zikr olunan sultan ilə səadətli qazi hünkarımızın hüzuru-şəriflərinə gəlib. Hünkarımız həzrətləri xana buyurdu ki:

-“Rəvan hakimi Təhmasibqulu xan sənmisən?” O da “Bəli, padşahım, mənəm” – dedi.

Padşahımız buyurdu: - “Ya, sən biləsən ki, Ali-Osman padşahının qüvvət və qüdrəti çoxdur və qılıncı uzundur. Nə üçün qarşı qoyub, bu qədər gün hisara qapanıb cəng eylədin və qalanı viranə etdirdin?. Gəldiyim gün təslim eyləsən olmazmı idi?”

Xan dəxi bir zaman dəmbəstə olub cəvaba iqtidarı olmayıb. Bir zamandan sonra cavab eylədi ki, “Ali-Osman padşahı və Məkkə və Mədinə şahısan, qılıncın uzundur və amanın amandır. Amanına gəldim. Hər necə bilirsiniz, əmr sizindir” – deyə cavab eylədi.

Hünkarımız dəxi xana bir mürəssə toplu sorquç və bir əla mürəssə xəncər və bir əla mürəssə altun qılınc və bir-biri üzərinə iki ağır sərasər qaftan – biri samur qaplı. Və sultanlarına dəxi birər sərasər qaftan ehsan olunub. Xan dəxi hünkarımızın mübarək ayaqları türabına üzlərini sürüb sonradan vəziri-əzəmin otağına göndərdilər” (64).

IV Murad İrəvan hakimini və onu müşayiət edən xan və əmirləri ehtiramla qəbul etdi, onların hər birinə qiymətli xələtlər bağışladı. Avqust ayının 10-da Osmanlı sultanı Təhmasibqulu xana dolanışığı üçün maliyyə xərcləri də ayırdı. Elə həmin gün də İrəvan qalasının ələ keçirilməsi ilə bağlı Osmanlı sarayına çapar da göndərildi (65).

Başqa bir Osmanlı mənbəyində İrəvan qalasının təhvil verilməsi belə təsvir olunmuşdur: “Səkkizinci gün, sübh çağında Allahın iradəsilə... Rəvan qalasının bürclərindən və divarlarından “əlaman, ey sahibqıran-i zaman” sədaları göydə asılı qaldı. Elə bu vaxt padşah həzrətlərinə müjdə xəbərləri gəldi. “Qəbul buyurun, padşahım” – deyə rica etdilər. Padşah: “Gedin deyin, gəlsinlər” – deyə fərman etdi. O saat çavuşbaşı Duraq Ağa göndərildi. Oraya gəldikdə, qızılbaşlardan biri: “Qala verildi. Barı bu hərifi qətl edək!” – deyə mazqal deşiyindən bir güllə atdı, amma bir zərər gətirmədi. Daha sonra Təbrizdən 400 qızılbaş ilə köməyə gələn Xızır ağa topların yıxdığı yerdən enərək və qızılbaş ilə adı keçən sədr-əzəm otağı qabağına gəldi. Burada qurulan çadırda atından

endikdən sonra padşah tərəfindən dəvət olundu. Padşah həzrətləri işin sonundan məlumat aldıqdan sonra: "Amanla verdiniz. Tezliklə, elə bu gün qaladan çıxsınlar" – deyə fərman verdi. Nə isə, ayağını öpdükdən sonra yalvararaq üç günədək təxirinə müsaidə buyurdular. Lakin bunu şərt qoydular: "Sabaha qədər topların arası kəsilməyib, qala olduğu kimi döyülsün və gecə başqa gecələrdən ziyadə zərbzənlər atılsın". Rahat yuxunu haram etdilər. Səhər tezdən qala tərəfə adamlar gəlib: "Nə üçün çıxmadınız?" – soruşanda: "Müşavirə edirlər. İndi çıxarlar" – deyə cavab verdilər. Yarım saata qədər vaxt keçdi. Əmirgünə oğlu kətxudası Murad gəlib qala altında dayanan vəziri-əzəmin əlini öpdü. Sonra onun üçün də çadır quruldu. Yerinə gələrək, padşah həzrətlərinin hüzuruna dəvət olundu. Sözü bir araya qoyub Mir Fəttahı oğlunun muradına görə amanı möhkəm olub bütün var-dövlət və müsəlləh olma üzrə buraxıla. Çıxmasına fərman olduğunda padşahın ayağına düşdü. Müsəlman oldu.

Ertəsi gün Salı günü idi. Sabah erkən padşah fərmanı ilə sipahilər və silahdar alayları qala qapısına gəlib sağ və sol alay bayraqları durub bütün sipahilər üç saat padşah çadırına gəlincəyə qədər iki qanad (cinah) oldular. Padşah həzrətləri çadırı-hümayun içində Süleyman taxtında idi. Bu qədər zirehlərə bürünmüş iş oğlanları və bu qədər solaklar və sair dövlət ərkanı yerli yerində durdular. Bu mərtəbə yüksək bir divan qurulmuş idi ki, tərifi mümkün deyil. Sair alimlər və böyük vəzirlər ilə şeyxlər ehtiram ilə səf-səf hazır oldular. Padşah həzrətləri Kapudan paşanı göstərərək: "Nə üçün gecikirlər?" – deyə soruşdu. Kapudan paşa gəldikdə: "Əlvida sənə, ey qaleyi-Rəvan" – deyərək Təhmasib-qulu xan mükəmməl və mürəttəb alətlərə qərq olaraq Kapudan paşa ilə birlikdə atını sürərək və söhbət edərək çıxdılar. Alaylar və sipahilərin arasından girib salam verərək divani-aliyə qədər irəlilədi. Padşahın gözlərinin önündə yeri öpdü. Rafizliyi tərk edərək müsəlman oldu. Xalis bir qul olması dolayısı ilə Hələb əyaləti vəzirliyi özünə inayət olundu. Ona tabe olanlara xələt geydirdilər. Xızır ağaya da ehsan olundu. Padşah Sultan Murad həzrətlərindən

rica etdilər ki, Mir Fəttah oğluna və onunla birlikdə gələn soltanlara, yanında olan qızılbaşlara aman ehsan olunsun.

Aləm-pənah padşahın fərmanıyla arvad və uşaqlarını götürüb dörd-beş min qızılbaş, Mir Fəttah oğlu və sair xanlar ilə üç-dörd saata qədər qaladan çıxaraq getdilər. Sonra qala divarlarına çorbaçılar təyin olundu. Nəhayət qalanın içinə islam əsgərləri doldular. Ərzaq və qənimət malları almış olan əsgərlər nəhayətsiz doyumluqlara sahib oldular" (66).

Bu məlumatdan göründüyü kimi, Təhmasibqulu xan aciz bir durumda qaldığı üçün sakitcə Sultan Murada öz itaətini bildirdi. Sultan Murad da onun itaətini və qalanı sakitliklə təhvil verməyə hazır olmasını qəbul etdi. IV Murad nəinki, Təhmasibqulu xanı cəzalandırmadı. Əksinə, onu öz təbəəliyinə qəbul etdi, ona Hələb əyalətinin hakimliyi də həvalə olundu. İstinad olunan yuxarıdakı məlumatda Təhmasibqulu xanın və digər əmirlərin müsəlman olması qeyd edilmişdir. Müəllif bununla Təhmasibqulu xanın sünni məzhəbini qəbul etməsinə işarə etmişdir. Tarixdən də məlumdur ki, Təhmasibqulu xan sünni məzhəbini qəbul etdikdən sonra Sultan Murad ona Yusif adı verdi (67).

Təhmasibqulu xan Osmanlı sultanın hüzurunda olduqdan sonra yenidən geri qayıtmağa icazə istədi. O, şəhəri Sultan Murada təhvil vermək üçün hazırlamalı idi. Qərara alınmışdı ki, Sultan Murad şəhərə daxil olsun və şəhər təntənəli şəkildə ona təhvil verilsin. Cümə günü Sultan Murad qala daxilinə yollandı. Osmanlı sultanı qoşunların arasından addımlayaraq qalaya daxil oldu. Təhmasibqulu xan onu qarşılayıb cümə məscidinə apardı. Orada ümumi namaz qılındı. Namazdan sonra Sultan Murad Təhmasibqulu xanla birlikdə onun iqamətgahına yollandı. Burada Osmanlı sultanının şərəfinə ziyafət verildi. Osmanlı sultanı da bu ziyafətdə Təhmasibqulu xana samur dərisindən olan bir xələt geyindirdi. Təhmasibqulu xana icazə verildi ki, bütün yaxınlarını özü ilə hakim təyin edildiyi Hələb əyalətinə aparsın. Mərasim başa çatandan sonra Osmanlı sultanı İrəvan qalasının təmir-bərpa edilməsi üçün

göstəriş verdi. Mənbə məlumatlarına görə, səkkiz gün ərzində İrəvan qalasının təmiri başa çatdırıldı (68).

İsgəndər bəy Münşi öz əsərində İrəvan qalasının təhvil verilməsinə görə Təhmasibqulu xanı ittihamlanırırdı. Onun yazdıqlarına görə, Təhmasibqulu xan şaha neçə illik sədaqətli xidmətini unudaraq Murad kətxudanın təkidi ilə qalanı təhvil verdi. İsgəndər bəyə görə, Təhmasibqulu xan qala divarlarının müdafiəsini təşkil etmək əvəzinə qala darvazalarını açdı və bu əməlinə görə Osmanlı sultanının da iltifatı ilə qarşılaşdı (69).

Təhmasibqulu xan (İrəvanın təhvil verilməsindən sonra bəzi mənbələrdə onun adı Yusif xan kimi də verilmişdir- M.S.) Hələbə göndəriləndən sonra onun yerinə Murtuzaqulu xan Çuxursəəd bəylərbəyi təyin edildi. Ona həm də Ərzrum bəylərbəyliyi həvalə olundu. Murtuzaqulu xanın sərəncamına 12 min nəfərlik bir qoşun dəstəsi verildi ki, İrəvanın mühafizəsini təşkil etsin. İrəvanda qalan Osmanlı qoşun əhli üçün hər birinə 200 ağca aylıq maaş təyin edildi. Bütünlükdə isə İrəvanda qalmış Osmanlı qoşunlarının məvacibinin ödənməsi üçün 200 yük ağca səltənət xəzinəsindən gətirildi (70).

İrəvan şəhərinin ələ keçirilməsi uğurla başa çatdırıldıqdan sonra Osmanlı qoşunlarının hansı istiqamətdə irəliləməsi məsələsi ortaya çıxdı. Sultan Muradın başlıca məqsədi Bağdadın ələ keçirilməsi idi. Amma Bağdada qədər bir sıra mühüm yaşayış məntəqələrinin ələ keçirilməsi və Səfəvi qoşunlarına yeni zərbələr endirilməsi Bağdadın fəthini də yüngülləşdirə bilərdi. İrəvan qalasının asanlıqla ələ keçirilməsi isə digər Səfəvi şəhərlərinin də asanlıqla ələ keçirilə bilməsi təəssüratı yaratmışdı. Bir məlumata görə, Osmanlı sərdarları və əmirləri Gürcüstan üzərinə hərəkət edilməsi təklifini ortaya atdılar. Onların gümanınca, Gürcüstanı da bütünlüklə və həm də asanlıqla ələ keçirmək mümkün idi. Sultan Murad bu təkliflə razılaşmadı və Səfəvi dövlətinin dərinliklərinə doğru irəliləməyi məqsədəuyğun saydı. Osmanlı sultanı Təbrizdən keçməklə Ərdəbilə, Qəzvinə və hətta İsfahana qədər irəliləmək niyyətində idi. Bununla belə, Gürcüstan istiqamətinə də bir Os-

manlı dəstəsi göndərildi və vəzir Kənan paşa həmin dəstənin rəhbəri təyin edildi. Bu dəstəyə Axısqa qalasının ələ keçirilməsi tapşırılmışdı. Qısa müddət ərzində bu qala və onun ətrafı Osmanlı dəstəsi tərəfindən nəzarət altına alındı (71).

Sultan Murad isə qoşunların əsas hissəsi ilə İrəvanı tərk edib 1635-ci il avqust ayının 20-də cənub istiqamətində hərəkətə başladı. Dörd gündən sonra Osmanlı qoşunları Araz çayı kənarına gəlib yetişdilər. Araz çayında su çox olduğu üçün onun üzərindən keçid salınması qeyri-mümkün oldu. Ona görə də Osmanlı qoşun əhli ya piyada, ya da at belində Araz çayının cənubuna adlamalı oldu. Sultan Murad Arazın cənubunda düşərgə qurdu və qoşun əhlinə istirahət imkanı verdi. Avqust ayının 28-də isə Osmanlı qoşunları Çors adlanan məntəqədə düşərgə saldılar. Adı çəkilən məntəqəyə yetişənəcən Osmanlı qoşunları ətraf məntəqələri talan edib var-yoxdan çıxardılar. Osmanlı qoşunlarının belə talançılığı haqqında məlumatlar Şah Səfiyə də çatdı. O bu xəbərləri böyük narahatlıqla qarşıladı və bu talanların qarşısının alınması üçün hətta sülh razılaşmasının əldə edilməsi imkanlarının aranmasına başlandı. "Səadətli padşahımız bu qədər təntənə ilə əcəm məmləkətlərinə yüyürüb qarət etmələrini şah və Rüstəm xan eşitməklə məmləkətlərindən naümid olub şah və Rüstəm xan sülh sevdasına düşüb "Muradınız nədir? Bildirəsiniz, hər nə diləsəniz qailik. Tək həman vilayətimizə girib çiynəməyəsiniz" deyə Xızır bəy şah tərəfindən göndərib sülh tələb etmişlərdi. Səadətli paşamız dəxi: "Xızır bəy, kiçik elçi olmaqla sözünə çoxuşu etimad və etibar eyləməyib". Hünkarımız tərəfindən şaha namə yazılmadı. Ancaq vəziri-əzəm tərəfindən Rüstəm xana bir məktub yazılıb: "(Şövkətli padşahımızın) əcdadi-izamları (Qanuni Süleyman ve III Murad) zamanında fəth olunub (adlarına) xütbə oxunan məmləkətlərin verib mifahların gətirməyincə və ondan məada bir qala dəxi verməyincə sülh etmək ehtimalı yoxdur" deyə bir müfəssəl məktub yazılıb Xızır bəylə Rüstəm xana göndərildi" (72).

Bu məlumatın doğruluğu nəzərə alınarsa, belə bir qənaət hasil olur ki, Şah Səfi müəyyən güzətlərə gedilməi ilə Osmanlı sarayına

sülh təklif edirdi. Şah Səfinin hansı güzəştlərə gedə bilməsi burada göstərilməmişdir. Əvəzində Osmanlı sultanının hansı güzəştlər əsasında Səfəvi sarayı ilə sülh anlaşmasına razı ola biləcəyi açıqlanmışdır. Sultan Murad iki dövlət arasında 1555-ci ildə əldə edilmiş anlaşmada təsbit olunan sərhədlərə qayıdılmasını tələb edirdi. Yəni tələb olunurdu ki, Qanuni Sultan Süleymanın hakimiyyəti illərində Osmanlı qoşunlarının nəzarət altına aldığı ərazilər, o cümlədən də Bağdad geri qaytarılsın. Əlavə olaraq, bir qalanın da Osmanlı tabeliyinə verilməsi tələb olunurdu. Şah Səfi bu tələblərlə razılaşmadı və sülh danışıqları da təxirə salınmalı oldu.

Osmanlı qoşunlarının Səfəvi dövlətinin içərilərinə doğru irəliləməsindən, qızılbaş qoşunlarının dağınıq vəziyyətdə olmasından istifadə edən Diyarbəkr bəylərbəyi Məhəmməd paşa vilayət qoşunları ilə Kərkük qalasın üzərinə hücum çəkdi. Bununla bağlı o, sultan düşərgəsinə məktub göndərdi. Həmin məktubunda Məhəmməd paşa yazırdı ki, sakit dayanmaqdansa yaranmış vəziyyətdə Səfəvi hakimiyyəti altında olan qalalardan birinin üstünə hücum çəkməyi faydalı bildi. Baxmayaraq ki, Səfəvi qoşunları əsasən Osmanlı qüvvələrinin qarşısını almağa səfərbər edilmişdi, bununla belə Kərkük qalasında olan qızılbaş dəstəsi bir ay müqavimət göstərdi. Məhəmməd paşa özü də yazırdı ki, Kərkük qalasının müdafiəçiləri kənardan əlavə kömək gəlmədiyi üçün qalanı təslim etmək məcburiyyətində qaldılar (73).

Osmanlı qoşunları isə Sultan Muradın rəhbərliyi altında Təbrizə doğru irəliləməkdə idi. 1635-ci il sentyabr ayını 1-də Osmanlı qoşunları Xoy ətrafına yetişdilər. Osmanlı qoşunları ciddi bir müqavimətə rast gəlmədən irəliləməkdə idilər. Onlar həm hərəkət yolu üzərində, həm də Xoy ətrafında olan bütün yaşayış məntəqələrini talan etməklə viran günə qoydular. Sentyabr ayının 4-də, Osmanlı qoşunlarının hələ Xoy ətrafında olduğu vaxt Təbriz şəhərinin boşaldılması xəbəri alındı. Böyük sayda olan Osmanlı qoşunlarının Təbriz üzərinə hücumunun qarşısının alınması mümkün olmadığı üçün səltənət sipəhsaları Rüstəm xan qızılbaş qoşunlarını

şəhər ətrafından geri çəkməli oldu. Qoşunlarla birlikdə şəhər sakinlərinin çoxu da öz ev-eşiklərini tərk etməli oldular. Bir neçə gündən sonra Osmanlı qoşunları yenə ciddi bir müqavimətlə rastlaşmadan Təbrizə doğru irəliləməyə başladılar. Onların bu hərəkəti yenə də ətraf yaşayış məntəqələrinin talan edilməsi ilə müşayiət olunurdu. Sentyabr ayının 11-də Osmanlı qoşunları Təbriz ətrafına yetişdi və Eynalı dağı ətəklərində düşərgə saldı. Təbriz ətrafındakı məntəqələr talan edildi. Sonrakı bir neçə gün isə Təbriz şəhərinin talan edilməsinə həsr olundu (74).

Osmanlı xronikasında Osmanlı qoşunlarının Təbriz ətrafına yetişməsi belə təsvir olunmuşdur: "Bu gün nəsi-Təbrizə dörd saat yarıma gəlindi. Bu gün sipahi və yeniçəri və mirmiran və sair əsgər xalqı qullarına fərman olunub: mürəttəb və müsəlləh alaylar qurulub, səadətli qazi hünkarımızı salamlayaraq Eynəli nam dağın önündə səhraya qonuldu. Bu gün Rüstəm xan dağlar başından dörd-beş yüz atlı ilə orduyu-hümayunu seyir və tamaşa etməyə gəldikdə tamam alayları və ümumən çadırları seyr elədikdən sonra yanında olan əsgərinə demiş ki, "Ali-Osman padşahı əcəb qüvvət və qüdrət sahibi padşahdır. Əsgəri dərya misal. Biz onların yanında qətrə də ola bilmərik. Onlar ilə cəng etməyə iqtidarımız yoxdur" deyib ordusunu Təbriz yanında olan dağardan qaldırıb uzaq yerə köçürüb qonduqlarını xəbər etdilər" (75).

Osmanlı qoşunları Təbriz ətəklərinə yetişdiyi gün vaxtilə Osmanlı qoşunlarından əsir düşərək qızılbaş qoşunlarında xidmətə başlamış bir yüzbaşı Səfəvi qoşunlarından qaçaraq öz düşərgəsini tərk etdi. Bu yüzbaşı Osmanlı düşərgəsinə gələrək qızılbaş qoşunları daxilində baş verənləri, Osmanlı qoşunlarının hücumu ilə bağlı qəbul edilmiş qərarları qoşun başçılarına açıqladı. Sultan Murad da həmin yüzbaşını hüzuruna qəbul etdi və onu danışdırmaqla qızılbaş qoşunlarının vəziyyəti haqqında lazımi məlumatlar aldı (76). Həmin məlumatlardan bəlli oldu ki, qızılbaş qoşunlarının Osmanlı qoşunlarına yetərli müqavimət göstərmək imkanı yoxdur. Onun üçün idi ki, yalnız Təbriz əhalisi deyil, bu şəhərdən Ərdəbilə qədər olan yaşayış məntəqələri, o cümlədən də

Ərdəbil sakinləri Osmanlı hücumundan ehtiyatlanaraq öz evəşiklərini tərk etmişlər.

Sentyabr ayının 2-də Təbriz şəhərinin talan edilməsinə başlandı. Bununla bağlı, Sultan Mu-rad xüsusi bir əmr verdi. Həmin əmrə əsasən, heç də bütün qoşun əhli şəhər daxilinə buraxılmadı. Yalnız 400-500 nəfərlik bir sipahi və yeniçəri dəstəsinin şəhərə daxil olmasına icazə verildi. Sultan Murad özü də bu dəstənin müşayiəti ilə Təbrizə daxil oldu. Şəhər daxilində kimsə gözə dəymədi. Sultan Murad əvvəlcə onu müşayiət edən dəstə ilə birlikdə Uzun Həsən məscidinə yollandılar, bu əzəmətli məscidi seyr etdilər. Sonra isə şəhərdəki şiə məscidinə tamaşa edildi. Osmanlı xronikasında bu məscid haqında müxtəsər məlumat verilmişdir. Həmin xronikada da Uzun Həsən məscidinin əzəmətli bir məscid olduğu təsdiq edilirdi. Amma o da bildirilirdi ki, şiə dini mərasimləri başqa məsciddə icra olunduğundan Uzun Həsən məscidi baxımsız vəziyyətə düşmüşdür. Sonra Sultan Murad Səfəvi şahlarının Təbrizdəki sarayına yollandı. Səfəvi şahları Təbrizə gələrkən bu sarayda qalırdılar. Osmanlı qoşunlarının hücumu ərəfəsində bu saray təmir və bərpa edilmişdi. Bu sarayın da göz oxşayan və əzəmətli bağçası, hovuzu, divanxanası, qızıl suyu ilə nəqqaşlıq edilmiş otaqları var idi. Sultan Murad öz müşahidəsini başa çatdırdıqdan sonra bu sarayın yandırılması üçün əmr verdi. Əmr dərhal yerinə yetirildi və cəmi bir neçə saatdan sonra Səfəvi şahlarının Təbriz sarayı yanıb külə döndü. Sultan Murad tərəfindən o da əmr olundu ki, şəhər ətrafında da nə qədər saraylar, digər tikililər və ağaclar varsa hamısı məhv edilsin. Bu əmr qısa zamandan sonra yerinə yetirildi (77).

Osmanlı qoşunları Təbrizdə cəmi dörd gün dayana bildilər. Sultan Murad Ərdəbilə və İsfahana doğru irəliləməkdən imtina edərək geri qayıtmaq haqqında qərar qəbul etdi. Osmanlı sultanının belə bir qərar qəbul etməsinin səbəbləri ilə bağlı müxtəlif izahlar vardır. Osmanlı mənbələrinə görə, Təbriz ətrafındakı məntəqələr də talan edilmişdi və yaxın ətrafda artıq yaşayış ehtiyatları qalmamışdı. Bir məlumata görə, osmanlı qoşunlarının Ərdəbil isti-

qamətində hərəkət edə biləcəyindən ehtiyat edildiyi üçün həmin şəhərə qədər olan yaşayış məntəqələri, ərzaq ehtiyatları və su quyuları da məhv edilmişdi. Belə bir şəraitdə Osmanlı qoşunları ciddi ərzaq çatışmazlığı ilə qarşılaşa bilərdi. Havaların soyumağa doğru getdiyi bir vaxtda həmin ehtiyatların arxadan gətirilməsi də asan bir məsələ deyildi. Ona görə də Sultan Murad İstanbula dönməyi, qışı orada keçirməyi və növbəti ildə Bağdad üzərinə hərbi yürüşü davam etdirməyi məqsədəuyğun saydı. Osmanlı qoşunları 1635-ci il sentyabr ayının 15-də Təbriz ətrafından Van istiqamətində hərəkətə başladı (78).

Səfəvi mənbələrinə görə isə, Osmanlı qoşunlarının Təbrizi tərk etməsi qızılbaş qüvvələrinin əks-hücum əməliyyatına başlaması ilə bağlı idi. Osmanlı qoşunları Təbrizi alanda Şah Səfi Bozkeş yaylağında idi. Təbriz şəhərinin talan edilməsi və sonra da yandırılması Şah Səfinin sonsuz qəzəbinə səbəb oldu. İsgəndər bəy Münşinin yazdığına görə, Osmanlı qoşunları qarşısında Səfəvi qoşunlarının geri çəkilməsi müəyyən bir planla bağlı idi. Amma eşidiləndə ki, Osmanlı qoşunları Təbrizi yandırıblar, onda Şah Səfi qətiyyətli hərəkətə keçmək barəsində qərar qəbul etdi. O hətta özü Osmanlı qoşunları üzərinə hücuma rəhbərlik etmək istəyirdi. Sonradan məsləhət bilindi ki, Səfəvi qoşunlarının Osmanlı qüvvələri üzərinə hücumuna səltənət sipəhsaları Rüstəm xan rəhbərlik etsin. Mənbə məlumatlarına görə, sanki həmin vaxta qədər qızılbaş qüvvələri qəzəblənmiş bir şir kimi zəncirdə saxlanılırdı. Hücum əmri alınandan sonra isə bu qəzəblənmiş şir sürətlə irəli atıldı və çox qısa zamandan sonra qızılbaş dəstələri Osmanlı dəstələrini haqlayaraq onların üstünə atıldılar. O da bildirilir ki, qızılbaş dəstələri Osmanlı qüvvələrinin düşərgə saldığı ərazini onlar üçün cəhənnəm düzünə çevirdilər. Məlumata görə, Osmanlı dəstələri əhatəyə alındı və bu dəstələrdən kimsənin həmin əhatədən kənara çıxmasına imkan verilmədi. Osmanlı sultanı vəziyyətin təhlükəli hal aldığını görəndən sonra Səlmas yolu ilə Vana çəkilmək haqqında əmr verdi. İsgəndər bəyin məlumatına görə, Sultan Murad Təbriz daxilində cəmi üç gün qala bildi. Üç gündən

sonra Səfəvi qoşunlarının davamlı və təhlükəli hücumları onu geri çəkilmək haqqında qərar qəbul etməyə məcbur etdi (79).

Osmanlı qoşunları geri çəkilərkən ağır bir yol keçməli oldular. Havaların soyuması, yağıntılar artması Osmanlı qoşunlarının geri hərəkətini xeyli çətinləşdirdi və Sultan Murad Osmanlı qoşunları ilə birlikdə 1635-ci il sentyabr ayının 30-da Van şəhərinə daxil oldu. Osmanlı sultanı dörd gün Vanda qaldı, bu qalanın və eləcə də sərhəd xəttinin mühafizəsinin gücləndirilməsi ilə bağlı öz göstərişlərini verdi. Oktyabr ayının 4-də Sultan Murad Diyarbəkrə doğru hərəkətini davam etdirdi. Sədr-əzəm Mehmet paşa isə bir müddət Vanda qaldı və sultan tərəfindən verilmiş göstərişlərin icrası ilə məşğul oldu. O, oktyabr ayının sonlarına kimi bu işlərlə məşğul oldu. Vanda olduğu vaxt Mehmet paşa Şah Səfiyə məktub göndərdi. Bu məktubda Osmanlı sədr-əzəmi Şah Abbasın hakimiyyətinə qədər Osmanlı nəzarəti altında olan ərazilərin geri qaytarılması əzmində olduğunu bildirdi. Onun yazdığından belə bir qənaət hasil olurdu ki, iki dövlət arasında yeni yaranmış gərginliyin əsası əslində, Şah Abbasın hakimiyyəti illərində qoyulmuşdu. Şah Abbas Bağdad şəhərini geri almasaydı, Osmanlı qoşunlarının bu yürüşünə də ehtiyac qalmazdı. Son gərginliyin səbəbi də Səfəvi qoşunlarında görulürdü. Mehmet paşa yazırdı ki, Səfəvi qoşunları Van qalası üzərinə hücum etməsəydi, Osmanlı qoşunları da İrəvan üzərinə hücuma başlamazdı. Osmanlı sədr-əzəmi təkid edirdi ki, Bağdad şəhəri yenidən Osmanlı dövlətinə qaytarılsın. Onun sözlərinə görə, əgər belə olmasa onda, Osmanlı qoşunları bunu güclə edəcəkdi. O bildirirdi ki, Osmanlı sultanı hazırda Diyarbəkrdə Bağdad üzərinə hücuma hazırlıqla məşğuldur. Mehmet paşa özünün də Diyarbəkrə qayıdacağını və Bağdad üzərinə hücum hazırlıqlarına qatılacağını bildirirdi. O, noyabr ayının əvvəllərində Diyarbəkrə yola düşdü. Sultan Murad isə onun gəlişindən sonra Diyarbəkri tərk edib İstanbula yollandı (80).

Osmanlı qoşunları geri çəkildikdən sonra Şah Səfi və Səfəvi qüvvələri Təbrizə daxil oldular. Osmanlı qoşunları yalnız bu şəhərdən geri çəkilmədilər. Onlar həm də Səfəvi hüdudlarını tərk

etdilər. Osmanlı qoşunlarının əsas qüvvələrini geri çəkilməsi İrəvan qalasındakı Osmanlı dəstələrinin köməksiz qalmasına zəmin yaratdı. Şah Səfi qərara gəldi ki, İrəvan qalasının geri alınması üçün də qətiyyətli tədbirlər həyata keçirilsin. Bu məsələ əmir və əyanlarla, qoşun başçıları ilə müzakirə edildi və İrəvan qalası üzərinə yürüş üçün hazırlıq işlərinə başlandı. Şah fərman ilə büyutat naziri Həsən bəy yeni topların tökülməsinə vəzifələndirildi. Onun rəhbərliyi altında İsfahanda yeni qala vuran toplar tökülməli və sonra da həmin toplar qoşunlara çatdırılmalı idi. Lar hakimi Kəlbəli xan və səltənət sipəhsaları Rüstəm xanın qardaşı olan söhbət yasovulu Əliqulu bəy isə Xoyda olan balyeməz topların qoşunlara çatdırılması tapşırığı aldılar. Bu adamlar dərhal verilən tapşırığın icrasına yollandılar. Şah Səfi isə bir müddətdən sonra Naxçıvana tərəf irəliləməyə başladı. Qoşunlar Araz kənarına yetişəndə Kəlbəli xanla Əliqulu bəy Xoydan gətirdikləri toplarla şah qoşunlarına çatdılar. Araz çayını adladıqdan sonra Şah Səfi qoşunların ön (avanqard) dəstəsini təyin etdi və həmin dəstəni süfrəçibaşı Xələf bəyin rəhbərliyi altında İrəvan istiqamətində irəli göndərdi. Şah Səfi özü isə Şərura gəldi və buradan İrəvan qalasının hakimi Murtuza xana məktub göndərdi. Şah Səfi təklif etdi ki, İrəvan qalası könüllü şəkildə təhvil verilsin. Bu zaman qaladakı Osmanlı döyüşçülərinə toxunulmayacağı bildirilirdi. Murtuza xan isə bu təklifi qəbul etmədi. Belə olanda Şah Səfi İrəvana doğru hərəkətini davam etdirdi və 1635-ci il dekabr ayının 25-də Şah Səfinin rəhbərliyi altında olan Səfəvi qoşunları İrəvanı mühasirəyə aldılar (81).

Səfəvi qoşunlarının İrəvana doğru hərəkət etməsi havaların kifayət qədər soyuduğu bir dövrə təsadüf edirdi. Havaların belə soyuması Osmanlı sarayının İrəvandakı qoşun dəstəsinə kömək göndərmək ehtimalını azaltdığı kimi, Səfəvi qoşunlarının da irəliləməsini çətinləşdirirdi. Xüsusən, dağ yollarını qar basması irəli hərəkət üçün daha böyük çətinliklər yaradırdı.

Buna baxmayaraq, Şah Səfi öz qətiyyətini ortaya qoydu və Osmanlı nəzarəti altında olan ərazilərin o cümlədən də İrəvan qal-

asının geri qaytarılması üçün çevik hərəkət edilməsini qərarlaşdırdı. Şah Səfi özü İrəvan üzərinə yürüşə rəhbərlik etməyi qərara aldı. Yəni o, İrəvana doğru həyata keçirilən hərbi yürüşün bütün sınaqları ilə qarşılaşmağa razı oldu. Bununla, o, bir tərəfdən İrəvanın azad edilməsinə böyük əhəmiyyət verdiyini göstərdi. Digər tərəfdən də yürüşün sınaqlarına üstün gəlməklə həm də qoşun əhlini dözüm göstərməyə ruhlandırdı.

Səfəvi qoşunları İrəvan ətrafına yetişəndən sonra Qarabağa toplanmış olan qızılbaş dəstələri də qala ətrafına gəldilər. Həmin dəstələr qullarağası Siyavuş bəyin rəhbərliyi altında Qarabağda qışlağa dayanmışdılar və havaların isinməsi ilə onlar Gürcüstan üzərinə hərəkət etməli idilər. Qarabağda toplanmış qüvvələrə Azərbaycandan, Qarabağdan, Şirvandan, Bərdədən və Cavanşir elindən toplanmış dəstələr daxil idilər. Bütün qüvvələr İrəvan qalası ətrafına yığıldıqdan sonra səltənət sipəhsaları Rüstəm xan qala divarlarını qoşunların məsuliyyət sahələrinə böldü və hər sahəyə rəhbərliyi dəstə başçılarına tapşırdı. Bu hesabla qala divarları boyunca qırx məsuliyyət zonası yaradıldı və həmin məsuliyyət zonasında olan dəstə rəhbərlərinə qarşıda olan qala divarının fəth edilməsi tapşırıldı. Hər bir məsuliyyət zonasında həm də lağım atılması işlərinin aparılması həyata keçirilməli idi. Dəstə başçıları lağımçıların işlərinin təşkilinə də məsuliyyət daşıyırdılar. Lağımçılar öz istiqamətlərindən qala divarları altına lağım atmalı və bununla qala divarlarının dağıdılmasına çalışmalı idilər. Eyni zamanda toplar da qala divarları ətrafına gətirildi və atəş mövqelərinə yerləşdirildi (82).

İrəvan qalasının geri qaytarılmasını sürətləndirmək üçün hətta çöl şəraitində də yeni topların tökülməsinə başlandı. Şah Səfinin əmri ilə topçubaşı Murtuzaqulu bəy köhnə İrəvan ətrafında top tökülməsinə başladı və hazır olan kimi həmin top da qalanın mühasirəsinə gətirildi. Eyni zamanda İsfahanda yenicə tökülmüş üç ədəd böyük top da İrəvan qalası ətrafına gətirildi. Toplardan qala divarlarına atəş açılmaqla bərabər, həm də lağım işləri davam etdirilirdi. Lağım tunelləri kifayət qədər enli qazılırdı ki, onlardan

keçməklə qızılbaş döyüşçüləri qala daxilinə adlaya bilsinlər. Bəzi məlumatlara görə, lağımla qazılmış tunellərin bəzi yerlərində su üzə çıxırdı. Lağım ustaları dərhal torpaq doldurulmuş səbətlərlə bu su axınının qarşısını alır və öz işlərini davam etdirirdilər (83).

Qala daxilində olan Osmanlı qarnizonu isə müdafiənin möhkəmləndirilməsi üçün lazımi tədbirlərini görürdülər. Qala divarları üzərinə yerləşdirilmiş olan toplar və tüfəngçilər davamlı olaraq qızılbaş döyüşçülərini atəşə tuturdular. Bu atəşlər müəyyən itkilərlə müşayiət olunurdu. İrəvan üzərinə hücum zamanı Osmanlı gülləsinin qurbanı olanlar arasında eçikağasıbaşı İmamqulu xan da var idi. Amma qala qarnizonu çox ciddi müqavimətlə rastlaşdığını görəndə salamat qurtarmaq üçün başqa yollar da axtarmağa başladılar. Onlar qalanın təslim edilməsi üçün atəşin dayandırılması və möhlət verilməsi barəsində şah qoşunlarına xəbər göndərdilər. Qala qarnizonunun rəhbərliyi belə ümid edirdi ki, əldə edilmiş bu möhlət vaxtı Osmanlı sarayında əlavə kömək gələ bilər və bu da qalanın etibarlı müdafiəsini təmin edər. Lakin Şah Səfi bu təklifi qəbul etmədi (84).

Şah Səfinin İrəvan qalasını geri alması ilə bağlı Səfəvi qoşunlarının bütün yerdəyişmələri Osmanlı mənsubları tərəfindən də izlənilirdi. O cümlədən, Van bəylərbəyi Dilavər paşa öz xəfiyyələri və casusları vasitəsilə Təbrizdə nə baş verdiyi haqqında davamlı məlumatlar əldə edir və bu məlumatları Diyarbəkrdə dayanmış Osmanlı sədr-əzəmi Mehmet paşaya da çatdırırdı. Dilavər paşa Mehmet paşaya yazdığı məktubunda bildirirdi ki, Şah Səfi Təbrizə gəldikdən sonra böyük sayda qoşun toplamış, İsfahanda yeni topların tökülməsi haqqında fərman vermiş və İrəvanı geri almaq üçün artıq hərəkətə başlamışdır. Mehmet paşa da dərhal bu barədə osmanlı sultanına məlumat göndərdi. Sultan Murad İrəvanın itirilməsi ilə barışmaq istəmirdi və ona görə də İrəvanın qorunmasının möhkəmləndirilməsi üçün bir sıra əmrlər verdi. Onun əmrinə əsasən, Anadoluya və Rumeliyə adamlar göndərildi ki, yeni qoşun dəstələri toplasınlar. Bu qoşun dəstələri toplandıqdan sonra İrəvan ətrafına göndərilməli idi. Bundan başqa

yeniçəri ağası Şahin ağaya da göstəriş verildi ki, Anadoludakı bütün yeniçəriləri toplasın və İrəvana doğru hərəkətə başlasın. Sultan Murad İrəvanın qorunub saxlanmasına çox ciddi əhəmiyyət verirdi və bunu davamlı olaraq sədr-əzəm Mehmet paşadan da tələb edirdi. Çünki İrəvanın itirilməsi Bağdadın geri qaytarılması planının həyata keçməsini də çətinləşdirə bilərdi. Mehmet paşanın yanında on min nəfərlik qoşun dəstəsi var idi. Lakin o bu qoşun dəstəsi ilə İrəvanın qorunmasına təsirli kömək göstərə bilməyəcəyi üçün Osmanlı sultanından əlavə kömək istəyirdi. Sultan Murad təxminən otuz min nəfərlik bir qoşun dəstəsi təşkil edərək İrəvan ətrafına göndərmək istəyirdi. Həmin qoşunların da Anadolu və Rumelidən toplanan dəstələr hesabın təşkil edilməsi nəzərdə tutulmuşdu. Bundan əlavə, Osmanlı sultanı Mehmet paşanın da çeviklik göstərməsini, sərəncamında olan qoşun dəstəsi ilə İrəvandakı qarnizona kömək göstərməsini istəyirdi. Osmanlı sultanının fikrincə, Mehmet paşa Səfəvi qoşunları ilə böyük bir döyüşə girmək gücündə olmasa da, ən azı Səfəvi qoşunlarının müəyyən bir hissəsinin diqqətini özünə cəlb edə bilərdi. Krım xanının öz qoşun dəstəsi ilə İrəvan ətrafına gəlməsi planlaşdırılmışdı ki, bu da Sultan Muradın İrəvan qalasının mühafizəsi istiqamətində gördüyü tədbirlərdən biri idi. Qoşun toplanması üçün vəzifələndirilmiş sərdarlara və əmirlərə isə tapşırıq verilmişdi ki, tez bir zamanda öz işlərini görsünlər və toplanılan qoşun dəstələrinin İrəvan istiqamətində hərəkətə başlamasına nail olsunlar. Mehmet paşanın fikrincə 1636-cı ilin may ayına qədər İrəvan qalasını qoruyub saxlamaq mümkün idi. Sultan Murad bu qənaətlə razı deyildi və İrəvan qalasının mühafizəsi üçün çevik və təsirli tədbirlərin həyata keçirilməsini istəyirdi (85).

Osmanlı sultanını sərt tələbləri qarşısında əmələ hərəkətə başlayan sədr-əzəm Mehmet paşa 1635-ci il dekabr ayının son günlərində Diyarbəkri tərk dərək Ərzruma doğru istiqamət götürdü. Mehmet paşa yaxşı bilirdi ki, soyuq hava şəraitində İrəvan yaxınlığına böyük sayda qoşun dəstəsi toplamaq elə də asan bir iş deyildir. Əslində, elə belə də oldu. Sultan Muradın nəzərdə tut-

duğu qoşun dəstəsini toplayıb səltənətin şərq sərhədlərinə göndərmək mümkün olmadı. Mehmet paşa 1636-cı il mart ayının əvvəllərində Ərzruma yetişdi ki, bu zaman toplanması nəzərdə tutulan qoşunlardan xəbər-ətər yox idi. Sərəncamında olan qüvvələrin azlığına baxmayaraq, Mehmet paşa İrəvan istiqamətində irəliləməsini davam etdirdi və mart ayının 20-də sərhəd xəttinə daha yaxın olan Həsənqalaya gəlib çatdı. Mehmet paşa burada Sivas və Trabzondan gəlmiş qoşun dəstəsi ilə qarşılaşdı. Bu dəstələrdəki döyüşçülərin sayı isə kifayət qədər deyildi. Həsənqayada olarkən Mehmet paşa xəbər tutdu ki, yeniçərilər dəstəsi sərhəd xəttinə doğru irəliləməkdədir və yaxın müddətdə sədrəzəmin rəhbərliyi altında olan qüvvələrə qoşulacağı ehtimal edilirdi. Krım xanı isə verilən vədin əksinə olaraq, İrəvanın müdafiəsinə qatılmaqdan imtina etdi. Osmanlı sarayının təkidinə baxmayaraq, Krım xanı əvvəlcə ona maliyyə xərclərinin göndərilmədiyini, sonra isə Krım daxilində hakimiyyətə qarşı üsyan qalxa biləcəyini bəhanə edərək İrəvana doğru hərəkət etməkdən imtina etdi (86).

1635-ci ilin sonu, 1636-cı ilin ilk aylarında Səfəvi qoşunları İrəvan qalası üzərinə hücumu davam etdirdi. İrəvan qalasının kifayət qədər güclü müdafiə imkanlarına malik olması onun ələ keçirilməsini çətinləşdirirdi. Şah Səfi də İrəvan qalasının tezliklə alına bilməyəcəyini bilirdi. Ona görə də qala üzərinə hücumlar ara vermirdi. Qala divarları üzərində mövqe tutmuş Osmanlı döyüşçülərinin sürəkli atəşləri qala divarlarına yaxınlaşmağı çətinləşdirsə də, qızılbaş dəstələri də öz inadlarından əl çəkmirdilər. 1636-cı ilin Novruz bayramı ərəfəsində İrəvan qalası üzərinə bir neçə sürətli və geniş miqyaslı hücum həyata keçirdi. Lakin qalanı Osmanlı qarnizonundan geri almaq mümkün olmadı. Bu hücumların birində hətta Şirvan bəylərbəyi Fərrux xan da öz həyatını itirməli oldu (87).

İrəvan qalasının mühasirəsi 1636-cı ilin Novruz bayramın qədər davam etdi. Qala qarnizonu həmin vaxta qədər Səfəvi qoşunlarının bütün hücumlarının qarşısını ala bildi. Şah Səfi mü-

hasirənin belə gedişi ilə razı deyildi. Ona görə Novruz bayramının qeyd edilməsindən sonra İrəvan qalası üzərinə hücumlar davam etdi. Vaxtın uzanması sözsüz ki, Şah Səfini razı salmırdı. Çünki Osmanlı qarnizonuna əlavə köməyin gəlməsi İrəvan qalasının ələ keçirilməsini daha da çətinləşdirə bilərdi. Ona görə idi ki, hər gün qala divarları üzərinə sürəkli hücum davam etdirilirdi. İsgəndər bəy Münşi yazırdı ki, qala divarları üzərindən tüfəng güllələri qızılbaş döyüşçülərinin üstünə yağış kimi yağırdı. Buna baxmayaraq, qızılbaş döyüşçüləri öz hücumlarını davam etdirirdilər. Mənbələrdə öz əksini tapmış məlumata görə, qalanın ələ keçirilməsini sürətləndirmək üçün səltənət sipəhsaları Rüstəm xan qala bürclərinin qarşısında toplar yerləşdirməklə həmin bürcləri atəş altına aldırdı. İrəvan qalanın ən möhkəm bürclərindən biri "Ağ bürc" adlanırdı. Bu bürcün daxil olduğu qala divarlarının alınmasına Qarabağ bəylərbəyi Məhəmmədqulu xan Ziyadoğlu ilə birlikdə Kəsgər hakimi Kəlbəli xan məsuliyyət daşıyırdılar. Onların rəhbərliyi altında qala divarları altına lağım atılması da davam etdirilirdi. Rüstəm xan isə həmin bürcün qarşısına böyük toplar yerləşdirdi və büyütat naziri Hüseyn xana da tapşırıldı ki, həmin toplardan qala bürcü davamlı olaraq atəşə tutulsun. Hüseyn bəy də bütün gücünü sərf etdi ki, ona verilən tapşırıq uğurla icra etsin. Səfəvi əmirləri və qoşun başçıları da istirahət bilmədən qala mühafizəçilərini atəşə tutur, qala divarlarını uçurmaq üçün top atəşlərinə ara vermirdilər. Vaxt ötdükcə Səfəvi qoşunlarının təzyiqi daha da güclənir və bu da qala daxilində həyatı daha da çətinləşdirirdi. Bir məlumata görə, qala üzərinə təşkil edilən hücumların birində Şah Səfi də iştirak etmiş və o hətta qala divarları ətəyinə qədər irəliləmişdi (88).

Bir neçə ay ərzində davam edən mühasirə və qala üzərinə həyata keçirən davamlı hücumlar qala daxilindəkilərin gücünü tükətdi. Baxmayaraq ki, qala qarnizonu İrəvan qalasının müdafiə imkanlarına sığınmaqla müqavimətdən əl çəkmirdilər. Lakin qızılbaş döyüşçülərinin fədakarlığı qarşısında onların da gücü sona çatmaq üzrə idi. Qala üzərinə edilən hücumların birində İrəvan

hakimi Murtuza paşa da ağır yaralandı və sonra da dünyasını dəyişdi. Onun dünyasını dəyişməsindən sonra qalanın mühafizəsinə rəhbərliyi kətxuda Zülfüqar ağa öz üzərinə götürdü. Murtuza paşanın dünyasını dəyişməsi özü də qala ətrafında gedən döyüşlərin böyük gərginliyindən xəbər verirdi. Novruz bayramı ərəfəsində Səfəvi dəstələrinin həyata keçirdiyi səmərəli hücumlar onu göstərdi ki, daha planlı hücumla İrəvan qalasını nəzarət altına almaq mümkündür. Bunu elə Zülfüqar ağa və digər Osmanlı əmirləri də görürdülər. Onlar üçün də aydın idi ki, mövcud qüvvə ilə İrəvan qalasını uzun müddət mühafizə etmək mümkün olmayacaqdır. Ona görə də Zülfüqar ağa imkan taparaq sədr-əzəm Mehmet paşaya məktub göndərdi və yaxın günlərdə köməyin gəlməyəcəyi təqdirdə İrəvan qalasının təslim ediləcəyini bəyan etdi. Sədr-əzəm Mehmet paşa isə İrəvana əlavə kömək çatdırılması üçün səmərəli bir iş görə bilmədi. Ərzrumda olduğu vaxtlarda onun yanına xeyli az sayda qoşun gəldi. Havalar o dərəcədə soyuq keçirdi ki, qar basmış yollarla qoşun dəstələrini hərəkət etdirmək mümkün deyildi. Hətta Ərzrumda və Qarsda olan az sayda qoşun dəstəsini belə İrəvana çatdırmaq mümkün olmadı. Bu da İrəvanın taleyinin müəyyənləşməsinə öz təsirini göstərdi(89).

1636-cı il mart ayının son günlərində İrəvan qalasının üzərinə həlledici hücum baş verdi. Bütün qüvvələr səfərbərliyə alınaraq qala divarları üzərinə istiqamətləndirildi. Xüsusilə, qala divarlarının Şir Hacı adlandırılan hissəsində daha güclü hücum təşkil edildi. Bu hücumdan bir müddət əvvəl qala divarlarının Şir Hacı adlandırılan hissəsində atılan lağımla divarları uçurmaq mümkün oldu. Ona görə də hücum həmin istiqamətdən daha güclü təşkil edildi. Mənbə məlumatlarından aydın olur ki, daha səmərəli hücumların nə vaxt təşkil edilməsi məsələsi münəccimlərlə də məsləhət edilirdi. Şah Səfi isə həlledici hücum ərəfəsində yaradana dualar edərək döyüşün uğurla nəticələnməsi üçün onun şəfaətini dilədi. Qızılbaş dəstələrinin həlledici hücumu kərənayın, böyük təbillərin sədaları ilə müşayiət olunurdu. Mənbə məlumatına görə, elə bir gərgin döyüş başladı ki, qala divarları ətrafın-

da baş verənlər sanki məhşər gününü andırırdı. Bu hücumun gedişində həm də divarlarda yeni uçuqların yaradılmasına diqqət yetirilirdi. Bunun üçün qala ətrafında olan toplar da davamlı şəkildə atəş açmaqda idilər. Şah Səfi tərəfindən divanbəyi Əliqulu bəyə də göstəriş verildi ki, hücumun gücləndirilməsində iştirak etsin və qala divarlarında yarana biləcək yeni uçuqlardan keçməklə şəhərə daxil olsun. Əliqulu bəy qala daxilinə yol tapmaqla həm də oradakı Osmanlı qarnizonunu tərksilah etməli və bu qarnizonun müqavimətini aradan qaldırmalı idi. Beləliklə, Səfəvi qoşunlarının İrəvan qalası üzərinə hücumunun qarşısını almaq mümkün olmadı və 1636-cı il aprel ayının 1-də İrəvan qalası yenidən Səfəvi dövlətinin nəzarəti altına gətirildi (90).

Bir məlumata görə, qalanın mühafizəsi artıq qeyri-mümkün olanda Osmanlı əmirləri bir neçə nəfəri Səfəvi düşərgəsinə göndərdilər və əfv edilmələrini istədilər. Şah Səfi bu adamları mehribanlıqla qarşıladı, onlara nəvazişini göstərdi və qala daxilindəkilərə şəfaətini göstərəcəyini bildirdi. Şah Səfi bu vaxt Murtuza paşanın dünyasını dəyişməsi haqqında məlumat aldı. Səfəvi şahı birmənalı şəkildə bəyan etdi ki, qala daxilində olanların canı və malı təhlükəsizlikdə olacaqdır. Bildirildi ki, qala qarnizonunun üzvlərindən kimsə təşviş içərisinə düşməsin. İstəyənlər şah xidmətində qala, istəməyənlər isə sağ-salamat geri qayıda bilərlər. Şah Səfi Osmanlı mənsublarını əmin etdi ki, onlar şah inayəti altında olacaqlar və ona görə də onlar öz həyatları üçün təşviş keçirməyə bilərlər. İrəvan qalasının nəzarət altına alınması münasibətilə Şah Səfi həm də böyük bir ziyafət təşkil etdirdi və mənbələrdə olan məlumata görə, həmin vaxta qədər belə əzəmətli bir ziyafət görülməmişdi. Məclisə qoşun başçıları, əmir və əyanlarla birlikdə çoxlu sayda musiqiçilər də dəvət edildilər. O da bildirilir ki, sədası ətrafa yayılan bu xoş musiqidən hətta uğursuzluq kədərini yaşayan qarşı tərəfin döyüşçülərində də yeni bir ümid hissləri yarandı (91).

Səfəvi mənbələri Osmanlı əmirlərinin və qoşun başçılarının mərdanəliklə vuruşduqlarını qeyd edirdi. Yəni bu əmir və qoşun başçıları bütün məharətini göstərməklə həm də xeyli sayda

qızılbaş döyüşçüsünün həyatına son qoymuşdular. İlk baxışdan onların ciddi cəzalana biləcəyi gözlənilirdi. Şah Səfi onları hüzuruna qəbul etdi. Murtuza xan dünyasını dəyişdikdən sonra qalanın mühafizəsinə yuxarıda deyildiyi kimi, Zülfüqar xan rəhbərlik edirdi. Onunla birlikdə qalanın mühafizəsində iştirak edən Qars hakimi Şeyxican paşa, Mərəş hakimi İbrahim paşa, Toqat bəylərbəyi Mömin paşa, Bursa valisi və yeniçəri ağası Əli paşa, qullarağası Rizvan ağa, Ədirnə hakimi Sevindik bəy, miraxur Şahin paşa və digər yüksək məqamlı adamlar da Şah Səfinin inayəti ilə qarşılaşdılar. Bu qoşun başçıları Şah Səfi hüzurunda olarkən etdikləri əməllərinə görə başqa bir tale ilə qarşılaşmalı olduqlarını gözlədikləri halda, Şah Səfinin mehriban davranışı ilə qarşılaşdılar. Bu adamların heç biri ciddi cəzalandırılmadı. Lakin onlar azad da buraxılmadı. Şah Səfinin əmri ilə onlar yaşamaq üçün Astrabada göndərildilər və tüfəng qorçusu Şahnəzər ağaya da tapşırıq verildi ki, bu Osmanlı mənsublarını Astrabada müşayiət etsin. Qaladakı digər Osmanlı döyüşçüləri və əmirləri isə azad buraxıldılar və onların öz yurdlarına dönməsinə icazə verildi. Şah Səfi tərəfindən bu adamların Osmanlı sərhədinə qədər müşayiət edilməsi üçün silahlı adamlar da ayrıldı ki, qızılbaş döyüşçülərindən və ya yerli sakinlərdən kimsə onlara ziyan yetirməsin. İrəvanın nəzarət altına alınması və orada olan Osmanlı qarnizonu ilə bağlı olan məsələlər öz həllini tapandan sonra başqa qərarlar da qəbul edildi. İrəvan qalası ətrafında gedən döyüşlərdə böyük fədakarlıqları Şah Səfi tərəfindən yüksək qiymətləndirilən Lar hakimi Kəlbəli xan İrəvanın yeni bəylərbəyi təyin edildi. Ona tapşırıldı ki, həm İrəvan qalasının divarlarını təmir və bərpa etsin, həm də qala daxilinə silah və ərzaq ehtiyatları daşıtdırsın. Həmin ehtiyatların əldə edilməsi üçün şah tərəfindən lazım olan fərmanlar da verildi (92).

İrəvan qalasında görülməli olan işlər görüldükdən sonra Şah Səfi geri qayıtmaq əmri verdi. Onun əmri ilə İrəvan ətrafına gətirilmiş olan topların da böyük bir hissəsi Arazın cənubuna daşındı. Araz çayının suyu çox olduğu üçün Şah Səfi və onu

müşayiət edən qoşun Ordubad istiqamətində irəlilədi və Xudafərin körpüsündən keçməklə Arazın cənubuna adladı. Şah karvanı Əhərdə düşərgə etdi. Şah Səfi burada Şeyx Şəhabəddin Əhərinin məqbərəsini ziyarət etdi. Sonra isə Şah Səfi öz əcdadlarının məqbərəsini ziyarət etmək məqsədilə Ərdəbilə yollandı. O, Şeyx Səfiəddinin məzarını ziyarət etdi, uğurla başa çatan yürüşü üçün yaradana öz dualarını ünvanladı. Şah Səfi əcdadlarının türbəsinin xidmətçilərinə, rövzəxanlarına nəzir-niyaz da payladı. Səfəvi şahı Azərbaycan ərazisində olarkən Bağdadda taun xəstəliyinin yayılması xəbəri alındı. Bağdad bəylərbəyinin Şah Səfiyə göndərdiyi məktubda deyilirdi ki, bu yolxucu xəstəlikdən çoxlu sayda şəhər sakini, o cümlədən də şəhərin müdafiəsinə vəzifələndirilmiş qoşun dəstəsinin xeyli sayda üzvü həyatlarını itiriblər. Şəhər hakimi Şah Səfidən xahiş edirdi ki, Bağdadın müdafiəsinin təşkil edilməsi üçün baş vermiş itkilərin yerinə yeni qüvvə göndərsin. Şah Səfi də qullarağası Siyavuş bəyi bir qoşun dəstəsi ilə Bağdada göndərdi ki, qala daxilində qalmış dəstəni də öz tabeçiliyinə alaraq şəhərin etibarlı müdafiəsini təşkil etsin (93).

Şah Səfi hələ Ərdəbildə olarkən məlumat aldı ki, İrəvan qalasının itirilməsi Osmanlı sultanının qəzəbinə səbəb olub və bu qalanın yenidən geri qaytarılması üçün Sultan Murad əməli addımlar atmaq niyyətindədir. Şah Səfi bu xəbərdən sonra İrəvan qalasının daha da möhkəmləndirilməsi üçün minbaşı Əliqulu xanın rəhbərliyi altında 500 nəfərlik bir tüfəngçi dəstəsini də ora göndərdi (94).

1636-cı ilin yayında Ərdəlan hakimi Xan Əhməd xanın Osmanlı hakimiyyətini qəbul etməsi haqqında xəbərlər yayıldı. Bu xəbər iki dövlət arasında mövcud olan gərgin münasibətləri bir qədər də gərginləşdirdi. Xan Əhməd xanın hakim olduğu ərazilər Səfəvi dövlətinin tərkibinə daxil idi. Onun Osmanlı tabeliyini qəbul etməsi hakimiyyəti altında olan ərazilərin də Səfəvi dövlətindən qoparılması və Osmanlı dövlətinə keçməsi demək idi. Şah Səfi belə bir vəziyyəti sözsüz ki, qəbul etmək istəmirdi və ona görə bu vəziyyətin qarşısının alınması və dövlətin ərazi bü-

tövlüyünün təmin edilməsi üçün əməli tədbirlər həyata keçirməli oldu.

Səfəvi mənbəyindəki məlumata görə, həmin hadisə ərəfəsində Xan Əhməd xan malixulya xəstəliyinə tutulmuşdu. Bu xəstəliyin başlıca göstəricisi ondan ibarət idi ki, insanlarda müştəbehlik, yersiz təşviş, qorxu hissləri yaranırdı, kənarında olan insanlardan yerli-yersiz şübhələnirdi. Güman edilir ki, bu xəstəliyin gücləndiyi vaxtlar Xan Əhməd xan öz həyatı və vəzifəsi ilə bağlı hamıdan, o cümlədən də Şah Səfidən şübhələnməyə başlamışdı. Onun bu xəstəlikdən müalicəsi üçün təcrübəli həkimlər cəlb edildilər və müəyyən vaxtdan sonra həmin xəstəlik getdikcə səngiməyə başladı. Mənbə məlumatına görə, həmin xəstəlik dövründə onun daxilində yaranmış şübhələr isə ondan əl çəkmədi və hətta vaxtilə onun həyatına toxunmamış Şah Səfidən də şübhələnməyə başladı. Ona görə də Xan Əhməd xan guya özünə etibarlı bir arxa tapmaq üçün Osmanlı hakimlərinə tərəf meyl etdi və Səfəvi sarayına qarşı sədaqətsizlik ortaya qoydu. İsgəndər bəy Münşi də Xan Əhməd xanın Osmanlı hakimiyyətini qəbul etməsini ona üz vermiş xəstəliyin təsirindən baş verdiyini yazırdı (95).

Osmanlı mənbələrində isə Xan Əhməd xanın Osmanlı təbəəliyini qəbul etməsi bir qədər fərqli şəkildə izah edilmişdir. Bu məlumatlara görə, Xan Əhməd xan sünni məzhəbinə mənsub idi və onda Osmanlı hakimiyyətinə təbii bir meyl var idi. Şah Abbasın hakimiyyəti illərində kürd əşirətlərinin yayıldığı ərazilər Səfəvi hakimiyyəti altına gətirildiyindən Xan Əhməd xan da Şah Abbasın təbəəliyini qəbul etmişdi. Yəni bölgədə Səfəvi hakimiyyəti möhkəm olduğu vaxtlarda Xan Əhməd xan da Səfəvi hakimiyyəti altında qalmalı olmuşdu. Xan Əhməd xanın Səfəvi sarayına bağlılığını möhkəmləndirmək üçün şah ailəsinin xanımlarından biri ona kəbin edilmişdi. Şah Abbasın hakimiyyəti dövründə, habelə Şah Səfinin hakimiyyətinin ilk illərində Xan Əhməd xanın sədaqətsizliyi özünü göstərmədi. Lakin sonradan onun Səfəvi sarayına olan bağlılığı getdikcə zəifləməyə başladı. Mənbə məlumatına görə bunun səbəbi Şah Abbas tərəfindən təyin edilmiş

hakimlərin tədricən öz vəzifələrindən uzaqlaşdırılması idi. Xan Əhməd xan ona da növbə çatacağından ehtiyatlanırdı və ona görə də Səfəvi sarayına qarşı şübhəli mövqe tutdu. Xan Əhməd xan özünə etibarlı gələcək təmin etmək məqsədilə Mosulun Osmanlı hakimi Kiçik Əhməd paşa ilə əlaqəyə girdi və onunla müəyyən münasibətlər yaratdı. Şah Səfi İrəvan yürüşünü başa vurub Ərdəbilə dönəndə Xan Əhməd xanı yanına çağırdı. Xan Əhməd xan isə bu çağırışı qəbul etmədi və şahın hüzuruna yollanmadı. Bununla, Xan Əhməd xan Səfəvi dövlətinə olan münasibətini açıq şəkildə ortaya qoydu. Şah Səfi də dərhal onun vəzifəsindən azad edilməsi haqqında fərman verdi. Həmin fərmana əsasən, Süleyman xan Ərdəlan hakimi təyin edildi. Sonra da miraxurbaşı Əlibala bəy Zəngənənin rəhbərliyi altında 300 nəfərlik bir tüfəngçi dəstəsi də ona verildi ki, bölgəyə yollanıb orada Səfəvi hakimiyyətini bərpa etsin (96).

Osmanlı məlumatlarına görə, Süleyman xanın Ərdəlana gəlməsi xəbəri alınanda Kiçik Əhməd tərəfindən Xan Əhməd xanın köməyinə bir Osmanlı dəstəsi göndərildi. Şəhrizor ətrafında tərəflərin hərbi qüvvələrinin döyüşü baş verdi və həmin döyüşdə Xan Əhməd xanın köməyinə gəlmiş Osmanlı dəstəsi üstünlük qazandı. Bildirilir ki, bu xəbər Şah Səfini xeyli qəzəbləndirdi və nəticədə o, Xan Əhməd xana qarşı daha böyük bir dəstənin göndərilməsi qərarını verdi (97).

Səfəvi mənbələrinə görə, qullarağası Siyavuş bəyə və Luristan hakimi Şahverdi xana göstəriş verildi ki, onlar tabeliyində olan qüvvələrlə bölgəyə hərəkət etsinlər və Xan Əhməd xanın ətrafında toplanmış qüvvələrə zərbə vursunlar. Onlar da şah fərmanını alan kimi öz dəstələri ilə bölgəyə yollandılar. Böyük sayda qızılbaş qüvvələrinin gəlməsi xəbərini alınca Xan Əhməd xan bu barədə Kiçik Əhməd paşaya xəbər göndərdi. Kiçik Əhməd paşa da yaranmış vəziyyəti Osmanlı sarayına çatdırdı. Osmanlı sarayı Xan Əhməd xanın sultan hakimiyyətini qəbul etməsini məmnunluqla qarşılasa da, Kiçik Əhməd paşaya vaxtında əlavə kömək gönmədi. Osmanlı sarayından bildirildi ki, sədr-əzəm Mehmet paşa sərdar

təyin edilərək bölgəyə göndərilib. Onun gəlib çatmasına qədər isə Şam, Kastamonu, Qarahisar və digər vilayətlərin qoşun dəstələri sərhəd bölgəsinin təhülkəsizliyini təmin etməli idilər. Hələbdən Vana qədər olan ərazidəki sancaq bəylərinə də göstəriş verildi ki, onlar öz qoşun dəstələri ilə Kiçik Əhməd paşanın köməyinə yollansınlar. Eyni zamanda əmr olundu ki, Xan Əhməd xanın ailə üzvləri bölgədən çıxarılsın və Mosula göndərilsin (98).

İsgəndər bəy Münşinin məlumatına görə, Kiçik Əhməd paşanın rəhbərliyi altında 10-12 min nəfərlik qoşun dəstəsi toplanmışdı. Qızılbaş qoşunları bölgəyə yetişən kimi tərəflər arasında gərgin bir döyüş başladı. İsgəndər bəy qızılbaş qüvvələrinin xüsusi bir fədakarlıqla döyüşdüyünü, Osmanlı qüvvələrinə heç bir fürsət verilmədiyini, qarşı tərəfin döyüşçülərinin başlarının ayaqlar altında qaldığını, bir sözlə Səfəvi qoşunlarının üstün şücaətini səxavətli şəkildə təsvir etmişdi. Onun yazdığına görə, döyüşün gedişində Kiçik Əhməd paşa ilə başqa bir əmir qətlə yetirildilər. Şam və Sivasın qullarağası isə qızılbaş döyüşçülərinə əsir düşdülər. Digər Səfəvi mənbə məlumatına görə isə, bu döyüşün gedişində 500 nəfər Osmanlı döyüşçüsü qətlə yetirildi. İsgəndər bəy əsir götürülən Osmanlı döyüşçülərinin iki dəfə çox olduğunu yazırdı. Bir sözlə, qızılbaş qoşun dəstəsi bu döyüşdə üstün gəldi və Ərdəlanda Səfəvi hakimiyyəti yenidən bərpa edildi. Xan Əhməd xan isə baş verən döyüşdə xəsarət görməsə də, çətinliklə qaçaraq canını salamat qurtara bildi. Amma onun həyatı uzun çəkmədi və bir müddət sonra öz əcəli ilə dünyasını dəyişdi (99).

Osmanlı mənbələrinə görə, Kiçik Əhməd paşa 3-4 min nəfirlik bir dəstə ilə Xan Əhməd xanın köməyinə yollanmışdı. Sonradan Xan Əhməd xanın rəhbərliyi altında olan dəstə də Kiçik Əhməd paşanın dəstəsinə qoşuldu. Bu zaman əsir götürülmüş bir qızılbaş əsgərinin məlumatına görə, Şah Səfi tərəfindən bölgəyə göndərilmiş olan dəstə Şəhrizora gəlib çatmışdı. Həmin qızılbaş döyüşçüsü Səfəvi dəstəsinin az saylı olduğunu bildirmişdi. Kiçik Əhməd paşa da bu sözlərə inanaraq öz dəstəsi ilə Şəhrizora yollandı. Ancaq bölgəyə yetişəndən sonra Kiçik Əhməd paşa qızılbaş

əsirinin verdiyi məlumatın doğru olmadığını və Səfəvi dəstəsinin sayca üstünlüyünü gördü. Bununla belə, o, geri çəkilmədən qızılbaş dəstəsi ilə döyüşə girməyi qərara aldı. Gərgin keçən döyüşün gedişində Şamdan gəlmiş dəstənin geri çəkilməsi ilə qızılbaş qüvvələrinin üstünlüyü daha aydın şəkildə görünməyə başladı. Kiçik Əhməd paşa at belindən yerə salındı və sonra da əsir götürüldü. Sonradan bəlli oldu ki, bu atdan yerə salınan Kiçik Əhməd paşadır. Onda onun başı bədənindən ayrılaraq Siyavuş bəyə, onun tərəfindən isə Şah Səfiyə göndərildi. Kiçik Əhməd paşanın qətlindən sonra Osmanlı döyüşçüləri başsız qaldılar və onlar qaçaraq ətrafa dağıldılar. Nəticədə 1636-cı il sentyabr ayının 16-da baş verən bu döyüşdə Səfəvi qüvvələri üstün gəldilər və onlar Xan Əhməd xanın hakim olduğu ərazilərin yenidən Səfəvi hüdudlarında qalmasını təmin etdilər (100).

Ərdəbildə olarkən Şah Səfi Osmanlı sarayından gəlmiş bir elçilik heyətini qəbul etdi. Həmin elçilik heyəti Osmanlı sədrəzəmi Mehmet paşa tərəfindən göndərilmişdi. Görünür, İrəvan qalasının Səfəvi qoşunları tərəfindən geri alınmasından sonra Mehmet paşa yenidən iki dövlət arasında daha anlaşıqlı bir münasibətin qurulmasına cəhd göstərmək istəyirdi. Həmin elçilik heyətinin hansı məqsədlə və təkliflərlə Şah Səfinin yanına gəlməsi haqqında mənbələrdə yetərli məlumat qalmamışdır. Şah Səfi bu elçilik heyətini mehribanlıqla qarşıladı. İki tərəf arasında xoş münasibətlərin qurulmasına tərəfdar olduğunu nümayiş etdirmək üçün Səfəvi şahı Kiçik Əhməd paşanın kəsilmiş başını həmin elçilik heyətinə təqdim etdi. Bir neçə aydan sonra, konkret olaraq 1637-ci ilin fevral ayında Şah Səfi tərəfindən də Osmanlı sarayına elçilik heyəti təyin edildi. Həmin heyətə rəhbərlik səltənətin xəlifətül-xüləfa vəzifəsini icra edən Maqsud sultana tapşırıldı. Bu heyətin göndərilməsində məqsəd iki dövlət arasında dinc münasibətlərin bərqərar edilməsi idi. Maqsud sultan da Osmanlı sarayında bu vəzifənin həllinə çalışmalı idi. Elçilik heyəti özü ilə Şah Səfinin qiymətli hədiyyələrini də aparırdı. Həmin hədiyyələrə yeddi baş şah atı, qırx baş dəvə, əlli misqal müşk, əlli misqal ən-

bər, qiymətli dəridən tikilmiş otuz dəst paltar, səkkiz ədəd xalça və s. daxil idi (101).

Qəzvindən hərəkətə başlayan elçilik heyəti Təbrizə yetişəndə Osmanlı sədr-əzəmi Mehmet paşanın vəzifəsindən azad edilməsi xəbəri alındı. Maqsud sultan bir müddət Təbrizdə gözləməli oldu ki, Osmanlı sarayında sədr-əzəmlə bağlı məsələ aydınlaşsın və bundan sonra öz hərəkətini davam etdirsin. Elə fevral ayında da Bayram paşa Osmanlı dövlətinin sədr-əzəmi vəzifəsinə təyin edildi. Bu barədə xəbər əldə etdikdən sonra Maqsud sultan da öz heyəti ilə İstanbula doğru hərəkətini davam etdirdi və 1637-ci il mart aynının sonlarına yaxın Vana yetişdi. Maqsud sultanın Səfəvi elçisi kimi İstanbula doğru irəliləməkdə olması haqqında sultan sarayında məlumat alınmışdı. Ona görə elçinin keçəcəyi vilayət hakimlərinə onun qarşılanması, qayğısının və təhlükəsizliyinin təmin edilməsi və sonra da yola salınması haqqında fərman verilmişdi. Diyarbəkr bəylərbəyi Mehmet paşa tərəfindən Səfəvi elçiliyinin müşayiət edilməsinə müəyyən sayda yeniçəri də ayrılmışdı. Maqsud sultan 1637-ci ilin avqust ayında İstanbula yetişdi və özü ilə gətirdiyi qiymətli hədiyyələri, habelə Şah Səfinin məktubunu sədr-əzəmə təqdim etdi (102).

Öz məktubunda Şah Səfi baş verənlərə baxmayaraq, iki dövlət arasında dinc münasibətlərin bərqərar edilməsinə tərəfdar olduğunu bildirirdi. Osmanlı sədr-əzəminə ünvanlanmış olan məktubda Şah Səfi babası Şah Abbasın dünyasını dəyişməsi ilə bağlı Osmanlı sarayından baş sağlığını, özünün taxta çıxması ilə bağlı isə təbrikləri almadığını bəyan edirdi. Şah Səfi ona işarə edirdi ki, iki dövlətin sarayları arasında mövcud olmuş ənənəyə Osmanlı sultanı tərəfindən riayət edilməmişdi. Əvəzində isə, Sultan Muradın Bağdadın ələ keçirilməsi üçün Səfəvi hüdudlarına qoşun göndərməsinin Şah Səfinin narahatçılığı ilə qarşılanması da məktubda öz əksini tapmışdı. Şah Səfi bir məktubu da IV Murda ünvanlanmışdı. Bu məktubda da Şah Səfi Osmanlı sarayı tərəfindən Şah Abbasla bağlı başsağlığının verilməməsi, taxta çıxmasının təbrik edilməsi üçün Osmanlı elçiliyinin göndərilməməsi

ilə bağlı öz nigarançılığını ifadə etmişdi. Bununla belə, Şah Səfi iki dövlət arasında sülhün və barışın bərqərar edilməsinə tərəfdar olduğunu bildirirdi. Onun yazdığına görə, iki dövlət arasında mövcud olan gərginlikdən daha çox əhali əziyyət çəkirdi. Ona görə də Şah Səfi tərəfindən iki dövlət arasında dinc münasibətlərin möhkəmləndirilməsinə bir çağırış var idi (103).

Səfəvi sipəhsaları Rüstəm xan da öz tərəfindən sədr-əzəm Mehmet paşaya məktub göndərmişdi. Rüstəm xan bu məktubunda iki dövlət arasında dinc münasibətlərin yaradılması zəruriliyini və gərəkliyini Mehmat paşanın diqqətinə çatdırırdı. Lakin qeyd edildiyi kimi, Maqsud sultan heç Səfəvi ərazisini tərk etməmiş Mehmet paşa sədr-əzəm vəzifəsindən kənarlaşdırıldı. Bir tərəfdən İrəvan qalasının qorunub saxlanması üçün Mehmet paşa tərəfindən təsirli tədbirlərin həyata keçirilməməsi, digər tərəfdən də əhali tərəfindən olan şikayətlər Mehmet paşanın tutduğu vəzifədən uzaqlaşdırılmasına gətirib çıxardı. Mehmet paşa hələ İstanbula yetişməzdən əvvəl Bayram paşa sədr-əzəm vəzifəsinə təyin edildi və o da Bağdad üzərinə hücumun təşkili üçün Hələbə yola düşdü. Yəni Maqsud sultan İstanbula yetişməzdən əvvəl Sultan Murad artıq Bağdad üzərinə hücum hazırlıqlarna başlamışdı. Ona görə də Sultan Murad həm gətirilmiş məktublara, həm də Səfəvi elçisinin özünə xüsusi bir diqqət göstərmədi. Şah Səfinin barış və sülh üçün irəli sürdüyü təklif də Osmanlı sultanı tərəfindən qəbul olunmadı. Hətta Maqsud sultana çatdırıldı ki, Səfəvi şahının cavabı Bağdadda veriləcəkdir. Elçilik heyətinin iki üzvünün edam edilməsi haqqında da qərar verilmişdi. Lakin sonradan bu qərardan imtina edildi (104). Bununla belə, Səfəvi elçisinə çatdırıldı ki, Osmanlı sarayı Bağdad üzərinə hücum etmək işində qərarlıdır.

Maqsud sultan sağ-salamat geri qayıtdı və osmanlı sarayında müşahidə etdiklərini şah sarayına çatdırdı. O bildirdi ki, Osmanlı sarayı Bağdad üzərinə hücuma hazırlaşır və bununla bağlı artıq əməli addımlar atılmışdır. Şah Səfi bu xəbəri nigarançılıqla qarşıladı və Bağdadın müdafiəsinin təşkili, habelə Osmanlı hücumunun qarşısının alınması üçün öz fərmanlarını verdi (105).

Elə həmin vaxtlarda Qars, Ərzrum və Diyarbəkr paşalarının talan məqsədilə İrəvan qalası üzərinə hücumu haqqında da məlumat alındı. Çox güman ki, bu paşalar Osmanlı qoşunlarının Bağdad üzərinə yürüşə başlaması və Səfəvi qoşunlarının da diqqətinin həmin istiqamətə yönləndirilməsi haqqında məlumat almışdılar. Belə bir vəziyyətdə İrəvan qalasının ələ keçirilməsi və ya qala ətrafı məntəqələrin talan edilməsi asanlıqla başa gələ bilərdi. Amma İrəvan bəylərbəyi Kəlbəli xan buna imkan vermədi. O, qaladakı qoşun dəstəsi ilə Osmanlı paşalarının hərəkət istiqamətində əlverişli mövqe tutmaqla onların dəstələrinə ağır zərbə vurdu. Bu ağır zərbədən sonra Osmanlı paşaları və onların qoşun dəstələri geri qayıtmaq məcburiyyətində qaldılar (106).

3. Osmanlı qoşunlarının Bağdad yürüşü

Bayram paşa sədr-əzəm təyin edildikdən dərhal sonra 1637-ci il mart ayının ilk günlərində Bağdad üzərinə hücumun təşkili işləri ilə bağlı Üsküdara yollandı. Təxminən iki həftə orada qalan sədr-əzəm həmin il mart ayının 20-də oradan Anadoluya yola düşdü. Bayram paşa Anadoludakı vilayətləri dolaşmaqla həmin vilayətlər daxilində hərbi yürüş hazırlıqlarını yoxlamalı, silah və ərzaq ehtiyatlarının yaradılması ilə məşğul olmalı və Bağdad üzərinə Osmanlı qoşunlarının hücumu üçün gərəkli olan işləri görməli idi. Bu məsələ ilə bağlı vilayətlərin bəylərbəylərinə və sancaqbəylərinə əmrlər göndərildi ki, onlar da qoşun dəstələrinin toplanması ilə məşğul olsunlar. Həmin hazırlıqlar zamanı Bayram paşa qoşun təchizatının Dəclə və Fərat çayları ilə daşınmasına xüsusi diqqət yetirməli idi. Bu marşrut artıq istifadə olunmuş marşrut idi və ondan daha səmərəli istifadə olunması üçün ətraf vilayətlərin bəylərbəylərinə yetərli sayda qayıqların hazırlanması və Bayram paşanın ixtiyarına verilməsi tapşırılmışdı. Bu tapşırığın icrasının nəticəsində 1637-ci ilin may ayında artıq 700 ədəd nəqliyyat gəmisi Bayram paşanın ixtiyarına verilmişdi. Sayı heç də az olmayan bu gəmilər vasitəsilə toplar, top mərmiləri, ehtiyat silahlar,

ərzaq ehtiyatları, düşərgə ləvazimatları daşınmalı idi. Qoşunlara su daşınması üçün keçi dərisindən 40 min ədəd tuluq da hazırlandı. Bayram paşanın rəhbərliyi altında Birəcikdə xeyli sayda yeni toplar töküldü və sonra onlar Mosula daşındı (106).

1637-ci ilin payızına qədər Bayram paşa Bağdada yaxın olan vilayətlərdə qoşun toplanması, ərzaq ehtiyatlarının yaradılması işləri ilə məşğul oldu. Həmin ilin payızında o, Bağdad üzərinə hücum üçün müəyyən hazırlıqları ilə bağlı xeyli işlər gördü və qışı keçirmək üçün Amasiyaya yollandı. Bağdad üzərinə hücum hazırlıqları heç də dayanmadı. Hətta qış aylarında da bu işlər davam etdirildi. Əslində bu işlər hücumun başladığı tarixə qədər davam etdi (107). Yəni IV Murad Bağdad üzərinə hərbi yürüşün uğurla başa çatması üçün çox ciddi hazırlıqlar apardı.

IV Murad Krım xanının qoşunlarının da bu hücumda iştirak etməsini məqsədəuyğun saydı. Bununla əlaqədar, Krım xanı Bahadur Gireyə fərman göndərildi və ondan 300 ədəd gəmi vasitəsilə 40 min nəfərlik dəstənin gətirilməsi tələb olundu. Lakin Krım xanı bu sayda qüvvəni Osmanlı ərazisinə gətirə bilmədi. Krım qüvvələri 1638-ci ilin avqustunda Osmanlı sahillərinə çıxarılanda onun tərkibində 4749 adam və 8561 at var idi (108).

Bağdad səfərinə hazırlıqla bağlı bütün məsələlər nəzarət altında saxlanılırdı və ən xırda detalların belə həlli istiqamətində əməli addımlar atılırdı. Məsələn, qoşunların hərəkət edəcəyi marşrut üzrə yolların abadlığı, onların genişliyi, keçid imkanları, körpülərin olması və vəziyyəti, səngərlərin, istehkamların qurulması və lağım atılması üçün ustaların toplanması və s. məsələlərlə bağlı vilayət hakimlərinə ciddi tapşırıqlar verilmişdi. Hücum zamanı Bağdad divarları altından lağımların atılması istisna edilmirdi. Ona görə də lağım mütəxəssislərinin nəzəri dinlənildikdən sonra IV Murad 6-7 min nəfər lağım ustası toplanması əmrini verdi. Bunlardan başqa, bel ilə işləyəcək fəhlələr, böyük sayda dülgərlər dəstəsi də Bağdad yürüşünə cəlb edilməli idi. Fərat və Dəclə çayı ilə daşınmanın icrası üçün gəmi avarçəkənləri və xidmətçilər dəstəsinin toplanması üzrə də işlər aparılırdı. Birəcikdə tökülən böyük top-

lara əlavə olaraq İstanbulun özündə Bağdad səfəri üçün yüzdən artıq top tökülmüş və qoşunlarla birlikdə yola salınmışdı. Top istehsalının təşkil edilməsi üçün Osmanlı qalalarında qeyri-işlək vəziyyətdə olan toplar toplanaraq emalatxanalara göndərilmiş və əridilərək onlardan istifadə olunmuşdu. Müxtəlif şəhərlərdə minlərlə top mərmisi istehsal olundu və onların da Bağdad ətrafına daşınması təmin edildi. Topların hər birinin daşınması üçün də xüsusi arabalara ehtiyac var idi. Onların hazırlanması da xeyli vaxt apardı və bu işlər də səfər başlanana kimi başa çatdırıldı. Xüsusi diqqət qoşunların ərzaq təminatına yönəldildi. Bağdad üzərinə göndəriləcək qoşunlar, bu qoşunların xidmət personalı ilə birlikdə yüz mindən nəfərdən artıq olacağı gözlənilirdi. Bir qayda olaraq qoşunlarla müəyyən ehtiyatlar aparılır və səfər boyu ehtiyac duyulan ərzaqlar yerlərdə tədarük olunurdu. Bağdad ətrafı məntəqələrin qızılbaş qüvvələri tərəfindən yağmalanması, ərzaq ehtiyatlarının məhv edilməsi Osmanlı qoşunlarını təbii çətinliklərlə qarşılaşdıra bilərdi. Bu məsələ də nəzərə alınmalı və ərzaq ehtiyatlarının təmin edilməsi üçün lazımi addımlar atılmalı idi. Ona görə fərman verildi ki, Osmanlının bütün ərazilərindən Bağdad səfəri üçün ərzaq ehtiyatları toplansın və onlar saxlanmaq üçün Bağdada yaxın olan qalalara daşınsın (109).

Osmanlı tarixçisi İbrahim Peçevi öz əsərində IV Murad tərəfindən Bağdad üzərinə səfər hazırlıqlarının miqyası və əhatəliliyi haqqında belə yazırdı: "Ənənəvi qaydalara uyğun olaraq padşah həzrətləri Boğazı aşaraq Üsküdara keçdi. Ehtiyaclarını tamamlamaq, əsgərin və padşah hərəmi məsullarının gəlmələrinin gözləmək üçün iki gün Üsküdarda qaldıqdan sonra söylənilən ayın iyirmi üçüncü günü (09.05.1638) oradan qalxıb gəzə yoluna qoyuldular. Rəhmətlik padşahın etdiyi səfər hazırlıqları o qədər mükəmməl və zəngin, o qədər ehtişamlı idi ki, onların tamamlanması və yazılması mümkün deyil. ...Belə ki, bu səfərdə böyük miraxur olan səadətli vəzir Xəlil paşa həzrətləri çox bacarıqlı və dayanıqlı bir minici, rəhmətlik padşahın cıdır oyununda ustası və baxımı biliminin ən öndə gedən xocası idi. Bu fəqir qulunuz,

Tamaşvar dəftərdarı ikən Xəlil paşa vəzir olaraq Tamaşvar mühafizliyinə təyin edilib oraya gəlmişdi. Onun anlatdığına görə əli altında olan xidmətçi və qulluqçular sayılmayacaq qədər çox idi. Bunlardan əlavə padşah dəftərində qeyd edilmiş olan xidmətçilər və qulluqçuların sayı da hesaba sığmazdı. ...Ötə yandan padşah səfərə çıxınca Osmanlı ənənələrinə görə adət olduğu kimi yanında doqquz yedək at götürürdü. Bunların dizginləri, taqımları və örtüləri altun işlənmiş və yüksək dəyərli daşlarla, çeşidli almaz və yaqutlarla süslənmişdi. Ayrıca cıdır atları adı ilə qırx dənə soyu, nəsli bəlli cins at çıxarılırdı. Bunlardan əlavə üç yüz, bəzən də dörd yüz at daha var idi ki, padşah nə zaman cıdır oynamaq istəsə minəcəyi heyvanı bunlar arasından seçərdi. Bunların hamısı məmləkətin dörd bucağından alınaraq padşah axuruna layiq görülmüş atlar idi. Günəşin istisindən, yel və yağmurun təsirlərindən qorunmaları üçün daşına bilən axurlar yaradılmışdı. Məsələn, bunlardan üç axur düşərgədə ikən üç axur da padşahın tuğu ilə öndən gedib otağın (çadırın) yanında qurulurdu. Hər axurda yeddi-səkkiz at bağlanır, xas axurların əşya və yemlikləri də gümüşdən düzəldilirdi. Padşah böyük sevgi bəslədiyi atlardan bir an belə aralanmaz, otağının kölgəliyində bir gündə iyirmi-otuz at olurdu və gözünü onlardan heç ayırmazdı. Bunlardan başqa boyunları saman yoluna bənzəyən, süslü örtülərlə bəzənmiş min iki yüz qədər dəvə var idi. Dəvələrin dörd yüzü yeniçərilər üçün, geri qalanları da xəzinənin nəqli üçün, mətbəx, çadır, cəbbəxana, mehtər və daha başqa gərəkli malzəmənin daşınması üçün istifadə olunurdu. Ayrıca yeddi yüzə qədər də sürətlə qaçan qatır var idi" (110).

Bir sözlə, IV Murad Bağdad səfərini uğurla başa vurmaq üçün bu səfər başlanana qədər hazırlıq işlərini davam etdirdi. Nəhayət, 1638-ci ilin fevral ayında Sultan Murad Bağdada doğru hərəkətə başladı. Osmanlı sarayının Bağdad üzərinə səfər hazırlıqları haqqında Səfəvi sarayında artıq məlumatlar var idi. Səfəvi sarayı tərəfindən elçi kimi İstanbula göndərilmiş Maqsud sultanın geri dönüşü ləngisə də, Osmanlı sarayının səfər hazırlıqları haqqında xəbərlər Səfəvi sarayına çatdırılmışdı. Bundan başqa Bağdad ha-

kimi Bəktaş xan da öz xəfiyyələrini Osmanlı vilayətlərinə göndərməklə, Sultan Muradın səfər hazırlıqları haqqında bir sıra məlumatları əldə etmiş və onları Səfəvi sarayına çatdırmışdı. Şah Səfi də mümkün hazırlıqların aparılmasına başlamışdı. Belə bir vaxtda Qəndəhar hakiminin mərkəzi hakimiyyətə qarşı qiyam qaldırması haqqında məlumat alındı. Bu məlumat 1638-ci ilin Novruz şənliklərində sonra Şah Səfiyə çatdırıldı. Bu zaman artıq IV Murad İstanbulu tərk edərək Bağdada doğru irəliləməkdə idi. Şah Səfi məcburiyyət qarşısında qalaraq Qəndəharın da mərkəzi hakimiyyətin nəzarəti altına gətirilməsi haqqında bəzi addımlar atmalı oldu. Əslində, Qəndəhar qalası ətrafında mərkəzi hakimiyyətin maraqlarına cavab verməyən proseslər bir qədər də əvvəldən başlamışdı. Bu proseslərin qarşısının alınması üçün Şah Səfi tərəfindən qullarağası Siyavuş bəyin rəhbərliyi altında bir qızılbaş dəstəsi Qəndəhara göndərilmişdi. Həmin qızılbaş dəstəsi Qəndəhar qalasının on fərsəxliyinə çatanda qala hakimliyini ələ keçirmiş Əbu Səid xan hind sarayı ilə sövdələşməyə getmiş və Qəndəhar qalasını hind qoşunlarının nəzarəti altına vermişdi. Əbu Səid xan Kabul hakimi idi və qızılbaş dəstəsinin yaxınlaşması xəbərini alında qalanın əvvəlki hakimi Əlimərdan xan Siyavuş bəylə qarşılşamağa cəsarət etməyərək qala hakimliyini Əbu Səidə təhvil verdi. O isə öz növbəsində hind sarayı ilə sövdələşməyə getdi və beləliklə, bu qala Səfəvi hakimiyyətinin nəzarətindən çıxarıldı. Şah Səfi bu xəbəri eşidəndə səltənət əmirlərindən olan Nəzər bəyi Qəndəhar ətrafına göndərdi və ona tapşırıq verdi ki, qullarağası Siyavuş bəylə birləşərək Qəndəharın müdafiəsi üçün birgə fəaliyyət göstərsinlər. Siyavuş bəy Qəndəharın bir fərsəxliyinə qədər yaxınlaşaraq verilmiş tapşırığın icrası üçün son hazırlıqlara başladı. Lakin bu zaman Siyavuş bəy də uğursuzluqla qarşılaşdı. Qəndəhar qalası daxilindəkilər əlverişli fürsət əldə edib qızılbaş dəstəsi üzərinə sürətli hücum həyata keçirdilər. Səfəvi mənbələrinə görə, Siyavuş bəy arxadan kömək gəlməsini gözləyirdi və həmin köməyin yetişməməsi onun dəstəsinin vəziyyətini ağırlaşdırdı. Yəni Siyavuş bəyin rəhbərliyi altında hələ ki-

fayət qədər qüvvə toplanmamış Qəndəhar qarnizonunun hücumu baş verdi. Bu hücum Siyavuş bəyin dəstəsinin geri çəkilməsi ilə nəticələndi. Şah Səfi qızılbaş dəstəsinin uğursuzluğu haqqında məlumat alanda Siyavuş bəyə tapşırıq göndərdi ki, dəstəsi ilə Fərəh ətrafına çəkilsin və gələcək hərəkətləri üçün tapşırıq gözləsin (111).

Qəndəhar ətrafında gərginliyin mövcud olduğu günlərdə, yəni Novruz şənliklərindən az sonra Bağdad hakimi Bəktaş bəydən də Şah Səfiyə həyəcan dolu bir məktub çatdırıldı. Həmin məktubda Bəktaş xan bildirirdi ki, Osmanlı sultanının Bəsrə hakiminə və bölgə ərəblərinə yazdığı məktub onun adamları tərəfindən ələ keçirilmişdir. Məzmunu Şah Səfiyə ərz edilən həmin məktubda Osmanlı sultanı yazın gəlişi ilə Bağdad üzərinə hücum başlanacağını xəbər verməklə, bu səfər üçün yerlərdə hazırlıqlar aparılmasını tələb edirdi. Şah Səfidə artıq şübhə yeri qalmadı ki, Osmanlı qoşunlarının Bağdad üzərinə hücumu qaçılmazdır. Bu hücumun qarşısının alınması üçün əməli addımlar atılmasına başlandığı günlərdə şərq sərhədlərindən yenidən təşviş doğurucu xəbər alındı. Qullarağası Siyavuş bəy və Bəst qalasının hakimi Mehrab sultan şah sarayına göndərdikləri məktubda bildirirdilər ki, hind-cığatay qoşunları Qəndəharda möhkəmləndikdən sonra Bəst qalası üzərinə hərəkətə başlamışlar. Bəst qalasının əvvəlki hakimi Səfiqulu sultan öz vəzifəsini geri qaytarmaq üçün Qəndəhardakı qüvvələrlə əlaqəyə girmiş və həmin qüvvələrin Bəst qalası üzərinə gəlməsinə müvəffəq olmuşdu. Şah Səfi fərman verdi ki, Bəst qalasının mühafizəsi təmin edilsin və bu qalanın əvvəlki hakimi də öz cəzasına çatdırılsın. Siyavuş bəyin sərəncamına əlavə qüvvələrin göndərilməsi də gözlənilirdi. Lakin həmin qüvvələr gəlməzdən əvvəl hind-cığatay qoşun dəstələri Bəst qalasını da şah hakimiyyətinin nəzarətindən çıxardılar. Elə bu vaxtlar Osmanlı sultanının Bağdad üzərinə hərbi yürüşə başlaması haqqında xəbər təsdiqləndi. Ona görə də Şah Səfi şərq sərhədi boyunca hind-cığatay fəallaşmasının qarşısının alınması üçün tədbirlər görülməsini təxirə salmalı oldu (112).

Ümumiyyətlə, hind hakimləri Osmanlı qüvvələrinin Bağdad üzərinə hücuma başlamasının yaratdığı şəraitdən bəhrələnməyə çalışırdılar. Bəlli idi ki, Səfəvi sarayı əsas gücünü Osmanlı hücumunun qarşısının alınmasına yönəldəcəkdi. Bu fürsətdən istifadə etməklə hind qoşunları da Səfəvi dövlətinin daha böyük ərazilərini işğal altına ala bilərdilər. Məlumdur ki, Osmanlı qoşunları Bağdada doğru hərəkət zamanı Mosulda olarkən Hindistan padşahı Şah Cahanın elçisi Osmanlı düşərgəsinə gəldi və padşah məktubunu çatdırdı. Hindistan padşahı Osmanlı qoşunlarının Səfəvi dövləti üzərinə yürüşə başlamasından sevindiyini məktubunda da ifadə etmişdi. O, Səfəvi dövlətinin şiəməzhəb bir dövlət olduğunu, Hindistanın Osmanlı dövləti ilə məzhəb ortağı olmasını və Səfəvi dövlətinin müştərək düşmənliyini Osmanlı tərəfinin nəzərinə çatdırırdı. Şah Cahan yazırdı ki, o da artıq Səfəvi dövlətinə qarşı müharibə başlayıb, Qəndəhar qalasını və onun ətrafındakı məntəqələri ələ keçirib. Bundan sonra isə o, Xorasan vilayəti üzərinə hərəkət etmək niyyətində olduğunu yazırdı. Şah Cahan məqsədinin bir şiəməzhəb dövlət kimi Səfəvi dövlətini məhv etmək olduğunu yazırdı. Həmin məqsədə çatmaq üçün bir tərəfdən Osmanlı qoşunlarının, bir tərəfdən də özbək qoşunlarının Səfəvi dövləti üzərinə hərəkətə keçməsinin əhəmiyyətini qeyd edirdi. Səfəvi dövlətinin ləğv edilməsi üçün Şah Cahan Osmanlı sarayına iki dövlət arasında sünni ittifaqının yaradılmasını təklif etdi. Belə bir ittifaqın yaradılması ilə Səfəvi dövlətini çətin vəziyyətə salmaq və onun məhvi istiqamətində daha əməli bir siyasət izləmək mümkün idi. Osmanlı sarayı bu təklifə dərhal cavab vermədi və Bağdad üzərinə yürüş edildiyi bir vaxtda həmin təklifə baxılmasını təxirə saldı (113).

Şah tərəfindən vilayətlərə təvaçilər göndərildi ki, onlar yeni qoşun toplanmasını elan etsinlər. Şah fərmanı ilə büyütat naziri Hüseyn xan qoşunların toplanmasına rəhbərlik etməli idi. Hüseyn xan Əlişəkərə yollanmalı və vilayətlərdə toplanan qoşunlar da orada onun tabeliyinə daxil olmalı idilər. Səltənət sipəhsaları Rüstəm xanın qardaşı, söhbət yasovulu İsa bəy Azərbaycana gön-

dərildi ki, o, orada Rüstəm xana kömək etməklə bərabər, Osmanlı qoşunlarının hərəkətini, bölgənin kürd əmirlərinin və hakimlərinin fəaliyyətini nəzarət altında saxlasın və lazım gələndə zəruri tədbirləri həyata keçirsin. Sipəhsalar Rüstəm xan həm də Azərbaycan bəylərbəyi idi və onun rəhbərliyi altında sərhəd bölgəsinin hakimlərinin nə etdikləri nəzarət altında saxlanmalı idi. Eyni zamanda Rüstəm xan Azərbaycan bəylərbəyi kimi, Nəzərəli xan Ərdəbil hakimi kimi vilayət qoşunlarını Bağdadın müdafiəsinə göndərməli idilər. Şah fərmanına əsasən, Kuhgiləviyyə vilayətinin hakimi Nəğdi xan, Durəğ hakimi Muradxan bəy də öz dəstələri ilə Bağdad istiqamətində hərəkətə başlamalı idilər. Bağdadın müdafiəsinin gücləndirilməsi üçün bu qalaya topçular və tüfəngçilər dəstəsi də göndərildi. Eyni zamanda təchizat hazırlıqları görüldü, Bağdad qalasına kifayət qədər mərmi, barıt, fitil və yağ daşındı. Qoşunların ixtiyarında olan xeyli sayda zərbzən, badlic də Bağdad qalasına göndərildi. Bağdadın müdafiəsini təşkil etmək və ona rəhbərlik etmək üçün Şah Səfi İsfahanı tərk etdi. O, Ələnkkəhiz-Borucərd-Nəhavənd marşrutu üzrə hərəkət edərək Kənkavərdə düşərgə saldı. Səltənət sipəhsaları və Azərbaycan bəylərbəyi və digər vilayətlərin bəylərbəyləri də gələrək orada şah ətrafındakı qoşun dəstəsinə birləşdilər. Həmin məntəqədə toplanmış olan qoşunlara şah tərəfindən baxış keçirildi və sonra da onlar Bağdad istiqamətində yola salındılar. Burada olarkən Şah Səfi İsfahan tüfəngçilərinin minbaşısı Mir Fəttahı tüfəngçiağasıbaşı vəzifəsinə təyin etdi və Bağdadın müdafiəsi gedişində tüfəngçilərə ümumu rəhbərlik ona tapşırıldı. Əlavə olaraq çərxçibaşı Xələf bəy də Bağdad qalasına göndərildi. Xələf bəy böyük döyüş təcrübəsinə malik idi və ümid edilirdi ki, onun qalada olması ilə qala daxilindəki qüvvələri daha səmərəli şəkildə Osmanlı qüvvələrinə qarşı səfərbər etmək mümkün olacaqdır (114).

Şah Səfi Bağdad qalasının müdafiəsinə strateji əhəmiyyət verirdi. Bunun üçün idi ki, o, müvəqqəti olaraq Qəndəhar məsələsinin həllini təxirə saldı və Bağdad məsələsini səltənət üçün daha əhəmiyyətli saydı. Şah Səfi səltənətin ərazi bütövlüyünü qo-

ruyub saxlamaqda qərarlı idi. Lakin yaranmış vəziyyətdə Bağdada üstün diqqət ayırdı. Çünki Bağdadın əldən getməsi ilə müqəddəs məkanlar da səltənət hüdudlarından qoparıla bilərdi. Onun üçün idi ki, Şah Səfi tərəfindən Bağdadın müdafiəsinə böyük sayda qüvvələr vəzifələndirildi. Osmanlı mənbələrinə görə, Şah Səfinin fərmanı əsasında Bağdad qalasına əlavə olaraq 40 minlik bir qoşun dəstəsi gətirildi. Həmin qoşundan da 25 min nəfəri tüfəngçi, 15 min nəfəri isə ox-kaman silahlısı idi. Lakin o da bildirilir ki, qala daxilində vahid rəhbərliyin təmin edilmədiyi üçün bəzi vaxtlarda daxili parçalanma da özünü göstərirdi. Bu meyl xüsusilə özünü çərxçibaşı Xələf bəyin fəaliyyətində hiss etdirirdi. Belə ki, qala müdafiəçilərinin fəaliyyətinin tənzimlənməsində heç də həmişə qala hakimi Bəktaş bəylə Xələf bəyin fikirləri üst-üstə düşmürdü (115).

Osmanlı sultanı təxminən bir aya yaxın Üsküdarda dayanaraq səfər hazırlıqlarını başa çatdırdı və 1638-ci il may ayının 8-də Osmanlı qoşunları Üsküdarı tərk edib Bağdada doğru istiqamət götürdü. Sultan Muradın rəhbərliyi altında çox böyük sayda bir qoşun hərəkət edirdi. Bəzi məlumatlara görə, bu qoşunları sayı 167 min nəfər idi. Belə böyük sayda olan qoşun kifayət qədər ləng hərəkət edirdi. Qoşunlar hərəkətdə ikən sədr-əzəm Bayram paşa da yanındakı qoşun dəstəsi də sultan qoşunlarına qatıldı. Amma Bayram paşa Bağdada doğru hərəkətdə ikən dünyasını dəyişdi və onun yerinə Diyarbəkr bəylərbəyi Təyyar Mehmet paşa təyin edildi. Onun bu vəzifəyə təyin edilməsi 1638-ci ilin sentyabr ayına təsadüf edirdi (116).

Bir məlumata görə isə, Bağdad üzərinə hərəkət edən Osmanlı qoşunlarının sayı 100 min nəfər idi (117). Şah Səfi Bağdadın müdafiəsinə daha yaxından rəhbərlik etmək üçün qala yaxınlıqlarına qədər irəliləmək istəyirdi. Lakin saray mənsubları onun döyüş gedən əraziyə yaxınlaşmasını məsləhət bilmədilər. Bununla belə, Şah Səfi Kənkavər məntəqəsini tərk etdi və Kermanşah yaxınlığında olan Tağ Setan (Bestam) adlanan məntəqəyə gəldi. Bu vaxt hələ də vilayətlərdən qoşun dəstələri gəlməkdə idi. Həmin

dəstələrə şah tərəfindən baxış keçirilir və sonra da Bağdad istiqamətinə yola salınırdı. Bundan başqa Şah Səfi Bağdad daxilində və ətrafında baş verənləri davamlı şəkildə nəzarət altında saxlayırdı. Hər gün Bağdaddan adamlar gəlir və oradakı vəziyyət haqqında Şah Səfiyə məlumat çatdırırdı (118).

İsgəndər bəy Münşi tərəfindən Bağdad qalasının müdafiəsinin təşkili, Osmanlı qoşunlarına qarşı mübarizənin aparılması, qüvvələrin necə bölünməsi və idarə edilməsi haqqında çox kəsad məlumat mövcuddur. Çox güman ki, Bağdad qalasının süqut etməsi və Osmanlı qüvvələrinin əlinə keçməsi İsgəndər bəyin də ruh düşkünlüyü ilə qarşılaşmış və ona görə də bu məsələyə müxtəsər diqqət ayırmışdı. Az-çox mövcud olan məlumatlardan isə Səfəvi qoşunları rəhbərliyinin çevik və fərqli bir taktika işlətməsi ilə rastlaşmaq mümkün deyildir. Çünki böyük say və texniki üstünlüyə malik olan Osmanlı qoşunlarına qalib gəlmək üçün daha səmərəli bir taktikanın işlədilməsinə ehtiyac var idi. Sultan Murad isə nəyin bahasına olursa-olsun Bağdadın ələ keçirilməsini qarşısına məqsəd qoymuşdu və bunun üçün hətta bir ildən də çox məqsədyönlü hazırlıq işləri aparmışdı. Yəni Sultan Murad öz səltənətini bütünlüklə Bağdadın ələ keçirilməsinə səfərbər edə bilmişdi. Görülən hazırlıq işlərinin və Bağdada doğru hərəkətin son mərhələsi havaların soyuduğu bir vaxta təsadüf edirdi. Bu şərait qoşunların hərəkətinə də, onlar üçün ehtiyatlar toplanmasına da, həmin ehtiyatların və təchizat vasitələrinin nəqlinə də böyük çətinliklər yaradırdı. Bununla belə, Osmanlı sultanı öz inadından və qarşıya qoyduğu məqsədə çatmaqdan imtina etmədi.

Osmanlı qoşunlarının Bağdada doğru irəlilədiyi vaxt topların daşınması ilə bağlı da çətinliklər ortaya çıxdı. Belə ki, havaların soyuması, yolların qarla örtülməsi və hərəkət çətinlikləri üzündən topları daşımalı olan yük heyvanlarının çoxu tələf olmuşdu. Həmin çətinliyin aradan qaldırılması üçün topların çay yolu ilə Bağdad yaxınlıqlarına daşınması təklif olundu. Amma Osmanlı qüvvələrinin çay donanmasının rəhbəri bunun çox təhlükəli olduğunu bildirdi. Çünki toplar gəmilər vasitəsilə daşındığı zaman qızılbaş

dəstələrinin hücumuna məruz qala bilərdi. Bununla, bütün osmanlı qoşunları toplardan məhrum ola bilərdilər. Ona görə də qərara alındı ki, topların yalnız bir hissəsi gəmilərlə daşınsın. Qalan topların isə quru yolla daşınması məsələsi həll edilsin (119).

1638-ci il oktyabr ayının 8-də Osmanlı qoşunları Mosul şəhərinə yetişdi. Bu şəhər-qala Bağdaddan əvvəlki ən böyük məntəqə idi və burada Osmanlı qoşunlarının Bağdad üzərinə hücum üçün hazırlıq, təkmil və təchizat işləri bir daha yoxlanıldı. Mosul şəhərində zəruri dayanacaq və istirahətdən sonra qoşunlar Bağdada doğru hərəkətlərini davam etdirdilər. Bu qoşunlar IV Muradın rəhbərliyi altında 1638-ci il noyabr ayının 14-də Bağdad yaxınlığında yerləşən İmam Kazım türbəsinə yetişdilər. Orada Osmanlı sultanının rəhbərliyi altında Bağdad üzərinə hücumun necə təşkil edilməsi ilə bağlı toplantı keçirildi. Toplantıda bütün paşalar, ağalar, qoşun başçıları və digərləri iştirak edirdilər. Toplantıda qala üzərinə hücumun təşkili üçün bir sıra məsələlər müzakirə edildi. Lakin həmin toplantıda hücumun nə zaman və hansı istiqamətdən təşkil edilməsi ilə bağlı konkret qərar qəbul edilmədi (120).

Bir məlumata görə, noyabr ayının 14-də Sultan Muradın rəhbərliyi altında keçən toplantıda sədr-əzəm Təyyar Mehmet paşa dinib-danışmadı. Toplantıdan sonra Osmanlı sultanı onu yanına çağırtdırdı və Bağdad üzərinə hücumla bağlı nə üçün öz fikrini açıqlamamasını ondan soruşdu. Təyyar Mehmet paşa isə bildirdi ki, qəsdən toplantıda bu məsələ ilə bağlı öz fikrini açıqlamadı. O, ehtiyat edirdi ki, toplantı iştirakçılarından kimsə qəbul edilən qərarı ağzından qaçırar və bu barədə məlumat Səfəvi qoşunları rəhbərliyinə də çata bilərdi. Sultan Murad baş vəzirin bu fikrini təqdir etdi və onlar ikilikdə Bağdad qalası üzərinə hücumun bir sıra detallarını müzakirə edərək lazım olan qərarları qəbul etdilər. Elə həmin gün sədr-əzəm Mehmet paşa, suüstü qüvvələr kapitanı Mustafa paşa, Silahdar Mustafa paşa, yeniçəriağası Həsən ağa Bağdad qalası ətrafına yollandılar, qala ətrafının kəşfiyyatını apardılar, top mövqeləri üçün istehkamların yerlərini müəyyənləşdirdilər. Bu paşalar öz qənaətlərini Sultan Murada da çatdırdılar. Sə-

həri gün, noyabr ayının 15-də Sultan Murad özü də Bağdad qalası ətrafına yollandı, qoşunların yerləşdirilməsi imkanlarını gözdən keçirdi. Elə həmin gün Osmanlı qoşunları Bağdad qalasına bir qədər də yaxınlaşdılar və İmam Əzəm türbəsi yaxınlığında düşərgə saldılar. Osmanlı qoşunları Üsküdardan hərəkətə başlamasından 197 gün sonra Bağdad ətrafına yetişə bilmişdi. Döyüşqabağı düşərgə İmam Əzəm türbəsi ətrafında salınsa da, Sultan Murad bu müqəddəs məkanın ziyarətinə yollanmadı. Bir məlumata görə, Sultan Murad niyyət etdi ki, Bağdad qalasının fəthi ona nəsib olarsa, onda İmam Əzəm türbəsinin ziyarətinə yollanacaqdır (121).

Osmanlı qoşunlarının artıq Bağdad üzərinə hücum təcrübəsi var idi. Ona görə həmin təcrübənin dərslərinin nəzərə alınması məqsədəuyğun sayılırdı. Sədr-əzəm Təyyar Mehmet paşa şəhər üzərinə qala divarlarının "Qaranlıq qapısı" istiqamətindən, Hafiz Əhməd paşa isə "İmam Əzəm qapısı" istiqamətindən hücum edilməsini məsləhət bildi. Xosrov Əhməd paşa isə bildirdi ki, əvvəllər bu qapılar istiqamətindən hücumlar baş verdiyi üçün həmin qapılar kifayət qədər möhkəmləndirilmişdir. Ona görə də o təklif etdi ki, hücum "Ağ qapı" istiqamətindən həyata keçirilsin (122).

Bütünlükdə, Bağdad qalasının beş qapısı (darvazası) var idi. Adları çəkilən qapılardan başqa bu qalanın Cisr qapısı və Tilsim qapısı da var idi. Bağdad qalası dövrün və bölgənin ən möhkəm qalalarından biri idi. Bu qala böyük bir şəhəri əhatə edirdi və ona görə qala divarlarının uzunluğu da xeyli çox idi. Mənbələrdə qalmış məlumatlara görə, qala divarlarının uzunluğu 27 309 addım idi. Ölçü vahidinə çevirəndə isə Bağdad qalasının divarlarının uzunluğu 20 kilometrdən çox idi. Qala Dəclə çayının şərq sahilində yerləşirdi. Çayın qala yanından keçməsi həm onun müdafiəsini gücləndirirdi, həm də qala sakinlərinin suya olan ehtiyacını ödəyirdi. Qala divarlarının 211 bürcü və 11 min mazğalı var idi. Bürclərdə böyük silahlar və çoxlu sayda silahlı yerləşdirmək mümkün idi. Mazğallar isə əsasən tüfəngçilər və ox atanlar üçün nəzərdə tutulmuşdu. Hər mazğalda iki tüfəngçi və bir ox atan dayana bilirdi. Bir qayda olaraq bir mazğalda dayanan döyüşçülərə iki nəfər

də ehtiyat verilirdi. Bütün mazğallarda mümkün olan döyüşçülər yerləşdirilsəydi, onda Bağdad qalasının divarlarının müdafiəsinə 50-60 minlik bir qoşun çıxarmaq mümkün idi. Belə böyük sayda olan qüvvə qalanın müdafiəsinin etibarlılığını daha da artırırdı. Qala divarlarının müdafiə imkanlarını həm də divarlar boyunca çəkilmiş xəndəklər artırırdı. Divarlar boyunca bir-birinə paralel şəkildə üç xəndək qazılmış və onların hər biri də su ilə doldurulmuşdu. Bu xəndəklərdən biri əsas xəndək, digər ikisi isə köməkçi xəndəklər idi. Əsas xəndəyin eni beş metr idi. Dərinliyi isə bəzi yerlərdə beş metr, bəzi yerlərdə də iki metr idi. Digər xəndəkləri dərinliyi isə nisbətən az idi. Bu xəndəklər su ilə doldurulanda hücum edən qüvvələrin hərəkəti ya mümkünsüz olur, ya da kifayət qədər məhdudlaşırdı. Qala divarının özünə gəlincə isə onların hündürlüyü ortalama təxminən 25 metr idi. Bürclər olan yerdə isə qala divarlarının hündürlüyü 45 metrə çatırdı. Bağdad qalası üzərinə "Ağ qapı" istiqamətindən hücum edilməsi qala müdafiəçiləri üçün gözlənilməz seçim idi. Çünki bu qala su ehtiyatlarından uzaq idi və ona görə hücum istiqaməti kimi az ehtimal edilən idi. "Qaranlıq qapı" istiqamətindən 1625-ci ildə Hafiz Əhməd paşanın rəhbərliyi altında, "İmam Əzəm qapısı" isə 1630-cu ildə Xosrov paşanın rəhbərliyi altında hücuma məruz qaldığından şəhər hakimi tərəfindən həmin qapılar istiqamətində əlavə möhkəmləndirmə işləri görülmüşdü. "Ağ qapı" istiqaməti isə əvvəlki kimi qalmışdı. Ona görə Bağdad qalası üzərinə əsas hücum da bu qapı istiqamətindən həyata keçirildi (123).

Sultan Murad Bağdad qalasının ələ keçirilməsində o qədər qərarlı idi ki, qoşunlara istirahət vaxtı ayrılmadı və dərhal qalanın mühasirəsinə yönləndirildi. Beləliklə 1638-ci il noyabr ayının 15-də Bağdad qalası Osmanlı qoşunları tərəfindən mühasirəyə alındı. "O döyüş meydanlarının başı ucaldılmış sərdarı Sultan Murad həzrətləri, Allah rizası üçün qəzavat niyyəti ilə Bağdad səfərinə əzimət etdilər. Üsküdardan mənzil-bimənzil Konyaya daxil oldular. Buradan yenə mənzilləri qət edərək və mərhələlər aşaraq Bağdada çatdılar. Dəclə çayının sahilləri çadırlarla doldu. Düşməndən

intiqam alan islam əsgəri Bağdad qalasını əhatə etdi. O gün səngər əhlinə bel və kürək verildi. Bütün işlər görüləndən sonra səngərə girdilər. Səhər erkən islam əsgərləri təkbir sədalarını göylərə çıxardaraq, dörd tərəfdən balyeməz topları atəşə verdilər" (124).

İbrahim Peçevi isə Bağdad qalasının mühasirəyə alınmasını və topların qala divarları ətrafında yerləşdirilməsini belə təsvir edirdi: "Uğurlu bir saatda Bağdad yanına varıldığı zaman İmam Əzəm həzrətlərinin – uca Tanrının rəhməti onun üzərinə olsun – təmiz məzarı yanında padşahın otağı quruldu. Padşah vaxt itirmədən səngərlərə getdi. Sədr-əzəm Təyyar Mehmet paşa böyük qala qapısına istehkam qurdu və həmin istehkama on iki balyeməz top yerləşdirildi. İkinci istehkama Kapudan Mustafa paşa girdi. Doqquz böyük top da burada mövqe tutdu. Ondan sonra Dəli Hüseyn paşa deyilən və "ər" ləqəbi ilə anılan Hüseyn paşa istehkam qurub içinə səkkiz top yerləşdirdi. Diyarbəkr bəylərbəyi olan Dərviş paşa isə Əcəm bürcü kimi tanınan böyük qüllə qapısına dörd balyeməz top qoydu. ...Silahdar paşa Bağdadın qarşısındakı Quşlar qalasına doqquz top yerləşdirdi. Buradan o, Bəktaş xanın və digər İran irəli gələnlərinin oturduqları məkanları vururdu. Rumeli bəylərbəyliyindən ayrılmış gürcü Mehmet paşa ilə Misir bəylərindən Əbu İşvara Rizvan qaraqol vəzifəsi ilə Qaranlıq qapıya təyin edilmişdi" (125).

Osmanlı qoşunları Bağdad qalasını mühasirəyə alandan dərhal sonra qala divarları üzərinə hücumlar başladı. Qalanın fəth edilməsi üçün əsas ümidlər divarlar altından lağım atılmasına və qala divarlarının top atəşinə tutulmasına bağlanmışdı. Ona görə də həm lağım işlərinə başlandı, həm də qala divarları davamlı top atəşlərinə hədəf oldu. Lağım işlərinin aparılmasına qaladan təxminən iki kilometr aralıdan başlanmışdı və nəzərdə tutulmuşdu ki, enli lağımlar açılsın. Çünki qala müdafiəçiləri divarlar üzərində yerləşdirdikləri toplar vasitəsilə Osmanlı döyüşçülərinin yaxınlaşmasına imkan vermirdilər. Eyni zamanda Osmanlı dəstələrinin top mövqeləri də qala divarları üzərindən atəşə tutulurdu. Top mövqelərinin dağıdılmasının və topların məhv edilməsinin qarşısını al-

maq üçün Osmanlı döyüşçüləri ağac tirlərindən sipərlər düzəldir və onları topların qarşısında yerləşdirirdilər (126). Qarşılaşdıqları itkilərə baxmayaraq Osmanlı paşaları inadla irəliləməkdə davam edirdilər. Bunun nəticəsi idi ki, gün ərzində qala ətrafında şiddətli döyüşlər gedirdi.

Bağdad üzərinə hücumun qətiyyətini artırmaq üçün Osmanlı sultanının əmri ilə ətraf məntəqələrin də nəzarət altına alınması aparılırdı. Lakin bu plan da asanlıqla həyata keçmirdi. Məsələn, məlumdur ki, Bağdad qalasının mühasirəyə alınması ərəfəsində Ərdəlanın nəzarət altına alınmasına cəhd göstərildi. Bunun üçün 2-3 paşanın rəhbərliyi altında Ərdəlana qoşun dəstəsi göndərildi. Ərdəlandakı qızılbaş dəstəsi sayının az olmasına baxmayaraq, Osmanlı dəstəsinə ciddi müqavimət göstərdi. Nəticədə, Osmanlı dəstəsinə güclü zərbə vuruldu. Bu dəstəyə itkilər yetirildi və bir neçə Osmanlı döyüşçüsü də əsir götürüldü (127).

Bağdad qalası ətrafında isə döyüşlərin gərginliyi günü-gündən artırdı. Belə bir gərginlik zamanı döyüşçülərin əhval-ruhiyyəsinin qaldırılması üçün IV Murad səngərlərə yollanır və döyüşlərin gedişi ilə maraqlanırdı. Döyüşdə yaralananlara isə Osmanlı sultanı maliyyə yardımı göstərir və bununla kimsənin qayğıdan kənar qalmayacağını nümayiş etdirirdi. O öz döyüşçülərini "Din-i mübin uğrunda səy və qeyrətinizdə qüsur etməyəsiniz, qeyrət vaxtıdır" – deyə ruhlandırırdı. Qala divarlarının vurulması gözlənilən nəticəni verməyəndə Osmanlı sultanının göstərişi ilə torpaq təpələr düzəldildi və həmin təpələrdən qala daxili atəşə tutuldu. Osmanlı dəstələrini bu zərbələrinin qarşısını almaq üçün qala müdafiəçiləri çevik dəstələrlə qala xaricinə çıxır və Osmanlı mövqeləri üzərinə sürətli hücumlar təşkil edirdilər. Qızılbaş döyüşçüləri qalanın Əcəm bürcündə yerləşdirdikləri toplarla Anadolu bəylərbəyi Hüseyn paşanın istehkamını atəşə tutdular. Nəticədə xeyli sayda Osmanlı döyüşçüsü dünyasını dəyişməli oldu. Belə olanda Əcəm bürcünü vurmaq üçün əlavə toplar cəlb edildi və həmin topların atəşləri ilə qala müdafiəçilərinin top atəşlərinin qarşısını almaq mümkün oldu (128).

Bağdad qalasının mühasirəsi başlananda Osmanlı qoşunlarının bütün topları hələ gəlib bu qala ətrafına yetişməmişdi. Mühasirənin təxminən 20-ci günü Hələbdən göndərilən toplar Bağdad ətrafına yetişdi və onlar dərhal qalanın mühasirəsinə cəlb edildilər. Sonrakı günlərdə daha bir neçə əlavə top Bağdad ətrafına gətirildi və bunun nəticəsində qala divarları daha sürəkli şəkildə atəşə tutuldular. Qala mühasirəsinin daha da güclənməsini görəndə, Bəktaş xan kömək üçün Şah Səfinin yanına çaparlar göndərdi. Bu çaparların bəziləri Osmanlı döyüşçüləri tərəfindən ələ keçirildi və onlar qala müdafiəçilərinin görə biləcəyi bir yerdə qətlə yetirildi. Bununla belə, özünü şah düşərgəsinə yetirənlər də var idi. Şah Səfi qala müdafiəçilərinə kömək göstərməyə çalışırdı. Osmanlı mənbələrinə görə, qala daxilindəkilərə böyük sayda bir qızılbaş dəstəsi köməyə gəlmişdi (129). Lakin bu məlumat inandırıcı görünmür. Çünki Bağdad qalası elə bir güclü mühasirəyə alınmışdı ki, onun daxilinə yol tapmaq mümkün deyildi.

Qalanın müdafiəsi yalnız qala daxilindəkilərin ümidinə qalmışdı. Mövcud olan imkanlar daxilində mühasirənin yarılması və qalanın müdafiəsi üçün mümkün tədbirlər həyata keçirilirdi. Başlıca diqqət sözsüz ki, divarlar üzərində yerləşdirilmiş toplar və tüfəngçilər vasitəsilə Osmanlı qüvvələrinin atəşə tutulmasına yönəldilmişdi. Bəzi məlumata görə, qalanın müdafiəsində qala qadınları da iştirak edirdilər. Onlar qala divarlarına yaxınlaşmaq istəyən Osmanlı döyüşçülərinin üstünə qaynar su tökürdülər. Qalanın kişi sakinləri isə qala divarları üzərindən Osmanlı döyüşçüləri üzərinə ağır daşlar və neft ilə yandırılmış şamlar atırdılar. Qala müdafiəçiləri hətta qala divarları altından qala xaricinə lağım ataraq ətrafda gedən döyüşlərə qoşulur və hər vasitə ilə qala ətrafındakı müdafiə xəndəklərinin Osmanlı qüvvələri tərəfindən doldurulmasına mane olurdular. Tərəflər arasında gedən döyüşlər elə gərgin bir xarakter almışdı ki, hətta sədr-əzəm Təyyar Mehmet paşa da həmin döyüşlərin gedişində dünyasını dəyişdi. Onun həyatını itirməsini IV Murad "Təyyar, Bağdad qalası kimi yüz qalaya dəyərdi" – deyə böyük bir hüznlə qarşıladı. Elə Bağdad qal-

asının mühasirəsinin gedişində də Osmanlı sultanı tərəfindən Qara Mustafa paşa sədr-əzəm vəzifəsinə təyin edildi (130).

Verilən itkilərə baxmayaraq IV Murad Bağdad qalasının ələ keçirilməsi üçün inadkarlıq və qətiyyət nümayiş etdirdi. Qala müdafiəçiləri isə göstərdikləri fədakarlıqlara baxmayaraq günü-gündən daha ağır vəziyyətlə qarşılaşmalı oldular. Bunun üçün idi ki, qala müdafiəçiləri arasında təslimçilik ruhu yaranmağa başladı. Getdikcə daha da aydın olurdu ki, Osmanlı qoşunlarının mühasirəsini yarmaq heç də asan olmayacaqdır. Qala hakimi Bəktaş xan isə belə meyllərin tərəfdarı deyildi. O təklif etdi ki, qalanı çətin vəziyyətdən çıxarmaq üçün divarlar altından böyük lağım atılsın və qala daxilində olan qızılbaş qüvvələrinin Osmanlı qüvvələri üzərinə ümumi hücumu təşkil edilsin. Güman edilirdi ki, çevik bir hücumun həyata keçirilməsi ilə Osmanlı qüvvələrinə ağır bir zərbə vurmaq və onların gücünü zəiflətmək mümkün olacaqdır. Lakin qala daxilində olan əmirlərin və qoşun başçılarının heç də hamısı bu təklifi dəstəkləmədilər. Hətta qalanın müdafiəsini dayandıraraq təslim olmağı təklif edənlər də oldu. Lakin ilkin müzakirələrdə bu təklif qəbul olunmadı (131).

Qalanın müdafiəsinin davam etdirilməsi qərara alındı. Döyüşlər bir müddət də davam etdi. Bəllidir ki, bu döyüşlərin gedişində Osmanlı silahlıları bəzi vaxtlar qala divarları üzərinə və bürclərə dırmaşa bilmişdilər. Lakin qala müdafiəçiləri onların qarşısını almış və qala daxilinə yol tapmalarına imkan verməmişdilər. Bununla belə, qala müdafiəçilərinin gücü tükənməkdə idi və bu barədə Osmanlı paşalarında da məlumat var idi. Müdafiənin 39-cu günü qala üzərinə ümumi bir hücum təşkil edildi. Osmanlı paşaları əmin idilər ki, bu ümumi hücumla qala daxilində gücləri tükənməkdə olan qarnizon təslim olmağa məcbur ediləcəkdir. Həmin gün həyata keçirilən ümumi hücumla Bağdad qalasının taleyini həll etmək mümkün oldu. Bəktaş xan və onun ətrafındakılara aydın oldu ki, qalanı müdafiə etmək artıq mümkün olmayacaqdır. Bununla bağlı, Bəktaş xanın yanında toplantı keçirildi və Bəktaş xan bildirdi ki, mühasirənin davam etdiyi günlərdə on

beş min döyüşçü qətlə yetirilmişdir. Qalanın müdafiəsi üçün yetərli qüvvə olmadığı üçün Bəktaş xan təslim olmağı təklif etdi. Bu zaman çərxçibaşı Xələf bəy Şah Səfinin bir məktubunu toplantı iştirakçılarına göstərdi. Osmanlı mənbələrində mövcud olan məlumata görə, Şah Səfi böyük itkilərin qaçılmaz olacağı təqdirdə Bağdad qalasının təslim edilməsini mümkün sayıbmış. Bəktaş xan belə bir məktubun gizlədilməsinə görə, Xələf bəyə öz narazılığını bildirdi. Amma bu toplantıda müqavimətin davam etdirilməsini istəyənlər də oldu. Belə bir fikir irəli sürüldü ki, havaların daha da soyuması Osmanlı qoşunlarının vəziyyətini çətinləşdirə və nəticədə qalanın müdafiəsi üçün əlavə fürsətlər yarada bilər (132).

Şah Səfi tərəfindən böyük itkilərə yol verilməməsi üçün Bağdadın təslim edilməsi haqqında qərar verməsi inandırıcı görünmür. Çünki hadisələrin şahidi olan Məhəmməd Məsum İsfahaninin yazdığına görə Bağdad qalasının təslim edilməsi xəbəri alınanda Şah Səfi çox qəzəbləndi (133). Bir məlumata görə, 1638-ci il dekabrın 25-də (134), bir məlumata görə isə 1639-cu il yanvar ayının 2-də (135) Bağdad qalası süqut etdi.

Bir Səfəvi qaynağında olan məlumata görə, Bağdad qalasının ələ keçirilməsi satqınçılıqla bağlı idi. Bildirilir ki, qala əyanlarından biri ona verilən tapşırığın icrası ilə bağlı qala kənarına çıxan kimi Osmanlı döyüşçüləri tərəfindən əsir götürüldü. Osmanlı sultanının sorğu-sualı qarşısında həmin adam qalanın müdafiəsinin daha zəif sahələri barədə bildiklərini açıqladı. Onun sözlərinə görə, qalanın mühasirəsi düzgün qurulmamışdı. Qalanın bir tərəfi su mənbəyindən uzaq olsa da hücum üçün daha əlverişli imkanlara malik idi. Çünki həmin tərəfdə qala müdafiəsi daha zəif idi və Bəktaş xan həmin tərəfə lazımi diqqət yetirməmişdi. Həmin istiqamətdən hücum edilməsinin daha səmərəli ola biləcəyi üçün Osmanlı sultanı dərhal mövqelərin dəyişdirilməsi haqqında göstəriş verildi. Bu məlumatdan belə bir qənaət hasil olur ki, Ağ qapı istiqamətində Osmanlı qüvvələri mühasirənin sonlarına yaxın mövqe tutmuşdular və bu da onların uğuruna yol açmışdı. İstinad olunan mənbənin müəllifi, qalanın müdafiəsi zamanı qala müda-

fiəçiləri tərəfindən məsuliyyətsizliyə yol verildiyini bildirir və bu, qalanın təslim edilməsinin əsas səbəblərindən biri kimi təqdim olunurdu (136).

Səfəvi mənbələrində Bağdad qalasının təslim edilməsinə görə, Bəktaş xan ittihamlandırılmışdır. Bu mənbə müəlliflərinin fikrincə, Bəktaş xan qətiyyət və təşəbbüskarlıq göstərəcəyi halda Bağdad qalasını qoruyub saxlamaq mümkün idi. İsgəndər bəy Münşinin fikrincə, çərxçi vəzifəsi tapşırılmış süfrəçibaşı Xələf bəy də Bəktaş xanla birlikdə qala müdafiəsinin dayandırılmasına tərəfdar oldu. Müəllif Bəktaş xanı nadan və abırsız bir əmir kimi xarakterizə edirdi və qalanı təhvil verməyi onun üçün ar bilirdi. Təfərroşi isə öz əsərində Bəktaş xanı Bağdadın sabiq bəylərbəyi Səfiqulu xanla müqayisə edirdi. Müəllif yazırdı ki, 1630-cu ildə Xosrov paşanın rəhbərliyi altında Osmanlı qoşunlarının Bağdad qalasını fəth edə bilməməsi Səfiqulu xanın təşkilatçılığından irəli gəlirdi. Səfiqulu xan qalanın müdafiəsini məntiqli şəkildə qurmaqla yanaşı, bütün günü müdafiə mövqelərini gəzir, müdafiənin daha da möhkəmləndirilməsi imkanlarını arayır və vaxtaşırı kiçik dəstələrlə qala xaricində Osmanlı qüvvələrinin üzərinə hücumlar edirdi. Bu hücumlar nəticəsində kifayət qədər Osmanlı döyüşçüsü qətlə yetirilmişdi. Həmin hücumlar nəticəsində baş verən itkilərin sayı o qədər artdı ki, sonda Xosrov paşa qala ətrafında dayanmağı mənasız sayıb oradan uzaqlaşmalı oldu. Təfərroşi şübhə etmirdi ki, Səfiqulu xan Bağdad hakimi olsaydı, onun tədbirliliyi nəticəsində Osmanlı qoşunları bu qalaya sahib ola bilməzdilər. Adı çəkilən müəllif də bildirirdi ki, Bağdad qalasının süqut etməsini Şah Səfi böyük üzüntü il qarşıladı. O hətta ətrafında olan qoşun dəstəsi ilə Bağdad qalası üzərinə getmək də istəyirmiş. Lakin əmir və əyanları Şah Səfinin Bağdad üzərinə getməsini məqsədəuyğun saymadılar (137).

İsgəndər bəy Münşinin yazdığına görə, Bəktaş xan qalanı təhvil vermək qərarına gələndə öz adamlarından birini Osmanlı sədrəzəmi yanına göndərdi və təslim olmaq qərarını ona çatdırdı. Sultan Murad bundan xəbər tutunca, Bəktaş xanın özünün qaladan

çıxmasını tələb etdi. Bəktaş xan da məcburiyyət qarşısında qalıb qalanı tərk etdi. Bundan sonra Osmanlı sultanı fərman verdi ki, qala daxilndəkilərin malı və canı mühafizə altına alınsın və Osmanlı döyüşçülərindən kimsə onların malı və həyatı üçün təhlükə yaratmasın. Amma bu fərmana əməl edilmədi. Osmanlı qoşunları qala daxilinə yol tapan kimi Bağdadın müdafiəsində dayanmış bütün əmirlər və əyanlar həbs edildilər. Sonra da şəhər əhalisinin qarət və talan edilməsinə başlandı. İsgəndər bəyin yazdığına görə, bu hal geniş xarakter aldı. Osmanlı qoşunlarının amansızlığını görəndə bir dəstə qızılbaş döyüşçüsü qala bürclərindən birinə çəkilib təslim olmadılar. Bu dəstəyə Mirkəlan adlı tüfəngçilər minbaşısı və Muradxan bəy adlı bir qızılbaş rəhbərli edirdilər. Həmin dəstə üç gün ərzində müqaviməti davam etdirdi. Dəstə üzvləri bildirdilər ki, nə qədər ki, sağdırlar onlar təslim olmayacaqlar. Bu xəbər Sultan Murada da çatdı. O da bir nəfəri həmin dəstə üzvlərinin yanına göndərdi ki, müqavimətin dayandırılması onlara təklif olunsun. Üç gündən sonra dəstənin sursatı və ərzaq ehtiyatı tamamilə sona çatdı. Yəni dəstə üzvlərinin də əslində, müqavimət göstərmək imkanı tükənmişdi. Ona görə müqavimət dayandırıldı. Lakin bu dəstənin üzvləri Osmanlı qüvvələrinə təslim olmadılar. Onlar fürsət tapıb mühasirədən çıxdılar və şah düşərgəsinə yollandılar. İsgəndər bəy bu dəstə üzvlərini Bəktaş xanla müqayisə etmişdir. O göstərirdi ki, bu dəstənin üzvləri öz şahlarına sədaqət nümayiş etdirib müqaviməti dayandırmadıqları və təslim olmayaraq şah düşərgəsinə yollandıqları halda, Bəktaş xan daha çox öz həyatını önə çəkdi. Ona görə də qalanın müdafiəsi lazım olduğu kimi təşkil edilmədi (138).

Məhəmməd Məsum İsfahani təslim olunanlar sırasında Bəktaş xandan başqa Xələf bəyin, Nəğdi bəyin, Mirfəttahın da adlarını çəkirdi. O da yazırdı ki, Bağdadda olan qızılbaş döyüşçülərinin heç də hamısı Osmanlı qoşunlarına təslim olmadılar. Onların xeyli hissəsi döyüşə-döyüşə qaladan çıxmaq imkanı əldə etdilər. Bu döyüşlülərin bir hissəsi sadəcə canlarını xilas edib ətrafa dağıldılar, bir hissəsi isə şah düşərgəsinə yollandılar (139).

Osmanlı mənbələrində öz əksini tapmış məlumata görə, Bağdad qalasının təslim edilməsinə razılıq xəbəri sədr-əzəm Mustafa paşaya çatdırılanda o bu barədə Osmanlı sultanına ərz elədi. IV Murad da Mustafa paşa ilə bu barədə məsləhətləşmə apardı və qərara alındı ki, qala daxilinə Osmanlı nümayəndəsi göndərilsin. Bu vəzifə çavuşbaşı Duraq ağaya və Niğde sancaqbəyi Həsən paşaya həvalə edildi. Onlar özləri ilə sultanın amannaməsini də aparmalı və qala daxilindəkilərə aman verilməsini Bəktaş xana çatdırmalı idilər. Osmanlı nümayəndələri Bəktaş xana çatdırmalı idilər ki, əgər o, qala xaricinə çıxaraq özünü təslim etməsə, onda hücum davam etdiriləcəkdir. Bəktaş xan irəli sürülən tələblə razılaşmalı oldu və dekabr ayının 25-də Nəğdi xan Hillə hakimi Əli xanla birlikdə Bağdadın İmami-əzəm darvazasından şəhəri tərk etdilər. Onlar əvvəlcə Osmanlı sədr-əzəminin çadırına müşayiət olundular. Sonra Bəktaş xan və onu müşayiət edən adamlar sıra ilə düzülmüş Osmanlı döyüşçülərinin qarşısından keçərək sultan çadırına daxil oldu. Bağdad hakimi Osmanlı sultanı hüzurunda qalanı təslim etməyə hazır olduğunu bildirməklə, qala müdafiəçilərinə aman verilməsini xahiş etdi. Osmanlı sultanı bu xahişi qəbul etdi və eyni zamanda tələb irəli sürdü ki, gün ərzində bütün silahlılar qalanı tərk etsinlər. Osmanlı sultanı onu da bildirdi ki, silahını yerə qoyub getmək istəyənlərə Qaranlıq qapıdan çıxmaqla şəhəri tərk etmək imkanı veriləcəkdir. Müqaviməti davam etdirmək istəyənlər isə məhv edilməli idilər. Bəktaş xan sultan çadırından çıxdıqdan sonra yenidən sədr-əzəmin çadırına qayıtdı və onu müşayiət edənlərin biri vasitəsilə qala daxilindəkilərə məktub göndərdi. Həmin məktubda Bəktaş xan qala mühafizəçilərinə şəhərin tərk edilməsi zərurətini çatdırdı. Eyni zamanda qala daxilinə bir yeniçəri dəstəsi göndərildi ki, Bəktaş xanın iqamətgahını, Narın qalanı, xan hərəmini, xəzinəsini və cəbbəxanasını nəzarət altına alsın (140).

Osmanlı mənbələri daha sonra bildirirlər ki, qala daxilində qalmış Xələf bəy və tüfəngçibaşı Mirfəttah vaxtın gec olduğu üçün şəhərin bir gün sonra tərk edilməsini mümkün saydılar. Sədr-əzəm

Mustafa paşa buna etiraz etmədi. Bildirilir ki, məhz bu qərar qala daxilində yeni müqavimət ocağının yaranmasına və nəticədə əlavə itkilər baş verməsinə yol açdı. Bu onunla izah olunur ki, qala daxilində sayı on minə yaxın olan qızılbaş döyüşçüsü havanın qaralmağa doğru getdiyi üçün silahlarını təhvil verməkdən imtina etdilər. Çünki şəhər daxilində artıq Osmanlı döyüşçülərinin talanları başlamışdı və qızılbaş döyüşçüləri də qorxurdular ki, silahlarını təhvil verəcəkləri təqdirdə ciddi təhlükə ilə qarşılaşacaqlar. Osmanlı paşalarının və döyüşçülərinin təkidli tələbi isə tərəflər arasında silahlı qarşıdurmaya gətirib çıxardı. Səhərə qədər atışma davam etdi və hər iki tərəfdən xeyli sayda itkilər verildi. Qızılbaş döyüşçülərinin bir qismi şəhəri tərk edərək ətrafa səpələnsələr də, təxminən iki min nəfərlik bir qismi də bir neçə bürcə sığınaraq müqavimətlərini davam etdirdilər. İsgəndər bəy Münşinin haqqında danışdığı dəstə çox güman ki, elə bu dəstə idi. Yəni Osmanlı mənbələri də təsdiq edirdilər ki, qalanın təhvil verilməsi ilə razılaşmayıb müqaviməti davam etdirən qızılbaş döyüşçüləri var idi. Qala bürclərində qızılbaş döyüşçülərinin müqaviməti davam etdirmələri Sultan IV Murada da çatdırılıdı. O da Anadolu bəylərbəyi Hüseyn paşa vasitəsilə qızılbaş döyüşçülərinə xəbər göndərdi, onları təslim olmağa çağırdı. Bildirildi ki, müqavimət dayandırılmayacağı halda qızılbaş döyüşçülərinə şəhəri sağ-salamat tərk etmək imkanı verilməyəcəkdir. Osmanlı mənbələrinin məlumatına görə, qızılbaş döyüşçüləri təslim olmadılar. Ona görə də onlardan kimsə salamat qalmadı və müqavimət zamanı onların hamısı öz həyatlarını itirdilər. Qala daxilində qalan əmirlər və bəylər isə həbs edildilər. Bundan sonra şəhər daxilində talanlar və qırğınlar çox geniş bir miqyas aldı. O qədər insan qətlə yetirildi ki, onların meyitləri küçələrə tökülüb qalmışdı. Həmin meyitlərin toplanıb daşınması üçün günlərcə vaxt sərf etmək lazım gəldi (141).

Osmanlı salnaməçilərindən biri Bağdad qalasının təhvil verilməsini belə təsvir edirdi: "...mühasirənin 40-cı günü qızılbaşlar, bürc və divarlara çıxaraq "əl-aman, ey padşahi-dövran, əl-aman!" – deyə fəryadlar və fəğanlar etməyə başladılar. "Ay aman"larının

sədası səmalarda açıldı. Cahan padşahı tərəfindən onlara rüsxət verildi. Qala zabiti olan Bəktaş xan tərəfindən tanınmış bir adamı sədr-əzəm – Qara Mustafa paşadan amannamə almaq üçün göndərdilər. Tələbləri özlərinə ehsan edildi. Bəktaş xan on nəfəri ilə sədr-əzəmin yanına gəldi. Onu padşahın hüzuruna apardılar. Onun isə qorxudan ürəyi getdi və iki gündən sonra o, həlak oldu.

Sözün qısası padşah Bəktaş xana: "Sən kimsən, nə üçün gəldin? Adın nədir?" – deyə sual buyurduqda, "Padşahım sağ olsun! Bağdad xanı Bəktaş xan qulunuzam! Padşahıma Bağdad qalasını verməyə gəldim və padşahımdan aman istəyirəm!" – dedikdə, Murad xan: "Sənə aman verdim. Axşama qədər Bağdadı təslim etməlisiniz!" – dedi.

Bəktaş xan təkrar dönüb başqa xanlar da can qorxusuna düşdükləri üçün padşahın hüzuruna qayıtmaq düşüncəsiylə bəhanələr gətirdilər. Lakin yenə ertəsi günü qaladan çıxıb padşah həzrətlərinin ayağına üzlərini sürtdülər. Lakin bu vaxtdan sonra qızılbaşlardan bir iyrənc yaradılışlı güruh ilə döyüş oldu. Nəticə olaraq müsəlmanları (Osmanlı döyüşçüləri nəzərdə tutulur – M.S.) şəhid etdilər. Yolda rast gəldikləri müsəlmanları da öldürdülər. Çoxlu at və qənimət apardılar. Bu əhvalat vaqe olduqda, hamısına qətliam fərman olundu. Eyni gündə otuz min qızılbaş qırıldı. Bəktaş xan həlak oldu. Başqa xanlar əsir olundu. Zəncirə vuruldular. Bağdad bu şəkildə ələ keçirildi. Beləliklə, Osmanlı məmləkətləri arasına daxil oldu" (142).

İbrahim Peçevinin əsərində də Bağdad qalasında təxminən 30 min nəfər qızılbaş döyüşçüsünün öldürüldüyü barədə məlumat vardır. Lakin bu məlumatın düzgünlüyü şübhə doğurur. Bu qədər sayda olan döyüşçünün qala daxilində olması özü də real görünmür. Bununla belə, İ.Peçevinin əsərində də Bağdad qalası ətrafında gedən döyüşlərin son anları və Bəktaş xanın Osmanlı sultanından aman diləməsi ilə bağlı maraqlı məqamlar öz əksini tapmışdır: "Vəzir Xəlil paşa belə anladırdı: Aman dilədikləri gündən öncəki gecədə o qədər top və tüfəng atıldı ki, sanki yer ilə göy bir-birinə qarışdı. Məgər aman çağırdıqları sabahın erkən saatlarında bir

qorçularını qala xaricinə çıxarıb sədr-əzəmə göndərmişlər. Tanrıya həmd olsun, istənən oldu deyə savaşmaqdan vaz keçmişlər. Günəş doğmaq üzrə idi. Padşahın hüzuruna girdim və yeri öpərək dualarda bulunduqdan sonra qarşılarında durdum. Aradan bir az zaman keçdi, ağzını açmadılar. Sonunda mən kustaxlığ gözə alaraq gecəliklə aparılan çarpışmalardan söz açdım. Belə buyurdular: "Sən də eşitdinmi? Öyrəndim ki, uyumamısınız. Top səsindən çox üzərimizdə olan əbanın titrəməsi və xışıltısı kəsilmədi. Topun şiddəti nə qədərdir ki, bu qədər uzaqdakı yerə qədər sarsıntısı ulaşır, üzərimdə olan əşya və binaları titrədir. Amma sabahdan bəri səssizliyə girmiş olmanın anlamı nədir? Tez və sürətlə atını atla və mənə bir xəbər gətir". Padşahın otağından çıxar-çıxmaz düşməndən təslim olmaq üçün elçi gəldiyini bildirməklə vəzifələndirilmiş müjdəçiyə rastlaşdım. Amma dönmədim və padşah buyruğuna uyaraq xəbər almağa getdim. Sədr-əzəmin hüzuruna vardığımda gələn elçinin paşanın qarşısında oturduğunu gördüm. Məni görüncə sədr-əzəm "nə xəbərin var, Xəlil ağa" - dedilər. "Sultanım, səadətli və əzəmətli padşahımız buyurdular ki, bu gecədən bəri sürdürülən savaşın indi durdurulmuş olmasındakı səbəb nədir? İranlıların nə qədər qəddar və hiylə icadında nə qədər yetənəkli bir qövm olduğu bilinməzmi? Hafiz paşaya və Xosrov paşaya etdikləri hiylə və oyunlar xatirinə gəlməzmi? Saqın, onların yalanlarına aldanmasın və saxta sözlərinə etibar edib işindən geri qalmasın, buyurdular" – dedim. Sonra sədr-əzəm elçiyə müraciət edərək: "Allah bəlanızı versin, məni əfəndimin qatında azarlanmaya müstəhəqq etdiniz. Toplar atəşlənsin və savaşa davam edilsin" – deyə əmr verdilər. Elçi isə "İstədiyiniz qala deyilmi? İşdə Bəktaş xan da gəldi, bir an daha durun" deyincəyə qədər Bəktaşın da gəldiyini xəbər verdilər və qarşılanmasına adam varsın dedilər. Bəktaş xanı... sədr-əzəmin istehkamına girərkən gördüm. Dərhal padşah hüzuruna qaçdım. Amma bəndənizdən öncə sədr-əzəm həzrətləri Bəktaş xanın çıxmaq üzrə olduğunu və heç bir yerdə dayanmadan doğruca padşahın hüzuruna göndəriləcəyini bildirmiş imiş. Bunun üzərinə Sultan Murad divan əmr etdi. Dərhal başdan-

başa dürlü mücövhərlərlə süslü, altun işləməli ağacdan və abanosdan düzəldilmiş bir taxt gətirdilər. Sultan onun üzərində oturdu. Tacını süsləyən qiymətli almaz və altunların parıltısı yanında günəşin işığı solğun qalır. Sanki otağın içinə günəşin özü gəlmiş kimi görünürdü. Sağ yanında saçları yeni çıxmış, bığları yenicə tərləmiş, güclü, qüvvətli, çevik və döyüşkən, gümüş bədənli, təpədən dırnağa qədər dəmir zirehlər içində və yayları əlində bir neçə yüz dəliqanlı yer almışdı. Sol yanında da yenə eyni durumda o qədər tüfəngçilər dururdu. Bunların hər biri kəskin nişançı olub heç bir atışları hədəfdən yayınmazdı. Bir bölük də mizraqlı süvari var idi ki, ... bir alay üstünə at sürsə hamısını bir-birinə qatardı. Vəzir həzrətləri (Xəlil paşa) buyurdular ki, "hüzurlarına girdiyimdə hər an və hər zaman gözlərinin önündə olduğum halda bu durumu və düzəni görüncə bir sürə şaşırdım və heyran qaldım. Şaşqınlığım keçincə həmən hüzuruna üz tutdum və Bəktaş xanın ora necə gəldiyini anlatdım. O anda Bəktaş xan da gəldi. Osmanlı qanunlarına uyğun olaraq, bir qoluna silahdar paşa və o biri qoluna da qapıçıbaşı girdi. Yeri öpdükdən sonra düzələrək ayaq üstündə dayandı. Padşah ona "sən kimsən?" – deyə sordu. Bəktaş xan "qulunuzam" deyə cavab verdi. "Mənim gədiyimi bilmirdimi ki, bu qədər müqavimət göstərdin?" – sualını da belə cavablandırdı: "Gərçi casuslarımız xəbər verdilər, amma bəziləri bir-birini təsdiq etdilər, bəziləri isə inkar etdilər. Səadətli padşah həzrətləri yaxşı bilirlər, çörəyini yediyimiz vəli-nemətimiz uğrunda gücümüz yetincə vuruşmaq bizim əsas vəzifəmiz idi. Ona görə səadətli padşahın qulları da sizlərin uğrunda eyni xidməti yaparlar. İşdə bir ovuc qanım, başım və canım. Mübarək hüzurunuza gəldim. Dilərsə, əfv etsin, istərsə qətl etsin, fərman padşahındır". Bunun üzərinə padşah Bəktaş xanı əfv etdi və qiymətli bir kürklə bir onur kaftanı geydirdi. Başına qiyməti yüksək olan bir sorğuc və belinə bəzədilmiş bir xəncər bağladılar və yenə sədr-əzəmin çadırına apardılar" (143).

İbrahim Peçevi də yazırdı ki, Bəktaş xan Osmanlı sultanı tərəfindən əfv edildikdən sonra qala daxilində yenidən atışma başladı.

Sədr-əzəm Mustafa paşa bu atışmanın səbəbini yeniçərilərlə qızılbaş döyüşçüləri arasında yaranış anlaşılmazlıq nəticəsində baş verdiyini bəyan etdi. Onun tapşırığına əsasən bir dəstə yeniçəri Bəktaş xanın iqamətgahının mühafizəsinə vəzifələndirilmişdi. Qızılbaş döyüşçüləri isə yeniçərilərin şəhərdə nəzarəti öz əlinə alması ilə barışmamış və bununla da silahlı qarşıdurma yaranmışdı. Əvvəlcə bir neçə yeniçəri öldürülmüşdü. Belə olanda Osmanlı dəstələri qızılbaş döyüşçülərinin üzərinə hücum etdilər. Qızılbaş döyüşçüləri Qaranlıq qapı ətrafında xeyli itki verdikdən sonra həmin qapıdan adlamaqla şəhəri tərk etməli oldular.

Bağdad qalasının ələ keçirilməsi başa çatdırıldıqdan sonra Sultan Murad vəd etdiyi kimi İmam Əzəm türbəsini ziyarət etdi. Sonra Osmanlı sultanı yeni bir toplantı keçirdi, bu toplantıda bütün vəzirlər, paşalar, qazilər əldə edilmiş qələbə münasibətilə sultanı təbrik etdilər. Sultan Murad tapşırıq verdi ki, Bağdadın qala divarları bərpa edilsin, müdafiə qurğuları təkmilləşdirilsin. Yeniçəri ağası Kiçik ağa Bağdadın yeni hakimi təyin edildi. Bağdadın qazısı vəzifəsi isə Musa əfəndiyə həvalə edildi. Osmanlı sultanı bölgəni tərk etməzdən əvvəl Bağdadda başqa bir gərginlik də yaşandı. Belə ki, qala daxilində barıt saxlanılan anbarda güclü partlayış oldu. Nəticədə, xeyli sayda Osmanlı döyüşçüsü və yerli sakin də tələf oldu. Bəzi adamlar bu partlayışın qızılbaşlar tərəfindən törədildiyini iddia etdilər və Sultan Muradı da buna inandıra bildilər. Bundan sonra qızılbaşların və bütünlükdə Bağdadın şiə əhalisinin cəzalandırılması haqqında fərman verildi. Həmin fərmanın icrası nəticəsində şiə məzhəbinə mənsub olanlara qarşı kütləvi qırğınlar tətbiq edildi. Yalnız Bağdad şəhərinin deyil, ətraf məntəqələrin də şiə əhalisi bu qırğınlardan qurtara bilmədilər. Osmanlı sultanı Bağdad yürüşünü uğurla başa çatdıraraq 1639-cu il yanvar ayının 14-də bu şəhəri tərk edib geriyə hərəkət etməyə başladı. Bağdad qalasının mühafizəsi üçün isə sultanın fərmanı ilə 20 min nəfərlik qoşun dəstəsi qalada saxlanıldı. Həmin ilin iyun ayının 12-də IV Murad İstanbula yetişdi (144).

Səfəvi mənbələrinə görə, Osmanlı sultanı Bağdadı tez-tələsik tərk etdi. Bu da Avropa dövlətlərinin Osmanlı dövlətinə qarşı müharibə başlaması haqqında xəbərlərin yayılması ilə bağlı idi. Bundan başqa belə bir xəbər də alındı ki, Osmanlı sultanı IV Muradın qardaşı Sultan İbrahim hakimiyyət iddiasına düşmüş və hətta İstanbulda öz adına sikkə vurdurmaqla xütbə də oxutdurmuşdu. Bu xəbərlər Şah Səfiyə səltənət sipəhsaları Rüstəm xan tərəfindən çatdırıldı. Sultan Muradın Bağdadı tərk etməsindən dərhal sonra Şah Səfinin tapşırığı əsasında Rüstəm xan səltənətin qərb hüdudlarına doğru irəliləməli və bölgədə cərəyan edən hadisələr haqqında ona dürüst məlumatlar çatdırmalı idi. Rüstəm xanın məlumatına görə, Sultan Murad bölgəni tərk edəndə sədr-əzəm Mustafa paşaya Səfəvi sarayı ilə sülh anlaşması əldə edilməsi tapşırığı vermişdi. Mustafa paşa da Şəhrbana çəkilərək iki dövlət arasında sülh anlaşmasının əldə edilməsi imkanlarını aramalı idi (145).

İsgəndər bəy Münşinin fikrincə, Osmanlı sultanı IV Murad qızılbaş qüvvələrinin yenidən hücum çəkəcəyi və Bağdad qalasını geri qaytarmağa çalışacaqlarından ehtiyatlanırdı. İrəvan qalası ətrafında o artıq belə bir aqibətlə rastlaşmışdı və ona görə də Bağdadda çox dayanmayaraq İstanbula doğru hərəkətə başladı. Yeni şəraitdə iki dövlət arasında münasibətlərin tənzimlənməsini isə o, sədr-əzəm Mustafa paşaya həvalə etdi (146).

Mustafa paşa da Osmanlı sultanının geri dönməsindən dərhal sonra öz nümayəndəsini elçi kimi Şah Səfinin yanına göndərdi. Şah Səfi həmin vaxt hələ Tağ Setanda (Bestamda) idi. Mustafa paşa tərəfindən elçilik missiyası Məhəmməd ağa adlı birisinə tapşırılmışdı. Şah Səfinin göstərişi ilə böyük bir dəstə Osmanlı elçisinin qarşılanmasına vəzifələndirildi. Həmin dəstəyə nüfuzlu saray əyanları rəhbərlik edirdilər. 1639-cu il fevral ayının 4-də Osmanlı elçisi Səfəvi düşərgəsinə gətirildi. İsgəndər bəy Münşinin yazdığına görə, Məhəmməd ağa özü ilə Osmanlı sultanının Şah Səfiyə ünvanladığı məktubu gətirmişdi (147). Bir məlumata görə isə, Məhəmməd ağa Mustafa paşanın Şah Səfiyə ünvanladığı məktubu gətirmişdi. Bildirilir ki, Mustafa paşa bu məktubunda Səfəvi şa-

hını baş verən müharibələrin səbəbkarı olmaqda ittihamlandırırdı. Onun yazdığına görə, Səfəvi sarayının niyyəti əsasında əvvəlcə Azərbaycanda, sonra isə Bağdad ətrafında iki dövlət arasında döyüşlər baş verdi. Məktubda yazılana görə, Səfəvi dövləti öz düşmənçilik mövqeyindən əl çəkməyəcəyi halda insan itkiləri hələ davam edəcəkdi. Şah Səfiyə təklif olunurdu ki, Sultan Süleyman və Şah Təhmasibin dövründə iki dövlət arasında qəbul edilmiş sərhəd xətti yenidən əsas götürülsün və bununla iki dövlət arasındakı gərginliyə son qoyulsun (148). Yəni təklif olunurdu ki, Sultan Süleymanla Şah Təhmasib arasında razılaşdırılmış sülh şərtləri əsasında yeni sülh anlaşması qəbul edilsin və tərəflər bu şərtlərə razı olsun.

Şah Səfi yaranmış vəziyyətdə Osmanlı dövləti ilə sülh anlaşması əldə edilməsinin və bunun üçün Bağdadın da güzəştə gedilməsinin tərəfdarı idi. Səltənətin şərq sərhədləri boyunca hind-özbək təhlükəsinin mövcudluğu şəraitində çox güman ki, Şah Səfi Bağdadın geri qaytarılmasının kifayət qədər çətin olduğunu anlayırdı. Sülh anlaşmasının razılaşdırılması isə ən azı səltənətin qərb sərhədləri boyunca gərginliyin aradan qalxmasına gətirə bilərdi. Qarşı tərəf də sözsüz ki, Bağdadın Osmanlı tərkibinə qatılmasını rəsmiləşdirən sülh anlaşmasının əldə edilməsinə tərəfdar idi. Bu anlaşmanın tezliklə əldə edilməsini sürətləndirmək üçün Osmanlı qoşunlarının Səfəvi ərazilərinin içərilərinə doğru hərəkəti də başladı. Bununla, Osmanlı sarayı Səfəvi sarayını təzyiq altına almaq istəyirdi. Osmanlı qoşunları yeni Səfəvi ərazilərinin ələ keçirilməsi istiqamətində elə də ciddi nəticələr əldə edə bilmədilər. Osmanlı qoşun dəstələri Qızıl Rəbat adlanan məntəqədə olarkən Səfəvi sipəhsaları Rüstəm xanın Mustafa paşanın yanına gəldilər. Sülh niyyətinin əsaslı olduğunu nümayiş etdirmək üçün bir müddət əvvəl qızılbaşlar tərəfindən əsir götürülmüş Topal Mehmed ağa da nümayəndələrlə birlikdə yola salındı. Bu nümayəndələrin vəzifəsi yalnız Rüstəm xanın məktubunu çatdırmaq idi. Rüstəm xan da Səfəvi sarayının sülhə maraqlı olduğunu və ən yaxın günlərdə Səfəvi düşərgəsində olan Osmanlı elçisi Məhəmməd ağa ilə

birlikdə şah elçisinin də Osmanlı düşərgəsinə göndəriləcəyini bəyan etdi (149).

1639-cu il aprel ayının 29-da Cilovdarbaşı Məhəmmədqulu bəy Səfəvi elçisi kimi, Mustafa paşanın düşərgəsinə gəldi. Osmanlı elçisi Məhəmməd ağa da onunla birlikdə geri qayıtmışdı. Məhəmmədqulu bəy özü ilə Şah Səfinin Sultan Murada ünvanladığı məktubu da gətirmişdi. Həmin məktubda iki dövlət arasında sülh anlaşmasının əldə edilməsi üçün Səfəvi sarayının təklifləri öz əksini tapmışdı. Şah Səf məktubunda sülh anlaşmasının əldə edilməsinə tərəfdar olduğunu bildirirdi. Mustafa paşa bu məktubla tanış oldu və irəli sürülən təkliflərə münasibətini də bildirdi. Səfəvi şahı ümumən, 1555-ci ildə Amasiyada imzalanan sülh anlaşmasında təsbit edilmiş sərhəd xəttini qəbul etməyə razı idi. Onun fərqli təklifi bu idi ki, Qars qalası ya Səfəvi dövlətinin tərkibinə verilsin, ya da bu qala dağıdılsın. Mustafa paşa bu təkliflə razı olmadı və təkidlə Osmanlı şərtlərinin qəbul edilməsi üzərində dayandı. Hətta Mustafa paşa ilə Məhəmmədqulu bəy arasında bir gərginlik də yarandı. Mövcud olan məlumatlardan belə bir qənaət yaranır ki, Mustafa paşa Səfəvi şahına və Rüstəm xana məktub göndərərək sülh təkliflərini müzakirə etməyə səlahiyyətli olacaq bir elçinin göndərilməsini istədi. Bir məlumata görə isə, Məhəmmədqulu ağa yalnız məktubu çatdırmaq vəzifəsini icra etdiyini və ərazi güzəştləri məsələsinin müzakirəsinə səlahiyyətli olmadığını bəyan etdi. Onda Osmanlı sarayına daha səlahiyyətli olan bir elçilik heyətinin göndərilməsi məsələsi ortaya çıxdı(150).

Mustafa paşa tərəfindən Şah Səfiyə yeni bir məktub yazıldı və şah düşərgəsinə göndərildi. Osmanlı sədr-əzəmi iki dövlət arasında sülhün əldə edilməsinə tərəfdar olduğunu yazırdısa da, həm də Səfəvi şahına müəyyən təzyiq göstərməyə çalışırdı. Mustafa paşa açıq şəkildə bildirirdi ki, sülhün əldə edilməyəcəyi vaxta qədər Osmanlı qoşunlarının Səfəvi ərazilərinin içərilərinə doğru irəliləyəcəyi istisna deyildir. Qarşılıqlı anlaşmanın əldə edilməsi üçün Mustafa paşa öz şərtlərini də məktubda ifadə etmişdi. Həmin şərtlər belə idi – Rüstəm xanın rəhbərliyi altında olan Səfəvi qoşunları

Bağdad istiqamətindən geri çəkilsin və Səfəvi sarayı bütün İraqi-ərəbin Osmanlı dövlətinə güzəştə gedilməsinə razı olsun. Osmanlı sədr-əzəmi həm də sülh anlaşmasının müzakirə etməyə səlahiyyətli olan Səfəvi elçisinin göndərilməsini təklif edirdi. Məktubu göndərəndən sonra Mustafa paşa yazdıqlarının əsaslı olduğunu nümayiş etdirmək üçün qoşunlarla irəliyə doğru hərəkət etməyə başladı. Bu zaman Rüstəm xanın rəhbərliyi altında olan Səfəvi qoşunları Dərtəng adlanan məntəqədə idi. Vəziyyətin daha da gərginləşməsinə yol verməmək üçün Səfəvi qoşunlarını həmin məntəqədən geri çəkilməsi qərarı verildi. Osmanlı qoşunları isə Dərtəngdən də keçməklə 1639-cu il may ayının 10-da Zöhab kimi də tanınan Qəsri-Şirinə gəlib çatdılar (151).

Belə olanda Şah Səfi tərəfindən Sarı xan Talış elçilik heyətinə rəhbər təyin edildi və onun Mustafa paşanın yanına yollanmasına göstəriş verildi. Məhəmməd Məsum İsfahaninin yazdığına görə, Sarı xanın elçi vəzifəsinə təyin edilməsi ərəfəsində Herat hakimi Həsən xan tərəfindən məlumat alındı. Həmin məlumatda bildirilirdi ki, hind hakimləri ilə özbək hakimləri arasında səltənətin şərq ərazilərinin işğal edilməsi üçün əməkdaşlıq etməsi haqqında məlumatlar əldə edilmişdir (152). Yəni səltənətin şərq hüdudları üçün real təhlükə güclənməkdə idi. Bir daha qeyd edilməlidir ki, bu məsələnin özü də Şah Səfini tezliklə Osmanlı sarayı ilə sülh əldə edilməsinə sövq edirdi.

Osmanlı qoşunlarının Qəsri-Şirinə qədər irəliləməsi Səfəvi sarayını sülh müzakirələrinin sürətləndirilməsinə sövq etdi. Əvvəlcə Mustafa paşaya xəbər göndərildi ki, Səfəvi sarayı sülh anlaşmasının əldə edilməsində qərarlıdır və bu istiqamətdə nəticə əldə edilməsi üçün ən yaxın günlərdə səlahiyyətli elçi Osmanlı düşərgəsinə göndəriləcəkdir. Yuxarıda qeyd edildiyi kimi, Sarı xan Talış səlahiyyətli elçi təyin edildi və Osmanlı düşərgəsinə yola salındı. Sarı xan özü ilə Şah Səfinin Mustafa paşaya ünvanladığı məktubu da aparırdı. O, may ayının 12-də Osmanlı düşərgəsinə yetişdi. Sarı xanın qarşılanması üçün rəsmi mərasim keçirildi. Onun Mustafa paşaya təqdim etdiyi məktubda Şah Səfi bildirirdi

ki, Sarı xan onun səlahiyyətli nümayəndəsidir və sülh anlaşmasının şərtləri onunla müzakirə edilə bilər. O da yazılmışdı ki, razılaşdırılmış sülh anlaşmasının mətni Səfəvi düşərgəsinə göndərilsin və həmin mətn şah tərəfindən rəsmən təsdiq edilsin (153).

Şah Səfi Sarı xan vasitəsilə Osmanlı sultanına məktub da göndərdi. Sarı xan İstanbula qədər gedib çıxa bilmədiyi üçün həmin məktubu Osmanlı sultanına Məhəmmədqulu ağa çatdırdı. Səfəvi şahı iki dövlət arasında sülh yaradılmasına tərəfdar olduğunu bildirirdi. Onun fikrincə, sülhün əldə edilməsi bölgə əhalisinin də çətinliklərdən qurtarmasına yola açа bilərdi. Şah Səfi müzakirələrin aparılması üçün Sarı xanı səlahiyyətləndirdiyini və onu Osmanlı düşərgəsinə göndərdiyini də Osmanlı sultanına çatdırırdı (154).

İki dövlət arasında sülh anlaşmasının mətni üzərində müzakirələr Osmanlı tərəfinin təsiri altında aparıldı. Yəni Osmanlı dövlətinin həmin vaxtda daha üstün hərbi gücə malik olması bu dövlətin irəli sürdüyü təkliflərin də qəbul olunmasını təmin etdi. Sülh müzakirələri cəmi üç gün davam etdi. Üç gündən sonra Osmanlı sarayının təklif etdiyi şərtlər əsasında sülh anlaşması hazırlandı və o, Mustafa paşa ilə Sarı xan tərəfindən imzalandı. Bu hadisə 1639-cu il may ayının 17-də Qəsri-Şirində baş verdi. Səhəri gün bu anlaşma Səfəvi elçilik heyəti üzvlərinin biri ilə təsdiq üçün Şah Səfiyə göndərildi. Şah Səfi də dərhal bu anlaşmanı təsdiq etdi və yenidən onu geri qaytardı. May ayının 22-də anlaşmanın Şah Səfi tərəfindən təsdiqlənmiş mətni Mustafa paşaya təqdim olundu. Orada qərara alındı ki, Sarı xan şah düşərgəsinə qayıtsın. O özü ilə Mustafa paşanın məktubunu da aparmalı idi. Osmanlı düşərgəsində olan Məhəmmədqulu ağa isə Osmanlı nümayəndələri ilə İstanbula yollanmalı və sülh anlaşmasının Osmanlı sultanı tərəfindən təsdiq olunmuş nüsxəsini götürərək geri qayıtmalı idi (155).

Tarixi mənbələrdə "Sınırnamə" kimi də xatırlanan Qəsri-Şirin sülh anlaşması Səfəvi-Osmanlı münasibətlərində yeni bir səhifə açdı. Bu anlaşma ilə iki dövlət arasında müharibəyə son qoyuldu və uzun müddət iki dövlət arasında ciddi döyüşlər baş vermədi. Doğrudur, Nadir şahın tarix meydanına çıxmasından sonra Bağ-

dad qısa müddətə geri qaytarıldı. Bununla belə, Qəsri-Şirində əldə edilmiş sülh anlaşması ilə müəyyənləşmiş sərhədlər uzun müddət bölgə dövlətləri arasında qüvvədə oldu və elə indinin özündə də qüvvədə qalmaqdadır. Qəsri-Şirin sülh anlaşması Səfəvi dövlətinin güzəştlərə getməsi üzərində qurulmuşdu. Bu sülh anlaşması Səfəvi dövlətinin maraqlarına cavab vermirdi. Lakin o da nəzərə alınmalıdır ki, Qəsri-Şirin sülh anlaşması imzalananda Şah Səfinin cəmi 29 yaşı var idi. Onun dövlət idarəçiliyindəki təcrübəsizliyi heç şübhəsiz ki belə bir sülhə gedilməsinə öz təsirini göstərmişdi.

İsgəndər bəy Münşinin və Məhəmməd Məsum İsfahaninin əsərlərində "Sınırnamə" deyilən bir sənəd öz əksini tapmışdır. Həmin sənəd iki dövlətin hakimlərinin adından hazırlanmışdır. Bəzi tədqiqatçıların fikrincə isə, Qəsri-Şirin sülh anlaşmasının orijinal nüsxəsi mövcud deyildir. Həmin nüsxə itib-batmış və ya məhv olmuşdur. Bu sənəddə öz əksini tapmış şərtlər isə tarixi mənbələrdə öz əksini tapmış məlumatlar əsasında ortaya çıxmışdır (156).

İsgəndər bəy Münşinin və Məhəmməd Məsum İsfahaninin əsərlərində öz əksini tapmış "Sınırnmə"də iki dövlətin başçıları adından bildirilir ki, sərhəd xətti aşağıdakı qaydada müəyyənləşir və tərəflərə mənsub olan əmir, əyan və ya kimsə bu sərhəd xəttini pozmağa haqqı yoxdur:

-Bağdad ətrafındakı Cəssan və Bədrə Osmanlı dövlətinə verilir;

-Məndlic qəsəbəsi və sərhədi Sərmil olan Dərtəng arasındakı səhra Osmanlı dövlətinə verilir. Bu səhradakı dağ Səfəvi dövlətinə aid olur;

- Sərhəd xətti Sərmil olan Dərtəng və Dərnə Osmanlı dövlətinə verilir;

- Caf və ona aid olan Ziyaəddin və Haruni Osmanlı dövlətinə verilir. Birə və Zərduy Səfəvi dövlətinə qalır;

- Dağ başında olan Zəncir qalası dağıdılır. Həmin qaladan qərb tərəfdə qalan kənd Osmanlı dövlətinə, şərq tərəfdəki kənd isə Səfəvi dövlətinə verilir;

- Zələm qalası və bu qalaya baxan hündür dağ Osmanlı dövlətinə verilir;

- Urman qalası və bu qalaya aid olan kəndlər Səfəvi dövlətinə qalır;

-Sərhədi Gədikçığan olan Şəhrizor, Qızılca və ona aid olan məntəqələr Osmanlı dövlətinə verilir, Mərivan (Mehriban) qalası və ona aid olan məntəqələr Səfəvi dövlətinə qalır;

- Azərbaycan sərhədində olan Qotur, Maku və Məğazberd qalaları dağıdılmalı idi (157).

İsgəndər bəy Münşi öz əsərində Qəsri-Şirin anlaşmasının Mustafa paşa tərəfindən hazırlanmış mətninin Osmanlı dilində olan variantını da vermişdir. Bu mətndə iki dövlət arasında sərhəd xəttinin müəyyənləşdirilməsi belə təsbit olunmuşur: "...Bağdad vilayətində Cəstan, Bədrə və Məndlicin və Dərtəng və Dərnə səadətli padşahımıza müəttəliq olub Məndlicdən Dərtəngə varınca səhra olan məhəllər bu tərəfdən zəbt oluna və dağ şah tərəfinə mütəəlliq oluna və Zəncir qala ki, dağının qalasında vaqe olmuşdur və yıxılıb tərəfi-qərbisində olan köylər canib xudavəndigardan və tərəfi-şərqisində olan qəryələr canibi-şahidən zəbt oluna və Şəhrizor qərbində Zələm qalasının balasında olan dağının qalayi-məzburiyyə nazir olan tərəfi canib padşahidən və qalayi-Urman mütabii olan qəryələr tərəfi-şahidən zəbt oluna və Şəhrizora çıxan gədiki sınır təyin olmuşur. Qızılca qalası və təvabii canibi-əşrəf şahinşahi və Mehriman və tavabi icanibi-şahidən təsərrüf oluna, Dəvan sərhədində Qotur, Makur və Qars canibində Məazbord nam qalalar tərəfindən yıxdırıla məvadi-məzbur mötəbərdən məadə Axısqa və Qars və Van və Şəhrizor və Bağdad və Bəsrənin sair sınıraniyə daxil olan qalalar və bəqaya və nəvahi və ərazi və təlal-cəbal madam ki, şah həzrətlərindən daxil və təərrüz olunmayıb iqazi-fitnəyə bais olacaq halət sadir olmaya. Bu canibindən dəxi səadətli və əzəmətli padşah həmzə bu sülhü məqbul tutub tərəfi-hümayunlarından xilaf əhd və misağ əvvəl tərəfinin sözü olan məhəllərə bu canibdən təərrüz olunmayıb...." (158).

Əldə edilmiş sülh razılaşması Osmanlı sarayının maraqlarını təmin edirdi. Ona görə də bu anlaşma Osmanlı sultanı tərəfindən də təsdiq edildi. Sülh anlaşmasının Osmanlı sultanı tərəfindən təs-

diq edilməsi haqqında xəbər 1639-cu il iyun ayının sonlarında alındı. Bu vaxt Mustafa paşa Qəsri-Şirini (Zəhabı) tərk edərək geriyə doğru hərəkətə başlamışdı və anlaşmanın Osmanlı sultanı tərəfindən təsdiq olunası xəbərini də Mosulda olarkən aldı. 1639-cu il iyul ayının ortalarında, Mustafa paşa Diyarbəkrdə olanda onun yanına Səfəvi sarayının elçisi gəldi. Bu elçi Şah Səfi adından imzalanmış sülh anlaşmasına dəstək verildiyini və bu anlaşmada nəzərdə tutulan məsələlərin artıq əməli icrasına başlandığını çatdırdı. O cümlədən, anlaşmada nəzərdə tutulduğu kimi, Zəncir və Qotur qalalarının dağıdılmasına başlandı. İkitərəfli münasibətlərin xoş niyyətlər üzərinə qurulmasına tərəfdar olmasını göstərmək üçün Şah Səfi İrəvanın azad edilməsi zamanı əsir götürülmüş Zülfüqar ağanı, iki yüz nəfərə yaxın sipahi və yeniçəri əsirini azad etdi. Elçinin Mustafa paşa ilə görüşdüyü vaxt azad edilmiş bu əsirlər artıq Osmanlı sərhədini keçmişdilər. Bundan başqa, Səfəvi qoşunları da artıq bölgədən geri çəkilməyə başlamışdılar. Yəni Mustafa paşa əmin oldu ki, Səfəvi sarayı əldə edilmiş anlaşmanı qəbul edib və onun icrası yolunda da lazım olan addımlar atılır. Bu məsələ sözsüz ki, Mustafa paşanı razı saldı və o, Səfəvi elçisi ilə Şah Səfiyə öz məktubunu göndərdi. Mustafa paşa bu məktubda Səfəvi sarayı tərəfindən Qəsri-Şirin sülh anlaşmasının icrasına başlanmasına məmnunluğunu qeyd edirdi. Belə ki, Səfəvi sarayı tərəfindən Zəncir və Qotur qalalarının dağıdılmağa başlanması razılıqla qeyd olunurdu. Anlaşmanın şərtlərinə əsasən, Osmanlı tərəfi də Maku və Mağazberd qalalarını dağıtmalı idi. Mustafa paşa məlumat verirdi ki, bu qalaların dağıdılması üçün artıq qüvvələr ayrılmışdır. Sonra Mustafa paşa əldə edilmiş anlaşmanın Osmanlı sultanı tərəfindən də təsdiq edildiyini, bununla bağlı Osmanlı sultanı tərəfindən Şah Səfiyə məktub yazıldığını və həmin məktubun Səfəvi elçisi Məhəmmədqulu ağa ilə birlikdə hərəkətə başlayan Osmanlı elçisi vasitəsilə göndərildiyini bildirirdi (159).

Məhəmmədqulu ağa 1639-cu ilin iyul ayında geri qayıtdı. Onunla birlikdə Osmanlı elçisi Məhəmməd ağa da Səfəvi sarayına gəldi və iyul ayının 3-də Sultan Muradın məktubunu Şah Səfiyə

təqdim etdi. Həmin məktubda Osmanlı sultanı tərəfindən iki dövlət arasında sülh anlaşmasının razılaşdırılması təqdir edildi. Osmanlı sultanın məktubunda bu anlaşmanın qüvvədə qalması üçün sərhəd bölgələrində hərbi qarşıdurmaların və yürüşlərin qarşısının alınmasının vacibliyi qeyd olunurdu. Məktubda həmçinin Səfəvi dövləti ərazisində islam peyğəmbərinin ailə üzvlərinə acı sözlər deyilməsinə də bir daha narazılıq bildirilir və Şah Səfinin diqqəti bu məsələyə cəlb edilirdi (160).

Osmanlı elçisi Səfəvi sarayında çox böyük təntənə ilə qarşılandı, ona qarşı yüksək qonaqpərvərlik nümayiş etdirildi. Səfəvi mənsubları bir daha iki dövlət arasında sülh anlaşmasının imzalanmasına razılıq ifadə etdilər. Bu razılığın daha bir təsdiqi kimi, Şah Səfi başqa bir elçisini Osmanlı sarayına göndərmək qərarına gəldi. Həmin vəzifə keçmiş Bərdə hakimi İbrahim xan İyirmidördə həvalə olundu. İbrahim xan Səfəvi şahının məktubunu və qiymətli hədiyyələrini Osmanlı sultanına təqdim etməli idi. Elçilik heyəti 1639-cu il oktyabr ayının sonlarına yaxın İstanbula doğru hərəkətə başladı. Mövcud məlumata görə, Səfəvi elçilik heyəti 1640-cı ilin yanvar ayında İstanbula yetişdi. İbrahim xan dərhal da Osmanlı sultanı tərəfindən mehribanlıqla qarşılandı və Səfəvi elçisinə qiymətli hədiyyələr də bağışladı (161).

İbrahim xan hələ İstanbulda olarkən 1640-cı ilin fevral ayında Osmanlı sultanı IV Murad dünyasını dəyişdi. Onun yerinə qardaşı Sultan İbrahim Osmanlı taxt-tacına sahib oldu. İbrahim xan yeni Osmanlı sultanının taxta çıxması mərasimində iştirak etdi. İstanbulda olduğu vaxt Səfəvi elçisi İbrahim xan Osmanlı sultanının hüzurunda olmaq fürsəti də əldə etdi. Bu görüş 1640-cı il iyul ayının sonlarında baş verdi. Həmin görüşdə həm Osmanlı sultanı, həm də İbrahim xan Səfəvi sarayı adından Qəsri-Şirində imzalanmış sülh anlaşmasına sadiq qalınacağı bildirildi. Səfəvi elçisi İbrahim xan yeni Osmanlı sultanı ilə görüşündə xoş niyyətli münasibətlərin nişanəsi kimi əsir götürülmüş qızılbaş döyüşçülərinin azad olunmasını xahiş etdi. Osmanlı sultanı bu xahişi qəbul etdi

və onun fərmanı ilə son on il ərzində Osmanlı əsirliyinə düşmüş bütün qızılbaş döyüşçüləri azad edildilər (162).

Məhəmməd Məsum İsfahaninin yazdığına görə isə, yalnız Bağdadın mühasirəsi zamanı əsir götürülmüş qızılbaş döyüşçüləri azad edildilər (163).

Osmanlı mənbələrində olan məlumata görə, İrəvanın keçmiş hakimi, Osmanlı təbəəliyini qəbul etmiş Təhmasibqulu xanın (o, sünni məzhəbini qəbul etdikdən sonra Yusif xan adlandırılmışdı) geri qayıtmasına fürsət verilmədi. Sultan İbrahimin nəzərində Osmanlı dövlətinin himayəsi altına alınmış və yüksək vəzifəyə irəli çəkilmiş Təhmasibqulu xanın Vətənə dönmək istəyi Osmanlı dövlətinə qarşı sədaqətsizlik idi. Ona görə də onun həyatına son qoyuldu. Bu məsələ Osmanlı mənbəsində belə təsvir edilmişdir: "1640-cı il fevralın 10-da Sultan Murad xan vəfat etdi. Taxta Sultan İbrahim cülus etdi. Cülusdan sonra Əcəm şahı olan Şah Səfidən elçi gəldi. Taxta çıxmağını təbrik üçün ölçüyə gəlməz hədiyyələr gətirdi. Bütün vəzirlər ziyafətlər verdilər. Lakin cahil elçi bundan qabaq Rəvan fəthində tabe olub indi İstanbulda sakin və işdən kənar olan Əmirgünə oğlu Yusif xan ilə Əcəm diyarına birlikdə getməyi məqsud etdi. Sədr-əzəmə bu xüsusda ricalar etdi. Mustafa paşa da "Səadətli padşaha müraciət edəcəyəm. Ondan izin olmadıqca cavab verə bilmərəm" – dedi. Ziyafətdən sonra padşah vəziyyəti elan etdi. Padşah Sultan İbrahim vəzirə xitab edərək: "Əmirgünə oğlu getməyi özümü istədi? Yoxsa elçinin təhrikidir bu?" – dediyində, vəziri-əzəm: "Əmirgünə oğlu elçiyə gizli xəbər göndərib: "Əgər müqabil isə bir asan vəchlə Əcəm diyarına getməyi, vəziri-əzəmdən rica etsin" – deyə xahiş etmişdi, dediyində, bu sözdən padşah həzrətləri qəzəb etdi. Mübarək ağızlarından bu sözlər deyildi: "Bizim nemətimizin qədrini bilməzlər, cəzasının verilməsi gərəkdir. İşə yaramaz vücudunu zaman səhifəsindən pozmalısan" – deyə fərman etdi. O fağır, zaman qeyb etməyərək vəzirin pis rəftarı ilə qətl olundu. Daha sonra elçiyə cavab göndərildi (164)."

Sultan İbrahim Osmanlı taxt-tacına sahib olanda cəmi 26 yaşı var idi. Yəni o, dövlətçilik işlərində kifayət qədər təcrübəyə malik deyildi. Bununla belə, Sultan İbrahim Səfəvi dövləti ilə Qəsri-Şirin sülhü əsasında dinc münasibətlərin qalmasının tərəfdarı idi. İki dövlət arasında xoş münasibətlərin davam etməsinə dəstəyini nümayiş etdirmək üçün Sultan İbrahim 1640-cı ilin oktyabr ayında Qabil ağa adlı elçisini Səfəvi elçisi ilə birlikdə şah sarayın göndərdi. Bu elçi də şah sarayında mehribanlıqla qarşılandı və ona qarşı yüksək qonaqpərvərlik göstərildi. Şah Səfinin dünyasını dəyişməsinə qədər bir dəfə də iki dövlət arasında elçilik mübadiləsi oldu. Bu dəfə Maqsud sultanın rəhbərliyi altında şah elçisi Osmanlı sarayına göndərildi (165). Şah Səfinin 1642-ci ildə dünyasını dəyişməsinə qədər iki dövlət arasında dinc münasibətlər qorunub saxlandı.

4. İstifadə olunmuş mənbə və ədəbiyyat

1.İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi. Tehran, 1317, s.129; Astrabadi S.H. Əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1366 s.248
2. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.131; Astrabadi S.H. Əz Şeyx Səfi ta Şah Səfi, s.248; İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər. Tehran, 1368, s. 158
3. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 160
4. Yenə orada, s. 162
5. Yenə orada, s. 163
6. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.134
7. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s.165-166
8. Yenə orada, s. 167
9. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.135
10. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639). Doktora tezi. İzmir, 2009, s.137

11. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.135; İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s.168; Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 137
12. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s.168
13. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 170
14. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.136; İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s.170; Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 138
15. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.138; Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 139
16. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.138
17. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.139; Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 139
18. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.139; Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 139-140
19. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 140
20. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.139
21. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.140
22. Yenə orada
23. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 172
24. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 140
25. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 173; Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 140
26. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 175
27. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 141
28. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 176
29. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 141
30. Yenə orada, s.141-142
31. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.156
32. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 142
33. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 180
34. Yenə orada, s. 181
35. Yenə orada, s. 181-182

36. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 188; Astrabadi S.H. Əz Şeyx Səfi ta Şah Səfi, s. 250
37. Polat S. IV. Murat devri doğu seferlerinde nehir taşımaçılığı ve 1638 Bağdat seferinde Firat üzerinden yapılan nakliyat, s.583 //History studies, volume 12, issue 2, april 2020, s. 577-593
38. Peçevi İ. Peçevi tarihi II. Ankara, 1982, s. 403; Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 144
39. Peçevi İ. Peçevi tarihi II, s. 404
40. Yenə orada, s. 405
41. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s.191-192
42. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s.196; Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 144
43. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 145
44. Yenə orada, s. 145-146
45. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s.197
46. Zeyrek Y. IV. Muradın Revan ve Tebriz seferi ruznamesi. Ankara, 1999, s. 21
47. Yenə orada, s. 22
48. Solakzadə M. Tarix. Bakı, 1992, s.70
49. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.169; İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s.198
50. Peçevi İ. Peçevi tarihi II, s. 409
51. Solakzadə M. Tarix. Bakı, 1992, s.70
52. Zeyrek Y. IV. Muradın Revan ve Tebriz seferi ruznamesi, s. 22
53. Yenə orada, s. 23
54. Yenə orada
55. Solakzadə M. Tarix. Bakı, 1992, s.71
56. Peçevi İ. Peçevi tarihi II, s. 409
57. Zeyrek Y. IV. Muradın Revan ve Tebriz seferi ruznamesi, s. 22
58. Solakzadə M. Tarix. Bakı, 1992, s.71

59. Zeyrek Y. IV. Muradın Revan ve Tebriz seferi ruznamesi, s. 25
60. Yenə orada
61. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s.198
62. Yenə orada, s. 198
63. Solakzadə M. Tarix. Bakı, 1992, s.71-72
64. Zeyrek Y. IV. Muradın Revan ve Tebriz seferi ruznamesi, s. 26
65. Yenə orada
66. Solakzadə M. Tarix. Bakı, 1992, s.72-73
67. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 148
68. Solakzadə M. Tarix, s.74
69. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.170
70. Ünver S. Dördüncü Sultan Muradın Revan seferi kronolojisi, s. 18; Borazeş Ə.H. Rəvabet-e siyasi-ye diplomatik-e İran və cəhan dər əsr-e Səfəviyyə. Tehran, 1392, s. 693
71. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 150; Peçevi İ. Peçevi tarihi II, s. 410-411;
72. Zeyrek Y. IV. Muradın Revan ve Tebriz seferi ruznamesi, s. 31
73. Yenə orada, s. 31-32
74. Zeyrek Y. IV. Muradın Revan ve Tebriz seferi ruznamesi, s. 33; Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 151-152
75. Zeyrek Y. IV. Muradın Revan ve Tebriz seferi ruznamesi, s. 33
76. Yenə orada
77. Yenə orada, s.34
78. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 152
79. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.172-173; İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s.206-207
80. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 153

81. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.174; İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s.209; Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 155
82. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s.212-213; İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.176
83. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.176
84. Təfərroşi Ə. Tarix-e Şah Səfi. Tehran, 1388, s.123-124
85. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 156
86. Yenə orada, s. 157
87. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s.214; Təfərroşi Ə. Tarix-e Şah Səfi, s. 126
88. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s.215; İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.180; Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 158
89. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 158
90. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s.219-222; İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.183; Təfərroşi Ə. Tarix-e Şah Səfi. Tehran, 1388, s.126; Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 158
91. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s.227
92. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s.228-229; İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.182
93. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.186-187; İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s.233-234
94. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.189; Borazeş Ə.H. Rəvabet-e siyasi-ye diplomatik-e İran və cəhan dər əsr-e Səfəviyyə, s. 694-695
95. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s.236; İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.189
96. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 161; İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.189-190
97. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 161
98. Yenə orada, s. 162

99. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.190-191; İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s.236-237, 243
100. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 162-163
101. Borazeş Ə.H. Rəvabet-e siyasi-ye diplomatik-e İran və cəhan dər əsr-e Səfəviyyə, s. 694-695; Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 163-164
102. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 163-164
103. Yenə orada, s. 164
104. Yenə orada
105. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.204-205
106. Yenə orada, s. 206
106. Polad S. IV. Murat devri doğu seferlerinde nehir taşımaçılığı ve 1638 Bağdat seferinde Firat üzerinden yapılan nakliyyat, s. 584-585 //History studies, nişan 2020, s. 577-593
107. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 166
108. Polat S. Krımdan Bağdata: 1638 Bağdat seferinde yardımçı Krım kuvvetlerinin menzil ve iaşe orqanizasiyonu, s. 95//Karadeniz araştırmaları, N-42, 2014, s. 85-109
109. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 168-169
110. Peçevi İ. Peçevi tarihi II, s. 413-414
111. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s.254-255
112. Yenə orada, s.256
113. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 173
114. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.215-216
115. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 176
116. Yenə orada, s. 172
117. Borazeş Ə.H. Rəvabet-e siyasi-ye diplomatik-e İran və cəhan dər əsr-e Səfəviyyə, s. 695

118. Təfərroşi Ə. Tarix-e Şah Səfi, s. 170-171
119. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 174
120. Yenə orada, s. 178
121. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 178-179; Kılıc R. XVI. ve XVII. Yüzyıllarda Osmanlı-İran siyasi antlaşmaları. İstanbul, 2001, s. 190-191
122. Kılıc R. XVI. ve XVII. Yüzyıllarda Osmanlı-İran siyasi antlaşmaları, s. 191
123. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 179-180
124. Solakzadə M. Tarix. Bakı, 1992, s.75
125. Peçevi İ. Peçevi tarihi II, s. 417-418
126. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 181
127. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 261
128. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 182-183; Kılıc R. XVI. ve XVII. Yüzyıllarda Osmanlı-İran siyasi antlaşmaları, s. 191
129. Kılıc R. XVI. ve XVII. Yüzyıllarda Osmanlı-İran siyasi antlaşmaları, s. 191
130. Kılıc R. XVI. ve XVII. Yüzyıllarda Osmanlı-İran siyasi antlaşmaları, s. 191; Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 184
131. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 184
132. Yenə orada, s. 186
133. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 263
134. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti. Bakı, 2020, s. 141; Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 187
135. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 262; Borazeş Ə.H. Rəvabet-e siyasi-ye diplomatik-e İran və cəhan dər əsr-e Səfəviyyə, s. 695
136. Təfərroşi Ə. Tarix-e Şah Səfi, s. 172
137. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 217; Təfərroşi Ə. Tarix-e Şah Səfi, s. 174

138. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.218
139. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 263
140. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 188
141. Yenə orada, s. 189
142. Solakzadə M. Tarix. Bakı, 1992, s.75-76
143. Peçevi İ. Peçevi tarihi II, s. 418-420
144. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 188; Kılıc R. XVI. ve XVII. Yüzyıllarda Osmanlı-İran siyasi antlaşmaları, s. 191
145. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 263
146. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.219
147. Yenə orada
148. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639). Doktora tezi. İzmir, 2009, s. 194
149. Yenə orada, s. 195
150. Yenə orada, s.195-196
151. Yenə orada, s. 196
152. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 267; Təfərroşi Ə. Tarix-e Şah
Səfi, s. 178
153. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 194
154. Yenə orada, s. 201
155. Yenə orada, s. 197
156. Borazeş Ə.H. Rəvabet-e siyasi-ye diplomatik-e İran və cəhan dər əsr-e Səfəviyyə, s. 698
157. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.222-223; İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 268-270
158. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s.226
159. Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 200
160. Borazeş Ə.H. Rəvabet-e siyasi-ye diplomatik-e İran və cəhan dər əsr-e Səfəviyyə, s. 699; Küpeli Ö. Osmanlı-Safevi münasebetleri (1612-1639), s. 201
161. Borazeş Ə.H. Rəvabet-e siyasi-ye diplomatik-e İran və cəhan dər əsr-e Səfəviyyə, s. 699

162. Yenə orada, s. 700
163. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 293
164. Solakzadə M. Tarix. Bakı, 1992, s.76-77
165. Borazeş Ə.H. Rəvabet-e siyasi-ye diplomatik-e İran və cəhan dər əsr-e Səfəviyyə, s. 701

VI FƏSİL
ŞAH SƏFİNİN DÖVLƏTÇİLİK FƏALİYYƏTİ

1.Şah Səfi hakimiyyəti illərində səltənətin daxili vəziyyəti

Şah Səfinin hakimiyyəti təxminən on dörd ilə yaxın davam etdi. Bu dövr Səfəvi dövlətinin tarixində məsuliyyətli və gərgin bir dövr idi. Ona babası Şah Abbasdan qüdrətli bir dövlət miras qalmışdı. Bölgənin və Avropanın böyük gücləri bu dövlətlə hesablaşmaq siyasətinin izləyirdilər. Şah Abbas ulu əcdadı Şah İsmayılın hakimiyyəti illərində mövcud olmuş sərhədləri bərpa etdi, onun hakimiyyətindən sonra itirilmiş torpaqları geri qaytardı, səltənət daxilində ciddi islahatlar apardı, təsərrüfat həyatının sürətli inkişafına, qoşunların gücünün artmasına yol açdı. Ticarət rövnəq tapdı, sənətkarlıq və abadlıq işləri geniş miqyas aldı, səltənətin türklük mahiyyəti daha dərin məzmun kəsb etdi.

Bütün yaradıcı işlərinə və fəaliyyətinə baxmayaraq, Şah Abbas özündən sonra yaratdığı o böyük səltənətin zəifləməsi üçün də obyektiv zəminlər meydana gətirdi. Tarixdən bəllidir ki, Şah Abbas öz övladlarının hərəmxana həyatı ilə məhdudlanmalarına daha çox üstünlük verirdi. Əvvəlki şahlardan fərqli olaraq, Şah Abbas övladlarını anadan olan kimi hansısa bir vilayətin hakimi təyin etmək təcrübəsinə son qoydu, onların müxtəlif qızılbaş əmirlərinin əlində oyuncağa çevrilə bilməsi təhlükəsini qəbul etmədi. Ona görə idi ki, Şah Abbasın özündən və ondan əvvəlki şahzadələrdən fərqli olaraq sonrakı şahzadələrin ən elementar idarəçilik təcrübələri yox idi. Bundan başqa Şah Abbasın oğlan övladları deyil, onun nəvəsi taxt-tac varisi oldu. Şah Abbas böyük oğlunu qətlə yetirmiş, digər övladlarını isə dünya işığından məhrum etmişdi. Yəni onların arasında taxt-tac sahibi ola biləcək birisi qalmadığı üçün Şah Abbasın böyük oğlundan olan nəvəsi Şah Səfi (Sam Mirzə) hakimiyyətə gətirildi. Onun isə həm idarəçilik təcrübəsi yox idi, həm də çox gənc idi. Bunlar da hakimiyyətin vəziyyətinə öz təsirini göstərdi.

Şah Səfinin hakimiyyətə gəlməsi ilə Səfəvi dövlətinin qüdrətinin zəifləməyə başlamasının əsası qoyuldu. Şah Abbasa qədər də Səfəvi dövləti müəyyən çətinliklərlə qarşılaşmışdı. Lakin Şah Abbas Səfəvi dövlətin qüdrətini bərpa etdi və onu bölgənin (o cümlədən də dünyanın) ən güclü dövlətlərindən birinə çevirdi. Şah Səfi dövründə başlanan zəifləmə isə ondan sonra da davam etdi və Səfəvi dövlətinin Şah Abbas qüdrətini bir daha özünə qaytarmaq mümkün olmadı.

Şah Səfinin hakimiyyətə başlaması ilə bir tərəfdən özbək qoşunları Səfəvi hüdudlarına hücumlar etdilər. Digər tərəfdən də səltənət daxilində mərkəzi hakimiyyətə qarşı qiyamlar baş verdi. Gilanda Qərib şah qiyamı, Qəzvində Dərviş Rza qiyamı belə qiyamlardan idi. Sonra özbək qoşunlarının şərq ərazilərinə hücumu, ardınca Osmanlı dövləti tərəfindən təhlükənin artması Şah Səfi hakimiyyətinin əvvəllərinə təsadüf edirdi. Bu qiyamlar yatırıldı, özbək qoşunlarının hücumlarının qarşısı alındı, Osmanlı qoşunlarına qarşı müqavimət gücləndi. Şah Abbasın hakimiyyəti dövründə səltənət idarəçiliyində, qoşunlara rəhbərlikdə kifayət qədər təcrübəli əmir və əyanlar toplaşmışdılar. Onların mövcudluğu və fəaliyyəti mərkəzi hakimiyyətə qarşı istiqamətlənmiş bir sıra qəsdlərin qarşısının alınmasına öz təsirini göstərdi. Şah Səfi isə vaxt ötdükcə Şah Abbas dövründən qalmış çoxlu sayda əmir və əyanları özündən uzaqlaşdırdı, onların çoxunu qətlə yetirdi. Yəni səltənət idarəçiliyinə daha az təcrübəli insanlar gətirildi ki, onların da təcrübəsizliyi səltənətin idarəçiliyinə təsirsiz ötüşmədi.

Şah Abbasın hakimiyyəti illərində səltənətin möhkəmlənməsi əsasən, aparılan islahatlar hesabına baş vermişdi. Həmin islahatlar nəticəsində daha mükəmməl idarəçilik sistemi qurulmuş, qoşunlar kifayət qədər möhkəmləndirilmiş, təsərrüfat həyatında ciddi canlanma baş vermiş, sosial münasibətlər daha da təkmilləşmişdi. Şah Abbas tərəfindən səltənətin müxtəlif sahələrində aparılmış olan islahatların nəticələri öz səmərəliliyini Şah Səfinin hakimiyyəti illərində də itirməmişdi. Şah Səfi demək olar ki, Şah Abbas tərəfindən yaradılmış idarəçilik sistemini saxladı. Yalnız ayrı-ayrı

vəzifələrə yeni təyinatlar apardı ki, bu da heç də həmişə uğurlu alınmadı. Ona görə də, Səfəvi dövlətinin Şah Abbas dövründə olan qüdrəti də tədricən zəifləməyə başladı.

Şah Səfinin taxta çıxarılması ənənəvi qaydada həyata keçirildi. Əvvəlcə bu tədbirin həyata keçirilməsi gününün müəyyənləşdirilməsi üçün münəccimlərlə məsləhətləşmələr aparıldı və onların tövsiyəsi ilə daha münasib sayılan bir tarix seçildi. Tacqoyma mərasimi dövrün tanınmış müctəhidləri olan Mirzə Həbibulla, Molla Hüseynəli və Mirzə Qazinin iştirakı ilə həyata keçirildi. Onların, eləcə də dövlət mənsublarının, saray əmir və əyanlarının iştirak etdiyi tacqoyma mərasimində, yuxarıda qeyd edildiyi kimi, dualar oxunmaqla I Şah İsmayılın qılıncı Sam Mirzənin belinə bağlandı və o, Şah Səfi adı ilə Şah Abbasın taxtına əyləşdirildi. Səhəri gün Şah Səfinin taxta çıxması ilə bağlı mərasim davam etdirildi. Dövrün müctəhidlərinin ən nüfuzlusu və xatəmül-müctəhidin kimi tanınan Əmir Məhəmməd Bağır Damad Şah Səfinin taxta çıxması ilə bağlı dualar oxudu, ona xeyir-dualarını çatdırdı. Elə həmin gün bütün vilayət hakimlərinə məktub göndərildi. Bu məktubda Şah Səfinin şahlıq taxtına çıxması elan edilməklə, bütün vəzifə sahiblərinin öz vəzifələrində saxlandığı bildirildi. Bu vəzifə adamları öz vəzifələrinin icrasını davam etdirməli idilər. Cümə günü İsfahandakı Şah məscidində Əmir Məhəmməd Bağır Damadın rəhbərliyi ilə Şah Səfinin adına xütbə oxundu. Səhəri gün isə Şah Səfinin adına sikkələr vuruldu (1).

Şah Səfiyə çox böyük əraziləri olan bir səltənət miras qalmışdı. İsgəndər bəy Münşi bu səltənəti Məmləkəti-məhrusə adlandırırdı və bu məmləkətə hansı vilayətlərin daxil olduğunu da sadalayırdı (2). İlk vaxtlar Şah Abbas dövründə mövcud olan ərazilər Şah Səfinin hakimiyyəti altında idi. Sonralar isə bəlli olduğu kimi, Bağdad şəhəri və onun ətrafı, habelə Qəndəhar şəhəri Səfəvi hüdudlarından qoparılmışdı.

Mənbələrdə əksini tapmış məlumatlar onu göstərir ki, Şah Səfi hakimiyyətinin əvəllərində qəbul etdiyi qərarlarla bağlı sarayın təcrübəli vəzifə sahibləri ilə məsləhətləşmələr aparırdı. Məsələn,

Məhəmməd Məsum İsfahani yazırdı ki, hakimiyyətinin ilk günlərində Şah Səfinin səltənətin vəziyyəti haqqında yetərli məlumatı olmadığı üçün etimaddüdövlə Xəlifə Sultan, qorçubaşı İsa xan, eşikağasıbaşı Zeynal xan, habelə Rüstəm xan və Əbülqasım bəy əvvəlcə özləri ayrıca toplantı keçirdilər. Onlar səltənətin idarəçiliyinin aparılması üçün öz təkliflərini hazırladılar və onu Şah Səfiyə təqdim etdilər. Şah Səfi də həmin təklifləri məqbul saydı və onların icrası üçün öz fərmanını verdi (3).

Adı çəkilən müəllif əsərinin başqa bir yerində yazırdı ki, Gilanda Qərib şah qiyamı qalxanda Şah Səfi yaxın ətrafı ilə məsləhətləşmələr apardı. Həmin məsləhətləşmələrdən sonra qərara alındı ki, şaha yaxınlığı ilə seçilən Xələf bəy səltənət daxilində baş verən qiyamların yatırılmasına rəhbər təyin edilsin. Bu məsələ ilə bağlı başqa lazımi qərarlar da qəbul edildi. Burada mühüm olan odur ki, Şah Səfi səltənət idarəçiliyi ilə bağlı müəyyən qərarların qəbul edilməsini yaxın ətrafı ilə məsləhətləşirdi.

İsgəndər bəy Münşi yuxarıda adları çəkilən vəzifə sahiblərini Səfəvi sarayının ağsaqqalları hesab edirdi. Şah Səfinin taxta çıxarılmasında bu vəzifə sahiblərinin fəal rolu var idi və onlar Səfəvi sarayına sədaqətli əyanlar kimi səltənətin idarəçiliyində Şah Səfiyə lazım olan xidməti göstərirdilər (4).

Şah Səfinin etimad və etibar etdiyi vəzifə sahibləri var idi və onların məsləhətləri ilə hesablaşırdı. Bununla belə, Şah Səfinin dövründə də irsi-monarxiya hakimiyyəti qalmaqda idi. Bu məsələdə hər hansı bir şübhə də yox idi. Saray əyanları və qoşun əmirləri həm də dini etiqadla bağlı olan irsi hakimiyyəti qəbul edirdilər. Şah Səfi istisnasız və hüdudsuz səlahiyyətlərə malik idi. Orta əsrlərin bütün islam dövlətlərində olduğu kimi, Şah Səfinin səlahiyyətlərinə yalnız şəriət normaları məhdudlaşdırıcı təsir göstərə bilərdi. O, səltənətin idarə edilməsində hakimi-mütləq idi. Bütün idarəçilik işləri onun iradəsi əsasında həyata keçirilirdi. Səltənətin bütün təbəələrinin canı və malı üzərində şah hakimiyyəti mövcud idi. Şah Səfinin bir şah kimi qəbul etdiyi qərarlar istisnasız olaraq həyata keçirilməli idi. Sözsüz ki, bu səlahiyyətlər

mərkəzi hakimiyyətinin nəzarəti olan ərazilərdə keçərli idi. Bu və ya digər səbəblər üzündən mərkəzi hakimiyyətin nəzarətindən çıxmış ərazilərdə şah hakimiyyəti keçərli deyildi. Qanunvericilik və icra hakimiyyəti bütünlüklə onun əlində cəmləşmişdi.

Şah Səfinin hakimiyyəti dövründə də daimi bir məsləhət şurasının (divanın) olması istisna deyildir. Şah hüzurunda keçirilən belə məsləhət şuralarının iştirakçılarının hər birinin məclisdə öz yeri var idi. Sarayda eşikağası başı vəzifəsinin mövcudluğu da bundan xəbər verir. Bu vəzifə sahibinin səlahiyyətlərinə şah yanındakı toplantıların, məclislərin təşkil edilməsi daxil idi. Toplantı üzvlərinin hər birinin şah hüzurunda öz yeri var idi və vəzifə sahiblərinin məhz onlar üçün təyin edilmiş yerdə qərar tutmasına eşikağası başı rəhbərlik edərdi. Yuxarıdakı məlumatdan göründüyü kimi, Zeynal xan Şah Səfinin hakimiyyətinin ilk vaxtlarında eşikağasıbaşı vəzifəsini icra edirdi. O, Şah Səfiyə yaxınlığı ilə seçilən saray əyanlarından biri idi.

Şah Səfinin öz əmir və əyanları ilə mehribanlıqla davranması, onları vaxtaşırı qiymətli hədiyyələrlə mükafatlandırması haqqında mənbələrdə xeyli sayda məlumatlar vardır. Elə şahlığa başlamasının ilk Novruz bayramı günlərində Şah Səfi tərəfindən İsfahanın Nəqşi-Cahan bağında böyük bir ziyafət təşkil edildi, dövlət ərkanı, vəzirlər, əmirlər, saray əyanları, yüzbaşılar, qulamlar və mülazimlər bu ziyafətə dəvət edildilər. Ziyafətin sonunda dəvət olunanlar şah hədiyyələrinə layiq görüldülər. Mənbə məlumatına görə, həmin gün 8 min dəst xələt mükafat olaraq paylandı. Sarayda böyük vəzifə tutan dövlət ərkanı isə xüsusi qiymətli hədiyyələrə layiq görüldülər (5).

Şah Səfi taxta çıxan kimi dərhal özünü səxavətli bir şah kimi göstərdi. Yuxarıda qeyd edildiyi kimi, Şah Abbasın hakimiyyəti illərində qoşun əhlinin aylıq məvaciblərinin ödənməsində böyük bir borc yaranmışdı. Onun fərmanına əsasən, qoşun əhlinə olan bütün borclar səltənət xəzinəsindən ödənildi. Yeni Səfəvi şahının verdiyi fərmanlardan biri də Harun çayının İsfahana çəkilməsinin dayandırılması oldu. Mənbələrdə bu çayın adı həm də Kürəng

kimi verilmişdir. Məlum olduğu kimi, hələ Şah Abbasın hakimiyyəti illərində İsfahanda su qıtlığı olduğu üçün Harun çayının istiqamətinin İsfahana çevrilməsi məsələsi ortaya çıxmışdı. Bir neçə dəfə bu çayın çəkilməsi ilə bağlı aparılan araşdırmalardan sonra bu işin kifayət qədər mürəkkəb bir iş olduğu ortaya çıxdı. Buna görə bir neçə dəfə bu işə başlanması təxirə salındı. Bununla belə, Şah Abbas sonradan bu çayın suyunun İsfahana yönəldilməsini qərara aldı. Amma bu çayın suyunun İsfahana çatdırılması həm böyük çətinliklə bağlı idi, həm də böyük maliyyə vəsaiti tələb edirdi. Çünki bu çayın qarşısında çox hündür dağ yüksəklikləri dayanırdı və onlardan çayın suyu üçün yol açılmalı idi. Bu işin aparılmasına zəruri olan maliyyə vəsaitini toplamaq üçün səltənət əhlindən əlavə vergilər tutulurdu. Mənbə məlumatına görə, Harun çayının İsfahana gətirilməsi üçün səltənət əhlindən ildə 50 min tümən maliyyə vəsaiti toplanırdı. Şah Səfi hakimiyyətə gələndə Harun çayının suyunun yaxın vaxtlarda İsfahana çatdırılması mümkün görünmürdü. Ona görə də Şah Səfi fərman verdi ki, Harun çayının suyunun İsfahana çatdırılması üçün toplanan vergilər ləğv edilsin (6).

Şah Səfi tərəfindən səltənət əhli dövlət xəzinəsinə olan böyük borcları da bağışlandı. Bu borclar əsasən vergi borcları idi və bu vergiləri verməli olan insanlar bəzən dünyasını dəyişdiyi vaxta qədər verməyəndə, həmin borclar vərəsələrə keçirdi. Borc vərəsələri həmin borcu taparaq səltənət xəzinəsinə ödəməli idilər. Bu yolla çox böyük miqdarda borclar yaranmışdı. Şah Səfi bu məsələdən xəbərdar olanda həmin borcların da ləğv edilməsi haqqında fərman verdi. İsgəndər bəy Münşinin yazdığına görə, bu yolla 500 min tümən borc insanlara bağışlandı. İsgəndər bəy onu da yazırdı ki, səltənət əhalisi arasında elə bir təbəqə yox idi ki, Şah Səfinin səxavəti ilə qarşılaşmasın (7).

Bundan başqa, Şah Səfi ipək ticarəti üzərində mövcud olan dövlət monopoliyasını da aradan qaldırdı. Şah Abbasın hakimiyyəti illərində səltənət ərazisində istehsal olunan ipəyin ticarəti dövlətin əlində cəmləşmişdi. Yəni istehsal olunan bütün ipək dövlətə sa-

tılmalı idi. Dövlət isə ipəyin qiymətinə əlavə dəyərlər artırmaqla onu xarici ticarətçilərə satırdı. Xaricə aparılan bütün ticarət əslində, Şah Abbasın müvəkkillərindən alınırdı. Bu monopoliya nəticəsində şah xəzinəsinə böyük gəlirlər daxil olurdu. Ona görə ipək ticarəti böyük imkanları olan ayrı-ayrı tacirlərin əlində cəmləşmişdi. Şah Səfi isə bu monopoliyanı ləğv etdi. Müvafiq fərmandan sonra ipək istehsalçıları heç bir əlavə dəyər olmadan öz məhsullarını istədikləri adama və istədikləri qiymətə sata bilərdilər. İpək ticarəti ilə məşğul olmaq istəyən istənilən adam da birbaşa elə istehsalçı ilə əlaqə qura və vasitəçi olmadan onun məhsulunu ala bilərdi (8).

Şah Səfinin taxta çıxan kimi verdiyi fərmanlardan biri də tütün üzərində qoyulmuş qadağanın aradan qaldırılması oldu. Tütünün satılması və çəkilməsi üzərində qadağa Şah Abbas tərəfindən qoyulmuşdu. Doğrudur, tütün üzərində qadağa qoyulması insanelaların zərərli əyləncələrdən uzaqlaşmasına müəyyən təsir göstərirdi. Amma tütün eyni zamanda həm xəzinə üçün, həm də ayrı-ayrı təsərrüfat sahibləri üçün gəlir mənbəyi idi. Çox güman ki, tütün üzərində qadağa aradan qaldırılarkən bu məqam da nəzərə alınmışdı (9).

Bununla belə, Şah Səfi onun hakimiyyətinə təhlükə törədə biləcək və ya törətməsi ehtimal olunacaq insanlara qarşı çox amansız qərarlar qəbul edirdi. Bu məsələdə o, hətta ən yaxın qohumlarına belə güzəştə getmədi. Məsələn, məlumdur ki, Şah Səfi əmisi İmamqulu Mirzənin şahlıq iddiasına düşməsini eşidən kimi dərhal onun qətlinə fərman verdi. İmamqulu Mirzə atası tərəfindən kor edilmişdi. Amma Şah Abbasın dünyasını dəyişməsi xəbərini eşidəndə dünya işığından bütünlüklə məhrum olmadığını bəyan edərək hakimiyyətə iddia irəli sürdü. Şah Səfi isə bu iddiaya onun qətli fərmanı ilə cavab verdi. Ardınca isə Şah Səfi bibisi uşaqlarını aradan götürdü ki, onun hakimiyyətinə iddia irəli sürə biləcək qohumları qalmasın. Onların arasında qorçubaşı İsa xanın övladları da var idi. Baxmayaraq ki, İsa xan səltənətin dayaqlarından biri idi və onun xanımı da Şah Abbasın qızı idi, Şah Səfi onun üç

övladını qətlə yetirdi. İsa xan bu amansızlığın qarşısını ala bilmədi. Şah Abbasın qızlarından biri də səltənət etimadüddövləsi, yəni şahdan sonra səltənət idarəçiliyində ikinci adam olan Xəlifə Sultanın nikahında idi. Şah Səfi onun da dörd övladının qətli haqqında fərman verdi. Şah Səfinin bibilərindən biri də səltənət sədri (səltənətin dini işlər üzrə rəhbəri) Mirzə Rəfinin xanımı idi. Onların da üç övladı Şah Səfinin fərmanına əsasən qətlə yetirildilər. Şah ailəsindən qətlə yetirilənlər yalnız bunlar deyildilər. Bu ailə ilə qan qohumluğu olan çoxlu sayda gənc insanlar qətlə yetirildilər (10).

Hakimiyyətə təhlükə ehtimalı güman edilən xeyli sayda əmir və əyanlar da həyatla vidalaşmalı oldular. Onların arasında səltənətin ən nüfuzlu hakimlərindən biri olan İmamqulu xan da var idi. O, Şah Abbasın ən yaxın silahdaşlarından olan Allahverdi xanın oğlu idi. Allahverdi xanın səltənət qarşısındakı xidmətlərini nəzərə alaraq dünyasını dəyişəndən sonra Şah Abbas onun yerinə İmamqulu xanı təyin etdi. İmamqulu xan da atası kimi, Şah Abbas hakimiyyətinin ən sədaqətli hakimlərindən biri idi. Bütünlükdə, Allahverdi xanın ailəsi səltənətə sadiq bir ailə kimi tanınırdı. Ona görə Allahverdi xanı digər oğlu olan Davud xan Qarabağ bəylərbəyi təyin edildi. Əvvəlki fəsillərdə qeyd edildiyi kimi, Şah Səfinin hakimiyyətə gəlməsindən sonra Davud xan şübhəli şayiələr yaymağa başladı və hətta İmamqulu xanın da artıq mərkəzi hakimiyyətə qarşı olduğunu bəyan etdi. Şah Səfi bu barədə məlumat alan kimi, İmamqulu xanın qətlinə fərman verdi. Şah Səfi eyni zamanda səltənət idarəçiliyində mühüm əhəmiyyət kəsb edən etimadüddövlə, qorçubaşı və səltənət sədri vəzifələrinə yeni adamlar gətirdi (11). Bu siyasət sonradan da davam etdirildi və Şah Səfinin hakimiyyəti illərində vaxtaşırı vəzifə təyinatları həyata keçirildi.

Bəzi müəlliflər tərəfindən ə Şah Səfi bəzi əmirlərə, əyanlara, dövlət ərkanına və yerli hakimlərə qarşı ifrat sərtlik nümayiş etdirdiyini bildirsələr də, əslində bu sərtlik daha çox dövlət maraqlarına biganə yanaşanlara qarşı tətbiq edilirdi. Ya da qeyd edildiyi kimi, mərkəzi hakimiyyətə qarşı fərqli iddialara düşmək belə sərt

cəzalarla qarşılaşırdı. Tutduğu vəzifənin icrasına sədaqətlə yanaşanlar isə Şah Səfinin diqqət və qayğısı ilə əhatə olunardı.

Şah Abbasın hakimiyyəti illərində mövcud olan idarəçilik sistemi Şah Səfinin dövründə də demək olar ki, dəyişməz olaraq qaldı. Nəzərə çarpa biləcək dəyişiklik **vəkil** vəzifəsi ilə bağlı idi. Bu vəzifə sahibi Şah Abbasın hakimiyyətinin əvvəllərində çox böyük səlahiyyətlərə malik idi. Səltənət vəkili hətta ilk vaxtlar Şah Abbasın adından dövləti idarə edirdi. Həmin vəzifəyə sahib olmuş Mürşüdqulu xan qətlə yetirildikdən sonra vəkil vəzifəsi də öz səlahiyyətlərini və səltənət idarəçiliyindəki yerini itirməyə başladı. Şah Səfi hakimiyyətə gələndə Zeynal xan səltənət vəkili idi. Mənbələrdəki məlumatlardan aydın olur ki, Zeynal xan eyni zamanda eşikağası başı vəzifəsini icra edirdi. O həm də Rey vilayətinin hakimi idi (12). Mənbə məlumatlarından o da görünür ki, Zeynal xan daha çox eşikağasıbaşı kimi tanınırdı və onun səltənət vəkili kimi fəaliyyəti haqqında ciddi bir məlumatla rastlaşmaq mümkün deyil.

Zeynal xanın vəkil vəzifəsində fəaliyyəti çox da uzun sürmədi. Şah Səfi bu vəzifəni Rüstəm bəyə (sonradan o xan məqamına yüksəldi) həvalə etdi (13). Rüstəm xan eyni zamanda səltənət sipəhsaları vəzifəsini icra edirdi. Mənbələrdə də o daha çox sipəhsalar kimi qalmışdır.

Şah Səfinin hakimiyyəti illərində səltənət idarəçiliyində xüsusi əhəmiyyət kəsb edən vəzifələrdən biri **vəziri-əzəm** vəzifəsidir. Bu vəzifənin mənbələrdə sədr-əzəm kimi xatırlanması ilə də rastlaşmaq mümkündür. Vəziri-əzəm idarəçilik piramidasında səltənət şahından sonra ikinci nüfuz və səlahiyyət sahibi idi. Şah Abbasın hakimiyyəti illərindən başlayaraq şahzadələrin səltənət idarəçiliyindən kənar tutulması vəziri-əzəmlərin nüfuzunu daha da artırırdı. Əslində, bu vəzifə sahibi səltənət daxilində həyata keçirilən idarəçiliyin bütün sahələrinə məsuliyyət daşıyırdı və ona görə də onun üzərinə çox böyük yük düşürdü. Bu mənada vəziri-əzəmdən böyük idarəçilik təcrübəsi tələb olunurdu.

Şah Səfi hakimiyyətə gələndə bu vəzifəni Xəlifə Sultan icra edirdi. İsgəndər bəy Münşi onu aləmlərin sultanı, əmirlərin fəxri adlandırırdı. Şah Abbasın hakimiyyəti illərində Xəlifə Sultan səltənət sədri (dini işlər üzrə rəhbər) idi. O, səltənətin seçilən və nüfuzlu din xadimlərindən biri idi. Şah Abbas ona böyük ehtiram göstərirdi və öz qızlarından birini də onun nikahına vermişdi. Şah Səfi hakimiyyəti illərində onun vəziri-əzəm vəzifəsində olması çox da uzun sürmədi (14). Çox güman ki, onun bu vəzifədən kənarlaşdırılması Şah Səfinin qan qohumlarına qarşı inamsız münasibəti ilə bağlı idi. Yuxarıda qeyd edildiyi kimi, Şah Səfinin fərmanı ilə Xəlifə Sultanın da dörd oğlu qətlə yetirildi. Sonra isə onun özü vəzifəsindən azad edildi.

Xəlifə Sultandan sonra vəziri-əzəm vəzifəsinə Mirzə Talıb xan təyin edildi. O, Şah Abbasın hakimiyyəti illərində uzun müddət vəziri-əzəm vəzifəsini icra etmiş Hatəm bəy Ordubadinin oğlu idi. Şah Səfinin hakimiyyəti illərində o, məclisnevis vəzifəsini icra edirdi. Bu vəzifədə Mirzə Talıb xan sədaqətli və yaxşı xidməti ilə Şah Səfinin etimadını qazanmışdı. Xəlifə Sultan vəziri-əzəm vəzifəsindən azad ediləndə Şah Səfinin seçimi Mirzə Talıb xanın üzərində dayandı və bununla bağlı fərman verildi. Lakin onun da bu vəzifədə fəaliyyəti uzun sürmədi. Təxminən iki ildən sonra Mirzə Talıb xan vəziri-əzəm vəzifəsindən azad edildi. İsgəndər bəy Münşi Mirzə Talıb xanın bu vəzifədən azad edilməsini onun kifayət qədər təcrübəyə malik olmaması və bir sıra məsələlərdə qafil olması ilə bağlayırdı. Yol verdiyi bəzi səhlənkarlıqlara görə Mirzə Talıb xan şahın fərmanı ilə qətlə yetirildi (15).

Mirzə Talıb xandan sonra vəziri-əzəm vəzifəsinə Sarı Tağı kimi tanınan Mirzə Məhəmməd Tağı təyin edildi. O, Şah Səfinin hakimiyyətinin sonuna kimi bu vəzifəni icra etdi. Sarı Tağının atası da idarəçilik işlərində təcrübəsi olan bir əyan idi və uzun müddət Azərbaycan vilayətinin vəziri vəzifəsini icra etmişdi. Yəni Sarı Tağı səltənət xidmətində olan bir ailədən idi və atasının təcrübəsi onun da həyat yolunun müəyyənləşməsinə təsir etmişdi. Səltənətin vəziri-əzəmi vəzifəsinə yüksələnə qədər o, vilayət

vəziri kimi çalışmış və ilkin idarəçilik təcrübəsini də bu vəzifənin icrası zamanı daha da təkmilləşdirmişdi. Sarı Tağı idarəçilik qabiliyyəti, iş bacarığı, insanlarla dil tapmaq məharəti ilə tanınırdı və ona görə böyük nüfuz sahibi də olmuşdu. Bütün bu işgüzar keyfiyyətlərini nəzərə alaraq Şah Səfi onu vəziri-əzəm vəzifəsinə irəli çəkdi. Sarı Tağı da həm bacarıqla, həm də sədaqətlə bu vəzifəni icra etdi. İsgəndər bəy Münşinin yazdığına görə, Sarı Tağı öz qabiliyyət və bacarığı ilə elə böyük hörmət qazanmışdı ki, kimsə onun qarşısına söz qoya bilmirdi. Sarı Tağının evinin yaxınlığında tikilmiş məscidin kitabəsində onun haqqında "xadimül-füqəra" (fəqirlərin xidmətçisi) sözləri yazılmışdı (16) və o öz xidməti ilə bağlı səltənət daxilində belə bir ad çıxarmışdı.

İsgəndər bəy Münşi öz əsərində səltənətin mühüm vəzifələrini tutmuş əmir və əyanlar haqqında məlumat vermişdi. Onun bu məlumatında əvvəlcə **qorçubaşılar** göstərilmişdir. Bu da qorçubaşı vəzifəsinin kifayət qədər nüfuz və səlahiyyət sahibi olmasından irəli gəlirdi. Qorçubaşıların rəhbərliyi altında seçilmiş qoşun dəstələri var idi və ona görə də bu dəstələrə kimin rəhbərlik etməsi səltənət üçün böyük əhəmiyyət kəsb edirdi.

Bütünlükdə, Şah Abbasın hakimiyyəti illərində Səfəvi qoşunlarında aparılmış islahatlar və onun nəticəsi kimi meydana gəlmiş hərbi vəzifələr və qoşun bölgüləri Şah Səfinin hakimiyyəti illərində də olduğu kimi saxlanılmışdı. Qorçubaşı qızılbaş qoşunlarında xidmətdə olan qorçuların rəhbəri idi. O, qorçu dəstələrinin təşkilinə, bu dəstələrin davamlı olaraq təkmilləşdirilməsinə, təchizinə, onların məvaciblərinin vaxtlı-vaxtında verilməsinə, qorçulara tapşırılan vəzifələrin icrasının təşkilinə məsuliyyət daşıyırdı.

Şah Səfinin hakimiyyətinin ilk illərində səltənət qorçubaşısı İsa xan Səfəvi idi. İsa xan etiqadlı müctəhid nəslindən idi və Səfəvi hakimiyyətinə olan sədaqətinə görə, Şah Abbasın da xüsusi ehtiramını qazanmışdı. Bunun nəticəsi idi ki, Şah Abbas da qızlarından birini onun nikahına vermişdi. Əvvəlki fəsillərdə qeyd olunduğu kimi, Şah Abbasdan sonra Səfəvi taxt-tacına kimin çıxarılması

məsələsi gündəmə gələndə İsa xanın övladlarından birinin, yəni Şah Abbasın qız nəvəsinin şah elan edilməsi məsələsi də ortaya çıxmışdı. İsa xan bu təkliflə razı olmamışdı və bildirmişdi ki, taxt-tac Səfəvi xanədanına məxsusdur. Amma Şah Səfi hakimiyyətə gələndə onun üç oğlan övladını qətlə yetirdi ki, taxt-tac üçün onlar tərəfindən hər hansı bir təhlükə meydana gəlməsin. İsa xan bu ağır sınağa sinə gərməli oldu və özü də şah cəzasından canını qurtara bilmədi. O, səltənət daxilində təcrübəli və müdrik bir qızılbaş əyanı kimi tanınırdı (17).

İsa xanın qorçubaşı vəzifəsində olması təxminən iki il davam etdi. Səltənət daxilində kütləvi yerdəyişmələr aparılanda İsa xanın yerinə Çıraq xan təyin edildi. Onun da bu vəzifəni icra etməsi çox uzun sürmədi. Çıraq xan səltənət daxilində münaqişəyə meylli bir adam kimi tanınırdı və öz məqsədinə çatmaq üçün başqaları haqqında şaha qızışdırıcı məlumatlar çatdırmaqdan çəkinmirdi. İsa xanın özünə və övladlarına qarşı şahda şübhəli fikir yaradılmasında da Çıraq xanın təhrikçiliyi istisna edilmir. Qorçubaşı vəzifəsini əldə etməsi Çıraq xan üçün ciddi bir uğur idi. Lakin tezliklə o, İsgəndər bəy Münşinin yazdığına görə, başqalarına içirtdiyi şərabı özü də içməli oldu. Onun da həyatına son qoyuldu (18).

Çıraq xandan sonra səltənət qorçubaşısı vəzifəsinə Əmir xan Zülqədr təyin edildi. Əmir xan da mərkəzi hakimiyyətə sədaqətlə xidmət edən bir qızılbaş ailəsindən idi. O, cavanlıq yaşlarında qorçular sırasında xidmətə başlamışdı. Əmir xan qabiliyyəti və bacarığı ilə bir müddətdən sonra qorçuların yüzbaşısı vəzifəsinə irəli çəkildi. Az sonra isə o, daha məsuliyyətli və nüfuzlu bir vəzifəyə təyinat aldı və sarayın möhürdarı vəzifəsinə təyin edildi. Həmin vəzifənin icrası zamanı Əmir xan şah hakimiyyətinə dərin sədaqətini nümayiş etdirdi. Bunun nəticəsi idi ki, o, əvvəlcə Xar və Semnan vilayətinin, sonra isə Kerman vilayətinin hakimi vəzifəsinə irəli çəkildi. Çıraq xan qətlə yetirildikdən sonra Əmir xan onun yerinə təyin edildi. Bu insanın öz vəzifədə göstərdiyi xidmətlərdən biri özbək qoşunlarına qarşı müdafiənin təşkili ilə bağlı idi.

Bununla bağlı Əmir xan Xorasanda olan qoşunların sərdarı təyin edildi. O, 1638-ci ildə elə Xorasanda da dünyasını dəyişdi (19).

Şah Səfinin hakimiyyəti dövründə səltənətin sonuncu qorçubaşısı Canı xan Şamlı oldu. O da səltənətin tanınmış və nüfuzlu əmirlərindən biri idi və fədakar xidmətlərinə görə Şah Səfi tərəfindən bu vəzifəyə təyinat aldı (20).

Səltənətin **dini işlərinə rəhbərliyi** Mirzə Rəfiəddin Məhəmməd Şəhristani edirdi. Mirzə Rəfiəddin dövrünün savadlı və bilikli din adamlarından biri sayılırdı. O, dövrünün tanınmış etiqad sahibi olan ailəsindən çıxmışdı. Onun özü də geniş savada malik olan ruhani kimi idi. Mirzə Rəfiəddin hələ Şah Abbasın hakimiyyəti illərindən etiqadlı bir müctəhid kimi tanınırdı. O, vaxtının böyük hissəsini ibdətdə keçirərdi. Mirzə Rəfiəddin uzun müddətə inzivaya və xəlvətə çəkilməyə meyl edirdi. Bu da onun tutduğu vəzifənin icrası ilə bir araya sığmırdı. Ona görə də Mirzə Rəfiəddin səltənətin sədri vəzifəsindən uzaqlaşmalı oldu. Onun yerinə isə Mirzə Həbibulla Amoli təyin edildi. Mirzə Həbibulla Livanın Amoli bölgəsindən olan müctəhid ailəsindən idi və onun nəsil şəcərəsi də imam övladlarına gedib çıxırdı. O, hələ Şah Abbasın hakimiyyəti illərindən Səfəvi ərazilərində yaşayır və dini fəaliyyətlə məşğul olurdu. Öz biliyi və savadı ilə Mirzə Həbibullanın şahın yanında böyük ehtiramı var idi. Mirzə Həbibulla səltənət sədri vəzifəsinə təyin edilməklə bərabər, Qum ziyarətgahının mütəvəllisi vəzifəsini də öz üzərinə götürdü. Mirzə Həbibulla həyatının sonuna kimi bu vəzifəni icra etdi. Şah Səfi dünyasını dəyişəndə səltənətin sədri vəzifəsində Mirzə Həbibulla idi. O, kifayət qədər savadlı və bilikli bir din xadimi idi. Onun tərəfindən dini mövzuda bir neçə kitab da yazılmışdı ki, zəmanəsinin din damları həmin kitabları təqdir edirdilər. Mirzə Həbibullanın yaxın qoşunlarının böyük bir hissəsi dini biliklərin öyrənilməsi və yayılması ilə məşğul olurdular (21).

Dini işlər üzrə səltənət sədrinin üzərinə düşən mühüm vəzifələrdən biri də dini biliklərin öyrənilməsinin və təbliğinin təşviq edilməsi idi. Şah Səfinin hakimiyyəti illərində bir sıra tanınmış

din alimləri yetişmişdilər ki, dini biliklərin yayılmasında onların böyük xidmətləri var idi. Mirzə Həbibulla özü də tanınmış din fazillərindən biri idi. Ondan başqa Molla Həsənəli Şüştəri, Seyid Əhməd Amoli, Məhəmməd ibn İbrahim Şirazi (Molla Sədra), Molla Məhəmməd Əmin Astrabadi və digərləri də dövrün tanınmış üləmalarından idilər. Onların hər birinin xeyli sayda risaləsi var idi ki, bu risalələr dövrün dini biliklərinin öyrənilməsində xüsusi yerə malik idilər. Adları çəkilən bu üləmalarım içərisində Molla Sədra və Molla Məhəmməd Əmin Astrabadi daha məşhur idilər. Onların xeyli sayda elmi əsərləri səltənətin fikir adamları arasında yayılmışdı. Molla Sədranın Səfəvi dövrü fəlsəfi fikrin inkişafında böyük xidmətləri var idi. O, şərqdə geniş yayılmış işraq və məşa fəlsəfi görüşlərini birləşdirməklə "Mətaəliyyə" fəlsəfi görüşlərinin əsasını qoymuşdu. Molla Sədra şərqin Şeyx Bəhayi və Mirdamad kimi fikir adamlarının davamçısı olmaqla zəmanəsinin ən alim adamı kimi tanınmışdı. Onun çoxsaylı əsərləri mövcuddur. O cümlədən: Şərhi-üsuli kafi, Haşiyə əl həyat-şəfa, Şərh-e hikməti-əşraq, Əl varidatül qəlbiyyə, İsrarül-ayat, Təfsiri-sureye cümə, Tariq surəsi və s. Molla Sədranın fəqih və sufiliklə bağlı o dövr üçün cəsarətli sayıla biləcək mövqeyə malik idi. Fəqihlər dində fitva vermək səlahiyyətinə malik din adamları idi. Onun yazdığına görə, çox zaman batil və zalımcasına fitva verirlər, çox vaxt da sultanların, hakimlərin işinə yaramağa çalışırlar. Ona görə də o, islamda fəqihlərin olmasını qəbul etmirdi. Molla Sədra təsəvvüfə də sağlam yanaşılmasını lazım biilir, təsəvvüf görüntüsü yaradılmasının doğru olmadığını bəyan edirdi. Mütəxəssislərin fikrincə fiqh, fəlsəfə və ürfan Molla Sədra təliminin əsasını təşkil edirdi (22).

Molla Məhəmməd Əmin Astrabadi də özündən sonra çoxlu sayda dini əsərlər irs qoyub getmişdi. O, həm Şah Abbas dövrünün, həm də Şah Səfi dövrünün ən tanınmış üləmalarından biri kimi qəbul edilirdi. Molla Məhəmməd Əmin həm fars dilində, həm də ərəb dilində yazmışdır və onun yazdığı əsərlərdən Şah Səfiyə həsr olunanlar da var idi. Molla Məhəmməd Əmin islam

ürfanında mövcud olmuş Əxbarigəri məktəbinin yenidən canlandıran bir zəka sahibi kimi də tanınır. Bu məktəb hicri tarixi ilə IV-V əsrlərdə meydana gəlmişdi. Həmin məktəb hədis əhlinin məktəbi kimi də tanınırdı. Amma uzun müddət bu məktəbin davam etdirilməsi mümkün olmamışdı. Molla Məhəmməd Əmin hicri tarixi ilə XI əsrdə bu məktəbi yenidən canlandırmağı bacarmışdı. Onun "Fəvaid əlmədəniyyə" əsəri bu məktəbin yenidən canlandırılması istiqamətində irəli atılmış bir addım idi. Bu məktəbin davamçıları dini etiqadın hədislər üzərində möhkəmləndirilməsinə xüsusi diqqət yetirirdilər (23).

Molla Məhəmməd Əmininin məşhur əsərlərindən biri də "Risale fi təharətül xəmr" adlanır. Mütəxəssislərin fikrincə, bu əsər Şah Səfinin şərab içməsinə haqq qazandırılması üçün yazılmış bir əsər idi. Əslində, bu əsər Şah Səfinin hakimiyyətə gəlməsi ərəfəsində yazılmışdı. Bununla belə, Şah Səfi taxt-taca sahib olduqdan sonra bu əsər özünə bir aktuallıq qazandı. Belə ki, Şah Səfi hakimiyyətinin əvvəllərində şərabdan uzaq idi və şərab içilməsinə də rəğbətli deyildi. Bildirilir ki, saray həkimləri müalicə və sağlamlıq məqsədilə ona şərab içilməsini məsləhət bilmişdilər. Şah Səfi də bundan sonra şərab içməyə başlamışdı. Şərab içilməsinə başlayandan sonra Şah Səfi namaz qılmaqdan da uzaq düşdü və bunu da belə əsaslandırdı ki, şəraba bulaşan geyimlə namaz qılınması doğru deyil. Yəni şərab haram olduğu üçün onun bulaşdığı geyim də haram vəziyyətinə düşürdü. Haram vəziyyətində olan geyimdə namaz qılınması isə düzgün sayıla bilməzdi. Molla Məhəmməd Əmini isə bu fikrin əksini sübut etməyə çalışırdı. Onun fikrincə, şərab içilməsi namazdan uzaqlaşmağa hesablanıbsa, namaz qılınması da şərabdan uzaqlaşmağa hesabanmalıdır. Molla Məhəmməd Əmininin qənaəti belə idi ki, şərab içmək namaza mane olmamalıdır, əksinə namaz qılınması insanı düz yola, şərabdan uzaqlaşaq yoluna gətirə bilər. Ona görə Molla Məhəmməd Əmini şərab içilməsinə görə namazdan uzaqlaşmağı doğru saymırdı (24).

Səltənət həyatında və idarəçiliyində mühüm yerə malik olan vəzifələrdən biri **eşikağasıbaşı** vəzifəsi idi. Bu vəzifənin sahibi

daha çox sarayın rəsmi həyatının tənzimlənməsi ilə məşğul olurdu. Şah Səfinin hakimiyyəti illərində də bu vəzifənin sahibi şahın yaxın adamlarından biri kimi qəbul olunurdu. Eşikağasıbaşının əsas vəzifəsi saray daxili protokol işlərinin aparılmasına rəhbərlik etmək idi. Bütünlükdə saray kompleksində xidmətin təşkili eşikağasıbaşının rəhbərliyi altında aparılırdı. Xüsusilə, şahın iştirak etdiyi mərasimlərin təşkili, şah hüzurunda toplantıların keçirilməsinin təşkilati işləri eşikağasıbaşının məsuliyyət sahəsinə aid idi. Belə mərasim və toplantılarda iştirak edənlərin və dəvət olunanların harada qərar tutması, şah hüzurundan özlərini necə aparmaları eşikağasıbaşının nəzarəti altında olardı. Şah məclislərinə gələnlər eşikağasıbaşının rəhbərliyi altında olan adamlar tərəfindən qarşılanır və tutacaqları yerlərə müşayiət edirdilər. Bu işlərin görülməsi üçün eşikağasıbaşının rəhbərliyi altında xüsusi xidmət personalı var idi.

Məlumdur ki, Şah Səfi hakimiyyətə başlayanda eşikağasıbaşı vəzifəsini Zeynal xan icra edirdi. Ona səltənət vəkili vəzifəsi də həvalə olunmuşdu. Zeynal xana eyni zamanda səltənət sipəhsaları vəzifəsi tapşırıldı. Amma onun bu vəzifələrdə xidməti uzun sürmədi. İki ildən sonra o eşikağasıbaşı vəzifəsindən azad edildi və qətlə yetirildi. Ondan sonra bu vəzifəyə Uğurlu xan təyin edildi. Həmin vəzifəyə təyin edilənə qədər Uğurlu xan eşikağasılar sırasında xidmət edirdi. Sədaqətli xidməti və fəaliyyəti ilə şahın hörmətini qazandığı üçün o, Zeynal xandan sonra bu vəzifəyə irəli çəkildi. Fars hakimi İmamqulu xan qətlə yetirildikdən sonra ona əlavə olaraq Kuhgiləviyyə vilayətinin hakimliyi də tapşırıldı. Bu vilayətin hakimliyi əslində, ona mükafat kimi verilmişdi. Vilayət Uğurlu xanın adından idarə olunur və oradan əldə edilən gəlirlər də Uğurlu xana çatırdı. Amma bir müddət sonra Uğurlu xan vilayət hakimliyi vəzifəsindən azad edildi və eşikağasıbaşı vəzifəsində saxlanıldı. Səltənətin vəziri-əzəmi Mirzə Talıb xan vəzifəsindən azad edilib qətlə yetiriləndə Uğurlu xan da eşikağasıbaşı vəzifəsindən azad edildi və bir müddət sonra da onun həyatna son qoyuldu (25).

Uğurlu xanın qətlindən sonra eşikağasıbaşı vəzifəsinə İmamqulu xan İnanlu təyin edildi. Həmin vəzifəyə qədər o, inanlu qorçularının yüzbaşısı vəzifəsində xidmət edirdi. Sədaqətli və fədakar xidməti onun bu vəzifəyə yüksəlməsinə yol açdı. Bununla belə, İmamqulu xan da Şah Səfinin qəzəbinə tuş gəldi və o da qətlə yetirildi. Ondan sonra bu vəzifəyə Canı xan təyin edildi. O da səltənətin tanınmış əmirlərindən biri idi. Bir müddət sonra Canı xanın vəzifəsi daha da böyüdüldü və o, qorçubaşı vəzifəsinə təyinat aldı. Şah Səfinin hakimiyyəti dövründə sonuncu eşikağasıbaşı Murtuzqulu xan Şamlı oldu. Qeyd edilməlidir ki, əvvəlki Səfəvi şahlarının hakimiyyəti dövründə olduğu kimi, Şah Səfinin hakimiyyəti illərində də eşikağasıbaşı vəzifəsinə təyinat alanlar hamısı qızılbaş türkləri idilər. Murtuzqulu xan bu vəzifəyə təyin ediləndən əvvəl bicarlı tayfasından toplanmış qorçuların yüzbaşısı idi. O da həmin vəzifədə yaxşı xidmət etdiyi üçün belə yüksək vəzifəyə irəli çəkildi (26).

İsgəndər bəy Münşi öz əsərində **şah hərəminin eşikağasıbaşı** vəzifəsində xidmət etmiş qızılbaş əyanlarının adlarını vermişdir. Kitabda onların vəzifəsi haqqında məlumat verilməsə də, güman etmək olar ki, bu vəzifə sahibi şahın ailə üzvlərinin həyatının təşkili və tənzimlənməsi ilə məşğul idi. Belə olduğu təqdirdə həmin vəzifəyə də yalnız şahın etibar etdiyi adamlar təyinat ala bilərdilər. Həmin vəzifədə çalışmış ilk qızılbaş əyanı Əbülqasım bəy Evoğlu idi. Görünür, onun saray eşikağasıbaşı Zeynal xanla yaxı münasibətləri var imiş. Zeynal xan həmin vəzifədən kənarlaşdırılandan sonra Əbülqasım bəy də öz vəzifəsindən uzaqlaşdırıldı. Onun yerinə abdarbaşı Çələbi bəy təyin edildi. Çələbi bəy bu vəzifəyə təyin ediləndə kifayət qədər yaşı var idi və həyatının sonuna qədər bu vəzifədə qaldı. Onun dünyasını dəyişməsindən sonra həmin vəzifəyə Heydər bəy Evoğlu təyin edildi. Heydər bəy Əbülqasım bəy Evoğlunun oğlu idi. O, Şah Səfinin hakimiyyətinin sonuna qədər bu vəzifədə qaldı (27).

Səfəvi qoşunlarının tərkibində qullar (qulamlar) dəstəsinin xüsusi yeri var idi. Bu dəstə Şah Abbasın apardığı islahatlardan son-

ra Səfəvi qoşunlarının tərkibində ayrıca bir dəstə kimi formalaşmışdı. Bu dəstənin xidmətinin təşkilinə **qullarağasıbaşı** rəhbərlik edirdi. Şah Səfinin hakimiyyətinin əvvəlində bu vəzifəni Rüstəm xan icra edirdi. Rüstəm xan gürcü şahzadələrindən idi və islam dinini qəbul etmişdi. Şah Səfi hakimiyyətə gələndə o, Xosrov bəy adı ilə İsfahan darğası vəzifəsində idi. Şah Səfinin fərmanı ilə qullarağasıbaşı vəzifəsinə gətirildi və özünə də Rüstəm xan adı verildi. Sonradan Rüstəm xan Gürcüstana göndərildi və onun yerinə Siyavuş bəy təyin edildi. Həmin təyinata qədər Siyavuş bəy xassə qulamlar dəstəsinin yüzbaşısı idi. Şah Səfinin hakimiyyətinin sonuna qədər Siyavuş bəy bu vəzifəni icra etdi. Ona eyni zamanda Xorasan vilayətinin sərdarı vəzifəsi də həvalə olundu.

Şah Səfinin hakimiyyəti dövründə qoşunların **tüfəngçiağasıbaşı** vəzifəsi də gərəkli vəzifələrdən biri sayılırdı. Bu vəzifə sahibi Səfəvi qoşunları tərkibində odlu silahla silahlanmış qoşun dəstəsinin xidmətinin təşkilinə rəhbərlik edirdi. Tüfəngçilər və topçular dəstəsinin meydana gəlməsi də Şah Abbas tərəfindən Səfəvi qoşunları tərkibində aparılmış islahatların nəticəsi idi. Həmin vəzifəyə Şah Səfinin hakimiyyəti dövründə ilkin olaraq büyütat naziri olmuş Zaman bəy təyin edildi. Zaman bəy qulamlar dəstəsində xidmətə başlamış və büyütat naziri vəzifəsinə qədər yüksəlmişdi. Sonradan isə o, tüfəngçiağasıbaşı vəzifəsinə gətirildi. Zaman bəydən sonra bu vəzifəyə Mir Fəttah təyin edildi. Bu adam İsfahanda təşkil edilmiş tüfəngçilər dəstəsinin rəhbər idi. İsgəndər bəyin verdiyi məlumatdan belə bir qənaət hasil olur ki, Bağdadın mühasirəsi zamanı Mir Fəttah da Osmanlı qoşunlarına əsir düşdü. Digər əsirlərlə birlikdə Osmanlı ərazisinə aparılan Mir Fəttah oradan bir də geri qayıtmadı. Belə olanda bu vəzifəyə Mir Fəttahın kiçik qardaşı olan Ağa Tahir təyin edildi. İsgəndər bəy Münşi onun da sədaqətlə öz vəzifəsini icra etdiyini bildirirdi. Bu adam Şah Səfinin hakimiyyəti illərində sonuncu tüfəngçiağasıbaşı oldu (28).

İsgəndər bəy Münşinin istinad olunan əsərində Şah Səfi dövrünün məclisnevisləri və münəccimləri haqqında da müxtəsər məlumat verilmişdir. Şah Abbasın hakimiyyəti illərində **məclisne-**

vislər (məclis mirzəsi) böyük səlahiyyətlərə malik idi. O da məlum idi ki, vəziri-əzəm olmayanda məclisnevislər onları əvəz edirdilər. Bu vəzifə sahibləri hətta sol vəzir kimi də tanınırdılar. Çünki onlar şah məclislərində şahın sol tərəfindən dayanardılar. Məclisnevislərin vəzifəsi şah üçün əhəmiyyət kəsb edən məlumatların toplayıb şaha ərz etmək idi. Sarayda təşkil olunacaq məclislərin məqsədi, şah qəbuluna gəlmiş olan qonaqların, elçilərin məqsədləri, yerlərdə vəziyyət haqqında toplanmış olan məlumatların şaha ərz edilməsi də məclisnevislərin məsuliyyət sahəsinə aid idi. Bəzi məlumatlara görə, şah tərəfindən təsdiqlənməli olan sənədlər də məclisnevislərin əlindən keçirdi, onlar bu sənədlərin məzmunu ilə tanış olduqdan sonra onlar haqqında şaha məruzə edirdilər.

Şah Səfinin hakimiyyətinin əvvəlində Şah Abbas dövrünün vəziri-əzəmi Hatəm bəy Ordubadinin oğlu Mirzə Talıb xan məclisnevis vəzifəsini icra edirdi. Mirzə Talıb xan məclisnevis kimi şahın yaxın ətrafına daxil idi. Onun bu vəzifədəki xidməti yaxşı qiymətləndirildiyi üçün idi ki, sonradan vəziri-əzəm vəzifəsinə irəli çəkildi. Ondan sonra bu vəzifə Mirzə Məhəmməd Toysərqaniyə tapşırıldı. Mirzə Məhəmməd Təbriz istiqamətində vəzifə icra edərkən dünyasını dəyişdi. İsgəndər bəyin məlumatından belə aydın olur ki, Şah Səfinin hakimiyyəti illərində məclisnevis vəzifəsinin sonuncu icraçısı Mirzə Məsum idi (29).

Şah Səfinin hakimiyyəti illərində saray münəccimləri vəzifəsini dövrünün tanınmış nücum alimləri və astronomları icra etmişdilər. Onların arasında Mirzə Məhəmməd Tağı, Mirzə Məhəmməd Şəfi, Mirzə Məhəmməd Müqim, Molla Məhəmməd Tahir kimi tanınmış münəccimlər var idi. Münəccimlər səltənət idarəçiliyinin mühüm elementlərindən biri kimi qalmaqda davam edirdilər (30). Şah tərəfindən ciddi məsələlərlə bağlı qərar qəbul edilməzdən əvvəl münəccimlərin rəyi soruşular və onların köməyi ilə qərarların verilməsi və icrasına başlanması üçün münasib günlər müəyyənləşdirilərdi. Bu yolla münəccimləri şah qərarlarının verilməsinə müəyyən təsir imkanlarına malik idilər.

2. Xarici siyasət

Şah Abbasın hakimiyyəti illərində istər şərq ölkələri ilə, istərsə də qərb ölkələri ilə işlək və faydalı münasibətlərin qurulması sahəsində ciddi addımlar atılmışdı. Şah Səfinin hakimiyyəti illərində də həmin münasibətlərin saxlanması dövlətin maraqların çərçivəsində idi. Lakin Səfəvi dövlətinin böyük qonşuları olan Osmanlı dövləti, özbək xanlıqları, o cümlədən də Hindistan hakimləri Şah Səfinin cavan və təcrübəsiz olmasından istifadə etməyə çalışaraq öz maraqlarının həyata keçirilməsi üçün güc siyasətinin izlənilməsi seçimini etdilər. Şah Səfi özbək xanlarının Xorasan vilayəti ərazisinə davamlı hərbi yürüşlərinin qarşısını almağa müvəffəq olsa da, Osmanlı qoşunlarının yürüşləri qarşısında güzəştə getməli oldu. 1639-cu ildə iki dövlət arasında imzalanmış Qəsri-Şirin müqaviləsinə əsasən, Səfəvi dövləti Bağdad şəhərini və onun ətrafını Osmanlı dövlətinə güzəştə getməli oldu.

Səfəvi dövlətinin şərq hüdudlarına qarşı təhlükə yalnız özbək qoşunları tərəfindən deyildi. Hindistan hakimləri də Şah Abbasın hakimiyyəti illərində itirdikləri Qəndəhar vilayətinin geri qaytarılması niyyətlərindən heç də əl çəkməmişdilər. Bu niyyətin həyata keçirilməsi üçün Moğol imperatorluğunun kifayət qədər gücü də var idi. Həmin gücə istinad etməklə Moğol padşahı Şah Cahan əməli addımlar da atırdı.

Bir məlumata görə, Şah Səfi hakimiyyətə gələndə Moğol dövlətinin Səfədər xan adlı bir elçisi İsfahanda idi. Bu elçi Şah Səfinin hakimiyyətə gəlməsi, onun taxt-taca çıxmasından sonra özbək və Osmanlı qoşunlarının Səfəvi dövləti üzərinə hücuma başlaması, yəni Səfəvi dövlətinin çətin duruma düşməsi haqqında Moğol hökmdarı Şah Cahana məlumat göndərdi (31).

Başqa bir məlumata görə isə, taxt-taca çıxmasından bir neçə ay sonra, yəni 1629-cu ilin sentyabr ayında Şah Səfi də qarşılıqlı xoş münasibətlərin saxlanması üçün öz elçilik heyətini Hindistana göndərdi. Bu elçilik heyətinə Məhəmməd Əli bəy adlı birisi rəhbərlik edirdi. Məhəmməd Məsum İsfahaninin yazdığına görə,

Məhəmməd Əli bəy şahın yaxın adamlarından biri idi. Heyət özü ilə moğol padşahına çoxlu sayda qiymətli hədiyyələr aparırdı. Mənbə məlumatına görə, bu hədiyyələrin ümumi dəyəri 30 min tümən idi. Mövcud məlumata görə, Məhəmməd Əli bəyin rəhbərlik etdiyi bu heyət 2 min nəfərdən ibarət idi. Belə böyük bir heyət təxminən yeddi aylıq səfərdən sonra 1630-cu ilin aprel ayında Şah Cahanın iqamətgahının yerləşdiyi Burhanpura yetişdi (32).

Səfəvi mənbələrindən birində bildirilirdi ki, Şah Səfi hakimiyyətə gəldikdən sonra saraya təşrif gətirmiş hind elçisinin geri qayıtmasına icazə verdi. Bu elçiyə çoxlu sayda qiymətli hədiyyələr də bağışlandı. Həmin hədiyyələrin arasında İraq atları və digər qiymətli hədiyyələr var idi. Ardınca da Səfəvi sarayının elçisinin göndərilməsi haqqında qərar qəbul edildi. Bu mənbə müəllifi Məhəmməd Əli bəyin haqqında böyük səxavətlə xoş sözlər söyləyir, onun vəsf edilməsi üçün uzun-uzadı cümlələr yazırdı. Bu mənbədə göstərilirdi ki, Şah Cahana göndərilən hədiyyələr son dərəcə qiymətli idi və belə qiyməti hədiyyələr heç bir padşahın xəzinəsində görülməmişdi (33).

Şah Səfinin elçilik heyətinin yola düşməsindən az sonra, yəni 1629-cu ilin oktyabr ayında Şah Cahan da öz elçilik heyətini Səfəvi sarayına yola saldı. Bu zaman Səfəvi elçilik heyəti hələ yolda idi. Moğol sarayından elçilik heyətinin göndərilməsində məqsədin Şah Abbasın dünyadan köçməsi ilə bağlı baş sağlığının və Şah Səfinin taxta çıxması ilə bağlı təbriklərin çatdırılması elan edilsə də, əslində məqsəd Şah Abbasın vəfatından sonra Səfəvi daxilindəki vəziyyət haqqında ətraflı məlumat əldə etmək idi. Elçilik heyəti özü ilə bir baş fil, qiymətli daşlarla bəzədilmiş xəncər, qılınc və digər qiymətli hədiyyələr aparırdı. Şah Səfiyə yazdığı məktubunda Şah Cahan onu öz övladı adlandırırdı və bildirirdi ki, Səfəvi şahına istənilən köməyi də göstərməyə hazırdır (34).

Məhəmməd Əli bəyin rəhbərliyi altında olan elçilik heyəti isə moğol sarayında böyük təntənə ilə qarşılandı. Hind mənbələrindən biri bu barədə belə yazırdı: "...Padşahın hökmü ilə Əfzəl xan və Sadiq xan Burhanpur ətrafına yetişmiş olan Məhəmməd Əli bəyi

qarşıladılar və sonra da onu padşahın hüzuruna müşayiət etdilər. Elçi öz ehtiramını bildirəndən və təzim edəndən sonra Şah Səfinin taxta çıxmasını bəyan edən məktubu ona təqdim etdi, şahın dualarını çatdırdı. Şahənşah bu məktubu mübarək əli ilə qəbul etdi və Əfzəl xana tapşırdı. Görüşdə Məhəmməd Əli bəy şah tərəfindən göndərilən hədiyyələrin təqdimi üçün vaxt ayrılmasını xahiş etdi. ...Təyin olunan gün Məhəmməd Əli bəy üç baş İraq atı və digər nəfis hədiyyələri Şah Səfi adından təqdim etdi. Göndərilən hədiyyələrin ümumi qiyməti üç lək (3 milyon) rupi idi. Onlar hamısı şahın diqqətinə çatdırıldı" (35).

Şah Səfinin göndərdiyi elçilik heyəti təxminən üç ilə yaxın moğol sarayında qaldı. Lakin bu müddət ərzində Məhəmməd Əli bəy iki dövlət arasında münasibətlərin yaxşılaşdırılması istiqamətində ciddi bir nəticə əldə edə bilmədi. 1629-cu ildə Şah Cahan tərəfindən Səfəvi sarayına göndərilmiş elçilik heyəti isə 1631-ci ilin fevralında İsfahana yetişdi. Bu elçilik heyətinə Seyid Bərəkə rəhbərlik edirdi. Seyid Bərəkə moğol imperatorluğunun sayıb-seçilən seyid nəslindən idi və dövrünün hörmətli bir adamı kimi moğol elçilik heyətinə rəhbər təyin edilmişdi. Hind elçisi Səfəvi sarayında mehribanlıqla qarşılandı və ona yüksək qonaqpərvərlik göstərildi. Seyid Bərəkə özü ilə gətirdiyi məktubu və qiymətli hədiyyələri Şah Səfiyə təqdim etdi. Şah Səfi də bu elçilik heyətinin gəlişini iki dövlət arasında münasibətlərin yaxşılaşması əlaməti kimi qarşıladı və təxminən beş aydan sonra elçilik heyətinin geri qayıtmasına icazə verdi. Ona və hind padşahına şah tərəfindən qiymətli hədiyyələr təqdim olundu (36).

Səfəvi elçisi Məhəmməd Əli bəy moğol sarayından geri yola düşəndə Şah Cahan onunla birlikdə öz elçilik heyətini də İsfahana göndərdi. Bu elçilik heyətinə Səftər xan adlı birisi rəhbərlik edirdi. Çox güman ki, Şah Cahan dinc yolla Qəndəharı geri qaytarmaq istəyirdi. Ona görə də Şah Səfinin hakimiyyətinin ilk illərində Şah Cahan tərəfindən də iki tərəfli münasibətlərin qorunması ilə bağlı bir görüntü yaradılması müşahidə olunurdu. Səftər xan vasitəsilə Şah Cahan həm Şah Səfiyə ünvanladığı məktubu, həm də təxmi-

nən dörd milyon rupilik qiymətli hədiyyələri göndərdi. Amma Şah Cahanın məktubundan onun Səfəvi dövlətinə qarşı müəyyən iddialara düşməsini hiss etmək olardı. Onun yazdığına görə, Şah Abbasın yaxın ətrafından yüksək vəzifədə artıq kimsə qalmamışdı ki, iki dövlət arasında münasibətlərinə necə qurulması ilə bağlı öz məsləhətlərini Şah Səfiyə çatdırsın. Eyni zamanda Şah Cahan kiçik dövlətlər üzərinə hücum etməsi və onları özünə tabe etməsi ilə bağlı öz eyhamlarını da Şah Səfiyə çatdırırdı. Yəni Şah Cahan artıq Qəndəhar üzərinə hücum etmək imkanına da malikdir.

Hind elçisi Səftər xan 1633-cü ilin may ayında İsfahana doğru hərəkətə başladı. Lakin o, İsfahana yetişəndə Şah Səfi səltənət paytaxtında deyildi. O, İrəvan qalasının Osmanlı qoşunlarından geri alınması ilə məşğul idi və Azərbaycan ərazisində düşərgə salmışdı. Ona görə də Səftər xan şah tərəfindən qəbul olunması üçün xeyli gözləməli oldu. Məlumdur ki, İrəvan qalası ətrafındakı döyüşlər xeyli müddət davam etməli oldu. Ona görə də bir məlumata görə, hind elçisinin Şah Səfi tərəfindən qəbul edilməsi Kaşanda baş tutdu. Bu qəbul mehriban bir şəraitdə keçdi və Şah Səfi hind sarayına öz ehtiramını bir daha nümayiş etdirdi. Şah Səfi Kaşandan İsfahana doğru hərəkətə başlayarkən hind elçisini də hörmət əlaməti olaraq yanına aldı. İrəvan ətrafındakı döyüşlər 1636-cı ilin ortalarına qədər davam etdi. Şah Səfinin hind elçisi ilə görüşməsi də həmin vaxtlara təsadüf edirdi. Hind sarayına qarşı Şah Səfi mehriban qonşuluq əlaqələrinin yaradılmasının tərəfdarı idi və onun bu niyyəti hind elçisinin qəbulunda da özünü göstərdi. Səftər xana böyük ehtiram göstərildi və geri qayıdarkən ona və Şah Cahana çox qiymətli hədiyyələr verildi. Şah Cahan üçün ayrılmış olan hədiyyələrin ümumi qiyməti beş milyon rupiyə bərabər idi (37).

Səftər xan Səfəvi daxilində olarkən hind sarayının başqa bir elçilik heyətinin İsfahana gəlməsi haqqında da mənbələrdə məlumat vardır. Mir Humay tərəfindən rəhbərlik edilən həmin elçilik heyəti 1634-cü il aprel ayının 9-da İsfahana yetişdi. Bu heyətin gəlişində məqsəd Səfəvi dövləti hüdudlarında yetişdirilən atlar almaq və

hind sarayına aparmaq idi. Amma hələ Şah Səfidən əvvəl səltənət hüdudlarında yetişdirilən atların xarici satılması qadağan edilmişdi. Buna baxmayaraq, Şah Səfi hind elçisini həm mehribanlıqla qarşıladı, həm də ona at satılmasına icazə verdi. Saray ərkanı isə bu atların səltənət hüdudlarından çıxarılmasına razı deyildi. Bununla belə, məlum olmayan sayda arlar hind elçisinə satıldı. Mir Humayun bu atları öz ölkəsinə apararkən, yolda Herat hakimi tərəfindən dayandırıldı və atlar müsadirə olundu (38).

Mir Humayundan əvvəl gəlmiş Səftər xan sonrakı bir neçə il ərzində hind sarayının Səfəvi sarayındakı elçisi vəzifəsini icra etdi (39). Onun İsfahanda olduğu vaxt hind elçilik heyətinin üzvlərindən biri ilə Şelzvik Holştaynın rəhbərliyi altında olan alman elçilik heyətinin üzvlərindən biri arasında münaqişə yarandı. Amma sonradan bu münaqişə kifayət qədər ciddi xarakter aldı və iki ölkənin elçilik əməkdaşları arasında qarşıdurmaya gətirib çıxardı. Bu qarşıdurmaya İsfahanda yaşanan hind əsilli sakinlər də qoşuldular. Qarşıdurma o dərəcədə güclü oldu ki, tərəflər hətta itki də verməli oldular. Farsdilli mənbələrdən birində həmin qarşıdurma haqqında belə yazılmışdı: "Bir sözlə, Səftər xan Hindistana geri qayıtmaq üçün icazə aldı. Hindistana geri qayıtmaq üçün hazırlıq işləri apardığı bir vaxtda onun adamlarından biri ilə firəng (alman elçiliyi nəzərdə tutulur – M.S.) elçiliyinin üzvlərindən biri arasında Zayəndərud çayı sahilində bir münaqişə baş verdi. Bu münaqişə ondan ibarət idi ki, firəng elçiliyinin nümayəndəsi tamaşa etdiyi zaman yer seçimi ilə bağlı Səftər xanın adamlarından biri ilə mübahisə yarandı. Az sonra hər iki elçiliyin adamları öz nümayəndələrinin köməyinə qalxdılar. Onlar arasında söz güləşməsi iti qılıncların çıxarılmasına gətirib çıxardı. Hind tərəfi sayca çox idi və İsfahanda sakin olan multanılar da onlara kömək edirdilər". Mənbənin verdiyi məlumata görə, almanlar sayca az olduqlarını görəndə silaha əl atdılar və hətta top və tüfəngi işə saldılar. Nəticədə hər iki tərəfdən qətlə yetirilən oldu. Tərəflər arasında baş verən atışma zamanı şəhər sakinlərindən də bir neçə nəfər güllə və mərmilərin qurbanı oldu. Silahlı qarşıdurma elə bir

miqyas aldı ki, məsələ Şah Səfiyə də ərz olundu. Şahın tapşırığı əsasında İsfahan darğası olan Rüstəm xanın köməkçisi Mir Qasım bəy tərəflərin sakitləşdirilməsinə göndərildi. Yalnız onun öz adamları ilə işə qarışması nəticəsində tərəfləri bir-birindən aralaşdırmaq mümkün oldu (40).

Səftər xanın elçi kimi Səfəvi sarayında olduğu vaxtda hind sarayında da Səfəvi sarayının uzunmüddətli elçilik heyəti var idi. Həmin elçilik heyətinə Əhməd xan rəhbərlik edirdi. Bu elçilik heyəti hələ Şah Abbasın hakimiyyəti illərində hind sarayına göndərilmişdi. Görünür, Şah Səfi onun fəaliyyəti ilə razı deyildi. Ona görə onu geri çağırdı və yerinə Yadigar bəyi təyin etdi (41).

Səftər xan elçiliyi geri qayıdarkən çox yavaş hərəkət edirdi. O, hələ hind sarayına yetişməzdən əvvəl hind sarayından yeni bir elçilik heyəti İsfahana yola salındı. Bu elçilik heyətinə Mir Hüseyn adlı birisi rəhbərlik edirdi. Onun gətirdiyi məktubda Şah Cahan böyük bir sevinclə Adilşahi və Qütbşahı dövlətlərinin fəth edildiyini Şah Səfinin nəzərinə çatdırırdı. Əslində, bu məlumat Şah Səfi üçün bir xəbərdarlıq idi və bununla Qəndəharın da fəth ediləcəyini yəqin ki, onun nəzərinə çatdırmaq istəyirdi. Bu heyət 1637-ci ilin fevral ayında İsfahana yetişdi. Hind elçisinin yaxınlaşması xəbəri alınanda Şah Səfi onun qarşılanması haqqında göstəriş verdi. Şahın tapşırığı əsasında cəbadarbaşının rəhbərliyi altında bir dəstə yüzbaşı şəhər kənarında hind elçisini qarşılamağa yollandı. Çox güman ki, hind elçisi fevral ayının sonlarında İsfahana yetişmişdi. Çünki Şah Səfi bildirdi ki, onu öz hüzuruna bir də Novruz bayramında qəbul edəcəkdir. Həmin vaxta qədər hind elçisinin qayğılarının həll edilməsi üçün ona mehmandar təyin edildi və yaşayışının təmin edilməsi məqsədilə lazımi göstərişlər verildi (42).

Elə həmin günlərdə Qəndəhar hakimi Əlimərdan xandan da məlumat alındı. Həmin məlumat Xorasanda olan qullarağası tərəfindən şah sarayına göndərilmişdi. Siyavuş bəy yazırdı ki, bu günlərdə Əlimərdan xanın məktubu ona çatdırılmışdır. Bu məktubda Əlimərdan xan səltənət qullarağası Siyavuş bəyə yazmışdı ki, o,

Qəndəhar tərəfə gəlməsin və açıqca bəyan etmişdi ki, o, artıq Səfəvi dövlətinə tabe olmaq niyyətində deyil. Əlimərdan bəy sonra da yazırdı ki, Siyavuş bəy qızılbaş dəstəsi ilə Qəndəhara gələrsə onun dəstəsi düşmən dəstəsi kimi qarşılanacaqdır (43).

Hind sarayından gəlmiş heyətlərin ardınca Şah Səfi də öz heyətini yola saldı. Bu heyətə hind sarayına elçi kimi təyin edilmiş Yadigar bəy rəhbərlik edirdi. Şah Səfi bu heyət vasitəsilə hind sarayına xeyli sayda qiymətli hədiyyələr göndərdi. Həmin hədiyyələrə 12 baş cins at, 3 ədəd qiymətli daşlarla bəzədilmiş tüfəng daxil idi. Yadigar bəy eyni zamanda Şah Səfinin məktubunu Şah Cahana çatdırmalı idi. Şahın tapşırığına əsasən, Yadigar bəyin heyəti sürətlə hərəkət etdi və Səftər xandan əvvəl hind sarayına yetişdi. Yadigar bəyin səfəri zamanı Qəndəhar ətrafında vəziyyət mürəkkəbləşsə də, Şah Səfi məktubunda bu məsələyə toxunmamışdı. Onun məktubunda əsasən, ikitərəfli münasibətlərin xoş məram üzərində qurulmasına dəstək ifadə olunmuş, Səfəvi qoşunlarının İrəvan ətrafında Osmanlı qoşunları üzərindəki uğuruna toxunulmuşdu. Şah Səfi Qəndəhar ətrafında vəziyyətin mürəkkəbləşməsindən xəbərdar olsa da, görünür hələ də hind sarayının işğalçılıq niyyətində olmayacağına ümid edirdi. Amma Yadigar bəy hind sarayına yetişəndə Qəndəhar artıq hind qoşunları tərəfindən işğal altına alınmışdı. Bu hadisə 1638-ci il mart ayının əvvəllərində baş verdi. İki dövlət arasında elçilik heyətlərinin davamlı mübadiləsinə baxmayaraq, Qəndəharın hind qoşunları tərəfindən işğal edilməsi qarşılıqlı münasibətlərə təsirsiz ötüşmədi. Şah Cahan isə Qəndəharı işğal altına almasına baxmayaraq, Səfəvi sarayı ilə münasibətləri saxlamağa çalışırdı. Buna görə idi ki, onun tərəfindən Yadigar bəy mehribanlıqla qarşılandı və təxminən yarım ildən sonra çoxlu sayda qiymətli hədiyyələrlə onun geri qayıtmasına da icazə verdi (44).

Qəndəhar şəhərinin taleyi Səfəvi dövləti ilə Moğol imperiyası arasında münasibətlərin formalaşmasına ciddi təsir göstərirdi. Tarixdən bəllidir ki, bu şəhər hələ I Şah İsmayılın hakimiyyəti illərində Səfəvi dövlətinin tərkibinə qatılmışdı. Şah Təhmasibin

xələfləri dövründə bu şəhər hind qoşunları tərəfindən işğal edilsə də, Şah Abbas onu yenidən Səfəvi dövlətinin tərkibinə qata bilmişdi. Qəndəhar şəhəri səltənətin şərq hüdudlarında yerləşməklə Səfəvi dövləti üçün həm hərbi-strateji, həm də iqtisadi əhəmiyyəti var idi. I Şah İsmayıl tərəfindən bu şəhər fəth edildikdən sonra onun müdafiəsinin möhkəmləndirilməsi istiqamətində ciddi işlər görüldü, şəhərin qala divarları yenidən quruldu. Xüsusilə, bu şəhər-qala üzərində hind təhlükəsinin olması Qəndəhar qalasının daha da möhkəmləndirilməsini tələb edirdi. Ona görə də ildən-ilə Qəndəhar qalasının divarları daha da möhkəmləndirilirdi (45).

Şah Səfinin hakimiyyəti illərində Qəndəhar qalası bölgənin ən möhkəm və qüdrətli qalalarından biri hesab edilirdi. Onun beş darvazası var idi və həmin darvazalar da etibarlı şəkildə mühafizə olunurdu. Qala divarları üzərində qurulmuş olan bürclər onun müdafiəsini daha da etibarlı edirdi. Mənbə məlumatlarına görə, Qəndəharın qala divarları üzərində 50 bürc var idi. Onların daxilində yerləşdirilmiş toplar və tüfəngçilər hücum edən qüvvələrə qarşı müqavimətin gücləndirilməsinə ciddi təsir göstərirdi. Qala elə planlaşdırılmışdı ki, qəfil hücumla onu almaq mümkün deyildi və qala daxilində uzun müddət mühasirə şəraitində yaşamaq olardı. Şəhər sakinləri üçün su mənbələri də yaxında idi. Bu da şəhər daxilində uzun müddət yaşamaq imkanlarını artırırdı. Həm də bu şəhər Hindistan üçün təbii mühafizə xətti üzərində yerləşirdi. Qəndəhardan keçən dağ silsilələri Hindistana tərəf irəliləmək niyyətində olan hərbi qüvvələrin qarşısının alınmasında təbii mühafizə xətti kimi qəbul edilirdi. Ona görə hind-moğol hakimləri Qəndəharın ələ keçirilməsinə hər zaman maraq göstərirdilər. Hərbi-strateji məkanda yerləşdiyi üçün Qəndəhar şəhəri özbək xanlarının da diqqətini cəlb edirdi. Qəndəharın ələ keçirilməsi ilə onlar Herat-Qəndəhar xəttinə hakim ola bilərdilər və bununla bütün Xorasan vilayətini də daha asanlıqla nəzarət altında saxlamaq olardı (46).

Bu şəhərin iqtisadi əhəmiyyəti isə onun Hindistandan Kabula və Herata aparan yol üzərində yerləşməsi idi. Yəni şəhər işlək

ticarət karvanlarının yolu üzərində yerləşməklə, həm də bölgənin mühüm ticarət mərkəzlərindən biri idi. Bu şəhər həm də özbək şəhərlərindən Hindistana gedən karvanların əsas işlək yolu idi. Şərq bazarlarında satışı böyük olan xeyli sayda hind mallarının daşınması da əsasən Qəndəhardan keçən yol vasitəsilə həyata keçirilirdi. Yəni Qəndəhar əslində, bütün bölgənin ticarətinin inkişafında xüsusi bir yerə malik idi. Eyni zamanda, Səfəvi dövləti ərazisində istehsal olunan mallar, o cümlədən də ipək Hindistan bazarına Qəndəhardan keçməklə daşınırdı. Ticarət karvanlarının Qəndəhardan keçməsi həm bu şəhərin böyüməsinə, həm də şəhər sakinlərinin zənginləşməsinə yol açırdı. Qala ətrafında da yaşayış məskənləri meydana gəlmişdi. Böyük ticarət karvanları Qəndəhar yolundan keçdiyi üçün bu yol ətrafında talançı dəstələr də meydana gəlmişdi. Həmin dəstələr imkan tapan kimi ticarət karvanlarının üzərinə hücum edir və bu karvanları talayırdılar. Qəndəhar hakiminin mühüm vəzifələrindən biri də ticarət karvanlarının təhlükəsizliyini təmin etmək idi. Qəndəhar hakimi Əlimərdan xan da bu istiqamətdə ona həvalə olunan vəzifəni yerinə yetirirdi. Qəndəhar daxlində ticarət karvanlarının qəbul edilməsi, onların gecələməsinin və istirahətinin təşkili üçün də lazımi şərait yaradılmışdı. Hindistan istiqamətində və geri hərəkət edən ticarət karvanları bir qayda olaraq Qəndəharda dayanırdılar. Bu isə Əlimərdan xana böyük sərvətlər gətirirdi. Mənbə məlumatlarına görə, ticarət karvanlarından əldə edilən gəlirlər Əlimərdan xanın ümumi gəlirlərinin mühüm bir hissəsini təşkil edirdi (47).

Bəzi tədqiqatçılar Qəndəharın Əlimərdan xan tərəfindən hind sarayına təhvil verilməsini Şah Səfinin vilayət hakimlərinə qarşı yeritdiyi sərt siyasətlə bağlayırlar. Belə iddia olunur ki, Şah Səfi hakimiyyətə gələndən sonra Şah Abbas dövrünün saray mənsublarına və yerli hakimlərə qarşı barışmazlıq nümayiş etdirir, onları qətlə yetirməklə tutduqları vəzifələrdən də azad edirdi. Qəndəhar hakimi Əlimərdan xan da Şah Səfi təhlükəsini hiss etdiyi üçün Səfəvi sarayından aralanmaq qərarına gəldi. Hər halda

bu zaman Əlimərdan xanın özünün də şöhrəttələb bir insan olduğu nəzərdən qaçırılmırdı (48).

Amma əslində, məsələ daha ciddi köklərə bağlı idi. Şah Təhmasibin hakimiyyəti illərində Qəndəhar hakimi onun qardaşı Bəhram Mirzənin oğlu olan Sultan Hüseyn Mirzə idi. Məlumdur ki, elə Şah Təhmasibin hakimiyyəti illərində Qəndəhar hind qoşunlarının nəzarəti altına düşdü. Bu şəhər itiriləndə Sultan Hüseyn Mirzə də oradan uzaqlaşmalı oldu. Şah Təhmasib yenidən Qəndəharı Səfəvi dövlətinin tərkibinə qatanda bu şəhərin hakimi vəzifəsinə artıq Gəncəli xanı təyin etdi. Qəndəhar ətrafında vəziyyətin gərgin xarakter alması Fuşəng hakimi Şirxanla Əlimərdan xanın arasında mövcud olan anlaşılmazlıqların böyüməsi ilə bağlı idi. Şirxanın atası Həsən xan Şah Abbasa sədaqətli olan əmirlərdən biri idi. O, dünyasını dəyişdikdən sonra Şah Abbas onun oğlu Şirxanı saraya gətirdi və bir müddət sarayda saxladı. Sonradan isə o, Şah Abbas tərəfindən Fuşəng hakimi təyin edildi. Əlimərdan xan isə uzun müddət Qəndəharda hakim olmuş Gəncəli xanın oğlu idi. Gəncəli xan dünyasını dəyişdikdən sonra Şah Abbas onun səltənət qarşısındakı sədaqətli xidmətini nəzərə alaraq oğlu Əlimərdan xanı bu şəhərin hakimi vəzifəsinə təyin etdi. Hakimliyinin ilk illərində Əlimərdan xan atasının yolunu davam etdirərək mərkəzi hakimiyyətə sədaqətli qaldı. Başlıcası isə Qəndəhardan keçib gedən ticarət karvanlarının təhlükəsizliyinin təmin edilməsi istiqamətində səmərəli addımlar atdı. Əlimərdan xan yaxşı başa düşürdü ki, bu yolla o, həm də Şah Abbasın rəğbətini qazana biləcəkdir. Ona görə də, Şah Abbasın hakimiyyəti illərində Əlimərdan xana qarşı ciddi bir narazılıq yox idi (49).

Fuşəng hakimi olan Şirxan isə çox böyük iddialar ortaya qoydu. O, kiçik bir məntəqənin hakimliyi ilə kifayətlənmirdi və ətrafına toplaya bildiyi silahlı dəstə ilə talançılıqla məşğul olurdu. Yaxın ətrafdakı məntəqələr, Hindistan və əks istiqamətdə hərəkət edən ticarət karvanları onun silahlı dəstəsi tərəfindən hücumlara və talanlara məruz qalırdılar. Fuşəng ətrafındakı məntəqələrin hakimləri asudə yaşayışlarını itirmişdilər. Karvan sahibləri də o

qədər basqınlara məruz qaldılar ki, axırda Əlimərdan xana şikayət etdilər. Hətta Hindistanın sərhəd bölgəsinin hakimləri də Şirxanın davam edən talanlarından şikayətlərini Əlimərdan xana çatdırdılar və ondan xahiş etdilər bu özbaşınalıqlara son qoysun. Əlimərdan xan da çalışdı ki, Şirxanın bu hərəkətlərinə son qoysun. Bunun üçün öz adamlarını Şirxanın yanına göndərdi. Lakin bunun bir nəticəsi olmadı və Şirxan öz əməllərindən əl çəkmədi. Nəticədə, Əlimərdan xanla Şirxan arasında narazılıqlar böyüməyə başladı. Görünür, Şirxanın şah sarayı ilə xoş münasibətlərə malik olması Əlimərdan xanı ona qarşı sərt tədbirlər həyata keçirməkdən çəkindirirdi. Şah Abbasın hakimiyyətinin sonlarına yaxın Şirxan şah sarayına səfər etdi, Şah Abbasla görüşdü, Əlimərdan xan haqqında ona öz şikayətlərini çatdırdı. Şah sarayı tərəfindən isə ona nəsihətlər edildi ki, Əlimərdan xanla münasibətləri gərginləşdirməsin. Şirxan geri qayıdanda saray tərəfindən İmamverdi bəy Şamlı adlı saray mülazimlərindən biri də onunla birlikdə yola salındı. İmamverdi bəy Qəndəharda Əlimərdan xanla görüşməli və şah sarayı adından onunla Şirxanın münasibətlərin qaydaya salınmasına çalışmalı idi (50).

Şirxan bir müddət öz hərəkətlərindən əl çəkdi. Lakin bu hal çox da uzun sürmədi. Bu dəfə o, Hindistan sərhədində olan məntəqələri basqına və talanlara məruz qoydu. Əlimərdan xan yenidən Hindistanın vilayət hakimlərinin şikayətlərini eşitməli oldu. Hind əraziləri ilə bərabər, hind karvanları da Şirxan tərəfindən soyğunçuluğa düçar oldular. Əlimərdan xan Şirxana xəbərdarlıq göndərdi ki, onun bu hərəkətləri iki dövlət arasında hərbi qarşıdurmaya səbəb ola bilər. Bir daha tələb olundu ki, o öz hərəkətlərindən əl çəksin. Şah Səfinin hakimiyyəti illərində Əlimərdan xanın Şirxana qarşı dözümlü münasibətinə son qoyuldu. Şirxanın belə qanunsuzluqlara yol verməsi ilk növbədə Əlimərdan xanın özünü ciddi narahat edirdi. Yeni şəraitdə Əlimərdan xan bilirdi ki, artıq Şirxanın Şah Abbas kimi arxası yoxdur. Digər tərəfdən isə Şah Səfi hər vasitə ilə Moğol sarayı ilə dinc münasibətlərin saxlanmasını istəyirdi. Ona görə aydın idi ki, Şirxanın təcavüzkar

əməlləri onun tərəfindən də dəstəklənməyəcəkdir. Nəhayət, Əlimərdan xan qərara aldı ki, Qəndəharda yerləşən qızılbaş dəstəsi ilə Şirxanın üzərinə hücum etsin və onu zərərsizləşdirsin. Bu hadisə artıq Şah Səfinin hakimiyyəti illərində baş verirdi. Əlimərdan xan rəhbərliyi altında olan qoşun dəstəsi ilə Fuşəng üzərinə hərəkət etdi. Şirxan ətrafına topladığı qoşun dəstəsi ilə müqavimət göstərməyə çalışdı. İsgəndər bəy Münşi də yazırdı ki, Şirxan bu döyüşdə böyük əzmkarlıq göstərdi. Lakin ümidində olduğu nəticəni əldə edə bilmədi və Əlimərdan xanın qarşısında uğursuzluğa düçar olaraq Fuşəngi tərk elədi. Şirxan əvvəlcə Hüccə adlanan bir qalaya tərəf getdi. Lakin onu bu qalaya buraxmadılar. Belə olanda Şirxan Multan hakiminə müraciət etdi, onun himayədarlığını istədi. Multan hakimi də onu qəbul etdi (51).

Tədqiqatçıların fikrincə, Şirxanın Qəndəhar vilayəti daxilində və ətrafında etdiyi hərəkətlər, Qəndəhar hakimi Əlimərdana tabe olmaması əslində, onun mərkəzi hakimiyyətə qarşı qaldırdığı qiyam idi. Əlimərdan xan da mərkəzi hakimiyyətin tabeçiliyindən çıxmış Şirxanın qiyamının yatırılmasını öz üzərinə götürməli oldu. Burada diqqət belə bir məsələyə istiqamətləndirilir ki, Şah Səfi bu qarşıdurmada Əlimərdan xanın dəstəkləyirdimi və ya ona kömək göndərilməsini düşünürdümü? Belə bir iddia irəli sürülür ki, Əlimərdan xanın sürətlə zənginləşməsi və böyük nüfuz sahibinə çevrilməsi şah sarayında bəzi yüksək vəzifəli əyanları razı salmırdı. Bu əyanların göstərdiyi təsir nəticəsində Şah Səfi də Əlimərdan xanı Şirxana qarşı mübarizədə dəstəkləməkdə tələsmirdi (52).

Şirxan isə Fuşəngi tərk etsə də öz əməllərindən və əvvəlki vəzifəsini ələ keçirmək cəhdindən əl çəkmədi. O öz başına yenidən qoşun dəstəsi topladı və bu dəstə üzvlərini müxtəlif vədlərlə aldadaraq yenidən Qəndəhar ətrafındakı məntəqələr üzərinə hücum etməyə təhrik etdi. Əlimərdan xan bu barədə məlumat alanda Şirxana müqavimət göstərilməsi üçün əməli tədbirlər həyata keçirməyə başladı. O, on min nəfərlik bir qoşun dəstəsi ilə Fuşəng istiqamətində hərəkətə başladı. Şirxan dəstəsi ilə Fuşəngə yaxınla-

şanda heç bu məntəqənin sakinləri onu dəstəkləmədilər. Əlimərdan xanın böyük bir dəstə ilə gəlməsi isə Şirxanın vəziyyətini daha da çətinləşdirdi. Onun ətrafına toplanmış olan əfqan silahlılarının çoxu Əlimərdan xanın dəstəsinin qorxusundan qaçıb dağıldılar. Bu vəziyyətlə qarşılaşanda Şirxan özü də qaçıb bölgədən uzaqlaşmaqla canını qurtara bildi. Əlimərdan xan Fuşəngə öz adamlarından birini təyin etdi, bu qalanın möhkəmləndirilməsi üçün lazımi işlər gördü. Əlimərdan xan eyni zamanda Fuşəng yaxınlığından keçən karvan yollarının təhlükəsizliyi üçün də lazım olan tədbirləri gördü. Bir məlumata görə, Şah Səfi məsələdən xəbər tutandan sonra Şirxanı İsfahan sarayına dəvət etdi. Şirxan isə bu dəvəti qəbul etmədi və Hindistana yollandı. O, ömrünün axırına qədər də orada qaldı (53).

Əlimərdan xan öz dəstəsi ilə Şirxan xanın yeni təcavüzünün yatırılması üçün Fuşəng istiqamətinə yollananda Qəndəhar ətrafında başqa bir qiyam baş verdi. Bir nəfər özünü hind padşah ailəsinin şahzadəsi adlandıraraq Qəndəhara iddia irəli sürdü. Bu iddianın həyata keçirilməsi üçün o öz ətrafında əfqanlardan və hindlilərdən ibarət böyük bir dəstə də topladı. Asan yolla böyük vəzifə tutmaq və ya var-dövlət sahibi olmaq istəyən xeyli sayda əfqan və hind həmin yalançı şahzadənin ətrafına toplaşdılar. Bu yalançı şahzadə öz dəstəsi ilə Qəndəhar qalası üzərinə hücum etdi. Əlimərdan xan qalada olmasa da, qalanın mühafizəsi üçün saxlanılmış qarnizon yalançı şahzadənin dəstəsinin hücumunun qarşısını uğurla ala bildi. Qala müdafiəçiləri hətta basqın etmiş dəstə üzvlərinin xeyli hissəsini, o cümlədən də yalançı şahzadəni əsir götürə bildilər. Əlimərdan xanın əmri ilə əsir götürülənlərin çoxunun boynu vuruldu. Yalançı şahzadə isə özünü şah nəslinə aid olduğunu iddia etdiyi üçün Əlimərdan xan onu Şah Səfinin sərəncamına göndərdi (54).

Mövcud olan məlumatlardan aydın olur ki, Şirxanın ikinci dəfə Əlimərdan xana qarşı qoşun çəkməsində Şah Cahanın da təhrikləri olmuşdu. Şah Cahan bunun üçün lazımi şəraiti yetişdirmişdi. Ətraf kiçik hakimliklərin tabe etdirilməsindən sonra Şah Cahan

Qəndəharın da ələ keçirilməsi haqqında düşünürdü. Bu mənada o, Şirxanın qaldıra biləcəyi qiyama müəyyən ümidlər bağlayırdı. Şirxanın qiyamının gözlənilən nəticə ilə başa çatması üçün onun dəstəsinə hind silahlıları da qoşulmuşdu. Bununla belə, Şirxan ona tapşırılan vəzifənin öhdəsindən gələ bilmədi. Şah Cahan isə öz niyyətindən əl çəkmədi. Səfəvi dövlətinə qarşı cəbhə tutmaq üçün Şah Cahan əvvəlcə bölgənin özbək xanları ilə əlaqə yaratdı, onlarla qarşılıqlı münasibətlər yaradılması haqqında razılığa gəlindi. Burada məqsəd özbək xanlarının da Qəndəhar istiqamətində hücuma keçməsinin qarşısının alınması idi. Xorasan vilayətinin müəyyən ərazilərinin ələ keçirilməsi üçün Şah Cahanla ittifaq münasibətlərinə malik olmaq özbək xanlarının da maraqlarına cavab verirdi. Şah Cahan daha sonra Osmanlı sultanı IV Muradla əlaqə yaratdı. Moğol hökmdarı Qəndəhara hücum etmək niyyətini gizlətmədi və IV Murada Səfəvi dövlətinə qarşı özbəklərlə birlikdə üçlü ittifaq yaradılmasını təklif etdi. Sultan Murada göndərdiyi məktubunda Şah Cahan yazırdı ki, ətraf əraziləri ələ keçirdikdən sonra hind sarayının başqa bir işi qalmamışdır. O qeyd edirdi ki, indi onun qarşısında dayanan vəzifə Qəndəharı almaq və sonra isə Xorsan vilayəti istiqamətində hücumlarını davam etdirməkdir. Şah Cahan tərəfindən Osmanlı sultanına məktub göndərilməsi 1638-ci ilin əvvəllərinə təsadüf edirdi (55).

Belə bir ittifaqın yaradılması əslində, Osmanlı dövlətinin də maraqlarına cavab verirdi. Çünki hind qoşunlarına qarşı mübarizə Şah Səfinin gücünü zəiflədə bilərdi. Bu da Bağdadın ələ keçirilməsini Osmanlı qoşunları üçün asanlaşdırardı.

Şah Cahan Qəndəhar üzərinə hücuma başlamazdan əvvəl bu şəhərin dinc yolla geri qaytarılmasına cəhd göstərdi. O, Kabul hakimi olan Səid xanın vasitəçiliyindən istifadə etməyi qərara aldı. Səid xan da özünün yaxınlarından olan Zülfüqar xan adlı birisini gizli şəkildə Əlimərdan xanın yanına göndərdi. Onların arasında gizli bir söhbət baş verdi. Şah Cahan təklif edirdi ki, Əlimərdan xan Qəndəharı müqavimətsiz təslim etsin. Bunun əvəzində ona Qəndəhar hakimliyində saxlanması, yüksək məvacib vəd edilirdi.

Lakin bu sövdələşmə baş tutmadı və Əlimərdan xan qalanı təslim etməyəcəyini bildirdi. Şah Cahanın bu niyyətindən əl çəkməyəcəyini bilən Əlimərdan xan da dərhal qalanın möhkəmləndirilməsi işlərinə başladı, əlavə müdafiə divarları tikdirdi. Yəni Əlimərdan xan mərkəzi hakimiyyəti tabelikdən çıxmadı. Şah Cahan isə dinc yolla qalanın ələ keçirilməsi mümkün olmayanda Qəndəhar şəhəri üzərinə hücum üçün qoşun hazırlığına göstəriş verdi (56).

Amma çox tezliklə Əlimərdan xanla şah sarayı arasında münasibətlər korlandı və bu da Qəndəhar hakiminin Şah Cahana tərəf meyl etməsinə səbəb oldu. Yəni Qəndəharın ələ keçirilməsi üçün Şah Cahanın bu qala üzərinə qoşun yeritməsinə artıq ehtiyac qalmadı və Əlimərdan xan özü Şah Cahanın hakimiyyətini qəbul etmək üçün yollar aramağa başladı. Onu bu yola vadar edən isə Şah Səfinin son vəziri-əzəmi olan və Sarı Tağı kimi tanınan Mirzə Tağı ilə münasibətlərin kəskin şəkildə pisləşməsi oldu. Sarı Tağı özündən əvvəlki vəziri-əzəm olmuş Mirzə Talıb xan Ordubadinin yaxın ətrafına və qohumlarına qarşı müharibə başladı. Əlimərdan xanın da Mirzə Talıbla qohumluğu var idi. Belə ki, Əlimərdan xanın bacısı Mirzə Talıb xanın nikahında idi. Mirzə Talıb xanın yaxınlarının vəzifədən uzaqlaşdırılması yolunu tutan Sarı Tağı Qəndəharın hakimini də vəzifədən uzaqlaşdırmaq üçün yollar aramağa başladı. Əlimərdan xan həm də səltənət daxilində ən zəngin və ən nüfuzlu hakimlərdən biri idi. Bu məsələ özü də Sarı Tağını narahat edirdi. Ona görə də Sarı Tağı onun haqqında müxtəlif ziddiyyətli xəbərləri Şah Səfiyə çatdırdı və onda Əlimərdan xanın etibarsızlığı haqqında ciddi bir təsəvvür yaratdı. Əlimərdan xanın vəzifədən kənarlaşdırılması ilə onun topladığı sərvəti də əlindən almaq olardı. Əlimərdan xanın hind qoşunlarının hücumunun qarşısını almaq üçün həyata keçirdiyi tədbirləri Sarı Tağı onun guya müstəqilləşmək istəməsi kimi Şah Səfiyə ərz elədi. Nəticədə Şah Səfidə də Əlimərdan xana qarşı ciddi bir şübhə yarandı (57).

Bir məlumata görə isə, vəziri-əzəm Sarı Tağı xanın Əlimərdan xanla şəxsi düşmənçiliyi yox idi. Əlimərdan xan neçə illər ərzində səltənət xəzinəsinə ödəməli olduğu vergiləri ödənməmişdi. Şah

Səfi hakimiyyətinin ilk illərində özbək hücumları, ardınca Osmanlı qoşunlarının müdaxiləsinin qarşısının alınması ilə bağlı olaraq Qəndəhardakı vəziyyət diqqətdən kənarda qalmışdı. Ola bilsin ki, Mirzə Talıb xan da qohumluq əlaqələrinə görə, Əlimərdan xana qarşı ciddi tələblər irəli sürməmişdi. Sarı Tağı vəziri-əzəm seçiləndən sonra səltənətin daxili idarəçiliyi ilə daha ciddi məşğul olmağa başladı. Məlum olanda ki, Əlimərdan xanın səltənət xəzinəsinə böyük borcu var, onda bu borcların ödənməsi məsələsini qaldırdı. Vəziyyətlə bağlı Şah Səfiyə də ərz edildi. Bununla da, şah sarayında Əlimərdan xana qarşı şübhələr baş qaldırdı (58).

Şah tərəfindən Əlimərdan xana məktub göndərildi və o, saraya çağırıldı. Məktubda Əlimərdan xanın şah sarayına çağırılması Osmanlı qoşunlarına qarşı mübarizənin təşkili zərurəti ilə əlaqələndirilirdi. Əlimərdan xanın artıq ona qarşı sarayda şübhələrin böyüməsindən xəbəri var idi. Eyni zamanda Şah Səfinin etimadsız əmir və əyanlara qarşı çox sərt davranması Əlimərdan xanı bu səfərdən çəkindirdi və o, şah sarayına yollanmaqdan imtina etdi. Eyni zamanda Şah Səfi tərəfindən qullarağası Siyavuş bəy qoşun dəstəsi ilə Qəndəhara yola salındı ki, Əlimərdan xanın şah sarayına gətirilməsini təmin etsin. Əlimərdan xan şah sarayına göndəriləcəyi təqdirdə Siyavuş bəy onu Qəndəharda əvəz etməli idi. Əlimərdan xan şübhə etmirdi ki, şah sarayına yollanacağı halda oradan salamat geri qayıtmayacaqdır. Ona görə o, saraya xəbər göndərdi və bəyan etdi ki, ona qarşı yaranın şübhələr vəziri-əzəm Sarı Tağının düşmənçiliyi ilə bağlıdır. Əlimərdan xan şah sarayı ilə münasibətlərin yenidən normaya salmasına tərəfdar idi. Doğrudur, Əlimərdan xan Səfəvi sarayına yollanmaq istəmirdi. Lakin vəd edirdi ki, mərkəzi hakimiyyətə sadiq qalacaq və hər il xəzinəyə 12 min tümən vergi ödəyəcəkdir. Şah sarayı Əlimərdan xanı bu şərtini qəbul etmədi və Siyavuş bəyə tapşırıldı ki, Qəndəhara yetişməklə Əlimərdan xanın tutulub İsfahana göndərilməsini təmin etsin (59).

Siyavuş bəyin qoşun dəstəsi ilə Qəndəhara tərəf hərəkətə başlaması 1638-ci ilin fevral-mart ayına təsadüf edirdi. Bununla Əli-

mərdan xanda şübhə yeri qalmadı ki, onun canı və malı çox ciddi təhlükə altındadır və onun salamat qalması şansı yoxdur. Belə olanda, Əlimərdan xan çıxış yolunu özünü və Qəndəharı hind padşahı Şah Cahana təslim etməkdə gördü. Çünki Əlimərdan xanın elə böyük bir hərbi qüvvəsi yox idi ki, Siyavuş bəyin rəhbərliyi altında göndərilən qoşun dəstəsinə qarşı müqavimət göstərsin. Həyatını xilas etmək üçün Əlimərdan xan əvvəlcə Şah Cahana məktub yazdı, ona Qəndəhar qalasını təslim etməyə hazır olduğunu bildirdi. Əlimərdan xan təklif etdi ki, Şah Cahan öz əmirlərindən birini qoşun dəstəsi ilə Qəndəhara göndərsin. Əlimərdan xan hind padşahı ilə sövdələşməni gizli şəkildə aparırdı. O eyni zamanda Qəzneyn hakimi Əvəz xana məktub yazmaqla öz niyyəti barəsində ona məlumat çatdırdı və ondan xahiş etdi ki, qala daxilində təhlükəsizliyini etibarlı şəkildə təmin etmək üçün onun köməyinə 700 nəfərlik bir silahlı dəstə göndərsin. Əvəz xan da onun xahişinə əməl etdi və 700 nəfərlik bir dəstəni Qəndəhara göndərdi (60).

Bu məqam onu göstərirdi ki, Əlimərdan xan Səfəvi sarayından üz döndərməsinin qala daxilində olan qızılbaş dəstəsi tərəfindən də razılıqla qarşılanacağına şübhə edirdi. Ona görə də həyatını qorumaq üçün o, kənardan kömək alınmasını lazım bilirdi. Şah Cahan isə aldığı təklifdən çox sevindi. Qəndəharın ələ keçirilməsi üçün Səfəvi dövlətinə qarşı müharibə etməyə hazır olan Şah Cahan gözləmədiyi halda bu qalaya dinc yolla sahib çıxmaq imkanı əldə etdi. Ona görə də Şah Cahan dərhal Səid xanın rəhbərliyi altında qoşun dəstəsini Qəndəhara göndərdi. Qəndəhar şeyxülislamı Şeyx Məhəmməd Əmin baş verənlərdən xəbər tutanda Əlimərdan xanı Qəndəharın Şah Cahana təslim edilməsindən çəkindirməyə çalışdı. O, Əlimərdan xanı atası Gəncəli xan kimi Səfəvi sarayına sədaqətli olmağa çağırdı və təklif etdi ki, Əvəz xanın döyüşçülərinin hamısını qətlə yetirsin, onların başlarını bədənlərindən ayırıb Şah Səfiyə göndərsin və bununla ona yenidən öz sədaqətini bəyan etsin. Şeyx Məhəmməd Əmin şübhə etmirdi ki, Əlimərdan xanın bu hərəkətindən sonra Şah Səfi onun günahlarından keçəcəkdir.

Əlimərdan xan Qəndəhar şeyxinin bu təklifini yaxın ətrafı ilə müzakirə etdi. Lakin həmin təklif qəbul edilmədi və qərara alındı ki, hind qoşunları qalaya buraxılsın (61).

Səid xanın qoşun dəstəsi Siyavuş bəyin qoşun dəstəsindən daha tez Qəndəhara yetişdi və Əlimərdan xanın mərkəzi hakimiyyətə sədaqətsizliyi nəticəsində Qəndəhar qalasına daxil oldu. İsgəndər bəy Münşi baş verən satqınçılığa görə Əlimərdan bəyi "üzüdönük" adlandırırdı və onun bu əməlinə qarşı qəzəbini gizlədə bilmirdi. Təxminən on yeddi illik bir fasilədən sonra Səfəvi dövləti üçün də strateji əhəmiyyət kəsb edən Qəndəhar şəhəri dinc şəkildə Hindistana təhvil verilirdi. Xüsusilə, Qəndəharın Səfəvi dövlətinə sədaqəti ilə seçilmiş Gəncəli xan kimi bir əmirin varisləri tərəfindən təhvil verilməsi böyük bir təəssüflə qarşılanırdı. Əlimərdan xan Qəndəharı Kabul hakimi olan Səid xana təslim etdikdən sonra özü ailəsini də yığışdırıb Hindistana yollandı. Qəndəhar hakimi kimi, topladığı var-dövləti də Əlimərdan xan özü ilə Hindistana daşıdı. Mövcud olan məlumata görə, Şah Cahan bu əməlinə görə Əlimərdan xanı himayə altına almaqdan əlavə ona bir milyon rupi mükafat ayırdı. Əlimərdan xanın ətrafında olan və onun bu əməlini dəstəkləyən əmir və əyanlara isə iki milyon rupi mükafat təqdim olundu (62).

Siyavuş bəy isə Qəndəhar ətrafına yetişdikdən sonra hind qoşunlarını bu şəhərdən uzaqlaşdırmağa cəhd göstərdi. İsgəndər bəy Münşinin öz əsərində verdiyi məlumata görə, Qəndəhar yaxınlığındakı Səncəri adlanan kənd ətrafında qızılbaş qoşun dəstəsi ilə Səid xanın qoşun dəstəsi arasında döyüş baş verdi. Siyavuş bəyin dəstəsi 3 min nəfərdən ibarət olduğu halda, Səid xanın qoşun dəstəsi 8 min nəfərdən ibarət idi. Ona görə də Səid xanın qoşun dəstəsinə üstün gəlmək mümkün olmadı. Siyavuş bəy bu döyüşdə uğursuzluğa düçar olaraq geri çəkilmək məcburiyyətində qaldı. Yəni Qəndəhar qalasını yenidən geri qaytarmaq mümkün olmadı (63).

1638-ci ildə Qəndəhar şəhərinin təslim edilməsi Şah Səfinin də böyük qəzəbi ilə qarşılaşdı. Dərhal da bu şəhərin geri alınması

üçün qoşun toplanmasına əmr verdi. Lakin Osmanlı qoşunlarının Bağdad üzərinə qoşun çəkməsi Qəndəhar yürüşünü təxirə salmağa məcbur etdi.

Şah Səfinin hakimiyyəti illərində Avropa dövlətləri ilə münasibətlərin də əvvəlki kimi saxlanılmasına müəyyən maraq var idi. Lakin bu dövr ərzində Səfəvi dövləti tərəfindən fəal bir xarici siyasətin yeridildiyini görmək mümkün deyil. Bir tərəfdən səltənətin şərqində və qərbində aparılan müharibələr, bir tərəfdən Qəndəhar üzərində moğol padşahlığı ilə olan gərginlik Səfəvi sarayının diqqətini daha çox cəlb edirdi. Şah Səfinin kifayət qədər cavan olması, Osmanlı dövlətinə qarşı təkbaşına mübarizə aparmaq istəyi Avropa dövlətləri ilə münasibətlərə elə də ciddi bir fəallıq gətirmirdi. Nəticədə Şah Abbasın hakimiyyəti illərində xarici siyasətdə mövcud olan fəallıq da zəifləməyə başladı.

Bununla belə, qeyd edilməlidir ki, Şah Səfinin hakimiyyəti illərində Rusiya ilə, İspaniya ilə, Portuqaliya ilə, İngiltərə ilə, Almaniya ilə və Hollandiya ilə münasibətlər az-çox qalmaqda davam edirdi.

Şah Abbasın hakimiyyəti illərində, məlum olduğu kimi, Rusiya dövləti ilə Osmanlı dövlətinə qarşı ittifaq yaradılması istiqamətində müəyyən cəhdlər göstərildi. Bu cəhdlər gözlənilən nəticəni verməsə də, iqtisadi-ticarət sahəsində əlaqələr genişlənməkdə idi. Şah Səfinin hakimiyyəti illərində də bu iki dövlət arasındakı əlaqələr əsasən ticarət işlərinin genişlərindilməsi ilə bağlı idi. Şah Səfinin hakimiyyətinin ilk illərində bir-birinin ardınca bir neçə ticarət heyəti Səfəvi dövlətinə səfər etdi. Həmin illərdə Səfəvi ərazisində ipək istehsalı xeyli azalmışdı. Bu da ikitərəfli iqtisadi əlaqələrə ciddi təsir göstərirdi. Belə ki, rus tacirləri xəz dəri, mis və başqa məhsulları Səfəvi dövləti ərazisinə gətirirdilər. Onun qarşılığına uyğun olan miqdarda ipək almaq isə mümkün deyildi. İpək istehsalının təbii şəkildə azalması rus tacirlərinin qazanclarını xeyli aşağı salmışdı. İki dövlət arasında qarşılıqlı elçi mübadiləsi də həyata keçirilirdi. Elə Şah Səfinin hakimiyyətə gəldiyi il, 1629-cu ildə rus dövlətinin elçilik heyəti İsfahana gəldi. Bu elçilik

heyəti özü ilə gətirdiyi qiymətli hədiyyələri Şah Səfiyə təqdim etdi (64).

Bu heyət Moskvadan yola salınanda Şah Səfinin taxta çıxması haqqında məlumat yox idi. Şah Səfinin taxta çıxmasının Rusiya sarayı adından təbrik edilməsi üçün Moskvadan Səfəvi sarayına başqa bir elçilik heyəti gəldi. Həmin elçilik heyəti 1632-ci ildə şah sarayına yetişdi. Bu elçilik heyəti də özü ilə Moskva sarayının qiymətli hədiyyələrini gətirmişdi. 1636-cı ildə Səfəvi sarayına Rusiyanın növbəti elçilik heyəti gəldi. 1639-cu ildə başqa bir elçilik heyəti də İsfahanda oldu. Bütünlükdə, Şah Səfinin hakimiyyəti illərində Rusiyadan dörd elçilik heyəti Səfəvi dövlətinə səfər etdi (65). Bu elçilik heyətlərinin səfərinin təfərrüatları barəsində mənbələrdə yetərli məlumat qalmamışdır. Hər halda bəllidir ki, Rusiya ilə Səfəvi dövləti arasındakı münasibətlərdə cəlbedici bir dəyişiklik baş verməmişdi. Şah sarayına gələn elçilik heyətləri isə yəqin ki, daha çox ticarət məsələləri ilə maraqlanmışdılar.

Tədqiq olunan dövrdə İngiltərə ilə münasibətlərdə də müəyyən canlanma hiss olunmağa başladı. Bu canlanma daha çox ticarət münasibətlərinin genişlənməsi ilə bağlı idi. İngiltərə üçün bu münasibətlərin canlanması əslində, Avropada siyasi nüfuzun güclənməsi ilə də əlamətdar idi. İngiltərənin bölgədəki şirkətlərinin fəallığı İspaniya və Portuqaliyanın bölgədən sıxışdırılmasına daha da sürətləndirdi. Şah Abbasın hakimiyyəti illərində İngiltərənin əldə etdiyi ticarət güzəştləri Şah Səfinin hakimiyyətə gəlməsindən sonra yenidən öz təsdiqini tapdı. Əldə edilmiş qarşılıqlı razılaşmaya əsasən, İsfahanda İngiltərənin daimi ticarət nümayəndəliyi fəaliyyət göstərə bilərdi. Bu nümayəndəlik bütün Səfəvi ərazisində ticarət etmək səlahiyyətinə malik idi. Cənub sularındakı limanların gömrük işlərinin təşkilində də ingilislər iştirak edirdilər və bu ingilislərə əlavə gəlirlər gətirirdi. Yeni razılaşma hətta ingilislərə əlavə güzəştlər də təmin etmişdi. Məsələn, Şah Abbasın hakimiyyəti illərində Səfəvi ərazisində alınan malların ən azı üçdə biri nağd pulla alınmalı idisə, yeni razılaşmaya əsasən malların

dörddə biri nağd pula alınmalı idi. Qalan mallar isə dəyişmə yolu ilə əldə edilə bilərdi. Razılaşmaya əsasən, Səfəvi dövləti də müəyyən edilmiş miqdarda ipəyi ingilis tacirlərinə təmin etməli idi. İkitərəfli münasibətlərin və ticarət əlaqələrinin daha da yaxşılaşdırılması üçün 1630-cu ildə İsfahana ingilis elçiliyi gəldi. Bu elçilik heyəti özü ilə ingilis kralının Şah Səfiyə ünvanladığı məktubu da gətirmişdi. Məktubda İngiltərə kralı Səfəvi dövləti ilə münasibətlərin gələcəkdə də davam etdirməyə maraqlı olduğunu yazmışdı. Şah Səfi də cavab məktubunda İngiltərə ilə münasibətlərin davam etdirilməsində maraqlı olduğunu bəyan etdi. Eyni zamanda həmin məktubda İngiltərə kralından xahiş olundu ki, Səfəvi dövlətinə sənətkarlıqla məşğul olan ustalar, rəssamlar və bir nəfər də topçu göndərsin. Sonradan Səfəvi ərazisindən İngiltərəyə ipək göndərilməsi bir qədər zəiflədi. Belə olanda ingilis tacirləri İngiltərə kralı I Çarlzdan xahiş etdilər ki, Şah Səfiyə məktub yazsın və ipək ticarətinin yenidən əvvəlki səviyyəyə çatdırılmasını ondan xahiş etsin. İngiltərə kralı da 1635-ci ildə Şah Səfiyə məktub göndərdi. Şah Səfi cavab məktubunda yazdı ki, ingilis tacirləri Səfəvi dövləti ərazisində azad şəkildə ticarət edirlər və onlara bu işdə kimsə mane olmur. Amma Şah Səfi tərəfindən ipək ticarəti üzərində dövlət nəzarətini ləğv etməsi istər-istəməz ingilislərin ipək ticarətinə təsir göstərdi. İpək istehsalçıları ilə birbaşa əlaqələrin qurulması isə onlar müəyyən çətinliklər yaradırdı. Bunun nəticəsi idi ki, azad fəaliyyət göstərmələrinə baxmayaraq, ingilislərin Səfəvi dövləti ərazisindəki ipək ticarəti zəifləməyə başladı (66).

Səfəvi dövlətinin Hollandiya ilə olan münasibətlərində də müəyyən canlanma özünü göstərməyə başladı. Doğrudur, Hollandiya bu münasibətlərin qurulmasına ehtiyatla yanaşırdı və bununla Osmanlı dövləti ilə mövcud olan münasibətlərin korlanmasından ehtiyat edilirdi. Hollandiya bu dövrdə Avropanın ən güclü dövlətlərindən biri sayılırdı və bu dövlətin dünya sularında da böyük donanmaları var idi. Hind okeanı hövzəsində də Hollandiyanın

fəallaşması Səfəvi dövləti ilə münasibətlərin də yeni tələblər üzərində qurulmasına zəmin yaradırdı.

Şah Səfinin taxta çıxmasından dərhal sonra Yan Smitin rəhbərliyi altında olan holland elçilik heyəti İsfahana gəldi. Bu adam Hollandiyadan İsfahana yola salınanda hələ Şah Abbas hakimiyyətdə idi. Musa bəy Şah Abbas tərəfindən Hollandiya hökumətinin rəhbərinə yazılmış məktubu aparmışdı və Şah Abbas bu dövlətlə münasibətlərin fəallaşmasına rəğbətlə yanaşırdı. Hollandiya hökuməti də ikitərəfli münasibətlərin genişlənməsində maraqlı olduğu üçün öz elçisini İsfahana göndərməyi qərara almışdı. Musa bəy geri qayıdarkən Hollandiyaya məxsus olan Hind adalarının valisi Yan Smit də elçi kimi ona qoşuldu və bu heyət 1629-cu ilin may ayında İsfahana yetişdi. Bu zaman artıq Şah Səfi taxta çıxmışdı. Ona görə də Şah Abbasın adına yazılmış məktub və ona ünvanlanmış hədiyyələr Şah Səfiyə təqdim edildi. Şah Abbas Hollandiya hökumətinə göndərdiyi məktubda həm bu dövlətin dəniz donanması ilə əməkdaşlığın qurulması imkanlarını aramağa çalışırdı, həm də Hollandiyanın Osmanlı dövləti ilə ticarət əlaqələrinin kəsilməsini istəyirdi. Şah Səfiyə təqdim olunan məktubda bu təkliflərə aydın cavab verilməsə də, Osmanlı dövləti ilə ticarətin dayandırılmasının mümkünlüyünə işarə edilmişdi (67).

Şah Səfinin qəbulunda olması ilə bağlı Yan Smit öz səfər qeydlərində belə yazırdı: "May ayının 24-də xəbər verdilər ki, şah tərəfindən bizim qəbulumuza vaxt ayrılmışdır və biz gərək bir ümumi ziyafətdə iştirak edək. Təxminən saat 10-da biz saraya tərəf hərəkətə başladıq. Böyük bir bağdan və bir neçə otaqdan keçəndən sonra biz böyük bir salona daxil olduq. Bu salonun döşəməsi xalçalarla döşənmişdi. Amma başqa bir bəzək əşyaları görünmürdü. Salonun ortasında su ilə dolu olan dördguşəli kiçik ölçülü bir hovuz var idi. Bu hovuz salonun havasını da sərinləşdirirdi. Padşah salonun bir küncündə xalça üzərində oturmuşdu. Bir neçə yüksək vəzifəli adam nizamsız şəkildə onun ətrafında dayanmışdılar. Mən və yoldaşlarım irəli getdik. Şahın əlindən öpmək üçün irəli əyildim. Yoldaşlarım isə onun ayaqlarını öpmək

görüntüsü yaratmaq üçün xalçanın kənar haşiyəsini öpdülər. Hollandiya əyaləti şurasının və əlahəzrət şahzadənin məktublarını bizim gəlişimizin məqsədi ilə bağlı fars dilinə tərcüməsi ilə birlikdə şahın hüzuruna təqdim etdim. Bayram keçirildiyi və məktubların oxunmasına vaxt olmadığı üçün şah bütün məktubları müstövfiyə verdi və sonra o da məni oturmaq üçün şahla üzbəüz olan yerə müşayiət etdi. Eşikağasıbaşı ilə bəzi təşrifat sözləri və sualları mübadilə etdik. Lakin geniş söhbət üçün vaxt və münasib yer yox idi. Şah iki dəfə Hollandiyanın əlahəzrət şahzadəsinin sağlığına badə qaldırdı. Bu münasibətlə biz də bir qədər içdik. Bizim qəbulumuz üç saat davam etdi. Biz həmin mühiti şahlara layiq bir mühit kimi qəbul etmədik. Yemək yeyəndən sonra şah sarayına getdik. Təxminən iki saat da orada əyləşdik. Oradakıların bəziləri bizim yorulduğumuzu hiss etdilər. Şah bizə geri qayıtmaq üçün icazə verdi və bizə dedi ki, gələcəkdə nə vaxt görüşmək istəsələr onun hüzuruna gələ bilərik. Biz nəzakətli sözləri dilə gətirməklə və şahın şahzadəyə ünvanlanmış dostcasına sözlərini eşitdikdən sonra oranı tərk etdik" (68).

Holland elçilik heyətinin gəlişində əsas məqsəd iki dövlət arasında ticarət əlaqələrinin daha da genişləndirilməsi idi. Hələ Şah Abbasın hakimiyyəti illərində bu dövlətlər arasında ticarət əlaqələri kifayət qədər genişlənmişdi. Amma Hollandiya hökuməti bu sahədə bölgədə daha yaxşı imkanlara malik İspaniya və İngiltərədən də yaxşı güzəştlər əldə etməyə çalışırdı. Hollandlar Bəndər-Abbasda öz şirkətlərini təsis etməklə Səfəvi ipəyinin ticarətində onlar da ciddi bir məqam əldə etməyə çalışırdılar. Hollandiya tacirləri də istəyirdilər ki, Səfəvi dövləti ərazisində aldıqları mallara nağd pul ödəməsinlər. Yəni ikitərəfli ticarət mal mübadiləsi şəklində həyata keçirilsin. Lakin bu münasibətlərin sahmana salınması elə də şanlıqla baş vermədi. Yan Smitin İsfahana gəlməsindən az sonra onunla şah sarayının xarici ticarət üzrə səlahiyyətli müvəkkili arasında münaqişə yarandı. Ona görə də Yan Smit ona tapşırılmış vəzifəni sona çatdıra bilmədi. Hollandiya hökuməti istəyirdi ki, ticarət güzəştlərini nəzərdə tutan yeni

razılaşma əldə edilsin və Səfəvi ərazisində ticarət işlərini daha da genişləndirsin (69).

Yan Smit geri dönəndə Şah Səfi onunla holland hakimlərinə məktub göndərdi. Səfəvi şahı Yan Smtin qarşısında dayanan vəzifələri lazımi səviyyədə icra edə bilməməsinə baxmayaraq ikitərəfli münasibətlərin saxlanılmasına tərəfdar olduğunu bildirirdi. Həmin məktubda da Şah Səfi bəyan edirdi ki, Səfəvi ərazisində holland tacirlərinin fəaliyyəti üçün lazımi şərait yaradılacaqdır. Bir məlumata görə, Yan Smitin ardınca o zaman İsfahanda məskunlaşmış Hollandiya təbəəsi Jan Van Hasser Hollandiyaya göndərildi. Onun göndərilməsində də məqsəd Səfəvi sarayının ikitərəfli münasibətlərinə genişləndirilməsinə tərəfdar olduğunu Hollandiya hökumətinə çatdırmaq idi (70).

1630-cu ildə Hollandiyadan başqa bir elçilik heyəti Səfəvi sarayına göndərildi. Həmin heyətə Antoniyo del Kort rəhbərlik edirdi. Bu elçilik heyətinə tapşırılmışdı ki, iki dövlət arasında ticarət əlaqələrinin qurulması ilə bağlı 1623-cü ildə imzalanmış razılaşma yenilənsin və bu razılaşmaya holland tacirlərinə üstünlük verən müəyyən maddələr əlavə edilsin. Həmin elçilik heyəti 1631-ci il fevral ayının əvvəllərində İsfahana daxil oldu. Del Kort bir elçi kimi Yan Smitdən daha fəal idi və o, Səfəvi sarayının mənsubları ilə danışıqlar aparmaqla Hollandiya hökumətinin intizarında olduğu imkanları qazana bildi. Del Kort aparılan müzakirələrdən sonra Səfəvi məmurlarını narazı sala biləcək məsələlər üzrə razılığa gəldi, müəyyən məqamlarda güzəştə getməyin mümkünlüyünü bildirdi. Eyni zamanda Holland tacirləri üçün də müəyyən üstünlüklər əldə edildi. Bu müzakirələrdən sonra Səfəvi ərazisindəki holland tacirləri gömrük və yol rüsumları ödəməklə bağlı müəyyən güzəştləri əldə edə bildilər (71).

İkitərəfli ticarət əlaqələrinin tənzimlənməsində daha ciddi müzakirələr isə Jan Van Hasslerin rəhbərliyi altında olan elçilik heyəti Hollandiyada apardı. Bu adan Səfəvi sarayını təmsil edirdi. Jan Van Hassler hələ Şah Abbasın vaxtında holland sarayına göndərilmiş Musa bəy elçiliyinin də üzvü olmuşdu. Yeni şəraitdə isə

o, artıq müstəqil Səfəvi elçisi kimi holland sarayına göndərildi. Jan Van Hassler sözsüz ki, holland həyatını daha yaxşı tanıyırdı və ona görə o, Səfəvi tacirlərinin fəaliyyəti üçün daha münasib şərait qazanılmasına cəhd göstərdi. Eyni zamanda onun apardığı müzakirələr zamanı holland tacirlərinin Səfəvi ərazisindəki fəaliyyəti haqqında daha yaxşı şərait təmin edilməsi ilə bağlı müəyyən razılaşmalar əldə edildi. Hasslerin apardığı danışıq və müzakirələrin nəticəsi kimi 1631-ci ilin fevral ayının 7-də iki dövlət arasında 9 maddədən ibarət razılaşma imzalandı (72).

Birinci maddədə deyilirdi ki, Səfəvi təbəələri Hollandiya dövlətinin xüsusi razılıq sənədi və icazəsi olmadan bu dövlətin hər bir şəhərinə və ya onun tabeliyində olan ərazilərə sərbəst şəkildə gedə və orada ticarətlə məşğul ola bilərlər. İkinci maddəyə əsasən Hollandiya ərazisində olan Səfəvi təbəələri bu ölkənin sakinlərinin malik olduğu hüquq və azadlıqlardan bəhrələnə bilərlər. Səfəvi təbəələrinə hətta Hollandiya dövlətinin yüksək vəzifəli məmurlarının malik olduğu hüquq və imtiyazlar da verilə bilərdi. Üçüncü maddədə təsbit olunmuşdu ki, Səfəvi təbəələri Hollandiya ərazisindəki ticarət mərkəzlərində alış-verişlə məşğul olduqları zaman öz məmləkətlərində tətbiq edilən ölçü, çəki və miqyas vahidlərindən istifadə edə bilərlər. Dördüncü maddəyə görə, Səfəvi tacirlərindən kimsə Hollandiya ərazisində dünyasını dəyişərdisə və onun əmlakına sahib duracaq kimsə yox idisə, onda bu əmlak Hollandiya dövləti tərəfindən Səfəvi şahının nümayəndəsinə və ya vəfat edənin qohumlarından birinə təhvil verilməli idi. Beşinci maddədə bəyan edilirdi ki, Səfəvi təbəələri Hollandiyaya böyük həcmdə sərmayə gətirdikləri halda həmin sərmayənin tətbiqi üçün münasib yer və məkan ayrılmalı və sərmayə sahibi bütün vergilərdən azad edilməli idi. Altıncı maddəyə görə, Səfəvi şahının Hollandiya ərazisindəki nümayəndəliyi bu dövlət daxilində mövcud olan Avropa padşahlarının və şahzadələrinin nümayəndəliyinə verilmiş imtiyazlara malik olmalı idi. Səfəvi təbəələri Hollandiya ərazisində azad şəkildə öz dini mərasimlərini icra edə bilərdilər. Kimsənin haqqı yox idi ki, onlara qadağalar tətbiq etsin və əziyyət

versin. Yeddinci maddəyə görə, Səfəvi təbəələrindən kimsə Hollandiya ərazisində öz məzhəbini dəyişsəydi, Hollandiya hökuməti onun işlərinə müdaxilə etməyəcəyini və onun əmlakına toxunulmayacağını öz üzərinə götürürdü. Səkkizinci maddədə nəzərdə tutulmuşdu ki, Hollandiya ərazisində Səfəvi təbəələri üçün qəbiristan yeri ayrılacaq və vəfat edənlərin öz adətlərinə uyğun dəfn edilməsinə şərait yaradılacaqdır. Doqquzuncu maddəyə görə isə, Səfəvi təbəələrindən kimsə öz nümayəndəlik mənsublarından birini qətlə yetirərdisə, onda Hollandiyanın ədalət mənsubları rəsmi Səfəvi təmsilçiləri ilə məsləhətləşməklə uyğun hökmü çıxarmalı idilər.

Bu razılaşma Şah Səfi tərəfindən də təsdiq edildi. Həmin razılaşmanın verdiyi imkanlar daxilində iki dövlət arasında ticarət əlaqələrinin genişlənməsi özünü göstərməyə başladı. Amma qeyd edilməlidir ki, bu yüksəliş davamlı olmadı. Şah Səfi dünyasını dəyişənə qədər iki dövlət arasında ticarət əlaqələri qalsa da, iki dövlətin maraqlarına cavab verəcək səviyyəyə yüksəlmədi.

3. Şah Səfinin dünyasını dəyişməsi

Şah Səfi 1642-ci ilin may ayında dünyasını dəyişdi. Bu zaman onun cəmi 32 yaşı var idi. Belə bir gənc yaşında qəfil ölüm onu haqladı. Mənbələrdə onun dünyasının dəyişməsinin təfərrüatları barəsində geniş məlumat yoxdur. Bəlli olan odur ki, Şah Səfi 1642-ci ilin Novruz şənliklərindən sonra gözlənilmədən xəstələndi və onu bu xəstəlikdən xilas etmək mümkün olmadı.

Dünyasını dəyişdiyi zaman Şah Səfi qızılbaş qoşunları ilə Xorasan istiqamətində hərəkətə başlamışdı. Məqsəd Qəndəhar şəhərinin yenidən hind nəzarətindən çıxarılması və bu şəhərin Səfəvi hüdudlarına qaytarılması idi. Osmanlı dövləti ilə aparılan müharibə Səfəvi qoşunlarının Qəndəhar yürüşünü bir qədər təxirə saldı. Yalnız 1639-cu ildə Osmanlı dövləti ilə sülh anlaşması imzalanandan sonra Qəndəhar üzərinə yürüş üçün fürsət yarandı. Belə bir yürüşün həyata keçirilməsi üçün bir də 1642-ci ilin yazında

fürsət yarandı. Həmin vaxta kimi Şah Səfi həm dövlət işlərinin sahmanlanması, həm də Qəndəhar üzərinə yürüş üçün hazırlıqların aparılması işlərini davam etdirdi.

1641-ci ildə artıq Qəndəhar üzərinə hazırlıq işləri daha da genişləndirildi. Bu barədə mənbələrdə də bəzi məlumatlar öz əksini tapmışdı. Şah Səfi Qəndəhar şəhərinin geri qaytarılmasında qətiyyətli idi və bu qətiyyətini həyata keçirmək üçün məsul adamlara lazımi tapşırıqlar verilmişdi. Həmin ilin yayında artıq vilayətlərdə toplanmış olan qoşunlara əmr olundu ki, Xorasan istiqamətində hərəkətə başlasınlar. Həmin əmrə əsasən, qoşunlar əvvəlcə Nişapura gəlməli, orada olan səltənət sipəhsaları Rüstəm xanın tabeçiliyinə keçməli idilər. Sonra isə bütün qoşunlar Rüstəm xanın rəhbərliyi altında Xorasandan keçməklə Qəndəhara doğru irəliləməli idilər (73).

Qəndəhar üzərinə hazırlıq işlərinin getdiyi vaxtlarda Şah Səfi ova yollandı. Bununla, o, bir müddət gərgin dövlət işlərindən kənar qalmaq və istirahət etmək istəyirdi. Məhəmməd Məsumun yazdığına görə, Şah Səfi ov mərasimində çoxlu şərab içdi və bu da onun səhhətinin korlanmasına gətirib çıxardı. Bir neçə gün ərzində Şah Səfinin yüksək hərarəti oldu və onun yanında olan həkimlərin səyləri nəticəsində hərarəti aşağı salmaq mümkün oldu (74).

Bir başqa mənbədə isə dünyasını dəyişməsi ərəfəsində Şah Səfinin İsfahanda xəstələnməsini şərab içməsi ilə bərabər, həm də havanın çox isti olması ilə əlaqələndirirdi. Məlumata görə, Şah Səfi bir həftə hərarətdən əziyyət çəkdi. Saray həkimləri olan Mizə Məhəmməd və Şəmsanın gecəli-gündüzlü müalicəsindən sonra Şah Səfinin hərarətini normasına qaytarmaq mümkün oldu. Mənbə müəllifi bildirirdi ki, Şah Səfinin səhhətinin düzəlməsi ilə bağlı saray mənsubları, əmirlər və əyanlar yaradana dualar etdilər, fəqir-füqəraya nəzir-niyaz payladılar, həbsdə olanlara azadlıq verildi (75).

Yəni dünyasını tərk etməsi ərəfəsində Şah Səfi bir dəfə ağır xəstəliyə mübtəla olmuşdu. Doğrudur, mənbələrdə onun səhhətinin korlanması şərab içməsi ilə də əlaqələndirilir. Lakin müm-

kündür ki, Şah Səfinin başqa bir xəstəliyi də var idi və şərab içilməsi bu xəstəliyin şiddətlənməsinə təkan verirdi.

1642-ci ilin Novruz şənliklərini başa vurması ilə Şah Səfi Xorasan istiqamətində hərəkət əmrini verdi. Həmin günlər məhərrəm ayına təsadüf edirdi. Şah Səfi aşura gününün təziyəsini icra etdikdən sonra İsfahanı tərk etdi. Mənbələrdə bildirilir ki, həm Novruz bayramı, həm də Aşura günü öz mahiyyətinə uyğun olaraq təntənəli şəkildə qeyd edildi. Novruz şənlikləri başa çatan kimi, Şah Səfi səltənət əhlinə elan etdi ki, kimin hansısa bir şikayəti varsa, onu dinləməyə və dərdinə çarə etməyə hazırdır. Ona görə də Novruz şənliklərindən sonra çoxlu sayda insan İsfahan sarayına axışdı və bu insanların şikayətləri dinlənilməklə onların dərdlərinə çarə edildi. Sonra Şah Səfi Dövlətabada yollandı və Aşura təziyəsini də orada keçirdi (76).

Sonra isə Şah Səfi Qəndəhara yürüş etmə məqsədilə Xorasana doğru istiqamət götürdü. Kaşan şəhərində olarkən Şah Səfinin səhhət yenidən korlandı. Saray həkimlərinin göstərdiyi bütün cəhdlərə baxmayaraq onun səhhətini düzəltmək mümkün olmadı. Şah Səfi 1642-ci il may ayının ilk günlərində (hicri tarixi ilə 1051-ci il səfər ayının 12-də) dünyasını dəyişdi. Ölümə səbəb kimi, Şah Səfinin hərarətinin yüksək olması göstərilir. Hətta həmin gün də Şah Səfinin səhhətinin korlanacağı hiss olunmurdu. Şah Səfi adi bir günə başladı, Bəlx vilayətinin hakimi Nədr Məhəmməd xanın elçisini qəbul etdi. İsgəndər bəy Münşinin yazdığına görə, həmin gün də Şah Səfi şərab içdi. Onun fikrincə, uzun-uzadı səfərlər, dövlət işləri Şah Səfinin vücudunu zəiflətmişdi və ona görə də Şah Səfinin içdiyi şərab onun səhhətinə pis təsir göstərdi. Saray həkimləri də onun həyatını xilas edə bilmədilər. Şah Səfinin cənazəsi dövrün tanınmış müctəhidlərinin və fazillərinin müşayiəti ilə Quma göndərildi və orada torpağa tapşırıldı (77).

4. İstifadə olunmuş mənbə və ədəbiyyat

1. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər. Tehran, 1368, s. 38-39
2. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi. Tehran, 1317, s. 12
3. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər. Tehran, 1368, s. 40-41
4. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi. Tehran, 1317, s. 6, 7
5. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 47
6. Yenə orada, s. 39; Павлова И.К. Хроника времен Сефевидов (Сочинение Мухаммада Масум Исфахани "Хуласат ассийар). Москва, 1993, с. 36
7. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 13
8. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 13; İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 39
9. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 39; Павлова И.К. Хроника времен Сефевидов, s.36
10. Ağacəri S.H. Müqəddəmei bər münasibat-e din və dövlət dər İran-e əsr-e Səfəvi. Tehran, 1388, s.300
11. Yenə orada, s. 301-303
12. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 291; Flor V. Divan və qoşun dər əsr-e Səfəvi. Tehran, 1388, s. 39
13. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi, s. 39
14. Ağacəri S.H. Müqəddəmei bər münasibat-e din və dövlət dər İran-e əsr-e Səfəvi, s. 247; İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 259-260
15. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 260
16. Yenə orada, s. 259, 265
17. Yenə orada, s. 258
18. Yenə orada
19. Yenə orada, s. 259
20. Flor V. Divan və qoşun dər əsr-e Səfəvi, s. 188

21. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 265; Ağacəri S.H. Müqəddəmei bər münasibat-e din və dövlət dər İran-e əsr-e Səfəvi, s. 321-322
22. Ağacəri S.H. Müqəddəmei bər münasibat-e din və dövlət dər İran.., s. 323-336
23. Yenə orada, s.337-338
24. Yenə orada, s. 340-341
25. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 267
26. Yenə orada
27. Yenə orada, s. 268
28. Yenə orada, s. 270
29. Yenə orada, s. 274
30. Yenə orada, s. 276
31. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti. Bakı, 2020, s. 248
32. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s.64; Borazeş Ə.H. Rəvabet-e siyasi-ye diplomatik-e İran və cəhan dər əsr-e Səfəviyyə. Tehran, 1392, s. 708
33.Təfərroşi Ə.M. Tarix-e Şah Səfi. Tehran,1388, s.81-82
34. Borazeş Ə.H. Rəvabet-e siyasi-ye diplomatik-e İran və cəhan dər əsr-e Səfəviyyə, s. 711
35. Yenə orada
36. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi. Tehran, 1317, s. 72-73
37. Borazeş Ə.H. Rəvabet-e siyasi-ye diplomatik-e İran və cəhan dər əsr-e Səfəviyyə, s. 713
38. Павлова И.К. Хроника времен Сефевидов (Сочинение Мухаммада Масум Исфахани “Хуласат ас-сийар). Москва, 1993, с. 88; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s.249
39. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s.249
40. Borazeş Ə.H. Rəvabet-e siyasi-ye diplomatik-e İran və cəhan dər əsr-e Səfəviyyə, s. 715

41. Павлова И.К. Хроника времен Сефевидов, s. 89; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s.249
42. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 251
43. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 251
44. Borazeş Ə.H. Rəvabet-e siyasi-ye diplomatik-e İran və cəhan dər əsr-e Səfəviyyə, s. 716
45. Rəzuyan R. Nəqş-e Qəndəhar dər rəvabet-e İran və hind (Səfəviyan və Gurqaniyan), s. 7//Fəsilname-ye tarix-e rəvabet-e xareci, N-18, s. 5-24
46. Yenə orada, s. 8-9
47. Yenə orada, s. 10-11
48. Musəvi S., Yusifcamali M.K., Kamranifər Ə. Bərrəsi-ye təhlile şureş-e hakim-e vilayət-e Qəndəhar dər dövre-ye Şah Səfi-ye əvvəl, s. 11//Xorasan-e bozorg, N-18, 1394, s. 11-23
49. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 73-74; Musəvi S., Yusifcamali M.K., Kamranifər Ə. Bərrəsi-ye təhlile şureş-e hakim-e vilayət-e Qəndəhar dər dövre-ye Şah Səfi-ye əvvəl, s. 14
50. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 73-74; Musəvi S., Yusifcamali M.K., Kamranifər Ə. Bərrəsi-ye təhlile şureş-e hakim-e vilayət-e Qəndəhar dər dövre-ye Şah Səfi-ye əvvəl, s. 14-15
51. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 75
52. Musəvi S., Yusifcamali M.K., Kamranifər Ə. Bərrəsi-ye təhlile şureş-e hakim-e vilayət-e Qəndəhar dər dövre-ye Şah Səfi-ye əvvəl, s. 16
53. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 76; Musəvi S., Yusifcamali M.K., Kamranifər Ə. Bərrəsi-ye təhlile şureş-e hakim-e vilayət-e Qəndəhar dər dövre-ye Şah Səfi-ye əvvəl, s. 16
54. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 76-77; Musəvi S., Yusifcamali M.K., Kamranifər Ə. Bərrəsi-ye təhlile şureş-e hakim-e vilayət-e Qəndəhar dər dövre-ye Şah Səfi-ye əvvəl, s. 16

55. Musəvi S., Yusifcamali M.K., Kamranifər Ə. Bərrəsi-ye təhlil-e şureş-e hakim-e vilayət-e Qəndəhar.., s. 16; Borazeş Ə.H. Rəvabet-e siyasi-ye diplomatik-e İran və cəhan dər əsr-e Səfəviyyə, s. 717
56. Musəvi S., Yusifcamali M.K., Kamranifər Ə. Bərrəsi-ye təhlile şureş-e hakim-e vilayət-e Qəndəhar.., s. 17; Borazeş Ə.H. Rəvabet-e siyasi-ye diplomatik-e İran və cəhan dər əsr-e Səfəviyyə, s. 717-718; Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s.249
58. Borazeş Ə.H. Rəvabet-e siyasi-ye diplomatik-e İran və cəhan dər əsr-e Səfəviyyə, s. 718
59. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 211-213
60. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 213; Musəvi S., Yusifcamali M.K., Kamranifər Ə. Bərrəsi-ye təhlil-e şureş-e hakim-e vilayət-e Qəndəhar.., s. 18
61. Musəvi S., Yusifcamali M.K., Kamranifər Ə. Bərrəsi-ye təhlil-e şureş-e hakim-e vilayət-e Qəndəhar.., s. 18-19
62. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 213; Musəvi S., Yusifcamali M.K., Kamranifər Ə. Bərrəsi-ye təhlil-e şureş-e hakim-e vilayət-e Qəndəhar.., s. 18-19; Borazeş Ə.H. Rəvabet-e siyasi-ye diplomatik-e İran və cəhan dər əsr-e Səfəviyyə, s. 719
63. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 213; Borazeş Ə.H. Rəvabet-e siyasi-ye diplomatik-e İran və cəhan dər əsr-e Səfəviyyə, s. 719-720
64. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 98; Borazeş Ə.H. Rəvabet-e siyasi-ye diplomatik-e İran və cəhan dər əsr-e Səfəviyyə, s. 741—742
65. Borazeş Ə.H. Rəvabet-e siyasi-ye diplomatik-e İran və cəhan dər əsr-e Səfəviyyə, s. 742
66. Yenə orada, s. 750-751
67. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s.354

68. Borazeş Ə.H. Rəvabet-e siyasi-ye diplomatik-e İran və cəhan dər əsr-e Səfəviyyə, s.764
69. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s.355; Borazeş Ə.H. Rəvabet-e siyasi-ye diplomatik-e İran və cəhan dər əsr-e Səfəviyyə, s.767
70. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s.355; Borazeş Ə.H. Rəvabet-e siyasi-ye diplomatik-e İran və cəhan dər əsr-e Səfəviyyə, s.767
71. Borazeş Ə.H. Rəvabet-e siyasi-ye diplomatik-e İran və cəhan dər əsr-e Səfəviyyə, s.767
72. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, s.355; Borazeş Ə.H. Rəvabet-e siyasi-ye diplomatik-e İran və cəhan dər əsr-e Səfəviyyə, s.767
73. İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 290, 293
74. Yenə orada, s. 294-295
75. Təfərroşi Ə. Tarix-e Şah Səfi. Tehran, 1388, s. 239
76. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 255-256; İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 298
77. İsgəndər bəy Münşi. Zeyl-e tarix-e aləmarayi Abbasi, s. 256-257; İsfahani, Məhəmməd Məsum. Xülasət-əssiyər, s. 300

NƏTİCƏ

Təqdim olunan bu kitab Azərbaycan türklərinin bəşər tarixinə bəxş etdiyi böyük dövlət xadimi, Şərqin və dünyanın əzəmətli fatehlərindən bir olan I Şah Abbasın xarici siyasətinə, habelə mədəniyyət və incəsənət sahəsindəki fəaliyyətinə, onun varisi olmuş Şah Səfinin hakimiyyətinin tarixinin araşdırılmasına həsr olunmuşdur. Şah Abbas bütün dövlətçilik fəaliyyətində olduğu kimi, səltənətin xarici siyasətinin qurulmasında, səltənət daxilində ədəbiyyatın, sənətkarlığın və mədəniyyətin inkişafında bənzərsiz xidmətlər ortaya qoya bilmişdi. Bu mövzuların hər biri ayrı-ayrılıqda çox geniş və əhatəli tədqiqatı tələb edir. Təqdim olunan kitabda isə həcmin imkan verdiyi çərçivədə mövzunun araşdırılmasına cəhd göstərilmişdir. Lakin elə ortaya qoyulan araşdırma da Şah Abbasın hökmdarı olduğu Səfəvilər dövlətinin beynəlxalq siyasətinin qurulmasında, bu dövlətin xarici təhlükəsizliyinin təmin edilməsində, səltənət maraqları çərçivəsində Avropa ilə ticarət əlaqələrinin genişlənməsində xüsusi bir duyum, qabiliyyət və məharət göstərdiyini nümayiş etdirir.

Şah Abbasın Avropa dövlətləri ilə münasibətində başlıca olaraq iki xətt izlənilirdi: biri Osmanlı dövlətinə qarşı ittifaqın yaradılması və Osmanlı nəzarəti altında olan ərazilərin geri qaytarılması üçün Avropa dövlətlərinin imkanlarından istifadə edilməsi. Digəri isə Avropa dövlətləri ilə ticarət əlaqələrinin genişləndirilməsi. Şah Abbas hakimiyyətinin əvvəllərində Osmanlı Türkiyəsi ilə sülh razılaşmasına getsə də, itirilmiş Səfəvi ərazilərinin geri qaytarılması fikrindən əl çəkməmişdi. Bunun üçün dövlət daxilində lazımi hazırlıq işləri görülürdü. Amma Osmanlı dövlətinin hərbi gücünün qarşısına çıxmaq üçün Şah Abbas həm də Avropa dövlətlərinin gücündən istifadə etmək istəyirdi. Qarşılıqlı ittifaqların yaradılması və müştərək fəaliyyət planının işə salınması Osmanlı dövlətinin böyük imkanlarını məhdudlaşdıra bilərdi. Bütünlükdə, Avropa dövlətləri öz maraqları üçün Səfəvi dövlətinin Osmanlı dövləti üzərinə təhrik edilməsində maraqlı idilər. Bunun-

la bağlı, Şah Abbasa böyük vədlər də verilirdi. Lakin əməli kömək göstərilməsi vaxtı çatanda Avropa dövlətləri özlərini kənara çəkirdilər. Avropa dövlətlərinə göndərilən çoxlu sayda elçilik heyətləri də Şah Abbasın ümidində olduğu nəticəni əldə edə bilmədilər. Belə olanda Şah Abbas I Şah İsmayılın hakimiyyəti illərində mövcud olmuş səltənət sərhədlərinin bərpasını öz gücü ilə təmin etməli oldu və qarşıya qoyduğu məqsədinə də nail ola bildi.

Daha geniş planda isə Şah Abbas Avropanın böyük dövlətləri ilə işgüzar münasibətlər qurmuş və Səfəvi dövlətini də şərq və qərb münasibətlərinin mərkəzlərindən birinə çevirə bilmişdi. Avropa hakimləri tərəfindən də Şah Abbas dövrün əzəmətli dövlət xadimlərindən biri kimi qəbul edilirdi. Şah Abbasın hakimiyyəti illərində Səfəvi dövləti inkişafının və qüdrətinin ən yüksək nöqtəsində idi. Ona görə Şah Abbas xarici siyasətində də səltənət maraqlarını qoruya bilirdi. Yəni Şah Abbasın xarici siyasəti də əlində, səltənətin daha da güclənməsinə xidmət edirdi.

Ticarət əlaqələrinin genişləndirilməsi sahəsində də Şah Abbas Avropa dövlətləri ilə çox fəal münasibətlərə malik idi. Bu münasibətlər bir tərəfdən Səfəvi dövləti daxilində təsərrüfatın və istehsalın daha da rövnəq tapmasına kömək edirdi, digər tərəfdən də Avropa dövlətlərinin siyasətinə təsir imkanları əldə edilirdi. Şah Abbasın hakimiyyəti illərində Səfəvi dövləti Avropanın böyük və güclü dövlətləri olan İspaniya və Portuqaliya, Almaniya, İngiltərə, Hollandiya, Polşa, Rusiya kimi dövlətlərlə böyük iqtisadi əlaqələrə malik idi. Xüsusilə, ipək ticarətinə dövlət monopoliyasının təmin edilməsindən sonra xarici iqtisadi əlaqələri daha səmərəli şəkildə tənzimləmək mümkün oldu.

Şah Abbasın izlədiyi siyasət nəticəsində Səfəvi dövləti daxilində istehsal olunan ipək üç marşrut üzrə Avropa dövlətlərinə daşınırdı. Bunlar – Rusiyadan keçən, Osmanlı dövləti ərazisindən, Hind okeanı və Aralıq dənizindın keçən marşrutlar idi. Qarşılıqlı maraqlara cavab verən ticarət əlaqələrinin qurulması üçün Səfəvi dövləti ərazisində xarici şirkətlərin təsis edilməsinə və sərbəst fəaliyyət göstərməsinə hər cürə şərait yaradılmışdı.

İzlədiyi xarici siyasət nəticəsində Şah Abbas cənub sularında da səltənət maraqlarını təmin edə bildi. Uzun illər idi ki, cənub sularında ticarət yolları Avropa dövlətlərinin inhisarında idi. Şah Abbas buna da son qoydu və burada səltənət nəzarəti təmin edildi.

Araşdırmalar göstərir ki, Şah Abbasın hakimiyyəti dövrü Azərbaycan dilinin, ədəbiyyatının, incəsənətinin, tətbiqi sənət sahələrinin, elminin yüksəliş dövrüdür. Xüsusilə, Şah Abbasın qayğısı, şəxsi iştirakı və yeritdiyi siyasətlə Azərbaycan türkcəsi öz inkişafında yeni bir səviyyəyə qalxdı. O, bütün fəaliyyəti, davranışı ilə Azərbaycan türkcəsinin həm dövlət həyatında, həm də yaradıcılıqda əsas yer tutmasına şərait yaratdı. Şah Abbasın bu dilə olan doğma münasibətinin nəticəsi idi ki, hətta xarici dövlətlərin elçiləri də Azərbaycan türkcəsini öyrənirdilər. Şah Abbasın hakimiyyəti illərində Azərbaycan şifahi xalq ədəbiyyatının ən yaxşı və zəngin nümunələri yaradıldı. Bu ədəbiyyatın nümunələri Azərbaycan türkcəsinin saflığı və axıcılığı ilə bu gün də heyrətə layiqdir. Yazılı ədəbiyyat, tətbiqi sənət sahələri, memarlıq sahəsində əldə edilən nailiyyətlər elə bu gün də dəyərli sənət əsərləri kimi qəbul edilməkdədir. İsfahan şəhərinin layihələndirilməsi, tikilməsi, memarlıq baxımından tamamlanması Şah Abbasın islam dünyasının və bəşəriyyətin mədəniyyət tarixinə bənzərsiz bir xidmətdir. Mütəxəssislər də gizlətmirlər ki, bu şəhərin memarlığında türk ənənələrindən irəli gələn xətt açıq şəkildə hiss olunmaqdadır. Yəni Şah Abbasın türk ruhu İsfahan şəhərinin memarlığına da hopmuşdu.

Şah Abbas səltənətin təəssübü ilə yaşayan əsil dövlət adamı idi. O hətta öz övladlarını da siyasi həyatdan kənar saxlayırdı ki, kimlərsə onlardan sui-istifadə etməklə Səfəvi dövlətinin mövcudluğuna ziyan yetirə bilməsin. Səfəvi dövlətinin mövcudluğuna məsuliyyətsiz yanaşılmasını Şah Abbas hətta öz övladlarına da bağışlamadı. Bunun nəticəsi idi ki, onun övladlarından biri qətlə yetirildi, digərləri isə dünya işığından məhrum edildi. Ona görə də Şah Abbas dünyasını dəyişəndə taxt-tacın kim qismət olacağı məsələsi ortaya gəldi. Seçim Şah Abbasın qətlə yetirilmiş böyük oğlu Səfi Mirzənin oğlu, yəni Şah Abbasın nəvəsi Sam Mirzənin

üzərinə düşdü. O da Şah Səfi adı ilə Səfəvi hakimiyyətinə sahib oldu. Lakin Şah Səfinin təcrübəsizliyi, dövlət idarəçiliyindən uzaq olması dövlətin gücünə və qüdrətinə əks təsir göstərdi. Yəni Şah Abbasın varisi Şah Abbas qədər qüdrətli, təcrübəli, qətiyyətli bir hökmdar deyildi ki, onun yolunu davam etdirə və dövlətin əzəmətini qoruyub saxlaya bilsin. Digər tərəfdən də çox gənc yaşında dünyasını dəyişməsi bəlkə də Şah Səfinin görə biləcəyi işləri yarımçıq qoydu.

Hakimiyyətinin möhkəmləndirilməsi üçün Şah Səfi hələ Şah Abbas dövründən vəzifə sahibləri olmuş təcrübəli əmir və əyanları qətlə yetirdi. Şah Abbasın ən etibarlı və təcrübəli silahdaşları birbirinin ardınca aradan götürüldü. Onların yerini tutanlar isə öz sələfləri qədər təcrübəyə malik deyildi. Doğrudur, Şah Səfi Səfəvi dövlətinin türk mahiyyətini saxlaya bildi. Belə ki, onun hakimiyyəti illərində də səltənət həyatı türkdilli tayfaların fəallığı üzərində qurulmuşdu. Dövlət idarəçilik aparatının mütləq əksəriyyəti, qoşunlara rəhbərlik, saray vəzifələri, vilayət hakimləri əsasən türk mənşəli əmir və əyanların üzərində idi. Şah Səfi də əsasən onlara arxalanırdı. Sözsüz ki, gürcü və fars mənşəli əmir və əyanlar da hakim təbəqənin daxilində mövcud idi. İdarəçilik sistemi isə Şah Abbasın dövründə olduğu kimi saxlanılmışdı. Yəni Şah Abbas dövlət və qoşun idarəçiliyində elə bir sistemi qurmuşdu ki, Şah Səfi dövründə onun dəyişdirilməsinə elə bir ehtiyac yaranmadı.

Şah Səfinin dövlət həyatına gətirdiyi mühüm yeniliklərdən biri ipək istehsalı və satışı üzərində olan dövlət monopoliyasının ləğv edilməsi oldu. Doğrudur, bu qərar xəzinə gəlirlərinə müəyyən təsir göstərdi. Lakin bu monopoliyanın ləğvi həm istehsalın, həm də ticarətin genişlənməsinə daha münasib bir zəmin yaratdı.

Şah Abbas dövrünün səltənət sərhədlərini isə Şah Səfi qoruyub saxlaya bilmədi. Qonşu dövlətlər yeni şəraitdə və Şah Səfinin təcrübəsizliyinə görə Səfəvi torpaqlarına sahib çıxa biləcəklərini güman edib öz niyyətlərini həyata keçirməyə başladılar. Şah Səfi özbək qoşunlarının Xorasan vilayəti üzərinə olan davamlı hücumlarının qarşısını ala bildi. Osmanlı qoşunlarının İrəvan üzərinə

hücumunun qarşısı alınsa da, Bağdad üzərinə hücumun qarşısını almaq mümkün olmadı. 1639-cu ildə iki dövlət arasında imzalanmış Qəsri-Şirin müqaviləsinə görə Bağdad və ətraf bölgə Osmanlı dövlətinin tərkibinə qatıldı. Eyni zamanda Qəndəhar şəhəri Səfəvi dövlətinin nəzarətindən çıxarıldı və Moğol imperiyasının nəzarəti altına düşdü. Şah Səfi Qəndəharı geri qaytarmaqda qətiyyətli olsa da, bu məqsədlə həyata keçirilən yürüş zamanı dünyasını dəyişdi. Çox da uzun çəkməyən Şah Səfi hakimiyyəti illərində qüdrətli Səfəvi dövlətinin tədricən zəifləməsinin başlanğıcı qoyuldu.

Kitaba əlavə

M.F.Axundovun "Aldanmış kəvakib"i və Şah Abbas həqiqətləri (ədəbi-tarixi təhlil)

Azərbaycanda ictimai-siyasi fikir və düşüncənin inkişafında müstəsna rolu olan Mirzə Fətəli Axundovun yaradıcılığının dəyərli nümunəsi kimi "Aldanmış kəvakib" povesti həm də ədəbiyyatımızda tarixi mövzuya müraciətin ən yaxşı nümunələrindən biri sayıla bilər. Bu böyük mütəfəkkirin ədəbi yaradıcılığını bu əsərsiz təsəvvür etmək sözsüz ki, mümkün deyildir. Ədəbi-bədii dəyəri nəzərə alındığı üçündür ki, bu əsər hətta orta məktəblərdə də tədris olunur və ona görə də bu əsərin çox geniş oxucu kütləsi vardır.

M.F Axundovun ədəbi yaradıcılıq imkanlarının özündə əks etdirən bu əsərdə bədii təxəyyüllə tarixilik son dərəcə ahəngdar şəkildə bir-biri ilə qovuşdurulmuşdur və ona görə də əsərdəki tarixilik elə bədiilik qədər oxucunu özünə cəlb edir. Bunun nəticəsidir ki, Azərbaycan oxucusunun böyük bir hissəsində Şah Abbas hakimiyyətinin mahiyyəti haqqında ilkin təsəvvürlər məhz bu əsər əsasında formalaşmışdır.

Əsərin ideya-bədii süjet xəttinin mərkəzində Azərbaycan Səfəvilər dövlətinin beşinci hökmdarı olan I Şah Abbasın hakimiyyəti illərində özünü göstərən məmur özbaşınalığı, hakimiyyətin yarıtmazlığı, insanların haqsızlıq və ədalətsizlik məngənəsində qalması və s. kimi hallar dayanır. Əslində, isə M.F.Axundovun məqsədi heç də Şah Abbas hakimiyyətini tənqid atəşinə tutmaq yox, hadisələrin tarixini dəyişməklə öz zəmanəsinin eybəcərliklərini açıb ifşa etmək idi. Onun bəzi yazılarında olan etirafı, həm də Axundovun yaratdığı obrazların real prototiplərinin doğru xarakteri bunu deməyə əsas verir.

Azərbaycanın dövlətçilik tarixində yaddaqalan xidmətləri olan tarixi şəxsiyyətlərin xarakterinin tam əksinə olan ədəbi obrazların yaradılmasında M.F.Axundovun öz məqsədi var idi. Bununla, o, düz sözü deməyin çətin olduğu bir zəmanədə demək istədiklərini

tarixin dərinliklərinə atmaqla fikrini oxucularına dolayısı yolla çatdırmaq istəmişdi. Bunu o özü də etiraf edirdi: "...mən məgər tarix yazmışam ki, hər nə ki, olub onu yazam? Mən kiçik məsələni əldə bəhanə edib öz fikrimdə onu genişləndirmişəm" (1).

M.F.Axundov Şah Abbasın tarixinə yaxşı bələd idi və onu heç də öz əsərində təsvir etdiyi kimi qəbul etmirdi. Yazıçı onu əsərində yaratdığı obrazdan fərqli olaraq ədalətli bir şah kimi tanıyırdı. Öz həmkarlarına göndərdiyi məktubda da M.F.Axundov şahların ədalətsizliklərindən danışarkən Şah Abbas haqqında belə yazırdı "I Şah Abbasdan başqa ki, onun dövləti qayda qanunlu idi" (2). M.F.Axundov hətta 1853-ci ildə "Kavkaz" qəzetində çap etdirdiyi bir məqalədə də Şah Abbasın hakimiyyət dövrünü qısaca xarakterizə etmiş və onu bacarıqlı, ədalətli, səltənət əhlinin rəğbətini qazanan bir hökmdar kimi xarakterizə etmişdi (3).

M.F.Axundov Şah Abbasın özünün və onun məmurlarının şəxsində zəmanəsinin haqsızlıqlarını və ədalətsizliklərini tənqid atəşinə tutmuşdu. "Aldanmış kəvakib" povestində müəllif "...üstüörtülü şəkildə çar mütləqiyyətini də tənqid etmişdir. Onun tənqidində hər iki mütləqiyyət hökumətinin müəyyən payı vardır. Maarıfçi və demokrat ədib üçün mütləqiyyət istər İranda, istər Rusiyada olsun birdir" (4).

Böyük ədibin bu əsəri Azərbaycan ədəbiyyatında kifayət qədər geniş və əhatəli şəkildə təhlil edilmiş, bu əsərin hər bir personajı haqqında dərin ədəbi fikir ortaya qoyulmuşdur. Lakin bu zaman məntiqi olaraq ədəbi tənqiddən və təhlildən kənara çıxılmamışdı. Aparılan ədəbi təhlillərin elmiliyini və əhatəliyini şübhə altına almadan etiraf etmək lazımdır ki, bu, M.F.Axundovun dünyagörüşünün və toxunduğu mövzunun yalnız üst qatının görünən mənzərəsini ümumiləşdirməkdən başqa bir şey deyildir. Yazıçının məqsədi isə yalnız bu deyildi. O, belə dayaz düşüncəlilikdən uzaq idi. Onun bu povesti öz zəmanəsində asanlıqla qavranılacaq qədər də sadə bir əsər deyildi. M.F.Axundovun nə demək istədiyinin mahiyyətinə varmaq üçün toxunduğu dövrün tarixi şəraitinə, yaratdığı obrazların prototiplərinin xarakterinə işıq salınması ma-

raqlı nəticələrə gəlməyə imkan verə bilər. Obrazlarla onların prototiplərinin, yazıçının yaşadığı tarixi şəraitlə əsərinə obyekt seçdiyi tarixi şəraitin müqayisəli dəyələndirilməsi M.F.Axundovun demək istədikləri, habelə onun fikir və düşüncələrinin genişliyi haqqında daha böyük təsəvvür yarada bilər.

Povestdə haqqında danışılan hadisə tarixdə baş vermiş bir hadisədir. M.F.Axundov tarixdə baş vermiş bu hadisəni yalnız mexaniki şəkildə öz əsərinə köçürməmişdir. Elmi, tarixi, fəlsəfi və ədəbi süzgəcindən keçirməklə böyük mütəfəkkir bu hadisənin tamamilə yeni bir biçimdə bədii ifadəsinə nail olmuşdur. Belə ki, bu hadisəni bəhanə etməklə M.F.Axundov əslində, yaşadığı zəmanənin, müasiri olduğu yarıtmaz məmurların obrazını yaratmış və onları öz öldürücü tənqidinə hədəf seçmişdi.

Povestin bir yerində M.F.Axundov yazırdı ki, təsvir etdiklərinin doğruluğuna əmin olmaq üçün "Tarixi aləmarayi Abbasi" əsərinə müraciət oluna bilər. Şah Abbasın şəxsi münşisi olan İsgəndər bəy Münşinin yazdığı bu əsərin professor Şahin (Fazil) Fərzəliyev tərəfindən Azərbaycan dilinə tərcümə edilmiş mükəmməl mətnində M.F.Axundovun "Aldanmış kəvakib" əsərində toxunduğu hadisə belə təsvir olunmuşdur: "Bu il münəccimlər şahı (yəni Şah Abbası –M.S.) inandırdılar ki, ulduzların və böyük-kiçik səyyarələrin dəlaləti ilə sultanla məxsus olan günəş mənsublarından bir şan-şöhrətli adamın edam olunması vacibdir və ehtimal ki, o adam İrandadır. Münəccimlər hümayun şahın tale zicindən məlum etmişdilər ki, onun tale xanəsində iki ulduzun dörd yerə parçalanması baş verəcəkdir. Çünki şahın tale ulduzu ən aşağı nöqtəyə zaval və vəbal nöqtəsinə enmişdir. Bu şərafətli fənn üzrə zaman adamlarının ən üstünü və ulduz ehkamlarının sübuta yetirilməsində başqalarını üstələyən Mövlana Cəlaləddin Məhəmməd Münəccim Yəzdi belə müəyyən etdi ki, gərək əlahəzrət səyyarələrin böyük təsiri və iki ulduzun dörd yerə parçalanması baş verəcəyi o üç gün müddətində özünü səltənət və padşahlıqdan kənar edib, qətli vacib olan günahkar adamlardan birini padşah qoysun. Həmin üç gündə qoy bütün hərbçilər və rəiyyət həmin

şəxsin fərmanına tabe olsunlar, o isə öz padşahlıq işini yerinə yetirsin. Üç gün keçdikdən sonra qətl olunması üçün qoy o günahkar adamı böyük ulduzun nəhs işlər üzrə səhnəsinə və dövran hadisələrinin cəlladına tapşırsınlar. Bu fikir hamının xoşuna gəldi, püşk Ustad Yusifi Tərkeşduza düşdü. O, dinsizlikdə bütün yoldaşlarından irəlidə gedirdi. Buna görə də, həmin dinsizlər zümrəsindən adı çəkilən Yusifini orduya gətirdilər, əlahəzrət özünü səltənət və padşahlıqdan kənar etdi və padşahlıq ismini o qan tutmuş adama yazdılar, başına şahlıq tacı qoyub, əyninə gözəl libaslar geydirdilər. Hakimiyyətə gəlişi günü onu qiymətli daşqaşlarla bəzənmiş yəhər və üzəngili bərdəi bir ata mindirdilər və onun padşah olması elanını başı üstündən asdılar. Bütün əmirlər, saraya yaxın adamlar, xidmətçi məmurlar ləşkər və qoşunlarla gələrək, müəyyən olunmuş şəkildə xidmətində dayanıb onu mənzilinə gətirdilər, hümayun divanxanada atdan düşürüb, yemək-içmək məclisi qurdular. Gecələr əzəmətli qorçilər və müzəffər əsgərlər onun keşiyini çəkirdilər. O biçarə də öz əməlinin aqibətini anlayıb, həmin üç günü asudəliklə keçirdi. Və əlahəzrət həmin üç gün müddətində özünün iki-üç cilovdarı və xidmətkarı ilə ata süvar olub səltənət işlərinə qətiyyən dəxalət etmədi ... Yusifi olduqca şeytansifət bir adamdı. "Səyatinən nas" ("İnsan şeytanlar") deyimi ona yaraşırdı və xarici görünüşündən və batinindən şeytanlıq zahir idi. Xülasə, üç gündən sonra o, həyatın süni libasından üryan olub, taxt üstündən düşdü, taxta üstündə uzandı. Baş verən bu hadisədən sonra əlahəzrət yenidən hökmranlıq taxtına əyləşdi" (5).

M.F.Axundovun diqqətini cəlb etmiş tarixi hadisənin doğru təsviri belədir. Bu hadisənin bədii ifadəsinə isə M.FAxundov ona təxəyyülündən və ideya-düşüncəsindən irəli gələn daha oxunaqlı bir məzmun verilmişdir.

"Aldanmış kəvakib" povesti belə başlayır ki, Səfəvi səltənətinin əvvəlində Qəzvin paytaxt idi və bəzi hadisələrdən sonra Məhəmməd şah Səfəvi hakimiyyəti oğlu I Şah Abbasa təhvil verdi. Tarixi gerçəklik isə belədir ki, 1501-ci ildə Şah İsmayıl Səfəvi tərəfindən Səfəvi dövlətinin əsası qoyulanda bu dövlətin paytaxtı

Təbriz şəhəri idi. Qəzvin şəhərinin paytaxt şəhərinə çevrilməsi isə 1555-ci ildə Şah İsmayılın oğlu Şah Təhmasibin hakimiyyəti illərində baş verdi. Povestdə adı xatırlanan Məhəmməd şah Səfəvi isə tarixdə Şah Məhəmməd Xudabəndə kimi tanınmaqdadır. Şah Məhəmməd Xudabəndə Şah Abbasın atası olmaqla Şah Təhmasibin ilk oğlan övladı idi. Amma səhhətində problemlər olduğu üçün Şah Təhmasibin dünyasını dəyişməsindən sonra onun əvəzinə Şah Təhmasibin ikinci övladı II Şah İsmayıl adı ilə Səfəvi taxt-tacına sahib oldu. Lakin II Şah İsmayılın hakimiyyəti çox da uzun çəkmədi. Bir neçə ildən sonra sui-qəsdlə həyatına son qoyulan II Şah İsmayıldan sonra hakimiyyətə Şah Məhəmməd Xudabəndə yiyələndi. Lakin səltənət həyatında böyük nüfuzu olan qızılbaş əmirləri onun şahlığını qəbul etmədilər. Xüsusilə, Şah Məhəmməd Xudabəndənin xanımı Məhdi-Ulya xanımın dövlət idarəçiliyi işlərinə müdaxilə etməsi qızılbaş əmirlərinin sərt müqaviməti ilə razılaşdı. Nəticədə Şah Məhəmməd Xudabəndə də xanımının qızılbaş əmirləri tərəfindən qətlə yetirilməsi tələbi ilə razılaşmalı oldu. Bununla da səltənət daxilindəki qarışıqlıqlara son qoyulmadı və belə olanda qızılbaş əmirlərinin təkidi ilə hakimiyyət 1587-ci ildə Şah Abbasa təhvil verildi. M.F.Axundov povestində yazırdı ki, onun təsvir etdiyi hadisələr baş verəndə Şah Abbasın iyirmi iki yaşı var idi. Bu fakt doğru idi. Çünki yazıçının təsvir etdiyi hadisə 1593-cü ildə baş vermişdi və 1571-ci ildə anadan olmuş Şah Abbasın həmin vaxt 22 yaşı tamam olmuşdu.

Gənc yaşlarında olmasına baxmayaraq Şah Abbas dövlətçilik həyatında ciddi uğurları qazanmağa müvəffəq olmuşdu. Ən başlıcası ulduzların təhlükəsinin meydana gəldiyi vaxta qədər Şah Abbas mənəmlik iddiasına düşmüş böyük qızılbaş əmirlərini itaət altına gətirmiş, mərkəzi hakimiyyətin möhkəmləndirilməsi istiqamətində qətiyyətli addımlar atmışdı. Bununla belə, Şah Abbas da zəmanəsinin yetirməsi olaraq qalmaqda idi. O da ulduzların yerdəyişmələrinə inanırdı və ona görə münəccimlər onun da dövrünün saylıb-seçilən adamlarından idilər.

Povestdə iki münəccim obrazı vardır. Mirzə Sədrəddin və Mövlana Cəmaləddin. Mirzə Sədrəddin bir qədər təcrübəsizdir, kəmfürsətdir, yeri gəldi-gəlmədi özünü gözə soxmağa və bu yolla daha yüksək məqam əldə etməyə çalışandır. Mövlana Cəmaləddin isə daha təmkinli, təcrübəli, düşünüb-daşınan və dünyagörmüş bir münəccimdir. Müəllifin təsvirindən də görünür ki, o öz elminə kifayət qədər bələddir, ulduzların seyrindən doğru-dürüst nəticə çıxarmağı bacaran birisidir. Şah Abbasın vəzir-vəkilləri gülünc və çarəsiz vəziyyətdə qaldıqları bir vaxtda yaranmış vəziyyətdən çıxış yolunu da o göstərdi.

Güman etmək olar ki, Mövlana Cəmaləddin obrazının prototipi İsgəndər bəy Münşinin "Tarixi aləmarayi Abbasi" əsərində xatırlatdığı Mövlana Cəlaləddindir. Tarixdən bəllidir ki, Mövlana Cəlaləddin dövrünün tanınmış və nüfuzlu münəccimi idi. Nücum sahəsində onun çox böyük təcrübəsi var idi və öz biliyi ilə o, dövrünün münəccimlər dəstəsinin ağsaqqalı idi. Şah Abbas bu təcrübəli münəccimə tərəddüdsüz şəkildə inanırdı və onun proqnozlarını birmənalı şəkildə qəbul edirdi. Ona görə də Mövlana Cəlaləddin Şah Abbasın yaxın silahdaşlarından və etibar etdiyi saray əyanlarından birinə çevrilmişdi. Şah Abbasın döyüş səfərlərinin və səltənət daxili səfərlərinin əksəriyyətində Mövlana Cəlaləddin onu müşayiət edirdi və bu səfərlər zamanı Şah Abbas görülməli olan işlərin nə vaxt başlanmalı olması haqqında onun məsləhətlərinə qulaq asırdı. Mövlana Cəlaləddin də Şah Abbasın həyatı ilə bağlı "Tarix-e Abbasi və ya ruzname-y Molla Cəlal" adlı əsərini yazmışdı. Hazırda bu əsər Şah Abbas tarixi haqqında qiymətli bir mənbə kimi qəbul edilməkdədir.

Şah Abbas səma cisimlərinin yerdəyişmələrini yaradanın iradəsi hesab edirdi. Münəccimlərə isə Şah Abbas bu yerdəyişmələrin mahiyyətini düzgün açа bildikləri üçün inanırdı. Səltənət münəccimlərinə münasibət onların təxminlər üzərində qurduqları gümanlarına görə yox, dediklərinin sınaqdan çıxarılması, təkrar-təkrar doğruluğuna olan inam üzərində qurulmuşdu. Şah Abbas münəccimliyi bir elm kimi qəbul edirdi və hakimiyyətdə olduğu

illərdə mötəbər münəccimlər məktəbi mövcud idi. Onun nəzərində bu elmi hər kəs yaxşı bilmirdi. Yaxşı bilənlərə, yəni səma cisimlərinin yerdəyişmələrini düzgün şərh edənlərə isə Şah Abbas inamla yanaşırdı. Ona görə saray həyatının nizamlanmasında münəccimlərin də rolu inkar edilməməlidir. Şah Abbas az qala bütün fəaliyyətini münəccimlərin təklifləri üzərində qurmuşdu. Şahlıq taxtına nə vaxt çıxmaq, müharibələrə, hətta tikinti işlərinə də nə vaxt başlamaq barəsində münəccimlərin fikirləri soruşulardı. Təcrübəli münəccimlərə insanlar içərisində də etibar və hörmət mövcud idi və ona görə də insanlar bu peşəyə Yusif Sərrac kimi "dövlətə və millətə zərərdən başqa faydası" (6) olmayan bir peşə kimi baxmırdılar. Yusif Sərrac münəccimbaşı vəzifəsini ləğv etmişdisə, Şah Abbas buna ehtiyac duymamışdı.

Amma M.F.Axundov əsərdə Mövlana Cəmaləddini oxçuların qarşısına çıxarmazdan əvvəl şah sarayının dörd nüfuzlu əyanını danışdırır, onların məmur keyfiyyətlərini açıb ortaya qoyur, onların şəxsində Şah Abbas dövrünün deyil, öz dövrünün savadsız, işbilməz, yarıtmaz məmurlarını satira atəşinə tutur. Çünki yazıçının yaratdığı obrazlar heç də Şah Abbas dövrünün məmurlarının oxşarları deyildirlər. Adi tanışlıq da göstərə bilər ki, Şah Abbas dövrünün vəzir və vəkilləri əslində, M.F.Axundovun axtarışında olduğu, təqdir etmək istədiyi məmurlar idi. Bunu ötəri müqayisədən də görmək mümkündür.

Ulduzların gözlənilən təhlükəsindən çıxış yolunun tapılması üçün şah sarayında məsləhətləşmə aparılanda M.F.Axundov əvvəlcə səltənət vəziri olan Mirzə Möhsünü danışdırır, onun yaltaq və ikiüzlü sifətini gülüş hədəfinə çevirir. Bu adam öz vəzifəsini nəyin bahasına olursa-olsun şahın rəğbətini qazanmaqda görür və bunun üçün qanunsuzluqlar yolu ilə müxtəlif əməllərə əl atır. Yazıçının qələmi ilə vəzir Mirzə Möhsün özünü belə ifşa edir: "Bu bəndeyi-kəminənin ixlası dövləti-əliyyəyə nisbət bədihiyyatdandır. Əlbətdə, qibleyi-aləmin xatirindədir ki, pədəri-büzürgüvarlarının əyyami-səltənətində bir para naqisüləql kimsənələrin vəzarətə mübaşirəti olmaq səbəbilə xəzineyi-amirə nə mərtəbədə

nüquddan xali olmuşdu. Bu keyfiyyətə hali olduqda mən tədbirinə iqdam etdim və qərar qoydum ki, çakərani-dərgahdan hər kimsə ki, bir şüğlə və ya bir vilayətin hökumətinə mənsub olsa, fəraxuri-halına görə bir məbləğ berəsmi-peşkəş xəzinəyə təslim etsin və əlavə hər zaman ki, qibleyi-aləm bir əmirin kaşanəsini təşrifi-qüdumu ilə mübarək etsə, şahidi-kaşanə əqmişeyi-nəfisə payəndaz və bir miqdar pul peşkəş eləsin. Bu növ tədbirin vasitəsilə indi ki, qibleyi-aləmin cülusunun yeddimci ilidir, xəzineyi-amirə əlhəmdü lillahi-vəlminə, nüqudu-vafirədən malamaldır".

Tarixdə Şah Abbasın real vəziri isə xarakteri etibarilə Mirzə Möhsünlə daban-dabana zidd olacaq bir dövlət adamı idi. Povestdə təsvir olunan hadisənin baş verdiyi 1593-cü ildə səltənətin vəziri-əzəm vəzifəsini Ordubadda doğulub, orada da boya-başa çatmış Hatəm bəy Ordubadi tuturdu. Azərbaycanın dövlətçilik tarixinin əzəmətli nümayəndələrindən biri olan Hatəm bəy Ordubadi bu vəzifəyə 1591-ci ildə təyin edilmişdi və səltənət idarəçiliyində Şah Abbasdan sonra ikinci adam idi. O öz əxlaqı, işgüzarlığı, tədbirliliyi ilə ətrafdakıların və o cümlədən də Şah Abbasın dərin ehtiramını qazanmışdı. Şah Abbas şübhə etmirdi ki, belə bir təcrübəli və təmiz bir insanı vəziri-əzəm vəzifəsinə irəli çəkməklə hakimiyyətin möhkəmlənməsinə nail olacaqdır. O öz gümanında heç də yanılmamışdı və Şah Abbas hakimiyyətinin möhkəmlənməsində, hakimiyyət-xalq birliyinin yaradılmasında Hatəm bəyin misilsiz xidmətləri var idi (7).

Mənbələrdə də Hatəm bəy ədalətli, insaflı və iş bacaran əyanlardan biri kimi xatırlanmaqdadır. İsgəndər bəy Münşi bəzi tapşırıqların icrası zamanı Hatəm bəyi şəxsən müşayiət etmiş, onun məclislərində dəfələrlə iştirak etmişdi. O da Hatəm bəyi yüksək qiymətləndirirdi və onun haqqında düşündüklərini öz əsərində də qələmə almışdı. İsgəndər bəy Münşi onun haqqında belə yazırdı: "...Onların əksəriyyəti görünüşcə gözəgəlimli, pərhizkar, daxili qabiliyyətə və istedada malik, nəfsi tox, gözəl əxlaqlı olduqlarından o diyarın bütün camaatı tərəfindən həmişə sevilmişlər. O, da [Hatəm bəy Ordubadi] yüksək rütbəli dövlət xadimi

olub təmiz əxlaqlı, nəfsi tox, xalqın yaxşılığını istəyən adam idi və qabiliyyəti, işgüzarlığı ilə məşhur olduğundan ali divanın vəziri rütbəsi ilə şərəflənərək, iyirmi ilədək divanın vəziri kimi cahan işlərinin tənzimlənməsi ilə məşğul olmuş, onları nizama salmışdı. Şahanə iltifat və tərbiyət nuru həmişə ona işıq saçmışdı və ehtiramı gün-gündən çoxalmaqdaydı. Onun dürrlər səpən ilhamı heç kəsin istəyini ürəyində qoymurdu, səadətli divanı, padşahın razılığı ilə bütün məmləkət işlərini nizamlayırdı. Camaatın hər işi onun ağlı və bacarığı sayəsində yüksək səviyyədə yerinə yetirilirdi. İşlədiyi müddətdə kobudluğa yol vermirdi, Süleyman mənzilli o Asəf hətta bir qarışqanı belə incitməmişdir. Xülasə, sözlər yazan qələm o tədbirli vəzirin bəyənilən əməlləri barədə söz yazmaqdan acizdir. Fikir guşəsinə çəkilən adamlar-münzəvilər onun xoş sifətlərindən çox söyləmişlər və bu barədə yazılası olsa çox uzun çəkər" (8).

Şah Məhəmməd Xudabəndənin hakimiyyəti illərində Hatəm bəy Kirman hakiminin vəziri idi. Şah Abbas taxta çıxanda da Hatəm bəy bu vəzifənin icrasını davam etdirirdi. Elə o vaxtlar Kirmanda özünü göstərən separatçılıq hərəkatının aradan qaldırılmasında Hatəm bəy müdrik və təmkinli hərəkətləri ilə Şah Abbasın diqqətini cəlb etdi. Şah Abbas onun şah hakimiyyətinə olan sədaqətini və idarəetmə qabiliyyətini nəzərə alaraq saraya gətirdi və ali divanın vəziri vəzifəsini ona tapşırdı. Hatəm bəy bu məsuliyyətli vəzifənin icrası zamanı da öz bacarığını ortaya qoydu. (9).

" ...O alicənab öz vəzifəsini olduqca sədaqətlə yerinə yetirdi və işlədiyi vaxt ərzində bu əbədi dövlətin yolunda ləyaqətli işlər gördü, aləm adamlarının rifah halını yaxşılaşdırdı, iranlıların əhvalını xoş məcraya yönəltdi. Hatəm bəydən əvvəlki vəzirlər isə öz mənfəətləri naminə adamları narahat edir və əlahəzrətin ədalət mizanının əksinə bəyənilməz işlər görürdülər. Hatəm bəy isə hüquqi məsələlər, ədalətli tapşırıqlar, maliyyə haqq-hesabları və divan işlərinin yoluna qoyulmasında olduqca bacarıqlı idi. Bir neçə yol şah tərəfindən başqa-başqa işlərə göndərildiyi üçün hümayun

şövkətdən aralanmışdırsa da öz vəzifəsini sədaqət, dövlətxahlıq, qeyrət və mərdanəliklə, şahın razılığı, din və dövlətin məsləhəti ilə icra etmişdi" (10).

İsgəndər bəy Münşi öz əsərinin başqa bir yerində Hatəm bəy haqqında belə yazırdı: "Bu kitabın müəllifi özünün əksər vaxtını o cənabın həmsöhbəti kimi keçirmək şərəfi ilə şərəfləndiyindən bütün görüşlər zamanı həmişə onun lütfünü və isti münasibətini müşahidə edirdi. O, mələksifət insanın feyz bəxş edən söhbəti dostluq və ülfətlə dolu olduğundan, ...günlər o yüksək məqamlı cənabın yoldaşlığı və həmrahlığı sayəsində mənalı söhbətlərlə ötdü" (11).

Hatəm bəy Ordubadi 1610-cu ildə Urumi qalası ətrafında vəzifə icra edərkən qəflətən dünyasını dəyişdi. Şah Abbas onun dünyasını dəyişməsini böyük kədərlə qarşıladı və onun dəfni üçün gərəkli olan işlərin görülməsinə tapşırıq verdi. Hatəm bəyə olan hörmət və ehtiramın qarşılığı olaraq Şah Abbas onun vəzifəsini oğlu Mirzə Əbu Talibə verdi. O, da təxminən 10 il, 1621-ci ilə qədər bu vəzifəni icra etdi (12).

Səltənətin sədr-əzəmi vəzifəsinə təyin edilməzdən əvvəl Hatəm bəy Ordubadi müstövfiyülməmalik vəzifəsində çalışırdı. "Aldanmış kəvakib" povestində öz danışığı ilə özünü ifşa edən obrazlardan biri də Şah Abbasın müstövfisi (maliyyə işlərinə məsul olan adam) Mirzə Yəhyadır. Bu obraz da öz prototipindən tamamilə fərqlənən bir xarakterə malikdir. Mirzə Yəhyanın bir neçə cümləlik söhbətindən onun hansı xidməti əxlaqa, bacarıq və qabiliyyətə malik olduğunu görmək mümkündür. Öz vəzifəsindən istifadə etməklə insanları haqqını kəsmək, qoşunun, iş adamlarının halal puluna əyri gözlə baxmaq, öz vəzifəsini qoruyub saxlamaq üçün insani keyfiyyətlərini hərraca qoymaq Mirzə Möhsünün xarakterinin ayrılmaz elementləridir. Povestdə o özünü belə ifşa edir: "Bu bəndeyi-həqir vəzirin əqrəbi və dəst-pərvərdəsi olduğum səbəb və onun vücudu vasitəsilə bu mənsəbə yetişdiyimə görə, ixlas və sədaqət göstərməkdə bilkülliyə onun niyyəti-həsənəsinə və qaydasına peyrəvilik etmişəm. Müşəxxəsdir ki, qoşunun və

əvasiti-sahibmənsəbanın məvacibi qibleyi-aləmin fərmanı mucibincə və mənim imzam ilə vilayətləin mədaxilindən həvalət olunur. Çünki xəzineyi-amirədə nüquddan nöqsan görsənmişdi, necə ki, vəzir zikr elədi, ona binaən mən bu cəhətdən qayətdə diləfsürdə idim. Əgərçi mən fərmani-məvacibi imza edib vilayətlərə həvalə etmişəm ki, məvaciblərin qəti ilə dövləti-əliyyə xalqın nəzərində bietibar görünməsin; amma məxfi bir vilayət hakiminə piş əz vəqt məktub göndərmişəm ki, mənim tərəfimdən cüdaganə nəviştə olmamış məhz fərman mucibilə məvacib icra etməkdən etiraz etsinlər. Həmin tədbir səbəbilə xəzineyi-amirənin mədaxili çox təzayüd behəm edibdir və qoşun xalqı və sahibmənsəblər əgərçi bivüsuli-məvacib qalıblar, amma sülh və asayiş zamanı olmaq səbəbilə və İranın kənali ucuzluğuna görə, məvacibə ziyadə möhtac olmayıblar".

Şah Abbasın hakimiyyəti dövründə isə maliyyə məsələlərinə məsul olan müstövfiyül-məmalik heç də belə yüngül düşüncəli insan deyildi və onun seçilməsinə xüsusi diqqət yetirilirdi. Çünki maliyyə vəsaitlərinin bütün səltənətdən toplanması, dövr edilməsi və eləcə də onun düzgün istifadəsi kifayət qədər dəqiqlik, məsuliyyət və təmizlik tələb edirdi. Görünür elə buna görə idi ki, İsgəndər bəy Münşi öz əsərində Şah Abbasın hakimiyyəti illərində müstövfiyəl-məmalik olmuş əyanların hamısının siyahısını vermişdi. Onun yazdığına görə Şah Abbas dövründə yeddi nəfər həmin vəzifəyə təyin edilmişdilər. İsgəndər bəy onları gözü tox insanlar kimi təqdim edirdi. İlk müstövfilər aşağıdakılar idilər: Xacə Şükrulla Dənyani İsfahani. Saray daxilində Xacə Şükrulla dərvişxislət, nəfsi tox və işbilən mühasib kimi tanınmışdı. Xacə Şükrullanı bu vəzifədə Hatəm bəy Ordubadi əvəz etdi. Hatəm bəy bu vəzifədə olarkən maliyyə vəsaitlərinin toplanması, dövr edilməsi, bölüşdürülməsi və işlənməsi ilə bağlı xüsusi bir təlimat hazırladı. Müəyyən dəyişikliklər edilməklə bu təlimat Şah Abbasın bütün hakimiyyəti müddətində qüvvədə qaldı. Şah Abbasın Hatəm bəy haqqında yüksək fikirdə olduğu bəllidir. Onun üçün idi ki, Hatəm bəy tezliklə daha böyük vəzifəyə irəli çəkildi və altı aylıq

fəaliyyətdən sonra o, müstövfiyül-məmalik vəzifəsini tərk etməli oldu. Bu vəzifəyə növbəti təyinata Ağa Şahəli Dövlətabadi İsfahani layiq görüldü. "Uca müstövfiəl-məmalik rütbəsi ilə sərbüləndoldu. O zamanlar qayda-qanuna görə müstövfilərə verilməyən daş-qaşlarla bəzəkli olan mürəkkəb qabı və qızıl qələm ona verildi. Hesab elmində və yazı yazmaqda mühasiblərin ustadı idi. Bacarıqla adamdı. Nəfsi tox və xeyirxahdı. Həmin vəzifəni altı ay müstəqil idarə etdi, min altıncı ildə təbii əcəllə vəfat etdi. Sülaləsinə göstərilən şahanə şəfəqqətə görə onun vəzifəsi qardaşı Ağa Mirzə Əliyə verildi, Daş-qaşlarla bəzəkli mürəkkəb qabı və qızıl qələm ona çatdı. O da xoşrəftar, pərhizgar və tamahı az adam idi. Hatəm bəy Ordubadi tərəfindən hazırlanan və bu gün hümayun dəftərxananın qanunu olan şaha tabe məmləkətlərin gəliri və çıxarı barədəki kitab Ağa Mirzə Əlinin işlədiyi dövr ərzində tam dürüstləşdirildi. O, beş il müstövfiəl-məmalik vəzifəsində işlədi" (16).

"Aldanmış kəvakib" əsərində cərəyan edən hadisələr baş verəndə müstövfiəl-məmalik vəzifəsini Mirzə Əli icra edirdi. Mirzə Əli hətta istəsəydi belə, maliyyə pozğunluqları edə bilməzdi. Çünki Şah Abbas maliyyə məsələlərini də ciddi nəzarət altında saxlayırdı və bu məsələlərin həllində əyintilərə yol verən adam şahın çox ciddi cəzası ilə qarşılaşa bilərdi.

"Aldanmış kəvakib"in qəhrəmanlarından biri də sərdar Zaman xandır. Sərdar Zaman xan Səfəvi qoşunlarının rəhbəridir və qabiliyyəti, düşüncəsi və təfəkkürü baxımından vəzir Mirzə Möhsündən və müstövfi Mirzə Yəhyadan heç də fərqlənmir. M.F.Axundov onun hansı keyfiyyətlərə malik olmasını elə öz dilində oxucularına çatdırır: "Bu çakəri-xalis, saqqalımın tükünü dövləti-əliyyənin xədəmatında ixlas və hünər ilə ağartmışam. Məsələn, on il bundan əqdəm ki, taifeyi-Osmaniyyə Bəkir paşa Dəmirçioğlunun sərəsgərliyi ilə yetmiş min nəfərə qərib xaki-İranə hücum gətirməyə müsəmməm olmuşdular: qibleyi-aləmin pedəribüzürgüvarı İran qoşununun sərdarlığını mənə vagüzar etdi. Əgərçi bizim qoşunumuz da hesab və ədəddə taifeyi-Osmaniy-

yədən kəm deyildi, nəhayət, mənim heyfim gəldi ki, firqeyi-naciyyənin qoşunun güruhi-zallənin müqabilində tələfə verdirim. Ona binaən əmr etdim ki, Osmanlıya sərhədindən ta nəhayəti-mülki-Azərbaycan tamam dəhaqinin ziraətini xərab etsinlər və çaparlarını qovub gətirsinlər, körpüləri dağıtsınlar və yolları pozsunlar. Vəqta ki, Bəkir paşa sərhəddimizə daxil oldu, əgərçi müqabilində bizim qoşundan bir nəfər görmədi, amma yollar bir mərtəbədə xərab olmuşdu ki, əsla özü ilə topxana gətirməyə qadir olmayıb, ancaq atlı və piyadəsilə ənbai-zəhmətdə Təbrizə varid oldu və hər tərəfə dəstə göndərib zəxirə təhsilinə iqdam etdi. Əlinə bir həbbə və bir öküz və qoyun və xizan, ac və əfsürdə Təbrizdən küsi-rəhlət döyüb qaçdı. Bu tədbir ilə mülki-İran taifeyi-biganənin hücumundan məhfuz qaldı. Yolları pozmaq və körpüləri yıxmaq bir mərtəbədə tədbiri-müfid göründü ki, dövləti-əliyyə Bəkir paşa qaçandan sonra dəxi belə səlah gördü ki, bunları həmişə bu qırarda baqi qoysun, dübarə taifeyi-biganənin hücum gətirmək ehtiyatı il, bu təriq ilə dövləti-əliyyənin qoşunundan bir nəfərinin dəxi burnu qanamayıb, əsakiri-mənsurənin cümləsi həmsayə düşmənlərin vəhşəti üçün salim qaldı".

Sərdar Zaman xanın haqqında danışdığı hücum əslində, 1585-ci ildə baş vermişdi. Sərdar Zaman xanın adını çəkdiyi Bəkir paşa Dəmirçioğlu da tarixi şəxsiyyət deyildi. Təbrizin işğalı ilə başa çatan həmin hücumda Osmanlı qoşunlarına Osman paşa rəhbərlik edirdi. Onun rəhbərliyi altına yüz min nəfərlik Osmanlı qoşunu Təbriz üzərinə hücuma keçmişdi (17).

Sərdar Zaman xanın təsvir etdiyi taktika Osmanlı qoşunlarına qarşı Şah Təhmasibin və eləcə də Şah Abbasın hakimiyyəti illərində tətbiq edilmişdi. Sərdar Zaman xanın haqqında danışdığı hücum zamanı isə Osmanlı və Səfəvi qoşunları Təbriz qalası ətəklərində üz-üzə gəldilər. Bu döyüşdə Osmanlı qoşunları üstünlük qazandı və 1585-ci il sentyabr ayının sonlarında Təbriz şəhəri Osman paşanın rəhbərliyi altında olan Osmanlı qoşunlarının əlinə keçdi. Yəni sərdar Zaman xanın tarixə müraciət etməsi bədiilikdən o yana keçmir. Osmanlı qoşunlarının hücum təhlükəsi ərəfəsində

Azərbaycan (cənubi) ərazisindəki əkin sahələrinin, körpülərin, yolların xarab edilməsini və dağıdılmasını sərdar Zaman xan şah qarşısında öz qəhrəmanlığı və tədbirliliyi kimi qələmə verməyə çalışırdı. Bu məsələyə M.F.Axundovun da istehzasını hiss etmək mümkündür. İlk baxışdan da hücum edən qoşunlar qarşısında geri çəkilmək və bu zaman geridə qalan əraziləri xaraba günə qoymaq ən adi məntiqdən uzaq görünür. Lakin məsələnin mahiyyətinə dərindən nüfuz edilməsi ilə belə bir taktikanın tətbiqinin həm Şah Təhmasibin, həm də Şah Abbasın sərkərdəlik təfəkküründün ən yaxşı nümunəsi kimi qəbul etmək olar.

İlk dəfə bu taktika 1535-ci ildə, Şah Təhmasibin hakimiyyəti illərində Sultan Süleymanın rəhbərliyi altında Səfəvi dövləti üzərinə hücum edən Osmanlı qoşunlarına qarşı tətbiq edilmişdi. Məqsəd də Osmanlı qoşunlarının Səfəvi dövləti ərazisində bütün ərzaq ehtiyatlarından məhrum edilməsi və Osmanlı qoşunları çarəsiz bir duruma salınması idi. Bu taktikanın tətbiqinə başlanmazdan əvvəl Şah Təhmasib bütün tərk edilməli olan yaşayış məntəqələrinin kətxudalarını toplayıb vəziyyəti onlara anlatdı, bəyan etdi ki, bu müharibənin təşəbbüskarı o deyildir və əgər yerli əhali öz yerlərini tərk etməsələr onda daha artıq çətinliklərlə qarşılaşa bilərlər. Yurdunu tərk edən insanlar bütün ərzaq ehtiyatlarını özləri ilə aparmalı idilər. Apara bilmədiklərini isə məhv etməli idilər ki, Osmanlı qoşunlarının əlinə keçməsin. Şah Təhmasib eyni zamanda onu da bildirdi ki, insanların itirdikləri ərzaq ehtiyatları dövlətə verilməli olan vergilər hesabına silinəcəkdir və həmin itkilər dövlətə ödənmiş vergi kimi hesaba alınacaqdır. Bununla da insanların itkilərini Şah Təhmasib dövlətin üzərinə götürürdü. Şah Təhmasibə görə, yalnız bu yolla üstün olan Osmanlı qoşunlarını çətinliklər qarşısında qoyub onları geri qayıtmağa məcbur etmək olardı. Məlumdur ki, Şah Təhmasibin bu taktikası uğur gətirdi və Osmanlı qoşunlarını geri çəkilməyə məcbur etmək mümkün oldu. Yəni konkret şərait üçün bu seçimin doğru olması özünü bütünlüklə doğrultdu və Şah Təhmasib böyük hökmdar və fateh Sultan Süleymanı öz qoşunları ilə məqsədə nail olmadan geri çəkilməyə

məcbur etdi. Bu mənada povestdə hətta müəllifin özünün də yaşadığı və oxucusuna da yaşatmağa çalışdığı istehzanın tarixi əsası yoxdur.

Şah Abbas da bu taktikaya əl atmalı oldu. Belə bir seçim edilməsi təsadüfi düşüncənin deyil, hərbi duyumun, geniş dəyərləndimənin, taktiki zərurətin nəticəsi idi. Bu da dövlətin və insanların maraqlarına cavab verən bir sonluğa gətirib çıxardı. Özü də bu zaman Şah Abbas yurdlarından köçürülməli olan insanlarla bir oldu, onların bütün çətinliklərini qarşılamağa çalışdı və bu istiqamətdə əməli addımlar atdı. Məsələn, 1610-cu ildə Murad paşanın rəhbərliyi altında Osmanlı qoşunları Təbriz üzərinə hücuma hazırlaşanda Şah Abbasın fərmanı ilə Təbriz istiqamətində olan məntəqələrin əhalisinin köçürülməsi, həmin məntəqələrdə mövcud olan ərzaq ehtiyatlarının daşınması haqqında qərar verildi. Köçürülməyə məruz qalan əhali apara bilmədikləri ərzaq ehtiyatını şah anbarlarına təhvil verməli və və xəzinədən onun ahqqını almalı idilər (18).

Şah Abbas bu barədə öz yaxın ətrafı ilə də məsləhətləşmələr aparmış və nəhayət belə bir qərar üzərində dayanmışdı. Bəllidir ki, Şah Abbas Osmanlı qoşunlarının yaxınlaşması xəbərini alanda hətta Ərdəbil əhalisinin də köçürülməsi barəsində əmr vermişdi. O, Osmanlı işğalı təhlükəsi qarşısında onun üçün müqəddəs olan Şeyx Səfiəddin türbəsinin yandırılması və dağıdılması haqqında da qərar qəbul etmişdi. Çünki vəziyyət bunu tələb edirdi və Şah Abbas da bu tələblə razılaşmalı olurdu. Lakin Osmanlı qoşunlarının irəliləməsinin qarşısı alınanda Ərdəbilin köçürülməsi dayandırıldı.

Osmanlı qoşunları ilə qarşılaşma başa çatandan sonra Şah Abbasın əmri ilə müharibə bölgəsinin insanlarına müharibədən dəymiş ziyanlar hesablandı və həmin ziyanlar şah xəzinəsi hesabına ödənildi (19).

Sərdar Zaman xanın tutduğu vəzifəyə gəlincə isə qeyd etmək lazımdır ki, Səfəvi qoşunlarının komandanı vəzifəsini tutan şəxs sipəhsalar adlanırdı. Sipəhsalar səltənət qoşunlarında şahdan sonra

ən yüksək vəzifəli şəxs idi. Qoşunların döyüşə hazırlığı, hərəkət sırası, döyüşqabağı düzülüşü, döyüş tapşırıqlarının icrası sipəhsaların rəhbərliyi altında aparılırdı. Ona görə döyüşlərin uğurla başa çatdırılmasında sipəhsaların böyük rolu var idi. Şah Abbas hakimiyyəti illərində bu vəzifənin ilk icraçısı kimi Qərçəqay xanın adı çəkilməkdədir. Qərçəqay xan islamı qəbul etmiş qeyri-müsəlman idi. O, hələ kiçik yaşlarından şah sarayına gətirilmiş və sonradan şah qulamları sırasına daxil edilmişdi. Şah hakimiyyətinə sədaqəti ilə elə erkən vaxtlardan da diqqəti cəlb etmiş və vaxt ötdükcə irəli çəkilmişdi. Şah Abbasın hakimiyyətinin əvvəllərində onun xasseyi-şərifə qulamı olması, sonradan isə topçubaşı vəzifəsinə təyin olunması baş vermişdi. Nəhayət sədaqətli və fədakar xidmətlərinə görə Şah Abbas onu qoşun sipəhsaları vəzifəsinə təyin etdi. Qərçəqay xan Şah Abbasa xidmət etməyi və ona sədaqətli olmağı öz həyatının mənası kimi qəbul etmişdi. Bu hisslərində və əqidəsində o, hər hansı bir tərəddüdə malik deyildi. Onun bu keyfiyyətləri də şah tərəfindən yüksək qiymətləndirilirdi. İsgəndər bəy Münşi onun haqqında belə yazırdı: "... Bəxti uğurlu olduğundan, xasseyi-şərifə qulamları silkinə daxil edilmək səadətinə çatmışdı. Zatındakı cövhərin bərəkəti sayəsində şahın xidmətində tərbiyələnmiş və gün-gündən ali dərəcələrə yetişmişdi. Yaxşı xidmətlərinə görə qıcaçi mənsəbinə çatmış, təcrübəsi artdıqdan sonra topxana əmiri və tüfəngçilərin sərdarı oldu. Ləyaqətinin çoxluğundan müqəddəs şah məclislərinin iştirakçıları zümrəsinə daxil edildi, müzəffər ordu sərdarı vəzifəsinə yetişdi. Bu vəzifədə işləyərkən o, həzrət şahın məsləhəti ilə şah yürüşlərində iştirak etmiş, göndərildiyi hər işi üz ağlığı ilə yerinə yetirmişdi. Nəhayət, yüksək əyalət və uca "xan" ləqəbi ilə sərəfraz oldu. Sonra, tədbiri, şücaətinin çoxluğu, ehtiyatkarlığı, uzaqgörənliyi, ağıllı rəyi və döyüşlərdə əzminə görə bütün İran ləşkərinin sipəhsaları olmaqla şərəfləndi " (20).

Sipəhsalar səltənətin nüfuzlu əmirlərindən biri olsa da, onun Şah Abbasın icazəsi olmadan yolları, körpüləri dağıtmaq, yaşayış məntəqələrini viran günə salmaq səlahiyyəti yox idi. Ümumiy-

yətlə, Qərçəqay xan belə bir tapşırığı icra etməli olmamışdı. O, Şah Abbasa bağlı və sədaqətli bir insan idi və Şah Abbas da onun sədaqətli fəaliyyətini çox yüksək qiymətləndirirdi. 1618-ci ildə səltənət sərhədlərinin Osmanlı qoşunlarından qorunması sahəsində göstərdiyi şücaəti hətta Şah Abbasın qürurunu səbəb oldu. Qərçəqay xan verilən tapşırığı uğurla başa çatdırıb geri qayıdanda Şah Abbas Ərdəbildə düşərgə salmışdı və şahın hüzuruna yollandı ki, gördüyü işlər barəsində ona məlumat versin.

Qərçəqay xanın gəlməsi xəbərini eşidəndə Şah Abbas kimi böyük hökmdar şəxsən onun qarşılanmasına çıxdı. Hətta qarşı-qarşıya yaxınlaşanda Şah Abbas atdan yerə düşdü və piyada şəkildə Qərçəqay xana tərəf irəlilədi. Qərçəqay xan da şaha ehtiram əlaməti olaraq atdan yerə düşdü, şaha öz itaətini və ehtiramını bəyan etdi. Bəzi məlumatlara görə, Şah Abbas Qərçəqay xana belə müraciət etdi: "Ağa can, sən mənim üçün elə böyük bir fəth eləmişsən ki, ondan da böyüyünü heç yaradandan arzu eləməmişdim. Gəl mənim atıma əyləş, mən də sənin cilovdarın kimi sənin qarşında piyada hərəkət edim". Şahidlərin xatirələrində olan qeydlərə görə, Qərçəqay xan bu sözləri eşidəndə özünü itirdi və iltimas etdi ki, şah ona qarşı belə bir lütf göstərməsin ki, insanlar bunu başqa cür başa düşə bilərlər. Şah Abbas isə hərəkəti ilə göstərdi ki, dedikləri heç də adi sözlər deyil. O məcbur etdi ki, Qərçəqay xan yenidən atlansın və sonra da bütün sərdarlar və saray əyanları ilə birlikdə onun arxasınca yeddi addım atdı, bu qəhrəman sərkərdəsinə öz ehtiramını beləcə bəyan etdi (21).

Şah Abbasın qoşun sərdarı belə bir adam idi və sözsüz ki, sərdar Zaman xanla müqayisə edilə biləcək bir sərdar deyildi. Sərdar Zaman xan kimi naqis düşüncəli insanlara Şah Abbas qoşunlarında heç yer ola bilməzdi.

Povestdə şah hüzurunda söylədikləri ilə özünü ifşa edən obrazlardan biri də mollabaşı Axund Səməd idi. O da öz təfəkkürünə, düşüncəsinə, əqidəsinə görə yuxarıda haqqında danışılan əsər qəhrəmanlarından elə də fərqlənmir. Öz vəzifəsinin mahiyyətini kifayət qədər təsəvvür edə bilməyən bu insan əsərdə dini

fanatizmin təmsilçisi, etiqadı naqis bir müsəlman kimi təsvir olunmuşdur. İnsanların dini etiqadını qılınc gücünə dəyişməyi başlıca vəzifəsi sayan bu baş molla gördüyü işlər haqqında şaha belə məlumat verirdi: "Cənab əqdəsi-ilahi qibleyi-aləmin vücudi-mübarəkəni əimmeyi-əthar hörmətinə cəmii-afati-səmavidən və ərzindən məhfuz etsin! Bu daiyi-dəvami- dövləti-qahirənin ixlas və sədaqəti, silsileyi-cəlileyi-Səfəviyyə nisbət tövsifdən xaricdir!

Qibleyi-aləmin pedəri-büzürgüvarları zamanında mənsəbi-mollabaşılığa sərəfraz olduğumda nisfi-İran, hətta payitəxtin yarısı dəxi sünni məzhəb idi. Əvvələn, məvazi-həsənə və saniyən, təxvifati-kəsirə səbəbilə tamam sünni məzhəbləri rahi-rasti-məzhəbi-isna əşəriyyəyə hidayət etmişəm. İndi Allahın kərəmindən səfheyi-İranda beş-altı nəfərdən ziyadə sünni tapılmaz. Bu xüsusda İran xalqından dəxi kəmali-rizaməndliyim var ki, bəmücərrədi-təklif qədimi ata və babalarının məzhəblərindən əl çəkib hidayətə rağib oldular.

Hətta mən istədim ki, cuhudlara və ermənilərə dəxi əl qatıb oları da şiə məzhəbinə döndərim, amma bir para xeyrəndiş kimsənələr məsləhət görmədilər ki, lüzum yoxdur. Çünki hər torpaqda cuhuddan və ermənidən bir az var, bizim torpağımızda dəxi bir az olmaqları məsləhətdir.

Əlavə, müşəxxəsdi ki, əimmeyi-ətharın əhadisi-səpihəsi mucibincə islam mülkündə təxtə və taca malik olan kimsənə zati-şərif və vacibüttaət məhsub olunmaz. Zira ki, bu dərəceyi-aliyə imama və ya onun naibi müctəhidi-ələmə mütəəlliqdir. Ona binaən mən cəmi xütəbaya hökm yazdım ki, tamam vilayətlərin mənabirində xalqa elan etsinlər ki, həmin əhadisin silsileyi-Səfəviyyəyə şümulu yoxdur. Zira ki, xanədani-nübüvvətdən və dudimani-imamətdən zühur ediblər və vazehdir ki, əimmə haman əhadisi qeyrilərinin haqqında buyurmuşlar, nə öz vücudlarının".

Şah Abbasın hakimiyyəti illərində səltənətin dini işlərinə rəhbərlik edən vəzifəli ruhani "sədr" adlanırdı. Doğrudur, bu vəzifə sahibi Şah İsmayılın və Şah Təhmasibin dövründəki bir çox səlahiyyətlərdən məhrum olmuşdu. Bununla belə, sədr səltənətin nü-

fuzlu vəzifə sahiblərindən biri olaraq qalmaqda idi. Sədr vəzifəsinə təyinat Şah Abbasın özü tərəfindən aparılırdı. Şah Abbas bu zaman həm özü tanıdığı, həm də insanların tanıdığı və etibar etdiyi bir din xadimini bu vəzifəyə təyin edirdi. Sədr əslində, dini işlər üzrə şahın köməkçisi işlərini yerinə yetirirdi. Bu mənada sədr öz fəaliyyətində şahın iradəsi və hökmləri ilə razılaşmalı idi. Məlumdur ki, Şah Abbasın hakimiyyəti illərində Mir Əbülvəli Əncu, Qazi xan, Qazi Sultan Türbəti, Mir Cəlaləddin Səlayi**,** Mirzə Rəzi, Sədrəddin Məhəmməd, Mir Rəfiəddin Məhəmməd Xəlifə sədr vəzifəsini icra etmişdilər (22).

İsgəndər bəy Münşi Şah Abbasın hakimiyyəti illərində sədr vəzifəsini icra etmiş din xadimləri haqqında belə yazırdı: "Beləliklə, həzrət şahın əzəmətli seyidləri yeddi nəfərdir: Hümayun cülus zamanı sədr Əmir Əbülvəli Əncu Şirazi idi. O, İsgəndər şanlı nəvvabın və Əbu Talib Mirzə tərəfdarlarının hakimiyyəti dövründə zəfərli qaziye-əsgər vəzifəsindən sədarət rütbəsinə ucaldı, lakin hümayun şahın cülusundan sonra başqa seyidlər kimi onun da adının üstündən işdən kənarlaşdırılması xüsusunda qələm çəkildi. Çox keçmədən o, bu vəzifəyə başqa seyidlərdən və zəmanənin fazil adamlarından üstünlük imtiyazına malik olduğu üçün yenidən bu mənsəblə sərəfraz oldu. Əmir Əbülvəli Əncu iyirmi il bu vəzifəni şəriksiz idarə etmişdi" (23).

Bu qeydlərdən göründüyü kimi, Əmir Əbülvənli Əncu zəmanəsinin bütün seyidlərindən və fazil adamlarından üstün idi və ona görə də səltənət sədri vəzifəsində saxlanılmışdı. Povestdə təsvir olunan hadisənin baş verdiyi il səltənət sədri də Əmir Əbülvəli Əncu idi. Yəni bu fazil insan Axund Səmədin prototipi idi.

Axund Səməd şah qarşısında etdiyi çıxışında Səfəvi dövləti ərazisindəki bütün müsəlmanların şiə məzhəbinə çevirdiyini bəyan edirdi. Onun sözlərinə görə, səltənət daxilində sünni məzhəbinə mənsub 5-6 nəfər qalmışdı. Yəni onun sözlərindən belə bir təsəvvür yarana bilər ki, Şah Abbasın hakimiyyəti illərində bütün müsəlmanların şiə məzhəbinə çevrilməsi məcburi dövlət siyasəti səviyyəsinə qaldırılmışdı.

Bəllidir ki, şiə məzhəbi Səfəvi dövlətinin rəsmi məzhəbi idi və məlumatsız oxucu üçün Axund Səmədin dedikləri də doğru görünə bilərdi. Şah Abbas özü də dərin etiqadlı bir şiə müsəlman idi. Əslində, Şah Abbas şiə etiqadının ən sadiq təmsilçisi sayıla bilərdi. Bununla belə, Şah Abbas həm sünni məzhəbinə, həm də bütünlükdə digər dinlərə çox dözümlü yanaşırdı və onun hakimiyyəti illərində səltənət daxilində çox böyük sayda sünni məzhəb insanlar yaşayırdılar. Şah Abbas tərəfindən istər sünniliyin və istərsə də digər dinlərin və inancların xüsusi olaraq təqib edilməsi faktı mövcud deyil. Mövzunu daha geniş araşdırmış tədqiqatçılar da bu fikri təsdiqləyirdilər (24).

Məsələn, 1602-ci ildə Türküstan yürüşü zamanı Şah Abbas bölgənin sünni olan özbək əhalisinə çatdırdı ki, onların təriqət inancları təqib olunmayacaqdır. Əndxod qalasının sakinləri qızılbaş qoşunlarının mühasirəsindən xilas ola bilməyəcəklərini anlayanda öz nümayəndələrini Şah Abbasın yanına göndərdilər və ondan aman istədilər. Şah Abbas da onlara belə bir cavab verdi: "Bizim sizə tərəf hümayun yürüşümüzün səbəbi Canı bəy sultanzadələrinə imdad etmək olmuşdur. Biz bu vilayətə tamah etmirik, əhalinin və ibadullahın rifahından və rahatlığından başqa heç bir istəyimiz yoxdur, bütün tayfalara qarşı sülh məqamındayıq, həmçinin bizim heç kimin məzhəb və milliyyəti ilə işimiz yoxdur. Buna misal olaraq, bilməlisiniz ki, Mərv, Nisa və Əbivərd bu qüvvətli dövlət övliyalarının əlinə keçəndən bəri, məscid və məbədlərdə sünni əhli ilə şiəməzhəb camaatın hərəsi öz şivə və şüarlarına uyğun şəkildə həyat tərzi keçirirlər. Onların heç birinə istəkləri əleyhinə heç nə təklif olunmamışdır və olunmayacaqdır da. Hər həs hara getmək istəsə, buyurub getsin. Rəiyyət və kasıb adamlar qoy asudə tərzdə öz işləri ilə məşğul olsunlar, onlara əsgərlər tərəfindən heç bir ziyan dəyməyəcəkdir" (25).

Ümumiyyətlə, onun sünni təriqətinə qarşı təmkinli münasibətinin nəticəsi idi ki, səltənət daxilində xeyli sayda sünni əhali yaşayırdı. Mənbələrdə və elmi-tarixi araşdırmalarda da göstərilir ki, Şah Abbasın hakimiyyəti illərində Naxçıvanda (26) və Gilanda

(27) xeyli sayda sünni əhali var idi. Bundan başqa səltənət ərazisində böyük sayda kürdün, ərəbin yaşaması da gizli deyildi. Sünni təriqətinə mənsub olan insanlar arasında kifayət qədər məşhurlaşmış insanlar da var idi. Məsələn, Mir İmad Xoşnevis belələrindən idi. İsgəndər bəy Münşi onun haqqında belə yazırdı: O, "nəstəliq xətti ilə yazmaqda çox inkişaf etmiş və özündən əvvəlki ustadların xətləri üzərindən xətt çəkmişdi. Qələm işlətməkdə və məktub yazmaqda yədi-beyzası (hərfi tərcüməsi – "ağ əl" deməkdir) və ali dərəcəsi vardı. Onun xətti həqiqətən də səhvsiz, gözəl və yaraşıqlı idi" (28).

Şah Abbas şiə etiqadlı bir insan olsa da, onun təriqət və dini inanc sahiblərinə münasibətində siyasi maraq üstünlük təşkil edirdi. Onun dərin şiə etiqadına malik olması heç də o demək deyildi ki, şiə təriqətinə mənsub olanlar hər cürə hərəkət etməkdə azad idilər. Şah Abbas səltənət daxilində yaşayan bütün təriqətlərin və dinlərin davamçılarının mərkəzi hakimiyyətə sədaqətli olmasını istəyirdi və bu məsələdə yanlış mövqe tutanlara qarşı təriqətindən və dinindən asılı olmayaraq ciddi cəzalar tətbiq edirdi. Mərkəzi hakimiyyətə qarşı yönəlmiş heç bir hərəkətə münasibətdə Şah Abbas güzəştə yol vermirdi. Bu mənada müxtəlif təriqət və din mənsubları Şah Abbas qarşısında eyni hüquq və səlahiyyətlərə malik idilər. Bu mənada sünniliyin təqib edilməsi ilə bağlı povestdə Axund Səmədin dili ilə səsləndirilən fikrin tarixi əsası yoxdur.

Axund Səməd öz çıxışında başqa bir məsələyə də toxunurdu. Onun ərəb və fars sözləri ilə dolu olan danışığının anlamı belədir ki, hədislərə görə islam aləmində şahlıq taxt-tacına yiyələnmiş hər bir adam şərafətli adam sayıla bilməz və ona itaət edilməsi düzgün deyildir. Belə ki, şiə məzhəbinin hakim olduğu islam məmləkətində şahlıq haqqı imama və ya onun nayibinə (onu əvəz edə biləcək birisinə) məxsusdur. Ona görə də o, şaha yarımaq üçün vilayət xətiblərinə hökm göndərir ki, onlar minbərlərdən hakimiyyətlə bağlı həmin hədisin Səfəvi nəslinə aid olmadığını xalqa bəyan etsinlər.

Əslində, bu məsələ hələ Şah İsmayılın hakimiyyəti illərində kifayət qədər aktuallıq kəsb etmişdi. Bəlli olduğu kimi, Səfəvi hakimiyyətini bərqərar etməklə Şah İsmayıl şiə (imamiyyə və ya on iki imam) məzhəbini səltənətin hakim məzhəbi elan etmişdi. İmamiyyə şiə məzhəbinin fiqhinin isə hakimiyyətlə bağlı öz tələbləri var idi. Bu məzhəb fiqhi o hakimiyyəti qanuni və legitim sayırdı ki, onun bünövrəsi Allah tərəfindən qoyulmuş olsun. Allahın rizası və iradəsi əsasında qurulmayan və bu hakimiyyətə haqqı olmayan insanlar tərəfindən qurulan bir hakimiyyət qəsb olunmuş bir hakimiyyət kimi qəbul olunmalı idi. Belə iddia olunurdu ki, həqiqi hakimiyyət məhz Allaha məxsusdur və rizasını qazanmış insanlar rəhbərlik etməlidir. Əks təqdirdə hakimiyyət qeyri-legitim və qeyri-qanuni hesab olunmalı idi (29).

Mütəxəssislərin qeyd etdiyi kimi, imamət məsələsi şiə inancının əsaslarından birini təşkil edirdi və bu məsələ sünni və şiə inancları arasındakı fərqlərdən biri idi. Belə ki, sünni inancına görə, islam dini tövhid, nəbüvvət və məad rüknləri üzərində qurulmuşdusa, şiə fəqihləri bura ədalət və imamət rüknlərini də əlavə etmişlər (30). İmaməti isə şiə fəqihləri əhli-beytin haqqı sayırdılar.

Əhli-beytə kimlərin daxil olması haqqında da şiə fəqihləri ilə sünni fəqihləri arasında fikir müxtəlifliyi vardır. Şiə inanclarına görə, Quranın Ahzab surəsinin 33-cü ayəsində xatırlanan əhli-beytə islam peyğəmbəri, onun əmisi oğlu və kürəkəni olan Həzrət Əli, islam peyğəmbərinin qızı və Həzrət Əlinin zövcəsi Fatimə və onların övladları və nəsil davamçıları daxildirlər. Bildirilir ki, hakimiyyət də məhz Əhli-beyt üzvlərinə və davamçılarına məxsus olduqda dini baxımdan legitim və qanuni sayılır. Şiə fəqihləri bu məsələdə konkretdirlər və onlar bəyan edirlər ki, hakimiyyət əhli-beytə və onun davamçılarına məxsusdur, əhli-beyt davamçılarından kənar olan hakimiyyət dini baxımdan qanuni deyildir və belə bir hakimiyyəti qəbul etmirlər (31). Quranın Hud surəsinin 113-cü ayəsinə istinad etməklə şiə üləması əhli-beytə aid olmayan hakimlərlə əməkdaşlıq etməyi düzgün saymırdılar (32).

Bütün bu məsələlərə görə, Şah İsmayıl da öz hakimiyyətinin qanuniliyi və dini baxımdan legitimləşdirilməsi üçün şiə inanclarının müəyyənləşdirdiyi çərçivədə yollar tapılmasına çalışırdı. Şiə fəqihləri sonuncu imamın, yəni imam-zamanın qeybətə çəkildiyi vaxtda islam hakimiyyətinin qanuniləşdirilməsi üçün məsum müctəhidlərdən birinin imam nayibi və ya imam-zamanın canişini olmasının mümkünlüyünü irəli sürürdülər (33). Bu canişinlər islam aləmini imam-zamanın zühuruna qədər müvəqqəti olaraq idarə edə bilərdilər.

Müctəhid şiə mədəniyyətində adi bir din alimi deyil və daha dərin məna kəsb edir. Xüsusilə, biliyi, əməli, etiqadı və imanı ilə söz sahibi olan və insanların etimadını və etibarını qazanan müctəhidlər ümum tərəfindən bir istinad mənbəyi, etiqad meyarı kimi qəbul edilirdilər. Belə müctəhidlər toplum daxilində qəzavət etmək və şəri hökm vermək səlahiyyətləri qazanmış olurdular. Bu mənada onların qəzavət etmək haqqı və hökmü də tanınır və qəbul edilirdi. Müctəhidlər həm də dinin müdafiə edilməsi, dinin saflığının qorunması vəzifəsini öz üzərinə götürürdülər. Onların verdiyi fitva insanlar tərəfindən riayət olunurdu və bununla müctəhidlər bir növ dini idarəçilik rolunu öz üzərinə götürmüş olurdular. Yəni onlar islam ümmətinə rəhbərliyi həyata keçirirdilər (34). Şah İsmayılın hakimiyyəti illərində səltənət daxilində dini işlərə rəhbərlik edən sədr vəzifəsinə məhz belə müctəhidlər təyin edilirdilər. Bu müctəhidlər imam-zamana nayiblik və ya canişinlik etməklə dini hakimiyyəti öz üzərinə götürmüş olurdu. Onun mövcudluğu şəraitində siyasi hakimiyyəti isə Şah İsmayıl öz üzərinə götürə bilərdi. Bu forma hakimiyyətin legitimləşdirilməsi yollarından biri kimi qəbul edilirdi.

Ona görə də, hakimiyyətin legitimliyinin əsaslandırılması və reallaşdırılması məqsədilə Şah İsmayıl tərəfindən şiə fəqihlərinin saraya dəvət edilməsi halları ilə rastlaşmaq mümkündür. Məsələn, Livandan olan şiə müctəhidi Mühəqqəq Kərəkinin Təbrizə dəvət edilməsi və onun dini işlər üzrə sədr təyin edilməsi də bu məqsəddən irəli gəlirdi. M.Kərəki dini hakimiyyəti öz üzərinə götür-

düyü halda siyasi hakimiyyəti də Şah İsmayıl icra edirdi. Formal olaraq imam-zamanın nayibi kimi M.Kərəkinin təmsil etdiyi dini hakimiyyət daha üstün hakimiyyət hesab olunurdu. Real olaraq isə Şah İsmayıl ilə təmsil olunan siyasi hakimiyyət səltənətin idarəçiliyini öz üzərinə götürmüşdü.

Axund Səməd də öz çıxışında bu məsələyə işarə edirdi. Amma Şah Abbasın hakimiyyəti illərində bu məsələ elə də ciddi bir tələb kimi ortada deyildi. Bir tərəfdən hakimiyyətin müəyyən bir ənənəsi yaranmışdı. Digər tərəfdən isə Şah Abbasa qədər olan Səfəvi şahlarının ata xətti ilə imamların nəslinə bağlılığı müəyyən şübhə doğururdusa, Şah Abbasın ana xətti ilə imam nəslinə bağlılığı şübhə doğurmurdu. Belə ki, onun Məhdi-Ülya kimi tanınan anası Xeyrannisə xanım Mazandaran hakimi Mir Abdulla xanın qızı idi. Mir Abdulla xan da Mir Bozorg kimi tanınan Mir Qəvaməddinin nəslindən idi. Mir Bozorg isə on iki arxa dönəni İmam Hüseynin oğlu olan İmam Zeynalabdinə bağlanırdı (35). Bu isə Şah Abbasın hakimiyyətinin dini legitimliyinə bir əsas yaradırdı.

Axund Səməd şah məclisindəki çıxışında özünü savadlı, bilikli və tədbirli bir din xadimi kimi göstərməyə çalışsa da ulduzların ehtimal olunan təhlükəsindən xilas olmaq üçün heç bir yol göstərə bilmədi. Yazıçı haqlı olaraq ona işarə edirdi ki, səltənət üçün əhəmiyyət kəsb edən məsələlərin həllində Axund Səməd də danışıqları ilə özlərini ifşa edən digər vəzir və vəkillər kimi dərin təfəkkürə malik deyildi. Onların buna qabiliyyəti çatmırdı və bu qabiliyyətsizlik də dövləti vəzifələrə təyinatda az qala meyara çevrilmişdi.

Şah əyanlarını çarəsiz durumdan münəccimbaşı Mövlana Cəmaləddin xilas edə bildi və ulduzların ehtimal olunan təhlükəsindən xilas yolunu da o göstərdi. O təklif etdi ki, məsələnin həlli üçün Şah Abbas bir neçə günlüyə taxtdan əl çəksin və onun yerinə günahkar və ləyaqətsiz bir insan müvəqqəti olaraq şah elan edilsin, ulduzların qəzəbi müvəqqəti elan edilmiş "şahın" başında çatladıqdan sonra Şah Abbas yenidən taxtına qayıtsın.

Şah Abbas həmin təklifi dərhal qəbul etdi. Bu məsələdə povestdə yazılanlarla tarixi reallıq arasında heç bir uyğunsuzluq yoxdur. Şahlıq taxtına kimin gətirilməsi məsələsində isə Axund Səməd təşəbbüskarlıq göstərdi və onun baxışlarını bölüşməyən Yusif Sərrac adlı bir "dinsizin" şah elan edilməsi üzərində dayandı. "Bu şəhri-Qəzvində bir nəfər nabəkar peyda olubdur ki, cəmi-ruyi-zəmində ondan mücrümtər və qətlə müstəhəqq bir kimsənə tapılmaz; adına Yusif Sərrac deyirlər. Məlum deyil ki, harada tərbiyət tapıbdır. Ancaq bu övqət şəhri-Qəzvində sakin olduğu üçün əcamir və övbaşdan özünə mürid cəm edib, həmişə üləmayi-giramın və xüddami-şəriəti-qərranın zərbinə və zəmminə zəbangüşadır".

İnsanları naqis dünyagörüşü çərçivəsində qiymətləndirən Axund Səmədin gözündə Yusif Sərrac belə bir insan idi. Yazıçının təsvirində isə o, əsərin müsbət qəhrəmanı idi, dünyagörüşü, insanlara münasibəti, zəhmətsevərliyi baxımından Axund Səməd kimilərindən çox-çox yüksəkdə dayanan bir obraz idi. Povestdə yazılanlardan göründüyü kimi, Yusif Sərrac elmli bir adam idi, Qəzvində bir dehqanın ailəsində anadan olmuş, həmin şəhərdə məktəbə getmiş, təhsilini davam etdirmək üçün İsfahana yollanmış və orada "ülumi-islamiyyə"yə sahib olmuşdu. Amma Yusif Sərrac ruhani olmaq yolundan imtina etmişdi. Çünki ruhanilərin saxta əməllərini müşahidə etdiyi üçün onun molla zümrəsindən xoşu gəlmirdi. Yusif Sərrac Kərbəla ziyarətinə də yollanmışdı və geri qayıtdıqdan sonra Həmədana üz tutmuş, orada sərraclıq sənətinə yiyələnərək Qəzvinə qayıtmışdı. Bu şəhərdə o, dükan açıb öz zəhməti ilə ailəsini dolandırmağa başladı. Müəllifin bu təsvirinə əsasən demək olar ki, Yusif Sərrac Qəzvində yaşayan Azərbaycan türkü idi. Onun elmə-təhsilə böyük marağı var idi. Öz zəhməti ilə ailəsini dolandırmaq istəyirdi. Ruhani silkinə aid olan insanların dindən öz məqsədləri üçün sui-istifadə etmələri onun heç də xoşuna gəlmirdi. Bununla bağlı, o öz narazılığını da gizlətmirdi və ona görə də, ruhanilərin qəzəbinə tuş olmuşdu. Axund Səməd məhz buna görə onun ölümünü arzulayırdı və buna görə də şahlıq taxtına çıxmaq üçün onun namizədliyini irəli sürürdü.

M.F.Axundov əsərinin qəhrəmanının obrazını yaradanda fərqli bir üsula əl atmışdır. Əgər povestdəki Şah Abbas və onun vəzir-vəkillərinin obrazları tarixi prototipləri ilə müqayisədə mənfi tiplədirsə, Yusif Sərrac isə əksinə. Bu obraz əsərin müsbət qəhrəmanıdır, onun prototipi isə Axund Səməddən, sərdar Zaman xandan və digərlərindən heç də fərqlənməyən fırıldaqçı, əyri yollarla yaşamağı xoşlayan bir dərviş idi. Həmin dərviş Şah Abbasın hakimiyyəti illərində Yusifi Tərkəşduz (oxlar qoyulması üçün qab tikən) kimi tanınırdı.

Şah Abbas sarayının əyanlarının, mənsublarının və Şah Abbasın çox inandığı münəccimlərinin fikrincə, Yusifi Tərkeşduz öz əməlləri ilə, dini dəyərlərə qarşı etiqadsız münasibətinə görə çox ciddi cəzaya layiq idi. Belə bir fikir mövcud idi ki, Yusifi Tərkeşduz elə özü kimi etiqadsız keyfiyyətlərə malik dərviş Xosrov adlı birisi tərəfindən haqq yolundan azdırılmışdı. "Tarixi aləm arayi Abbasi" əsərində Xosrovun kim olması, nə ilə məşğul olması və Yusifi Tərkeşduzu da necə öz tərəfinə cəlb edə bilməsi haqqında müxtəsər məlumat mövcuddur.

Tarixdən bəllidir ki, Şah Abbasın yerinə üç günlüyə Səfəvi taxt-tacına sahib olmuş Yusifi Tərkeşduzun "ustadı" dərviş Xosrov Qəzvinin Dərb-Kuşək məhəlləsinin yaramaz xasiyyətli sakinlərindən biri idi. Onun əcdadları quyuqazan olmuşdular. Bu peşə Xosrovun xoşuna gəlmirdi və o, daha asanlıqla pul qazanmaq yolunu axtarırdı. Ona görə də Xosrov qələndərlik və dərvişlik libasına büründü və özünü xalqa belə tanıtmağa başladı. O, bir müddət Qəzvindən də uzaqlaşdı, bəzi təriqətlərlə əlaqəyə girdi, axtarışında olduğu müəyyən təcrübəni əldə etdi və sonra yenidən Qəzvinə döndü. Xosrov bir məscidin kənarında özünə kiçik bir yer tapdı və həmin yeri özünün dərvişlik mərkəzinə çevirdi. Burada dərviş Xosrov yanına gələn insanlara özünəməxsus öyüd-nəsihət verir və dərvişliyini başqalarına qəbul etdirirdi. Cəhalət içərisində olan adamlar arasında onun səsinə səs verənlər də tapılır və beləliklə, onun ətrafında toplaşanların sayı da artırdı. Xosrovun təbliğ etdiyi dəyərlər heç də düzgün etiqada uyğun deyildi və ona

görə də üləma və etiqad sahibləri onun danışdıqlarını qəbul etmirdilər. Hətta bu üləma və ruhanilər şəhər sakinlərinə Dərviş Xosrovun moizələrinə qulaq asmağı qadağan etmişdilər. Dərviş Xosrova eyni zamanda məscidə daxil olmaq da qadağan edilmişdi. Onun haqqında yayılan söz-söhbət hətta Şah Abbasın babası Şah Təhmasibə də gedib çatmışdı. Ona verilən məlumata görə, şəhər əhalisi arasında kifayət qədər məşhur olan Dərviş Xosrovun söhbətləri və əməlləri məzhəbə zidd idi. Şah Təhmasib də onu yanına çağırdı və apardığı söhbətlə bu dərvişin əqidəsinin nədən ibarət olduğunu aydınlaşdırmağa çalışdı. Dərviş Xosrov özünü şah qarşısında kifayət qədər təmkinli apardı, şəriət, şiə məzhəbi və islami dəyərlər haqqında şahın yanında şübhə və etiraz doğurmayacaq söhbətlər etdi. Sonra Dərviş Xosrov onun haqqında söylənilənlərin doğru olmadığını da şah qarşısında əsaslandırmağa cəhd göstərdi. Şah Təhmasib onun danışdıqlarında islama zidd bir fikir görmədiyi üçün azad buraxdı. Amma göstəriş verdi ki, Dərviş Xosrova məsciddə yer verilməsin, cəhalət içərisində olan insanelaların onun ətrafına toplaşmasının qarşısı alınsın (36).

Dərviş Xosrov bu qərardan özünəməxsus nəticə çıxardı və özünü nisbətən təmkinli aparmağa çalışdı. O, ruhanilərin xoşuna gəlməyən söhbətləri dayandırdı, fiqh elmini öyrənmək üçün üləma və fazil insanların yanına getdi, cümə günləri şəhər əhli ilə birlikdə məscidlərdə namaza dayandı və kimsənin iradına səbəb olmayacaq normal həyata döndü. Ona görə onun haqqında aparılan söz-söhbətlərə də bir ara son qoyuldu. Bir müddətdən sonra Dərviş Xosrov evinə yaxın olan bir məsciddə məskən saldı və öz əvvəlki fəaliyyətini, söz-söhbətlərini yenidən davam etdirməyə başladı. Aqibətsiz və avara həyat sürən bir dəstə adam yenidən onun yanına ayaq açdı. Bu dərviş Şah Abbasın taxta çıxmasına qədər bir neçə il həmin məsciddə vaxt keçirdi. Dərviş Xosrov o məscidin yaxınlığında bir təkyə də tikməyə başlayaraq, onun binasını qaldırdı. Məhəllə camaatı da ona kömək etdi, olduqca gözəl təkyə və bağça yaradıldı, Dərviş Xosrov da oraya köçdü. Onun evində hər gün növbənöv xörəklər bişirilir və insanlara paylanırdı. Müəyyən

vaxtlarda küçə və məhəllələri seyr edib sadə insanların vəziyyətini öyrənən Şah Abbas da Dərviş Xosrovun fəaliyyətindən xəbər tutmuşdu və hərdən bir dərvişin yanına gedib onunla söhbət edirdi. Dərviş Xosrov bir gün eşidəndə ki, Şah Abbas yaxınlıqdadır və onun təkyəsi ilə tanış olmaq fikrindədir, dərhal küçəyə qaçdı, təzim etməklə şahı qarşıladı və şahı öz təkyəsinə gətirdi. Sonralar da Şah Abbas rəiyyətin vəziyyəti ilə tanış olmaq üçün şəhər küçələrinə çıxanda Dərviş Xosrovun da təkyəsinə baş çəkərdi. O bəzən dərvişin əqidəsini öyrənmək üçün onunla söhbət edir, dərvişanə tərzdə allahşünaslığı onun nəzərində cilvələndirməyə çalışırdı. Dərviş isə şah ilə olduqca ehtiyatla davranır, şəriətin xilafına danışmırdı. Şah Abbas bu dərvişlə görüşməyə başlayanda Yusifi Tərkeşduz da artıq onun ətrafına toplaşanlar arasında idi. O da dərvişlik yolunu tutmuşdu və Dərviş Xosrovun əqidəsinin təbliğatçılarından biri idi. Yusifi Tərkeşduz Şah Abbasla görüşlərdə də iştirak etmişdi və bu zaman da Dərviş Xosrov əməllərinin fəal təbliğatçısı kimi Şah Abbasın diqqətini cəlb etmişdi. Şah Abbasın Dərviş Xosrova qarşı diqqəti saray əyan və əmirləri tərəfindən də təkrarlanırdı. Onlar da Dərviş Xosrovun təkyəsinə ayaq açır, ona pul və digər əşyalar bağışlayırdılar. Bu isə Dərviş Xosrovun daha da məşhurlaşmasıma təkan verirdi və onun ətrafına toplaşan "müridlərin" sayı da artırdı (37).

Yusifi Tərkeşduz ilə Şah Abbas arasında da müəyyən münasibətlər yaranmışdı. Yusifi hətta Şah Abbas üçün ox qabları da tikərdi və hər dəfə bu ox qablarını Şah Abbasa bağışlayanda onun tərəfindən yaxşı hədiyyələr alardı. Dərviş Xosrov da Şah Abbasın mülayim münasibətindən həvəslənərək özünün sirlərini ona açmaqdan çəkinmirdi. Ona elə gəlirdi ki, söhbətlərinə qulaq asdığı üçün artıq Şah Abbas da onun müridləri arasındadır. Bir dəfə Dərviş Xosrov cəsarət edərək Şah Abbasa özünün rəhbərliyi altında 50 min nəfər döyüşkən müridin olması haqqında məlumat çatdırdı. Bu dərviş onu da dedi ki, bu qədər müridlə o istəsə dünyanı da çevirə bilər. Başqa bir dəfə isə Dərviş Xosrov cəsarətə gələrək Şah Abbasdan ona qarşı mövqe tutmuş üləma və ruhanilərin cəzalan-

dırılmasını istədi (38). Şah Abbas onun bu söylədiklərini təmkinlə dinləyirdi və hətta imkan da verirdi ki, o öz sirlərini və ürəyindən keçənləri açıb söyləsin. Bu isə onun Dərviş Xosrov barəsində fikrinin aydınlaşmasına yol açırdı.

Şah ehtiyat edirdi ki, Qəzvində olmadığı vaxtlarda Dərviş Xosrov hansısa təxribatları törədə bilər. Ona görə də Şah Abbas Dərviş Xosrovun neytrallaşdırılması haqqında əmr verdi. Bu əmrə əsasən Məlikəli sultan Çarşıbaşının rəhbərliyi altında yüz nəfərlik bir dəstə ayrıldı. Məlikəli sultana tapşırıldı ki, sakit şəkildə Dərviş Xosrovun təkyəsi mühasirəyə alınsın, onun özü və bütün müridləri həbs edilsin (39).

Məlikəli sultan da dəstəsi ilə Dərviş Xosrovun təkyəsini sakitcə mühasirəyə aldı. Sonra Dərviş Xosrovun yanına yollandı və bildirdi ki, ona qiymətli bir xələt gətirmişdir. Dərviş Xosrov heç nədən şübhələnmədən ayağa qalxdı ki, Məlikəli sultanın boxçadan çıxardığı qəbanı çiyninə alsın. Məlikəli sultan əlində həmin qəba dərvişə yaxınlaşdı və güclü bir yumruq zərbəsi ilə onu vurub yerə yıxdı. Dərhal da dərvişin əl-qolu bağlandı. Bundan sonra bayırda hazır vəziyyətdə dayanan silahlı döyüşçülər təkyənin daxilinə gəldilər, təkyə daxilində olan müridlərin bir hissəsinin həyatına son qoydular. Müridlərin bir hissəsi isə həbsə alındı. Yusifi Tərkeşduz da həbsə alınanlar arasında idi (40).

Çox güman ki, Yusifi Tərkeşduz da qətlə məhkum ediləcəkdi. Amma şah Qəzvinə qayıtdıqdan sonra səmada quyruqlu ulduzun müşahidə edilməsi və bu ulduzun taxt-tac üçün yarada biləcəyi təhlükə ətrafında söhbətlər ortaya düşdü. Münəcimmlər, əmir və əyanlar tərəfindən təklif olundu ki, Şah Abbas üç gün müddətinə hakimiyyətdən əl çəkəcəyi halda yerinə elə Yusifi Tərkeşduzu şah elan eləsinlər (41).

Beləliklə, 1593-cü il avqust ayının 5-8-i arasında Şah Abbas hakimiyyətdən əl çəkdi. Bununla bağlı bir mərasim də keçirildi. Həmin mərasim Şah Məhəmməd Xudabəndənin hakimiyyətdən əl çəkməsini bəyan etdiyi və Şah Abbasın da taxta çıxmasının rəsmiləşdirildiyi salonda baş tutdu. Şah Abbas öz əli ilə şahlıq tacını

Yusifi Tərkeşduzun başına qoydu və onun şah olması bütün saray əhlinə elan edildi. Ona qiymətli paltar geydirildi, cins at bağışlandı və səltənətin idarəçiliyi ona tapşırıldı. Carçılar vasitəsilə Yusifi Tərkeşduzun şahlıq taxtına çıxması bütün şəhər əhlinə də çatdırıldı. Həmin üç gün ərzində Yusifi Tərkeşduzun səltənət idarəçiliyini neçə həyata keçirməsi barəsində, onunla saray mənsubları arasındakı münasibətlərin necə olması haqqında mənbələrdə yetərincə məlumat yoxdur. Heç şübhəsiz ki, onun şahlığı zahiri bir şahlıq oldu və səltənətin idarəçiliyi də mövcud olan təcrübə üzərində davam etdirildi. Mənbələrdə olan kəsad məlumatdan görunür ki, Şah Abbas doğrudan da səltənət idarəçiliyi işlərindən əl çəkdi və üç gün ərzində bu işlərə müdaxilə etmədi. Bildirilir ki, o hətta yaxınları ilə birlikdə Qəzvini də tərk etdi (42). Üç gün keçdikdən sonra Şah Abbas yenidən taxta çıxdı və şahlığını bərpa edib Yusifi Tərkeşduzun qətli barəsində fərman verdi. Dərhal da bu fərman icra edildi və Yusifi Tərkeşduz dar ağacından asılmaqla qətlə yetirildi (43).

M.F.Axundov əslində, əsərin qəhrəmanı olan Yusif Sərracın obrazını iki prototipin taleyi üzərində qurmuşdu. Başına gələnlər baxımından onun prototipi yuxarıda haqqında danışılan Yusifi Tərkeşduzdur. Daşıdığı ideyalar, dünyagörüşü, həyata və insanlara baxışı baxımından isə Yusif Sərracın simasında M.F.Axundov Şah Abbasın hökmdarlığını canlandırmağa çalışmışdır. Doğrudur, real həyatda Şah Abbas Yusif Sərracdan daha güclü xarakterə malik idi. Çünki Şah Abbas hökmdarı olduğu imperiyanın qorumaq, onu möhkəmləndirmək üçün sərt tədbirlərə də əl atmalı olur və səltənəti qanlı müharibələrə hazırlamaq məcburiyyəti qarşısında qalırdı. Yusif Sərrac isə yumşaq, humanist təbiətli bir insandır və yalnız səltənət təbəələrinin həyatının yüngülləşdirilməsi haqqında düşünür. M.F.Axundovun qəhrəmanı həm də islahatçıdır, yaşadığı həyatı dəyişmək, daxilində olduğu orta əsr ənənələri çərçivəsini aşmaq, insanlara yeni nəfəslik açmaq arzusundadır. Bu istiqamətdə müəyyən qətiyyət də göstərməyə cəhd edir. Yusif Sərrac onun üçün qurulan tələdən xəbər tutmasına baxmayaraq, öz xarak-

terini ortaya qoyur və yaşadığı cəmiyyətin dəyişdirilməsi üçün bir sıra addımlar atmaqdan, qərarlar verməkdən çəkinmir. Yusif Sərracın islahat aparmağa çalışdığı məsələlər, əslində M.F.Axundovun yaşadığı zəmanənin naqisllikləri idi. Yusif Sərracın apardığı islahatlara toxunmaqla M.F.Axundov heç şübhəsiz ki, həm də zəmanəsi ilə Şah Abbas dövrünün müqayisəsini aparırdı və gizlicə də olsa Şah Abbasa öz rəğbətini duydururdu.

Yusif Sərracın islah etməyə çalışdığı mühüm məsələlərdən biri cəmiyyətdə rüşvətxorluğun aradan qaldırılması idi. Şah Abbas da bu naqisliyin mövcudluğu ilə barışmırdı. Doğrudur, hər Novruz bayramında yerli hakimlər şaha qiymətli hədiyyələr verirdilər. Şah da bu hədiyyələri qəbul edirdi və onları xəzinəyə dövriyyə etdirirdi. Həmin hədiyyələr də sonradan elə səltənət işləri üçün istifadə olunurdu. Ayrı-ayrı böyük məmurların rüşvətxorluğa qurşanmasını isə Şah Abbas qəbul etmirdi və bu məsələdə hətta öz yaxınlarına belə güzəştə getmirdi. Bu baxımdan Qəzvin hakiminin rüşvətxorluğa görə cəzalandırılması nümunə ola bilər. Bu vəzifəni Şah Abbasın bacısının nəvəsi icra edirdi. Şah Abbas insanlardan rüşvət almasına görə onu çox ciddi cəzalandırdı, onun burnunu və qulağını kəsdirdi. Sonra da boynuna ağır bir zəncir asdırdı. Bu zəncir ömrünün sonuna kimi onun boynunda qalmalı, rüşvət almağın günahını ona və onun ətrafındakılara xatırlatmalı idi (44).

Yusif Sərracın islah etmək istədiyi məsələlərdən biri vergi və maliyyə məsələləri idi. Bu məsələləri islah etməklə Yusif Sərrac zəhmət adamlarının, fəqir-füqəranın həyatını və dolanışığını yüngülləşdirmək istəyirdi. Povest müəllifinin yazdıqlarından da belə aydın olur ki, səltənət daxilində insanlardan alınan vergilərin sayı çox idi və bu da onların həyat şəraitini xeyli ağırlaşdırırdı. Povestdə bu vergi növlərinin bir çoxlarının adları da çəkilmişdi. Doğrudan da elə Şah Abbasın hakimiyyəti illərində də insanlardan alınan müxtəlif vergilər var idi. Amma onların çoxu ənənəvi vergilər idilər və onları heç də Şah Abbas təsis etməmişdi. Lakin o hər zaman çalışırdı ki, bu vergiləri yumşaltsın, insanlara vergi güzəştləri tətbiq etsin, bu və ya digər vergiləri ləğv etsin. Onun tərə-

findən vergilərin ləğv edilməsi halları haqqında mənbələrdə maraqlı məlumatlar da mövcuddur. İsgəndər bəy Münşi əsərinin bir yerində bu barədə belə yazırdı: "...o həzrət Allah bəndələrinə doğru uzanan zülm əllərini ölkələrdən uzaqlaşdırdı, rəiyyəti çoxsaylı divan vergisindən azad etdi. Birincisi, İraq [vilayətindəki] hər sürü üzərinə qoyulan on beş min İraq tüməni məbləğinə yaxın "sərgəlle" vergisini sahibinə bağışladı ki, bu da İranın mərkəzində yerləşən və bu əbədi əsaslı səltənətin mərkəzi olan İraq mülkünün əhalisinə böyük bir töhfə olmaqla başqa yerlərin əhalisinə nisbətən böyük imtiyaz oldu. İkincisi, mübarək ramazan ayında [o həzrət] bütün məmləkətlərin şiələrini divan vergilərindən azad etdi. Divan məmurlarının əmælləri səbəbindən təxminən iyirmi min tümənə çatan bir vergini və bütün ölkələrin ehdas vergisini rəiyyətlərə bağışladı ki, onlar məhz taət və ibadət ayı olan mübarək ramazan ayında divan işçilərinin tələblərindən azad olundular ki, həqiqi məbuda öz bəndəlik borclarının yerinə yetirilməsinə başlasınlar. O, həzrətin şərafətli xisləti həmişə yoxsul insanların varlanmalarına meylli olmuşdur. [Həmçinin] onun diqqəti daim hökmranlığı altında olan ölkələrin bütün əhalisinin sərvət sahibi olmaları və yoxsulluqdan yaxa qurtarmalarına yönəldilmişdir. O həzrət dövrün gərdişindən pis dolanan bir neçə əyan-əşrafın qayğısına qalaraq, onlara xasseye-şərifə sərkarından rəsül-mal köməyi edir ki, həmin məbləği məişətlərinin yaxşılaşmasına yönəltsinlər, güzəranlarını asudəliklə keçirsinlər, sələmçilərin qarşısında məzəmmət altında qalmasınlar. O həzrət kasıb şiələrə dəfələrlə köməklik göstərdi, sədəqə payladı, əvəzindəsə savaba çatdı" (45).

Belə nümunələrin sayı isə çox idi. Məsələn, 1599-cu ildə, Xorasan üzərinə hərbi yürüşü uğurla başa vurub geri qayıtdıqdan sonra İraq əhalisi (Qəzvinlə Xorasan arasındakı ərazilər) (46) vergilərdən azad olundu. 1607-ci ildə Şah Abbas Ordubad əhalisinin vergilərinin ləğvi ilə bağlı da bir fərman imzaladı (47). 1607-ci ildə Dərbənd əhalisi də Şah Abbasın fərmanı ilə vergilərdən azad edildi (48). Şah Abbasın vergilərin ləğv edilməsi və güzəşt tətbiq edilməsi ilə bağlı imzaladığı fərmanlardan biri 1613-cü ilə aiddir.

Həmin ilin Novruz bayramını Şah Abbas İsfahanda qeyd etdi. Bu bayram çox təntənəli şəkildə keçirildi və bayram şənliklərinin təşkilində İsfahan sakinləri də yaxından iştirak etdilər. Bayram şənliklərinin insanlara daha böyük sevinc gətirməsi üçün Şah Abbas həmin il İsfahan ərbablarını və rəiyyətini üç il müddətində malucihat və onda bir vergilərindən azad etdi. Bu vergilərin ümumi məbləği 15 min İraq tüməninə bərabər idi (49).

1616-cı ilin Novruz bayramı günləri Şah Abbas İsfahan sakinlərinin vergilərinin bağışlanması haqqında başqa bir fərman imzaladı. Həmin ildə kənd adamları məhsul qıtlığı ilə üzləşməli olmuşdular. Onların qarşılaşdığı çətinliklərin yüngülləşdirilməsi üçün Şah Abbas vergi güzəşti edilməsi haqqında fərman verdi. Fərmana əsasən, İsfahan əhalisinin divan vergisi ləğv olundu, divan torpaqlarında çalışan insanlardan alınan onda bir vergisi də bağışlandı. Bu güzəştlər insanlar tərəfindən məmnunluqla qarşılandı. Çünki bu güzəştlərin tətbiqi onların qarşılaşdığı sıxıntını da aradan qaldırmağa kömək etdi (50).

1616-cı ilin ramazan ayında isə Şah Abbas daha böyük və daha geniş kütləni əhatə edən vergi güzəştləri haqqında fərman imzaladı. Yeni və daha geniş vergi güzəştlərinin tətbiq edilməsi ilə bağlı İsgəndər bəy Münşi öz əsərində belə yazırdı: "Xeyirli işlər icraçısı, səxavət və ehsan rəmzi Allahın parlaq nur şüarına qərq olan əlahəzrət zilləllah şah [onda olan] asimani ilham və rəbbani kömək sayəsində ayların ən mübarəki olan ramazan "ramazan ayı elə bir aydır ki, onda Quran nazil olmuşdur" ramazan ayında... divana hər il ödənilən bir aylıq xərac, icarə və daşınmaz əmlak vergilərini İran məmləkətlərinin bütün şiələrinə sədəqə etdi ki, onlar bir aylıq divan ödənclərindən azad olsunlar, bu mübarək ay ərzində tələbkarların zülm əlləri onların tabeliyindəki adamların yaxasından uzaqlaşdırılsın, heç kəs ulduzlara dikilən gözlər kimi miskin dehqanların məhsuluna göz zilləməsin, geniş əkin sahələrinin əkinçiləri vergiyığanlardan arxayın olsunlar və vergiyığanlar məhsullara həsrət gözü ilə baxmasınlar, əhali qoy bu mübarək ayı başa vurub, aləmlər Pərvərdigarının taət və ibadəti ilə məşğul

olsun. Bu haqda məhrusə məmləkətlərə mərhəmət təsirli məktublar göndərildi. Ən böyük bəxşişlərdən olan bu bəxşiş başqa sədəqə və bəxşişlərə əlavə olundu. Həmçinin, qanun üzrə ali səbt dəftərlərində qeydiyyata götürülən, baş vermiş hadisələrin istintaqına və günahkarın cəzalandırılmasına yönələn, amma ötən illər ərzində sabiq ədalətli sultanlar tərəfindən bilməyərəkdən göz yumulan və daruğələr vasitəsilə özbaşına olaraq təkrar-təkrar yığılan şübhəli ehdas vergisinin yığılmasına da diqqət yetirildi. Dəftərdə yazılanlara diqqət yetirən əlahəzrət zilləllah şah ona xas ali xasiyyətlə bu məsələyə diqqət yetirdi və divan mühasiblərinə xəbərdarlıq etdi. Onların hamısı bu tapşırığı qanuniləşdirdilər, o həzrətə dua və səna etdilər. [Beləliklə] hər iki vergi növünün götürülməsi məhrusə məmləkətlərdə və hümayun sərhədlərdə elan olundu, bildirildi ki, əzəmətli mustövfilər məhrusə məmləkətdə tiyuldarlar və onların vəkilləri tərəfindən həyata keçirilən və işlənməkdə olan təxminən otuz min tümənə-şahiye-İraqi məbləğində olan pulu dəftərlərdən pozsunlar və həmin məbləğ etibardan düşmüş sayılsın, [dəftərlərdə] dəyişikliklər edilsin" (51).

Qeyd etmək lazımdır ki, bu vergi güzəştlərinin əksəriyyəti Şah Abbasın şəxsi mülklərindən əldə edilən gəlirlər hesabına həyata keçirilirdi. Povestin əvvəlində şah qarşısında danışan vəzirlər xəzinənin doldurulması yollarından gen-bol danışmaqla Şah Abbasın var-dövlət həvəskarı olması haqqında təsəvvür yaratmağa çalışırlar. Oxucu üçün də onların dedikləri məntiqli sayıla bilər. Çünki var-dövlət toplanması, xəzinə doldurulması şərq hökmdarlarının çoxunun təfəkküründə xüsusi yer tuturdu. Amma real həyatda Şah Abbas tamamilə fərqli xarakterə malik idi. Şah Abbas bəlkə də dünya hökmdarları arasında ən səxavətli bir hökmdar idi. Onun şəxsi mülklərindən gələn gəlirlərin əksər hissəsi xeyriyyəçilik işlərinə xərclənirdi.

1607-ci ildə Şah Abbas Səfəvi dövləti tarixində bənzəri olmayan bir qərar qəbul etdi və əmlakının çox böyük bir hissəsini on dörd məsumun (islam peyğəmbəri, onun qızı və on iki imam) xeyrinə vəqf etdi. Bu o demək idi ki, vəqf olunan mülklərdən əldə

edilən gəlirlər bütünlüklə on dörd məsumun məqbərələrinin saxlanmasına, bu məqbərələrdə ziyarətlərin təşkilinə, ziyarətçilərə ehsan verilməsinə, ziyarətgahlarda xidmət edən din xadimlərinin, digər xidmət əhlinin məvaciblərinin ödənməsinə, ziyarət məkanlarında dini mərasimlərin keçirilməsinə, mədrəsələrin saxlanmasına, islam müqəddəslərinin savabına yönələcək xeyriyyəçilik və digər tədbirlərin keçirilməsinə sərf olunmalı idi. "Bu il, [çöhrəsində] qeyb surətlərinin şölə saçdığı və bişübhə incəliklər gözünün parlatdığı ali şahın məsləhəti belə oldu: Həmişə o həzrətin xeyir amallı vəziyyətinə yardım edən Allah fərmanlarının və asiman təsdiqinin göstərişlərinə əməl etdiyi üçün [şah] qərara aldı ki, bütün xassə əmlak və xassə vəsaitini müqəddəs on dörd məsum həzrətlərinə vəqf etsin. O, həmin mülkləri özünün gündən-günə çoxalan hakimiyyəti müddətində öz şəri əmlakına çevirmişdi və onların düzgün hesablanmış qiyməti yüz min tümən şahiye-İraqi məbləğindədir, ziraətə sərf olunmuş hissə çıxdıqdan sonra orta hesabla yeddi min tümənə yaxındır, həmçinin həmin əmlak, o cümlədən cənnətnişan [İsfahanda] inşa etdiyi ali binalar, qeysəriyyə, İsfahanın Nəqşe-cahan meydanının ətrafındakı dörd bazar və hamamlar on dörd məsum əleyhüssəlama vəqf olundu. Mülkiyyətin ən aşağı hasilini müəyyənləşdirib, onları aşağıdakı təsnifatla on dörd hissəyə ayırdılar: qoy birinci hissə ikincidən, ikinci hissə üçüncüdən, üçüncü hissə dördüncüdən artıq olsun. Həmçinin on dördüncü hissəyədək bu işi davam etdirdilər ki, birinci hissə Məhəmməd peyğəmbərə – ona və sülaləsinə salam olsun – aid edildi və on dördüncü hissə isə əmr sahibi olan [imam Mehdiyə] – ona salavat olsun – şamil olundu" (52).

Şah Abbasın səxavəti nəticəsində onun ulu əcdadı olan Şeyx Səfiəddin ziyarətgahında gündə üç dəfə min nəfərdən artıq insana ehsan yeməyi verilirdi (53). Bu qədər sayda gündə üç dəfə ehsan verilməsi Şeyx Səfiəddin ziyarətgahına vəqf edilmiş mülkiyyətdən toplanan vəsait hesabına həyata keçirilirdi.

İsgəndər bəy Münşi də öz əsərində Şah Abbas tərəfindən vəqf edilmiş mülkiyyətin qiymətinin təsəvvürə gəlmədiyi haqqında ya-

zırdı. O bildirilirdi ki, dünya şahlarının başı var-dövlət toplamağa qarışdığı halda Şah Abbas könüllü şəkildə öz əmlakını islam müqəddəslərinin ruhuna vəqf edirdi: "Bu qədər mülkiyyətin vəqf olunması insan təfəkküründən olduqca uzaqdır, hərçənd ki, keçmiş zamanlarda bəzi şahlar bir çox xeyriyyə işlərinin baniləri olmuşlar, amma məlum deyildir ki, indiyədək heç bir keçmiş şah, şəhriyar, taxt-tac sahibi belə yüksək səadətə yetişmiş olsun. Tərki-dünya olmayan və təcərrüd nəşəsinə dalmayan insanlar surəti deyil, mənanı qəbul edirlər, hərçənd ki, var-dövlət aləminin bəzi zahirpərəstləri ağıldan kəm insanlardır və məna bazarından bəhrələnməmişlər" (54).

Şah Abbasın öz hakimiyyəti dövründə əldə etdiyi böyük uğurlardan biri heç şübhəsiz ki, haqq və ədalətin bütün səltənət hüdudlarında bərqərar edilməsi, səltənət insanlarının dinc və asudə həyat əldə etməsi idi. M.F.Axundovun əsərinin qəhrəmanı Yusif Sərracın da məqsədi məhz bu idi. Şah Abbasın hakimiyyəti dövründə səltənətin ucsuz-bucaqsız yollarında qanunçuluq bərqərar edildi, ticarət karvanlarına qarşı talançı basqınlar aradan qaldırıldı, qanunu pozanları ciddi cəzalara layiq gördü, ticarət yollarında haqqı pozulanların haqqını bərpa etdi. Səltənət daxilində heç vaxt görülmədiyi qədər dinc, sakit, asudə həyat yaradıldı. İsgəndər bəy Münşi yazırdı ki, "Onun cəzasının qorxusu və ədalətinin icrası təsirindən qurdla quzu birgə yaşayır, müxalif və müvafiq adamlar eyni fərş üstündə yatır, bir-birlərinə zərər yetirmirlər" (55).

M.F.Axundovun qəhrəmanı olan Yusif Sərracın oxucu diqqətini cəlb edən cəhətlərindən biri onun zəngin mənəvi keyfiyyətə malik olması idi. Şah Abbas da bu keyfiyyəti ilə fərqlənirdi. Bu barədə çoxlu sayda faktlara istinad etmək olar. İsgəndər bəy Münşi yazırdı ki, Şah Abbas dövlətə sədaqətlə xidmət edən insanlara qarşı şəfqətli və mərhəmətli idi, səltənət maraqları üçün canlarından keçənlərin haqlarını hər zaman qoruyurdu, din və dövlət yolunda şəhid olanlar Şah Abbas tərəfindən hərtərəfli qayğı altına alınırdı. Onun yazdıqlarından aydın olur ki, şəhid olanların ailə üzvləri onların güman etdiklərindən də artıq dərəcədə qayğı ilə

əhatə olunurdular. Əslində şəhid ailələrinin üzvləri kömək üçün Şah Abbası axtarmırdılar. Şah Abbas özü onları axtarırdı və onlara lazım olandan da artıq kömək göstərirdi (56).

Yusif Sərracın səltənət daxilində həyata keçirmək istədiyi islahatlardan biri də geniş tikinti və abadlıq işlərinin aparılması və bu işlərin insanların xidmətinə gətirilməsi idi. M.F.Axundovun yazdığına görə, "...sonra buyurdu ki, xirac məbləği mötədil miqdaradək təxfif tapsın və əmr etdi ki, hər yerdə yollar təmir olunsun və lazım məqamlarda və mənzillərdə körpülər və karvansaralar tikilsin və hər vilayətdə şəfaxanələr qayrılsın və mədrəsələr açılsın və susuz yerlərə su çıxarılsın. ...Qəzvinin küçələri genəlsin və içində hər yerdə zahir olan quyular örtülsün ki, gəlib-gedənlər onlara düşməkdən məhfuz olsunlar".

Şah Abbasın hakimiyyətinin əvvəlində yalnız Qəzvin deyil, səltənətin bir çox şəhərləri belə xoşagəlməz vəziyyətdə idi və həmin şəhərlərdə tikinti-abadlıq işlərinin aparılmasına böyük ehtiyac var idi. Bu ehtiyacın aradan qaldırılması üçün Şah Abbas tarixdə iz salacaq möhtəşəm işlər gördü. Onun təşkilatçılığı ilə aparılan tikinti və quruculuq işləri hətta kitablara sığmayacaq qədər çoxdur. Səfəvi hüdudlarındakı ərazilərdə bu günə qədər gəlib çatmış və dünya memarlıq inciləri sayıla biləcək əzəmətli tikililərin çoxu məhz Şah Abbasın hakimiyyəti illərində meydana gəlmişdi. İsgəndər bəy Münşinin əsərində bu tikililərin yalnız adlarının sadalanması bir neçə səhifəyə də sığmamışdır. Yalnız Qəzvində Şah Abbas tərəfindən aşağıdakı işlər görülmüşdü: "Qəzvin darüssəltənəsi: Dövlətxana dərgahı, İmarəte-nov adlanan və iki təbəqədən ibarət olan zərnigar bir xəlvətxana, həmçinin ali bir karvansara və Səadət meydanının şərq və qərb səmtlərindəki imarətləri də [o həzrət] inşa etmişdir" (57).

Şah Abbas Yusif Sərracın arzuladıqlarından daha yüksək səviyyədə qurub-yaratmışdı. Onun rəhbərliyi altında Xəzər sahillərində Fərəhabad adlı ayrıca şəhərlər salınmışdı, bu şəhərə aparan yollara daş döşənmişdi, əzəmətli binalar tikilmişdi. Paytaxt İsfahana köçürüldükdən sonra bu şəhərə uzaq yerlərdən su çəkilmişdi,

yeni qəsəbələr salınmışdı. Bu gün dünya memarlığının incisi sayıla biləcək İsfahan şəhəri də öz memarlıq gözəlliyi ilə Şah Abbasın şəhərsalma istedadının və ilhamının çox dəyərli bir nümunəsi sayılmalıdır. İsfahan şəhərinin layihələndirilməsi, tikilməsi, memarlıq baxımından tamamlanması Şah Abbasın islam dünyasının və bəşəriyyətin mədəniyyət tarixinə bənzərsiz bir xidmətdir. Mütəxəssislər də gizlətmirlər ki, bu şəhərin memarlığında türk ənənələrindən irəli gələn xətt açıq şəkildə hiss olunmaqdadır. Yəni Şah Abbasın türk ruhu İsfahan şəhərinin memarlığına da hopmuşdu

"Tarixi aləmarayi Abbasi" əsəri ilə tanışlığı olan M.F.Axundov sözsüz ki, Şah Abbasın gördüyü bu işlərdən xəbərsiz deyildi. Ona görə onun Yusif Sərracın dilindən səsləndirdiyi fikirlər yəqin ki, Azərbaycana aid olan fikirlər idi və əyalət diyarı kimi Azərbaycanın gözdən-nəzərdən uzaq qalması ilə bağlı M.F.Axundov narahatçılığı Yusif Sərrac dilindən səsləndirilmişdi.

M.F.Axundovun qəhrəmanı Yusif Sərracın başlamaq istədiyi geniş islahatlar həyata keçməmiş qaldı. Yusif Sərracın yalnız ona imkanı çatdı ki, ideyalarını həyata keçir biləcək insanları iş başına gətirdi, səltənətin mühüm vəzifələrinə işgüzarlığına bələd olduğu insanları təyin etdi. Taxta çıxarılmasından cəmi bir həftə sonra Yusif Sərrac yoxa çıxdı. Yazıçı onun taleyi barəsində konkret fikir açıqlamır. Şah Abbas isə 41 il hakimiyyətdə oldu və bu müddət ərzində M.F.Axundovun arzusunda olduğu islahatları bəlkə də təsəvvür ediləndən də daha yüksək səviyyədə həyata keçirdi. Yusifi Tərkeşduza gəlincə isə, yuxarıda deyildiyi kimi, onun şahlıq taxtında olması cəmi üç gün çəkdi. Həmin günlər ərzində onun tərəfindən hər hansı bir xeyirxah iş görülməsi haqqında mənbələrdə məlumat mövcud deyil. Yəni Yusifi Tərkeşduz Yusif Sərrac qədər xalqı və səltənət maraqlarını düşünən bir insan deyildi.

Povestin sonunda hər şey əvvəlki vəziyyətə qayıdır. Şah sarayının yarıtmaz vəzir-vəkilləri öz vəzifələrinə bərpa olunurlar. Yusif Sərracın aparmaq istədikləri islahatlar da öz-özünə aradan qalxır. Belə sonluq heç şübhəsiz ki, çar məmurlarının diqqətinin

yayındırılması, senzura təqiblərindən qaçılması üçün seçilmişdi. Əvəzində isə müəllif öz düşüncələrini və ideyalarını oxucusuna çatdıra bilmişdi. Onun qəhrəmanı olan Yusif Sərrac Azərbaycan ədəbiyyatında demokratik islahat təmsilçilərinin ən yaxşı və mübariz obrazı sayıla bilər. Bu obrazın müsbət prototipi olan Şah Abbas isə Azərbaycan xalqının yetişdirdiyi ən qüdrətli, yaradıcı, xeyirxah dövlət xadimi kimi tarix boyu yaşayacaqdır.

İstifadə olunmuş mənbə və ədəbiyyat

1. Məmmədov X. XIX əsr Azərbaycan ədəbiyyatı. CBS poliqrafiya, 2006, s. 158
2. Musayev Ş. Mirzə Fətəli Axundzadə: Mühiti, müasirləri ilə əlaqələri və yeni tipli ədəbiyyat yaradıcılığı. Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2021, s. 51
3. Axundov M.F. Əsərləri. II cild, Bakı, Elm nəşriyyatı, 1988, s. 240
4. Bax: Qasımzadə F. M.F.Axundovun həyat və yaradıcılığı. Bakı, Azərnəşr, 1962, s. 262
5. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi. (Tarixe-aləmaraye-Abbasi). Tərcümə edən Şahin Fazil. Bakı, "Şərq-Qərb" Nəşriyyatı, 2010, s. 884-887
6. "Aldanmış kəvakib" povestinə olan istinadlar üçün bax: "Mirzə Fətəli Axundov. Əsərləri. I cild. Bakı, Elm nəşriyyatı, 1987, s.209-243
7. Dünyanı bəzəyən Abbasın tarixi, s. 824; Flor V. Divan və qoşun dər əsr-e Səfəvi s.59.
8. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1393-1304
9. Yenə orada, s. 1304-1310
10. Yenə orada, s. 1310-131
11. Yenə orada, s. 1359-1360
12. Yenə orada, s. 1928
16. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1929-1930

17. Kırzıoğlu M. Osmanlıların Kafkas ellərinin fəthi. İstanbul, 1953, s. 356
18. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1475; Astrabadi S.H. Əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1366, s. 199
19. Dünyanı bəzəyən Abbasın tarixi, II kitab, s. 1671
20. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1841-1842
21. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, Tehran, 1391, s. 225
22. Qüdyani A. Tarix, fərhəng və təməddon-e İran dər dövre-ye Səfəviyyə. Tehran, 1387, s.124; Ağacəri S.H. Müqəddəme-i bər münasibət-e din və dövlət dər əsr-e Səfəvi, s.244
23. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab. Tərcümə edən – Şahin Fərzəliyev. Bakı, 2014, s. 1924-1925
24. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. C.I, s. 491; Ağacəri S.H. Müqəddəme-i bər münasibət-e din və dövlət dər əsr-e Səfəvi, s. 236
25. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1134
26. Conabedi M. Rövzətüs-səfəviyye. Tehran, 1378, s. 772
27. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı. Doktora tezi. Ankara, 2011, s. 79.
28. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1598
29. Münşi, İsgəndər bəy. Tarixi aləmarayi Abbasi, s. 28(səhifə aşağısındakı qeyd); Cəfərian R. Səfəviyye dər ərse-ye din, fərhəng və siyasət. I cild. Qum, 1379, s. 109; Novruzi C., Ramazani Ş. Elәl-e təamolat-e sәlatin-e Səfəvi ba oləma-ye şiə və nətayec an, s.124 //Pəjuheşname-ye tarix-e islam, N-19, 1394, s. 119-148
30. Dalkıran S. İran Safevi devletinin kuruluşuna şii inancların etkisi ve Osmanlının İrana bakışı, s. 84

31. Abadian H., Bitərfan M.Təhlil-e məbani-ye məşruiyyət və naməşruiyyət-e nəhad-e səltənət əz didqah-e əsr-e Səfəvi, s. 13// Pəjuheşname-ye tarix-e islam, N-10, 1392, s.5-34
32. Dalkıran S. İran Safevi devletinin kuruluşuna şii inancların etkisi ve Osmanlının İrana bakışı, s. 92
33. Cəfərian R. Səfəviyye dər ərse-ye din, fərhəng və siyasət. I cild. Qum, 1379, s. 111
34. Nəsiri İ., Əminə H. Nəqş-e üləma və daneşməndan-e əsr-e Səfəvi dər qostəreş-e fərhəng şiə, s.10// Fəsilname-ye elmi-pəjuheşi-ye Məskuye, N-13, 1389, s. 1-18
35. Parsadust M. Şah Abbas-e əvvəl. C.I, Tehran, 1388, s. 512
36. Dünyanı bəzəyən Abbasın tarixi, s. 883; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 422; Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı, s. 95
37. Dünyanı bəzəyən Abbasın tarixi, s. 884; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 422-423
38. Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 423
39. Yenə orada, s. 424
40. Yenə orada
41. Dünyanı bəzəyən Abbasın tarixi, s. 885
42. Astrabadi S.H. Əz Şeyx Səfi ta Şah Səfi. Tehran, 1366, s. 160
43. Astrabadi S.H. Əz Şeyx Səfi ta Şah Səfi, s. 160; Fəlsəfi N. Zendeqani-ye Şah Abbas-e əvvəl. Cild əvvəl, s. 425; Belan L. Zendegi-ye Şah Abbas, s. 96
44. Blou D. Şah Abbas. Tehran, 1390, s. 194
45. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi. I kitab, s. 683-684
46. Миклухо-Маклай Н.Д. К вопросу о налоговой политике в Иране при Шахе Аббасе (1587-1629), с. 349
47. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1302
48. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1323

49. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1542; Миклухо-Маклай Н.Д. К вопросу о налоговой политике в Иране при Шахе Аббасе (1587-1629), с. 352
50. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1583; Миклухо-Маклай Н.Д. К вопросу о налоговой политике в Иране при Шахе Аббасе (1587-1629), с. 352
51. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1598-1599
52. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1369-1370
53. Soltanian Ə., Vacarqah H.K. Bərrəsi-ye saxtar-e divani və çequnegi-ye edare-ye astanaha dər dövre-ye Səfəviyyə, s. 62//Pəjuheşname-ye tarix-e islam,N-21, 1395, s. 69-70
54. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1371
55. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi, s. 685
56. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi, s. 691-692
57. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi., s. 695

MÜNDƏRİCAT:

GİRİŞ 3

I FƏSİL 8
ŞAH ABBASIN XARİCİ SİYASƏTİ 8
1.Rusiya ilə münasibətlər 8
2.Səfəvi-hind münasibətləri 107
3. Portuqaliya və İspaniya ilə münasibətlər 186
4.İngiltərə ilə münasibətlər 268
5.Digər Avropa dövlətləri ilə münasibətlər 319
6. Elçilik heyətlərinin qarşılanmasının və qəbulunun təşkili.. 368
7. İstifadə olunan mənbə və ədəbiyyat 394

II FƏSİL..... 424
ŞAH ABBAS DÖVRÜNDƏ ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT 424
1.Şah Abbasın hakimiyyəti illərində ədəbiyyat 424
2. Şah Abbas dövründə incəsənət və elm 456
3. İstifadə olunmuş mənbə və ədəbiyyat 499

III FƏSİL 505
ŞAH SƏFİ 505
1.Səfi Mirzənin şah elan edilməsi 505
2. Gilan qiyamının yatırılması 520
3. Özbək qoşunlarına qarşı mübarizə 526
4. Osmanlı qoşunlarının Səfəvi hüdudlarına hücumu 536
5. İstifadə olunmuş mənbə və ədəbiyyat 582

IV FƏSİL 588
SƏLTƏNƏTİN MÖHKƏMLƏNDİRİLMƏSİ TƏDBİRLƏRİ 588
1.Şah Səfiniun İsfahana dönüşü 588

2. Qəzvində dərviş qiyamının yatırılması və hakimiyyət müxaliflərinə qarşı mübarizə 592
3.Müqəddəs məkanların abadlaşdırılması 599
4. Səltənətin şərq hüdudlarının müdafiəsi 602
5. Gürcüstan qiyamının yatırılması 614
6. İstifadə ounmuş mənbə və ədəbiyyat 622

V FƏSİL 626
OSMANLI-SƏFƏVİ MÜHARİBƏLƏRİ (DAVAMI) 626
1.Van qalası ətrafında döyüş 626
2. Osmanlı qoşunlarının İrəvan üzərinə yürüşü 642
3. Osmanlı qoşunlarının Bağdad yürüşü 686
4. İstifadə olunmuş mənbə və ədəbiyyat 722

VI FƏSİL 731
ŞAH SƏFİNİN DÖVLƏTÇİLİK FƏALİYYƏTİ 731
1.Şah Səfi hakimiyyəti illərində səltənətin daxili vəziyyəti ...731
2. Xarici siyasət 750
3. Şah Səfinin dünyasını dəyişməsi 775
4. İstifadə olunmuş mənbə və ədəbiyyat 778

NƏTİCƏ 783

Kitaba əlavə: 788

M.F.Axundovun "Aldanmış kəvakib"i və Şah Abbas həqiqətləri (ədəbi-tarixi təhlil) 788

Nəşriyyat direktoru: İsmayıl Nərimanoğlu

Kitab hazır depozitivlərdən istifadə edilərək
“Maarif” nəşriyyatında çap edilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin “Maarif” Dövlət
Tədris Pedaqoji Ədəbiyyatı nəşriyyatı

Çapa imzalanmışdır: 31.11.2023
Kitabın formatı: 60x84 1/16.
Həcm: 52 ç.v.

Ünvan: Mətbuat prospekti, 529-cu məh.

832